**Telman NÜSRƏTOĞLU – Əkbər N.NƏCƏF**

# TÜRK DÖVLƏTLƏRİ VƏ MƏDƏNİYYƏTLƏRİ TARİXİ

ÇAPAR
**Bakı – 2024**

| | |
|---|---|
| Elmi redaktor: | tarix elmləri doktoru., prof. Kürşad Yıldırım |
| Rəyçilər | tarix elmləri doktoru., prof. Habil Məmmədov<br>tarix elmləri doktoru., prof. Nəsiman Yaqublu<br>filologiya elmləri doktoru Sevda Axundova<br>t.ü.f.d. Söhrab Mustafayev<br>t.ü.f.d. Bayram Quliyev |
| Naşir: | Yusif İlhamoğlu |
| Redaktor və korrektor: | Sahil Sərxanlı |
| Qapaq dizayneri: | Xəyal ya da Tamerlan |
| Səhifələyici: | "Çapar yayınları" |

**Telman Nüsrətoğlu, Əkbər N.Nəcəf,**
***Türk dövlətləri və mədəniyyətləri tarixi,***
**"Çapar yayınları", 1128 səh., Bakı 2024**

Kitab XX əsrin əvvəllərinə qədər ümumi türk tarixini əhatə edir. Əsər türk tarixinə yeni nəzəri baxış verməklə qədim, orta əsrlər və müasir dövrdə türk mədəni münasibətləri haqqında bir sıra elmi müddəalar və tezisləri əks etdirir.

Kitab ixtisas müəllimləri, universitet tələbələri və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Xəzər Universitetinin 7 iyul 2023-cü il tarixində keçirilən Elmi Şurasının 3/22-23 saylı iclasının qərarı ilə dərs vəsaiti olaraq çap olunmuşdur.

ISBN: 978-9952-20-162-8

"Çapar" yayınları 55
© "Çapar" yayınları, 2024

## İÇİNDƏKİLƏR

ÖN SÖZ ..........11

*Birinci fəsil*: **TÜRK DÜNYASI** ..........17
- 1.1. Məkanlar ..........18
- 1.2. Ata yurdları ..........26
- 1.3. Qayaüstü təsvirlər ..........32
- Əlavə oxu
  - I.I. Ədəbiyyat ..........36
  - I.II. Türk tarixinin mənbələri ..........36
  - I.III. Suallar ..........39
  - I.IV. Tapşırıqlar ..........39
  - I.V. Terminlər ..........39

*İkinci fəsil:* **TÜRK KİMLİYİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ** ..........41
- 2.1. Kosmik dünya anlayışı ..........42
- 2.2. Köç hüququ ..........52
- 2.3. Süvari (atlı) kimliyi ..........56
- 2.4. Soy və kün (xalq) nizamı ..........61
- Əlavə oxu
  - II.I. Ədəbiyyat ..........65
  - II.II. Türk dastanları ..........65
  - II.III. Suallar ..........78
  - II.IV. Tapşırıqlar ..........78
  - II.V. Terminlər ..........78

*Üçüncü fəsil:* **TARİXƏ GİRİŞ** ..........80
- 3.1. Türk tarixi və mədəniyyəti haqqında nəzəriyyələr ..........81
- 3.2. Ən qədim türklər ..........94
- 3.3. Skiflər ..........98
- 3.4. Boy-el təşkilat sistemi ..........108
- Əlavə oxu

III.I. Ədəbiyyat ........................................................113
III.II. Qədim kimliklər ............................................113
III.III. Sual ...............................................................113
III.IV. Tapşırıqlar .......................................................114
III.V. Terminlər ........................................................114

*Dördüncü fəsil*: **HUN DÜNYASI** .......................................116
4.1. Hun kimliyi ...............................................................117
4.2. Böyük Hunlar ............................................................119
4.3. Qərb hunları ..............................................................124
4.4. Hun dövlətləri ...........................................................138
4.4.1. Kaylar (Siyenbilər) ..................................................139
4.4.2. Tabqaçlar ...............................................................143
4.4.3. Yüeçilər və Quşanlar ...............................................145
4.4.4. Qızıl hunlar, ağ hunlar, kidara hunları ........148
4.4.5. Qara hunlar ...........................................................152
4.4.6. Qafqaz hunları .......................................................163
4.4.7. Eftalitlər .................................................................166
4.5. Abarlar (Ju-juan) .......................................................176
4.6. Avarlar .......................................................................181
4.7. Sabirlər ......................................................................194
4.8. Sullar və bayandurlar ................................................199
4.9. Hun dövlət nizamı ......................................................203
4.9.1. El ..........................................................................204
4.9.2. Yabqu ....................................................................207
4.9.3. Xatun .....................................................................209
4.9.4. Kəngəş ..................................................................210
4.9.5. Din ........................................................................211
4.9.6. Dil və ədəbiyyat ......................................................219
Əlavə oxu
IV.I. Ədəbiyyat ..............................................................223
IV.II. Suallar ..................................................................223
IV.III. Tapşırıqlar ...........................................................223
IV.IV. Terminlər .............................................................223
IV.V. Tayfa və ya boy adları ............................................226



IV.V.1. Hun boyları ..........................................................226
IV.V.2. Oqur/Oğur tayfaları .............................................. 227
IV.V.3. Çincə mənbələrdə tayfa və sülalə adları ............................................................................... 227
IV.V.4. Qədim türk təqvimi ...............................................229

*Beşinci fəsil*: **QƏDİM TÜRK DÜNYASI** ..........................231
5.1. Göytürklər ..................................................................232
5.1.1. Birinci Göytürk xaqanlığı ..........................................235
5.1.2. Şərqi Türk xaqanlığı *(582-630)* ................................239
5.1.3. Qərbi Türk xaqanlığı *(582-631)* ...............................245
5.1.4. İkinci Göytürk xaqanlığı ...........................................252
5.2. Türk mədəniyyəti .........................................................261
5.2.1. Türk eli və xalqı .......................................................261
5.2.2. Türk dili, ədəbiyyatı və kitabələri .............................264
5.2.3. Türk şəhərləri ..........................................................274
5.2.4. İpək yolu .................................................................287
5.3. Türk xaqanlıqları ........................................................294
5.3.1. Türgiş/Türkişlər .......................................................295
5.3.2. Basmıllar ................................................................ 303
5.3.3. Qarluqlar .................................................................305
5.3.4. Qırğızlar ..................................................................307
5.3.5. Tiginlər ....................................................................309
5.3.6. Kiməklər ..................................................................311
5.4. İlkin Oğuz dövlətləri ....................................................315
5.4.1. Oğurlar ....................................................................316
5.4.2. Töleslər ...................................................................318
5.4.3. Uyğurlar ..................................................................320
5.4.4. Oğuzlar ................................................................... 327
5.5. Xəzəryanı türk dövlətləri ..............................................333
5.5.1. Xəzərlər ...................................................................333
5.5.2. Peçeneqlər ...............................................................346
5.5.3. Torklar və ya Uzlar .................................................. 351
5.5.4. Bərəndeylər ............................................................. 354
5.5.5. Qıpçaqlar ................................................................ 356

Əlavə oxu
V.I. Ədəbiyyat ........ 366
V.II. Suallar ........ 366
V.III. Tapşırıqlar ........ 366
V.IV. Terminlər ........ 366
V.V. Hökmdarlar ........ 368

*Altıncı fəsil*: **MÜSƏLMAN TÜRKLƏR** ........ 370
6.1. Türk dini həyatı ........ 371
6.2. İslam ........ 388
6.2.1. Müsəlmanlaşma ........ 389
6.2.2. İlk müsəlman dövlətləri ........ 392
6.3. Müsəlman-Türk kimliyi ........ 395
6.4. Müsəlman-Türk dövlətləri ........ 404
6.4.1. İdil Bulqar xaqanlığı ........ 405
6.4.2. Qaraxanlılar ........ 409
6.4.3. Tulunilər ........ 417
6.4.4. İxşidilər ........ 420
6.4.5. Sacilər ........ 422
6.4.6. Simcurilər ........ 424
6.4.7. Qəznəvilər ........ 425
6.5. Oğuzlar və Türkmənlər ........ 434
Əlavə oxu
VI.I. Ədəbiyyat ........ 440
VI.II. Suallar ........ 440
VI.III. Tapşırıqlar ........ 440
VI.IV.Terminlər ........ 440
*Yeddinci fəsil*: **SƏLCUQLAR** ........ 447
7.1. Səlcuqlu oğuzları ........ 449
7.2. Səlcuqlu dövlətləri ........ 453
7.2.1. Böyük Səlcuqlu dövləti ........ 457
7.2.2. Azərbaycan Səlcuqlu dövləti ........ 477
7.2.3. Kirman Səlcuqlu dövləti ........ 483
7.2.4. Suriya Səlcuqlu dövləti ........ 489
7.2.5. Anadolu Səlcuqlu dövləti ........ 494



7.2.6. İraq Səlcuqlu dövləti ........ 508
7.3. Səlcuqlu atabəylik sistemi ........ 517
7.4. Ülüş sistemi ........ 519
7.5. Səlcuqlu dövlət sistemi ........ 523
7.6. Səlcuqlu idarəçiliyi ........ 528
7.7. Səlcuqlu iqtisadi həyatı və şəhərləri ........ 531
7.8. Səlcuqlu mədəniyyəti ........ 538
Əlavə oxu
VII.I. Ədəbiyyat ........ 551
VII.II. Suallar ........ 551
VII.III. Tapşırıqlar ........ 552
VII.IV. Terminlər ........ 552

*Səkkizinci fəsil*: **SƏLCUQLU DÜNYASI** ........ 555
8.1. Oğuz siyasət ənənəsi ........ 556
8.2. Azərbaycan Atabəyləri – Eldənizlər ........ 560
8.3. Mosul Atabəyləri – Zəngilər ........ 573
8.4. Xarəzmşahlar ........ 587
8.5. Anadolu türk dövlətləri ........ 598
8.5.1. Danişməndlilər ........ 599
8.5.2. Məngücüklər ........ 601
8.5.3. Saltuqlular ........ 604
8.5.4. Artuqlular ........ 606
8.5.5. Ərmənşahlar ........ 609
8.6. Əyyubilər ........ 613
8.7. Hindistan türk dövlətləri ........ 621
Əlavə oxu
VIII.I. Ədəbiyyat ........ 635
VIII.II. Suallar ........ 635
VIII.III. Tapşırıqlar ........ 635
VIII.IV. Dehli türk sultanlığının hökmdar sülalələri siyahısı ........ 636

*Doqquzuncu fəsil*: **MOĞOLLAR VƏ TÜRKLƏR** ........ 638
9.1. Moğol kimliyi və istilalarının mahiyyəti ........ 641

9.2. Cuçi ulusu ....................................................................656
9.3. Cığatay ulusu ...............................................................668
9.4. Hüləgü ulusu ................................................................684
9.5. Teymurlular ...................................................................693
9.6. Cəlairlər ........................................................................706
9.7. Qaraqoyunlular ..............................................................710
9.8. Ağqoyunlular .................................................................723
9.9. Volqaboyu xanlıqları .....................................................731
9.10. Anadolu bəylikləri .......................................................737
9.11. Türk-Moğol sosial-iqtisadi və mədəni münasibətləri ....................................................................................741
Əlavə oxu
IX.I. Ədəbiyyat ..................................................................766
IX.II. Suallar .......................................................................766
IX.III. Tapşırıqlar ..............................................................767
IX.IV. Terminlər .................................................................767
IX.V. Tayfa ittifaqları ..........................................................768

*Onuncu fəsil*: **TÜRKLƏRİN DÜNYA HAKİMİYYƏTİ** .770
10.1. XVI əsr türk dünyasında ictimai-mədəni münasibətlər ......................................................................................771
10.2. Məmlüklər ...................................................................787
10.3. Qızılbaşlar ...................................................................802
10.4. Osmanlılar ...................................................................821
10.5. Baburlar .......................................................................842
10.6. Şeybanilər və Özbəklər ...............................................856
10.7. Juzlar: Qazaxlar və Qırğızlar ......................................862
10.8. Əfşarlar və Qacarlar ....................................................867
Əlavə oxu
X.I. Ədəbiyyat .....................................................................873
X.II. Suallar ..........................................................................873
X.III. Tapşırıqlar ..................................................................874
X.IV. Terminlər ....................................................................874

*On birinci fəsil*: **TÜRKLƏRİN ŞƏHƏR MƏDƏNİYYƏTİ** ....................................................................................878
11.1. Türklərin şəhər anlayışı ..............................................879
11.2. İşquz (skif) sənətkarlığı və türk şəhərsalma tarixinin kökləri ...........................................................................884
11.3. Qədim türk paytaxtı – Ötükən ....................................890
11.4. Göytürk xaqanlıq mərkəzi – Minbulaq .......................895
11.5. Qaraxanlı paytaxtı – Balasaqun ..................................897
11.6. Müsəlman Şərqin mərkəzi – Buxara ..........................900
11.7. Müsəlman-türk mədəniyyətinin beşiyi – Kaşğar ...................................................................................... 911
11.8. Sultan şəhərlər: Qəznə, Mərv, Xarəzm və Həmədan ...................................................................................915
11.9. Azərbaycan şəhərləri ...................................................930
11.10. Şəhrəngizlər – Anadolu şəhər ədəbiyyatı ..................960
11.11. Suriyada türk qalası – Hələb ....................................966
11.12. İdilin incisi – Kazan ..................................................973
Əlavə oxu
XI.I. Ədəbiyat ......................................................................978
XI.II. Terminlər ....................................................................978

*On ikinci fəsil*: **TÜRK DÜNYASINDA ZEHNİYYƏT DƏYİŞMƏSİ VƏ MÜASİRLƏŞMƏ** ...............................982
12.1. Qərb anlayışı ...............................................................983
12.1.1. Qərb təsəvvürünün qavranılması ...........................986
12.1.2. İşğal və istismar ......................................................988
12.2. Modern kimliyin formalaşması ...................................996
12.2.1. Cədidçilər və qədimçilər ........................................1002
12.2.2. Milli-dini birlik anlayışları .................................... 1018
12.3. Türkçülük və milli dövlətlərin qurulması ........ 1027
Əlavə oxu
XII.I. Ədəbiyyat ................................................................ 1050
XII.II. Suallar .................................................................... 1051
XII.III. Tapşırıqlar ............................................................. 1051

**AÇIQLAMALI MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT SİYAHISI** ........ 1052
I. Mixi yazılı kitabələr ........ 1053
II. Antik dövr mənbələri ........ 1055
III. Qədim türkcə mənbələr ........ 1057
IV. Qədim çincə mənbələr ........ 1069
V. İslam mənbələri ........ 1074
VI. Səlcuqlu dövrü mənbələri ........ 1078
VII. Moğol dövrü mənbələri ........ 1085
VIII. Teymurlu, Ağqoyunlu və Qaraqoyunlu mənbələri ........ 1090
IX. Səfəvi dövrü mənbələri ........ 1095
X. Əfşar-Qacar dövrü mənbələri ........ 1104
XI. Orta Asiya mənbələri ........ 1107
XII. Məmlüklü mənbələri ........ 1110
XIII. Osmanlı mənbələri ........ 1113
XIV. Türk tarixi haqqında ümumi tədqiqat əsərləri ........ 1119





# ÖN SÖZ

İnsanlıq tarixinin mühüm mərhələsini və parçasını təşkil edən türk dövlətləri və xalqlarının tarixi, onun müxtəlif dövrləri, aspektlərilə bağlı cildlərlə kitablar yazılmış, dünyanın çox sayda universitetlərində bu dərin və mürəkkəb tarixi öyrənən onlarla kafedralar, araşdırma mərkəzləri qurulmuşdur. Heç şübhəsiz, türklərin əsrlərə və haradasa dünyanın bütün bölgələrinə yayılan bu uzun, keşməkeşli və heyranlıq doğuran fəaliyyətlərinin mərkəzində sərt dalğalar, çətin sınaqlar qarşısında sönməyən istiqlal eşqi, dövlət ağlı vardır. Dövlət qurmaq, cəmiyyət həyatını tənzimləyərək gələcəyinə yön verən müxtəlif müəssisələr inşa etmək, onları dəyişən şərtlər qarşısında yenilməyərək yaşadacaq ölçüləri tapıb müəyyənləşdirmək üçün millətlərdən hər zaman fikir, düşüncə, elm insanları yetişdirəcək potensiala malik olması tələb olunur.

Məlumdur ki, türk dillərində *mədəniyyət* kəlməsilə yanaşı *kultura* kəlməsi də işlədilir ki, bu termin latınca

*cultura*dan gəlir. *Culture* latın dilində əkin sahəsi mənasından törəmiş bir termindir. Kəlmə insan zəkası və elminin inkişafı, mədəni-fikri nailiyyətin ucaldılması anlamında ilk dəfə Volter *(François-Marie Arouet; 1694–1778)* tərəfindən istifadə edilmiş, fransızcadan alman dilinə keçərək XVIII əsrin sonlarında tərtib edilən bir almanca lüğətdə günümüzdəki mənasını almışdır. Ziya Göyalp *(Ziya Gökalp; 1876–1924)* kültür və mədəniyyət terminlərini qiymətləndirərkən, kültürü (osmanlıca *hars*) milli mənada, mədəniyyəti isə ümumbəşəri mahiyyətdə izah edib.

Türk xalqlarının dövlətçilik və mədəniyyət tarixi bütün türk boylarının dünyanın müxtəlif ərazilərində meydana gətirdiyi müştərək tarixdir. Əslində bu tarix geniş zaman dilimində Avrasiya xalqlarının da tarixidir. Rus türkoloq Vasili Bartoldun *(Василий Владимирович Бартольд; 1869–1930)* da ifadə etdiyi kimi, heç bir millətin tarixini türklər olmadan yazmaq mümkün deyildir. Çünki türklər demək olar ki, dünyanın əksər bölgələrinə hökm etmiş, yayılmış, başqa millətlərin də tarixi kimliyinin formalaşmasında misilsiz rol oynamışdılar. Türk milləti ümumbəşər mədəniyyətinə böyük töhfə verən, başqalarının model olaraq ehtiyac duyduqları dərin və köklü mədəni proseslərin qurucuları və daşıyıcıları olmuşdur.

Təəssüf ki, son bir neçə yüz ilini böyük siyasi-mədəni böhranlar və təzyiqlər altında keçirən bir çox türk xalqları kimi insanlıq tarixini şəkilləndirən bu nəhəng tarixi kimliyin ən önəmli təmsilçilərindən olan Azərbaycan türklərinin tarixi öz həqiqətlərindən qoparılaraq öyrənilmiş, Sovet dövrünün ideoloji-tarixi paradiqması çərçivəsinə salınaraq öz fikri və mədəni qəliblərindən çıxarılmış, millət tarixi yerinə insanımıza obyektivlikdən uzaq, fərqli siyasi-mədəni platformalara xidmət edən dar bir bölgəyə bağlı məhdud tarix hafizəsi təqdim edilmişdir. Azərbaycan tarixçiliyinin önündə duran ən başlıca məsələlərdən biri də məhz məcrası dəyişdirilməyə çalışılan çayların, dənizlərin istiqamətini



türk tarix okeanına döndərmək, əsrləri titrədən o böyük yürüşlə gələcək nəsilləri tanış etmək, mədəniyyətimizin qədimliyini, ehtişamını, ən mühümü də mahiyyətini olduğu kimi meydana çıxarmaqdır.

Türklər qədim çağlardan günümüzə maddi-mənəvi dəyərlər arasında mükəmməl tarazılıq quraraq dünya tarixində əzəmətli dövrlər yarada bilmişdir. Əlbəttə, Asiya, Avropa və Afrika qitələrinə yayılaraq, müxtəlif tarixi dövrlər ərzində insanlıq tarixinin ən qüdrətli imperiyalarını meydana çıxarmış, mübaliğəsiz qeyd edə bilərik ki, bu gün dünyada söz sahibi olan aparıcı millətlərin cəminin sayı qədər dövlətlər qurmuş, müxtəlif dinlər, inanclar, etnik kimliklərlə tanış olaraq onlarla siyasi-iqtisadi, mədəni alış-veriş həyata keçirmiş, Rusiyadan Avropaya bir çox xalqın milli tarixində qalıcı izlər buraxmışdır. Belə bir millətin qurduğu dövlətləri, inanc sistemini, orduları, sosial həyatı, müəssisələri, ədəbiyyat və incəsənəti, əl sənətlərini, simvollar dünyasını, icadları, insanlığın elmi inkişafına verdikləri töhfələri, ümumilikdə bütün tarixini bir əsərə sığdırmaq əlbəttə çox çətin məsələdir. Bu səbəblə də zaman-zaman xülasələr verərək, mühüm istiqamətləri ön plana çıxararaq bu nəhəng tarixi dövrlərlə bağlı oxucuda müəyyən təsəvvürlər formalaşdırmağa çalışdıq.

İslamdan əvvəl hazırkı Monqolustan, Sibir, Altay-Ural, Avropa, Çin və Türküstanda, İslamın qəbul edilməsilə birlikdə Anadolu və Azərbaycan ərazisi mərkəz olmaqla Hindistan, İran, Əfqanıstan, Şərqi Avropa, Balkanlar, Qafqaz, Rumeli, İraq, Suriya, Misir, Şimali Afrika türk dövlətlərinin uzun sürən hakimiyyət sahəsində yer almışdır. Yuxarıda da işarə etdiyimiz kimi, İslamdan əvvəlki dövr Hun və Göytürk xaqanlıqları, İslam sonrası dövrdə Səlcuqlu, Səfəvi, Məmlük, Osmanlı kimi türk dövlətlərinin tarixi öyrənilmədən dünya tarixini də yazmaq müşkül məsələdir. Hindistan sultanlıqları və Baburlar xaric edilərək Hindistan tarixinin yazılmasının mümkün olmayacağı kimi,

qıpçaqlar, xəzərlər, Qızıl Orda, onun davamı kimi hazırkı Rusiya ərazilərinin mühüm bir hissəsinə hökm etmiş olan türk xanlıqları və Teymurlu dövləti olmadan Rusiya tarixini yazmaq mümkün deyildir.

Məşhur fransız tarixçi Jan Pol Runun *(Jean-Paul Roux; 1925–2009)* sözləri ilə desək, insanlıq tarixinin içindən türklərin tarixini çıxarsaq, dünya tarixi boş qalacaqdır. Sadəcə türklərin İslam dinini qəbul etdikdən sonra meydana çıxardıqları böyük müsəlman dövlətlərinin xoşgörü siyasəti və fəthlər yolu ilə geniş ərazilərdə müsəlmanlığı yaymaları, elm və maarifi inkişaf etdirmələri, geniş bölgələrin düşüncə dünyası üzərində əmələ gətirdikləri təsirlər, ilkin müsəlman-ərəb mənbələrində türklərlə bağlı qənaətlər, onların çoxşaxəli fəaliyyətləri haqqında verilən məlumatlar, ancaq Azərbaycanın coğrafi arealında qurulmuş müsəlman-türk dövlətlərilə bağlı yüzlərlə əsər qələmə alınmışdır. Yenə geniş qitələrdə əsrlər boyu hakimiyyətini davam etdirən, təsiri və hakimiyyət arealı baxımından, ancaq Roma imperiyası ilə müqayisə edə biləcəyimiz Osmanlı dövlətinin yaratdığı müəssisələri, mədəniyyət mirasını əhatə etmək bir neçə tədqiqat əsərinin mövzusudur.

Nə qədər çətin olsa da, bu geniş və dərin tarixi 11 fəslə sığdıraraq, mümkün olduğu qədər xülasə xarakterli məlumatlar verərək tələbələrimizin qənaətlərinin düzgün şəkillənməsinə, bütövlük anlayışı içində türk tarixini qavramalarına kömək etməyə çalışdıq. Hər fəslin sonunda əlavə oxu üçün tövsiyə etdiyimiz əsərləri, mövzu ilə bağlı sualları, tapşırıqlar və istifadə edilən terminlərin izahını da qeyd etməyi uyğun gördük. "Mükəmməlliyin sərhədi olmaz" düsturuna görə yol verilən texniki xəta və ya nöqsanların da anlayışla qarşılanması diləyilə kitabın gənclərimizin milli tarix şüurunun doğru formalaşmasına töhfə verəcəyini ümid edirik.

Əsər iki müəllif tərəfindən yazıya alınsa da, mümkün qədər vahid nəzəri bir baxış və üslub üzərindən mövzulara,



hadisələrə və fikirlərə yanaşma ortaya qoyulmağa çalışıldı. Müəlliflər böyük nisbətdə türk tarixi haqqında Qərb və Sovet tarixşünaslığında formalaşan nəzəri və metodik qəliblərdən sıyrılaraq, türk xalqlarının tarixi ruhuna və kimliyinə uyğun bir baxışı elmi müstəviyə gətirərək hadisələrə yanaşdıqları iddiasını daşıyırlar. Əsərin sonunda açıqlamalı bir mənbəşünaslıq verilməklə mövzu ilə ətraflı maraqlanmaq istəyənlər üçün bir istiqamət təyin etməyə çalışılmışdır.

Dərsliyin hazırlanması fikri mənim tərəfimdən dilə gətirilsə də, əziz dostum Əkbər N.Nəcəfi də kitabın yazılmasına cəlb edərək "Türk dövlətləri və mədəniyyətləri tarixi" haqqında ümumi bir mətn ərsəyə gətirməyə çalışdıq. Əsərin yazılması müəlliflərə görə aşağıdakı şəkildə bölüşdürüldü:

Telman Nüsrətoğlu – 1, 6, 7, 11, 12 və Son (Açıqlamalı mənbələr);

Əkbər N.Nəcəf – 2, 3, 4, 5, 8, 9, 10-cu fəsillər.

Əsərdə istifadə edilən bəzi təsviri vasitələr və xəritələrin hazırlanmasına görə tədqiqatçı Məhəmməd Verdiyevə *(d.1987),* redaktə və korrektə işlərinin görülməsinə görə Sahil Sərxanlıya (*d.1991*) təşəkkürlərimizi bildiririk.

***Telman Nüsrətoğlu***
***Bakı, 2023.***



*Türklərin ata yurdu və köç yolları*

*Birinci fəsil*

# TÜRK DÜNYASI



# 1.1. MƏKANLAR

Tarix boyu türklərin yaşadığı ərazilər müxtəlif şəkillərdə adlandırılıb. Hazırda türklərin yaşadığı ərazilər Orta Asiya, Volqaboyu, Qafqaz, Anadolu, İran və Şərqi Türküstan olaraq, əsasən coğrafi bölgülərə uyğun adlar daşıyır. Qədim dövrlərdən günümüzə qədər bu yerlər müxtəlif xalqların və mədəniyyətlərin ifadəsində fərqli şəkillərdə adlandırılıb. Qeyd edilən ərazilərə bütöv mənada verilən ilk ad qədim yunan və latındilli əsərlərdə *Skifiya* olaraq keçir. Herodota *(Herodotus e.ə.484–e.ə.425)* görə, Skifiya ərazisi Krımdan başlayıb şərqə doğru uzanırdı.

Qədim Pers-Pəhləvi mətnlərində və orta əsr farsca ədəbi əsərlərdə həmin bölgəyə Turan, Tur ölkəsi, Əfrasiyab (Alp Ər Tonqa) yurdu kimi adlar verilib. Müsəlman müəllifləri isə, əsasən türk məmləkətləri (*məmaliki-tərakimə*), Xəzər diyarı kimi adlar işlədiblər. XIX əsrdə bu geniş ərazi üçün Türküstan adı ön plana çıxmağa başladı. Ancaq bu ad 1920-ci ildən sonra Sovet tarixşünaslığında



istifadə olunmadı, onun yerini Orta Asiya və Mərkəzi Asiya terminləri aldı.

Qədim Çin mənbələri türklərin yaşadığı əraziyə *Hsü-yü* adını vermişdilər. Mənası "Qərb torpaqları" olan bu coğrafi ad dar mənada Altaydan Aral gölünə qədər əraziləri, yəni indiki Cənubi Qazaxıstan, Orta Asiyanın mərkəzi və şərqi, həmçinin Uyğur Muxtar Respublikasının yerləşdiyi Şərqi Türküstanı əhatə edirdi. Bu geniş ərazi yüksək dağ silsilələri, yaşıl ovalıqları, bozqırları, çölləri ilə türklər üçün ən əlverişli bölgə idi. Şərqi Türküstanın cənubunda yerləşən Qaranlıq dağları ilə Qaraqorum dağları Çinqxayın qərbindəki dağlarla, Qansu və Şansinin cənubundakı dağlara bağlanırdı. Bu ərazini Tanrı dağları cənub və şimal olaraq iki yerə kəsib keçərək mərkəz boyunca uzanır. Kunlun dağından Qaraqorum və ya Tanrı dağlarını izləyən iki yol şərqdən qərbə doğru uzanaraq Daşkurqanda birləşirlər. Hər iki dağın kəsişdiyi yerdə "dünyanın təpəsi" adlanan Pamir dağları yerləşir. Çin mənbələrində Tsunq-linq (Soğan dağları) adlanan bu yer məşhur İpək yolunun ana xəttini təşkil edir. Həmin xətt qarşısı heç bir dənizlə kəsilmədən qərbdə İslam dünyasının ortasına qədər uzanır, oradan da Avropa və Şimali Afrikaya keçir.

Pamir, Tanrı və Kunlun dağlarının təbii sərhəd təşkil etdiyi ərazinin ortasında bərəkətli Tarım çökəkliyi yer alır. Bura bəzi yaşıl vadilərilə diqqəti cəlb edən böyük çöldür. Çölün ətrafı çox sayda sulaq və otlaq yerlərilə bol yaşayış məskənlərinə sahibdir. Ərazini suları ilə yaşıllaşdıran Tarım çayı çölü qərbdən şərqə qət edərək Lop-nor gölünə tökülür. Tarımın bir hissəsini təşkil edən Turfan ovalığının kənarları yüksək dağlarla çevrələnir, ovalığın mərkəzindəki dağlar alçalaraq təpələşir, tam mərkəzə çatdıqda dəniz səviyyəsindən də aşağı düşərək böyük bir çökəklik əmələ gətirir.

Şərqi Türküstanın şimalında Altay dağları yerləşir. Altay dağları cənub-şərqdən şimal-qərbə doğru uzanaraq,

Tanrı dağları ilə arasında üçbucaq şəklində ovalıq meydana gətirir. Cunqariya ovalığı adlanan həmin ərazi bol otlu sahələrdən ibarət İrtış çayı sahillərini təşkil edir. Zaysan gölünə tökülən çay şərqdən qərbə doğru axır. Çayın suları daha sonra şimal-qərbə uzanan yolla Şimal dənizinə çatır.

Tanrı dağlarının şimal yamaclarını İli çayı sulayır. İli çayı mənbəyini Tanrı dağlarından götürür və Balxaş gölünə tökülür. İli ovalığı Yoltuz ovalığından bir dağ zolağı ilə ayrılır. Çinlilərin Je-xai adlandırdığı İssıq gölü burada yerləşir. İssıqın şimal-qərbində və Balxaşın cənubunda orta əsrlərdə türk tarixinin döyünən ürəyi olan Çu və Talas çayları ətrafındakı ərazilər yerləşir.

Tarım ovalığı şərqə doğru açılır və Qaşqarda ikiyə ayrılır. Cənubunda Yarkənd, Xotən, Keriya, Cürcan (Lon-nor) şəklində oturaq sahələri sıralanır, şimalda Kuca, Ağsu, Qaraşar kimi bərəkətli sahələr yer alır. Bölgənin ən quraq ərazisi Təkləməkan çölüdür. Oradan Qobiyə qədər uzun çöl zolağı davam edir. Quraqlıqları və soyuq qışı ilə diqqəti çəkən bölgə yerini Qobidə daş və çınqıl ərazilərə buraxır. Təkləməkan çölündə bəzən yüksəklikləri 100-150 m-ə qədər çatan təpələr var. Tarımətrafı ərazilər xaricində burada yaşıl torpaq zolağı tapmaq mümkün deyildir. İllik yağış miqdarı 5 mm olan olan Təkləməkan dünyanın ən quraq çölüdür.

Türk torpaqları bozqırları ilə məşhurdur. Xəzərin şərqindən başlayıb Cunqariyaya qədər uzanan bu bozqır sahəsi Şərqi Türküstanın şimal-şərqindən keçərək Qansudan Mancuriyaya qədər ərazini əhatə edir. Şimal bozqır sahəsi yayda isti, qışda mülayimdir. İllik yağış miqdarı 15-25 sm-dir. Ərazi türklərin ana məşğuliyyəti olan at, qoyun, keçi və dəvə saxlamaq üçün əlverişlidir. Bütün bu geniş ərazi ümumilikdə Şərqi Türküstan adlanır.

Qobiətrafı ərazilər türklərin başlıca yurdu idi. Çinə qarşı təşkil edilən bütün hücumlarda Qobi başlanğıc nöqtəsini təşkil edirdi. Sığınmaq üçün də olduqca mühüm olan



ərazi Monqolustanda yerləşir. Monqolustan dağlarında və platolarında küləyin sovurduğu qum və tozlar Çin səddi ətrafında yerləşən dağlara yapışır. Qobinin cənubunda isə Sarı çay istiqamətində Ordos çölü yerləşir. Ordosun az olan bitki örtüyü bu bölgəni heyvandarlıq üçün əlverişsiz hala gətirir.

Sarı çayın qərbində qalan ərazilər Qansu adlanır. Çincə mənbələrində *He-hsi* adlanan bölgə dilimizdə çayın qərbi mənasına gəlir. Çinlilərin Xuanxe adlandırdığı çaya türklər Sarı adını verir.

Çincə mənbələrdə Qərbi Türküstanın böyük bir hissəsi *Hsi-yü* sərhədləri içərisinə daxil edilirdi. Qərbi Türküstan ərazisini Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Tacikistan təşkil edir. Altay dağlarının ətəklərindən şərqdən qərbə doğru alçalan ərazi dağlar, vadilər, çöllər, çaylar və gölləri ilə təzadlı fiziki-coğafi görüntüyə sahibdir. Ərazisinin başlıca iki böyük çayı olan Ceyhun (Amudərya) və Seyhun (Sırdərya) bir-birinə paralel axaraq Aral gölünə tökülür. Bunlardan Seyhunun uzunluğu 1886 km, Ceyhunun isə 2350 km-dir.

Sırdərya çayı ərəbcə mənbələrdə *Sıxun* və ya *Seyxun* adlanır. Orta əsrlərdə türklər ona Qaradərya adını verirdi. XIX əsrdə Qaradərya adı çayın mənbə hissəsinə verilməyə başlandı. Çayın gövdəsinə Narin, daha qədim dövrdə isə Xaylam (*Xayrlam*) deyilirdi. Çayın Fərqanə hissəsi Miyanrudan bölgəsini təşkil edirdi.

Qədim Oğuz adlanan Amudərya çayı qaynağını müsəlman coğrafiyaçıların Vahab adlandırdığı torpaqlardan alır və qıvrılaraq Arala tökülür. Müsəlman coğrafiyaçıları Amudəryanın şimalında qalan ərazilərə Mavəraünnəhr (Mavəraənnəhr) adını veriblər. Amma Mavəraünnəhr adı XV əsrdən etibarən farsca mənbələrdə işlədilməyə başlanılıb. Ərəbcə mənbələrdə, əsasən *Mavəraül-ceyxun*, eftalitlərdə *Xaytal*, yunan və latındilli əsərlərdə isə *Transoxiana* deyilən bölgə türklər tərəfindən Çay arxası adlanırdı.

Günümüzdə iki çay arasında qalan torpaqları ifadə edən Mavəraünnəhr 660.000 km² sahəni əhatə edir. Bu geniş ərazi qədim mədəniyyətlərin yatağı olub. X əsr İslam coğrafiyaçılarının əsərlərində Buxara, Səmərqənd, Soğdiana, Uşrusana, Şaş (Daşkənd), Fərqanə, Kiş (Keş), Nəsəf (Nəhşəb), Saqanian (Çağanian), Xuttal (Xuttalan), Tirmiz, Quvarzian (Kubadian), Ahsikəs, Xarəzm (Xarzəm), Fərab, İsficab, Talas (Suyab), İlaq və Xocənd kimi geniş əyalətləri içinə alırdı.

VII əsr çinli səyyah Hsüan-Tsanq *(602–664)* bu torpaqlardan keçmiş Suyab və ya Balasaqundan etibarən bölgənin bir hissəsini təsvir etmişdir. Ona görə, İssıq gölündən 257 km şimal-qərbdə yerləşən Suyab böyük şəhər olub, çevrəsi dörbucaq formasındadır. İqlimi küləkli və soyuqdur, burada yaşayan türklər yundan toxunmuş libaslarda gəzirdilər.

İbn Hövqələ *(Əbülqasım ibn Hövqəl Nəsibi; 943–988)* görə, Mavəraünnəhr şərqdə Pamir, Rəşt və düz bir xətt üzərində yerləşən Xuttal Hind torpaqları ilə sərhəd təşkil edirdi. Bölgənin qərb hissəsini meydana gətirən Xarəzm isə Aral gölü ətrafındakı torpaqları təşkil edir və orta əsrlərdə bu göl əyalətin adı ilə *Xarəzm gölü* adlanırdı. Məsudiyə *(Əbülhəsən Əli ibn Hüseyn ibn Əli əl-Məsudi; 896–956)* görə, müsəlmanlardan əvvəl Mavəraünnəhr ərazisi *Kuşan* (*Quşan*) adlanırdı. Müsəlman coğrafiyaçılar Əbül-Fida *(əl-Məlik əl-Müəyyəd İmadəddin Əbül-Fida İsmayıl ibn Əfdal Əli ibn Mahmud; 1273–1331)* və Qəlqəşəndiyə *(Əbül-Abbas Şəhabəddin Əhməd ibn Əli əl-Qəlqəşəndi; 1355–1418)* görə, Mavəraünnəhr türklərin ölkəsi Turanın üç böyük hissəsindən birini təşkil edirdi.

Qədim türk məskənləri fiziki quruluşuna görə tundra, tayqa, bozqır, çöl və vahə (yaşıl ovalıq) sahələri şəklində ayrılırdı. Ən şimalda yerləşən tundra ərazilərində məskunlaşma seyrəkdir. Burada yaşayanlar ovçuluqla və maral saxlamaqla yaşamlarını sürdürə bilirlər. Bu dar və coğrafi cəhətdən çətin həyat imkanları bir yaşayış məskənində



ən çox 12 ailənin birlikdə yaşamasına imkan verirdi. Meşə zolağından ibarət tayqa qurşağı ovçuluq, yığıcılıq və balıqçılıq üçün əlverişli olub, burada yaşayan insanları tundradan daha yaxşı qidalandırmaq potensialına sahibdir. Tundra ilə müqayisədə bu bölgələrdə əhali nisbətən sıx idi. Bozqır, çöl və vahə sahəsi isə dünyanın ən məhsuldar torpaqlarını təşkil edirdi.

Şərqi Avropanın geniş düzənliklərinin Macarıstan ovalığına qədər uzanan hissəsini də Türk dünyasının bir parçası olaraq görmək lazımdır. Ümumilikdə, sahəsi 20 milyon km², şərqdən qərbə uzunluğu 10 000 km olan ərazini əhatə edən türk ölkələrinin cənub sərhədi Xorasan və Azərbaycan da daxil olmaqla, ox kimi Orta Şərqin içərilərinə qədər uzanırdı. Bəzən Şərqi Anadolunun da daxil edildiyi bu ərazi o zaman cənub xətti boyunca Xorasandan Cəzirəyə qədər bir yay təşkil edirdi. Məhz bu səbəbdən qədim və ilkin orta əsrlərdə Xorasan *Xaytal* (Eftalit), Azərbaycan İşqulili (Skifiya), *Xəzərya* kimi türklərlə bağlı adlar almışdı.

Türk dünyasının şərqi ilə qərbi arasında sərhədi şimaldan cənuba uzanan bol sulu İdil (Volqa) və Yayık (Ural) çayları təşkil edirdi. Hər iki çayın ətrafında geniş məhsuldar və heyvandarlıq üçün bərəkətli ərazilər yerləşirdi. Şərqdən qopub qərbə gələn böyük türk tayfaları bu yerlərdə dincəlir, təşkilatlanır, böyük bir dalğa kimi Qafqaz və Avropa istiqamətində yayılırdılar.

Bu geniş ərazini birləşdirən yeganə dəniz Xəzər idi. Türk dünyasının tam ortasında yer alan Xəzər bütün bu bölgənin taleyini həll edəcək təsirə sahib idi. Bozqır və çölü qurudan, şoranlaşdıran isti küləyin mənbəyi Xəzərdir. Böyük erroziyaya yol açan bu küləklər türklərin heyvandarlıqla məşğul olmasında başlıca səbəb idi. Çünki əkinçiliyə böyük zərər vurur və torpağın şoranlaşmasına yol açır. Şimalda şiddətli soyuqlar ucbatından torpağın donması, bataqlıqların ucsuz-bucaqsız əraziləri əhatə etməsi, üstəlik yay mövsümünün qısalığı tundra və tayqada əkinçilik

üçün əlverişsiz şərait yaradırdı. Türklərin heyvandarlıqla məşğul olmasında bölgənin iqliminin təyinedici olduğunu unutmamaq lazımdır.

Xəzərin dağlarla kəsilən sahil xətti xaricindəki ərazilər həmin isti küləklərin təsirinə məruz qalır, bu təsir qərbdə Muğanın, cənub-şərqdə Dehistandan Manqışlağa qədər ərazilərin torpaq quruluşuna şəkil verirdi.

Heyvandarlıq üçün əlverişli geniş bozqırlarda çöl bitkiləri yetişir. Uralın şimalından başlayıb Qazaxıstanın şimalı boyunca keçən, Xanqay və Kentay dağlarına qədər uzanan bu xətt qərbdə Macarıstan ovasına qədər sahəni əhatə edir. Yəni Ukrayna, Cənubi Rusiya, Qazaxıstan, Monqolustan, Cunqariya və Mancuriya ərazisi türk tayfalarının davamlı hərəkət halında olduqları böyük bozqır (çöl) qurşağını təşkil edirdi. Bu bölgədə yayda istilik 18°–20° istidən, qışda -23°–-12° soyuğadək dəyişir və ən sərt qışı Monqolustan keçirir (-27°–-25°). İllik orta hesabla 25–30 sm yağışın düşdüyü bu ərazidə nəmişlik miqdarı az olduğundan otlaq ərazilərin məhsuldarlığı məhduddur. Bu da tayfaların heyvanları ilə davamlı yer dəyişdirməsində başlıca amildir.

Tarix boyunca böyük bozqır iqlimini dəfələrlə dəyişdirmişdir. E.ə.II minilliyin əvvəllərində və ortalarında bölgə bol sulu və yaşıllıqdı. Ancaq e.ə.XIV–XIII əsrlərdə başlayan quraqlıq bir neçə əsr sonra daha da şiddətləndi. Skif köçlərinə həmin quraqlığın səbəb olduğu qeyd edilir. Belə ki, bu dövrdə Xəzər dənizinin sahəsi də kiçildi. Növbəti qlobal quraqlıqlar miladi tarixinin başladığı ərəfələrdə meydana gəldi və dünya IV əsrə qədər ağır istilərlə üzləşdi. İsti iqlim şərtləri bütün Aralıq dənizi boyunca güclü təsirlər yaratdı. Şimali Afrikanın insan gücünün azalmasında, hətta Karfagen və Misirin həm insan qaynaqlarının, həm də iqtisadi gücünün azalmasında bu amil olduqca təsirli idi. Amma eyni iqlim şərtləri Romanın inkişafına müsbət təsir etmiş, uzun əsrlər Roma imperiyasının əsgərləri dizlərinə



qədər uzanan yüngül dəri geyimlərlə kifayətlənmiş, saray və xalq isə nazik, ağ uzun örtükdən libas geyməyi tərcih etmişlər. Hətta ilk Roma orduları döyüşə yalın ayaq gedirdilər. Sonrakı dövrlərdə *kaliqa* adlanan yüngül sandallar geyinməyə başladılar.



## 1.2. ATA YURDLARI

Arxeoloji araşdırmalar zamanı əldə edilən müxtəlif əşyalar, qədim türk sənəti nümunələri, memarlıq əsərləri, mifologiya izləri və digər maddi-mədəniyyət abidələri türk mədəni kimliyinin Şimali Monqolustandan Orta Asiyaya, oradan da Azərbaycan və Anadoluya qədər geniş ərazilərdə formalaşdığını deməyə əsas verir. Qeyd edilən ərazilər Avrasiya materikinin mərkəzini təşkil edir. Bu ərazilərin iqlim və torpağın fiziki quruluşu baxımından eyni olması türklərin tarix boyunca, əsasən eyni bölgədə hərəkət halında olduqlarını təsdiq edir.

Tədqiqatçılar türklərin ata yurdunu müəyyən etmək üçün əldə edilən arxeoloji materialları əsas götürürlər. Onlara görə, türk kimliyinin ortaya çıxdığı ərazilər Altay ətrafı (Afanasyev mədəniyyəti), Türkmənistan ərazisi (Anau mədəniyyəti), Azərbaycan ərazisidir (Kür-Araz mədəniyyəti) .

**Anau mədəniyyəti**. E.ə.V minilliyi əhatə edən Anau son aparılan araşdırmalar nəticəsində insanalığın ən qədim mədəniyyətlərindən biri hesab edilir. Burada ilk arxeoloji



araşdırmalar 1904-cü ildə Rafael Pumpelli *(Raphael Pumpelly; 1837–1923)* tərəfindən aparılmışdır. Anau Türkmənistanın paytaxtı Aşqabadın 12 km şərqində yerləşib, geniş bir ərazini əhatə edir. Arxeoloqlar burada 4 mərhələ aşkarlayaraq, Anau mədəniyyətini e.ə.V minilliklə e.ə.II əsr arasında tarixləndiriblər. Anau mədəniyyəti əkinçilik ilə maldarlığın bir-birindən ayrılmağa başladığı dövr kimi də səciyyələndirilir. Burada türk damğa yazısının ilk işarələri və nümunələri əldə edilmişdir. Bəzi tədqiqatçılar Anau mədəniyyətinin tənəzzülü ilə Mesopotamiya istiqamətində ilk köçlərin başladığını və ilk köçlərin də şumerlər tərəfindən gerçəkləşdirildiyini iddia ediblər.

**Afanasyev mədəniyyəti**. Altaylarda e.ə.3000-ci illərdə oğuz tipində brakisefal ağ bir irqin yaşadığı bilinir. E.ə.2500–e.ə.1700-cü illər arasında Cənubi Sibir ərazisində təsirini daha çox hiss etdirən Afanasyev mədəniyyətinin Altay mədəniyyətindən törədiyi təxmin edilir. İdil (Volqa) ətrafı və Qərbi Sibir bölgəsində e.ə.III–e.ə.II minilliklərdə Afanasyev adı verilən bir mədəniyyət dövrü mövcud olmuşdur. Qərbdə İdil çayı ilə cənubda Altay dağları arasındakı geniş bir ərazini əhatə edən bu bölgədə yaşayan insanlar eyni mədəniyyətə mənsub olub, burada tapılan bıçaqlar, daşlardan hazırlanan ox ucları, sırğalar, iynələr, mədən sahəsində istifadə edilən alətlər türklərin atalarının ovçuluqla məşğul olduqlarını, qoyun və at saxladıqlarını, ibtidai mədənçilik sənayesində müəyyən məsafə qət etdiyini ortaya qoymuşdur.

**Andronov mədəniyyəti**. Afanasyevin davamı olan e.ə.1700–e.ə.1200-cü illəri əhatə edən, Tanrı dağlarından Yayıq (Ural) çayına qədər uzanan ərazilərdəki həyat tərzini özündə əks etdirən Andoronov mədəniyyəti hərb qabiliyyəti, əsgəri xüsusiyyətləri olduqca inkişaf etmiş, köçəri bir qövmə aiddir. Yenə daşdan düzəldilən ox ucları, qaşıqlar, xəncərlər, bəzək əşyaları ilə birlikdə ilk dəfə qızıl və tuncdan hazırlanan əşyalar da burada tapılmışdır. Alman

sinoloq Volfram Eberharda *(Wolfram Eberhard; 1909–1989)* görə, Çin ilk dəfə tunc əşyalar istehsal etməyi türklərin atalarından öyrənmiş və həmin tarixdə türklərin Çinə köçü olmuşdur. Andronov mədəniyyətində at minik və yük heyvanı olmaqla birlikdə, eyni zamanda əti yeyilən heyvandır. Atın minik heyvanı kimi istifadə edilməsi Andronov insanının dünya mədəniyyətinə bir töhfəsidir.

**Qarasuq-Taqar mədəniyyətləri**. E.ə.1300-cü ildə Yeniseyin yuxarı hissəsində formalaşmağa başlayan Qarasuq mədəniyyəti (e.ə.1300/1200–e.ə.800/700) daha çox "qonar-köçər", yəni mövsümə görə yer dəyişdirən, heyvandarlıqla məşğul olan xalqların mədəniyyətini əks etdirir. Bu mədəniyyətin yayıldığı dövr hun xalqlarının gücləndiyi dövrlə üst-üstə düşür. Hər halda bunun təsiri ilə Cənubi Sibir (Altay ətrafı) və Mərkəzi Yeniseydə *monqoloid* qruplar da geniş sahəyə yayıldılar.

Qarasuq mədəniyyətini *Taqar* mədəniyyəti (e.ə.800/700–e.ə.100) əvəzləmişdir. Bu mədəniyyətin ən böyük xüsusiyyəti atlı köçəri xalqlarla əlaqəsidir. Bu mədəniyyətin bir parçası olaraq ortaya çıxarılan məşhur *Pazırıq kurqanları* (e.ə.III əsr) hun tarixinin maddi-mədəni xüsusiyyətlərinin ortaya çıxarılmasında da qiymətli bir abidədir. Şibə kurqanı da eyni xüsusiyyətləri əks etdirməkdədir.

Sovet tədqiqatçıları bu mədəniyyətlərdən əldə edilən materiallar nəticəsində e.ə.2000–e.ə.1000-ci illər arasında Mərkəzi Asiya, Baykal gölü ətrafı və Cənubi Mancuriyada üç etno-mədəniyyətin formalaşdığını qeyd edir:

1. Qərbdə Kobdoya qədər, Şərqi Baykalın şimal-şərqinə və Cənubi Mancuriyanın cənub-şərqinə qədər uzanan ərazilərdə heyvandar və ovçu *monqol xalqları*: bunlar monqolların və tunquzların ulu babaları hesab edilir;

2. Şərqi Qazaxıstan və Qırğızıstan ilə şimal-qərbi və qərbi Monqolustanda yaşayan *avropoid xalqlar*: Onlar türklərin ulu babaları olub, xüsusilə də *tinq-linq* xalqlarını meydana gətirmişdilər;



3. Şimali Çin, həmçinin Monqolustanın mərkəz və cənubunda yaşayan kiçik xalqlar.

Bu üç etno-mədəni sahənin türk xalqlarının təsir dairəsini təşkil etdiyinə inanılır. Bu dairənin cənub-şərq qolu isə Şimali Əfqanıstan və Xorasan üzərindən Qafqaz, Anadolu və Mesopotamiyaya qədər uzanırdı. Bu geniş ərazidə yaşayan eyni və qohum etno-mədəniyyətləri bir-birinə bağlayan başqa səbəblər və mədəni əlaqələr də vardır. Onların ən diqqətçəkən tərəfi sonrakı dövr türk sosial həyatında bariz şəkildə özünü göstərən ailə mərkəzli qəbilə-boy-tayfa formalaşmaları, inanc əlaqələri və sosial həyatdır.

**Kür-Araz mədəniyyəti**. Erkən Tunc dövrünə (e.ə.IV minilliyin sonu ilə e.ə.III minillik) aid Azərbaycan ərazisində ortaya çıxan Kür-Araz mədəniyyəti Şimali Qafqazdan Mesopotamiyaya, Şərqi Anadoludan Orta Asiyaya qədər geniş ərazini əhatə etmiş, yarımköçəri bir mədəniyyət olmuşdur. Yarım əkinçi və maldar qəbilələrin hakim olduğu Kür-Araz mədəniyyətinin başlıca xüsusiyyəti vahid maddi-mədəni irsə sahib insan topluluqlarını birləşdirməsi idi. 1940-cı ildə Kür-Araz çayları arasındakı ərazilərdə əldə edilən arxeoloji materiallar əsasında kəşf edilən Kür-Araz mədəniyyəti ilk tunc dövrünü əhatə edir. Cənubi Qafqazın Babadərviş, Qaraköpəktəpə, Mişarçay, Cüttəpə və s. yaşayış yerləri orta hesabla 1-2 ha sahəni əhatə edərkən Kür-Araz mədəniyyəti yaşayış yerlərinin sahəsi daha genişdir. Cənubi Azərbaycanda Yanıqtəpə 9 ha sahəni əhatə edir ki, bu ilk tunc dövrünün bəzi yaşayış yerlərində böyük əhali kütləsinin cəmləşməsini və bir çox əsrlər ərzində arasıkəsilməz həyat tərzini əks etdirir. Yaşayış yerlərində qalın mədəni təbəqələrin yaranması uzunmüddətli həyat tərzi ilə bağlıdır. I Kültəpədə mədəni təbəqənin qalınlığı 8 m, Qaraköpəktəpədə 7 m, Mişarçayda 4 m-dən artıq, Urmiya gölünün qərbindəki Göytəpədə 9 m-dir.

Kür-Araz mədəniyyəti yaşayış yerlərində, o cümlədən Azərbaycan abidələrinin memarlığında, Eneolit dövründə

olduğu kimi ən çox dairəvi planlı evlər inşa edilirdi. Lakin bəzi yaşayış yerlərində düzbucaqlı formalı evlər də mövcud olmuşdur. Başlıca xüsusiyyəti kərpic evlər olan belə yaşayış yerləri Göytəpədə aşkar olunmuşdur. Yanıqtəpədə belə evləri dairəvi planlı tikililər əvəz edir və burada uzun müddət inşaatda vahid forma olaraq qalır. Eyni vəziyyət Qaraköpəktəpə yaşayış yerində də qeydə alınmışdır. Dairəvi planlı evlərin diametri bəzən 13 m-ə çatır, adətən, onların diametri 3 m-dən 5 m-ə, divarların qalınlığı isə təqribən 0,5 m-ə qədər çatırdı. İnşaatda adi formalı kərpiclər işlədilirdi. Kültəpə, Yanıqtəpə və Mişarçay evlərində kərpiclərin düzülüş texnikası maraq doğurur. Bir cərgədə kərpiclər cüt-cüt divar boyu uzununa, o biri cərgə isə divarın eninə düzülmüşdür. Dairəvi planlı evlərdə damları örtmə konstruksiyası görünür, konik formalı olub, dirəklər üzərində qurulmuşdu. Babadərvişdə evlərdən birinin mərkəzi hissəsində dirək çalası, döşəməyə basdırılmış gil manqal və möhrədən düzəldilmiş kürsünün varlığı aşkar olunmuşdur. Evlərin divarları və döşəmələri, adətən, gillə suvanırdı. Qaraköpəktəpənin ilk tunc dövrü təbəqəsində ötən dövrün bəzi yaşayış yerlərində olduğu kimi, evlərdə gillə suvanmış döşəmələrə qırmızı şirə çəkilməsi halları qeydə alınmışdır. Adətən, yaşayış otaqlarının mərkəzi hissəsində gil manqallar yerləşdirilirdi. Kültəpə və Yanıqtəpə yaşayış yerlərinin bəzi evlərində divar dibində qurulmuş sobaların varlığı maraq doğurur. Onların iç hissəsində istiliyi çox saxlayan qum qatı və alovun cərəyan etdiyi kanallar vardır. Yanıqtəpə yaşayış yerində ikimərtəbəli evlərin aşkar olunması böyük əhəmiyyət kəsb edir. Evlərin divarlarında asılmış gön və dərilərin izləri qalmışdır. Bütün bunlar Yanıqtəpə əhalisinin məişət mədəniyyətinin nisbətən yüksək inkişafına dəlalət edir.

**Gədəbəy-Xocalı mədəniyyəti.** Azərbaycanın Gədəbəy rayonunun Qalakənd, Böyük və Kiçik Qaramurad, Göydəyə, Qamışlı kimi kəndlərində XIX əsrin sonlarında aparılan arxeoloji qazıntılar zamanı 274 ədəd qəbir açılmış, əldə edilən



zəngin maddi-mədəniyyət nümunələri Almaniyaya göndərilmişdir. Burada tapılan son tunc-ilk dəmir dövrünə aid heyvan və insan təsvirli kəmərlər, yarımköçəri həyat tərzinə malik, əsas məşğuliyyəti heyvandarlıq, dəmirçilik olan mədəniyyətin izləri araşdırmaçıların diqqətini cəlb etmişdir. XIX əsrin sonlarında Şuşa realnı məktəbində müəllim olaraq işləyən Emil Resler (Эмиль Александрович Реслер) Qarabağ regionu və ona yaxın ərazilərdə arxeoloji kəşfiyyat işləri aparmışdır. 1894–1897-ci illərdə Xocalıda apardığı qazıntılar zamanı xeyli kurqan və daş qutu tipli qəbirlər aşkar etmiş, Gədəbəydəkinə bənzər maddi-mədəniyyət nümunələri, tunc kəmərlər tapmışdır. İnsanın qiymətli əşyaları ilə birlikdə dəfn edildiyi qədim türk ənənəsi olan bu kurqanlarda tapılan kəmərlərdə heyvan və insan mübarizəsini əks etdirən təsvirlər yer almış, ayrıca, məzarlardan ox ucluqları, ilgəkli heyvan başı, bəzək əşyaları, qolbağılar və s. tapılmışdır.



*Emil Reslerin Xocalı kurqanlarından aşkar etdiyi mədəniyyət nümunələri*



## 1.3. QAYAÜSTÜ TƏSVİRLƏR

Türk kimliyinin ən qədim ortaq mədəniyyəti qayaüstü abidələrdir. Bu əsərlərin əsas xüsusiyyətləri aşağıdakılardır:

– Qayaüstü rəsmlər Avrasiya bölgəsində, əsasən türklərin yaşadığı ərazilərdə geniş yayılmışdır;

– Qayaüstü rəsmlər tenqriçi və şamanist xüsusiyyətləri əks etdirirlər;

– Qayaüstü rəsmlərdə eyni motivlər və mərasimlər yer alır;

– Bu əsərlər ortaq bir kimliyin parçasıdır;

– Qayaüstü rəsmlərdə yer alan anlayışlar sonrakı dövrdə skif sənətində və türk heyvan üslubu sənət anlayışında eynilik təşkil etməkdədir.

Qayaüstü rəsmlərin mövcud olduğu yerlər müqəddəs sayılırdı. Müqəddəs məkanlara hörmət torpağa ibadət deyil, insanın müqəddəs həyatı özündə təcrübə etməsindən qaynaqlanırdı. Burada keçirilən dini mərasimlərin



təməlində, həmin yerdə təşkil edilən mərasimlərin insanlara ortaq fayda verdiyi anlayışı vardı.

Qayaüstü rəsmlər yazının olmadığı dövrlərdə bir xalqın inancı, düşüncəsi, həyat tərzi, mədəni dünyası haqqında yarıgizli, mistik və dini məlumatlar əks etdirməkdədir. İnsan-təbiət və kosmologiya münasibətləri bu rəsmlərin əsas inanc mənbəyini təşkil edirlər. Bu günə qədər türklərin yaşadıqları ərazilərdə yüzlərlə belə abidəyə rastlanmışdır. Bu təsvirlərin dəqiq yaşını müəyyən etmək çətindir. Bəzilərinin tarixi minlərlə il əvvələ uzandığı halda, bəzilərinin VI-VIII əsrlərdə çəkildiyi ortaya çıxır.

1. *Sibir, Lena, Altay və Tuva bölgələri:* ən çox qaya təsvirləri bu bölgələrdə ortaya çıxıb.

2. *Monqolustan qaya təsvirləri:* Qərbi Monqolustanın Tsaaqan çayı ilə Baqa Oiver bölgələri arasında yer alan 15 km-lik ərazidə 100 min təsvir aşkarlanmışdır. Bu təsvirlərin əksəriyyəti ovçuluqla məşğul olan qədim türk həyat tərzini ifadə etməkdədir.

3. *Qazaxıstan qaya təsvirləri:* 1805-ci ildə Şərqi Qazaxıstanda belə qayalıq məkanlar kəşf edildi. Köksu çayı vadisində 380 ədəd qaya təsviri ortaya çıxarılıb. Cənub-şərqi Qazaxıstanın Tamqalı vadisində bol miqdarda heyvan təsvirlərinin olduğu qayaüstü təsvirlər yer alır. Tamqalı vadisi Çudan Almatıya qədər təqribən 170 km-lik ərazini əhatə edir. Eyni təsvirlər Qazaxıstanın Qaratav dağlarından başlayıb, Özbəkistanın Nurata dağlıq bölgəsinə və Qırğızıstanın Saymalıdaş ərasizinə qədər uzanır.

4. *Özbəkistan qaya təsvirləri:* Özbəkistanda 146 qayaüstü təsvir müəyyən edilib. Cənubi Özbəkistanın Zaraut Kamar bölgəsindəki təsvirlər arasında X–XII əsrlərə aid ərəbcə hərflərlə qazılmış yazılar belə mövcuddur. Qaya təsvirləri, əsasən Özbəkistanın Nurata, Sarmış vadisi, Bukantu dağları və Qızılqum çölündə yer alırlar.

5. *Qırğızıstan qaya təsvirləri:* Belə təsvirlər, əsasən 1903-cü ildən etibarən Qırğızıstanın Saymalıdaş, Talas və Çolpan

Ata bölgələrində aşkara çıxarılmışdır. 1950-ci ildə Sovet tədqiqatçısı Aleksandr Bernştam *(Алекса́ндр Ната́нович Бернштáм; 1910–1956)* bu bölgələrdə 91 900 ədəd qayaüstü təsvir qeydə almışdır.

6. *Xorasan qaya təsvirləri:* Belə təsvirlər İranın Türkmənistanla sərhəd bölgəsində Dehistan adlanan ərazilərdə qədim məzarlıq yerlərində kəşf edilmişdir. Bu məzarlıqların böyük əksəriyyətinin şamanist ünsürləri əks etdirdiyi müşahidə olunur.

7. *Azərbaycan qaya təsvirləri:* Azərbaycanda, əsasən Qobustan və Naxçıvan bölgəsində geniş bir ərazidə qayaüstü təsvirlər mövcuddur. Həmin qayaüstü təsvirlər bu günə kimi qeydə alınan təsvirlərin ən qədimi hesab edilir. 1947-ci ildə arxeoloq İsaq Cəfərzadə *(1895–1982)* Üçdağ, Böyükdaş, Kiçikdaş və Cingirdağ bölgələrində 5300-dən çox qaya təsviri müəyyənləşdirmişdir.



*Qobustan qayaüstü rəsmlərindən*



8. *Anadolu qaya təsvirləri:* Hazırda Türkiyənin Qars, Ərzurum, Artvin, Hakkari və Ankara bölgələrində çox sayda qayaüstü təsvirlər aşkarlanmışdır. Belə təsvirlərin olduğu qayalıq ərazilərə Ordu, Kastamonu, Burdur, Van və Şanlıurfada da rast gəlindiyi bilinir.

Maraqlıdır ki, belə təsvirlər dünyanın digər bölgələrində, əsasən şamanizm inancının təsirli olduğu yerlərdə müşahidə edilmişdir. Amerika, Cənubi Afrika və Avstraliyanın şimal bölgələrində şaman inanclı qədim həyat tərzinin mövcud olduğu məkanlarda eyni motivli qaya təsvirləri aşkarlanmışdır. Bunu diqqətə alan bəzi tədqiqatçılar həmin təsvirlərin arealını şaman inancının dünyada yayıldığı ərazi olaraq qəbul edirlər.

Türk ölkələrindəki qayaüstü abidələrdə dəyişən və dəyişməyən motivlər yer alır. Dəyişməyən əsas motivlər maral, dağ keçisi, qurd, at, təbiət motivləri, inanc və kosmik təsvirlər, xüsusilə də damğalardır. Dəyişən təsvirlər isə, əsasən, hər bölgənin özünəxas təbiət şəraitinə bağlı elementlərlə əlaqəlidir.

Qaya təsvirləri ilə yanaşı, türk ölkələrində qədim dövrlərə aid ortaq maddi-mədəniyyət nümunələrindən biri də kurqanlar, balballar, anıt qəbirlər, damğalı, qoçbaşlı, ay-ulduzlu qəbir daşlarıdır. Bütün bu ortaq abidəvi maddi-mədəniyyət əsərləri türklərin qədim ortaq keçmişinin yadigarıdır.

# ƏLAVƏ OXU

## I.I. Ədəbiyyat


- Çağdaş Öznur, İslam Öncesi Türk Dönemi Orta Asya Kaya Resimlerinde Kullanılan Ana Motivler, Trakya Üniversitesi Sosyal Bilimler Enstitüsü Yüksek Lisans Tezi, Edirne 2011.
- Kocaispir Ahmet, *Anav Kültürü ve Ön Asya Kültürüyle Etkileşimi,* Atatürk Üniversitesi Türkiyat Araştırmaları Enstitüsü Doktora Tezi, Erzurum 2020.
- Kuşnareva K.X, Çubinişvili T.N, *Drevnie kulturı yujnoqo Kavkaza (V – III tıs. do N.E.)*, Leninqrad: İzdatelstvo "Nauka", 1970.
- Ögel Bahaeddin, İslamiyetten Önce Türk Kültür Tarihi (Orta Asya Kaynak ve Buluntularına Göre), Ankara: TTK Yayınları, Ankara 1984 (2-ci nşr).
- Puqaçenkova Q.A, *Meçet Anau*, Aşxabad 1959.


## I.II. Türk tarixinin mənbələri

Türk tarixinin mənbələrini üç kateqoriyada təsnif etmək mümkündür:

**- epiqrafiq-arxeoloji;**

**- sözlü-etnoqrafik;**

**- yazılı mənbələr.**

Yaşadığımız çağda türk tarixinin ayrı-ayrı istiqamətləri ilə bağlı bizlərə bilgi verən mənbələr nə qədər zəngin olsa da, İslamdan əvvəlki dövrə aid mənbələrimiz məhduddur. Yazının olmadığı dövrlərin işıqlandırılması məsələsində arxeoloji və antropoloji araşdırmalar elm adamlarına yön vermişdir. Bu dövrə aid başlıca materiallar müxtəlif arxeoloji qazıntılar zamanı ortaya çıxan silahlar, geyim əşyaları, əkinçilik alətləri, bəzək əşyaları, ibadət yerləri, şəhər qalıqları və qalalardır. Mumiyalanmış və ya donmuş insan cəsədləri üzərində tapılan tikişlər, düymələr, at yəhərləri,



qayalar, divarlar, keramika qabları üzərinə işlənən işarə və rəsmlər, geometrik bilgiləri ehtiva edən kanallar qədim türklərin həyat tərzi haqqında təsəvvürlər yaratması baxımından mühüm mənbələrdir. Çağdaş tarix ədəbiyyatında türklərin başlıca yurdları olaraq Ural-Altay-İrtış arası, Tanrı dağları ətrafı, Baykal gölü hövzəsi, Xorasan-Türkmənistan çevrəsi, hətta Cənubi Azərbaycan-Anadolu mühiti olduğu istiqamətində tezislər səsləndirilmişdir. Qısaca, Avrasiya materikinin geniş mərkəzi hissəsi tarixən türklərin hərəkət arealı olaraq qəbul edilir. Bu geniş ərazi qədim mədəniyyətlər hesab olunan Çin, Hind, Mesopotamiya, Misir, Yunan-Roma mədəniyyətlərinin tam ortasında yer alması baxımından diqqət çəkir. Bu səbəbdən qədim türklər haqqında həmin mədəniyyətlərə məxsus yazılı və şifahi ədəbiyyatlar sırasında yer alan əsərlər türk tarixinin başlıca mənbələri olaraq qəbul edilir.

I əsr latın müəllifi Pomponi *(Pomponius Mela; təq. 15–60)* Ural (Yayık) və İdil (Volqa) çayları arasında yaşayan bir türk qövmünün varlığından bəhs edir. Kurqan adı verilən məzar-abidələrdən tapılan əşyalar atlı-köçəri türk mədəniyyətinin ən önəmli maddi sübutları arasındadır. Məlum olduğu kimi, bir çox elm adamının türksoylu olduqlarını qəbul etdiyi iskitlər e.ə.II və I minilliklərdə kurqan mədəniyyətinin memarlarıdır. Kurqanlar bozqır həyatı və sosioloji strukturu içində cəmiyyətdə müəyyən nüfuza sahib olan xadimlər üçün inşa edilmişdir. Kurqanlar türk həyatının ayrılmaz bir parçası halına gələn çadır həyatının ölülər üçün hazırlanmış formasıdır. İskitlər uzun müddət ərzində geniş bir ərazidə hakimiyyətlərini sürdürdükləri üçün Pers kitabələri, Grek (Yunan), Çin, Assur mətnlərində adlarından tez-tez söz açılmışdır. Bu mənada kurqanlar köklərini tarixin dərinliklərindən alan türk mədəniyyətinin ən böyük maddi sübutlarıdır.

Türklərin intensiv siyasi-hərbi tarixi, əsasən hunlarla başladılsa da, şübhəsiz ki, bu kimliyin özünün də uzun

bir tarixi formalaşma dövrü olmuşdur. Çin mənbələrinin verdiyi məlumatlar bu qədim türk tarixinin izlərinin təsbit edilməsində son dərəcə mühümdür. Həmin əsərlərdə qədim türk xalqlarının, tayfalarının maddi-mədəni həyatına dair geniş məlumatlar mövcuddur. Bu baxımdan skiflərlə türklərin əcdadları olan atlı-köçəri mədəniyyətinin təmsilçilərinin izlərinin, dəlillərinin ortaya çıxarılması ilə bağlı aparılan arxeoloji tədqiqatlar, qədim türk həyat tərzinə işıq tutan "Çu", "Törəyiş", "Alp Ər Tonqa" dastanları sözlü mənbələr olaraq olduqca önəmlidir.

Türk yazı dilinin tarixini miladdan əvvəlki dövrlərə aparan Qazaxıstanın İssıq göl hövzəsindəki İssıq kurqanından tapılan qızıl paltarlı türk hökmdarına aid olduğu təxmin edilən bir-birindən qiymətli əşyalar idi. Bu əşyaların içində daha qiymətli bir bilgi mövcuddur. Bu yarısı oksidləşmiş gümüş bir boşqabın üzərinə yazılmış iki sətirlik bir yazı idi. Aparılan karbon testləri nəticəsində bu sətirlərin Orxon-Yenisey mətnlərinin də yazıldığı runik əlifbası ilə yazıldığı və e.ə.V əsrə aid olduğu müəyyən edilmişdir. Türküstan və digər bölgələrdə həyata keçirilməyə davam edilən kurqan araşdırmaları, arxeoloji qazıntılar bu baxımdan türk tarixçiliyi üçün yeni üfüqlər vəd etməkdədir.

Arxeoloji qazıntılar zamanı əldə edilən müxtəlif ev və məişət əşyaları, qədim türk sənəti, memarlığı, mifik düşüncəsinin izlərini daşıyan maddi-mədəniyyət nümunələri türk mədəniyyətinin müxtəlif coğrafi ərazi və dövrlərdəki inkişaf prosesini ortaya qoyan ən mühüm mənbələrdir.

1990-cı illərdən sonra aparılan arxeoloji araşdırmalar türklərin yaşadığı Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Xorasan, Azərbaycan, Anadolu torpaqlarında tapılan qədim mədəniyyət nümunələri arasında uyğunluqlar və oxşarlıqlar müəyyən edilməyə çalışılır. Bu baxımdan Azərbaycanda Kür-Araz mədəniyyətinin, Türkmənistandakı Anau mədəniyyətinin təsir arealının müəyyənləşdirilməsi istiqamətində cəhdlər vardır.



## I.III. Suallar

1. Türklərin ilk yurdları hansı ərazilərdir?
2. Qədim türk maddi-mədəniyyət abidələrinin adlarını, tarixini və yerlərini müəyyən edin.
3. Qayaüstü təsvirlərdəki ortaq motivlər nələrdir?
4. Qədim türk həyatını öyrənmək üçün hansı mənbələrə müraciət etmək lazımdır?

## I.IV. Tapşırıqlar

1. Qayaüstü təsvirlərin yer aldığı türk ölkələrinin adlarını sadalayın.
2. Ölkəmizdə qayaüstü təsvirlərin yer aldığı Qobustandakı təsvirlərin ana motivlərini müəyyən edin və bu yerlərdə keçirilən qədim mərasimlər haqqında məlumat toplayın.
2. Qədim türkərin yaşadıqları ərazinin xəritəsini tərtib edin.
3. Türklərin yaşadıqları ərazinin coğrafi quruluşu haqqında məlumat toplayın.
4. Türklərin ata yurdlarında müəyyənləşdirilmiş mədəniyyət mərkəzlərində tapılan əşyalardan başlayaraq türk sənəti olaraq bilinən "heyvan üslubu"nun xüsusiyyətlərini araşdırın.

## I.V. Terminlər

*arxeologiya* – yunanca *arxaios* (qədim) və *loqos* (elm) sözlərindən əmələ gələn qədim maddi-mədəniyyət nümunələri əsasında insanın tarixini öyrənən elm sahəsidir.

*etnoqrafiya* – yunanca *etnos* (xalq) və *qrafis* (təsvir) sözlərinin birləşməsindən əmələ gələn xalqın adət-ənənələrini, məişətini, inanclarını, sosial həyat tərzini öyrənən, həmin məlumatlar əsasında bir xalqın kimliyini təsvir edən elm sahəsidir.

*epiqrafika* – yunanca *epik* (yazı) və *qrafis* sözlərinin birləşməsindən yaranan, daş, keramika, metal tabletlər üzərinə həkk olunmuş yazıları və işarələri öyrənən elm sahəsidir.

*yazılı mənbə* – daş, kağız və gil üzərinə həkk olunmuş yazılı məlumatları əks etdirən mətnlərə verilən ad. Yazılı mənbələr birinci və ikinci dərəcəli olmaqla iki hissəyə bölünür. Birinci dərəcəli yazılı mənbələr birbaşa bəhs edilən dövrdə yazıya alınmış mətnləri, ikinci dərəcəli mənbələr isə eyni dövr haqqında sonrakı dövrlərdə və birinci dərəcəli mətnlərdən istifadə edilərək yazılmış mətnləri ifadə edir.





*İkinci fəsil*

# TÜRK KİMLİYİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ



## 2.1. KOSMİK DÜNYA ANLAYIŞI

Türk kimliyinin formalaşmasında mistik dəyərlər təyinedici olmuşdur. Həmin dəyərlər türklərin tarixdə qəbul etdikləri dini və dünyəvi anlayışlara uyğun olaraq dəyişikliklərə uğrasa da, təməldə eyni qalmışdır. Türklərin kimlik anlayışı beş təməl üzərində qurulmuşdur:

– Tanrı *(tək tanrı)* təsəvvürü;
– Köç hüququ;
– Süvari (*atlı*) kimliyi;
– Soy sistemi;
– Xalq (*kün*) nizamı.

Bu təməllərin ilki *kosmik dünya* anlayışına bağlıdır. Qədim türklər əbədi və yaradıcı bir varlıq olan, adına *Tenqri* dedikləri tək ilahi gücə itaət edirdilər. Bu mənada böyük siyasi-hərbi kimlik olaraq türklər təktanrılı anlayışa sahib ilk xalq olma xüsusiyyətinə malikdirlər. Səmavi dinlərin xaricində türklərin təktanrılı bir dini təsəvvürə necə və hansı tarixi şəraitdə sahibləndikləri hələ ki, qaranlıqdır.



Müasir tədqiqatçıların iddia etdiyi kimi, *tenqriçilik* adlanan bu anlayışın "çoxtanrılı inancların təkamülü" nəticəsində ortaya çıxdığı fikri məntiqli görünmür. Türklərin geniş ərazilərə yayılmasında sahib olduqları təktanrılı din təkanverici olmuş və onlar, əsasən çoxtanrılı mədəniyyətlərin hakim olduğu ərazilərə nüfuz etmişdilər. Türklər üçün "Tanrı" anlayışı hər zaman mərkəzdə yer almışdır.

Tanrı təsəvvürü türklərin *törə* anlayışında da yer alırdı. Ümumi mənada *qanun* demək olan *törə* türklərin bütün həyat tərzini içərisinə alan geniş mahiyyətli hüquqi sistemdir. Vahid bir hüquq anlayışının ortaya çıxmasında türklərin bir olan Tanrıya bağlılığının təsiri böyükdür. Törə *kişi mərkəzli* (patriarxal) bir hüquq nizamına söykənirdi. Törə anlayışında ər məfhumunun mərkəzə yerləşməsi atlı kimliyinin formalaşmasına dini-hüquqi şərait yaratmışdır.

Tək tanrı təsəvvürü türklərin hərəkətli olmasının başlıca amilidir. Bir olan ilahi gücə inam onların kainat və dünya təsəvvürünü formalaşdırmış, həyatın müqəddəs (*iduk*) və insani dəyərlərini təyin etməkdə başlıca dəyər hesab edilmişdir. *"Yuxarda göy, aşağıda yer və ikisinin ortasında yaradılan insan"* təsəvvürünü ön plana çıxaran türklərin kosmik dünya anlayışı onların bütün dünyanı yurd olaraq qavramalarına şərait yaratdı. Bu zehniyyət türk dövlətlərinin və hökmdarlarının dünya üzərində özlərini tək və həqiqi hüquqi güc olaraq görmək hissini gücləndirdi. Türklərdəki *lider* (xarizmatik hökmdar) anlayışını yaradan təməl amil buradan qaynaqlanırdı.

Yunanca uydurulmuş söz mənasına gələn *mythos*, osmanlıca əsatir vəya *usture* olaraq bilinən mifologiyanın lüğəti mənası ilk çağ insanının Tanrılar, yaradılış, kainat haqqındakı təsəvvür və simvollaşdırılmış təsvirlərinə dayanan hekayələrdir. Psixoanalizin banilərindən sayılan Ziqmund Freyd *(Sigismund Schlomo Freud; 1856–1939)* öz çalışmalarında mifologiyadan da faydalanmışdır. Yuxarıda da qeyd etdiyimiz kimi türk kosmologiyası, kainat

təsəvvürü və dünya nizamının mərkəzində Tanrı, ruhlar və türk millətinin xüsusi bir missiya ilə yaradılışı dayanır. Türk inanc sistemində cansız varlıq yoxdur, hər şeyin bir ruhu vardır. Qədim türklər kainatın formasını bir-birinə bənzər iki formada təsəvvür etmişdir. Hun və Göytürklər zamanında kainat silindr və ya qübbə şəklində otağa (çadır) bənzədilmişdir. Oğuzlar isə kainatı üzərində çətir formasında çadırın yer aldığı ikitəkərli öküz arabasına oxşatmışdır. Çətirin 28 dilimi vardı. 28 dilim dörd istiqamətə görə 7 hissəyə ayrılmışdır. Hər hissə bir ulduzu və ya ulduzlar sistemini ifadə edir. Öküz arabasının təkərləri də Aya və Günəşə işarətdir. İslami mətnlərdə yer alan dünyanın öküzün buynuzunda yerləşməsi şəklindəki anlayış buradan qaynaqlanmışdır. Türk kosmologiyasında su da mühümdür. "Yaradılış" dastanına görə, kainat yaradılmamışdan əvvəl Tanrı və su vardı. Tanrı varlığı sudan yaratmışdır.

Kainatın örtüsü, qübbəsi göy rəngdədir. Göy qübbə, göy gümbəz, kümbəz və ya günbəz qavramları bu anlayış nəticəsində ortaya çıxmış, bu anlayış və üslubla memarlıq nümunələri yaradılmışdır. Göy qübbə şəklində inşa olunan doqquz saraydan ibarət olan külliyyənin mərkəzindəki saray, Tanrının sarayıdır. Ora qütb ulduzunun da yer aldığı məkandır. Doqquz rəqəmi türklərdə bu səbəblə müqəddəs hesab edilmişdir. Hökmdar çətirləri doqquz tuğdan ibarət idi.

Göytürk, Uyğur və digər türk dövlətlərində hökmdar çadırı kümbəz formasındadır. Xaqanlar üçün hazırlanan çadırların ən yüksək təpələr boş buraxılaraq ondan sonrakı yüksəklikdə qurulması ənənəsi də qədim türklərin Tanrı inancının, kainat nizamının elementlərini özündə ehtiva etmişdir. Türk kosmologiyasında Ay və Günəş də önəmlidir, gecəni və gündüzü təmsil etmələri səbəbilə də digər ulduzlardan seçilmişdir. Ay kişi, Günəş qadın simvolikasını təmsil edir. Türklər döyüş hazırlıqları həyata



keçirərkən Ayın şəklinə də diqqət etmişlər. Dolunay və hilalın türk simvolikasında önəmli yeri vardır. Türklər yaşadıqları ərazini dünyanın mərkəzi olaraq görmüşdür. Bu mərkəziyyətçi yanaşma dövlət anlayışı, idarəçilik şəklinə də təsir etmişdi.

Köklərini İslamöncəsi çağlardan alan türk mifologiyasında simvollar *damğa*, *töz* və ya *totem* dediyimiz vasitələrlə ifadə edilmişdir. *Damğa* boyun, dövlətin, hakimiyyət xanədanının, soyun rəmzidir. Damğaların qoruyuculuğuna, mistikasına da inanılmışdır. Damğa həm də mədəniyyət tariximizdə şəkil yazısı ilə hərf arasındakı orta mərhələni təmsil edir. Oljas Süleymenov *(Oljas Omarulı Suleymenov; d.1936)* qədim türklərin müqəddəs gücləri işarələrin dili ilə başa düşdüyünü qeyd etmişdir. İnkişaf davam etdikcə bu damğalar həyatımızın əksər hissələrini əhatə edən simvollar dünyası halına gəlmişdir. Çadır, qılınc, müxtəlif əşyalar üzərinə damğalar vurulmuşdur.

J.P.Ruya görə, ilk dövrlərdə türklərdə damğa əslində boylar tərəfindən müşəxxəs bir şeyin, yerin işarətlənməsi məqsədilə istifadə edilmiş, daha sonra qədim türk



*Damğa nümunələri*

inancında xüsusi bir dəyəri olan, *onqun* adlandırılan varlıq və heyvanlarla bağ qurularaq boylar tərəfindən müqəddəsləşdirilmişdir. Onqun və ya *töz* adlandırılan qurd, maral, qartal kimi heyvan fiqurları türk çadırlarının içində, əsasən çadırın giriş hissəsinin üst qismində istifadə edilmişdir. Boyun tözü ovlanmaz, onlara hörmət edilərdi. Damğalar isə bu tözlərin simvollaşdırılmış şəkildə gələcək nəsillərə nəql edilməsidir.

Qədim türklər atlarını, qoyun sürülərini özlərinə məxsus damğalarla damğalamışdır. Türklər, xüsusilə ailə, boy və soy damğalarına önəm vermiş, geniş şəkildə istifadə etmişdir. Kaşğarlı Mahmud *(Mahmud ibn Hüseyn ibn Məhəmməd əl-Kaşğari; 1008–1102)* məşhur əsərində hökmdara aid əşyaların da ondan başqası istifadə etməsin deyə damğalandığı haqda məlumat verir. Əlbəttə dövlətin və hökmdarın istifadə etdiyi simvollar da fərqlidir. Türklərin böyük imperiyalar qurduqları Türküstan, Qafqaz və Anadolu bölgəsi, dini və etno-mədəni yöndən köklü bir ənənəyə, zəngin motiv və simvollara da sahibdir. Arxeoloji qazıntılar və qaya fiqurları türk ikonoqrafiyasının da ilk nümunələrini ortaya qoymuşdur. Tapılan bəzi keramika qablarında qədim türklərin geometrik motivlərdən istifadə etdiyi də anlaşılmışdır. Bəzi daşların üstündə buğa, qurd, qartal, qadın təsvirləri yer almışdır. Prof.Dr.Muvaffak Uyanık *(1905–1975)* Van-Hakkari bölgəsində uzun müddət davam edən araşdırmalarında Orta Asiya qaya rəsmlərilə tamamən bənzərlik göstərən 45 minə qədər damğa qeydə almışdır. Çatalhöyükdəki rəsm və simvolları da nəzərə aldıqda, sadəcə Türküstan və Qafqazda deyil, Anadoluda da miladdan əvvəlki çağlara uzanan qədim türk mədəni irsinin qayalar üzərinə həkk olunan damğalarda yaşadığını görə bilərik. Türküstandakı şaman inancının simvolik motivlərini davam etdirən fiqurlu daş yonma və qabartmalar Anadolu daş sənətinin də önəmli xüsusiyyətləri arasındadır. İnsan və heyvan fiqurlu keramika qablar, müxtəlif



əşyalar üzərinə təsvir edilən ov səhnələri də İslamöncəsi türk sənətinin ən önəmli nümunələri arasındadır. Motivlərdə at türkün sirdaşı, yoldaşı, zəfər ortağı, həqiqətlə qeyb aləmi arasında bağ quran simvoldur.

Pazırıq kurqanından çıxarılan xalının üzəri damğa və simvollar taxtasını xatırladır. Cəsur, təmkinli, qorxaq, hiyləgər kimi təsnif edilən heyvanlar motivlərdə bu xüsusiyyətləri ön plana çıxarılaraq rəsm edilmiş, o rəsmlər üzərindən müəyyən mesajlar verilmişdir.



*Pazırıq xalısı*





*Pazırıq xalısında heyvan təsvirləri*



Türklərin 12 heyvanlı təqvimdən də istifadə etdiyi məlumdur. Bəhaəddin Ögəl *(Mehmet Bahaeddin Ögel; 1923–1989)* türk mədəniyyəti tarixilə bağlı qələmə aldığı əsərində çinlilərin də bu təqvimi türklərdən aldığını qeyd edir. Türk mifologiyasında qurd yol göstərici, dar zamanlarda köməyə çatandır.



*On iki heyvanlı türk təqvimi*

"Oğuz xaqan" dastanında bozqurd Oğuz xaqanın ordusuna bələdçilik edir. Orxon-Yenisey abidəsində Türk ordusunun qurd kimi qorxmaz, düşmən ordusunun da qoyun kimi qorxaq olduğu ifadə edilmişdir. Göytürk xaqanları çadır otaqlarının önünə qızıl başlı qurd tuğları qoymuşdur. Tarixdə atları əhlilləşdirmiş millət olaraq da

bilinən türklər, onların qəhrəmanları vəfat edərkən məzarlarına sevimli atları ilə birlikdə dəfn olunmuşdur. At başlı fiqurlar da türk mifologiyasında dinamizmi, hökmranlığı, üstün olmağı ifadə edir. Heyvan fiqurlarından maral da çox önəmlidir. Hun və Göytürklərə aid Altay məzarlarında bayraq dirəyinin təpəsində maral fiqurları tapılmışdır. Qədim türklər maral ovlamağa xoş baxmaz, onun uğursuzluq gətirəcəyinə inanardılar. Türk bölgələrində marallı xalılara çox rast gəlmək mümkündür. Quşların türk mifologiyasında ayrı bir yeri vardır. İnsan oğlunun uçmaq arzusu vardır. Uçmaq eyni zamanda azadlıq deməkdir. Göy üzündə sərbəst şəkildə uçan quşlar azadlığın simvolu, Tanrının elçiləri olaraq görülmüşdür. Xaqanların tacları üzərində, bayraq və tuğlarda quş simvolları istifadə edilmişdir. Kurqanlarda, kitabələrdə bol-bol quş fiqurlarına rast gəlinmişdir.

Şaman paltarları və davullarının üstündə də müxtəlif quş fiqurları nəqş edilmişdir. Şamanlar insanlar öldükdən sonra ruhlarının quş kimi o biri dünyaya köç etməsinə kömək edirlər. Altay bölgəsində yaşayan türklər qədim zamanlarda bir yaşından əvvəl vəfat edən uşaqların tabutlarına qanad taxardılar. Bu onun quş şəklində cənnətə uçmasını ifadə edirdi. İslam dinində də uşaq yaşda vəfat edən insanın yerinin cənnət olacağı ilə bağlı hədislər vardır. Qədim türkcədə cənnət *uçmaq* kəlməsilə ifadə edilmişdir. “Qutadqu-bilik”, “Dədə Qorqud” mətnlərində quşlarla bağlı türk inancını ortaya qoyan çox sayda maraqlı ifadələr yer almışdır. Səlcuqlu, Səfəvi və Osmanlı dövlətlərində çini qabların üzərində, miniatürlərdə quş motivləri ön plana çıxır. Şükrü Haluk Akalına *(d.1956)* görə, türk motivlərində quş pəncəsi səltənət və hakimiyyət deməkdir. Üzüm yeyən quş ölümsüz bir yaşamı ifadə edər. Quş uçuşu ruhun gedişidir. Budaqdakı quş çatılmayan arzudur. Qəfəs içində quş həbsxanadır. Ağ quş təmizlik, doğruluq, qara quş günahdır, əldəki quş bərəkət, çatılan quş arzudur.



Türklərin mifik yaddaşı və sənət mədəniyyətində heyvan üslubu qədər təbiət, bitki təsvir və naxışları da yayğındır. Mədəniyyət araşdırmaçıları süsləmə, bəzəmə sənətinin Çindən türklərə keçdiyini, ebru sənəti kimi sənət növlərilə də spesifik bir xarakter aldığını qeyd edirlər. Ağac türklərdə həyatı, ölümsüzlüyü, köklərilə də o biri dünya ilə bu dünya arasındakı bağı simvollaşdırır. Kök atalar, budaqlar isə gələcək nəsillərdir. Soy ağacı ifadəsi vardır. Qədim türklər yönləri də heyvan fiqurları ilə işarə etmişlər.



*Türk şaman davulu*



## 2.2. KÖÇ HÜQUQU

*Köç* – hüquqi əsasları olmadan icra edilməsi çətin bir prosesdir. İstənilən halda tarixdə heç bir xalq əlindəki güc nisbətinə əsaslanaraq, başqa xalqın yurdunu asanlıqla ələ keçirmək haqqını özündə görməyib. İşğal kimi qiymətləndirilən belə hadisələr günümüzdə olduğu kimi ən qədim zamanlardan etibarən hüquqi bir təmələ əsaslanmalı idi.

Köç bir mərasim şəklində icra olunurdu. Köç edən türk tayfaları hansı səbəblərdən yurdlarını tərk etdiklərini qarşı tərəfə açıqlayır və əgər razılaşma alınarsa, öz imkanlarını qarşı tərəfin ixtiyarına təqdim edirdilər. Rədd cavabı aldıqda bu imkanlarını feili olaraq qarşı tərəfə tətbiq edib, onları itaət altına salırdılar. Tarixdə hər iki üsulla türklərin köç haqqı tətbiq etdiklərinə dair çox sayda məlumat mövcuddur. Sasani, Bizans, Əməvi-Abbasi, hətta gürcü və rus knyazlıqları içərisində çox sayda türk hərbi-idari gücünün yer alması belə razılıqlar əsasında gerçəkləşdiyi kimi, bunun əksi də baş vermişdir.



Köç haqqını sadəcə maddi imkansızlıqlar və coğrafi şəraitsizlik yaratmırdı. Köçü təyin edən ilahi dəyərlər və gerçəklər başlıca amil idi. Məsələn, XI əsrdə Anadoludakı Bizans torpaqlarını ələ keçirən Səlcuqlu oğuzları “Roma xalqının qadınlaşması”nı həmin torpaqları ələ keçirmə səbəbi olaraq irəli sürmüşdülər. Bunun kimi osmanlılar Balkan torpaqlarını da fəth etmək haqqının ilahi əsasları olduğunu iddia ediblər. Səfəvi şeyxləri öz müridlərilə hələ dövlət qurulmadan əvvəl Dəşti-Qıpçağa qəzalara gedirdilər. Hun və Göytürk xalqları öz köçlərini “*yir yoktur*” (yer yoxdur) hüquqi əsasında izah ediblər. Yəni köç ilahi nizama bağlı dəyərlər üzərindən icra edildiyi zaman *hüquqi* məna kəsb edirdi.

Hun xaqanı Attila *(434–453)* Roma-German torpaqlarını ələ keçirməsini həmin xalqların ilahi yoldan çıxması və özünün *“Tanrının qırmancı”* olaraq göndərildiyini vurğulayıb. *“Mən Tanrının qırmancıyam”* anlayışı ilahi nizamdan çıxmış xalqların qırmancla cəzalandırılmasını əsas alırdı. Çingiz xan da özünü *“Tanrının qılıncı”* hesab edirdi. Bu inanc ona Çin, Xarəzmşah və digər dövlətlərə hücum etmək kimi ilahi missiya yükləyirdi.

Köç haqqı üç prinsipə söykənirdi:
– *ilahi gücün təmsili;*
– *ilahi nizamın (hüququn) tənzimi;*
– *ilahi gücün xarakteri.*

İlahi gücün təmsili *qut* (ilahi hakimiyyət) bilik, cəsarət və ordu tərəfindən icra olunurdu. Qut Tanrı tərəfindən türk hökmdarlarına dünyanı idarə etmək üçün verildiyi iddia olunan ilahi haqdır. Bu haqq sayəsində xaqan özünü yer üzündəki bütün insanların ali hökmdarı hesab edirdi. Bu anlayış İslam inancı ilə birləşərək “cahan hakimiyyəti” anlayışına çevrilmişdir. Qədim türk dilində bu anlayış “*küç*” (güc) adlanırdı ki, “köç” sözü də buradan yaranıb. Yəni köç ilahi gücün təcəllisi olaraq icra olunurdu. Tanrı tərəfindən türk xaqanına bəxş edilən “küç” döyüş haqqı ilə

təmin edilirdi. Türk kitabələrinə görə, "Tanrı türk hökmdarının ordusunu qurd, düşmənlərini qoyun kimi etdi və ona qələbələr bəxş etdi". Türk hökmdarları əldə etdikləri bütün uğurları "Tanrının onlara verdiyi *küç*"ə bağlayıblar. "Tanrı istədiyi üçün qazandım" anlayışı türk kitabələrində *köç haqqının* təməl düsturu olaraq vurğulanır. Uğursuzluqlar isə "Tanrının küç verməməsi"lə açıqlanırdı.

Hakimiyyət – əmr etmə haqqı idi. Bu haqqı onlara Tanrının verdiyinə inanılırdı. Həmin haqq *qut* adlanırdı. Qut idari iqtidarın təməli hesab olunurdu. Qutun əsası xidmət, məqsədi ədalətdir. Bəyliyin yolu qutdan keçirdi. Bütün istəklər onun vasitəsilə gerçəkləşirdi. Qədim türk inancında "bəy bəylik məqamına öz istəyilə deyil, Tanrı bəxş etdiyi üçün yüksəlir" düşüncəsi hakimdir. Gücü Tanrıdan alan xaqanın vəzifəsi dünyanı firavan etmək və qullarının qayğısına qalmaqdır.

*Köç haqqı* dünyanın bütününü əhatə edirdi. Buna görə, "Göy və dörd cəhətli Yer" Türk elinin (dövlətinin) yurdudur. Yer *elin* məkanı, onu idarəetmə haqqı isə Göydən (Tanrıdan) gəlirdi. Günəşin çıxdığı tərəf dünyanın ən müqəddəs cəhətidir.

İlahi nizamın tənzimi ələ keçirilən torpaqların türk xaqanı tərəfindən ədalətlə idarə edilməsi idi. Burada öncəlik haqqını türk xaqanı hər zaman öz xalqına tanımaq məcburiyyətindədir, çünki onun dünyadakı hakimiyyətinin təminatçısı ordusudur. Dövləti ordu-xalq qoruyurdu. Buna görə, köç və fəthlər sırasında türk xalqı bir ordu nizamında hərəkət edir, qələbədən ortaq pay əldə etdikləri kimi, məğlubiyyətdən də ortaq nəticə çıxarırdılar. Geniş əraziləri ələ keçirən türk xaqanı öz soydaşlarını dövlətin *uc* adlanan sərhəd hissəsində yerləşdirir və bununla da, gələcək fəthlərə şərait yaratdığı kimi, düşmənlərini də daim nəzarət altında saxlayırdı. Dövlətin mərkəz hissəsi isə itaət altına alınmış xalqlara tənzim edilirdi, həmin xalqlar vergi verərək dövlətin iqtisadi təminatçısı olurdular. Buna görə, türk dövlətləri mərkəzdə təbəə kimlikli xalqların, sərhəd və ya sərhədyanı ərazilərdə türklərin məskunlaşdığı qarışıq milli tərtibata malik olmuşdur.



İlahi gücün xarakteri təmsil və tənzimin Tanrı adına gerçəkləşməsində özünü göstərirdi. Xarizmatik lider olaraq xaqan bütün qullar üzərində ali nəzarətçi (çoban) idi. Onun gücü mübahisə obyekti ola bilməzdi. Qullar onu, sadəcə, əlindəki güc imkanlarından doğru istifadə etmədikdə tənqid etmək və onu tanımamaq haqqına sahib idilər. Xaqan mübahisəsiz iqtidar gücü ilə adil təmsil nümayiş etdirməliydi.

Köçün bu üç prinsipi hərbi-strateji güc nisbətində özünü əks etdirirdi. Bu mexanizmanın canlı və davamlı qalması üçün *ox-yayla* silahlanmış atlı gücünün türk ailələri tərəfindən yetişdirilməsi vacib idi. *"Hər türkün əsgər doğması"* məhz bu canlı hərbi resursların türk ailəsi tərəfindən ərsəyə gətirilməsilə reallaşırdı. Bu səbəbdən də türk ailəsi ordu gücünün başlıca təbii varlıq səbəbi sayılırdı.



## 2.3. SÜVARİ (ATLI) KİMLİYİ

Tenqriçi inanc sistemi ər kimliyinin olğunlaşmasına şərait yaratdı. Bu təsəvvürün formalaşmasında türklərin atı əhlilləşdirib, ondan siyasi-hərbi məqsədlər üçün istifadə etməsinin təsiri böyükdür. *Atlı* (süvari) dünya tarixi baxımından fərqli bir döyüşçü anlayışını ortaya çıxardı. Atlı ənənəvi piyada döyüşçü obrazını və hərbi-strategiya qaydalarını tamamilə dəyişdirdi. Türklər bu kimliyi mərhələli olaraq mənimsədilər. Skif (*işquz*) köçlərilə bu kimlik dünyamiqyaslı məna kəsb etdi.

Skiflər dünya miqyasında tarix səhnəsinə çıxan ilk atlı xalq idi. E.ə.1200-cü illərdə Şimali Çin, Monqolustan və Türküstan ərazisində *ti*, *junq*, çu kimi tayfaların ittifaqından meydana gələn hunlar, onlarla eyni inanc və dəyərləri paylaşan *junq* tayfaları arasında meydana gələn ixtilafda məğlub olan ikincilər öz yurdlarını tərk edib qərbə doğru hərəkətə keçdilər və Yunan, Assur, Urartu mənbələrində *skif*, *aşquzai* adı ilə ortaya çıxdılar. Junq tayfalarının





*E.ə.400–e.ə.350-ci illərə aid skif atlısı. Ermitaj muzeyi*

bir qolu olaraq ortaya çıxan skiflər Çin mənbələrində *yay çəkən xalqlar* (*sai*) adlanırdı. Skif kimliyi *süvari* kimliyidir. Bu kimliyin mərkəzində *atdan istifadə edən oxçu ər* tipologiyası yer alırdı.

Sənaye inqilabına qədər dünya tarixinin hərbi-iqtisadi-siyasi baxımdan əsas gücünü *atlı* kimliklər təşkil edirdi. At dəvə, qatır və digər heyvanlarda olmayan xüsusiyyətlərə sahibdir. Sürəti və gücü tək bədəndə cəmləyən at, ancaq geniş çayırlıq ərazilərdə yetişdirilməyə əlverişli idi.

Qədim türk məskənlərində atın əhlilləşdirilməsi e.ə.V minillikdə başlayıb. E.ə.III minillikdə *bozqır* qövmləri atdan istifadə etməklə bərabər at arabaları düzəldiblər. At insana geniş məkanda hərəkət etmək imkanı yaratmışdı. İnsan at vasitəsilə yeni və fərqli nəzarət mexanizmləri formalaşdırdı. Atlı insan sürətlə hərəkət edən heyvanları rahat ovlaya

bildiyi kimi, at vasitəsilə təhdidlərdən də rahatlıqla sıyrıla bilirdi. At vasitəsilə türklər böyük heyvan sürülərini idarə etməyi və geniş otlaq sahələrinə nəzarət etməyi öyrəndilər.

At türklərin həyat tərzinə üç idari anlayışı yerləşdirdi:

– *zamanın idarəsi;*

– *məkanın idarəsi;*

– *təhlükələrin idarəsi.*

Oturaq həyata sahib xalqlarda, şəhər dövlətlərində, xüsusilə də qədim Mesopotamiya və Ön Asiyanın krallıqlarında da bu üç idarəetmə forması mövcud idi. Lakin at bu üç şeyin nəzarətini insanın əlinə verdi. Belə ki, at zamanı insanın öz lehinə istifadəsinə imkan yaradarkən piyada şəkildə qət olunacaq məsafələri on dəfədən çox qısaltdı. Atlı bambaşqa hərbi sistemin əsasını qoydu. *Süvari* obrazı yeni hərbi-strateji sistemin bariz nümunəsi kimi ortaya çıxdı.

Ata nəzarət insandan psixoloji hazırlıq tələb edirdi. Atı idarə etmək insanın heyvanı fiziki olaraq ram etmə gücündən daha çox psixoloji baxımdan insan-heyvan ünsiyyətinin idarəçiliyini tələb edirdi. Atla döyüşçü arasında mənəvi bir bağlılıq olmadan atı idarə etmək mümkün deyildir.

Atın insan həyatına daxil olması ilə insanın biologiyasında və fizionomiyasında bəzi dəyişikliklər yarandı. Ehtimal ki, qədim türklər atdan əvvəl maralı idarə etməyi bilirdilər və bu səbəbdən atın idarə olunmasında maral keçid rolunu oynamışdır. Ən yaxşı qaçan atın saatda sürəti maksimum 88 km-dir. Normal halda bu sürət saatda 40 km-dir. Bədənin hava axını ilə davamlı münasibətdə olması insanın biologiyasında fərqli hisslər yaradır. Atlının havaya qarşı müqavimətinin formalaşması üçün onun bir sıra xəstəliklərə qarşı bədənində immunitet yaranmalıdır. Sürətli hərəkətlə birlikdə bədənin temperaturu dəyişir, bədən ani isinmə və soyumaya məruz qalır. Süvari sadəcə atı deyil, özünü də idarə etməyi bacarmalıdır. İnsanlıq tarixində ilk dəfə atla birlikdə insan öz bədəninin bioloji mahiyyətini qavramağa başladı. O vaxta qədər insanın öz bədəninə



qarşı münasibəti qədim misirlilərin "bədən tərbiyəsi" adını verdikləri mistik normativlərə söykənirdi. Atla birlikdə bədən tərbiyəsi birinci dərəcəli olmaqdan çıxıb, öz yerini "bədən idarəsi" anlayışına verdi.

Bədən tərbiyəsi ilə bədən idarəsi arasında böyük fərq vardır. Qədim Mesopotamiya, Misir, Çin, Hind mədəniyyətlərində və sonrakı dövrlərdə antik Yunan və Roma cəmiyyətlərində həm dini, həm əxlaqi, həm də hərbi baxımdan insan bədəni məcburi olaraq bədənə tətbiq edilən mistik-əxlaqi tərbiyə qaydaları ilə formalaşdırılırdı. Bədən tərbiyəsində məqsəd bədənin tək bir proqrama tabe edilməsi və bir tərbiyə qaydasına uyğun çərçivələndirilməsidir. Üstəlik bədən tərbiyəsi kütləvi bir metod deyil, qrup davranışıdır. Atlı kimliyi ilə ortaya çıxan *bədən idarəsi* anlayışında tək-tək insanların deyil, bütöv bir topluluğun siyasi, psixoloji, əxlaqi və mənəvi davranışı meyar olaraq qəbul edilir. Bədən tərbiyəsində kütlə siyasi-əxlaqi, maddi və mənəvi ayrıcalıqlara malik bəzi qrupların istək və iradəsinə tabe ikən, bədən idarəsində bütöv kütlənin idarəsi mexanizm olaraq siyasi-idari, hərbi, sosial və mənəvi nəzarət qaydalarını təyin edirdi.

Süvari bədən idarəçisidir. Üstəlik süvarinin görünüşü bu idarəçilik üçün alternativ təsirlərə və imkanlara sahib idi. At üstündə olan insan piyadaya görə daha ehtişamlı və heybətli görünürdü. Belə insanın görünüşü normal insandan iki dəfə böyük və hündürdür. İkincisi, süvari cəmiyyətlərdə öndər ictimai mühitdə sərbəst, idarə baxımdan intizama tabedir. Halbuki, piyada sinifli quruluşlarda insan ictimai mühitdə qatı qanunlara və silklərə bağlı qalmaq məcburiyyətindədir. Üçüncüsü, atlı insanın görüş məsafəsi piyadadan iki dəfə geniş və uzaqdır ki, bu onun dünyaya baxışında da təsirlidir. Dördüncüsü, atlı insan bədən hərəkətlərini özü idarə edir, piyada insanın hərəkətini isə bədən qaydaları tənzimləyir. Beşinci və ən mühümü atlı insan üçün məkan-yer anlayışı nisbi, piyada üçün sabitdir.

Qədim yunan müəlliflərinin təsvir etdikləri skif kimliyi süvariləşmiş xalq kimliyidir. Süvariləşmiş xalq kimliyi *ordu xalqı* anlayışını formalaşdırdı. Qədim türklərdə ordu-xalq eyniləşməsi üzərində *el* (dövlət) anlayışı yaranmışdır.



*Göytürk süvarisi*





## 2.4. SOY VƏ KÜN (XALQ) NİZAMI

Qədim türk dilində, yazılı mətnlərində, dastanlarında xalq "*kün*" (*gün*) sözü ilə ifadə edilir. Siyasi bir iradəni təmsil etdikdə bu kəlmə "el-gün" şəklində səsləndirilir.

Qədim türk cəmiyyət həyatı dörd təməl üzərində inşa olunub:

– *sərbəstlik (oksızlık);*
– *ölkə (ülüş);*
– *xalq (kün/gün);*
– *qanun (törə).*

Onların birliyi *eli* (dövlət) yaradır. Dövlətin yaranmasında türklər bu dörd ünsürün bütünlüyünü əsas götürüblər. Türklər üçün xalq, yəni "*kün*" bütünü əks etdirirdi. *Kün* (gün, günəş) kosmik bir gücü təmsil edirdi.

Ümumi mənada dövlət sərbəst hərəkət sahəsinə, əraziyə, xalqa və ortaq nizama bağlılığın vəhdəti olaraq təsvir edilib. Bu bütünləşmə *süvariləşmiş xalq* və ya *ordulaşmış xalq* kimliyinin yaranması ilə mümkündür. Buna görə də

dörd ünsür arasında "ordu"nun xüsusi qeyd olunmasına ehtiyac yoxdu. Əslində "gün/kün" (xalq) eyni zamanda ordunu ifadə edirdi. Bu səbəbdən türklər üçün ictimai həyat *el-gün* ikiliyi üzərində inşa olunub. Bu ikilik çinlilərin "yinq-yanq", iranlıların "xeyir-şər", yunanlıların "pis-yaxşı" qarşılaşdırmaları kimi dualizmə deyil, birliyə (*universallıq*) söykənirdi.

Türk xalqını boylar, obalar və oxlar (ittifaq) təmsil edirdi. XX əsrə qədər mövcud olan türk dövlətlərinin böyük əksəriyyəti *ittifaq* təməlində yaranıblar. Dövlətin hərbi-siyasi-əxlaqi varlığı bu ittifaqa söykənir, onların eyni hüquq (*törə*) prinsipində təşkilatlanmasına, ortaq hərəkətinə və ortaq əraziyə hökm etməsinə əsaslanırdı.

Türklərdə ordulaşmış xalq "el-gün" (dövlət-xalq) nizamını ortaya çıxarmışdır. Bu səbəbdən türklər dövlətin nəzarətində hərbi funksiyaya sahib xalq olaraq anlaşılırdı.

El-gün anlayışının təməlində ailə yer alırdı. Kaşğarlı Mahmud türk cəmiyyətini *ailə* üzərində təsvir edir. Onun təsvirinə görə, türk sosial strukturu: *ailə-soy–oba–boy–budun* (kün/xalq) – *el* (dövlət) nizamı əsasında formalaşıb. Buna türk *törə tini* (ruhu) deyirdilər. Bu ruhun yaradıcısı və qoruyucusu Tanrı hesab edilirdi. Nizamı təşkil edən ümumi əxlaqi-hüquqi prinsiplərin Tanrı tərəfindən göndərildiyinə inanan türklərin *törə* nizamı pozulduğu halda dövlətin hüquqiliyi əhəmiyyətini itirir, yenidən təşkilatlanma zərurəti yaranırdı. Yəni el-gün nizamının süqutu və yaranması eyni mexanizm əsasında icra olunurdu. Bu mexanizmin mərkəzində ordu gücü olaraq "kün" (süvariləşmiş xalq) yer aldığından elin yaranması, süqutu və yenidən başqa ad altında yaranması kütləvi xarakter alırdı. Bu mənada dövlətin süqutu Tanrı nizamının kənarına çıxmaqla əsaslandırılır, yeni bir ittifaqın yaranması üçün *el-gün* nizamının yenidən qurulmasına, yəni törəyə qayıdışa ehtiyac duyulurdu. Yəni türklərdə xalq *təbəə* deyil, ordu statusunda yer alırdı. Türk xalqlarının təbəələşməsi



prosesi kütləvi şəkildə ilk dəfə XVI əsrdə osmanlılarla başlamış, bu proses XVII-XIX əsrlərdə digər türk xalqlarında davam etmişdir.

Süvariləşən xalqın siyasi-hərbi kimlik ifadə etdiyi türk cəmiyyətində dövlətin varlığı üçün təməl şərt "sərbəstlik" (*oksızlık*) qəbul edilirdi. Bu sərbəstlik bütün dünyanı əhatə edən hərəkəti ifadə edirdi. Bu *qut* adlandırılan ilahi səadət tərəfindən türk xaqanlarına verilmiş tanrının əmri idi.

Müasir tarixşünaslıqda qədim türklərin bu fəaliyyəti "köçəri həyat tərzi" adı altında məhdudlaşdırılır. Halbuki köçəri həyat tərzinə sahib digər xalqlarda belə mürəkkəb və güclü siyasi təşkilatlanma modeli mövcud deyildir. Bu mexanizm adi sosial hərəkətlilik deyil, ilahi nizami bir qanunvericiliyə əsaslanırdı. Ordulaşan xalq özünü sosial, siyasi, mədəni bütün qaynaqları ilə ilahi nizama bağlı olaraq davamlı hərəkət halında hiss edir, dünyanı Tanrının ona bəxş etdiyi törəyə uyğun idarə etmək istəyirdi. Yer üzünün asayişi bu ilahi nizama mütləq bağlılıqda idi.

Sosial baxımdan süvariləşən xalq qarşısında dövlətin əsas vəzifəsi yeni coğrafi hədəflər yaratmaqdı. *Köç haqqı* həmin ilahi nizama söykənirdi.

Hun, skif, oğuz, qıpçaq adı altında gerçəkləşən böyük türk köçlərini diqqətə aldıqda onların ələ keçirdikləri ərazilərlə müqayisədə əhali nisbəti çox kiçikdir. Belə ki, türklər sahib olduqları ərazilərdə məskunlaşmış digər xalqlarla müqayisədə çox vaxt azlıq təşkil ediblər. Çin, İran, Hindistan, Misir, Avropada min illər boyu güclü siyasi idarəçilik təsis edən türklərin həmin bölgələrdə yaşayan əhali ilə müqayisədə insan resursları məhdud olub. Digər tərəfdən, yunan, ərəb və avropalılar kimi ələ keçirdikləri əraziləri kütləvi şəkildə assimilyasiya etməyiblər. Müasir tarixçilikdə iddia edildiyi kimi, bu köçlərin hədəfi heyvan sürüləri üçün yeni otlaq ərazilər əldə etmək deyildi. Bu ancaq köməkçi səbəb ola bilərdi. Əsas məqsəd həmin yerlərdə *ilahi nizamın* təsis edilməsi idi.

Yəni süvariləşən xalq davamlı hərəkət halında olub, öz missiyasını fəthlərlə reallaşdırmağı özü üçün ilahi haqq hesab edirdi. Bu səbəbdən türk köçlərini qamçılayan başlıca təsir elə xalqın özü olmuşdur. Bir çox halda hun, skif, oğuz, qıpçaq və digər türk mənşəli dövlətlərin hakimiyyət müddətinin fəthlərin başladığı, genişlədiyi və başa çatdığı zaman qədərdir. Hərəkət dayandığı halda sosial nizamda problemlər başlayır, hərəkətin istiqaməti dəyişərək daxili ixtilaflara çevrilir, *Tanrı qutunu* başqa bir ittifaqın ələ keçirməsilə nizam yenidən təsis edilirdi.

Bu prosesdə nəzarət altına alınan bölgənin digər xalqları təbəə vəziyyətinə düşür, türk *el-gün* nizamına qarşı gəlmədikləri müddətdə ənənəvi həyat tərzlərini sərbəst şəkildə davam etdirir, hətta sosial, mədəni, ticari baxımdan dövlətin bütün imkanlarından istifadə edərək öz rifahlarını təmin edirdilər. Hun, skif, oğuz, qıpçaq mənşəli dövlətlərdə sosial-mədəni imkanlardan ən çox başqa xalqların istifadə etməsi, mədəniyyət, dil, ədəbiyyat baxımından zəngin keçmişə malik olmaları, hətta onları idarə edən türklərdən daha çox mədəni əsərlər yaratmaları bununla izah edilməlidir. Yəni türklər, əsasən ilahi nizamın yer üzündə daşıyıcıları və qoruyucuları olaraq fəaliyyət göstərirdilər.



# ƏLAVƏ OXU

## II.I. Ədəbiyyat


- Ayvaz Salih, *Eski Türk Yazıtlarında Töre ve Örfi Hukuk*, Nevşehir Hacı Bektaş Veli Üniversitesi Sosyal Bilimler Enstitüsü Lisans Tezi, Nevşehir 2021.
- Erdoğan Göktürk, *Eski Türklerde Töre: Ortaya Çıkışı, Yayılımı ve Uygulamaları*, Ege Üniversitesi Sosyal Bilimler Enstitüsü Yüksek Lisans Tezi, İzmir 2017.
- Kafesoğlu İbrahim, *Türk Bozkır Kültürü*, Ankara: Türk Kültürünü Araştırma Enstitüsü, 1987.
- Nəcəf Əkbər N., Hüseynov R., *Parfiya (Orta dünyanın memarları)*, Bakı: Kosmo Yay, 2022.


## II.II. Türk dastanları

Bu dövrün başlıca türk tarixinin mənbələri şifahi mahiyyətdəki əsərlərdir. Şifahi mənbələrin başlıcaları əsatir, mifologiya, atalar sözləri, dastanlardır. Mifologiya mifləri araşdıran bir elm sahəsidir, nağıl mənasına gələn yunanca **"***muthos*" və ya "*mythos*" sözündəndir. Qədim yunanlar musiqi ilə söylədikləri mənzum dastan parçalarını "*epos*" adlandırırdı. Qərb dillərində dastan anlamına gələn "*epopey*" buradan əmələ gəlmişdir. Əfsanələr daha çox fövqəladə varlıqlar, möcüzəvi hadisələr haqqında olsa da, dastanlar əsas mövzu olaraq insanları götürmüşdür.

Adət-ənənələr, türklərin həyatında mühüm yeri olan törələrlə bağlı ilk yazılı mənbələr və kitabələrdə məlumatlar verilsə də, bunlarla bağlı başlıca mənbələr şifahi mənbələrdir. Türk millətinin ictimai-sosial həyatını, dövlət qanunlarını tənzimləyən törənin də şifahi qanunlar şəklində olduğu, sıradan vətəndaşdan xaqana, hər kəsin bu qanunlara əməl etmək məcburiyyətinin də olduğunu düşünsək, şifahi mənbələrin türklərin həyat tərzi və mədəniyyətinin anlaşılmasında önəmli yerə sahib olduğunu görə bilərik. Türk dastanlarında folklor nümunələrindən musiqiyə, bir çox mədəniyyət nümunəsini bir arada görmək

mümkündür. Qədim türklərdə zəngin musiqi duyumu vardır. *"Küg"* və ya *"kög"* adlanan musiqi alətilə ifadə etdikləri musiqiləri xaqanın və xalqın hüzurunda tez-tez icra edirdilər. Türk ordu sistemində musiqi və çalğı alətlərinin təsiri böyükdür.

"Bozqurd", "Qutlu Dağ", "Törəyiş", "Ərgənəkon" kimi əfsanələrdə keçən motiv və hadisələr türklərin həyat tərzini idealizə edir. Bu dastanlar türklərin dünyaya baxışını, həyat tərzini, məişət münasibətlərini, hərbi anlayışlarını, yaradılış inanclarını, dövlət, kainat və insan fəlsəfəsini əks etdirirlər. Dastan bir millətin qədim zamanlarda başından keçən önəmli hadisələrin, qəhrəmanların fədakarlıqlarının xalq dilində ədəbi şəkil alma hadisəsidir. Türk dastanlarından biri də əfsanələşmiş qəhrəman Alp Ər Tonqa haqqındadır. Firdovsinin *(Əbülqasim Həsən bin Əli Tusi; 940–1020)* "Şahnamə"sindəki Turan qəhrəmanı, türk hökmdarı Əfrasiyabdan (Alp Ər Tonqa) geniş bəhs edilir. Bu əfsanələşən qəhrəmanla bağlı türk boyları arasında əsrlər boyu müxtəlif rəvayətlər, şeirlər dolaşmış, Qaraxanlı, Səlcuqlu kimi türk xanədanları öz şəcərələrini Alp Ər Tonqaya bağlamağa çalışmışdır.

Qurd türk əfsanələrində totemik xarakterdir. Göytürklərin hökmdar zümrəsi olan Aşina ailəsinin atası dişi qurd hesab edilir. İbrahim Kafesoğlunun *(1914–1984)* Çin mənbələrinə əsaslanaraq verdiyi məlumatlara görə, Göytürk xaqanları əcdad xatirəsinə ehtiram əlaməti olaraq hökmdar çadırlarının önünə qızıl başlı tuğ qoyurdular ki, bu da qurd başlı bayrağın xaqanlıq əlaməti olduğunu göstərirdi. Göytürklərdən əvvəl hun, tabqaç və töleslərdə qurddan törəmə, dişi qurdun südü ilə bəslənmə, qurd dağına qurban vermə kimi əfsanələr türklərin İslamdan əvvəlki totemləri arasında qurdun mühüm bir yerə sahib olduğunu göstərməkdədir. Əfsanələrdə qurd yol göstərən, böhranlı zamanlarda köməyə gələn heyvandır. Börü və ya Gök-börü adlandırılan bozqurd türklərin ən qədim dastanı olan



"Oğuz xaqan" dastanında da xarakterizə olunub. Əfsanə və qədim türklərin mifik dünya görüşüylə yoğrulmuş "Ərgənəkon" və ya "Gök-börü" dastanındakı Tanrının göyü və yeri yaratması, bu ikisinin arasında da insan oğlunu xəlq etməsi, insanları millətlərə ayırması və bu millətlərin içində türk millətinə heç bir millətdə olmayan fərqli hünər və məziyyətlər verməsi Orxon-Yenisey kitabələrində də işlənən başlıca mövzudur. Türk inancına görə onlar Tanrı tərəfindən seçilmiş, yer üzünü idarə etmək üçün göndərilmişdilər. Ancaq türk xalqı öz dəyərlərini unutduğunda düşmən tərəfindən cəzalandırılır. Belə bir hadisə nəticəsində türklərin ölkəsinə hücum edən düşmən hər kəsi öldürdü, ancaq bir uşaq xilas ola bildi. Tanrı bu qutlu xalq yox olmasın deyə dişi bir qurd göndərmiş və həmin qurdun nəslindən yeni bir xalq yaratmışdır. Qurddan törəmə əfsanəsini işləyən "Ərgənəkon" dastanı Göytürklərin ideoloji baxışını da əks etdirirdi. Bu dastan türklərin dünya hakimiyyəti məfkurəsini və hakimiyyət rəmzi olan qut anlayışını mərkəzə yerləşdirir.

Tarixi sənədlərdə də haqqında söz açılan əfsanələşmiş kimlik olan Hun hökmdarı Mo-tun və ya Mete xandır *(e.ə.234–e.ə.174)*. Metenin gəncliyilə bağlı Çin mənbələrinin nəql etdiyi hadisələr həm də dastanlara mövzu olmuşdur. Mete ilə Oğuz xaqanın eyni şəxs olduğu istiqamətində fikirlər də səsləndirilib. Bilindiyi kimi, Mete atası tərəfindən taxtın varisi olaraq göstərildiyi halda, ögey anasının və Hun sarayının təsirilə düşmən xalq olan tunquzlara (tunq-hu) elçi olaraq göndərilmişdir. Məqsəd Meteni ortadan qaldırıb, taxta Teomanın *(e.ə.III əsr–e.ə.209)* başqa xanımından olan digər oğlunu çıxarmaq idi. Lakin bunu bilən Mete tunquzlar ona qəsd etməyə çalışarkən xilas olub öz ölkəsinə gəlmiş və ordunun başına keçmişdir. Ordu başçısı olduğu dövrdə sistemli və nizamlı ordu təşkil edən Mete tarixdə ilk nizami ordunun banisi hesab olunur. *Sü* adlanan ordunu onluq-yüzlük-minlik və on minlik sistemlərə görə

sistemləşdirən Mete əmrə müntəzəm əsgəri sistem yaratdı. Bundan sonra atası Teomanı hakimiyyətdən uzaqlaşdırıb Böyük Hun dövlətinin əsasını qoydu. Həmin vaxt hunlara hücum etmək üçün bəhanə axtaran tunquzlar Meteyə elçi göndərib, ondan sürətli qaçan atını tələb etdilər. İki qonşu xalq arasında müharibə olmasın deyə Mete yanındakı adamların qarşı çıxmasına baxmayaraq, öz atını Tunq-hu hökmdarına göndərdi. Bundan cəsarətlənən tunquzlar bu dəfə Metenin cariyəsini tələb etdilər. Mete yenə ətrafındakı dövlət adamlarının qarşı çıxmasına baxmayaraq, öz cariyəsini Tunq-hu hökmdarına göndərdi. Azğınlaşan tunquzlar bu dəfə Metedən hunlar ilə tunq-hular arasında yer alan bataqlıq əraziləri tələb etdilər. Bu dəfə bütün Hun məmurları yararsız olan bu torpaqların Tunq-hu hökmdarına verilməsini təklif etdilər. Buna çox əsəbləşən Mete yabqu həmin dövlət adamlarının boynunu vurdurdu və belə dedi: "At və cariyə hökmdarın şəxsi mülküdür. Mən öz şəxsi mülküm üçün öz dövlətimi başqa dövlətlə müharibəyə cəlb edə bilmərəm. Ancaq torpaq bir millətin mülküdür. Onu kimsəyə peşkəş çəkə bilmərəm". Bundan sonra Mete ordunun başına keçib Tunq-hu dövlətinə hücum etdi və bütün tunquzları qılıncdan keçirərək, təsirsiz hala gətirdi. Xan sülaləsi dövrü mənbələri Metenin bu davranışını geniş təsvir ediblər.

Şifahi olaraq nəsildən-nəslə ötürülən bu dastanların əksəriyyəti daha gec tarixlərdə yazıya köçürülmüş və müxtəlif variantları təsbit edilmişdir. Türk mədəniyyətinin şifahi mənbələri haqqında araşdırmalar XIX əsrin ikinci yarısından başlamışdır. İlk dəfə XX əsrin əvvəllərində Z.Göyalp bu dastanları milli kimlik anlayışı baxımından və sosioloji cəhətdən təhlilini aparmışdır. Tarixi baxımdan Bəhaəddin Ögəl və dini baxımdan kazanlı maarifçi Əbdülqədir İnan *(Abdülkadir Süleyman İnan; 1889–1976)* türk dastanlarını tədqiq etmişdilər. Həmin tədqiqatçılar türk dastanlarını iki yerə ayırıblar:



– *Türklərin müsəlmanlaşmadan əvvəlki dövrə aid dastanları;*
– *Müsəlmanlaşdıqdan sonra ortaya çıxan dastanları.*

Müsəlman olmayan türklərə aid dastanların təməl motivləri yaradılış, kosmoqoniya və qəhrəmanlıq mövzularıdır.

Yaradılış motivli dastanları tədqiqatçı Bəhaəddin Ögəl dörd qrupa ayırıb:

1. Rus tədqiqatçı Vasili Verbitski (Васи́лий Иванович Вербицкий; 1827–1890) tərəfindən toplanan "Yaradılış" dastanı;
2. Yakutiya ərazisində toplanmış "Yaradılış" dastanı;
3. Rus türkoloq V.V.Radlov (Васи́лий Васи́льевич Ра́длов; 1837–1918) tərəfindən toplanan Altay bölgəsi "Yaradılış" dastanı;
4. Altay bölgəsi "Yaradılış" dastanları.

Müsəlmanlıqdan əvvəl ortaya çıxan digər türk dastanları aşağıdakılardır:

– Sakalara aid olduğu təxmin edilən "Şu" (Çu) və "Alp Ər Tonqa" dastanları;
– Göytürklər dövründə formalaşan "Ərgənəkon", "Bozqurd", "Qurddan törəyiş" kimi adlar daşıyan türk dastanları;
– Uyğur türklərinə aid "Törəyiş", "Köç" və Mani dininin uyğurlar tərəfindən qəbul edilməsindən bəhs edən uyğur dastan parçaları;
– Moğollar dövründə yazıya köçürülən, ancaq kökləri skiflər dövrünə qədər uzanan "Oğuz xaqan" dastanı. "Oğuz xaqan" dastanının 31-dən çox versiyası olub, ümumi mənada "Oğuznamə"lər adlanır.

Türk dünyasında müsəlmanlığın yayılmasından sonra ərsəyə gələn dastanlar arasında "Manas", "Alpamış", "Battalnamə", "Danışməndnamə", "Dədə Qorqud", "Hz. Əli Cəngnamələri", "Saltuqnamə", "Saltuq Buğra xan" dastanı, "Koroğlu" və digər türk dastanları yer alır.

Türkiyəli tarixçi-ədəbiyyatşünas alim Fuad Köprülü *(Mehmet Fuat Köprülü; 1890–1966)* İslamdan əvvəl ərsəyə

gələn türk dastanlarını təşəkkül etdikləri coğrafi sahələrə görə üç qrupa ayırmışdır:

1. *Altay-Abakan və ya Yenisey bölgəsi.* Bu dastanlar şaman inclarına sahib Altay-Abakan qəbilələrinə məxsusdur. Bu dastanlar yarımköçəri və yarımoturaq həyat tərzinə sahib türklərin həyatını əks etdirir. Həmin türklər dəmirçiliklə də məşğul idilər.
2. *Bozqırlar bölgəsi.* Ən qədim milli dastan parçaları bozqır bölgələrində yaşayan türklərə aiddir. "Ərgənəkon", "Törəyiş", "Alp Ər Tonqa" kimi dastanlar bu coğrafi sahənin dastanlarıdır. Bozqır sahəsi dastanları nisbətən gec dövrlərdə Monqolustan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan bozqırlarında meydana gələn, yavaş-yavaş İslami elementlərin də yer almağa başladığı dastanlardır. Onlara "Manas" dastanı ən gözəl nümunədir.
3. *Tarım (əkinçilik)-Sırdərya bölgəsi.* Əsasən Sırdərya bölgəsində məskunlaşan oğuz, qarluq kimi türk boylarının həyatını əks etdirirlər.

Dünya kitabxanalarında çox sayda variantları, nüsxələri tapılan türk dastanlarının başlıcaları aşağıdakılardır:

**"Oğuz xaqan" dastanı**. Bilinən tək nüsxəsi Paris Milli kitabxanasındadır. XIII əsrdə uyğur hərflərilə yazılmış bu nüsxə Villi Banq *(Johann Wilhelm Max Julius Bang-Kaup; 1869–1934)* və Rəşid Rəhməti Arat *(Abdürreşid Rahmeti Arat; 1900–1964)* tərəfindən öncə almanca, sonra da türkcə nəşr edilmişdir. Bu nüsxə İslamöncəsi türk həyatının motivlərini özündə ehtiva edir. Ancaq Fəzlullah Rəşidəddinin *(Əbül-Xeyr Xacə Rəşidəddin Fəzlullah ibn İmadəddövlə Əbül-Xeyr ibn Müvəffəqiddövlə Əli ət-Təbib əl-Həmədani; 1247–1318)* "Came ət-təvarix" əsərində nəql etdiyi XVII əsrdə Əbülqazi Bahadur xanın *(1603–1663)* da türkcə yayınladığı "Oğuz xaqan" dastanı və ya "Oğuznamələr" də vardır ki, bunlar daha çox İslami dövrün izlərini daşımaqdadır. Bu dastanda Oğuzun soyu, dünyaya gəlişi, həyata keçirilən fəthlərlə



bağlı maraqlı rəvayətlər yer almışdır. Dastanın qəhrəmanı Oğuz xaqanın əslində Hun dövlətinin məşhur xaqanı Mete xan olduğu yönündə bəzi tarixçilərin irəli sürdüyü fikirlər vardır. Osman Karataya *(d.1971)* görə, Oğuz xaqan bir nəfərin adı deyil, oğuzların xanı deməkdir və qurucu kimliyə, türklərin atasına işarədir. Oğuzlar sakaların nəvələridir. Onlar kimi Xəzərin qərbindən hərəkət edərək Yaxın Şərq fəthlərini həyata keçirmişdirlər. Sakaların oğuzlara nəql etdikləri bu dastan parçaları böyük ehtimalla, yenə sakaların qalıntılarından bir xalq olan parfların Türküstandan gələrək İrandakı son Makedoniya hakimiyyətini devirməsi və e.ə.250-ci ildən etibarən burada yeni bir xanədan qurması ilə birlikdə İrana da ötürülmüş, Sasani dövründə yazıya köçürülmüş, İslamın ilk dövrlərində də "Şahnamə" kimi qarşımıza çıxmışdır. İran hökmdarı Firudinin bir çox əməliyyatları Oğuz xaqana bənzəməkdədir.

**"Alp Ər Tonqa" dastanı**. Bu dastanla bağlı ilk məlumatlar Mahmud Kaşğarlının divanında yer almışdır. Miladdan əvvəl VII əsrdə yaşadığı təxmin edilən Saka türk hökmdarı Al Ər Tonqanın qəhrəmanlığı haqqındadır. İran mənbələrinin Əfrasiyab adlandırdığı Turan qəhrəmanının Alp Ər Tonqa olduğu haqda M.Kaşğarlının "Divani lüğət-it-türk"ündə məlumat vardır. İslamdan əvvəl də, sonra da türk hökmdarları soylarını Alp Ər Tonqaya, Oğuz xaqana dayandırmağı özlərinə böyük bir fəxr hesab etmişlər. İran milliyyətçiliyi prizmasından dəyərləndirilsə də, Firdovsinin "Şahnamə"sində Alp Ər Tonqa və dastan haqqında daha geniş bilgilər yer almışdır. "Şahnamə"də mövzu İran-Turan mübarizələri kontekstində ələ alınmışdır. Alp Ər Tonqanın atası Peçeneq xaqandır.

**"Ərgənəkon" dastanı.** Bu dastanı bizə nəql edən əsas iki mənbə Rəşidəddinin "Came ət-təvarix" və Əbülqazi Bahadur xanın "Şəcərəyi-tərakimə" əsərləridir**.** Hər iki əsərdəki variantlar bir-birindən çox az fərqlənməkdədir. İslami dövrdə yazıya köçürüldüyü üçün az da olsa dövrünün

mədəni, fikri izlərini də daşımaqdadır. "Ərgənəkon" dastanı türklərin yenidən doğuluşundan bəhs edir. Çin mənbələrində təsbit edilən "Gök börü" əfsanəsində keçən hadisələr və əfsanəvi "Qurd ana" motivi İslami dövrün anlayış və yanaşmaları ilə dastanda yenidən şərh edilmiş, əfsanə "Came ət-təvarix"in məşhur yazarı Fəzlullah Rəşidəddin tərəfindən monqollaşdırılmışdır. Sonra Əbülqazi Bahadur xan tərəfindən "Şəcərəyi-tərakimə" əsəri ilə dilimizə çevrilmişdir. "Ərgənəkon" dastanının müxtəlif mənbələrdə təsbit edilən 5 fərqli variantı mövcuddur. Bu mənbələrin ilk üçü Çin sülalə salnaməsindən götürülmüşdür və İslami dövrün təsirinə məruz qalmamışdır. Mənbələrin hər üçündə də əfsanə göytürklər arasında cərəyan etməkdədir. Sonrakı illərdə yazılan "Came ət-təvarix"də əfsanənin qəhrəmanları monqollaşdırılaraq qədim türk inancının izləri dastandan silinməyə çalışılmışdır. Bu mətnlər arasında iki əsas fərq vardır. İlk üç mətndə Aşina soyunun mənşəyindən bəhs edilir, son iki mətndə monqol xanlarının törəməsi təsvir edilmişdir. İkinci əsas fərq ondan ibarətdir ki, əvvəlki mətnlərdə mənşəyinin insan və dişi qurd, sonrakı mətnlərdə isə erkək və dişi cinslər arasında baş verdiyini göstərir.

**"Bozqurd" dastanı.** Göytürklər dövründə ortaya çıxan, türklərin əcdadları, çoxalaraq yayılmaları ilə bağlı məşhur qurd əfsanəsini özündə ehtiva edən bir dastandır. Dastana görə, türklər bir müharibədə məğlub olurlar, düşmən əsgərləri onları acımasızca qətl edir, ancaq on yaşlarında bir oğlan uşağını sağ buraxırlar. Düşmən əsgərləri son türk də acılar içində ölsün deyə onun qollarını və ayaqlarını kəsərək bataqlığa atır. Daha sonra təkrar gəlib o uşağı da öldürmək istəyirlər. Lakin bir dişi qurd uşağın boynundan dişləri ilə tutub qaçıraraq onu heç kimin tapa bilməyəcəyi bir mağaraya aparır. Yaralı uşağı sağaldır, qidalandırır, böyüdür. Göytürklərin əcdadları bu dişi qurdun nəslindən törəmişdir. Daha sonra çoxalaraq, ordular yaradan göytürklər



düşmənlərinə hücum edərək əcdadlarının intiqamını aldılar. Öz suverenliyini bərpa edən türklər əcdadlarının xatirəsinə, onlara ehtiram əlaməti olaraq həmişə çadırlarının önünə qurdbaşlı bayraq sancmışdır. Bozqurdun türklərin simvolu olmasının başqa bir səbəbi də bu heyvanın azadlığına düşkün olmasıdır. Türklər azadlığa böyük əhəmiyyət verdikləri üçün özlərini bozqurdla eyniləşdirmişlər.

**"Manas" dastanı.** Bir şəkliylə Qırğız türklərinin dövlətçilik tarixini də özündə əks etdirən bir türk dastanıdır. Qırğız türklərinin manasçı xalq ozanları vasitəsilə nəsildən-nəslə ötürülərək günümüzə qədər gətirdiyi, yaşatdığı bir əsərdir. Dastanda həm qədim türk inanc və adət-ənənələrinin, həm də İslamiyyətin izləri mövcuddur. Rəvayət edilmə şəkli etibarilə bir neçə nüsxəsi vardır.

**"Dədə Qorqud" dastanı.** "Kitabi-Dədə Qorqud" oğuz türklərinin tarixi baxımından əsas qaynaq hesab olunur. Ona görə də türk dilinin oğuz qolunda danışan bütün türklər öz filoloji və tarixi keçmişini öyrənmək üçün bu tarixi qaynağa müraciət etmək məcburiyyətindədirlər. Bu abidə sadəcə filoloji-ədəbi bir dastan deyil, özündə zamanın müxtəlif dövrlərinə dair izləri mühafizə edən tarixi qaynaqdır. "Kitabi-Dədə Qorqud"un indiyə qədər, sadəcə iki nüsxəsi məlum idi. Bunlardan birincisi, Drezden nüsxəsi, ikincisi isə, Vatikan nüsxəsi idi. Abidəmizin Drezden nüsxəsi *"Kitabi-Dədə Qorqud əla lisani-tayifeyi oğuzan"* adlanır və 12 boydan ibarətdir. İkinci nüsxə – Vatikan nüsxəsi isə *"Hekayəti-Oğuznameyi-Qazan bəg və ğəyri"* adlanır və Qazan xan ilə bağlı 6 boydan ibarətdir. 2019-cu ilin aprel ayında ulu abidənin üçüncü nüsxəsi – "Türkmən Səhra" nüsxəsi elm aləminə məlum oldu. Bu əlyazma nüsxəsinə 34 soylama, bir tam boy və bir boyun özəti daxildir.

"Kitabi-Dədə Qorqud"un həm Drezden, həm də Vatikan əlyazma nüsxəsi oğuz türkcəsində, ərəb qrafikalı əlifba ilə yazılmışdır. Drezden nüsxəsinə nəzərən Vatikan nüsxəsi tamamilə hərəkəlidir və əlyazmanın xəttatı onu



*"Kitabi-Dədə Qorqud" dastanının Drezden nüsxəsinin titul vərəqi və ilk səhifəsi*

hazırlayarkən səliqəli davranmışdır. Drezden nüsxəsində isə, sadəcə üç səhifədə hərəkə mövcuddur. Həm Drezden, həm də Vatikan əlyazması nəsx xətti ilə yazılıb. Hər iki əlyazmada müqəddimə bölümü mövcuddur. Həm Drezden, həm də Vatikan əlyazmasının hər səhifəsində 13 sətir olsa da, Drezden nüsxəsinin ikinci səhifəsində 12 sətir yer almışdır. Drezden nüsxəsi 152 vərəq (yəni 304 səhifə), Vatikan nüsxəsi isə 49 vərəq (yəni 98 səhifə) olaraq dövrümüzə qədər gəlib çatmışlar. Fonetik baxımdan Drezden nüsxəsi Azərbaycan türkcəsinə, Vatikan nüsxəsi isə Doğu Anadolu türkcəsinə daha yaxındır.

"Kitabi-Dədə Qorqud"un ilkin olaraq araşdırılması təxminən XVIII əsrin 60–70-ci illərində Almaniyada başladı. Abidəni ilk dəfə əlinə alan və tədqiq edib vərəqləyən şəxs Yohann Yakob Reyske *(Johann Jakob Reiske; 1716–1774)* olmuşdur. Henrix Leberext Fleyşer *(Heinrich Leberecht Fleischer; 1801–1888)* kitabın adını 1831-ci ildə elə özünün tərtib etdiyi və Drezden şərq əlyazmalarının daxil olduğu *"Catalogus Codicum Manuscriptorum Orientalium Bibliothecae Regiae Dresdensis"* ("Drezden Milli Kitabxanası Şərq Əlyazmaları Kataloqu") adlı latınca kataloqa daxil etdi. Bu, kitabın ilk düzgün tədqiqatı olmaqla birlikdə onun araşdırılmasında önəmli addım idi və gələcək tədqiqatlara yol açmış oldu. Henrix Fridrix fon Dies *(Heinrich Friedrich von Diez; 1751–1817)* "Kitabi-Dədə Qorqud" əlyazması üzərində ilk geniş araşdırma aparan avropalı alimdir. H.F.Dies Dədə Qorqudu şəxsiyyət kimi qəbul edən ilk avropalı alim idi.

"Kitabi-Dədə Qorqud" Azərbaycanda XX əsrin 30-cu illərindən tədqiqat obyektinə çevrilmişdir. Abidəni ilk tədqiq edənlər Atababa Musaxanlı *(1905–1941)*, İsmayıl Hikmət *(1889–1967)*, Əmin Abid Gültəkin *(Əhmədov Əmin Mütəllib oğlu; 1898–1937)* olub. XX əsrin 30-cu illərindən etibarən Həmid Araslı *(1909-1983)*, Əbdüləzəl Dəmirçizadə *(1909–1979)*, Əli Sultanlı *(1906–1960)*, Məhəmmədhüseyn Təhmasib *(1907–1982)* diqqət yetirmişlər. XX əsrin 70-ci illərindən filoloqlardan Mirəli Seyidov *(1918–1992)*, Şamil Cəmşidov *(1920-2008)*, Tofiq Hacıyev *(1936–2015)*, Süleyman Əliyarlı *(1930–2014)* bu yazılı abidəyə tarixi mənbə kimi baxmış və onu tədqiq etmişlər. "Kitabi-Dədə Qorqud"un Vatikan nüsxəsi Drezden nüsxəsinə nəzərən gec tədqiq olunmağa başlamışdır. Bu nüsxə haqqında ilkin məlumatı italyan alim Ettore Rossi *(1894–1955)* vermişdir. E.Rossi ilkin tədqiqatlarını yunan filologiyasının araşdırılmasına həsr etsə də, sonradan Roma Universitetində "Türk dili və ədəbiyyatı" ixtisası üzrə mütəxəssis olub və 1939-cu ildə bu sahədə professor adını alıb. O, özünün *"İl Kitab-i Dede Qorqut. Racconti epico-cavallereschi dei Turchi Oguz tradotti e annotati"* ("Dədə Qorqud kitabı. Oğuz türklərinin epik-qəhrəmanlıq hekayələri") adlı əsərinə abidə ilə bağlı araşdırmalarla birlikdə abidənin Vatikan nüsxəsinin foto surətini daxil etmişdir.

Vəli Məhəmməd Xocaya məxsus abidənin üçüncü əlyazma nüsxəsi "Türkmən-Səhra" 2019-cu ildə Mətin Əkici

*(Metin Ekici; d.1963)* tərəfindən yayımlanıb. Eyni tarixdə Yusuf Azmun *(d.1939)* tərəfindən ikinci bir nəşri gerçəkləşdi. Hazırda yeni nüsxə haqqında 12-dən artıq kitab yazılmışdır. Nüsxənin Azərbaycanda nəşrini gerçəkləşdirən Bayram Quliyevə *(d.1986)* görə, "Türkmən Səhra" nüsxəsi kənarları xəfif eroziyaya uğramış 236 x 146 millimetr həcmində 31 vərəqdən (62 səhifə) ibarətdir və bəziləri istisna olmaqla, nüsxənin hər səhifəsində 14 sətir mövcuddur. Bəzi səhifələrdə tamamlanması nəzərdə tutulan boşluqlar səbəbindən sətir sayı 14-dən az ola bilər. Əlyazmanın qəhvəyi rəngli səliqəsiz tikilmiş və üzərində erroziya və yırtıqların olduğu cildi mövcuddur. "Türkmən Səhra" nüsxəsi oğuz türkcəsində, ərəb qrafikasının nəsx xətti ilə (az hallarda nəsx-şikəstə xətti ilə) qamış qələmlə yazılmışdır. "Türkmən Səhra" əlyazma nüsxəsinin hazırlanmasında qara və qırmızı mürəkkəbdən və səhifələmədə rəddadədən istifadə olunmuşdur. Xatırladaq ki, rəddadə həm Drezden, həm də Vatikan əlyazma nüsxələrində mövcuddur.

"Kitabi-Dədə Qorqud"un yaşını müəyyən etdikdə bir neçə məqama diqqət yetirmək lazımdır. Abidədə bəhs olunan oğuzların yaşadığı dövr ilə hadisələrin yazıya alınması və sonradan onların vahid bir kitab halına salınması müxtəlif zamanlarda baş verdiyindən, abidənin yaşının qiymətləndirilməsi zamanı həssas davranmaq tələb olunur. "Kitabi-Dədə Qorqud"un boylarında tarix öncəsinə dair izlər də mövcuddur, XII əsrə aid izlər də. Bu, abidənin yaşının həmin dövrə aid olduğunu göstərən əsas amil deyildir. Boyların yazıya alınması da abidənin yaşının müəyyən edilməsi üçün yetərli deyildir. Çünki boyların hər biri ayrılıqda bir ozan tərəfindən qeydə və yaxud yazıya alınmış, sonradan bu hissələr toplanaraq bir kitab halına salınmışdır. Məhz ona görə də bu abidənin konkret bir müəllifi yoxdur, mövcud əlyazmalarda isə redaktorun adının yazılmasını lazım bilməmişlər. Son tapılan "Türkmən Səhra" nüsxəsində sadəcə iki boyun mövcud olması bu fikri



bir daha təsdiqləyir. Abidənin yaşı, əsasən bu boyların bir yerə toplanılıb və kitab halına salındığı zamandır. Eyni zamanda bu da düşündürücü faktdır ki, kitab nə zaman tam olaraq hazır oldu, boyları toplandı və cild halına salındı.

**Olonholar.** Saxa türklərinin qəhrəmanlıq dastanıdır. Mifik savaşçılar, qəhrəmanlar və onların mənfi ruhlarla mübarizəsi olonholarıın əsas motivləridir. Dastanlar türklərdə musiqi duyumunun, incəsənətinin inkişafında da mühüm rol oynamışdır. Qopuz, təbil, dəf, saz, boru, zurna, tənbur kimi musiqi alətlərindən türk dastanlarının anlatımlarında istifadə edilməkdə, sazlı-sözlü məclislər təşkil edilməkdədir.

Türk dünyasının fərqli bölgələrində ortaq motivlər, dəyərlərlə bəzənən türk dastanlarının nəsillərdən-nəsillərə ötürülməsində heç şübhəsiz ozanların misilsiz xidmətləri olmuşdur. Həmin ozanlar qırğızılarda "çomokçu", "manasçı", "axınçı", Altay və Xakasya türklərində "xayçı" və ya "kayçı", qazax və qaraqalpaqlarda "cırav", özbək və türkmənlərdə "baxşı", tatarlarda "çiçən", Azərbaycan türklərində "aşıq" adlandırılmışdır. Əksər türk dastanlarını birləşdirən anlatım üslubu və müştərək motivlərdir. "Oğuz xaqan" dastanından "Kitabi-Dədə Qorqud"a ad qoyma, baş qəhrəmanın fövqəladə bir güc və qəhrəmanlıq sahibi olması, işğalçılara qarşı mübarizə, azadlıq və istiqlallarına düşkünlük, yuxu, at, qurd kimi motivlər hamısında vardır.

## II.III. Suallar

1.Qədim türk həyatı neçə təməl üzərində qurulmuşdu?
2.Törə anlayışı nədir?
3.Qədim türk dastanlarında hansı ortaq motivlər var?
4.Atın türk mədəni həyatında nə kimi rolu var?
5."Dədə Qorqud" haqqında Azərbaycanda hansı tədqiqatlar var?

## II.IV. Tapşırıqlar

1.Türk kimliyinin beş təməl əsasını açıqlayın.
2.Süvari kimliyinin dünya hərbi-siyasi tarixindəki təsirlərini araşdırın.
3."Ordu-millət" anlayışının əsaslarını şərh edin.
4.Azərbaycanda yayğın olan dastanları araşdırın. Oradakı motivləri ortaq türk dastanlarındakı motivlərlə müqayisə edin.
5. "Kitabi-Dədə Qorqud"un bir boyunu araşdırın. Oradakı sosial həyat, əxlaqi düşüncə, məişət hadisələri haqqında bir tezis hazırlayın.
6.Ortaq türk dastanlarını qruplaşdırın.

## II.V. Terminlər

*kün* – qədim və ilkin orta əsrlərdə *"xalq"* mənasında termin olub *"gün, günəş"* sözündən törədiyi iddia edilir.

*törə* – türklərdə *"qanun"* mənasında olub xalqın əxlaqi, siyasi, sosial davranışlarını müəyyən edən şifahi qaydalar və qanunlara verilən ümumi ad.

*tenqriçilik* – müsəlmanlıqdan əvvəl türklərin inandıqları təktanrılı inanc sisteminə verilən ad. Mərkəzində bir ilahi gücün yer aldığı tenqriçilik anlayışı türkcə *"Tenqri" (Tanrı)* sözündən yaranıb.

*iduk* – müqəddəs. Qədim türklərdə məcazi və maddi mənada müqəddəs dəyərlər üçün işlədilən ifadədir. İduk qut "müqəddəs tale", *iduk yir* "müqəddəs yer" və s.



*qut* – səadət. *"İlahi xoşbəxtlik"* mənasında Tanrı tərəfindən seçilmiş insanlara bəxş edilən tale. Hökmdarlar *"Tanrı qutu"* adlanan həmin taleyin mənsubları sayılırdı.

*el* – dövlət. Qədim türkcədə *"il"* şəklində də keçən bu ifadə dövləti və müəyyən bir ərazidə yaşayan türk xalqlarının bağlı olduqları siyasi-idari sistemi ifadə edirdi.

ülüş – ölkə. Əsasən hökmdar və onun ailəsinin nəzarətində idarə olunan inzibati ərazi vahidini ifadə edən termindir. Türkcədən monqolcaya *ulus* olaraq keçmişdir.

*oksızlık* – sərbəstlik. Siyasi-idari bir termin olub türklər üçün *"müstəqilliyi"* ifadə edirdi.

*el-gün* – dövlət-xalq.

*törə tini* – qanun ruhu.

*Üçüncü fəsil*

# TARİXƏ GİRİŞ



## 3.1. TÜRK TARİXİ VƏ MƏDƏNİYYƏTİ HAQQINDA NƏZƏRİYYƏLƏR

Müasir tarixşünaslıq, etnoqrafiya və sosiologiya elmləri *etnik bir kimliyi* (*ethnie*) tərif edərkən başlıca ölçü olaraq *"ortaq ata əfsanəsini, tarixləri və mədəniyyətləri olan, yurd və ünsiyyət hissi formalaşmış, bir ortaq ada sahib insanlar cəmiyyətini"* əsas qəbul edir. Bu, çox vaxt *linquistik* əsasları əsas şərt kimi qəbul edən, XIX əsrdə formalaşmış və modern insanın təfəkkürünə uyğun bir anlayışdır. XIX əsrdən əvvəlki dövrlər üçün bu anlayışların heç bir əhəmiyyəti yox idi. Bu təsəvvürlər *avropamərkəzli* tarix anlayışının təsirilə yaranmışdır. Bu anlayışa uyğun olaraq XIX əsrin ikinci yarısından etibarən tarixşünaslıq elmində türklərin mənsub olduğu mədəniyyət (kultura) haqqında çox sayda nəzəriyyələr və fikirlər səsləndirilmişdir.

*Culturae* sözü XIX əsrdən etibarən sadəcə oturaq mədəniyyətləri ifadə edən, bir xalqın texniki, sosial, bəşəri tərəflərini əks etdirən mənada işlənməyə başlandı. Bu mənada Avropada "əsas və mərkəzi" kultur olaraq tərif edilərkən,

digər xalqların bağlı olduğu mədəniyyətlər *asalaq* (ovçuluq, toplayıcılıq), *ziraat* (kəndli), çoban (bəsləyici), çöl (bədəvi), *meşə* kulturları olaraq tərif edildi.

Bu kontekstdə türk kulturu çoban-çöl arasına sıxışdırıldı. Amma bu terminin doyurucu olmaması səbəbindən 1940-cı illərdən sonra tarixşünaslıqda yeni terminlər və təriflər ortaya çıxmağa başladı. Nəticədə, türk mədəniyyəti və ya kulturası haqqında 7 nəzəri baxış irəli sürüldü:

– *Bozqır mədəniyyəti;*
– *Çoban mədəniyyəti;*
– *Qonar-köçər mədəniyyət;*
– *Atlı mədəniyyəti;*
– *Köçər-evli mədəniyyət;*
– *Dəmir mədəniyyəti;*
– *Kurqan mədəniyyəti.*

***Bozqır*** coğrafi bir termindir. Otlaq, sulaq və ovalıq əraziləri ifadə edən bu termin rus tarixşünaslığında *step* adlanır, 1960-cı illərdən etibarən Rusiya türkologiyasında ön plana çıxaraq türkləri ifadə edən əsas kultural termindir. Qərb terminologiyasında *steppe* olaraq ifadə olunan bu termin Rene Qrossetin *(René Grousset; 1885–1952)* "Bozqır imperatorluğu" (*l`Empire des Steppes*, Paris 1939) adlı əsərindən etibarən populyarlaşdı.

Coğrafi olaraq *bozqır* Avrasiyanın şimal və cənub zolaqları arasında, şərqdə Mancuriyadan qərbdə Karpat dağlarına qədər uzanan geniş ərazini əhatə edir. Bu ərazi yerinə görə solğun, şabalıdı və qara torpaqları ilə şimalın tayqa zolağından, cənubda ovalıqlar üzərindən Qafqaz və Mərkəzi Anadoluya, Hinduquş və Himalay ətəklərinə qədər uzanır. İllik yağış miqdarı orta hesabla 500-550 mm-in altında olmayan geniş yaylaqlar qurşağını təşkil edir. Bozqır əraziləri yaylaq və qışlaq olaraq mövsümlük xüsusiyyətlər əks etdirən iqlim şərtlərinə sahibdir.

Bozqır at, qoyun, keçi, inək və dəvə sürülərinin saxlanması üçün ən əlverişli ərazidir. Hər cinsdən heyvanın



saxlanması üçün uyğun iqlim şərtlərinə sahib olan bozqırın bitki örtüyü bol və zəngindir. Saysız bitki növlərinin bozqırda yetişməsi hər bitkinin öz heyvan profilinin formalaşmasına yol açması baxımından əlamətdardır. Məsələn, at qaya çatlaqlarında yetişən incə dağ otlarını, dəvələr tikanlı otları və qış aylarında ağac budaqlarını, qoyun ətirli otları sevərək yeyir. Məhz bu səbəbdən bozqırda hər heyvanın qidalanacağı coğrafi sahələr mövcuddur. Hər bitkinin yetişməsinə əlverişli ərazisinin olması heyvan cinslərinin sahəsinin də müəyyənləşməsinə şərait yaradır. Bozqır səthindən aşağıda yer alan və ya bozqırın sahil qurşağını təşkil edən çay sahili ərazilər, vadilər, sərt küləklərdən qoruyan dağ və qayalıqlar arasındakı dar ovalıqlar qışlaqlar üçün uyğun olduğu kimi, yanacaq cəhətdən də bol materiallara sahibdir. Yay aylarında aran bölgələrin tərk edilməsinin başlıca səbəbi istilər deyildir. Başlıca səbəb heyvan sürülərini həşəratlardan, milçəklərdən (at milçəyi, ağcaqanad, tatarcıq və s.), gənələrdən, istiliklə bağlı heyvanlarda yaranan müxtəlif dəri xəstəliklərindən qorumaqdır. Bu səbəbdən yay aylarında heyvan sürüləri daha yüksək ərazilərə, yaylaqlara qaldırılır, yüksək dağlıq yamaclarda otladılır.

Bozqır həyatı insandan mükəmməl şəkildə təbiət haqqında məlumatlı olmağı tələb edir. Bozqır insanı təbiəti çox yaxşı tanıyırdı. Məsələn, bozqır insanı bahar ayında sürünü dağ yamaclarının günəşə baxan hissəsində otladırdı. Çünki həmin yerlərdə günəşin təsirilə qarlardan süzülən sular vasitəsilə təzə və bol otlar bitirdi. Bozqır insanı dağ yamaclarına istiliyin təsirini artırması ilə mərhələli şəkildə çıxırdı. Belə ki, günəşin otları yandırıb saraltmağa başladığı bahar aylarının sonlarında bozqırlılar daha yüksək yamaclara köç edərək buz kütlələrinin kənarlarına qədər irəliləyirdilər. Payız aylarında yenidən vadilərə doğru çəkilirdilər. Payızın ilk yağışı ilə birlikdə yaşıllaşan vadilər, dar dağ boğazları və vadi aralıqları sürülər üçün ən

məhsuldar yerlərdi. Bütün bunlar bozqır insanından ilin mövsümlərinə görə bölgənin keçirdiyi bütün təbii xüsusiyyətləri bilməyi tələb edirdi. Sadəcə təbiəti deyil, günəş sistemini, yerin quruluşunu, geoloji xüsusiyyətlərini, gələcək qışın necə keçəcəyini əvvəlcədən müəyyən edib, ona uyğun hərəkət etməyi vacib qılırdı. Köçərilərin astronomiya və astrologiya ilə bu qədər iç-içə olmasının altında yatan amillər məhz bu həyat tərzindən qaynaqlanırdı.

***Çoban*** kulturu birbaşa heyvandırlıqla bağlı termindir. Çobanlıq demək olar ki, bütün bölgələrdə mövcuddur. Amma iqtisadiyyatı və həyat tərzi heyvandarlığa bağlı olan cəmiyyətlərdə çobanlıq yeganə məsləkdir. Çobanlıq heyvanlar üçün mövsümə uyğun gərəkən qida axtarışına dayalı qonar-köçər bir həyat tərzidir. Heyvan saxlamaqla çobanlıq eyni olmadığı kimi ovculuq-balıqçılıqdan da tamamilə ayrılır. Ovçu-balıqçı xalqlar təbiətin onlara bəxş etdiyi neməti istədikləri kimi xərcləyirlər. Heyvandarlıqla məşğul olanlar isə, sadəcə əhlilləşdirilmiş heyvanları seçərək onları saxlamağa üstünlük verirlər. Çobanlığın isə tək bir məqsədi vardır. Çobanın rolunu sürü təyin edir. Çobanlıq fiziki gücdən çox, diqqət və nəzarət tələb edən bir məsləkdir. Bu məsləkdə idarəetmə, əmretmə və hakimiyyət jestləri yüksəkdir. Çobanın sürüsü ilə münasibəti tamamilə praqmatik təməllərə əsaslanır, fayda və məntiq prinsipləri ön planda gəlir. Çoban sürülərin böyük otlaqlarda dolaşdırılması, otladılması, bir araya toplanması, yatacaqları yerlərin seçilməsi, idarə edilməsi, sürü ilə dialoq (müəyyən səslərlə, türkülərlə, hətta musiqi alətləri ilə) qurulması, sürünün istiqamətini təyin etmək və gərəkdikdə dəyişdirmək, sürünü təhlükələrdən qorumaq və xəbərdar etmək, sürünün xəstəliyini bilmək, sağlamlığını düşünmək, sürünün çoxalmasını idarə etmək kimi bir növ *sürü idarəçiliyini* aparırdı. Çobanlıq türklərin kulturoloji həyat məşğələsi idi. Türk leksikologiyasında çox sayda çobanlıqla bağlı kulturoloji terminlər və ifadələr mövcuddur.



Ənənəvi türk təbabətində, inanc sistemində, ictimai həyatında çobanlıqla bağlı terminologiya belə bir həyatın güclü əsaslarından xəbər verir. Hətta türk dilində bol miqdarda çobanlıqla bağlı zooloji, bioloji, tibbi, astronomik, ədəbi və kulinariya terminləri tapmaq mümkündür.

***Qonar-köçər kültür*** yaylaq və qışlaq həyat tərzinə söykənir. Bu həyat tərzinə sahib insanların həm yaylaq, həm də qışlaq məkanları və yarıoturaq yurdlara ehtiyacı vardır. Bu kültür üçün qış aylarında soyuqdan qorunula bilən məkanların seçilməsi vacibdir. Qışlaq olaraq seçilən məkanların açıq yurd və ya aran bölgəsi olması şərt deyildir. Bu məkan kəndlər və şəhərlər də ola bilərdi. Yəni qonar-köçər həyat tərzi tamamilə köçəri həyat tərzi deyildir və şəhər həyatını da əhatə edirdi.

Qışlaq olaraq seçilən əsas yurdlar dağların cənuba baxan yamacları və günəş görən hissələri idi. Çünki cənub yamaclarında otlar gur və uzun olurdu. Üstəlik qış aylarında cənub yamaclarına az qar yağırdı. Qışlaq olaraq seçilən məkanda qış aylarında şaxtanın çox olmamasına diqqət edilirdi. Şaxta heyvanın ayağına zərər verərdi. Dağın şimala baxan və *güz* adlanan şimal yamaclarında qarın uzun müddət qalması və gec əriməsi səbəbindən bu yerlər tərcih edilmirdi.

Qonar-köçər həyatın kulturoloji tərəfi davamlı yer dəyişdirməyə əsaslanırdı. Belə həyatın mədəni dəyərləri yer dəyişdirmə ilə dərindən bağlıdır. Heyvan sürülərinin arxasından il ərzində ən azı iki dəfə yer dəyişdirən insanlar üçün praktikanın və təbiət haqqında topladıqları təcrübələrin davamlılığının qorunması sosial həyatın və yaşam tərzinin də qorunmasını vacib qılırdı. Digər tərəfdən, insanın iqlim şərtlərinə bağlı qalması və gərəkdikdə onunla mübarizə metodlarını bilməsi vacib idi. Köç prosesi insana savaşmağı və mübarizəni öyrədirdi. İnsan ən çətin döyüşünü təbiətin şıltaqlıqları qarşısında dəyişən şərtlərə uyğunlaşmaqda verir. Baharda köç yolunda meydana gələn

daşqınlar, sellər, çığ, dolu kimi təbiət hadisələri qarşısında sürünü qorumaq, idarə etmək və hədəflənən yerə çatdırmaq güclü bir iradə, idarə və qərarlılıq tələb edirdi. Köçəri ailələrin boy şəklini almasında bu prosesin güclü təsirləri vardı. Köçərilərin dini inanc sistemində məhz bu qüvvələrin yer alması, onlara hörmət edilməsi və ya şər qüvvələr olaraq qəbul edilməsi, ruhi və ilahi güc formasını almasında davamlı şəkildə yaşadılan bu həyat tərzinin rolu inkaredilməzdir.

Belə bir həyatda boy bəylərinin hüquqlarının məhdud olduğunu vurğulamaq lazımdır. Baharda boy bəyinin idarəsi altında otlaqlara dağınıq və ya qruplar halında köç edildiyi halda, qış aylarında daha toplu və ya birlik halında hərəkət edilirdi. Çünki qış aylarında ərazilərin dar olması səbəbindən mənfəətlər toqquşa bilərdi. Bu problemi həll etmək bəyin iradəsini ön plana çıxarırdı. Belə hallarda boy bəyi ailələr arasında ədalətli seçki aparır, əraziləri doğru bölüşdürür, zərərlərin mümkün olduğu qədər bütün ailələr tərəfindən paylaşılmasına çalışırdı. Yerlərin bölüşdürülməsi, sürülərin hərəkət sahəsini müəyyən etmək bir işarə dilinin formalaşmasına yol açırdı. Damğalama, sıralama, ailələr arasında aparılan bölgüyə uyğun iyerarxiyanın qurulması uzun illər davam edən bu həyat tərzinin gətirdiyi təcrübələrin nəticəsi idi. Qonar-köçər həyatın zərurətləri ictimai həyatın yeni ünsiyyət formalarını da şəkilləndirmişdi. Şəkillənən bu formaya sədaqət həyati əhəmiyyət kəsb etdiyindən davamlılığın qorunması da o dərəcədə həyati idi.

Qonar-köçər həyat tərzində qışlaqlar yaylaqlarla müqayisədə daha birləşdirici əhəmiyyət kəsb edirdi. Çünki qışda ərazi dar və məhsuldarlıq az olurdu. Bu səbəbdən qışlaqların sərhədləri mühümdü. Qışlaq üçün seçilən məkan bölüşdürülürdü. Dərə, göl, təpə və yamac ailələr və ya boylar sırasına görə aparılırdı. Sürüsü az olan ailələr və ya sürüsü az olan soylar mərkəzə alınır, heyvan gücü çox



olanlar seçilən məkanın sərhəd zolaqlarına yerləşdirilirdi. Ərazilərin təbii sərhədləri daş, ağac, dirəklərlə müəyyən edilirdi. Təyin edilən yerlər müqəddəsdi və bu işarələrə toxunulmurdu. Üstəlik həmin işarələr soyların ortaq himayəsində qəbul edildiyindən, fərdi olaraq onların çeynənməsi ağır cəzalandırılırdı. Ən mühümü qışlaqlar bir şəxsin mülkiyyəti (bəy və ya boylar ittifaqının bəyi) hesab edildiyi halda, yaylaqlar boyların müştərək malı idi. Türk boyları arasında yaylaq ərazilərinin bölüşdürülüməsi hadisəsinə rastlanılmamışdır. İstəyən istədiyi yerdə heyvanını otarmaq haqqına sahibdi. Bozqırda yaylaq həyatı aprel ayının 15-i ilə oktyabrın 15-i arasındakı altı aylıq zamanı əhatə edirdi. Mart ayının əvvəllərində soylar və boylar qısa müddət qalacaqları bir yerə toplaşırdılar. Baharın giriş günü olan 20-22 mart arasında böyük şənlik keçirilir, yeni mövsümün gəlişi dini mərasimlərlə qeyd edilir, qurbanlar kəsilir, evlənəcək gənclər adaxlanırdı. Payızda qışlamaq üçün bir yerə toplaşdıqda heyvanların və insanların sayı müəyyən edilir, adaxlanan gənclərin toyu keçirilir, onların çadırları və sürüləri ayrılıb müəyyən edilirdi. Yaylağa gedərkən toplanan yerə *yazlaq*, qışlağa gedərkən toplaşılan yerə isə *güzlək* deyilirdi.

***Atlı*** kimliyin təməl və digər mədəniyyətlərdən ayıran başlıca xüsusiyyəti atdır. At bozqır xalqlarının həyatında e.ə.III minillikdən etibarən ən güclü vasitədir. Minik və qoşqu atları haqqında ilkin arxeoloji materiallara Balkan qəbirlərində və Andronov mədəniyyətində rastlanılıb. E.ə.II minillikdən etibarən at dini həyatda da rol oynamağa başladı. Çobanlığın inkişafında at təkanverici bir güc olmuşdu. At həm çobanların hərəkət məsafəsini genişləndirdi, həm də maneələrin azaldılmasına şərait yaratdı. Daha da əhəmiyyətlisi at, çobanlıqla məşğul olan boyların sosial münasibətlərini dərinləşdirdi. At sayəsində yeni otlaqlar haqqında qabaqcadan kəşfiyyatın aparılması, atın sürətindən yararlanaraq fərqli məkanların kəşf edilməsi, dar

məsafədə hərəkət edən köçərilərin daha uzun və uzaq məsafələrə doğru yol alması, heyvan sürülərinin hərəkəti və bir arada tutulması bozqır xalqlarının fateh xüsusiyyətlər əldə etməsində də təsirli oldu.

At manevra qabiliyyəti, döyüşlərdə düşmən cəbhəsini ildırım sürətilə dağıdıb keçməsi, böyük türk dövlətlərinin yaranmasındakı əhəmiyyəti ilə başlıca rol oynamışdır. Bozqırlarda dövlətlər at belində qurulmuş, yenə at belində süqut etmişdir. Atın bu əhəmiyyəti dövlət rəmzlərində də öz təsvirini tapmışdır. Türk dövlət tuğlarının at quyruğundan olması, İslam qaynaqlarında yer alan "siyasət" termininin atla bağlantısı buna nümunədir. Hun hökmdarı Modun (Mete) öz xaqanlığının yaranma səbəblərini sadalayarkən, "atlarının mükəmməlliyini" də qeyd edir.

Türk insanı atı ilə eyniləşmiş tək vücud bir varlıq kimidir. Latın və yunandilli mənbələrdə türklər "yarı at, yarı insan" şəklində təsvir edilir. Atın bozqırın tamamında yetişdirilən başlıca heyvan olması sonrakı mərhələdə gerçəkləşmişdir. Arxeoloji məlumatlar at yetişdiriciliyinin bozqırın şərq hissəsində daha erkən başladığını, ilk at qurbanı kultunun da Altaylarda ortaya çıxdığını görürük. Atlı kültürün skif (işquz) yayılması ilə paralel artdığı və geniş ərazilərə yayıldığı qeyd edilir. Skiflərin atlı xalq olduğu, əhliləşmiş atlarla birlikdə yabanı atlardan da istifadə etdikləri, hətta onların atları iğdiş etməyi də bildikləri haqqında məlumat verilir.

***Köçər-evli kültürü*** bozqır həyatının digər mühüm tərəfinə işarə edir. Bu, bozqır həyatında ev, çadır həyatının əhəmiyyətindən xəbər verir. Bozqır həyatı soy birliyinə əsaslanırdı. Soyun mərkəzində isə ailə yer alırdı. Türk köçəri həyatında "çadır", "ev", "araba" (*kağnı*), "ev-araba", "çadır-araba" kimi terminlərin mövcudluğu köçlərin ailələr halında gerçəkləşdiyini ortaya qoyur. Skif (işğuz) tayfalarının arabalar halında hərəkət etdiklərini Hippokrat *(Hippocrates; e.ə.460–e.ə.370)* xəbər verir. Onun məlumatına görə,



"işquz bozqırları adlanan bölgə düz, otlu, sulaq ərazidir. Ovalıqlardan böyük çaylar keçir. Bu yerlərdə qonar-köçər işquzlar məskunlaşıb. Onların belə adlandırılmasına səbəb evlərinin olmaması və arabalarda yaşamasından qaynaqlanır. Belə arabaların balacaları dörd təkərli, digərləri altı təkərlidir. Arabaların dörd tərəfi və üstü keçə ilə örtülüdür. Bəzən iki, bəzən də üç otaqlı evlər şəklində qurulurlar. Həmin keçə arabalar yağışa, qara və küləyə qarşı qorunaqlıdır. Arabaları iki və üç cüt buynuzsuz öküzlər çəkir. Həmin öküzlərin buynuzu soyuq səbəbindən çıxmır. Arabalarda qadınlar və uşaqlar yaşayırlar. Kişilər isə at üstündə hərəkət edirlər. Onları da qoyun sürüləri, mal-qara və at ilxıları izləyir. Onlar bir yerdə heyvanlarına ot tapdıqları müddət ərzində qalırlar, sonra başqa bir yerə köç edirlər".

Arxeoloji mənbələr skiflərdən əvvəl də belə həyat tərzinin mövcud olduğunu qeyd edirlər. Oğuzların ulu babası töleslər çincə mənbələrində *tinq-linq* adlanırdı. Tinq-linq adının *"təkər"* mənasına gəldiyi, bu adın onların istifadə etdikləri arabalar səbəbindən verildiyi iddia edilir. Yenə töleslərin bir qolu olan *kao-çelər* tayfası da adını istifadə etdikləri "hündür arabalar"dan alıblar. Ammian Marselli *(Ammianus Marcellinus; 330–395)* sarmatları təsvir edərkən belə yazır: "Evləri yoxdur. Xışdan istifadə etməyə (əkinçiliyə) ehtiyac hiss etmirlər. Ətlə və bol südlə qidalanırlar. Arabalarda yaşayırlar. Ağac çubuqlarını əyərək arabalarının üstünü örtürlər və ucsuz-bucaqsız çöllərdə gəzirlər. Otu bol bir yer tapdıqda dairə şəklində düzülərək arabaları ilə oraya yerləşir, qidaları bitdikdə arabalarını başqa yerlərə çəkirlər. Arabalarında uşaqlar dünyaya gəlir və böyüyür. Bu arabalar onların daimi iqamətgahıdır. Hara getsələr, doğma evləri bu arabalardır".

Bəzən araba evləri 30-40, hökmdar arabaları isə 70 öküz tərəfindən çəkilirdi. Qumuqlarda *valki* adlanan 30-40 öküz tərəfindən çəkilən arabalar mövcud idi. Qazax araba-evləri dəvələr tərəfindən çəkilirdi. Arabaların uzunluğu 8-10

metr, eni 5-6 metr idi. Yağışlı və qarlı havalarda öküzlərin arabanı çəkməsi mümkün olmadığından bəzən həftələrlə araba-evlər yerlərində qalırdı. Arabaların təkərlərinin çıxardığı səsin qarşısını almaq üçün təkər disklərinə heyvan yağı çəkilirdi.

Bozqır tayfalarının hamısının belə araba-evlərdən istifadə etmədiyi məlumdur. Araba-evlərdə hərəkət edən tayfalar skiflər, sarmatlar, hunlar, kuman/qıpçaqlar, monqollar və tatarlar idi.

Bozqır həyatının başlıca xüsusiyyəti **dəmirdir**. Dəmir bozqır xalqlarının həyatında müqəddəs, yararlı, vacib və sosial bir elementdir. Dəmir göydən gəldiyi üçün müqəddəsdir. Üstəlik dəmir sehrli güclərə sahibdir. Şumerlərin "ulu metal" (BAR.QAL) adlandırdıqları dəmir eyni zamanda AN.BAR, yəni "göy-alov" şəklində tələffüz edilirdi. Bu dəmirin "göy metalı", "ulduz metalı" olduğuna işarədir. Assurca *parzillu* sözü də dəmir mənasına gəldir. Qədim türklər arasında "Barsil" adlı bir tayfa yer alırdı ki, bu adın bir mənası da dəmir deməkdir. Het krallıq mətnlərində dəmir "göyün qara metalı" adlanır. Yunanca dəmiri ifadə edən *sideros* sözü də "parıldayan ulduz" mənasında göyü ifadə edir.

Türk həyat tərzi dəmirlə dərindən bağlıdır. Bozqırlıların atlı arabası nəqliyyat vasitəsi olaraq istifadə edilməzdən əvvəl, mərasimlərdə "keçid" (bir dünyadan başqa dünyaya köç) ritualı olaraq yer alırdı. At arabalarının üzərində yer alan göy cisimləri (Günəş, Ay diskləri) onların döyüş arabası olduğunu və dəmirin kəşfi ilə müharibə illahlarının simvolu halına gəldiyini göstərir. Dəmir, mədən əşyası sayılmırdı. Çünki mədən əşyaları torpağı təmsil edirlər. Dəmir meteorit olub, göyün simvolu idi. Dəmirin əridilərək istifadə edilməsi e.ə.4000-3500-cü illər tarixində reallaşıb.

Dəmir böyük bir mifologiya yaradıb. Metala hörmət bütün mədəniyyətlərdə və mifologiyalarda mövcuddur.



Dəmirin müqəddəs hesab edildiyi mədəniyyətlərdən biri də türklərə aiddir. Türklər dəmirçi xalq olduğu kimi, türk inanc sistemində dəmirçilik *kamlıq* (şaman) məslək hesab edilirdi. Türklərin yaşadıqları Ərgənəkon dağı dəmir dağdır. Göytürklər uzun illər ju-juanların dəmirçiləri olublar. Dəmirçi xalq olmaq qədim kültürlərdə seçilmişliyi ifadə edirdi. Ümumiyyətlə, qədim inanc sistemində hər kəs dəmirçi ola bilməzdi. Çünki dəmiri işləmək uzun rituallara tabe olub, güclü ruhları təmsil edirdi. Dəmiri işlərkən istifadə edilən çəkic, gürz, örs (zindan), körük sehrli alətlərdi və möcüzəvi varlıqlardı. Bəzən dəmirçiyə ehtiyac olmadan bu alətlərin öz-özünə işlədiklərinə inanılırdı. Afrikalı dəmirçilər həmin alətləri "ailə" (çəkic ailəsi) adlandırırdı. Bəzi Afrika xalqlarında (məsələn, Anqolada) gürzə sitayiş edirdilər. Maraqlıdır ki, Afrikadakı dəmirçilər afrikalı deyildilər. Qədim ərəblər öz dəmirçilərini başqa ölkələrdən dəvət edirdilər. Sami və hami xalqları dəmirə, çəkicə, zindana hökmdar kimi itaət edirdilər. Dəmir ocaqlarının hazırlanması dini mərasimlər vasitəsilə aparılırdı. Hətta bəzi xalqlarda ocağa qurban verilirdi. Çin məbədlərində göytürklərin əvvəllər ölülərini yandırdıqları qeyd edilir. Bunun dəmir-ocaq kultu ilə bağlı olduğu qeyd edilir. 12 heyvanlı türk təqviminin 5-ci ayında türklərin toplanıb Göy Tanrıya at və qoyun qurban etdikləri məkanın adı Tamir çayı (Dəmir) adlanırdı.

Qədim türk inancında "Göyün qəzəbi"ndən söz edilir. Tanrı qəzəbi müxtəlif şəkillərdə təcəlli edirdi. Ən təhlükəlisi *ildırım* idi. İldırım dəmir və alovu ifadə edirdi. Göytürk bayraqlarının başına qurd başı keçirilirdi. Uzun dəmir nizələrdən hazırlanan bayraqların başına taxılan qurd başlıqları qızıldan düzəldilirdi.

Çincə mənbələrdə göytürklərdən bəhs edilərkən belə deyilir: "Türklər bir neçə nəsil keçdikdən sonra mağaradan çıxdılar. Ju-juanlara tabe oldular. Altay dağlarının cənub yamaclarında dəmir işləməyə başladılar. Həmin

vaxt onların başında Aşien Şad vardı. Altay dağlarının şəkli miğfərə (dəmir başlıq, dəbilqə) oxşadığından və dəbilqə onların dilində "tu-hüe" mənasına gəldiyindən onlara *t`u-chüe* deyilir. Türk adının dəbilqə, yəni dəmirdən düzəldilmiş hərbi başlıqla açıqlanması həmin inancdan xəbər verirdi. Göytürklərin ulu babası hunların mənşəyi haqqında çincə mətnlərdə "dağları deşən Böyük Yu"dan bəhs edilir. Yu "torpağı kirlətmir, əksinə sağaldan, qut (ilahi səadət) almış mədənçidir (dəmirçidir). O, dəmirçiliyin mərasimlərini bilirdi".

Türklərin digər siyasi güclər qarşısında siyasi və hərbi üstünlük qazanmasında dəmir ən təsirli silahdır. Yüksək keyfiyyətli dəmir mədənlərinin Altay dağı ətrafındakı varlığı, burada aparılan arxeoloji tədqiqatlarla da təsdiqlənib. Şimali Altayda dəmirəritmə ocaqları, Baykalın şərqində dəmir ocaqları və dəmirəritmə texnikası haqqında qalıntılar tapılmışdır. Çincə mənbələr ən qədim dövrlərdən etibarən Yeniseyin yuxarı yatağında dəmir filizlərinin toplandığını qeyd edir. Abakan vadisində yüksək keyfiyyətli maqnit, Tuba çayı boyunca dəmir mədənləri yer alırdı. E.ə.1400-cü illərdə Altayın qərbində yüksək miqdarda dəmir əldə edilirdi. Orta Asiyada e.ə.II minillikdə dəmirçiliyin inkişaf etdiyi məlumdur. E.ə.1022-ci ilə aid çincə mətndə türkcə "kinqluq" (kınqıraq), yəni "iki tərəfi kəskin qılınc və ya bıçaq" sözünün yer alması maraqlıdır. E.ə.1200-cü ildə Çinə nüfuz etməyə başlayan qədim türklər (çular, junqlar, hunlar, tilər) dəmirçi xalqlar adlanırdı.

Herodot skiflərdə heykəli qoyulan yeganə tanrının müharibə illahı Ares olduğunu və heykəl olaraq qılınc şəklində təsvir edildiyini yazır: "Ares xaricində heykəl, məbəd, sunaq yaratma ənənələri yoxdur. ... Bu kiçik təpənin ən üstünə dəmirdən düzəldilmiş bir pala qoyurlar, bu pala çox qədim olduğu üçün her yerdə hörmətlə qarşılanır və Ares heykəli deyilən məbəd budur".



***Kurqan kultu*** türk mədəniyyətinin başlıca xüsusiyyətidir. Kurqan "qəbir", "məzar", "məzar təpəsi", "qala", "divar" kimi mənalara gəlir. Qədim türklər ulu məzarları və məzarlıqları kurqan adlandırırdı. Kurqan haqqında ilk yazılı məlumat Herodota aiddir.

Kurqan kultu Monqolustandan Anadoluya qədər geniş əraziyə yayılmışdı. Türklərin kurqan mədəniyyətinin memarları olduğu iddia edilir. Kurqanların olduğu yerlər müqəddəs sayılır və türklər həmin yerləri "ata yurdu" hesab edirdilər. Bu qəbirlərə zərər vermək, təhqir etmək ölüm və müharibə səbəbidir. E.ə.512-ci ildə Pers hökmdarı I Daraya *(e.ə.549–e.ə.485)* xəbər göndərən skif hökmdarı "ata qəbirlərinə zərər verilməsini" müharibə səbəbi saymışdı.

Çincə mətnlərdə Göytürklərdə *ata kultunun* olduğu, xaqanların hər il bəylərlə birlikdə atalar qəbristanlığına gedib qurbanlar kəsdiyi qeyd edilir. Türklərdəki kurqan anlayışı sonrakı mərhələdə türbə-məqbərə kultunun yaranmasına səbəb olmuşdur. İlk belə türbə-məqbərələrin hunlar tərəfindən inşa edildiyini çincə mənbələr qeyd edir.

Türk kurqanlarına ən yaxşı nümunə Esik (İssıq), Arzxan və Pazırıq kurqanlarıdır. Bu kurqanlar qəbirlərdən çıxarılan əşyaların zənginliklərinə görə seçilirlər. Kurqanlardan tapılan əşyalar türklərin sənət anlayışı haqqında qiymətli məlumatlar ortaya çıxarıb. Həmin sənət tarixşünaslıqda *"heyvan üslublu sənət"* adlanır.

Türk mədəniyyəti bozqır bölgəsi, çobanlıq məsləyi, qonar-köçər həyat tərzi, çadır evlər, atlı nəqliyyat və ata kultu kimi bir çox mədəniyyət ünsürünün birləşməsindən yaranmışdı. Bir-birini tamamlayan bu ünsürləri tək bir adla ifadə etmək çətindir. Bu kültür günümüzdə geniş yayılmış terminlə *bozqır mədəniyyəti* adlandırılsa da, bu termin şərti xarakter daşıyır.



## 3.2. ƏN QƏDİM TÜRKLƏR

Ən qədim türklər haqqında tarixi məlumatlar qədim Çin mənbələrində qeydə alınıb. Qədim Çin mənbələrində türklərin ulu babaları *ti* və ya *di* adlanırdı. Bu söz çincədə "qurd" başına oxşayan işarəylə yazılırdı. Həmin işarənin ti/di adının "qurd" mənasına gəldiyini, yoxsa "qurd" simvoluyla ifadə edildiyini demək çətindir. Alman sinoloq V.Eberharda görə, "qurd" türklər tərəfindən müqəddəs hesab edilən "totem" olduğu üçün "ti/di" işarəsi də onları ifadə edirdi. "*Qurddan yaranma əfsanəsi*" ilk dəfə tilər arasında qeydə alınıb.

Yaponiyalı türkoloqlar *ti, tih, tinq-linq* adlarının "türk" mənasına gəldiyini və beləcə, "türk" adının göytürklərdən çox-çox əvvəllər yarandığını irəli sürüblər. Çincə mənbələrdə yer alan əfsanəvi məlumatlara görə e.ə.7000-ci, tarixi məlumatlara görə isə e.ə.3000-ci ildən etibarən Çinin şimalında yaşayan bütün türk xalqları ümumi mənada "ti" adlanırdı. Həmin mənbələrin verdiyi məlumatlara görə, tilər çoxsaylı və hərbi cəhətdən güclü topluluqdu. Qədim Çin sakinləri onlardan çox qorxurdular və "*sarı saçlı iblislər*" adlandırırdılar. Həmin məlumatlardan tilərin sarı saçlı, ağ dərili və uzun boylu olduqları anlaşılır.



Tilər vaxtaşırı Çinə hücumlar edirdi. Onlar hərbi və təşkilati cəhətdən bütün qonşularından üstün hesab olunurdular. Çin mənbələri onların Orta Asiya tərəfdən gəldiklərini yazırlar. Onlar haqqında fikirlər, hətta Konfutsinin *(Kon Fu Dzı; e.ə.551–e.ə.479)* kitablarında da yer alıb. Tilər atı ilk əhlilləşdirən və hərbi əməliyyatlarda istifadə edən xalq kimi xatırlanır. Ox və yay onların əsas silahı idi. Əsasən maldar olan bu xalqlar arasında əkinçilik də yayılmışdı. Bunu Çin qaynağında yer alan daha sonrakı dövrdə Çində yerləşən və əkinçiliklə məşğul olan ti boylarından bəhs edən məlumatlar da təsdiq edir. İki məşhur alman türkoloqu Otto Franke *(1863–1946)* və V.Eberhardın Çin qaynaqları üzərində apardığı araşdırmalardan çıxardıqları nəticəyə görə, bu xalqlar türklərin ulu babaları hesab edilməlidir. Çünki türklərlə eyni xüsusiyyətləri daşıyıblar. Onların ilkin məşğuliyyəti ovçuluq idi. Sonralar maldarlıqla məşğul olmağa başladılar. Buğda və darı kimi taxıl məhsulları da becərirdilər. Böyükbaş heyvanları vardı, ancaq iqtisadi həyatlarının mərkəzində atçılıq yer alırdı. Çinin Şansi və Kansu əyalətlərinə daxil olan bu boylar daha çox ovalıq və düzən ərazilərdə yaşayırdılar. Şansi və Kansu əyalətləri onların ata yurdu deyildir. Bura, sadəcə qədim türk boylarının yaşadıqları geniş ana yurdun Çinlə sərhəd bölgəsi hesab edilirdi. Təəssüflər olsun ki, türklərin ilk yurdları haqqında Çin mənbələrində tam məlumat verilmir.

Çin mənbələrinə görə, e.ə.3000-ci illərdə tilər çox sayda boylara ayrılmışdılar. E.ə.2600-cü ildə ti və junqların şimalında *hun-yü* və ya *hiyen-yun* adı verilən hunların ulu ataları ortaya çıxdılar. Onlar tilərin törəmələri idi. Hunların təsirilə tilərin bəzi boyları cənub-şərq istiqamətində hərəkət

edərək Çinin şimal hissəsini ələ keçirdilər. Həmin tarixdən etibarən Çindəki arxeoloji əsərlərdə "Altay" elementləri çoxalmağa başlamışdır. Çin tarixində ilk dövlət hesab edilən Hsia (*Hia* oxunur) həmin tarixdə ortaya çıxmışdır. E.ə.1800-cü ildə yaranan Hsia dövlətini araşdırmaçılar ti əsilli hesab edirlər.

Çin tarixində və mədəniyyətində çaylar böyük rol oynayıb. Sarı çay bunlardan ən əhəmiyyətlisidir. Sarı çayın bir qolu hesab edilən Vei çayı isə qədim çinlilərlə türklər arasında təbii sərhəd təşkil edirdi. Hsia sülaləsinin ilk torpaqları Vei çayının ətrafı hesab edilirdi. Bura tilərin əlində olan Şansi əyalətinin cənub-qərbində idi. Bu da, haqlı olaraq bəzi tarixçilər tərəfindən iddia edilən Hsia dövlətinin əsasının çinli olmayan xalqlar tərəfindən qoyulduğu görüşünü gücləndirir. Zira, qədim Çin tarixi haqqındakı məlumatlar arasında hunlar ilə Hsia sülaləsini meydana gətirən soyların atalarının eyni olduğu xəbər verilir. Bir Çin mənbəsində "onların *(hunların)* atası Hsia sülaləsinin nəslindən gələn Şun-vei adlı bir nəfər olmuşdur" – deyilir. Bir başqa maraqlı məlumatda isə Hsia sülaləsinin son imperatoru Çieh (*Cie* oxunur) "hunların ulu babası idi" deyilir.

Hsia dövrünün Çin üzərindəki başlıca təsiri həmin dövrdə tuncun Çinə daxil olmasıdır. Bu dövrdə Altayda tunc mədəniyyəti xeyli inkişaf etmişdir. Alman sinoloq O.Franke yazır: "Hsia sülaləsinin inkişaf mərhələsində yeni təsis edilən əyalətlərin başçıları, çox uzaqlardan öz xüsusiyyətlərini əks etdirən mədəndən hazırlanmış əşyalar göndərdilər. Onlardan üç ayağı olan qablar hazırlandı". Üç ayaqlı qablar skiflərdə "dövlət" rəmzi sayılırdı. Qədim türk inancında Tanrı dünyanı üç təməl üzərində yaratmışdır: *göy*, *yer* və *insan*. Üç ayaqlı qablar daha sonra Çində Şanq sülaləsi, sonra da Cou (Çu oxunur) dövləti tərəfindən də qəbul edilmiş və dövlət simvolu olaraq mənimsənilmişdir.



Hsia dövləti bir məlumata görə e.ə.2600-cü, daha dəqiq tarixə görə e.ə.1800-cü ildə ortaya çıxmış və e.ə.1450-ci ilə qədər mövcud olmuşdur. Ondan sonra Çində ikinci dövlət olan Şanq *(e.ə.1450–e.ə.1050)* yaranmışdır.

Çində Hsia sülaləsinə üsyan edərək hakimiyyəti ələ keçirən Şanq və ya Şanq-yin sülaləsi Çin ənənəsi üzərində qurulmuş ilk dövlət hesab edilir. Hsiadan fərqli olaraq, Şanq dövləti köləlik rejimini əsas götürmüş və ilk dəfə heroqlif yazısını kəşf etmişdilər. Heroqlif yazısı şəkil yazısıdır. Hər kəlmənin simvolik olaraq bir işarə ilə göstərildiyi bu yazı daha sonra xeyli inkişaf edib təkmilləşdirildi. Tarixdə ilk Çin yazısı bu dövrdə ortaya çıxmışdır.

Şanq dövləti kəndli dövləti idi və torpaq köləliyinə əsaslanırdı. Əhalisinin böyük bir hissəsi kəndlilər olan bu dövlətdə ordu və hərbi gücün təmini üçün başqa ölkələrdən qul və muzdlu əsgərə ehtiyac vardı. Şanq dövründə şimal xalqlarından (ti, junq, hun) xeyli muzdlu əsgər toplandı. Onlar xidmətləri müqabilində Şanq hökmdarları tərəfindən geniş torpaqların və əyalətlərin idarəçiliyini alırdılar. Şanq dövlətinin sonunda Çinin tamamı həmin ordu başçıları tərəfindən bölüşdürülmüş və onlar müstəqil hərəkət etməyə başlamışdılar. Bunun nəticəsində Şanq dövləti zəifləməyə başladı. Belə bəyliklərdən biri də Cou (Çu) adlanırdı.

Qədim çinli müəllif Sıma Tsyanın *(Sīma Qiān; e.ə.135–e.ə.86)* əsərində yer alan "Hunların ataları" adlı fəsildə Cou dövlətinin köklərinin tilərə uzandığını qeyd edir. Ti və junqlardan təşkil olunan hərbi güclər sayəsində Hsia sülaləsinin davamçıları e.ə.1050-ci ildə Çində Şanq dövlətinə son qoyub, Cou (Çu) adlı yeni bir dövlət yaratdılar. Bu dövlət e.ə.206-cı ildə Xan dövlətinin ortaya çıxmasına qədər 800 ildən artıq Çini idarə etdi. Bütün bu məlumatlar qədim Çin tarixində türklərin oynadıqları rolun nə dərəcədə əhəmiyyətli olduğunu ortaya qoymaqdadır.



## 3.3. SKİFLƏR

E.ə.IX əsrdən sonrakı bir neçə yüzillikdə Dunay çayından Çinin qərb sərhədinə qədər olan bölgə İşquz ölkəsinin ərazisi hesab edilirdi. Yunan mənbələrində *Skitia* adlanan bu ərazi Pamir, Tyanşan və Altay dağ qollarından Qərbi Türküstanı keçərək qərbə doğru aşağı Dunaya qədər, bütün Cənubi Rusiya ərazisini əhatə edirdi. İşquz torpaqları şərqdə Şərqi Türküstan və Qobi bölgəsi, qərbdə isə Silezya ilə sərhəd təşkil edirdi. İşquzlar tərəfindən bu böyük ərazinin ən məhsuldar hissəsi Xəzər və Qara dənizlərin şimal hissəsi hesab edilirdi. Cənubda işquzlar Sırdərya və Arazla həmsərhəd olsalar da, işquz köçlərinin Şimali Hindistana, İranın Sistan ərazisinə, Urmiya gölünə və Mərkəzi Anadoluya qədər uzandığı məlumdur.

Yunancadakı "Σκυθηζ" yazılışı ingiliscədən ruscaya "skyth", ruscadan dilimizə "*skif*" şəklində keçdiyindən müasir tarix ədəbiyyatımızda bu xalqın adı skif adlanır.



Yunanca "*skuz*" oxunan bu ad assur kitabələrində "*aşkuzai*" şəklində keçir ki, doğrusu *işquz*dur.

Bisütun kitabəsində onların ümumi adı "*saka*" olaraq göstərilir və üç qola ayrıldıqları qeyd edilir: *saka tiqrakxauda* – şişpapaq sakalar; *saka tiay para daray* – dənizin o tayındakı sakalar və *saka haumavarqa* – hökmdar Umavarqanın sakaları. Persopolisdəki Xerxes kitabəsində isə sakalar aşağıdakı şəkildə bölünmüşdülər: *daha/duha, saka haumavarqa, saka tiqrakxauda* və *skudra*. İranın Sus şəhərində divar üzərinə həkk olunmuş biri elamca, digəri perscə kitabədə işquzların adı elamca "*içkudra*", perscə isə "çkudra" olaraq qeyd edilmişdir. Çin mənbələrində işquz adı "*sai*" və "*so*" şəklində qeyd edilərkən, onların "yi", yəni "yay çəkən xalqlar" olduqları xəbər verilir.

İşquz bölgəsi e.ə.VIII əsrdə həm siyasi, həm də coğrafi olaraq iki hissəyə ayrılırdı. Çinin şimal-qərbindən Xəzər dənizinə qədər olan hissəsi Şərqi İşquz; Xəzər dənizindən Dunay çayına qədər olan hissəsi isə Qərbi İşquz adlanırdı. Pers mənbələrində bu iki bölgəyə *Saka tiqrakxauda* və *Saka haumavarqa* deyilirdi. Buna görə, Qərbi İşquz bölgəsi şişpapaqlı işquzların; Şərqi İşquz bölgəsi isə Haumavarqa işquzlarının ərazisi hesab edilirdi.

E.ə.VI əsrdə İşquz bölgəsində yeni kimliklər ortaya çıxmağa başladı. Strabon *(e.ə.64/63–e.21/24)* Xəzər ətrafındakı işquzların *daha*, onların şərqindəkilərin *massaget* adlandığını qeyd edir. Miletli Hekatey *(Hecataeus; e.ə.550–e.ə.490)* isə işquzların üç yerə ayrıldığından bəhs edir: Pontus iskitləri (Qara dənizətrafı), massagetlər (Xəzərətrafı) və sakai amyrqioi (Orta Asiya).

İşquzların mənşəyi haqqında əsas üç nəzəriyyə hakimdir:

*1. İrani mənşəli olduqlarını müdafiə edən;*

*2. Slav mənşəli olduqlarını müdafiə edən;*

*3. Ural-Altay (Türk) mənşəli olduqlarını müdafiə edən nəzəriyyələr.*



*Skiflərə (İskit) aid daş ata stelası. Xarkov, Ukrayna*

Son dövrlərdə ortaya çıxan tədqiqatlar işquzların hakim və hərbi gücünün türklərdən təşkil olunduğunu, bu ittifaqın tərkibində çox sayda müxtəlif kimlikli xalqların da yer aldığını deməyə əsas verir.

İranın Sus yaxınlığında tapılan işquzlara aid mixi yazılı bəzi vəsiqələr onların türk dilində danışdıqları fikrini gücləndirmişdir. Bu vəsiqələrdə işquz-türk dillərində xeyli sayda ortaq kəlmə qeyd edilmişdir. Qazaxıstanın Almatı



şəhəri yaxınlığında tapılan və adına Esik (İssıq) kurqanı deyilən, e.ə.V–e.ə.IV əsrlərə aid olduğu bildirilən qəbirdə əldə edilmiş əşyalar arasında gümüş tas üzərinə həkk olunmuş runik yazının oxunması işquzların türklərlə bağlarını bir daha göstərdi. 26 hərfli və tək cümləli bu yazı forması Orxon-Yenisey abidələrinin ibtidai yazı formasını təşkil edir. 1970-ci ildə qazax alim O.Süleymenov tərəfindən oxunan yazıda deyilir: "*Khan uya üç otuzı yok boltı utıqsa tozıldı*" – "Xanın oğlu 23 yaşında yox oldu, şöhrəti də yox oldu".

İşquz dövləti boylar ittifaqı idi. Bu ittifaqı təşkil edən boyların bəzilərinin adları mənbələrdə qeyd edilib: Sai/say/so (bəy iskitlər, çincə vanq sakları), akatzir/akatir (ağaçəri və ya ağ xəzər), çi-pin (çep(i)ni), budun (bodun), gelon, neüri (böri), iyrkay (ir/er kay), tinq-linq, oqur, savromat/sarmat, kallipidai, taur/tavr (tavur/tabur, tapar-sabir), as, alan, yas, soğd, yueban (alban), aqafirs, nevr, melanx (*belencer?*), mikshelen, halazon, kelt, iber, utidur, udin, ijmak (eşmak), quqar, pasian (basian-vusun), an-hsi (daha, dai, part/parf, apari), tirmən/itirmən, çüan-yui hsiu-hsün, seçü, su-lo (sul/çöl), vei-t'ou, alizon, andropxaq, massaget/meskut və s.

Son dövrlərdə ortaya çıxarılan qədim çincə məlumatlara görə, işquzların kökənləri *yi* topluluqlarına söykənir. Çin mənbələrində Şimali Çin-Monqolustan bölgəsində yaşayan xalqlar ti, yi, junq və hun-yü olaraq qeyd edilib. Yilər boyların sayına görə ən böyükləri hesab olunurdu. Hunların e.ə.1200-cü ildə təşkilatlanması ilə bu boyların böyük bir hissəsi həmin ittifaqa daxil oldu. Ancaq bu ittifaqa qoşulmayan çox sayda yi tayfası ərazilərin bölüşdürülməsi sırasında junq (alp) adlanan tayfalarla mübarizəyə başladılar. Nəticədə yilər yurdlarını tərk edərək Orta Asiyada işquz adı ilə ortaya çıxdılar. Qədim Çin mənbələri yi adlanan bu xalqı *oğuzların* ilk ataları adlandırıb. Çincə yi "oxçu" mənasına gəlir. Onların yurdlarını tərk etməsinə

səbəb olan digər amil Couların Çini əllərinə keçirdikdən sonra şimaldakı xalqlarla apardıqları qanlı müharibələrdir. Bu müharibələr nəticəsində junq (alp) adlanan tayfalar Şimali Çindən qovuldular və yilərin torpaqlarını işğal etdilər.

E.ə.X əsrdə kütləvi şəkildə yurdlarını tərk edən həmin oxçu tayfalar Şimali Çindəki torpaqlarından ayrılaraq Aral gölü ətrafına gəldilər. Onlar qərb mənbələrində kimmerlər adlanan tayfaların yurdunu işğal etdilər. Kimmerlər orta əsr müsəlman mənbələrində *kaymeri* adlanan topluluqdur.

Beləliklə, Herodotun qeyd etdiyi kimi, Orta Asiyada işquzlarla massagetlər (junq) arasında meydana gələn müharibələr e.ə.800-cü ildə Cou hökmdarı Suanın şimaldakı xalqlara qarşı başlatdığı hərbi səfərlər böyük xalqlar köçünün ilk mərhələsinin başlamasına səbəb oldu. Couların hücumları qarşısında junqlar qərbə doğru hərəkət edərək yilərin torpaqlarını ələ keçirdilər, ikincilər də kimmerlərin əlindəki Aral gölü ətrafındakı torpaqlara hücum etdilər.

İşquzlar e.ə.800-cü ildə güclü bir ittifaq olaraq ortaya çıxdılar. Bu ittifaqın əsas gücü Qara dəniz və Qafqazda yerləşdi. İşquzların qərb istiqamətində hərəkətindən əvvəl Tanrı dağları (Tyanşan), Fərqanə və Kaşqar arasında yaşadıqları qəbul edilir. Hərəkətə keçdikləri ərəfədə işquzların Altay-Monqolustan ilə Orta Asiya ovalıqları kimi geniş bir əraziyə yayıldıqları məlumdur. Bu geniş ərazi digər xalqların da işquz hakimiyyəti altına düşməsinə səbəb olmuşdur.

İşquzlar kimmerlərin torpaqlarına gələrək onları Cənubi Qafqaz və Anadoluya getməyə məcbur etdilər. Herodota görə, işquz axınları qarşısında bir yerə toplanıb vəziyyəti qiymətləndirən kimmerlər böyük bir istila ilə qarşı-qarşıya olduqlarını fikirləşmişdilər. İşquz axınları qarşısında kimmerlər iki yerə bölünmüş, bir hissəsi müdafiə olunmağı, digər hissəsi isə yurdlarını tərk edib qaçmağı üstün tutdular. Bu iki görüş kimmerlər arasında parçalanmaya və hətta toqquşmalara səbəb oldu.



Herodota görə, İşquz ittifaqının ilk nümayəndəsi Tarqitaos idi. Bu ad türk-monqol mənşəli Tarqıtay adına oxşayır. Tarqıtay əfsanəvi bir mənşəyə sahibdir. Onun atası yunan qaynağının Zevs olaraq göstərdiyi “Oğuz”, anası isə “dəniz və ya çay qızıdır”. Oğuznamədə Tarqıtay Oğuzun oğlu Dəniz (Tengiz) xanla eynidir. Onun Lipoksais (Lipoksay), Arpoksais (Arpoksay) və Koloksais (Koloksay) adında üç oğlu olmuş və hakimiyyət üçüncü oğlu Koloksayın əlinə keçmişdir. İşquzlarda hakimiyyət rəmzi sayılan göydən düşən qızıl alətlər Herodota görə, kiçik oğul Koloksaya nəsib olmuş və onun ailəsi “Skoloti” adını almışdır.

Herodota görə, İşquziya böyük bir ərazidir və “hökmdar Koloksay ölkəsini üç oğlu arasında üç yerə ayırmışdır. Bu krallıqlardan biri digərlərindən daha böyük olub, hakimiyyət rəmzi olan əşyalar orada saxlanılır”. Bu məlumatdan aydın olur ki, İşquziya torpaqları Koloksaydan sonra onun üç oğlu arasında bölünmüş, onlardan biri ərazi və hakimiyyət cəhətdən digər ikisindən daha böyük və üstündür. Ancaq Herodot İşquziya torpaqlarının necə bölündüyü haqqında məlumat vermir. Bunu biz yunan qaynaqlarında “Böyük” və “Kiçik Skif” torpaqlarının bir-birindən ayrılması ilə başa düşürük. Kiçik Skifiya Pannonia, yəni indiki Macarıstan və Aşağı Dunay ətrafı, Böyük Skifiya isə Don çayından şərqə və Qafqaza doğru uzanan ərazilər idi. Hər halda İşquziyanın ən böyük hissəsi Orta Asiya olub e.ə.VI əsrdən burada Humavarqa skifləri hökm sürürdü. Bir müddətdən sonra onların yurdunu junqların digər bir qolu olan massagetlər ələ keçirdilər.

Yunan mənbələrinin Böyük Skifiya dedikləri ərazi Şərqi Avropa və Qafqazı əhatə edirdi. Urartu mənbələrinin İşququlu (İşquz eli) dedikləri ölkə buradır. Urartu mənbələri I Argiştidən *(e.ə.827–e.ə.764/763)* etibarən Göyçə gölünün şərqində yerləşən ərazini, yəni indiki Azərbaycan ərazisini “İşququlu ölkəsi” olaraq adlandırmaqdadır. E.ə.774-cü ilə aid olan urartuca yazılı Xorxor və digər kitabələr bu bölgə

üçün "İşququlu/İşquz eli" ifadəsini təkrarlamaqdadır. Bu məlumatlar bizə e.ə.VIII əsrin əvvəllərində Mannaya qədər Qafqazın tamamında və Şimali Qaradəniz bölgəsində hakim siyasi gücün işquzlar olduğunu deməyə əsas verir.

İşquzlar Qafqazda öz hakimiyyətlərini təsis etdikləri e.ə.774–e.ə.685-ci illər arasındakı yüz illik dövrdə cənub qonşuları ilə sakit münasibətlər qurmuş və Orta Şərqdəki hadisələrə çox müdaxilə etməmişdilər. Ən yaxın qonşuları olan urartulular isə bu dövr ərzində daha çox Anadoluda hakimiyyət sürən kimmerlərlə məşğul olmuş və Kimmer-Urartu müharibələri uzun illər davam etmişdir. Urartu-İşquz münasibətləri e.ə.VII əsrdə təsis edildi. Anadolunun Torpaqqala arxeologiya abidəsində əldə edilən bir Urartu möhüründə "İş-qi-qu-lu hökmdarının oğlu Saqa-dumtarın Argişti oğlu Rusanın şəhərindən Mana (Manna) ölkəsinə getdiyi il" ifadəsinə əsaslanan tarixçilər II Rusa dövründə *(e.ə.685–e.ə.645)* İşquz-Urartu münasibətlərinin sülh şəraitində qurulduğunu yazırlar. Urartu hökmdarı II Rusa Van gölü ətrafında təcili Çavuştəpə, Adilcəvaz və Ayanis qalalarını inşa edərək işquzlara qarşı tədbirlər almağa başladı. Onun işquzlara qarşı izlədiyi sülh politikası uzun müddət davam etmədi. Belə ki, işquzlar Manna dövlətinin müttəfiqi kimi e.ə.VII əsrin ikinci yarısında Urartu qalalarını və torpaqlarını talan etməyə başladılar.

II Rusa tərəfindən inşa edilən Teişabaini şəhəri e.ə.VII əsrin sonlarında işquz hücumuna məruz qaldı və ələ keçirildi. Teişabaini arxeoloji araşdırmaları zamanı şəhər divarlarında işquz ox ucları və döyüşlərdə öldürülmüş xeyli insan cəsədi aşkar edilmişdir. Teişabaini şəhəri Urartunun Cənubi Qafqazdakı müdafiə mərkəzi olub, Karmir Blurda (bu yer İrəvan şəhəri yaxınlığında yerləşir) yerləşirdi. İşquzlar şəhəri gecə mühasirəyə alıb ələ keçirmişdilər. Yenə Çavuştəpə qazıntıları zamanı işquz döyüş silahları və at qoşqu alətləri aşkar edilmişdir.



Həmin vaxt İşquz ittifaqının başında Bartatu dayanırdı. Herodot onu "Prototeus" adlandırır, assur mənbələri isə Bartatua kimi zikr edirlər. Bu məlumatlar Assuriya hökmdarı Asarxoddon zamanında *(e.ə.680–e.ə.668)* Böyük İşquziyanın hökmdarının *Bartatu (Partatuk: e.ə.680/679–e.ə.659)*, onun varisinin isə oğlu Madyas *(e.ə.659–e.ə.625)* olduğunu göstərir. Madyasdan sonra İşquz ittifaqının başına Qaqu keçdi. Onun yerinə isə adı "Tövrat"da qeyd edilən Qoq oturdu. Qoq zamanında işquzların Misir istiqamətində hərəkət edib, Suriya və Fələstinə qədər torpaqları aldıqlarını Tövrat geniş təsvir edir. Tövrata görə, "Maqoq diyarından olan Roşun, Meşein və Tubalın hakimi Qoq" Misir sərhədinə qədər hərəkət etdi. İbrani mənbələri onları "Qoq-Maqoq" adlandırıblar. Həmin ad daha sonra ərəb mənbələrində "Yəc'uc-Məc'uc" şəklində zikr edilmişdir. Onların hərəkəti Misiri qorxuya salmış, firon I Psammatikos *(e.ə.664–e.ə.610)* qiymətli hədiyyələrlə göndərdiyi elçilər vasitəsilə onlarla tələsik sülh müqaviləsi bağlayaraq ölkəsini işquz istilasından qurtarmışdır. Herodota görə, həmin istila nəticəsində "Asiya (yəni Anadolu) 28 il işquzların hakimiyyəti altında qaldı".

İşquzlar Aral gölü ətrafına gəldikdə həmin ərazidə yaşayan *maqyar* (mada/midiya) tayfalarını yurdlarından qovdular. *Bus*, *paretaken*, *strukxat*, *arizant*, *budi* və *maqlar*dan meydana gələn Mada ittifaqı Aral ətrafından Xorasana hərəkət edib, yüzillik proseslər nəticəsində indiki İran ərazisini ələ keçirdilər. Deyok *(Deiokes; e.ə.700–e.ə.678/675)* başçılığında bir dövlət yaradan madalar Manna ölkəsini və indiki İranın tamamını ələ keçirib, Assuriya üzərindəki təzyiqlərini artırmağa başladılar.

Madaların qısa müddətdə bir imperiya halına gəlməsi Assuriyanın da sonu mənasına gəlirdi. E.ə.626-cı ildə madalar Assuriyanın mərkəzi Ninovanı mühasirəyə aldıqda assurlar işquzlardan kömək istədilər. İşquzların köməyi ilə madalar Ninovanın mühasirəsini buraxıb geri çəkildilər.

Bundan sonra madalar babillərlə ittifaq qurdular və Assuriya üzərinə hərəkətə keçdilər. Paytaxt Ninova bu dəfə təslim oldu və min illik Assuriya hakimiyyətinə son verildi.

Assurların məğlubiyyətindən sonra madalar işquz/oğuz hücumlarının qarşısını almaq üçün təşkilatlandılar. Ancaq məğlub oldular və işquzlar 28 il bölgəni öz nəzarətlərində saxladılar. Herodota görə, işquzlarla bacarmayan madalar bu dəfə hiyləyə əl atdılar. Mada hökmdarı Kiaksar *(e.ə.VII əsr–e.ə.585)* işquzları qonaq olaraq dəvət etmiş və hamısını sərxoş edərək öldürmüşdür. Ancaq bu, madaların bütün işquz/oğuz torpaqlarını ələ keçirdikləri mənasına gəlmir. İşquzların əsas hissəsi Urartu torpaqları və Cənubi Qafqazda hakim güc olaraq qalırdılar.

Mada və ya midiyalıların mənşəyi məlum deyildir. Onların hind-avropalı və irani mənşəli olduğu haqqındakı iddialar təsdiq olunmayıb. Buna səbəb mada dili materiallarının günümüzə qədər gəlib çatmamasıdır. Herodotda yer alan mada dilində "it" mənasında "*spako*" sözü isə türk-monqol mənşəli "səpək", yəni "köpək" olub, daha sonra slav dillərinə "sobako" şəklində daxil olmuşdur. Madaların tarixdəki ən böyük xidməti Orta Asiyadakı balbal mədəniyyəti ilə Mitraizm inancını İrana gətirmələri oldu.

Madaların İran, İraq və Kiçik Asiyadakı hakimiyyəti çox davam etmədi. E.ə.550-ci ildə bu bölgədə bir başqa dövlət, Pers imperiyası ortaya çıxdı. Pers dövlətinin banisi Kir *(Kiros/Kuruş; e.ə.600–e.ə.530)* Herodota görə, Mada hökmdarı Astiaqın qızı Mandanenin oğlu idi. Eyni müəllifə görə, Astiaqın öz xalqı madalara qarşı sərt siyasət aparması və zülmkarlığı, madaların Kir ətrafında yer almasına və onun da Astiaqı taxtdan salıb, onun yerinə keçməsinə səbəb olmuşdur.

Pers-İşquz münasibətləri müharibələrlə keçmişdir. Kir Mada dövlətinə son qoyub öz hakimiyyətini yaratdıqdan qısa müddət sonra indiki İranı, İraqı, Kiçik Asiya ərazilərini ələ keçirərək Yunan şəhər dövlətləri üzərində



öz hakimiyyətini qəbul etdirdi. Ancaq Kirin işquzları hakimiyyəti altına almaq planı uğursuz oldu. Hiylə ilə ələ keçirdiyi işquz şahzadəsi Alp Ər Tonqanın öldürülməsilə hərəkətə keçən İşquz hökmdarı Tomiris e.ə.529-cu ildə persləri məğlub edərək Kiri öldürdü.

Kirin öldürülməsindən sonra Pers ölkəsi siyasi baxımdan sarsıldı. Hakimiyyəti ələ alan Dara *(e.ə.550/549–e.ə.486/485)* ölkədəki narazılıqları yatırdı və e.ə.518/517-ci ildə işquzlara qarşı ilk hərbi səfərini təşkil etdi. Dara Orta Asiyadakı sakaları hədəf seçmiş və onları məğlub etmişdi. Bisütun kitabəsində bu hadisə Daranın "şişpapaqlı sakalar" üzərinə səfər etdiyi, onları məğlub edərək hökmdarları Sakunkxanı əsir aldığı şəklində həkk olunub.

E.ə.513-cü ildə Dara işquzlara qarşı ikinci hərbi yürüşə çıxdı. Herodotun ətraflı şərh etdiyi bu səfərin Şimali Qaradəniz ətrafındakı işquzlara qarşı tərtib edildiyi məlumdur. Ancaq səfər böyük uğursuzluqla nəticələndi. Ordusunun bir hissəsini itirən Dara səfəri yarıda kəsərək ölkəsinə qaçmaq məcburiyyətində qaldı.

Lakin bu tarixdən sonra İşquz ittifaqı zəifləməyə başladı və parçalandı. Buna səbəb junq kökənli massagetlərin işquzların torpaqlarını ələ keçirməsi idi. Artıq e.ə.VI əsrin sonlarında massagetlər Orta Asiya və Qafqazı öz nəzarətləri altına almışdılar.



## 3.4. BOY-EL TƏŞKİLAT SİSTEMİ

Skif ərazilərinin mənbələrdə üç hissəyə ayrılması işquz boylarının üç qolda təşkilatlandığına işarədir. Həmin üç qol da öz daxilində çox sayda boyların birliyindən təşkil olunmuşdu. Herodot Pers hökmdarı Daranın hərbi səfərindən bəhs edərkən üç İşquz hökmdarından söz edir. Bu üç İşquz hökmdarının adları sırayla Skopasis, İdantirsos və Taksakis idi. Həmin məlumatlardan işquzların əsas hökmdarının İdantirsos olduğu, digər ikisinin dövlətin şərq və qərb torpaqlarına başçılıq etdikləri anlaşılır. Polyenə *(Polyaenus; II əsr)* görə, Dara işquzlara müharibə elan edərkən üç İşquz hökmdarı Sakesfares, Homarqes və Tomiris bir yerə gəlib vəziyyəti müzakirə etdilər.

Bu məlumatlar İşquz tayfalar ittifaqının başında bir böyük hökmdarın dayandığını, onun əmri altında ölkənin şərq və qərb hissələrini iki fərqli hökmdarın idarə etdiyini deməyə əsas verir. İşquz bir boylar ittifaqı idi. Buna görə hər boyun öz bəyi, öz ərazisi və öz idarəetmə şəkli vardı.



İşquz boylarının tamamı türk deyildir. Dövlət türk olmayan xalqları və qəbilələri də öz tərkibinə daxil edərək onlara da öz daxili işlərində müstəqil idarə haqqı tanımışdır. İşquz dövlətinin əsas idarəçi boyu *bəy işquzları* adlanırdı. Hakimiyyətin atadan oğula keçmə prinsipi vardı. Ancaq hakim boy və qohum boy bəylərinin də seçki yolu ilə (*kəngəş*) taxta çıxdıqları məlumdur. Pazırıq kurqanında tapılan qəbilə rəislərinin məzarlarındakı skeletlərin quruluşu bəy skiflərin uzunboylu olduqlarını ortaya çıxardır.

İşquz el təşkilat sistemi türk tayfalarının həyat tərzi ilə eynidir. İşquz hökmdarları düşmənlərə qarşı birlikdə hərəkət etsələr də, daxili siyasətdə tamamilə sərbəst idilər. İşquz hökmdarlarının ən böyük problemi boylar arasındakı torpaq, xüsusilə də otlaq ərazilərinin ədalətli paylaşdırılması idi.

İşquz dövlətinin başında duran ailə, türk hakimiyyət anlayışına görə "Tanrıdan hakimiyyət qut"u alaraq idarəetmə hüququna yiyələnmişdir. Tanrıdan, yəni göydən gələn və hakimiyyət rəmzi sayılan müqəddəs əşyalar *"kotan, boyunduruq, balta və qab"* hesab olunurdu. Bu simvolların işquz dövlətinin atributları olduğunu yunan mənbələri də qeyd edir.

İşquz elinin hakimiyyəti Koloksaya verilmişdir. Çünki göydən gələn müqəddəs əşyalara o yiyələnmişdir. Kotan (saban), boyunduruq, balta və qab şəklində simvolizə olunan bu əşyalar *bəy işquzlara* bütün əkinçi (kotan, torpağı işləyən), köçəri (boyunduruq, yəni heyvandarlıqla məşğul olan), meşə (balta, yəni meşədə yaşayan) xalqları idarəetmə haqqının verildiyini və bunu da üçayaqlı hökmdarlıq rəmzi olan qabın simvolizə etdiyini göstərir. Üçayaqlı qab hökmdarın əsas vəzifəsinin idarə etdiyi tayfaları doyurmaq olduğu mesajını verir.

İşquzlar ənənəvi türk hakimiyyət anlayışına görə "yer üzərindəki hakimiyyətin Tanrı tərəfindən onlara verilmiş ilahi haqq" olduğu düşüncəsinə sahibdilər. *El* anlayışı

deyilən bu nizamda təyinedici iki təməl gücün birliyi yer alırdı: *göy* və *yir* (yer/dünya). Orxon kitabələrində bu anlayış belə təsvir edilir: *"Yuxarıda mavi göy, aşağıda yağız yer yaradıldıqda ikisinin arasında insan oğlu yaradıldı"*.

Yaradılışın qaynağı olan göy ünsürü türklərin sosial, siyasi və dini həyatında böyük yer tutmaqdadır. Türklərdə "Tanrı" mənasında "Tenqri" sözü eyni zamanda "göy, göy üzü, səma" deməkdir. Qədim türklərdə hökmdarın kosmik varlığı və hökmdarlıq anlayışı bilavasitə göylə, yəni Tanrı ilə əlaqəlidir. Hökmdar onun tərəfindən seçilmişdir. Uyuq Tarlaq kitabəsində *"Tenqri tərəfindən xalqıma göndərildim"* ifadəsi bu təsəvvürdən qaynaqlanırdı. Hökmdar türk hakimiyyət anlayışına görə *"Tanrının yer üzərindəki nümayəndəsi, kölgəsi"*dir. Koloksay göydən gələn, ancaq başqalarının toxuna bilmədiyi müqəddəs əşyalara toxunmaqla Tanrı tərəfindən seçilmiş olduğunu təsdiq etmişdir.

Yəni işquzlarda hakimiyyətin mənbəyi "ilahi"dir. Dünya hakimiyyətinin işquzlara verildiyini göstərən "kotan, boyunduruq, balta və qab" bunun əlaməti sayılırdı. Bu baxımdan İşquz elinin tək hökmdarı olduğu halda, torpaqların idarə edilməsi ənənəsi vardı. Sonrakı mərhələdə hunlarda qarşımıza çıxacağı kimi dövlətin başında duran mütləq hökmdar yabqu ilə birlikdə dövlətin sağ və sol tərəfini idarə edən "sol bilgə və sağ bilgə" hakimləri var idi. Onlar geniş səlahiyyətlərə sahib olub, böyük ordulara və ərazilərə nəzarət edirdilər. Bu səbəbdən qədim yunan müəllifləri onları müstəqil hökmdarlar kimi təqdim ediblər.

Hakimiyyətin qaynağı göy (Tanrı) olsa da, hökmdarın hakimiyyət sahəsi yer (dünya) sayılırdı. Türk mifik düşüncəsində göy və yer ayrılmazdır. Göy mavi (göy) rənglə, yer "qara, sərt (yağız)" rənglə təsvir edilirdi. Qədim Çin mənbələrində türk inancından bəhs edilərkən belə deyilir: "Türklər odu müqəddəs hesab edirlər. Ayrıca, su və havaya da eyni hisslərlə bağlıdırlar. Fəqət göy və dünyanın yaradıcısı olaraq Tanrıya inanır və ancaq onu qəbul edirlər".



İşquz elinin təməl insani qaynaqlarını boylar təşkil edirdi. Hər boy potensial hərbi süvari güc deməkdi. İşquz boyları köçəri və atlı idilər. İşquzların Yunan, Pers, Assur, Urartu və Misir kimi piyada ordularına sahib dövlətləri asanlıqla məğlub etməsinin təməlində güclü süvari birliklərinə sahib olmaları faktı yer alırdı. Arxeoloji tədqiqatlar nəticəsində həmin süvarilərin qəbirləri aşkarlanmışdır. Kuban kurqanlarındakı qazıntılarda xeyli sayda at skeleti tapılmışdır. İşquz atlarının skeletlərinə Altay bölgəsində tapılan Şibə və Pazırıq kurqanlarında da rastlanmışdır. İşquz atlarının ən bariz xüsusiyyəti bu atların özünəməxsus bir at cinsi olmasıdır. Qısaboylu, qabaq ayaqları güclü, sürətli və dayanıqlı olan həmin atlar, sonrakı dövr mənbələrində "türk atı" və "türkmən atı" kimi xatırlanır. Bu atlar işquz və türklərin yaşadıqları iqlimə dayanaqlı olub, çöl şərtlərində əlverişli idilər. Pers hökmdarı Daranın şimala hərbi səfəri sırasında işquz süvarilərinin nə qədər hərəkətli, çevik və manevr qabiliyyətlərinin yüksək olduğunu qədim yunan mənbələri təsvir edir.

İşquz süvariləri bir nizama uyğun hərəkət edirdilər. Daranın qarşısına çıxan işquz atlılarının bir anda ətrafa dağılıb, yenidən eyni nizamı aldıqları qeyd edilir. Süvari ordusunun başlıca hərbi taktikası *vur-qaç* deyilən *Turan* taktikası idi. Turan taktikası ordunun sistemli şəkildə geri çəkilməsinə, geri çəkilərkən də düşmən ordusunun planlı şəkildə öz üzərinə gəlməsini saxlamağa, düşmənin istifadə edəcəyi bütün qaynaqların istifadəsiz hala gətirilməsinə və nəticədə son zərbənin vurulmasına dayanırdı. Daranın səfəri zamanı işquzlar perslərin piyada ordularına qarşı bu taktikadan istifadə etmişdilər. Yenə Tomiris həmin taktika ilə Kirin ordularını darmadağın etmişdi.

İşquz ordusunun boy nizamına görə bölündüyü aydın olur. Hər boy hərb zamanı mərkəzə öz atlı əsgəri birliklərini göndərirdi. Bu, hər il təşkil olunan otlaqların bölüşdürülməsində boylara avantaj verirdi. Döyüşlərdə yer alan

boylar otlaq və qışlaqların bölüşdürülməsində söz sahibi idilər. İşquzların türk və türk olmayan çox sayda boyun ittifaqından meydana gəldiyi düşünülərsə, işquz nüfuzunun genişlənməsində boyların geniş ərazilərə sahib olmaq istədiyinin təyinedici olduğu aydındır. İşquzların geniş ərazilərə sahib olmasının təməlində də bu fakt yer alırdı. Hökmdar ölkənin daxilində problem yaradan boyları dövlətin sərhəd zolaqlarına yerləşdirir və onlara ələ keçirdikləri torpaqların mütləq idarə haqqını verirdi. Buna "*uc siyasəti*" deyilirdi. Məhz bu səbəbdən, əhalisinin azlığına rəğmən, türklər böyük əraziləri rahatlıqla ələ keçiriblər. Bunun üçün boyların davamlı hərəkət halında olması vacibdi. Davamlı hərəkət ordu gücünün hər zaman hazırlıqlı olmasına şərait yaradırdı.

Adına *dünya nizamı* deyilən *el* sistemində itaət altına alınan xalqlara, şəhərlərə toxunulmur, əksinə onların təhlükəsizliyi təmin edilirdi. İtaət altına alınanların həyat tərzi olduğu kimi saxlanılırdı. Hakim güc onlardan təhlükəsizliyi müqabilində vergi alır və hər xalqın bacarığından istifadə edirdi. Beləliklə, türk idarəçilik sistemində həmin xalqlar özlərinin sənətkarlıq, şəhərçilik, əkinçilik və elmi bacarıqlarıyla iştirak etmək haqqı əldə edirdilər. Bu sistemdə türklər sadəcə hərbi gücü və dövlətin idarəsinə nəzarəti öz əllərində saxlayırdılar. Bu sistemi türklər işquzlardan XIX əsrə qədər dəyişdirmədən davam etdirmişlər.



# ƏLAVƏ OXU

## III.I. Ədəbiyyat


- Durmuş İlhami, İskitler (Sakalar), Ankara: Türk Kültürünü Araştırma Enstitüsü, 1993.
- Durmuş İlhami, *Sarmatlar*, İstanbul: Kaynak yayınları, 2007.
- Həsənov Zaur, Çar Skiflər (Çar skiflərin və qədim oğuzların etno-dil eyniləşdirməsi), Bakı: Ədilov, Zeynalov və oğulları, 2005.


## III.II. Qədim kimliklər

### III.II.1. Skif boyları

Çincə mənbələrdə keçən skif boyları: sai/say/so – bəy iskitlər, çincə vanq sai; tinq-linq; yueban (alban); an-hsi (daha, dai, part/parf, apari); se-çü; su-lo (sul/çöl); vei-t'ou; çüan-yui hsiu-hsün.

**Yunan-Latın mənbələrində keçən skif boy adları**: akatzir/akatir – ağaçəri və ya ağ xəzər; çi-pin – çepni; budun – bodun; gelon; neüri – böri; iyrkay – ir/er kay; oqur; savromat/sarmat; kallipidai; taur/tavr (tavur/tabur, tapar-sabir); as; alan; yas; soğd; aqafirs; nevr; melanx (*belencer?*); mikshelen; halazon; kelt; iber; utidur; udin; ijmak (eşmak-kimək); quqar; pasian (basian-vusun); tirmən/itirmən; alizon; andropxaq; massaget/meskut.

**Perscə kitabələrdə keçən skif boyları**: saka tiqrakxauda – şişpapaq sakalar; saka tiay para daray – dənizin o tayındakı sakalar; saka haumavarqa – hökmdar Umavarqanın sakaları; daha/duha, saka haumavarqa, saka tiqrakxauda və skudra.

### III.II.2. Mada tayfaları

bus, paretaken, strukxat, arizant, budi və maq.

## III.III. Sual

Skif-oğuz kimliyinin başlıca xüsusiyyətləri hansılardır?

## III.IV. Tapşırıqlar

1. Skif tayfalarının hərəkət istiqamətini xəritə üzərində müəyyən edin.
2. Skif ərazisində günümüzdə yer alan ölkələri sadalayın.
3. Azərbaycan tarix muzeylərində yer alan skiflər dövrünə aid maddi-mədəniyyət əsərlərini təsbit edin.

## III.V. Terminlər

*bozqır* – çöl, düzənlik, step ərazi.

*çadır-araba* – qədim türklərin, xüsusilə də skif ailələrinin yaşadığı üstü çadırla örtülmüş, atlar və ya öküzlər tərəfindən çəkilən araba evlər.

*güzlək* – qışlağa gedərkən sürünün və tayfaların toplaşdığı yer.

*İşququlu* – Urartu mətnlərində "İşquz eli" mənasında işlədilən adlandırma. Urartulular bütün Qafqaz ərazisini belə adlandırırdılar.

*kağnı* – qədim türklərdə at arabasına verilən ad.

*kəngəş* – boyun bəyləri, ağsaqqalları və müdriklərinin toplanıb boy haqqında qərarlar aldığı məclis. Siyasi baxımdan *kəngəş* dövlət əhəmiyyətli, xüsusilə də hərbi qərarların alındığı məclisə deyilirdi.

*kınqıraq* – iki tərəfi də kəskin olan qılınc. Qədim çincə mətnlərdə keçən ən qədim türkcə söz.

*qışlaq* – tayfanın sürülərilə birlikdə soyuq payız və qış aylarını keçirdiyi çöl və ya düzənlik ərazi.

*Skolotlar* – skiflərdə xanədan ailəsinin adı. Skolat skiflərin əfsanəvi ilk hökmdarı qəbul edilirdi.

*uc* – qədim və orta əsrlərdə türk dövlətinin sərhəd bölgəsini ifadə edən termin. Türklər ələ keçirdikləri ərazilərin mərkəzində deyil, sərhəd bölgələrində cəmləşirdilər. Həmin ərazilərdə məskunlaşan türk tayfaları dövlətin sərhədlərini müdafiə etmək müqabilində dövlətə vergi ödəmirdilər. Zamanla düşmən torpaqları hesabına genişlənən uc ərazilərində yeni siyasi-hərbi ittifaqlar ortaya çıxa bilirdi.

*yaylaq* – tayfanın sürüsüylə birlikdə yay aylarını keçirdiyi dağlıq ərazi.

*yazlaq* – yaylağa gedərkən sürünün və tayfaların toplaşdığı yer.

*Yəcüc-məcüc (yəc`uc-məc`uc)* – Tövratda skifləri ifadə etmək üçün istifadə edilən bir termin. İbrani mətnlərində *"Qoq-Maqoq"* şəklində keçən bu termin, ərəbcədə *"yəcuc-məcuc"* şəklini almışdır.

*yi* – oxçu, qədim çincə mətnlərində skiflərin əcdadlarını ifadə edən ad. Çincə "yi" – *"yay çəkən xalq"* mənasına gəlirdi.

*yir* – qədim türklərdə *"dünya"*, *"yer üzü"* mənasında dini-coğrafi mənada işlədilən termin. Bir başqa mənası *yağız* (sərt) deməkdir.



*Dördüncü fəsil*

# HUN DÜNYASI



## 4.1. HUN KİMLİYİ

Hunlar idari cəhətdən təşkilatlanan, sosial-siyasi bir kimliyə çevrilən ilk türk xalqıdır. Təqribən e.ə.III minillikdən etibarən ortaya çıxıblar. İlk dəfə e.ə.1200-cü ildə Şimali Çin, Monqolustan və Orta Asiya ərazisində öz hərbi-sosial ittifaqlarını yaratdılar. E.ə.209-cu ildə Motun (*Mete*) yabqu tərəfindən böyük bir dövlət halına gətirildilər.

Skif (*işquz*) ərazilərini ələ keçirən hunlar sistemli olaraq 150-ci ildən etibarən Şimali Xəzər, Şimal-Şərqi Qara dəniz və Şimali Qafqaz ərazilərinə yayıldılar. Hunların bir hissəsi Türkmənistan, Xorasan, Əfqanıstan və Şimali Hindistan ərazisinə köç etdilər. Bəzi hun tayfaları da Xorasan və Azərbaycan üzərindən hərəkət edərək Anadolunun Muş-Van ərazisinə yerləşdilər.

Hun adı e.ə.3000-ci illərdən etibarən Çin mənbələrində qeyd edilir. Həmin vaxt onlar çinlilərin *ti (türk)* adlandırdıqları tayfaların bir hissəsini təşkil edirdilər. Yəni bəzi *ti* tayfalarının birləşməsindən yaranan ittifaq *hun* adlanmağa başladı. Bu ittifaqa zamanla qədim monqol-tunquz, tibet və

skif tayfaları da qoşuldular. Qədim Çin mənbələri həmin ittifaqın hakim tayfasını *"tu-ku" (türk)* adlandırır. Qədim Çin mənbələrinin *ti* adını verdiyi xalqlar Çinin şimal-qərbi, Orta Asiya, Sibir-Volqa xəttindən Xorasana qədər uzanan ərazilərdə yayılmış proto-türklər hesab olunur.

*Hun* adı Çin mənbələrində müxtəlif zamanlarda müxtəlif şəkillərdə tələffüz edilir. Çin mənbələrində onlar üçün *hsien-yün*, *hsün-yü*, *hun-çu*, *hsiunq-nu* kimi adlar işlədilir. Bu adların *huntuk*, *hunnu* mənasına gəldiyi və hun türklərini ifadə etdiyi qeyd edilir. Çincədə *hsiunq-nu* yazılışı, Herodotun "*Tarix*" kitabında *siqynnai* olaraq keçir. Herodotun vaxtında *siqynnai*lərin bir hissəsi Midiya ölkəsində məskunlaşmışdı.

Hun adının nə mənaya gəldiyi haqqında əsas iki fikir irəli sürülüb. Macar türkoloq Qyula Nemetə *(Gyula Németh; 1890–1976)* görə, *hun* adı türk dilində "xalq", "gün" (*el-gün*) deməkdir. İkinci iddia alman Frans Althaym *(Franz Altheim; 1898–1976)* tərəfindən ortaya atılıb. Ona görə, *hun* mənasında *qun* adındakı "qu" türk dilində "güclü olmaq" olub, "n" şəkilçidir. Bu açıqlamaya görə "hun" sözü "güc və qüvvət" mənasındadır. Hun adının "gün, günəş" mənasında olduğu da iddia edilir.

Çin mənbələrində hunlar üçün işlədilən *hsiunq-nu* adını alman türkoloq Annamariya fon Qabain *(Annemarie von Gabain; 1901–1993)* "hun-ox" söz birləşməsindən yarandığını dilə gətirib. Ona görə, "*hsiunq-nu/hun-ox*" "hun tayfaları" və ya "hun xalqı" mənasına gəlir. Mənbələrdə *hun*, türkləri birləşdirən ümumi ad olaraq keçir, onları idarə edən hakim tayfa *türk* adlanırdı. Göytürklər dövründə hun adı tarix səhnəsindən çıxaraq, onun yerini "oğuz" almış, hakim tayfa yenə "türk" adlanmışdır. Orxon kitabələrində "türk-oğuz xalqı" ifadəsi bu mənada işlədilib.





## 4.2. BÖYÜK HUNLAR

Hun tarixi üç dövrə ayrılır:

- *e.ə.3000–e.ə.1200-cü illər* – hun tayfalarının formalaşdığı dövr;
- *e.ə.1200–e.ə.220-ci illər* – hun hərbi-siyasi ittifaqının yarandığı dövr;
- *e.ə.220–e.48-ci illər* – imperiya dövrü.

Sonuncu dövr haqqında məlumatlar Teoman yabqu *(e.ə.III əsr–e.ə.209)* ilə başlayır. Onun haqqında ilk məlumat e.ə.218-ci ilə aiddir. Hun ittifaqı 24 boyun (tayfanın) birləşməsindən əmələ gəlmişdi. Bu boylar sağ və sol olaraq 12-lik sistemlə iki qola ayrılırdı. Dövlətin başında duran hökmdara *yabqu* deyilirdi. Dövlət ərazisi tayfalar iyerarxiyasına görə iki inzibati vahidə ayrılırdı. Həmin ərazilər bəzən şərq-qərb, bəzən də şimal-cənub istiqamətlərinə uyğun olaraq *ağ, qara, qızıl* şəklində adlanırdı. Bu ərazilərdə yaşayan tayfalara da yerə uyğun olaraq *ağ hun, qara hun, qızıl hun* kimi adlar verilirdi.

Hun yabquları hər zaman türk (*tu-ko*) boyundan seçilirdi. Avropa hunları, bulqarlar, göytürklər, türkişlər və hətta Qaraxanlı dövlətinin hökmdar ailəsi həmin soydan gəlirdi. Hun boyları arasında *hu-yen*, *lan* və *su-pu* tayfaları böyük iyerarxiyasında ikinci sırada yer alırdılar. Türk boyundan çıxan yabqular bu üç boydan qız alırdılar: *Hu-yen* ("dovşan" mənasında *kuyan* deməkdir), *Su-pa* (çincə: *hsü-pu*, boy adı *subar/sabir* adının çincə yazılışıdır), *Lan* (boy adı "*uran*" olub, çincə *lun* şəklində "əjdaha" deməkdir). *Kuyan* tayfasının başçıları *"vanq"* tituluna sahib idi. Dövlət məmurları isə *subar* tayfasından seçilirdi.

Hun dövlətinin paytaxtı *Ötükən* idi. Çincə mənbələrdə Ötükən adı "O-ken", "Ok-ken", "O-tik-ken", bəzən sadəcə "Kun" olaraq keçir. Ötükən Göytürk və Uyğur xaqanlıqlarının da paytaxtı olub. Qədim türk kitabələrində *"Ötükən yiş"* müqəddəs məkan kimi qeyd edilir. Onlara görə dünyanın mərkəzi Ötükən idi.

E.ə.209-cu ildə hunların hökmdarı Motun oldu. Motunun hakimiyyətinin ilk dövrü dövlətin yenidən təşkilatlandırılması, hun boyları arasında birliyin yaradılması və dövlət üçün təhlükə təşkil edən *Tunq-hu* və *Yüeçi* dövlətlərini özünə tabe etməsilə keçdi.

E.ə.201-ci ildə artıq bütün türk tayfaları Motunun vahid hakimiyyəti altında birləşmiş və Hun dövləti imperiya formasını almışdı. Motunun hakimiyyəti altına aldığı türk tayfaları arasında *vu-sunlar*, *yüeçilər*, *ko-kunlar* (qırğız), *hsin-lilər* (sir), *hu-çiehlər* (haqar/xəzər), *tunq-hular* və *tinq-linqlər* yer alırdı. Beləliklə, adı çəkilən tayfaların hamısı "hsiunq-nu (*hun-ox*)" xalqının bir parçası oldular. Bu tayfalar Yuxarı Yeniseydən başlayaraq indiki Monqolustanın şərqinə qədər geniş əraziyə yayılmışdılar.

E.ə.201-ci ildən Motun Çinə qarşı hərbi səfərlərə başladı. Həmin dövrdə Çində Xan sülaləsi *(e.ə.206–e.220)* hökm sürürdü. Motun 40 min süvari ilə Xan dövlətinin torpaqlarına girdi. Xan hökmdarı Kao-ti isə onun qarşısına 320



minlik piyada ordu çıxartdı. Ancaq Motun Çin ordusunu mühasirəyə saldı. Xan imperatoru Kao-ti böyük bir fəlakətlə qarşılaşdığını anladıqda hunlarla sülh bağladı.

Motun illik xərac, taxıl və ipək vermək şərti ilə Xan imperatoru Kao-tinin mühasirəsinə son qoydu. Beləliklə, iki dövlət arasında e.ə.201-ci ildə müqavilə bağlandı. Motun qısa müddətdə "26 xalqı" öz hakimiyyəti altına alıb, Hun dövlətini skiflərdən sonra tarixdə yaranmış ən böyük əraziyə sahib imperiyaya çevirdi. Hun imperiyasının torpaqları qərbdə Aral gölünə və Xəzər dənizinə, şərqdə indiki Koreya ərazisinə, şimalda Sibir tayqasına, cənubda isə Qaşqara qədər uzanırdı.

Motun e.ə.174-cü ildə vəfat etdi. Hun dövlətinin başına Motunun oğlu çincə adıyla Lao-şanq, türkcə adıyla Göyük keçdi. Onun hakimiyyət illəri *(Ki-ok: e.ə.174–e.ə.160)* Hun dövlətinin çiçəklənmə dövrü hesab edilir. Göyük yabqu əvvəlcə yüeçilərə hücum etdi. Bu hücumla yüeçilər torpaqlarını tərk edərək Orta Asiya və Əfqanıstana köç etdilər. Orta Asiyaya qaçanlar burada Böyük İskəndər *(e.ə.356–e.ə.323)* tərəfindən əsası qoyulmuş Baktriya dövlətinə son qoyub, Quşan dövlətini yaratdılar.

Yüeçiləri əzdikdən sonra Göyük yabqu 140 minlik orduyla e.ə.166-cı ildə Xan dövlətinin torpaqlarına daxil oldu. Paytaxt Çanqanı mühasirəyə aldı və şəhərə od vurdu. Çin ordusunu məğlub edərək Xan imperatoruna öz şərtlərini qəbul etdirdi. Xan dövlətinin ödədiyi illik vergi ikiqat artırıldı. Hunlar Çindən hər il 200 min ton ipək almağa başladılar. Razılaşmaya görə, Çin öz sərhədlərində sərhəd bazarları yaratmaq məcburiyyətində qaldı. Bu, hunlara öz mallarını Çin malları ilə dəyişdirmək imkanı verirdi.

Göyük yabqu dövründə Hun dövlətinin əzəməti zirvəyə çıxdı. Xan dövləti də hunların gücünə və qüdrətinə boyun əyirdi. Böyük Hun yabqusu Göyük e.ə.160-cı ildə vəfat etdi. Hun taxtına oğlu Günçen keçdi. Lakin Günçen yabqunun zamanında *(e.ə.160–e.ə.126)* hunlar arasında

hakimiyyətə maraqlı olan müxtəlif güclər ortaya çıxdı. E.ə.129-cu ildə Xan imperatoru Vu-ti hunlara qarşı geniş-miqyaslı hərbi əməliyyatlara başladı. Ancaq Xan hökmdarının "savaş siyasəti" tamamilə iflasa uğradı. Çin məmurları uğursuzluğun səbəbini hunlar kimi güclü ordu sisteminə sahib olmamaqda gördülər. Beləliklə, Xan dövləti geniş hərbi reformlara başladı və türk ordu sistemini öz ordusunda tətbiq etdi. Beləliklə, Çin piyada ordu sistemindən türklər kimi atlı ordu nizamına keçdi.

Yabqu Günçen e.ə.127-ci ildə Çinə böyük bir hərbi səfər təşkil etdi. Hunlar Şanq-ku və Yü-yanqa soxuldular. Çox sayda insan öldürüldü. Xan hökmdarı təcili olaraq Sarı çayın cənub sahillərində istehkamlar yaratdı. İstehkamları müdafiə etmək üçün Çinin cənubundan 100 min insan bölgəyə köçürüldü. Hun ordusu ilə Xan hərbi gücləri bir il boyunca Ordos ətrafında qanlı müharibələr apardılar.

Yabqu Günçen e.ə.126-cı ildə vəfat etdi. Onun vəfatından sonra Hun dövləti zəifləməyə başladı. Kun Kan yabqu Hun imperiyasının axırıncı hökmdarı oldu. O, taxt uğrunda şiddətlənən mübarizənin qarşısını ala bilmədi. Ölkəsinin yaşadığı fəlakətlərə və itkilərə son qoymaq üçün çarəni Xan dövlətinə tabe olmaqda gördü. Amma bu, Hun imperiyasının parçalanması ilə nəticələndi. Çinə tabe olmaq istəməyən hunlar yabqunun qardaşı Çi-çini özlərinin hökmdarı elan etdilər. Bu isə Hun imperiyasının iki yerə bölünməsi ilə nəticələndi. E.ə.54-cü ildə meydana gələn bu parçalanma nəticəsində Böyük Hun imperiyası ərazisində Şərqi Hun və Qərbi Hun dövlətləri yarandı.

Şərqi Hun dövlətinin başında duran Kun Kan yabqu Çin hakimiyyətini qəbul etdiyi halda, Qərbi Hun dövlətinin yabqusu Çi-çi özünə bağlı tayfalarla qərb istiqamətinə çəkilərək Orta Asiyada məskunlaşdı. Lakin Qərbi Hun dövlətinin ömrü qısa sürdü. E.ə.36-cı ildə Çin ordusunun hücumuna məruz qalan Çi-çi yabqu öldürüldü və Qərbi Hun dövləti süqut etdi. Bu hadisədən sonra Qərbi



Hun dövlətinin hakimiyyəti altında olan bölgələr müstəqil oldu, bir hissəsi də yenidən Şərqi Hun dövlətinə bağlandı. Beləcə, Hun siyasi birliyi yenidən yaradıldı. Kun Kan hakimiyyətinin sonuna qədər Çinə tabe oldu. E.ə.31-ci ildə vəfat edən Kun Kanın varisləri də Çin hakimiyyətinə boyun əydilər.

18-ci ildə Hun dövlətinin başına Yü yabqu *(18–46)* keçdi. Onun vaxtında hunlar yenidən gücləndi və bir müddətdən sonra Çini öz təsirləri altına aldılar. Amma bu uzun sürmədi. Yü yabqunun hakimiyyətinin son illərində hunlar böyük bir təbii fəlakətlə üzləşdilər. Yaşanan qıtlıq və on minlərlə heyvanın tələf olması böyük iqtisadi böhrana səbəb oldu. Digər tərəfdən, yabqunun oğlu Pu-nu ilə qardaşı oğlu Pi arasında vəliəhdlik uğrunda kəskin ziddiyyət başladı. 48-ci ildə Yü yabqu vəfat etdi. Hakimiyyəti oğlu Pu-nu ələ keçirdi. Amma o, ölkənin siyasi birliyini qoruya bilmədi. Əmisi oğlu Pi dövlətin bir hissəsini ələ keçirərək öz hakimiyyətini elan etdi. Beləcə, Hun imperiyası yenidən iki hissəyə bölündü: Şimali Hun dövləti *(48–92/153)* və Cənubi Hun dövləti *(48–216)*.



## 4.3. QƏRB HUNLARI

Hunların Şərqi Avropa və Qafqaza köç etdiyi tarix dəqiq məlum deyil. Gürcü salnamələrində hunların Qafqaza köçünü bizim eradan əvvəlki dövrlərə, antik mənbələrdə isə miladdan sonrakı dövrlərə aid edirlər. Tarixi mənbələr hunların qərb istiqamətində köçünü 150-ci ildə Hun imperiyasının torpaqlarında Siyenbi dövlətinin (150-350) ortaya çıxması nəticəsində gerçəkləşdiyini deməyə əsas verir. II əsrin ortalarında artıq hunlar Şərqi Avropada idilər. Onlardan bir qədər əvvəl isə qotlar Qara dənizin şimal sahillərini işğal edib german (qədim alman) tayfaları ittifaqını yaratmışdılar. Nəticədə hunlar Avropada ilk qotlarla üzləşdilər.

Hunların ilk süvari dəstələri 158-ci ildə Qara dənizin şimalındakı ərazilərə daxil olsa da, əsas hun köçü 350-ci ildə gerçəkləşdi. Hun köçləri ərəfəsində Şərqi və Şimali Avropanın siyasi-etnik mənzərəsi çox qarışıqdı. Burada müxtəlif tayfalar arasında davamlı müharibələr cərəyan edir, xalqlar və tayfalar tez-tez öz yurdlarını dəyişir, zəifləyən



Roma imperiyasından torpaq və xərac qopartmaq uğrunda mübarizə aparır, dini və sosial qarşıdurmalar səngimək bilmirdi. Bu mənzərə türk və irani tayfalar tərəfindən yaranmış Sarmatiya ittifaqının dağılması ilə daha da sürətləndi.

Siyenbi (qay) hakimiyyətini qəbul etməyən hun köçəriləri 150-ci ildə Volqa çayını aşıb Dionisiy Perieqetiyə (Dionysius Periegeta) görə, 160-cı ildə, Ptolemeyə görə isə 175-182-ci ildə Şimali Qaradəniz bölgəsinə və Qafqaza daxil oldular. Ancaq ilk gələnlərin sayı çox az olduğundan onlar bölgədə təsirli olmadı.

Hunların köçü ərəfəsində Aral gölü ətrafını alanlar işğal etmişdi. İndiki Rusiyanın cənub-qərbində roksalanlar, indiki Macarıstanda isə yazıqlar (jazyges) məskunlaşmışdılar. Hər üç tayfa Sarmat ittifaqını təşkil edirdi. Yazıqlar və roksalanlar qotların zərbəsinə məruz qalıb parçalanaraq müxtəlif istiqamətlərə köç etdilər. Alanlar isə hunların qərbə doğru uzanan köç yolu üstündə yaşayırdı. Çin mənbələrində "an-tsi", "a-lanq-nu", Roma tarixçilərinin əsərlərində "alani", Bizans mənbələrində "asioi", ərəb qaynaqlarında "allan/al-lan" şəklində adları qeyd edilən bu tayfalar hunlar kimi süvari idilər və nizələrlə döyüşürdülər. Alanlar Romanın nəzərində məğlub edilməyən ən güclü hərbi qüvvə hesab olunurdu. Hunlar ilk zərbəni alanlara endirdi. Bu zərbənin təsiri ilə alanlar Aral gölü ətrafındakı əraziləri tərk edərək Şimali Qafqaz, Don və Volqa çayları istiqamətinə qaçdılar.

350-ci ildə ikinci və əvvəlkindən daha böyük hun kütləsi Şimali Qafqaz və Volqa-Don çayları arasında ortaya çıxdı. Mənbələr onların həmin tarixdən etibarən Xəzər dənizinin qərbində və Krım ətrafında məskunlaşdığını qeyd edir. Roma mənbələri həmin tarixdən etibarən "Şərqdən təlatümlü xəbərlərin" gəldiyini qeyd edirlər. 350-370-ci illər arasında Şimali Qafqaz və Krım ətrafında hunlarla alanlar arasında şiddətli müharibələr başladı. Alanların

hunlar qarşısında darmadağın olmasından romalılar qorxdular və uzun müddət bu xəbərlərə inanmadılar. Nəticədə 370-ci ildə hunlar alanları siyasi və hərbi bir güc kimi ortadan qaldırdılar. Alanların hakimiyyəti altındakı Şimali Qafqazı ələ keçirən hunlar məğlubiyyətə uğratdıqları alanları da öz hakimiyyətləri altına aldılar. Hunların bütün Avropanı təsiri altına aldığı bu köç hərəkatı Avropa tarixində quldarlıq quruluşunun dağılması və feodalizm dövrünün başlanması hesab edilir.

350-ci ildə yurdlarını tərk edən hunların başında Balamir adında bir hökmdar dayanırdı. Balamir alan və bəzi sarmat xalqlarını öz hakimiyyəti altına aldıqdan sonra Ermanaqın başçılıq etdiyi Şərqi Qot (ostroqot) dövlətinin ərazisinə soxuldu. Ermanaq 17 tayfanı özünə tabe edən bir dövlət yaratmışdı. Ostroqotlar Azov dənizi ətrafında xerullar, Dnepr çayının yuxarı məcrasında slavyan vənətlər, Şərq dənizi sahilində beltlər, fin-uqor əsilli merya, mordvin meskera və alman tayfalarını hakimiyyətləri altına almışdılar. 374-375-ci ildə ostroqot və hun orduları üz-üzə gəldi. Ostroqotlar ilk zərbədə darmadağın oldu. Ostroqot kralı Ermanaq intihar etdi. Ostroqot taxtına Amal sülaləsindən Vithimer əyləşdi. Vithimerin qotları yenidən toplayıb hərəkətə keçdiyini eşidən Balamir vaxt itirmədən onlara hücum etdi. Silahdaşı Gensimunddan aldığı qüvvətlə Cənubi Ukraynanın Erak çayı ətrafında hunların qarşısına çıxan Vithimerin başçılıq etdiyi ostroqotlar hunlarla girdikləri ikinci döyüşdə də məğlub oldular. Döyüş vaxtı Balamir öz nizəsini kral Vithimerin alnına vuraraq ostroqot kralını yerə sərdi. Beləliklə, Şərqi Avropadakı Ostroqot dövləti ortadan qalxdı və həmin dövləti təşkil edən slavyan və bəzi german tayfaları Hun hakimiyyəti altına girdilər.

Vithimerin öldürülməsindən sonra Balamirin başçılıq etdiyi hunlar qaçan ostroqotları təqib edərək Avropaya daxil oldular. Qaçan ostroqotlar özlərinə Vithimerin



azyaşlı oğlu Videriki kral seçmişdi. Yeni kral kiçik olduğundan ostroqotları Alatheus və alan əsilli Saptiks idarə edirdi. Onlar viziqotlara sığındılar. Bu vəziyyət viziqotların hunlarla üz-üzə gəlməsinə səbəb oldu. Bu vaxt viziqotlar indiki Rumıniya ərazisində yaşayırdı. Onların başında kral Atanarix dayanırdı. Son dərəcə məğrur olan və Baltik sahillərindən Şərqi Avropaya köç etdikləri 200 il ərzində Roma imperiyasına mütəmadi zərbələr vuran viziqotlar hunlarla döyüşməyə qərar verdilər. Kral Atanarix ordusu ilə Dnestrin qayalıq hissəsinə çəkilərək müdafiə tədbirləri almağa başladı. Ancaq hunlar viziqotları da məhv etdilər. Məğlub olan kral Atanarix Karpat bölgəsinə qaçdı.

Hunların 375-376-cı ildə ard-arda ostroqot və viziqotların dövlətlərini darmadağın edib Şərqi Avropanı öz təsir dairəsinə salması bütün Avropanın etno-siyasi mənzərəsini dəyişdirdi. Bundan sonra 20 il ərzində (376-400) hunlar kiçik hadisələr istisna olmaqla, Avropada görünmədilər. Beləliklə, 376-cı ildə əsas mərkəzi Don çayının şərqi və Azov dənizinin ətrafı olan Qərbi Hun xaqanlığı yarandı. Xaqanlığın ilk hökmdarı Balamir oldu. Balamirin nə vaxt öldüyü və ondan sonra Avropa Hun taxtına kimin oturduğu dəqiq məlum deyil. Böyük ehtimalla dövlətin yaradıcısı Balamir 400-cü ilə qədər hunlara hökmdarlıq etdi.

400-cü ildən etibarən hunların hökmdarı Ulduz idi. Ulduzun hakimiyyəti (400-410) Avropa Hun xaqanlığının çiçəklənmə dövrünün başlanğıcı hesab edilir. Ancaq onun hakimiyyəti qısa sürdü. 410-cu ildə Qərbi Hun hökmdarı Qaraton (410-420) oldu. Qaraton dövründə hunların Avropada görünməməsinin əsas səbəbi onların həmin dövrdə Qafqazdakı fəaliyyətləri ilə əlaqədardır. Qaratonun Qafqazdakı hadisələrlə yaxından maraqlanmasının səbəbi Şərqi Anadoluda ortaya çıxan Qarahun dövlətinin sasanilərə qarşı apardığı müharibədə hunlardan kömək istəməsi idi. Sasani hökmdarı II Şapurun hakimiyyətinin

son dövrlərində qarahunlarla başlayan müharibələr 450-ci illərə qədər davam etdi və bu müharibələrdə Qərb Hun xaqanlığı qarahunların tərəfini tutdu. Bu məqsədlə Qaraton 415-420-ci illər arasında Cənubi Qafqaza Hun hərbi birliklərini sövq etdi. Nəticədə qarahunlar ard-arda Sasani ordusunu məğlub etdilər.

Qaraton, təxminən 420-ci ildə vəfat etdi. 422-ci ildə Avropa Hun xaqanlığının başına Rua keçdi. Ruanın Qaratonun oğlu və ya qohumu olduğu dəqiq bilinmir. 422-ci ildə Ruanın başçılıq etdiyi hunlar Dunay ətrafında yenidən peyda oldular. Hunlar böyük sürətlə Makedoniya və Trakiya üzərinə hərəkətə keçdilər. Romalılar hunların qarşısını alacaq gücə sahib olmadığından Ruaya sülh təklif etdilər. Danışıqlar nəticəsində Bizans illik 350 librə qızıl verməyi qəbul etdi. Beləliklə, Rua Şərqi Romanı öz vassalına çevirərək üzünü Qərbi Romaya döndü.

Həmin vaxt Qərbi Roma imperiyasının başında III Valentin (425-455) dayanırdı. Ancaq o kiçik yaşda olduğundan hakimiyyət anası Qalla Plakidianın əlində idi. 429-430-cu illərdə Ruanın qardaşı Oktar Reyn çayının sağ sahilində yaşayan burqundlara hücum etdi. Amma döyüşdə Oktarla birlikdə xeyli hun öldürüldü. Bunu öyrənən Rua hərbi hazırlıqlara başladı. Ancaq Ruanın vəziyyəti qəflətən ağırlaşdı və öldü (434-cü il).

Ruanın vəfatı ilə Avropa Hun xaqanlığı tarixində bir dövr başa çatıb, yeni bir dövr başladı. Ruadan sonra qardaşı Bleda Hun taxtına çıxdı və o qardaşı Attila ilə birlikdə dövləti idarə etməyə başladı. Bleda və Attila Ruanın qardaşı Muncuğun oğlanları idi. Türk hakimiyyət anlayışına görə, Bleda mütləq xaqan olaraq dövlətin şərq, Attila isə ortaq xaqan kimi qərb, yəni Avropa hissəsinin idarəsini ələ aldı. Hun xaqanlığını 434-444/45-ci illər arasında Bleda idarə etdi.

Bleda taxta oturduğu ərəfədə Bizans ilə Hun xaqanlığı arasında münasibətlər yaxşı deyildi. Bizansı cəzalandırmaq



üçün Hun ordusuna başçılıq edən Attila Dunay çayı sahillərinə qədər gəldi. Attilanın hərəkətindən qorxuya düşən Bizans təcili elçilər göndərib sülh istədi. Marqus (indiki Dobroka) şəhərində 434-cü ildə Hun-Bizans müqaviləsi imzalandı. Müqavilənin şərtləri Bizans üçün həddindən artıq ağır oldu. Müqaviləyə görə, Roma hunlara illik 700 librə qızıl xərac vermək məcburiyyətində qaldı.

435-ci ildə Avropanın böyük bir hissəsi hunların hakimiyyəti altında idi. Hunların əsas qüvvəsi İdil (Volqa) çayından Orta Dunaya qədər ərazilərdə məskunlaşmışdı. Hunların bəzi tayfaları isə Azərbaycanda Muğana qədər ərazilərə yayılmışdı.

440-cı ildə Hun xaqanlığı ilə Bizans arasındakı münasibətlər yenidən pozuldu. Buna səbəb Marqus şəhəri rahibinin Hun xaqanlığının torpaqlarına soxularaq türklərin müqəddəs bildikləri qəbirlərin talan və təhqir edilməsi idi. Qəbirlərdəki qiymətli əşyaları oğurlayan rahib Bizansa qaçdı. Bizans mənbələri bu hadisənin Attilanın Şərqi Romaya hücum etməsinə bəhanə olduğunu qeyd edir. Ancaq Bizansın Attila ordusunun qarşısını ala biləcək hərbi gücü olmadığından rahibi hunlara təslim etmək istədilər. Onu gözləyən cəzanı bilən rahib gizlicə hunların yanına qaçıb Attilanın hüzuruna çıxdı. O, Attilaya həyatının bağışlanması müqabilində Marqus şəhərini hunlara təslim edəcəyini bildirdi. Attila onu bağışlayacağını bildirdi. Bundan sonra rahib Hun ordusu ilə geri qayıdaraq onların Dunay çayı ətrafında pusquda durmalarını tapşırdı, özü isə şəhərə getdi. Gecə yarısı şəhərin darvazalarını açdı və hücum etmək üçün hunlara işarə verdi. Marqus şəhərinin hunlar tərəfindən ələ keçirilməsi Trakiya və Konstantinopolun yolunun açılması mənasına gəlirdi. Attila Marqus şəhərini ələ keçirdikdən sonra hücumlarını İlliriya istiqamətində genişləndirdi. Sinqidunumu (indiki Belqrad) mühasirəyə alıb ələ keçirdi. Şəhərin bütün əhalisini əsir alaraq 441-ci ildə Sirmiumu (indiki

Sermska Mitrovika) işğal etdi. Pannoniya Sekunda bölgəsini və Naissusu (indiki Niş) öz hakimiyyəti altına alan Attila Trakiya istiqamətində hücumlarını sürətləndirdi. Bu vaxt Şərqi Roma və Hun xaqanlığı arasında danışıqlar yenidən başladı. Müqavilənin təminatı olaraq Aetius öz oğlu Karpilionu Attilanın sarayına girov göndərdi. Beləliklə, 442-ci ildə hunlar Balkanlarda yeganə siyasi güc halına gəldi.

444-445-ci ildə Bledanın vəfatından sonra Attila böyük xaqan seçilərək Hun xaqanlığının başına keçdi və 447-ci ildə hunlar yenidən Balkanlarda göründülər. Qərbi Roma imperatoru II Teodosun Balkanlarda hunlara qarşı müdafiə istehkamları tikdirməsi, habelə margus officorum titulu alan Nomun vəzifə səlahiyyətlərinin artırılması bu səfərin başlamasına rəvac verdi. 446-cı ildə Şərqi Romada başlayan yoluxucu xəstəlik və 447-ci ildə baş verən zəlzələ nəticəsində Bizans dərin böhranla üzləşdi. Zəlzələ nəticəsində Konstantinopol divarlarının bəzi bürcləri yıxıldı, şəhər böyük zərər gördü. Bundan istifadə edən Attila Bizansı tamamilə öz hakimiyyəti altına alıb, daha sonra Qərbi Romanın üzərinə hərəkət etmək niyyətinə düşdü.

Attila sürətlə Roma üzərinə hücuma keçdi. Hunlar Dunaya çatıb, yol üstündəki bir neçə qalanı ələ keçirdikdən sonra Romanın əsas mərkəzlərindən hesab edilən Ratiaria şəhərinin qapısında dayandılar. Bu şəhər Dunay ətrafındakı ərazilərin açarı hesab edilirdi. Attila Hun dövlətinin vassalları olan ostroqot və gepidlərin də səfərə qoşulmasını əmr etdi. Arneqkulun əmrindəki Roma orduları ilə meydana gələn döyüşdə hunlar romalılara ağır zərbə endirdilər. Qələbədən sonra Attila ordusunu üç hissəyə ayırdı: birinci ordunu Nikopolis (indiki Niğbolu) ətrafındakı Asemus (indiki Osem) qalasını almağa, ikinci ordunu Dunay ətrafındakı torpaqları işğal etmək üçün şərqə göndərdi. Özü isə əsas ordu ilə Serdica (indiki Sofiya) istiqamətində hərəkətə keçdi. Attila, Sofiya və Philippolisi (indiki Filibe)





*Attilanın illüstrasiyası. "Nəsr Eddası"ndan*



*Attilanın rəsmi. Rəssam: Ejen Delakrua. Burbonlar sarayından*




*Qərbi Hun imperatorluğunun yayıldığı ərazilər*

ələ keçirdi, Adrianopolisi (indiki Ədirnə) isə mühasirəyə aldı. Ordunun bir hissəsinə Ədirnəni mühasirədə saxlamağı tapşırdı və özü Durostorum (indiki Silistrə) və Markianopolisi (indiki Preslav) ələ keçirərək Konstantinopola hərəkət etdi. Yol üstündə yerləşən Arkadiopolisi (indiki Lüləburqaz), Kallipolisi (indiki Gelibolu) və Sestosu (indiki Akbas limanı) ələ keçirdi. Bu ərəfədə Attila gözlənilmədən orduya geri qayıtmağı əmr etdi. Trakiyadan keçib Teselyaya girdi və Thermopylae (indiki Termopil keçidi) ətrafına gəldi. Şahzadə Asparın başçılıq etdiyi Bizans ordusu 447-ci ildə Xersonesdə hunlar tərəfindən məhv edildi və beləliklə, Roma əsas ordusunu itirdi. Təcili Attilaya elçilər göndərən imperator II Teodos Hun xaqanından üzr istəyib sülh bağlamağı xahiş etdi. Athira ərazisində (indiki Böyükçəkməcə) imperiyanın şərq ordularının başçısı, eyni zamanda senatın üzvü olan Anatolinin vasitəçiliyi ilə hunlarla Bizans arasında sülh danışıqları başladı və 447-ci ildə Anatolius sülhü imzalandı. Buna görə, Bizans Hun xaqanlığına 6000 librə qızıl, hər il isə 2100 librə qızıl xərac ödəməyi öhdəsinə götürdü.

Attila əzəmətli hökmdar idi. İordan Attilanın "xalqları özünə və doğru yola gətirmək məqsədilə yer üzünün qəzəbi olaraq dünyaya gəldiyini" yazır. Mənbələrdə Attilanın fiziki quruluşu belə təsvir edilir: boyu balaca, enlikürək idi. Başı böyükdü, amma başına görə gözləri kiçikdi. Tarixçi Priskə görə, seyrək saqqalına ağ dənlər düşmüşdü. Burnu yastı idi və sərt baxışlara sahibdi. Həddindən artıq ciddi idi və heç gülməzdi.

İki Roma imperiyasını özünə tabe etməsinə, Avropanın bütün xalqlarının hökmdarı olmasına baxmayaraq, Attila olduqca sadə təbiətli idi. Prisk "dünyanı lərzəyə gətirən" Attilanın hüzuruna çıxdıqda onun "taxtadan hazırlanmış bir taxtda oturduğunu" xəbər verir. Müəllifə görə, "digər iskitlərə gümüş qablarda, Attilaya isə taxta qabda ət gətirildi. Hər cəhətdən mötədil və qənaətcil idi. Qonaqlara qızıl



və gümüş qədəhlər verildiyi halda onun qədəhi taxtadan idi. Əynindəki paltarı, ayaqqabıları, qılıncının dəstəyi, qiyafəsi və atının üstündəki əşyaları əsgərlərindən fərqli deyildi. Halbuki əmrindəki iskit (hun) komandanlarının silahları qızıl və qiymətli daşlarla bəzənmişdi. Amma o belə deyildi. Sadəcə, başqalarından daha təmizkar idi".

Mənbələr Attilanın çox tədbirli, yaddaşı qüvvətli, dürüst və bütün fikirlərini əsaslandıran hökmdar olduğunu yazırlar. Attilanın qılıncı, eyni zamanda, hakimiyyətin rəmzi hesab edilirdi. Bu qılınc müqəddəs sayılan "İşquz xaqanlarının qılıncı" olub, romalı müəlliflərin əsərlərində "Aresin qılıncı" adlanırdı.

Attilanın qılıncı daha sonra Avropa xalqlarının inancında geniş yer tapdı və "Escalibur" haqqında əfsanələr yarandı. Attila özünü "Tanrının qılıncı", "Tanrının qırmancı" və "Tanrının qamçısı" adlandırırdı. Burada "qılınc, qırmanc və qamçı" ilahi ədaləti təmsil edirdi.

Bizans-Hun müqaviləsindən sonra Attila Dunay çayının cənub sahili boyunca 500 km-lik ərazinin (Dunay sahilindəki Pannoniyadan Novaeyə (indiki Sviştov) qədər olan atla 5 günlük məsafə) boşaldılmasını və Naissusda (indiki Niş) bir bazar yerinin qurulmasını əmr etdi. Hunların belə bazara ehtiyacları vardı. Çünki hunlar sərhədlərdə qurulan bazarlar vasitəsilə öz mallarını Roma və Bizansdan gələn mallarla dəyişdirirdilər.

Attila Qərbi Roma imperiyasını özünə tabe etmək məqsədilə Qaliya torpaqlarına hərəkətə keçdi. 451-ci ildə Qaliya səfəri ərəfəsində Roma və Bizans saraylarına elçilər göndərən Attila iki imperatora da xəbərdarlıq etdi: "Sizin hökmdarınız Attila olaraq əmr edirəm: vaxt itirmədən bir saray tikdirin, çünki mən gəlirəm".

Attila böyük bir ordunun başında 451-ci ilin yaz aylarında səfərə çıxdı. Qalliya istiqamətində hərəkətə keçən Attila Reyn çayını aşaraq Qalliyanın şimal-şərqindəki şəhərləri ələ keçirməyə başladı. Hunlara müqavimət göstərən

burqund və frank orduları ilk zərbədə darmadağın edildilər. Paris və Troyes şəhərləri istisna olmaqla, Qalliyanın bütün əyalətləri hunlara təslim oldu. Hunlar Reyn çayı ətrafındakı Metz şəhərini 451-ci ilin 7 aprel tarixində Pasxa bayramı günü ələ keçirdilər. Metzin alovlar içində yanan xarabalıqlarını arxada qoyan Attila Reyms şəhərinin divarları önündə dayandı. Amma hunların gəldiyini eşidən xalq şəhəri çoxdan boşaldıb dağlara qaçmışdı. Hunlar heç bir müqavimət görmədən Reymsi ələ keçirdilər. Buradan isə cənub-qərbdə yerləşən böyük Orlean şəhəri istiqamətinə yola çıxdılar. Orlean özünü müdafiə edəcək gücə və mövqeyə sahib olduğu halda, şəhərin kralı, alan əsilli Sanqiban hunlara təslim olmağa qərar verdi. Beləliklə, bütün Fransa Hun xaqanlığının hakimiyyəti altına keçdi.

Qalliyanı əlində tutan Attilanın müttəfiqi və dostu Aetius, hunların bu hərəkətindən qorxaraq İspaniyadakı Viziqot kralı I Teodorikdən kömək istədi. Orniansın girişindəki Loire daş körpüsünün və şəhərin ələ keçməsindən sonra hun təhlikəsi ilə üz-üzə qalan viziqotlar bu təklifi müsbət qarşıladılar və kral I Teodorik dörd oğlundan ən böyüyü Torismundu da yanına alıb Aetiusla birləşmək üçün hərəkətə keçdi. Viziqotlarla həlledici bir döyüşə girmək üçün Attila uyğun yer axtarmaq məqsədilə ordusunu geri çəkdi. Nəhayət, iki ordu Mavrika (və ya Mavriak) əyalətini əhatə edən antik şəhərlərdən Trekasdan (Tricassis/Tricassira/Troyes) 5 Roma mili uzaqlıqda Kampus Mavriakus (və ya Mavriacum Kampanum) deyilən düzənlikdə üz-üzə gəldilər.

Avropa tarixinin ən böyük döyüşlərindən biri hesab edilən bu müharibə bir yerdə və eyni tarixdə baş vermədi. Hun və Roma-Viziqot orduları 15 gün boyunca müxtəlif yerlərdə dəfələrlə üz-üzə gəldilər. 451-ci ilin iyun ayının son günlərində Mavriakusda bütün Avropa xalqlarının iştirak etdiyi tarixi bir döyüş cərəyan etdi. Günortadan sonra təxminən saat 3 radələrində başlayan vuruşma qaranlığın



çökməsinə qədər davam etdi. Amma həlledici vuruşmada tərəflər bir-birinə qarşı üstünlük əldə edə bilmədi. Qaranlığın çökməsi ilə birlikdə Attila ordusunu geri çəkdi və tədbir məqsədi ilə döyüş arabalarından ordugahın ətrafında bir çəmbər meydana gətirdi. Roma-Viziqot ordusunun böyük hissəsi hun oxları altında can verdi. Bizans müəllifi İordan 165 min əsgərin öldüyünü yazır.

452-ci ildə Attila Romanın işini birdəfəlik həll etmək üçün yeni hərbi səfərə başladı. Bahar aylarında Attila ordusu ilə Pannoniyadan hərəkətə keçərək Aetius tərəfindən müdafiə edilən Yuli Alplarının dar boğazlarından aşıb rahat şəkildə Aquileia şəhərinin qapılarına qədər gəldi. Aquileia şəhəri Roma imperiyasının şərq müdafiə mərkəzi hesab edilirdi. Güclü müdafiə sistemi olan şəhər mühafizəçilərinin başında Alarik və Antala adında iki qot əsilli komandan dayanırdı. Hunlar şəhəri üç ay mühasirədə saxladılar. Şəhər ələ keçməyəcək kimi görünürdü. Diqqətli hökmdar olan Attila bu vaxt bir leyləyin ağzında öz balalarını şəhərdən uzaqlaşdırdığını müşahidə etdi. Bunu şəhərin yaxın vaxtlarda ələ keçəcəyinə işarə kimi başa düşən Attila ordusuna hücum əmri verdi. Beləliklə, Roma imperiyasının doqquzuncu böyük şəhəri Aquileia üç aylıq mühasirədən sonra hunların əlinə keçdi. Attila şəhərin yandırılmasını əmr etdi. Daha sonra da İtaliya topraqlarına ayaq basdı və ardıcıl olaraq Altinum, Padua (və ya Konkordia) şəhərlərini də ələ keçirərək onları da Aquileianın aqibətinə düçar etdi. Aquileiada yaşananlar hər tərəfə yayılınca, Roma imperiyasının digər böyük və məşhur şəhərləri Visentia (indiki Vicenza), Verona, Breksia (indiki Breşia), Perqamo və Mediolanum (indiki Milan) müqavimətsiz hunlara təslim oldu. Buradan Ticinuma (indiki Pavia) hərəkət edən Attila təslim olmayan bütün digər şəhərləri ağır şəkildə cəzalandırdı. Bu səbəbdən də İtaliya şəhərlərinin çoxu könüllü təslim olub qapılarını hunların üzünə açdı.

Milanı alarkən Attila şəhərin sarayına girdi və imperatorun buradakı taxtına oturdu. Şəhərdəki imperator sarayını bəzəyən freksləri görən Attila bir rəssamı yanına çağıraraq Milan sarayının divarına Hun hökmdarının "taxta oturmuş, Şərqi və Qərbi Roma imperatorlarının əllərində kisələrlə dolu qızılları ayağının altına tökərkən" təsvir edilməsini əmr etdi. Bu tablo uzun illər Milan sarayında qorundu.

Hunların hücumu İtaliyanı qorxuya saldı. İmperator III Valentinian Ravennadakı sarayını tərk edib qaçdı. Ordu başçısı Aetius isə Şərqi Roma imperatoru Markianusdan təcili hərbi yardım istədi. Amma məsafənin uzun olması səbəbilə Bizansdan kömək gəlməsi mümkün görünmürdü. Çətin vəziyyətdən çıxmaq üçün imperator III Valentinian senator Avienusun başçılığı altında bir elçi heyəti hazırladı. Heyətə Papa I Leo (Böyük Leo) və Roma şəhər valisi Triqetius da daxil edildi. Elçilər Po ilə Minsio çaylarının kəsişdiyi yerdə qərargah quran Attilanın hüzuruna gəldilər. Xristian dünyasının dini rəhbəri Papa xüsusi mərasim xalatını geyərək Attilanın qarşısına çıxdı. Attila onun qarşısında diz çökərək ağlayan Papanı hörmətlə qəbul etdi. Romalılar bağışlanmaları üçün Attilaya yalvardılar. Özləri ilə gətirdikləri əsirləri də hunlara təslim etdilər. Üstəlik, Attilanın hakimiyyətini qəbul etdiklərini təsdiq edən böyük miqdarda qızıl verdilər. Roma imperiyası rəsmən Avropa Hun xaqanlığına təslim olduğunu, onun boyunduruğu altına girdiyini, təbəəlik olaraq illik vergi və xərac ödəyəcəyini qəbul etdi. Attila istədiyi şərtləri Romaya qəbul etdirdikdən sonra İtaliyanı tərk edərək Dunay çayı istiqamətində geri qayıtdı.

Təxminən 452-ci ildə, payızın son ayında Attila ölkəsinə qayıtdı. Növbəti ilin baharı üçün yeni hərbi plan hazırlamağa başladı. Attila Bizansı ortadan qaldırmaq və Qafqaz üzərindən sasanilərə hücum etmək niyətində idi. Amma bu planları həyata keçirmək Attilaya nəsib olmadı. 453-cü ilin yazında Attila daxili qanaxmadan öldü.





*Attila və Roma papası Leo.*
*Freskanın rəssam və müəllifi: Rafaello Sanzio*

Attilanın ölümü haqqındakı məlumatlar birmənalı deyil. Amma bütün tarixçilər Attilanın toy gecəsi öldüyü haqqında yekdil fikirdədirlər. Etibarlı mənbələr Attilanın vəfatının içki səbəbindən keçirdiyi daxili qanaxma nəticəsində gerçəkləşdiyini qeyd edirlər. Amma Attila kimi bir hökmdarın ölümündə qeyri-adilik axtaran sonrakı dövr mənbələri hadisələri tamamilə fərqli izah edərək bu hadisəni mifləşdirdilər və onun İldiko adlı bir qadın tərəfindən öldürüldüyünü iddia etdilər.

Attiladan sonra hakimiyyətə onun böyük oğlu Dəngizlik çıxsa da, o, hunların birliyini qoruya bilmədi və xaqanlıq sürətlə zəifləməyə başladı. 460-cı ildə isə hunların ərazisi bu dəfə şərqdən gələn oqur adlanan başqa türk tayfalarının əlinə keçdi.



# 4.4. HUN DÖVLƏTLƏRİ

Şimali Hun dövlətinin əsas mərkəzi Şimali Monqolustanda, Cənubi Hun dövlətinin əsas mərkəzi isə Mərkəzi və Cənubi Monqolustanda yerləşirdi. Cənubi Hun dövləti Çin hakimiyyətini qəbul edərək yenidən təşkilatlanmağa başladı. Cənubi Hun dövləti 216-cı ilə qədər yaşadı. Cənub hunlarından fərqli olaraq, şimal hunları Çin hakimiyyətini qəbul etmədilər. Lakin şimal hunları tayfalar arasındakı mübarizələr nəticəsində tənəzzülə uğradılar. 92-ci ildə Şimali Hun dövləti ortadan qalxdı. Amma bəzi tarixçilər bu dövlətin 153-cü ilə qədər Orta Asiyada varlığını davam etdirdiyini qeyd edirlər.

Hunların hücumunun qarşısını almaq üçün Xan imperatorları sərhəd bölgələrində türkləri məskunlaşdıraraq onlara geniş imtiyazlar verdilər. Bu siyasət nəticəsində çox sayda hun tayfası Şimali Çin ərazisində məskunlaşdı. Onların vəzifəsi Xan dövlətinin sərhədini qorumaq idi. III əsrin əvvəllərində Xan imperiyası süqut etdikdə həmin türk



tayfaları hakim olduqları ərazilərdə öz dövlətlərini yaratdılar. Bu dövlətləri Çin mənbələri *Birinci Çao (304–329)*, İkinci Çao *(319–351)*, Şimali Lianq *(401–439)* və *Hsia (407–431)* adlandırırlar.

Böyük Hun dövlətinin ana torpaqlarında isə yeni ittifaqlar qurulmağa başlandı. Belə ittifaqlardan ən böyüyü *Kaylar*, çincə adı ilə *Siyenbilər* idi.

## 4.4.1. Kaylar (Siyenbilər)

Şimali Hun dövlətinin süqutu Şimali Çin, Monqolustan, Altay və Şərqi Qazaxıstan bölgəsində böyük siyasi boşluq yaratdı. Bu boşluğu Hun ittifaqı içində yer alan siyenbilər doldurdular. Siyenbi (çincə: *hsien-bi/hsiyen-pi/siyenbi*) adındakı "hsi" türkcə "kay/qay" mənasına gəlir. V.Eberhard bu adın çincədə "qul, kölə" kimi tələffüz edildiyini yazır. "Kay/qay" adı "qovuq, içi boş ağac, qayıq" mənasında "kav" sözündən yaranıb. Onlar qıpçaqların ulu babası idi.

Siyenbilər haqqında Çin mənbələrində yer alan məlumatlar e.ə.III minilliyə qədər gedib çıxır. Bu məlumatlara görə, siyenbilər Şimali Çində e.ə.2600-cü ildə ortaya çıxan hsien-yünlərin davamçıları idilər.

Mədəni və həyat tərzləri baxımından siyenbilərlə türklər arasında fərq yoxdur. Hökmdar mənşəyi haqqında siyenbi əfsanəsi türklərdən alınıb. Yenə bu əfsanədə hökmdarın dünyaya gəlməsi "Oğuz xaqan" dastanı ilə oxşardır. Buynuzdan yay düzəldilməsi isə Altay-türk ənənəsidir. Ev heyvanlarının maral olması, habelə samur, su samuru və sincab ovlamaları onların şimaldan köç etdiklərinə işarədir. Digər xüsusiyyətləri də hunlarla eynidir. Paul Pelliot *(Paul Eugène Pelliot; 1878–1945)* və V.V.Bartold siyenbilərin türk olduqlarına şübhə etməyiblər.

Lakin siyenbilər tamamilə türk deyildi. Onlar arasında çox sayda monqol, hətta koreyalı tayfalar yer alırdı. Çinin

Hun dövlətini yox etmək siyasəti öz bəhrəsini versə də, hunların siyasi bir güc kimi ortadan qalxması Çinə qarşı yeni bir düşmənin yaranması ilə nəticələndi. 89–106-cı illər arasında böyük komandan Tou Hisen və Kenq K'uei hunlara hücum etdi. Şimali Hun hökmdarı geriyə çəkilərək qərbə qaçdı. Bundan faydalanan siyenbilər hunların yurdunu aldılar. Hunlardan geriyə 100 min ailə (500 min nəfər) qaldı. Bundan sonra onlar siyenbilər adlandırılmağa başlandı. Bu tarixdən etibarən siyenbilər getdikcə qüvvətləndilər. Yenə Çin mənbələri siyenbilərin hunların mərkəzi Orxonu ələ keçirdiklərini xəbər verirlər. "Hou Xan-şu"ya görə, bu hadisə 91-ci ildə olmuşdu.

Bu tarix Şimali Hun dövlətinin süqutu və Orxonda Siyenbi dövlətinin yarandığı tarixdir. Amma Şimali Hun dövlətinin bu hadisədən sonra 150-ci ilə qədər yaşadığı məlumdur. Çünki Hun hökmdarı qərb torpaqlarına köç etmişdi. Orxon bölgəsində qalan 500 min hun isə siyenbilərlə birləşib, Siyenbi dövlətinin yaranmasında rol oynadı. Amma, siyenbilərin sistemli dövlət təşkilatının olduğu iddia edilə bilməz. Çünki siyenbilər arasında mərkəzi bir idarə sistemi yox idi. 115–119-cu illər arasında müxtəlif siyenbi tayfaları bir-birindən xəbərsiz Çinə hücumlar təşkil etmişdilər. Həmin dövrdə dörd böyük Siyenbi ittifaqı yaranmışdı:

1. *Liao-hsi siyenbiləri*. Bunlar siyenbilərin şərqində məskunlaşmışdılar və vu-huanlar ilə davamlı müharibə aparırdılar. 117-ci ildə onların vu-huanlara qarşı böyük hücumundan bəhs edilir.
2. *Tai-çün siyenbiləri*. Liao-hsi siyenbilərinin qərbində yer alan bu tayfalar 118-ci ildə Çinə hücumları ilə tarix səhnəsinə çıxmışdılar.
3. Şanq-ku siyenbiləri. Siyenbi yurdunun ortasında yer alırdılar və 118-ci ildə Çinin şimal əyalətlərinə hücumlar təşkil etmişdilər.
4. *Yen-men və Tinq-hsianq siyenbiləri*. Siyenbi yurdunun qərbində Orta Asiya ilə sərhəddə məskunlaşmışdılar və tez-tez Orta Asiyaya hücumlar təşkil edirdilər. Ən böyük hücumları 122-ci ildə olmuşdu.



Bu siyenbi tayfaları da çox sayda boy, oymaq və obadan ibarət idi. Bütövlükdə siyenbilər türk və monqol tayfaları ittifaqını yaratmağa nail olmuşdular.

Ta-tu-hadan sonra siyenbilərin başında ən güclü hökmdar Çi-çih-çien olmuşdu. Bu adın türkcə "İltəbər/Eltəbər" olması, onun daha əvvəl Hun dövlət sistemində bir dövlət məmuru olduğunu deməyə imkan verir.

121-ci ildə Eltəbər ən güclü Siyenbi hökmdarı hesab edilirdi. O, Liao-hsi siyenbilərini də özünə tabe edərək, Yünçunq və Çü-yunq əyalətlərini yağmaladı. Eltəbər şərqdəki siyenbilərin hökmdarı olmuş, daha sonra qərbdəki siyenbiləri də özünə tabe etmişdi. Siyenbi ilə Çin arasında Cənubi Hun dövləti yer aldığından, Eltəbər əvvəlcə onlarla vuruşmağa başladı. 123-cü ildə Cənubi Hun dövlətini məğlub edən Eltəbər bu hadisədən üç il sonra *(126-cı ildə)* Çınq-şan əyalətinə soxuldu. Amma bu hücumlar sistemli xarakter daşımırdı. Bu da Eltəbərin siyenbiləri tam təşkilatlandıra bilmədiyini deməyə əsas verir. 133-cü ildə onun vəfatından sonra siyenbi tayfaları yenidən müstəqil hərəkət etməyə başladılar.

Siyenbilər Tansuq xaqanın səyləri ilə güclü dövlətə çevrildilər. Çin mənbələri onun əfsanəvi şəkildə dünyaya gəldiyini və siyenbilər arasında böyük hörmət qazandığını yazırlar. Tansuq 150-ci ildə siyenbilərin başına keçdi. Onunla birlikdə yeni bir titul da türklərin həyatına girdi. Çünki Tansuq hunların daşıdığı "yabqu" titulu əvəzində "*xaqan*" adını aldı.

156-cı ildən etibarən siyenbilərin Çin üzərinə hücumları sürətləndi və planlı şəkil aldı. Beləcə, çinli müəllifin də dediyi kimi, "hunlar qərbə çəkildilər, siyenbilər isə onların torpaqlarını ələ keçirib yeni bir dövlət yaratdılar". Bundan qorxuya düşən Çin Siyenbi dövləti ilə münasibət yaratmaq istədi. Çin hökmdarı 166-cı ildə "Siyenbi xaqanına

elçi göndərib ona möhür və *kınqıraq* (iki tərəfi də kəskin bıçaq) təqdim etdi. Bundan başqa, ona hökmdarlıq titulu verib hakimiyyətini ucaltdı. Siyenbilər ilə dostluq münasibətləri yaratmaq istədiklərini bildirdi. Lakin bunların heç bir faydası olmadı. Siyenbi xaqanı yenə istədiyi kimi Çin torpaqlarını əvvəllər olduğu kimi talan edirdi".

Siyenbi dövləti inzibati cəhətdən üç hissəyə ayrılırdı. Hər bölgənin başında bir bəy dayanırdı və onlar da birbaşa xaqana tabe idilər. Ümumilikdə Siyenbi dövlət inzibati ərazi bölgüsündə 9-10 əyalət yer alır və başlarında bir bəy dururdu. Bu, Siyenbi dövlətinin 9-10 böyük tayfa ittifaqından meydana gəldiyinə işarə idi. Bu bölgənin torpaqlarında da 20 şəhər yerləşirdi. Üç Siyenbi dövlətinin başında duran 9 bəyin hamısı böyük ordu komandanları idi. Onlar Siyenbi imperiyasının xaqanı Tansuqun ali hakimiyyətində birləşmişdi.

Tansuq xaqan 180-ci ildə 45 yaşında vəfat etdi. Yerinə oğlu Ho-lien keçdi. Lakin o, atasının sahib olduğu qabiliyyətə və bacarığa malik deyildi. Buna görə də xalqının yarısı ondan üz döndərdi və üsyan etdi. Çin salnaməçisinin yazdığına görə, "Ordosun şimal-qərbində Pei-tidə bir səfərə çıxmışdı. Bu səfər zamanı Qansunun indiki Ku-yüan Hsien bölgəsinin şimal-şərqindəki Lien şəhərindən gələn çox mahir bir oxçu ilə üz-üzə gəldi. Həmin oxçu tərəfindən öldürüldü".

Siyenbi dövləti 220-ci ildə Çində Xan sülaləsinin süqutu ilə yenidən dirçəlsə də, bu çox davam etmədi və 350-ci ildə dağıldı. Onun torpaqlarını Abar dövləti ələ keçirdi. Şimali Çində yerləşən siyenbilər isə burada çox sayda yeni dövlət yaratdılar. *Köhnə Yan (281–370)*, *Cənubi Yan (383–407)*, *Qərbi Yan (384–394)*, *Qərbi Qin (385–430)*, *Cənubi Lianq (397–414)*, *Şimali Çou (557–581)*, *Şimali Qi (550–577)* və Göytürk dövründə Çindəki məşhur *Sui (581–618)* və *İlk Tanq (618–907)* dövlətləri siyenbi mənşəli komandanlar və bəylər tərəfindən yaradılmışdı.



Siyenbi dövlətinin tərkibində yer alan dörd əsas hun tayfasından biri su-polar (subar-sabir) qərbə köç etdilər və 100 il Sibir ərazisində yaşadılar. Avropa Hun xaqanlığının süqutundan sonra Qafqazda ortaya çıxan bu tayfa Sabir xaqanlığının əsasını qoydu.

## 4.4.2. Tabqaçlar

Çin mənbələrində T'o-ba adlanan dövlətə türklər Tabqaç (Tabkaç/Tafqaç) deyirdi. Bizans mənbələrində isə Tauqast adı işlədilir. Tabqaç dövləti Çində yaranmış növbəti türk dövləti idi. Amma çinliləşərək dillərini və kimliklərini itirdilər. 495-ci ildə Çin sarayında türk dili rəsmi dil olmaqdan çıxdı və bu dildə yazılmış əsərlər yox edildi. Çin mənbələrində Tabqaç dövrünə aid türk dilində bəzi kəlmələr və IV əsrə aid bir neçə misralıq şeir nümunəsi qalıb.

Kaşğarlı Mahmud "Divani lüğət-it-türk" əsərində tabqaçların türk olduqlarını, tabqaç adının türkcə "ulu, hörmətli, mötəbər" mənasına gəldiyini yazır.

Toba və ya tabqaçlar Şimali Monqolustan ilə Şimali Mancuriya ərazisində məskunlaşmışdı. III əsrdə meydana gələn quraqlıq nəticəsində yurdlarını tərk edərək Şərqi Ordosa köç etdilər. Tabqaçların Şimali Monqolustana e.ə.I əsrdə Baykal gölünün şərqindən gəldikləri bildirilir. I-II əsrlərdə onlar Hun imperiyasının tərkibində yer alan Baykal xalqları arasında qeyd olunurlar. III əsrdə Baykalın şərqində yerləşən Arqun şəhərinin tabqaçlara aid olduğu bildirilir. Qərbi Sibir, Selengə və Obi arasında 295-ci ildə onlar Toba bəyliyini yaratdılar.

Tabqaçların mənşəyi haqqında əsas fakt Çin mənbələrində yer alan 7200 Tabqaç dövlət adamının bioqrafiyası və 119 Tabqaç tayfası haqqındakı məlumatlardır. 385-550-ci illər arasında Tabqaç dövlətinin hakim olduğu ərazilərdə 100 hakim ailə yaşayırdı. Onların 74 faizini çinli ailələr təş-

kil edirdi. Tabqaç əsilli ailələrin sayı 26 faiz idi. Belə məlum olur ki, tabqaçlar ələ keçirdikləri Çin torpaqlarında azlıq təşkil etsələr də, hakim sinif idilər. Çin mənbələrində bioqrafiyası verilən 7200 şəxsin 60 faizini çinlilər, qalan 40 faizinin türklər, moğollar və çox az sayda tibetlilər təşkil edirdi.

119 tabqaç tayfasından 68-nin etnik kimliyi bilinir. Onlardan 39 tayfa siyenbi (kay) kökənli idi. Siyenbi tayfalarının çoxunu kayların qərb qolu (Tibetə yerləşmiş tu-yühunlar) təşkil edir. 10-u hun, 4-ü kao-çe (oqur) tayfası idi. 7 tayfanın türk (göytürklərlə eyni tayfadan) kökənli olduğu ehtimal olunur. Beləliklə, 119 tayfadan 21-nin türk olduğu ortaya çıxır. Buraya abarların 7 tayfasını da daxil etsək, Tabqaç boylar ittifaqında təmiz türk əsilli tayfaların sayı 28-ə çıxır. Moğol tayfalarına qarışmış siyenbi tayfaları ilə birlikdə türk tayfaların sayı 67-yə çatır.

Tabqaçlar, əslində 2 dövlət (Tai və Vei) və 14 sülalə yaratmışlar. Tabqaçlar kiçik bəylik olaraq, təqribən 219-ci ildə ortaya çıxdı, 386-cı ildə Çinin böyük bir hissəsini ələ keçirib imperiya halına gəldi. 495-ci ildə buddizmin təsiri ilə çinliləşib hərbi qüdrətini itirdi və 534-cü ildə iki yerə parçalandı. 557-ci ildə isə siyasi güc kimi tarix səhnəsindən çıxdı. Beləliklə, tabqaçlar təqribən 350 il Şimali və Qərbi Çində hökm sürmüş türk dövləti oldu.

Orta əsrlərdə Çin üç yerə ayrılırdı. Yuxarı Çin Tabqaç adlanırdı. Orta və ya Mərkəzi Çinə Kitay, Cənubi Çinə isə Burxan adı verilirdi. Kaşğarlı Mahmuda görə, Burxan Kaşğarı əhatə edirdi. Buraya Maçin və Tabqaç da deyilirdi. Əsas Çin Kitay hesab olunurdu.

Tabqaç dövləti Sağunun nəvəsi Toba (377-386) zamanında çiçəklənməyə başladı. Çin dövlətinin başında dayanan tibet əsilli Fu-Çien hakimiyyətinin 384-cü ildə süqut etməsi ilə hərəkətə keçən tabqaçlar 16 əyaləti öz hakimiyyətləri altına alaraq 386-cı ildə özlərini Vei (pei vei) adlandırdılar. Tabqaçlar öz dövlətlərinə 800 il bundan əvvəl süqut etmiş Vei adını verərkən şübhəsiz, Çinin hüquqi varisləri



olduqlarını iddia edirdilər. Veilər də şimaldan gəlib Çini ələ keçirmiş, burada öz imperiyalarını yaradaraq uzun illər Çinin hakimi olmuşdular. Tabqaçlar Şimali Çinin hüquqi sahibi olsalar da, ölkəni bütövlükdə ələ keçirə bilmədilər. Buna görə də Çin mənbələrində onlara Pei Vei, yəni Şimali Vei adı verildi.

Tabqaçlar Toba Tai-vu zamanına qədər türk kimliklərini qoruyub saxladılar. Tabqaçlar zamanında Çin tarixinə dərindən təsir edən bir sıra hadisələr meydana gəldi. Bunlardan biri Konfuçi fəlsəfəsinin ortaya çıxması, digəri isə buddizmin Çində geniş yayılması oldu. Beləliklə, Çində yaranmış ən böyük türk dövlətinə sahib tabqaçlar zamanla dillərini və kimliklərini itirərək çinliləşdilər.

### 4.4.3. Yüeçilər və Quşanlar

Quşan adı mənbələrdə *kuşan* şəklində keçir. Quşanlara aid kitabələrdə bu ad *kusana* olaraq yazılıb. Türk kitabələri arasında Uyğur mənbələrində bunlardan *küsən* və *tört küsən ulusı* (dörd quşan milləti) adı ilə bəhs edilib. İslam mənbələri isə onları *kuşaniyyə* adı ilə qeyd edib.

Quşan adının hansı mənaya gəldiyi haqqında dörd əsas iddia ortaya atılıb. Birincisi, “quşan” bəy (hökmdar), tayfa, sülalə adı və ya hakim sülalənin titulu olub. İkincisi, quşan adı “kuşa” (idarə) ilə “na” (kök, gövdə, mənşə) sözlərinin birləşməsindən yaranıb, “hökmdar ailəsinə mənsub” deməkdir. Çin mənbələrinə görə, hun hücumları nəticəsində Orta Asiyaya köç edən böyük yüeçilər arasında yabqu Quşan tərəfindən yaranan beş tayfa ittifaqı həmin kralın adı ilə Quşan adlanıb. Müasir tədqiqatçılar isə, bu adın əvvəlcə şəxs adı olub, daha sonra hökmdar ailəsinə, dövlətə verilən ad olduğunu qeyd edirlər.

Quşanlar yüeçilərin bir qoludur. Yüeçilər Motun ortaya çıxdığı vaxt hunların ən güclü qonşuları idilər. Hunlarla

münasibətləri pozulan yüeçilər əvvəlcə Motun, daha sonra oğlu Göyük tərəfindən arxa-arxaya iki dəfə ağır məğlubiyyətə uğradıldılar. Sonuncu məğlubiyyət onların böyük itkilər verməsinə səbəb oldu. Bundan sonra yurdlarını tərk edən yüeçilər kütləvi halda e.ə.174-cü ildə saka-massaget tayfalarının məskunlaşdığı İssıq Göl kənarına gəldilər. Amma burada da rahat yaşaya bilmədilər. Belə ki, hunların təzyiqi ilə uysunlar (vusun) e.ə.133–e.ə.129-cu illərdə yüeçilərə hücum etdilər. Aldıqları zərbə ilə iki hissəyə ayrılan yüeçilərin bir qolu (kiçik yüeçilər, *Hsiao yüeçi*) Tibetə, başqa bir qolu (böyük yüeçilər, *Ta yüeçi*) isə Orta Asiyada mövcud olan Yunan-Baktriya krallığının ərazisinə soxuldular. Yüeçilər yol boyunca bəzi skif tayfalarını da özlərinə qatdılar. Bu tayfalar arasında ən güclüsü *toxarlar* idi. Əfqanıstan və Xorasana qədər yayılan yüeçilər beş tayfanın (asienlər, pasianlar, sakaruklar, toxarlar və sakailər) birləşməsindən öz dövlətlərini yaratdılar *(e.ə.150-ci il)*. Bu dövlət beş yabquluq halında birləşmişdi və hər tayfanın başında yabqu titulu daşıyan hökmdar dayanırdı. Bu birləşmə prosesi yüz il davam etmiş, bəzən də yabqular arasında şiddətli mübarizələrə səbəb olmuşdu. 10-cu ildə toxarlar ilə asienlərin birləşmiş orduları digər tayfaları öz hakimiyyətləri altına alıb, Quşan dövlətinin əsasını qoydular. Dövlətin başında yabqu I Kujula dayanırdı.

Quşanlar Baktriya dövlətini tamamilə ortadan qaldırdılar. I Kujula dövründə *(30–80)* quşanlar parflarla (Parfiya) müharibələr apararaq Kabili ələ keçirdilər. Kabili özlərinin mərkəzi şəhərlərindən birinə çevirən quşanlar Xorasanı da nəzarət altında saxlayırdılar. I Kujuladan sonra Quşan taxtına Vima Takto, ondan sonra da Vima Kadpis çıxmışdır. Bunlardan yabqu Vima Takto dövründə *(80–90)* quşanlar Şimali Hindistana hücumlar edib bölgəni ələ keçirdilər. Beləcə, Quşan dövlətinin sərhədləri şərqdə Bənares, qərbdə Xorasan, şimalda Buxara, cənubda isə Əfqanıstanın Qur bölgəsinə qədər ərazini əhatə edirdi. Vima Kadpis zamanında *(90–100/127)* Quşan bölgənin ən böyük dövləti hesab olunurdu. Bu hökmdar zamanında Şimali Hindistan bütövlükdə quşanların əlinə keçmişdi. "Şahənşah" titulunu tarixdə ilk dəfə o qəbul edib.



Quşanlar Ellin mirasını qoruyaraq rəsmi yazışmalarda və sikkələrdə yunan dilindən istifadə edirdilər. Roma imperiyası quşanlarla siyasi münasibətlər yaradaraq onlara elçilər göndərirdi. Quşanların Böyük İpək Yolu ticarət xəttini nəzarətləri altına keçirmələri onların iqtisadi cəhətdən də güclənməsinə səbəb oldu. Bu dövrdə quşanlar Xəzərin cənubu boyunca Azərbaycana qədər geniş əraziyə nəzarət edirdilər. Bəzi quşan tayfaları həmin dövrdə Azərbaycana köç edərək Ərdəbil və Gilan bölgələrində məskunlaşdılar. Quşan dövlətinin paytaxtı Bəlx idi. Mənbələr bu dövləti bəzən də *Bəlxşahilər* adlandırmışdı. Şimali Hindistanın ələ keçirilməsindən sonra paytaxt Bəlxdən Qəndəhar əyalətindəki Paruşapura nəql olundu.

Quşanlar mədəniyyətin inkişafında da böyük rol oynadılar. Şərq və Qərb mədəniyyətini mükəmməl şəkildə sintez edən quşanlar Baktriya dövlətçiliyinə toxunmadılar. Quşan hökmdarları özlərini yunan kralı Hermaiosa oxşadırdılar. Bundan başqa, ələ keçirdikləri Hindistanda *racalar* sistemini qurdular. Hind mədəniyyətinin bölgəyə yayılmasının səbəbkarları da quşanlar oldular. Belə ki, I Kanişka *(127–150/51)* Buddizmi dövlət dini elan etdi. Buddizmin iki böyük məktəbi olan Qəndəhar və Mathura məktəblərinin statusu genişləndirildi. Quşanlar Sarnath məktəbi ilə Hind-Quşan, Hind-Türk sənəti arasında əlaqələr yaratdılar. Hind mədəniyyətinə güclü təsir edən quşanlar türk mifik yaddaşının əsas qəhrəmanı olan Manası, Hind dini ədəbiyyatının əsas illahlarından birinə çevirdilər. Digər tərəfdən, Budda dininin Xorasana, Orta Asiya və Şərqi Türküstana yayılmasına şərait yaratdılar.

I Kanişkanın varisləri Huvişka *(ö.191)* və Vesudeva *(ö.232)* Quşan dövlətinin qüdrətini qoruyub saxladılar və

rifah səviyyəsini yüksəltdilər. Amma Vesudevanın vəfatından sonra dövlət sürətlə tənəzzül etməyə başladı. Buna Parfiya dövlətinə son qoyan sasanilərin Xorasanda Quşan dövlətinin ərazilərinə soxulması ilə şərqdə türklərin artan təzyiqləri səbəb oldu. Sasani hökmdarı I Şapur *(240/41–272)* Pəncab bölgəsinə qədər Quşan torpaqlarını istila etdi. Quşanların axırıncı hökmdarı II Kanişka zamanında *(232–250)* Quşan dövləti hərbi cəhətdən də ağır vəziyyətə düşdü. Quşanlar sasanilərin hücumlarının qarşısını alsalar da, hunların axınları qarşısında tab gətirə bilmədilər. II Kanişkadan sonra Quşan dövləti iki yerə parçalandı. 350-ci ildə ağ hunlar Ceyhun çayını keçərək sürətlə Quşan ərazilərini istila etdilər. Ağ hunlar Bəlxi ələ keçirərək Hindistan istiqamətində hücumlarını davam etdirdilər. Bu hücumlar IV əsrin ortalarında Quşan dövlətinin tamamilə ortadan qalxmasına səbəb oldu.

### 4.4.4. Qızıl hunlar, ağ hunlar, kidara hunları

89–91-ci illər arasında cərəyan edən Hun-Çin müharibəsindən sonra bəzi hun tayfaları öz yurdlarını tərk edərək qərb istiqamətinə köç etdilər. Onlar II əsrin əvvəllərində Parfiya dövlətinin şərqində peyda oldular. Romalı tarixçi Ammian Marselli onlardan *hyonlar* deyə bəhs edir. Hind mənbələri onları "*huna*" adlandırıb. Sanskrit mənbələri onları "sveta huna" (ağ hun) və "hara huna" (qara hun) şəklində ikiyə ayırır. Məsələ burasındadır ki, Hind, İran, Süryani, Qrek (Yunan) və Roma tarixçiləri *hyon* adı ilə bir neçə hun tayfasından bəhs ediblər. Bunlar hamısı hun-türk əsilli tayfalar olub, *qırmızı hun*, *ağ hun*, *kadiş-hun*, *askil*, *zavul*, *kidarit* və *eftalit* adları daşıyırdı.

Belə məlum olur ki, miladi I əsrdən Mavəraünnəhr, Dehistan, Balxan, Murqab vadisi ilə Qorqan, Şimali Xorasan və Şimali Əfqanıstan istiqamətində bir-birini təqib edən üç



hun köçü olmuşdu. Bunlardan ilki miladi I əsrdə *qızıl hun* köçü olub, qərb mənbələrində bunlardan *karmir hyon*, *kermichion* və *hermichion* olaraq bəhs edilir. İkinci köç 370-ci ildə *ağ hun* köçüdür. Üçüncü hun köçü isə 420-ci ildə gerçəkləşən *kidara* hunlarının köçüdür. Onları da *uar-hunların* köçü izləmişdir ki, sonuncular *eftalitlər* adlanırdı.

Romalı tarixçi Ammian Marselli Sasani hökmdarı Nersi zamanında *(293–302)* Amudərya ətrafındakı xalqları "saccis, russis, gellis" olaraq sıralayır. Burada adı keçən *sakkilər* saklar, russilər *eusenilər*, yəni yüeçilər, gellilər isə *gilanilər* (*gilanlılar*) idi. Bu məlumat həmin dövrdə Amudərya sahillərində hunların hakim güc olduqlarını göstərir. Bu tarixdən 50 il sonra, yəni Sasani hökmdarı II Şapur zamanında (309–379) şərqdə *kidara-quşan-kionit* ittifaqının Quşan şəhəri ətrafında sasanilərə böyük zərbə vurduğu qeyd edilir. Görünür, Siyenbi dövlətinin süqutundan sonra Şimali Çin, Monqolustan və Orta Asiyada meydana gələn hadisələr nəticəsində 300-cü ildən etibarən bəzi türk tayfaları yurdlarını tərk edərək Quşan dövlətinin torpaqlarına yerləşmişdi. Araşdırmaçılar bunun nəticəsində 350-ci ildə bölgədə Ağ Hun dövlətinin yarandığını qeyd edirlər. Lakin Ağ Hun dövlətinin yaranması 370-ci ildən sonraya təsadüf edir. Quşan dövlətinin torpaqlarında ortaya çıxan yeni xaqanlığın adı Qızıl Hun dövləti idi.

350-ci ildə Roma ordularının Sasani ölkəsinə hücum etməsi II Şapuru qızıl hunlarla ittifaq yaratmağa məcbur etdi. 358-ci ildə sasanilərlə romalılar arasındakı Amid müharibəsində Sasani orduları ilə birlikdə hunlar da Romaya qarşı vuruşmuşdu. Ammian Marselli Hun ordularının hökmdarı Qrumbatesin (Krumbat) Sasani ordularının sol qanadında yer aldığını və ucaboylu olduğunu yazır. Belə məlum olur ki, 350-ci ildə yaranan Qızıl Hun dövlətinin başında Krumbat adlı xaqan dayanırdı.

350-ci ildə süqut edən Siyenbi dövlətinin xarabalıqları üzərində Abar xaqanlığının yaranması Qobi gölü ətrafında

yeni şiddətli müharibələrin başlamasına səbəb oldu. Hunlarla abarlar arasında Şimali Hun dövlətinin torpaqları uğrunda gedən qanlı müharibələrdə birincilər ağır məğlubiyyətə uğradılar. Bu məğlubiyyətdən sonra Abar hakimiyyətini qəbul etməyən hunlar qərbə doğru köç etdilər. Hunlar yolları üzərindəki Soğdiananı 370-ci ildə ələ keçirdilər. Soğdiananın fəthindən sonra hunlar iki istiqamətdə yollarına davam etdilər. Aral gölünün şimalı istiqamətində Şərqi Avropaya gələnlər müasir tarixşünaslıqda *Avropa hunları* (375–460) adlanır. Xorasan istiqamətində hərəkət edənlər isə Qızıl Hun dövlətinin torpaqlarını istila edib onlarla birləşərək, yeni bir hərbi-siyasi güc meydana gətirdilər. Bunlar özlərini ağ hunlar adlandırırdı. Beləcə, Ağ Hun dövləti 370/375-ci ildə yarandı. Müsəlman tarixçilərin verdiyi məlumata görə, təqribən 375-ci ildə "Türk xaqanı saysız-hesabsız ordu ilə Ceyhun çayını keçərək Xorasana girdi və Mərvə qədər gəldi". Məsudiyə görə, türklərin hücumu Soğdiana üzərindən gerçəkləşmişdi. Çin mənbələrinə istinad edən Yozef de Quiqnesə *(Joseph de Guignes; 1721–1800)* görə, hunlar Tirmiz istiqamətindən hərəkət etmişdi. Müqəddəsi *(Məhəmməd ibn Əhməd Şəmsəddin əl-Müqəddəsi/Məqdisi; 945/946–1000)* isə, onların Dəmirqapı Dərbənddən Sasani ölkəsinə daxil olduqlarını xəbər verir. Belə məlum olur ki, Müqəddəsi 395-ci ildə Kursak başçılığında Cənubi Qafqazda meydana gələn hun hücumu ilə Xorasandakı ağ hun hücumunu qarışdırıb. Diqqətçəkən bir məqam da, İslam tarixçilərinin ağ hunlarla eftalitləri dövlət olaraq bir-birindən ayırmasıdır. İslam müəllifləri ağ hun hücumlarını "*məlikül-türk*" (türk hökmdarı), eftalit hücumlarını isə "*məlikül-xayatıla*" (Eftalit hökmdarı) şəklində qeyd edirlər.

Ağ Hun hökmdarının 100 minlik ordusu vardı. Hunlar Mərvi ələ keçirərək Kuşmihanda ordugah qurub, kəşfiyyat süvarilərini Xorasana göndərdilər. Hun atlıları Tehran yaxınlığındakı Reyə qədər Sasani torpaqlarını yağmaladılar. Sasani ölkəsində vahimə yarandı. Hunların qabağından qaçan xalqlar İranın mərkəzi hissəsinə köç etdilər. Bu xalqlar arasında Ammian Marsellinin Amudərya ətrafında göstərdiyi *gellilər* (gilanilər) Şimali İrana köç edərək Gilanda məskunlaşdılar.



Sasani hökmdarı Bəhram Gur (420–438) taxtı qardaşı Nersiyə buraxıb, Azərbaycana hərəkət etdi. Bəhram Azərbaycanda türklərdən ibarət bir ordu toplayaraq Ərdəbil, Amul, Qorqan və Nisa yolu ilə Mərvə hərəkət etdi. Bəhram Gurun qaçdığını fikirləşən sasanilər təcili Ağ Hun hökmdarına elçi göndərərək sülh təklif etdilər. Ölkəni tərk etmələri üçün sasanilər hunlara külli miqdarda xərac verməyi öhdələrinə götürdülər. Ancaq bundan sonra Ağ Hun hökmdarı ordusuna geri çəkilmək əmri verdi. Ağ hunlar geri qayıdarkən Bəhram Gur başçılığındakı Sasani ordusunun hücumuna məruz qaldılar. Ağ hunlar sasanilərin hiyləyə əl atdıqlarını fikirləşərək qaçmağa başladılar. Döyüş meydanında külli miqdarda qənimət ələ keçirildi. Hunların xəzinəsini ələ keçirən Bəhram Gur ölkəsini üç illik vergilərdən azad etdi. Ələ keçirdiyi Ağ Hun hökmdarının tacını isə Atropatenadakı (Azərbaycan) Şiz məbədinə göndərdi.

Bəhram Gur hunları təqib edərək Ceyhunu keçdi. Lakin burada türklər onun qarşısını kəsdilər. Sasanilər döyüşməyə cəsarət etməyib, geri qayıtdılar. Mərvdə olarkən Bəhram Gur elçilər göndərərək hunlarla sülh danışıqlarına başladı. Ağ Hun-Sasani dövlətləri arasında Fərabr sərhəd elan edildi. Bəhram Gur qardaşı Nersini Xorasan hakimi təyin edib, paytaxt Mədainə qayıtdı.

428-ci ilə qədər sasanilərlə ağ hunlar arasında heç bir münaqişə yaşanmadı. Buna Bəhram Gurun əldə etdiyi böyük qələbə deyil, şəqrdə şiddətlənən Abar-Ağ Hun müharibələri səbəb olmuşdu. Yuxarıda bəhs etdiyimiz kimi abarlar (ju-juanlar) Orta Asiyada hunlara böyük zərbə vurdular. 416-cı ildə meydana gələn döyüşlərdə hunların bəzi

tayfaları İssıq və Balxaş gölləri ətrafındakı torpaqlarını tərk edərək Ağ Hun ölkəsinə gəldilər. Onlar hökmdarları Kidaranın adı ilə *kidara hunları* adlanırdı. Ağ hunlar *kidara hunlarının* Mavəraünnəhrdə məskunlaşmasına imkan verməyib, onları Şimali Əfqanıstana yerləşdirdilər. Bəlxi ələ keçirən kidara hunları qısa müddətdə Şimali Əfqanıstanla Şimali Hindistana sahib oldular. Sasani hökmdarı II Yezdəgerd dövründə *(438–457)* sasanilər şərqdə kidara-quşan və kionit/hyonlarla (ağ hunlarla) müharibə şəraitində idi. Bu, Mavəraünnəhrdə Ağ Hun, Şimali Əfqanıstanda Kidara dövlətlərinin mövcudluğundan xəbər verir.

Sasanilər dövləti Qafqaz və Xorasanda məskunlaşan hunlar tərəfindən əhatə olunmuş vəziyyətdə idi. Hun hücumlarının qarşısını almaq məqsədi ilə II Yezdəgerd Xəzər dənizi ilə Dərbənd arasında dəmir qapının inşasını əmr etmişdi. Amma inşaatın getdiyi vaxt ağ hunlar yenidən Xorasanda ortaya çıxdılar. 443-cü ildə ordusu ilə birlikdə Nişapura gələn II Yezdəgerd burada hərbi düşərgə saldı və 8 il ağ hunlarla müharibə apardı. Sasanilər bir neçə kiçik qələbə qazansalar da, 455-ci ildə güclənməkdə olan Ağ Hun hücumlarının qarşısını ala bilmədilər. Meydana gələn vuruşmalarda məğlub olan sasanilər ölkənin mərkəzinə doğru çəkilməyə başladılar. Xorasan bütövlükdə ağ hunların əlinə keçdi.

### 4.4.5. Qara hunlar

220-ci ildə Orta Asiyadan Xorasana, oradan da Azərbaycana, daha sonra Anadolunun Muş və ətraf bölgələrinə köç edib məskunlaşan *qara hunlar* 250-ci ildə həmin bölgədə öz dövlətlərini yaratdılar. 852-ci ilə qədər davam edən bu dövlət qrabarca əsərlərdə sülalənin başçısı Mamayın (Mamak) adı ilə "Mamiqunlar" adlandırılıb. Əslində onlar özlərinə *qara hun* deyirdilər.



Tarixçi Sebeosa *(VI–VII əsrlər)* görə, "onlar parfiya hökmdarı Artaban *(213–226)* ilə Böyük Xosrov *(217–252)* zamanında Cenestandan (Çin) gəldilər. Hökmdar Xosrovun hüzurunda Cen hökmdarının elçilərindən hun köçləri haqqında nə bildiyini soruşdum. O da belə cavab verdi: Yurdumuzdakı aşıqların dastanlarında hökmdardan sonra ikinci səlahiyyət sahibi olan Karnamanın Mamik və Konak adlı iki oğlundan bəhs edirlər. Karnama öldükdən sonra arvadı naibə oldu və bundan dünyaya gələn oğlu taxta çıxdı. Amma Mamik və Konak ögey qardaşları olan Qaşqar hökmdarını öldürüb, taxtı ələ keçirmək üçün ordu topladılar. Bunu eşidən Cen Bakur ordusu ilə onlara hücum etdi. Üsyançılar məğlub olunca, Mamik və Konak Quşan diyarındakı Bəlx Şahasdandakı (Bəlxşahilər) Arsak hökmdarının yanına qaçdılar. Cen Bakur arsaklılardan onları tələb etdi. Arsak hökmdarı da onları qərbə, dünyanın o biri ucuna, günəşin batdığı yerə göndərdi. Daha sonra vəziyyəti Qaşqar hökmdarına izah edib, aralarındakı sülhün pozulmamasını istədi. Parfiyalıların hökmdarı həmin şəxsləri qohum-əqrəbaları ilə Armeniya torpaqlarında hakimiyyətdə olan Arsak hökmdarının yanına göndərdi. Sonra Mamik və Konakdan törəyənlərə *sbarabed* (ordu komandanı) vəzifəsi verildi".

Qara hunların bölgədə öz hakimiyyətlərini təsis etməsi Şərqi və Cənub-Şərqi Anadoluda Arsak dövləti daxilində taxt müharibələrinin qızışdığı dövrə təsadüf edir. Parfiya dövləti süqut edib yerində Sasani dövləti yarandıqda Arsak gücləri sərhəd bölgələrdə cəmləşmişdi. Həm Arsak taxtı uğrunda, həm də bölgədəki sülalələr arasındakı ixtilaflardan istifadə edən qara hunlar sürətlə güclənməyə başladılar. Bu müharibələrin ən şiddətlisi Malazgird bölgəsinin hakim sülaləsi *Manavazlar* ilə Pasian hakimi *Vortorlular* (*Vardur/Bardur*) arasında cərəyan edirdi. Şərqi Anadoluda cərəyan edən hərbi ziddiyyətlərin əsas səbəbi İranda hakimiyyəti ələ keçirən sasanilərin həmin sülalələ-

ri parflara qarşı üsyana təşviq etməsi və Arsak dövlətini zəiflətməsi idi. Arsak hökmdarı II Xosrov uzun müddət sülalələr arasındakı müharibələrin qarşısını almağa çalışmış, amma müvəffəq olmayınca, ordunun nəzarətini qara hunların bəyi "döyüşçü və igid Vaçe"yə *(310–337)* tapşırmışdı. Hərəkətə keçən Vaçe əvvəlcə Manavazları, sonra da Vardurlu sülaləsini ortadan qaldırdı. Daha sonra sasanilər tərəfindən dəstəklənən Əhlət hakimləri Pıznunilərə hücum etdi. Beləliklə, Arsaklar qara hunlar sayəsində bölgədəki hakimiyyətlərini bərpa etdilər.

Qrabarca əsərlərdə Qara Hun hökmdarlarının bir iqamətgahı da "İraqxan" və ya "Irkhan" adlanır. Bunun Çoruh sahilində olduğu qeyd edilir. II Arsak hakimiyyətinin sonunda Qara Hun hökmdarı Vartan Mamay *(345–360)* İrkhanda öldürülmüşdü.

Bir müddətdən sonra qara hunlar Roma ilə yaxınlaşmağa başladılar. Arsak hökmdarı elan edilən Bab, Vasağın oğlu Peşeng (Muşek) tərəfindən Bizans paytaxtından ölkəsinə dəvət olundu. Onun bu təşəbbüsü II Şapurun bölgəyə ordu göndərməsi ilə nəticələndi. Sasani orduları Ardaşad, paytaxt Yengikənd (Vağarşabad), Yervantaşad, Zarehavan (Çıraqban), Zirişad (Çurşad) və Van şəhərlərini talan edib, yandırdılar. Bizansdan aldıqları hərbi köməklə Sasani ordusunun qarşısına çıxan qara hunlar 369-cu ildə onları məğlub edərək işğal olunan bölgələri geri qaytardılar. Babı Arsak hökmdarı elan edən Qara Hun hökmdarı Peşeng bütün orduların komandanı (*sübaşı*) və hökmdarın *atabəyi* oldu.

Qara Hun hökmdarı Peşeng Sasanilərə qarşı hərbi əməliyyatları genişləndirdi. Şərqdə Gəncəyə qədər hərəkət edən qara hunlar həlledici döyüş üçün Van gölünün şimal-şərqində yerləşən Baqavanda Sasani ordularının qarşısına çıxdılar. Movsey Xorenliyə *(Movses Xorenatsi; 410–490)* görə, Sasani ordularının başında Alban hökmdarı Urnayr *(313–371)* dayanırdı. Döyüş zamanı assur kökənli Ardzruni sülaləsindən Mərucanın qara hunların tərəfinə keçməsi



müharibənin gedişatında həlledici rol oynadı. 370–371-ci illərdə cərəyan edən döyüşdə Alban hökmdarı yaralandı və bir müddət sonra da vəfat etdi.

Peşeng ölkənin bütün idarəsini ələ aldıqdan sonra Arsak hökmdarı Babı bəzi islahatlar aparmağa məcbur etdi. Peşeng bölgədə Sasani nüfuzunu zəiflətmək üçün xristianlığın yayılmasına şərait yaratdı. Müasir erməni tarixşünaslığında iddia edilən fikirlərin əksinə, bölgə xristianlığının Roma kilsəsindən uzaqlaşması Qara Hun hökmdarı Peşengin apardığı siyasətin nəticəsidir. Ona qədər xristian din adamları Kappadokiyanın Kayseri patriarxlığına tabe idilər. Bu da bölgədə Romanın siyasi təsirini artırırdı. Bunun üçün Peşeng əvvəlcə Babı "şamanların köməyi ilə ovsunladı". Daha sonra bu işdə Bizans tərəfdarı Müqəddəs Nersesin əli olduğunu iddia etdi. Müqəddəs Nersesi edam edən Bab onun yerinə patriarx olaraq süryani əsilli Saxakı təyin etdi *(373-cü il)*. Bu təyinat Kayseri patriarxlığının izni olmadan gerçəkləşdiyi üçün şərq xristianları ilə Bizans arasında mübarizə başladı. Bu təşəbbüs bölgədə xristianlıq daxilində fərqli məzhəb fikirlərinin yaranmasına da şərait yaratdı. Yəni qara hunların apardığı siyasətin nəticəsi kimi parf xristianlığı hüquqi-dini status əldə etdi və qərb kilsələrindən uzaqlaşmağa başladı. Daha da önəmlisi qara hunlar Bizansa qarşı *yakibi* və *süryani* kimi monofizit qrupları dəstəkləyərək kilsə dili olaraq süryanicənin bölgədə yayılmasında rol oynadılar. Kilsələrdə ayinlər süryanicə icra olunsa da dualar türkcə oxunurdu. Movsey Xorenlinin *"Tarix"* əsərini rus dilinə tərcümə edən Nikita Emin (Mkrtıç) Osipoviç *(Эмин Никита Осипович; 1815–1890)* açıqlamalarının birində Taronlu Mesropun *(Mesrop Maştots; 361/362–440)* kəşf etdiyi əlifbanın və yazı dilinin 200 il Taron məktəblərinə və kilsələrinə daxil ola bilməməsinin təəccüblü olduğunu qeyd edir. Onun yazdığına görə, "Taron əyalətinin tarixi"ni yazmış Mamikon (Qara Hun) keşişi Yohannes *(Ioannes Damascenus; VII–VIII*

*əsrlər)* buna nümunədir. O, öz salnaməsində IV əsrin əvvəllərində Müqəddəs Qriqor tərəfindən əsası qoyulan Qlak və ya Müqəddəs İohann monastırının *(ilk keşiş Zenobdan başlayaraq Barsekə qədər)* 600-cü ilə qədər süryani rahiblər tərəfindən idarə edildiyini qeyd edir. Monastırda 600-cü ilə qədər ibadətlər süryanicə icra olunmuş və dərslər süryani dilində keçirilmişdir. VII əsrin əvvəllərində Qara Hun hökmdarı Peşengin qohumu Todikin monastırın idarəçiliyini ələ keçirməsindən sonra süryani dilində ibadətlərə son qoyulmuş və dualar yerli dildə oxunmağa başlanmışdı". Bu səbəbdən Qriqori Xalatyants *(Григорий Абрамович Халатянц; 1858–1912)* "İncil"in qrabarca tərcüməsində Mesropun adını qeyd etmir və VII əsrdən əvvəl erməni kilsəsinin mövcud olmadığını yazır.

Arsak torpaqlarını nəzarəti altına alan Qara Hun hökmdarı Manvel zamanında *(375–387)* qara hunlar bölgənin mütləq gücünə çevrildilər. Manvel bir sıra istlahatlar həyata keçirdi. O, Arsak ölkəsinin idarə mexanizmini dəyişdirdi, "ortaq xaqanlıq" sistemi təsis etdi. Buna görə III Arsak hökmdar elan edilərkən qardaşı Boğursak "şərik xaqan" (*işxan*) oldu. Ölkənin torpaqları da iki hissəyə ayrıldı. III Arsak Dvində, Boğursak isə Ərzincanda taxta oturdu. Beləliklə, Arsak ölkəsi şərq və qərb olmaqla iki yerə ayrıldı. Bu, ənənəvi türk idarəçilik sistemi olub, Manvel tərəfindən Anadoludakı Arsak dövlətinə tətbiq edilmişdi.

Manvel dövrü qara hunların ən parlaq dövrü hesab edilir. Onun ölümündən sonra Arsak dövləti sürətlə tənəzzül etməyə başladı. Meydana gələn Sasani-Bizans müharibəsinin sonunda bağlanan 390-cı il müqaviləsində bölgə Manvelin inzibati ərazi bölgüsü əsasında iki yerə ayrıldı. Dvin bölgəsi Bizansın, Ərzincan isə Sasanilərin hakimiyyəti altına keçdi. Müasir tarixşünaslıqda "Böyük Ermənistanın parçalanması" kimi şərh edilən bu hadisə, əslində, qara hunların Arsak dövlətinin şərq-qərb olaraq iki yerə ayrılması nəticəsində formalaşan inzibati bölgüdən irəli gəlirdi.



Manveldən sonra qara hunların başına oğlu Ərdəşir *(387–410)* keçdi. Sonra qardaşı Amazasp *(410–430)* hakimiyyətə yiyələndi. V əsrin 30-cu illərindən etibarən Sasanilər bölgədə təzyiqlərini artırmağa başladılar. Arsak ölkəsi Sasanilərin mərzbanlığına (mərkəzinə) çevrildi və Mehir Şapur *(428–442)* bölgəyə başçı təyin edildi. Əvvəlki Sasani hökmdarlarına nəzərən xristianlığa yaxşı münasibət bəsləyən V Bəhram keşiş Sahaqın yerinə Surmaqı, bir il sonra isə Bərkis adlı başqa bir süryani əsilli din adamını keşiş təyin etdi. Bölgə xristianlığının başına süryani din adamlarının gətirilməsi Bizans təsirini azaltmaq siyasətindən irəli gəlirdi.

430-cu ildə Amazaspın vəfatından sonra qara hunların başına böyük oğlu Vartan *(430/432-451)* keçdi. Vartan Sasanilərlə Bizans arasında tarazlaşdırılmış siyasət aparmağa çalışdı. Bizansın paytaxtı Konstantinopola gedərək burada imperatordan *"stratelates"* rütbəsini qəbul etdi. Bu rütbə Bizans imperatoru ilə bərabər səviyyədə olan qonşu hökmdarlara verilirdi.

"Xristianların dostu" Sasani hökmdarı V Bəhramın 439-cu ildə ölümü və taxta oğlu II Yezdəgerdin *(438–457)* çıxması bölgədəki vəziyyəti dəyişdirdi. Atəşpərəst din adamlarının təsiri altında olan II Yezdəgerd imperiya daxilində vahid dini sistem yaratmaq həvəsinə düşdü. Bu məqsədlə bir fərman hazırlayaraq xristian dövlət və din adamlarının atəşpərəstliyi qəbul etməsini istədi. Maraqlı cəhətdir ki, II Yezdəgerdin din dəyişdirmə tələbi Qara Hun hakimi Vartan tərəfindən də razılıqla qarşılanmışdı.

II Yezdəgerd Arsak ölkəsinə maqlar göndərərək kilsələri atəşgahlara çevirməyə başladı. Qrabarca əsərlərdə yer alan iddialara görə, şah bu məqsədlə bölgəyə 700 maq göndərmişdi. Atəşpərəstlik bölgə xalqını əxlaqi cəhətdən narahat etmişdi. Belə ki, Sasani atəşpərəstliyində "öküz sidiyi ilə dəstəmaz alınması və bacı-qardaş evliliyi" xalqın qəzəbinə səbəb oldu.

Atəşpərəstliyə qarşı narazılığın kütləvi xarakter alması Sasanilərə qarşı genişmiqyaslı üsyana səbəb olarkən, digər tərəfdən, xristianlığın bölgədəki mövqeyini də gücləndirdi. Çünki atəşpərəst din xadimlərinin təzyiqi xristian rahiblərinin təbliğatının gücünü artırırdı. Atəşpərəstliyə qarşı narazılığı xristianlığın təbliğat vasitəsinə çevirən rahiblər İberiya, Anadolu və Albaniya kəndlərində, şəhər və qəsəbələrində geniş kütlələri öz tərəflərinə çəkməyə nail oldular. Yeğişeyə *(410–475)* görə, "rahiblərin hər biri öz bölgələrinə getdilər. *Korepiskoposlarını (xor yepiskop, kənd yepiskopu)* kəndlərə, qəsəbələrə, hətta dağlıq bölgələrə göndərdilər. Kütlələri toplamağa başladılar. Bunun nətəcəsində dindar olan və olmayan kişilər və qadınlar ələ keçirdikləri silahlarla silahlandılar". 449-cu ilin noyabr ayında atəşpərəstlərin Dvində kilsə qapısını sındıraraq buranı Zərdüşt məbədinə çevirmək cəhdi xalqı üsyana sövq etdi. Gevond *(VIII əsr)* adlı süryani rahibin xalqı qızışdırması nəticəsində üsyançılar əllərinə keçirdikləri daş və dəyənəklərlə "münəccim rahiblərin (maqların) başını əzdilər və evlərinə qədər qovdular".

Hadisələrin gedişatı da qara hunları üsyanın içinə çəkdi. Qara Hun hökmdarı Vartan üsyanın başladığı Dvin yaxınlığında yerləşən Üçox-qadında (qrabarca *Dzağqadz*) düşərgə salmışdı. 449-cu ilin noyabrından 450-ci ilin baharına qədər rahiblər Vartanın çadırına gələrək onu üsyançıların tərəfinə keçməyə təşviq etdilər. Bu vaxt Vartan zərdüşti inancını qəbul etmişdi. 450-ci ilin baharında bir qrup rahib Qara Hun hökmdarının düşərgəsinə gəldi və Vartanı yenidən xristian olmağa razı saldı. Gecə yarısında təşkil edilən dini ayində Vartan yenidən xaç suyuna salındı və "rahiblər onun üçün dua edib, kilsə camaatına daxil etdilər".

Vartan yerli feodallar tərəfindən dəstəklənən Sasani qüvvələrinin qarşısına təkbaşına çıxmağın mümkün olmadığını yaxşı bilirdi. Rahiblərin təşviq və təzyiqi ilə üsyançıların başına keçməyi qəbul etsə də, şimalda Hun xaqanlığından kömək



almağın yollarını axtardı. Belə ki, Qara Hun elçilərinin təsiri ilə Attila Roma səfərini tamamladıqdan sonra Sasani ölkəsinə qarşı hərbi yürüş təşkil edəcəyi haqqında Bizans elçisini məlumatlandırmışdı. Qara hunların Attiladan kömək istəməsinin digər səbəbi də Bizans imperatoru Markianın *(Marcianus; 450–457)* onların istəyini rədd etməsi olmuşdu. Beləliklə, Vartan albanlar vasitəsilə Attila ilə münasibət qurdu.

Avropa hunları Sasanilərə qarşı qara hunların müttəfiqləri olaraq 451-ci ildə Qafqazda ortaya çıxdılar. O zaman Avropa Hun xaqanlığının şərq torpaqları (Qafqaz bölgəsi) Attilanın oğlu İrnəkin nəzarəti altında idi.

Dərbəndə hücum edən hunlar burada yerləşən Sasani ordu dəstələrini qovdular. Sasanilər sürətlə Cənubi Qafqaz və Şərqi Anadoludakı mövqelərini tərk edərək geri çəkildilər. Yeğişenin verdiyi məlumata görə, Hun hökmdarı Attilaya tabe olan tayfalardan xaylandurlar (*haylandurk*) 450-ci ildə Çor (Çola) qapılarını aşaraq Sasanilərlə döyüşdülər. 455-ci ildə onların Pel (Bel) adlı hökmdarı xristianlığı qəbul etdi. Haylandurk hücumlarının qarşısını ala bilməyən Sasani hökmdarı onlara xərac vermək məcburiyyətində qaldı. Paraflı Qazar *(Lazar Parapetsi; 442–510)* hunların İber ölkəsinin kralı Sasani ailəsindən Vaxtanqla *(450–503)* vuruşmasından bəhs edir. "*Kartli tsexevroba*"ya görə, hun döyüşçüləri arasında xəzərlər, paçaniqlər (peçeneqlər) və qıpçaqlar da vardı.

2 iyun 451-ci ildə Maku ətrafında meydana gələn döyüşdə qara hunlar sasanilərə məğlub oldular. Döyüşdə Vartan öldürüldü. Yerinə Kamayaq keçdi və sasanilərə qarşı mübarizəni davam etdirdi. Amma Ərdənik yaxınlığında meydana gələn döyüşdə o da öldürüldü.

Sasanilərə qarşı mübarizəni davam etdirən qara hunlar Şimali Qafqaz hun tayfalarından yenidən kömək istədilər. Paraflı Qazara görə, hunlar Dərbəndi keçərək Arana daxil oldular və Kür çayı boyunca hərəkət edərək sasaniləri bölgədən qovdular. Hun hərbi birlikləri Balasaqunu

(Beyləqan) ələ keçirərək hərbi yürüşlərini davam etdirdilər. Attilanın 453-cü ildə gözlənilməz ölümü və Hun ordusunun şimala çəkilməsi sasanilərin bölgədə üstünlüyü ələ keçirməsinə səbəb oldu. Şərqi Anadoluda Sasani hakimiyyətini bərqərar edən II Yezdəgerd qatı atəşpərəst siyasətindən əl çəkdi və xristian sülalələrlə razılığa gəldi. Bölgəyə təyin etdiyi Axur-Hörmüz adlı Sasani mərzbanı *(455–465)* "xristian din adamlarına toxunmadı və onların fəaliyyətini bərpa etdi. İbadətlərini əvvəlki qaydalarda sərbəst icra etmələrinə və xalqın hüzuruna çıxmalarına imkan verdi. Bölgədən alınan vergiləri və Sasani qarnizonlarının sayını azaltdı. Yurdunu tərk edənlərə geri qayıtmaq imkanı verdi". Bütün bunlar öz müsbət təsirini göstərsə də, Qara Hun bəylərinin bir çoxu həbs edilərək Sasani ölkəsinin şərq əyalətlərinə sürgün edildilər. Onlar ancaq II Yezdəgerdin vəfatından və Firuz *(457–484)* hakimiyyətə gəldikdən sonra sərbəst buraxıldılar.

455-ci ildə Qara Hun hökmdarı Kamayaqın oğlanları (Bakan, Başak, Ərdəşir) Quqark əyalətinin (indiki Ermənistan ilə Gürcüstan arasında) hakimi Aşuşanın verdiyi qiymətli hədiyyələr nəticəsində sərbəst buraxıldılar.

Kamayaqın böyük oğlu 451-ci ildəki məğlubiyyətindən sonra qara hunların qarşılaşdıqları çətinlikləri ortadan qaldırmaq üçün çarəni Sasani hökmdarı Firuzla sülh bağlamaqda gördü. Bu məqsədlə Sasani paytaxtına gedən qardaşı Bakan burada Firuzla razılaşdı və bu münasibətlə xristianlığı tərk edərək atəşpərəstliyi qəbul etdi. Paraflı Qazar onun bu davranışını "inancının zəif olması" ilə əlaqələndirir. Lakin ölkəsinə qayıtdıqda baş verən hadisələr Bakanı yenidən sasanilərin düşməninə çevirdi.

Belə ki, həmin tarixdə Aran və Muğan hakimi, hun əsilli Bazkan indiki Qarabağ əyalətini ələ keçirərək Qara Hun hökmdarı Bakanın qızı Şuşaniq ilə evlənmişdi. 453-cü ildə Attilanın vəfatından sonra o da şimaldakı Hun dövlətinin dəstəyini itirmiş və bu səbəblə sasanilərlə razılaşmaq



məcburiyyətində qalmışdı. Sasani sarayına gələn Bazkan burada atəşpərəstliyi qəbul etmişdi. Ölkəsinə qayıdanda arvadını da atəşpərəstliyi qəbul etməyə məcbur etdi. Amma arvadı bu təklifi rədd edincə onu işgəncə ilə öldürdü *(458-ci il)*. Daha sonra qara hunların və Mesxet kralı I Vaxtanqın torpaqlarına hücum etdi. Mesxet kralı şimalda hunlardan aldığı hərbi köməklə 476-cı ildə Bazkanı öldürdü. Sasani şahı Firuz Mehranı böyük bir ordu ilə Arana göndərərək İberiyanı məhv etməsini əmr etdi. Mesxet kralı sasanilərin hücumunu dəf etmək üçün qara hunlardan və şimaldakı hunlardan hərbi kömək istədi. Bunu sasanilərin bölgədəki nüfuzunu zəiflətmək üçün fürsət hesab edən Qara Hun hökmdarı Bakan 481-ci ildə mesxetlərə və hunlara qoşuldu. Qara hunlar sasanilərin bölgədəki mərzbanı Güştəsbin ordularına hücum etdilər. Güştəsb ağır məğlubiyyətə uğradı və çətinliklə Dvin qalasına sığındı. Amma burada çox qala bilməyib, Ardaşad istiqamətinə qaçdı. Qara hunlar Dvini ələ keçirərək Ardaşadı mühasirəyə aldılar. Mərzban Güştəsb gecə vaxtı şəhəri tərk edib Azərbaycana, buradan da sasanilərin paytaxtına qaçdı.

Bakan Arşak ölkəsinin mərzbanlığına baqratlılardan Sahakı gətirdi. Baqratlılar yəhudi əsilli olub, I əsrdə Romanın Qüdsü ələ keçirməsindən və Bizansın yəhudilərə qarşı zülmündən qaçıb, Şərqi Anadoluya yerləşmişdilər. Xristian olan baqratlılar bu tarixdən sonra bölgənin siyasi həyatında fəal rol oynamağa başladılar. Sasanilər dövründə Sahak Baqratuni süvari ordularının başçısı təyin edilmişdi. Qara hunların bu ailəyə mərzbanlıq verməsi baqratlıların bölgədə siyasi nüfuzlarının artmasına səbəb oldu. Bu isə bölgədə hakimiyyət uğrunda qara hunlarla baqratlılar arasında mübarizənin əsasını qoydu. Elə həmin vaxt böyük bir ordu ilə Mədaindən Azərbaycana gələn Güştəsb Şərqi Anadoluya soxuldu. Qara Hun və baqratlı orduları Dvində sasaniləri qarşılamağa qərar verdilər. Bölgənin digər feodal hakimləri də qara hunların ətrafında birləşmişdilər.

Bu bəyliklər arasında Şirak hakimi Nerses Kamsarakan və qardaşı Xurəhəd, Qanuni sülaləsinin hakimi Adəm və Ərəstun, Sünik hakimi Babakan vardı.

488-ci ildə Sasanilər ölkəsində Balaşın *(484–488)* hakimiyyətdən uzaqlaşdırılıb, yerinə Qubadın *(488–531)* keçməsindən sonra qara hunlarla sasanilər arasında müharibə yenidən başladı. 499-cu ildə sasanilərin bölgəni ələ keçirmək cəhdləri qara hunların sərt reaksiyası ilə qarşılandı. Sasani orduları məğlub oldu və Qubad qara hunlara sülh təklif etdi. Qubadın qara hunların hakimiyyətini qəbul etməsində başlıca amil bu dövrdə Bizansla müharibə təhlükəsinin artması idi. Belə ki, Qubad sərhədlərini qorumaq müqabilində Bizansdan borc istəmiş, amma rədd cavabı almışdı. Bu da Bizansla Sasanilər arasında müharibənin başlamasına bəhanə oldu. Bizansın bu təklifi rədd etməsinə səbəb borc müqabilində Sasanilərdən nəsturilərin mərkəzi Nusayibini tələb etməsi idi. Bizans sərhədlərinə soxulan sasanilər 502-ci ildə Qarin, Ərzurum, Meyyəfariqin və Amidi ələ keçirərək yandırdılar. Bu zaman bizanslılar sabirlərdən kömək istədilər. Beləliklə, sabirlər Dəryal qapılarını aşaraq bölgəyə soxuldular. Nəhayət, 506-cı ildə Bizansla Sasani dövləti arasında yeddi illik sülh müqaviləsi imzalandı.

Bu vaxt sabirlər Kürə qədər Azərbaycanı ələ keçirdilər. Bizansla Sasani dövləti arasında baş verən müharibələr hər ikisinin nüfuzuna xələl gətirmiş, sabirlər bölgədə əsas siyasi və hərbi gücə çevrilmişdilər. Sabirlər 560-cı ilə qədər bölgənin hakim gücü olaraq qaldılar.

Artıq bu tarixlərdə qara hunlar xristianlığın da güclü təsirilə öz kimliklərini böyük nisbətdə itirərək yerliləşdilər. Həmin dövrdə siyasi hadisələrin pərdə arxasında xristian məzhəbləri arasında böyük mübarizə gedirdi. Qara hunların da təsir dairəsində olan Parf xristianları Sasanilərin yardımı ilə nəsturilərin təzyiqinə məruz qalarkən Bizans şərqdə sasanilərin əli ilə nəsturilərin güclənməsinə qarşı



idi. 451-ci ildə Xalkedon kilsə yığıncağının qərarlarının imperator Zenon *(474–491)* tərəfindən ləğv edilməsi Bizansın nəzarəti altındakı bölgələrin xristian camaatını nəsturilərə qarşı təşkilatlanmağa sövq etdi. Şərq kilsəsi də ilk dəfə həmin tarixdə siyasi-dini müstəviyə çıxdı.

Qara Hun ölkəsi VII əsrin əvvəllərində başlayan və uzun illər davam edən Bizans-Sasani və Xəzər müharibələrinin döyüş meydanına çevrildi, beləliklə, hərbi və siyasi gücünü tamamilə itirdi. Bölgə 650-ci ildən sonra yeni siyasi güc olaraq ortaya çıxan müsəlman ərəblərin hakimiyyəti altına keçdi. Qara hunlar həmin dövrdə kiçik feodal bəylik olaraq 852-ci ilə qədər varlıqlarını qorudular. 850-ci ildə Abbasilərə üsyan etdikləri üçün Xilafət ordularının türk əsilli komandanı Boğa əl-Kəbir bölgəyə hərəkət etdi və qara hunların hakimiyyətinə son qoydu. Bu hadisədən sonra qara hunların əsas kütləsi Bizans torpaqlarına köç etdi.

## 4.4.6. Qafqaz hunları

Movsey Xorenli Qafqazdakı hunları belə təsvir edir: "Dərbəndin şimalında, dənizin yanında hunların xaqanlığı var. Qərb tərəfdə Hun şəhərləri Varaçan, Çunqars (Veneqar/Bələncər) və Smendr (Səməndər) yerləşir. Şərqdə İdil çayına (Volqa) qədər olan ərazidə savrik (sabir) xalqı yaşayır".

Bu məlumata görə, hunlar Qafqazda üç böyük şəhərə malik idi: Varaçan, Bələncər və Səməndər. Bələncər və Səməndər daha sonra Sabir və Xəzər xaqanlıqlarının paytaxtı oldu. Ərəb tarixçisi və coğrafiyaçısı Bəlazuriyə *(Əbül-Həsən Əhməd ibn Yəhya ibn Cabir ibn Davud əl-Bəlazuri; IX əsr)* görə, həmin şəhərlərdən Bələncər Dərbəndin (Bab əl-Əbvab) yaxınlığında yerləşir və əl-Bələncər çayı ətrafında salınıb.

Qafqazda hunlar haqqında ilk məlumatlar eramızın əvvəllərinə aiddir. Yunan müəllifləri Xəzər dənizinin qərb hissəsində (Qafqaz bölgəsi) yaşayan xalqları sadalayır, o

cümlədən skif, kaspi, alban, kadusi, mard, girkan və tapurlar arasında hunların da adını çəkir. Həmin dövrün yunan tarixçisi Klavdi Ptolomey *(Claudius Ptolomaeus; təq. 87/100–170)* hunların albanların şimalında yaşadığını qeyd edir.

Hunlar III-IV əsrlərdə Qafqazın əsas siyasi və hərbi gücü hesab edilirdi. Artıq 210-cu ildən etibarən hunların Azərbaycan üzərindən Parfiyanın daxili işlərinə müdaxilə etdikləri bilinir. Məsələn, Şərqi Anadoludakı Parfiya xanədanının hökmdarı Xosrov Sasani hökmdarı Ərdəşirə *(224–241)* qarşı mübarizə apararkən Çola (Çor-Dərbənd) qapılarının şimalında məskunlaşan hunlardan kömək istəmişdi.

Həmin dövrdə hunların cənub sərhədi Azərbaycanın Mil düzünə qədər uzanırdı. Belə məlum olur ki, 150-ci ildə qərb istiqamətində hərəkət edən ilk hun köçəriləri, əsasən Şimali Qafqaz bölgəsində məskunlaşmışdılar. Həmin tarixdən etibarən mənbələrdə bu bölgədə mövcud olan "Hun ölkəsi"ndən bəhs edilir. Hun ölkəsinin cənub sərhədləri isə Dərbənd, bəzən də Dərbənddən cənubda göstərilir. Sonrakı dövr mənbələrində (xüsusilə də ərəb coğrafiyaçılarının əsərlərində) qeyd edilən bölgədən "Məskutlar ölkəsi", "Məskut diyarı" və "Masaha Hun ölkəsi" adı ilə bəhs edilir.

350-ci ildə ikinci böyük hun köçü Volqa çayını keçərək Şimali Qafqaza daxil oldu. Balamirin başçılıq etdiyi əsas hun kütləsi Şərqi Avropaya hərəkət etdi, bəzi hun dəstələri Qafqazda məskən saldılar. 395-ci ildə Kursık və Basık adlı iki hun sərkərdəsinin əmrinə tabe olan böyük hun ordusu Şərqi Anadoluya hücum etdi, başda Urfa olmaqla bir sıra şəhərləri ələ keçirərək Suriyaya qədər yollarına davam etdilər. Əbül-Fərəcin *(Bar Habreaus; 1226–1286)* verdiyi məlumata görə, 396–397-ci illərdə "hunların Romanın Suriya və Kappadokiya əyalətlərini ələ keçirərək talan etməsi, əhalinin həmin yerləri tərk etməsinə səbəb oldu".



Bu tarixdən etibarən mənbələrdə hunlarla məskutlar birlikdə qeyd olunurlar. Eyni mənbələr "Məskut ölkəsi" adı ilə "Hun ölkəsi"ndən söz açırlar. Hətta bəzi mənbələrdə "Məskut hunları" adı da işlədilir. Buna uyğun olaraq həmin ölkə "Masaha Hun ölkəsi" adlandırılır. Ərəb mənbələri XI əsrə qədər mövcud olan "Məskut şahlığı"ndan bəhs edirlər. Ərəb mənbələri bu şahlığın IX əsrdə Şirvanla qonşu olduğunu yazır. IX–XI əsrlərdə Məskut adı verilən ölkə şimalda Samur çayı, şərqdə Xəzər dənizi, cənubda Şirvan, qərbdə isə Lakz diyarı ilə həmsərhəd idi. Ümumiyyətlə, Samur çayı ətrafı ərazilər Məskut diyarı hesab olunurdu. III əsrdən etibarən isə bölgə Məskut-Hun ölkəsi adlanırdı. Kartli salnamələrində hunların Dərbənd ətrafında məskunlaşdıqları qeyd edilir ki, bu da ərəb mənbələrində göstərilən Samur ətrafındakı Məskut ölkəsi ilə eyni yerə işarə edir. Salnaməyə görə, IV əsrin 30-cu illərində hunlar İberiya və Şərqi Anadoludakı siyasi güclərlə ittifaq yaradaraq Cənubi Qafqazda sasanilərə hücum edərək onların torpaqlarını işğal etmişdilər. IV əsrin ilk yarısında Kartli kralı III Marian Dərbənd ətrafında "xəzərlərlə" (hunlarla) müharibə etmişdi.

Arxeoloji mənbələr hunların Dərbəndin cənubunda da yayıldıqlarını təsdiqləyir. Tapılan maddi-mədəniyyət nümunələri Beşbarmaq dağı ətrafında hun məskənlərinin olduğunu deməyə əsas verir. Favstos Buzanda *(IV–V əsrlər)* görə, təqribən 330-cu ildə Dərbəndin cənubunda hun ordugahları vardı. 337-ci ildə Məskut-Hun hökmdarı Sanasan (və ya Sanaturk) adlı birindən bəhs edilir. Bölgədə geniş hücum planları həyata keçirən həmin hökmdar Şərqi Anadoluda Arsak dövlətinin paytaxtı Yengikəndi (Valarşapat) ələ keçirmişdi.

Adı çəkilən bölgə hazırda Müşkür düzü adlanır. Bu bölgə Azərbaycanın Xaçmaz rayonu ərazisində yerləşir. Müşkür adının məskutlardan törədiyi ehtimal edilir. Məskut-Hun ölkəsinin sərhədlərinin zaman ərzində

dəyişikliyə məruz qaldığı müşahidə edilir. Bu proses hun hücumlarının miqyasının nəticəsi idi. Məskut-Hun ölkəsinin cənub sərhədinin Kür çayına qədər uzandığı, digər hallarda isə Gilgilçay, Beşbarmaq və Vəlvələçayla məhdudlaşdığı bildirilir. Bu bölgənin şimal sərhədləri dəqiq olmasa da, Samur çayı və Dərbənd ətrafını əhatə edirdi.

IX-XI əsrlər arasında Azərbaycanda bir Məsqət şəhərinin olduğu haqqında ərəb mənbələrində məlumat verilir. İbn əl-Fəqihə *(Əhməd ibn Məhəmməd ibn əl-Fəqih əl-Həmədani; IX–X əsrlər)* görə, Məsqət şəhəri VI əsrdə salınıb. Məsqət şəhərinin Şabranla Dərbənd arasında olduğu ehtimal edilir. Başqa bir məlumata görə o, Müşkürdə yer alan şəhərlər arasındadır.

Məskut-Hun ölkəsi uzun müddət (hətta IX–XI əsrlərə qədər) Hun sülaləsi tərəfindən idarə edilmiş və bu sülalə ərəb mənbələrində *Məskutşahlar* adı ilə qeyd olur. Alban tarixçisi Movsey Kalankaytuklu həmin sülalənin nümayəndələrinin *eltəbər* titulu daşıdıqlarını qeyd edir.

Qədim türkcə titul olan *eltəbər* (*ilteber*) Hun məmurlarına verilən ad idi. Uyğur, qarluq və az tayfalarının başçıları bu titulu daşımışdır. Avropalı türkoloqlar bu titulu "hökmdara tabe olan ən yüksək dövlət məmuru, idarəçi" şəklində izah ediblər. Göytürk xaqanlığı dövründə böyük xaqana tabe olan əyalət başçıları bu titulu daşıyırdı. Xəzər hökmdarları da uzun illər *eltəbər* titulunu daşımışdır. Eltəbər adındakı "el" qədim türkcə "dövlət", "təbər" isə "tutmaq" mənasına gəlir. Bu söz "dövləti tutmaq" deməkdir. Məskut-Hun hakimlərinin bu titulu daşıması onların Hun xaqanlığına tabe olduğunu göstərir.

## 4.4.7. Eftalitlər

V əsrdə ağ hunların şərqində Cunqariya torpaqlarında iki böyük türk dövləti – Abar (ju-juan) və Tabqaç dövlətləri



arasında qanlı müharibələr səngimirdi. Abar hücumlarına son qoymaq məqsədilə Tabqaç dövləti 429-cu ildə Ju-juan ölkəsinə böyük hərbi yürüş təşkil etdi. Tabqaçlar Qobi gölünün ətrafına qədər abarları təqib edib, buradakı töles (tieh-le) xalqlarını öz hakimiyyətləri altına aldılar. Tabqaç hücumunun qarşısını ala bilməyən abarlar Qobi gölü ətrafındakı çöllərə qaçdılar. Tabqaçlarla müharibənin davam etdiyi əsnada Abar xaqanı Tatan öldü *(429-cu il)*. 430-cu ildə meydana gələn ikinci Tabqaç hücumu abarları çox ağır vəziyyətə saldı. Çini yağmalayaraq ələ keçirdikləri qənimətdən məhrum qalan abarlar hücumlarının istiqamətini Orta Asiyaya çevirdilər. Tatandan sonra Abar taxtına çıxan oğlu Vu-ti Ağ Hun dövlətinə qarşı hərbi yürüşə başladı. Abar boyu *uar-hun* (var-hun) və *sul* (çor) türklərindən ibarət ordular Ağ Hun ölkəsinə hücum etdilər. *Uar-hun*, *var-hun* olaraq qeyd edilən bu xalqlar hunların bir qolu idi. Onlar Ağ Hun dövlətini ələ keçirərək Eftalit dövlətinin əsasını qoydular.

*Eftalit* sözünün mənası dəqiq bilinmir. Bir ehtimala görə Eftalit hua (*var-hun*) tayfasından olan sülalənin (*Ye-ta*) adı idi.

Var-hunlar 429-cu ildən etibarən Ağ Hun torpaqlarına nüfuz etməyə başladı. Abar təzyiqi ilə yurdlarını tərk edən kidara hunları Ağ Hun torpaqlarına köç etdilər. Onların köçü 417–420-ci illər arasında gerçəkləşdi. Kidara hunlarının köçündən sonra abarlar Mavəraünnəhr istiqamətində hücumlarını davam etdirdilər. Eftalit ailəsindən bir komandanın başçılıq etdiyi var-hunlar 450-ci ildə Ceyhunun cənubuna keçərək Valvalici ələ keçirdilər. Valvalic indiki Kunduz yaxınlığında yerləşirdi. Hunlar daha sonra Mərv və Xorasan istiqamətində yollarına davam etdilər. 456-cı ildə eftalitlər Ağ Hun ölkəsinə sahib oldular. 457-ci ildə Firuzun Sasani taxtına keçməsi münasibəti ilə İslam mənbələrində eftalitlərdən bəhs edilir.

Eftalitlər Ağ Hun ölkəsini ələ keçirdikdən sonra ağ hunlardan ibarət türk tayfalarının bir hissəsi ölkəni tərk

edərək müxtəlif bölgələrə yayıldılar. Süryani mənbələrin *kadis-hun* olaraq adlandırdığı bir ağ hun tayfası Mesopotamiyada məskən saldı. Həmin mənbələrdə kadislərin 395-ci ildən indiki Şimali İraqın Mosul əyalətində məskunlaşmağa başladıqları yazılıb. Ancaq kadislərin əsas hissəsi 440-cı ildə İraqa gəlmişdi. Süryani mənbələrində 444-cü ildə "qərb kadisləri"ndən bəhs edilməsi bununla əlaqədardır. Müsəlman coğrafiyaçı Bəlazuri Sasani hökmdarı Firuzun hakimiyyəti dövründə kadis-hun tayfasının Herat ətrafında məskunlaşdığını yazır. Belə məlum olur ki, Ağ Hun dövlətinin süqutundan sonra kadis-hun tayfaları Sasani ölkəsinin müxtəlif bölgələrində məskunlaşmışdılar. İlkin orta əsrlərdə Mesopotamiyada yaranan *Bet-Hyonaye*, *Kadis* kimi toponimlər kadis-hunlarla bağlıdır. Qrabarca əsərlərdə bu bölgə Kataşan, ərəbcə mənbələrdə isə *Kadisiyyə* adlanır. Kadislərin bir qolu isə Herat ətrafına yerləşmişdi. 496-cı ildə kadislərə sığınan Sasani hökmdarı Qubad üç il sonra onların köməyi ilə yenidən taxta oturdu.

Ağ hunların bir hissəsinin isə kidara hunlarının əlində olan Bəlxə köç etdikləri, Bəlxi ələ keçirdikləri və burada Toxaristan yabquluğunu təsis etdikləri qeyd edilir. Onlar tərəfindən yurdlarından qovulan kidara hunları Şimali Hindistanda quşanlarla birləşib, Qupta dövləti ilə uzunmüddətli müharibələrə başladılar. Bunlar hind mənbələrində *huna*, *sveta huna* (Ağ hun) adlandırılırdı.

Eftalitlər qarşısında tab gətirməyən ağ hunlar Əfqanıstan və Hindistana yerləşib, tədricən bu ölkələri ələ keçirdilər. Ağsunqurun başçılığı altında Pəncaba sahib oldular. Bəlxdə yerləşən və Toxaristanda dövlət təsis edən hunların başında isə *tigin/təgin* titulu daşıyan Toraman adlı bir hökmdar dayanırdı. 500–515-ci illər arasında hakimiyyətdə olan Toramanın "tigin"dən başqa *maharaca*, şah, *cauvla/jauvla*, *racadhiraca* kimi titullar daşıdığı mənbələrdən məlumdur. Bu onun həmin titullara sahib hind krallıqlarını ortadan qaldırdığını göstərir. Əbu Reyhan Biruni *(Əbu Reyhan Məhəmməd ibn Əhməd əl-Biruni; 973–1048)* onun *laqa-turman* və *huna raca* ləqəbi ilə Hindistanın baş düşməni olduğunu yazır.



Kidara hunları və ağ hunlar birləşərək bütövlükdə Hindistanı ələ keçirməyə başladılar. Hind mənbələri onları *hun* adlandırır. Toramanın vəfatından sonra yerinə oğlu Mihrakula *(515–550)* taxta keçdi. O, Qəndəhar və Sakala (Siyalkut) şəhərlərini paytaxt elan etdi. Mihrakula Qanq və Hind çayları ətrafındakı torpaqları da ələ keçirdi. Quptalarla sürəkli müharibələr aparan Mihrakula Hindistanın böyük bir hissəsinə sahibdi. O, işquz və quşanlardan sonra bu bölgədə üçüncü türk imperiyasının əsasını qoydu. Mihrakulanın vəfatından sonra imperiya zəifləməyə başladı. Əhalisi az olan ağ hunlar sürətlə hindlilər arasında əridilər. Şimali Əfqanıstan və Pəncabdakı Ağ Hun dövləti isə (*Türkşahilər*) uzun müddət hakimiyyətlərini davam etdirdilər.

Eftalitlər Ağ Hun bölgəsini ələ keçirdikdən sonra Xorasan istiqamətində torpaqlarını genişləndirməyə başladılar. Var-hunlarla birlikdə bölgəyə köç edən çöl/çol tayfası isə Balxan dağları ətrafına və Dehistana yerləşdilər, burada uzun sürən hakimiyyətləri oldu. Onların bölgəyə 501-ci ildə gəldikləri qeyd edilir. Çorların bir qolu Azərbaycanda məskunlaşmış və Albaniyanın ən böyük ərazisinə (Çola) sahib idilər. Çorlar Eftalit dövlətinin yaranmasında əvəzedilməz rol oynamışdır.

Eftalitlərin ortaya çıxdığı dövrdə Sasani dövlətində gedən taxt ixtilafları var-hunlara Xorasana müdaxilə etmək imkanı verdi. Sasani taxtını ələ keçirmək istəyən Firuz eftalitlərə sığınaraq, onlardan hərbi kömək istəmişdi. Eftalit hökmdarının Firuza Tələkanda gözləməsini əmr etməsi Tirmizlə birlikdə Tələkanın da eftalitlərin əlində olduğunu təsdiqləyir. Eftalitlərdən aldığı kömək sayəsində Sasani taxtına oturan Firuz qiymətli hədiyyələrlə birlikdə Ceyhunun qərbində yerləşən Vaşgird bölgəsini də türklərə bağış-

ladı. Beləliklə, Ceyhunun qərbi, Xorasanın bir hissəsi, yəni qərbdə Tələkandan şərqdə Tirmizə və şimalda Ferabrdan cənubda Bamiyana qədər ərazilər eftalitlərin hakimiyyəti altına keçdi. Eftalitlər Badğisi özlərinin paytaxtı elan etdilər.

Prokopiyə *(Procopius Caesariensis; 500–565)* görə, Sasani-Eftalit müharibələri başladıqda eftalitlər Qorqo şəhərinə hakim idilər. Həmin bölgə indiki Qorqan ilə eyniləşdirilir. Bu eftalitlərin Şimali Xorasana sahib olduğunu göstərir.

Belə məlum olur ki, eftalitlər Orta Asiyanın şərqindən Valvalic-Tirmiz istiqamətində indiki Türkmənistan, Xorasan və Şimal-Qərbi Əfqanıstanı ələ keçirdilər. Mavəraünnəhrin fəthi isə sonrakı dövrlərə təsadüf edir. Eftalitlər ağ hunları ortadan qaldırdıqdan sonra 467–473-cü illər arasında Mavəraünnəhrə hərbi yürüşlər təşkil etdilər. 466/67-ci illərdə aramsız davam edən eftalit hücumları nəticəsində Mavəraünnəhr 479-cu ildə tamamilə ələ keçirildi.

Eftalitlər Mavəraünnəhri ələ keçirdikdən sonra buradakı Ağ Hun hakimiyyətinə son qoyub, bölgədəki köhnə bəyliklərə daxili işlərində sərbəst idarəetmə hüququ tanıyaraq, bölgəni 9 bəylik arasında parçaladılar. Onlar Çin mənbələrində Çao-vu bəylikləri adlanır. Həmin bəyliklər *Kanq* (kanq-kü/kəngər, Səmərqənd), *Tsao* (Çu, Səmərqəndin şərqi), *Mi* (Bəy, Zərəfşanın qərbində), *Şih* (*Kiş*, Şəhri-səbz), *Na-se-po* (Nuşebi, Nahşəb/Nesef, monqollar dövründə Qarşı), *Ho* (Kuşani/Kuşaniyyə), *An* (Anhsi, Buxara), *Mu* (Mərv və ya Amul) və *Vu-na-ho* (Vu-hu, Ceyhunun qərbindəki Andhudu) adlandırılır. Çao-vu bəyliyinin mərkəzi Səmərqənd hesab edilirdi. Sonralar İstəmi yabqu *on-ox* təşkilatını Çao-vu bəyliyinin əsasında formalaşdırmışdı. Onlar eftalitlərə illik vergi ödəyərək ölkələrini sərbəst idarəetmə hüququna malik idilər. Hətta bəziləri Çinə elçilər göndərirdi.

Eftalit dövləti Abar (Ju-juan) dövlətinin qərb qolu olaraq tarix səhnəsinə çıxdı. Eftalit dövləti yarandığı tarixdən etibarən Sasani dövləti ilə davamlı müharibələr aparmışdı. Firuz taxta çıxdıqdan sonra iki dövlət arasında nisbi sükunət yaransa da, sasanilərin kidara hunlarına aid Qəndəharı ələ keçirmək təşəbbüsü iki dövləti üz-üzə qoydu.

Eftalit dövlətinin ilk hökmdarı Ahşunvar *(Aksunvar; 430–485)* idi. O, 465-ci ildə Mavəraünnəhri fəth edərkən Firuz Kidara-Quşan ölkəsinə hücum etdi və Şimali Əfqanıstanın bir neçə əyalətini işğal etdi. Kidara hunları Qəndəhara çəkildilər. 475-ci ildə Firuz Qorqana hərəkət edərək burada hərbi düşərgə saldı. Məqsədi Sasani dövləti üzərində Eftalit ağalığına son qoymaq idi. Bu niyyətlə Xorasan istiqamətində hərəkət edən sasanilər yolda eftalitlər tərəfindən mühasirəyə alındılar. Çox çətin vəziyyətə düşən Firuz eftalitlərlə sülh bağlamağa cəhd etdi. Eftalit hökmdarı Ahşunvar Sasani elçilərinə şahın və ordusunun bir şərtlə, yəni "Sasani hökmdarı Eftalit xaqanının hüzuruna çıxıb, onun qarşısında baş əyib, torpağı öpmək" şərti ilə sərbəst buraxılacağını dedi. Şərəf və ləyaqətinin alçaldılmasına baxmayaraq, Firuz bu ağır şərti qəbul etdi və mühasirədən xilas oldu. Üstəlik oğlu Qubadı Eftalit sarayına girov göndərərək hər il türklərə xərac vermək məcburiyyətində qaldı.

Firuz sərbəst buraxılıb ölkəsinə qayıtdıqdan sonra eftalitlərdən intiqam almaq həvəsinə düşdü. 484-cü ildə böyük bir ordu ilə yenidən Qorqana gəldi. Firdovsinin yazdığına görə, bu vaxt Ahşunvar şərq sərhədində abarların müttəfiqi kimi töleslərlə müharibələr aparırdı. Sasanilər Qorqandan Mərvə, buradan da Amul üzərindən Ferabra hücum çəkdilər. Sasanilərin hücumunu eşidən Ahşunvar ordusunu Səmərqənddə topladı. Amma bu məlumat digər mənbələr tərəfindən təsdiq olunmur. Yunan və ərəbcə mənbələr Ahşunvar ilə Firuz arasındakı döyüşün Qur ilə Mərv arasında baş verdiyini qeyd edirlər.

İki ordu Xorasanda 484/85-ci ildə üz-üzə gəldi. Ahşunvar Turan taktikası ilə düşməni öz üstünə çəkərək müha-

sirəyə aldı və qəfil hücumla sasaniləri məhv etdi. Döyüşdə Sasani əsgərləri bütünlüklə qılıncdan keçirildi. Meyitlər arasında Firuz şahın cəsədi də vardı. Məsudi Firuz şahın Ahşunvar tərəfindən Mərv ər-Rudda öldürüldüyünü xəbər verir.

Firuzun ölümü sasaniləri eftalitlərin vassalına çevirdi. Firuzun yerinə taxta çıxan qardaşı Balaş (Valaş) elçi göndərərək Ahşunvarın bütün şərtlərini qəbul etməyə hazır olduqlarını bildirdi. Sülhün şərtlərinə görə, Sasani dövləti illik xərac verərək eftalitlərə aid Xorasan torpaqlarından əl çəkəcək və Sasani dövləti eftalitlərin vassalına çevriləcəkdi. Bu ağır şərtlərlə razılaşmayan sasanilər Balaşın hakimiyyətinə son qoyub, Qubadı taxta çıxardılar. Qubad daha əvvəl Ahşunvarın sarayında girov qalmışdı. Sasanilər bununla eftalitlərin təzyiqini azaltmaq niyyətində idilər. Lakin iqtisadi böhran, siyasi və hərbi çətinlik, dini-sosial iğtişaşlar Qubadın dövründə sasanilərə Eftalit boyunduruğundan çıxmağa imkan vermədi.

Eftalitlərin sasanilərdən tələb etdikləri verginin çox ağır olması Qubadı Bizansdan borc istəməyə məcbur etdi. Bu hadisə dövlətlərarası hüquq tarixində bir ölkənin başqa bir ölkədən ilk borc tələbidir. Amma Bizans bu xahişi rədd etdi. Əlacsız qalan Qubad Kür çayına qədər bütün Qafqazı və Şərqi Anadolunu hakimiyyəti altına alan Sabir xaqanlığına müraciət etdi. Sabirlərlə yaratdığı ittifaq sayəsində Bizans torpaqlarına hücum edən Qubad əldə etdiyi qənimətləri Eftalit sarayına göndərdi.

Sasaniləri məğlub etdikdən sonra eftalitlər yenidən şərqdə davam edən Abar-Tabqaç müharibəsinə qoşuldular. Hunları məğlub edib, onların yaratdığı Yueban dövlətinə son qoyaraq Qaraşar və Turfan bölgələrini ələ keçirdilər. Həmin tarixdə Eftalif dövlətinin banisi və böyük hökmdarı Ahşunvar vəfat etdi. Onun zamanında Eftalit dövləti bütövlükdə Orta Asiyaya, Şərqi Türküstana, Əfqanıstana, Xorasana sahib oldu və böyük imperiyaya çevrildi. Eftalit



dövlətinin sərhədləri qərbdə Xəzər dənizi, şərqdə Turfan və Cunqariya, cənubda Sistan və Makran, şimalda isə Aral gölü ilə məhdudlaşırdı.

Eftalit dövlətinin iki mərkəzi vardı. Əsas paytaxt Badğis (*Maquş*) idi. Digər mərkəzi isə Bəlx (*Balk*) hesab edilirdi. Ahşunvarın vəfatından sonra Eftalit taxtına müsəlman tarixçisi Təbərinin *(Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbəri; 838–923) V.r.z/Vezr*, Firdovsinin isə *Qatkar* olaraq qeyd etdiyi xaqan yiyələndi. Amma onun dövründə eftalitlər tənəzzül etməyə başladılar. 550–562-ci illər arasında Göytürk hücumları nəticəsində Eftalit dövləti ortadan qalxdı. Eftalitlər dövlətini təşkil edən var-hunlar isə Volqa çayına doğru hərəkət edərək Şərqi Avropanı ələ keçirdi və Avropa Avar xaqanlığının əsasını qoydular. Beləliklə, Eftalit dövləti 100 il yaşadı.

Eftalit dövlətinin süqutundan sonra var-hunlar Avropaya, *zavul* tayfası Mərkəzi və Cənubi Əfqanıstana, xələclər Azərbaycan, Xorasan, Əfqanıstan və Şimali Hindistana yayıldılar. Sul/çor tayfası isə Göytürk dövlətinə tabe olub, Dehistanda yarı-müstəqil bəylik yaratdı. Eftalitlərə tabe türk tayfası *askillər* isə 563–565-ci illər arasında Bizansa elçi göndərmişdilər.

Ağ hunların əsas varisləri xələclərdir. Uyğur türkcəsində "bir şeyi aşmaq və geri almaq" mənasına gələn *kalaç* (Azərbaycan türkcəsində *xələc*), Rəşidəddinə görə, "ac qalmaq" (*kal ac*) deməkdir. Xələclərin bir hissəsi hələ eramızın əvvəllərində Qafqaza köç etmişdi. Bizans tarixçisi Menandr *(Menandros; e.ə.342–e.ə.291)* xəzər xalqları arasında "khlitai/kholitai" adlı bir boydan bəhs edir. Alman tədqiqatçı Yosef Marquart *(Josef Markwart; 1864–1930)* bu adın "khalac/xələc" şəklində oxunmasını təklif etmişdi. Müsəlman coğrafiyaşünası İbn Hövqəlin əsərində "əl-xəzər əl-xalis" adlı bir topluluqdan söz edilir. Müəllifin "*Surət əl-arz*" əsərinin müxtəlif nüsxələrində bu ad "əl-xəzər əl-xullas", "əl-xəzər əl-xas" şəklində yazılıb. Bəzi

tədqiqatçılar buradakı "xalis" adının "təmiz, saf" mənasına gəldiyinə, digəri isə Bizans mənbələrində yer alan "khoulitai" (xələc) tayfası ilə eyni olduğuna diqqət çəkiblər. Yəhudi vəzir Yosefin məktubunda Xəzər xaqanlığına tabe olan xalqlar arasında "xvalis" (*khalis*) adlı bir xalqdan bəhs edilir. Bir sıra tarixçilər onların "xarəzmlilər" olduğunu iddia ediblər. Məsələ burasındadır ki, *khalisioi* adlı xalq Bizans mənbələrində də qeyd olunur. Həmin mənbələr onları macarlar arasında yer alan boy kimi təqdim edir.

Eftalitlərin süqutundan sonra xələclərin iki qola ayrıldığını güman etmək olar. Birinci qrup şimala – Xəzər ölkəsinə gəlmiş, daha sonra bir hissəsi Azərbaycana, digər qismi isə Mərkəzi Avropaya köç etmişdir. Xələclərin əsas hissəsi isə Əfqanıstan, Hindistan və Xorasana hərəkət etmişlər. Xələclər XII–XVI əsrlər arasında Hindistan və Əfqanıstanda ən böyük hərbi güc hesab olunurdular. Onlar Hindistanda mərkəzi Dehli olan Xələc sultanlığının *(1290–1320)* əsasını qoydular.

Ağ hun və eftalitlər zəngin mədəni irsə sahib xalqlar idi. Ağ Hun və Eftalit sikkələrinin bir hissəsi günümüzə qədər gəlib çatmışdır. Həmin sikkələr üzərindəki yazılarda hind təsiri açıq hiss olunur. Bəziləri isə baktriya və yunancadır. Baktriya əlifbası eftalitlər tərəfindən IV əsrdə qəbul edilmişdir. Quşan və Baktriya yazı sistemindən fərqlənən bu yazı əl yazısına oxşayır. Baktriya əlifbasında yunancada yer alan 24 hərfdən başqa, 25 ədəd işarə var. Amma bu dilin dövlətin qərb hissəsində işləndiyi aydın olur. Cənub-şərq bölgəsində hakim dil sanskrit dili olmuşdur. Kardezdə yerləşən Kabil muzeyində mərmərdən düzəldilmiş Tanrı Qanişa kitabəsi sanskrit dilində yazılmışdır. Çin mənbələri ağ hun və eftalitlərin *kao-çe* və *hu* (hun) dilində danışdıqlarını qeyd edirlər.

Eftalit dövləti türk boylarının birliyinə əsaslanırdı. Eftalitlər, əsasən uar-hun (var-hun), zavul, sul (çol/çor), qızıl hun, ağ hun, askil boylarının ittifaqından meydana gəlmişdi. Hökmdarları xaqan titulu daşıyırdı. Xaqanlar *kəngəş* (xalq məclisi) tərəfindən seçilirdi. Çin mənbələri Ağ Hun və Eftalit dövlətlərində hakimiyyətin atadan oğula keçmədiyini, hakim sülaləyə mənsub olan birinin hökmdar seçildiyini qeyd edirlər. Hökmdarın oğlu türkcə *tigin* titulu daşıyırdı. Xaqan qızıldan düzəldilmiş və Günəşi ifadə edən taxta oturur, bahalı qumaşdan libas geyinir, qiymətli daşlardan düzəldilmiş üzük və boyunbağı taxırdı.

Çinli səyyah Sunq Yun *(Song Yun; VI əsr)* böyük imperiyalar adlandırdığı 20 dövlətin Eftalitlərin vassalı olduğunu və hər il onlara xərac ödədiklərini qeyd edir.

Ağ hun və eftalitlər sosial cəhətdən türk həyat tərzinə bağlı idilər. Qışlaq-yaylaq həyatı keçirdikləri, çadırlarda yaşadıqları bildirilir. Şəhərləri olsa da, müdafiə divarları yox idi. Buna baxmayaraq, ağ hun və eftalitlər şəhər həyatına yad deyildilər. Zəngin sərvətlərinin mənbəyinin şəhərlər və ticarət olduğunu yaxşı bilirdilər. Hətta yeni şəhərlərin salınmasına da kömək edirdilər. Orta əsr Şərq ölkələrinin incisi qəbul edilən Nişapuru yenidən inşa etdilər. Parflar dövründən etibarən Abar və ya Abarşəhr adlanan bu şəhər eftalitlərin Xorasandakı əsas mərkəzi idi.

Çin mənbələrində ağ hun və eftalitlərin buddist olduqları qeyd edilsə də, əhalinin əsas hissəsi Göy Tanrıya inanırdı. Buddizm dövlətin cənub hissəsində yayılmışdı. Bəzi Eftalit hökmdarlarının buddizmə qarşı sərt tədbirlər gördüyü, hətta buddist məbədlərini və heykəlləri yıxdırdıqları bildirilir.



## 4.5. ABARLAR (JU-JUAN)

Ju-juanlar xalqının qədim türkcə adı "abar"dır. Çin mənbələrində onlardan *ju-juan*, *juan-juan* kimi bəhs edilib. Çincə "*ju-juan* – kiçik qurd" mənasına gəlir. Amma onlar Çinlə düşmənliyə başlayanda çinlilər bu adı həqarət formasına salaraq "*juan-juan* – kiçik qurdlar (həşəratlar) və böcəklər" mənasında işlədiblər. Bəzi tarixçilər həm Abar/Ju-juan, həm də Eftalit dövlətini yaradan hakim tayfanın var-hunlar olduğu fikrini qəbul ediblər.

Ju-juan və tabqaçlar Siyenbi ittifaqına daxil olmuş iki boydur. Siyenbi ittifaqında çox sayda hun tayfası yer alırdı. Bunlardan biri də Abar dövlətini quran var-hunlar idi. Onların bir qolu Orta Asiyaya gəlmiş və Eftalit dövlətini qurmuşdu.

Siyenbi hakimiyyəti altına girməyən və Şimali Hun dövlətinin *(150-ci ildə süqut etmişdir)* süqutundan sonra qərb istiqamətinə köç edən hun tayfalarının bir qismi Ongin çayının mənbəyindən qərbdə məskunlaşmışdılar. Onların



başında Jip-pa Yeh-çi (Yabayqu) adında bir hökmdar dayanırdı. Ongin çayı ətrafında meydana gələn vuruşmada hunlar ju-juanları ağır məğlubiyyətə düçar etdilər. Abar hökmdarı Şelun qaçaraq canını xilas etdi. Amma hunlar Ju-juan ölkəsini ələ keçirmədilər. Bu isə Abar dövlətinə yaşamaq fürsəti verdi.

Hunlar qalibiyyətdən yaxşı faydalana bilmədilər. Daha sonra Şelun böyük bir ordu ilə geri qayıtdı və hunların geridə qalan hissəsini özünə tabe etdi. Tabqaç dövlətinin idarəçiliyindən narazı qalan bir sıra töles tayfalarını da itaət altına aldıqdan sonra Şelun güclü bir dövlət qurdu.

Artıq Şelun tabqaçlarla rahat rəqabət edəcək gücdə idi. Bu səbəbdən Tabqaç ölkəsinin işlərinə müdaxilə etməyə başladı. O, 410-cu ildə vəfat etdi. Taxta türk dövlət ənənəsinə uyğun olaraq qardaşı Hülü *(410–414)* keçdi. Hülü Yenisey ətrafında məskunlaşan qırğızlara hücum etdi. Onlarla birlikdə ho-veiləri də hakimiyyəti altına aldı. Lakin 414-cü ildə sui-qəsd nəticəsində öldürüldü. Sui-qəsdi Pulu Çen adlı birinin təşkil etdiyi qeyd edilir. Onun məqsədi Abar taxtını ələ keçirmək idi. Amma özü də həmin ildə vəfat etdi və Abar xaqanlığı taxtına Şelunun əmisi oğlu Tatan *(414–429)* çıxdı.

Yeni xaqan üzünü Çin torpaqlarına çevirdi. Çin o zaman türk əsilli tabqaçlar tərəfindən ələ keçirilmiş və burada Tabqaç və ya Toba dövləti qurulmuşdur. Tatan ilk Tabqaç hücumunu 423-cü ildə gerçəkləşdirsə də, istəyinə nail olmadı. Abarlar Şimali Çinin bəzi əyalətlərini yağmalayaraq geri çəkildilər. Bir il sonra təşkil edilən Abar hücumu daha təhlükəli oldu. Abarlar bir çox əyalətə soxuldular. Çox sayda insan tələfatına yol açan hücumun qarşısını tabqaçlar aldılar. Üç il sonra Tatan yenidən Şimali Çində peyda oldu. Bir neçə əyaləti yağmalayan abarlar tabqaçların gəldiyini eşidincə geri qaçdılar.

Tatan son dərəcə döyüşkən və cəsur biri idi. Taxta çıxmamışdan əvvəl sərkərdə kimi uzun müddət şərqdə

Yueban dövləti ilə müharibələr aparmışdı. O, şərq siyasətini davam etdirdi. 418-419-cu illərdə Yueban dövlətinə böyük zərbə endirdi. Bu, Yueban dövlətini dərindən sarsıtdı. Kidara başçılığında böyük bir hun ordusu Yueban torpaqlarından Bəlx istiqamətinə köç etdilər. Onlar tarixə hökmdarlarının adı ilə *kidara hunları* kimi daxil oldular. Ağ Hun ölkəsinə soxulan kidara hunları burada məskunlaşa bilməyib, Şimali Əfqanıstan və Hindistana soxuldular. Tənəzzül keçirən quşanları öz hakimiyyətləri altına alıb, yeni bir türk dövlətinin *(417–420-ci illər arasında)* əsasını qoydular.

Tatan dövlətinin şərq sərhədini Baykal gölünün cənubuna qədər çatdırdıqdan sonra diqqətini Vei (Tabqaç) ölkəsinə çevirdi. 424-cü ildə 60 minlik ordu ilə Çinə soxulan abarlar dəhşət yaradan bir mənzərə yaratdılar. Qarşısına çıxan nə varsa yox edən Tatan tabqaçların paytaxtına qədər irəlilədi. Sonrakı il gerçəkləşən Tabqaç hücumu da abarlarınkı qədər dağıdıcı oldu. Tabqaç ordusu Qobiyə qədər Ju-juan ölkəsinə soxulub, ətrafı yağmaladılar. Amma abarlarla qarşılaşmayıb, geri çəkildilər. 429-cu ildə böyük xaqan Tatan öldü.

Tatanın yerinə seçilən oğlu Vu-ti Vei imperatoruna bir elçi göndərdi. Məqsədi vaxt qazanaraq ölkəsini yenidən səhmana salmaq idi. Tabqaçların da müharibəni davam etdirəcək gücü yox idi. Buna görə vergi ödəmək müqabilində Abarların təklifini qəbul etdilər. Vu-ti xaqan bundan istifadə edərək Orta Asiyadakı səfərlərini davam etdirdi. 434-cü ildə Baktriyadakı kidara hunlarına bir zərbə daha endirdi. Kidara hunları Bəlxi tərk edərək tamamilə Xorasan və Əfqanıstana çəkildilər. Bu səfər Balxan dağları, Dehistan, Mavəraünnəhr bölgəsində ikinci bir dövlətin (Eftalitlərin) yaranması ilə nəticələnən bir sıra hadisələrlə əlamətdardır.

Bu səfərlə Batı xaqan hərbi gücünü bərpa etdi. Tabqaçlara ödədiyi vergini kəsdi və 436–437-ci illərdə anidən Şimali Çində peyda oldu. Tabqaçlarla Abarlar arasındakı müharibələr 439-cu ilə qədər davam etdi. 439-cu ildə Şimali Çini lərzəyə salan hücumlar təşkil etdilər.



Abarların ən böyük gücü düşmənlərində yaratdıqları vahimə və qorxu idi. Ələ keçirdikləri yerlərdə misli görünməmiş vəhşiliklər və qətliamlar törədirdilər. Bunun nəticəsində uzun illər "abar" adı dünya xalqları üçün qorxu və şiddət mənasına gəlmişdi. Abar dəhşəti o qədər böyük idi ki, Şimali Çində əkinçiliklə məşğul olan insanlar torpaqlarını tərk edərək Çinin mərkəzi vilayətlərinə qaçmışdılar. Hətta Bizans müəllifləri belə abarlardan qorxu ilə bəhs edirlər. Artıq Tabqaçlar da onların varlığını qəbul etmiş və Ju-juan dövlətini asanlıqla ortadan qaldıra bilməyəcəklərini anlamışdılar. Buna görə də ənənəvi Çin siyasətinə əl atdılar. Abarlara tabe xalqlara casuslar göndərərək onları Ju-juan dövlətinə qarşı üsyana təşviq etdilər. Toba elçiləri kao-çe, vu-sun, yueban və tieh-le tayfalarına elçilər göndərərək abarlara qarşı birgə mübarizə aparmağı təklif etdilər.

Amma abarların Tabqaç sərhədlərinə hücumları səngimirdi. 440-cı ildə Vu-ti xaqanın başçılığı ilə böyük Abar ordusu Tabqaç sərhədinə qədər gəlsə də, Tabqaçların kəşfiyyat dəstələri qarşısında geri qayıtdılar. Tabqaçlar onları tələyə salıb, çoxunu öldürdülər. Vu-ti xaqan 445-ci ildə öldü. Taxta oğlu Tu Hou-çenq *(445–464)* keçdi. Ondan sonra xələfi oğlu Yü-çenq *(464–485)* oldu və hakimiyyəti qanlı hadisələrlə yadda qaldı. Tabqaçların təşviqi ilə üsyan edən boylara qarşı abarlar qətliam törətdilər. Bu tieh-le (ti/tele/töles) tayfalarından böyük bir kütlənin yurdlarını tərk edərək qərb istiqamətinə köçünə səbəb oldu. Onlar arasında sabirlər də yer alırdı. Avropa mənbələrində bu xalqlara ümumilikdə "oğuz" mənasında *oqur/oğur* adı verilirdi. Bu köç hərəkatı abarların sabirləri, sabirlərin də oqurları torpaqlarından çıxarması nəticəsində təqribən 460–465-ci illər arasında meydana gəldi. Bizans tarixçisi Prisk *(Priscus; 410/420–472)* oqurların 463-cü ildə Qara dənizin şimalında ortaya çıxdıqlarını xəbər verir.

Tou-lun dövrü *(Tulun: 485–492)* Abar xaqanlığının çiçəklənmə dövrü hesab edilir. "Vei-şu" müəllifi onu

"öldürməkdən zövq alan hökmdar" kimi təqdim edir. Abar-Tabqaç müharibələri hər iki türk dövlətinin tənəzzülü ilə nəticələndi. Tabqaçların Ju-juan ölkəsindəki tayfaları mərkəzi hakimiyyətə qarşı üsyana təşviq etmək siyasəti ancaq qısa müddət üçün faydalı oldu. 470-ci ildə abarlar yenidən Tabqaç ölkəsini təhdid etməyə başladılar. Tərəflər arasında müharibələr 550-ci ilə qədər davam etdi. İnak zamanında abarlar tabqaçların vassalına çevrildi. Buna səbəb İnak zamanında Ju-juan ölkəsində artan daxili ziddiyyətlər və mərkəzi hakimiyyətin gücsüzlüyü idi. Yeni hökmdar uzun müddət anasının təsiri altında qaldı. Amma İnakın vassallığı uzun müddət davam etmədi. 530-cu illərdə Abar dövləti kimi daxili ziddiyyətlər və müharibələrlə zəifləyən Tabqaç dövləti iki yerə parçalandı. Abarlar bundan faydalanmaq istəyərək tabqaçlara aid torpaqları yağmaladılar və Tabqaç hakimiyyətindəki töles tayfalarına hücum etdilər. Tieh-le-Abar müharibələri yenidən qızışdı. 551-ci ildə tieh-lelər abarlara böyük zərbə vurdular. Abar xaqanı İnak bu hücumdan çətinliklə qaçıb xilas ola bildi. Abarlar ancaq təbəələri Göytürklərin yardımı ilə tieh-lelərin hücumlarının qarşısını ala bildilər. Abar xaqanı İnaka etdiyi köməklik müqabilində Göytürk hökmdarı Bumin ona elçilər göndərərək qızını istədi. Amma öz təbəəsi ilə qohumluğu təhqir hesab edən İnak Göytürk elçilərini sarayından qovdu. Bundan qəzəblənən Bumin Abar xaqanının iqamətgahına hücum etdi. Göytürklər Abar ordularını qılıncdan keçirdilər. İnak xaqan bu məğlubiyyətlə barışa bilməyib, intihar etdi. Onun intiharı Abar xaqanlığının süqutu mənasına gəlirdi. Süqut edən Abar dövlətinin xalqları Göytürk xaqanlığının tərkibinə daxil oldu.

Abar xaqanlığı ümumilikdə 200 ilə yaxın hökm sürdü. Abar xaqanlığı dövlətin idarəsi, təşkilat və hərbi cəhətdən Hun və Siyenbi dövlətinin davamı idi.





## 4.6. AVARLAR

Türk mənbələrində *apar*, *abar*, *avar* şəklində adları qeyd edilən bu dövlət Avropada yaranıb. Qərb tarixşünaslığında onlara ***"Avropa avarları"*** adı verilir. Lakin Bizans mənbələri həmin avarların ***"saxta avar"*** olduqlarını yazırlar. Onlara görə, həqiqi avarlar ju-juan (abar) xalqı idi. Saxta avarlar isə eftalitlərin törəmələridir.

Şərqdə yaranan Avar xaqanlığının hakim tayfası olan *uar-hun* və ya *var-hunlar* 430-cu ildə Ağ Hun torpaqlarını ələ keçirərək Toxaristan, Soğdiana və Quşan ölkəsində Eftalit dövlətinin əsasını qoymuşdular. Göytürklər Eftalit dövlətinin hakimiyyətinə son qoyduqda uar-hunların bir hissəsi şimal istiqamətinə köç edərək Qafqaza və Şimali Qaradəniz bölgəsinə gəldilər. Göytürklərdən qaçıb, Qafqaz və Şimali Qaradəniz bölgəsinə gələn Eftalit var-hunları Avropa tarix səhnəsində *avar* adı ilə peyda oldular. Bizanslılar onları əsl avarlardan (abar və ya ju-juanlardan) ayırmaq üçün *saxta avarlar* adlandırdılar.

Avarlar mərkəzi Pannoniya (indiki Macarıstan) olan Şərqi Avropada dövlət yaratdılar və bölgədə 250 il ağalıq etdilər. Avar dövləti *(558–889)* Avropa tarixində böyük rol oynadı. Onların bəzi tayfaları isə Cənubi Qafqaza köç etmiş və Kür çayı boyunca yerləşmişdi. Avarların qalan qrupları Göytürk xaqanlığına tabe olmuşdu.

558–562-ci illər arasında avarlar bölgədə öz xaqanlıqlarını yaratdılar. Onların hakimiyyətini qəbul etməyən bəzi bulqar tayfaları Şimali Volqa istiqamətinə hərəkət edərək burada öz dövlətlərini təsis etdilər. Avarların hakimiyyətini qəbul etməyən *sal* və ya *sal-oqur* tayfaları Şimali Qafqazdakı yurdlarını tərk edərək Azərbaycana köç etdilər. Bunlar mənbələrdə *saylandur* (haylandur) adı ilə də qeyd edilirlər. Saylandurlar avar hücumları qarşısında Dərbəndi keçərək Azərbaycana girdilər və Kür çayı sahilində Muğan bölgəsində məskunlaşdılar. Bu tayfanın bəzi qəbilələri isə Şimali Qafqazda qaldı. Don çayı ətrafında onoqur və kutriqur tayfalarını hakimiyyətləri altına alan avarlar Qara dənizin şimalı boyunca bütün bölgəni ələ keçirdilər. Dnestr çayı ətrafında məskunlaşan slav tayfalarından *ant*lar da avarların hakimiyyətini qəbul etdilər. 559-cu ildə Avar ordusu Dunay çayına qədər irəlilədi. Həmin tarixdə Konstantinopol sarayına böyük bir elçi heyəti göndərdilər. Bizanslı müəllif Teofana *(Theophanes the Confessor; 758/760–817/818)* görə, "uzun saçları və geyimləri ilə hunlara oxşayan avarlar ziddiyyətli bir xalq idi".

Avar elçiləri Konstantinopol şəhərinə daxil olanda şəhər camaatı küçəyə çıxıb, elçilərin keçdiyi yolun kənarında toplaşmışdılar. Türklərin geyimləri və görkəmi Şərqi Roma paytaxtında heyranlıq oyandırmışdı. Yüksək səviyyədə qəbul edilən heyət istədiyinə nail olmuşdu. Anlaşmaya görə, Bizans avarların Dobrucada (indiki Moldova-Rumıniya) məskunlaşması ilə razılaşacaq və bulqarları sərhədlərindən uzaqlaşdırmaları müqabilində onlara illik xərac ödəyəcəkdi.



Avar xaqanlığı 558-ci ildə Bayanın rəhbərliyi altında yarandı. Avarların hakim tayfasını Eftalitlər dövlətinin süqutundan sonra Şərqi Avropaya gələn *var-hun* boyu təşkil edirdi. Onlarla birlikdə barsil (*borçol*) və çor tayfalarının Dehistan və Balxan ətəklərində məskunlaşmış boyları da Qafqaza köç etmişdi. Onlardan çorlar daha əvvəl bölgəyə köç edən boydaşlarının məskunlaşdıqları Aranda yerləşmiş, barsillər isə Borçalı bölgəsinə sahib olmuşdular. Bölgədəki sabir, hun, oqur, bulqar tayfalarının çoxu Avar xaqanlığının hakimiyyətini qəbul etdilər.

Bayan xaqan dövründə Bizans-Avar sərhədində bəzi münaqişələr yaşansa da, mühüm bir hadisə meydana gəlmədi. 565-ci ildə imperator Yustinianın *(527–565)* vəfatını eşidən Bayan xaqan öz elçilərini Bizans sarayına göndərdi. Avar elçiləri illik xəracla yanaşı, bizanslılardan fərariləri qandallamaq üçün zəncir, kilimlər və digər əşyalar da tələb etmişdi. Üstəlik elçi Bizansın tələbləri qarşılamadığı halda avarların qəzəbinə uğrayacağını bildirdi. Avar xaqanının tələbləri rədd edildi. Həmin vaxt Bayan xaqan Avropada çiçəklənməyə başlayan Frank və Bohemiya krallıqlarına müharibə elan etmişdi. Avarların franklara hücum edərkən Karpatı ələ keçirdikləri və Bizans ərazilərinə soxulduqları aydın olur. Belə ki, Dunay çayının qərbində məskunlaşan german tayfalarından lanqobardlarla ittifaq yaradan avarlar gepidlərə hücum etdilər. 568-ci ildə isə bu dəfə lanqobardları əzdilər. Lanqobardlar yurdlarını tərk edərək Şimali İtaliyaya köç etdikdən sonra avarlar indiki Macarıstanı zəbt etdilər. Mənbələr Renn çayı ətrafındakı ərazilərin də avarlar tərəfindən ələ keçirildiyini qeyd edirlər.

Bu vaxt Avropanın qərbində german-frank əsilli Merovinq krallığı çiçəklənmə dövrünü yaşayırdı. Krallığın başında "Klovinin *(Clovis; 509–511)* nəvəsi və Klotarın *(Chlothar I; 511–558)* oğlu Siqebert *(Sigebert I; 561–575)*" dayanırdı. Avarların Frank dövlətinə ilk hücumu onun zamanında meydana gəldi. Amma franklar birinci Avar

hücumunun qarşısını çətinliklə aldılar. İkinci Avar hücumu 568-ci ildə gerçəkləşdi. Meydana gələn döyüşdə Frank tarixçisi Qreqor de Turun *(Georgius Florentius; 538–594)* ifadəsinə görə, "hər cür sehrbazlıqda usta olan hunlar çoxlu qəribəliklər sərgilədilər" və nəticədə frankları darmadağın edərək kral Siqeberti əsir aldılar. Bayan xaqan əsir krala hörmət göstərdi və onu yaxşı qarşıladı. Avarların məqsədi Frank torpaqlarını ələ keçirmək olmadığından kral Siqebert sərbəst buraxıldı. O, hər il Avar xaqanlığına qida məhsulları (səbzə, taxıl, qoyun, öküz), pul və ev əşyaları göndərəcəkdi. Görünür, avarlar Bizansdan istədiklərini əldə edə bilməyib franklara hücum etmiş, yaşadıqları maddi çətinlikləri bu yolla ortadan qaldırmaq istəmişlər. Bu, avarların həmin illərdə iqtisadi vəziyyətinin çox ağır olduğunu deməyə əsas verir.

568-ci ildə Bayan xaqan Merovinq və Bohemiyada Avar xaqanlığının hakimiyyətini təsis etdi. Bundan sonra diqqətini indiki Macarıstan bölgəsinə çevirdi. Bölgə german əsilli Lanqobard krallığının nəzarəti altında idi. Bu vaxt krallığın başında Alboin *(560/565–572)* vardı. Kral Alboinin məqsədi Şimali İtaliyanı ələ keçirmək idi. Lanqobardların bu məqsədinin qarşısını almaq üçün Bizans bir başqa german tayfası olan gepidlərlə ittifaq yaratmışdı. Lanqobardlar Bizansa qarşı özlərinə yeni müttəfiq axtarırdılar. Kral Alboin öz elçisini Bayan xaqana göndərdi. Elçi Avar xaqanını Bizansa hücum etməyə təşviq etdi. Onun sözlərinə görə, Trakiya və qədim Skifiya torpaqlarında avarların qarşısına çıxacaq heç bir hərbi güc yox idi. Bayan xaqan Lanqobard kralının təklifini bir şərtlə qəbul etdi. Bizansın müttəfiqləri gepidlərə hücum etmələri müqabilində əldə ediləcək heyvanların onda biri, qənimətin yarısı və Gepid torpaqları avarlara veriləcəkdi. Bundan sonra avarlar Tissa çayı istiqamətində hərəkət edərək Gepid krallığının torpaqlarına girdilər. Gepid orduları ilk zərbədə dağıldı və kralları Kunimund *(Cunimund; 560–567)* avarlar tərəfindən



öldürüldü. Öldürülən kralın nəvəsi dövlət xəzinəsini götürüb, Bizansa qaçdı. Bizans avarlarla qarşılaşmamaq üçün bu hadisədə gepidlərə aid Sava bölgəsindəki Sirmium şəhərini işğal edərək mövqeyini qorumaqla kifayətləndi. Avarlar isə Tissa çayı ətrafındakı əraziləri ələ keçirdilər. Daha sonra avarlar lanqobardları yerindən oynatdılar. Şimali İtaliyaya köç edən lanqobardlar burada uzun illər avarlara vassalıq edən Lanqobard krallığını *(668–774)* yaratdılar. Beləliklə, Yuxarı Pannoniya da avarların əlinə keçdi. Bayan xaqan Şərqi və Mərkəzi Avropanı on il ərzində öz xaqanlığının tərkibinə qatdı.

Avar xaqanlığının banisi olan Bayan xaqanın 68 il *(558–626)* hökmdar olduğu məlumdur. Çox ağıllı və bacarıqlı hökmdar olan Bayan Avar xaqanlığını formalaşdırmaqla yanaşı, öz dövlətini Avropanın ən qüdrətli imperiyasına çevirdi. Güclü islahatlar həyata keçirərək oqur (kutriqur və bulqarları) və hun tayfalarını birləşdirib türkləri hakim güc halına gətirmiş, slavyan tayfalarını öz hakimiyyəti altına alaraq onları xaqanlığın əsas təbəəsi elan etmişdi. Slavyanların Mərkəzi Avropa və Balkanlarda yayılmasının səbəbkarı Bayan xaqan olmuşdur. Süryani rahib Yohannesin yazdığına görə, "əvvəllər meşələrdən çıxmağa cəsarəti olmayan slavyanlar avarlar sayəsində döyüşməyi öyrəndilər, qızıl, gümüş və at sürülərinə sahib oldular". Slavyanlar Bayan xaqanın şəxsiyyətinə hörmətlə yanaşıb, onu özlərinin "ulu hökmdarı" qəbul etmişlər. Slavyan dillərindəki "ban" sözü Bayan xaqanın xatirəsinə hörmət əlaməti olaraq türkcə "bəy" sözündən götürülüb.

Mənbələrin azlığı səbəbindən avarların Baltik dənizinə qədər yürüşləri haqqında məlumatımız yoxdur. Amma arxeoloji materiallar Avar xaqanlığının Turla sahillərindən Bohemiyaya, Elba ətrafına, Baltik dənizi sahillərinə qədər bütün Mərkəzi və Şimal-Şərqi Avropa torpaqlarına sahib olduğunu deməyə əsas verir.

Avarların arxa-arxaya Frank, Gepid və Lanqobard kimi Bizansın uzun illər müharibə apardığı dövlətləri bir həmlədə məğlub etməsi romalıları vahiməyə saldı. Bizans imperatoru elçi Vitalianı Komitas adlı tərcüməçi ilə Bayan xaqanın hüzuruna göndərdi. Avar xaqanı qaçan gepidləri himayə etdiyinə, Gepid xəzinəsini mənimsədiyinə və Sirmium şəhərini zəbt ediyinə görə bizanslılara çox hiddətləndi və elçilərin zəncirə vurulmasını əmr etdi. Avar təzyiqləri qarşısında dayana bilməyən Bizans imperatoru II Yustin *(Justinus; 565–578)* 570-ci ildə illik 80 min qızıl xərac vermək şərtilə sülh bağladı. Sülhə görə, avarların tələb etdikləri gepidlərə aid Sirmium şəhəri Bizans hakimiyyətində qaldı.

Bayan xaqan ələ keçirdiyi Gepid ölkəsində və Bizansdan aldığı torpaqlardan istifadə etmək məqsədilə şimaldakı slavyanları həmin boş ərazilərə köçürərək bu yerlərdə məskunlaşdırdı. Slavyanlar onlara verilən torpaq müqabilində əkinçiliklə məşğul olub, avarlara illik vergi ödəyəcəkdilər. Alınan cüzi vergi müqabilində slavyanlar Bayan xaqanın istəyini könüllü qəbul etdilər. Vergi vermək istəməyən slavyanlar isə *"befulci"* (öncül, ordunun qabağında gedən kəşfiyyat dəstəsi) adı ilə avar ordusunda xidmət edəcəkdi. Bu islahat slavyanların Balkan torpaqlarına yayılmasına səbəb oldu.

Avar hücumları nəticəsində german tayfalarının Oder, Elba, Saale, Mayn, Reyn və Naab boyunca yurdlarını tərk etdikləri və qaçdıqları qeyd edilir. Avarlar həmin bölgələrdə slavyanların məskunlaşmasına zəmin hazırladılar. Bayan xaqan 603-cü ilə qədər Almaniyada qalaraq müharibəni özü idarə etmiş, qışı Mayn və Reyn ətrafında keçirmişdi. Beləliklə, ələ keçirdiyi torpaqlarla Avar xaqanlığı Attilanın Hun imperiyasından sonra Avropaya sahib olan ikinci böyük türk dövlətinə çevrildi. Bu dövrdə Avar xaqanlığının torpaqlarının şimalda Baltik dənizindən cənubda Pelloponesə, qərbdə Şərqi və Mərkəzi Almaniyadan Şərqi Tirola,



şərqdə isə Don çayına və buradan da Azərbaycana qədər uzandığı qeyd olunur. Attilanın Hun xaqanlığı bir növ Hun-German federasiyasına oxşayırdısa, Bayan xaqanın dövləti Avar-Slavyan ittifaqına əsaslanırdı. Bayan xaqan Avropada türk əhalisinin sayının az olması ucbatından slavyanlara geniş imkanlar verərək onları öz dövlətinin tərkibinə daxil etmişdi. Bu siyasət slavyanların bir xalq kimi tarix səhnəsinə çıxmasına səbəb oldu.

603-cü ildə Avar xaqanının əmri ilə lanqobardlar və bəzi slav qrupları Bizansa aid İstriya bölgəsinə hücum etdilər. Kremona və Mantova tamamilə talan edildi. İmperator Foka *(602–610)* təcili elçi göndərərək xaqana sülh təklif etdi. Sülhün şərtləri Bizans üçün son dərəcə ağır idi. Bayan xaqan Bizansdan alınan illik 120 minlik qızıl pulu 2 milyona artırdı. Bu, Bizans xəzinəsinin üçdə birinin avarlara xərac olaraq verilməsi mənasına gəlirdi.

611-ci ildə avarlar Venesiya qapılarında peyda oldular. Buradan avarlar Fransaya üz tutdular. Köhnə vassaları olan franklar ehtimal ki, xaqanın buyuruğundan çıxmışdı. Avarlar franklara divan tutdular, Türingiyada frankları darmadağın etdilər. Oğlanlarının adından krallığı idarə edən kraliça Brunhilda *(567–613)* külli miqdarda qızıl ödəyərək avarlardan xilas oldu. Buna baxmayaraq, avar qorxusu İspaniyaya qədər bütün Qərbi Avropanı bürümüşdü. "Avarların zalım xaqanı gəlir" (*Atrocimus Avarorum rex*) sözləri insanları yurdundan-yuvasından didərgin salmışdı.

Avarların Qafqazda ortaya çıxması Bizansa qarşı müharibə şəraitində olan sasaniləri onlarla ittifaq yaratmağa sövq etdi. 600-610-cu illər arasında Avar xaqanlığı ilə Sasani sarayı arasında gedib-gələn elçilər Bizansı yox etmək üçün böyük hücum planı hazırladılar. Plana görə avarlar şimal-qərbdən, sasanilər isə cənub-şərqdən Bizansa hücum edəcəkdilər.

610-cu ildə səkkiz il davam edən Fokanın səltənətinə son qoyan İrakli *(Flavios Herakleios; 610–641)* Bizans taxtına

oturdu. İraklinin tacqoyma mərasimində arasında türk süvarilərinin də olduğu Sasani ordusunun nərələri Boğaziçi sularında əks-səda verirdi. İrakli birinci növbədə sasanilərlə mübarizə aparmağın uyğun olacağına qərar verdi. Bunun üçün yeni bir ordu hazırladı. Tərkibində muzdlu türk süvarilərinin də olduğu qoşun (*them-timar*) Avar ordu sisteminə uyğun yaradılmışdı. Sasanilərlə qanlı döyüşlərin davam etdiyi 610–617-ci illərdə imperator İrakli bir tərəfdən də Bayan xaqana illik xərac ödəyirdi. Çünki avarların qəzəbinə uğramaq istəmirdi. Belə ki, İraklinin taxta çıxmasının dördüncü ilində Tesali, Yunanıstan, Kiklad adaları, Epirsa, İlliriya, Qafqazda Acariya və Anadolunun böyük hissəsi Avar ordularının istilasına məruz qaldı. Avarların zülmü iki il (614-616) davam etdi. Bizans salnaməçiləri həmin dövrün hadisələrini qələmə alarkən türklərə lənət oxuyurdular: "Saqqallı Karib avarları sülhsevər görünüb, quldur kimi hərəkət edirlər. Onlara qul kimi xidmət edən slavyanlar isə ac qurdlar kimi zülm küləklərini torpaqdan dənizlərə çevirdilər". Bizanslı müəllif avarların slavyanlara gəmilər düzəltdirib, donanma yaratdıqlarını demək istəyir.

617–618-ci illərdə avarlar Bizans üçün yeni fəlakətlərə səbəb oldular. Belə ki, həmin tarixdə Avar süvariləri Bizansın bütün şimal müdafiə sistemini darmadağın etdilər. Bu hücum əsnasında Bayan xaqanın Konstantinopolun divarlarına qədər gəldiyi qeyd edilir. Qorxuya düşən imperator İrakli Avar xaqanına təcili elçilər göndərərək onunla görüşmək arzusunda olduğunu dilə gətirmişdi. Amma görüş Bizans tərəfinin səriştəsizliyi ucbatından baş tutmadı. İraklinin mühafizəçiləri ilə gəldiyini görən avarlar imperatorun orduları ilə birlikdə hərəkət etdiyini fikirləşərək hücuma keçdilər. Avar hücumu İraklinin ölümünə səbəb ola biləcək dərəcədə böyük təhlükə və vahiməyə səbəb olmuşdu.

Növbəti il imperator İrakli yenə Avar xaqanına elçilər göndərdi. İl boyu davam edən danışıqlar nəticəsində



Bizans üçün çox ağır olan sülh sazişi imzalandı. Sazişə görə, Bizans illik 200 min qızıl xərac verəcək, imperator qeyri-qanuni oğlu Yohannes ilə birlikdə Konstantinopol şəhərinin hakimi Bonusun oğlunu və digər dövlət adamlarının oğlanlarını Bayan xaqanın sarayına girov göndərəcəkdi. Ancaq bundan sonra İrakli sasanilərə qarşı 622-ci ilin aprelində hərbi əməliyyata başlaya bildi. Səfər ərəfəsində imperator İrakli Bizans dövlətini avarların nəzarətinə buraxdığını bəyan edən məktubunu Bayan xaqana göndərdi. Məktubda İrakli Avar hökmdarından "Roma imperiyasına göz-qulaq olmasını, hər hansı bir hücum meydana gələrsə, köməyini əsirgəməməsini, oğlunu xaqanın himayəsinə təslim etdiyini" yazırdı.

Ancaq Sasanilərlə müttəfiq olan avarlar "üsyan edən qullarına" divan tutduqdan sonra Bizans paytaxtını mühasirəyə aldılar. Bayan xaqanın ordusu boğazın şərq sahilində yerləşən və əksəriyyətini sabirlərin təşkil etdiyi sasanilərə Konstantinopolun təpələri üstündə böyük tonqallar yandıraraq gəldiklərini bildirdilər. Avarlar şəhərə hücuma keçməzdən əvvəl Atanasias adlı bizans əsilli bir elçini Konstantinopol sarayına göndərərək şərtlərini bildirdilər. Bayan xaqan gecikmiş xəracın ödənilməsindən başqa şəhərin bütün xəzinəsinin ona verilməsini, şəhərin boşaldılmasını və təslim edilməsini əmr edirdi. Patrik Sergius və şəhər hakimi Bonus bu şərtlərin qəbuledilməz olduğunu bildirdilər. Bundan sonra avarlar 1453-cü ildə Fateh Sultan Mehmedin təkrarlayacağı bir hücum planı hazırladılar. Konstantinopola Ədirnə və Topqapı tərəfdən yaxınlaşdılar. İlk böyük hücum 29 iyun 626-cı ildə başladı. Bayan xaqan ordusunun ön cərgəsinə slavyanları qoymuş, şəhər divarlarına gedən yolları kəsən xəndəkləri slavyan cəsədləri ilə doldurmağı planlamışdı. Üstəlik avarların əlində divarları yıxmaq üçün mancanaqlar vardı. Bayan xaqan ordusuna divarlara hücum əmri verdi. Lakin bizanslıların xəzərlərdən aldıqları və Bakıdan gətirilən, romalıların "pers",

perslərin isə "xəzər atəşi" adını verdiyi neftdən düzəldilmiş yanan çəlləkləri avar ordularının üzərinə yağdırması Bayan xaqanın planlarını pozdu. Gəmilər və avarların 12 qülləsi yanıb kül oldu. Bizanslılar Bayan xaqana elçi göndərərək illik xəracı ödəmək müqabilində mühasirəyə son verməsini xahiş etdilər. Amma Bayan xaqan şərtlərindən geri addım atmadı və hücumun istiqamətini dəyişdirdi. Bizanslılar Konstantinopolun kübar ailələrindən toplanan başqa bir elçi heyətini Bayan xaqanın hüzuruna göndərdilər. Elçilər Avar ordugahına çatdıqda Sasani elçilərini Bayan xaqanın hüzurunda görüb təəccübləndilər. Bayan xaqan bizanslı elçilərə belə dedi: "Perslər mənə 3 min əsgər göndərməyi təklif edirlər. Belə olan halda əgər istəyirsinizsə, libaslarınızı və əşyalarınızı alıb, Servazarın yanına gedə bilərsəniz. O, mənim dostumdur. Sizə yamanlıq etməz. Amma şəhər və mülkləriniz mənə aiddir. Sizə başqa cür xilas yolu görünmür. Əgər balıq olub dənizdən üzməsəniz, quş olub havadan uçmasanız, sizə nə imperatorunuzdan, nə də ordusundan fayda gələcəkdir".

Lakin avar gəmiləri Xaliçdəki böyük Bizans gəmilərinin müdafiə xəttini yara bilmədilər. Üstəlik bizanslılar Avar gəmilərinin çoxunu yandırdılar. Məğlubiyyətin səbəbini Bizans müəllifləri bu vaxt dənizdə meydana gələn fırtınaya bağlayırlar. Bundan sonra Bayan xaqan mühasirənin əhəmiyyətsiz olduğunu anlayıb, 7 avqustda ordusunu şəhər qapılarından çəkərək ölkəsinə qayıtdı.

Bu hadisə Bizansın yaddaşından yüz illər boyunca silinmədi. Bizans həmin günü bayram elan etdi. Bizanslılar 1453-cü ilə qədər hər il "böyük pəhrizin beşinci həftəsinin şənbə günündə" kilsələrdə ayinlər təşkil edir və "Akathistos" ilahilərini oxuyurdular.

Avar xaqanlığının banisi Bayan ağıllı və qüdrətli bir hökmdardı. Cəmi 30 minlik süvari ilə (böyük bir hissəsinin ailəsi yoxdu) Qafqazı, Şərqi və Mərkəzi Avropanı ələ keçirmiş və hunlardan sonra bölgədə ikinci böyük türk



dövlətinin əsasını qoymuşdu. Bayan xaqanın nə vaxt öldüyü məlum deyil. Təxminən 626-cı ildə vəfat edib. Bizanslı müəllif Pisidiyalı George Fransis *(George Sphrantzes; 1401–1478)* isə onun 629-cu ildə öldüyünü yazır.

Bayan xaqanın çox sayda övladının olduğu məlumdur. Övladlarının çoxunun vəbadan, bəzilərinin də müharibələrdə öldüyü qeyd edilir. Pisidiyalı George 629-cu il hadisələrini təsvir edərkən belə yazır: "sakalar (avarlar – *Ə.N.*) slavyanları öldürdü və sonra da özü (Bayan xaqan – *Ə.N.*) öldü". Bu məlumata görə, Bayan xaqan Kontantinopolun mühasirəsindən sonrakı üç ilini slavyan üsyançıları cəzalandırmaqla keçirmiş və 629-cu ildə vəfat etmişdir. Bayan xaqan vəfat etdikdə 90 yaşında idi. Ölümü Avar xaqanlığının siyasi və iqtisadi cəhətdən zəifləməsinə səbəb oldu.

Avar taxtına Bayanın oğlu keçdi və 630–670-ci illər arasında dövləti idarə etdi. Onun adı məlum olmasa da, məzarı tapılıb. Həmin qəbir Macarıstanın Kecskemet şəhəri yaxınlığındakı Kunbaboni ərazisindədir. 60 yaşında öldüyü qeyd olunur. Bayan xaqan öldükdə varisinin 20 yaşında taxta çıxdığı ehtimal olunur. Onun 610-cu ildə dünyaya gəldiyini nəzərə alsaq, həmin hökmdar Bayan xaqanın vəba və müharibələr nəticəsində ölən övladlarından sonra dünyaya gəlmişdir. Bizans mənbələri həmin hökmdardan da "Xaqan" olaraq bəhs edir. Avarlar iki əsr boyunca Avropanın hakim gücü oldular. Avropanın bütün krallıqları avarlara hər il müntəzəm olaraq xərac ödəyirdilər.

Ancaq VIII əsrin sonlarında Avar xaqanlığı daxilində ciddi böhranlar başladı. 798-ci ildə Avar xaqanı xristianlığı qəbul etdi, hətta Papa avarlar üçün Salzburq yepiskopluğu yaratdı. Xaqanın bu davranışı avarların etirazına səbəb oldu. Özlərini xristian xalqların hakimi sayan məğrur Avar bəyləri qullarının dinini qəbul etməkdən imtina etdilər. Hətta 802-ci ildə sülh təklifi ilə ölkələrinə gələn frank elçilərini öldürdülər. Buna baxmayaraq, 805-ci ildə Avar

xaqanı xristianlığı rəsmi din elan etdi. Mənbələr avarların son üç hökmdarı olan Teodor, Abraham və İsaqın xrisitian adlar daşıdığını təsdiq edir.

Avarlar arasındakı çaxnaşmalardan istifadə edən Frank kralı Böyük Karl *(Carolus Magnus; 742/47/48–814)* böyük hərbi yürüşə başladı. 811-ci ildə franklar qəflətən Avar xaqanı İsaqın hərbi düşərgəsinə hücum etdilər. Frank salnamələri bu hadisəni belə təsvir edir: "Karl hunların işğal etdiyi Pannoniyaya hərbi yürüş təşkil etdi. Taxtı oğlu Pepinə, vilayətlərin idarəsini isə hakimlərə tapşırdı. Avarlarla aparılan döyüşün nəticəsini Pannoniyanın indi bomboş qalmasından və xaqan sarayının xarabaya dönməsindən başa düşmək mümkündür. Hun bəylərinin hamısı döyüşdə öldülər. Onların şöhrəti yox oldu. Yığdıqları xəzinələr talandı. Tarix frankların bu qədər var-dövlət ələ keçirdikləri başqa döyüş xatırlamır. İndiyə qədər dilənçi kimi yaşayan franklar, həmin hərbi yürüşdə o qədər qızıl ələ keçirdilər ki, çox varlandılar. Hunların haqsızlıqla başqa millətlərdən yığdıqları sərvətə franklar haqlı olaraq sahib oldular".

Frankların Avar xəzinələri sayəsində çox varlandıqları faktı başqa mənbələr tərəfindən də təsdiq olunur. Avar xaqanlığının paytaxtında külli miqdarda sərvət toplanmışdı. Tarixçi İlona Erdeli *(d.1926)* avarların malik olduğu qızılın miqdarını müəyyən etməyə çalışıb. Ona görə avarlar, sadəcə Bizansdan bir dəfəyə 37 ton qızıl xərac aldılar. 625-ci ildə isə Bayan xaqan Bizansdan ölkəsinə 25 ton qızıl gətirmişdi. Avarların 150 ildən artıq idarə etdikləri Avropanın digər xalqlarından yığdıqları xəracı da buraya daxil etsək, yoxsul frankların həmin səfərdə necə varlandıqları aydın olar.

Amma Avar xaqanlığı 889-cu ilə qədər yaşadı. Pannoniyadakı Avar paytaxtının franklar tərəfindən zəbt edilməsindən sonra avarların əsas hissəsi Karpat dağları istiqamətinə çəkildilər və Macarıstandakı mövqelərini qorudular.



Avar, oqur, hun və macar tayfalarının ittifaqından yeni dövlət "Hun-oqur ölkəsi" (*Hunqariya*) ortaya çıxdı.

Xristian dinini qəbul edən avarlar Avropa xalqları arasında əridilər. Avropa xalqlarının genetikasına, etnik tərkibinə, milli şüuruna, həyat tərzinə avarlar qədər təsir edən ikinci türk xalqı olmayıb. Avar adı günümüzdə Avropada Almaniyanın ən böyük əyaləti olan Bavariyanın, Yunanıstanda Navarinonun, Albaniyada Antivarinin adında yaşayır.

Avarların Avropadakı mirasını arxeoloji tədqiqatlar da təsdiqləyir. Avarlar Avropanın sənət əsərlərində də dərin iz buraxdılar. Həmin sənət nümunələrində heyvan üslubu avarların təsiri ilə ortaya çıxmışdır. Avropanın bir çox yerində avar dövrünə aid türkcə yazılmış kitabələr tapılıb. Xüsusən, avar qəbirlərindən çıxan Orxon-Yenisey əlifbası ilə yazılmış həmin kitabələr müasir macar alimləri tərəfindən tədqiq olunub, oxunmuşdur.

Avarların varisi olan az saylı *sekel* xalqı isə bu gün də Karpat bölgəsində yaşayır.



## 4.7. SABİRLƏR

Sabirlərin adı türkcə "*sabir-säbir*" və ya "*sabar*" olaraq keçir. Məlum olduğu kimi 24 hun boyu arasında, əsasən dörd tayfa söz sahibi olmuşdu. Onlar arasında Çin mənbələrində *hsü-pu* tayfasının da adı çəkilir. Bu adın türkcə qarşılığı *sabir* idi. Sabirlər Hun dövlətini yaradan dörd böyük tayfadan biri idi. Onlar daha sonra Siyenbi dövlətinin formalaşmasında rol oynayıblar.

Macar türkoloqları Layos Ligeti *(Lajos Ligeti; 1902-1987)* və Q.Nemetin də qeyd etdiyi kimi "sabir" adı türkcə "*sapir*" şəklində "sap" feilindən (*sapmaq*) yaranmışdı. Sabir/sabar türk dilində "sapan, yol dəyişdirən, sərbəst hərəkət edən, sərbəst, azad" deməkdir.

350-ci ildən sonra zəifləməyə başlayan Siyenbi dövlətinin yerini iki türk dövləti Tabqaç (To-ba) və Abar (Ju-juan) tutdu. Tabqaçlar Çində, abarlar isə Hun imperiyasının mərkəzi torpaqlarında yaranmışdı. Həmin tarixdə sabirlər Şimali Çindəki yurdlarını tərk edib qərb istiqamətinə



hərəkət edərək Volqa çayını keçib, 460-cı ildə Şimali Qaradəniz bölgəsində peyda oldular.

Prisk sabirlərin 463-cü ildə Şimali Qaradəniz ərazisində oqur boylarından şaraqur və onoqurları məğlub etdiklərini xəbər verir. Ona görə, sabirlərin yurdlarını tərk etməsinə səbəb abarlar olmuşdu. Onlar sabirlərin yurdunu istila etmişdilər.

460-cı ildə abarlar (ju-juanlar) sabirlərə daha bir zərbə vurdular. Bundan sonra sabirlər şimal-qərbi Qazaxıstana gələrək Tobol və İşim çayları ətrafında məskən saldılar. Daha sonra qərbə qaçan oqurların arxasından Şimali Xəzər istiqamətində yollarına davam etdilər. Beləliklə, sabirlər 350-450-ci illər arasında tədricən Şimali Çini tərk edərək qərbə hərəkət etdilər. Sabirlərin abarlar tərəfindən yurdlarından tamamilə qovulması 460-cı ilə təsadüf edir. 500-cü ildə sabirlərin böyük hissəsi Ural və Volqa çayını keçərək Xəzərin şimal-qərb hissəsindəki ərazilərə yerləşmişdilər.

Mənbələrdə sabirlərin Şimali Qaradəniz yoluyla Balkanlar istiqamətində deyil, aşağıya doğru Qafqaz istiqamətinə hərəkət etdiyi yazılır. Hadisələr də sabirlərin əsas hissəsinin Qafqazda yaşadığını deməyə əsas verir. Pers və Bizans mənbələri isə sabirləri hunlarla yanaşı qeyd edirlər və onları "hun-sabirlər" adlandırırlar. 500-cü ildən etibarən bütün Şimali Qafqaz, Xəzər dənizinin şimal-qərb və Qara dənizin şimal-şərq hissəsində yeni bir türk dövləti – Sabir xaqanlığı yarandı.

Sabir xaqanlığının iki böyük imperiyanı (Sasaniləri və Bizansı) 513-cü ildə özlərinə tabe etdiyi və onları xərac verməyə məcbur etdikləri qeyd edilir. Bu, eyni zamanda Sabir dövlətinin gücünün və qüdrətinin ifadəsi idi. 515/16-cı ildə sabirlər Qafqaz üzərindən Sasani və Bizans torpaqlarına genişmiqyaslı hərbi yürüşlər etdilər. Bizans tarixçisi Con Malalas *(Iōánnēs Malálas; 491-578)* sabirlərin bir döyüşdə 100 minlik orduya sahib olduqlarını qeyd edir. Prokopi isə sabirlərin "qala divarlarını yarıb keçən, o vaxta qədər heç

kəsin görmədiyi silahlara" sahib olduqlarını yazır. Marsellinin verdiyi məlumata görə, sabirlər 515-ci ildə Cənubi Qafqaz və Anadolu şəhərlərini talan etdilər. Teofanın yazdığına görə, "dünyanın yaradılmasından sonrakı 6008-ci ildə (516) sabirlər adlanan hunlar Xəzər qapısından Arminiyaya soxuldular. Kappadokiya, Qalata və Pontu viran qoyub, od vurdular və Evkaitaya qədər gəldilər".

522-525-ci illər arasında Sabir xaqanı Külüng öldü. Onun yerinə Bolok (Balak) keçdi, ancaq onun hakimiyyəti qısa sürdü. 527-ci ildə vəfat etdikdən sonra taxta dul arvadı Boariksi (Boarık) çıxdı. Bolok/Balak zamanında sabirlər Bizans-Sasani müharibəsində sasanilərin tərəfində yer almışdı. Bu məqsədlə sabirlər Bosfordakı problemləri əsas gətirərək Krımda Bizans qarnizonlarına hücum etmişdilər. Amma 527-ci ildə Boarıkın hakimiyyətə gəlməsi nəticəsində Bizans ilə Sabir dövlətləri arasında diplomatik münasibətlər bərpa olunmuş, sabirlər bu dəfə Bizansın dostuna, sasanilərin isə düşməninə çevrilmişdilər. Krım ətrafında yaşayan hun bəyləri Qlon və Türak isə Boarıka qarşı üsyan etdiklərinə görə Sabir hökmdarı tərəfindən cəzalandırılmışdılar.

Bizansın sabirlərlə müttəfiq olmasının bir səbəbi də Krımda hunların, Anadoluda isə sasanilərin hücumlarına məruz qalması ilə bağlı idi. Tövbəkar Teofana görə, üsyan edən iki hun bəyinin əmrindəki ordular da Xəzər sahili boyunca Sasani ölkəsinə hərəkət etmək istəyəndə, keçidləri öz nəzarətləri altında saxlayan sabirlər tərəfindən qılıncdan keçirilmişdi.

Malalasın verdiyi məlumata görə, "hun-sabirlərin qadın hökmdarı Boa (Boarık) kişi kimi tədbirli və çox qüdrətli qadındı. Kiçik yaşlı iki oğlu vardı. Əri Balakın (Bolok) vəfatından sonra hun birliklərindən ibarət 100 minlik ordunu idarə edirdi. Üstəlik imperator Yustinian onu qızıldan deyil, gümüşdən hazırlanmış müxtəlif vazlar və sair hədiyyələrlə özünə müttəfiq etmişdi".



Boarık xatun zamanında Sabir xaqanlığı zəiflədi. Bunu 550-ci ilə qədər Bizans mənbələrində sabirlər haqqında məlumatların yoxluğu, 540-cı illərdə də sabirlərin Sasanilər qarşısında məğlubiyyətlərindən başa düşmək olur.

Sabir xaqanlığı Volqa ətrafına, Xəzər dənizinin şimal-qərbinə, Qafqaza, Kür çayına qədər olan ərazilərə yerləşdi. Araşdırmalar sabirlərin ərazilərinin Volqanın şərqi istiqamətinə qədər uzandığını deməyə əsas verir. Qərbi Sibirdəki voqul (mansilər – Ə.N.), ostiyak və İrtış çayı ətrafındakı tatarlarla bağlı aparılan araşdırmalar sabirlərin buradakı xalqlar üzərində güclü təsir yaratdığını təsdiqləmişdir. Tobolsk ətrafında, Ob, Tura və İrtış çayı yaxınlığında çox sayda Sabar, Saber (Tapar), Soper, Savri, Sabrei, Sıbır (Sıvır) kimi yer adları sabirlərin nişanəsidir. Həmin bölgədə Ay Sabar, Gün Sabar şəklindəki şəxs adları sabir izinin yaşadığından xəbər verir. Tobolsk xalqı ətraf bölgələrin xalqlarını uzun müddət *Sybyr/Syvyr*, yəni Sibir adlandırmışdı. Sibir adı Sabir adından yaranmışdır. Bu məlumatlar Sabir xaqanlığının şərq sərhədinin İrtış çayına qədər uzandığını, sabir tayfalarının hamısının Qafqaza köç etməyib, Ob, İrtış çayları ətrafında məskunlaşdığını və Göytürk xaqanlığının hakimiyyəti altına girdiyini deməyə əsas verir. Xaqanlığın paytaxtı sasanilərin Sabiran (Sabir yurdu) adlandırdığı Şabran idi.

Sasani şahı I Xosrov *(531-579)* ilə sabirlər arasında döyüşlər Azərbaycan ərazisində cərəyan etmişdi. Sabirlər Kür çayına qədər Azərbaycan (Aran) ölkəsində məskunlaşmış, xüsusən də sabir kimliyinin davamı olaraq ortaya çıxan Şabran/Şaberan/Sabiran və Şirvan əyalətlərinin əsas əhalisini təşkil etmişdilər. Sabirlər bu bölgədə Şirvan, Şaberan, Savir, Suvarik, Şabir-Xost (Xurs/Xursan, Kars) kimi yurdlar saldılar. Sasanilər ilə Sabir xaqanlığı arasındakı döyüşlər də məhz Kür çayı ətrafında, Muğan və Şirvanda cərəyan etmişdi. I Xosrov Dərbəndə qədər olan əraziləri ələ keçirmiş və Dərbənd səddini yenidən inşa edərək türklərin

hücumlarının qarşısını almağa çalışmışdı. I Xosrov əsir olaraq ələ keçirdiyi türklərdən sul/çor tayfasına mənsub 10 minə qədər əsgərə geniş imtiyazlar verərək Azərbaycanı sabir hücumlarından qorumağı tapşırmışdı. Türkiyəli tarixçi Şərif Baştavın *(Mekki Şerif Baştav; 1913-2010)* Sabir xaqanlığının 545-ci ildə I Xosrovun zərbəsi nəticəsində dağıldığını iddia etməsi onların Azərbaycandakı dayaqlarını itirməsi ilə əlaqəlidir.

558-ci ildə Şimali Qaradəniz bozqırlarına gələn var-hunlar (avarlar) Bizansa elçi göndərdilər. Daha sonra Sabir xaqanlığına hücum edərək ölkəni ələ keçirdilər. Avar hücumu Sabir xaqanlığının süqutuna şərait yaratdı. Sabir xaqanlığının bir dövlət kimi ortadan qalxması 560-cı illərə təsadüf edir. 568-ci ildə avarlardan sonra Qafqaza gələn Göytürk xaqanlığının qərb bölgələrinin hakimi Sincibu (İstəmi) yabqu Sasani şahı I Xosrovla müqavilə bağlayaraq Azərbaycanın mərkəzinə qədər bütün Qafqazı özünə tabe etmişdi. Sabir xaqanlığına son verən İstəmi yabqu sabir-xəzər tayfalarını özünə tabe etdi. Sabirlərin ən böyük tayfaları hesab edilən *səməndər* və *bələncərlər* daha sonra Xəzər xaqanlığının yaranmasında mühüm rol oynadılar.

Sabir xaqanlığı 500-cü ildə yaranmış və 568-ci ildə süqut etmişdir. Təqribən 70 illik tarixi boyunca bütün Qafqazı öz idarəsi altında saxlayan sabirlər Sasanilər və Bizans kimi iki böyük imperiyanın amansız düşməni hesab edilirdi. Hər iki imperiyanı bir-birinə qırdıran sabirlər bu yolla hər iki dövləti öz vassallarına çevirmişdilər. Hərbi cəhətdən sasanilərdən və romalılardan çox üstün olan sabirlərin hökmranlığını hər iki imperiya qəbul etmişdi.





## 4.8. SULLAR VƏ BAYANDURLAR

Qafqaz Albaniyasının ən böyük ərazi vahidini Çola təşkil edirdi. Bölgə sul (çor) tayfasının adını daşıyırdı. Sullar bir neçə qola ayrılırdı. Bir hissəsi Azərbaycanda məskunlaşmış, digərləri Orta Asiyada qalmışdı. Əslində, sullar Göytürk ittifaqında yer alan *sir*lərlə eyni xalqdır. Onlar oğuzların əcdadı sayılan töleslərin bir qolu idi. Tonyukuk kitabəsində adları "türk sir", "sir bodun" (sir xalqı) olaraq qeyd olunur. Hələ erkən dövrdə sulların bir qolu Qafqaza köç etmiş, Azərbaycanla Dağıstan arasındakı geniş ərazidə (Çola) məskunlaşmışdılar. İkinci qol ağ hun köçərilərinə qoşularaq Xorasan, Qorqan və Dehistan bölgəsinə (Xəzər dənizinin cənub-şərqi) yerləşmişdi. Eftalitlərin qərb qolunu təşkil edən bu tayfaların bir hissəsi Göytürk hücumundan sonra Hindistana köç etmiş, Qorqanda qalan tayfalar isə daha sonra müsəlman-ərəblərin hakimiyyəti altına keçmişdilər. Sulların ana yurdda (Tola çayı ətrafı) qalan hissəsi Türk xaqanlığının hakimiyyətində *altı sir* və *sir-tarduşlar* adını daşıyırdı.

Sul (çol/çor) tayfaları Qafqaza e.ə.II əsrdən eramızın I-II əsrlərinədək köç etmişdir. Çola adı da bizim eranın ilk əsrlərindən etibarən mənbələrdə qeyd olunur.

*Sul, sir*, çul, çor və çoq adları eyni mənaya gəlir. Bu adın mənşəyinin türkcə "çöl" olduğu iddia edilir. Çin mənbələrində IX əsrdə şa-t`o adlandırdıqları çöl türklərindən bəhs edilir. V.V.Bartolda görə, onlar türk olub, oğuzlardan törəmişdilər.

Sullar bizim eranın əvvəllərində Qafqazda geniş ərazilərə sahib idi. Mənbələrdə Aral gölünün şimalı, Volqa və Ural çayları arası, Dnepr ətrafı, daha sonra da Cənubi Qafqazın müxtəlif yerləri ilə eyniləşdirilən Barsil ölkəsindən bəhs edilir ki, bu *var* və *sul* tayfalarının birliyindən xəbər verirdi. Albaniyanın dini mərkəzi olan Qəbələdə barsillərin məskunlaşdığı haqqında məlumatlar var. Barsillər Qəbələdəki yurdlarını daha sonra bulqar, hun, xəzər və sabirlərlə paylaşmışdılar. Şimaldan gələn türk tayfalarının yeni köçləri qarşısında barsillərin tədricən Qarabağ və Borçalı bölgələrinə çəkildikləri və Aranşahlar sülaləsi dövründə Albaniyanın əsas əhalisini təşkil etdikləri aydın olur. Ərəbcə mənbələrdə Azərbaycan və Qafqazda Burçan, Varçan, Varaçan şəhərləri ilə yanaşı, Burcan, Buşan, Barsil, Barşula şəhərlərindən də söz açılır. Hətta həmin mənbələrdə XIII əsrə qədər Muğan ərazisində Varçan və ya Varsan adlı şəhərin varlığından xəbər verilir. Ərəb mənbələrində Kəbəyə qədər gəlmiş Burcan ailələrindən bəhs edilir.

Sullar bulqar və bayandur tayfaları ilə birlikdə e.ə.II əsrdə Qafqaza köç ediblər. Əgər Dağıstan Respublikasının Bilici dəmiryolu dayanacağının yaxınlığında yerləşən Torpaqqala xarabalıqlarının qədim Çola şəhəri olduğunu nəzərə alsaq, sul/çul tayfaları ilə bayandurların eyni bölgədə məskunlaşdıqları aydın olur. Məlum olduğu kimi, Qafqazda bayandurların məskunlaşdığı iki Vanand bölgəsindən biri məhz Dağıstanın cənubunda yerləşirdi. İkinci Vanand əyaləti isə indiki Şərqi Anadolu ərazisində idi.



Ərəb mənbələri Dərbənddən Azərbaycanın şimalı boyunca Gəncə və Göyçə üzərindən Şərqi Anadoluya qədər uzanan geniş bölgəyə "Eftalit" adı verirdilər. Bəzən bu bölgə "Ağ Hun ölkəsi" adlanırdı.

Bayandurlar ilk orta əsrlərdə bölgənin ən güclü tayfası idi. Onların adı müxtəlif mənbələrdə fərqli şəkillərdə qeyd olunmuşdur. Bələncər şəhər adının eyniadlı türk tayfasının adından götürüldüyü qeyd edilir. İbn əl-Fəqihə görə, "Yafəsin oğlanlarından biri də Balanjar" idi. Təbərinin verdiyi məlumatlar da bu fikri təsdiq edir. X əsrdə İdil Bulqar dövləti ərazisində yaşayan türk tayfalarından biri *barancər* (bələncər) adını daşıyırdı. Əhməd ibn Fədlana *(Əhməd ibn Fədlan ibn əl-Abbas ibn Rəşid əl-Bağdadi; 879-960)* görə, bulqarların arasında yaşayan *barancer* xalqı müsəlman idi: "Bulqarlar arasında 5 min qadın və kişidən ibarət barancer adı ilə tanınan böyük bir ailə gördük. Hamısı müsəlman idi və namaz qılmaq üçün taxtadan bir məscid tikmişdilər. Lakin Quranı oxuya bilmirdilər".

Yuxarıda Vanand bölgəsində bulqarlar ilə bayandurların birlikdə yaşadığını qeyd etdik. İbn Fədlan da İdil Bulqar ölkəsində bayandurların bulqarlarla eyni yerdə yaşadıqlarını qeyd edir. Belə məlum olur ki, bayandurlar ilə bulqarlar çox vaxt birlikdə köç ediblər. Belə ki, ilk bayandur tayfaları da bulqarlarla birlikdə Azərbaycanda yerləşmişdi.

Bayandurlar əsasən Azərbaycan və Şərqi Anadoluda məskunlaşdılar. Ərəb müəlliflərindən Müqəddəsi Xəzər dövlətinin şəhərlərinin adlarını sadalayarkən "B.ğ.nd" (Bayandur/Vuğundur) ilə "Qişuvi"nin eyni yerdə olduğunu göstərir. Bayandur adı mənbələrdə *barandur, balandur, balancar* şəklində qeyd edilir. Bayandurlar Azərbaycan və Şərqi Anadoluda geniş torpaqlara sahib idi. Mənbələrdə onların yaşadığı iki Vanand əyalətindən söz açılır. Bunlardan biri indiki Dağıstan Respublikasının paytaxtı Mahaçqalanın cənubu ilə Azərbaycanın şimalı (Dərbənd)

arasında yerləşirdi. Burada Vanand bölgəsi yaxınlığında Bələncər şəhərindən bəhs edilir ki, bu şəhər Xəzər dövlətinin paytaxtı olmuşdur. İbn əl-Fəqih Bələncəri həm şəxs, həm də xalq adı olaraq təqdim edərək, onların "Balanjar ibn Yafet"dən törədiyini qeyd edir. Bələncərin Dağıstanda Andreyevo yaxınlığındakı Əndərə xarabalıqları olduğu və Sulaq çayının qərbində yerləşdiyi ehtimal edilir. Ərəb tarixçisi Bəlazuri də Bələncər adlı şəhər və çaydan bəhs edir.

Bələncər ilə bayandur adlarının eyniliyini İbn Fədlanın əsərində qeyd olunan məlumat təsdiqləyir. Müəllif bayandurlardan barancer olaraq bəhs edir. Əhməd Zəki Vəlidi Toqanın *(Ahmet Zeki Velidi Togan; 1890-1970)* verdiyi məlumata görə, monqollar arasında da *baranqar* adlı bir bayandur tayfası yaşayırdı.

İkinci böyük bayandur yurdu Qars və Artvin bölgəsini əhatə edən Vanand idi. Movsey Xorenli bayandurların burada bulqarlar ilə birlikdə yaşadığını qeyd edir. Bəzi tarixçilər Xorenlinin əsərindəki "v.n.n.d", "v.n.d.", "b.ğ.nd" adının bayandur olduğunu qeyd ediblər. Şərqi Anadoludakı qədim bayandurlar sonradan xristian dinini qəbul etdilər. Onların Vananddda Səlcuqlu fəthlərinə qədər yaşadıqları məlumdur.

Bayandurların e.ə.II əsrdən etibarən Dağıstanın cənub sərhədləri boyunca Şimali Azərbaycandan Şimal-Şərqi Anadoluya qədər geniş ərazidə məskunlaşdıqları aydın olur. Bayandurların bu ərazidəki həyat tərzi "Kitabi-Dədə Qorqud"da öz əksini tapıb. Bizə görə, "Dədə Qorqud" dastanlarının ilkin versiyası bu dövrdə formalaşıb. Həmin dövr təqribən III-IX əsrləri əhatə edir ki, dastanda bayandurların şaman inancları ilə yanaşı, İslami təsəvvürlərə də sahib olduqları özünü biruzə verir. "Dədə Qorqud" dastanında Bayandur xanın başçılıq etdiyi "Oğuz dövləti" də bayandurların təşkil etdiyi boy ittifaqına işarədir.





## 4.9. HUN DÖVLƏT NİZAMI

Hun dövlət sistemi yarı-kosmik və yarı-dünyəvi bir idari-hüquqi mexanizmə sahibdi. Dövlət *el*, dövləti təşkil edən və tayfaların birliyindən yaranmış xalq isə *gün* adlanırdı. El-gün deyilən bu nizam ilahi bir anlayışla tənzimlənirdi.

Hunlarda dövlətin mənşəyi Tanrı idi. Dövləti türk xalqına Göy Tanrı bağışlamışdı. Göy Tanrı türk xaqanlarını seçməklə onlara dövlət yaratmaq əmrini vermişdi. Bu mənada hökmdarlıq anlayışının əsasında "Tanrı qutu" (bəxş edilən ilahi səadət) dayanırdı. Bəzi tədqiqatçılar hunlarda hökmdarlıq titulu "yabqu" sözünün "tanhu" mənasında "Tanrı qut" sözündən yarandığını iddia edirlər. Qədim Çin mənbələrində bu mənada türkcə "Tenqri ku-tu tan-hu" ifadəsi keçir. Çinlilər bunu "Göyün oğlu" və ya "Tanrının oğlu" şəklində tələffüz ediblər. Halbuki qədim türkcə "kut" – "səadət, xoşbəxtlik, ilahi bəxşiş" mənasına gəldiyindən "Tanrı səadətli yabqu" deməkdir.

Sistemin başında Tanrının yer üzündəki nümayəndəsi hesab olunan *yabqu* (hökmdar) yer alırdı. Onun altında sağ-sol bilgələr deyilən, dövlətin sağ və sol hissələrinə nəzarət edən vəzifəlilər yer alırdı. Tayfalar da bu nizama uyğun olaraq, iki qanaddan birinə tabe idi.

### 4.9.1. El

Hun dövləti 2-lik, 4-lük, 6-lıq, 12-lik və 24-lük sistemlə təşkilatlanmışdı. 2-lik sistemə görə dövlət sağ və sol qanada ayrılırdı. Bunlardan sol, yəni şərq qolunun başında *t'u-ku iliq* (türk iliq) dayanır və bu şəxs yabqunun vəliəhdi hesab edilirdi. Dövlətin sol qolunun başında yabqunun qardaşı və ya oğlu dururdu. Dövlətin sağ, yəni qərb qolunu *lu-li iliq* idarə edirdi. Onlardan sonra *ulu rəis* yer alırdı. Hakimiyyət pilləsinin dördüncü sırasında *ulu tu-yü*, beşinci sırasında isə *ulu tanq-hu* gəlirdi. Onların hamısına *ku-tu-hou* adı verilirdi.

Onlardan sonra da boy bəyləri (tayfa başçıları) gəlirdi. Boylar arasında da üstünlük sırası var idi. Məsələn, 24 hun boyu arasında Alaşan ətrafında məskun olan *hü-çu* ilə *hun-şieh*, şərq sərhədi istiqamətində məskunlaşan *hsi-ju* və *ku-hsi* boylarının bəyləri yuxarı pillədə yer alırdı.

Hun aristokratiyası, əsasən üç qrupa ayrılırdı: *nəsil zadəganları* (*qızıl*), *xidmət zadəganları* (*ağ*) və *boy zadəganları* (*qara*). Müasir tarixçilər Hun aristokratiyasını *hərbi demokratiyaya* oxşadırlar. Bu sistemdə insanlar bərabərhüquqlu olub, hamı öz xidmətinə və bacarığına görə el sistemində yüksəlmək haqqına sahib idi.

Hun dövlətinin əsasını ordu təşkil edirdi. Hunlar döyüşkən millət idi. Hun ailəsinin bütün kişiləri döyüşçü hesab edilirdi. Ümumilikdə Hun ordusunun sayı 300 min hesab edilir. Bir Hun ailəsinin orta hesabla 5 nəfərdən ibarət olduğu nəzərə alınarsa, Hun əhalisinin ümumi sayı 1,5



milyon idi. Çin əhalisi ilə müqayisədə bu rəqəm həddindən artıq kiçikdir. Buna rəğmən, hunlar çox vaxt çinlilərə qalib gəlirdilər. Bunun səbəbi savaşın Hun cəmiyyətinin əsas həyat tərzi olmasında idi. Digər bir səbəb isə Hun ordusunun süvari ordu olması idi. Hun ordusu, əsasən oxlarla silahlanırdı, düşmənlə üz-üzə döyüşə girmədən əvvəl uzaqdan atdıqları oxlarla onları məhv etməyə çalışırdılar. Hun döyüş sisteminin əsas taktikası düşmən ordusunun strukturunu dağıtmaq idi. Hun ordusu 10, 100, 1000, 10000-lik dəstələr halında təşkilatlanırdı. Bu təşkilat sisteminin memarı Motun hesab edilir.

Qədim türklərdə dövlətə *el* (*il*) deyilirdi. El sözü dövləti olan xalqı ifadə edirdi. Elin təməlində iki ünsür dayanırdı: dövlət və xalq.

Böyük Hun dövlətinin hökmdarı *yabqu* titulu daşıyırdı. Yabqular hakim boy olan *tu-ku* (türk) tayfasına mənsub idilər. Hakim tayfanın adı çincə mənbələrdə *tu-ku*, *tu-kü*, *tu-ke*, yəni türk olaraq qeyd edilir. Belə məlum olur ki, türk adı hunlar dövründə dövləti idarə edən hakim tayfanın adı idi.

*El*, yəni *dövlət,* türk hakimiyyət anlayışına görə müqəddəs (*iduk*) idi. Türk inanc sistemində isə "dövləti Tanrı bəxş edir"di. Hun xaqanları "Tanrının yer üzündəki nümayəndəsi" adlanırdı. Attilanın özünü "Tanrının qılıncı", "qırmancı" və "cəzası" adlandırdığı məlumdur.

*El/il* sözü qədim türk dilində "ölkə, imperiya", "iqtidar və hökumət"i ifadə edirdi. Asiya hunlarının öz dövlətlərini "Hun", "Hunok" adlandırdığı bilinsə də, qərbi hunların öz dövlətlərinə hansı adı verdikləri dəqiq bilinmir. Qərb mənbələrində bu dövlət üçün coğrafi mənada "*Skifia*", "İskitiya" (İşquziya), hərbi-siyasi mənada isə "Hun" adı keçir. Macar tarixçi P.Vacziyə *(Váczy Péter; 1904-1994)* görə, Attila "nizamsız və çoxsaylı tayfalara ayrılan insan kütləsindən ibarət bir xalq yaratmışdı. Xalqını təşkilatlandırmaq və varlı, iqtidar sahibi etməklə Attila fəxr edirdi".

Hun dövlət təşkilatı türk boylarının ittifaqı əsasında yaranmışdı. Asiya hunlarında olduğu kimi Avropa hunları da 24 türk boyunun birliyinə əsaslanırdı. Mənbələrdən Avropa Hun xaqanlığını meydana gətirən 24 türk boyunun adını müəyyən etmək mümkün olmuşdur: *alpiçurlar* (alpidzuri/alipsur), *amilsurlar* (amulçur), *alkilçurlar* (alcildzuri), *itimarilər* (itemir/edümer), *tunkarsilər* (tonqra), *tonosurlar*, *boiskilər* (boysak), *akatzirlər*, *sataqarlar*, *sorosquslar* (şaragur), *emençurlar*, *uzindurlar*, *ultinqurlar*, *ulkindurlar*, *bittuqirlar*, *burtuqurlar*, *anqiskirlər*, *bardarlar*, *altziaqirlər*, *semenderlər*, *böktərlər* (bügdür), *sakromontisilər*, *fossatissilər* və *dulolar*.

Ümumiyyətlə, *hun* adı etnik bir ad deyildi. *Hun* sözü geniş mənada *xalq*, *kütlə* (*kün*) və "Günəş" deməkdir. Şübhə yoxdur ki, hun kimliyi türk tayfalarının birliyini ifadə edirdi. Amma onların tərkibində çox sayda monqol, tunquz tayfaları da yer alırdı.

Mənbələrdə Hun xaqanlığının tərkibində adlarının sonunda türkcə çur/sur/qur/qar/dur şəkilçisi yer alan tayfa adları qeyd edilib. Bunlar *sadaqarlar*, *ulçindurlar* və *emənçurlar* olub, türk kökənli idilər. Sadaqarlar Pannoniyada, ulçindurlar ilə emənçurlar Vit, Lom və İskir ətrafında məskunlaşmışdı. Türk olduqları bilinən *amilsurlar*, *itimarlar*, *tonosurlar* və *boiskilər* isə Dunay çayı ətrafında yaşayırdılar. Prisk bunların türk olduğunu təsdiqləyir. Onlar daha əvvəl *(375-ci ildə)* Azov dənizinin şimalında yaşayırdılar. Həmin tayfaların adlarının sonundakı "sur, çur, qur və dur" şəkilçisinin *oqur/oğuz* mənasında olduğunu güman edirik. Bu, hunların böyük hissəsinin *oqur/oğuz* xalqlarından təşkil olunduğunu deməyə əsas verir. Bunu oğuz boylarından dulo, eymür və bügdüz kimi tayfaların Hun ittifaqında yer alması da isbat edir.

Hun xaqanlığının hakimiyyətinin sonlarında Orta Asiyadaki bir sıra oqur/oğuz tayfaları 466-cı ildə qərb istiqamətində köç edərək İdil çayı ilə Şimali Qaradəniz və Qafqaz bölgəsində məskunlaşdılar. Bu tayfaların adlarının



sonunda bir qayda olaraq *oqur/qur* və *ir/ar* adı yer alır. Bunlar *onoqur*, *oqur* (oğur/oğuz), *sabir*, *bulqar*, *sarıoqur* (şaraqur), *abar*, *kasar*, *idirmar*, *boğursaq*, sonrakı dövrdə isə *uluqundurlar*, *kutiqurlar*, *nndr* (vanandur?), *olxonturlar*, *bitiqurlar* və digər tayfalar olmuşlar.

Elin əsas rəmzi bayraq idi. Hunların ilk bayrağında ağ ipək və ya qumaş (parça) üzərində qurd başı təsvir olunurdu. Daha sonra qızılı parça üzərində əjdaha təsviri olan bayraqlar daşımışlar. Avropa hunlarının bayrağı ağ parça üzərində başında hökmdarlıq tacı olan qartal şəklində idi. Qara hunlar caynaqlarında qoyun tutmuş qartal təsviri olan bayrağa sahibdilər. Ümumiyyətlə, hunların ağ və qızılı rənglərə üstünlük verdikləri məlumdur.

### 4.9.2. Yabqu

Avropa Hun xaqanlığının, abar və sabirlərin başında dayanan hökmdar *xaqan* adlanırdı. Latın və Bizans mənbələri Hun hökmdarlarından "*kral*", "*böyük kral*" olaraq bəhs edirlər. Yenə eyni mənbələrdə dövlətin bir hissəsini xaqan adına idarə edən hökmdar üçün də "kiçik kral" adı işlədilir.

Xaqan sözü çincə *k'o-han//k'a-q'an*, soğdca *q'q'n*, yunanca *cacanus*, latınca *chacanus*, moğolca *kaan* və qədim türk dilində *kaqan//kağan* şəklində qeyd edilib.

Xaqan titulunun ilk dəfə hunlar tərəfindən işlədildiyi e.ə.I əsrə aid çincə mətnlərdə qeyd edilir. Lakin bu adı hökmdar titulu mənasında siyenbilər istifadə ediblər. Siyenbilərdən sonra Abar (ju-juan) hökmdarları, daha sonra da Göytürk hökmdarları bu titulu qəbul ediblər.

Böyük Hun dövləti Yüeçi, Quşan hökmdarlarının isə hökmdarlıq titulu "yabqu" idi. Çin mənbələrində "tanhu" şəklində də keçən bu adı çinlilər "göy kimi geniş, sonsuz" mənasında izah edirlər. Çincə mənbələrdə bu

ad "şan-yü" olaraq da qeyd edilib. Bu titul VI əsrə qədər istifadə edilmişdir. Göytürklər və sonrakı dövrlərdə isə "yabqu" sözü üçüncü dərəcəli məmurlara verilən titul olmuşdur. Buna baxmayaraq, oğuzlar X əsrə qədər öz hökmdarlarına yabqu deyiblər.

Hun xaqanları özlərindən sonra taxta çıxacaq vəliəhdlərini təyin etmək haqqına sahib idilər. Vəliəhd olan şəxs xaqanın yanında yer alırdı. Hun hökmdarlarının hakimiyyəti mütləq deyildi. Hökmdar mühüm qərarları divanda qəbul etdirmək məcburiyyətində idi. Hökmdar arvadlarının da yabqu üzərində böyük təsiri vardı.

Hun hökmdarlarının görkəmli çadırları ilə birlikdə sarayları da vardı. Bizanslı müəllif Attilanın sarayından danışarkən xaqanın bir çox yerlərdə sarayının olduğunu qeyd edir. Bu məlumat Hun hökmdarlarının çadırla birlikdə saraylarda da yaşadıqlarını, ancaq saray həyatının hunlarda çox rəğbət görmədiyini deməyə əsas verir.

Xaqandan sonra Hun iyerarxiyasında ikinci sırada "*kiçik xaqan*", yəni *eliq/iliq* tituluna sahib olanlar yer alırdı. İliq/eliq sözü türkcə olub, "*el/il*" sözündən yaranmışdır.

Qədim türklərdə "eliq/iliq" siyasi-hərbi titul idi. Asiya hunlarında bu titulun mövcud olduğu məlumdur. Orxon kitabələrində "əriq" şəklində qeyd edilən bu titulun "*qüdrətli*" mənasına gəldiyi bildirilir.

Hun dövlətində "vəzirlik" məqamının da olduğu bilinir. Bu barədə çox az məlumatın olmasına baxmayaraq, Attila dövründə onun yanında davamlı yer alan Onegesiusun Hun dövlətinin vəziri olduğu ehtimal edilir. Prisk də dövlət işlərinin həllində Onegesiusun böyük rol oynadığını, hətta romalılara elçi olaraq göndərildiyini qeyd edir.

İliq və vəzirlərin xaqan çadırının və sarayının yanında müstəqil çadırları və sarayları yer alırdı. Attila dövründə dövlətin ən yüksək rütbəli adamları xaqanın sağında əyləşirdi. Halbuki Attiladan əvvəl, hətta Asiya hunlarında sol tərəf daha üstün hesab edilirdi. Bu, Attila dövründə sağ,



yəni dövlətin Avropa hissəsinin xaqanlıq üçün daha əhəmiyyətli hesab edilməsindən irəli gəlirdi.

### 4.9.3. Xatun

Qədim türklərdə hökmdarın birinci və əsl qandan gələn arvadı "*katun*" (xatun) adlanırdı. Asiya hunlarında buna *yençi* (yengə) deyilirdi. Bu ad yalnız hökmdar qadınlarına verilirdi. Hökmdarın arvadı mənasında "katun" adı ilk dəfə Asiya Avar xaqanlığında işlədilib.

Hun sarayında türk qadınları əcnəbi qadınlardan üstün hesab ediliblər. Taxta çıxan hökmdarın türk qadından anadan olması əsas sayılırdı. Yençi qəbul edilən "birinci xanım" hər zaman türk əsilli idi. Hökmdarın arvadı olsa belə, əcnəbi olan qadınlar ikinci dərəcəli hesab olunurdular. Çünki qədim türklərdə hökmdar qanının qarışması qadağan edilmişdi. Elə bu səbəbdən hökmdarın əcnəbi əsilli olan qadınları "*konçüy*" adlanırdı. Çinlilər uzun müddət türklərin əcnəbi qadından doğulan hökmdar uşaqlarının da vəliəhd elan olunmasına çalışıblar. Çünki türk hökmdarların arvadı olan çinli qadınların Hun dövlətində rol oynamalarını və bu yolla türk dövlətlərinə təsir etmək imkanına sahib olmaq istəyirdilər. Bu məqsədlə Çin-Hun münasibətləri tarixində *hoçin* adı verilən xüsusi müqavilələr imzalanmışdı. Çincə "*ho*" – sülh, "*çin*" (ç`in) isə qohumluq mənasına gəlirdi. İlk belə müqavilə Xan sülaləsi ilə Böyük Hun yabquları arasında imzalanmışdı. Evliliklər yolu ilə hunlara təsir etmək fikri ilk dəfə çinli Liu Çunq (İmperator Kao-ti dövründə saray katibi) tərəfindən ortaya atılıb. İmperator Böyük Hun yabqusu Motuna qiymətli hədiyyələr və çinli bir əsilzadə qadın göndərmişdi. Hunların güclü olduqları dövrlərdə çinlilər onlara birinci dərəcəli əsilzadə sinfindən olan qızları gəlin olaraq göndərirdilər, amma hunlar zəifləyincə ikinci sinif məmurların qızlarını gəlin göndərməyə başladılar.

Qadınlar türk tarixində həm cəmiyyət daxilində, həm də sosial-siyasi sahədə geniş statusa sahib idi. Türk, o cümlədən Hun cəmiyyətlərində qadınları hər sahədə aktiv olaraq görmək mümkündür.

Roma müəllifi Priskin əsərində "gözəl və sərbəst skif (hun) qızları" ilə birlikdə, xüsusilə iki hökmdar qadınından bəhs edilir. Bunlar Bledanın dul qalan arvadı ilə Attilanın birinci xanımı Kreka idi.

Bu qadınların dövlət işlərinə təsirləri böyük olub. Məsələn, hər hansı bir elçilik heyətinin ölmüş hökmdarın dul arvadı və ya hazırkı hökmdarın arvadı tərəfindən qəbul edilməsi Roma və Bizansda mübahisəli olduğu halda, Hun cəmiyyətində belə dəvətlər normal qəbul edilirdi.

Hökmdar qadınları ilə birlikdə digər dövlət məmurlarının xanımları rəsmi mərasimlərdə və xaqanların qarşılanmasında iştirak edirdilər. Hökmdar xanımları öz saraylarında gələn elçilərin şərəfinə qonaqlıqlar təşkil edirdilər.

### 4.9.4. Kəngəş

Qədim türklərdə xalq məclisi *kəngəş* (*kenğeş*), divan isə *toy* adlanırdı. Çin mənbələrinə görə, Motun dövründə hunlar ildə üç böyük yığıncaq keçirirdi. Bu yığıncaqlardan birincisi dini mahiyyət daşıyıb, ilin ilk ayında (martda) Hun hökmdarının (yabqusunun) iştirakı ilə təşkil olunurdu. İkinci yığıncaq ilin beşinci ayına (iyuna) düşürdü. Üçüncü yığıncaq isə payız aylarında gerçəkləşirdi ki, bu vaxt əhalinin və heyvanların sayı müəyyən edilirdi.

Bu yığıncaqlardan ən mühümü ikincisi hesab edilirdi. Burada Tanrıya qurbanlar kəsilir, hunların əcdadları yad edilir və dövlət əhəmiyyətli məsələlər müzakirə edilirdi. Bu yığıncaq *"dövlət məclisi" (divan)* adlanırdı.

Eyni məclisin Avropa hunlarında da mövcud olduğu haqqında mənbələrdə bəzi məlumatlara rast gəlinir. Prisk



hunlarda *"əsilzadələr məclisi"*ndən bəhs edir. O, bunu *logades* adlandırır. Ehtimal ki, bu, qədim türklərin *toy* adı verdikləri, siyasi və hərbi məsələlərin müzakirə edildiyi divan idi. Bununla birlikdə, Avropa hunlarında xalq divanları (kəngəş) da vardı.

Dövlət divanlarında (*toy*) ordu başçılarının, dövlət idarəçilərinin və katiblərin iştirak etdikləri qeyd olunur. Mənbələr hökmdarların təkbaşına qərar qəbul etmədiyini, öz ətrafındakı sərkərdələr və digər dövlət adamları ilə məsləhətləşdiyini qeyd edirlər.

### 4.9.5. Din

Türklərin ilk dini *tenqriçilik* hesab olunur. Sonrakı dövrlərdə bu din şaman ünsürlərlə qarışmış və eyniləşmişdi. Qədim türk dilində *kam*, orta əsrlərdə *baxşı*, *baxıcı* deməkdir. Kəlmə *kam* və şaman olaraq bütün türk ləhcələrində yer alır. Tunquz-mancularda şaman/şan-man olaraq işlədilən bu kəlməni qədim türklər hər zaman *kam* olaraq ifadə etmişlər. Saxa türkləri (yakutlar) *oyun*, orta əsr qırğız, qazax, türkmən və özbək türkləri *baksi/bakşi/baxşı*, Azərbaycan türkləri isə *baxıcı* deyir. Monqolcada *böge/bögü* olaraq keçən kəlmənin mənşəyində türkcə *bögü* kəlməsi yer alır. Ser Cerard Klauson *(Sir Gerard Leslie Makins Clauson; 1891-1974)* türkcə *bögü* sözünün "bilgin, alim, falçı" kimi mənalara gəldiyini qeyd edir. Böyük şaman, baş şaman üçün işlədilən "*bəki*" sözünün də türkcə "bəg/bəy" sözündən törədiyi məlumdur.

Tenqriçiliyi şamanizmdən fərqləndirən əsas cəhət təktanrılı inanc sistemində formalaşmış fövqəltəbii ilahi güclərin varlığına əsaslanan köklü mistisizm idi. Tenqriçiliklə şamanizmin eyniləşməyə başlaması haqda məlumatlar işquzlar dövrünə aiddir. Qədim yunan mənbələrində işquzların kəhanət anlayışından, xəstə hökmdarın yanında

yer alan ruh çağıranlardan, gələcək haqqında məlumat verənlərdən, qadınlığı və hamiləliyi təqlid edənlərdən bəhs edilir və bunlar Pazırıq kurqanında tapılan arxeoloji materiallarla da təsdiqlənir.

Şaman və ya *kam* inanc sistemində dünya göy, yer və yeraltı olmaqla üç qata ayrılır. Altay şamanizminə görə, işıqlı dünya olan "yuxarıdakı dünya"da Ülgən və ona tabe pak ruhlar yaşayırlar. Orta dünyada insan qərar tutub. Yer altındakı dünya başda Ərlik olmaqla şər ruhların məskənidir. Bu anlayış türk kitabələrində də öz əksini tapmışdır: "*Yuxarıda mavi göy, aşağıda qara yer yaradıldıqda, ikisinin arasında insan yaradılmışdı*" deyilir.

Tenqriçilikdə yaradılış bir olan Tanrının adıyla bağlıdır. Tanrı kəlməsi "*göy*", "*yaradıcı güc*", "*qüdrət sahibi*" mənasında qədim türk dilində *tenqri* (çenq-li//tenq-nin-li) şəklində keçir. Çin mənbələrində qeyd edilən hun dilində ən qədim söz "*t'eng-li=tänqri*" kəlməsidir. Göytürklərdə bu kəlmə "*Kök Tenqri*" (Göy Tanrı) şəklində işlədilib.

Tenqriçilikdə Tanrı yaradıcı gücdür və hər şeyin mənbəyi ondadır. Xalqı, dövləti, hökmdarı O təyin edir və O səadətə çatdırır. Türk kitabələrində bu, açıq şəkildə ifadə edilir. Xalqı (*kün*) və eli (dövlət) bəxş edən Tanrıdır. Xaqanı taxta çıxaran da Odur.

Türklər "Tanrı"nı bəzən "*Türük Tanrı*" (Türklərin Tanrısı) adlandırsalar da, Tanrının bütün insanlar üçün eyni olduğuna inanırdılar. Tanrı bütün varlıqlardan üstün hesab edilirdi. İnsanlar onun bəxş etdiyi elm sayəsində yüksəlirdi. Bu, bilik rəmzi olaraq Tonyukukun tacında ilahi bir damğa kimi ikibaşlı qartal şəklində yer alırdı. Türklərdə Tanrı "bir döyüşçü sifəti" ilə ifadə edilmədiyi kimi, aparılan döyüşlər də onun üçün deyil, "insanların səadəti üçün" aparılmışdır.

Türk inanc sistemində Tanrı hər zaman "göy"lə birlikdə təsəvvür edilmişdir. Bəzən də Tanrı sadəcə "göy"lə ifadə olunmuşdu. Göy üzə, yəni "yüksəkdir", *küç* və *küçlüq* (güc



və qüdrət) sahibidir. O, "*mengü tenqri*"dir (sonsuz, əbədi Tanrıdır). Tanrının qüdrəti hər şeydən əvvəl onun səmavi gücündə və yaratdıqlarında görünür. Günəş, Ay və ulduzlar bu mənada türk inanc sistemində Tanrı qüdrətinin ən bariz nümunəsidir. Göylər aləmində Günəş və Ay əsas rolu oynayır. Türkcə "günəş" – *kün/gün* (monqolca *naran*) olaraq ifadə edilir ki, bu söz türklərdə xalq və dövlət mənasında "Hun"la eyni mənada işlədilib. Ay isə qədim türkcədə də *ay* (monqolca *sara*) adlanırdı. Şamanist inancında isə "göy, günəş və ay" ilahi bir kult təşkil edirdi.

Türk xalqlarının inancında Günəş *dişi*, Ay *erkək* (kişi) olaraq təsvir edilirdi. Şamanın göyə çıxması zamanında 6-cı qatı keçərkən Aya "*ay aba*" deyərək onu salamladığı bildirilir. Günün və Ayın batışı "*kün batdı*", "*ay batdı*" olaraq ifadə edilir, onların doğması isə "*kün tokdı*", "*ay tokdı*" adlandırılırdı. Türklər, xüsusilə də şamanlar və Hun hökmdarları hər sabah və axşam Ayın və Günəşin doğuşunu və batışını təzim edərək salamlayırdılar. Türklərdə çox nadir hallarda Tanrıya "xan" adı verilmişdi. Bu mənada Tanrıya *Qayırxan* (yaradıcı xaqan) da deyilirdi. Bu şamanizmin təsiriylə ortaya çıxmışdır.

Türk inanc sistemində göy bir çadır (qübbə, günbəz) formasında təsəvvür edilirdi. Hun xaqanlarının çadırda oturması (şəhərdə yaşasalar belə) inanclarındakı bu təsəvvürdən irəli gəlirdi. Lakin bəzən göyün bir-birinin üstündə 7 və ya 9 qatdan meydana gəldiyinə inanırdılar. Belə olan halda ulduzlar göyün işığını əks etdirən deşiklər hesab edilirdi.

Tanrıçılıq inancına görə, göyün altında *yir/yer* qərar tutmuşdu. Türk kitabələrində yer və göy, eyni zamanda Tanrı tərəfindən yaradılmışdı. Göy göy rəngdə təsəvvür edilərdi. Yerin rəngi qara, tünd və yağızdır. Göyün tərifi üzə (yüksəldilmiş) olduğu halda, yerin tərifi *asra* (aşağı) hesab olunurdu. Həyat *yir-sub* (yer-su) ətrafında cərəyan edirdi.

Yer-su dünyanı bütövlükdə təmsil edirdi. Onlar *iduk* (müqəddəs) hesab olunurdu. Minusinsk kitabəsində "sub olmadan yir, yir olmadan sub"un təsəvvür edilməyəcəyi bildirilir. Yer-su təsiredici güclər hesab edilir. Yer-su kultu türklərdə *vətən* anlayışının da əsasını təşkil edirdi.

Qədim türk sosial, siyasi və mədəni həyatı birbaşa dini, mistik, xüsusilə də tenqriçiliyin təsiri altında formalaşmışdı. Türk inanc sistemində göy ilə yer arasında davamlı əlaqə var. Bu əlaqəni hər şeydən əvvəl göyün yerdəki təzahüründə görürük. Türkcədə *tenqriteq* sözü bu mənada diqqət çəkir. Qədim türkcədə *teq* (tək) "dəymək, çatmaq" feilindən yaranıb. Tenqriteq – "göyə çatan", "göy kimi" mistik bir məna kəsb edir. Qurban mərasimlərinin əsas məqsədi də "göyə çatmaq, Tanrıya varmaq" idi. Hökmdarın taxta çıxma günündə təşkil edilən mərasim də (keçə və ya xalça üzərinə əyləşdirilən yeni hökmdarın dəfələrlə yuxarıya qaldırılıb, yerə qoyulması) bu məqsədə xidmət edirdi. Yerdəki bütün varlıqlar da göyə çatmaq məqsədilə yaradılmışdır. Quşların səmada uçması, dağların başının göylərə ucalması, ağacların göyə doğru istiqamətlənməsi, heyvanların başını yuxarıya qaldıraraq səs çıxarması və s. "Tanrıya çatmaq" və onu ululamaq kimi qiymətləndirilir.

Əşyalar da ilahi məqsədə qulluq edirdi. Ox və yay ilahi missiyanın bir parçası idi. Ox ağacdan düzəldilirdi. Yəni hazırlandığı maddə etibarilə ilahi dəyər ifadə edirdi. Mirça Eliadeyə *(Mircea Eliade; 1907-1986)* görə, "*yay və oxlar kosmosun bir simvolu olması səbəbilə şamanın kainat səyahətində ən mühüm əşyalar hesab edilirdi*". Samoyedlər şamanın bir ox kimi göyə atılmasından bəhs edirdilər. Oğuz xaqan oğlanlarına "sizlər oxlarınızı göyə doğru atacaqsınız" deyirdi. Beləliklə, türklərdə hər bir hərəkət və davranış əslində Tanrıya çatmaq üçün atılmış addım idi.

Dövlət rəmzi hesab edilən bayraq da elin (dövlətin) göyə yüksəlməsinə işarədir. Bayraq sözü türkcədir. Qədim türk dilində *badhrak* və *batrak* olaraq qeyd edilir. Bayrağın



müxtəlif növləri vardı. Qədim işquzlardan etibarən türklər döyüşlərdə *beçkəm* (oğuzlarda *perçəm* deyilirdi) daşıyırdılar. Roma və Bizans mənbələri dalğalanan Hun bayraqlarından bəhs edirlər. Bayraq yüksək yerə sancılır və sancılan yer göyə ən yaxın yer hesab edilirdi. Bayraqların ətrafında şamanlar "göyə çıxma mərasimi" təşkil edirdi. Hər tuğun yanında şaman dualar oxuyurdu.

Od, yəni atəş müqəddəsdi. Çünki o, göydən gəlir və yenə göyə qayıdır. Türk çadırlarında və evlərində atəşin çıxdığı yer evin ən yüksək nöqtəsi idi. Bir şaman duasında oda "sən ki, 99 tenqriyə qədər çatan işığını yayırsan. Sən ki, buludları keçirsən" deyilirdi. Bayramlarda, taxt mərasimlərində, şənliklərdə od qalanması göyü xəbərdar etmək məqsədi daşıyırdı.

Yerlə göy arasındakı əlaqələr silsiləsində türklər iki əsas mistik gücə böyük qiymət verirdi – *kainat ağacı* və *dağ*. Çünki bunlar Tanrının yerdəki simvoludur. Mahmud Kaşğarlı şamanist türkləri nəzərdə tutaraq "Tanrının adını ağac kimi gözə böyük görünən hər şeyə verirlər" deyirdi. Qalın meşələr, hündür ağaclar, ovalıqda, çay ətrafında bitmiş tək və qoşa ağaclar bu mənada müqəddəs idi. Türklər meşəyə və ya ağaclıq sahəyə *koru* deyirdi. Bu kəlmə "korumak" (*qorumaq*) feilindən yaranıb, müqəddəs məna ifadə edirdi. Hun xaqanlarının paytaxtı ətrafı meşə olan düzənlik ərazidə yerləşirdi.

Dağ, əsasən şamanist türklərdə "Tanrının iqamətgahı" olaraq qəbul edilir. Türklərin müqəddəs saydıqları dağlar vardı. Çinlilərin "*Tien-şan*" adını verdikləri dağa türklər "*Tanrı dağı*" deyirdi. Bu mənada, türklərdə dağlara *kökmən* adının verildiyi məlumdur. *Kökmən* sözü "*göy*"dən yaranmışdır. Bunun kimi *Qaz dağı*, *Qazılıq dağı*, *Burkan Kaldun* kimi müqəddəs hesab edilən dağlar türk inancında əhəmiyyətli yer tuturdu.

Qədim türkcədə "kainat" *evrən* demək olub, "əjdaha" (*ilan*, *bükə*) mənasına gəlir. *Evrən* qədim türk dilində *evir* –

"dönən" (çevrilən) deməkdir. *"Qutadqu-bilik"*də "Bax, O, əjdahanı yaratdı və dayanmadan dönür" deyilir. Türklərdə "*tamğa*" (damğa, nişan) da mistik təfəkkürün təzahürü hesab edilir. Qədim türklərə aid qayaüstü rəsmlərdə bu damğalar təsvir edilmişdir. Türklərdə hər heyvanın, tayfanın, dövlətin, hökmdarın bir damğası vardı. Əslində, türk inancında hər varlıq Tanrının bir işarəsi, damğası hesab edilirdi. Şamanizmdə dağlar, çaylar, dənizlər, ağaclar ilahi bir damğa idi.

Ruh – canlı varlığın əsasıdır. Türk inanc sistemində ruh insanın "özü" hesab edilir və onun "öz konuk" (səmimi qonaq) olduğuna inanılırdı. Bu da ruhun bədəndə müvəqqəti olduğunu göstərirdi. Türkcədə ruha *tin*, monqolcada isə *amin* deyilir. Mahmud Kaşğarlı divanında *tin* – "ruh, nəfəs, qəlb" olaraq izah edilir. Tin bütün canlı aləmin əsasıdır. Türk inanc sistemində ruh həm "səmimi qonaq", həm də "qorxulan bir güc"dür. Şamanizmdə "yaxşı" və "pis" ruhlardan bəhs edilir.

Ruh bədəndə qan, saç, baş, qəlb və s. şəklində təmsil olunur. Türklərdə qanın müqəddəs hesab edilməsi hökmdarın, hökmdar ailəsinə mənsub olanların, böyük və hörmətli şəxslərin və qurbanların qanının axıdılmasının günah sayılmasına səbəb olmuşdur. Qanın axıdılmasının qadağan edilməsində məqsəd pis ruhların və şər güclərin qanı axıdılan insan və qurbanların ruhunu ələ keçirməsinin qarşısını almaqdı. Qanın torpağa axması və torpağa hopması yer altında olduğuna inanılan pis qüvvələrin güclənməsinə səbəb ola bilərdi. Buna görə də türklərdə şərəfli ölüm boğulmaq və ya bel sümüyünün sındırılaraq öldürülməsi hesab edilirdi. Pazırıq kurqanlarında zəhərlənərək öldürülmüş qurbanların skeletləri aşkar edilib. Herodot işquzların heyvanları boğaraq qurban etdiklərindən bəhs edirdi. Bütün bunlar qədim dövrlərdə türklərdə böyük şəxsiyyətlərin və qurbanların qanlarının axıdılmasının qadağan edildiyini və bunun dini bir əsasının olduğunu göstərir.



Şamanizmdə şamanların başlıca dini vəzifəsi insanları, xalqı və dövləti pis ruhlardan və şər güclərdən qorumaqdır. Türklərdə belə ruhlar arasında *yör*, *ciddür*, *albız/albim*, *hortlak*, *abaçi/abasi*, *yek*, *elkin* və ya *yelkin* ruhlardan bəhs edilir. Hər boyun bir toteminin olması pis ruhlardan və şər güclərdən qorunmaq üçün türklərin bir yaxşı ruhu özlərinə dayaq seçməsindən irəli gəlirdi.

Şamanizmdə xeyirxah ruhlara misal *Umay* idi. "Umay Ana" (sonradan divan ədəbiyyatına *Humay* olaraq girmişdir) adlanan bu ruh əslində bir növ ilahədir. Türk inanc sisteminin sonrakı dövrlərində Umay, "yer və su" tanrıları ilə birlikdə qeyd edilir. Bir növ məhsuldarlıq, doğurqanlıq, bərəkət kimi ifadə edilən Umay, yaxşı gücləri təmsil edir və qadın obrazında bir ilahə şəklində təsvir edilir.

Yaradılış sırasında müqəddəs məkan və müqəddəs heyvan anlayışı böyük rol oynayırdı. Müqəddəs heyvan türklərdə maral, qurd və s. qəbul edilir. Şamanizmdə həyat anlayışı əbədi deyil. Varlıq həyatı ölümlə nöqtələnirdi. Amma ölüm həyatın tamamilə bitməsi mənasına gəlmirdi. Ölümdən sonra varlıqları başqa bir həyat gözləyirdi. Ölən canlının ruhunun bu həyatla yaxın əlaqələrə sahib olduğuna inanılırdı.

Qədim türkcədə ölüm üçün "*kərgək*" ifadəsi işlədilir. Kərgək – gərəkli olan, gərək mənasındadır. Bundan başqa, ölümə "*bol-bolmak*" (tapmaq), "*bökmək*" (həzz almamaq), "*adirilmaq*" (ayrılmaq), "öltmək" (ölmək), "*kəlmə*" (gəlmə – geri qayıtmamaq), "*uçmaq*" (uçub getmək) və "*yok bol*" (heç olmaq) da deyilirdi. Ölən insan dünyadakı həyatdan ayrılırdı. Onun ruhu müqəddəs dağa və ya göyə yüksəlirdi. Attilanın ölümü haqqında hunlar "heç bir ağrı hiss etmədən öldün" deyərək ağı söyləyirdi. Hunlarda insanın necə ölməsi böyük məna kəsb edirdi. Döyüşdə ölmək şərəf, qocalaraq ölmək isə arzuolunmaz ölüm idi. Ölümlərin ən pisi isə xəstəlik nəticəsində ölümdü.

Vəfat edən şəxs son mənzilə təntənəli mərasimlə yola salınırdı. Çin mənbələrində hunların dəfn mərasimindən

söz edilərkən belə deyilirdi: "Ölünü dəfn edərkən iç və kənar tabutlardan istifadə edirlər. İçinə qızıl, gümüş və paltarlar qoyurlar. Lakin qəbrin üstünə torpaq yığıb təpə düzəltmirlər, ağac əkmirlər və matəm libası geyinmirlər. Hökmdar vəfat edəndə yaxın və sevdiyi xidmətçiləri ilə cariyələri onunla birlikdə dəfn edilirdi. Bunların sayı bəzən on nəfərdən 100 nəfərə qədər çıxırdı".

Dəfn etmək üçün *köm* sözü işlədilir. Lakin bu sözün "gömülmək" (basdırılmaq), yoxsa *"kül/küli"* sözündən "yandırılmaq" mənasına gəldiyi aydın deyildir. Amma basdırmaq və ya yandırmaq yeganə dəfn mərasimi deyildi. Ərəb müəllifi Məhəmməd Sadiq Mərvəzi *(XIX əsr)* ağaca asılmış tabutlardan söz açır: "Öləni ağacdan asılmış tabutda çürümək üçün qoyur, əti çürüdükdən sonra sümüklərini yığıb yandırırdılar".

Ölümün "*bunq*" (əndişə, qayğı) və "*essiz*" (fəlakət) hesab edildiyi hallar da olurdu. Ölən bir igiddirsə ailəsi və obası, bəydirsə boyu, hökmdardırsa el içində ağır matəm havası yaradırdı. Ölənin yaxınlarının fəryadı vahiməli hal alırdı – üzlərini parçalayır, saçlarını yolurdular. İordan *(Jordanes; VI əsr)*, Attila öləndə "kişilər adətə görə saçlarını kəsdilər, üzlərini insanda qorxu yaradacaq şəkildə yaraladılar" deyə xəbər vermişdir. Hökmdarlar üçün ağlaşma mərasimi keçirilirdi. İordan, Attila üçün "ozanların (aşıqların) və döyüşçülərin hun dilində ağı dediklərini" yazır. Göytürklərdə bu cür mərasimləri xüsusi məmurlar icra edirdi. Bunlara *siqilci* (*siqla* - hönkürərək ağlayan, mərsiyəxan) deyilirdi.

Ölünün dəfni xüsusi şəkildə icra edilirdi. Herodot işquzlarda ölənin "qulağının bir ucunun kəsildiyini" yazır. İordan, Attilanın "saçının bir parçasının, qulağının da birinin kəsildiyini" qeyd edir. Noin-Ulada tapılan hun qəbirlərində bir ipək parçaya sarılmış 17 saç hörüyü aşkara çıxarılıb. Pazırıq kurqanında da eyni ənənəyə rast gəlinib. Hətta Pazırıqda bəzi ölülərin saqqalının kəsildiyi aşkar edilib.



Torpağa basdırılan hökmdarın qəbrinin yerinin bilinməməsi şərt idi. Çünki qəbrin hər hansı məqsədlə açılması pis əlamət sayılır, ölənin ruhunun şər güclər tərəfindən oğurlandığına inanılırdı.

Ölünü qəbrə öz əşyaları ilə birlikdə qoyurdular. Ölünün başqa dünyada onlara ehtiyacı olduğuna inanılırdı. Qoyulan əşyaların çoxu sındırılırdı. Çünki bu dünyada olan şeylər o biri dünyada əks forma alırdı. Yəni sınmış əşyalar digər tərəfdə düzgün şəkil alırdı. Qəbrə ölənin atı, yayı, oxu, ox qabı (*sadak*) qoyulurdu. Ölən qadındırsa, ona aid əşyalar basdırılırdı.

Dini mərasimlərdə ozanlar (baxşı/aşıq) böyük rol oynayırdı. İordan, bunların hun dilində ağılar söylədiyini qeyd edir.

## 4.9.6. Dil və ədəbiyyat

Hunların türk dilində danışdıqları fikri türkoloqlardan Abel-Remusat *(Jean-Pierre Abel-Rémusat; 1788-1832)*, Klapros *(Julius Heinrich Klaproth; 1783-1835)*, Semenov *(Александр Александрович Семенов; 1873-1958)*, Ritter *(Carl Ritter; 1779-1859)*, Koskinen *(Yrjö Sakari Yrjö-Koskinen; 1830-1903)*, K.Şiratori *(Shiratori Kurakichi; 1865-1942)*, O.Pristak *(Омелян Йосипович Пріцак; 1919-2006)*, V.Samolin *(William Samolin; 1911-1992)*, Althaym, S.Klauson və T. Tekin *(Mehmet Talât Tekin; 1927-2015)* tərəfindən müdafiə edilmişdir. Türkoloq E.G.Pulleyblank *(Edwin George Pulleyblank; 1922-2013)* qədim Çin mətnlərində 190 ədəd hun dilində kəlmə təsbit edib. Mançen-Helfen *(Otto John Maenchen-Helfen; 1894-1969)* Çin mənbələrində yüzlərlə hunca kəlmədən bəhs edir.

1984-cü ildə çinli filoloqlar Liu Zhenqyan, Qao Minqkai, Mai Yongqian, Şi Youvei tərəfindən Çin dilində yer alan, ancaq çincə olmayan sözlərin lüğətini hazırladılar. Onlar tarix

boyunca və müxtəlif tərzlərdə çincədə işlədilən 10 mindən çox çincə olmayan kəlmə müəyyənləşdiriblər. Müxtəlif oxunuş tərzləri nəzərə alınmazsa, Hun dövründən çincəyə keçmiş 28 kəlmə təsbit edilib. Bunlardan 14-nün orijinal hunca yazılışları da göstərilmişdir. Həmin kəlmələrin 8-i təmiz türkcə olub, etimoloji olaraq da türkcə təhlil edilir: çenqli=tenqri (tanrı), ku-tu=kut/qut, çanyü-şanyü=yabqu, kinq-lu=kinqlak-kınqırak, yen-çi=yemçi-ebçi (yengə, hökmdarın xanımı), teu-lo=toplu\tuplu (qəbir, məzar), tieh-fah=-teber-temir-dəmir, eu-ta\outa=ordu\ordo.

Macar türkoloq Q.Nemetin araşdırmalarından sonra Avropa hunlarının ana dilinin türkcə olduğu haqqında şübhələr ortadan qalxmışdır. Müəllif hun dilinin söz xəzinəsini müəyyənləşdirməyə çalışmışdır. Hun leksikonunda yer alan kəlmələr xüsusi və ümumi isimlər, etnonimlər, hidronimlər, oykonimlər, şəxs adları və titullar olaraq bir neçə növə ayrılır. Q.Nemet həmin sözlərin böyük əksəriyyətinin türkcə olduğunu izah etmişdi.

Hunlar zəngin ədəbiyyata sahib olublar. Mənbələrdə hun *savları* (atalar sözləri), *kögləri* (mahnı), dastanları, şeirləri, *qoşuqları* (qəhrəmanlıq şeirləri), *saquları* (mərsiyələri) haqqında məlumat verilir.

Türk şeiri heca vəznində, yeddilik, səkkizlik, on ikilik ölçülərə uyğun yazılırdı. Qədim türklər mahnıya *kög* deyirdilər. Bu söz daha çox ilahi mahnıları ifadə edir, dua, mədhiyyə və tərif üslubunda qələmə alınırdı. Türkcə manixeist mətnlərində *alqış* (dua), ögdir (tərif, övgü, mədhiyyə), *aqis basık* və *kög ögdir* kimi mahnılardan bəhs edilir.

Çin mənbələri hunların *yuğ* (cənazə) mərasimi zamanı oxunan saqularından bəhs edirlər. Bu saqular xüsusi saqçular adlanan insanlar tərəfindən söylənir və qulaq asanları heyrətə gətirirdi. İslam dövründə müsəlmanlar arasında cənazə və məhərrəmlik mərasimləri zamanı oxunan mərsiyələr qədim türk saqu ənənəsinin təsiri ilə formalaşmışdır. Qəhrəmanlıq və toy mərasimlərində isə



*qoşuqlar* oxunurdu. Hunlara aid şeir nümunələri arasında sadəcə bir beyt günümüzə qədər gəlib:

"*Suq iti tılıkanq, buqukqı tuktanq*" = Ordunu hazırlayın, Buquku tutun!

Amma Çin mənbələrində hunlara aid çox sayda şeir tərcümələri var. Bu dövrdə hunlar arasında ən çox yayılmış dastanlar isə "Su" (Şu) və "Qurd" (Qurddan yaranma) dastanları olmuşdur.

Tarixçilər uzun illər hunların öz yazılarının olub-olmadığı sualını araşdırıblar. Bu günə qədər hunlara aid hər hansı bir yazı nümunəsi gəlib çatmayıb. Amma hunların öz yazıları olduğu haqqında kifayət qədər məlumat var. Hun dövlətləri arasında sadəcə Ağ Hunların yazıdan istifadə etmələri tapılan nümunələrlə təsdiqlənib. Bizanslı müəllif Prisk, Hun katiblərinin fərqli bir yazı ilə yazdıqları mətnləri Attilaya oxuduğunu qeyd edir. Qrabarca əsərlərdə İncilin hun dilinə tərcümə olunmasından bəhs olunur. Çin mənbələrinin bəzisi işarə formasında (böyük ehtimalla damğa) hun yazısından bəhs edilərkən, bəzi mənbələrdə hunların yazılarının olmadığı iddia edilir.

Hun tarixində elmə və ədəbiyyata böyük xidmət edən hökmdar 319-cu ildə Çinin Çao bölgəsini ələ keçirən, burada İkinci Xan dövləti adı altında Hun dövlətinin əsasını qoyan Şih Lo olmuşdur. Mənbələr onun çincə bilmədiyi halda hüzurunda çinli məmurlara Çin xanədanlarının tarixini oxutdurub, tərcümə etdirdiyini və yaşanan hadisələrdən dərslər çıxardığını xəbər verir. Onun bir çox "nazirliklər" yaratdığı qeyd edilir. Bu "nazirliklərdən" biri "Tarix Nazirliyi" adlanırdı.

Şih Lonun hunları, monqolları, tibetliləri və çinliləri bir yerdə idarə etmək üçün *"Hsin Hai Çih tu"* adında 5000 kəlmədən ibarət bir qanunnamə hazırladığı qeyd edilir. Bu, türk tarixinin ilk yazılı qanunnaməsi hesab edilir. Bundan başqa, Hun hökmdarının 10 məktəb, 300 müəllimin dərs verdiyi bir "universitet" açdığı qeyd edilir.

Hunlara aid çox sayda maddi-mədəniyyət abidəsi də mövcuddur. Onlar arasında Hun hökmdarlarına aid sərdabələr və ya kurqanlar xüsusi əhəmiyyətə malikdir. Bu sərdabələr hunların Çində yaratdığı Birinci Xan *(304-329)*, İkinci Xan *(319-349)*, Hsia Hun *(407-431)* hökmdarlarına aiddir.



# ƏLAVƏ OXU

## IV.I. Ədəbiyyat

- Nəcəf Əkbər N. *Hun minilliyi (b.e.ə.IV-b.e.VI əsrlərdə Türk Dünyası)*, Bakı: Teas PRESS, 2015.
- Ögəl Bəhaəddin, *Böyük Hun imperiyası*, (Tərcümə edənlər: Xanoğlan Məmmədova, Vəli Həbiboğlu), Bakı: Gənclik, 1992, cild I-II.

## IV.II. Suallar

1. Hun dövlət sistemi hansı təməl əsasında qurulmuşdur?
2. Türklərdə el (dövlət) sisteminin kosmik əsasları hansılardır?
3. Müasir dövrdə Xələc türkcəsini kimlər tədqiq etmişdir?
4. Saqu nədir?

## IV.III. Tapşırıqlar

1. Hun dövlətlərinin və tayfalarının mövcud olduğu əraziləri diqqətə alaraq xəritəsini hazırlayın.
2. Hun dövlətlərini tarixi sıraya görə sadalayın.
3. Avropanı ələ keçirən Hun və Abar dövlətlərinin oxşar və fərqli cəhətlərini açıqlayın.
4. Oğuz kimliyinin tarixini mərhələlərə görə müəyyən edin.
5. Hun dövrü incəsənətinin xüsusiyyətləri haqqında tezis hazırlayın.
6. Xələc türkləri haqqında məlumat toplayın.

## IV.IV. Terminlər

*ban* – Balkan slavyanlarında hörmət əlaməti olaraq xitab şəkli. Qədim türkcə bəg/bəy sözündən yaranıb. Avarlar dövründə xorvat və serblərin dilinə keçib.

*batrak* – bayraq. Qədim türklərdə “badhrak” şəklində keçir.

*bayqu* – ölkənin qərbində yaşayan və böyük hökmdarın nəzarəti altında olan, ancaq müstəqil qərarlar verən və əmrində böyük ordu olan idarəçilərə "kiçik hökmdar" statusunda *bayqu* deyilirdi. Bayqu sözü türklərdə "ala doğan" cinsində yırtıcı bir quş adıdır. Bu quş türklərdə *onqon* (totem) hesab edilir və əti yeyilmirdi. *Payqavi* mənasında "*pəhləvi*" sözü də bayqudan törəmişdir. Payqavi adı farsdilli mənbələrdə Pəhləvi şəklində indiki İranda ortaya çıxmış Parf dövlətini *(e.ə. 250-e. 224/7)* ifadə etmək üçün istifadə edilib.

*beçkəm* – oğuzların bayrağa verdiyi ad. Mənbələrdə *perçəm* olaraq da qeyd edilir. Əsasən bir nizənin ucuna heyvan quyruğu və ya dərisinin bağlanması şəklində düzəldilən simvolik işarət.

*befulci* – avarlar tərəfindən slavyanlardan və digər Avropa xalqlarından təşkil edilib, ordunun qabağında hərəkət edən öncü və ya qabaq dəstələrə verilən ad.

*çih* – qədim çinlilərdə 23,1 sm-i ifadə edən uzunluq vahidi.

*damğa* – qədim türklərdə *tamğa* olaraq işlədilirdi ki, nişan mənasına gəlirdi. Hər boyun öz damğası vardı. Boy damğaları boya aid heyvanlara və çadırlara vurulurdu.

*el* – *el/il* sözü qədim türk dilində "ölkə, imperiya", "iqtidar və hökumət"i ifadə edirdi.

*eliq/iliq* – qədim türklərdə "eliq/iliq" siyasi-hərbi titul idi. Asiya hunlarında bu titulun mövcud olduğu məlumdur. Orxon kitabələrində "əriq" şəklində qeyd edilən bu titulun "*qüdrətli*" mənasına gəldiyi bildirilir.

*eltəbər* – qədim türklərdə eli, dövləti toplayan, əlində tutan və idarə edən mənasında idari-siyasi termindir. Eltəbər adındakı "el" qədim türkcə "dövlət", "təbər" isə "tutmaq" mənasına gəlir. Bu söz "dövləti tutmaq" deməkdir.

*evrən* – qədim türklərdə kainata verilən ad. Qədim türkcədə "kainat" *evrən* demək olub, "əjdaha" (*ilan*, *bükə*) mənasına gəlirdi. *Evrən* qədim türk dilində *evir* – "dönən" (çevrilən) deməkdir. "Qutadqu-bilik"də "bax, O, əjdahanı yaratdı və dayanmadan dönür" deyilir.

*hi-çin* – çincə "*ho*" – sülh, "*çin*" (ç`in) isə qohumluq mənasına gəlirdi.

*junq* – qədim çincə "alp", döyüşçü mənasında şimalda yaşan türk tayfalarının bir qolunu ifadə edirdi.

*Kam* – qədim türk inancında dini mərasimi icra edən şəxsə verilən ad. Saxa türkləri (yakutlar) *oyun*, orta əsr qırğız, qazax, türkmən və özbək türkləri *baksi/bakşi/baxşı*, Azərbaycan türkləri isə *baxıcı* adlanırdı. Monqolcada *böge/bögü* olaraq keçən kəlmənin mənşəyində türkcə *bögü* kəlməsi yer alır. Bögü sözü "bilgin, alim, falçı" kimi mənalara gəlirdi. Moğollarda böyük şaman, baş şaman üçün işlədilən "*bəki*" sözünün də türkcə "bəg/bəy" sözündən törədiyi məlumdur.

*kərgək* – qədim türkcədə ölüm üçün "*kərgək*" ifadəsi işlədilir. Kərgək – gərəkli olan, gərək mənasındadır. Bundan başqa, ölümə "*bol-bolmak*" (tapmaq), "*bökmək*" (həzz almamaq), "*adirilmaq*" (ayrılmaq), "öltmək" (ölmək), "*kəlmə*" (gəlmə – geri qayıtmamaq), "*uçmaq*" (uçub getmək) və "*yok bol*" (heç olmaq) da deyilirdi.

*korepiskopos* – patrik vəkili, kilsənin dini lideri adına hərəkət edən din adamları.

*qızıl-ağ-qara* – qədim türklərdə hökmdar ailəsinin yer aldığı sinifə *qızıl bodun*, hərbi aristokratiya ailələrinin yer aldığı sinifə *ağ bodun*, sıradan camaatın yer aldığı sinifə *qara bodun* deyilirdi.

*li* – çinlilərdə məsafə ölçüsü olub, 1 km-in yarısını ifadə edir.

*lu-li iliq* – Hun dövlətinin sağ və sol hissəsini idarə edən şəxslərə verilən hərbi-siyasi titul.

*məlikül-türk* – ərəbcə əsərlərdə türk hökmdarı mənasında istifadə olunan termin.

*Tenqri* – qədim türklərdə kainatı yaradan ilahi varlığa verilən ad. Tenqriçilikdə yaradılış bir olan Tanrının adıyla

bağlıdır. Tanrı kəlməsi "*göy*", "*yaradıcı güc*", "*qüdrət sahibi*" mənasında qədim türk dilində *tenqri* (çenq-li//tenq-nin-li) şəklində keçir. Çin mənbələrində qeyd edilən hun dilində ən qədim söz "*t'eng-li=tänqri*" kəlməsidir. Göytürklərdə bu kəlmə "*Kök Tenqri*" (Göy Tanrı) şəklində işlədilib.

*tin* – qədim türklərdə ruh mənasında bir ifadə. Türk inancında ruhlar yaxşı və pis ruhlar olaraq ayrılırdı. Türklərdə pis ruhlar *yör, ciddür, albız/albim, hortlak, abaçi/abasi, yek, elkin* və ya *yelkin* adlanırdı.

*toy* – dövlət divanlarında ordu başçılarının, dövlət idarəçilərinin və katiblərin iştirakı ilə keçirilən məclisə verilən ad.

*tu-ku iliq* – türk iliq. Böyük Hun dövlətinin sağ və sol hissələrinin başında olan xaqanın vəliəhdi olan xanədan ailəsinə mənsub şəxslərə verilən ad.

*yabqu* – Böyük Hun hökmdarlarının daşıdığı hökmdarlıq titulu. Xaqan adı ön plana keçdikdən sonra yabqu adı müəyyən ərazilərə sahib bəylərə verilməyə başlandı. Mənbələrdə bu ad *tan-hu, cabqu, yavqu* şəklində keçir. "Tanrı kut" sözündən yarandığını iddia edilir. Qədim Çin mənbələrində bu mənada türkcə "Tenqri ku-tu tan-hu" ifadəsi keçir. Çinlilər bunu "Göyün oğlu" və ya "Tanrının oğlu" şəklində tələffüz ediblər. Qədim türkcə "kut" – "səadət, xoşbəxtlik, ilahi bəxşiş" mənasın gəldiyindən "Tanrı səadətli yabqu" deməkdir.

*yençi* – yengə. Hunlar dövründə hökmdar xanımlarının daşıdığı ad. Yen-çi sözünün çincədən türkcəyə daxil olduğu qeyd edilir.

## IV.V. Tayfa və ya boy adları

### IV.V.1. Hun boyları

*su-po* (sabir), *alpiçurlar* (alpidzuri/alipsur), *amilsurlar* (amulçur), *alkilçurlar* (alcildzuri), *itimarilər* (itemir/edümer), *tunkarsilər* (tonqra), *tonosurlar*, *boiskilər* (boysak),



*akatzirlər, sataqarlar, sorosquslar* (şaragur), *emençurlar, uzindurlar, ultinqurlar, ulkindurlar, bittuqirlar, burtuqurlar, anqiskirlər, bardarlar, altziaqirlər, semenderlər, böktərlər* (bügdür), *sakromontisilər, fossatissilər* və *dulolar*

### IV.V.2. Oqur/oğur tayfaları

*onoqur, oqur* (oğur/oğuz), *bulqar, sarıoqur* (şaraqur), *kasar, idirmar, boğursaq, uluqundurlar, kutiqurlar, nndr* (vanandur?), *olxonturlar, bitiqurlar*.

### IV.V.3. Çincə mənbələrdə tayfa və sülalə adları

*Hsin-li* – qədim Çin mənbələrində "*sir*" tayfalarını ifadə edir. Bunlar Göytürk xaqanlığı dövründə yenidən tarix səhnəsinə çıxmışdı.

*Hu-çieh* – "haqar". Qədim Çin mənbələrində "xəzər"ləri ifadə edir.

*Xan sülaləsi* – Xan sülaləsi iki dövrə ayrılır. Birinci Xan *(e.ə.206-e.22)* və İkinci Xan *(22-220)*. Xan dövlətinin banisi Kao-ti *(e.ə.206-e.ə.196)* idi.

*Ju-juan* – qədim çinlilərin Abar xalqına verdikləri ad. Ju-juan çincə "kiçik qurd" mənasına gəlirdi. Daha sonra çincə mənbələrdə bu ad juan-juan şəklində yazılmağa başlandı. Juan-juan "kiçik qurdlar və böcəklər" mənasında həqarət ifadə edən bir termindir.

*K'o-k'un* – çincə "qırğız" mənasına gəlir.

*Şanq* – Şanq sülaləsi e.ə.1750-e.ə.1450-ci illər arasında Çində hökm sürmüşdür. E.ə.1450-ci ildə Çinin hakimiyyətini türk əsilli Colar ələ keçirmişdi.

*Ti* – qədim çincə *di, ti, tik* şəklində yazılan bu xalqın adı "türk" olaraq oxunur. Çincə "r" səsinin olmaması səbəbilə çinlilər onların adını ti və tik olaraq tələffüz edirdilər. Qədim çincə işarələrdə ti "it başına" oxşayan şəkildə qeyd edilib. Bu, qurda işarədir. Belə ki, tilərdə "ağ börü" (ağ qurd) məşhur idi. Hətta onlar hədiyyə olaraq da Çinə "ağ börü" göndərdilər.

*Tinq-linq* – qədim Çin mənbələrində türk tayfası tilərin davamçılarıdır. Bəzi araşdırmaçılara görə, "tinq-linq" adı "təkər", bəzilərinə görə isə "türklər" mənasına gəlir.

*Tunq-hu* (*dunq-xu*) – bəzi tədqiqatçılara görə, monqol boylarına verilən ümumi addır. *Tunq-hu* adının türkcə "donuz" mənasına gəldiyi qeyd edilir. Bu adı donuz saxladıqları üçün türklərin onlara verdiyi güman olunur. Bu ad türkcə "tuqquz" (*doqquz*) olaraq da oxuna bilər. Çünki tunq-huları təşkil edən boyların hamısının monqol olmadığı aydındır. Ayrıca, "tunq" adı çincə "şərq" mənasında "şərq hunları"nı da ifadə edir. Digər tərəfdən, Ryuzo Torii *(1870-1953)* və Kimiko Toriinin *(1871-1959)* Qərbi Mancuriyada apardıqları arxeoloji qazıntılar "tunq-hu"lar ilə "tunquz"ların heç bir əlaqəsinin olmadığını ortaya çıxardı. Onlara görə, iki xalq arasında ad oxşarlığından başqa əlaqə yoxdur. Bundan əlavə türklərin onları "donuz" mənasında "tunquz" adlandırması da məntiqli görünmür. Çünki o dövrdə türkcədə "donuz"a – "lağçin" deyilirdi. Çin mənbələrində də tunquzlar "tunq-hu" deyil, başqa adlarla qeyd ediliblər. Çu dövründə *(e.ə.XI-e.ə.III)* onlara *su-şen*, Xan dövründə *(e.ə.III-e.I-II) i-lou* və *vu-su*, Tabqaç dövründə *(V-VI əsrlər) vu-ki*, Sui və Tanq dövrlərində *(VI-X əsrlər)* isə *mo-ho* adlanırdılar. Yəni qədim çinlilər tunq-hularla tunquzları bir-birindən ayırırdılar.

*Yüeçilər* – hunlara qonşu türk tayfası idi. Motun zamanında hunlar yüeçiləri məğlub edərək özlərinə tabe etmişdi. Motunun oğlu Lao-şanq (türkcə adı: *Göyük*) yüeçiləri məğlub edərək onların Fərqanə və buradan da Orta Asiyaya köç etməsinə səbəb oldu. Yüeçilər burada iki qola ayrıldılar. Tibetə köç edənlərə Kiçik Yüeçi, Orta Asiyaya köç edənlərə isə Böyük Yüeçi deyildi. Orta Asiyada Baktriya dövlətinə son qoyub, burada Quşan dövlətini yaradanlar yüeçilər olmuşdu.



**IV.V.4. Qədim türk təqvimi**

Türklər illərə 12 heyvanın adını vermişdi:
*sıçqan* (siçan),
*ud* (öküz),
*bars* (pələng),
*tavışqan* (dovşan),
əjdaha (*lu*, *nek* və əjdaha),
*yılan* (ilan),
*yunt* (at),
*koy* (qoyun),
*biçin* (meymun),
*taqaku* (toyuq),
*it*
*tonquz* (donuz).

Qədim türk təqvimində bir ildə yer alan 12 ay adları belədir:
*birinçay* (mart-aprel),
*ekkinçay* (aprel-may),
*üçunçay* (may-iyun),
*törtünçay* (iyun-iyul),
*bişinçay* (iyul-avqust),
*altınçay* (avqust-sentyabr),
*yedinçay* (sentyabr-oktyabr),
*səkizinçay* (oktyabr-noyabr),
*tokuzunçay* (noyabr-dekabr),
*onunçay* (dekabr-yanvar),
*onbirinçay* (yanvar-fevral)
*onikinçay* (fevral-mart)

Qədim türk təqvimində hər ilin bir xüsusiyyəti vardı:
*sıçqan (sıçan) yıl*: qarışıqlıq, nizamsızlıq, aclıq;
*ud (öküz) yıl*: müharibə;
*bars (pələng) yıl*: taxt uğrunda mübarizə;
*tavışqan (dovşan) yıl*: nemət və bərəkət;

*nek (əjdaha) yıl*: bol yağış, leysan, fəlakət;
*yılan (ilan) yıl*: bolluq;
*yunt (at) yıl*: fitnə və fəsat;
*koy (qoyun) yıl*: əmin-amanlıq, ruzi-bərəkət;
*biçin (meymun) yıl*: mübarizə;
*taqaku (toyuq/xoruz) yıl*: xəstəlik və zəlzələ;
*it yıl*: heyvanlar arasında tələfat, sərt qış;
*tonquz (donuz) yıl*: ixtilaflar ili hesab edilirdi.





*Beşinci fəsil*

# QƏDİM TÜRK DÜNYASI



## 5.1. GÖYTÜRKLƏR

Göytürklərin mənşəyi haqqında iki əfsanə var. Birinci əfsanə qədim türk dastanı "Ərgənəkon" ilə bağlıdır. "Ərgənəkon" türklərin "mağaradan çıxma" və "yenidən yaradılış" dastanıdır. Dastana görə, hunlardan ayrılıb müstəqil boya çevrilən göytürklər qonşu ölkənin hücumuna məruz qaldılar. On yaşında bir oğlan uşağı xaricində bütün qəbilə qılıncdan keçirildi. Düşmənin əsgərləri oğlanın azyaşlı olmasını nəzərə alıb, onun ayaqlarını kəsdilər və bir bataqlığa atdılar. Bataqlıqda dişi bir qurd peyda oldu. Qurd uşağı süd və ətlə bəsləyərək onu böyütdü. Sonra bu uşaq həmin qurdla cinsi münasibətdə oldu. Qurd ondan hamilə qaldı. Qonşu ölkənin hökmdarı uşağın yaşadığını öyrənincə onu öldürmələri üçün əsgər göndərdi. Əsgərlər oğlanın yanında qurdu görəndə onu da öldürmək istədilər. Amma qurd qaçıb, Kao-çanq (Turfan) dövlətinin şimalındakı dağlarda gizləndi. Həmin dağda bir mağara vardı və bu mağara düzənlik bir əraziyə açılırdı. Qurd həmin ovalıq ərazidə on oğlan uşağı



dünyaya gətirdi. Uşaqlar böyüdülər, mağaradan çıxaraq özlərinə qızlar aldılar. Onlardan da çoxlu uşaqlar dünyaya gəldi. Hər nəsil özünə bir soyad götürdü. Onlardan sadəcə biri *A-şi-na* adını aldı. Beləliklə, çoxaldılar və mağaradan çıxıb, Ju-ju (ju-juan/abar) hakimiyyəti altına girib, onlara tabe oldular. Kin-şanın (Altayın) cənub yamacında yaşamağa başladılar və ju-juanların dəmirçiləri oldular. Kin-şan dağı dəbilqəyə (*miğfər*) oxşadığından və ona *dəbilqə* mənasında *t'ü-küe* dedikləri üçün özlərinə *t'ü-kü* (türk) adını verdilər".

İkinci yaradılış əfsanəsinə görə, göytüklərin mənşəyi hunlardan şimalda mövcud olan So (Skif) dövlətinə dayanır. Birinci əfsanədə türklərin hunlardan, ikincisində isə solardan (skiflərdən) törədiyi qeyd edilir.

Dişi qurd motivi şübhəsiz qədim xalqların inancında "qurd ana" ilə eynidir. Burada nəzərdə tutulan bir heyvan olmayıb, qurd şəklini almış mifik (böyük ehtimalla şaman) bir qadındır. Qədim türk inanc sistemində şamanların (ağ və qara şamanlar, yəni qadın və kişi şamanların) müxtəlif heyvanların şəklinə girməsi adi bir haldı.

Göytüklərin mənşəyini birbaşa tarixi hadisələrə bağlayan Çin mənbələri də var. Həmin mənbələr göytüklərin P'inq-lianq hunlarından törədiklərini qeyd edirlər. Onlara görə, göytürklər P'inq-lianq hunlarından Çü-çü Menq-hsün ailəsindən gəlir. Şimali Lianq dövlətinin hökmdarı olan Çü-çü Menq-hsüan hunların tu-ku (türk) soyundan idi. O, 367-433-cü illər arasında yaşayıb.

Bu məlumatlar göytürklərin hunlar və skiflərin sonrakı törəmələri olduğunu deməyə əsas verir. Orxon kitabələrində bu "türk-oğuz xalqı" adıyla ifadə edilmişdir. Belə məlum olur ki, göytürklərin hakim soyu hun, əhalisi isə oğuzlardan təşkil olunmuşdur.



*Göytürk xaqanlığının bayrağı*




*Göytürk xaqanlığının ən geniş ərazisi*



## 5.1.1. Birinci Göytürk xaqanlığı

Çində yaranan türk əsilli Tabqaç və ya Toba dövləti (çincə adı Vei) 439-cu ildə Şimali Lianq dövlətinə hücum etdi və onları məğlubiyyətə uğratdı. Tabqaç hücumuna məruz qalan hökmdar ailəsinə mənsub 500 hun ailəsi (2500 nəfər) yurdlarını tərk edərək Ju-juan (Abar) dövlətinə sığındılar. Ju-juanlar onların Altay dağları ətrafında məskunlaşmasına icazə verdi. Türklər də Ju-juan (Abar) dövlətinin dəmirçiləri oldular. "Ərgənəkon" və ya "qurddan yaranma" əfsanələri həmin dövrdə yaranmışdır. Mənbələrdə Altay dağları ətrafında məskunlaşan türklərin ilk xaqanının adının Duman olduğu qeyd edilir. Türklərin başına keçən Duman xaqanın *(542-552)* ən yaxın köməkçisi kiçik qardaşı İstəmi idi. Türk xaqanlığı məhz bu iki qardaşın bacarığı və hərbi-siyasi istedadı nəticəsində yarandı.

Duman və İstəmi zamanında türklər Tabqaç torpaqlarına soxuldular. Bir qədər sonra Monqolustandan Xəzər dənizinə qədər Orta və Mərkəzi Asiya ərazisində məskunlaşan tölesləri öz hakimiyyətləri altında birləşdirməyə başladılar. Bundan sonra özünü Ju-juan xaqanı səviyyəsində görən Duman ona elçi göndərərək qızını istədi. Amma Dumanın bu istəyi Ju-juan xaqanı A-na-kuini (*Abakan*) çox əsəbləşdirdi. O, türk elçisini təhqir edib, sarayından qovdu. Göytük hökmdarı Dumanın Ju-juan xaqanının bu davranışına reaksiyası çox sərt oldu. Duman əvvəlcə ona rədd xəbərini gətirən Abakan xaqanın elçisini öldürdü. Daha sonra Qərbi Tabqaç hökmdarına bir elçi göndərərək Çin imperatorunun qızını istədi. Qərbi Tabqaç hökmdarı onun bu təklifini qəbul edib, "Çanq-lo şahzadəsini" Dumana göndərdi.

552-ci ildə Duman başçılığındakı Türk ordusu qəflətən Ju-juan dövlətinə hücum etdi və abarlar ağır məğlubiyyətə uğradılar. Çarəsiz qalan Abakan çadırında intihar etdi. Bu məğlubiyyətdən sonra Ju-juan (Abar) dövləti süqut etdi.

Abarlar üzərindəki parlaq qələbədən sonra Duman özünü "İl xaqan" (dövlətin xaqanı) elan etdi. Bu, Türk xaqanlığının rəsmən yarandığı mənasına gəlir.

Duman xaqanın vəfatından sonra Türk dövlətinin başına oğlu Qara xaqan keçdi. Onun hakimiyyəti bir il davam etdi. Qara xaqan xəstəlik nəticəsində ölüncə, taxta qardaşı Mukan *(553-572)* çıxdı. Mukan xaqanın hakimiyyət illəri Türk xaqanlığının çiçəklənmə dövrü hesab edilir.

553-cü ildə Mukan xaqan ju-juanların qalan dəstələrini də məğlub etdi. Üst-üstə üç dəfə ağır məğlubiyyətə məruz qalan ju-juanlar aldıqları bu son zərbə ilə tarixdən silindilər.

555-ci ildə türklər bütün istiqamətlərdə böyük fəthlərə başladılar. Mukan xaqan əvvəlcə kidanlara hücum edərək onları özünə tabe etdi. Daha sonra Baykal gölü ətrafında yaşayan qırğızları Göytürk dövlətinə bağladı. Bunun arxasınca kidanların qərbində yaşayan kumo-hsi və monqolların ulu babaları şih-vei tayfalarını özünə tabe etdirdi. Beləliklə, Türk xaqanlığının şərq sərhədini Koreyaya qədər genişləndirdi.

Qərb istiqamətində fəth planını Mukan xaqanın əmisi və təcrübəli dövlət adamı İstəmi yabqu həyata keçirirdi. Hələ Duman xaqan zamanında ölkənin qərb hissəsinin idarəsi ona tapşırılmışdı. İstəmi yabqunun qərb istiqamətində başlatdığı fəth hərəkatı Şərqi Türküstanın Hami şəhərindən Qara dənizə, Azərbaycan və Qafqaza qədər olan əraziləri əhatə edirdi. O, bu bölgələrdə dağınıq yaşayan oğuz-töles tayfalarını özünə tabe etdikdən sonra Eftalit dövlətinin torpaqlarına soxuldu. 556-cı ildə türklərin hücumuna məruz qalan eftalitlər ilk zərbənin təsiri ilə süqut etdilər. Bundan sonra Sasani hökmdarı Ənuşirəvan I Xosrovla müqavilə imzalayan İstəmi yabqu öz qızını şaha ərə verdi. Eftalit ölkəsinin torpaqları isə Göytürk və Sasani dövlətləri arasında bölüşdürüldü. Sasani hökmdarı türklərin hərbi qüdrəti qarşısında gücsüz olduğunu qəbul



edərək İstəmi yabquya hər il xərac verməyə məcbur oldu. Türklərdən qaçan eftalitlər isə Sasani ordusunun cərgələrinə daxil olub, ordudakı üstünlüyü ələ keçirdilər. Sasanilər süqut edənə qədər Türk dövlətinin vassalı oldu.

İstəmi yabqu Şərqi Avropaya qaçan eftalitləri təqib edərək Qara dənizin şimalına, buradan da Azərbaycana hərəkət edərək Kür çayına qədər Qafqazı ələ keçirdi. Beləliklə, Türk xaqanlığı 556-cı ildə qüdrətinin zirvəsinə çıxdı. Avrasiya materikinin mərkəzi boyunca uzanan geniş ərazilər Hun dövlətindən sonra başqa bir türk dövləti tərəfindən yenidən vahid bir dövlət sistemində birləşdirildi. Türk xaqanlığının sərhədləri şərqdə Koreyadan qərbdə Şərqi Avropada Don və Dunay çaylarına, cənubda Xorasan və Azərbaycandan şimalda Sibirin tayqa zonasına qədər uzanırdı. Öz dövrünün ərazi baxımından ən böyük, hərbi baxımdan ən qüdrətlisi hesab edilən Türk xaqanlığı Çin, Sasani və Bizansı da qısa müddətdə öz təsirləri altına alıb, illik xəraca bağladılar.

Mukan xaqan dövründə *(553-572)* türk əsilzadələrinin bəziləri Çin saraylarında yaşamağa başladılar. Həmin ailələr Çin adətlərini öz adətlərindən üstün tutub, bahalı ipək paltarlar geyinir və çinli şahzadələrlə evlənirdilər. Bu, türklər arasında Çinin meşşan həyatına rəğbətin artmasının nişanəsi idi. Kültigin kitabəsində türklərin bu davranışı kəskin tənqid edilmiş və Türk dövlətinin dağılmasının əsas səbəbi kimi "çinliləşmə" göstərilmişdir.

Mukan xaqan 572-ci ildə vəfat etdi. Türk xaqanlığının əzəmətli və ən qüdrətli xaqanı olan Mukan xaqan hakimiyyətə qardaşı Tasparın keçməsini vəsiyyət etmişdi.

Taspar xaqanın hakimiyyəti *(572-581)* illərində Türk xaqanlığı hərbi gücünü və qüdrətini qorudu. Lakin Taspar xaqanın apardığı bəzi siyasi islahatlar sonrakı mərhələdə dövlətin tənəzzülünə şərait yaratdı. Onun zamanaında türk əsilzadələri arasında "çinliləşmə" sürətlə davam etdi. Çou dövlətinin paytaxtı Çanq-anda minlərlə türk soylusu yaşamağa başladı. Onlar çincə danışır, bahalı ipək libaslar

geyinir, çinlilərdən fərqli olaraq, ət yeyirdilər. Üstəlik Çou sarayında böyük hörmətə sahib olub, çinli məmurlara təsir göstərmək qabiliyyətinə də malikdilər. Çinliləşmiş bu türklər öz ölkələrinə gəldikdə dövlət ərkanına təsir göstərirdilər. Onlar Çin sarayı ilə Türk sarayı arasında bir növ qeyri-rəsmi vasitəçilik edirdilər.

İkinci amil olaraq Tasparın xaqanlığının qərb hissəsini idarə edən hakimə "xaqan" titulu verməsi və özünü də "xaqanlar xaqanı" elan etməsi oldu. Tasparın əmri ilə qardaşı Qara xanın oğlu Böri xaqanlığın qərb hissəsinin xaqanı elan edildi. Bu türk idarə sistemində "böyük xaqan" və "kiçik xaqan" məfhumlarının yaranmasına və dövlətin şərq-qərb olaraq bölünməsinə şərait yaratdı.

Taspar xaqan digər reformları ilə də yadda qaldı. O, xaqanlığın daxilində buddizmin yayılmasına şərait yaratmaqla qalmayıb, özü də həmin dinə meyil etməyə başladı. Buddizm döyüşkən bir xalq olan türklərin həyat tərzində dərin izlər qoydu. Buddizm həyat tərzinin türklərə təsiri əks reaksiya yaratdı və mərkəzi hakimiyyətin bünövrəsini zəiflətdi. Digər tərəfdən, Taspar xaqan bu inancdan Çinin öz mənafeti üçün necə istifadə etdiyini də görə bilmədi. Taspar dövründə paytaxt Ötükəndə çoxlu sayda buddist rahib yaşayırdı. Onlardan çoxu Çin dövlətlərinə casusluq edirdi. Taspar xaqanın Çindəki Çi sülaləsini dəstəkləməsində Ötükəndə yaşayan buddist rahib Hui Linin böyük rolu olmuşdu. Buddist təbliğatı Türk ölkəsində açıq və sürətlə aparılırdı. Artıq Taspar dövründə türkcə milli buddist ədəbiyyatı yaranmışdı. Ötükəndə bir buddist məbədi də inşa edilmişdi.

Bütün bunlara baxmayaraq, Taspar dövrü Türk xaqanlığının ən qüdrətli dövrü kimi yadda qaldı. Bunda İstəmi yabqunun apardığı siyasətin rolu çox böyükdür. İstəmi yabqunun ağıllı siyasəti sayəsində 571-ci ildə Bizansla Sasanilər arasında müharibə başlamış və bu müharibədə türklər öz mənfəətlərinə uyğun hərəkət edərək bəzən sasaniləri, bəzən də Bizansı dəstəklədilər. Nəticədə, türklər



Xorasanı ələ keçirərək Azərbaycana qədər Qafqaz bölgəsinə hakim oldular. Qara dənizin şimalındakı Bizans liman şəhərlərini (Kerç) də ələ keçirdilər. İstəmi yabqu 576-cı ildə vəfat etdikdə yerinə oğlu Tardu keçdi. Bizans mənbələri onu Türk şad adlandırır. Türk şad Bizans elçilərini təhqir edəcək və onları "iki üzlü yalançılar" adlandıracaq qədər qüdrət sahibi idi.

581-ci ildə Taspar xaqan xəstələndi və öldü. Lakin onun vəfatından sonra Tasparın qardaşı ilə oğlu arasında hakimiyyət uğrunda müharibələr başladı. Həmin vaxt Çində də bəzi siyasi hadisələr meydana gəldi. 576-cı ildə Çindəki Çi sülaləsi ortadan qalxdı. 581-ci ildə digər bir sülalə dövləti Çou da süqut etdi. 589-cu ildə bütün Çin torpaqları Sui sülaləsinin hakimiyyətində birləşdi. Beləliklə, 350 ildən sonra Çin torpaqları bir imperiyanın nəzarəti altına keçdi. Sui dövləti ən böyük təhlükə olaraq Türk xaqanlığını gördüyündən gizli planlar həyata keçirməyə başladı və hakimiyyət uğrunda gedən mübarizəni qızışdırmağa çalışdı.

582-ci ildə Türk xaqanlığı Şərqi Türk xaqanlığı və Qərbi Türk xaqanlığı şəklində iki yerə bölündü.

### 5.1.2. Şərqi Türk xaqanlığı (582 – 630)

İşbara xaqan *(581-587)* Şərqi Türk dövlətinin böyük xaqanı olaraq paytaxt Ötükəndə oturdu. 583-cü ilin bahar ayında uzun əsrlərdən sonra ilk dəfə Çin ordusu Türk torpaqlarına hücum etdi. İki ordu Pai-tao adlanan yerdə qarşılaşdılar. Türk ordusunun başında İşbara, A-po və Tan-xan dayanırdı. Döyüş 583-cü ilin isti iyun günlərində baş verdi. Türklər çinlilərin onlara hücum edəcək cəsarətə sahib olmadıqlarını söyləyib, nizamsız hərəkət edirdilər. Amma meydana gələn döyüşdə çinlilər türkləri məğlub etdi. Döyüş meydanından İşbara özünün qızıl zirehini belə atıb, çölə qaçmaq məcburiyyətində qaldı.

Məğlubiyyətdən sonra türklərə böyük fəlakət üz verdi. İşbaranın ordusu çöldə uzun müddət aclıq və xəstəliklə mübarizə apardı. Qələbəyə baxmayaraq, çinlilər türklərin yenidən hərəkətə keçməsindən çox qorxurdu. İmperator A-po xaqana elçi göndərərək onu İşbara əleyhində üsyana sövq etdi. Amma İşbara buna fürsəti vermədi. Təcili şimala doğru hərəkət edərək A-ponu ağır məğlubiyyətə uğratdı və A-po Tarduya sığındı. Tardudan aldığı 100 minlik ordu ilə İşbaraya hücum edən A-po yenə məğlub olmaqdan xilas ola bilmədi.

A-po ilə birlikdə üsyan edən Tan-xanı da məğlub edən İşbara taxtın tək varisi olduğunu göstərdi. Tan-xan ilə A-ponun Tardunun yanına qaçıb, ondan aldıqları hərbi köməklə İşbaraya qarşı mübarizə aparması Şərqi Türk xaqanlığını zəiflətdi. İqtisadi böhran və xəstəliklər dözülməz hal alınca İşbara Çinlə danışıqlara başlamaq məcburiyyətində qaldı. İşbaranın türklərin şərəfinə toxunub Çinlə danışıqlara başlaması ona qarşı kin və nifrəti daha da artırdı. Bundan istifadə edən A-po, Tan-xan və Ti-çih-çan başçılığındakı ordu Ötükənə qədər hərəkət etdi. Çarəsiz qalan İşbara Sui dövlətindən hərbi dəstək istədi. Aldığı hərbi köməklə A-ponun ordusunu bir daha məğlub etdi.

587-ci ilin may ayında ova çıxan İşbara anidən qızdırmaya tutuldu. Türk xaqanı bir ay xəstə yatdıqdan sonra öldü. Ölümü Çində üç günlük matəmə səbəb oldu.

İşbaranın yerinə keçəcək oğlu zəif və iradəsiz idi. Buna görə xaqan taxta qardaşının keçməsini vəsiyyət etdi. O da Baqa xaqan adı ilə Şərqi Türk xaqanlığı taxtına oturdu.

Baqa xaqan *(587-588)* İşbaranın oğlu Yunq-yü-lünü yabqu elan etdi. Baqa qardaşının siyasətinə sadiq qaldı. O, ilk hərbi səfərini 588-ci ildə təşkil etdi. Amma meydana gələn döyüşdə aldığı ox yarasından öldü. Beləliklə, Baqa xaqanın hakimiyyəti bir il belə davam etmədi. Onun yerinə Şərqi Türk xaqanlığı taxtına İşbaranın oğlu Yunq-yülü əyləşdi. O, Tou-lan xaqan *(588-600)* adını aldı. Onun



zamanında türklər bir neçə dəfə Çinə qarşı hərbi səfərlər təşkil etdilər.

Amma meydana gələn döyüşdə türklər Yanq Su başçılığında Çin ordusu qarşısında məğlub oldular. Tou-lan xaqanı təqib edən çinlilər Qobi gölünün şimalına çatdıqda imperatorun əmrilə geri çəkildilər. Lakin onun vaxtında çinlilərin türkləri parçalamaq fəaliyyətləri dayanmadı. Nəticədə Tou-lan xaqan bir sui-qəsdlə 600-cü ildə öldürüldü.

Onun yerinə keçən Tardu xaqan *(575-603)* ölkəsi daxilindəki boyların üsyanının qarşısını ala bilmədi. İzgil, böri, çi-hun, hu-sa, apa (abar), buku tayfalarının daxil olduğu on töles boyu ilə şərqdəki monqol tayfaları Tarduya qarşı qiyam qaldırdılar. Vəziyyətin nəzarətdən çıxdığını görən Tardu xaqan qaçıb Toqanda gizləndi. Amma orada tibetlilər tərəfindən öldürüldü *(603-cü il)*. Onun aqibətindən sonra Tulu xaqan "Çubin xaqan" titulu alaraq *(603-609)* Göytürk taxtına oturdu. Lakin o, vaxtının çoxunu Çində Sui saraylarında keçirirdi. Bu səbəbdən türk həyat tərzini tərk edərək çinliləşməyə başladı. Bunda çinli arvadının təsiri böyükdü. Sui imperatoru da Çubin xaqan üçün Vanşou-şuda bir şəhər saldırdı. Çubin xaqanın bu davranışı türklərin böyük narazılığına səbəb oldu. 609-cu ilin yaz aylarında Çini axırıncə dəfə ziyarət edən Çubin xaqan geri qayıtdıqdan sonra xəstələndi və 609-cu ilin yayında öldü. O, Göytürk tarixinin ən iradəsiz və vassal təbiətli xaqanı kimi tarixə keçdi.

Taxta oğlu Tou-çi (Tuçi) keçdi və Şih-pi xaqan *(609-619)* adı aldı. Tuçi xaqan atasının siyasi kursunu tərk etdi və türklərin Çinə qarşı təslimiyyət xarakterli siyasətinə son verdi. Onun Çinə qarşı izlədiyi hücum siyasəti Sui imperiyasının süqutu ilə nəticələndi. Tuçi qaqan Çini davamlı təzyiq altında saxlayaraq Sui əyalətlərini talan etdi. Türk hücumları imperiya daxilindəki ziddiyətləri artırdı və bu vəziyyət suilərin sonunu hazırladı. 616-cı ildə süqut edən Sui sülaləsinin yerini Tanq sülaləsi *(618-906)* aldı.

Tuçi xaqan Çinə qarşı çox qəddar siyasət apardı. Tanq dövləti zəiflədikdə ona hərbi kömək edir, gücləndikdə isə torpaqlarına hücum çəkirdi. Hər ikisində də türk süvariləri Çini talayırdılar. Digər tərəfdən, Çin hər il Türk dövlətinə 100 min ton ipək, taxıl məhsulları və müxtəlif qiymətli hədiyyələr vermək məcburiyyətində idi. 619-cu ildə Tuçi xaqan Çinə qarşı böyük bir hərbi səfər hazırladı. Səfər sırasında xaqanın qəfil ölümü səfərin yarıda kəsilməsinə səbəb oldu.

Tuçi xaqan Şərqi Türk xaqanlığının ən böyük hökmdarı idi. Əzəmətli, qətiyyətli və barışmaz siyasəti nəticəsində türkləri Çinin vassalı olmaqdan xilas edib, Çini öz vassalına çevirdi. Onun bu siyasəti Çində Xan dövlətindən sonra ikinci Çin əsilli sülalə dövləti olan Sui imperiyasının süqutu ilə nəticələndi. Çin yenə çinli olmayan sülalələrin əlinə keçdi. Bu vəziyyət 1368-ci ildə Minq sülaləsinin başa keçməsinə qədər davam etdi.

Tuçi xaqanın oğlu kiçik olduğu üçün hakimiyyətə əmisi İltəbər şad keçdi. O, Çilo xaqan *(619-621)* adını aldı. Çilo xaqan qardaşının Çinə təzyiq siyasətini davam etdirdi. Lakin Çilo xaqan 621-ci ildə Çinə qarşı səfərə hazırlaşdığı ərəfədə zəhərlənərək öldürüldü. Şərqi Göytürk taxtına bu dəfə Çubinin üçüncü oğlu və Çilonun qardaşı Bahadır şad keçdi. O, "İl xaqan" adını aldı. Onun seçilməsində Çilonun çinli arvadının böyük rolu olmuşdu.

609-cu ildə Tulu xaqanın vəfatından 630-cu ilə qədər türklər Çini davamlı olaraq öz hərbi nəzarətləri altında saxladılar. Uzun danışıqlardan, dəfələrlə imzalandığı halda səhəri gün pozulan müqavilələrdən, Çinin davamlı sülh təkliflərindən sonra nəhayət, 626-cı ildə Vei çayı kənarında Türk-Tanq dostluq müqaviləsi imzalandı. Sazişə görə, çinlilər sərhəd ticarətini açmaq məcburiyyətində idi. Çin türklərdən heyvan alacaq, əvəzində ipək, qızıl, gümüş, baharat və taxıl verəcəkdi. Türklər Çin üzərinə hücumlarını dayandıracaq və çinli əsirləri geri qaytaracaqdılar.



Şərqi Türk xaqanlığının ən güclü hökmdarı olan İl xaqan dövründə türklər Çin əyalətlərini ələ keçirdilər və Tanq imperiyasını tamamilə təsirsiz hala gətirdilər. Ancaq İl xaqanın öz ölkəsində apardığı siyasət böyük narazılıqlara səbəb olmuşdur. İl xaqanın ilk böyük səhvi çinli məmur Çao Teyeni özünün vəziri elan etməsi oldu. Ürəyində türklərə qarşı kin və nifrət bəsləyən bu məmur türk qanunlarını Çin qanunları ilə əvəz edərək ölkənin daxili nizamını pozdu. İkinci səhv addımı idarəetməni soğdlu əsilzadələrə tapşırması oldu. Tacir xislətli soğdlu məmurlar dövründə ölkədə rüşvət və saxtakarlıq tüğyan etməyə başladı. Onlar dövlət xəzinəsinin İl xaqanın hərbi səfərlərində xərcləndiyini göstərərək xaqanı belə aldatmaqdan çəkinmirdilər.

627-ci ildə Türk ölkəsini qıtlıq və aclıq bürüdü. Həmin il yağan şiddətli qar milyonlarla heyvan sürüsünü tələf etdi. Ölkədə aclıq hökm sürməyə başladı. Yaşanan təbii fəlakətlər qarşısında türk tayfaları üsyan etdilər. Üsyan edən türk tayfalarına sir-tarduşlar, uyğurlar, bayırkular başçılıq edirdilər. Beləliklə, ölkə İl xaqanın nəzarətindən çıxdı. 628-ci ildə kumo-hsi və hsilər də üsyançılara qoşuldu. İl xaqanın qardaşı oğlu Tulinin həmin tayfalardan alınan vergini artırması üsyanla nəticələndi. Məmurların özbaşınalığı xaqanı çox əsəbiləşdirmiş və onların cəzalandırılmasını əmr etmişdi.

Sir-tarduşların rəisi İnan özünü xaqan elan edərək Ötükəni ələ keçirdi. Çin onun hakimiyyətini tanıyıb, İnana "Bilgə xaqan" adını verdi. İnan xaqan buqu, hsi, tonqa, ediz, bayırku, uyğur tayfalarını da özünə tabe etdi. O, təxminən Şərqi Türk xaqanlığının tamamına hökm etməyə başladı.

İl xaqanın ətrafında sadəcə yaxınları və hərbi dəstəsi qaldı. Onlar da böyük aclıq yaşayırdı. İl xaqan əmrindəki ordu ilə Şimali Çin torpaqlarına soxuldu. Məqsədi Çin əyalətlərində ov edərək xalqını aclıqdan çıxarmaqdı. Amma onun bu hərəkəti Tanq ordusu tərəfindən diqqətlə təqib edilirdi. 630-cu ilin əvvəllərində İl xaqan Çinin şimalında yerləşən Dəmir dağı ətrafında qərargah qurub, Tanq dövləti ilə




*Şərqi və Qərbi Göytürk xaqanlıqları*



danışıqlara başladı. Xaqanın niyyəti danışıqlarla Çin hücumunu ləngitmək, yazın gəlməsi və yeni otlaq sahələrinin yaranması ilə gücünü bərpa etmək idi. Çadırında çinli elçi ilə danışıqlar apardığı ərəfədə İl xaqan Tanq ordusunun hücumuna məruz qaldı. Əsir alınan İl xaqan Tanq imperatorunun qarşısına çıxarıldı. İmperator onu Çin ölkəsində törətdiyi cinayətlərə görə danladı və qınadı. Lakin o, Türk xaqanına hörmət etdiyi üçün onu öldürmədi. Onun üçün Tanq sarayının Tai-pu hissəsində (taxt mərasimlərinin olduğu bina) otaq ayırdı. Burada ailəsi ilə yaşayan İl xaqan yas tutmağa başladı. Xaqanın vəziyyətinə kədərlənən Tanq imperatoru ona Kuo əyalətinin idarəsini təklif etdi. İmperator xaqanın vaxtını ovla keçirib, kədərini unutmasını istəyirdi. Amma İl xaqan bu təklifi rədd etdi. Bundan sonra imperator ona Tanq ordusunun sol qanad komandanlığını təklif edib, torpaqlar verdi. Amma bunun da faydası olmadı. İl xaqan qəm-qüssə içində 634-cü ildə vəfat etdi. O, imperatorun əmri ilə türk adətlərinə görə dəfn olundu.

İl xaqanın 630-cu ildə əsir düşməsi ilə Şərqi Türk xaqanlığı süqut etdi. Xaqanlıq inkişafının zirvəsində tarixdən silindi. İl xaqanın əsir düşməsi ilə torpaqları türk tayfaları arasında bölüşdürüldü.

### 5.1.3. Qərbi Türk xaqanlığı (582 – 631)

Qərbi Türk xaqanlığının əsası 582-ci ildə Tardunun özünü xaqan elan etməsi ilə qoyuldu. Əslində bu xaqanlığın inzibati sərhədləri İstəmi yabqu zamanında (552-576) müəyyən edilmişdi. Amma qərb türkləri böyük xaqan Tasparın vəfatına qədər (582) Ötükəndəki xaqanı vahid hökmdar kimi tanıyaraq ona bağlı qaldılar. Tasparın vəfatından sonra Sui imperatoru qərb türklərinin hökmdarı İstəmi yabqunun oğlu Tarduya "qurd başlı qızıl tuğ" göndərərək onun xaqanlığını qəbul etdi.

*Qurd başlı qızıl tuğ* və ya *sancaq* (bayraq) türklərin hakimiyyət rəmzi idi. Həmin bayraq Türk xaqanlarının çadırının qapısında dalğalanırdı. Hökmdar çadırının girişində hər gün üç və ya beş vaxt növbət (himn) çalınır və Türk xaqanı gündə iki dəfə səhər və axşam vaxtları üzünü gün çıxana və gün batana çevirərək torpağı öpmək şərtilə Tanrıya dua edərdi. Sui tərəfindən göndərilən bayrağı hökmdarlıq əlaməti olaraq qəbul edən Tardu özünü "xaqan" elan etdi. Əslində Sui imperatorunun göndərdiyi bayraq Tardu üçün sadəcə bahanə oldu.

Tardu atası İstəmi yabqunun vəfatından sonra dövlətin qərb torpaqlarının idarəsinin başına keçdi. Hakimiyyətinin ilk illərində Tardu bütün diqqətini Sasani və Bizansa verdi. 579-cu ildə Sasani hökmdarı I Xosrov Ənuşirəvan öldü. Taxta Ənuşirəvanın İstəmi yabqunun qızı ilə izdivacından dünyaya gələn, adı mənbələrdə "*Türkzadə*" kimi qeyd olunan oğlu IV Hörmüz *(579-590)* çıxdı. Onun ana tərəfdən türk olması xarakterində də özünü biruzə verdi. Yeni şah ordunun idarəsini türk sərkərdələrə tapşırdı, Sasani əyalətlərinin nəzarəti də türklərin əlinə keçdi. Amma Hörmüz dövrü Türk-Sasani münasibətləri baxımından uğursuz oldu. Atasının siyasətinə sadiq qalan Tardu Sasani dövlətini ortadan qaldırmağı qarşısına məqsəd qoymuşdu. Bunda Bizans diplomatiyasının da rolu böyük idi.

576-cı ildə Bizans elçisi Valentin Tardunun ordugahına gəldi. Amma elçinin gəlişi İstəmi yabqunun vəfatı vaxtına düşdüyü üçün türklər yasda idi. Belə bir vəziyyətdə Bizans elçisinin gəlməsinə sevinməyən türklər onları soyuq qarşıladılar. Bunda elçilərin türk adətlərini bilməməsinin də təsiri oldu. Tardunun hüzuruna çıxan Valentin Qərbi Türk hökmdarı tərəfindən təhqir edildi. Böyük çətinliklərdən sonra elçi türklərlə uyğun dil tapa bildi. İki tərəf arasında Sasanilərə qarşı ittifaq bağlandı.

Türklər coğrafi cəhətdən Şərq və Qərb arasında mədəniyyətlər və ticarət mərkəzləri arasında bağlantıların



qurulduğu ərazilərə hakim idilər. Şərqlə qərb, cənubla şimal arasında uzanan geniş ərazi (Avrasiya materikinin mərkəzi) onların ulu babalarının, özlərinin və davamçılarının əbədi yurdu hesab edilirdi. Çin, Hind, İran, Misir, Bizans arasında ticarəti onlar nizamlayır, mədəniyyətlər onlar tərəfindən bir diyardan başqa diyara ötürülürdü. VI əsrin ikinci yarısında türklər qlobal ticarət sistemini nəzarət altına almaq üçün bir sıra planlar hazırladılar. Bu məqsədlə Orta Asiyanın tacir xalqı adlanan soğdları öz hakimiyyətləri altına aldılar. Türklər soğdları müdafiə edərək onlara imperiya daxilində geniş ticari səlahiyyətlər verdilər. Türk dövlət sistemi türklərin başqa millətlərin sahib olduğu məsləklərə yiyələnməsinə qarşı idi. Buna görə də türklər əkinçilik, ticarət və digər məsləklərə çox maraq göstərməyiblər. Amma həmin məsləklərə sahib olanları təşkilatlandıraraq müdafiə edirdilər. Türk hakimiyyətini qəbul edən Şimali Çinin, Orta Asiyanın, İranın, Qafqazın, Anadolunun və Şərqi Avropanın əkinçi, şəhərli və ticarətlə məşğul xalqlarına toxunmadılar. Əksinə onlar üçün geniş səlahiyyətlər və imkanlar yaratdılar.

İrani bir xalq olan soğdlar uzun əsrlərdir türklərin hakimiyyəti altında yaşayırdı. Türklər onların ticari fəaliyyətlərindən yararlanırdılar. Soğdlu tacirlər 3-4 dil bilir, Çindən Misirə və Bizansa qədər ticarət aparırdılar. Mərkəzləşmiş türk dövlət sistemi onlar üçün çox sərfəli idi. Çünki həmin gücün dəstəyini əldə edərək özlərinin və mallarının təhlükəsizliyini təmin edir, daha az vergi müqabilində böyük kar götürürdülər. Ticarət yollarının, karvanların və karvansarayların təhlükəsizliyi müqabilində soğdlar orta əsr ticarətinin sahibi oldular. Şərqlə qərb arasında uzanan İpək yolu xətləri hər zaman türk dövlətlərinin nəzarətində idi. Bu yolun təhlükəsizliyinin təmini türklərə böyük qazanc gətirirdi. Türk xaqanlığı yaranan kimi ilk hədəfi İpək yolu ticarət xəttinin keçdiyi ölkələri nəzarət altına almaq oldu. Ticarətdən başqa qayğıları olmayan soğdlular üçün

türklərin yaratdığı vahid idari sistem sərfəli olduğundan onlar Türk xaqanlarının sadiq təbəələrinə çevrildilər. Əldə etdikləri avantajlar o qədər böyük idi ki, soğdlar öz soydaşları sasanilərə qarşı hər zaman türkləri müdafiə etdilər, hətta Sasani ölkəsində türklər üçün casusluq etməkdən belə çəkinmədilər.

Bizans elçisi Valentin Tardu xaqanın hüzurunda təhqir olunsa da, türklər Bizansla münasibətlərini pozmadılar. Niyyətləri Bizans-Sasani düşmənçiliyindən istifadə edərək Sasani ölkəsini ələ keçirməklə İpək yolu üzərində tək hakim gücə çevrilmək idi. Bu məqsədlə türklər Bizans-Sasani müharibələrini pərdə arxasından hər zaman dəstəklədilər. İki mərkəzi gücün zəifləməsi türklərin bölgədə ticari və siyasi gücünü artırırdı. Türklər tarixən böyük dövlətləri yox etmək əvəzinə, öz təsirləri altına salaraq onların imkanlarından faydalanmaq tərəfdarı olublar.

Çini davamlı təsir altında saxlayan türklər bu ölkədən illik olaraq aldıqları 100 min tonluq ipəyi İran, Misir, Bizans bazarlarına çıxarırdılar. Satış işini onların yerinə soğdlu tacirlər aparırdı. Hələ e.ə.130-e.ə.119-cu illərdə Orta Asiya ölkələrini gəzən çinli elçi Canq Çien *(Zhang Qian; e.ə.195/175-e.ə.114)* adlarını belə bilmədiyi ölkələrdə Çin mallarını görüb təəccüb etmişdi. Türklər qərbdə Don çayından şərqdə Çin paytaxtına, şimalda Sibirin tayqa zolağından cənubda Xorasan və Azərbaycana qədər olan böyük əraziyə sahib olduqdan sonra soğdlu tacirlərin ticarət imkanları da inanılmaz dərəcədə artdı. Türklər beynəlxalq ticarətdə soğdlardan vasitə kimi istifadə etdilər.

İstəmi yabqu soğdlu elçi Maniaxı *(Maniach/Maniakh; VI əsr)* Sasani paytaxtına göndərərək I Xosrov Ənuşirəvandan Sasani bazarlarında Türk ölkəsindən gələn mallara sərbəst ticarət imtiyazının verilməsini tələb etdi. Amma elçinin Sasani ölkəsi haqqında məxfi məlumatlar toplaması Ənuşirəvanı çox narahat etdi. I Xosrov bu təklifi qəbul etmədi. İstəmi yabqu Mədainə ikinci bir elçi heyəti göndərdi. I Xosrov



Ənuşirəvan İstəmi yabqunun niyyətini yaxşı bildiyindən hiyləyə əl atdı. Heyətdəki casusları gizlicə zəhərləyib öldürdü. Sonra belə bir şaiyə yaydı ki, "guya, Əcəmistanın (Fars bölgəsi) çox isti yer olması şimaldan gələn elçilərə pis təsir göstərib və onlar günvurmadan ölüblər". Soğdlu elçilər bunu İstəmi yabquya açıqladıqda Türk dövlət adamı onların sözlərinə inanmış göründü. Belə ki, Sasani hökmdarı Ənuşirəvan İstəmi yabquya sətiraltı "türklər şimal ölkəsində yaşayır və həmin ərazinin iqlimi sərtdir. Türk ordusu Sasani ölkəsinə girmək istəsə belə, iqlim şərtləri buna imkan verməyəcəkdir" mesajını göndərmişdi.

Ənuşirəvanın hərəkətini cavabsız qoyan İstəmi Bizansla əlaqələrini genişləndirdi. İstəmi yabqu sasaniləri beynəlxalq ticarət sistemindən kənarlaşdırmaq niyyətində idi. Bu məqsədlə o, elçi Maniaxı Bizans imperatoruna göndərdi. Elçi yabqunun "skif hərfləri" ilə yazdığı məktubunu imperatora təqdim etdi. Amma elçini Bizansda heyrətləndirən bir hadisə oldu. Soğdlar Bizansın ipək istehsalı və texnologiyasını bilmədiyi qənaətində idilər. İmperatorun əmrilə elçilərə Bizans sarayında istehsal edilən barama qurdlarının göstərilməsi onları təəccübləndirdi. Amma imperator II Yustinianın məqsədi elçilərin gözünü boyamaq və onların şərtlərini yumşaltmaq idi. Digər tərəfdən, Sasani şahı kimi Bizans imperatoru da türklərin ölkəsini istila etməsindən qorxurdu. Bu səbəbdən də bizanslılar türk elçilərini çətin keçilən Qafqaz yollarından gətirmişdi. Bununla türkləri Bizansa hücum etməkdən çəkindirmək niyyətində idilər. Tardunun Bizans elçisi Valentini öz hüzurunda təhqir etməsinin səbəbi bu olmuşdu.

576-cı ildə Tardunun oğlunun başçılığındakı ordu Bizans hakimiyyəti altında olan Bosforu ələ keçirdi. Türklər yollarına davam edərək, Krım və Qafqazdakı Bizans mövqelərinə zərbə endirdilər.

Beş il sonra türklər Xersones qapılarına dayandılar. Eyni tarixdə Türk ordusu Dərbəndi mühasirəyə aldı.

588-589-cu ildə türklər Orta Asiyada sasanilərə hücum etdilər. Baktriya və Toxaristan türklərin əlinə keçdi. Sürətlə hərəkət edən türklərin süvari birlikləri Heratı alıb Sistana soxuldular. Badgis alındı. Türk ordularına Tardunun kiçik oğlu Yanq-su (Tonqaç) başçılıq edirdi. Türk hücumunun qarşısını almaq istəyən Xorasandakı 70 minlik Sasani ordusu "Günəşin Aslan bürcünə daxil olduğu tarixdə" *(22 iyul-21 avqust 589-cu il)* baş verən döyüşdə darmadağın olub qaçmağa başladı. Təbəriyə görə, türklərin hökmdarı Sasani hökmdarına belə xəbər göndərdi: "Çay və su kanalları üstündəki körpüləri mənim keçib ölkənizə gələ biləcəyim şəkildə təmir edin. Körpüsü olmayan çaylar üstündə körpülər tikin. Çayları və su kanallarını elə hala gətirin ki, mən rahat şəkildə Rum diyarına gedə bilim. Məqsədim sizin ölkənizdən keçib Rum diyarına getməkdir".

Ancaq Tardunun başı Çin məsələsinə qarışdığı üçün sasanilərə qarşı hərbi əməliyyatlarını davam etdirmədi. Tardunun öldürülməsindən sonra yerinə nəvəsi (Tulunun oğlu) Taman Tigin *(604-611)* keçdi. O, "Çilo xaqan" adıyla Qərbi Göytürk (Türk) dövlətinin ilk xaqanı oldu. Yeni xaqan həm səriştəsiz, həm də siyasi iradədən məhrum idi. O, xaqanlığı iki inzibati idarə vahidinə ayırdı. Mərkəzi Daşkəndin şimalında yerləşən birinci inzibati vahid Soğd şəhərlərinə nəzarət edirdi. İkinci bölgənin mərkəzi Kuçanın şimalında Yinq-po (Yengi-kənt) idi. Bu əyalət Çinlə sərhəd təşkil edirdi. Çilonun əlində böyük torpaq sahəsi və geniş iqtisadi imkanlar vardı. Amma o, öz təbəəsinə qarşı düzgün siyasət aparmırdı. Səriştəsizliyi ucbatından töles boyları üsyan edərək xaqanı ağır məğlubiyyətə uğratdılar. Çilo xaqanın məğlubiyyəti ölkədə siyasi parçalanmalar yaratdı. Cəsarətilə xalq tərəfindən böyük rəğbət görən Baqa özünü xaqan elan etdi. O, qısa vaxtda Hami, Koço, Qaraşar kimi böyük ticarət şəhərlərini ələ keçirdi.

Aldığı məğlubiyyətdən sonra Çilo Çin sərhədində bir bölgəyə qaçdı və 619-cu ildə orada öldürüldü.



611-ci ildə Qərbi Türk xaqanlığı taxtına Tardunun nəvəsi Şadqu *(Şekuy; 611-618)* çıxdı. Kuçanın şimalında yer alan Sanmişanı ölkənin paytaxtı elan etdi. Qısa müddətdə Qərbi Türk xaqanlığı daxilində asayişi bərpa edib, Tun-huanqın qərbində yerləşən Yeşim Qapısı aşrımından Bizansa qədər ərazini yenidən öz hakimiyyəti altında birləşdirdi. Beləliklə, Qərbi Türk xaqanlığı yenidən vahid bir mərkəzdən idarə edilməyə başlandı.

Şadqu xaqanın hakimiyyəti uzun sürmədi. 618-ci ildə bilinməyən bir səbəbdən vəfat etdi. Yerinə kiçik qardaşı Tonq yabqu *(618-630)* keçdi. Çin mənbələrində "ağıllı və cəsur hökmdar" kimi təqdim olunan Tonq yabqu zamanında Qərbi Türk xaqanlığı son inkişaf dövrünü yaşadı.

Üsyankar töles boylarını yenidən öz hakimiyyəti altına alan Tonq yabqu babası Tardunun sasanilərə qarşı təqib etdiyi siyasəti davam etdirdi. Sasani dövlətini üst-üstə bir neçə dəfə ağır məğlubiyyətlərə uğradan Tonq yabqu Toxaristan və Xorasanın bir hissəsini öz dövlətinin tərkibinə daxil etdi. Paytaxtı Kuçanın şimalında yerləşən Sanmişandan Daşkəndin şimalındakı Min-bulağa köçürdü. Qərbi Türküstandakı soğd bəyliklərini də nəzarət altına alan Tonq yabqu əmisi Bahadır (*Baqatur*) tərəfindən 630-cu ildə öldürüldü.

Tonq yabqunun imza atdığı digər bir tarixi hadisə Qara dənizin şimalında və Qafqazda məskunlaşan türk xalqlarını xəzər kimliyi ətrafında birləşdirmək oldu. O, xəzərlərə Aşina ailəsindən bir bəyi hökmdar təyin etdi. Bəzi mənbələr onun Tonq yabqunun oğlu Börü şad olduğunu yazır. Tonq yabqunun vəfat etdiyi tarix Qafqazda və Qara dənizin şimalında Xəzər dövlətinin yarandığı tarix hesab olunur. Çincə mənbələr yaranan bu dövləti Türk-Xəzər adlandıraraq, birbaşa Göytürklərin davamı hesab edirlər.

Tonq yabqunun bir başqa siyasi nailiyyəti Xorasan və Əfqanıstan türklərini oğlu Tardu şadın idarəsi altında birləşdirərək paytaxı Kunduz olan Toxaristan yabquluğunun

təməllərini atdı. Tardu şadın nəsli uzun müddət bölgəni idarə etdi.

Tonq yabqunun buddist rahiblərə böyük hörmət etdiyi məlumdur. 626-cı ildə onu ziyarət edən hindli rahib Prebhakaramitranı, 629-cu ildə Min-bulağa gələn çinli buddist rahib Hsüan-tsanqı yüksək səviyyədə qəbul edən Tonq yabqu onlara qiymətli hədiyyələr təqdim etdi.

Tonq yabqunu öldürərək xaqanlıq taxtını ələ keçirən Bahadır ölkənin istiqrarını qoruya bilmədi. Atasının ölüm xəbərini Məvəraünnəhrdə eşidən Hsi-li Tigin Bahadırın hakimiyyətini tanımadı və ona qarşı müharibəyə başladı. Töleslərin *nuşepi* tayfaları onu öz xaqanları elan edərək töleslərin *tulu* tayfaları tərəfindən dəstəklənən Bahadıra qarşı hücum etdilər. Baş verən döyüşdə Hsi-li Tigin əmisinin ordusunu məğlub edərək qaçmağa məcbur etdi. Daha sonra Qərbi Türk xaqanlığı taxtını ələ keçirərək Yabqu xaqan adını aldı.

Çox "şübhəçi, inadkar və iftiraçı" biri adam olan Yabqu xaqan ölkəsinin bütünlüyünü qoruya bilmədi. Az vaxtda ətrafındakılar ondan uzaqlaşmağa başladı. Nuşepi tayfalarının rəisi Ni-şu Bağa şad qarşısında məğlub olub Məvəraünnəhrə qaçdı. Qərbi Türk xaqanlığı nuşepi tayfalarının nəzarətindən çıxdı. Bu, 631-ci ildə Qərbi Türk xaqanlığının süqutuna səbəb oldu.

### 5.1.4. İkinci Göytürk xaqanlığı

Şərqi və Qərbi Göytürk xaqanlıqları eyni tarixdə yaranıb, eyni tarixdə də süqut etdilər. Hər iki xaqanlıq ən qüdrətli dövrlərində ortadan qalxdı. Buna səbəb kimi aparılan düzgün olmayan islahatlar, idarəçilik sisteminin hər xaqan tərəfindən tez-tez dəyişdirilməsi, türk boyları arasında dövlətə qarşı narazılıqlar, Çinin intriqaları göstərilir. Beləliklə, Çinin Tanq dövləti ən zəif olduğu dövründə





*İkinci Göytürk xaqanlığının təxmini sərhədləri*

Türk xaqanlıqlarının dağılması ilə birdən-birə güclənmiş və asan şəkildə türk torpaqlarını öz nəzarəti altına almışdı. 630-681-ci illər arası Göytürklər üçün siyasi tənəzzül dövrü hesab edilir.

Göytürk xaqanlıqlarının parçalanmasından sonra hər tayfa öz başçısını xaqan elan etdi. Türk dövlətinin mərkəzini sir-tarduşlar ələ keçirdi, Orta Asiyada on-ok boyları müstəqil oldular. Uyğur, karluq, basmıl, oğuz boyları isə Göytürk xaqanlarının nəzarətindən çıxaraq sərbəst hərəkət etməyə başladılar. Göytürk xaqanlığının əsasını təşkil edən 24 türk tayfası isə Çin hakimiyyətini qəbul etdi. Çin hər bir tayfanın başçısına hərbi dərəcələr verərək onlardan hərbi qarnizonlar yaratdı. 650-ci ildə Çinin hərbi qarnizonu hesab edilən 24 belə əyalət mövcud idi. Bu əyalətlərin əmrində 100 mindən çox türk əsgəri vardı. Qarnizon başçıları hesab edilən türk bəylərinin hamısı Çin siyasətini qəbul etmirdi. Bir çoxu yenidən Göytürk xaqanlığını yaratmaq üçün fürsət axtarırdı.

Türk kitabələrində Göytürklərin Çinin təsiri altında olduğu 630-681-ci illər arasındakı dövr çox gözəl şərh

edilmişdir: "*Elli* (dövlətli) *xalq idim, elim indi hanı? Kimə el qazanıram? Xaqanlı xalq idim, xaqanım hanı? Hansı xaqana iş, güc verirəm*".

Türklərin ilk üsyanları uğursuzluqla nəticələndi. Ancaq türklər Çinə qarşı mübarizəni dayandırmadılar. Üsyankarlar Çoqay-quzi adlanan dağda Qutluq *(682-692)* ətrafında toplandılar. O, Türk xaqanları soyundan olub, İkinci Göytürk dövlətinin təməllərini atdı, 682-ci ildə özünü xaqan elan etdi.

Göytürk xaqanlığının yarandığını eşidən türklər Çinin nəzarəti altındakı əyalətləri tərk edərək Qaraqoruma gəlib, Qutluğun hakimiyyəti altına girməyə başladılar. Çin nəzarətindən qaçanlardan biri də Qutluq xaqanla birlikdə adı Göytürk tarixində əbədiləşən Tonyukuk idi. Qutluq xaqan tərəfindən "Apa Tarkan" adı verilən Tonyukuk hərbi birliklərə nəzarət etmək və xaqanın "ordu naziri" vəzifəsinə layiq görülmüşdür. Tonyukukun da türklərin Aşina soyundan gəldiyi qeyd edilir.

Qutluq xaqan əvvəlcə üzünü Göytürk nəzarətindən çıxmış türk boylarına çevirdi. Çin imperatoru yaranan Göytürk xaqanlığının qüvvətlənməsinə imkan verməmək üçün türk boylarından oğuzlar, sir-tarduşlar və monqol tayfası kitanlar ilə ittifaq yaratmaq niyyətində idi. Tonyukukun məsləhəti ilə bunların birləşməsinə fürsət verməyən Qutluq xaqan oğuz boyları üzərinə hücum edərək onları öz hakimiyyəti altına aldı.

Qutluq xaqanın ən böyük xidməti Çin hakimiyyəti altına girdikdən sonra Çində təhsil almış türkləri öz ətrafında toplaması oldu. 630-681-ci illər arasında Tanq paytaxtı Chanq-anda çox sayda türk təhsil almışdır. Bunun səbəbi Çindəki Tanq dövlətinin özünün çinliləşmiş türklərdən meydana gəlməsi idi. Tanq sülaləsinin banisi Li Yüan çinliləşmiş bir türk idi. Çinliləşməsinə rəğmən, onun hələ də türk adətlərini tərk etmədiyi ortaya çıxır. Ətrafındakı iki böyük komandan və dövlət adamı Çi-pi Ho-li uyğur əsilli,



Şe-ni isə türklərin Aşina ailəsində gəlirdi. Onlar çincəni sonradan öyrənmiş türk bəyləri idi. Buna görə də Tanq ailəsi yarı türk və yarı çinli hesab edilirdi.

Qutluq xaqan Çinə Orta Asiya boylarının daxili işlərinə qarışmağa fürsət vermədi. Təşkil etdiyi hücumlarla Şimali Çin əyalətlərini təsiri altına aldı. Daha sonra Çin orduları məğlubiyyətə uğradı və komandanları öldürüldü, bəziləri əsir alındı.

Qutluq xaqan 692-ci ildə anidən xəstələndi və bir neçə aydan sonra öldü. O, qısa hakimiyyəti dövründə Çinlə 17, kitanlarla 7, oğuzlarla 5 dəfə müharibə etmiş və hamısında da müzəffər olmuşdur. Türk kitabələrində onun "dövlət yaratmaq yolunda 17 nəfərlə başladığı mübarizədə ordusunun 70, sonra da 700 nəfərə çıxdığı və türk törəsini yenidən bərpa etdiyi" qeyd edilir.

Qutluq xaqan taxta qardaşı Bögünün keçməsini vəsiyyət etmişdi. Türklər onu Qapağan xaqan *(Moçur; 692-716)* adıyla taxta oturdular.

Qapağan 24 il xaqanlıq etdi. O, ən uzun hakimiyyətli Göytürk xaqanı oldu. Qapağan xaqan "çox zəhimli, sərt və ciddi" xarakterə sahib idi. Çin mənbələri onun üçün "Çini ən çox qorxudan hökmdar" ifadələri işlədirlər. Taxta keçdikdən bir il sonra Qapağan xaqan ordunun başına keçərək Tanq imperiyasının şimal torpaqlarının zəbtinə başladı. Ağıllı siyasəti nəticəsində Tanq imperiyası qısa zamanda onun üstünlüyünü qəbul etmək məcburiyyətində qaldı. Qapağanın siyasəti Çini daxildən qarışdırıb, tamamilə özünə tabe etmək məqsədi daşıyırdı. 695-ci ildə Çin sarayına bir elçi göndərən Qapağan Tanq sarayından illik xərac tələb etdi. Çin sarayı qısa vaxtda onun tələblərinə boyun əydi. Beləliklə, 630-cu ildən sonra Çin yenidən Türk xaqanlarına illik xərac ödəmək məcburiyyətində qaldı.

Çin üzərində yaratdığı qorxu və təzyiq Qapağan xaqanın nüfuzunu artırdı. Göytürk hakimiyyətindən uzaqlaşmış Orta Asiya türk xalqlarını öz nüfuzu altına alan

Qapağan 696-cı ildə qırğızlar və on-ox boylarını öz hakimiyyətinə tabe etdirdi. Qapağan xaqan dövründə İkinci Göytürk xaqanlığının sərhədləri əvvəlki formasını aldı. Qərbdə Krım yarımadasından şərqdə Koreyaya, cənubda Şimali Çin-Əfqanıstan-Azərbaycandan şimalda Sibirin mərkəzinə qədər böyük ərazi Türk imperiyasının hakimiyyəti altında yenidən birləşdi. Bu yeni şərtlər dövlətin idarəsinin yenidən təşkilatlandırılmasını tələb edirdi. Bu səbəbdən Qapağan xaqanlığı ənənəvi türk hakimiyyət anlayışına görə iki hissəyə ayırdı: sol qanad şadlığı (*sol şadabıd*) və sağ qanad şadlığı (*sağ şadabıd*). Qardaşı Tu-hsi-funu (Tuğ Saba) sol qanad şadı, Qutluq xaqanın oğlu Mo-çünü (Bilgə) sağ qanad şadı təyin etdi. Özü "böyük xaqan" və ya "xaqanlar xaqanı" elan edildi. Oğlu Fu-çü (Bögü) vəliəhdi və "kiçik xaqan" oldu. O, sağ və sol şadlara nəzarət edirdi. Tonyukuk baş vəzir və ağsaqqallar məclisinin başçısı seçildi. Şərqi Türküstandakı türklər on boy halında on-ox boylarını təşkil etdi və hər boyun rəisinə öz ölkəsini idarə etmək üçün hakimiyyət rəmzi olan bir ox verildi. Xaqanlığın qərbi hissəsi *t'o-hsi* ("geniş qərb" mənasına gəlir) oldu və geniş hərbi səlahiyyətlər aldı. Şimali Xəzər, Şimali Qaradəniz, Azərbaycan daxil olmaqla, Qafqaz *t'o-hsi* (*batı*) idarəsinə verildi.

Sonrakı illərdə Qapağan xaqan ordusunu iki hissəyə ayırdı. Birinci orduya özü başçılıq edib Çin səfərlərini təşkil edərkən, ikinci ordu kiçik xaqan Bögü (İnal adı daşıyırdı), Bilgə şad və Tonyukukun əmrinə verildi. Onlar dövlətin qərbində hərbi fəaliyyətləri həyata keçirdi. Bu məqsədlə qərb ordusu Bolçu döyüşündə üsyan etmiş türkeşləri məğlub etdi. Balxaş, İssıq göl və Talası yenidən ələ keçirərək on-oxların *nuşepi* və *tulu* boylarını öz hakimiyyətləri altına aldı. Arxasından Kəngü Tarban (Mavəraünnəhr), Otrar və Arıs çayı ətrafı torpaqları da yenidən xaqanlığa bağlandı. 700-cü ildə isə Bilgə şad tanqutları məğlub etdi. 701-ci ildə Türk ordusu "Dəmir qapı" Dərbəndə çatdı. Türklərin bir



dəstəsi də Mavəraünnəhrin Qızılqum çölünü keçib Xorasan istiqamətində hərəkət edərək Xəzər dənizinin cənub-şərq bölgəsini nizamladı. Digər bir dəstə isə Yincü Oğuz (Seyhun-Sır dərya) çayı ətrafında Göytürk hakimiyyətini bərqərar etdi. 703-cü ildə üsyan edən basmılları məğlub edərək Cunqariya üzərindəki hakimiyyətini qüvvətləndirən Qapağan Qaraşar, Kuça, Qaşqar və Hotən kimi Şərqi Türküstan bölgəsində də öz nüfuzunu yaydı. Artıq Göytürk torpaqları Şimali Hindistana qədər uzanırdı.

712-ci ildə Çin taxtına Hsüan Tsunq adlı yeni imperator çıxdı. O, türklərin hakimiyyətindən xilas olmaq üçün Qapağan xaqanın sui-qəsd yoluyla öldürülməsini əmr etdi. Bu məqsədlə müxtəlif tayfalara elçi olaraq göndərilən çinli casuslar hər vasitə ilə onları Göytürk dövlətinə qarşı üsyan etməyə təşviq edirdi. Bu casuslardan biri çinli Ho Linq-çüan bayırku tayfasına elçi göndərilmişdi. Onun uzun çalışmaları sonunda bayırkular üsyan etdilər. Üsyanın yatırılmasını əmr edən Qapağan xaqanın özü dərhal bayırkular üstünə hərəkət etdi və Tola çayı ətrafında onları məğlub etdi. Döyüş meydanından qaçan bayırku hökmdarı öz adamları ilə Söyüd meşəsində gizləndi. Bayırkuları məğlub edən Qapağan əsas ordusunu döyüş meydanında buraxıb yaxın adamları ilə geri dönərkən, Söyüd meşəsində gizlənmiş bayırkuların hücumuna məruz qalıb, 716-cı ilin iyulun 22-də öldürüldü. Qapağan xaqan hakimiyyətinin son səkkiz ili demək olar ki, ölkəsi daxilində Çinin əliylə meydana gələn üsyanları yatırmaqla keçdi.

Qapağan xaqan öldürülüncə yerinə oğlu İnal Bögü keçdi. Lakin onun hakimiyyəti bir il belə davam etmədi. Ölkəni idarə etmə qabiliyyətinə sahib olmadığı ortaya çıxınca Qutluq xaqanın oğlanları Bilgə ilə Kültigin ona qarşı bir dövlət çevrilişi hazırladılar.

Qutluqun böyük oğlu Bilgə 683-cü ildə, kiçik oğlu Kültigin isə 684-cü ildə anadan olmuşdu. Onlar əmiləri Qapağan zamanında böyük şöhrət əldə etmiş və yüksək

vəzifələr tutmuşdular. 716-cı ildə Kültigin bütün boyu toplayıb İnal Bögünü hakimiyyətdən uzaqlaşdıraraq, qardaşı Bilgəni *(716-734)* xaqan elan etdi. Özü isə *sol şadabıd bəyi*, yəni xaqandan sonra ikinci şəxs oldu. İnal Bögü dövründə dövlətin başına keçmiş səriştəsiz adamların hamısı edam edildi. Sadəcə, Tonyukuk öz vəzifəsində qaldı. Tonyukuk eyni zamanda Bilgə xaqanın qayınatası olub, bu vaxt 70-dən artıq yaşı vardı.

Bilgə xaqan Çinlə dostluq şəraitində yaşamaq məcburiyyətində qaldı. Çünki əmisi Qapağanın siyasəti bütün boyları narazı salmış və onlar üsyan halında idilər. Boyların çoxu Çinlə ittifaq yaratmışdı. Bu vəziyyət qarşısında Bilgə xaqan, Kültigin və Tonyukuk üç siyasət həyata keçirdilər. Birincisi, boyların üsyanını yatırmağa çalışdılar. Bu məqsədlə Bilgə xaqan 720-ci ilə qədər, yəni hakimiyyətinin ilk üç ilini bu üsyanları yatırmaqla keçirdi. İkincisi, Çinlə dostluq münasibətləri yaradaraq ölkə daxilindəki sabitliyi qorumağa çalışdı. Üçüncüsü isə, Çin əleyhdarı ideologiyanı təbliğ edərək "türk-oğuz birliyi" anlayışını mərkəzə yerləşdirdi.

Digər tərəfdən, Çin, Göytürk dövlətinin yaşadığı siyasi böhrandan faydalanmaq istədi. Bu məqsədlə basmıl, tatabi, kitan və Çin ittifaqı yaradaraq təxminən 300 minlik ordu ilə dörd tərəfdən Göytürk ölkəsinə hücuma keçdi. Tonyukukun ağıllı məsləhətləri ilə türklər müttəfiqlərin birləşməsinə imkan verməyib, 720-ci ildə onları ağır şəkildə məğlub etdilər.

Lakin ölkəsindəki siyasi vəziyyətin gərginliyini nəzərə alan Bilgə xaqan məğlubiyyətdən sonra Çinin yaranmış ağır vəziyyətindən istifadə etmədi. Buna səbəb Tonyukukun ona "ölkənin sülhə və əmin-amanlığa ehtiyacı olduğunu, illərdir döyüşən türklərin çox yorulduğunu, xalqın böyük çətinlik çəkdiyini" nəzərə almasını məsləhət görməsi olmuşdur. Ayrıca, Tonyukuk buddizmə meyil edən Bilgə xaqanı bu həvəsindən uzaqlaşdırmış və buddizmi qəbul edərsə, "ölkəsinin



yox olacağını" ona bildirmişdi. Çünki buddizm türklərin həyat tərzinə uyğun din deyildi. Tonyukuka görə, buddizm türkləri döyüşçü ruhundan uzaqlaşdıracaqdı. Halbuki əhalisi az olan türklər döyüşçü ruhları sayəsində əhali cəhətdən özlərindən qat-qat çox olan Çini məğlub edirlər. Bilgə xaqan onun bu məsləhətlərinə sadiq qalmışdır.

Çinlə bağlanan sazişdən sonra əvvəl böyük dövlət adamı Tonyukuk *(731-ci il)*, sonra Bilgə xaqanın qardaşı Kültigin *(731-ci il)* vəfat etdi. Bu iki böyük dövlət adamının ölümü Bilgə xaqanı çox kədərləndirdi. İki böyük dövlət adamının yoxluğundan istifadə edən boylar yenidən üsyan bayraqlarını çəkdilər. 733-cü ildə Bilgə xaqan tatabi xalqı üzərinə bir səfər təşkil etdi. Töngkər dağında meydana gələn döyüşdə tatabilər məğlub oldular. Bilgə xaqanın ordusu onların 30 min əsgərini öldürdü.

Lakin 734-cü ildə Bilgə xaqan bir sui-qəsdə məruz qaldı. Sui-qəsd Çin sarayı ilə əlbir olan Böyük Çorun adlı türk elçisi tərəfindən təşkil edildi. Zəhərlənən xaqan bir müddət yaşadı və sui-qəsddə iştirak edənlərin hamısını qətl etdirdi. Bilgə xaqan 734-cü ilin 25 noyabrında vəfat etdi. Cənazəsi türk törəsi gərəyi bütün obalarda gəzdirildikdən sonra 735-ci ilin 22 iyununda torpağa tapşırıldı. Öldükdə 40 yaşı vardı.

Bilgə xaqanın vəfatından sonra taxta oğlu Yığan çıxdı. Lakin Yığan xaqan bir il hökmdar oldu və bir xəstəlik nəticəsində vəfat etdi. Yerinə qardaşı xaqan elan edildi.

735-cü ildə taxta çıxan Yığanın qardaşı "Bilgə Qutluq xaqan" *(735-740/741)* adını aldı. Çin mənbələrində isə o, "Tenq-li" (Tenqri) xaqan olaraq xatırlanır. Onun hakimiyyətə kiçik yaşda keçdiyi qeyd edilir. Lakin atası Bilgə xaqanın 40 yaşında vəfat etdiyi nəzərə alınarsa, onun taxta çıxdıqda yeniyetmə bir gənc olduğu ortaya çıxar.

Gənc yaşda olması anası Bögü Xatunun (Tonyukukun qızı) dövlət işlərində söz sahibi olmasına yol açdı. Hətta vəzir Yü-ssu Tarkan (Uz Tarkan) ilə gizli ittifaq qurub,

dövlət nəzarətini tamamilə öz əlinə almağa çalışdı. Lakin onların gizli ittifaqı digər dövlət adamlarının narazılığına səbəb oldu. Xüsusilə dövlətin sağ və sol qanadlarının idarəsini əlində tutan xaqanın əmiləri narazı qüvvələrin başında gəlirdi. Buna görə Bögü Xatun-Yü-ssu Tarkan bu iki şadı öldürmək istədilər. Əvvəlcə təşkil edilən bir suiqəsdlə sağ şadabıd bəyi öldürüldü. Hadisəni eşidən sol şadabıd bəyi Pan Kültigin paytaxta hücum edərək Tenqri xaqanı öldürüb, yerinə onun qardaşı Ku-tuo (Qutluq) Yabqunu xaqan təyin etdi *(740/741)*. Lakin bu çevrilişdə ona heç kəsin dəstək verməməsi İkinci Göytürk xaqanlığının süqutuna səbəb oldu. Bundan istifadə edən basmıllar hücuma keçərək Pan Kültigini məğlub etdilər.

Göytürk hakimiyyəti uğrunda taxt mübarizəsinin qızışması türk boylarının müstəqil siyasət aparmasına səbəb oldu. Çinin dialoqu ilə Basmıl bəyi Çie-tie-i-şih başçılığında birləşən basmıl, uyğur və qarluq qüvvələri 742-ci ildə Ötükənə hücum edərək son Göytürk xaqanı Özmiş xanı öldürdülər. Basmıl bəyi Çie-tie-i-şih "Aşina Ho-la Bilgə Xaqan" adı ilə xaqan elan edildi və İkinci Göytürk xaqanlığı süqut etdi.





# 5.2. TÜRK MƏDƏNİYYƏTİ

## 5.2.1. Türk eli və xalqı

Göytürklərin sahib olduqları torpaqlar şərqdə Koreyadan qərbdə Roma imperiyasına qədər Avrasiyanın mərkəzi boyunca uzanan geniş ərazini əhatə edirdi. İslam mənbələri bu əraziləri *Türk ölkələri*, *Türk yurdları* və ya *Türk eli* adlandırırlar. Türklərin özləri isə bu torpaqlara "Türk məngü" (Əbədi türk) adını verirdi. Qədim çincə mənbələrdə bu bölgəyə *Hsi-yü*, yəni "Qərb torpaqları" deyilirdi. Bu coğrafi termin Xan sülaləsi dövründə *(e.ə.206-e.220)* Tanrı dağlarının cənubundakı Yü-mənin (Yeşim daşı qapısı) qərbindəki əraziləri ifadə etmək üçün ortaya çıxıb. Hunlara aid olduğunu düşündükləri bu bölgəni çinlilər İpək yolu üstündə təsvir edirlər. Əvvəllər 36 məmləkətin, daha sonra 50-dən çox dövlətin yerləşdiyi bölgə Pamir dağı mərkəz olmaqla, şərqdə Lop-nor gölünə tökülən Tarım çayı sahilindəki Şərqi Türküstan torpaqlarını, qərbdə Aral Gölünə

axan Amu-dərya və Sır-dərya çaylarının ətrafındakı vadilər ilə Çu və Talas çayları ətrafındakı əraziləri də əhatə edən Qərbi Türküstanı, şimalda Balxaş, İssıq göl və Ala göl ətrafındakı ərazilər ilə İli çayı və Cunqariya hövzəsini içinə alan Tanrı dağlarının bütün şimal bölgələrini, cənubda isə Qaraqorum və Hinduquş dağlarına qədər sahəni əhatə edirdi.

*Hsi-yü* bölgəsi Böyük Hun imperiyasının dağılmasından sonra əvvəlcə 36, daha sonra isə 50 dövlətə (əyalətə) parçalandı. Hər biri bir şəhər dövləti və ya əyalət böyüklüyündə olan bu dövlətlərin siyasi gücü məhdud olub, əhalisi az idi. Sahib olduqları kiçik əraziləri *bəy* statuslu şəxslər idarə edirdilər. Ancaq aralarında Hsi-yü əyalətinə daxil olmayan qədim Quşan, An-hsi (Parf/Parfiya) kimi ölkələr də vardı.

Belə məlum olur ki, Şərqi Türküstan daxil olmaqla, Orta Asiya, Əfqanıstan və Xorasanı əhatə edən çinlilərin Hsi-yü adlandırdığı bölgənin ərazisi tarixin müxtəlif dövrlərində genişlənib, kiçilmişdir. Böyük Hun dövlətinin süqutundan sonra burada meydana gələn çox sayda əyalət dövlətləri və bəylikləri sonrakı mərhələdə Göytürk xaqanlığının sahib olduğu əraziləri təşkil etmişdi. Bu ərazilərin cənub-şərq hissəsi VII əsrin ortalarından etibarən müsəlmanların yaşadığı ərazilərin bir parçası halına gəldi.

Müsəlman coğrafiyaşünasları Səmərqənd, Buxara, Xarəzm, Keş, Daşkənd, Fərqanə bölgələrinin yer aldığı Mavəraünnəhr bölgəsini *Haytal yurdu* (Eftalit) olaraq təsvir edirlər. Haytal adı Eftalit adının ərəbcə tələffüzü idi. Müqəddəsiyə görə, Haytal yurdu şərqdən qərbə doğru 6 əyalət və 4 böyük mərkəzdən ibarət olub, Fərqanə, İsficab, Şaş, Usruşana, Səmərqənd (Soğd) və Buxaranı əhatə edirdi. "Bölgənin kənarında yerləşən Fərqanə çuxur torpaqlara çatmadan şərq ərazilərini içinə alır. Torpağı bərəkətlidir. 40 məscidi var. Mərkəzi Axsikətdir. Digər şəhərləri Məyanrudiyyə, Nəsrabad, Mənarə, Rəncəd, Şikit, Zarəkan, Xayralam,



Bişabişan, Uştikan, Zərəndəramiş, Uzkənd idi. Nisanın şəhərləri Oş, Quba, Birink, Marginan, Riştan, Vankət, Qənd, Vagezin şəhərləri Bukənd, Kasan, Bab, Carek, Uşt, Tubkar, Uval, Dəkərkərd, Nevkad, Muskan, Bikan, Çadqal və Şavedan idi". Müqəddəsinin verdiyi məlumatlar Göytürk xaqanlığının sahib olduğu əraziləri əhatə edirdi.

Çincə mənbələrdə Türk əyalətlərinin əhalisinin sayı haqqında müxtəlif deyimlər mövcuddur. Çincə səyahət raportlarında xaqanlığın ərazisində yaşayan əhalinin sayı əyalətlərə görə tərtib edildiyindən dəqiq olaraq türklərin sayını təyin etmək çətindir. Bu cəhətdən "*Chiu Tanq-şu*"-da yer alan məlumatı daha etibarlı qəbul etməliyik. Həmin mənbəyə görə, "Türk yurdunda yay çəkənlərin, yəni əsgərlərin sayı 1 milyondan çox idi". Çincə səyahət raportlarını əsas götürərək orta hesabla hər 5 nəfərlik ailədə bir nəfərin əsgər olduğunu düşünsək, Türk xaqanlığında türklərin ümumi sayı 5 milyondan bir qədər artıq olmalıdır.

Göytürk bölgəsinin ana kütləsini təşkil edən *türk künü* (türk xalqı) çox sayda boylara, obalara, oymaqlara ayrılırdı. Şərqdən qərbə doğru Mərkəzi Avrasiya xətti boyunca sıralanan türk tayfaları bir neçə böyük ittifaqda birləşmişdilər. Göytürk xaqanlığı təməldə iki ittifaqa söykənirdi. Türk kitabələrində bu iki ittifaq *türk və oğuz* adı ilə zikr edilir. *"Türk"* Göytürklərin xanədan boyu daxil olmaqla, birdən çox böyük tayfanı (qarluq, xəzər və s.), *"oğuz"* isə qədim skif və töles tayfalarını özündə birləşdirirdi. Göytürklər dövründə oğuz ittifaqı da öz daxilində bir neçə ittifaqa ayrıldı: *doqquz oğuz*, *on uyğur*, *on-oxlar*, *altı sir*. Türk xaqanlığı 100-dən çox türk tayfasının birliyinə əsaslanırdı. Xaqanlığın başında *xaqan* dayanırdı. Çin salnamələrinə görə, "Türklərin xaqan titulu qədim zamanlarda (hunların daşıdığı) şanyü (yabqu) tituluna bərabər idi. Xaqanın arvadının titulu *xatun* idi və bu ad da qədim zamanlarda *yencih* (yengə) titulunun qarşılığı idi. Xaqanın oğlanlarına və qardaşlarına *tigin*, başqa boyları əmrindəki ordu ilə birlikdə

idarə edən tiginlərə isə şad deyilirdi. Dövlətin rəsmi idarə sistemində yer alan (məmurların titullarına) gəldikdə ardıcıllıqla *külüg çor*, *alp*, *eltəbər*, *tudun* və ərkin gəlirdi. Onlar həmin mövqedə vəkalətən də yer ala bilirdilər. Lakin bir nəfərin vəkalət etdiyi idari məqam birdən çox ola bilərdi. Birinin atası və ya böyük qardaşı öldükdə oğlu və ya qardaşlarından biri onun yerinə keçirdi".

Türk boyları bu siyasi-hərbi və idari sistemin ətrafında yer alırdılar. Hun dövlət sistemini olduğu kimi tətbiq edən Göytürklər, öz sələflərindən fərqli olaraq, hər ittifaqın və boyun başına xanədandan bir nümayəndəni hakim təyin etdilər. Belə olan halda, xaqanlığın zəiflədiyi dövrdə idarə etdiyi boyların siyasi-hərbi gücünə arxalanan bəylər hakimiyyət üçün təhdid təşkil edirdilər. Nuşepi və tulu boylarının bəyləri bu yolla sıra ilə bir müddət xaqanlığa sahib oldular. Bəzi böyük türk boyları isə özlərinin Göytürk xanədan ailəsindən gəldiyini iddia edərək mərkəzi hakimiyyəti ələ keçirməyə meyil etdilər. Qarluqlar həmin iddia ilə meydana çıxaraq uzun illər uyğurlarla müharibə apardılar.

## 5.2.2. Türk dili, ədəbiyyatı və kitabələri

Göytürk dövrü türk dilində ilk yazılı əsərlərin ortaya çıxması cəhətdən əlamətdardır. Dilimizin ilk yazılı əsərləri bu dövrdə ərsəyə gəlib. Türk xaqanlığının dövlət dili türk dili idi. Dövlət dairəsində, orduda, xalq arasında bu dildə danışılır və diplomatik münasibətlər bu dildə aparılırdı.

Göytürklərin *(542-742)* danışdıqları türk dili, dilimizin qədim dövrünü əhatə edir. Kiçik ləhcə fərqlərini nəzərə almasaq, bütün türk xalqlarının vahid bir dildə danışdıqlarını rahatlıqla deyə bilərik.

Çin mənbələrində türklərin dili və yazı sistemi haqqında fərqli məlumatlar verilib. Bəzi salnaməçilər türklərin



yazı sistemlərinin olduğunu qeyd edərkən, bəziləri "yazısız millət" olduqlarını yazıblar. *"Çou-şu"*da "türklərin yazısı *hu* barbarlarının yazısına oxşayır" deyilir. Burada *"hu barbarları"* hunlara işarədir.

Göytürklərin özlərinin bir yazı sisteminin olduğunu deməyə ehtiyac yoxdur. Çünki bunu bizə qədər gələn türk kitabələri isbat edir. Bu kitabələr *runik* və ya *runi* adı verilən əlifba ilə yazılıb. Türk runik əlifbasının yaşı və mənşəyi haqqında müxtəlif fikir və iddialar mövcuddur. Müasir türkologiya türk runik əlifbasının mənşəyinin soğdlar vasitəsi ilə türk dilinə tətbiq edilmiş *arami* əlifbası olduğu fikrini təsdiq edir. Amma finikiya (fenike) yazısının, piktoqrafiya və ideoqrafiyanın, anqlo-sakson və ya skandinav runik əlifbasının, parfiya/pəhləvi, soğd-xarəzm, baktriya yazılarının, hind mənşəli *haroşti* əlifbasının türk yazı sisteminin təməlini təşkil etdiyini iddia edən alimlər də var. Türk yazı sisteminin əsasən *arami* əlifbası və damğa sistemindən yarandığı fikri mötəbər qəbul edilir.

Türk runik əlifbasını bir mənşəyə bağlamaq elmi cəhətdən isbatlanması mümkün olmayan bir məsələdir. Çünki ortaya atılan bütün iddialar tam olaraq özünü doğrultmayıb. Runik əlifbasının ilk nümunələri sayılacaq damğa işarələrinə indiki Pakistan ərazisində yerləşən və e.ə.3500-cü ilə aid olan Harappa daşında rast gəlmək mümkündür. Yaş etibarilə Misir və Şumer yazılarından da qədim olan bu kiçik yazı qədim çinlilərin dediyi kimi, hunların və türklərin bir taxta parçası üzərinə müqavilə məqsədilə çəkdikləri xətlərə oxşayır. Bu yazı parçasındakı işarələrə Türkmənistan ərazisində yerləşən Anau xarabalığından tapılan e.ə.2300-cü ilə aid bir möhürdə də rast gəlirik. Hər iki yazının türk runik əlifbasından yola çıxaraq oxunmasına çalışılsa da, bu oxunuşların doğruluğu mübahisəlidir. Tarix etibarilə türk runik yazılarına ən yaxın yazılı sənəd Qazaxıstanda tapılmış Esik (İssıq) kurqanındakı işquz məzarından çıxan bir gümüş qaba həkk olunmuş 26 hərflik (16

hərfi fərqli) yazıdır. Bu yazının bir neçə oxunuşu gerçəkləşib. Qazax alimlərindən O.Süleymenov və A.S.Amanjolov (Алтай Сәрсенұлы Аманжолов; 1934-2012) tərəfindən oxunan həmin yazının türkcə olma ehtimalı çox yüksəkdir.

Kabilin cənub-qərbindən 100 km məsafədə Dəşti-Navurda aparılan arxeoloji araşdırmalar zamanı Quşan dövrünə aid *(I əsr)* bəzi yazılar tapıldı. Eyni bölgədə (Əfqanıstanda) II əsrə aid Sorx-Kotalda kirəc daşı üzərində bir yazılı daş tapıldı. İndiki Cənubi Özbəkistanda I-III əsrlərə aid Xalçayan seramik yazı parçası, yenə eyni tarixə aid Tirmiz bölgəsində Fəyyaztəpədə tapılan gil qablar üzərindəki yazılar və Düşənbənin 10 km uzaqlığında III əsrə aid Kafirinqantəpədəki divar kitabəsi yazı tərzi etibarilə türk runik yazılarına oxşayır. Bunlardan quşanlara aid yazının yunan əsilli baktriya və hind kökənli haroşti variantı olduğu iddia edilir. Sorx-Kotalda kimə aid olduğu məlum olmayan baktriya dilində məktublar və Fəyyaztəpədə *haroşti* və *prakrit* yazıları da tapılıb.

Bunlardan sonra 581-ci ilə aid soğdca Buqut kitabəsi yazılıb. Həmin kitabənin üç tərəfi soğd, bir tərəfi sanskrit dilindədir. Amma yazı Göytürk dövrünə aiddir. S.C.Klauson bu kitabəni əsas götürərək soğd əlifbasını türk runik əlifbasının mənşəyi hesab edib. O, iki əlifba arasında 16 ortaq hərf müəyyənləşdirib. Məsələ burasındadır ki, Klausonun müəyyən etdiyi ortaq hərflərin soğd dilinin özündə prototipləri yoxdur. Buna görə də onun sxemində sərt və yumşaq hərflərin oxşarlığı təsadüfdən ibarətdir. Əslində türk runik əlifbasının arami-parfiya kökənli olduğu fikrini Vilhelm Tomsen *(Vilhelm Ludwig Peter Thomsen; 1842-1927)* ortaya atıb.

Göytürklərə qədər türk dili bir neçə mərhələ keçirib. Hunlara qədərki dövrə türkoloqlar *ilk türkcə* (ən qədim dövrlərdən I əsrə qədər) adı verirlər. I əsrdə türkcə *ana bulqarca* və *ana türkcə* olaraq iki ləhcəyə ayrılıb. *Ana bulqarca* deyilən türkcə qədim bulqarların, bəzi oqur tayfalarının və



çuvaşcanın əsasını təşkil edir. Bu ləhcənin əsas xüsusiyyəti *ana türkcədə* "ş" hərfi yerinə "l", "z" hərfi yerinə "r" işlədilməsidir. Məsələn, *yüz-yür*, *kiş-kil*, öküz-ökür, *buzağı-buraqu* (buzov), *tokuz-tokur* (doqquz), *beş-bel* və s. Hazırda çuvaşca xaricindəki bütün türk ləhçələri *ana türkcədən* törəyib. İlk türkcənin "r-l", yoxsa "z-ş" ləhcəsi olduğu mübahisəlidir. Elə məlum olur ki, *hun türkcəsində* hər iki xüsusiyyət yer alırdı. Hunca hər hansı bir yazılı əsər bizə gəlib çatmayıb. Lakin bu dildə əsərlərin yazılması haqqında məlumatlar vardır. Çincədə huncadan keçmiş 28 kəlmə yer alır. Bu kəlmələr huncanın türk dili olduğunu təsdiq edir.



*Göytürk əlifbası*

*Ana türkcə* I-VI əsrlər arasını əhatə edir və bu dildə hər hansı bir yazılı sənəd tapılmayıb. Türkcənin VI-IX əsrlər arasındakı mərhələsinə *qədim türkcə* adı verilir. Göytürklərin istifadə etdiyi türk dili həmin mərhələyə daxildir. Türkcənin ilk yazılı vəsiqələri də məhz bu dövrə aiddir. Qədim türkcə iki ləhcəyə ayrılırdı: *Orxon türkcəsi* və *Uyğur türkcəsi*. Bu iki ləhcə arasında əsas fərq aşağıdakı kimidir:

1. "ny" səsinin "n" və "y" hərfinə çevrilməsi: *kanyu-kayu* (hansı), *anyuq-anıq/ayıq* (pis), çıqany-çıqay (yoxsul);

2. Söz ortası və sonundakı "b" hərfinin "v" olması: *yabız-yavız* (pis), *eb-ev*, *sebin-sevin* (sevinmək), *sub-suv* (su);

3. Çıxışlıq və ya tərketmə şəkilçisi olaraq *"dın/din"* (Orxon türkcəsində *da/də*) istifadə edilməsi: *balık-dın* (şəhərdən), *ev-din* (evdən);

4. İndiki zaman feili sifətin *qlı/qli* (Orxon türkcəsində *qma/qmə*) şəkilçisilə düzəldilməsi: *körü-qli* (görən), ünte-qli (çağıran);



*Kültigin abidəsi. Monqolustan, Orhon yazıları muzeyi*



5. Şühudi keçmiş zaman şəkilçisi olaraq *yuk/yük*-ün olması: *tüşə-yük-mən* (yuxu gördüm), *sakın-yük* sən (düşündün), *karı-yük biz* (qocaldıq).

Göytürklər dövründə çincəyə keçmiş 52 türkcə kəlmə müəyyən edilib.

Çoyrən *(688-692)*, Ongin *(720)*, İhə Xüşötü *(Küli Çur, 720-725)*, İhə Aşetə *(724)*, Tonyukuk *(720-725)*, Kültigin *(732)* və Bilgə Xaqan *(735)* kitabələri *Orxon türkcəsində* qələmə alınıb. Bu kitabələr Türk xaqanlığı dövründə yazılıb. Bundan başqa, Uyğur xaqanlığı dövrünə *(744-840)* aid Tes *(750)*, Taryat *(Terhin, 753)*, Şine-usu *(Bayan Çor, 759-760)*, Sevrey *(soğdca-türkcə, 762-763)*, Qarabalasaqun *(soğdca-çincə-türkcə, 825)*, Suci *(840)* və Yenisey *(IX-X əsrlər)* kitabələri də qədim türkcənin O*rxon türk* ləhcəsinə aiddir.

Əslində türk kitabələri geniş ərazini əhatə edir. 2008-ci ilə qədər aşkarlanan türk kitabələrinin sayı 568 idi. Son illərdə tapılan yeni kitabələrlə birlikdə bu göstərici 600-ü keçib. Əsasən beş bölgədə (Monqolustan, Şərqi Türküstan, Altay-Yenisey, Orta Asiya, Qafqaz) tapılan runik hərfli türkcə kitabələr külliyyatı xırda bir neçə sətirlik yazılar da daxil olmaqla, V-XIII əsrlərə aiddir. Bu kitabələr dünyanın müxtəlif kitabxanalarında və muzeylərində saxlanılır. Bəziləri isə aşkarlandıqları yerdə yaradılan təbii qoruqlarda qorunur. Əldə olunan kitabələr arasında mani və buddist rahiblər tərəfindən qələmə alınan çox sayda türkcə mətn və yazılar da mövcuddur. Bu yazılar, əsasən Çinin Sincan-Uyğur Muxtar Rayonunda tapılıb.

762-ci ildə Uyğur xaqanı Bögünün manixeizmi rəsmi din qəbul etməsindən sonra Türk ölkəsinə çox sayda mani din adamı gəldi. Onlar öz əsərlərini türk dilində qələmə alıblar. Bu əsərlərin çoxu Turfan kolleksiyası adı altına qorunur. Bunun kimi buddizm də türk ölkələrində yayılmaq fürsəti tapmış və çox sayda buddist rahib türk dilində əsər yazmış və kitab tərcümə etmişdir.



*Kültiginin büstü. Otrar vadisi. Monqolustan Milli muzeyi*



*Bilgə Tonyukuk abidələri. Monqolustan, açıq muzey*



Müasir ədəbiyyatşünaslıqda "türklərin əsgər millət olduğu, bu səbəbdən elm və mədəniyyətə əhəmiyyət vermədikləri" şəklindəki iddiaların elmi dəyəri yoxdur. 600-ə yaxın kitabənin varlığı qədim bir mədəniyyət üçün əlçatmaz göstəricidir. Türklər sadəcə öz dillərini və ədəbiyyatını öyrənməklə yanaşı, qonşu xalqların və ya içində yer aldıqları mədəniyyətlərin də dilinə, ədəbiyyatına və elminə böyük töhvələr veriblər. Ərəb dilinin ilk lüğəti adlanan *Divanül-ədəb* əsərinin müəllifi İshaq İbrahim *(Əbu İbrahim İshaq ibn İbrahim əl-Fərabi; X əsr)* fərablı bir türk idi. *Tac əl-luğa və sihah əl-ərəbiyyə* adlı ərəb dilinin beş cildlik lüğətini hazırlayan Həmmad əl-Cövhəri *(Əbu Nasr İsmayıl ibn Həmmad əl-Cövhəri; 940-1002/1008)* isə Fərqanə türklərindən olub. Ərəb dilinin Bəsrə məktəbinin banisi Xələf əl-Əhmər *(Əbu Məhəmməd Xələf əl-Əhmər ibn Həyyan ibn Muhriz əl-Əşari əl-Bəsri; VIII əsr)* də Fərqanə türkü idi. Türk əsilli xarəzmli alim Zəmaxşəri *(Əbül-Qasım Mahmud ibn Ömər ibn Məhəmməd əl-Xarəzmi əz-Zəmaxşəri; 1075-1144)* həcc ziyarəti zamanı Məkkənin Əbu Kubeys təpəsinə çıxaraq, ərəb alimlərinə belə səslənmişdi: "Ey ərəblər, dilinizi gəlin bir türkdən öyrənin".

Tədqiq etdiyimiz dövr türk dastan ədəbiyyatının ən zəngin və məhsuldar dövrü hesab olunur. Həmin dastanlarda türklərin siyasi, sosial, mədəni, dövlət, dini və gündəlik həyatı ətraflı şəkildə öz əksini tapıb. Bu dövrdə türklər tərəfindən bilinən və rəğbət görən dastanlar arasında "Çu", "Alp Ər Tonqa", "Oğuz xaqan", "Attila", "Bozqurd", "Ərgənəkon", "Yaradılış" və "Köç" ilk sırada gəlirdi. "Çu" və "Alp Ər Tonqa" İşquz (skif), "Attila" Hun, "Bozqurd" və "Ərgənəkon" Göytürk, "Yaradılış" və "Köç" Uyğur türklərinin yaratdığı dastanlar, "Oğuz xaqan" dastanı türk xalqlarının ümumi dastanı hesab edilirdi. "Dədə Qorqud" dastanı İslami simvollar daşıdığına görə qəbul olunur ki, əsasən İslam dininin meydana çıxması dövründə formalaşmışdı.

Türk kitabələri həm söz, həm dil, həm də ədəbi cəhətdən misilsiz mənbədir. Sadəcə, "Kültigin" *(732-ci il)*, "Bilgə xaqan" *(735-ci il)* və "Tonyukuk" *(735-ci il)* kitabələrində 6.000 kəlmə mövcuddur. Bu üç kitabə türk dövlət ideologiyasını, fəlsəfəsini, siyasi, sosial, mədəni həyatının bütün sahələrini əhatə edir. Türk dilinin bütün ədəbi incəlikləri və gözəlliklərini həmin kitabələrdə tapmaq mümkündür. Həmin kitabələr qədim türk xalqlarının mədəni səviyyəsini də nümayiş etdirir.

Günümüzdə türkoloqlar Orxon-Yenisey kitabələrinin yazı dilinin nəsr, yoxsa nəzm olduğu mövzusunda ciddi mübahisələr aparırlar. Bəzi müəlliflərə görə, dilimizin ilk yazılı kitabələri şeir üslubunda qələmə alınıb. Kitabələrdən bu fikri təsdiq edəcək çox sayda nümunə gətirmək olar:

*Körür közüm körməz teg,*
*Bilir bilgim bilməz teg.*
(Görən gözüm görməz oldu,
Bilən ağlım bilməz oldu.)

*Kızıl kanım tükəti,*
*Kara terim yügürti.*
(Qızıl qanım (axıb) qurtardı,
Qara tərim axdı.)

"Kültigin" və "Bilgə xaqan" kitabələrinin müəllifinin Yollıq Tigin *(Ədib və İkinci Göytürk xaqanlığının beşinci xaqanı; ö. 739/742)* olduğu məlumdur. Bu kitabələr onun tərəfindən yazıya alınıb. Həmin kitabələrdə onun adı açıq şəkildə qeyd olunub: "*O qədər çox kitabə yazdım, mən Kültiginin qardaşı oğlu Yollıq Tigin. Bunları yazdım. 20 gündə oturub bu daşa mən Yollıq Tigin yazdım*" ("Kültigin" kitabəsində); "*Bilgə kağan kitabəsini mən Yollıq Tigin yazdım. Mən Türk Bilgə kağanın qardaşı oğlu Yollıq Tigin bir ay və 4 gün bu daşı yazı ilə bəzədim...*" ("Bilgə xaqan" kitabəsindən).



Yollıq Tiginin xaqan soyundan gəldiyi (tigin adı da bunu təsdiq edir) və məşhur bir katib olduğu mübahisə doğurmur. Şübhəsiz, o, Türk xaqanlıq sarayının seçkin katiblərindən və ədiblərindən idi. Bütün bunlar Türk xaqanlıq sistemində dövlət katibliyi, dövlət arxivçiliyi və ədəbi yazı tərzi və anlayışının olduğunu deməyə əsas verir. Hətta kitabələrdəki bəzi mərsiyələr və şeirlərə görə Yollıq Tiginin şair olduğunu da iddia edənlər var. Məsələn:

*Yigirmi kün olurub*
*Yullıq Tigin bitidim.*
*Meng Kültigin atısı*
*Bu taşqa bu tamqa kob,*
*Bunça bitig bitigmə*
*Yullıq Tigin bitidim.*

Amma hələ ki, türkcə yazan ilk şairin Aprın Çor Tigin olduğunu deyə bilərik. Onun VIII-IX əsrlərdə yaşadığı ehtimal olunur. Yazdığı manilərinin bəziləri günümüzə qədər gəlib. Aprın Çor Tigin eyni zamanda ədəbiyyatımızın ilk lirika şairidir.

Adından da göründüyü kimi, Aprın Çor Tigin hökmdar ailəsinə mənsub şair və ədib idi. Onun manixeist inancına bağlı olduğunu yazdığı "mani"lərdən və Mani haqqındakı mədhiyyələrdən anlayırıq. Adı bilinən ilk türk şairi olması səbəbilə Alpın Çor Tigin özündən sonra böyük bir cığır açmış və türkcə mani janrının formalaşmasında böyük rol oynamışdır.

Manilər, əsasən 7 hecalı olur. Amma 4, 5, 7, 8 və 11 hecalı manilər də mövcuddur. Manilər türk şeirinə xas nümunələrdən olub, milli vəzn adlandırılan heca vəznilə yazılır. Manilər quruluşuna görə tədqiq olunduqda sətir və sətirlərdəki hecaların sayına görə incələnir. F.Köprülüyə görə, "Türk nəzminin ən qədim şəkli bu gün də qorunub saxlanılan mani adını verdiyimiz dörd misradan ibarət

qitələrdir. Sonrakı dövrlərdə bu manilər birləşərək *türki* və *qoşma, sağu, mərsiyyə* və *dastanları* meydana gətiriblər". P.N.Boratava *(Pertev Naili Boratav; 1907-1998)* görə, "mani janrı İran rübailəri ilə yenə iranlıların xalq şeirinə xas bir janr olan *fəhləviyyatda* görülən sistemin türk nəzminə təsiri nəticəsində yarandığı ehtimal olunur". P.N.Boratav maninin bir sonrakı mərhələsi kimi *tuyuğu* göstərir. Manidə ilk misranın qafiyəsi təyin edicidir. Həmin qafiyədəki ahəng ünsürləri sonrakı misralarda qorunur. Uyğur xaqanlığı dövründə formalaşan türkcə mani ədəbiyyatı IX əsrdə inkişafının zirvəsinə çatmışdı. Bu dövrə aid çox sayda mani günümüzə qədər gəlib.

Dilimizin ilk şeir nümunələri VIII əsrə aiddir. Bu dövrdə formalaşan şeir tərzi və üslubu buddist və manixeist uyğurlar tərəfindən XIII əsrə qədər yaşadılıb.

### 5.2.3. Türk şəhərləri

Qədim türklər şəhərə "*balık*" deyirdi. Bu ad işquzlardan etibarən mənbələrdə qeyd edilir. Balık adında çoxlu türk şəhəri mövcuddu. Beş-balık, Ordu-balık, hətta Bəlx adının da "balık"dan yarandığı qeyd edilir. Türklər İslamı qəbul etdikdən sonra şahr və *kənd* sözləri "balık" adının yerini aldı. Bu gün də dilimizdə işlədilən *kənd* mənasında *kand* sözü soğdcadır. Oğuzlar kiçik yaşayış yerinə *kənd* deyirdi. Anadolu türklərində kiçik yaşayış yerinə *köy*, böyük şəhərə isə *kənd* adı verilir. Oğuzların şəhər mənasında kənd sözü işlətdikləri (Yengikənt – Təzə şəhər) bilinir.

Qədim türk dilində paytaxt dövlətin mərkəzi mənasında *ordu* adlanırdı. Uyğurlar paytaxta *orduğ* deyirdi. Qədim türk dilində "*ordulanmak*" (paytaxt elan etmək, yurd salmaq) ifadəsi işlədilir. Azərbaycan türkcəsində işlədilən "paytaxt" sözü "*bay-taxt*" mənasında türkcə "bay", farsca "taxt" (örgün) sözlərindən yaranıb. Anadolu türkləri isə



paytaxta *başkent* deyirlər. Paytaxtlar xüsusiyyətlərinə görə də müxtəlif şəkildə adlanır: *"Gök orda"* – hökmdarın mavi çadırının yer aldığı şəhər, *"Ak orda"* – ağ rəngli hökmdar çadırının yerləşdiyi şəhər, *"Altın orda"* – hökmdarın qızıl çadırının yer aldığı şəhər, "İl örgünü" – dövlət taxtı və *"İl ebi"* – dövlət evi/mərkəzi və s.

Dörd tərəfi dünyanın dörd cəhətini işarə edən, üzü gündoğan tərəfə açılan *orda* məfhumu Çində yaranmış türk dövləti Coular *(e.ə.1050-e.ə.249)* dövründə formalaşıb. Həmin orda (*ordugah*) bir növ çadır şəhər hesab edilirdi. Mərkəzində hökmdar çadırının olduğu çadır şəhərlər sökülüb yenidən qurulurdu. Ortada və təpənin üstündəki çadıra *xaqan otağı* adı verilirdi.

Türk xaqanlığının paytaxtı Ötükən idi. Türklərin inancında Ötükən *iduk* (müqəddəs) hesab edilirdi. Türk kitabələrində Ötükənin hansı məqsədlə paytaxt seçildiyi haqqında məlumatlar verilib. Bilgə xaqan "dövləti idarə etmək üçün Ötükəni paytaxt seçmişdi". Bilgə xaqan öz kitabəsində türk xalqına nəsihət edərkən belə deyirdi: "Ötükən *yiş*də (meşələrində) yerləşərsən və *arkış* (karvan) göndərərsən heç *bunun* (problemin) olmaz və *il* (dövlət) əbədiyyən əlində qalar". Yenə Bilgə xaqanın kitabəsindən Ötükənin təsadüfən seçilmədiyi aydın olur: "O qədər ölkələrə səfərlər təşkil etdim. Ötükən meşələrindən daha gözəl yerə, ölkəni idarə etmək üçün daha yaxşı bir məkana rast gəlmədim".

Ötükən şəhəri türk kitabələrində "*altun yiş*" (qızıl meşə – Günəşin doğduğu meşələr) şəklində ifadə edilib. Kaşğarlı Mahmudun "Divan"ında Ötükənin *"Tatar çöllərində, Uyğur ölkəsinə yaxın bir yerin adı"* olduğu qeyd edilir. Belə məlum olur ki, Ötükən bir tərəfində meşəlik, bir tərəfində dağlıq, bir tərəfində də çay axan bir ərazidə yerləşirdi. Şəhər uzun tarixi keçmişə sahib olub və XI əsrə qədər mövcud idi. Ötükən adı "ibadət edilən yer", "dua edilən yer" mənasına gəlir.

Ötükən böyük bir çadır şəhəri idi. Şəhərin ən yüksək hissəsində Türk xaqanlarının göy qübbəli böyük çadırı yer alırdı. Ötükəndə daş və ağac binaların olub-olmadığı haqqında məlumat yoxdur. Amma daimi məskən yeri olduğu aydın olur. Bu mənada şəhərdə yaşayanlara "müqəddəs Ötükən dağı xalqı" adı verilirdi. Belə məlum olur ki, paytaxt Ötükən böyük Ötükən ərazisinin şimalında yerləşirdi. Amma hökmdar sarayının (çadırının) şəhərin mərkəzində yerləşdiyi ehtimal edilir. Məsələn, Tərhin kitabəsində "xaqan titulu alıb, Ötükənin ortasında As-Önqüz zirvəsində, Kan-İduk təpəsinin başında hökmdarlıq sarayını qurdurdum" ifadəsi yer alır.

Hökmdar sarayının yerləşdiyi As-Önqüz "ağ rəngli zirvə" mənasına gəlirdi. Kan-İduk isə "müqəddəs xaqan"lıq təpəsi şəklində mənalandırıla bilər. Bu gün də Monqolustanın Otgon Tenqər dağının olduğu yerdə başı qarla örtülmüş zirvə diqqəti cəlb edir. Bu dağ zirvəsinin yaxınlığında isə ordugah salmaq üçün geniş yüksək düz ərazi yer alır.

Ötükənin uzun illər (hətta min il) türklərin paytaxtı olduğu inancı var. Belə ki, Hun dövlətinin paytaxtının da Ötükən olduğu artıq dəqiqləşib. Bu mənada türklər arasında Ötükən yurdu və şəhəri hansı türk tayfasının əlindədirsə, hakimiyyət də onun haqqı hesab edilirdi.

Monqol paytaxtı Qaraqorumun iki fərsəx (11 km) yaxınlığında yerləşən *Tuzqu* balığın da bir türk şəhəri olduğu qeyd edilir. Tuzqu "yemək-içmək" mənasına gəlirdi. Çin mənbələrində adı çəkilən Pei-tinqin isə türklərin yaşadığı *Beş balık* olduğu məlumdur. Bilgə xaqan dönəmində Beş balıkda Türk hökmdarının "oğuşum budun" (əqrəbam) dediyi basmıllar məskun idilər.

Türk xaqanlığı dövründə xaqanların əsas iqamətgahları İli vadisi ilə İssıq gölü arasındakı bölgələri əhatə edirdi. Belə ki, xaqanlığın *kiçik xaqan*larının iqamətgahı indiki Daşkəndin şimalında yerləşirdi. Bura Qərbi Türk xaqanlarının mərkəzi hesab edilirdi. Daha sonra mərkəz Çu çayı



ətrafına köçürülmüşdü. Kuçanın şimalında da türk (kiçik) xaqanlarına aid bir mərkəz olduğu bildirilir.

629-cu ildə Qansudan Hindistana səyahət edən Hsüan-Tsanq adlı bir çinli səyyah Şərqi Türküstan torpaqlarından keçmiş və yolu üzərində gördüyü türk şəhərləri haqqında qiymətli məlumat vermişdi. Onun zikr etdiyi türk şəhərləri arasında Hami (Komul/I-qu), Koçu (Qara Xoca/Kao-çanq), Yengi (Qaraşar/A-ki-ni), Kuça (Kiu-çi) və Ağsu (Aksu/Poh-loh-kia) xüsusilə diqqət çəkir. Bunların çoxu Göytürklərə tabe olan şəhər dövlətləri hesab edilirdi.

*Koçu* şəhər dövləti Qərbi Türk xaqanı ilə qohumluq əlaqələri olan bir bəy tərəfindən idarə edilirdi. İ-qu şəhərinin Koçu ərazisində yer aldığı qeyd edilir. Şəhərdə bir buddist məbədinin də olduğu məlumdur. Koçunun qonşuluğunda Qaraşar yerləşirdi. Burada zəngin gümüş mədənləri vardı. Bu mədənlər xaqanların nəzarətində olub, *axça* (gümüş pul) istehsalında istifadə edilirdi. Qaraşar çay ətrafında salınmışdı. Şəhər Türk xaqanlarına tabe olan xanədan tərəfindən idarə edilirdi.

Şəhər mədəniyyətinin güclü olduğu digər bir bölgə isə İssıq göl və Çu vadisi idi. Bölgənin ən böyük şəhəri *Suyab* hesab edilirdi. Suyab ticarət yollarının qovşağında yerləşirdi. Belə ki, digər ölkələrdən gələn tacirlər burada toplanırdılar. Bölgə xalqının məşğuliyyətləri arasında əkinçilik də yer alırdı. Suyab xalqının arpa və çəltik əkdiyi qeyd edilir. Səyyahların Suyab xalqının yundan hazırlanmış paltarlar geydiyini bildirməsi şəhərdə toxuculuğun inkişafından xəbər verir. Bu, eyni zamanda Suyabın köçəri dünya ilə şəhər arasında keçid rolunu oynadığını göstərir. Çünki toxuculuğun materialları köçərilərdən alınan heyvan yunu ilə təmin olunurdu.

Suyabdan sonra Türk xaqanlığının hakimiyyəti altında olan soğd şəhərləri *Cemukat*, *Navaket*, *Kirmirau*, *Bunciket*, *Semeknu* yer alırdı. Bu şəhərlər VIII əsrdən etibarən oğuzların nəzarəti altına keçmişdi.

Adı çəkilən soğd şəhərlərinin əhalisinin böyük əksəriyyətinin türk olduğu qeyd edilir. Şəhər adlarının türkcə olması da bunu göstərir. Belə məlum olur ki, soğdlar, sadəcə tacir sinfi olaraq kiçik bir qrup təşkil etmişlər. Mənbələr bu dövrdə Yeddisu, Amudərya ilə Sırdərya çayları boyunca şəhərlərin sıralandığını qeyd edirlər.

Tarazın Suyab kimi böyük və mühüm türk şəhəri olduğunu xəbər verən rahib Hsüan-Tsanq, şəhər qalasının uzunluğunun 8-9 km olduğunu yazır. Ticarət yolu üstündə yerləşən şəhər şərqdən və qərbdən gələn tacirlərin görüşdükləri məkan idi. Onlar öz mallarını burada bir-biriləri ilə dəyişdirir, karvan yollarını buradan salırdılar.

Tarazın 100 km cənubunda *Peh-sui* (İsficab) şəhərinin yerləşdiyini yazan rahib Hsüan-Tsanq, şəhərin Tarazdan daha əhəmiyyətli və inkişaf etmiş olduğunu vurğulayıb. Şəhər divarlarının uzunluğu 3-3,5 km olan İsficab, tarixi İpək yolu üzərində yer alırdı. Buradan təqribən 100 km cənub-qərb istiqamətində hərəkət edən çinli səyyah *Konq-yu* şəhərinə çatdığını bildirir. F.Sümerə *(Faruk Sümer; 1924-1995)* görə, *Konq-yu* bu ovalıq ərazidə salınmış tarixi türk şəhəri *Kençağ* olmalıdır.

Kençağın 20-30 km uzağında isə *Nuçe-kien* (İslam mənbələrində *Nuçekeş*) şəhəri yerləşirdi. Bu şəhər Şaş (Daşkənd) əyalətinin sərhədləri daxilində idi. Nuçekeşi inkişaf etmiş şəhərlərdən hesab edən rahib Hsüan-Tsanq, buradan da Çe-si (Şaş) şəhərinə gəlmişdi. Səyyah Şaşın geniş bir əyalət olduğunu, hər birinin öz hakimi olan 10 şəhərə sahib olduğunu bildirir. Şaşın Mavəraünnəhr ilə sərhəd təşkil etdiyini qeyd edən çinli səyyah, buradan Fərqanə, Səmərqənd və Buxara istiqamətində hərəkət edib.

Türk şəhərlərinin əksəriyyətinin ticarət yolları üstündə olması diqqət çəkir. Göytürklərin bu şəhərlərə geniş idarəetmə haqqı tanıdıqları, şəhərlərin daxili işlərinə qarışmadıqları da verilən məlumatlardan aydın olur. Türk mərkəzi hakimiyyətinin zəiflədiyi dövrdə bu şəhərlər



şəhər dövlətlərinə çevrilmişdilər. 630-cu ildə *Turfan*, *Qaraşar*, *Kuça*, *Kaşqar*, *Hotən*, *Səmərqənd*, *Daşkənd*, *Fərqanə* və *Hami* belə şəhər dövlətlərinə ən yaxşı nümunə idi.

*Cuvikat* VI-XII əsrlə arasında Ülkən Burul dağları ətəyində yerləşən məşhur bir şəhər idi. Arxeoloqlar bu şəhərin indiki Cambul şəhərinin 15 km qərbində yerləşdiyini iddia edirlər. İddia edilən ərazi Bəktöbə xarabalıqlarının yer aldığı məkandır. Cedisu (Yeddisu) bölgəsinin ən mühüm şəhərlərindən olan Cuvikat monqol istilası ərəfəsində əhəmiyyətini itirmişdi.

*Oş* və ya Uş adlanan bu şəhər X əsrin axırlarında bölgənin strateji əhəmiyyətli şəhərləri arasında göstərilir. Şəhər Çini Şərqə bağlayan İpək yolunun üstündə yer alırdı. Müsəlman coğrafiyaşünas İbn Xordadbehə *(Əbülqasim Ubeydullah ibn Abdullah ibn Xordadbeh; 820-912)* görə, Oş Özkəndin 7 fərsəx uzaqlığında yerləşirdi.

*Talqar* qarluqlara aid şəhər idi. "Hüdud əl-aləm" əsərinə görə, İssıq gölün yaxınlığında ucalan bu şəhər Almatı şəhərinin 22 kilometrliyindən axan Talqar çayının sahilində yer alan Talqarla eyniləşdirilir. Şəhər İpək yolu üzərində yerləşirdi.

*Balasaqun* Ötükənin siyasi və hərbi qüdrətini itirməsindən sonra Türk dünyasının mərkəzi olmuşdur. Şəhərin ən qüdrətli dövrü X əsr hesab olunur. Qarluqlara aid şəhər hesab edilən Balasaqun *"xaqanlar şəhəri"* adlanırdı. Balasaqunun çiçəklənmə dövrü Qaraxanlılar dövləti zamanında *(840-1212)* olmuşdur.

*Hiyam* ərəbcə *"çadırlar"* mənasına gəlir. Şimalında Kimak ölkəsinin yer aldığı bu şəhərin Roza çayı yaxınlığında dağların yamacında yerləşdiyi ehtimal olunur. Şəhərin adının ərəbcə çadırlar mənasına gəlməsi buranın türklərə aid klassik bir çadır şəhərciyi olduğunu deməyə əsas verir. Buranın "türkmən şəhər" adlanan Ordu olacağı da iddia olunur.

*Qaqan* şəhəri eyniadlı gölün qərb sahilində yerləşirdi. İdrisiyə *(Əbu Abdullah Məhəmməd əl-İdrisi əl-Qurtubi əl-Həsani*

*əs-Səbti; 1110-1165)* görə, "Qaqan gözəl, bolluq və bərəkətli bir şəhərdir. Orada ipəkdən paltar emal edilməsi üçün tirazlar (atlas) toxuyurlar, gözəl yun paltarlar hazırlanır və türk tacirlər bunları başqa ölkələrə ixrac edirlər".

*Kençək* VII-XIV əsrlər arasında mühüm mərkəzlərdən biri hesab edilirdi. Bu şəhərin Talas çayının mənsəbindəki Tekturmas və ya Şaruaşlık şəhərlərinin yerində olduğu ehtimal olunur. Qarluqların yaşadıqları şəhərlər arasında yer alan Kençək əhalisinin özünəməxsus ləhcəsi vardı. Bu səbəbdən onlar ətrafdakı türklər tərəfindən *kençəklər* adlandırılırdı. Gəncə adı ilə eyni olması diqqəti cəlb edir.

*Aspara* və ya *Astara* şəhərinin adına "Qədim Tanq salnaməsi"ndə rast gəlirik. Orta əsr müsəlman coğrafiyaçıları bu şəhərdən Aspara və ya Astara olaraq bəhs edirlər. İdrisiyə görə, şəhər Taraz yaxınlığında Bərk kəndindən 15 mil (24 km) uzaqlıqda idi.

*Nüzkət* (Şiştöbə) Aspara şəhərindən 8 fərsəx (44 km) aralıda yerləşirdi. Bu, ərəblərin Nüzkət adlandırdıqları şəhərin bünövrəsinin Göytürklər dövründə qoyulduğunu göstərir.

*Ağsu* (Harancuvan) Şiştöbədən 4 fərsəx (22 km) uzaqlıqda idi. Müqəddəsi bu şəhərin adını Harancuvan şəklində qeyd edir. K.M.Baypakova *(Karl Moldakhmetovich Baĭpakov; d.1940)* görə, türklərin Ağsu adlandırdığı bu şəhər Şiştöbənin 23 kilometr şərqindədir.

*Çul* isə Ağsudan 4 fərsəx (22 km) uzaqlıqda yerləşirdi. Bu şəhərin indiki Bişkek olduğu haqda iddialar vardır. Burada aparılan tədqiqatlar Çulun V əsrdən etibarən mühüm bir mərkəz olduğunu deməyə əsas verir.

Kulan şəhərinin 15 mil (24 km) uzağında qeyd edilən *Kul-çub* (*Kulsur*) şəhərinin indiki Örnək olduğu fikri hakimdir. İbn Xordadbehə görə, strateji əhəmiyyətli şəhər idi.

*Sömüş* mənbələrdə "Türk xaqanının şəhəri" olaraq qeyd edilir. İbn Xordadbehə görə, bu şəhər Sarığ kəndindən sonra gəlir və kəndlə onun arasında 4 fərsəx (22 km) yol var.



*Sarığ* Çul şəhərindən 7 fərsəx (39 km) aralıda idi. Hazırda bu şəhərin xarabalıqlarının Ala-arça çayının sol sahilindəki Qroznensk şəhəri ətrafında olduğu iddia olunur.

*Ordu* adından da məlum olduğu kimi mərkəzi şəhərlərdən hesab olunurdu. Müqəddəsi bu şəhəri Mirkinin şərqində göstərmişdir. İdrisi isə ətrafı qalalarla çevrilmiş, xəndəklər qazılmış və içinə su doldurulmuş mühüm mərkəz olaraq qeyd edir. A.N.Bernştama görə, Bişkekin 30 km uzaqlığında yerləşən Qızıl çay ətrafında yerləşən xarabalıq qədim Ordu şəhərinə aiddir. Ordunun əhalisi ən tez müsəlman olan türk şəhərləri arasında göstərilir. Ərəb müəlliflərinin "türkmən" adı verdikləri xalq Ordunun müsəlman türklərini ifadə edirdi. Buranın hökmdarını da Türkmən hökmdarı adlandırıblar. Əhalisi qarluq və oğuzlardan ibarət idi.

*Atlah* şəhərini Müqəddəsi belə tərif etmişdi: *"Atlah böyük şəhərdir. Ərazi olaraq mərkəzi Taraz qədərdir və divarlarla əhatə olunmuşdur. Şəhərin böyük bir hissəsi bağ-bağatdır. Məscid şəhərin mərkəzindədir. Bazarı isə ribatdadır"*. Tədqiqatçılar Atlah şəhərini indiki Cantöbə ilə eyniləşdirirlər. Cantöbə şəhəri Taraz əyalətinin qala divarları ən uzun şəhərlərindən biri olmuşdur. Bu şəhərin VI əsrdə çiçəklənməyə başladığı və XII əsrə qədər bölgənin ən böyük şəhərlərindən biri olduğu qeyd olunur.

*Baran* şəhərinin adı Burana, monqolca isə Munora olaraq qeyd edilir. Şəhərin adı "qoç-qoyun" sözündən, qədim türkcə *baran*dan yaranıb. Baranın Çu bölgəsində yerləşdiyi ehtimal olunur.

*Balac* şəhərinin əhalisi Müqəddəsiyə görə, qorxularından müsəlman olmuşdu. Balac ilə Barukentin yanaşı olduğu bildirilir. Bura türklərlə müsəlman türklər arasında sərhəd bölgə idi.

*İki öküz* şəhərinin adı da türk şəhərləri sırasında qeyd edilir. Şəhər Kaşğarlı Mahmudun xəritəsində də göstərilir. Şəhərin yerləşdiyi bölgədə aparılan arxeoloji araşdırmalar İki öküzdə sənətkarlığın inkişaf etdiyini deməyə əsas verir.

Şəhərin qala divarları ilə qorunduğu arxeoloji tədqiqatlardan aydın olmuşdur.

*Yesi* qədim Şavqar şəhərinin sonradan aldığı addır. Şavqarın VIII əsrin mühüm şəhərlərindən biri olduğu qeyd edilir. Yesi məşhur sufi-alim Əhməd Yəsəvinin *(Əhməd ibn İbrahim ibn İlyas Yəsəvi; 1110-1166)* anadan olduğu şəhərdir.

Sırdərya çayı boyunca çox sayda türk şəhərinin salındığı qeyd edilir. XI əsrdən etibarən bunların adı mənbələrdə oğuz şəhərləri kimi çəkilmişdir.

*Yengikənd* Sırdərya çayı üzərində salınmış ən böyük şəhər idi. Çin mənbələrində "Yanq-çiehkan", ərəb mənbələrində "əl-Kayyet əl-Hadisə", farsca əsərlərdə isə "Dihi-nev" olaraq qeyd edilən Yengikənd türkcə "yeni şəhər" mənasına gəlir. Kaşğarlı Mahmud "Divan"ında bu şəhər haqqında belə deyirdi: *"Türk ölkəsi Yeni Kənddən başlayır. Yeni Kəndin başqa bir adı da Dizruyin idi. Sarılığına görə buraya "Mis qala"da deyirlər. Bu şəhər Buxaraya yaxındır"*. IX əsrdə Oğuz Yabqu dövlətinin mərkəzi olan Yengikənd Çin mənbələrinə görə, Sırdərya çayının cənubunda Aral gölündən 15 mil (24 km) uzaqlıqda idi. Müsəlman müəlliflərindən İbn Hövqələ görə, *"Şaş çayından əl-Kayret əl-Hadisəyə* (Yengikəndə – *Ə.N.) türklərlə müsəlmanlar arasında sülh olduğu zamanlarda ərzaq aparılırdı. Əl-Kayret əl-Hadisədə müsəlmanlar da yaşayırdı. Bura oğuzların paytaxtıdır. Oğuzların hökmdarı qış aylarında burada qalır. Bu şəhərin yaxınlığında Cənd və Xuarə yerləşirdi. Qeyd olunan bu üç şəhər arasında ən böyüyü əl-Kayret əl-Hadisədir. Buraya Xarəzmdən 10 qonaq, Fərabdan 20 qonaq məsafə vardır"*.

Yengikəndin yeri sovet arxeoloqlarından S.Tolstov *(Сергей Павлович Толстов; 1907-1976)* tərəfindən müəyyən edilmişdir. Onun apardığı qazıntılar zamanı Sırdəryanın Aral gölünə töküldüyü köhnə axar yolunun şimalında və indiki axar yolunun cənubunda, Kumandərya çayının gölə birləşdiyi yerin şimalında idi. İndiki Cankənd ilə eyniləşdirilən Yengikəndin salınma tarixi V əsrə gedib çıxır. Şəhərin Türk



xaqanlığı və Türkeşlər dövründə xeyli inkişaf etdiyi bildirilir. Şəhər Göytürk xaqanlıqları dövründə bərpa edilmiş və "T" şəklində inşa edilmişdir. Şəhərin şərq-qərb istiqamətindəki uzunluğu 375 metr idi. Şərq istiqamətində 300 metr, qərb istiqamətində isə 225 metr genişliyində idi. Bu ölçülər Yengikəndin bir qala şəhəri olduğunu deməyə əsas verir.

*Sabran* (Şabran) adında Türk dünyasında iki böyük şəhər olmuşdur. Bunlardan biri Sırdərya çayı sahilində, digəri isə Azərbaycanda yerləşirdi. Orta Asiyadakı Sabran şəhəri Kaşğarlı Mahmudun əsərində "Sepren" olaraq oğuz şəhəri kimi göstərilib. Adını sabirlərdən alan Sabran şəhərinin Göytürklər zamanında qurulduğu qeyd edilir. Ehtimal ki, şəhər Göytürklərdən əvvəl bir müddət sabirlərin məskunlaşdığı bölgədə salınmışdır. Arxeoloji tədqiqatlar bu şəhərin Sığnakın cənub-şərqində, Sırdərya çayının sağ sahilində bir təpə üstündə salındığını və 800x550 metr genişliyində olduğunu ortaya çıxarmışdır.

*Karaçuk* (Qaraçuq – Farab) şəhəri Arıs çayının Sırdəryaya qovuşduğu yerdə salınmışdı. Bura İslam müəlliflərinin Fərab dedikləri şəhər idi. Amma bəzi alimlər hər iki şəhərin ayrı olduğunu qeyd edirlər. Onlara görə, İslam müəlliflərinin adını qeyd etdikləri Fərab bölgənin adı olub, mərkəzi isə Kadir şəhəri olmuşdur. Amma Müqəddəsi Fərab əyalətinin mərkəzinin də eyni adı daşıdığını qeyd edir. Aydos Şalbayevə görə, Karaçukla Fərab bir-birində ayrı olmuşdur. Oğuzların məskun olduqları Karaçuk şəhəri Sabran ilə Yesi şəhərlərinin arasında yerləşirdi. Qeyd edilən yerdə aparılan arxeoloji araşdırmalar zamanı Karaçuk çayı kənarında Törtköl II (Dörd göl) adı verilən şəhər xarabalıqları tapılmış və bu yerin qədim Karaçuk olduğu zənn edilmişdir.

*Sütkənd* də oğuz şəhərlərindən biri idi. Göytürk dövrünün mühüm şəhərlərindən olan Sütkənddə X əsrdə oğuzlarla qarluqlar yaşayırdı. Şəhərin Şaş ilə Seyhun çayının orta yatağı arasında yerləşdiyi iddia olunur. Arxeoloqlar

bu adda iki qədim yaşayış məskəni (Sütkənd I və II) aşkarlayıblar. Bunlardan Sütkənd II Sırdəryanın sol sahilində olub, böyük bir şəhər görüntüsü verir.

*Karnak* Yesi şəhərindən 25 km şimalda yerləşirdi. Oğuzların yaşadığı şəhərlər arasında göstərilir. Tədqiqatlar şəhərin Göytürk dövründə inkişaf etmiş yaşayış məskəni olduğunu deməyə əsas verir.

Türk xaqanlığı süqut etdikdə Sırdərya çayının şimalındakı oğuz torpaqlarından yuxarıda qalan ərazidən Sibir tayqasına qədər Kimək yurdu adlanırdı. Kimək yurdunda da çox sayda türk şəhərlərinin varlığı bilinməkdədir. Müsəlman müəlliflərinin əsərlərində Kimək yurdundakı türk şəhərləri arasında Xaqan, Saraus, Bəndcər, Deklan, Xanauş, Astur (Astara) kimi şəhərlərin adları qeyd edilir.

Xəzər dənizinin şimal istiqamətinə gəlincə burada Göytürk dövründə mövcud olan şəhərlər sonrakı dövr müəlliflərinin əsərlərində Xəzər və Sabir şəhərləri adlandırılıblar. Bu şəhərlərdən ən mühümü İtil və ya *Atıl* idi. İbn Rustaxa *(Əbu Əli Əhməd ibn Ömər ibn Rüstə; IX-X əsr)* görə, İtil Xəzər xaqanlığının paytaxtı idi. İstəxri *(Əbu İshaq İbrahim ibn Məhəmməd əl-Farisi əl-*İstaxri; X əsr) və İbn Hövqəl də İtilin Xəzər xaqanlığının mərkəzi olduğunu və iki hissəyə ayrıldığını qeyd edirlər. Onlara görə, qərbdə qalan hissəsi İtil, şərqdə qalan hissəsi isə Xazaran (Xəzər) adlanırdı. Kembricdə qorunan anonim bir əlyazmada Xəzər xaqanlığının paytaxtı Qazar olaraq qeyd edilib. Burada Qazar ilə müsəlmanların Xazaran dedikləri şəhərin eyni olduğuna şübhə yoxdur.

İtil şəhərinin yeri müəyyən edilməyib. Artamonova *(Михаил Илларионович Артамонов; 1898-1972)* görə, Xəzər və ya İtil şəhəri ərəblərin əl-Bayda, türklərin Sarığşın dedikləri şəhərlə eynidir. İslam mənbələrində Xəzərlərin ilk paytaxtının Səməndər olduğu, ancaq buranın ərəb sərkərdəsi Salman ibn Rəbiə əl-Bəzili tərəfindən istila edilməsindən sonra paytaxtın İtilə köçürüldüyü bildirilir.



*Hamlığ* (Hutluğ/Kutluq) şəhəri də bəzi mənbələrdə Xəzərlərin mərkəzi olaraq göstərilib. Bu şəhərin Don çayı üzərində olduğu iddia olunur. Bəzi iddialara görə, əslində Hamlığ ilə İtil şəhərləri eynidir.

*Sarığşın* adı ən mühüm Xəzər şəhərləri arasında qeyd edilir. Bu adın qədim türkcə "sarı/sarığ" sözündən yarandığı ehtimal olunur. Ərəblər bu şəhərə "ağ qala" mənasında əl-Bayda deyirdilər. Şəhər Sarkel ilə də eyniləşdirilmişdir.

*Sarkel* şəhəri Don çayı sahilində yer alan Xəzərlərə aid qala-şəhəri olmuşdur. Şəhərin qala divarlarının Bizans mühəndisləri tərəfindən tikildiyi qeyd olunur. Bu ad türkcə Sarqil idi.

*Bələncər* Xəzər xaqanlığının ən mühüm şəhərləri arasında yer alsa da, bu şəhərin sabirlərə aid olduğu ortaya çıxır. Göytürklər dövründə Qafqazın ən böyük mərkəzlərindən olan Bələncər adı bizə görə "bayandur" adı ilə eynidir. Bu şəhərin Xəzər-Xilafət müharibələri zamanı yıxıldığı ehtimal olunur. Zira, VIII əsrdən sonrakı hadisələrdə adı nadirən qeyd edilib. Bələncərin indiki Dağıstan ərazisində yerləşdiyi güman edilir. Təbəri ərəb sərkərdəsi Məsləmənin Bab əl-Əbvabı (Dərbənd) keçdikdən sonra Bələncərə gəldiyini qeyd edir. Bu şəhəri Səməndərlə də eyniləşdirirlər. Bələncər adı Azərbaycanda Biləcəri adında yaşadılır.

*Səməndər* də yeri tam dəqiqləşməyən Qafqazın ən böyük türk şəhərlərindən biri idi. Müsəlman müəlliflərinin tez-tez adını çəkdikləri bu şəhərin indiki Mahaçqala ətrafında olduğu iddia edilir. Səməndərin bir müddət Xəzər xaqanlığının paytaxtı olduğu da məlumdur. Səməndər də Bələncər, *kizmer*, *endimer* və *imender* kimi hun-oqur tayfalarından birinin adı idi.

Gevondun əsərində Hun şəhəri olaraq qeyd edilən *Tarqu* Dərbəndin şimalında, indiki Dağıstan ərazisində, böyük ehtimalla Mahaçqala yaxınlığında eyniadlı çayın sahilində salınmışdı.

*Varaçan* qədim Hun şəhərlərindən olub, VII-VIII əsrlərdə də Qafqazın ən mühüm hərbi-siyasi və ticarət mərkəzi idi. Bu şəhərin Şimali Qafqazdakı Hun xaqanlığının mərkəzi olduğu bildirilir. 733-734-cü illərdə ərəb sərkərdəsi Məsləmənin Xəzər xaqanı ilə bu şəhərdə görüşdüyü qeyd edilir. İslam mənbələrində bu şəhərdən *V.rşan* və *V.dşan* şəklində də bəhs edilir. Yaqubi *(Əbül-Abbas Əhməd ibn İshaq ibn Cəfər ibn Vəhb ibn Vazeh əl-Yaqubi; IX əsr)* isə bu şəhərin adının Varaşan və ya Varaçan olduğunu yazır. İ.Artamonova görə, Varaçan indiki Dağıstan Respublikası ərazisində Buynaksk rayonunda yerləşirdi.

I-IX əsrlərdə Azərbaycan Respublikasının ərazisində də çox sayda türk şəhəri vardı. Bu şəhərlərin əsas əhalisini də türklər təşkil edirdilər. Həmin şəhərlərin çoxu türk tayfalarının adından yaranmışdı.

*Varsan* adlı şəhər ərəb mənbələrində Ərdəbildən Muğan istiqamətində gedən yol üzərində qeyd olunur. Bu şəhərin adının Dağıstandakı Hun şəhəri Varçan ilə eyni olduğu diqqəti cəlb edir. İbn Xordadbeh Varsan şəhərini Marağa, Miyanəc, Ərdəbil, Varsan, Sisər, Bərzə, Saburxast və Təbriz üzərində göstərir. Eyni müəllif başqa bir yerdə belə yazır: *"Bərzənddən Balasacan (Balasaqun-Beyləqan) səhrasına və oradan Varsanadək – bura Azərbaycanın sərhəd məntəqəsidir – 12 fərsəxdir"*. Bu məlumatdan Varsanın Aran və Azərbaycan sərhədində, indiki İran İslam Respublikası torpaqlarında qalan Muğan bozqırında yerləşdiyi aydın olur. İbn Xordadbeh Varsandan Bərdəyə 8 sikkə məsafə olduğunu bildirir. İstəxriyə görə, Beyləqan ilə Varsan arası 7 fərsəx idi. İbn Hövqəl Bərdədən Muyan kəndinə 7 fərsəx, Muyandan Beyləqana 7 fərsəx, Beyləqandan isə Varsana 7 fərsəx, yəni Bərdə ilə Varsan arasının cəmi 21 fərsəx olduğunu yazır. İdrisiyə görə, Bərdə ilə Varsan arası 21 mil idi. Bu məlumatlardan Varsanın Beyləqanın aşağısında qaldığı aydın olur.

*Bərdə* Aranın mərkəzi şəhəri idi. Movsey Kalankatukluya görə, Bərdə eyni zamanda Albaniyanın dini



mərkəzi olub. Bərdənin adı Azərbaycan tarixşünaslığında mübahisə mövzusudur. Bu ad ərəbcə, farsca və digər dillərdə izah edilir. Əslində Bərdə adının hun tayfalarından *bardar*, *bardor* və ya *bardurların* adından törəmə ehtimalı yüksəkdir. Mənbələrdə bardar/bardur adı hun, hun-bulqar, hun-oqur tayfalarından birinin adı kimi qeyd edilib, Avropa Hun xaqanlığının formalaşmasında və Attilanın fəthlərində rol oynayan tayfalardan biri kimi göstərilib. Hunların Cənubi Qafqaz və Şərqi Anadolu səfərlərində də yer alan həmin tayfanın bir hissəsinin Bərdədə məskunlaşdığı və bölgəyə öz adını verdiyi ehtimal olunur.

*Kyvan* Dərbəndin qədim adıdır. Bu ad bəzən də "*Qyşvy*", "*Qoyşui*" və "*Qayşui*" şəklində qeyd olunur. Bu ad kay/qay tayfaları ilə əlaqəlidir. Dərbənd adı IV əsrdən sonra ortaya çıxıb.

*Şabran* (Sabran) şəhəri sahiblərin məskunlaşdığı ərazilərdə yerləşirdi. Məhz bu səbəbdən də Ə.Z.V.Toqan Şabran adının sabir adından yarandığını iddia edib. Ərəb mənbələrində Şabran Aran əyaləti tərkibində yer alır. Həmin mənbələrdə bu şəhərin adı "əş-Şəbran" yazılıb. Bu şəhərin Sabir xaqanlığının mərkəzi olduğu ehtimal edilir.

Azərbaycanda digər türk şəhərləri arasında *Hunan*, *Beyləqan* (Balasakan), *Kabala* (Qəbələ), *Quba* (Kuba), *Ağsu* və s. adlarını çəkmək mümkündür.

## 5.2.4. İpək yolu

"Yol" sözü türk dilinin bütün ləhcələrində eyni mənaya gəlir. "İpək yolu" ifadəsi XIX əsrdə ortaya çıxıb. İlk dəfə bu ifadəni alman coğrafiyaçı-geoloq Baron fon Riçtofen *(Ferdinand Freiherr von Richthofen; 1833-1905)* 1877-ci ildə nəşr etdiyi "Çin" adlı əsərində işlədib. İpək sözü isə çincə "ser" (oxu: *ssu*) sözünün türk dilində qarşılığıdır.

Türklərdəki ticarət həyatının "İpək yolu" ticarətindən ibarət olduğunu başa düşmək səhvdir. "İpək yolu" Göytürklərin nəzarət altında tutduqları beynəlxalq ticarət yolu olub, türk ticarət həyatının ancaq bir parçasını təşkil edirdi. Türk ticarəti müxtəlif və çoxşaxəli idi. Türklər həm ölkədaxili, həm də ölkəxarici ticarətdə geniş qaynaqlara və böyük sərvətlərə sahiblik edirdilər.

Beynəlxalq ticarətdə türklərin Çin, Sasani, Hind, Bizansla güclü münasibətləri vardı. Türk siyasi həyatında olduğu kimi ticari və iqtisadi həyatında da Çin böyük rol oynayırdı. Türk-Çin münasibətlərində ticarət əsas ünsür hesab edilirdi. Türklər Çin sülalələri ilə apardıqları müharibələrin müqabilində geniş ticari imkanlar əldə etməyə çalışıblar.

Çin dövlətləri Göytürk dövlətinin vassalı kimi hər il yüz min parça ipək, pambıq və başqa ticarət məhsullarını türklərə xərac olaraq göndərirdi. Türk-Çin münasibətləri sistemində çouohsinq siyasətin təyinedicisi idi. Çouohsinq, çincə "xərac siyasəti" mənasına gəlir. Bu siyasətə görə Çində yaranan dövlətlər başqa dövlətlərin elçilərini qəbul edib, onlara təqdim edilən hədiyyələri alarkən, aldığı hədiyyədən iki qat çox hədiyyəni o ölkəyə göndərirdi. Çin mənbələri bunu "hökmdar-təbəə" münasibəti olaraq təqdim edir. Göytürklər zəif olduqları dövrdə Çinlə çouohsinq münasibətlər yaradıblar. Şübhəsiz, Çinin öz qonşularına külli miqdarda mal verməsi öz təhlükəsizliyini təmin etmək siyasətindən irəli gəlirdi. Türk kitabəsində *"çinlilər qızılı, gümüşü, ipəyi və ipəkli parçaları böyük həvəslə bizə verirlər. Çin xalqının sözləri ipək kimi yumşaqdır. Şirin sözlərlə və yumşaq ipəklə aldadıb uzaqlarda yaşayan xalqları özlərinə yaxınlaşdırırlar"* ifadəsi Çinin apardığı çouohsinq siyasətinə işarədir.

İpək yolu ən qədim zamanlardan dəniz ticarətinin ortaya çıxdığı dövrə qədər qlobal iqtisadiyyatın qəlbi hesab olunurdu. Türklərin beynəlxalq güc olmasında İpək



yolunu öz nəzarətləri altında tutmalarının böyük təsiri olmuşdur. Türklər Çindən Bizansa qədər İpək yolunu daim öz nəzarətləri altında saxlamış və bu yolu ticari rəqabətə çevirmişdilər. Sərbəst ticarət Göytürk dövləti üçün yeni iqtisadi mənbələr mənasına gəlirdi. Türk şəhərlərinin çoxunun həmin ticarət xətti üzərində yaranmaları İpək yolunun əhəmiyyətindən xəbər verir. Səmərqənd, Fərqanə, Toxmaq, İsficab və Sırdərya çayı boyunca yaranan onlarla türk şəhərləri İpək yolu üzərindəki dayanacaqlara oxşayırdılar.

Ticarət şəhərli türklər qədər köçəri türklər üçün də həyati əhəmiyyətli idi. İpək yolu üzərində hər il mövsümlük açıq bazarlar qurulurdu. Bu bazarlarda köçərilər öz heyvandarlıq məhsullarını kənd təsərrüfatı məhsulları ilə dəyişirdilər. Orta əsrlər boyunca köçərilər İslam şəhərlərinin ət, süd və yun məhsullarının başlıca tədarükçüləri olmuşdular. Türklər ətdən uzunmüddətli istifadə qaydalarını da şəhərlilərə öyrətdilər. Ətin konservləşdirilməsi köçəri türklərin kəşfi idi. Köçəri türklərin hər il açıq bazarlara gətirdikləri yun məhsulları da şəhərlilərin tələbatını qarşılayırdı. Türk xalçaları Şərqin sənət nümunəsi hesab olunurdu. Bundan başqa, pendir, qatıq, ayran, süd kimi ağartı məhsulları ləzzətinə görə yerli kəndlilərin məhsullarından seçilirdi.

Türklərin tacir olmadıqları və ticarət savadlarının kasad olması tarixçilikdə yer alan səhv iddialardan biridir. Göytürklər zamanı Bizans, İran, Çin şəhərlərində türklərə məxsus ticarət obyektləri vardı. VI əsrin ikinci yarısında Bizans sarayını ziyarət edən türk elçiləri imperatordan Konstantinopolda "Türk ticarət mərkəzi"nin açılmasını xahiş etmişdilər. Bunun nəticəsində Konstantinopolun Mitaton adlanan məhəlləsində "Türk ticarət mərkəzi" fəaliyyətə başlamışdı. Ticarət mərkəzində 100-dən çox türk tacir işləyirdi. Üstəlik türk mallarına bizanslıların böyük rəğbəti və marağı vardı. Mitaton "Türk ticarət mərkəzi"ndə bizanslıların diqqətini ən çox türk qadın geyimləri çəkirdi.

Türk tacirlər sadəcə öz mallarının deyil, bir-birinə birbaşa çıxışı olmayan ölkələrin mallarının da dövriyyəsini təşkil edirdilər.

Türk-Çin sərhədi boyunca sərhəd məntəqələrində mövsümlük bazarlar qurulurdu. Türk xaqanları belə bazarların yaradılmasında xüsusilə maraqlı idi. Bazarlar bir növ Çini iqtisadi nəzarət altında saxlamaq vəzifəsi icra edirdi. Türklər bazarlardakı məhsulların bolluğuna görə Çin imperiyasının həmin il üçün iqtisadi gücünü müəyyən edirdilər. Çinin iqtisadi cəhətdən çox güclənməməsini istədikdə yığım zamanı Çinə hərbi səfərlər təşkil edirdilər. Çin imperatoru dəfələrlə həmin bazarları bağlamağa çalışmış, amma türklərin təzyiqi ilə məqsədinə nail ola bilməmişdi.

Türk-Çin ticarətinin başlıca xam maddəsi at və ipək idi. Çinlilər atı türklər sayəsində tanımışdılar. Türk atları Çində çox məşhur idi. Bu atları "uçan atlar" və ya "qan tərləyən atlar" adlandırırdılar. Çin ordusu at ehtiyacını türklər vasitəsilə qarşılayırdı. Bunun müqabilində türklər Çindən 100 min tonlarla ipək alırdılar. Həmin ipəyi türklər Orta Şərq və Avropa bazarlarına satırdılar. İpək uzun müddət Türk-Çin ticari münasibətlərində pul rolunu oynamışdı. Türklər Çin ipəyini həm illik xərac, həm də ticarətlə təmin edirdilər. Türk xaqanı İşbara Çin imperatoruna göndərdiyi məktubda belə yazırdı: *"Mənim ölkəmin bütün qoyunları və atları imperatora aiddir. Onun ölkəsinin bütün ipəyi də mənə aiddir"*.

Qlobal ticarəti öz əllərində saxlayan türklər xalqlar və dövlətlər arasında mədəni dialoq və ünsiyyətin yaradıcısı idilər. Orta əsrlər boyunca türk ölkələri yüzlərlə avropalı casusun, rahibin, dini sekta nümayəndələrinin, tacirlərin, elm adamlarının dolaşdığı məkan idi. Onlar Çin elmini parça-parça Avropaya daşıyır və modern Avropanın formalaşmasını bir növ dırnaqları ilə yaradırdılar. Şübhəsiz, avropalıların fəaliyyətləri türklərin diqqət mərkəzində idi.



Amma Çindən çıxan ticari dəyərə sahib hər məhsul türk ölkələrinə ikiqat qazanc gətirdiyindən bu fəaliyyətlərə göz yumurdular. Müasir tarixçilərin iddialarının əksinə türklər bozqır mədəniyyətlərinin və orta əsrlərdə qlobal ticarətin şah damarı idi.

Lazım gələrsə, türklər İpək yolundan təzyiq vasitəsi kimi də istifadə edirdilər. İpək yolu türklərin nəzarətində olduğundan türklər bundan embarqo məqsədilə faydalanırdılar. Məsələn, Türk-Sasani münasibətləri pozulduğu zaman türklər Bizansla dialoqa keçib İpək yolu xəttini İran istiqamətində bağlayaraq, Şimali Xəzər və Qara dəniz xəttini gücləndirmişdilər.

Müsəlman Şərq, Qərb və Çin sənətkarlığı türklər sayəsində bir-birini tanıyır və təsir edirdilər. Türk xaqanlığının ən qüdrətli dövründə türk ölkələrindən keçən ticarət karvanlarının sayı minləri aşırdı. Bir karvanda yer alan heyvanların sayı ən azı 700 idi. İbn Fədlan İdil Bulqar ölkəsinə səyahəti zamanı tərkibində yer aldığı karvanın 3000 heyvandan və 5000 insandan ibarət olduğunu qeyd edir. Rəngli və xüsusi mədən filizləri, silahlar, zirehlər, cəvahirat, bəzək əşyaları, müxtəlif ədviyyatlar, dekorativ əşyalar, gümüş, ipək və müxtəlif növ geyimlər, şüşə, metal (dəmir, mis, gümüş, qızıl və s.), gil və ağac məhsulları türk ölkələrindəki ticarətin başlıca növlərini təşkil edirdi. Çində istehsal olunan və Avropaya aparılan keramik məmulatlar, dərmanlar, ədviyyatlardan türklər böyük gəlirlər əldə edirdilər.

Çin imperatorunun Şərqi Türk xaqanlarına xərac olaraq göndərdiyi malların siyahısında yer alan əşyalar bunlar idi: "ipək, kətan, pambıq, qızıl, gümüş, yada daşı, yataq dəsti, araba, vazalar, geyim, sandal ağacı, şərab, içkilər, yeyəcəklər (unlu qidalar), lüks əşyalar, cənazə vasitələri, əyər, sancaq və çalğı alətləri".

Türklər Şərq-Qərb ticarətində vasitəçi missiyasını icra etməklə kifayətlənmirdilər. Onlar sənətkarlıqda da ad

çıxarmışdılar. Göytürklər uzun illər abarların dəmir ustaları olmuşdular. Döyüş texnikaları, xüsusilə də türk qılıncları, dəbilqələri, zirehləri İslam ölkələrində çox məşhur idi. Ən məşhuru isə Xəndək döyüşü zamanı Həzrəti Məhəmmədin mühasirə boyunca türk çadırında qalması idi.

Ərəb mənbələrində "kubbət ət-türkiyə" adlanan türk çadırlarına qədim və orta əsrlər boyunca tələbat çox olmuşdu. Sasani, Çin, Bizans, Əməvi və Abbasilərin yüz minlik ordularının varlığını diqqətə aldıqda türk çadırının nə dərəcədə əhəmiyyətli olduğu ortaya çıxır. Türk çadırlarına tələbatın yüksək olmasına səbəb bu çadırların dözümlü və uzunömürlü olması idi. Üstəlik türk çadırları yay aylarında sərin, qış aylarında isə isti olurdu. Bu tələbat səbəbindən türklərdə çadır düzəltmək xüsusi məslək hesab olunurdu. Səlcuqluların ulu babası Kərakücı (820-880-ci illər arasında) çadır düzəldən olmuşdur. Onun adının mənası isə "çadır çardağı düzəldən" mənasına gəlirdi.

Göytürklərdə metallurgiya sənayesi çox inkişaf etmişdi. Göytürklər özləri dəmirçi olduqlarından dəmir, gümüş, qızıl mədənlərinin işlənilməsində təcrübəli idilər. Göytürklər dövründə zəngin dəmir, gümüş, qızıl yataqları aşkar olunmuş və bu yataqlar uzun illər istifadə edilmişdi. Bölgədə meydana gələn gümüş böhranının əsas səbəbi də Göytürklərdən sonra yeni mədən yataqlarının kəşf edilməməsi olmuşdur.

Türk bazarları Cənubi Qafqaz ölkələrində də qurulurdu. Sasani-Türk münasibətlərində bu bölgə xüsusi əhəmiyyət kəsb edirdi. Bəzi dövrlərdə Göytürk ölkəsinin Qafqazdakı sərhədi Kür çayına qədər uzanırdı. Göytürklər Sasanilərə, daha sonra da müsəlman ərəblərə qarşı bu bölgədə çor və xəzər tayfalarını davamlı dəstəkləmişdilər. Xəzər dövlətinin formalaşmasında Göytürklərin böyük rolu olmuşdur. Müasir tarixçilər Xəzər xaqanlığının Şərqi Avropa və Qafqazda Göytürklərin davamı olaraq ortaya çıxdığını qeyd edirlər.



Türk-Sasani dövlətləri arasında mütəmadi baş verən müharibələrin başqa bir səbəbi də Göytürklərin hərbi vasitələrlə İranda ipək istehsalını baltalayaraq, Çin ipəyini İran və Bizansa satması idi. Çünki Sasanilər ipək ticarətinin qarşısını almaqla öz ipək sənayelərini inkişaf etdirmək istəyirdilər. İran ipəyi Çin ipəyi ilə müqayisədə çox keyfiyyətsiz olduğundan Bizans daha bahalı olan Sasani ipəyini almaqdan imtina edirdi. Göytürklərin Xorasan və Azərbaycan üzərindən tez-tez Sasani ölkəsinə hərbi hücumlar təşkil etməkdə məqsədi İranın ticari qaynaqlarını yararsız hala gətirmək və bu ölkəni öz iqtisadi təsiri altına almaq idi.

İpək yolu üzərində orta əsrlərin qaranlıqları içində mənbələrin işıqlandırmaqda yetərsiz qaldıqları siyasi oyunlar və intriqalar oynanılırdı. Böyük güclərin nəzarətində olan kiçik güclər, təşkilatlar, qurumlar və lojalar da bu "qızıl yolu"nun ətrafında formalaşmışdılar. Ticarət bəzən dini, bəzən məzhəbi, bəzən də təbliğat vasitəsi idi. Türk xaqanlığının böyüklüyü bütün dinlərə və məzhəblərə öz ölkələrində tam sərbəstlik tanıması idi. Sasani ölkəsindən qaçan mani və məzdək məzhəbindən olanlar, Bizansdan qaçan süryanilər və yəhudilər Türk xaqanlığının torpaqlarında xəyal belə etmədikləri azad və firavan həyata qovuşurdular. Eyni şəkildə Çindən qaçan buddistlər də Türk ölkəsinə sığınırdılar. Türklər gələnlərə öz dini inanclarını tam yaşamaq, hətta yaymaq imkanı tanıyır, onların gəldikləri ölkələrdəki əlaqələrindən siyasi, ticari və diplomatik məqsədlərlə istifadə edirdilər. Bəzən də türklər bu qruplar arasında məqsədli şəkildə rəqabəti qızışdırırdılar. Məsələn, türklər soğdlu tacirlərə geniş imtiyazlar tanımışdılar. Bunun müqabilində türklər onlardan diplomatik və casusluq məqsədi ilə istifadə edirdilər. Soğdlu tacirlərin Sasani ölkəsində təqiblərə və şiddətlərə məruz qalmasının bir səbəbi də onların Göytürk dövləti adına casusluq etmələri idi.



# 5.3. TÜRK XAQANLIQLARI

VIII əsrin ortalarında Türk xaqanlığının torpaqlarında hər biri bir imperiya böyüklüyündə yeddi yeni türk xaqanlığı yarandı. Sibir və Mərkəzi Asiya torpaqları kiməklərin, Uraldan Macarıstana qədər Şimali və Qərbi Xəzər bölgəsi xəzərlərin, Göytürklərin mərkəzi torpaqları uyğurların, Aral gölü və Sırdərya ətrafındakı ərazilər oğuzların, Yenisey ətrafı qırğızların, Altay bölgəsi qarluqların, Yeddisu bölgəsi türkişlərin nəzarəti altına keçdi. Onlardan türkişlər və xəzərlər Əməvi Xilafətinin yayılmasının qarşısını aldılar və ərəb hərbi gücünü yox etdilər.

Türklər öz dövlətlərini *el* adlandırırdı. Ümumilikdə bu xalqa *türk-oğuz bodun* deyilirdi. Elin başında *kağan* (xaqan) dayanırdı. Dövlət idari olaraq iki qanada (şərq-qərb, sağ-sol) ayrılırdı. Bu qanadları xaqana tabe *bilgələr* idarə edirdi. Göytürk xaqanlıq sistemi Hun dövlət sisteminin təkmilləşdirilmiş forması olub, daha sonra Çingiz xan tərəfindən miras alınmışdı. Türk xaqanlıq mirası uzun illər yaşadı.



Müsəlman olmaqlarına baxmayaraq, Qaraxanlı və Səlcuqlular kimi böyük imperiyalar həmin mirası sahiblənib qorudular.

### 5.3.1. Türgiş/Türkişlər

Qərbi Türk xaqanlığının süqutundan sonra 635-ci ildə tarix səhnəsinə çıxan *türgiş* və ya *türkişlər* (*türkeş*) VII-VIII əsrlərdə Orta Asiyanın ən güclü xalqı və dövləti hesab edilirdi. Türkiş adı "türküt/türkit" adının sonunda yer alan cəm şəkilçisi "*it*"in "*iş*" şəklində tələffüzündən ibarət olub, "*türklər*" deməkdir. Bu ad bütün türk boylarını və xalqlarını əhatə edəcək şəkildə türk kitabələrində "*türküt*" şəklində zikr edilir.

Türkişlər üç boyun birləşməsindən yaranıb. Çincə mənbələrdə həmin boyların adı çe pi-sih (çubuk?), çu-mukan (muğan) və *tu-je-he* (türkiş) olaraq qeyd edilir. Türkiş dövlətinin hakim sülaləsi *muğan* tayfasından idi.

Türkoloq Ə.B.Ərcilasun *(Ahmet Bican Ercilasun; d.1943)* "Türk dili" adlı bir araşdırmasında *on-ox* boylarını təşkil edən *tulu* adının türkcə "tuğluq" (tuğ sahibi), *nuşepi* adının isə "ini yabqu" (kiçik yabqu) olduğunu açıqlayaraq, onlardan tuluların daha sonra *sarı türkişlər*, nuşepilərin isə *qara türkişlər* adlandığını bildirir.

Türkişlər İstəmi yabqu tərəfindən Orta Asiyada yaşayan türklərin on boy (*on-ox*) halında təşkilatlanması sırasında tulu (töles) qanadında yer aldılar. Türk xaqanlığının şərq və qərb olaraq iki yerə parçalanması zamanı türkişlərin ən güclü boyu çubuklar idi. Onlar Qərbi Türk xaqanlığının hakimiyyəti altına keçdilər. Bu vaxt çubuklar Tan-xan dağı ətəklərində köçəri həyat sürürdülər. Onların bəyləri *irkin* və ya ərkin titulu daşıyırdı. Çubukların ilk ərkini Mohe oldu. Qərbi Türk xaqanlığının çubuklardan artıq vergi tələb etməsilə onlar Qaraçur başçılığında üsyan etdilər.

Qaraçur özünü Bağa xaqan elan edərək müstəqil hərəkət etməyə başladı. Lakin Göytürklərlə döyüşdə məğlub oldu. Bu hadisədən sonra çubuklar üç hissəyə ayrıldı. Bir hissəsi Altay dağları ətəklərinə köç edərək Şərqi Türk xaqanlığının hakimiyyətinə girdilər. İkinci hissəsi İssıq gölü ətrafına köç etdi. Amma burada təzyiqlərə məruz qalıb Kan-çouya hərəkət edərək Tanq imperiyasının nəzarəti altına girdilər. Üçüncü və ana kütlə isə öz yurdunda qaldı. Həmin vaxt muğan və türkiş boyları Göytürklərin hakimiyyəti altında idilər. Bu boyların rəhbərləri isə çur titulu daşıyırdı. Onlar Hsi-yü adlanan Şərqi Türküstanda məskun idilər.

638-ci ildə on-oxların yenidən təşkilatlandırılması zamanı Toxmaq şəhərinin şərqində tulu (töles) boyları, qərbində isə nuşepi boyları məskunlaşdılar. Türkişlər tulu boyları içində yer aldılar.

Şərqi və Qərbi Türk xaqanlıqlarının süqutundan sonra türkişlər on-ox boylarını öz hakimiyyətləri altına alıb, Orta Asiyada öz dövlətlərini yaratdılar. 651-ci ildə ortaya çıxan Türkiş xaqanlığının bütün siyasi fəaliyyəti müsəlman ərəblərlə müharibələrdə keçdi. Əslində Türkiş adı ilə tarixdə iki dövlət olub: Sarı Türkiş xaqanlığı *(690-715)* və Qara Türkiş xaqanlığı *(716-739)*.

651-690-cı illər arası Türkiş dövlətinin yaranma dövrü hesab edilir. Türkiş dövlətinin banisi Uçele *(690-706)* idi.

699-cu ildə Uçele rəsmən özünü xaqan elan etdi. Uçele xaqanın əmrində 140 minlik ordu vardı. O, parçalanmış on-ox tayfalarını birləşdirərək, Toxmaqda (Süyab) iqamət etdi. Uçele oğlu Çenunu (Cebu/Yabqu) Çinə elçi göndərərək, Tanq sülaləsi ilə sülh müqaviləsi bağladı. Həmin vaxt İkinci Türk xaqanlığının yaranması və Qapağan xaqanın təzyiqləri qarşısında ağır vəziyyətə düşən Çin Uçele xaqanın elçisini sevinclə qarşıladı. 703-cü ildə Uçele Çinin nəzarəti altına girən Qərbi Türk qəbilələrinin başında dayanan Hu Tse-luonu ağır məğlubiyyətə uğratdı. Beləliklə, o, Qərbi Türk xaqanlığının varisi olduğunu təsdiq etdi.



Birinci Türk xaqanlığının parçalandığı və Çinin təsiri altına girdiyi bir dövrdə Orta Şərqdə bir sıra əlamətdar hadisələr yaşanırdı. Müsəlmanlar Sasanilər imperiyasını süquta uğradaraq, bütün Orta Şərqi ələ keçirdilər. Beləliklə, müsəlmanlar Qafqazda və Orta Asiyada türklərlə qonşu oldular. Xəlifə Əli ilə Xilafəti ələ keçirmək istəyən Müaviyə arasındakı müharibələrdən sonra İslam tarixində Xülafəyi-rəşidin dövrü *(632-661)* başa çataraq, yerində Əməvilər Xilafəti *(611-750)* yarandı. Əməvilər Xilafətinin ilk xəlifəsi Müaviyə dövründə *(661-681)* müsəlmanlar fəthlərinə qaldıqları yerdən davam etməyə başladılar. Artıq bu dövrdə türklərin qələbəlik halda yaşadığı qədim Eftalit torpaqları olan Xorasan ərəblərin əlinə keçdi və bölgədəki türk bəylikləri sülh yolu ilə Xilafətin hakimiyyətinə girdilər. Müsəlmanlar türk bəyliklərinin daxili işlərinə qarışmayıb, illik müəyyən bir miqdarda xərac almaqla kifayətlənirdi. Müsəlmanların hakimiyyəti altına girən ən mühüm türk bəyliyi isə Aşina soyundan gələn mərkəzi Bəlx olan Toxaristan yabquluğu idi.

705-ci ildə Əməvilər Xorasan əyalətinin başına Qüteybə ibn Müslimi gətirdi. Zalım bir şəxs olan Qüteybə ələ keçirdiyi türk bölgələrində böyük talanlar və qətliamlar törətdi. O, bu yolla 705-ci ildə Toxaristan yabquluğunun mərkəzi Bəlxi ələ keçirib, 706-cı ildə Bəykəndə soxuldu. Səmərqənd və Buxara da ərəblərin nəzarəti altına keçdi. Qüteybənin apardığı zülmkar siyasət çox sayda insanın qaçıb Türkiş ölkəsinə sığınmasına səbəb oldu. Qaçanlar məcusi, manixeist, məzdəki, buddist, şaman və Əməvi siyasətindən narazı müsəlmanlardan ibarət idi. O zamana qədər ərəblərin fəthlərinə səssiz qalan türklər bu hadisələrədən sonra diqqətlərini cənuba çevirdilər. Qüteybə öz davranışları ilə türklərin nifrətini qazandı. Uçele xaqanın əmri ilə türklər böyük bir hücum təşkil etdilər. Təbəriyə görə, türkişlər genişmiqyaslı hərbi əməliyyatlarla Qüteybənin hərəkətinin qarşısına sədd çəkdilər və ərəbləri qorxutdular.

Ərəblər psixoloji olaraq türklərdən qorxurdu. Buna səbəb Məhəmməd peyğəmbərin hədisləri və xəlifələrin nəsihətlərində təsvir edilən türk imici idi. Peyğəmbərin hədislərinin birində *"türklər sizə dəymədikcə siz də onlara toxunmayın"* deyilirdi. Başqa bir hədisdə isə belə deyilir: *"ümmətimi geniş üzlü, kiçik gözlü, üzləri qalxan kimi olan qövm sürgün edəcəkdir. Onlar üç dəfə Ərəb yarımadasına qədər gələcəklər. Birincisində qaçan xilas olacaq, ikincisində bəziləri xilas olacaq, bəziləri məhv olacaq, üçüncüsündə isə kökləri qazınacaqdır. Onlar türklərdir"*.

Ərəblər Orta Asiyada türkişlərlə, Azərbaycanda xəzərlərlə qarşılaşana qədər məğlubiyyətin nə olduğunu bilmədilər. Sasaniləri yox edən, Bizansı təsir altına alan ərəblər özlərini məğlubedilməz sayırdı. Amma ərəblərin genişlənmə siyasətinə türklər son qoydular. Xilafət təqribən 100 il türklərlə fasiləsiz müharibə aparmaq məcburiyyətində qaldı. Türklərə qalib gəlməyin yolunu muzdlu türk əsgərlərinə sahib olmaqda görən Xilafət minlərlə könüllü və məmlük (qul) türkü ordusuna cəlb etdi. Bu proses türklərin Xilafət sistemini ələ keçirməsi *(861-ci ildə)* ilə nəticələndi.

Ərəblərin türkişlərlə üzləşməsi onların zehnində türk qorxusunu canlandırdı. Bu vəziyyət Qüteybəni çox narahat etdiyindən, apardığı siyasəti dəyişdirmək məcburiyyətində qaldı. V.V.Bartoldun da qeyd etdiyi kimi *"cəsarətin fayda gətirmədiyini başa düşəndə (Qüteybə) hiyləyə və aldatmağa əl atdı. Yerli hakimlər arasındakı ixtilaflardan istifadə edib, ərəb hakimiyyətini Mavəraünnəhrdə gücləndirməyə çalışdı"*.

706-cı ildə Uçele xaqanın vəfatından sonra Türkiş dövlətinin başına qardaşı Sou-ko *(Soko: 706-710)* keçdi. Soko xaqan dövründə Türkiş xaqanlığının əmrində 300 minlik ordu vardı. 680-ci ildə formalaşan İkinci Türk xaqanlığı da türkişlərdən ehtiyat edirdi. Uçele xaqan İkinci Türk xaqanlığına qarşı yumşaq siyasət aparırdı. Ancaq Soko Türk xaqanlığının hakimiyyətini tanımayaraq, ona qarşı Çinlə ittifaq yaratdı.



Soko xaqanın sərt idarəsindən narazı olan qardaşı Çenu ona üsyan edərək Göytürk xaqanı Qapağanın yanına qaçdı. O, Sokonun bütün gizli planlarını Qapağan xaqana xəbər verdi. Sürətlə hərəkət edən Tonyukukun əmrindəki Türk ordusu 709-cu ildə Urunqu çayı ətrafında türkişlərin kəşfiyyat dəstəsini darmadağın etdi. Yoluna davam edən Tonyukuk 710-cu ildə Bolçu döyüşündə türkişlərin 100 minlik ordusunu da məğlub edərək Soko xaqanı əsir aldı.

Bu məğlubiyyətlə türkişlər və on-oxlar İkinci Türk xaqanlığının hakimiyyəti altına girdi. Türk xaqanlığının cənub sərhədi yenidən Xorasana çatdı.

Türkişlərlə müharibədə aldığı məğlubiyyətlə etibarı zədələnən Qüteybə ibn Müslim yaranan vəziyyətdən istifadə etməyə qərar verdi. 712-ci ildə yenidən Mavəraünnəhrə daxil olub, Xarəzm istiqamətində hərəkət etdi. 713-cü ildə ərəb orduları Buxara, Nəsəf, Kiş və Xarəzmdə öz hakimiyyətlərini yaratdılar. Ərəblərin bölgədəki üstünlüyü iki il davam etdi. 715-ci ildə Əməvi Xilafətində meydana gələn hakimiyyət dəyişikliyi, Qüteybənin vəfatı və türkişlərin yenidən dirçəlişi bölgədəki siyasi vəziyyətin dəyişməsinə səbəb oldu.

Bolçu döyüşündən sonra Göytürklər on-ox tayfalarını hakimiyyətləri altına alsalar da, ərəb fəthlərinin genişlənməsi bölgədəki türk tayfaları arasında narazılıqlar yaradırdı. 711-ci ildə qara türkişlərin (nuşepi) hakimi Sulu (Sou-lou) on-oxları öz ətrafında toplayaraq Orta Asiyadakı hakimiyyəti ələ keçirdi. 716-cı ildə bayırku boylarının Qapağan xaqanı pusquya salıb öldürməsi ilə Sulu özünü Türkiş xaqanı elan etdi. Sulu xaqanın hakimiyyət dövrü *(717-738)* Türkiş xaqanlığının çiçəklənmə dövrü qəbul edilir. Sulu, Göytürk zərbəsi ilə parçalanan xaqanlığı yenidən bərpa etdi. Çin mənbələri onun 715-ci ildə 200 minlik bir xalqa rəhbərlik etdiyini və xalqını rifah içində yaşatdığını qeyd edirlər.

Sulu ağıllı və siyasi təcrübəyə sahib xaqandı. Əmrindəki boylarla yaxşı rəftar edir və topladığı qənimətləri onlarla bölüşürdü. Ərəblərə qarşı müharibələrdə türk boylarının hərbi gücünü öz ətrafında birləşdirən Sulu, arxa-arxaya Əməvi ordularına zərbələr vurdu. Bunun nəticəsində Əməvi əmiri Səid ibn Əbdüləziz 721-ci ildə böyük bir ordu ilə Səmərqənd istiqamətində hərəkətə keçdi. Eyni tarixdə Külçur komandanlığında Türkiş orduları da Mavəraünnəhrə daxil oldular. Səmərqənd yaxınlığında meydana gələn müharibədə ərəblər ağır məğlubiyyətə uğradı. Səid ordugahı tərk edərək Xorasana qaçdı.

Xəlifə Səidi vəzifəsindən uzaqlaşdıraraq, onun yerinə Səid ibn Əmr əl-Xəraşini təyin etdi. Əl-Xəraşi vali olduqdan sonra müsəlman və qeyri-müsəlman yerli xalqa divan tutmağa başladı. Onun zülmü qarşısında çoxunu müsəlmanların təşkil etdiyi minlərlə insan Türkiş ölkəsinə sığındılar. Vəziyyətin ağır olduğunu nəzərə alan xəlifə təcili əl-Xəraşini vəzifəsindən uzaqlaşdırıb, yerinə Müslim ibn Səidi təyin etdi. Müslim ibn Səid Barukada ərəb qəbilələrinin üsyanına əhəmiyyət verməyərək Fərqanəyə qədər uzanan hərbi əməliyyatlara başladı. Xorasan və Mavəraünnəhri çapıb-talayan ərəb orduları böyük qənimət və sərvət ələ keçirdilər. Müslimin ordusu Fərqanədən geri qayıdarkən yolları türkişlər tərəfindən kəsildi. Meydana gələn döyüşdə Müslim ordusunun tamamını itirdi. Az sayda əsgərlə Səmərqəndə sığınan Müslim buradan Xorasana qaçdı. Türkişlər ərəblərin topladığı qənimətləri ələ keçirdilər.

Əməvi xəlifəsi Müslimi Xorasan əmirliyindən kənarlaşdıraraq, onun yerinə Əsad ibn Abdullah əl-Qəsrini vali təyin etdi. Əl-Qəsri təcili tədbirlər görərək türklərin qarşısını almağa çalışdı. 726-cı ildə Xuttalan yaxınlığında ərəblərlə türkişlər yenidən üz-üzə gəldilər. Bu dəfə ərəblər əvvəlkindən daha böyük zərbə aldılar. Türklər Xorasandakı Əməvi ordusunu darmadağın etdilər.



Hərbi məğlubiyyətləri ortadan qaldırmağın yolunu valiləri dəyişdirməkdə görən Əməvi xəlifəsi əl-Qəsrinin yerinə Əşrəş ibn Abdullah əs-Süləmini Xorasanın başına gətirdi. Artıq Mavəraünnəhrdə vəziyyət tərsinə dönmüşdü. Ərəblər sahib olduqları Orta Asiya şəhərlərini bir-bir itirirdilər. Türkişlər ordularını iki qola ayıraraq bölgəni ərəblərdən təmizləməyə başladılar. Sulu xaqan ərəb ordularını təqib edərkən Külçur pusqu qurub onları yox edirdi. 728-ci ildə türkişlər Buxaranı və Bəykəndi ərəblərdən aldılar. Şəhərdəki ərəb qarnizonları qılıncdan keçirildi. Vəziyyətin olduqca ağır olduğunu görən Əşrəş təcili Mavəraünnəhrə hərəkət etsə də, Səmərqənddə Sulu xaqan ilə qarşılaşıb geri çəkilmək məcburiyyətində qaldı. Əməvi orduları geri çəkilərkən Səmərqəndin şimalında Külçurun ordusu tərəfindən mühasirəyə alındılar. 58 gün davam edən mühasirədə ərəb əsgərlərinin çoxu susuzluqdan öldü. Çətinliklə Xorasana qaçan Əşrəş vəzifəsindən kənarlaşdırılıb, Xorasan əmirliyinə Cüneyd ibn Əbdürrəhman gətirildi. Cüneyd hakimiyyətə gəldikdə Mavəraünnəhrdə Səmərqənd və Dəbusiyyə xaricində bütün əyalətlər türklərin nəzarəti altına keçmişdi.

Səmərqəndə hərəkət edən Cüneyd, yollar türkişlərin nəzarətində olduğu üçün dağ keçidlərindən hərəkət edirdi. Amma Vakatü`ş-şib (Keçid) adlanan yerdə türkişlərin qəfil hücumuna məruz qaldı. Beləliklə, Xorasandan 12 minlik ordu ilə yola çıxan Cüneyd Səmərqəndə ancaq 2 min əsgərlə gəlib çata bildi. Qalanları keçidlərdə türkişlər tərəfindən öldürüldülər.

Cüneyd xəlifə Hişama məktub göndərərək hərbi yardım istədi. Xəlifə Kufə və Bəsrədən topladığı 20 minlik ordunu Səmərqəndə göndərdi. Qışın yaxınlaşması ilə Sulu xaqan ordularını Buxaradan şimala çəkmişdi. Bundan istifadə edən Cüneyd Buxaranı ələ keçirdi. Amma ərəblər Buxaradan irəliyə gedə bilmədilər. Təbəriyə görə, Cüneyd türklərin hücumlarının qarşısını aldı, amma Səmərqənd və Buxara xaricində bütün bölgə Sulunun nəzarəti altında idi.

722-ci ildə təsis edilən Türkiş-Çin münasibətləri 737-ci ildə Sulu xaqanın Göytürk soyundan (Aşina) olan arvadının Çinin sərhəd bölgələri hakimi Du-syana göndərdiyi məktub ucbatından pozuldu. Du-syanın məktubu gətirən Türkiş elçisinə söylədiyi *"Aşinanın qızı hansı cəsarətlə mənə əmr verir?!"* sözləri iki dövlət arasında dostluğun yerini müharibənin almasına səbəb oldu. Sulu xaqan böyük bir ordu ilə Çin sərhəd qarnizonlarına hücum edərək bütün hərbi məntəqələri dağıtdı. Du-syan Çinə qaçmaq məcburiyyətində qaldı. Sulu Kuça şəhəri ətrafında Çin ordularını bir daha məğlub edərək çinliləri qılıncdan keçirdi. Həmin vaxt ərəblərin Mavəraünnəhrə hərəkət etdiyini öyrənən Sulu Çin səfərini yarıda kəsərək geri qayıtdı. Toxaristana hücum edən türkişlər Saqaniyan hakiminin xəyanəti nəticəsində ərəblərə məğlub oldular və Uşrusanaya çəkildilər. Ərəblər Səmərqəndi ələ keçirdilər. Ərəblərin qarşısını almaq üçün Mavəraünnəhrə hərəkət edən Sulu xaqan muğan tayfalarının bəyi Boğa Tarkan tərəfindən öldürüldü. Çincə mənbələrinin verdiyi məlumata görə, 738-ci ildə keçirdiyi infarkt nəticəsində bədəninin bir hissəsi iflic olan Sulu xaqan qənimət və torpaqların bölüşdürülməsi sırasında Boğa Tarkan ilə münaqişə etdi və onun tərəfindən öldürüldü.

Sulu xaqanın ölümü Türkiş xaqanlığının qara və sarı türkişlər şəklində bölünməsinə səbəb oldu. Boğa Tarkan sarı türkişlərin, Tumac qara türkişlərin başına keçdi. Türkiş hakimiyyəti uğrunda mübarizənin davam etdiyi bir vaxtda ərəblər qarşısında türkişlərin Mavəraünnəhr hakimi Külçurun vəziyyəti ağırlaşdı. Türkişlər arasında mübarizədən istifadə edən Xorasanın yeni valisi Nasir ibn Səyyar *(738-748)* Seyhun sahilində ərəb hakimiyyətini təsis edərək Külçurun ordularını Uşrusana, Şaş və Fərqanədən çıxardı. 739-cu ildə baş verən döyüşdə Külçur əsir düşdü və Nasir ibn Səyyar tərəfindən öldürüldü. Beləliklə, Mavəraünnəhr və Fərqanə bölgəsində türkişlərin hakimiyyətinə



son qoyuldu. Nasir ibn Səyyar ələ keçirdiyi türk bölgələrinin hakimlərinə geniş səlahiyyətlər verərək onların türkişlərlə ittifaqının qarşısını aldı. Onun apardığı siyasət nəticəsində Əməvi ölkəsinin şərq sərhədi Şaş, Fərqanə, hətta Çinə qədər uzandı. Boğa Tarkanı məğlub edib öldürən Çin imperiyası da öz hakimiyyətini Toxmaq və İli çayına qədər uzatmış və Xilafətlə üz-üzə gəlmişdi.

İki böyük dünya imperiyasının 751-ci ildə Talas meydan müharibəsində üz-üzə gəlməsi qarluqların işinə yaradı. Üç gün davam edən döyüşə qarluqlar təsir göstərdilər. Qəfildən Çin ordusuna arxadan hücum edib qılıncdan keçirən qarluqlar, döyüşün müsəlmanların lehinə nəticələnməsinə kömək etdilər. Çin mənbələrinə görə, ərəblər qarşısında qərbdəki dörd qarnizonun generalı Kao Hsien-çih 30 minlik ordusu ilə qarluqların xəyanəti nəticəsində yox oldu. Bundan sonra sürətlə hərəkət edən qarluqlar Türkiş torpaqlarını ələ keçirdilər. 766-cı ildə Türkişlərin paytaxtı Toxmaqa sahib olub, xaqanlığa son qoydular. Göytürklərin varisi sifəti ilə qarluqlar öz xaqanlıqlarını təsis etdilər. Türkiş hakimiyyətindəki on-ox boyları isə Qarluq dövlətinin nəzarəti altına keçdi.

## 5.3.2. Basmıllar

İkinci Türk xaqanlığı özünə tabe olan böyük türk tayfalarının zərbələri nəticəsində süqut etdi. Bu tayfaların başında *basmıllar* gəlirdi. Basmıllar töles boylarına mənsubdu. 603-cü il hadisələrində onlar töles boyları arasında zikr edilirlər. Oymaqlarının sayının artması ilə müstəqil tayfa hesab olundular. Çində Sui sülaləsi dövründə *(581-617)* basmıllar Turfanın şimalında, Baykal gölünün cənubunda və qırğızların cənub-şərqində məskun idilər. Bu dövrdə basmılların ümumi sayı 2000 çadır, yəni 10.000 nəfərdi.

İkinci Türk xaqanlığı formalaşdıqda basmıllar da ona tabe oldular. Bu dövrdə basmıllar Beşbalıq bölgəsində məskunlaşmışdı. Bu bölgə Şimali İpək yolu üzərində idi və onun başlanğıc nöqtəsini təşkil edirdi. Göytürklər basmıllara geniş idarəçilik haqları tanımış və onların təşkilatlanmasına çalışmışdılar. Bu vaxt basmılları Bodun adlı bir bəy idarə edirdi və o *idikut* (*iduk kut*) titulu daşıyırdı.

740-cı ildə İkinci Türk xaqanlığında siyasi böhran başladığı zaman basmıllar da fürsətdən istifadə edib üsyan etdilər. Belə məlum olur ki, Bilgə xaqanın vəfatından sonra basmıllar Göytüklərə qarşı digər türk tayfaları ilə ittifaq yaratdılar. Basmıllar on-ok boyları ilə birlikdə 744-cü ildə Göytürk xaqanı Özmışa hücum edərək onu öldürdülər.

İkinci Türk xaqanlığının taxtını basmılların ələ keçirməsinin digər səbəbi də onların uyğur və qarluqlardan daha erkən təşkilatlanmasıdır. 720-ci ildə Göytürklər Aşina soyundan bir komandanı basmılların başına gətirmişdilər. O, Kotaç adlanırdı. 740-cı ildə Göytürklər arasında taxt uğrunda mübarizə başladığı zaman Kotaç öz müstəqilliyini elan etmiş və Beşbalıq bölgəsində Basmıl dövlətinin əsasını qoymuşdu. Basmıl dövlətinin 742-ci ildə yarandığı qeyd edilir. Basmılların beş böyük oymağını birləşdirən Aşina nəslindən olan Kotaç iki il sonra Göytürk taxtını ələ keçirmişdi. Onun Aşina nəslindən gəlməsi uyğur və qarluqları onun hakimiyyətini tanımaq məcburiyyətində qoymuş olmalıdır.

Göytürk taxtına çıxan Kotaç "Aşina Ho-la Bilgə Xaqan" adını almış və Çinə elçi göndərmişdi. Çin imperatoru Hsünq-tsunq da ona "bənövşəyi rəngdə xələt, qızılla bəzənmiş kəmər" hədiyyə etdi. Bu, Basmıl xaqanının Çin hakimiyyətini tanıdığı mənasına gəlir.

Basmıl dövlətinin ömrü çox qısa oldu. Bir il sonra uyğurlarla qarluqlar birləşərək, basmıllara hücum edib, Ötükəni ələ keçirdilər. Məğlub olan basmılların böyük hissəsi Çinə qaçdı. Aşina Ho-la Bilgə Xaqan Çinin paytaxtı Çanq-anda



imperator tərəfindən qarşılandı və Tanq ordularının sol qanad mühafizəçisi təyin edildi. Basmıl boyları isə Ötükən taxtını ələ keçirən uyğulara qarşı qarluqlarla ittifaq qursalar da, uyğurlar tərəfindən məğlub edildilər. Basmılların əsas hissəsi Beşbalık bölgəsinə çəkildilər. Uyğur dövlətinə tabe olan basmıllar, XI əsrdə Qaraxanlı dövlətinə hücum edən türk tayfaları arasında göstərilir. Moğol hücumları ərəfəsində basmılların bir hissəsi qərb istiqamətində köç edərək Azərbaycan və Anadoluya gəlmişdilər. Bu tarixdən sonra Azərbaycanda ortaya çıxan "Bismilli" etnotoponimləri basmılların adı ilə əlaqədardır.

### 5.3.3. Qarluqlar

İkinci Göytürk xaqanlığına son verən basmıl-qarluq-uyğur ittifaqının ən güclü ikinci tayfası qarluqlar idi. Qarluqlar Göytürk sülaləsi (*tu-ku/türk boyu*) ilə qohum tayfa olması cəhətindən türk boylar iyerarxiyasında mühüm yerə sahibdi. Qarluq adının etimologiyası haqqında iki fikir vardır. Q.Nemetə görə, qarluq adı türkcə "qar yığını" mənasına gəlir. İkinci açıqlama G.Doerferə *(Gerhard Doerfer; 1920-2003)* aiddir. Ona görə, qarluq adı "qarıl-qarılmaq" sözündən yaranmış və "qarışmış" mənasına gəlirdi.

Qarluqların müstəqil bir boy halına gəlməsi Birinci Göytürk xaqanlığının süqutundan sonrakı dövrə təsadüf edir. Qarluqlar mənbələrdə hər zaman "üç qarluq" adı ilə qeyd edilmişdir. Bu da onların üç boydan meydana gəldiyini göstərir. Bu boylar *bulaq*, *çigil* və *daşlı* adlanırdı. İkinci Göytürk xaqanlığı yarandıqda qarluqlar Qutluq xaqana tabe olmuşdu. Qapağan xaqanın hakimiyyəti zamanı, xüsusilə də onun hakimiyyətinin axırlarında qarluqlar dörd dəfə üsyan etmişdilər. Qarluqların hakimiyyətə qarşı üsyankar davranışları Bilgə xaqan dövründə də davam etmişdi. 720-ci ildəki qarluq üsyanı çox sərt şəkildə yatırılmışdı.

Qarluq-Göytürk münasibətləri İkinci Göytürk xaqanlığının süqutuna təsirsiz ötüşmədi. 742-ci ildə Ötükəni işğal edən qüvvələr arasında qarluqlar da yer alırdı. Lakin basmılların Ötükəndəki hakimiyyəti ələ keçirməsi qarluqların narazılığına səbəb oldu. Qarluqlar özlərinin hökmdar soyundan gəldiklərini deyərək hakimiyyətin onlara aid olduğunu iddia etdilər. Basmıllara qarşı uyğurlarla birləşərək 744-cü ildə Ötükənə hücum etdilər. Amma qarluqlar bu dəfə də istəklərinə nail ola bilmədilər. Basmıllardan sonra Türk xaqanlıq taxtını bu dəfə də uyğurlar ələ keçirdilər. Uyğurlara qarşı təkrar basmıllarla ittifaq yaradan qarluqlar bu dəfə ağır məğlubiyyətə uğradılar.

Qarluqların uyğurlar tərəfindən məğlub edilməsi onların Orta Asiya istiqamətində köç etmələrinə səbəb oldu. Bu vaxt Orta Asiya Türkiş xaqanlığının nəzarəti altında idi. Amma Sulu xaqanın öldürülməsindən sonra qara və sarı türkişlər arasında başlayan hakimiyyət mübarizəsi Mavəraünnəhrin ərəblər tərəfindən işğal olunması və Türkiş xaqanlığının tənəzzülü ilə nəticələnmişdi. Bu fürsətdən istifadə edən qarluqlar Sırdərya çayı boyunca uzanan əraziləri ələ keçirdilər.

751-ci ilin iyul ayında Talas (Atlah) yaxınlığında baş verən döyüşdə qarluqlar müsəlmanlara kömək edərək Çin ordularının məğlub olmasına səbəb oldular və beləliklə, bölgədə Çinin təsirini məhdudlaşdıraraq öz hakimiyyətlərini təsis etdilər.

766-cı ildə qarluqlar İssıq göl üzərindən Türkiş xaqanlığının torpaqlarına soxuldular. On-ox tayfalarından nuşepi qolunun nəzarəti altında olan Suyab və Talas şəhərlərini ələ keçirdilər. Buradan Çu çayı boyunca hərəkət edərək Qərbi Türk xaqanlığına, daha sonra Türkiş xaqanlığına aid ordugaha (Min Bulaq) sahib oldular. Burada Qarluq dövlətinin əsasını qoydular.

İyirmi beş il ərzində *(766-791)* Qarluq dövləti sürətlə inkişaf edərək Qaşqar bölgəsini ələ keçirdi. Xəlifə Harun



ər-Rəşid zamanında *(786-809)* Qarluq orduları Abbasilərin vassalı Fərqanə məlikliyinin torpaqlarına soxuldular. Şəhər ələ keçirildi və məlik, Xorasan valisi Qitrif ibn Atanın yanına qaçdı. Beləliklə, Fərqanə uğrunda Qarluq-Abbasi müharibəsi başladı. Qarluqlar 790-800-cü illər arasında dəfələrlə Fərqanəyə hücumlar edərək bölgəni talan etdilər.

Qarluqlarla uyğurların mübarizəsi 840-cı ilə qədər davam etdi. 840-cı ildə qırğızlarla ittifaq yaradan qarluqlar Uyğur xaqanlığına son qoydular. Uyğur xaqanlığının paytaxtını işğal edən qarluqlar özlərini Türk xaqanlığının varisləri elan etdilər. Bu dövr qarluqlar tarixində Qaraxanlılar dövlətinin *(840-1212)* yaranma tarixi hesab edilir.

Qarluqlar İslamı könüllü qəbul edən ilk türk tayfası olmuşdur. Sürətlə müsəlmanlaşan qarluqlar Abbasilər Xilafətinin nəzarətindəki türk ölkələrini ələ keçirərək Qaraxanlı dövlətinin təməllərini atdılar. Qaraxanlılar müsəlman-türk dövlətlərinin idari, siyasi, mədəni kimliyinin yaranmasında böyük rol oynamışdılar. Moğol istilası ilə qarluqların bir hissəsi Azərbaycan və Anadoluya köç etmişdi. Qarluqların bir hissəsi Əfqanıstan torpaqlarını ələ keçirərək, burada Qəznəvilər dövlətini *(962-1187)* yaratdılar. Qəznəvi dövlətinin banisi Səbüktəkinin qarluq mənşəli olduğu qeyd edilir.

## 5.3.4. Qırğızlar

Qırğızlar Göytürk xaqanlığı dövründə tarix səhnəsinə çıxdılar. Qırğız adının mənası haqqında da xeyli görüşlər vardır. Bu görüşlərdə qırğız adı *"qırx qız"*, *"qırx oğuz"*, *"qır-gəzmək"*, *"qırx hun"* şəklində izah edilmişdi.

Qırğızların ilk yurdu Kökmən dağlarının şimalı ilə Yenisey çayının Kəm qolu ətrafı idi. Hunlardan etibarən qırğızlar haqqında sistemli məlumat verən Çin mənbələri onların 555-ci ildə Göytürk dövlətinin tərkibinə daxil olduqlarını qeyd edirlər. Bu tarixdə qırğızlar Baykal gölü

ətrafında məskun idilər. Üstəlik, qırğızlar özləri Göytürk xaqanlığına tabe olmuşdular.

Qırğızların Göytürk xaqanlığının süqutunda birbaşa təsirlərinin olub-olmadığı bilinmir. Lakin İkinci Göytürk xaqanlığının süqutu ərəfəsində uyğurlar və qarluqlardan sonra ən güclü türk tayfası olduqları açıq bilinir. Onların Göytürk hakimiyyəti uğrunda mübarizə apardıqlarını 758-ci ildə uyğurlara qarşı müharibələrindən başa düşmək olar. Bu tarixdə çinlilər qırğızları çia-çia-ssu, yəni "sarı-qızıl üzlülər" adlandırırdılar. Uyğurların ən qatı düşməninə çevrilən qırğızlar qarluqlarla ittifaq halında idilər. Qırğız-Qarluq ittifaqı 840-cı ildə Uyğur dövlətinə son qoyub, Göytürk paytaxtı Ötükəni ələ keçirdilər.

Qırğızlar Uyğur xaqanlığının mərkəzini ələ keçirdikdən sonra boylar ittifaqı halında öz ənənəvi həyat tərzlərini davam etdirdilər. Bəlxi *(Əbu Zeyd Əhməd ibn Səhl əl-Bəlxi; 850-934)* və Gərdizi *(Əbu Səid Əbdülhey ibn Dəhhaq ibn Mahmud Gərdizi; XI əsr)* qırğızların şaman olduqlarını yazırlar. Kamlıq inancına güclü şəkildə bağlı olan qırğızlar İslam dinini ən gec qəbul edən türk xalqı hesab edilir. Qırğız xaqanlığı 924-cü ilə qədər davam etmiş, bəzi monqol tayfalarını da öz hakimiyyətləri altına almışdılar. Bu tarixdə Mərkəzi Monqolustanda məskun olan kidanlar və ya kitayların hökmdarı A-pao-çi (Abacı) Qırğız xaqanlığının torpaqlarına hücum edərək Ötükəni ələ keçirdi və Bilgə xaqana aid kitabənin silinməsini, onun yerinə öz adına türkcə, çincə və monqolca bir kitabənin yazılmasını əmr etdi. Kidanlar (çi-tan) VII əsrdə Mancuriyada ortaya çıxan türk-monqol qarışığı bir xalq olub, siyenbilərin davamçıları idi. Göytürklər dövründə otuz tatar ittifaqının tərkibində yer alan kidanlar 900-cü ildə öz dövlətlərini yaradaraq Şimali Çini ələ keçirdilər. Çin də onların adı ilə Kitay adlandı. Qırğız xaqanlığı 80 il davam etdi. Bu dövr ərzində Mərkəzi Asiyanın böyük bir hissəsini nəzarət altında tutan qırğızlar 924-cü ildə artaraq davam edən kidanların təsiri altına girdilər.



## 5.3.5. Tiginlər

Bəlxdə iki türk tayfası məskunlaşmışdı. Aşina soyundan gələn tiginlər və qarluqlar. Sonuncular Toxaristan qarluqları adlanırdı. Bəlx Orta Asiya ilə Xorasanı bir-birindən ayıran Amudərya çayının cənubunda Baba dağı yamacında yerləşir. Arxeoloji araşdırmalar bölgənin eramızdan əvvəlki əsrlərdən etibarən türklərin təsirinə məruz qaldığını təsdiq edir. Bamiyan əyalətindən axan çayın kənarında salınan şəhərin tarixi bilinmir. On iki qapısı olan Bəlxin adı bir iddiaya görə, türkcə "şəhər" mənasına gələn "balık" sözündən yaranıb. İslam coğrafiyaçıları tərəfindən Xorasanın mərkəzi adlandırılan Bəlx günümüzdə Əfqanıstan sərhədləri içində olub, xarabalıqları özbəklərin yaşadığı Məzari-Şərif yaxınlığındadır.

İlkin orta əsrlərdə Bəlx əyalətin adı idi. Quşan-döyər tayfalarının adı ilə bölgə daha sonra Toxaristan adlandı. Müsəlman coğrafiyaçılarına görə, Bəlx Bəncar, Cah (Qax), Cüzcan (Cüzcanan), Dəstgird, əl-Kaf, Mədər (Məzar), Üşburkan (Şibirqan), əs-Sidrə, Siyahcird (Şavkerd) kimi şəhər və bölgələrdən ibarətdi. Toxaristan Bədəxşan, Sud, Bamiyan və Pənçşir vilayətlərinə ayrılırdı.

Toxaristan və Bəlxin etnik tərkibi tam bilinmir. Toxaristanın ovalıq hissəsində VII əsrdən qarluqlar məskunlaşdılar. Heyvandarlıqla məşğul olan qarluqlar vergi müqabilində Bəlx yabqularının ordusunda könüllü xidmət edirdilər. Toxaristanda şəhərləşmiş çoxlu türk yaşayırdı. Onlar sak, ağ hun, avar (var), eftalit, sul, quşan mənşəli idilər. Bundan başqa, bölgədə "tat" adlanan irani xalqlar da yaşayırdı. Buddizm geniş yayılmışdı. Çinli rahib Hsüan-Tsanqın dediyinə görə, sadəcə Bəlxdə 100-dən çox məbəd və məbədlərdə xidmət edən 3 min rahib vardı. Rahiblər buddizmin Hinayana məzhəbinə bağlı idi. Çinli rahibə görə, Bəlx buddistlərin ikinci böyük dini mərkəzi idi.

Türklər 557-ci ildə Eftalit dövlətinə son qoyub, Toxaristanı ələ keçirdilər. Türk xaqanı öz oğlunu buraya yabqu təyin etdi. VI əsrin sonu – VII əsrin əvvəllərində Bəlxdə yarımüstəqil Toxaristan yabquluğu meydana gəldi. 630-cu ildə Bəlxi ziyarət edən çinli rahib Hsüan-Tsanq Toxaristanda Qərbi Türk xaqanlığının *(582-630)* böyük xaqanı Tardunun *(582-603)* qardaşı Tonq yabqunun hökmdarlıq etdiyini qeyd edir. Tonq yabqu 618-630-cu illər arasında Qərbi Türk xaqanlığının hökmdarı idi.

Toxaristan yabquluğunun (tiginlərin) ana mərkəzi Varvaliz şəhəri idi. Mənbələrə görə, Toxaristan yabqusunun əmrində 100 min nəfərlik ordu vardı. 657-658-ci ildə Qərbi Türk xaqanı Aşena Ho-lunun Çinə məğlub olması ilə türklərin ittifaqı dağıldı. Bundan istifadə edən Toxaristan yabquluğu müstəqil oldu. Həmin vaxt Toxaristan 25 bölgəyə ayrılırdı və hər bölgənin başında bir türk bəyi vardı. 663-cü ildə Toxaristan yabquluğunu Aşena Ou-çe-po idarə edirdi.

Çincə mənbələrdə Toxaristan yabquluğu haqqındakı məlumatlar 759-cu ildə sona çatdığından dövlətin nə vaxt süqut etdiyi bilinmir. Həmin tarixdən sonra Toxaristan tarixini aydınlatmaq üçün müsəlman coğrafiyaçıların və tarixçilərin əsərlərinə müraciət etmək lazımdır. Təəssüflər olsun ki, İslam müəllifləri Nizək Tarhan (Tarkan) xaricində Toxaristan hakimlərindən bəhs etməyiblər.

Ərəb mənbələrində Nizək Tarhan olaraq bəhs edilən Toxaristan yabqusunun çincə mənbələrdə adı çəkilən Aşena Ou-çe-po olduğu məlumdur. Çincə "Ou-çe-po" "Nizək"lə eynidir. Ərəbdilli mənbələrində sasanilərin sonuncu hökmdarı III Yezdəgerdin Nizək Tarhan tərəfindən öldürüldüyü qeyd edilir.

654-cü ildən etibarən Bəlx müsəlmanların nəzarəti altına keçdi. Sülh yolu ilə müsəlmanlara təslim olan Bəlx hakimləri onlarla bağladıqları razılaşmaya görə, illik 400 min dirhəm xərac müqabilində bölgəni sərbəst idarə etmək haqqına sahibdilər.



Mənbələrdən aydın olur ki, Toxaristandakı türk yabqularının hakimiyyəti IX əsrin ortalarına qədər davam edib. Ehtimal ki, 848-ci ildə türk əsilli komandan Haşim ibn Mahicur yabquların hakimiyyətinə son qoyub, öz dövləti Davudilərin təməllərini atıb. Bu tarixə qədər Toxaristan yabquları Əməvilərin, sonra da Abbasilərin vassalı olaraq hökm sürüblər. Buna baxmayaraq, yabquların geniş səlahiyyətləri vardı. Bunu onların Çinlə sərbəst diplomatik münasibətlər aparması da təsdiq edir.

Tiginlər ailəsinin ən tanınmış ismi, İslam təsəvvüf tarixinin ən böyük sufilərindən hesab edilən İbrahim ibn Ədhəm idi. İbrahim ibn Ədhəm Bəlxdəki Türk xaqanları nəslindəndi. E.Esin *(Emel Esin; 1914-1987)* və R.Uslunun *(Rıfat Uslu)* da qeyd etdiyi kimi, İbrahim ibn Ədhəm türk yabqularından birinin oğlu və ya Bəlx sübaşılarından birinin qohumu olub. Səfəvi mənbələri Şah İsmayılın nəslinin İbrahim ibn Ədhəmin qohumlarından Firuz şahdan gəldiyini iddia ediblər.

## 5.3.6. Kiməklər

Kimək Xaqanlığı türk tayfalarının böyük federasiyasını xatırladırdı. Bu ittifaq içində imi (*iymy*), imək (*iymak/yimək*), tatar (*ttar*), qıpçaq (*kıfçak*), bayandur (*blandr*), lanikaz (*lnqaz*) və əclad (*ijlad*) tayfaları yer alırdı.

Y.Marquarta görə, *kimək* adı *iki imək* sözünün qısaldılmış formasıdır. O, bu adın *imi* və *imak* tayfalarının birləşməsindən *iki-mak* (*iki imək*) – kimək şəklində yarandığını iddia edib. M.K.Özərginə *(Muammer Kemal Özergin; 1930-1986)* görə, kimək adı türkcə "*kimə*", yəni "gəmi" sözündən törəyib.

Hələ IV əsr hadisələrindən bəhs edən Favstos Buzand Albaniya ərazisində *ijmax/ijmak* tayfasının adını qeyd edir. Sara Aşurbəyliyə görə, Buzandın adını qeyd etdiyi bu

tayfa Şamaxı ətrafında məskunlaşmışdı. Şamaxı adının həmin tayfanın adından yarandığı iddia edilir. İjmax/ijmak adının *kamak/kimak* olduğunu Ptolomeyin Şamaxı şəhərini *Kamexiya* və ya *Samexiya* olaraq göstərməsi təsdiq edir. Plini *(Gaius Plinius Secundus; 23/24-79)* Şimali Qafqazda *kamak* və ya şamak adlı tayfadan bəhs edir.

Əvvəllər Uyğur xaqanlığının tərkibində yer alan imir (eymür), bayandur və tatar boyları 840-cı ildə bu xaqanlığın dağılmasından sonra Kimək ittifaqına daxil oldular. Kiməklərin yeddi boy halında birləşməsi də məhz 840-cı ildə baş vermişdi. Amma Kimək xaqanlığının İkinci Türk xaqanlığının süqutundan sonra formalaşdığını demək üçün kifayət qədər səbəb var. Məsudi, Qara və Ağ İrtış yaxınlığında *Kmak Yyqur* (Kimək uyqur) adını qeyd edir. "*Hudud əl-aləm*" əsərində kiməklər haqqında geniş məlumat var. Naməlum müəllif tərəfindən qələmə alınan bu əsərdə Kimək ölkəsi belə təsvir edilir: *"Şərqində bir qırğız xalqı yaşayır. Cənubda Artuş və İtil çayları axır. Qərbdə qıpçaqların bəzi tayfaları məskunlaşıb. Şimalda isə yaşayış yoxdur. Bu ölkədə sadəcə bir qəsəbə olub, çox sayda boylar yaşayır. İnsanlar çadırlarda yaşayırlar. Yay və qış aylarında otlaqlar, çaylar və su olan yerlər arasında köçlər təşkil edirlər. (Ticari) məhsulları samur (dərisi) və qoyundur. Yayda süd, qışda qurudulmuş ət yeyirlər. Oğuzlarla sülh şəraitində olduqları vaxt onların yaşadıqları yerlərə yaxın ərazilərə köç edirlər. Kimək hökmdarına "kağan" deyilir. Kağanın Kimək ölkəsində 11 valisi (əyalət hakimi) var. Onlar bu vəzifəni miras yolu ilə öz övladlarına tapşırırlar".*

Müsəlman səyyahı Təmim ibn Bəhrə *(Tamīm ibn Bahr; IX əsr)* görə, kiməklərin 20 min atlı əsgəri vardı.

Qazax tədqiqatçı Bolat Kumekovun *(Көмеков Болат Ешмұхамбетұлы: d. 1940)* tədqiqatlarına görə, "VII əsrin ortalarında kiməklər Altayın şimalında və İrtış bölgəsində yaşayırdılar. Onlar Qərbi Türk xaqanlığına bağlı idilər. Xaqanlığın yıxılmasından sonra *(656-cı il)* kiməklər Qərbi Türk xaqanlığından ayrılıb müstəqil oldular. Bu



dövrdə Kimək boylar ittifaqı formalaşmışdı. Gərdiziyə görə, kiməklərin hökmdarı şad tutuk titulunu daşıyırdı. Şad və tutuk titulları qədim türk kitabələrində keçir.

"Hudud əl-aləm" və Təmim ibn Bəhr isə Kimək hökmdarının "xaqan" titulu daşıdığını qeyd edirlər. Görünür, Kimək şadının "xaqan" titulunu qəbul etməsi İkinci Türk xaqanlığının süqutundan sonra *(740-cı ildə)* reallaşıb. Gərdizi Kimək hökmdarlarının xaqan soyundan olduğunu vurğulayır. Belə çıxır ki, Qərbi Türk xaqanlığı taxtı uğrunda gedən mübarizədə öz qardaşına məğlub olan kiçik qardaş İrtış bölgəsinə qaçmış və Kimək xaqanlığının təməllərini burada atmışdır. Əgər bu məlumatı doğru qəbul etsək, o zaman kiməklərin Şato (Çöl) türklərinin çümi qolundan gəldikləri haqqında iddialara inanmaq lazımdır.

740-cı ildə Türk xaqanlığının şimal torpaqlarında Kimək xaqanlığı ortaya çıxdı. Türk xaqanlığının süqutu ilə çox sayda türk tayfası gəlib kiməklərə qoşuldu və Kimək xaqanlığının əhalisi çoxalaraq güclü bir dövlətə çevrildi.

Kimək tayfaları yarımüstəqil olub, bütün tayfaların başında bir xaqan dayanırdı. Tayfa başçıları şad tutuk titulu daşıyırdı. Kimək tayfalar ittifaqının formalaşması ilə hökmdarlıq titulu da dəyişdi. Kimək tayfalarının başında dayanan hökmdarlar əvvəlcə *bayqu*, daha sonra da *xaqan* titulu aldılar. Bayqu adı türkcə olub "şahin, doğan" mənasına gələn totemik bir addır. "Hudud əl-aləm"in yazdığına görə, Kimək xaqanlığı 11 əyalətə (tayfaya) ayrılırdı və bunların başında xaqan dururdu.

Təəssüflər olsun ki, 200 ildən çox hökm sürən Kimək dövlətinin daxili siyasəti haqqında heç bir məlumatımız yoxdur. Amma əl-İdrisinin "Kimək xaqanının hacibləri, vəzirləri var, dövlət ədalətli və mükəmməldir" deməsindən Kimək xaqanlığının inkişaf etmiş bir dövlət sisteminə sahib olduğunu başa düşürük.

X-XI əsrlərdə Şimali Çində ortaya çıxan Kidan dövlətinin (çincə adı *Liao*) sürətlə inkişaf etməsi, Monqolustan

bölgəsini ələ keçirərək Şərqi Türküstanda Qaraxanlı torpaqlarına doğru irəliləməsi şərqdən qərbə yeni türk köçlərinin gerçəkləşməsinə səbəb oldu. Kidan təzyiqi altında Monqolustan və Şimali Çindəki yurdlarını tərk edən kun (*qun*) və kay (*qay*) tayfaları Kimək torpaqlarına doğru hərəkət etdilər.

Kitayların təsiri ilə bu yeni xalqlar köçü XI əsrin ortalarında baş vermişdi. Qara kitaylar kayları yurdundan çıxarmış, onlar da kun torpaqlarına hücum etmişdilər. Buna görə kunlar şarıların, şarılar türkmənlərin, türkmənlər oğuzların, oğuzlar da peçeneqlərin yurdunu əlindən aldılar. Bu silsilə köç dalğasında adları qeyd edilən şarılar qıpçaqlar idi. Urfalı Matfey *(Urfalı Mateos; 1070-1137)* qayları "ots", yəni "ilan" xalqı adlandırır. Yaqutun əsərində isə onlar *kani* (qayı) olaraq göstəriliblər. Nəticədə bu xalqlar hərəkatı Kimək xaqanlığının varlığına son vermiş, dağılan Kimək ittifaqının içindən yeni bir tayfalar ittifaqı ortaya çıxmışdı. Bu yeni tayfalar ittifaqının adı Qıpçaq (Kuman, Poloves) idi.





## 5.4. İLKİN OĞUZ DÖVLƏTLƏRİ

Oğuzlar tarix səhnəsinə skiflər (*işquz*) adıyla çıxdılar. Eramızın əvvəllərində Qədim Çin mənbələri onlardan *tinq-linq* adıyla bəhs edir. Onlar e.ə.III əsrdə ortaya çıxdılar.

Böyük Hun imperiyasının yabqusu Mo-tun zamanında Baykal gölünün qərbindən Cənubi Sibir və Yenisey ətrafına qədər geniş ərazidə yaşayan *tinq-linq*lər skiflərin şərqdə qalan qollarını təşkil edirdilər. Onlar işquzlardan sonra tədricən Orta Asiyadakı torpaqlara yerləşməyə başladılar.

Tinq-linqlər coğrafi olaraq üç hissəyə ayrılırdılar: 1. Qərb tinq-linqləri: İrtış çayı ətrafında yerləşmişdilər; 2. Cənub tinq-linqləri: Qobi səhrasından Çinə qədər olan ərazilərdə, yəni əcdadları tilərin ana torpaqlarında yaşamağa davam edirdilər; 3. Şimal tinq-linqləri: Baykal gölü ilə Yenisey çayı ətrafındakı torpaqlarda yurdlar qurmuşdular.

Onlardan qərb tinq-linqləri əvvəlcə Cənubi Qazaxıstana, oradan da Qərbi Avropa və Qafqaza hərəkət edərək *oqur/oğur* adıyla tarix səhnəsinə çıxdılar. Cənub tinq-linqləri

Sarı çayın mənşəyinə qədər olan ərazilərə yayılmışdılar. Onlar daha sonra Çin qaynaqlarında kao-çe, yəni "araba türkləri" adını aldılar. Şimal tinq-linqləri isə Göytürklər zamanında Orta Asiyanın tamamına yayılaraq *töles* adıyla tanındılar.

## 5.4.1. Oğurlar

Oğuz adının türk dilinin "-r, -l" ləhcəsindəki oxunuşu olan "oqur" və ya "oğur"lar 460-cı ildən sonra tinq-linqlərin qərbdəki boylarının ümumi adıdır. Belə məlum olur ki, *oqur* adı tinq-linq boylarının qərb qrupuna verilirdi. Oqurlar, Cənubi Qazaxıstandan İdil (Volqa) ətrafına, daha sonra Şimali Qaradəniz, Balkanlar, Qafqaz və Şərqi Anadoluya qədər böyük bir ərazidə yaşayan türk boylarının ümumi adı idi. *Oqur* və ya *oğur* adı, türk dillərinə xas olan "r/l-z/ş" səs dəyişməsi nəticəsində sonrakı dövrlərdə "oğuz" şəklini almışdır.

Mənbələrdə adlarının axırıncı hecası "qur/oqur"la qurtaran ondan çox oğur boyundan bəhs edilir. Bizans müəllifi Prisk bu boyların adlarını belə sıralayır: *wnqwr* (on-oqur), *wqr* (oqur), *sbr* (sabir), *bwrqr* (burqar/bulqar), *kwrtrqr* (kutriqur), *'br* (abar/avar), *ksr* (kasar/akatzir/ağaçeri), *srwrqwr* (sarurqur/şaraqur, ağ oqurlar), *dyrmr* (edimür/eymür), *b'qrsyq* (boqorsaq), *kwls* (holaç/xələc).

Macar türkoloq L.Rasonyi *(Rásonyi László; 1899-1984)* oqur/oğurların üç hissəyə ayrıldığını qeyd edir: *on oqurlar*, *otuz oqurlar* və *doqquz oqurlar*. VI əsr Süryani (Suriya) qaynaqları Azərbaycan (Aran) daxil olmaqla, Qafqazda 13 hun boyunun yaşadığını xəbər verirlər. Onların çoxu oğur boylarına mənsub idi: *aunqur/auqar* (on-oqur), *burqar* (bulqar), *kurtaqar* (kutiqur/kurtiqur), *dirmar* (edirmür/eymür), *siriqur* (şaraqur/ağ oqur), *baqrasik* (boqorsaq). Oğurların ən qüvvətliləri şaraqurlar, bittiqurlar (beş oqurlar),



ultinqurlar (*altziaqir*/altı oqur), kutriqurlar (*kuturqur*/tukurqur/doqqoz oqur), hunuqurlar (on oqurlar) və utiqurlar (*uturqur*/otuz oqur) qəbul edilirlər.

Attilanın oğlu İrnəkin xidmətinə girən oqur/oğur boyları Avropa Hun xaqanlığının yıxılmasından sonra üç bölgədə yerləşdilər:

1. Hunuqurlar/on-oqurlar: Qafqazın şimalı ilə Azov dənizinin şərqi;
2. Utiqurlar/otuz-oqurlar: Don və Volqa çayları arasında;
3. Kutriqurlar/doqquz-oqurlar: Dnepr çayı istiqamətində.

Oğurların bəzi oymaqları Dunay, Macarıstan, Azərbaycan və Ağrı dağları ətrafına, hətta Qızıl irmağa qədər olan ərazilərə yayılmışdılar.

Oqur boyları uzun müddət Bizans üçün ən böyük təhlükə mənbəyi olmuşdur. Bunlardan kutriqurlar (doqquz oqur) 559-cu ildə 7.000 nəfərlik süvari ordusu ilə İstanbula qədər gəlib zəlzələ nəticəsində yıxılan Uzun Anastasiya qalasından şəhərə daxil olmuş və bizanslılarla ölüm-qalım döyüşünə girmişdilər.

Oğurlar iki böyük Bulqar dövlətinin yaranmasında və formalaşmasında yer aldılar. Onlardan kutriqurlar, yəni doqquz oqurlar Qara Bulqarlar adıyla Dunay çayı üzərindəki Bulqar dövlətinin əsasını qoydular, ancaq daha sonra xristianlaşaraq türklüklərini itirdilər. İndiki Bolqarıstan xalqları bu oğur boyundan nəşət etmişdir. On-oğur və otuz-oğurlar isə İdil (Volqa) çayı üzərində Böyük Bulqariya dövlətinin təşkilatçılarına çevrildilər. Oğurların bəzi boyları Azərbaycan və Şərqi Anadoluda yerləşdilər. Oğurların ən güclü boyu bulqarlar idi. Bulqar adı türk dilində "qarışmış" mənasında olub, oğur boylarının ittifaqını əks edirdi. Bulqarların Volqa ətrafındakı dövlətləri monqolların hücumuna qədər mövcud olmuşdur. Onlar müsəlmanlığı qəbul edən ilk türk dövləti hesab olunurlar.

## 5.4.2. Töleslər

Tinq-linqlərin Orta Asiyada yaşayan hissəsi də töles (*tölis, töləs, töliş*) adını almışdır. Çin mənbələri töleslərin (çincə *T'ie-lo*) Göytürk xaqanlığı dövründə *(VI-VII əsrlər)* Orta Asiyanın tamamına yayılaraq 6 əsas qola ayrıldığını qeyd edirlər:

1-ci qrup töleslər: P'u-ku (Buqut), T'unq-lo (Tonqra), Vei-ho (Bayqu), Pa-ye-ku (Bayırku), Fu-lo. Bu boylar Tola çayının şimalında türklərin digər boyları Məng-ç'en (Məngücük), T'u-jo-ho, Ssu-çie (İzgil), Hun, Hu-hsie ilə birlikdə yaşayırdılar. Onların 20.000 əsgərinin olması ümumi saylarının 100 mindən çox olduğunu göstərir.

2-ci qrup töleslər: Ç'i-pi (Çepni), P'u-lo-çih (Balçıq), İ-şih (Eşik), Su-p'o (Saba/Sabar), Na-ho (Nuxu), Vu-kuan (Bakan), Ye-şih (Yaşıl), Yü-hi-huan boyları. Əkinçilik və meşə işçiliyi ilə məşğul olan bu töleslər Haminin qərbində, Qaraşarın (Yeçi/Yesi) şimalında və Ağ dağın ətəklərində yaşayırdılar. 20.000 əsgərə sahib olduqlarından sayları 100 mindən çox idi.

3-cü qrup töleslər: Hsie-yen-t'uo (Sir Tarduşlar), Şih-p'an (Çoban), Ta-ç'i (Daş) boyları. Bu qrup Altay dağlarının cənub-qərbində məskunlaşmışdı. Onların əsgərlərinin sayı 10.000 idi. Bu onların sayının 50-60 minə civarında olduğunu göstərir.

4-cü qrup töleslər: Ho-şih (Qoşuq), Ho-çie (Qoç), Po-hu (Buqu), Pi-qan (Baxan), Çü-hai (Çoqay), Ho-pi-hsi, Ho-ts'o-su, Pa-ye-wei, Ho-ta (Kuda) boyları. Bu boylar Səmərqəndin şimalı ilə Arıs suyu (Sırdərya) kənarında yaşayırdılar. Hərbi gücü 30.000 idi. Bu hesabla ümumi sayının 150 mindən çox olduğu düşünülür.

5-ci qrup töleslər: San-suo-yen, Mie-ts'u, Lunq-hu boyları. Xəzər dənizinin şərqində yaşayırdılar. Onlar Azərbaycanda sullarla (çola) birlikdə məskunlaşmışdılar.



6-cı qrup töleslər Bizansın şərqində yerləşmişdilər. Bu qrupa En-çü (Ençi), A-lan (Alan), Pei-ju, Çiou-li, Fu-ven-hu boyları daxil idi. 20 minlik orduya sahib idilər. Onların əhalisi 100 min idi. *Alanlar* da onların arasında yer alırdı. Həmin oymaqlar, əsasən Dağıstan və Azərbaycanda yerləşmişdilər.

Töles boyları sonrakı dövrlərdə digər türk boylarının tərkibində yer alırdılar. Böyük bir hissəsi oğuzların, qaraxanlıların, qıpçaq-kanqlıların arasında yer almış *buqut*lar Uyğur dövlətinin quruluşunda iştirak etmiş, *bayırku*lar XI əsrdə yabaku adıyla ortaya çıxaraq şimal tərəfdən Qaraxanlı torpaqlarına hücum edəcək qədər güclü bir boy halına gəlmiş, *sir tarduş*lar geniş torpaqlar əldə edərək Göytüklər arasında güclü vəziyyətə gəlmiş, töles adını saxlayan bir boy isə *tooles* adıyla Baykal gölü ətrafında Monqollar dövründə də yaşamışdılar.

*Oğuz* adıyla VIII əsrin ortalarında tarix səhnəsinə çıxacaq, 766-cı ildə isə Oğuz Yabqu dövlətini, daha sonra da Böyük Səlcuqlu dövlətini meydana gətirəcək 24 oğuz boyu, əsasən bu töleslərdən meydana gəlmişdir. İkinci Türk xaqanlığının 682-ci ildə qurulması sırasında *töles* və *tarduş* adlı türk boyları yenidən təşkilatlanmış və bu tarixdən sonra bu qələbəlik türk xalqı on böyük boyun ətrafında formalaşmışdır. Bu on boyun hər birinə də özünü idarəetmə haqqı olan və türklərdə "müstəqillik" simvolu olan *ox* verilmişdir. Beləliklə, tarixi qaynaqlarda *on-oxlar* adıyla keçən bu xalqlar töleslərin 682-ci ildən sonrakı davamı hesab edilir. On-oxlar İkinci Türk xaqanlığının süqutundan *(742-ci il)* sonra əvvəlcə Türkeşlər dövlətinin, 766-cı ildə türkeşlərin qarluqlar tərəfindən ortadan qaldırılmasından sonra da bəziləri Qaraxanlıların, əsas hissəsi isə Oğuz Yabqu dövlətinin quruluşunda yer almış əsas oğuz ünsürü olmuşdur.

### 5.4.3. Uyğurlar

Göytürklərin süqutunda iştirak edən uyğurlar, xaqanlığın yıxılmasından sonra paytaxt Ötükəni ələ keçirdilər. İslam mənbələrində *doqquz quzlar* (*tzqzz/toquz quz*) adı ilə bilinən uyğurlar, Çin mənbələrində *hoi-ho* adıyla qeyd ediliblər. Türk kitabələrində *uyqur/uyğur* adı ilə zikr edilirlər.

Uyğurlar oqur (oğuz) boylarından olub, töles tayfaları arasında yer alırdı. Əfsanəyə görə, uyğurlar "Hun yabqusunun qızı ilə qurdun izdivacında" törəyiblər.

Uyğur adı çincə salnamələrdə "öz ətrafında dönən və bir şahin kimi hücum edən" mənasında şərh edilir. *Uyğur* adı türkcə "*uy* – oymaq, qohum, müttəfiq" sözündən yaranmışdır. Mənbələrdə uyğurların *doqquz oğuz* və *on uyğur* şəklində iki qola ayrıldıqları göstərilir.

*Uyğur* ittifaqı buqu (çincə: p'u-ku, türkcə: buqut), tonqra (*t'unq-lo*), uyqur (vei-ho/uyğur), bayırku/bayırqu (pa-ye-ku) və *fu-lo* adlı böyük oğuz tayfalarından təşkil olunmuşdu. Onlar oğuz və ya töles tayfalarından ayrılaraq müstəqil tayfalara çevriliblər. Həmin tayfaların hökmdarları *erkin/ilkin* titiulu daşıyırdı. Daha sonra bu ittifaqa çincə adları *menq-çen, tu-ju/tu-ju-ho, ho-ssu-çieh, hun, hu-hsieh* şəklində qeyd edilən tayfalar daxil oldu. 586-618-ci illər arasında 20 minlik orduya sahib idilər.

Tanq dövründə Uyğur ittifaqı tieh-le (töles) tayfalarının birliyindən meydana gəlmişdi. Həmin tayfalar *yüan-ho, hsieh-yen-to* (sir tarduşlar), çipi/çipiyü, *yu-po, ku-li-kan* (kuriqan), *to-lanq-ko* (tolanqu/telengit), *pu-ku* (buqu/buqut), *ssu-çieh* (sığır?), *hu-hsieh, hsi-çieh, t'unq-lo* (tonqra), *hun* (qun), *pa-ye-ku* (bayırqu), *a-tie* (ediz) və *pei-hsi* ibarət idi. Çin mənbələri onları "çiu hsinq – doqquz soy" adlandırırdı. Bu da müsəlman müəlliflərinin *doqquz quz* adını verdiyi ittifaqa işarədir.



Doqquz Oğuz ittifaqı içində uyğurlar, sadəcə bir tayfanı təşkil edirdi. Uyğurlar özləri isə on boydan meydana gəlirdi. Bu tayfalar *yağlaqar/yaqlaqar* (yaqıla-qır=düşmən ilə döyüşən), *utuqar* (hu-tu-ko=ut (qazanmaq/udmaq)+r+qır), *kürəbir* (tu-lo-vu/çiu-lo-vu=kürəmür, kürə-qorunmaq/qaçmaq+bir), *boqsıkıt* (mo-ko-hsi-çi=baqasığır), *avuçaq* (e-vu-çe=ebirçeg/abırçak), *qasar* (ko-sa=xəzər), *yabutqar* (yo-vu-ko=yabuttikari-yağmur+qar), *ayabir* (hsi-ye-vu/hi-ye-vu=ayavirə/ayabirə/ayamur/aymur=yağmur və ya eymür) boylarından mütəşəkkildi. Amma burada 8 tayfanın adı çəkilir. Ceyms Hamilton *(James Russell Hamilton; 1921-2003) ağ xəzər, sarı uyğur, bulqar, uturqur, oqur/oğuz* tayfalarının da ittifaqa daxil olduğunu qeyd edir. Onlardan *utuqar* tayfasının *uturqur* olduğu ehtimal edilir. Amma *buqu/buqut, hun/qun, bayırku, tonqra, sığır, kipi, apu-sse, kulun-vu-ku* və *ediz* tayfalarından meydana gələn "doqquz oğuzlar" ilə uyğurların 8 tayfasını nəzərə alsaq, Uyğur dövlətinin, ümumilikdə 17 tayfadan təşkil olunduğu ortaya çıxır. Zira, Uyğur sarayını ziyarət edən müsəlman səyyah Təmim ibn Bəhr də "17 başbuğu olan Uyğur dövləti"ndən bəhs edərək hər başbuğun əmrində 13 min döyüşçünün olduğunu qeyd edir. Məğlub olan basmıllar və qarluqların bəzi boyları ilə, sadəcə uyğur boylarının sayı 11-ə çıxır ki, Çin mənbələrində "11 əmiri olan uyğur xaqanı"ndan bəhs edilir.

Bu tayfalar arasında uyğurların hökmdar ailəsi *yağlaqar* soyundan gəlirdi. Belə məlum olur ki, İkinci Türk xaqanlığının son dövrlərində töles tayfalarının 9-u yağlaqar tayfası başçılığında Uyğur və ya Doqquz Oğuz ittifaqı altında birləşərək yeni hərbi-siyasi güc meydana gətirmişdir. Bilgə xaqanın vəfatından sonra *(734-cü il)* uyğurlar müstəqil siyasi gücə çevrildilər. 740-cı ildə Çinlə əlaqələr yaradaraq Göytürk dövlətinin süqutunda basmıl və qarluq tayfaları ilə birlikdə yer aldılar. 742-ci ildə Göytürk xaqanlığına son qoyduqdan sonra yaranan Basmıl dövlətinin sol qanadını

təşkil edən uyğurlar iki il sonra basmılların hakimiyyətinə son qoyaraq Ötükəni ələ keçirdilər. Türk xaqanlıq taxtı uğrunda mübarizədə qarluqları da məğlub edən uyğurlar 744-840-ci illər arasında Türk dünyasının ən böyük siyasi gücünə çevrildilər. Uyğur xaqanlığının ilk xaqanı isə Qutluq Bilgə Kül xaqan *(744-747)* olmuşdu.

Uyğur xaqanlığı "Tenqridə bolmuş il etmiş Bilgə Xaqan Bayan Çor" (Tanrıda var olmuş, dövlət qurmuş Moyunçur) zamanında *(747-759)* özünün ən parlaq dövrünü yaşamışdır. Şine-Usu kitabəsi onun xatirəsinə qoyulmuşdur. Bayan Çorun hakimiyyəti dövrü qarluq, oğuz, doqquz tatar, çik, basmıl və türkiş tayfaları ilə müharibələrdə keçmişdir. Böyük və parlaq qələbələr əldə etməsinə rəğmən, Bayan Çor Göytürk xaqanlığının torpaqlarının ancaq bir hissəsinə sahib ola bildi. Bayan Çor Selenge çayı üzərində yeni bir şəhər saldırdı. Soğdlu və çinli memarların çalışdırıldığı bu şəhər Ordubalıq və ya Qara Balasaqun adlanırdı.

Bayan Çor bu vaxt böyük siyasi və iqtisadi böhran yaşayan Çində Tanq imperiyasının vəziyyətindən yaxşı istifadə edərək, bu ölkəni öz vassalına çevirmişdi. Belə ki, Çində türk Aşina soyundan olan An-lu-şan (Kürşad) üsyan edərək, 200 min nəfərlik ordusu ilə Tanq imperiyasının paytaxtı Lo-yanqı 756-cı ildə ələ keçirdi. 757-ci ildə isə imperiyanın ikinci böyük mərkəzi Çanq-anı alıb, özünü imperator elan etdi. Tanq imperatoru Su-tsunq bu vəziyyət qarşısında Bayan Çordan yardım istədi. 757-ci ildə Çinə səfər təşkil edən Bayan Çor An-lu-şanı məğlub edərək Lo-yanq və Çanq-anı üsyançılardan azad etdi. Tanq imperatoru ilə müqavilə bağlayan Bayan Çora Çin ildə 20 min ton ipək verməyi qəbul etdi. Bayan Çor imperatorun qızı ilə evləndi.

Tanqla yaratdıqları dostluq münasibətləri Çini uyğurların vassalına çevirdi. Uyğurlar Tanq xanədanlığının başında zəif hökmdarların yer almasına çalışır, Tibet-Çin müharibəsində Tanq dövlətini dəstəkləyərək, bunun



müqabilində Çinin iqtisadi qaynaqlarını istismar edirdilər. Çinin dini həyatına güclü təsir edən uyğurlar bu ölkədə buddizm, manixeizm kimi inancların yayılmasına səbəb oldular.

759-cu ildə Bayan Çorun vəfatı ilə Uyğur xaqanlığının taxtına oğlu Bögü oturdu. Çin mənbələrində o "ağıl və fərasət sahibi İdi-kən xaqan" adı ilə məşhurdur. Bögü xaqan dövründə *(759-779)* uyğurların Çin üzərində hakimiyyəti daha da gücləndi. Uyğur tacirləri Çində sərbəst ticarət imkanı əldə etdikləri kimi, Çinin uyğurlara illik xərac olaraq verdiyi ipəyin də miqdarı ilbəil artırıldı. Əvvəllər çinlilər uyğurlara ildə 20 min ton ipək ödəyirdilər. 827-ci ildə bu göstərici 200 min ton ipəyə çıxdı. 829-cu ildə Çin uyğurlara 230 min ton ipək verirdi. Bir neçə il sonra bu 500 min ton olmuşdu. Uyğurlar üçün pul ölçüsü ipək idi. Uyğurlar ipək müqabilində Çinə at satırdılar. Amma uyğurların Çinə satdıqları atlar zəif və qoca idi. Çinin digər bir məhsulu olan çay uyğur tacirlər vasitəsilə dünyaya yayıldı. Uyğurlar bu vasitələrlə Çini özlərinin müstəmləkəsinə çevirmişdilər.

762-ci ildə Bögü xaqan mani dininin rahibləri ilə tanış olur. Xaqanın hüzuruna çıxan mani dininin rahibləri onda dərin təsir yaradır. Rahiblərdən dördü xaqanın əmri ilə Uyğur paytaxtında məskunlaşdı. Rahiblərlə apardığı söhbətlərin sonunda Bögü xaqan bu dini ölkəsinə qəbul etdirmək qərarına gəldi. Buna səbəb xaqanın uyğurların köçəri həyat tərzini tərk edərək şəhərləşmələrini istəməsi idi. Uyğur dövlətinin məmurları və ağsaqqalları bu məsələni geniş müzakirə etdilər. Müzakirələr sonunda mani rahibləri ilə dövlət adamları və ağsaqqallar arasında geniş bir yığıncaq keçirildi. Yığıncaqda rahiblər uyğur məmurlarını öz fikirləri ilə susdurdular.

Bögü xaqanın din dəyişdirməkdəki arqumentləri mənasız deyildi. Xalqının şəhərləşməsini istəyərkən Çin təsirinə birdəfəlik son vermək istəyirdi. Xaqana görə, türk dövlətləri və hökmdarları nə qədər güclü olub, Çini özlərinin

vassalına çevirsələr də, köçəri həyat tərzinə görə Çinə möhtacdılar. Çünki Çinin kənd təsərrüfatı məhsulları, ipəyi, ticari avantajları olmadan varlıqlarını sürdürə bilmirdilər. Bundan yeganə xilas yolu oturaq həyatı mənimsəmək idi. Xalqın ət məhsulları yerinə kənd təsərrüfatı məhsulları ilə qidalanmasının yolu ətin qadağan olduğu mani inanclarını qəbul etməkdə idi. Bögü xaqanın Çində hakim din olan buddizmə qarşı mani dinini qəbul etməsi də son dərəcə maraqlıdır. Beləliklə, mani dini ilk dəfə bir türk dövləti tərəfindən rəsmi din elan edildi. Bu hadisə uyğurların şöhrətini dünyada xeyli artırsa da, gözlənilən nəticəni vermədi, hətta Uyğur xaqanlığının süqutuna səbəb oldu.

Bögü xaqanın bir tərəfdən din dəyişdirməsi, digər tərəfdən də Çində mani rahibləri, soğdlu tacirlər və Tanq imperiyasının paytaxtında yaşayan varlı uyğurların mənfəətlərini qoruma siyasəti ölkəsində narazılıqlara səbəb oldu. Vəziri Tun Baqa Tarkan onu bu siyasətindən əl çəkməyə məcbur etsə də, xaqan onun sözünə əhəmiyyət vermədi. Buna görə Tun Baqa Tarkan Bögü xaqanı sui-qəsd yolu ilə ortadan qaldırıb, taxta özü oturdu. 779-cu ildə Bögü xaqanla birlikdə bütün ailəsi qılıncdan keçirildi. Alp Qutluq Bilgə adı ilə taxta çıxan Tun Baqa Tarkan *(779-789)* Bögü xaqanın əmisi oğlu idi. O, üsyanlardan xilas olan və tibetliləri məğlub edib güclənən Tanq imperiyasına qarşı sülh siyasətini izlədi.

Uyğur xaqanlığı Türk xaqanlıq sisteminin bütün idari və təşkilati sistemini qəbul etmişdi. Siyasi, hərbi və idari cəhətdən Uyğur xaqanlığı Göytürk dövlətinin surətindən ibarət idi. Dövlətin başında xaqan dayanırdı. Onun əmrində yer alan şad və yabqu tituluna sahib olanlar dövlətin iki qanadını (şərq və qərb hissəsini) idarə edirdilər. Uyğurların ən böyük xüsusiyyəti türk təşkilat sisteminin yazılı mexanizmini hazırlamaları idi. Buna ən yaxşı nümunə fərmanların hazırlanma qaydasıdır. Uyğurlar fərmana "buyruq" adı verirdilər. Uyğur xaqanlığının idarəçilik prinsipi



doqquz buyruqdan meydana gəlirdi. Doqquz buyruq açıq şəkildə uyğurları meydana gətirən doqquz oğuz boyuna işarə idi. Uyğurlar xarici buyruqla Çinə göndərdikləri əmr və qərarları nəzərdə tuturdular. Buyruq sistemi ordu quruculuğuna da sirayət etmişdi. Uyğur ordu sistemi onluq sisteminə dayanırdı. Ordu sistemində "onbaşı", "yüzbaşı" kimi hərbi terminlər işlədilirdi.

Uyğurların hakim soyu *Yaqlakar (Yağlakar)* adlanırdı. Hökmdarlıq haqqı ancaq bu soya aid idi. Lakin 795-ci ildə Uyğur xaqanlığında hakim soy dəyişmiş, Yaqlakarların yerini Ediz boyundan çıxan hökmdarlar almışdı. Buna baxmayaraq, Yaqlakarlar dövlət içində öz mövqelərini qoruyub saxlayırdılar.

789-cu ildə Tun Baqa Tarkan öldü. Yerinə oğlu Külüg Bilgə xaqan *(789-790)* keçdi. Amma onun hakimiyyəti bir il davam etdi və onun yerini oğlu Qutluq Bilgə *(790-795)* aldı. 790-cı ildə bir tərəfdə Uyğur-Çin, digər tərəfdə isə Tibet-Qarluq dövlətlərinin olduğu və bölgədəki bütün xalqların (şatolar, basmıllar, qırğızlar və s.) iştirak etdiyi otuz illik müharibə başladı.

Bu müharibənin ilk mərhələsində Çin-Uyğur ittifaqı ağır məğlubiyyətlərə düçar oldu. Qutluq Bilgə xaqana ehtiram sarsıldı və xaqan öldürüldü. Ötükən taxtında siyasi böhran yarandı. Hakimiyyəti ordu komandanı olan Ediz boyunun başçısı Qutluq ələ keçirdi. O, 795-ci ildə Alp Qutluq Bilgə xaqan *(795-805)* titulu ilə Uyğur taxtına oturdu. Öldürülən xaqanın oğlu yox idi. Alp Qutluq isə onun övladlığı hesab olunurdu. Buna görə də Yaqlakar soyu onun taxta çıxmasına mane törətmədi. O, 805-ci ildə vəfat etdikdə Uyğur dövləti yenidən əvvəlki qüdrətinə qovuşmuşdu. Yerinə keçən Alp Külüq Bilgənin hakimiyyəti üç il davam etmişdi. Həmin xaqanın zamanında Uyğur dövlətinin gücünün davam etdiyi 806-cı ildə xaqanın əmri ilə Çin paytaxtında mani ibadətgahının açılmasından aydın olur. 808-ci ildə vəfat edən Külüg Bilgənin yerinə Alp Bilgə xaqan

*(808-821)* taxta çıxmışdır. Onun hakimiyyəti uyğurların ən sakit və rifah dövrü hesab edilir.

Alp Bilgə 821-ci ildə vəfat edincə taxta Alp Küçlüg Bilgə xaqan çıxdı. Amma onun hakimiyyəti üç il davam etdi. Yerinə Xəzər Tigin adlanan Bilgə xaqan keçdi. Onun zamanında çinlilərin uyğurlar arasında təsiri gücləndi. Çinli şahzadə Tai-ho sarayda daxili intriqaların çoxalmasında böyük rol oynayırdı. Onun bu fəaliyyətləri Xəzər Tiginin 832-ci ildə öldürülməsi ilə nəticələndi. Yerinə Alp Bilgə xaqan keçdi. Yeni xaqan sələfinin yol verdiyi nöqsanları aradan qaldıraraq, böhranın qarşısına keçmək üçün bir sıra tədbirlər gördü. Amma vəziri Kürəbirin Şato türkləri ilə gizlicə razılaşıb, onu 839-cu ildə öldürməsi Uyğur xaqanlığının sonunu gətirdi. Həmin il qışın həddən artıq sərt keçməsi uyğurların heyvan sürülərinin çoxunun tələf olmasına səbəb oldu. Ölkədə qıtlıq yarandı. Siyasi çəkişmələrə iqtisadi böhran da əlavə edilincə Uyğur xaqanlığı daxilində mübarizələr daha da kəskinləşdi. Qırğızların yanına qaçan Uyğur komandanı Külüg Baqa qırğız və qarluqları Uyğur paytaxtını ələ keçirməyə təşviq etdi. 840-cı ildə qələbəlik qırğız-qarluq orduları Uyğur xaqanlığı ərazisinə soxulub, paytaxtı ələ keçirdilər. Uyğurların sonuncu xaqanı öldürüldü və çox sayda uyğur qılıncdan keçirildi. Uyğur mərkəzini qırğızlar ələ keçirdilər. Qarluqlar isə Uyğur xaqanlığının ortadan qalxması münasibəti ilə Türk xaqanlıq taxtının varisi olduqlarını iddia edərək Qaraxanlılar dövlətinin *(840-1212)* əsasını qoydular. Uyğurlar Kansu və Beşbalıq ətrafına köç edərək burada öz dövlətlərini təsis etdilər və monqolların ortaya çıxmasına qədər varlıqlarını davam etdirdilər.

Uyğur xaqanlığı zəngin mədəni miras buraxdı. Günümüzə qədər gələn çox sayda əsər, kitabə, dini abidələr Uyğur həyatının zənginliyindən və rəngarəngliyindən xəbər verir. Din dəyişdirmək uyğurların ictimai-sosial həyatını alt-üst etsə də, uyğurlar oturaq və şəhər həyatını sürətlə



mənimsəyən ilk türk xalqı oldular. Uyğurlar şəhərləşməklə qalmayıb, Çin mədəniyyətinin Orta Asiyaya uzanmasının qarşısını kəsən güclü türk mədəniyyətini formalaşdırdılar. Bu mədəniyyət Çingiz xanı öz təsiri altına almış və Böyük Moğol dövlətinin *(1206-1296)* bir türk dövləti halına gəlməsinə səbəb olmuşdur.

### 5.4.4. Oğuzlar

Göytürklər dövründə iki oğuz birliyindən bəhs edilir: *Altı oğuz* və *Doqquz oğuz*. Onlardan altı oğuzlar haqqında Ulu Kəm çayı ilə birləşən Barlıq çayı kənarında tapılan dörd kitabədə məlumat var. Bu kitabələrin hansı məqsədlə yazıldığı məlum olmasa da, Barlıq çayı ətrafında Altı Oğuz birliyinin varlığından xəbər verir. Bu birliyin başında Öz Yiğən Al Turan, Külüg Tutuq, Köni Tiriğ, Bayna Sanquq, onun oğlu Külüg Çur adlı bəylər dayanırdı. Bu bəylik 600-630-cu illər arasında mövcud olmuşdur.

630-cu ildə oğuzlar Tula çayı ətrafına köç etdilər. Göytürklərin dağılmasından sonra meydana gələn hadisələr onların köçünə səbəb oldu. Tula ətrafında yerləşən oğuzların sayı artdı, birliyə daxil olan boyların sayı altıdan doqquza çıxdı. Mənbələr həmin tayfalar arasında sadəcə ikisinin adını qeyd edirlər: tonra (*tongra*) və kuni (*kungi*). Bu tayfalar Töles ittifaqına daxil olan tonqra ilə birlikdə hunların bir qolunu təşkil edirdilər. Tula ətrafındakı doqquz oğuzların Bax xaqan başçılığnda müstəqil bəylik yaratdıqları aydın olur. Amma Göytürklərin yenidən güclənməsi Oğuz-Göytürk müharibələrinə səbəb oldu. Kültigin kitabəsində bu barədə geniş məlumat verilir. Kitabədə ediz boyu da oğuzlar arasında göstərilmişdir. Göytürklərlə oğuzlar beş dəfə döyüşmüş və nəticədə oğuzlar Çindən hərbi kömək istəmişdilər. Müharibələrin nəticəsində oğuzlar yenidən Göytürk hakimiyyətini qəbul etmişdilər.

İkinci Türk xaqanlığının dağılmasından sonra oğuzlar uyğurlarla ittifaq yaratdılar. Uyğurlar oğuz tayfalarından idi. Amma Ötükən xaqanlıq taxtını ələ keçirdikdən sonra digər oğuz boylarıyla münasibətləri pozulmuş və Uyğur xaqanı Moyunçur oğuzları ağır bir məğlubiyyətə uğratmışdı. Bu məğlubiyyətdən sonra oğuzların bir hissəsi yurdlarını tərk edərək Aral gölü ətrafına köç etdilər. Moyunçurun kitabəsində oğuzlardan "*səkkiz oğuz*" şəklində bəhs edilir. Həmin tarixdə uyğurlar oğuzlardan ayrılaraq müstəqil boy halına gəldilər. Bu məlumat eyni zamanda "*oğuz*" adının töles mənşəli boyların ittifaqını ifadə etdiyini təsdiq edir. 751-ci ildən sonra Uyğur mənbələrində oğuz adı bir daha keçmir. İbn əl-Əsirə *(İzzəddin ibn əl-Əsir; 1160-1233)* görə, "oğuzlar *toquz guzların* yanından ayrılıb, Mavəraünnəhrə gəldilər".

Bu hadisədən sonra oğuzların bəzi boyları Mavəraünnəhrə köç etsələr də, əsas kütlə Aral gölü ətrafına, Qaratav dağı ətəkləri ilə Sırdəryanın orta axını istiqamətində məskunlaşdılar. Tarixdə bir neçə dəfə qurulub, sonradan dağılan oğuz birliyinin sonrakı nümayəndələri məhz bu oğuzlar oldu. Oğuz boyları Sırdərya və Aral gölü ətrafında Oğuz yabquluğunun əsasını qoydular. Onlara "Oğuz yabquluğu" adının verilməsinə səbəb həmin dövrdə Oğuz hökmdarlarının "yabqu" titulu daşıması ilə əlaqədardır.

Oğuzların əsas boyları Yeddisu (Semireçya), Yengikəndin yerləşdiyi Sırdəryanın aşağı axını istiqamətində köç etmiş, digərləri Mavəraünnəhrə gəlmişdi. İbn əl-Əsir, xəlifə Mehdi dövründə *(775-785)* oğuzların Mavəraünnəhrə soxulduqlarını qeyd edir. Oğuzların bəzi boyları isə Qazaxıstan bozqırlarına, İdil çayından Xəzər sahillərinə qədər yayıldılar.

Aşağı Sırdərya sahillərinə gələn oğuzlar burada Oğuz Yabqu dövlətini yaratdılar. Dövlətin yaranma tarixi Qarluq dövlətiylə eyni dövrə, təqribən VIII əsrin ikinci yarısına və axırlarına rast gəlir. Oğuz Yabqu dövləti iki sülalə





*Oğuz Yabqu dövlətinin bayrağı*




*Oğuz Yabqu dövlətinin ərazisi*

tərəfindən idarə olunmuşdu. Birinci sülalə Salır (salur/salqur) boyundan, ikincisi isə Baran (Baranlı) boyundan çıxmışdır. Onlardan Baranlı sülaləsi X əsrin ortalarından sonra hakimiyyətə gəlmişdir. Yəni dövləti VIII əsrin ikinci yarısından X əsrin ortalarına qədər Salur boyundan çıxan hakim ailə idarə etmişdir. X əsrin ortasından XI əsrin ortalarına qədər isə Baranlı boyundan çıxan hakim ailə *yabqu* vəzifəsini icra etmişdi.

X əsrdə Oğuz Yabqu dövləti çiçəklənmə dövrünü yaşayırdı. Bu dövrdə ölkənin sərhədləri xeyli genişlənmiş, əhalisi artmışdı. Oğuz boylarının sayının 24-ə çatması bu dövrdə olmuşdur. Öz dövlət təşkilatını formalaşdıran oğuzlar idari mənada yaxşı təşkilatlanmışdılar. Dövlətin başında *yabqu* titulu daşıyan hökmdar dayanırdı. Oğuzlarda *yabqu* ilə *bayqu* arasındakı bənzərlik və fərqlər mübahisə mövzusu olmuşdur. Bəzi araşdırmaçılar bu iki titulu eyni qəbul edirlər. Yabqu titulu çincə "wanq" (kral) mənasına gəlirdi. Türklər hökmdar titulu olan "*xaqan*" adını qəbul etdikdən sonra *yabqu* ikinci dərəcəli titul hesab edilmişdi. *Bayqu* adı da *yabqu* kimi hökmdarlıq titulu idi və ilk dəfə parfiyalılar tərəfindən işlədilmişdi. Parf (pəhləvi) adı *bayqu* adının daha qədim şəkli olan *payqu/payqavi* adından törəmişdi. Bu adın mənası "doğan" (türklərdə ovçu quş) idi. Oğuz Yabqu dövlətində *yabqudan* sonra *kül-erkinlər* (naiblər) gəlirdi. Ordunun idarəsi *sübaşı* adını daşıyan sərkərdələrin əlində idi. Oğuzlar arasındakı dövlət məsələləri *kəngəş* – ağsaqqallar şurasında müzakirə olunurdu.

Bəlxi və İsfahani kimi orta əsr tarixçilərinə görə, X əsrdə oğuzlar Xəzər dənizindən Sırdəryanın orta axını üzərində yerləşən Fəraba (Qaraçuq), İsficab sərhədindən Qazaxıstan bozqırlarına qədər geniş ərazidə yaşayırdılar. Gürgənc sərhədindəki Jit qəsəbəsindən başlayan Oğuz ölkəsinin hüdudu Manqışlaq yarımadası və Xəzərin şimalı istiqamətində uzanırdı. Oğuzların Xəzərdən şimalda Ural çayının sahillərinə qədər ərazilərə sahib olduqları məlumdur. Şərqdəki



sərhədləri Aral gölünün cənubunda yerləşən Baratekin qəsəbəsinə qədər uzanırdı. Buxaranın şimalına da yayılan oğuz köçlərinin daimi oturaq yerləri Sırdəryanın orta xətti hesab edilirdi. Burada oğuz şəhərləri, qəsəbələr və kəndlər salınmışdı. Bunlar arasında Yengikənd, Cənd, Barçınıqkənd, Sığnaq, Qarnaq, Südkənd, Aşnas, Otrar, Sabran (Şabran) ən böyük şəhərlərdi. Oğuz Yabqu dövlətinin köhnə paytaxtı Əski Quzeli (Köhnəkənd), yeni paytaxtı isə Yengikənd olmuşdu.

Oğuz Yabqu dövlətini sırayla salur boyundan Enkeş *(760?-780?)*, Salur Qazan *(780?-820?)*, Uruz Qoca *(820?-850?)*, Mamsaq *(850?-880?)* və Quz ibn Mamsaq *(880?-920?)* idarə etmişdilər.

Quz ibn Mamsağın ölümündən sonra Oğuz Yabqu dövlətində ixtilaflar baş verdi. Hakimiyyət *baranlı* boyunun əlinə keçdi. Bu taxt çevrilişinin XI əsrin ortasında baş verdiyi təxmin edilir. Bu xanədanın ilk hökmdarı Əli xan olmuşdu. Baranlıların hakimiyyəti ələ keçirməsi Oğuz Yabqu dövlətinin parçalanmasına səbəb oldu. Qələbəlik oğuz kütləsi Sırdərya bölgəsini tərk edərək Manqışlağa köç etdilər. Köç edənlərin çoxu Salur boyuna bağlı ailələr idi. Salurlar Manqışlaq ərazisini ələ keçirdikdən sonra burada öz dövlətlərini, yəni "Manqışlaq Salur Oğuz dövləti"ni yaratdılar. Oğuzların bəzi boyları isə Şərqi Avropa torpaqlarına hərəkət etdilər. Baranlı xanədanının hakimiyyətini qəbul etməyən oğuzlar arasında səlcuqlar da vardı. Beləliklə, Əli xanın hakimiyyəti altında 40 min çadırlıq Oğuz ailəsi qalmışdı.

Əli xan dövlətin birliyini və gücünü qoruya bilmədiyi kimi, oğlu Şah Məlikin qanunsuz hərəkətlərinin də qarşısını ala bilmədi. F.Rəşidəddin, Şah Məlikin oğuzlar arasında "zalım Şah Məlik" adıyla məşhur olduğunu qeyd edir. Şah Məlikin davranışları oğuzların ona qarşı üsyan etməsinə səbəb oldu. Bunun nəticəsində Şah Məlik əmrində 20 minlik ordusu olduğu halda üsyançılara məğlub olub qaçdı.

Bu hadisədən iki il sonra Əli xan öldü. Taxta oğlu Şah Məlik keçdi. Onun hakimiyyəti uzun sürmədi. Şah Məlikin bütün hakimiyyəti səlcuqlarla müharibələrdə keçdi və səlcuqların ən təhlükəli düşməni oldu. Hakimiyyətinin sonlarında Oğuz Yabqu dövləti Monqolustandan kidanlar (Qarakitaylar) tərəfindən qovulan qun (hun) və kay (qayı) tayfalarının istilasına məruz qaldı. Bu, Oğuz Yabqu dövlətinin süqutu ilə nəticələndi. Şah Məlik İslam ölkələrinə qaçdı. 1043-cü ildə səlcuqlar tərəfindən əsir alınaraq edam edildi. Beləliklə, Baranlı xanədanının hakimiyyəti Oğuz Yabqu dövlətinin süqutuna səbəb oldu.

Oğuz Yabqu dövlətinin süqutunu Ə.Bahadır xan "Şəcərəyi-tərakimə" adlı əsərində belə səciyyələndirib: "Şah Məlikin məğlubiyyətindən və Yengikənd hökmdarı Əli xanın ölümündən sonra oğuz xalqı parçalandı. Boylar arasında ara müharibələri başladı. Qılıq bəy, Qazan bəy və Qaraman bəy idarəsindəki oğuz xalqı Manqışlağa getdi. Onlar arasında əksəriyyəti eymür, dögər, iğdır, çavuldur, qarkın, salur və aqar tayfaları idi". Böyük hun istilasından sonra geridə qalan oğuz xalqları da ölkələrini tərk etdilər. Onların böyük bir hissəsi Şərqi Avropa bozqırlarına çəkildilər. Bəziləri isə Qaraxanlı və Xarəzm idarəsinə, Xəzər dənizinin cənub-şərq sahillərinə və Xorasana hərəkət etdilər. Baranlı ittifaqını təşkil edən oğuzlar Mərvə gəlib və burada Yazır Oğuz bəyliyini təşkil etdilər. XI əsrin sonlarında Sırdərya çayının sahilləri qanqlı, qıpçaq, küçək, uran, qun tayfalarının əlinə keçmişdi.

Dəşti-Qıpçaq adlanan indiki Cənubi Rusiya bozqırlarına köç edən oğuzlar rus salnamələrində *tork/torq* və *uz* adlanır. Onlar rus knyazlıqları ilə müharibə şəraitində olmuşdular. Kiyev knyazlığı ilə sülh bağlayan oğuzlar knyazlığın sərhəd qəsəbələrində məskunlaşdılar. Uz və torkların bəzi qolları Balkanlara qədər hücumlar təşkil edirdilər.





## 5.5. XƏZƏRYANI TÜRK DÖVLƏTLƏRİ

Göytürk xaqanlığının qərbdə qalan torpaqları Qafqaza və indiki Macarıstana qədər bütün Şərqi Avropanı əhatə edirdi. Həmin ərazilərdə çox sayda sabir, oğur, hun tayfaları məskunlaşmışdı. Göytürk hökmdarları həmin tayfaları təşkilatlandırıb, 630-cu ildə Xəzər adlanan bir ittifaq altında birləşdilər. Başına Türk xaqanları nəslindən bir hakimin təyin edildiyi bu ittifaq Qərbi Göytürk dövlətinin süqutundan sonra müstəqil oldu və Xəzər xaqanlığı adıyla tarix səhnəsinə çıxdı.

### 5.5.1. Xəzərlər

Xəzər adı mənbələrdə əl-xəzər (ərəbcə), *xazar/xozar* (ibranicə), *chazari/gazari* (latınca), *khazaroi* (yunanca), *kozar* (slav-rusca), *xazari* (kartlicə), *xəzəran* (farsca), *ko-sa/ka-sat* (çincə), *kazar/kozar* (macarca), *kazaraye* (süryanicə) şəklində qeyd edilir.

Mənbələrdə VI əsrin axırlarından etibarən sabir kimliyinin xəzər adlanmağa başladığını müşahidə edirik. Xəzərlərin böyük *səməndər* və *bələncər* tayfaları sabirlərdən idi. Göytürklər 571-ci ildə Qafqazı ələ keçirdikdən sonra Qafqaz, Şimali Xəzər və Şimali Qaradəniz bölgələrində yaşayan türkləri (sabirləri, şaraqurları, utiqurları, ultinqurları, səməndər, bələncər/bayandur, çol/sul və digər oqur/oğur tayfalarını) mərkəzi hakimiyyətdə birləşdirib, onlara Xəzər adını verdilər. Beləliklə, Xəzər ittifaqının təməli atıldı. Belə məlum olur ki, Xəzər xaqanlığı avarlar tərəfindən son qoyulan Sabir xaqanlığının hərbi-siyasi bazası üzərində 630-651-ci illər arasında formalaşıb.

Xəzər xaqanlığının yaranması 602-628-ci illər arasında cərəyan edən Sasani-Bizans müharibələri ilə yaxından əlaqəlidir. 602-ci ildə Bizans imperatoru Mavrik çevrilişlə hakimiyyətdən uzaqlaşdırıldı. Sasani şahı II Xosrov Mavrikin taxtdan uzaqlaşdırılmasına etiraz əlaməti olaraq Bizans sərhədlərinə soxuldu, Anadoludakı bəzi şəhərləri talan etdi. Bu hadisə uzun illər davam edən Sasani-Bizans müharibələrinə səbəb oldu. Sasani orduları İstanbula qədər hərəkət edərək Bizansı çox ağır vəziyyətə saldılar. Vəziyyətdən çıxmaq üçün Bizans imperatoru I İrakli *(Flavius Heraclius Augustus; 610-641)* təcili Qərbi Türk xaqanı Tonq yabqudan hərbi kömək istədi. Böyük bir ordu ilə (100 minlik) Dərbəndi aşan türklər Çolaya daxil oldular. 627-ci ildə Tiflisə hərəkət etdilər. Teofan onları "Xəzər adlanan türklər" adlandırır.

Tiflisi mühasirəyə alan türklər şəhəri ala bilmədilər. Üstəlik şəhərdəki Sasani əsgərləri "böyük balqabağın üzərinə xaqanın kösə və axmaq formada şəklini çəkib" şəhərin bürcünə yerləşdirdilər. Bu davranış xaqanı hövsələdən çıxardı. Qışın gəlməsi ilə Tonq yabqu oğlunu 40.000 əsgərlə Tiflisdə qoyub geri qayıtdı. 628-ci ildə yenidən Tiflisə gələn Tonq yabqu bu dəfə şəhəri ələ keçirdi və iki nəfər xaricində şəhərdəki bütün Sasani qarnizonunu qılıncdan



keçirdi. Yabqunun hüzuruna gətirilən həmin iki nəfər Türk xaqanının balqabaq üzərinə şəklini çəkən əsirlər idi. Ağır işkəncədən sonra onların parçalanan bədənləri Tiflis bürcünə asıldı. Bu səfər zamanı Azərbaycan da Göytürk xaqanlığının nəzarəti altına keçdi.

Tonq yabqu geri çəkildikdə bəzi mənbələrə görə oğlu, digərlərinə görə qardaşı oğlu Börünü Qafqazın hakimi təyin etdi. Amma Tonq yabqu geri dönüş yolunda qardaşı Bahadır tərəfindən 630-cu ildə öldürüldü. Tonq yabqunun oğlu Hsi-li Tigin Bahadırın hakimiyyətini tanımadı və ona qarşı müharibəyə başladı. On-oxların *nuşepi* tayfaları onu öz xaqanları elan etdilər. On-oxların *tulu* tayfaları isə Bahadırı dəstəklədilər. Tərəflər arasında meydana gələn döyüşdə Hsi-li Tigin əmisini məğlub edərək qaçmağa məcbur etdi. Daha sonra Qərbi Türk xaqanlığı taxtını ələ keçirərək Yabqu xaqan adını aldı.

Qafqazda qalan ordular Tonq yabqunun oğlu olan Şad ətrafında birləşdilər. O, indiki Dağıstanda yerləşib, siyasi hadisələrin sonrakı gedişatını izləməyə başladı. Bir müddət sonra əmisinin öldürülməsi və hakimiyyət uğrunda yeni müharibələrinin başlaması səbəbilə Qafqazda qalmağa və əlindəki hərbi imkanlarla bölgədə öz hakimiyyətini yaratmağa qərar verdi. Əmrindəki böyük ordu Qafqazda istədiyi üsuli-idarəni yaratmağa şərait yaratdı. Beləliklə, Xəzər xaqanlığı 630-cu ildə Qərbi Türk xaqanlığının Xəzər dənizinin qərbindəki geniş ərazilərində təsis edildi. Xaqanlığın əsas əhalisini sabirlərin təşkil etməsi Xəzər xaqanlığının Sabir xaqanlığının davamı olduğunu göstərir. Xəzər xaqanlığı Göytürklərin qərbdəki siyasi, hərbi və torpaq mirası üzərində yaradıldı, müsəlman ərəblərlə başlayan uzun illik müharibələr isə xaqanlığı formalaşdırdı.

Xəzər xaqanlığının yarandığı 630-cu ildə Məhəmməd peyğəmbər Məkkəni fəth etdi. İslam elçisinin 632-ci ildə vəfatından sonra başlayan 29 illik rəşidi xəlifələri dövründə müsəlmanlar Asiyada Çinə, Afrikada isə Cəbəllüttariqə



*Xəzər xaqanlığının bayrağı*



*Xəzər xaqanlığı ərazilərinin müxtəlif vaxtlarda genişlənməsi*



qədər geniş ərazini ələ keçirdilər. Xəlifə Ömər dövründə *(634-644)* vüsət alan müsəlman fəthləri, can verən Sasani imperiyasının tamamilə ortadan qalxması və Bizans imperiyasının ciddi zərbələr alması ilə nəticələndi. Xəlifə Osman dövründə müsəlman orduları türk hüduduna dayandılar. 637-ci ildə müsəlman hərbi dəstələri ilk dəfə Azərbaycana gəldi. Amma bu genişmiqyaslı fəth hərəkəti olmayıb, bir növ kəşfiyyat xarakteri kəsb edirdi. Müsəlman ərəblərin Azərbaycanda davamlı qalmaq istəkləri gücləndikdə, Qafqazda Abbasi xilafətinin tənəzzülünə qədər davam edən Xəzər-Xilafət müharibələri başladı.

Xəzər-Xilafət münasibətləri iki mərhələlidir. Əməvilər dövründə ərəblər xəzərlərə qarşı müharibə və hərbi hücum siyasəti yeritmiş, Abbasilər dövründə dostluq və sülh siyasətini təqib etmişdilər. Birinci dövrdə Xilafət sarayını türk-xəzər qulamları (əsir əsgərlər) doldurmuş, ikinci dövrdə isə Abbasi xəlifələri xaqanların kürəkənləri olmuş və güclü iradəyə sahib Xəzər qadınları Xilafətin idarəsini ələ keçirəcək qədər böyük nüfuz qazanmışdılar. X əsrin ilk yarısında Xilafəti 25 il idarə edən Şağab Xatun *(908-932)* xəzər qanı daşıyırdı. Xəzər xaqanlığı isə ərəblərlə müharibələrdə bərkidi və Xilafətin qarşısında ən böyük hərbi-siyasi güc olaraq ortaya çıxdı. Dunlopa *(Douglas Morton Dunlop; 1909-1987)* görə, xəzərlərin Xilafət qarşısında tutduqları mövqe Avropanı müsəlmanlaşmaqdan xilas etdi.

Qərbli tədqiqatçı D.M.Dunlop Xəzər-Xilafət müharibələrini iki dövrə ayırır. Ona görə, tərəflər arasında ziddiyyətlərin tarixi uzun illərə yayılsa da, ən kəskin müharibələr 642-652 və 727-737-ci illəri əhatə edir. Amma müəllifin bu fikri kitabda yer alan digər fikirlərlə ziddiyyət təşkil edir. Belə ki, Dunlop 721-722-ci illərdə xəzərlərin əl-Alan ölkəsinə hücumunu və Mərc əl-Hicarədə meydana gələn müsəlmanlarla döyüşü ikinci Xəzər-Xilafət müharibəsinin başlanğıcı hesab edir.

Mərc əl-Hicarə döyüşündə 30 minlik Xəzər ordusu ərəbləri dağıdıb, qaçmağa məcbur etdi. Qaçanlar Suriyaya, xəlifə Yezid ibn Əbdülmalikin *(720-724)* yanına qaçdılar. Xəlifə məğlub orduların komandanı Əmir Sübeyti ən-Nəhranini hüzuruna çağırıb, onu sərt sözlərlə danladı. Bundan sonra xəlifə Yezid əmirlərindən əl-Cərrah ibn Abdullah əl-Hakimi 25.000 ordu ilə Azərbaycana göndərdi. Xəzərlər yeni gələn ərəb orduları ilə müharibə etməyərək Dərbəndə doğru çəkildilər. Cərrah asanlıqla Bərdəni tutdu. Bir müddət burada dincəldikdən sonra Kür çayını keçərək Dərbənd istiqamətinə hərəkət etdi. Elə bu vaxt xaqanın oğlu Barcık komandanlığında 40.000-lik Xəzər ordusu onun qarşısına çıxdı. Meydana gələn döyüşdə xəzərlər məğlub oldular, ərəblər isə Hamzin və Yarqu şəhərlərini ələ keçirərək Bələncərə doğru yollandılar.

Təbəri, Bəlami *(Əbu Əli Məhəmməd ibn Əbülfəzl Məhəmməd Balami; X əsr)* və onlara istinad edən tarixçilər Cərrahın Bələncəri ələ keçirdiyini yazırlar. Ziya Bünyadova *(1921-1997)* görə, ərəblər Bələncəri ələ keçirib, əhalisini Arana köçürərək Qəbələdə məskunlaşdırdılar.

Lakin toparlanan xəzərlər ərəblərə ağır zərbə vurdular. Cərrahın dağılan əsgərləri Xilat (Ahlat) və Mosul üzərindən Şama doğru qaçdığına görə, xəlifə Hişam təcili olaraq Səid başçılığında bir ordunu bölgəyə göndərdi. Bu vaxt xəzərlər böyük qənimətlə Diyarbəkir və Mosula qədər ərazini nəzarət altına almışdılar.

732-ci ildə xəlifə Hişam tərəfindən Azərbaycan əmiri təyin edilən Mərvan ibn Məhəmməd Kisalda (Qazax) ordugah qurub, Dəryal keçidi üzərindən xəzərlərə qarşı hərbi əməliyyatlara başladı. Bu səfər zamanı Mərvanın 20 min slavyanı əsir alıb Xalitdə məskunlaşdırdığı, amma onların qaçdığı qeyd edilir. Qaçan slavyanları (*sakalibə*) təqib edən Mərvan onları qılıncdan keçirdi. Mərvanın təşkil etdiyi səfər zamanı müsəlmanların Tiflis, əl-Ləkz, əş-Şabiran, əs-Səmur, əl-Lan (Alan), əs-Sərir, əl-Bab (Dərbənd), Tuman, Zirikiran, Hamzin, Şəndan, Tabarsaranşahlar (Tabasaran), Filanşahlar, Şervan (Şirvan), əd-Dudaniyyə kimi ölkələri ələ keçirdiyi aydın olur.



737-ci ildə Xəzər-Xilafət sülhü bağlandı. Bu sülh Əməvilərin hakimiyyətinin sonuna qədər davam etdi. Bəzi mənbələrdə bu sülhün bağlanmasına səbəb kimi Mərvanın Xəzər paytaxtı İdil üzərinə təşkil etdiyi səfər göstərilmişdir.

750-ci ildə Əməvilər sülaləsinə son verilib, yerinə Abbasilər xanədanının Xilafəti ələ keçirməsi ilə xəzərlərə qarşı münasibətlər dəyişdi. Abbasilər xəzərlərlə diplomatik münasibətlər yaradıb, evliliklər yolu ilə bu münasibətləri qorumağa çalışdılar. Bunun nəticəsində Xilafət sarayında Xəzər əsilzadəsi olan qadınlar yer almağa başladı. Onlar xəlifələrin arvadı, anası və qızları kimi Xilafətin siyasi həyatında güclü təsir buraxdılar. Xəzərlərlə qohumluq əlaqələrini təsis edən ilk xəlifə Əbu Cəfər əl-Mənsur *(754-775)* olmuşdu.

Sonrakı illərdə xəzərlərin Xilafət ərazilərinə hücumları səngidi. Son Xəzər hücumu 797-ci ildə meydana gəldi. Bu tarixdən sonra xəzərlər ilə ərəblər arasında birbaşa hərbi münasibətlər sona çatdı. Tarixçilər buna səbəb təşkil edən amillər üzərində müxtəlif fikirlər səsləndiriblər. Bu səbəblər arasında ticari münasibətlərin əhəmiyyəti, İslam və Xəzər bölgəsində və dövlət aparatındakı yəhudilərin vasitəçiliyi ilə iki tərəf arasında güclü ticari münasibətlərin yaranması, Xəzər ölkəsindəki böyük müsəlman kütləsinin dövlətin İslam ölkələri ilə müharibəsinə kəskin reaksiyası və ən mühümü də Ural çayı və Aral gölü ətrafında meydana gələn türk tayfalarının yeni hərəkətliliyi göstərilir.

Xəzərlərin inancları və dini uzun müddətdir tədqiqatçıların gündəmindədir. Bu mövzuda müxtəlif fikirlər səsləndirilib. Hakim fikrə görə, Xəzər xaqanı yəhudiliyi qəbul edib, amma bu, xəzərlərin hamısının musəvi inancına sahib olduğu mənasına gəlmir.

737-ci ildə Əməvilərin Azərbaycan valisi Mərvan xəzərləri ağır məğlubiyyətə uğratdıqda sülh tələb edən Xəzər xaqanından İslamı qəbul etməsini istədi və türk hökmdarı da bu şərti qəbul etdi. Amma ərəb təhlükəsi keçdikdən sonra Xəzər xaqanı İslamdan imtina etsə də, xəzərlər arasında sürətlənən müsəlmanlaşma prosesinə əngəl olmadı. Ərəb mənbələrinə görə, xəzərlər arasında müsəlman, xristian və yəhudi inanclı insanlar vardı. Onlar arasında sayca az olan yəhudilər, çox olanlar isə müsəlmanlardır. Padşah və ətrafı isə yəhudi idi. Bu məlumatı təsdiq edən Gərdizi Xəzər ilşadı, əmir və böyüklərinin yəhudiliyə meyil etdiyini, qalanların oğuzların inancında (*Tenqri*) olduğunu bildirir. Rəvayətə görə, Bizans elçisi Müqəddəs Konstantin Xəzər sarayında onun şərəfinə təşkil edilən ziyafətdə "hər şeyi yaradan Tanrının şərəfinə" içmək istəyən xaqanın sözləri müqabilində elçi "mən tək Tanrının kəlamına və ruhuna içirəm" şəklində cavab verdi. Onun bu sözlərinə xaqan belə dedi: *"Həmfikirik. Sadəcə, siz müqəddəs uqnuma, biz isə tək Tanrıya inanırıq, fərqli olduğumuz tək nöqtə budur"*.

IX əsrdə Xəzər xaqanı xristianlıqla maraqlanmış və ölkəsinə xristian din adamlarını dəvət edərək onlarla məsləhətləşmişdi. Xaqanın bu istəyi müqabilində Bizans imperatoru daha sonra "Slavyan həvarisi" və ya "Kirill" adı ilə məşhur olan Konstantini 860-cı ildə Xəzər ölkəsinə göndərdi. Xaqan sarayına gəlməmişdən əvvəl bir müddət Krımda qalıb türk dilini öyrənən Kirill Don və İdil çaylarını aşaraq xəzərlərin paytaxtına gəldi. Xaqan tərəfindən yaxşı qarşılanan Kirill sarayda təşkil edilən müsəlman və yəhudi din adamlarının iştirak etdikləri dinlərarası qurultayda yer almışdı. Bu qurultayda müsəlman alimlər İslamın, xristian alimlər xristianlığın, yəhudi alimlər isə musəviliyin üstünlük qazandığını iddia edirlər.

Xəzər xanədan ailəsinin inanc anlayışı müxtəlifliyi ilə diqqəti cəlb edir. Məsələn, Bizans imperatoru II Yustinian *(685-711)* ilə 698-ci ildə evlənən Xəzər xaqanının bacısı xristianlığı qəbul edərək Teodora adını almışdı. İmperator V Konstantin *(741-775)* vaftiz olduqdan sonra İrena adını alan Çiçək adlı Xəzər xanədan ailəsindən bir qızla evlənmiş və bu izdivacdan Xəzər Leon adlanan imperator IV Leo *(775-780)* dünyaya gəlmişdi. Hətta Bizansın paytaxtı Konstantinopolun 858-867 və 877-886-cı illərdə patriki olmuş Foti *(Photius; 810/820-893)* də xəzər əsilli xristian din adamı idi.

Dinin xəzərlərdə yazı sisteminin formalaşmasına necə təsir etdiyi haqqında müxtəlif fikirlər mövcuddur. Bu məsələdə orta əsr müəllifi Fəxrəddin Mübarəkşahın *(Məhəmməd ibn Mansur ibn Səid əs-Siddiqi ət-Təymi əl-Kurəşi; XII-XIII əsr)* verdiyi məlumatlar son dərəcə maraqlıdır. Ona görə, "xəzərlərin də yazısı var. Eyni yazı sistemi, yəni əlifba ruslara da aiddir. Onlara yaxın olan ruslardan bir camaat bu yazı ilə yazır. Onlara *rus rumu* deyilir. Soldan sağa yazılır. Hərfləri 21 səsdən ibarətdir. Xəzərlərdə bu əlifbadan istifadə edənlər, əsasən yəhudilərdir".

850-ci ildən sonra xəzərlərin Qafqaz və Bizans sərhəd bölgələrində az görünmələrinin səbəbi xaqanlığın şərqində və şimalında meydana gələn yeni xalqlar köçü idi. Həmin tarixdə uzlar (oğuzlar), macarlar, sabirlər və peçeneqlər İdil bölgəsindəki geniş ərazilərə yerləşməyə başladılar.

Xəzərlər dövründə Xəzər dənizi və onun sağ-sol sahilləri ətrafından İslam dünyasının mərkəzinə qədər uzanan şimal qul ticarət xətti açıldı. Qul ticarətini Xəzər ölkəsində yəhudi sərmayədarlar və sarayla yaxın bağları olan musəvi tacirlər tənzimləyirdilər. Bəzən ruslar onların sifarişləri ilə hərəkət edirdilər. Rus varyaqlar slavyanlara hücum edərək onları əsir alaraq qul kimi müsəlman tacirlərinə satırdılar. Hər il xəzərlər, peçeneqlər, vikinqlər (ruslar), ərəblər, bulqarlar, hətta Bizans insan alverindən böyük gəlir əldə edirdilər.

İsveç vikinqlərinin xəzərlərlə yaratdıqları münasibət ruslara dərindən təsir etdi. Varyaq rəisləri özlərini



*Rusiyanın Belaya Vyeja bölgəsində M.Artamonovun tədqiq etdiyi Xəzər qalası*



*Bulqar və ya Xəzərlərə aid olduğu təxmin edilən qızıl medalyon*



*Xəzər xaqanına aid 930-cu ildə yazılmış bir məktub. Sonda Göytürk yazısı ilə "oxudum" yazılıb. (Kiyev şəhərində tapılıb)*



xəzərlərə oxşadırdılar. Hətta bəzi Varyaq kralları "xaqan" titulu daşıyırdı. Ruslar xəzər və bulqarlarla yaratdıqları münasibətlər sayəsində onlar arasında İslam dininin və türk inanclarının dərin təsiri altına düşdülər.

Rus-varyaqların Şərqi Avropada, peçeneq və macarların Şimali Qaradənizdə, sabirlərin Qafqazda ortaya çıxması, Ural ətrafının oğuzların əlinə keçməsi Xəzər xaqanlığının vəziyyətində ciddi dönüş yaratdı. Bu hadisələr Xəzər xaqanlığının iqtisadi qaynaqlarını son dərəcə daraltdı. X əsrdən etibarən şimaldan-cənuba, şərqdən-qərbə uzanan və Xəzər ölkəsindən keçən ticarət yolları marşrut dəyişdirməyə başladı. Məsələn, Volqa Bulqar ölkəsinə gedən ticarət yolu xəzərlərin nəzarətindən çıxmışdı. Rus-varyaqlar Bizansla ticarətə üstünlük verməyə başladılar. 912-ci ildə Bizans ilə knyaz İqor arasında imzalanan müqavilə rus-varyaqlara Konstantinopolda öz ticarət bögələrini yaratmaq imkanı verirdi. Bizansı bu addımı atmağa vadar edən rus-varyaqların təhdidi deyil, Xəzər ticarətini zəiflətmək idi. Xəzər bölgəsində ticarət payı o qədər aşağı düşdü ki, əvvəllərdə Volqa Bulqar ölkəsinə gedən ticarətdən əldə edilən 20 faizlik Xəzər gəliri 965-ci ildə 5 faizdən də az idi.

Ticarət qaynaqları daralarkən istehlak və rifah daha da artmışdı. Musəviliklə birlikdə Xəzər xaqanlığı oturaq həyat tərzinə böyük əhəmiyyət vermiş, şəhərlərin əhalisi artmış, yeni qalalar salınmış, böyük bağlar yaradılmışdı. Sadəcə, xaqanlığın nar bağlarına böyük pullar xərclədiyini nəzərə alsaq, ölçüsüz xərclərin ölkə qaynaqlarının beyhudə yerə sərf edildiyi ortaya çıxır. Azərbaycandan idxal edilən və Volqa ətrafında salınan böyük nar bağları xəzərlərdə lüks həyata və rifaha düşkünlüyün bəsit nümünəsi idi. Nar Xəzər xaqanlığının hökmdarlıq rəmzi idi. Xaqanlar qızıl taxtda və başında qızıl nar olan xaqanlıq çadırında otururdular. Narın vətəni olan Azərbaycandan Xəzər ölkəsinə karvanlarla dolu nar çubuqları və əkiləcək nar ağacları aparılırdı. Amma Şimali Xəzər bölgəsinin soyuq qışı

yaradılan böyük nar plantasiyalarını və bağlarını məhv etdi. Buna görə xəzərlər Azərbaycan növü yerinə soyuğa daha dözümlü Sərir bölgəsindən (indiki Dağıstan) yeni nar sortları gətirdilər.

İqtisadi qaynaqların azalması xəzər-yəhudi bürokratiyasını yeni tədbirlərə əl atmağa məcbur etdi. Xəzər siyasi iqtidarı rus-varyaqların əli ilə təşkil edilən talançılığı dövlət iqtisadi politkasına çevirdi. Rus-varyaqlara Xəzər üzərindən cənub ticarət qapılarını açıb, onlara müsəlman ölkələrini, ticarət mərkəzlərini yağmaladaraq əldə edilən qənimətdən pay almağa başladı. İlki 880-ci ildə gerçəkləşdirilən bu siyasət, 909-910, 912-914, 943-944-cü illərdə uğurla həyata keçirilmiş və bu talandan qazanc əldə edən yalnız xəzərlər olmuşdular. 912-ci ildən etibarən rus-varyaq dəniz quldurları Xəzərdə peyda oldular. Məsudinin verdiyi məlumata görə, hicri 300-cü ildə (912/13) ruslar hərəsində 100 adam olan təqribən 500 gəmi ilə Don çayı ilə Xəzər kanalına gəldilər. Kanalın ağzında Xəzər gözətçi məntəqəsinə çatıb xəzərlərin məlikinin yanına adam göndərdilər. Onlar dəniz ətrafında yaşayan xalqlardan zəbt edəcəkləri qənimətin yarısını Xəzər xaqanına verməyi vəd edib, ondan ölkəsini keçərək Volqa çayına, oradan da üzüaşağı üzüb Xəzər dənizinə çıxmaq üçün izin aldılar. Lakin qənimətlərlə geri qayıdan rusları xəzərlər öz əmirlərindəki müsəlmanlar tərəfindən qətl etdilər və 500 gəmilik qənimətə əl qoyaraq 35 minlik rusu qılıncdan keçirdilər.

Eyni hadisə 943-44-cü ildə Bərdənin ruslar tərəfindən ələ keçirilməsi zamanı təkrarlandı. Bərdədən qənimətlərlə geri qayıdan rus gəmilərini xəzərlər ələ keçirərək, əsgərlərini müsəlmanlara qırdırmışdılar. Xəzər-yəhudi idarəçilərinin əl atdığı bu tədbir Xəzər xaqanlığının fəlakəti oldu. Ruslar xəzər-yəhudi idarəçilərin onlara oynadıqları oyunu yaxşı bilirdilər. Varyaqların intiqamı 965-ci ildə gerçəkləşdi. Bu dəfə başlarında knyaz Svyatoslav



olan rus-varyaqlar birbaşa Xəzərlərin paytaxtı Sarkelə hücum etdilər.

Xəzər xaqanlığı Svyatoslavın zərbəsi ilə yıxılmadı. Xəzərlərə son və ağır zərbəni yenə türklər vurdular. İbn Miskəveyhə *(Əbu Əli Əhməd ibn Məhəmməd ibn Yaqub ibn Miskəveyh; 932/942-1030)* görə, 965-ci ildə çox sayda türk Xəzər dövlətinə hücum etdi, onlar da Xarəzmdən kömək istədilər. Xarəzmlilər onlara, ancaq müsəlman olduqları təqdirdə kömək edəcəklərini bildirdilər. Buna görə hökmdar daxil xəzərlərin hamısı müsəlman oldu.

Xəzər xaqanlığının süqutu prosesi 1020-ci ilə qədər davam etdi. Xəzərlərin əsas yurdları həmin vaxt oğuzların əlinə keçdi. Xəzərlərin bir kütləsi Dərbənd üzərindən Azərbaycana köç etdi. Qalan hissəsi haqqında slavyan salnaməçi belə deyir: “1023-cü ildə Mstislav xəzərlər və kasoqlarla birlikdə Yaroslavın üstünə getdi”.

Xəzərlərin bir qolunu təşkil edən Karay və ya Karaim türkləri günümüzdə də varlıqlarını davam etdirirlər. Onlar türk musəviləri adlanır və inanclarında yəhudilərdən çox fərqlənirlər. Günümüzdə sayları çox azalan karaylar böyük bir ədəbi irsə sahibdirlər.

Xəzərlərin ana kütləsinin Azərbaycanda məskunlaşdığı haqqında məlumatlar mövcuddur. 1066-cı ildə 3000 ailədən ibarət olan xəzərlər Dərbəndi keçib Şirvan bölgəsinə gələrək, oğuzların hakimiyyətini qəbul etdilər. Səlcuq- oğuz komandanı Savtəgin Şirvanda onlar üçün Kahtan adlı bir qəsəbə inşa etdirmiş və orada məskunlaşdırmışdı. 1170-ci ilə aid gürcü mənbələrində Dərbənd xəzərlərinin adı qeyd edilir. İndiki Şimali Qafqazın Qaraçay-Malkar bölgəsində yaşayan qaraçayların xəzər, malkarların isə bulqar əsilli olduğu haqqında iddialar mövcuddur.

## 5.5.2. Peçeneqlər

Türk xaqanlığının tərkibindəki türk tayfalarından biri olan *peçeneq*lərin *(paçanak*) kəngərlərin törəmələri olduğu iddia edilir. Peçeneq dövlətinin hakim tayfasının kəngər adı daşıması buna əsas göstərilir. "*Peçenek*" adının türk dilində "*bacanaq*" mənasına gəldiyi qeyd edilir. Bizans mənbələrində peçeneqlərin *ertim* (erdem), *çor* (çol/sul), *yula*, *külbey*, *karabay*, *tolmaç*, *kapan* və *çoban* adlı səkkiz tayfanın ittifaqından meydana gəldiyi qeyd olunur. Azərbaycanlı tədqiqatçı Pərviz Ağalarova *(d. 1972)* görə, *peçeneq* adı *beş inak* ifadəsindən yaranıb.

Türk xaqanlığı dövründə Mərkəzi Qazaxıstanda məskun olan peçeneqlərin səkkiz boy halında formalaşmasının İşbara xaqanın 634-cü ildə türk tayfalarının yenidən təşkilatlanması istiqamətində apardığı islahatlarla əlaqədar olduğu hesab edilir. Səkkiz peçeneq tayfasından ilk üçü (ertim, çor, yula) birlikdə *kanqar* adlanır və digər beş boydan üstün sayılırdı.

Türk xaqanlığının süqutundan sonra hakimiyyət uğrunda qarluq, uyğur, oğuzlar və barsillər arasında gedən müharibələrdə peçeneqlərin də yer aldığı bildirilir. Nəticədə Balxaş gölü ətrafındakı torpaqlarını tərk edərək Sırdərya çayı ətrafına köç etdilər. Burada oğuzlarla qanlı müharibələrə başladılar, məğlub olub, Sırdərya ətrafından Xəzər dənizinin şimalına köçdülər. Amma peçeneqlərin bir qolu öz torpaqlarında qalaraq, oğuz tayfaları arasına qarışdı.

Peçeneqlərin yurdlarından qovulub, Xəzər xaqanlığının nəzarətindəki torpaqlara köç etməsi xəzərləri narahat etdi. Xəzərlər peçeneqlərə qarşı oğuzlar və macarlarla ittifaq yaratdılar. Beləliklə, Şimali Xəzər bölgəsindəki geniş ərazilərdə tayfalar arasında yeni üstünlük mübarizəsi başladı. Bu prosesdə İdil bölgəsindəki bulqarlar peçeneqlərlə dostluq münasibətləri yaradıb, xəzərlərə qarşı onları dəstəklədilər.





*Peçeneqlərin damğası*




*Peçeneqlərin yayıldığı ərazilər*

Peçeneqlərin İdil-Yayık arasında qarşılaşdıqları ilk tayfa macarlar idi. Macarlar dəfələrlə peçeneqlərə məğlub olduqdan sonra yurdlarını tərk etmək məcburiyyətində qaldılar. Həmin vaxt macarlar ilə sabirlər Volqa ətrafında bir yerdə yaşayırdılar. Aspar başçılığındakı sabirlərlə Lebed başçılığındakı macarlar peçeneqlərin təzyiqi ilə yurdlarını tərk edərək, iki qola ayrıldılar. Onlardan sabirlər Azərbaycana, macarlar isə indiki Macarıstana doğru hərəkət etdilər. Peçeneqlərin sabirlər ilə macarlara hücumu 886-893-cü ildə meydana gəldi. Bu hadisədən sonra peçeneqlər Don çayı ətrafından Aşağı Dunay və Serət (Sirət) çayına qədər uzanan geniş əraziyə sahib oldular.

Bölgəyə gələn peçeneqlərin varlığından narahat olan Xəzər xaqanlığı qaçan macar və sabirlərlə ittifaq yaratdı. Hətta bu məqsədlə Xəzər xaqanı Slamutz qızını macarların rəisi Lebedə ərə verərək bu yolla macarları onun liderliyində birləşdirməyə və peçeneqlər qarşısında hərbi güc olaraq formalaşmasına çalışmışdı. Xəzərlərin Lebedi macarların başına keçirmək təşəbbüsü uğursuz oldu. Lebed ona verilən təklifi rədd edərək macarları birləşdirəcək yeganə gücün "bütün macarların başına xəzər soyundan bir xaqanın keçməsi" olduğunu dilə gətirdi. Bundan sonra xəzərlər macarların başına xaqanın oğlu Arpadı *(890-907?)* gətirdilər. Amma xəzərlərin planı nəticə verməyincə, macarlar Dunay üzərindəki bulqarlara hücum etdilər. Baş verən döyüşdə bulqarlar ağır məğlubiyyətə uğradılar və ölkələri talan edildi. Məğlubiyyətdən sonra bulqarlar peçeneqlərdən kömək istədilər. Peçeneqlərin köməyilə bulqarlar macarları məğlub etdilər. Bu hadisədən sonra macarlar Karpat dağlarını aşıb, Avropa səhnəsinə daxil oldular və XI əsrin axırlarına qədər Avropanı hücumları ilə lərzəyə saldılar. 1000-ci ildə macarlar artıq xristianlığı qəbul edərək avropalı kimliyinin bir parçası halına gəldilər.

Peçeneqlər macarları qovub, Xəzər xaqanlığının bölgədəki siyasi gücünü azaltdıqdan sonra slavyanları hədəf



seçdilər. Əslində peçeneqlər Qara dənizin şimal bölgəsini ələ keçirdikdə Kiyevlə yaxşı münasibətlər yaratmışdılar. Yaranan dostluq münasibətlərini 136 il *(900-1036)* davam etdirən peçeneqlər müəyyən vaxtlarda slavyan knyazlıqlarının sərhəd zolaqlarını da talan etməkdən çəkinmədilər.

Kiyev knayzlığı ilə peçeneqlər arasında meydana gələn ən mühüm döyüş, 972-ci ildə knyaz Svyatoslavın öldürülüb, kəsilən başından şərab qədəhi düzəldildiyi Dnepr ətrafındakı müharibədir. Bu döyüşdə peçeneqlər Kürə başçılığında varyaq döyüşçülərini mühasirəyə alıb darmadağın etmiş və onların Bizansdan aldıqları qənimətləri ələ keçirmişdilər. Bu döyüşə Bizans imperatorunun peçeneqləri ruslara qarşı müharibəyə təhrik etməsi səbəb olmuşdu. Bu hadisədən sonra peçeneqlərlə ruslar arasında münasibətlər kəskinləşmiş, sərhədlərdə başlayan peçeneq axınlarını knyaz Vladimir 988-ci ildə əldə etdiyi qələbə ilə dayandırdı. Bu məğlubiyyətin peçenqlərin hərbi gücündə ciddi təsir yaratmadığını onların 992-ci ildə Preyeslava, 996-cı ildə isə Kiyevə hücum etməsindən anlamaq olar. Peçeneqlərlə ruslar arasında ən böyük döyüş 1036-cı ildə baş verdi. Həmin tarixdə Kiyevə qədər soxulan peçeneq hücumunun qarşısı Yaroslav tərəfindən kəsilmiş və baş verən vuruşmada Peçeneq ordusunun tamamı qılıncdan keçirilmişdi. Bu məğlubiyyətdən sonra peçeneqlər ruslara qarşı böyük hərbi səfərlər təşkil etmədilər.

Bunda peçeneqlər arasında hakimiyyət uğrunda gedən mübarizələrin də təsiri vardı. Peçeneq dövləti türk tayfalar ittifaqından meydana gəlsə də, böyük boy bəyləri arasında ziddiyyətlər az deyildi. XI əsrin ortalarında Kegən və Turak adlı bəylər arasında meydana gələn ziddiyyət peçeneqlərin hərbi və siyasi gücünə də təsir göstərdi.

Bu hadisələr sırasında Kegən sui-qəsdə məruz qalmış və yaralanmışdı. Kegənin yaralandığını eşidən onun ətrafındakı peçeneqlər ordugahı tərk edərək öz soydaşlarının yanına getdilər. Gələnlərlə güclənən peçeneqlər Diampolis

(Yanbolu) qalası ətrafında Konstantin Arianit başçılığındakı Bizans ordusunu məğlub etdilər. 1050-ci ildə peçeneq atlıları Trakiyaya qədər əraziləri yağmaladılar. Bizans Anadoludan gətirdiyi yeni hərbi qüvvələri Ədirnəyə yığıb, müqavimət xətti yaratmağa çalışırdı. Elə bu vaxt Peçeneq ordusu bizanslıları Ədirnədə mühasirəyə aldı. Ədirnə ətrafında başlayan vuruşmalarda bizanslılar böyük itki verdilər. Amma Ədirnə qalasından atılan bir daş peçeneqlərin başçısı Sulçəyə dəydi və başbuğun ölümünə səbəb oldu. Bu hadisədən sonra peçeneqlər mühasirəni qaldırıb, geri çəkildilər. Ədirnə mühasirəsi zamanı Peçeneq ordusunun bir qolu İstanbula qədər gələrək şəhər ətrafında ordugah qurmuşdu. Amma tədbirsiz davrandıqlarından gecə vaxtı bizanslıların hücumuna məruz qalıb, qılıncdan keçirildilər. Peçeneqlərin qarşısını almağa cəhd edən Bizans imperatoru Kegəni soydaşlarına elçi olaraq göndərdi. Bu təşəbbüs də nəticəsiz qaldı. Belə ki, peçeneqlər Kegəni xəyanətinə görə öldürdülər.

Bizansı peçeneq bəlasından başqa bir türk tayfası xilas etdi. Kun və qay hücumları ilə dağılan Kimək ittifaqının əsas tayfalarından olan qıpçaqlar İdili keçərək sürətlə peçeneqlərə aid torpaqlara soxuldular. Bonyak və Tuqortak başçılığındakı 40.000 nəfərlik qıpçaq əsgəri Bizans imperatoru Aleksey Komnenin yardım çağırışı ilə peçeneqlərə hücum etdilər. Baş verən döyüşdə peçeneqlər darmadağın edildi.

Bu hadisə peçeneqlərin siyasi və hərbi gücünə vurulmuş böyük zərbə oldu. Hadisələrin şahidi olan Anna Komnena *(Anna Komnene; 1083-1153)* öz əsərində 29 aprel 1091-ci ildə meydana gələn Lebunium müharibəsində sadəcə Peçeneq ordularının deyil, əsgərlərlə birlikdə "qadın və uşaqları ilə birlikdə bir millətin yox edildiyini" yazır.

Çox sayda peçeneq Bizans tərəfə keçdi, imperatorun əmriylə onlar Anadoluda yerləşdirildilər və Suriya sərhədində Bizansa bağlı peçeneq qarnizonları onlara tapşırıldı.



Peçeneqlərin bir hissəsi isə hələ 1055-ci ildə qıpçaqların hakimiyyətini qəbul edərək onlar arasında yaşadılar.

Peçeneqlər, əsasən *ulax* (rumın) xalqlarının etnogenezində mühüm rol oynadılar. Onların yaşadığı ərazilərdə yaşayan Brasso və Barca adları peçeneq izləri daşıyır. Peçeneqlərin tarixdə yaşayan ən böyük izi, şübhəsiz, bir müddət Osmanlı imperiyasının da paytaxtı olan, hazırda Anadolunun ən böyük şəhərlərindən hesab edilən Bursadır. L.Rasonyi Bursa adının peçeneqlərə verilən "Barca" adından yarandığını qeyd edir.

Peçeneqlər xalqların yaddaşında sadəcə döyüşçü və hərbi güc olaraq qalmadılar. Peçeneqlər Bizans ticarətində böyük bir güc təşkil edirdilər. Bizans sərhədlərində açılan bazarlar peçeneq heyvanları, kürkləri, dəriləri, süd məhsulları, yun və xalçaları ilə dolub daşırdı. Bunun müqabilində yunan tacirlər bənövşəyi rəng qumaş və işləmələri, ədviyyat, pars (bəbir) dərisindən libaslarını peçeneqlərə satırdılar. Bizans imperatorları hər il peçeneqlərə qiymətli hədiyyələr göndərirdi.

### 5.5.3. Torklar və ya Uzlar

Oğuzlar *oqur* adı ilə IV əsrdən etibarən Qərbi Avropada mövcud idilər. Qərbi Avropaya *oğuz* adı altında ikinci böyük türk köçü Sırdərya bölgəsində Oğuz Yabqu dövlətinin tənəzzülü ilə birlikdə başladı. Rus salnamələri onları *tork*, *torki*, *torkman*, Bizans mənbələri isə *uz* olaraq zikr edirlər.

XI əsrin ortalarında Sırdərya boylarına hərəkət edən qay və kun köçlərinin təzyiqi ilə Oğuz Yabqu dövləti dağılınca, oğuzların Ural və Volqa ətrafında yaşayan qolu torklar və ya uzlar yavaş-yavaş yurdlarını tərk edərək Volqanın qərbinə keçdilər. Bu vaxt uzların qarşısındakı ən böyük problem peçeneqlər idi. 997-1038-ci illər arasında uzların hücumları qarşısında peçeneqlər Yuxarı Tissa və Samos

çaylarının şimalı istiqamətində yurdlarını tərk etdilər. Uzların 985-ci ildən etibarən Şimali Rusiyada Suzdal-Rostov bölgəsində olduqlarını nəzərə alsaq, onların Orta Volqanın qərbindən Sura, Oka və Don çaylarının mənbəyinə qədər yayıldıqları iddia edilə bilər.

Şimali Qaradənizdə yurd salmaq məqsədilə peçeneq və uzlar arasında şiddətli döyüşlərin olduğu məlumdur. Bu döyüşlərin birində 1036-cı ildə peçeneqlər uzları ağır məğlubiyyətə uğratdılar. Bu məğlubiyyət nəticəsində uzlar Rus knyazlığının torpaqlarına doğru hərəkət etdilər. Rus-uz münasibətləri də bu tarixdən etibarən yenidən başladı. Rus salnamələrində uzlar haqqında əsas məlumatlar XI əsrin ortalarından etibarən başlayır. Belə ki, 1048-ci ildə uzlar şərqdən gələn və Oğuz Yabqu dövlətinin ərazisini ələ keçirən kuman-qıpçaqların təzyiqi ilə Don ətrafındakı torpaqlarını tərk edərək Dnepr çayı ətrafında və Kiyev knyazlığının cənubundakı ərazilərdə məskunlaşmağa başladılar. Bu ərazilərdə 1050-ci ildə uzlarla peçeneqlər arasında şiddətli döyüşlər baş verdi və nəticədə peçeneqlər Balkanlara hərəkət etdilər.

Bizans mənbələri yurdlarını tərk edərək Qərbi Avropaya köç edən uzların sayının 600 min olduğunu qeyd edir. 1060-cı ildə uzlar Kiyev knyazlığını təhdid etməyə başladılar. Uzların rus knyazlıqlarına aid torpaqlarda yağma hücumları təşkil etməsi, knyazların uzlara qarşı birləşməsinə səbəb oldu. Birləşmiş rus-slavyan hərbi dəstələri uzlara hücum etdilər. Meydana gələn döyüşdə məğlub olan uzlar Dunay çayı istiqamətində hərəkət etdilər. Balkanlarda gerçəkləşdirdikləri böyük yağmalardan sonra Dunay ətrafına qayıtmaq istəyən uzlar havanın şiddətli keçməsi nəticəsində böyük itki verdilər. Təbii fəlakət uzların topladığı sərvətlə birlikdə yox olmasına səbəb oldu. Bu uzların gəldikləri bölgənin təbii şəraitini yaxşı bilmədiklərini göstərir. Hətta bundan istifadə edən çox sayda məhbus uzların əlindən xilas olub, Bizansa qaçdı. Fəlakətdən sonra



bölgədə başlayan aclıq, vəba və digər yoluxucu xəstəliklər uzların yarıdan çoxunun ölümü ilə nəticələndi. Bu hadisədən sonra uzların bir hissəsi geri qayıtmış, qalanları Macarıstana gedərək, macar hökmdarının hakimiyyətini qəbul etmişdilər.

Bəzi uz tayfaları Bizansa müraciət etdilər. Bizans imperatoru onları Makedoniyadakı xəzinəyə aid torpaqlarda məskunlaşdırdı. Bunun müqabilində uzlar Bizans ordusunda xidmət etməyə başladılar. Həmin uzlar 1072-ci ildə Malazgirddəki Bizans-Səlcuqlu döyüşündə iştirak etmiş, ancaq qarşıdakı düşmənlərinin qardaşları oğuzlar olduqlarını anlayan kimi Sultan Alparslanın tərəfinə keçmişdilər.

Şimali Qaradəniz bölgəsindəki torpaqlarına qayıdan uzlar burada Kiyev knyazlığına müraciət etdilər. Kiyev hökmdarı onlara torpaqlar verərək öz ordusuna daxil etdi. Amma uzların bu bölgədə rahat dayanmadıqları, vaxtaşırı slavyan kəndlərini talan etdikləri qeyd edilir. Uzların bir hissəsi də peçeneqlərlə birləşmişdi. Həmin birləşmiş uz-peçeneq tayfaları 1116-cı ildə Don ətrafında iki gün iki gecə ruslarla ağır döyüşə girişdilər. Lakin bu döyüşdən bir müddət sonra uzların peçeneqlərdən ayrılıb, yenidən knyaz Vladimirin tərəfinə keçdikləri qeyd edilir.

Uzların əsas kütləsi indiki Rumıniya və Moldova bölgəsində məskunlaşdılar. Həmin uzlar qaqauzların ulu babası idilər. Qaqauz adının mənası mübahisəlidir. Bu adın "qoq/göy" oğuz sözündən yarandığı ehtimalını əsas qəbul etsək, uzların əsas kütləsini *göy oğuzlar*ın təşkil etdiyini düşünə bilərik. Belə ki, Sırdərya Yabqu dövləti dağıldıqdan sonra Xorasana köç edən oğuzlara *qara oğuz* adı verilmişdi. Oqurların da on oqur, ağ oqur, otuz oqur kimi adlar daşıdıqlarını nəzərə alsaq, Sırdərya oğuzlarının, əsasən iki qola ayrıldığını, onlardan göy oğuzların şimal-qərbə (Şərqi Avropaya), qara oğuzların isə cənuba (Xorasana) köç etdikləri ehtimal edilə bilər. Həmin göy oğuzlar tarixdə qaqauzlar olaraq kimliklərini qorudular.

Uz və ya qaqauzların XIII əsrdən etibarən xristianlaşdıqları qeyd edilir. Moğolların hücumu və bölgədəki xristianlaşdırma missiyalarının bunda təsirli olduğu iddia edilir. Uzların mühüm bir hissəsi də Bizans dövründə Anadoluda məskunlaşmışdı. Anadolu və Balkanlarda onlara aid çox sayda etnonim və toponim yaşayır.

### 5.5.4. Bərəndeylər

XI əsrdə Şimali Qaradəniz bozqırında tarix səhnəsinə çıxan türk tayfalarından biri də bərəndeylər və ya bərəndilərdir. Bərəndey adı haqqında da müxtəlif iddialar səsləndirlilib. O.Pritsaka görə, *ber-in-di* (verilən) adı macarcada isim (bərən) halında mövcuddur. Ona görə, "qızıl qartal" mənasına gələn bu söz, tayfanın xüsusi mövqeyini də ifadə edir. A.N.Baskakov *(Николай Александрович Баскаков; 1905-1996)* berendey adının "beren" və oxşarlıq şəkilçisi olan "dey"dən yarandığını, "xəncər-qılınc kimi", "ağıllı-qüvvətli, qəhrəman kimi" və "qartal və ya aslan kimi" mənalarına gəldiyini qeyd edir. J.Brutzkusa *(Judah Loeb Brutzkus; 1870-1951)* görə, *bərəndey* adı "cənublu" deməkdir.

Rus salnamələrində bərəndeylərin ortaya çıxdığı tarix 1097-ci il göstərilir. Böyük ehtimalla, Oğuz Yabqu dövlətinin süqutundan sonra hakim baranlı ailəsinə bağlı tayfaların bir qolu Şərqi Avropaya köç edərək burada bərəndey adı ilə tarix səhnəsinə çıxdılar. Bərəndeylər qıpçaqlardan əvvəl qərbə hərəkət edərək qıpçaqların sərt təzyiqləri qarşısında uz və peçeneqlərlə ittifaq yaratdılar. Bərəndeylərlə qıpçaqlar arasında ilk döyüş 1105-ci ildə baş vermiş və qıpçaq başbuğu Bonyakın qələbəsi ilə nəticələnmişdi.

1116-cı ildə Şimali Qaradəniz bölgəsini əhatə edən qıpçaq istilası qarşısında dayana bilməyən peçeneqlər və



uzlarla birlikdə bərəndeylər də slavyanlara aid ərazilərə girdilər və slavyan knyazlıqlarına qıpçaqlara qarşı ittifaq təklif etməklə yanaşı, digər tərəfdən də onlara aid mülkləri yağmalamağa başladılar.

Qıpçaq hücumlarının şiddətlənməsi qarşısında slavyan knyazlıqları bərəndeylərin hərbi gücündən istifadə edərək onların slavyan ərazilərindəki talanlarına göz yumdular. 1154-cü ildə slavyan knyazlıqlarına başlayan qıpçaq hücumlarının qarşısını bərəndeylər aldılar. Buna görə qıpçaqlar əsas hədəf kimi bərəndeyləri seçib, arxa-arxaya onlara zərbə vurdular. 1177-ci ildə qıpçaqların bərəndeylərə aid altı şəhəri ələ keçirməsi bu fikri təsdiqləyir. Bu bərəndeylərin mühüm bir hissəsinin şəhərlərdə yerləşdiklərini göstərir. Bu məlumat bərəndeylərin ana kütləsinin indiki Ukrayna ərazilərində məskunlaşdıqlarını deməyə əsas verir. Qıpçaqların qarşısından qaçan qarapapaq və uzlar da məhz bərəndeylərə aid ərazilərə gəlib yerləşmişdilər.

Bərəndeylərə əsas zərbəni moğollar vurdular. Moğol istilası qarşısında bərəndeylərin əsas hissəsi indiki Rumıniya və Bolqarıstan torpaqlarına köç etdilər. Bərəndeylərin Şimali Qaradənizdə qalan hissəsi isə ukraynalılar arasında əridilər. Bərəndeylərin adı Rumıniya və Bolqarıstanın bəzi kənd adlarında indi də yaşayır. Rumın əsilzadələri arasında Bərəndey soyadını daşıyan ailələrin olması onların izlərini günümüzdə də davam etdirdiyini təsdiq edir. Bərəndeylərin bir hissəsinin Bizansa sığındığı və Anadoluda məskunlaşdıqları Osmanlı dövrü tapu-tahrir dəftərlərindəki qeydlərdən aydın olur. Bərəndey adı bəzi mənbələrdə *yarendi* şəklində də qeyd edilir.

## 5.5.5. Qıpçaqlar

Qıpçaq adı bir-birinə yaxın olsa da, müxtəlif formalarda şərh edilmişdir. Məşhur "*Oğuz xaqan*" dastanında yer alan bir hekayədə "*qıpçaq*" adının "içi boş ağac qabığı" mənasına gəldiyi qeyd edilir. Qıpçaqlar üçün işlədilən bir başqa ad "*kuman*"dır. Kuman adının mənası üzərində müxtəlif fikirlər dilə gətirilmişdir. Kəlmənin "*kum-an*" formasında "sarılar" (*sarı xalq, sarışın xalq, solqun rənglilər*) mənasına gəldiyi deyilmişdir. Lakin *kuman* adı *kun* adından da törəyə bilər. Belə ki, qıpçaqların *qun/kun* türklərindən törədiyi iddia edilir. Alman şərqşünas O.Pritsaka görə, "kuman-kun" sözləri türk dilində sifət olub, "*kû<kub*" mənasında "sarı, rəngsiz, açıq sarı xalq" deməkdir.

Qıpçaq-kumanların mənşəyinə dair ilk baxış onların vusun (*wu-sun//usun*) boyunun başında duran və "*kun-mo/kun-mi*" ünvanına sahib hökmdar soyundan gəldiyi haqqındadır. Bu məlumat e.ə.II əsr Çin mənbələrində keçir. İkinci bir nəzəriyyə İslam müəlliflərinin (əl-Mərvəzi və Avfi) əsərində keçən "Şariya" (sarılar ölkəsi) haqqındakı məlumatlara əsaslanır. Avfiyə *(Nurəddin Məhəmməd ibn Məhəmməd ibn Yəhya əl-Avfi əl-Hənəfi; XII-XIII əsr)* görə, "türklərdən bir xalq var idi ki, bunlara *kun* (hun) deyilir. Onlar əslində Fəna ölkəsində yaşayırdılar. Bu ölkənin kiçikliyi və otlaqlarının azlığı səbəbiylə (onlar) buranı tərk edib getdilər. Gəldikləri yerdə *kay* (qay) adlı bir xalqı torpaqlarından qovub çıxardılar. Kaylar da Sari ölkəsinə getdilər. Sari xalqı türkmənlərin ölkəsinə yerləşdi və Quzan (oğuzlar) Ərməniyyə dənizi (Qara dəniz) sahilindəki peçeneqlərin ölkəsinə getdilər". Avfinin bəhs etdiyi "sari" (sarı) xalqı qıpçaqlardır. Avfi kun, kay və sarı (qıpçaq) tayfalarını bir-birindən ayırmaqdadır. Buna görə kunlar şərqdə, kaylar onlardan qərbə doğru, sarılar isə kayların qərbində yerləşirdi. Yenə Avfi hər üç xalqın da türk olduğunu



qeyd edir. Əbu Reyhan Biruni də bunları "şərq türkləri" olaraq göstərmişdir. Biruniyə görə, "altıncı iqlim şərqdəki kay, kun, qırğız kimi türk xalqlarının ölkəsindən başlayır. Kimək, doqquz oğuz, türkmənlərin ölkələrindən, Fərab, Xəzər ölkəsi, Xəzər dənizinin şimalından, el-Lan və Sərir ölkələrindən keçərək qərbə uzanır". Şərq türkləri və onların qərb istiqamətində təqribən XI əsrin ortalarından etibarən köçləri haqqında ən geniş məlumat Mərvəziyə *(Şərəf əl-Zaman Tahir əl-Mərvazi; XII əsr)* aiddir. Mərvəzi türk xalqlarından danışarkən belə deyir: "Türklərdən bir xalqa da kun (qun/hun) deyilir. Bunlar Nestorun məzhəbindəndir. Qıta (Kitay) xaqanından qorxduqları və otlaqları az olduğu üçün Kıtay ölkəsindən gəlmişdilər. Kunları daha qələbəlik və daha güclü olan kaylar (qay) təqib etdi. Onları torpaqlarından qovdular. Bundan sonra şarilərin ölkəsinə gəldilər. Şarilər türkmənlərin ölkəsinə getdilər. Oğuzlar isə Ərməniyyə (dənizi) sahilləri yaxınlığındakı peçeneqlərin ölkəsinə getdilər".

Tarixdə qıpçaqlar öz adlarıyla ilk dəfə IX əsrdə İrtış çayı ətrafında və indiki Qazaxıstanın şimal-şərqində mövcud olmuş Kimək boylar ittifaqı arasında görülür. İslam mənbələri kiməklərin yeddi tayfadan ibarət olduqlarını qeyd edərkən onlar arasında qıpçaqların da adını çəkirlər.

XI əsrin ortalarında bu boylar ittifaqı dağılmağa başlamış, böyük ehtimalla şərqdən gələn kun və kay təyziqi nəticəsində süqut etmişdir. Bundan sonra Kimək ittifaqında yer alan türk boylarından müstəqil hərəkət etməyə başlamış; yiməklər Balxaş istiqamətində Qaraxanlı sərhədində yerləşmiş, bayandırlar oğuzlar arasına qarışmış, qıpçaqlar digər kimək boylarını da öz tərkiblərinə daxil edərək Aral gölü, Sırdərya ətrafı ilə şimal-qərb istiqamətində hərəkət etmişdilər.

IX-X əsrlərdə İrtış və Ural çayları arasında güclü bir dövlət hesab edilən Kiməklər arasında qıpçaqların güclü və hakim nüfuza sahib olduğu məlumdur. Qıpçaqlar yeddi

böyük tayfadan meydana gələn türk əsilli Kimək dövləti tərkibində yer almış, XI əsrin ortalarında bu ittifaqın dağılmasından sonra digər boyları da öz hakimiyyəti altına alaraq qərbə doğru hərəkət edərək, bu dəfə qıpçaqlar və ya kumanlar adıyla yeni bir türk tayfa ittifaqı meydana gətirmişdilər.

XI əsrin ortalarında Mərkəzi Asiyada meydana gələn xalqlar köçü nəticəsində Aral gölü ətrafında türk tayfalarının qaynayıb-qarışmasından yeni bir ittifaq meydana gəlmişdir. Bu ittifaqı Kuman-qıpçaq-qanqlı birliyi adlandırırlar.

Qıpçaqlar qərbdə Dunaydan şərqdə Çin sərhədinə və cənubda Orta Asiyaya uzanan ucsuz-bucaqsız əraziyə sahib oldular. Bu geniş ərazi İslam mənbələrində *Dəşti-Qıpçaq*, yəni Qıpçaq çölü adlanırdı. Kuman-qıpçaq-qanqlı ittifaqı və ya Qıpçaqlar adlanan bu birliyə tabe tayfalar beş qrupa ayrılmışdılar:

1) Orta Asiya qıpçaqları: yayı Tanrı dağları ilə Altayın ətəkləri, Aşağı Sırdərya bölgəsində, qışı isə Qərbi Sibir və Ural dağı ətrafında keçirirdilər;

2) Volqa-Ural çayları arasındakı qıpçaqlar;

3) Volqa ilə Dnepr və Don ilə Donetsk çayları arasında yaşayan qıpçaqlar: rus knyazlıqları ilə münasibətləri olan




*Dəşti-Qıpçaq*



bu qrup qışda Aşağı Don ilə Azov (*Azaq*) dənizi ətrafındakı ovalarda, şimalda Dnepr sahili boyunca Xortitsa adası, yəni Donetsk hövzəsi ilə Askold çayına qədər olan geniş ərazilərdə yaşayırdılar. Yayda isə Orel (*Arel*) ilə Samur çayları arasındakı geniş *bozqır* və Mərkəzi Donetsk ərazisində keçirirdilər;

4) Rus mənbələrində "*Lukamorski polovetsi*", yəni Lukomor qıpçaqları adlanan bu qrup Aşağı Dnepr ətrafında yerləşmiş və Azov qıpçaqları da adlanırdı;

5) Qıpçaqların beşinci qrupu isə Aşağı Dunay, Cənubi Karpat və rus knyazları ilə sərhəddə yerləşən Dunay qıpçaqları hesab edilirdi. Daha sonra qıpçaqların Volqa ilə Dnepr arasında yaşayan boyları Qafqaz istiqamətində yayılaraq, xüsusilə də indiki Gürcüstan və Qara dənizin cənub-şərqi boyunca Anadolu torpaqlarında yerləşmişdi.

Kuman-qıpçaq-qanqlı ittifaqında çox sayda türk tayfası yer alırdı. Mənbələrdə həmin tayfaların adı belə zikr edilir: ay-oba, badaç, barat/berat (*baraq*), bayaut (*bayavut*), burçoğlı (*borçol/borçalı*), bzangi (*peçengi/peçeneg*), çağrak/çoğrak (*çığrak/çığrık*), çitey, çırtan/çortan (*cırtan*), ozur çortan, durut/dörüt (*dördlər*), ençoğlu (*ilançuqlu*), it-oba, kitan-oba, knn (*kunan*?), küçeba/küç-oba, küçet, kor (*qor*), qara börklü, kol-oba/qul-oba, *qmnqu* (*kumanlı*), konquroğlu (*konqur*), mekrüti/bekrüti (*bekürte*), mingüzığlu, orunqqu (*orungqut*), ölbərli/ölpərli (ölbərliq), yü-li-pai-li (çincə *yü-li-pei-li/ulubeyli*, latınca *uilperitorum*), örən/uran, peçenə (*peçeneq*), şan-mie ku-ma-li, targıl (*tarqol*), tərtər (*tərtər-oba*), toks-oba (*toqş-oba*), tğyşqut (*tağ başqurd*), ulaşoğlu (*olaas*), urus-oba, yimək (*yemək*), yuğur (*uyqur*).

Bu tayfaların böyük bir hissəsinin türk olması ilə bərabər, kitan (kitay), bayavut, oronqqut, ölberliq kimi monqol mənşəli tayfalar da Qıpçaq ittifaqında yer alırdı. Bunların xaricində rus qaynaqlarında "vəhşi kumanlar" (*polovtsi dikii*) adı verilən Volqa-Ural və Don ətrafında yaşayan qıpçaqlar da var idi. Yenə rus salnamələrinin "mədəni

kumanlar" adı verdiyi bir qıpçaq qrupu olub ki, bunlar burçoğlu, ulaşoğlu, itoğlu və urus-oba kimi tayfalardan ibarət idi.

Qıpçaqlar mərkəzləşmiş bir dövlət qurmamış, bir boylar ittifaqı və ya boy bəyləri federasiyası şəklində təşkilatlanmışdılar. Peçeneqlər, uzlar kimi qıpçaqlar da ümumi məsələlərdə birlikdə hərəkət etmiş, bunun xaricində öz işlərində müstəqil olmuşdular.

Qıpçaqların siyasi və hərbi güc olaraq ilk dəfə ortaya çıxması XI əsrin əvvəllərinə təsadüf edir. Bu dövrdə şərqdə kidanların (*qara-kitay*) təzyiqi ilə Ural (*Yayık*) çayı ətrafında cəmləşən qıpçaqlar Volqa (İdil) üzərindən Xəzər ölkəsinə müdaxilə etməyə başladılar. Qıpçaq boyları buraya İrtış ətrafından köç etmişdilər. Bu dövrdə tənəzzül yaşayan Xəzər dövləti Ural çayından şərqə doğru Aral gölü və Manqışlaq ərazisinə də hakim olub, buradakı bəzi oğuz boylarını öz təsiri altında tuturdu. Qıpçaqların ilk köçləri Kama-İdil üzərindən Volqa Bulqar dövləti ərazisinə olmuşdu. Mərkəzi Volqa ərazisinin qıpçaqlaşması bu tarixdə başlamış və bulqarlarla qıpçaqların qaynaşması gerçəkləşmişdir. Qıpçaqların bir hissəsi İrtış ətrafından Uralı aşaraq Kama-İdil bölgəsinə girmiş, beləliklə, İdil bulqarları ilə qarışmışdır. Mərkəzi İdil ətrafının qıpçaqlaşması bu şəkildə başlamışdır. Qıpçaqların bir başqa zümrəsi Aşağı İdil boyunca getmiş və xəzərlərin bir etnik ünsür olaraq ortadan qalxmasında əsas səbəbkar olmuşdular. Qıpçaqlar, peçeneq və uzlardan boşalan yerləri ələ keçirərək Şimali Qafqaza, Kuban ətrafına, Aşağı Don ətrafına və buradan da Dnepr (Özü) istiqamətində hərəkət etmişdilər. 1030-cu ilə qədər bugünkü Qazax çölləri hesab edilən geniş torpaqlar Qıpçaq ittifaqının hakimiyyətində idi. Uz və ya oğuz boyları (rus mənbələrində *torki*) Yayık (Ural) və Volqa çayları arasındakı ərazini idarə edir və Peçeneq tayfalar ittifaqı da Volqadan Aşağı Dunaya qədər uzanan, indiki Ukrayna, Moldova və Eflaqın yer aldığı geniş çöllərə hakim idilər.







*XII əsrə aid qıpçaq balballarɪ. (Ukrayna)*

Türkcə danışan xalqların ən şərqdəki qolu olan qıpçaqların ilk yurdları IX-X əsrlərdə cənub-qərbi Sibir, Tobol və İşim çaylarının ortaları olmuş, 1030-cu ilə qədər daha da cənuba yayılmışdılar.

Artıq XII əsrdən etibarən Şərqi Avropa və Qafqazda yeni bir türk siyasi və hərbi gücü olan qıpçaqlar hakimdilər. XII və XIII əsrin əvvəllərində İrtış çayının orta axarından Dunaya qədər uzanan geniş bir bölgənin tək hakimi olan qıpçaq-kuman ittifaqı, 1241-ci ildə moğolların bölgəni əlinə keçirməsinə qədər bu mövqelərini mühafizə etdilər. Buna görə də XII-XIII əsrlərdə bu geniş ərazilər müsəlmanlar tərəfindən *Dəşti-Qıpçaq*, rus salnamələrində *Zemlya Poloveskaya* (Qıpçaq Ölkəsi), latın mənbələrində isə *Cumania* adlandırılmışdır. Latın qaynaqları Dnepr, Don, Volqa və Ural çayları arasındakı əraziləri *Kumaniyə* (*totam terram Comanorum*=bütün Kuman torpaqları) adlandırır, sonrakı dövrdə Ural çayından Xarəzmə qədər olan əraziləri "*Kangitarum*", yəni Qanqlılar ölkəsi olaraq təsvir edirlər.



*XII əsrə aid qıpçaq balbalı*



1060-cı ildə kuman-qıpçaqlar uzların izindən Dunay sahillərində ortaya çıxdılar. 1064-cü ildə isə uzları Dunayın cənubuna sıxışdıran qıpçaqlar Transilvaniya və Macarıstan istiqamətində yollarına davam etdilər. 1070-ci ildə əvvəlcə uzların, sonra da kuman-qıpçaqların hücumları qarşısında Balkanlara qədər gəlib, Bizansın ərazilərinə girən peçeneqlər, 1078-ci ildə Balkanlarda qıpçaqlarla yenidən üzləşdilər. Bunun səbəbi Bizansa hücuma keçən Peçeneq başbuğu Tatuşun kuman-qıpçaqlardan kömək tələb etməsi idi. Bu, başqa mənada kuman-qıpçaqlara Balkan yolunu açanların peçeneqlər olduğunu ortaya çıxarır. Burada öz aralarındakı düşmənçiliyə son verən qıpçaqlarla peçeneqlər daha güclü bir düşmənə qarşı ittifaq qurdular. Bu tarixdə kuman-qıpçaq və Peçeneq orduları Bizansın İstanbuldan sonra ikinci mərkəzi hesab edilən Ədirnəni mühasirə altına aldılar. 1078-ci ildə bölgədəki türk tayfalar türk olmayan güclərə qarşı "milli bir ittifaq" təsis etmişdilər.

On il ərzində kuman-qıpçaq-peçeneq tayfalar ittifaqı Bolqarıstanı, Makedoniyanı, Yeni Bazarı, Kosovanı, Bosniyanı və Albaniyanı ələ keçirib, mərkəzi Kumanova olan Balkanlarda bir hərbi-siyasi idarə yaratdılar. 1087-ci ildə Dersterdə (Silistrə) Bizans ordularının qarşısına çıxan kuman-qıpçaq-peçeneq ordusu bizanslıları ağır bir məğlubiyyətə düçar etdilər. Döyüş nəticəsində türklərin əlinə böyük miqdarda qənimət keçmişdir. Ancaq ələ keçirilən qəniməti qıpçaqlarla bərabər şəkildə bölmək istəməyən peçeneqlər, kuman-qıpçaq-peçeneq ittifaqının dağılmasına səbəb olmuşdular. Bunu firsət bilən Bizans diplomatiyasının yüz illərdən bəri istifadə etdiyi bir xalqı digərinə qırdırmaq siyasətinə yenidən əl atıb, yaranan qıpçaq-peçeneq düşmənliyini daha da artırdı. Beləliklə, Bizansa qarşı qalibiyyətin əldə edildiyi meydanda bu dəfə qıpçaqlarla peçeneqlər vuruşmağa başladılar. Peçeneqlərin məğlubiyyətiylə nəticələnən bu döyüşdə Bizans da meydana gələn yeni bir türk hücumundan qurtulmuş oldu.

Bu məğlubiyyətdən sonra peçeneqlər Trakiya bölgəsinə yerləşərək Bizansa qarşı hücumlarını davam etdirdilər. İstanbulu da təhlükə altında qoyan bu hücumlar qarşısında Bizans imperatoru Aleksios *(1081-1118)* Qıpçaq xanları Tuqorqan və Bönəkdən kömək istədi. Buna görə hərəkətə keçən qıpçaqlar Meriç çayı yaxınlığına qədər gəldilər. 40.000 nəfərlik Qıpçaq ordusu Meriçin sahilində yerləşən Lebuniumda (Omurbəy) qərargah qurmuş peçeneqlərə hücum çəkdilər. 29 aprel 1091-ci ildə meydana gələn bu döyüş qıpçaqların qalibiyyəti, peçeneqlərin isə hərbi və siyasi bir güc olaraq Şərqi Avropa səhnəsindən çəkilməsinə səbəb oldu. Bu şəkildə Balkanlar üzərində hakimiyyət peçeneqlərdən qıpçaqlara keçdi.

Qıpçaqların Qara dənizin şimal torpaqlarında nə zaman ortaya çıxdıqları mübahisəlidir. Müasir tarixçilikdə başında Boluş adında bir xanın dayandığı qıpçaqların rus torpaqlarında görülməsi tarixi olaraq 1054-cü il əsas qəbul edilir. Rus salnamələrində 1000-ci ildə qıpçaqların Kiyevə hücumundan bəhs edirlər. Buna səbəb 988-ci ildə Kiyev knyazı Vladimirin *(980-1014)* xristianlığı rəsmi din elan etməsi nəticəsində Kiyev xalqında yaranan narazılıq olmuşdur. Kiyevlilər knyaz Vladimiri "şeytanlığı qəbul etməklə" iddiham edərək qıpçaqlardan kömək istəmişdilər.

1050-ci illərdə kuman-qıpçaq boylarının başında Boluş adlı bir xanın durduğu məlumdur. Onun qıpçaqların mütləq xaqanı deyil, ən böyük xanlarından biri olduğuna şübhə yoxdur. Çünki qıpçaqlar mərkəzi bir idarə qurmayıb, federasiya tərzində idarə edilirdilər.

1054-cü ildən sonra kuman-qıpçaqlar uz/oğuzların arxasından sürətlə Dunay istiqamətində hərəkət edərək 1060-cı ildə Karpatlara çatmışdılar. Bir il sonra isə bu dəfə başında İskal adında bir xanın dayandığı kuman-qıpçaq orduları rus knyazlıqlarının torpaqlarında ortaya çıxdılar. Onların qarşısına çıxmaq istəyən knyaz Vsevold ağır bir məğlubiyyətə məruz qalmışdı. Ancaq bəzi rus salnamələrində bu



hadisənin 1060-cı ildə və Qıpçaq xanı Sakal başçılığında olduğu xəbər verilir.

Qıpçaqlar moğolların istilasına qədər Şimali Qaradəniz, Volqaboyu və Qafqazın əsas siyasi-hərbi gücü olaraq varlıqlarını davam etdirdilər. XIII əsrdə bir hissəsi Qızıl Ordanın tərkibinə daxil olub moğolların türkləşməsinə səbəb olarkən, qalan hissəsi Azərbaycan və Anadolu üzərindən Suriya və Misirə hərəkət edərək orada Məmlük dövlətinin təməllərini atdılar.

# ƏLAVƏ OXU

## V.I. Ədəbiyyat


- Əsədov Fərda, *Xəzərlər və Azərbaycan*, Bakı: Elm və Təhsil nəşriyyatı, 2019.
- Qumilyov Lev N., *Qədim Türklər*, Tərcüməçi: Vəli Həbiboğlu, Bakı: Gənclik nəşriyyatı, 1993; Qanun nəşriyyatı, 2019.
- Taşağıl Ahmet, *Göktürkler*, c. I-III, Ankara: TTK Yayınları, 2011.


## V.II. Suallar

1. Türklərin yaradılış əfsanəsində yer alan bozqurd anlayışı nəyi ifadə edir?
2. Tarixdə Göytürk adı altında neçə dövlət yaranıb? Onların ərazilərini müəyyən edin.
3. Göytürk xaqanlığı ərazisində ortaya çıxan türk xaqanlıqları hansılardır?
4. İndiki Rusiya ərazisində mövcud olmuş türk dövlətləri hansılardır?

## V.III. Tapşırıqlar

1. Azərbaycan türklərinin tarixi kimliyində rol oynamış oğuzların qolları, tayfaları və yayıldıqları ərazilər haqqında məqalə hazırlayın.
2. VI-X əsrlər Türk dünyasının böyük şəhərləri arasında yer alan Azərbaycanın tarixi şəhələrini müəyyən edin və onların İpək yolu üzərindəki rolunu araşdırın.
3. Azərbaycan tarixində rol oynamış Xəzər xaqanlığının əhəmiyyətini açıqlayın.

## V.IV. Terminlər

*alp* – hərbi və idari termin. Əsgər mənasında da istifadə olunurdu.

*altın yiş* – qızıl meşə.



*bilgə* – "müdrik". Göytürk, Uyğur və bir çox türk xaqanlığında hökmdarların daşıdıqları ləqəb.

*çouhsinq* – Çinin apardığı siyasətin adı. "Xərac siyasəti" mənasına gələn bu ifadəyə görə çinlilər türk xaqanlıqlarına, əsasən ipək olmaqla, qiymətli hədiyyələr verərək, onların Çinlə dostluq münasibəti yaratmasını istəyirdilər.

*elig* və ya *ilig* – müəyyən bir ərazini idarə edən hakimlərə verilən titul.

*elli* – dövlətli.

*Ərgənəkon* – türklərin ortaya çıxdığı iddia edilən Altayda içi geniş ovalıq ərazi olan məkanın adı.

*ərkin* – türk dövlət sistemin ən kiçik məmuru mənasını ifadə edən termin.

*xaqan* – Göytürk hökmdarları tərəfindən istifadə edilən, "xan" mənasında gələn hökmdarlıq titulu.

*İl ebi* – qədim türklərdə hökmdarın sarayı.

*il örgünü* – hökmdarların oturduqları taxta türklərin verdiyi ad.

*Külüg çor* – türk dövlət sistemində məmurluq titulu.

*nuşepi* və *tulu* – on türk tayfasının birləşməsindən yaranan on-ox tayfalar ittifaqının bir hissəsinə nuşepi, digər hissəsinə tulu adı verilirdi.

*ordu* – paytaxt.

*Orxon türkçəsi* – qədim türk kitabələrin çıxarıldığı əraziyə görə həmin kitabələrin dilinə verilən linqvistik bir termin.

*sancaq* – dövlət və hökmdarlıq əlaməti olaraq istifadə edilən bayraq.

*sü* – ordu.

*şadabıd* – Göytürk dövlət sistemində hökmdarlıq idarə sistemi sağ və sol qollara ayırlırdı. Bu qollara şadabıd deyilirdi.

*Tenq-li* – Tanrı mənasında çincədə yer alan türkcə ad.

*tudun* – eltəbərdən sonra dövlət idarəsində yer alan məmurlara verilən titul.

*tuğ* – hökmdarların yanında və çadırlarının ətrafında yer alan, üzərində qotazların sallandığı hökmdarlıq əlaməti olan simvol. Bəzən bu qotazların sayı 9-a qədər çıxırdı. Həmin qotazlar at quyruğundan düzəldilirdi.

*Tu-ku* – çincədə Göytürk dövlətini yaradan hakim xanədanın adı. Türk mənasında işlədilib.

*tuyuğ* – qədim türk şeirlərinin yazıldığı 4,5,7,8 və 11 hecadan ibarət şeir növü və janrı.

*türküt* – türk kitabələrində türklərin özlərinə verdiyi ad.

*Türkzadə* – Sasanilər taxtına çıxan və türk qanı daşıyan hökmdarlara verilən ad.

## V.V. Hökmdarlar

### V.V.1. I Türk xaqanlığı *(542 – 581)*

| | |
|---|---|
| 542 – 552 | Duman xaqan |
| 552 – 553 | Qara xaqan |
| 553 – 572 | Mukan/Muğan xaqan |
| 572 – 581 | Taspar xaqan |

### V.V.2. Şərqi Türk xaqanlığı *(582 – 630)*

| | |
|---|---|
| 582 – 587 | İşbara |
| 587 – 588 | Baqa |
| 588 – 600 | Dalan |
| 600 – 603 | Tardu (Şərqi və Qərbi Türk xaqanı) |
| 603 – 609 | Tulu Çubin |
| 609 – 619 | Şih-pi (Tuçi Sapar) |
| 619 – 621 | Çu-lo |
| 621 – 630 | İl (El xaqan) |

### V.V.3. Qərbi Türk xaqanlığı *(582 – 630)*

| | |
|---|---|
| 582 – 603 | Tardu |
| 603 – 611 | Çilo (Taman Tigin) |
| 611 – 618 | Şadqu |
| 618 – 630 | Tonq yabqu |
| 630 | Bahadır |
| 630 – 631 | Yabqu (Hsi-li Tigin) |



### V.V.4. II Türk xaqanlığı *(682 – 742)*

| | |
|---|---|
| 682 – 692 | Qutluq |
| 692 – 716 | Qapağan |
| 716 – 735 | Bilgə |
| 735 – 736 | Yığan |
| 736 – 741 | Tenqri (Bilgə Qutluq) |
| 741 – | Qutluq Yabqu |
| 741 – 742 | Özmiş |

*Altıncı fəsil*

# MÜSƏLMAN TÜRKLƏR



## 6.1. TÜRK DİNİ HƏYATI

Türk inanc sisteminin mərkəzində həyata bağlılıq dayanır. Türk insanının xarakteri həyatla yoğrulub. Türklərin dünya tarixinin bütün dövrlərində yer almasının başlıca səbəbi də yaşamaq əzmidir. Din dərəcəsində həyata bağlılıq türklərin inanc sistemini formalaşdıran başlıca amildir. Amma türklərin həyat anlayışı dünyəvi deyildir. İnancla yoğrulmuş həyat anlayışına sahib türklər üçün hər canlı varlıq *hiyerofaniyə* (müqəddəs gücün təcəllisinə) tabedir. İnancı dünyəviləşdirdiyi qədər, dünyanı da inanclaşdıran türklər hər şeyin fövqündə dayanan mütləq gücə inanıblar. Bu güc tək, məhdudiyyətsiz, vasitəsiz, əbədi və sonsuzdur. Qədim türk kitabələrində Tanrının bütün dünyanı türklərin əmrinə verdiyi açıq qeyd edilir: *"İrəlidə gündoğana, cənubda günortasına qədər, geridə günbatana və şimalda gecəyarısına qədər, bu sərhədlər daxilində bütün xalqlar mənə tabedir. Bu qədər xalqa düzən gətirdim"* (Kültigin kitabəsi, Cənub tərəfi 2; Bilgə xaqan kitabəsi, Şimal tərəfi 2).

Türk inanc sisteminin mərkəzində *tenqriçilik* yer alır. Güclü dini motivlər üzərində formalaşan tenqriçilik təktanrılı inanc sistemidir. Türk inanc piramidasının zirvəsində *Tenqri* və ya *Gök Tenqri* (Tanrı) dayanır. Ondan aşağıda *yir-suv* (yer və su) gəlir. Üçüncü pillədə *kişi oğlu* (insan), sonrakı pillələrdə isə heyvanlar, quşlar və bitkilər yerləşir. Xalis türk inancı adlandırdığımız motivlər *Göy Tenqri, yer-su, dağ-təpə, daş-qaya və ağac*dır. Bu inanc motivləri ən qədim dövrlərdən günümüzə qədər türklərin həyatında öz əksini tapıb. Dünya tarixində ən çox din dəyişdirən xalq türklərdir. Türklər səmavi (*vəhy*) və səmavi olmayan bütün dinləri qəbul ediblər. Türklər bütün dinlərin (musəvilik, xristianlıq, İslam, buddizm, manixeizm, mitraizm, məzdəkizm, taoizm) mənsubu, tərəfdarı və təbliğatçıları olublar. Onlar qəbul etdikləri dinlərin hamısına öz damğalarını vurublar. Manixeizm özünün qızıl əsrini Uyğur xaqanlığı dövründə yaşayıb. Buddizm türklər vasitəsilə dünya dininə çevrilib. Xristianlıq türklərin sayəsində din kimi yox olmaqdan xilas olub. İslam mədəniyyəti türklər tərəfindən dünya mədəniyyətlərinin zirvəsinə çıxarılıb. Dinlər tarixində mənsub olduqları din uğrunda ən çox savaşan və ən çox şəhid verən xalq da türklərdir. Təqribən min ildən çoxdur ki, türklərin əsas dini İslamdır. Türklər İslam dinini qəbul etməklə kifayətlənməyib, İslam mədəniyyətinin formalaşmasında və inkişafında aparıcı rol oynayıblar. Uzun əsrlər boyu Asiya, Avropa və Afrika qitələrində İslamı türklər təmsil ediblər.

Tədqiqatçılara görə, türk inanc sistemi tenqriçilik, şamanizm, İslam, Uzaq Şərq dinləri, İran dinləri, xristianlıq, musəvilik, bütpərəstlik kimi inanclardan qidalanır. Amma bu iddia mübahisəlidir. Məsələn, Uzaq Şərq və İran dinləri dedikdə, burada coğrafi ərazi nisbi xarakter daşıyır. Çünki bu dinlərin və inancların formalaşmasında Çin, Hindistan və İran xalqları qədər türklərin də rolu



böyükdür. Konfutsizmin qədim türk inanc sisteminin əsasında yarandığını unutmamalıyıq. Qədim türk inanc sisteminin (*tenqriçilik*) totemizm, animizm və naturizm mərhələlərini keçərək formalaşması haqqında iddia isə özünü doğrultmayıb. Türklər qəbul etdikləri dinləri özününküləşdiriblər. Türklər müsəlmanlarla üç-dörd əsrlik münasibətləri nəticəsində "Türk İslamı" anlayışının yaranmasına səbəb olublar. Bu xüsusiyyət xristianlıq, musəvlik kimi digər səmavi dinlər üçün də xarakterikdir. "Türk xristianlığı" və "Türk musəviliyi" Türk İslamı qədər öyrənilmədiyindən, türklərin həmin dinlərə təsirləri tam olaraq aydınlaşdırılmayıb.

**Universalizm və dualizm**. Türk inanc sisteminin öyrənilməsində qarşıya çıxan ilk məsələ universalizm və dualizm problemidir. Türk inancının universalizm və dualizm təməlinə dayandığı problemini ilk dəfə köklü şəkildə Emel Esin öyrənmişdir. Esin mövcud yazılı mənbələrə əsaslanaraq, türklərin bəşər tarixində yaratdıqları ilk mədəniyyətin Çu mədəniyyəti olduğunu iddia etmişdir.

Çin kosmologiyasını tədqiq edən E.Esin qədim türklərin universal dünya anlayışına sahib olduqlarını qeyd edir. Qədim türklər kainatın bütün təzahürlərinin *göy və yer-su* tərəfindən təmsil olunduğuna və bunların bir-birinə əks iki qüvvə (*dualizm*) deyil, vəhdət təşkil etdiyinə (*universalizm*) inanırdılar. Göy və yer-su bir-birilərinin əksi olsa da, bir-birilərinə zidd deyillər. Bu anlayış Çin inanc sisteminə *yinq-yanq* kimi daxil olmuşdur. İki əks prinsipin vəhdəti türk inanc sisteminin *monist* təməlini təşkil edirdi. Bu anlayış türk dastanlarında, sosial və ailə həyatında da öz əksini tapıb. Göyün Tanrını, yerin isə şeytanı təmsil etdiyi inancı şamanizm və atəşpərəstlik vasitəsilə türk inanc sisteminə daxil olmuşdur.

**Göy Tanrı dini (*tenqriçilik*)**. Yazılı mənbələrdə türk dilində qeydə alınan ilk kəlmə *Tanrı* sözüdür. Tenqriçilik Göy Tanrı, təbiət və atalar kultu inancından ibarət dini sistemdir. Göy Tanrı inancını Yakut və Altay şamanizmi ilə eyniləşdirmək doğru deyil. Qədim türk inancında "göy və yerin əbədi olduğu" bildirilsə də, bu iki prinsip bir adla ifadə edilməyib. Tanrı isə "göy və yeri" tam ifadə etmir, əksinə, yaradıcısı hesab edilirdi.

Türk kitabələrində "insanın yuxarıda göy tanrı, aşağıda yağız yer yaradıldıqda onun ortasında yarandığı" fikri yer alır. Burada "yuxarıda göy tanrı" birbaşa tanrını deyil, "mavi göyü" ifadə edirdi. Belə ki, göy bəzən "göy tanrı" şəklində yazıldığı halda, Tanrı tək halda ifadə edilmişdir. Amma yaradılışın "yoxdan yaratma" mənasında olub-olmadığı türk kitabələrində öz əksini tapmayıb. Kitabələrdə yer alan *"Tenqri kimi tenqridə olmuş Türk Bilgə xaqan"* ifadəsində türk hökmdarının Tanrıdan aldığı ilahi bir qüdrətə sahib olduğu düşüncəsi ön plana çıxır. Bu düşüncə "Türklərdə hakimiyyətin müqəddəs olduğu inamının" əsasını təşkil etmişdir. Bu anlayış həm yer (təbiət), həm də atalar kultunun yaranmasında başlıca amildir. Çünki yer üzərində varlıqların yaradılması səbəbindən təbiət və Göy Tanrıdan ilahi xoşbəxtlik aldığı üçün atalar müqəddəs hesab olunurdular. Belə olan halda tenqriçilik dininin əsasını təşkil edən Göy Tanrı, təbiət və atalar, əslində, bir tərkibin parçaları qəbul edilməlidir.

Qədim türk kitabələrində bütün yaradıcı məfhumlarda "Tanrı"nın adı xüsusilə qeyd olunur. *"Tanrı qüdrət verdiyi üçün atam xaqanın əsgərləri qurd kimi idi"*, *"Tanrı belə buyurduğu üçün dövlətlini dövlətsiz etmiş, xaqanlını xaqansız etmiş"*, *"Yuxarıda göy (Tanrı) çökmədikcə"*, *"yuxarıda Tanrı, müqəddəs yer-su"* kimi misallarda bu söz açıq şəkildə əksini tapır. Tanrının sifəti kimi kitabələrdə hər zaman *üzə* kəlməsi qeyd edilir. Uyğur mətnlərində bu kəlmənin yerini "iduk" alır. Səlcuqlu dövründə isə artıq Tanrı üçün "uluğ" ifadəsi işlədilir.



"İduk" kəlməsi Kaşğarlı Mahmudun divanında *"izuk"* kimi keçir və bunun "sahib, hakim, mütləq, tanrı" mənasında qədim *İzi* olduğu qeyd edilir. "İzi" kəlməsi dilimizdəki "ide-ite-iye", yəni "yiyə" (sahib) sözünün ilk formasıdır. Bir növ üçlü tərkibdən ibarət olan bu dini anlayış türk xristianlığında və manixeizmdə "Tanrı-Aləm-Ruh", qızılbaş-bektaşilikdə "Allah, Məhəmməd, Əli" şəklini almışdır. Ruhun seçilmişliyi və bədəndən əvvəl yaradıldığını əsas götürən *"Tanrıda olmaq"* düşüncəsi tenqriçilikdə atalar kultunun yaranmasında əsas amildir. Göytürk xaqanlığının banisi Bumın xaqan *"Tanrı kimi Tanrıda olmuşdur"*. Bu proses *qut* (ku-tu – ilahi səadət) vasitəsilə gerçəkləşir. Qut, ancaq Tanrıya məxsusdur və onun tərəfindən bəxş edilir. Türk hökmdarları Tanrı tərəfindən verilmiş qut sayəsində hökmdar olmuşlar. Bu inanc türklərin İslamı qəbul etməsindən sonra da davam etmişdir. Əmir Teymur – *"Göydə Tanrı bir olduğu kimi, yerdə də hökmdar birdir"* – deyirdi. Qədim türk inanc sistemində Tanrı "ata" (baba) hesab edilməmişdir. Tanrının "ata" qəbul edilməsi inancı xristianlığın təsiri ilə formalaşıb. Dilimizdə yer alan *"Allah baba"* ifadəsi xristianlığın təsirindən xəbər verir. Hökmdarlar Tanrıdan ilahi səadət alsalar belə, onlar əsla "Tanrının oğlu" hesab edilməyiblər. Amma qut sahibi birinin tərk edilməməsinin gərəkliyi ifadəsi mövcuddur. Orxon kitabəsində – *"Qut almış Bilgə xaqanı tərk etməyin"* – deyilir. Bunun kimi "Tenqri xan" anlayışı da mövcuddur. *"Tenqrim kanım"* anlayışı İslamdan əvvəl və sonrakı dövrlərdə türklərin hökmdarlarını "ilahi qüdrətə sahib varlıq" (*zillullah*) olaraq görmələrinə səbəb olmuşdur. "Tanrı xan" titulu "Tanrıdan qut almış hökmdar"ın varlığına işarədir. Osmanlıda padşah "Allahın kölgəsi"-dir. Bütün bunlar qədim türk inanc sistemindəki *"tenqri kanım"* inancının təzahürləri idi.

Vəhyə əsaslanan kitablı dinlərdəki "Tanrının birliyi" anlayışının qədim türk inanc sistemində necə və hansı

proseslərin nəticəsində ortaya çıxdığını müəyyən etmək indilik qeyri-mümkündür. Türklər inanc sisteminin təməlində yer alan bu anlayışı hər zaman qorumuş və qəbul etdikləri dinləri də bu təməl əsasında qavramışlar. Türk inanc sistemində heç bir zaman Tanrıya şərik qoşulmamış və o, mütləq güc olaraq qəbul edilmişdir. Müasir türkoloqların bu inanc sistemini "köçəri mədəniyyət"inin və ya "atlı-çoban mədəniyyəti"nin dini hesab etməsi inandırıcı deyildir. Çünki köçəri bir mədəniyyətdə mükəmməl qaydada varlıq və yaradıcı aləm anlayışının mövcudluğu mümkün deyildir. Bəlkə də türk inanc sistemində yer alan "əks qütblərin birliyi" kimi, türklərin həyat tərzi də oturaq və köçəri həyatın birliyində öz əksini tapmışdır. Türklərin şamanist olaraq düşünülməsinin başlıca səbəbi türk inanc sistemindəki üçlü tərkibin bir parçasını təşkil edən təbiət kultu olmuşdur. Amma şamanizm və totemizmdən fərqli olaraq, türklərdə təbiət güclərinə sitayiş olunmurdu. Əslində, təbiət kultu yer və göy olaraq ikili sistemə tabe idi. Türklər təbiətdə canlı və cansız bütün varlıqların sirli gücə sahib olduğuna inanırdılar. Demək olar ki, türk inanc sistemində cansız varlıqlar yoxdur. Mövcud olan hər şeyin ruhu vardır.

*Yir-Suv* (yer-su) anlayışı təbiət kultunun əsasını təşkil edirdi. Var olan hər şey yaradılış etibarilə göy və yerə bağlıdır. "Oğuz xaqan" dastanında Oğuz xanın dörd oğlu göyü, iki oğlu yeri təmsil edirdi. Türk inanc sistemində göy də təbiət kultunun bir parçası idi. Yəni "aləm" anlayışı göy-yer-suyun birliyində təzahür edirdi. Buna görə də göydəki varlıqlar (günəş, ay, ulduzlar, ildırım və s.) və yerdəki varlıqlar (su, ağac, dağ, heyvanlar və quşlar) müqəddəs idilər. Yəni onlar ilahi sirrin mesajını əks etdirirdilər. Amma türklər müqəddəs hesab etsələr belə, bu varlıqlara sitayiş etməyiblər.



**Mitraizm.** Mitraizmin mənşəyi bilinmir. Orta Asiya mərkəzli din olduğu qəbul edilir. Bu inancın ari (Hind-Avropa) mənşəli olması haqqında fikirlər mübahisəlidir. Çünki mitraizmdə yer alan bəzi əsaslar türk inanc sistemində olsa da, həmin əsaslar hind-avropalı xalqların inancında yoxdur. Mitranın "mihr/mehr" kökündən "dost, aydınlıq" mənasına gəldiyi haqqında fikir də mübahisəlidir. Avestada mələk olaraq təsvir olunan Mitra, hinduizmdə tanrıdır. Bütün böyük inanclara təsir edən mitraizm ən çox xristianlığa və müsəlmanlığa təsir etmişdir, "qiyamət, sirat körpüsü, bərzəx aləmi, cənnət, cəhənnəm, mizan, savab, günah" təsvirləri mitraizmlə yaxından bağlıdır. Mitranı Allahla insanlar arasında vasitəçi sayan qədim inancdakı Mitranın yerini ələvi-qızılbaş-bektaşilik inancındakı Əli almışdır. Şiə məzhəbinin İmam Əliyə baxışında mitraizmin təsirləri açıq şəkildə özünü biruzə verir. Şiəlikdə Əli ilə Mitra birləşərək, "Mihri Əli" anlayışının yaranmasına səbəb olmuşdur. Zərdüştlük – mitraizmdə aparılan dini islahat formasıdır. Zərdüştlük və məzdəkizmdə "mitra" təsəvvürü bir çox mərhələlərdən keçdiyi üçün mitraizmin əsasını müəyyən etmək çətindir. E.ə.III minillikdən əvvəl formalaşdığı iddia edilir. Mərkəzində işıq (günəş, atəş) olan mitraizmin buzlaşma dövrünün son mərhələsini yaşayan insanların inanc sistemi olduğuna şübhə yoxdur. Mitraizm hər hansı bir xalqın deyil, bir çox xalqların (turani, irani, hind və avropalı) ortaq inancı olmuşdur. Türk inanc sistemində mitraizmin güclü əsasları vardır. Türklər qədim hind-avropalılardan fərqli olaraq, işıq və qaranlığı dualist şəkildə deyil, universalizm olaraq qəbul ediblər.

Qədim türk inanc sistemində mitra müharibəni təmsil edir və əjdaha (ilan) olaraq simvollaşıb. Türk qılıncının mənşəyində mitra (atəş) təsəvvürü yer alır. Skiflərdəki "qılınc heykəli" (Aresin qılıncı), hunlardakı "Attilanın qılıncı", hətta Koroğlunun "Misri qılıncı" mitra anlayışına dayanır.

**Taoizm.** Çin mənşəli inanc və fəlsəfə sistemi olan taoizmin banisi Lao-tse *(Laozi; e.ə.IV-e.ə.II əsrlər arasında yaşadığı iddia edilir)* idi. Saray məmuru Lao-tse ömrünün axırlarında guşənişin olmuş, həyatını hikmətə həsr etmişdir. Hətta Çin mənbələrində onun Türküstana getdiyi, Maninin ulu babası olduğu da yer alır. Taoizmin kitabı *"Tao te çing"* (*Həqiqət və fəzilət ktiabı*) adlanır. Amma bu əsərin Lao-tseyə aid olmadığı aydındır. 81 fəsildən və 5 min kəlmədən ibarət olan kitab ümumilikdə Tao və Tedən bəhs edir. Hər iki termin siyasi, sosial, metafizik və əxlaq düsturlarını ifadə edir. Hərfi mənada Tao *"yol, həqiqət, üsul və doğru yol"*, məcazi mənada isə *"kainatın əvvəli"* deməkdir. Te isə *"fəzilət, kamal, qüdrət"* mənalarına gəlir. Te, əslində, Taonun insandakı təzahürüdür.

Taozim bəzi cəhətlərinə görə, naturist (təbiət) inanc formasıdır. Kainatda əbədi nizam olduğunu deyən taoizm yaşanan hər şeyin bu nizamın ifadəsi olduğuna inanır. Tao hər şeyin əvvəli olan birdir. Bir olandan dünya yaranır və beləcə, *yinq-yanq* deyilən dualist prinsip əmələ gəlir. İkilikdən isə çoxluq zühur edir. *Yanq* – kişi və göyü, *yinq* isə dişi və yeri ifadə edirdi. Bunlar əks qütblər olsa da, zidd deyillər və vəhdət təşkil edirdilər.

Taoizmi qədim türk inanc sisteminə yaxınlaşdıran əsas prinsip də bu anlayışdır. Taoizmin əsas prinsipi ölümsüzlüyə çatmaqdır. Təməl prinsiplərinə görə, İslam panteizminə (*vəhdəti-vücud*) oxşayan taoizm sufi məktəblərinə dərindən təsir etmişdir. Taoizmin bəzi prinsipləri türklər vasitəsilə İslam təsəvvürünə daxil olmuşdur. Hətta hikmət axtaran tao dərvişləri şaman kimliyinin yaranmasında da təsirli olmuşdur. Taoizmin İslam sufi təfəkkürünə təsir edən ən mühüm prinsipi "kamil insan" (*ənəl-həq*) anlayışıdır. Hürufilikdə bu anlayış özünün ən ideal şəklini almışdır. Türklər arasında IV əsrdən etibarən taoizmə maraq artmağa başladı. Hətta Göytürk xaqanı Bumının bu inanc sistemi ilə yaxından maraqlandığı qeyd edilir.



**Konfutsilik.** Konfutsi e.ə.551-ci ildə orta səviyyəli zadəgan ailəsində dünyaya gəlib. *Lun-yü* (Konfutsinin söhbətləri) onun tələbələri tərəfindən inanc-fəlsəfə sisteminə çevrilmişdir. Başlıca olaraq, dövlət idarəsi, əxlaq, sosial sistem, din və ideal insanı tərənnüm edən lun-yülər, bir növ, ideal cəmiyyət axtarışındadır. Çinin ənənəvi üç dinindən biri hesab edilən konfutsiliyi din adlandırmaq mübahisəlidir. Konfutsinin özünün də belə iddiası olmayıb. Onun yeganə məqsədi ölkəsini əvvəlki nizam-intizamına qovuşduracaq düşüncəni formalaşdırmaq idi.

Konfutsi fəlsəfəsinin təməlində dünyanı müsbət olaraq qəbul etmək fikri var. Bəşəri varlığın təmiz və saf tərbiyə ilə mükəmməlləşəcəyini müdafiə edən Konfutsi fəlsəfəsi, əslində, nə din, nə fəlsəfə, nə də mifologiyadır. İdealist cəmiyyət anlayışını tərənnüm edən konfutsilik özünü "yol" kimi təqdim edir. Bu yol yer-göy arasında orta yoldur (tao). Konfutsi insanla göy arasında birbaşa əlaqənin və təsirin olduğunu ifadə edir. İnsanın təyin edilmiş nizamın kənarına çıxdığı zaman xaosun başlayacağı iddiasını irəli sürür.

Konfutsizmin türk inanc sistemində yer almasının başlıca səbəbi də bu düşüncənin təbiət anlayışına əsaslanmasıdır. Hətta türklər vasitəsilə manixeizmə də təsir edən konfutsiliyin "seçilmişlər" nəzəriyyəsi ilə maniçiliyin "seçilmişlər" anlayışı eynidir. Bu anlayış manixeizm vasitəsilə İslam fəlsəfi və təsəvvüf anlayışında "*havas*" fikrinin yaranmasına səbəb olmuşdur. Konfutsi qanunların, nizamın və sistemin yüksək təbəqəyə aid olduğunu iddia edir.

Qədim türk inanc sisteminin təsirilə "Tanrı qut" anlayışını Konfutsi Çin dövlət fəlsəfəsinə uyğunlaşdırmış, beləcə, "Tanrı-imperator" anlayışını yaratmışdır. İmperatoru "göyün oğlu" hesab edən konfutsilik çinlilərin zehnində imperatoru müqəddəsləşdirmişdi. Çünki nizam və düzəni imperatorluğun davamlılığında görən Konfutsi *hsiao* (göyün yolu) prinsipini əsas alır. Konfutsi inancının türk inancı əsasında yarandığını isbat edən əsas cəhət Çinin

“matriarxal” sosial sisteminin qarşısına “patriarxal” sistemi çıxarmasıdır. Kişini ailədə mütləq gücə çevirən Konfutsi, bu nizamı pozanların “göy tərəfindən cəzalandırılacağını” bildirmişdi.

**Buddizm**. *Qotama* ləqəbli skif mənşəli ailəyə mənsub Budda *(Siddhartha Gautama; e.ə.VI-e.ə.V əsr)* e.ə.560-cı ildə Şimali Hindistanın Kapilavuttu şəhərində dünyaya gəlib. Atası skif əsilzadələrindən idi. Buddanın yaratdığı dini sistem mistik təməllərə söykənir. Dörd mərhələli həqiqət təsəvvürü dünyəvi çətinliklərin və əzabın xilasıdır.

Buddaya görə, doğulmaq iztirabdır və bu iztirabı arzu (hissiyyat, cinsi zövq), qocalıq, ölüm kimi iztirablar təqib edir. Bu iztirabların sonu yoxdur və insan dünyada yaşadığı müddətdə bu proses davam edəcəkdir. İnsan iztirablardan, ancaq arzu hissini söndürərək xilas ola bilər. İztirabların sona çatdığı yer isə *“nirvana”*dır. Nirvana bədənin olmadığı yerdir. Buddizmdə tək bir Tanrı məfhumu yoxdur. Büyük bir tanrılar iyerarxiyası, illahlar, mələklər sistemi vardır. Xilasa çatmanın yolu ilhamdır. Buddizmdə dua və niyaz yoxdur, bunun müqabilində idrakla məşğuliyyət vardır.

Pali dilində “dhamma” adlanan Buddanın təlimləri “qanunlar təkərini (çarxını) çevirmək” mənasına gəlir. Bu məqsədlə də təkər (çarx) buddizmin simvoludur. Zəngin həyatla yoxsulluq arasında orta yolu əsas götürən Budda xilasın, hikmətin və ərdəmin orta yolda olduğunu iddia edir. Əslində, buddizm caynizm, ajivika və brahmanizmə qarşı olan təlimdir. Buna görə də Buddanın təlimləri brahmanlar tərəfindən “kafirlik” hesab edilib. Buddizm də brahmanizmin təsirli olmadığı Şimali Hindistandakı skif bölgəsində yaranmışdır. Buddizm həyatın, kainatın başlanğıcı məsələlərini fikirləşməz, əksinə, dünya həyatında mənəvi yüksəlişi əsas götürər.



Buddizm inancına görə, Buddadan əvvəl 24 budda olub. Son budda 25-ci olan Siddhartadır. Ondan sonrakı budda isə Metteyyadır. Budda sarayı tərk edib bir əncir ağacının altında təfəkkür mərhələsi keçirmiş, zühd həyatını mənimsəmişdir. Əncir ağacının altında olarkən ona ilk yemək gətirən adam bir tacir olduğundan buddizm tacirlər, əsnaflar üzərində daha təsirli olmuşdur. Onun ilk həvariləri də tacirlərdir. Buddizmin əsasında təbliğat yolu ilə missionerlik etmək vardır. Dünyanın ilk dini təbliğat inanc sistemi olan buddizmin imperator Aşoka dövründə *(e.ə.273-e.ə.236)* keçirilən üçüncü sinoddan sonra dünyaya yayılmasına qərar verilmişdir. Yayıldığı ərazilərdən biri də türklərin yaşadığı geniş ərazi idi.

Buddizmin türk inanc sistemi üzərində güclü təsiri olmuşdur. Buddizmin başlıca iki məzhəbi Hinayana və Mahayana türklərə təsir etmişdir. Türklər daha çox Mahayana məzhəbi ilə maraqlanmışlar. Türklər Hinayananı “kiçiq könlünqü” (kiçik gəmi), Mahayananı isə “uluğ könlünqü” (böyük gəmi) adlandırırdılar. Buddistlər fərdi kamilliyi əsas götürdüyü üçün “kiçik gəmi” təlimini qəbul edirlər. Türklər isə əksinə, Mahayananı əsas götürüblər və buna səbəb həmin məzhəbin universalizm anlayışı ilə yaxınlığıdır. Burada qədim türk inanc sistemindəki Göy Tanrı kultu *Burkan kultu* olaraq öz əksini tapmışdır.

Buddizm Abar xaqanlığı dövründə *(350-550)* türklər arasında yayılmağa başladı. Abar ölkəsində buddist rahib Fa-ai 3000 ailənin vergisini vəqf olaraq öz adına toplayırdı. Mənbələrdə Göytürk ölkəsinə gələn buddist rahib Jinaquptanın fəaliyyətlərindən bəhs edilir. Çində buddizmi yayanlar məhz türklər olublar. Çində yaranan türk dövləti Tabqaç xaqanlığı *(350-550)* buddizmi rəsmi din halına gətirdi.

Buddizm manixeizmin ortaya çıxmasına qədər türklər arasında sürətlə yayılmışdır. Amma manixeizm qarşısında nüfuzunu itirməyə başladı. Göytürk xaqanları Muğan

*(553-572)* və Tobanın *(572-581)* bu dini qəbul etdiyi qeyd edilir. Hətta Toba xaqanın buddizmi öyrənmək məqsədi ilə *"Nirvana-sutra"*nı türk dilinə tərcümə etdirdiyi bildirilir. Göytürklərin Bəlxdə yaranan Tiginlər dövləti (Bəlxşahilər) buddizmi rəsmi din olaraq qəbul etmişdilər.

Türklər vasitəsilə buddizm Xorasanda geniş yayılmışdı. Türklərin İslam anlayışı üzərində buddizmin geniş təsirləri olmuşdur. Xüsusilə də Xorasan mərkəzli sufi-təsəvvüfi məktəblər buddizmin dərin təsiri altında idilər. Xorasan, Azərbaycan və Anadoluda geniş müsəlman kütlələrə təsir edən məlamilik, qələndərilik, hətta qızılbaşlıq və bektaşilik buddizmdən aldıqları inancları Türk-İslam inancı içində yerləşdirmişdilər. Türk təsəvvüf anlayışında yer alan tənasüh (reinkarnasiya), hülul (enkarnasiya), şəkil dəyişdirmək (don dəyişdirmək – metamorfoz), havada uçmaq (levitasiya) kimi mistik hallar birbaşa buddizmdən qaynaqlanır. Buddizm xürrəmilik, hürufilik, babailik, ələvilik, qızılbaşlıq kimi inancların ayrılmaz tərkib hissəsi olacaq qədər təsirli idi.

**Şamanizm**. Qədim türk inanc sisteminin şamanizm olması fikri V.Radlov tərəfindən aktuallaşdırılıb. Türk və dünya xalqlarının şamanist təfəkkürü G.Nioradze *(Georg Nioradze; 1886-1951)*, A.Ohlmarks *(Ake Joel Ohlmarks; 1911-1984)*, D.Zelenin *(Дмитрий Константинович Зеленин; 1878-1954)*, V.Basilov *(Владимир Николаевич Басилов; 1937-1998)* və M.Eliade tərəfindən geniş şəkildə tədqiq edilib. Aparılan çoxsaylı araşdırmalar şamanizmin mənşəyini hələ də tam olaraq təyin edə bilməyib.

Ən qədim inanc sistemi qəbul edilməsinə baxmayaraq, *şaman* adı ilk dəfə IX əsr Tanq dövrü çincə salnamələrdə keçir. XI əsrdə İbn Sina *(Əbu Əli Hüseyn ibn Abdullah Həsən ibn Əli ibn Sina; 980-1037)* və Mərvəzi vasitəsilə İslam mənbələri bu termini işlədib. Kəlmənin mənşəyi isə məchuldur. Rusların tunquzlardan eşitdikləri *şaman* adı



daha sonra Avropa dillərinə keçmişdir. Uzun illər kəlmə tunquzca hesab edilmişdir. Yakutların *ojun* (oyun, *udojan* – qadın şaman), monqolların *bögü* və *udagan*, digər türk xalqlarının isə *kam* adlandırdıqları şaman sözünün Hind-Pali dilində *samana* olduğu iddia edilir.

Klassik mənbələr bu kəlməni "sehrbaz" mənasında izah edirlər. Türk inancını şamanizm adı altında köklü şəkildə A.İnan tədqiq etmişdir. Amma A.İnanın tədqiqatından da aydın olduğu kimi, türk inanc sisteminin şamanlıqla uyğun olmayan cəhətləri həddindən artıqdır. Buna diqqət çəkən H.Tanyu *(Hikmet Tanyu; 1918-1992)* kəskin şəkildə "türklərdə şamanizm deyilən bir din" olmadığını iddia etdi. Onun fikrincə, nə şamanizm, nə də kamlıq deyilən bir din yoxdur. Türk inanc sisteminin ən böyük tədqiqatçılarından J.P.Ru tenqriçiliyi şamanizm adlandırmasa da, şamanizmlə oxşarlıqlarını da inkar etməmiş və bunu din deyil, bir növ, dini həyat tərzi hesab etmişdir. İslam mənbələrində şamanizm *şamaniyyun*, *şemenan*, *şemeniyyə-səməniyyə* və digər oxşar adlarla qeyd edilir. Türkmənistan, Xorasan, Azərbaycan və Anadolu türklərinin yaddaşında şaman kimliyi *bakşı/baxşı* olaraq qalıb. Türkmənlərdə bu ad *aşıq* mənasına da gəlir. Anadolu türkləri bu adı *ozan* şəklində qəbul edərkən, Azərbaycanda *baxıcı* adı falçıları ifadə edir.

E.ə.XV-XI minilliklər arasında Altay dağlarından başlayıb Mərkəzi Asiya, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Azərbaycandan keçərək Anadolunun mərkəzinə qədər uzanan geniş ərazidə tapılan 500 mindən çox qayaüstü rəsmlərdə şaman motivlərinin bolluğu bu dini-inanc sisteminin varlığı fikrinin yaranmasında başlıca amil olmuşdur. Amma təbiət kultuna dair bütün motivləri şamanizmlə açıqlamaq səhvdir. İlk dəfə Vilhelm Koppers *(Wilhelm Koppers; 1886-1961)* və M.Eliade kimi tədqiqatçılar "yuxarıda xeyir, aşağıda şər qüvvələrin varlığına söykənən dualist anlayışa sahib şamanizmin Orta Asiyaya cənub bölgələrindən gəldiyi" fikrini dilə gətirdilər. A.Y.Ocaq

*(Ahmet Yaşar Ocak; d.1945)* "IV-V əsrlərdən əvvəl Orta Asiyada şamanizmin bilinmədiyini" iddia etdi. Amma hər üç araşdırmaçı ortaya atdıqları bu iddialarını tam sübut edə bilməyiblər. Şamanizm – mərkəzində şamanın yer aldığı bir dini rituallar sistemidir. Şamanın əsas xüsusiyyətləri aşağıdakılardır:

1. Sehrbazlıq;
2. Xəstəlikləri sağaltmaq (qədim türklər bu səbəbdən onlara *otaçı* deyirdilər);
3. Qeyb aləmindən və gələcəkdən xəbər vermək;
4. Ruhun bədəni tərk etməsi və yenidən qayıtması kimi mistik metodikaya sahib olmaq;
5. At üstündə göyə çıxıb (merac) Tanrı ilə ünsiyyət yaratmaq;
6. Təbiət güclərinə istədiyi kimi hökm etmək;
7. Alova qarşı dözümlülük nümayiş etdirmək;
8. Ölmüş heyvanları sümüklərindən yenidən diriltmək;
9. Qadın-kişi mərasimlərini təşkil etmək;
10. Taxta qılıncla döyüşmək.

Bu xüsusiyyətlərin hamısına türk inanc tarixinin sonrakı mərhələlərində rast gəlirik. Türk-İslam mistik təfəkküründə şeyxlər, müridlər, sufilər, övliyalar, dərvişlər, qələndərlər və qızılbaş dədələri şamana aid olan bütün bu xüsusiyyətlərə sahibdirlər. Amma şaman kimliyinin formalaşmasında vəhy mərkəzli bir inancın təsirli olduğu diqqəti çəkir. Qeybdən xəbər vermək, xəstəlikləri sağaltmaq, merac, təbiət güclərinə hökm etmək, alovda yanmamaq, ölən heyvanları sümüklərindən diriltmək peyğəmbərlərə məxsus möcüzələr olub, hər hansı bir ibtidai dinin bu təkamül mərhələsinə çatması sual altındadır. Qənaətimizcə, şaman kimliyinin yaranmasında manixeizmin güclü təsiri olmuşdur. Çünki şaman obrazının arxasında bir mani xarakteri özünü biruzə verir. Şamanın həyat tərzi, mistik gücü, insanlara şəfa verməsi, güclü musiqi duyumu və bunu icra etməsi manilərin mistikası ilə səsləşir.



**Manixeizm**. Skif-parf əsilli Maninin *(216-274/277)* yaratdığı din, bir növ, xristianlığın buddizm, tenqriçilik, zərdüştlük, mitraizmlə sintez edilmiş formasıdır. Qnostik düşüncə tərzini mərkəzə yerləşdirən manixeizm qədim Mesopotamiya və Anadolu inanclarını da senkretizm halında özündə birləşdirmişdir. Manixeizm xristianlığın "Parfiya təfsiri"dir. Türk inanc sistemində manixeizmin təsiri mənbələrin verdiyi məlumatlarda bizə görə, daha böyük və güclü olmuşdur.

Parfiya kimliyinin qədim türk kimliyinin Orta Şərqdəki davamı olması, Parf mədəniyyətinin qədim Qərb və Şərq inanclarını, dillərini, insanlarını bir mədəni kimliyin çətiri altında toplaması manixeizmin senkretizm ruhunu qidalandırmışdır. 370-ci ildən etibarən Sasani ölkəsindən qovulub çıxarıldıqları zaman maniçilər türk torpaqlarına yayıldılar. Anadoluda *boqomilizm*in yaranmasına səbəb olacaq uzun tarixi proses keçirərkən, Azərbaycanda xristianlığı öz təsiri altına alaraq pavlikian hərəkatının, borboritliyin bünövrəsini qoydular. Orta Asiyada Uyğur xaqanlığının rəsmi dininə çevrilərək böyük türk-manixeist mədəniyyətin yaranmasına şərait yaratdılar.

**Xristianlıq**. Türklər xristianlıqla Parfiya *(e.ə.250-e.224)* ərazisində tanış oldular. Parfiya xristianlığı İsanın vəhy anlayışına yaxın xristianlıq olduğundan Qərb xristianlığı tərəfindən hər zaman rədd edilmişdir. İsanın vəfatından sonra, xüsusilə də, 70-ci ildən etibarən Parfiya dövləti Roma ölkəsindən qovulan nəsrani-xristian kütlələrə qucaq açmış və onları himayə etmişdir. Bu, Parfiya ölkəsində xristianlığın sürətlə yayılmasına səbəb olmuşdur. Parfiya Qərb xristianlığı içində yaranan qnostik-monoteist cərəyanlara da (nəsranilik, ariusçuluq, bardeysançılıq, titisanusçuluq, markionizm və s.) ev sahibliyi etmişdir.

İsanın həvarilərindən Tadayın (Faday) skif-parf əsilli olması ehtimalı yüksəkdir. Sinoptik İncillərdə adı ancaq

bir dəfə qeyd edilən Faday, Urfadan Qüdsə getmiş, əvvəlcə Yəhyanın, daha sonra İsanın tələbəsi olmuşdur. İsa tərəfindən də 12-lər arasına daxil edilmişdir. 44-60-cı illər arasında Parfiya ölkəsində yaşadığı və xristianlığı təbliğ etdiyi qeyd edilir. Fadayın Parfiya ölkəsində rahat təbliğat apardığı, onun vəfatından sonra Ərbildə (İraq Türkmən diyarı) parf əsilzadə ailələrinin ona rəğbət bəslədiyindən aydın olur. Xristianlıq təhsili üçün Urfaya gedən Titian *(110-180)* və Bardaysan *(154-222)* da Ərbildəki parf əsilzadə ailələrinə mənsubdurlar. Xristianlıq ilə qnostizm arasında vəhdət olduğuna inanan Titian və Bardaysan süryani dini ədəbiyyatının memarları hesab edilirlər.

Xristianlıq Parfiya türkləri arasında geniş yayılmışdır. Hələ IV əsrdə İncilin türk dilinə tərcümə edildiyi süryani mənbələrində qeyd edilir. Xristianlıq Anadolu və Azərbaycandan Monqolustana qədər gedib çıxdı. Orta Asiyada türk-nəsturi camaatları yarandı. VIII əsrə aid Suyab xarabalıqlarında bir kilsə və xristian qəbiristanlığı tapılmışdır. Xəzərlər arasında da kifayət qədər xristianlar yaşayırdı. Hətta Zəkəriyyə Qəzvini *(Zəkəriyyə ibn Məhəmməd ibn Mahmud əl-Qəzvini; 1203-1283)* Böyük Səlcuqlu dövlətinə tabe olan oğuzların xristian olduqlarını qeyd edir. Z.V.Toqan oğuzların xristianlığı fikrini rədd etsə də, əl-Biruni oğuzların ölkəsində (Sırdərya ətrafında) bir qayada İsa peyğəmbərin diz və əllərinin izinin olduğunu və oğuzların bu qayanı müqəddəs saydıqlarını yazır. Səlcuq bəyin oğlanlarının adları (Mikayıl, İsrayıl, Musa, Yusif) İncildən alınmışdır.

Şimali Qaradəniz bölgəsində məskunlaşan uz/oğuz, tork, qıpçaq, peçeneq, bərəndey, qarapapaq adlı türk tayfaları arasında xristianlığı qəbul edənlər vardı. XI əsrdə Gürcüstan və Artvin-Çıldır bölgəsinə köç edib məskunlaşan və burada Qıpçaq Atabəyliyi dövləti *(1155-1517)* yaradan qıpçaqların kütləvi halda xristianlığı qəbul etdiyi bildirilir. XI əsrin ortalarında Şərqi Monqolustanı tərk edərək



Sırdərya çayı ətrafına köç edən və burada Oğuz Yabqu dövlətinə son qoyan hun/qun və kay tayfalarının nəsturi olduğu məlumdur.

**Musəvilik**. Türklər arasında musəvi (yəhudi) dini də yayılmışdır. Xəzər xaqanlığının rəsmi məzhəbinin musəvilik olduğu iddia edilir. Şabran və Dağıstan bölgəsində mövcud olan Hun xaqanlığında musəvilərin məskunlaşdığı haqqında məlumatlar mövcuddur.

Türklər İslam dinini kütləvi halda VII-XI əsrlər arasında qəbul etdilər. Bu tarixə qədər türklər bütün dinlərlə əlaqə yaratmaqda tərəddüd etməmiş, hətta bu dinləri dövlət səviyyəsində rəsmən qəbul etmişdilər. Uyğur xaqanlığı buddizm, manixeizm və xristianlığı rəsmi din elan etmişdir. Xəzərlərin musəviliyi rəsmiləşdirdikləri qeyd edilir. Toba/Tabqaç xaqanlığı buddizmi rəsmi din elan etmişdir. Bəlx Tiginlər xaqanlığı da buddizmi rəsmi din elan etmişdir. İslam dinini ilk dəfə Volqa Bulqar dövləti *(920-ci illər)*, daha sonra isə Qaraxanlılar *(943-cü il)* rəsmi din elan etdilər. Hər iki dövlət İslam dünyasının xaricində mövcud olmuşdur. Onlara qədər İslam dünyası daxilində Sacilər, Tulunilər, İxşidilər, Simcurilər, Qəznəvilər kimi bir sıra müsəlman-türk dövlətləri yaranmışdı.

Türklər İslam dinini qəbul edərkən özlərinin əvvəlki inanc sistemlərini də qorudular və İslam dini çərçivəsində öz qədim inanclarına yeni forma və şəkil verdilər. Bu təsir "Türk İslamı" adlanan din anlayışını təşkil edəcək dərəcədə güclü olmuşdur. Türklər, demək olar ki, müsəlmanlaşmadan əvvəl sahib olduqları bütün dini inanc formalarını, simvollarını, motivlərini və rəmzlərini özlərinin İslam təsəvvürlərinin tərkibinə daxil etmişdilər.



# 6.2. İSLAM

İslam səmavi dinlərin sonuncusu olaraq ortaya çıxdığı 610-cu ildən bu dinin elçisi Məhəmməd peyğəmbərin vəfat etdiyi 632-ci ilə qədərki 22 illik dövr ərzində Ərəbistan yarımadasında qalıcı bir iz buraxdı. Təməldə altı imani, beş İslami şərtin qəbulu üzərinə qurulan İslam həyat tərzi, dünyaya baxışı, prinsipləri və münasibətləri baxımından mövcud dinlərin ən asanı və rahatı hesab olunur.

İmani cəhətdən altı prinsipin qəbulunu Məhəmməd peyğəmbər insanın varlıq olaraq yaradılışı baxımından həyati şərti hesab etmişdi:

- Allahın birliyinə inanmaq;
- Mələklərə inanmaq;
- Allahın göndərdiyi kitablara inanmaq;
- Allahın seçdiyi peyğəmbərlərinə inanmaq;
- Axirət gününə inanmaq;
- Qəzavü-qədərin (xeyrin və şərin) Allahdan olduğuna inanmaq.



Bu prinsipləri İslam bütün insanlığın ortaq dəyəri və meyarı olaraq qəbul edirdi. Müsəlman olmaq bu prinsiplərin davamında İslamı yaşamağın və ona uyğun ibadət etməyin bir ölçüsü olaraq ortaya çıxmışdır. Yəni imani prinsip bütün insanlığın ortaq varlıq səbəbi qəbul edilərkən, alt prinsipdə bu imani şərtlərə uyğun həyat tərzi olaraq dinin 5 şərtinə bağlılıq nəzərə alınırdı ki, bu beş şərtin də ilki xaricində digər dördü insanın səhhət və maddi imkanlarına bağlı olaraq təyin edicidir:

- *kəliməyi-şəhadət*;
- *namaz*;
- *oruc*;
- *həcc*;
- *zəkat*.

İslamın kitabı olan Quran insanlara doğruluğu, yaxşılığı, haramdan uzaq olmağı, halalı seçməyi, qohum-əqrəba və qonşuluq haqlarına riayət etməyi, iffətli olmağı öyüd edirdi. Bu çərçivədə İslam dini, milli, irqi, dil və sosial mənsubiyyət fərqi qoymadan bütün müsəlmanları bir kimlik (ümmət) hesab edirdi. Həyatında bu dəyər və prinsipləri paylaşanlar həmin kimliyin mənsubu idilər.

Bu prinsiplər çərçivəsində İslam insanları Allahın ədaləti doğrultusunda yaşamağa, ali dəyər olaraq insanın ən ideal varlıq olduğuna (əşrəfi-məxluqat) inanmağa, başqalarının haqlarına hörmət etməyə və öz haqqını tələb etməyə təhrik edirdi.

## 6.2.1. Müsəlmanlaşma

Məhəmməd peyğəmbərin elçilik dövründə *(610-632)* Məkkədə başlayan müsəlmanlaşma prosesi, Məkkədəki İslam əleyhdarlarının sərt və amansız müqaviməti nəticəsində 622-ci ildə müsəlmanların kütləvi olaraq Mədinəyə hicrət etməsiylə yeni bir mərhələyə keçdi. Mədinədə başlayan

kütləvi müsəlmanlaşma, 630-cu ildə Məkkənin sülh yoluyla fəthiylə nəticələndi. Beləliklə, ilk müsəlman icması Mədinədə ortaya çıxdı və peyğəmbərin sağlığında Hicaz bölgəsini əhatə edən bir ərazini əhatə edirdi. Peğəmbərin vəfatından başlayaraq, 661-ci ildə Əməvilərin hakimiyyətə gəldiyi təqribən 30 illik dövrdə xülafeyi-raşidin (seçilmiş xəlifələr) tərəfindən idarə olunan müsəlman icması siyasi, hərbi, iqtisadi, mədəni və sosial baxımdan o qədər sürətlə inkişaf etdi ki, Misir daxil olmaqla, bütün Yaxın və Orta Şərqin ən böyük ictimai-siyasi gücünə çevrildi.

Müsəlmanlaşma, əsasən bütpərəstlərə hədəflənmiş bir inancdı. İslam fərqli, xüsusilə də *kitabi* qəbul edilən dinlərin mənsublarının sahib olduğu dini-ilahi dəyərlərə toxunmurdu. Ancaq xülafeyi-raşidinin hökm sürdüyü 30 illik dövrdə İslamın sosial-siyasi və insani münasibətlərdə yaratdığı böyük avantajlar insanların kütləvi halda bu dini qəbul etməsinə yol açdı. Nəticədə *müsəlman* icması içində iki kimlik əmələ gəldi:

- müsəlman ərəblər;
- ərəb olmayan müsəlmanlar (*məvali*).

661-ci ildə xəlifə Əlinin sui-qəsd nəticəsində öldürülməsi və hakimiyyəti Əməvi ailəsi adına Müaviyənin ələ keçirməsilə ərəblər ilə məvali arasındakı münasibətlərin balansı ərəblər lehinə pozuldu. Əməvi zehniyyətinə görə, İslam ərəblərə məxsus din olub, ərəb xaricindəki kimliklər itaət rejimində yaşamalıdırlar. Bu anlayış 100 illik Əməvi xilafəti dövründə *(661-750)* müsəlman ərəblərlə ərəb olmayan müsəlmanlar arasında böyük qarşıdurmalara, üsyanlara və iğtişaşlara səbəb oldu. Məvali adlanan geniş kütlə Əməvilərə qarşı hər siyasi-ictimai hərəkatın yanında yer alaraq, ərəb qövmiyyətçiliyinə qarşı şiddətli mübarizə apardı.

Əməvilərin ərəb qövmiyyətçi zehniyyəti və xəlifə Müaviyənin ərəb qəbilələrinə hakimiyyətə verdikləri hərbi-siyasi dəstək müqabilində hər il dövlət xəzinəsindən böyük sərmayə ayırması Xilafətin əsas əhalisini təşkil edən ərəb



olmayan müsəlman və qeyri-müsəlmanların amansız istismarına səbəb oldu. Əməvilər həmin ərəb qəbilələrini ələ keçirilən torpaqlara köçürərək bölgələrin idarəsini mülk olaraq onlara verdilər. Digər tərəfdən, Xilafətin mərkəz bölgəsində yerləşən Əməvi hakimiyyətinə qarşı çıxan ailələri ucqarlara sürgün edərək siyasi müxalifəti zəifl ətməyə başladılar. Sürgün və basqı siyasəti nəticəsində çox sayda Əhli-beyt tərəfdarı Xorasan, Azərbaycan, Şərqi Anadolu və Orta Asiyaya yayıldı, burada yerli xalqlarla dialoq yaradaraq, alternativ ictimai-siyasi güclərin ortaya çıxmasına yol açdılar. Əməvilərə qarşı Əlinin mirasını müdafiə ideologiyası ilə təşkilatlanan Abbasilər həmin kütlələri təşkilatlandırıb, 750-ci ildə Əbu Müslüm başçılığı altında toplanmasına və Əməvilərə qarşı üsyana qalxmalarına səbəb oldular. Əbu Müslümün Xorasanda başına topladığı bu müsəlman əhalisi çox sayda iranlı, ərəb və türkün dəstəyi ilə Əməvi ordularını məğlub edərək Üməyya övladlarının yüz illik hakimiyyətinə son qoydular. Abbasilərin Xilafəti ələ keçirməsi ilə İslam tarixində yeni bir mərhələ başladı. Məvali adlanan kütlə hakim status qazandı və Xilafət idarəsində, xüsusilə də orduda qövmiyyətçi ərəb zehniyyətinə sahib əməvi tərəfdarlarını dövlət idarəsindən kənarlaşdırdılar.

Abbasi hakimiyyətində bürokratiya və ordu nəzarəti məvali sinfinə mənsub şəxslərin əlinə keçdi. Bu proses uzunmüddətli müharibələrin və iğtişaşların sona çatmasına, ərəb olmayan müsəlmanların yeni ictimai-siyasi güc olaraq ortaya çıxmasına yol açdı.

Abbasilərin hakimiyyətə gəlməsində türklərin mühüm rol oynadığı qeyd edilir. Belə ki, Əbu Müslümün ordusunda çox sayda qarluq və oğuz əsgərləri yer alırdı. Digər tərəfdən, 751-ci ildə Talas müharibəsində Çin orduları ilə Abbasi ordularının qarşılaşmasında türklər, xüsusilə də Qarluq türklərinin müsəlmanlara kömək etməsi nəticəsində Çinin 100 minlik ordusu böyük bir məğlubiyyətə uğradı. Daha sonra Abbasilərin Xəzər xaqanlığı ilə qohumluq əlaqələri

üzərindən dostluq münasibətləri yaratması türk xaqanlıqları ilə Xilafət arasında yaxşı münasibətlərin qurulmasına və sərhəd boyunca yaşayan türklər arasında İslamın yayılmasına şərait yaratdı. Eyni tarixdə çox sayda, xüsusilə də sufi kimlikli müsəlmanların türklər arasında apardıqları dini təbliğat türklərin müsəlmanlaşmasını sürətləndirdi.

Əməvilərin əsas dəstəkçisi olan ərəb qəbilələrinin Abbasi xanədanına qarşı mənfi münasibəti Xilafət ordusunun insan qaynaqlarının zəifləməsinə yol açdı. Buna görə də Abbasi xəlifələri türkləri ordu sıralarına cəlb etməyə başladılar. Xəlifə Harun ər-Rəşidin *(786-809)* vəfatından sonra oğlanları arasında taxt uğrunda müharibədə türklərin dəstəyi ilə Məmun qardaşı Əmini məğlub edərək, hakimiyyətə gəldi. Bu Abbasi xilafəti tarixində türklərin nüfuzunun artmasına və ordu idarəçiliyinin türklərin əlinə keçməsinə yol açdı. Xəlifə Mötəsim dövründə *(833-842)* türk hərbçiləri Xilafətə nəzarəti öz əllərinə keçirdilər. Vasiq *(842-847)* və Mütəvəkkil *(847-861)* dövrlərində Abbasi xilafətinin nəinki hərbi, hətta siyasi idarəetməsi də türk əmirlərin nəzarətində idi. Xəlifə Mütəvəkkilin vəfatından sonra Abbasi taxtına türk əmirlərinin istədiyi xəlifələr çıxırdı. Bu tarixdən sonra vəzirlik, hacibliк, valilik kimi vəzifələrə də türk əmirlər seçilirdilər. IX əsrdə Xilafət tarixində İnak ət-Türki, Boğa əl-Kəbir, Otamış ət-Türki, Sima ət-Tavil, Əməcur ət-Türki, Afşin ibn Kavus, Əbu-Sac ət-Türki, Bıyıqbəy ət-Türki, Vasif ət-Türki kimi hərbçi-idarəçi türklər ortaya çıxdılar.

### 6.2.2. İlk müsəlman dövlətləri

IX əsrin ortalarında Abbasi xilafəti bir sıra böhranlarla üzləşdi. Aparılan torpaq və vergi reformlarının uğursuzluğu, əyalət hakimlərinin geniş səlahiyyətlərə sahib olması və onların özbaşınalığı, geniş dövlət xərclərinin qarşılana bilməməsi, Xilafət daxilində türk, irani və ərəb əsilli



bürokratlar arasındakı mübarizə, başda Bağdad olmaqla, Xilafət şəhərlərində ordu ilə əhali arasında qarşıdurmaların yaranması, əyalət hakimləri ilə xəlifələr arasında ixtilaflar həmin böhranların başlıca səbəbləri idi. Bunlara fikri-məzhəbi ixtilafların da daxil olmasıyla böhran bütün müsəlman cəmiyyətini sarsıtdı. Məzyəri, Məngüçur, Zənci və Qərməti üsyanları müsəlman cəmiyyətinin öz daxilindən çıxan sosial hərəkətlər olduğu halda, Xıdaşiyyə, Sünbaziyyə, İshaq ət-Türki, Üstazsız, Muğanna və Xürrəmilik kimi hərəkatlar isə Xilafət rejimindən narazı müsəlman olmayan kütlələrin dəstəyi ilə ortaya çıxan və uzun illər Abbasiləri narahat edən üsyanlar idilər.

Həmin üsyanların ən böyüyü olan Xürrəmilik 20 il ərzində Azərbaycanda Xilafəti məşğul etmiş və Xilafətin mərkəzi ilə onun şimal-şərq əyalətləri arasındakı bütün əlaqələrinin kəsilməsinə səbəb olmuşdur. Xüsusilə də Babək əl-Xürrəmidinin rəhbərliyi altında təşkilatlanan xürrəmilər Xilafətin 6 ordusunun məğlub olmasına yol açdılar.

Hadisələr Xilafətin iqtisadi sisteminin sarsılmasına yol açdı. Xilafətin yaşadığı pul böhranına səbəb gümüş və qızıl qaynaqlarının azalması, gümüş mədənlərinin tükənməsi və nəticədə gümüş böhranının ortaya çıxmasına yol açdı. Digər tərəfdən, lüks həyat tərzi, qul əməyinin geniş istismar olunması Xilafətin pul qaynaqlarının xarici ölkələrə axmasına yol açırdı. Başda ərəb ailələri olmaqla müsəlman zadəganları moda və rifaha böyük sərmayə xərcləyirdilər.

Böhranın qarşısını almaq məqsədilə xəlifələr əyalətləri gəlirləri ilə birlikdə əmirlərə satmağa başladılar. Həmin əmirlər vali olduqları bölgələrin gəlirlərini özləri toplamağa və öz ordularını yaratmağa çalışaraq siyasi səlahiyyətlərini genişləndirdilər.

Əməvi xilafəti dövründə İslam dövlətinin sərhədləri Türküstanın mərkəzindən Avropada Pireney dağlarına,

Qafqazdan Hind okeanına və Afrikada Böyük Səhraya qədər böyük bir ərazini əhatə edirdi. Bu böyük ərazidə müxtəlif irq və dinlərə mənsub çox sayda xalq yaşayırdı. Abbasilərin 750-ci ildə hakimiyyətə gəlməsilə İslam dövlətinin siyasi, idari və iqtisadi sistemində mühüm dəyişikliklər baş verdi. Bu dəyişikliklər bünövrəsi sağlam olmayan İslam dövlətinin siyasi quruluşunun sarsılmasına yol açdı və mərkəzi hakimiyyətdən ayrılmalar başladı. Abbasilərin qətliamından xilas olan əməvilərdən xəlifə Hişamın nəvəsi Əbdürrəhman ibn Müaviyə Misir və Şimali Afrika yolu ilə Əndəlüsə (İspaniya) qaçıb, orada Əndəlüs Əməvi xilafətinin təməllərini atıb, 756-cı ildə Bağdadla olan bütün siyasi və idari bağlarını kəsərək müstəqil hökmdar kimi hərəkət etməyə başladı. Abbasi xəlifəsi Əbu Cəfər əl-Mənsur *(754-775)* parçalanmanın qarşısını almaq məqsədilə hərəkətə geçsə də, müvəffəq ola bilmədi. Əndəlüsün ayrılmasını Şimali Afrikada müstəqil və ya yarımüstəqil dövlətlərin yaranması prosesi izlədi. 758-ci ildə Sicilmasada Midrarilər, 761-ci ildə Tahərtdə Rüstəmilər, 788-ci ildə Mərakeşdə İdrisilər, 800-cü ildə Tunisdə Əğləbilər və 868-ci ildə Misirdə türk kökənli Tulunilər dövlətləri yarandı.

İslam dövlətinin şərqində də bəzi dövlətlər meydana çıxdı. 819-cu ildə Yəməndə Ziyadilər, 822-ci ildə Xorasanda Tahirilər, 868-ci ildə Mərakeşdə Səffarilər və 873-cü ildə Məvəraünnəhrdə Samanilər Şərqi İslam ərazilərini öz aralarında paylaşdılar. Bu xanədanlar Afrikadakı dövlətlərdən fərqli olaraq, Abbasi xəlifələrinə sözdə tabe idilər. Yəni sikkələrdə və xütbələrdə xəlifənin adını qorumaq xaricində Xilafətlə rəsmi bağları qalmamışdı. IX əsrin sonlarında Azərbaycanda Sacilər dövləti ortaya çıxdı. Onları Salarilər, Büveyhilər, Simcurilər izlədi. Nəticədə Səlcuqlu oğuzların ortaya çıxdığı ərəfədə İslam dünyası siyasi baxımdan çox sayda dövlət və xanədanlıq arasında parçalanmışdı.





## 6.3. MÜSƏLMAN-TÜRK KİMLİYİ

Türklərin İslamı qəbul etməsi dünya tarixinin gedişinə təsir etdiyi qədər, müsəlmanların dini-mədəni və sosial kimlikləri üzərində də mühüm dəyişikliklərə səbəb olmuşdur. İslamiyyətin Avrasiyada yayılması VII əsrin ortalarından etibarən başladı. Elə həmin tarixdə də Türküstan və Qafqazda müsəlman ərəblərlə türklər qonşu oldular. Müsəlman-türk qarşılaşması həmin tarixdən başlayıb, türklərin kütləvi olaraq müsəlmanlaşmağa başladığı X əsrə qədər davam etdi.

Ərəb mənbələrinin türklər haqqında məlumatları *cahiliyyə* dövrünə qədər uzanır. Xüsusilə də ərəb atalar sözlərində, Zübyani, Hanzala kimi cahiliyyə dövrü şairlərinin şeirlərində türklərin cəsarət və qəhrəmanlıqlarından bəhs edilir. Abbasilər dövrünün tanınmış alim və ədibi Cahiz *(Əbu Osman Əmr ibn Bəhr əl-Cahiz; 767-868)* özünün “Fəzail əl-ətrak” (Türklərin fəzilətləri) adlı əsərində türkləri xarakterləri, doğruluqları və cəsarətləri ilə geniş təsvir edib.

Bu mənada tarixdə türk-ərəb münasibətlərini dörd mərhələdə təhlil etmək lazımdır:

1. Cahiliyyə (İslamdan əvvəlki) dövrü;
2. Xülafeyi-Raşidi dövrü *(632-661)*;
3. Əməvilər dövrü *(661-750)*;
4. Abbasilər dövrü *(750-1258)*;

Türklərin İslam dünyasıyla əlaqələri və bu kimliyin bir parçası halına gəlmələri üç əsas istiqamətdə gerçəkləşmişdir:

a) İslam dünyası daxilində yer alıb müsəlmanlığı seçənlər və *məvali* kimliyini qazananlar. Bu proses həm fərdi, həm də camaat halında gerçəkləşmişdir. Xüsusilə də Xorasan və Azərbaycan ərazisində məskunlaşmış kütləvi türk topluluqları müəyyən bir mərhələdən sonra müsəlmanlaşmışdılar. Bu mərhələ təqribən VII əsrin ortalarından başlayaraq, VIII əsrin ortalarına qədər davam etmişdir.

b) Kütləvi şəkildə İslam dünyasına gəlib yerləşərək və ya qul kimi satın alınıb, ordu sıralarına cəlb edilərək, müsəlmanlaşan türklər. Məsələn, Afşin və Əbu-Sac ətrafındakılarla öz ölkəsini tərk edib Xilafət ərazisinə gələrək, müsəlman idarəçilik sistemində yer aldıqları kimi, qul kimi satın alınıb *məmlük* adıyla ordu sıralarına cəlb edilmiş, sayları 40-70 min arasında dəyişən türk hərbi birliyi də mövcuddur. Bu mərhələnin VIII əsrin ortalarından başlayaraq, IX əsrin ikinci yarısına qədər davam etdiyi bildirilir.

c) İslam dünyası xaricində qalan türklərin kütləvi şəkildə müsəlmanlığı qəbul etməsi. Bu prosesin siyasi və sosial təmayül şəklində IX əsrin birinci yarısından başlayaraq, XI əsrə qədər davam etdiyi qeyd edilir. Bu proses nəticəsində Volqa ətrafında İdil Bulqar və Orta Asiyada Qaraxanlılar kimi müsəlman-türk dövlətləri ortaya çıxmışdır.

Türklərin müsəlmanlaşması və İslam kimliyi içində yer alması ərəblər arasında heyranlıqla qarşılanmışdır. Ərəblərin zehnində hədislər vasitəsilə türk kimliyinə qarşı bir qorxu və heyranlıq anlayışı mövcud idi. Abbasilər



dövründə sosial təməldə ərəblər və türklər arasında bəzi ixtilaflar yaransa da, türk kimliyinə baxış ümumi mənada müsbət olmuşdur.

Müsəlman ərəblər 642-ci ildə Nəhavənd müharibəsində Sasaniləri məğlub edib, Qafqaz və Xorasan üzərindən iki ayrı qoldan hərəkət edərək geniş Türk dünyası ilə üzləşiblər. İslam ordularıyla türklərin qarşı-qarşıya gəldiyi ilk bölgə Azərbaycan və Qafqazın tamamına hakim olan Xəzər bölgəsi oldu. Müsəlmanlar Xorasanı ələ keçirdikdə ərəblərlə türklər arasında ikinci bir coğrafi sahə də açıldı. Xüsusilə də Mavəraünnəhr, Bəlx və Fərqanə bölgəsində yerləşən və çoxu Türk xaqanlığının parçaları olaraq varlıqlarını davam etdirən türk şəhər dövlətləri idi. Onların da arxasında Türgişlər dayanırdı. 652-ci ildə cərəyan edən ağır döyüşdə İslam orduları xəzərlərə məğlub oldu. 661-ci ildə Müaviyənin Xilafəti ələ keçirməsindən sonra həmin bölgələrdə döyüşlər intensivləşdi və fasilələrlə təqribən 100 il davam etdi. 664-cü ildən etibarən Bəlx, Kabil, Sistan kimi şəhərlər Əməvilərin əlinə keçdi. Xorasan əmiri əl-Xarisi dövründə Xorasanda məskunlaşan eftalitlərin qalıntıları ilə bir sıra döyüşlər baş verdi. Bəlx hakimi Nizək Tarhanın ordusu məğlub edildi. Beləliklə, Əməvilər Seyhun çayının sahilinə qədər irəlilədilər. Ubeydullah ibn Ziyadın əmirliyi dövründə, 674-cü ildə Kabaç Xatunun idarəsi altında olan Buxara müsəlmanlara tabe oldu. Bu döyüşlərdə türklərin döyüşçü əzmini kəşf edən Əməvilər müxtəlif yollarla ələ keçirdikləri türkləri öz ordularına cəlb etməyə başladılar. Ubeydullah ibn Ziyad Buxara səfərindən qayıtdıqda özüylə birlikdə gətirdiyi 2000 nəfərlik türk oxçu dəstəsini Bəsrədə məskunlaşdırdı. Onlar burada ərəblərə qarışıb, milli xüsusiyyətlərini itirməmələri üçün türklərə xüsusi məhəllə saldırdılar. Həmin dəstələr Əməvilər xilafətinin hərbi xidmətlərində yer aldılar.

Lakin bu cəhdlər ərəb-türk müharibələrinə təsir göstərmədi. Xilafətin şimalı boyunca uzanan uzun sərhəd

zolağında amansız döyüşlər davam edirdi. Xəlifə I Vəlidin dövründə *(705-715)* Xorasan əmirliyinə 705-ci ildə Qüteybə ibn Müslim gətirildi. Qüteybə Orta Asiyadakı türk müqavimətini qırmaq məqsədilə vəhşiliklərə və amansızlıqlara əl atdı. Ərəblər bəzi şəhərlərin əhalisini kütləvi şəkildə qətl etdilər. Bu, türklərlə ərəblər arasında nifrət və düşmənçiliyə səbəb oldu və uzun əsrlər unudulmadı. Qüteybə bu yolla Buxara, Səmərqənd, Bəykənd, Keş, Nəhşəb, Fərqanə kimi strateji əhəmiyyətli bir sıra türk şəhərini və bölgələrini ələ keçirdi. Yenə Qüteybənin planı ilə ələ keçirilən şəhərlərə Ərəbistanın müxtəlif bölgələrindən çox sayda ərəb qəbiləsi gətirilib, bu yerlərdə yerləşdirildilər.

Qüteybənin yerinə 715-ci ildə Xorasan əmirliyinə Vəki ibn Əbu Sudun gətirilməsi ilə bölgədəki vəziyyət yenidən dəyişdi. Həmin vaxt özünü toplayan Türgiş xaqanlığı bütün istiqamətlərdən ərəblərə qarşı hücuma keçdilər. Alınan arxa-arxaya böyük məğlubiyyətlər Əməvi xəlifələrini tez-tez Xorasan əmirlərini dəyişdirməyə və bölgəyə yeni hərbi dəstələr göndərməyə məcbur etdi. 730-cu ildə Əməvilər Orta Asiyada Qüteybə vaxtında əldə etdikləri yerləri böyük nisbətdə itirmişdilər. Hətta türklər strategiyalarını dəyişdirib, xüsusilə də Xorasan ərazisində Əməvilərə qarşı baş verən siyasi-hərbi və sosial üsyanlara dəstək verdilər. Bu dəstək nəticəsində güclənən Əbu Müslüm qısa vaxtda geniş kütlələri öz ətrafında toplayaraq hərəkatı böyük bir hərbi gücə çevirmiş və bu Əməvilərin süqutu ilə nəticələnmişdi. Müsəlman türklər arasında Əbu Müslümün bir qəhrəmana çevrilməsində və "Müslümnamə" adlı qəhrəmanlıq dastanlarının ortaya çıxmasında həmin proseslərin təsiri böyükdür.

Nəticədə Əməvilər dövründə müsəlmanların türklərə qarşı apardıqları hərbi siyasət uğursuzluqla nəticələndi. 750-ci ildə Əməvilərin yerinə hakimiyyətə gələn Abbasilər həm böyük hərbi itkiləri, həm də insan resurslarını qorumaq məqsədilə bu siyasətdən əl çəkərək türk xaqanlıqları



ilə dostluq münasibətləri yaratmaq yolunu seçdilər. Bu məqsədlə xəlifənin bölgədəki əmirləri türk hökmdarlarının və əmirlərinin qızları ilə evləndilər. Yaranan yeni münasibətlərin təsiri altında 751-ci ildə Çin ordularına qarşı Abbasilərin girişdiyi Talas döyüşündə türklər müsəlmanlara kömək etdilər. Digər tərəfdən, Abbasilər müsəlman alimlərinin, sufilərinin və tacirlərinin türklərlə əlaqəsinə şərait yaratdılar. Tərəflər arasında başlayan qarşılıqlı əlaqələr türklərin müsəlman inancıyla yaxından ünsiyyət yaratmasına və İslam dinini tanımasına şərait yaratdı. Artıq VIII əsrin sonlarında Xilafətin türk ölkələri ilə sərhədlərində karvansaraylar, ribatlar, sərbəst bazarlar qurulmağa başladı. Eyni proses Abbasilərlə Xəzər xaqanlığı arasında da davam edirdi. Bunun nəticəsində xəlifə Mənsur dövründən Harun ər-Rəşidin dövrünün yarısına qədər, yəni 754-800-cü illər arasında, təxminən yarım əsrlik dövr ərzində xəzərlərlə müsəlmanlar arasında mühüm hərbi hadisə baş vermədi. Hərbi əməliyyatlar yerini iqtisadi-ticari münasibətlərə verdi. Hətta müsəlman tacirləri Xəzər torpaqlarına səyahətlər etməyə və Xəzər xaqanlığına aid Səməndər, İdil, Sarığ, Hamlıq kimi şəhərlərdə özlərinin ticari koloniyalarını qurmağa başladılar. Onlar bu yerlərdə öz ibadətxanalarını açıb, müsəlmanlığı sərbəst təbliğ edirdilər. Ərəb coğrafiyaçılarının verdiyi məlumata görə, 969-cu ildə rus varyaqların qəfil hücumuna məruz qalıb İdili tərk edərək Xarəzm bölgəsində müsəlmanlara sığınan Xəzər hökmdar ailəsi belə İslam dinini qəbul etdi.

Bu münasibətlər Abbasilər dövründə İslam dünyasında türklərin varlığının da güclənməsinə səbəb oldu. Abbasi xəlifələri sərhəd əyalətlərin hakimlərindən illik vergi yerinə hərbçi türklərin Bağdada göndərilməsini tələb edirdi. Xilafətin məqsədi bu yolla hərbi gücünü türklər vasitəsilə qüvvətləndirmək idi. Ayrıca, Abbasi xəlifələri bu yolla Xilafət daxilində böyük nüfuza sahib Bərməki ailəsinin önündə getdiyi irani bürokratik güclərin nüfuzunu

azaltmaq istəyirdi. Harun ər-Rəşid dövründə Abbasi ordusunda kifayət qədər türk ünsür yer almağa başladı. Bu proses böyüyərək sürətləndi. Bərməkilərin ortadan qaldırılmasından sonra Abbasi Xilafəti daxilində türk ünsürlər irani ünsürlərin yerini alıb, dövlət dairəsində təməl gücə çevrildilər. Ərəbdilli mənbələr IX əsrin ortalarında Xilafət ordusunda 70 minə yaxın türk əsgərinin yer aldığını qeyd edirlər. Türklərin Xilafətdəki gücü o qədər təsirli idi ki, xəlifələr belə türk əsgərlərindən çəkinirdi. Bu, Bağdadda türk hərbçilərlə ərəb əhalisi arasında sərt toqquşmalara da səbəb olurdu. Nəticədə, xəlifə Mötəsim *(833-842)* Samirədə xüsusi bir şəhər saldırıb, türk əsgərlərini ailələri ilə burada məskunlaşdırdı. Samirə, Xilafətin ortasında, küçələrində türk dilində danışılan sanki türkdilli bir paytaxt şəhər kimi ortaya çıxdı. Çünki, xəlifələr türklərin döyüş xüsusiyyətlərini itirməmələri üçün onların öz dillərindən başqa dilləri öyrənməsini və başqa millətlərdən qadınlarla evlənməsini qadağan etmişdi. Digər tərəfdən, xəlifələrin özləri belə türk əsilli qadınlarla evlənməyə başladılar. Beləliklə, Abbasi sarayı daxilində və idarəçiliyində türk nüfuzu hökm sürməyə başladı.

IX əsrin 30-cu illərindən etibarən Xilafətin apardığı bütün hərbi səfərlərə türk əmirlər başçılıq edir və ordunun əsas gücünü türk əsgərləri təşkil edirdi. Ankara-Kayseri arasında yer alan Samalu şəhərini fəth edən türk komandan Boğa əl-Kəbir idi. Xəlifə Müntəsir dövründə *(861-862)* Bizansa qarşı səfərə çıxan orduya Vasif ət-Türki başçılıq edirdi. Həmin əmir xəlifənin ölüm xəbərini almasına baxmayaraq, səfərinə davam edib, Bizans qalasını fəth etdi. Qoşunuyla Bizansın üstünə gedərək, onları məğlub edən başqa bir türk komandanın adı Bilgə Çur idi. Xəlifə Mötəz dövründə *(866-869)* Müzahim ibn Xaqan, Mötəmid dövründə *(870-892)* Tarsus əmiri Yazqan Bizansa qarşı təsirli və güclü zərbələr endirərək, Anadolunun cənubunu ələ keçirdilər. Artıq Toros dağları Bizans ilə müsəlmanlar arasında



yeni sərhəd oldu. Xəlifə Vasiq dövründə üsyan edib, Hicaz və Yəmamədə böyük iğtişaşlara səbəb olan bədəvi ərəb qəbilələrinin üsyanını Boğa əl-Kəbir yatırdı və müsəlmanların rahat həcc ziyarətlərini bərpa etdi. Əşnas ət-Türki, İnak ət-Türki, Fəth ibn Xaqan, Müzahim ibn Xaqan ət-Türki kimi türk komandanlar Xilafətin bir sıra böyük əyalətlərinə vali təyin edildilər. Onlardan İnak Yəmən, Hicaz, Kufə kimi Xilafət üçün strateji əhəmiyyətli bölgələrin hakimi oldu. Misirin əmirliyinə gətirilən Əhməd ibn Tulun daha sonra orada müstəqil bir dövlət təsis etdi.

Bütün bu proseslər türklər arasında müsəlmanlaşmanın sürətlənməsinə də təsir göstərdi. Təqribən 300 illik bir dövrdə bu proses özünün pik həddinə çatdı və nəticədə Avrasiyanın böyük bir hissəsi türklərin İslamı qəbul etməsiylə *darül-İslam* adını aldı. Artıq türklərin yaşadığı ərazilərdə İslami fikirlər, məktəblər və məscidlər yaranmağa başladı. Kərramiyyə, mürciyyə, hənbəlilik və Əhli-beyt tərəfdarları türklər arasında özlərinə geniş dəstək tapdılar. Başlarında Ədhəm ibn İbrahim kimi böyük sufinin dayandığı bəzi sufi dərvişlər Türk dünyasından çıxıb, bütün İslam dünyasını gəzərək, özlərindən söz etdirməyə başladılar. Əsl adı Əbu Mənsur Məhəmməd ibn Məhəmməd olan İmam Matrudi türk əsilli olub, İslam düşüncəsində *hürriyyət* anlayışını formalaşdıran böyük bir alimdir. Səmərqəndin Cüzcaniyə mədrəsəsində dövrünün görkəmli din alimlərindən dərs alan, daha sonra eyni mədrəsənin başına keçən Matrudi, müəllimi Əbu Nəsr əl-İyazi ilə birlikdə ribatlarda toplaşan əsgər və qazilərə dini təbliğ edirdi. Onun yaxşı bir oxçu olduğunu qeyd edən mənbələr orduyla birlikdə bəzi qəzalarda, döyüşlərdə iştirak etdiyini xəbər verirlər. Hənəfi məzhəbininin böyük etiqad alimi hesab edilən İmam Matrudi özündən sonra dini-elmi bir cərəyan olan *matrudiliyin* banisi oldu. İmam Matrudi elm, təhsil almaq üçün yola çıxan müsəlmanların xərclərinin qarşılanmasının varlı müsəlmanların vəzifəsi olduğunu təlqin edirdi.

IX-X əsrlərin müsəlman elmi mühitində böyük ad çıxaran Fərabi və əl-Biruni də türk əsilli idilər. Onların fəlsəfə və müsbət elmlərdə əldə etdikləri yeniliklər dünya əhəmiyyətli hesab olunurdu. Bundan əlavə əl-Cabir və əl-Xarəzmi kimi türk kökənli alimlərin optika və riyaziyyat elmlərində yeni cığırlar açdığı məlumdur.

İslami təsəvvüf fikirləri ilə digər inancların qarışmasından ortaya çıxan Məlamilik və Qələndərilik kimi yeni təsəvvüfi cərəyanlar xüsusilə türklər arasında geniş yayıldı. Təsəvvüfi fikirlərə sahib Yusif Həmədaninin tələbəsi olan Əhməd Yəsəvi ənənəvi türk inanc anlayışı ilə İslam təsəvvüfü fikirləri arasında ortaq cəhətləri tapıb, geniş türk xalq kütlələrinin İslamı sürətlə mənimsəməsinə şərait yaratdı. Bütün bunların təsirilə X-XI əsrlərdə türklərin özlərinin İslam anlayışı və təsəvvürü formalaşmağa başladı. Adına *Türk İslamı* deyilən bu anlayış İslamda şərii qaydalarından daha çox təsəvvüfi fikirləri ön plana çıxardırdı.

Türklər müsəlmanlaşaraq İslami anlayış və dəyərlərlə dövlətlər yaratmağa başladıqda ənənəvi *elat* dövlət modelini də inkişaf etdirməyə başladılar. Müsəlman türklərin siyasi-idari təşkilatlanmasında bir sıra dəyişikliklər baş verdi, iqtisadi həyata, sosial duruma yeni çalarlar əlavə edildi. Dövlətçilikdə və sosial müəssisələrdə İslami üsullarla birlikdə türklərin Samanoğulları üzərindən qəbul etdikləri Sasani təsiri də müəyyən dərəcədə hiss edilməyə başlandı. Həmin vaxt Buxara və Səmərqənd kimi şəhərlərdə ərəbcə ilə irani dillərin qarışmasından *zəbani-dəri* deyilən yeni bir dil formalaşmağa başladı. Yeni fars dilinin bünövrəsi sayılan dəricə yavaş-yavaş ticarətdə və bürokratiyada, bir müddətdən sonra da ədəbiyyatda təsirli olmağa başladı. Çətin öyrənilən ərəbcəyə qarşı dəricə müxtəlik kimlikli xalqlar arasında ünsiyyət vasitəsi olaraq yayılmağa başladı. Xüsusilə də tacirlər və Samani məmurları bu dildən geniş istifadə edərək, alternativ mədəni dil halına gəlməsinə yol açdılar. X əsrdə Quranın dəricəyə tərcümə olunması



onun imkanlarını daha da genişləndirdi. Yəni fars dili İran bölgəsində deyil, Samanilərin hakim olduqları Məvəraünnəhrdə saray mərkəzli bir dil olaraq ortaya çıxdı. Bu proses türk dilinin də ədəbi-mədəni dil kimi müsəlmanlar arasında özünə mövqe tutmasına yol açdı. Eyni tarixlərdə İsficablı alimlər Quranı türk dilinə tərcümə etdilər. Türk dilinin ərəb əlifbalı yazı qaydaları formalaşmağa başladı. Bütün bunlar ənənəvi türk həyat tərzindən fərqli yeni bir kimliyin, yəni müsəlman-türk kimliyinin ortaya çıxamsına şərait yaratdı.

Bir neçə əsrlik prosesdə bu kimlik özünün yeni dövlətçilik anlayışını, inzibati-idari qaydalarını və mədəni təsəvvürünü yaratdı. Bu prosesin başlıca xüsusiyyətləri aşağıdakılar idi:

1) yeni hökmranlıq anlayışı;

2) hərbi xarakterli dövlət modelinin yerini, idari-hərbi xarakterli xanədan adları daşıyan dövlət modelinin alması;

3) yeni mülkiyyət anlayışının yaranması;

4) sosial kimliklə ordu kimliyinin ayrılması.

Qaraxanlılar dövləti məhz belə bir modelin ilk nümunəsi olaraq ortaya çıxdı. 766-cı ildə qarluqlar tərəfindən yaradılan bu dövlət, X əsrin əvvəllərində İslami bir modelə əsaslanan müsəlman-türk dövlətçilik anlayışının memarları oldular. Qaraxanlıların formalaşdırdığı bu siyasi-idari-sosial model Səlcuqlar dövründə daha da inkişaf etdirildi və Səlcuqlar sayəsində İslam tarixinin də zirvəsi qəbul edilən yeni bir inkişaf mərhələsi başladı.



# 6.4. MÜSƏLMAN-TÜRK DÖVLƏTLƏRİ

Müsəlman-türk dövlətlərinin yaranma arealı olduqca fərqlidir. Belə dövlətlər coğrafi, siyasi və sosial-mədəni baxımından üç fərqli qrupa ayrılırlar:

- İslam dünyası daxilində ortaya çıxan, əsasən hakim xanədan ailəsi və hərbi gücünü türklərin təşkil etdiyi, ancaq əhalisinin əksəriyyətini türk olmayanların təşkil etdiyi dövlətlər: Tulunilər, İxşidilər;
- İslam dünyasının sərhəd bölgələrində ortaya çıxan, hakim xanədan və ordu gücü ilə yanaşı əhalisinin bir hissəsini də türklərin təşkil etdiyi dövlətlər: Sacilər, Salarilər, Simcurilər, Qəznəvilər;
- İslam dünyasından kənarda yaşayıb, könüllü olaraq İslamı qəbul etmələri nəticəsində əhalisinin tamamını türklərin təşkil etdiyi müsəlman-türk dövlətləri: İdil Bulqar xaqanlığı və Qaraxanlılar.

Bu dövlətlərin başlıca ortaq xüsusiyyəti dövlətin hakim təbəqəsinin siyasi və hərbi baxımdan türklərdən təşkil



olunmasıdır. Fərqli xüsusiyyətləri isə əhalisinin müxtəlifliyi və bu səbəbdən sosial münasibətlərdə və idarə sistemində fərqlənmələri hesab olunur.

## 6.4.1. İdil Bulqar xaqanlığı

Bulqarlar türklərin *oğur* qrupuna daxil olan Volqadan Balkanlara qədər yayılmış böyük bir tayfa qruplaşması idi. Bulqarlar Volqa, Dunay və Kama olmaqla üç yerə bölünürdülər. Onlardan Volqa bulqarları İdil Bulqar xaqanlığı adı altında hələ VI əsrdə təşkilatlanmağa başlamışdı. Təqribən 920-ci illərdə İslam dinini rəsmən qəbul etdikləri üçün İdil Bulqar xaqanlığı İslam dünyasından kənarda ortaya çıxan ilk müsəlman-türk dövləti hesab olunur.

Volqaboyu türk xalqlarının tarixində mühüm yerə sahib bulqarların Şərqi Avropadakı varlıqları V əsrə uzanır. Tədqiqatçılar bulqarların oqur türklərinin bir qolu olaraq ortaya çıxdığını, bəzi kiçik qollarının hələ II əsrdə Azərbaycana qədər köç etdiklərini qeyd edirlər. 630-cu ildə ildə Qərbi Türk xaqanlığının süqutundan sonra onun Avropadakı ərazilərində iki xaqanlıq ortaya çıxdı: Xəzər və Bulqar xaqanlıqları. İdil çayı ilə Ural ətrafındakı bölgələrdə ortaya çıxan həmin təşkilatlanmaya tarixdə Böyük Bulqar dövləti adı verilir. Böyük Bulqar dövlətinin parçalanması ilə onun tərkibindən İdil, Dunay və Kama olmaqla üç xanədanlıq ortaya çıxdı.

Onlardan ən uzunömürlüsü olan İdil Bulqar xaqanlığı paytaxtı indiki Kazanın 115 km cənubunda, İdil çayının sahilində yerləşən, 50 000 nəfərlik əhalisi olan Bulqar şəhəri idi. Tədqiqatçılar bulqarların Bilər, Suvar, Oşal, Tetiş, Züyə və Cükə-Tav adlı daha altı şəhərinin mövcud olduğunu yazırlar. Bulqar şəhəri Şərqi Avropanın ən böyük ticarət mərkəzlərindən idi. Kürk, at, qoyun, samur və qızıl tülkü dəriləri, ox, qılınc, mal-qara ilə birlikdə slavyan qulları,

Sibir meşələrinin balı ilə təbii yapışqanı buradan müxtəlif ölkələrə, xüsusilə də Çinə, Hindistana və İslam dünyasına ixrac olunurdu. Həmin ölkələrdən də ipək parçalar, qumaşlar, keramik qablar, kağız avadanlıqları Bulqar bazarlarına gətirilib, buradan Avropaya göndərilirdi. Aparılan arxeoloji araşdırmalar zamanı tapılan Xan məscidi, Şərq türbəsi, Ağ Saray, Qara Saray, Xan sarayı, Balaca və Böyük Minarələr kimi nümunələr Bulqar memarlığının olduqca inkişaf etdiyini deməyə əsas verir. Xan məscidi 1841-ci ilə






qədər mövcud idi. Səlcuqlu kümbəzlərini xatırladan Şərq türbəsini isə XVIII əsrdə çarlıq Rusiyası müqəddəs Nikolay kilsəsinə çevirmişdir. Ağ Saray da 1860-cı ildə dağıdılmışdır. Bulqar xaqanlığının digər memarlıq abidələri isə moğol istilası zamanı məhv olmuşdur.

Bulqar ölkəsinə səyahət edən müsəlman alim İbn Fədlana görə, Bulqar şəhərinin 40 km yaxınlığında xaqanlığın ikinci mühüm şəhəri olan Suvar yerləşirdi. Bu şəhərin sabirlər tərəfindən salındığı qeyd edilir. Müsəlman coğrafiyaçı İstəxri Suvar şəhərində yerləşən məscid və mədrəsələrdən bəhs edib. 948-ci ildə zərb olunmuş sikkələrin üzərində Suvar adı həkk olunmuşdur.

İslamiyyətin bulqarlar arasında yayılmasının başlıca səbəbkarları tacirlər olublar. Xarəzmə, xüsusilə də Samanilərə aid bölgələrlə güclü ticari əlaqələri olan bu tacirlər bulqarların İslam diniylə tanış olmasına şərait yaratdılar. İdil bulqarlarının hökmdarı İltəbərin (və ya Almış xan) 921/2-ci ildə İslam dinini rəsmi din olaraq qəbul etməsi bölgənin siyasi-mədəni mənzərəsini güclü şəkildə dəyişdirdi. Bulqar xaqanının İslamı qəbul etməsinin səbəbləri arasında Xilafətlə bu yolla təsis etdiyi strateji münasibətlər nəticəsində Xəzər xaqanlığının təsirini azaltmaq olduğu iddia edilir. Belə ki, xaqan Abbasi xəlifəsi Müqtədir-Billaha elçi göndərib, İslamı qəbul etmək istəyini bildirmiş və bu məqsədlə ölkəsinə İslam dininin qaydalarını bilən elm və din xadimlərinin, eyni zamanda ibadətxana inşa edəcək ustaların göndərilməsini xahiş etmişdir. Xəlifə onun istəyini məmuniyyətlə qarşılayıb, aralarında alim İbn Fədlanın da yer aldığı böyük bir elçilik heyəti göndərmişdir. İbn Fədlan Bağdada qayıtdıqdan sonra öz səyahətini qələmə almış və həmin əsər İdil Bulqar dövlətinin tarixi ilə yanaşı, oğuzlar, peçeneqlər, başqırdlar və digər türk xalqları haqqında qiymətli mənbə hesab olunur. Müsəlman elçilik heyəti xaqan Almış xanla görüşmüş və Bulqar bəylərinin müsəlmanlığı qəbul etməsini böyük bir mərasimlə təşkil

etmişdilər. Beləliklə, İdil Bulqar dövləti İslamı qəbul etmiş ilk türk dövləti ünvanını qazanmışdır. Təşkil olunan mərasimdə Almış xan Əmir Cəfər ibn Abdullah olaraq müsəlman adı almış, ondan sonra da Mikayıl adını alan oğlu taxta çıxmışdır. İdil Bulqar dövləti 1236-cı ildə moğolların hücumuna qədər varlığını davam etdirmişdir. Bu müddət ərzində zəngin Bulqar şəhəri dəfələrlə rus varyaqların hücumuna məruz qalmış və bunların ən böyüyü Kiyev knyazı Vsevolodun başçılığı ilə 1183-cü ildə təşkil olunmuşdur.

İbn Fədlan səyahətnaməsində İdil bulqarlarının mədəniyyəti, əxlaqi dəyərləri, sosial münasibətləri haqqında təfsilatlı məlumatlar vermişdir. Səyahətnaməyə görə, Bulqar ölkəsində türk törəsi hakimdir. Rəsmi mərasimlərdə hər zaman xaqanın yanında xatunu da iştirak edirdi. Xalq hökmdarı qarşılayarkən ayağa qalxar və papaqlarını çıxarardılar. Qadın-kişi münasibətlərində sərbəstlik olub, zina günah sayılırdı. Yenə qədim türklərdə olduğu kimi qəsdən adamöldürmə, yaralama, oğurluq və təcavüz şiddətli şəkildə cəzalandırılırdı. Başlıca yeməkləri at əti, balıq və darı idi. Ətdən şorbalar hazırlayırdılar. Əsas içkiləri bal, arpa və buğdadan əldə edilirdi.

Bulqarlarda memarlıq, cəvahirat işçiliyi, əl sənətləri, elm və təhsildə xeyli inkişaf etmiş, ətrafdakı ruslara və slavyanlara mədəni baxımdan təsir etmişdir. Bulqar elm adamları arasında şəhərin qazi vəzifəsini icra edən Yaqub əl-Bolqari "Tarix əl-Bolqar" adlı bir əsər qələmə almışdır. Mənbələrdə Əbül-üla Həmid Bolqari, Davud ibn Süleyman Saksini kimi alimlərin də adları qeyd edilir. Yenə İslam ölkələrinə yerləşmiş ləqəbi əl-Bolqari olan çox sayda alim olmuşdur.

Bulqar şəhəri XI əsrin ikinci yarısında ən tanınmış türk şəhərlərindən biri idi. Bu şəhər bölgənin ən böyük şəhəri hesab olunurdu. Oraya qərb, xüsusilə də Avropa ölkələrindən tacirlər axıb gəlirdi.



## 6.4.2. Qaraxanlılar

İdil Bulqar dövlətindən 20 il sonra, yəni 943-cü ildə Qaraxanlı dövləti rəsmi şəkildə İslam dinini qəbul etdi. Mavəraünnəhr və Şərqi Türküstan torpaqlarını əhatə edən geniş ərazilərdə qurulan Qaraxanlılar Göytürk xaqanlığının mirasını daşıyırdı. Bu dövlətin qurucuları qarluq türkləri olub, 766-cı ildə on-ox boylarına aid əraziləri ələ keçirməklə öz dövlətlərini təsis etmişdilər. Qaraxanlı hökmdarları özlərini Alp Ər-Tonqa nəslinə bağlayır və dövlətlərinə Türk xaqanlığı adı verirdilər.

Qaraxanlılar üç qarluq tayfasına yağma, çigil və on-ox boylarının qoşulmasıyla formalaşmışdır. Qarluqlar 740-cı illərdə uyğurlarla başladıqları Göytürk taxtı uğrunda mübarizədə məğlub olduqdan sonra yurdlarını tərk edib, Balxaş gölü, Balasaqun və Talas ətrafı ərazilərə köç edərək, öz xaqanlıqlarını qurdular. 840-cı ildə qırğızlarla ittifaq quraraq, Ötükən mərkəzli Uyğur xaqanlığının süqutunda rol oynayan qarluqlar bu tarixdən sonra bölgənin ən böyük dövləti olaraq ortaya çıxdılar.

Həmin tarixdə Qaraxanlı dövlətinin başında Bilgə Anuçur xan dayanırdı. Onun vəfatından sonra dövlətin başına sırayla Bazır Aslan *(893-920)* və Oğulcaq Qadir *(893-940)* xanlar keçdi. Bazır Arslanın oğlu Satuk Buğra xan *(940-955)* əmisi Oğulcaqla apardığı taxt uğrunda mübarizədə müsəlmanların dəstəyini öz ətrafında toplamaq məqsədilə İslamı qəbul etdi. Daha sonra əmisini məğlub edib, Qaraxanlı dövlətinin hökmdarı olunca İslamiyyəti rəsmi din olaraq mənimsədi. Mənbələrdə onun haqqında çox sayda əfsanəvi məlumatlar verilmişdir. Satuq Buğra xan mənqəbəsində onun möcüzəvi şəkildə müsəlman olduğu qeyd edilir. Müsəlman olduqdan sonra Əbdülkərim adını alan Satuq, mənbələrdə "Qazi", "Mücahid" tituluyla da xatırlanır.




*Qaraxanlı dövlətinin bayrağı və ərazisi*

Satuq Buğra xanın oğlu Baytaş Arslan (Süleyman) zamanında *(955-970)* böyük hissəsini yağma, qarluq, çığıl və tohsıların təşkil etdiyi 200 min çadırlıq türk əhali 960-cı ildə müsəlmanlığı qəbul etdilər. Bu proses sonrakı dövrlərdə də davam etdi və nəticədə Qaraxanlılar bölgəsinin əhalisi könüllü olaraq müsəlman oldu.

Müsəlman-türk xalqlarının tarixində Qaraxanlılar müstəsna əhəmiyyətə malikdir. Qaraxanlılar müsəlman-türk kimliyi qədər, mədəniyyətinin, düşüncəsinin,



yeni türkdilli müsəlman ədəbiyyatının, memarlığının və dövlət anlayışının memarları hesab olunurlar. Mərkəzi Balasaqun olan bu dövlətin Qaşqar, Yarkənd, Talas, İsficab kimi bir sıra böyük şəhərləri mövuddur. Qaraxanlılar 992-ci ildə Buxaranı ələ keçirməklə Samanilər dövlətinə son qoyub, onun ərazilərinə yiyələndilər. Beləliklə, Orta Asiyada vahid bir mədəni sistemin formalaşmasına şərait yaratdılar.

XI əsrin əvvəllərində Qaraxanlıların qərb qolunun hakimi İlig xan bütün Mavəraünnəhri ələ keçirib, Qəznəvilərlə uzun və yorucu müharibələrə başladı. İlig xan Abbasi xəlifəsini dini lider kimi tanıyaraq sikkələrdə və xütbələrdə adını qeyd etmişdir.

Qaraxanlı dövləti 1046/7-ci ildə Şərq və Qərb olaraq iki yerə ayrıldı. Mavəraünnəhr Qərbi Qaraxanlı, Şərqi Türküstan isə Şərqi Qaraxanlı torpaqlarını təşkil edirdi. Qərbi Qaraxanlı dövlətinin mərkəzi Səmərqənd və Buxara, Şərqi Qaraxanlıların mərkəzi Balasaqun və Qaşqar idi. Hər iki dövlət 1212-ci ildə Xarəzmşahlar dövləti tərəfindən ortadan qaldırılana qədər tam 5 əsr mövcudluqlarını qorudular.

Qaraxanlıların paytaxtı əvvəllər Balasaqun, daha sonra Qaşqar oldu. Qaraxanlı hökmdarları özlərini Tanrının yer üzündəki kölgəsi hesab edirdilər. Qaraxanlılar qədim türklərdəki kimi *tanrı qutu* anlayışını qoruyurdular. İdari baxımdan Göytürk dövlətçiliyini davam etdirən Qaraxanlılar idari-inzibati baxımda iki qola ayrılırdı. Ölkənin şərq hissəsi *böyük xaqan* sifətiylə "Arslan xan" titulu daşıyan mütləq hökmdarın nəzarətində idi. Onun idarəsinə bağlı qərb hissəsinin hökmdarı "Buğra xan" titulu daşıyırdı. Qaraxanlılar 999-cu ildə Samanilərə aid Mavəraünnəhr torpaqlarının tamamını ələ keçirdikdən sonra ölkənin qərb hissəsinin hökmdarları Buxara və Səmərqənd şəhərlərində iqamət etməyə başladılar. Qaraxanlı hökmdarları "Qara xan", "Kadır xan", "Tamqaç xan" kimi titullara da sahibdilər. Böyük xaqanın nəzarətində olan qərb qolunun

hökmdarları isə “ilig” (eliq), “tigin” (təgin) kimi şahzadəlik titullarına sahibdilər. Qaraxanlıların ən böyük fatehlərindən olan Nəsr İlig xan qərb qolunun hakimi olduğundan “ilig” tituluna sahibdir.

İslamın qəbul olunması ilə bərabər Qaraxanlı dövlət idarəsində islami xüsusiyyətlər görünməyə başladı. Hökmdarların adına xütbə oxunması, pul zərb edilməsi, növbət çalınması buna nümunədir. Bunun kimi *otaq*, *taxt*, *tac*, *çətir*, *sancaq*, *tuğ*, *kəmər-qılınc*, *xələt* kimi hökmdarlıq əlamətləri Türk dövlət sistemində də mövcuddur. Ancaq Ərəb-Sasani modelini əsas götürən İslam dövlətçiliyində həmin əlamətlər xüsusi təşrifat və mərasimlərlə icra olunurdu.

Taxta çıxan xaqan üçün cülus mərasimləri təşkil edilirdi. Hökmdarlıq isə vərasət sistemiylə, bəzən atadan oğula, bəzən də qardaşdan qardaşa keçirdi. Qaraxanlı dövlətçiliyinin bədii təsviri olan Yusif Xas-Hacibin *(1019-1077)* yazdığı “Qutadqu-bilik” (Xoşbəxtlik biliyi) dövlətin yaxşı idarə olunmasında adil hökmdar, müdrik vəzir və güclü ordu prinsiplərini ön plana çıxardır.

Qaraxanlı hökmdarlarında başlıca 3 xüsusiyyətin olmasına diqqət edilirdi:

a) cəsarət və qəhrəmanlıq;
b) ağıl və müdriklik;
c) fəzilət.

Hökmdar olan şəxs, hakimiyyəti müddətində heç vaxt dəyişməyən 3 vəzifəni icra etməli idi:

a) Xalqın rifahını təmin etmək;
b) Törəni (qanunları) düzgün və doğru icra etmək;
c) Hərbi qüdrəti qorumaq və fəthlər həyata keçirmək.

Qaraxanlılar qədim türklərdəki “el” (dövlət) və “gün” (xalq) sistemi ilə müsəlman dövlətlərindəki *məmalik* (məmləkət) və *təbəə* (vergi ödəyən xalq) anlayışlarını birləşdirərək müsəlman-türk dövlətləri üçün yeni bir model yaratdılar. Bu modelə görə, hökmdarın dövlət qarşısında başlıca üç vəzifəsi vardı:



1. Təbəəsi olaraq qəbul edən insanların gündəlik ehtiyaclarının təminatı (iqtisadi nizam);
2. Ədalətin təmin edilməsi, zorakılığın məhv edilməsi (hüquqi nizam);
3. Xalqın rahatlığının qorunması (əxlaqi nizam).

Bu üç təməl haqq məmləkət nizamının qorunması üçün vacib sayılırdı. Bu hüquqlardan biri tapdandığı zaman xalqın həmin hökmdarı tanımamaq haqqı vardı. Türk dövlətlərinin tənəzzülü və yıxılması hökmdarların həmin əsasları icra etməməsi və ya ona məhəl qoymaması nəticəsində baş verirdi.

Xalqın dövlət qarşısında vəzifələri isə aşağıdakılardır:

1. Əmrə itaət (hökmdarlıq haqqı);
2. Vergini ödəmək (dövlət haqqı);
3. Dövlətin dost qəbul etdiyini dost, düşmən qəbul etdiyini düşmən hesab etmək (yurddaşlıq haqqı).

Qaraxanlıların müsəlman-türk dövlətçiliyində yaratdıqları digər bir yenilik isə müsəlman hüquq sistemi (şəriət) ilə türk törə sistemini (örfi-hüquq) birləşdirmələri oldu. Bu sistemə görə, ictimai həyatda şəriət hüququ əsas götürülür, siyasi işlərdə örf təməl qəbul edildi.

Qaraxanlılarla birlikdə müsəlman-türk dövlətçiliyində *saray təşkilat* sistemi formalaşdı. Əvvəllər hökmdarlıq sistemi ilə birlikdə olan bu təşkilat Qaraxanlılardan etibarən İslami divan sisteminə uyğun olaraq şəkilləndi. Buna görə, Qaraxanlı saray təşkilatı əmr sahibləri və *icra sahibləri* olaraq iki yerə ayrıldılar:

Əmr sahibləri: ulu hacib, əmiri-qapıçıbaşı, əmiri-candar, əmiri-silahdar, ələmdar, icra sahibləri: xansalar (aşçıbaşı), idişçibaşı (şərabdar), ilbaşı, camədar və digərlərindən ibarətdir.

Qaraxanlı dövlət sistemində *mərkəzi təşkilat* ilə *taşra* (yerli idarəetmə) *təşkilatı* arasında əlaqələr gücləndirildi. Qaraxanlı dövlətinin əsas xüsusiyyəti çoxsaylı şəhərli və kəndli əhalisinin olması idi. Qədim və ənənəvi türk

dövlətlərinin əsas kütləsini köçəri və yarımköçəri xalqlar, Qaraxanlı əhalisinin böyük hissəsini *rəiyyət* deyilən kəndlilər və şəhərlilər təşkil edirdi. Buna görə də Qaraxanlılar güclü bir *divan sistemi* formalaşdırdılar. Bunun kimi, ənənəvi türk dövlətlərindən fərqli olaraq, Qaraxanlılarda ordu xüsusi bir təşkilata çevrildi və *hərbi təşkilat* adı altında formalaşdırıldı. Bu çərçivədə hökmdarın xüsusi ordusu *xassa dəstələri*, saray mühafizəsi, əsasən köçəri tayfalardan ibarət hərbi dəstələr bir-birindən ayrıldılar. Qaraxanlıların qurduqları bu sistem Səlcuqlar tərəfindən davam etdirildi və orta əsrlərdə müsəlman-türk dövlətçiliyinin əsas idarə sistemi olaraq qəbul edildi.

Qaraxanlılar türk dilini (*qaraxanlı türkcəsi*) rəsmi dövlət dili halına gətirdilər. Sarayda, divanda və rəsmi yazışmalarda türk dili istifadə olunurdu. Hətta Qaraxanlılar türk dilini ibadət dili səviyyəsinə qədər qaldıraraq ilk dəfə Quranı türk dilinə tərcümə etdirdilər. Həmin Quranın bir nüsxəsi günümüzə qədər gəlib.

Mədəniyyət sahəsində Qaraxanlılar türk xalqları ilə digər müsəlman xalqlar arasında yeni mədəni münasibətlərin əsasını qoydular. Şəhərsalma və ticari münasibətlərin inkişafına yüksək diqqət yetirdilər. Qaraxanlılar dövründə Tirmiz, Talas, Qaşqar, Yarkənd, Balasaqun, Oş, Nəsəb, Özkənd kimi şəhərlər Şərqi İslam dünyasının incisi hesab olunmağa başlandı. Qaraxanlı saray memarlığı haqqında bizdə dolğun təsəvvür formalaşdıracaq ən önəmli abidə Tirmiz sarayıdır. Bu saray Qəznəli, Qurlu və Səlcuqlular tərəfindən də istifadə edilmişdir. Qaraxanlıların əlinə keçən Buxara və Səmərqənd kimi şəhərlər isə daha da inkişaf etdi. Qaraxanlılar dövründə yeni memarlıq nümunələri formalaşdı. Türklərin çadır-qübbə tipli memarlığı ilə Samanilər dövrünün dini memarlığı birləşərək yeni məscid, came, məqbərə nümunələri ortaya çıxdı. İsmayıl Samani türbəsi, Zərəfşan vadisi yaxınlığında X əsrdə inşa olunan Ata məqbərəsi, Qazaxıstanın Talas bölgəsindəki XII əsrə





*Qaraxanlılar dövrünə aid qala minarə*

aid Aişə Bibi məqbərəsi, Balac Xatun türbəsi Qaraxanlı memarlığının əsas nümunələridir. Qaraxanlılardan qalan qala-minarə memarlığının ən qədim nümunələrindən biri də XI əsrə aid, Qırğızıstanın Toxmaq şəhərinin yaxınlığında yerləşən Buranadakı minarədir. Həm minarə, həm də müşahidə məntəqəsi olaraq istifadə edilən Burana minarəsinin orijinalı 45 metr olsa da, sonradan zəlzələ nəticəsində bir hissəsi uçmuş, Qırğızıstan dövləti tərəfindən bərpa olunan qismi 25 metrdir. Minarənin gövdəsində kərpiclərlə geometrik bəzəklər həkk edilmişdir. Burana minarəsinin memarlıq sənəti baxımından daha da inkişaf etdirilmiş nümunəsi **Özkənd** minarəsidir ki, XI əsrdə tuğladan tikilmişdir.

Qaraxanlılar dövrünün ən görkəmli memarlıq abidələrindən biri də hərbi-ticari məqsədlə inşa edilən ribatlar və karvansaraylardır. Bu ribatların ən qədimi Buxara-Səmərqənd yolu üstündə tikilən Ribati-Məlikdir. Kərpicdən tikilən, üstü tuğlalarla örtülən ribat geniş eyvana və çox sayda otaqlara sahibdir. Həmin ribatın günümüzə ancaq bir hissəsi gəlib. Qaraxanlılar Çin ilə İslam ölkələri arasında yer aldığından böyük ticarət karvanlarının tam üzərində yer alırdı. Şimaldan və şərqdən gələn ticarət

karvanları cənub və cənub-qərbdən gələn müsəlman tacirlərinin karvanları ilə Qaraxanlı şəhərlərində görüşür və alış-verişlərini burada aparırdılar. Rey-Nişapur-Mərv xətti ilə gələn ticarət yolu Səmərqənd-Buxara üzərindən Türküstan ticarət dünyası ilə davamlı əlaqədə idi. Bu səbəbdən Qaraxanlı ölkəsində çox sayda ribat-karvansaraylar inşa olunmuşdur. Həmin ribat və karvansarayların məscidləri, qonaqlama yerləri, axurları və anbarları mövcud olub, eyni vaxtda yüzlərlə insana xidmət edirdi. X-XI əsrlərə aid olan Şir-Kəbir, Təlhətən Baba camesi onlara nümunədir. Yenə X əsrə aid Buxarada bir atəşpərəst tapınağının üstündə inşa olunmuş Maqaki-Attari camesi günümüzə qədər qorunub saxlanılmış maraqlı memarlıq abidələrindən biridir. Buxarayla Səmərqənd arasında yerləşən Nəvai şəhərinin yaxınlığındakı başqa bir memarlıq abidəsi də Deqqaron məscididir. Günümüzə qədər qorunan həmin memarlıq abidəsi Deqqaron adlı bir övliyanın adıyla bağlıdır.

Qaraxanlılar dövründə müsəlman-türk ədəbiyyatının, düşüncə və fikir tarixinin olduqca qiymətli əsərləri ərsəyə gəlmişdir. Həmin əsərlər arasında "Satuk Buğra xan mənaqıbnaməsi", Yusif Xas-Hacibin "Kutadqu-bilik" və Kaşğarlı Mahmudun "Divani lüğət-it-türk" əsərləri türk ədəbiyyat tarixinin incisi qəbul edilir. XI əsrin ikinci yarısına aid Kaşğarlı Mahmudun "Divani lüğət-it-türk" əsəri sayəsində XI əsr türk dilinin, şivələrinin, kimliyinin, türk xalqlarının sosial-mədəni inkişafının bütün parametrləri öz əksini tapmışdır. Qaraxanlılar dövründə yazılan daha bir önəmli əsər Ədib Əhməd Yüknəkinin *(Əhməd ibn Mahmud Yüknəki; XII əsr)* yazdığı "Atabətül-Həqayiq" əsəridir. XII əsrdə yazılan bu əsər mövzu və üslub etibarilə "Kutadqu-bilik"in oxşarı olub, bir əxlaq risaləsidir. Dövrün mənəvi-əxlaqi iqlimini formalaşdıran, "piri- Türküstan" ləqəbiylə tanınan, ilk türk təriqətinin banisi Əhməd Yəsəvinin "Divani-Hikmət"i də Qaraxanlılar dövründə qələmə alınmışdır. Divan dərvişlərin fəzilətlərindən, dini-əxlaqi



davranışlarından və rəvayətlərindən, zahidlik və axirət anlayışlarından bəhs edir. Yəsəvilik təriqəti Şərqi Türküstandan başlayıb, Azərbaycan və Anadoluya qədər türklərin yaşadığı müsəlman ölkələrində geniş yayılmışdır. Azərbaycanda yəsəviliyin memarı Əhməd Yəsəvinin müridi olan Zəngi Ata olmuşdur.

Beləliklə, Qaraxanlılar müsəlman-türk dövlətçiliyinin və mədəniyyətinin memarları oldular. Səlcuqlar həmin mədəniyyəti bütün müsəlman Şərqinə hakim qıldılar. Qaraxanilərin İslam mədəniyyəti tarixinə qazandırdıqları yeniliklərdən biri də *mədrəsə təhsili* sistemi oldu. İlk mədrəsə nümunələri Qaraxanlı ərazilərində ortaya çıxmış, Səlcuqlar vasitəsilə bütün Şərqi İslam dünyasına yayılmışdır.

### 6.4.3. Tulunilər

Misir və Suriya ərazilərində ortaya çıxan ilk müsəlman-türk dövlətlərindən olan Tulunilərin banisi, Abbasi ordusunda xidmət etmiş türk əsilli bir əmir olan Əhməd ibn Tulun olmuşdur. Tulun mənşə etibarilə doqquz-oğuz türklərindən idi. Əhmədin atası, Samani əmiri Nuh ibn Əsəd tərəfindən Buxaradan Bağdada göndərilmiş, qısa müddət ərzində xəlifənin inandığı ən güclü ordu komandanlarından birinə çevrilmişdir.

Əhməd 816-cı ildə Bağdadda anadan olub, Samirədəki türk hərbi düşərgəsində yetişmişdir. Əhməd ibn Tulun, ögey atası Bayıkbəy xəlifə əl-Mötəz tərəfindən Misir əmiri təyin edildikdə onunla birlikdə Qahirəyə gedib. Abbasi Xilafətində həmin tarixdə baş verən ixtilaflardan istifadə edən Əhməd ibn Tulun 868-ci ildə öz müstəqilliyini elan edib, Tulunilər dövlətinin əsasını qoyub.

Əhməd ibn Tulun öz dövlətini yaradana qədər Misirdə geniş siyasi-hərbi fəaliyyət apardı. Əvvəlcə xəlifənin Misirdə maliyyə işlərinə baxan adamı Əhməd ibn Müdəbbiri,



*Tulunilər dövründə zərb olunmuş pul*

daha sonra da *bərid* adlanan poçt və kəşfiyyat təşkilatının rəisi Şukayrı təsirsiz hala gətirdi. Həmin vaxt ögey atası Bayıkbəyin öldürülməsi səbəbindən Misirin idarəsi Əhmədin qayınatası Yarcuq ət-Türkiyə tapşırılmışdı. Ancaq o, öz kürəkəninin mövqeyinin güclənməsinə xidmət etdi. Onun əmriylə Əhməd, indiki Liviyanın Aralıq dənizi sahilində yerləşən Berka şəhərinin və İsgəndəriyənin başına gətirildi. Əhməd həmin bölgələrin hakimi olarkən gəlirlərini artırıb, güclü bir ordu və donanma yaratdı.

Fustatın şimal-şərqində Katai adlı bir şəhər saldıran Əhməd ibn Tulun burada məscidlər, saray, darülşəfa (xəstəxana) inşa etdirdi, çövkən oyunları üçün böyük bir meydança düzəltdirdi. 873-cü ildə qayınatası Yarcuqun vəfatından sonra Misirin bütün idarəsini Əhməd öz əlinə keçirdi. Onun vaxtında Misir sürətlə inkişaf etməyə başladı. Xilafət sarayına gedən gəlirləri kəsən Əhməd, onları Misirin inkişafına xərclədi. 878-ci ildə Suriya hakimi Əməcur ət-Türki ölüncə, Əhməd ibn Tulun onun torpaqlarını da ələ keçirib, Mosula qədər ərazini nəzarəti altına aldı.

879/80-ci ildə öz adına sikkələr zərb etdirib, xütbələr oxudan Əhməd ibn Tulun Xilafət ərazisində ortaya çıxan ən böyük müsəlman dövlətin rəhbərinə çevrildi. 884-cü ildə vəfat edən Əhmədin yerinə oğlu Xumaraveyh çıxdı. Xumaraveyh gənc yaşda olduğundan dövləti bir müddət əyanları idarə etdilər. Lakin zamanla nəzarəti öz əlinə alan Xumaraveyh uzun müddət Abbasilərin Suriyaya göndərdiyi ordularla mübarizə apardı. Hətta Xumaraveyh o dərəcədə gücləndi ki, 893-cü ildə Bizansa hücum etdi. Bu hücum 896-cı ildə iki tərəf arasında razılaşma ilə nəticələndi. Sərt və qəti əmrlər verən Xumaraveyh 896-cı ildə Şamda öz əmirləri tərəfindən gecə yuxuda olarkən öldürüldü. Yerinə böyük oğlu Ceyşi Misir taxtına oturtdular. Lakin qısa vaxtda üsyankar komandaları təsirsiz hala gətirən Xumaraveyhin digər oğlu Harun hakimiyyəti ələ keçirdi. Onun hakimiyyəti on ilə yaxın davam etdi, lakin Harun da öz əmirləri tərəfindən öldürüldü. Taxta əmir Şeyban keçdi. Şeyban ordunu öz nəzarəti altında tutmaqda uğursuz olunca, Tulunilər dövləti 905-ci ildə ortadan qalxdı.

Tulunilər dövründə Misir qısa vaxtda mədəni-iqtisadi baxımdan böyük bir inkişaf mərhələsi keçirdi. Xüsusilə də Əhməd ibn Tulunun fəaliyyətləri Misirin çiçəklənməsinə səbəb oldu. Lakin Tulunilər dövləti sadəcə hərbi elita baxımından türk idi. Misir əhalisi həmin vaxt müsəlman ərəblərdən və müsəlmanlaşmış qibtilərdən ibarətdi. Ölkədə az sayda xristian və yəhudi yaşayırdı. Tulunilər dövründə 100 minlik ordunun sadəcə 30 faizini türklər təşkil edirdilər. Buna görə ordu əmirləri arasında ixtilaflar yaşanırdı. Bütün bunlar diqqətə alındıqda Tulunilər dövləti təqribən 40 il varlığını davam etdirə bildi.

Tulunilər Xilafət ərazisində yaranan ilk müsəlman-türk dövləti idi. Əhməd ibn Tulun Akkada böyük bir hərbi donanma da yaratmışdı. Tulunilər dövlətinin ömrü qısa olsa da, onların Misirdəki mədəniyyət izləri günümüzə qədər davam edir. Qahirədəki İbn Tulun məscidi həmin mədəniyyət nümunələrinin biridir. Tamamən kərpicdən inşa olunan məscid memari baxımdan Samirədəki Abbasi memarlıq əsərlərini xatırladır. Məscidin minarəsi isə orijinal olub, türk qübbə memarlığını əks etdirir.

## 6.4.4. İxşidilər

Tulunilərdən sonra Misirdə ortaya çıxan ikinci türk dövləti *935-969*-cu illər arasında mövcud olan İxşidilər idi. "İxşid" Fərqanədə hökm sürən bir türk xanədanının titulu idi. İxşidi ailəsinin ilk nümayəndəsi olan Cuf Abbasi xəlifəsi Mötəsim zamanında Bağdada gəlib, onun hakimiyyətini qəbul etmiş və türk orduları komandanı olmuşdur. Cufun oğlu Tuğaç Tulunilərin xidmətində yer almışdır.

İxşidilər dövlətinin banisi Məhəmməd ibn Tuğaç, Cufun nəvəsi idi. O, 882-ci ildə Bağdadda anadan olub. Atası Tuğaç Tulunilərin Şam və Təbəriyyə əmiri idi. Məhəmməd atasının nəzarətində yetişmiş və istedadlı bir idarəçi olmuşdur. 905-ci ildə Tulunilər dövləti süqut edincə, Məhəmməd, atası və qardaşı ilə Bağdada aparılıb həbsə atılmışdı. Tuğaç həbsdə vəfat etmiş, ancaq oğlanları Məhəmməd və Übeydullah 906/7-ci ildə sərbəst buraxılmışdır.

Sərbəst qaldıqdan sonra Abbasi xəlifəsinin vəziri Abbas ibn Həsəndən atasının intiqamını alan Məhəmməd 914/15-ci ildə Misirə gedib, həmin vaxt bölgədə hökm sürən Xəzər türklərindən Əbu Mənsur Təkinin xidmətinə girdi.

Həmin vaxt Misir və Suriyada iğtişaşlar və üsyanlar davam edirdi. Bu üsyanların yatırılmasında böyük rol oynayan Məhəmmədi Abbasi xəlifəsi Qahir-Billah (932-950) 935-ci ildə Misir əmiri təyin etdi. Məhəmməd adil idarəçiliyi ilə Misir xalqının rəğbətini qazandı. Ölkənin nəzarətini tam ələ keçirən Məhəmməd sərbəst hərəkət etməyə və xəlifənin qərarlarına əhəmiyyət verməməyə başladı. Buna görə bölgəyə ordu göndərən xəlifə ilə İxşidilər arasında müharibələr başladı. 940-cı ildə baş verən döyüşdə Abbasi orduları ağır məğlubiyyətə uğradılar. Nəticədə Abbasi xəlifələri Məhəmmədin Misirdəki hakimiyyətini qəbul etmək məcburiyyətində qaldılar.



*Məhəmməd ibn Tuğaç əl-İxşidinin adına kəsilmiş pul*

Məhəmməd ibn Tuğaç 946-cı ildə Şamda vəfat etdi. Onun yerinə 15 yaşlı oğlu Əbül-Qasım Ənucur keçdi. Gənc olduğundan dövləti onun adına Əbül-Misk Kafur idarə etməyə başladı. Lakin Ənucur dövləti ələ almağa başladıqda İxşidilər ordusu türklər və ərəblər arasında parçalandı. 960-cı ilə qədər bu iki qrup arasında ixtilaf davam etdi. Ənucurun 960-cı ildə vəfatından sonra taxta qardaşı Əbül-Həsən Əli keçdi. Lakin böhran içində hökm sürən Əbül-Həsən 966-cı ildə vəfat edincə, İxşidilər sürətlə tənəzzül etməyə başladılar. 969-cu ildə Misirdə İxşidilərin hakimiyyəti sona çatdı. İxşidilərin son hökmdarı Əbül-Fəvaris oldu. Onun vaxtında Misirdə aclıq, quraqlıq, qıtlıq və xəstəliklər artdı. Misirin hakimiyyətini isə şiə məzhəbli Fatımilər ələ keçirdilər və 1171-ci ilə qədər bölgəyə hakim oldular.

İxşidilər də Tuluni hökmdarları kimi elmə, ədəbiyyata, incəsənətə böyük maraq göstəriblər. Onların dövründə fiqh sahəsində İbn əl-Haddad əl-Kinani, Əbu Abdullah Hüseyn ibn Məhəmməd əd-Dəməşqi, İbn Sükkərə, Məhəmməd ibn Yəhya əl-Əsvani, İbn Şaban, hədis elmində Əbu Bəkr Əhməd ət-Tahhan, Həmzə əl-Kinani, təsəvvüfdə Əbu Həsən əs-Saiğ, Əbül-xeyr əl-Əqta, ədəbiyyatda Mütənəbbi, ər-Rəsai kimi alim və ədiblər yetişdilər. İxşidi dövrünün ən böyük memarlıq abidəsi Məhəmməd ibn Tuğaç tərəfindən Rövza adasında tikdirilən Qəsr əl-Muxtar sarayı idi. Lakin bu əsər günümüzə qədər gəlməyib.

## 6.4.5. Sacilər

Tulunilərdən sonra Xilafət ərazisində ortaya çıxan ikinci müsəlman-türk dövləti Sacilər idi. Sacilər Azərbaycan, Aran, Cürcan və Şərqi Anadolu ərazilərini əhatə edən geniş ərazilərdə 40 il hökm sürdülər.

Sacilər ailəsinin banisi Əbu-Sac Divdad idi. O, əslən Orta Asiyanın Usruşana əyalətindən bir türk xanədana mənsubdu. Əbu-Sac Abbasi ordularının baş komandanı Afşinin dostu olub, onunla birlikdə Xilafət ordusunda xidmət etmişdir. Vəfatından sonra onun iki oğlu Məhəmməd və Yusif Xilafət ordusunda hərbi fəaliyyətlərini davam etdirdilər. Həm Əbu-Sac, həm də iki oğlu uzun illər Xilafətin həcc yollarının əmiri kimi müqəddəs vəzifəni icra etdilər.

Məhəmməd 889-cu ildə Azərbaycan hakimi təyin edildi. Məhəmməd Azərbaycana gəldikdə bölgədə üsyanlar və iğtişaşlar davam edirdi. Qısa vaxtda bölgəni öz nəzarəti altına alan Məhəmməd, Aran və Azərbaycanın tamamını bir müsəlman-türk dövlətinin nəzarətində birləşdirdi. Əvvəl Marağa, daha sonra isə Ərdəbili özünə paytaxt seçdi.

901-ci ildə vəfat edən Məhəmmədin yerinə qardaşı Yusif taxta keçdi. Tarixdə Yusif ibn Əbu-Sac kimi xatırlanan bu hökmdar Azərbaycan tarixi baxımından böyük bir siyasi lider hesab olunur.

Yusif ibn Əbu-Sacın ən böyük xidməti Bizans və onun Şərqi Anadoludakı vassalları olan Baqratlı krallıqlarına qarşı apardığı uzunmüddətli qəza hərəkəti idi. Ani, Dvin, Tarom və Tiflisdəki Baqratlı krallarını məğlub edib öz nəzarəti altına alan Yusif, Van gölü və ətrafında hökm sürən Vaspurakan krallığını da özünə tabe etmişdir. Bizansın Qafqazdakı maraqlarına son qoyan Yusif, apardığı siyasət ucbatından Abbasi Xilafətilə də üz-üzə gəlmişdir. Abbasilərin göndərdikləri orduları bir neçə dəfə məğlub edən Yusif, Azərbaycanın müsəlman-türk yurdu halına gəlməsində müstəsna rol oynamışdır.





*Yusif ibn Əbu-Sac adına kəsilmiş pul*

919-cu ildə Ərdəbil ətrafındakı döyüşdə məğlub olan Yusif əsir alınıb Bağdada aparılsa da, onun əmirlərindən olan Səbük Azərbaycanın nəzarətini ələ alıb, Xilafətə qarşı mübarizəni davam etdirdi. Nəticədə məcbur qalan xəlifə əl-Müqtədir Yusifi sərbəst buraxıb, yenidən Azərbaycana göndərdi. Yusifin ikinci Azərbaycan hakimiyyəti 927-ci ilə qədər davam etdi. Həmin tarixdə Xilafət Kufə və Bəsrəni ələ keçirən Karmatilər qarşısında çarəsiz qaldığından Yusifdən kömək istədi. Karmatilərlə mübarizə aparan Yusif bu döyüşlərin birində öldürüldü.

Ancaq Yusifin qulamları (məmlükləri) Azərbaycanda Sacilərin hakimiyyətini davam etdirdilər. Onların vaxtında Azərbaycanda Xilafətin hakimiyyəti rəsmən sona çatdı. 941-ci ildə Azərbaycanda başqa bir türk dövləti Salarilərin yaranmasına qədər Sacilər varlıqlarını davam etdirdilər.

Sacilər Azərbaycan tarixində yaranan ilk müsəlman-türk dövləti idi. Dərbənddən Həmədana, Reydən Van gölünə qədər geniş əraziləri vahid bir dövlətin idarəsində birləşdirən Sacilər Bizansın Qafqaz və Şərqi Anadoludakı fəaliyyətinə ağır zərbə vurdular. Tarixdə müsəlmanlara qarşı ilk səlib müharibələrinin başladılması fikri Sacilərə qarşı ortaya atılmışdı. Xüsusilə də Yusif ibn Əbu-Sacın apardığı hərbi yürüşlər Bizansın vassalı olan Baqratlı krallıqlarının tənəzzülü ilə nəticələnmişdir.

## 6.4.6. Simcurilər

Abbasi xəlifələrinin vassalı olan Samanilərin idarəsi altında olan Xorasan ərazisində ortaya çıxan Simcurilər təqribən yüz il hökm sürmüş bir türk ailəsidir. Tarixçilikdə Simcurilərin müstəqil bir müsəlman-türk dövləti olduğu fikri mübahisəlidir. Simcuri ailəsinin ilk nümayəndəsi Əbu İmran Simcur idi. O, Samani əmiri İsmayıl ibn Əhmədin *(892-907)* qulamı olub. Samani sarayında *dəvətdarlıq* vəzifəsini icra edən Simcur 911-ci ildə Sistan hakimi oldu. O, 932-ci ilə qədər Samanilər adından Xorasan əyalətini idarə etmişdir.

Vəfatından sonra oğlu İbrahim Xorasan əyalətinə hakim olaraq göndərildi. O, 948-ci ilə qədər Cürcan və Nişapur əyalətlərini idarə etdi. Vəfatından sonra yerinə oğlu Əbül-Həsən Məhəmməd keçdi. Simcurilər xanədanının ən güclü əmirlərindən olan Əbül-Həsən 989-cu ilə qədər Xorasan hakimi oldu. Onun dövründə Samanilər siyasi cəhətdən tənəzzül keçirirdilər. Bundan istifadə edən Əbül-Həsən *sipəhsalar* titulu ilə Xorasanı nəzarəti altına almış və Səffarilər ilə Samanilər arasındakı mübaribələri sülhlə nəticələndirmişdi.

Atasının yerinə keçən Əbu Əli Məhəmməd əmirül-üməra (əmirlərin əmiri və ya *bəylərbəyi*) titulu alaraq, Samanilərin ən güclü komandanı oldu. Əbu Əli zamanında Simcurilər tam müstəqil hərəkət edirdilər. O, Xorasanın tamamını öz nəzarəti altına aldı və 997-ci ilə qədər bölgənin tək hakimi oldu.

Simcurilərin axırıncı hakimi Əbül-Qasim Əli oldu. Onun vaxtında Xorasanı Qəznəvilər ələ keçirdilər. 1002-ci ildə Qəznəvilərə qarşı bir müharibədə məğlub olub əsir alınan Əbül-Qasim, ehtimal ki, o tarixdə Qəznədə vəfat etmişdir.

Simcurilərin tarixi baxımdan əhəmiyyəti uzunmüddətli Xilafət hakimiyyətindən sonra türklərin yenidən Xorasanda hakim siyasi-hərbi gücə çevrilməsinin yolunu açmaları idi. Çoxlu sayda türk Orta Asiya ərazisindən Xorasana gəlib, Simcurilərin ordularına qoşuldular. Simcuri ailəsi siyasi-hərbi şəxsiyyətləri qədər çox sayda elm adamı da çıxarmış bir ailədir. Anadolu Səlcuqlu dövrünün böyük tərcüməçilərindən Tacəddin əs-Simcuri bu ailəyə mənsub olmuşdur.



*Əbu-Əli Simcuri və Mahmud Qəznəvi ("Came ət-təvarix")*

## 6.4.7. Qəznəvilər

İlk müsəlman-türk dövlətləri arasında ən qüdrətlisi Qəzvənilər idi. Bu dövlətə Qəznəvi adının verilməsinə səbəb onların Qəznə şəhərinin hakimi olmaları hesab olunur. Qəznəvilər dövləti isə Qəznəvi Mahmud dövründə "*dövləti-yəminüddövlə*" və ya "*dövləti-ali-Səbük Tigin*" adlanırdı.

962-ci ildə mərkəzi Qəznə şəhərində qurulan Qəznəvilər dövlətinin banisi Alptəkin olub. O qarluq türklərindən bir qulam idi. Qəznə hazırda Əfqanıstan ərazisində dağlıq bir bölgədə yerləşir. Alptəkin Samanilərin Xorasan ordularının komandanı idi. 961-ci ildə Samani taxtı uğrunda gedən mübarizədə hökmdarlığa namizəd olan Nəsr ibn




*Qəznəvilər dövlətinin ərazisi*



*Mahmud Qəznəvi adına kəsilmiş gümüş pul*



Əbdülməlikin məğlubiyyətindən sonra Qəznə bölgəsinə çəkilən Alptəkin oradakı yerli Leviklər xanədanını yıxaraq öz hökmdarlığını elan etdi. Alptəkin vəfat etdikdən sonra yerinə oğlu Əbu İshaq İbrahim *(963-967)* keçdi. Onun oğlu olmadığına görə dövlətdə söz sahibi olan Bilgə Təkin və Səbüktəkin sıra ilə hakimiyyətdə onu əvəz etdilər. Qəznəvi dövlətinin əsas təməllərini Səbüktəkin *(977- 997)* atdı. Ondan etibarən Qəznədə hakimiyyət vərasət yoluyla atadan oğula keçməyə başladı. Yəni Qəznəvilər bir xanədan dövləti halına gəldi.

Səbüktəkinin öz vəzirinə yazdırdığı oğlu Mahmuda nəsihətnamə kitabı olan "Pəndnamə"də, onun indiki Qırğızıstanın İssıq gölü sahilindəki Barşanda dünyaya gəldiyi, atalarının qarluq olduğu qeyd edilir. Səbüktəkin Samanilərin tənəzzülündən istifadə edib, sırayla Toxaristan, Bəlx, Bəlucistan ərazilərini ələ keçirdi. 986-87-ci illərdə apardığı döyüşlərlə Şimali Hindistanın da bir sıra əyalətlərini tutdu. Bununla da, Hindistana müsəlman fəthlərinin yolunu açan ilk hökmdar oldu. Simcuriləri də zəiflədib, Xorasana sahib olan Səbüktəkin oğlu Mahmudu Xorasan hakimi təyin etdi.

Samani hökmdarları onun real gücünü qəbul edib *"Nəsr üd-din vəd-dünya"*, oğlu Mahmuda isə *"Seyf üd-dövlə"* titulları verdilər. Verilən bu titullar Samanilərin öz təbəələrinin mütləq hakimiyyəti ilə razılaşdıqları mənasına gəlirdi. Səbüktəkinin vəfatı ilə Qəznəvi taxtına oğlu İsmayıl çıxdı, lakin Xorasan hakimi Mahmud qardaşına üsyan edib, bir il ərzində hakimiyyəti ələ keçirdi. "Sultan" titulu alan ilk türk hökmdarı olan Mahmud çox ağıllı, bacarıqlı, tədbirli və sərt bir hökmdar idi. Otuz ildən çox davam edən hakimiyyəti müddətində Qəznə dövlətini tarixin ən ehtişamlı dövlətinə çevirdi. Bu günün qumluq, biyabanlıq və dağınıq Əfqanıstan ərazisində yüzlərlə sənət əsəri, abidə, memarlıq nümunələri, elm və məktəblər inşa etdirdi. Qəznə, Nişapur, Mərv, Bəlx, Kabil o dövrün ən böyük şəhərləri

cərgəsinə daxil oldular. Hindistana təşkil etdiyi çoxsaylı hərbi səfərlərlə Mahmud, Hind qaynaqlarının Xorasan və Əfqanıstana axıdılmasına səbəb oldu. Fillərdən ibarət tam təchizatlı ordu yaradan ilk müsəlman hökmdar da Mahmud idi.

Sultan Mahmud *(998-1030)* uzun müddət Qaraxanlılarla müharibələr aparmaq məcburiyyətində qaldı. Bu müharibələr həm Qəznəvi, həm də Qaraxanlılara insan və güc itkisinə səbəb olmaqdan savayı heç bir şey qazandırmadı. Bu müharibələrin başlıca səbəbi Samani mirasını ələ keçirmək uğrunda idi. Nəticədə iki dövlət 1025-ci ildə sülh bağlayaraq dostluq qurdular. Bu münasibətlə Qəznəvi hökmdarı Mahmud ilə Qaraxanlı hökmdarı Yusif Qadir xan üz-üzə görüşüb qucaqlaşdılar və bir-birilərinə olduqca qiymətli hədiyyələr təqdim etdilər. İki düşmənin dostlaşmasına səbəb bölgədə üçüncü bir gücün ortaya çıxması idi. Həmin güc Səlcuqlu oğuzları adlanırdı. Belə ki, 1025-ci il görüşü sırasında Səlcuqlu oğuzlarının hökmdarı Arslan Yabqu hiylə ilə ələ keçirilərək Hindistanda bir qalaya həbs edildi. Bu hadisə Səlcuqlu-Qəznəvi düşmənliyinə səbəb oldu.

Sultan Mahmud Abbasi xəlifəsini tanımaqla xəlifənin adından istifadə edib, özünü "İslam dünyasının hamisi" adlandırdı. Buna səbəb həmin dövrdə İslam dünyasının böyük bir hissəsinin şiə məzhəbli dövlətlərin əlinə keçməsi idi. Belə ki, Fars, İraqi-Ərəb və İraqi-Əcəmdə Büveyhilər, Azərbaycanda Salarilər, Misir və Suriyada Fatımilər, Şimali Suriyada Ukaylilər kimi xanədan dövlətlərinin hamısı şiə-ismaili inanclara sahib idi. Belə olan halda Sultan Mahmud sünni Abbasi xəlifələrinin haqlarını müdafiə etmək məqsədilə Büveyhilərlə mübarizə aparmış və Kirmanı, hətta Reyə qədər əraziləri ələ keçirmişdi. Mahmudun bu təzyiqi qarşısında Bağdadı ələ keçirən Büveyhilər Abbasi xəlifələrinə toxunmamışdılar.

Sultan Mahmud hakimiyyəti dövründə demək olar ki, hər il Hindistana hərbi səfərlər təşkil etmişdir. Mənbələrdə onun Hindistana təşkil etdiyi səfərlərin sayı 17 göstərilib. Sultan Mahmud bu səfərlərinə fəth və qəzavat adı versə də, Qəznə hökmdarı bu yolla özünün dövlət xəzinəsini doldurmağı da yaddan çıxarmamışdır. Həmin səfərlər Sultan Mahmuda İslam dünyasında böyük prestij yaratmışdır. O, bu yolla çox sayda müsəlmanın Qəznəyə gəlməsinə şərait yaratmışdır. 1025/26-cı ildə qazandığı Somnat zəfəri Mahmudun Hindistan səfərləri arasında ən parlaq qələbəsi sayılır. Həmin qələbədə Qəznəvilərin ələ keçirdikləri qənimətin miqdarı saysız-hesabsız idi. Bu qələbədən sonra Abbasi xəlifəsi Mahmuda dövlətin və İslamın sığınacağı mənasına gələn *"Kehfüd-dövlə vəl-İslam"* ləqəbi və hökmdarlara layiq xələtlər göndərdi.

Ağıllı olduğu qədər də şöhrətpərəst bir hökmdar olan Mahmud dəbdəbəyə, ehtişama, böyük memarlıq əsərləri yaratmağa və ədəbiyyat əsərlərində rəvayət edilən elmi məclislər təşkil etməyə həvəskar biri idi.

Mənbələrdə Sultan Mahmudun məzhəbi kimliyi mübahisə obyekti olmuşdur. Yaxşı təhsil alan, hətta Quranı oxuyan Mahmud əvvəllər *kərramilik* adlanan məzhəbi müdafiə etmiş və bu məzhəbin yayılmasına şərait yaratmışdır. Lakin Büveyhilərlə apardığı mübarizə sırasında qatı sünni fikirləri dəstəkləmişdir.

Mahmud türk tarixinin ən maraqlı və rəngli siması olmuşdur. Anası türk dilindən başqa dil bilmədiyi üçün Quranı türk dilinə tərcümə etdirmişdir. Mahmudun başqa bir xüsusiyyəti isə "İran-Turan" ideologiyasının memarı olmasıdır. Belə ki, özünü türk xaqanları elan edən Qaraxanlılara qarşı mübarizə aparan Sultan Mahmud Sasani dövrünün əfsanəvi "İran hökmdarlığı" anlayışını yenidən canlandırmış və bu məqsədlə Firdovsini "Şahnamə" əsərini yazmağa məcbur etmişdir. Lakin əsər hazır olduqda Sultan Mahmud Qaraxanlılarla sülh bağladığı üçün bu ideologiyadan əl çəkmiş və Firdovsinin əsərinə maraq göstərməmişdir.



*Məsud Qəznəvi adına kəsilmiş pul*



*Məhəmməd Qəznəvi adına kəsilmiş pul*

Apardığı dərin və çoxşaxəli siyasətə baxmayaraq, Sultan Mahmud oğuzların Xorasanda məskunlaşmasına göz yummaqla öz dövlətinin də sonunu hazırlamışdır. Belə ki, o, 1030-cu ildə vəfat etdikdən sonra oğuzlar mərhələli şəkildə Xorasana nəzarəti ələ keçirdilər. Yerinə keçən oğlu Sultan Məsud bu proseslərin qarşısını ala bilmədi və 1040-cı ildə Dəndənəkan döyüşündə oğuzlar qarşısında ağır məğlubiyyətə uğradı. Döyüşdən qaçarkən yolda öz adamları tərəfindən öldürülən Sultan Məsud ilə Qəznəvilər dövlətinin də inkişaf mərhələsi sona çatdı.



Səlcuqlu dövlətinin vassalına çevrilən Qəznəvilər 1186/7-ci ilə qədər varlıqlarını davam etdirdilər. Qəznəvilərin son sultanı Xosrov Məlik *(1160- 1186)* oldu.

Səbüktəkin, Sultan Mahmud və Sultan Məsud dövründə Qəznəvilər saray, dövlət, ordu və inzibati idarəetmədə mükəmməl bir sistem yaratmışdılar. Qəznəvilər formalaşdırdıqları *ağaçi* (*hacibül-hüccab*), *candar*, əmiri-silah, *camedar*, şərabdar, əmiri-şikar, əmiri-axur, çavuş kimi saray vəzifələri ilə tam təşkilatlı bir saray sistemi qurdular. Qəznə saray modeli sonrakı dövlətlər tərəfindən müasir dövrə qədər davam etdirilmişdir.

Qəznə dövlətinin güclü divan sistemi hərsahəli idi. Kəşfiyyatdan orduya, kənd təsərrüfatından şəhərlərin idarəsinə qədər böyük bir *divani-vəzarət* aparatı fəaliyyət göstərirdi. Səlcuqlu dövlətinin ilk dövr vəzirləri Kündüri və Nizamülmülk həmin divanda yetişmişdilər. Qəznə divanında hər birinin başında bir vəzir olan *divani-risalət*, *divani-ərz*, *divani-işraf*, *divani-ceyş* mövcud idi. Qəznə divanı çoxdilli olub, burada türk, ərəb, dəri (fars), hind, sistani dillərində sənədlər hazırlanırdı.

Qəznəvi hökmdarları öz xalqlarına qarşı çox ədalətli olublar. Qəddarlığı ilə xalqda qorxu yaradan Sultan Mahmud belə öz xalqına qarşı yaxşı davranış sərgiləməyən məmurlarını, əyanlarını və əsgərlərini ən ağır şəkildə cəzalandırmışdır. Məhkəmələrə *qaziül-quzat* (qazılar qazısı) başçılıq edirdi. Qəznə hökmdarlarının rəhbərlik etdikləri ədalət divanı isə *divani-məzalim* adlanırdı.

Tam təşkilatlı ordu sistemi yaradan Qəznəvilərin əyalət ordularının komandanlarına *salar*, *sipəhsalar* deyilirdi. Qəznəvilərin ordusu beş əsas hissədən ibarətdi:

1. Qulaman adlanan qullardan ibarət ordu dəstəsi;
2. Xassa adlanan nizami qoşun dəstələri;
3. Əyalət orduları;
4. Muzdlu əsgərlər;
5. Könüllülər.

Ordunun başında *sultan* özü yer alırdı. Şəhərlərin idarəçiliyi iki idari strukturun əlində cəmləşmişdi. Qala şəhərlərinin mühafizəsinə *kutvallar* rəhbərlik edir, şəhərlərin inzibati-idari işlərinə şəhnələr nəzarət edirdi. *Muhtəsib*, *xətib*, üləma və vəqflərə nəzarət edən *işrafi-əvkaf* məmurları da şəhər idarəsində söz sahibi idilər. Qəznəvi dövlət sisteminin nə qədər mükəmməl olduğunu Böyük Səlcuqlu dövlətinin vəziri Nizamülmülkün yazdığı "Siyasətnamə" əsərindən anlamaq mümkündür. Belə ki, Nizamülmülk Qəznə dövlət sistemini model götürərək Səlcuqlu dövlət sistemini hazırlamışdır.

Qəznəvilər dövrü müsəlman-türk mədəniyyəti, elm və ədəbiyyatı baxımından da zirvə hesab olunur. Qəznə sarayları elm-irfan yuvası olaraq fəaliyyət göstərmişdir. Xüsusilə də Mahmud və Məsud dövründə hər əyalətdə imarətlər ortaya çıxmış və əyalət hakimləri şairləri, ədibləri, xəttatları, münəccimləri öz saraylarına cəlb etmişlər. Mülk sahibləri öz adlarına əsərlərin yazılmasını sifariş edərək, elm üçün böyük pullar sərf etmişlər. Dövlətşah Səmərqəndi adlı bir təzkirə müəllifi Sultan Mahmudun sarayı ilə əlaqəsi olan şair və ədiblərin sayının 400-ə çatdığını qeyd edir. Şairlər arasında ilk iyerarxiyalar məhz həmin dövrdə yaranmağa başladı. *Məliküş-şüəralıq* məqamı ən güclü şairlərə verilməyə başlandı.

Qəznəvi dövründə yetişmiş və Şərq divan ədəbiyyatının böyük söz ustaları qəbul edilən şairlər arasında Razi, Escədi, Damqani, Fərruxi, Əbülfəth Busti, Firdovsi, Mənuşöhri və Sənai xüsusilə qeyd edilirlər. Sultan Məsud özü də sənətə və şeirə böyük maraq göstərmiş, xəttat və şair kimi tanınmışdır. Bu şairlər rübai, dübeyti, qəzəl və məsnəvi kimi yeni şeir janrları yaratmış, dastan mahiyyətli poemalar yazmışdılar. Qəznəvi şairləri demək olar ki, hər mövzuya xitab etmiş, təsəvvüfi şeirlərdən rasional mövzulara qədər çoxşaxəli fikirlər səsləndiriblər.



Qəznəvilər dövründə tarix elmi də çiçəklənmə dövrü yaşamışdır. Bu dövrün tarixçiləri arasında Əbu Nast Utbi Səbüktəkin və Mahmud dövrünü əhatə edən "Zeyn əl-əxbar" əsərini qələmə almışdır. Sultan Məsud dövrünün tarixçisi Əbül-Fəzl Beyhaki isə otuz kitablıq "Tarixi-Beyhaki" əsərinə imza atmış və bu əsərin sadəcə son cildi günümüzə çatmışdır.

Qəznəvi dövrünün böyük alimləri sırasında Əbu Reyhan əl-Biruninin adı xüsusilə qeyd edilməlidir. Hindistanı ilk araşdıran müsəlman elm adamı da Biruni olmuş və elm tarixində "müqayisəli dinlər tarixi" sahəsinin memarı hesab edilir. Sultan Mahmud onu sarayının incisi adlandırmışdır. Mineralogiyadan fizikaya, tarixdən astronomiyaya, tibbdən coğrafiyaya və botanikaya qədər hər sahədə əsərlər qələmə alan Biruni, ekvatorun da uzunluğunu müəyyən etmişdir. Onun 180-ə yaxın əsəri olduğu qeyd edilir.

Sultan Məsuda əsər ithaf edən müəlliflər arasında Əbu Məhəmməd ən-Nasıhi, Sultan İbrahimin himayəsində yaşayan Əbul-Fərəc, Osman Muxtari kimi ədiblər də Qəznə sarayının yetirmələridir. Qəznəvilər dövründə Harakani, Süleymi, Kuşeyri, Ənsari kimi böyük təsəvvüf alimləri yetişmişdilər.

Qəznəvi dövrü memarlıq sənətinin intibah dövrü sayılır. Bu dövrdə saysız bəndlər, körpülər, çarşılar (bazar), şəhərlər, mədrəsələr, karvansaraylar, imarətlər, qüllələr ucaldılmışdır. Balaca bir şəhər olan Qəznə Şərqin memarlıq incisinə çevrilmişdir. Fransız arxeoloqlar tərəfindən araşdırılan Büst Ləşkər-Bazarda böyük və ehtişamlı Qəznəvi sarayının bir kompleksi ortaya çıxmışdır. Səbüktəkin ilə oğlu Sultan Mahmudun məqbərələri bu günə qədər qorunmuşdur. Sultan Mahmud əldə etdiyi Sumnat zəfərindən sonra Qəznədə Arusul-Fələk adlı bir məscid tikdirmişdir.



## 6.5. OĞUZLAR VƏ TÜRKMƏNLƏR

Tarixdə ilk dəfə *oğuz* adı qədim Assur qaynaqlarında iskitləri ifadə edən *azkuzai*, *iskuzai*, *askenaz* şəklində qeyd edilib. Burada açıq şəkildə *quz/oğuz* adı özünü büruzə verməkdədir. Ancaq Avropa və Sovet tarixçiləri israrla iskitləri irani (Hind-Avropalı) bir xalq olaraq gördüklərindən bu məlumatı əsassız qəbul edirlər. Bəzi tarixçilər *iskuzai* adını *iç oğuz* şəklində tələffüz edirlər. Bunun nə dərəcədə doğru olduğunu dəqiq deyə bilməsək də, *iskuzai/azkuzai* adının bir *oğuz* mənasının olduğunu qeyd etmək o qədər də çətin deyildir.

Oğuz adı sonrakı dövrlərdə qarşımıza *oqur/oğur* şəklində çıxır. Bizanslı müəllif Prisk, 463-cü ilin hadisələrindən danışarkən sonu "*qur*"la qurtaran bir neçə türk boyunun (şarağur, oğur, onoğur, qutiqur/kutiqur, bitiqur və s.) adını çəkir. Qədim türk dilinin "-r=z, -l=ş" ləhcələrinə ayrıldığını diqqətə alaraq oğur=oğuz dəyişikliyi bununla izah edilir.



Oğuz adı Göytürklər dövründə türk boylarının bir hissəsinin ortaq adı idi. Bu ad Göytürk kitabələrində Altı Oğuz, Səkkiz Oğuz, Doqquz Oğuz şəklində işlədilib.

Oğuz adının mənasına gəlincə, bu da xeyli mübahisələrə səbəb olub. Bu adın mənasını "oğul, oğlan", "oğlaq, oğuş/uğuş" (boy, uruk), "qohum-əqrəba olmaq", "oğ/uq" (boy), "oqşa" (bənzəmək) "oğur/oğuz" (əqrəbalar) kimi izah edənlər olmuşdur. İskit adının mənası üzərində dayanan qaynaqlarda bu ad "atıcı, oxçu, qaçmaq, getmək, axmaq, sürətli, avara" anlamında işlədilmişdir. İskit adının irani versiyası, əslində, "ox" (*ok*) mənasındandır. Oğuz adında da "*ox/ok*" özünü biruzə verir. Bu, adın qədim türkcədə "əqrəbalar/boylar" (İ.Kafesoğlu, Q.Nemet və F.Sümər də "boylar" mənası üzərində durmuşlar) qarşılığı verdiyini ortaya çıxarır.

Türk dillərində *oğuz* kəlməsinə yaxın, eyni mənalı çox sayda kəlmə vardır. Bunlar arasında "ilk süd, ağız" mənasında *oğuz/ağuz*, "öküz, kəl" mənasında öküz, "çay və irmaq" mənasında öküz/uuz/uquz adları daha çox diqqəti çəkməkdədir. Ancaq, *oğuz/oqur* adını "boylar ittifaqı"-nın adı olaraq fikirləşmək daha doğrudur. *Oğuz/oqur*, yəni *boylar* müxtəlif zamanlarda və müxtəlif şəkillərdə mərkəzində türk boyları və xalqlarının yer aldığı geniş Asiya ərazisində yaşayan digər xalqları da öz daxilində birləşdirən ittifaq dövlətçiliyinin ən ideal şəklinin adıdır. Uyğurlar, ərəb qaynaqlarında "*toguz/guz*" olaraq qeyd edilir. Bu, uyğurların *oğuz/oqur* boyu olmasından qaynaqlanır. Kültigin kitabəsində türk xaqanı Kültigin doqquz oğuz boyundan öz xalqı olaraq söz edib.

Orta əsr müsəlman alimi Biruniyə görə, İslam dinini qəbul etmiş oğuzlara *türkmən* deyilir ki, mənası "*türk-mənənd*"dir. Digər müsəlman müəlliflər bu adı "*türk-iman*" şəklində də izah ediblər. Bu, ərəbdilli mənbələrdə *türkmən* adının "müsəlman türk" mənasında işlədildiyini göstərir.

Məsələ burasındadır ki, müsəlman müəlliflər, bu adı ancaq oğuzlara şamil etmişlər. Sadəcə, Müqəddəsi, İslamı qəbul etmiş qarluqlara da "türkmən" deyildiyini qeyd edir. P.B.Qolden *(Peter Benjamin Golden; d. 1941)* bu xüsusiyyəti diqqətə alaraq belə yazır: "O tarixlərdə türkmən adının oğuz və qarluqlar üçün istifadə edildiyi bilinir. Onların əsas ortaq xüsusiyyəti müsəlman olmalarıdır".

Bəzi qaynaqlarda bu ad "oturaq türk" mənasında sosial status məqsədilə də işlədilmişdir. Məsələn, Biruni və digər müəlliflərə görə, oğuzlar İslamı qəbul edib, əkinçilik həyatına keçən qəbilədaşlarına "türkmən oldu", yəni "İslamı qəbul edib, oturaq həyata keçdi" deyirlər. Ancaq sonrakı dövr mənbələrində Anadoludakı köçəri türklər üçün "türkmən" adı keçir. Bu, türkmən adının sosial bir məna ifadə etdiyi düşüncəsini təkzib edir. Bütün bunlar, araşdırmaçıları türkmən adının dini və digər mənaları üzərində durmağa məcbur etmişdir. N.A.Aristov *(Николай Александрович Аристов; 1847-1910)*, sözün qrammatik açıqlamasına girərək, "*tyurkmen*" adının "türk" və "mən" sözlərindən əmələ gəldiyini və buradakı "mən" sözünün "torpaq, yer, vətən" mənası verdiyini ifadə etmişdir. O.Turan *(Osman Turan; 1914-1978)* "türk-mənənd" ("mənənd" farsca "bənzəyən" mənasındadır) açıqlamasına qarşı olsa da, yenə də bu adı İslami mənada tədqiq etmişdir. D.E.Yeremyev *(Еремеев Дмитрий Евгеньевич; d. 1928)* türklərdə "mən" şəkilçisinin "ataman, gökmən, öğrətmən" kəlmələrində olduğu kimi "insan" mənasına gəldiyini qeyd etmişdir. Sovet tarixçisi O.Tumanoviç "türkmən" adını "türk insanı, xalqı" mənasında göstərmişdir. J.Deny *(Jean Deny; 1879-1963)* bu adı "öz türk", "safqan türk", İvan Blaramberq *(Ива́н Фёдорович Бларамбе́рг; 1800-1878)* "turkeman", L.Ligeti "öz türk", F.Sümər "öz türk" və V.V.Bartold "türk Kuman/Kuman türk" mənalarında izah etmişlər.

Ərəb qaynaqlarından daha əvvəl Çin və Soğd qaynaqları "*Türkmən*" adından söz edirlər. Çin salnaməsi



olan "T'ung-tien"də (Dung-dyan) Sui və ya Su-te (Soğd/Soğdak) ölkəsindən danışılarkən "Tü-chü-meng" adlı bir yerdən söz edir. Daha sonrakı oxumalar bu adı "Tukyu möng" (Tyuki-möng) olaraq qeyd edirlər. VIII əsrə aid bir Soğd məktubunda "*trwkkm'n*" və "*trkwm'n*" sözləri keçir. Burada açıq şəkildə "*trk*" – türk, "*m'n*" isə "mən", yəni "*türkmən*" adının ifadəsi olduğu görülməkdədir.

Soğd və Çin qaynaqlarındakı "*Türkmən*" adının işləndiyi şəklə baxsaq, tarixçilərin və dilçilərin fikirləşdiklərinin əksinə, bu ad "*türkməngü*" adının qısaldılmış (*türkmən*) şəklidir deyə bilərik. "*Türk məngü*" – "əbədi türk", "*sonsuz türk*" mənasında olub, göytürklər öz ölkələrinə bu adı verirdilər. Bu təsvir, Soğdak ölkəsi sərhədlərində bir ölkə adı olaraq da işlədilmiş ola bilər. Müqəddəsi, Orduda oturan "*türkmən məliki*"ndən (*məlikü'l-trkman*) söz edir. Burada "türkmən" adı etnik mənadan daha çox, ölkə və dövlət adı olaraq işlədilmişdir. Sonrakı dövrlərdə *türkməngü* adını müsəlman müəllifləri İslamı qəbul edən türklər üçün işlədiblər.

X əsrdə *türkmən* adı geniş yayılmışdı. XII əsrdə isə *türkmən* adı oğuz adının yerini aldı.

Səlcuqlu birliyinin qurulmasından əvvəl, Oğuz Yabqu dövlətinin yüksəliş dövründə oğuzlar 24 boy halındakı təşkilatlanmalarını tamamlamışdılar. Kaşğarlı Mahmud bunu əsas götürərək, oğuzların əvvəllər 24 boydan mütəşəkkil olduğunu demişdir. 24 boy sadəcə oğuzlara xas bir xüsusiyyət deyildir. Hunların da 24 boydan meydana gəldiyi qeyd edilir. Çin mənbələri göytürklərin 28 boydan ibarət olduğunu yazıblar. Hun və digər türk boylarında olduğu kimi oğuzlar da iki qola ayrılırdı. Hunlarda "sağ bilgə" və "sol bilgə" olduğu kimi oğuzlarda bu bölünmə Bozox-Üçox (İç oğuz/Dış oğuz) şəklindəydi. Rəşidəddin, oğuzların *boz* və üç oxlar şəklində ayrılmasını Oğuz xanın oğullarına görə müəyyənləşdirmişdir. Ona görə, Bozox və Üçox boyları Oğuz xanın Gün, Ay, Ulduz, Göy, Dağ və Dəniz olmaqla altı oğlunun nəslindən törəmişdir.




*Oğuz boyları və onlara aid damğalar*



*Oğuz xaqan və oğulları. Topqapı nüsxəsi.*
*Fəzlullah Rəşidəddinin "Came ət-təvarix" əsərindən miniatür.*



**Bozoxlar:**

I. Gün Xanın oğulları (1. Kayı/Qayı; 2. Bayat; 3. Alkaravlı/Alkaevli; 4. Qara evli);

II. Ay Xanın oğulları (5. Yazır; 6. Dögər; 7. Dodurqa; 8. Çaruklu);

III. Ulduz Xanın oğulları (9. Avşar; 10. Kazık; 11. Bəgdili; 12. Karkın/Qarqın);

Üçoxlar:

IV. Göy Xanın oğulları (13. Bayındır; 14. Beçenə/Peçeneq; 15. Çavuldur; 16. Çebni/Çəpni);

V. Dağ Xanın oğulları (17. Salur; 18. Eymür; 19. Alayontlu; 20. Yüregir);

VI. Dəniz Xanın oğulları (21. İğdır; 22. Bekdüz; 23. Yıva; 24. Kınık/Qınıq).

Kaşğarlı Mahmud xələclərdən iki boyun daha əvvəl oğuzlardan ayrıldığını və 24 boy sayının 22-yə düşdüyünü qeyd edərkən birinci sırada Səlcuqlu ailəsinin içindən çıxdığı qınıq boyunu göstərib. Ona görə 22 oğuz boyları belədir:

1. qınıq;
2. qayığ;
3. bayandur;
4. iva (yıva);
5. salğur (salur);
6. əfşar;
7. bəydili;
8. bügdüz;
9. bayat;
10. yazgır;
11. eymür;
12. qara bölük;
13. alka bölük;
14. iqdır;
15. üregir;
16. totırqa;
17. ula-yuntluq;
18. töker;
19. biçənək;
20. çavuldur;
21. çəpni;
22. çaruklu.

# ƏLAVƏ OXU

## VI.I. Ədəbiyyat


- Barthold V.V., *Moğol İstilasına Kadar Türkistan*, Hazırlayan: Hakkı Dursun Yıldız, Ankara: TTK Yayınları, 1990.
- Genç Reşat, *Karahanlı Devlet Teşkilatı*, Ankara: TTK Yayınları, 2002.
- Merçil Erdoğan, *Müslüman-Türk Devletleri Tarihi*, Ankara: TTK, 1992.
- Necef Ekber N., *Karahanlılar*, İstanbul: Selenge Yayınları.
- Yıldız Hakkı Dursun, *Sacilər (Azərbaycanda hökm sürmüş bir türk xanədanlığı, 889-940)*, Tərcümə, əlavələr və qeydlər: Əkbər N.Nəcəf, Bakı: Başla nəşriyyat, 2018.


## VI.II. Suallar

1. Müsəlman-türk dövlətləri neçə qrupa ayrılır?
2. Müsəlman-türk dövlətçilik anlayışının formalaşmasında Qaraxanlıların əhəmiyyəti nədən ibarət idi?

## VI.III. Tapşırıqlar

1. Müsəlman-türk dövlətlərini yaranma tarixinə görə sıralayın.
2. Müsəlman-türk dövlətlərinin xəritə üzərində yerlərini müəyyən edin.
3. Kaşğarlı Mahmudun "Divani lüğət-it-türk" əsərinin diskussiyasını aparın və müasir türk tarixi baxımından önəmini müəyyən edin.

## VI.IV. Terminlər

*Baqratlı* – Şərqi Anadolu ərazisində hökm sürmüş xristian krallıqların ümumi adı. Baqratlar əslən yəhudi olub, İslamiyyətdən əvvəl Şərqi Anadolu bölgəsinə gəlib yerləşmiş hakim ailə idi. Sasanilərin son dövrlərində güclənən bu ailə bölgədə geniş mülklərə sahib oldular və öz krallıqlarını yaratdılar. Xilafət ilə Bizans arasında balanslaşdırılmış siyasət aparan Baqratlılar, əsasən Ani, Dvin, Kartli, Kaxetiya, Tarom kimi müxtəlif qollara ayrılırdılar.

*Bərməki* – Abbasilər dövründə Bəlx əsilli vəzir ailəsi. Buddist inanclı Bərməkilər daha sonra zərdüştiliyi, sonra da İslamı qəbul ediblər. Ancaq öz əvvəlki inanclarını unutmayıb, ənənələrini qoruyublar. Bu ailənin ən böyük nümayəndəsi Yəhya ibn Xalid uzun illər Abbasi vəziri olmuşdur.

*Cahiliyyə* – İslamdan əvvəlki ərəb cəmiyyətinin adət və ənənələrini ifadə edən ümumi ad.

*camedar* – müsəlman dövlətlərində hökmdarların geyimini, qiyafətini, xələt və mərasim libaslarını tərtib edən və ümumilikdə hökmdarın geyiminə nəzarət edən vəzifəli şəxlərə verilən ad.

*candar* – hökmdarı və sarayı qorumaqla vəzifəli olan mühafizə dəstəsinin başında duran şəxslərin rəsmi titulu.

*çətir* – hökmdarlıq əlaməti olub, hökmdarın başı üzərinə açılan geniş yelpazəyə verilən ad.

*darül-Hərb* – İslam anlayışında müsəlmanların yaşamadıqları diyarlara verilən ümumi ad.

*darül-İslam* – müsəlmanların yaşadıqları ölkələrə verilən ümumi ad. İslam evi mənasına gəlir.

*dehqan* – Sasanilər dövründə torpaq sahibkarlarına verilən idari bir termindir. Dehqanlıq atadan oğula irsən keçir və onlar mülkədar hesab olunurdular. Dehqanlıq sistemi Samanilər və Qəznəvilər dövründə yenidən formalaşmağa başladı. Dehqan adı geniş mənada torpaq sahibkarlarını və əyanları ifadə edirdi.

*dəri* – Samanilər dövründə Buxara sarayı ətrafında formalaşan fars dili. Dəri "saray" mənasına gəldiyi üçün bu dilə zəbani-dəri (saray dili) deyilirdi.

*dəvətdar* – Abbasi və digər müsəlman dövlətlərində hökmdarın *dvit* (mürəkkəb), yəni katiblər sinfinin başında

yer alan vəzifəli şəxslərə verilən saray terminidir. Bu titul daha sonra vəzirləri ifadə etməyə başladı.

*divan* – müsəlman dövlətlərində rəsmi dövlət işlərinin icra olunduğu məclis və ya dövlət dairəsi. Divanın başında vəzir dayanırdı. Divan sisteminin genişləməsi ilə hər sahənin öz vəziri olmuş, onlara da ulu vəzir və ya baş vəzir rəhbərlik etmişdir. İlk dəfə xəlifə Ömər dövründə *(634-644)* formalaşan divan sistemi, əsasən dövlətin iqtisadi idarəetmə mexanizmini ifadə edirdi.

*divani-ceyş* – ordu divanı və ya hərbi divan. Ordunun vəziyyətinə, ehtiyaclarına, xərclərinə nəzarət edən orqan.

*divani-ərz* – ordudakı əsgərlərin maaşlarını verən, silah ehtiyacını qarşılayan və əsgərləri qeydiyyatdan keçirən orqan.

*divani-işraf* – nəzarət divanı. Hərbi və məhkəmə işlərinə nəzarət edən orqan.

*divani-məzalim* – müsəlman dövlətlərində ən ali idari və ədli məhkəmə orqanı. Nəzarət aparatı.

*divani-risalət* – hökmdarların daxili və xarici yazışmalarını aparan orqan.

*elat* – köçəri və ya yarımköçəri həyat tərzinə verilən ümumi ad.

*əmiri-şikar* – ov əmirliyi. Hökmdarın çıxdığı ovu tərtib edən, ov əraziləri seçən və təşkil edilən mərasimə nəzarət edən əmir.

*əmir-silah* – hökmdarın xüsusi ordusunda silahlara və ordunun silah anbarlarına nəzarət edən əmirlərə verilən ad.

*əmirül-üməra* – türkcəsi "bəylərbəyi" olan bu termin Abbasilər dövründə siyasi-hərbi termin kimi ortaya çıxdı. Samanilər və Səlcuqlar dövründə geniş yayıldı.

*fiqh* – hüquq.

*hacibül-hüccab* – saray təşkilatında mabeyinçi, yəni saray mərasimlərinin tərtibatçısı olan yüksək vəzifəli şəxlərə verilən ad.



*həcc yolları əmirliyi* – Xilafət tarixində ən mühüm və müqəddəs vəzifələrdən olan həcc əmirliyi Məkkə, Mədinə kimi mühüm şəhərlərin olduğu bölgələrin idarəsini, yolların nəzarətini və zəvvarların təhlükəsizliyini təmin etmək məqsədilə hələ Məhəmməd peyğəmbər dövründə yaradılmışdır. Sacilər ailəsi 40 ilə yaxın həcc əmirliyi vəzifəsini icra ediblər.

*hədis* – Məhəmməd peyğəmbərin sözləri.

*xətib* – Quranı xətm etmiş şəxslərə verilən ad.

*Xülafeyi-Raşidi* – Məhəmməd peyğəmbərdən sonra hakimiyyətdə olmuş ilk dörd və bəzən də beş (Əbu Bəkr, Ömər, Osman, Əli, Həsən) xəlifəni ifadə edən "seçilmiş xəlifələr" mənasında adlandırma.

*ixşid* – Soğd (Səmərqənd) və Fərqanədə hökm sürmüş türk bəylərinin istifadə etdiyi siyasi-hərbi titul. İxşid sözü pəhləvicə "parlaq, zəka" mənasına gəlir. İslam mənbələrində "əmir" və "hökmdar" mənasında istifadə edilmişdir.

*kərramilik* – IX əsrdə Xorasan və Mavəraünnəhrdə ortaya çıxmış bir müsəlman məzhəbidir. Məzhəbin banisi Məhəmməd ibn Kərram idi. Bu məzhəbin başlıca xüsusiyyəti ondan ibarət idi ki, kərramilər Allahın zati birliyini əsas götürürdülər.

*kitabi* – İslami ədəbiyyatda səmavi inanclara (ibranilik, xristianlıq kimi) mənsub olanlara verilən ad. Burada kitab deyildikdə Quran, İncil və Tövrat nəzərdə tutulur.

*kutval* – müsəlman dövlətlərində şəhər və əyalətlərin mühafizəsini icra edən ordu komandanlarına verilən vəzifə.

*qaziül-quzat* – qazıların başçısı. Qazıların ali rəhbəri. Şəriət məhkəmələrinin başında dayanan fiqh alimlərinə verilən vəzifə.

*qulam* – İslam dövlətçiliyində qullardan ibarət hərbi dəstələrə verilən ad. Qulamlar, əsasən xəlifə, əmir və hökmdarların şəxsi ordusunu təşkil edirdilər. Osmanlı dövlətində onlara *qapıqulu* adı verilmişdir.

*mədrəsə* – "dərs" sözündən yaranan söz. Mədrəsələr ilk təşkilatlı təhsil sistemi olub, bütün İslam dünyasında yayılmışdır. Mədrəsələrin ilk nümunələri Xorasan və Orta Asiyada ortaya çıxmışdır. Xüsusilə də Bəlxdəki buddist təhsil sisteminin təsirilə formalaşdığı iddia edilən bu qurum türklər tərəfindən İslam ölkələrində yayılmışdır.

*məmlük* – hərfi mənası "malik olmaq" olub, mülk sözündən yaranmışdır. Əsir və ya qul olaraq ələ keçirilən fərqli din və inanclardan olan gənc oğlanların təhsil yoluyla yetişdirilib, müsəlman ordusunda hərbi xidmətə götürülməsini ifadə edən bir termindir. Məmlüklər hökmdarların xüsusi hərbi mühafizəçisi, xas ordusu və muzdlu əsgərləri olurdular.

*məvali* – ərəb olmayan müsəlmanları ifadə edən ümumi ad. Məvla sözündən yaranıb, mənası "dost, sahib, azad olunmuş qul" mənalarına gəlir.

*mühtəsib* – hesabdar və ya vergi məmurları. Onlar dövlətin gəlirlərinin hesabını aparırdılar. Mühasib sözündən yaranmışdır.

*növbət* – orta əsrlərdə müsəlman-türk dövlətlərində hökmdarlıq əlamətlərindən biri. Bir növ himn. Hər gün 3 və ya 5 dəfə hökmdarın otağı qarşısında çalınırdı.

*örf* – bir cəmiyyətdə qəbul edilən ümumi sosial-əxlaqi davranışları ifadə edən ümumi termin.

*rəiyyət* – əkinçiliklə məşğul olub, illik vergi verən təsərrüfat sisteminə bağlı geniş xalq kütləsinə orta əsrlərdə verilən ad. Kəndli mənasında da istifadə edilən bu termin torpaqla məşğul olan insan qruplarını ifadə edirdi. Rəiyyət qəbul edilənlər orduya cəlb edilməsələr də, körpülərin salınması, yolların çəkilməsi, bölgədə qərargah quran orduların ehtiyaclarının təmin edilməsi kimi bəzi hərbi mükəlləfiyyətlər daşıyırdılar. Bu termin, əsasən *irani* xalqları ifadə edirdi ki, onlar da daha çox kənd təsərrüfatıyla məşğul olurdular. Rəiyyəti idarə edənlər isə *dehqanlar* adlanırdı.



*sancaq* – bayraq. Hökmdar, ordu və əyalət sancaqları şəklində fərqli və müxtəlif olurdu.

*saray* – pəhləvicə "ev" (srada) sözündən yaranan kəlmə. X əsrdən etibarən müsəlman dövlətlərində dövlət işlərinin idarə olunduğu yeri ifadə edirdi. Zamanla saray idarəsi genişlənərək içində hökmdar ailəsinin də yaşadığı xüsusi bir təşkilata çevrilmişdir. Orta əsrlərdə türklər saraya *qarşi* deyirdilər.

*sipəhsalar* – pəhləvicə "ordu" və "komandan" sözlərindən yaranan bu termin siyasi-hərbi məna kəsb edirdi. Samanilər dövründə yayılmağa başlayan bu ad ordu başçılarına və sərkərdələrə verilirdi. Simcuri əmirləri bu titulu daşıyırdılar. Sipəhsalar titulu Səlcuqlar dövründə də istifadə olunmuşdur.

*sultan* – "güclü dəlil", "səlahiyyət", "hakimiyyət" mənasında Quranda keçən bu termin xəlifələrin titulu olub, daha sonra müsəlman hökmdarları tərəfindən hakimiyyət titulu olaraq istifadə edilmişdir.

*sünnət* – Məhəmməd peyğəmbərin hərəkət və davranışlarını əsas götürən anlayışa verilən ümumi ad.

*şaman* – əsasən Sibir xalqlarında, moğol və tunquzlarda təbiətlə bağlı hər ünsürü mistik qəbul edən inancın din xadimi. Türklərdə belə adamlara kam deyilirdi. Kam və ya şamanlar xüsusi dini silk olmayıb, fərdi fəaliyyət göstərirdilər. Şamanlar güclü və zəif, qadın və kişi şamanlar olmaqla ayrılırdılar. Ağ şamanlar daha güclü şamanlar hesab olunur, qara şamanlar magiya ilə də məşğul idilər. Şaman sözü tunquzca olub, XIX əsrdə rus tədqiqatçıları tərəfindən dünyada yayılmış, buna uyğun olaraq, təbiətlə bağlı inanclara şamanizm adı verilmişdir. Əslində, kam və şaman inancının təməlində Göy Tenqri anlayışı yer alırdı.

*şəhnə* – şəhər və ya əyalətlərin asayişindən cavabdeh olan hərbçi əmirlərə verilən titul.

*şərabdar* – hökmdar süfrəsinə qoyulan içkilərə nəzarət edən şəxslərə verilən ad.

*şəriət* – Quranı, sünnəti, icma və ağlı, bəzən də qiyas və rəyi əsas götürən hüquq anlayışı.

*şiə* – Xilafətin İmam Əli və onun nəslindən olduğuna inanan məzhəbi kimlik.

*tac* – hökmdarlıq əlaməti olaraq sarayda, mərasimlərdə, taxta çıxarkən və cülus zamanı hökmdarların başlarına qoyduqları qızıl və qiymətli daşlardan düzəldilmiş baş geyimi.

*taxt* – hökmdarların oturduqları dördayaqlı geniş oturacaq. Taxtlar qiymətli əşyalarla bəzədilirdi.

*tuğ* – əsasən müsəlman-türk dövlətlərində siyasi, hərbi mənada istifadə olunan bayraqlara verilən ad.

*üləma* – müsəlman ölkələrində yüksək təhsil almış elm adamlarını ifadə edən bir termin. Alim sözündən yaranıb. Orta əsrlərdə alimlər sinfini ifadə etmək məqsədilə üləma adı işlədilirdi.

*ümmət* – İslami bir termin olaraq Quranla birlikdə ortaya çıxan müsəlman cəmiyyətini ifadə edən ümumi ad. Dil, irq, rənq fərqi olmadan bütün müsəlmanlar eyni kimliyin, yəni ümmətin mənsubları hesab olunurlar.

*yəsəvilik* – Əhməd Yəsəvi *(ö.1166)* tərəfindən qurulan *yəsəviyyə* və ya əhmədiyyə adlanan sufi təriqətidir. Türklərin dini inanc və xüsusiyyətləri ilə İslam dininin əsaslarını təməl götürən bu təriqət, əsasən türklər arasında yayılmışdır.



*Yeddinci fəsil*

# SƏLCUQLAR



*Böyük Səlcuq imperatorluğu (1045-1157)*





## 7.1. SƏLCUQLU OĞUZLARI

Səlcuqlu ailəsi 24 oğuz boyunun *qınıq* boyundan idi. Fəzlullah Rəşidəddin və Yazıçıoğlu Əli *(Yazıcıoğlu Ali; XV əsr)* qınıqları oğuzların üçox qoluna daxil olan axırıncı boy kimi təqdim ediblər. Kaşğarlı Mahmud isə qınıqları *bozoxlar* cərgəsində ilk boy olaraq göstərib. Mənbələr səlcuqların qınıqların bəy ailəsindən deyil, kasıb bir ailədən gəldiyini iddia edirlər.

Səlcuqluların ilk nümayəndəsi Kəraküçi Xoca olub. Onun oğlu Toksurmuş İçi və ya Toqşırmış Elçidir. Ata və oğulun hər ikisi haqqında "çadır düzəldən usta olub, olduqca kasıb idilər" deyilir. Bu, səlcuqluların qınıqların "ən kasıb ailəsindən" çıxdığını göstərdiyi kimi, Oğuz Yabqu dövlətində hakimiyyət dəyişikliyindən sonra onların kasıblaşdığının da ifadəsi ola bilər.

Səlcuqlu ailəsinin tarix macərası Duqaqla başlayır. Səlcuqlu dövrü müəlliflərindən əl-Hüseyni *(Əbül-Həsən əs-Seyyid Sədruddin Əli ibn əl-İmam əş-Şəhid Əbil-Fəvaris Nəsr*

*ibn Əli əl-Hüseyni; XII əsr)* onun haqqında belə yazır: "Türk dilində mənası "*dəmir yay*" olan Yaqaq (Tuqaq/Duqaq) şanlı, tədbir və rəy sahibi bir adam idi... Yaqaq oğlu Səlcuqa həddi buluğa çatdıqda əmarətü'l-ceyşi və əskəri komandanlıq mənasına gələn *sübaşı* ləqəbini verdi".

Oğuznamələrdə Toksurmuş İçinin üç oğlundan danışılır: Duqaq, Toğrul və Arslan. İbn Xassül *(Əbül-Əla Məhəmməd ibn Əli ibn Hassul; XI əsr)*, Əbül-Fərəc, Mirxond *(Həmidəddin Məhəmməd Mirxond ibn Bürhanəddin Həvəndşah ibn Kəmaləddin Mahmud Hərəvi; XV əsr)* kimi tarixçilər "Sarçıq-Duqaq" kimi tanıdıqları bu şəxsin Xəzər məlikinin sarayında xidmət etdiyini qeyd edir, əl-Hüseyni, İbn əl-Əsir *(Əbül-Həsən İzzəddin Əli ibn Məhəmməd ibn Məhəmməd əş-Şeybani əl-Cəzəri; 1160-1233)* və Mehmed Nəşri *(Mehmed en-Neşri; XV-XVI əsrlər)* isə, sadəcə "türk məliki"ndən söz edirlər. Duqaqın xidmət etdiyi hökmdarın "*bayqu*" adı daşıdığını diqqətə alan tarixçilər, onun Yengikənddəki Oğuz yabqularına deyil, Əski Quzelində bayqu ünvanını daşıyan Oğuz hakiminə xidmət etdiyini qeyd edirlər.

Oğuz dövlət sistemində *sübaşı* ordu başçısına deyilirdi. Səlcuq adı mənbələrdə *selçük* olaraq qeyd edilir. Bu adı tədqiqatçılar "sel" feili ilə izah edirlər. Macar türkoloq L.Rasoni *(László Rásonyi; 1899-1984)*, bu sözün "kiçik sel" mənasına gəldiyini iddia edib. Lakin orta və müasir türk dillərində *sel* feili yoxdur. Bu ad daha çox *sal-salmaq* feilinin bir törəməsidir. Türkolog P.Pelliot, "*salçuq*" oxunuşunun doğru olduğunu və "mübarizəçi" mənasına gəldiyini qeyd edib.

Türkiyəli tarixçi M.A.Köymən *(Mehmet Altay Köymen; 1916-1993)*, Səlcuq bəyin 107 il, yəni *900-1007*-ci illər arasında yaşadığını təsbit edib. Səlcuqun 985-ci ildə ailəsiylə birlikdə Cəndə köç etdiyi diqqətə alınarsa, bu tarixdən 10-15 il əvvəl onun atası Duqaqın vəfat etdiyi ehtimal olunur. Səlcuq özü isə hələ atası sağ olarkən sübaşı olmuşdur.

Səlcuqlu tarixçisi Zahirəddin Nişapuriyə *(XII əsr)* görə də səlcuqluların sürüləri üçün otlaq ərazilər qalmadığından Türküstan torpaqlarını tərk etdilər. Digər mənbələr də oğuzların X əsrin sonlarında Türküstandan Mavəraünnəhrin Səmərqənd, Buxara və Nur bölgəsinə hərəkət etdiklərini qeyd edirlər.



Səlcuqların ata yurdu Türküstanın Sığnaq və Qaracuq adlanan indiki Qazaxıstan əraziləri idi. Həm siyasi, həm də iqtisadi səbəblərdən oğuzlar Səlcuq bəyin liderliyində Sırdəryanın aşağısına hərəkət edib, Cənd bölgəsi yaxınlığında yerləşdilər. Oğuz bəyləri orada *kəngəş* (xalq məclisi) təşkil etdilər. Məclisdə "Əgər biz, bu ölkənin ənənələrini və inanclarını qəbul etməsək, heç kəs bizə yaxşı rəftar etməyəcək; bu da bizim az və yalnız qalmağımıza səbəb olacaq" şəklində bir fikir ortaya çıxdı. Yəni Cəndə gələn Səlcuq ağıllı hərəkət edib, əvvəlcə İslam dinini qəbul etmiş, sonra da Cənd camaatı ilə ünsiyyətə keçmişdir. Səlcuq bəy bu yolla ətraf hakimlərin düşmənçiliyindən uzaq durmağı, Xarəzm və Mavəraünnəhrdə kafirlərə qarşı "cihad" etmək üçün toplanan *qazilərin* dəstəyini almağı planlamışdır. Oğuzlar Cəndə yerləşdikdən sonra Xarəzmin Zəndək qalası hakiminə bir elçi göndərib, onlara İslam dininin əsaslarını öyrədəcək müsəlman bir alimin (*fəqih*) göndərilməsini xahiş etdilər. Zəndək hakimi (*vali*) bu təklifi sevinclə qarşıladı, hətta alimlə birlikdə oğuzlara zəngin hədiyyələr də göndərdi. Əbül-Fərəcə görə, Səlcuq bəyin bu ağıllı tədbirindən sonra oğuzlar "Cənddə bir neçə il qaldılar. Olduqca rahat yaşadılar və sayları da hər gün artdı".

Cənd bölgəsi bu dövrdə Samanilərlə Oğuz Yabqu dövlətinin sərhədində yerləşirdi. Cənddə müsəlman türkmənlərlə birlikdə *xarəzmlilər* də yaşayırdı. Ancaq Cənd Samanilərə deyil, Oğuz hökmdarına aiddi. Yəni Səlcuq bəy Samani ölkəsinə deyil, Oğuz yabqusuna tabe olan bir əraziyə yerləşmişdi. Cənd müsəlmanları yabqunun vergi siyasətindən narahat idi. Səlcuq bəyin Cəndə gəlib İslamı qəbul etməsi, bölgənin yabqudan narazı olan müsəlman camaatının onun ətrafında toplanmasına səbəb oldu.

Cənddə məskunlaşan Səlcuq bəy həmin illərdə siyasi böhran keçirən Samanilərlə Qaraxanlı və Qəznəvi dövlətlərinə qarşı ittifaq yaratdı. Hərbi yardım sayəsində Samani hökmdarları Buxara ətrafındaki Nur ərazisini oğuzlara verdilər. Bu ittifaq səlcuqluların Samani mirasının davamçıları olmasına səbəb oldu. Samanilərin son nümayəndəsi Əbu İbrahim Müntəsir də taxtını geri qaytarmaq üçün "bayqu" ləqəbli Oğuz hökmdarının yanına qaçdı. Adı qeyd edilən həmin "bayqu" İsrail ibn Səlcuq, yəni Arslan idi. O, İslam dinini atasından çox sonra, 1003-cü ildə qəbul edib "İsrail" adını almış və atasının vəfatından sonra Səlcuqluların hökmdarı olmuşdu.

Oğuzların Samanilərin haqlarını müdafiə etməsi onları aktiv şəkildə bölgədə gedən siyasi-hərbi hadisələrin tərəfi halına gətirdi. Bu hadisələr də Səlcuqlu dövlətinin yaranmasına yol açdı.



*Böyük Səlcuqlu imperatorluğu dönəminə aid əsgər fiquru. Metropoliten muzeyi*



*İranda tapılan Səlcuqlu əsgəri heykəli*





# 7.2. SƏLCUQLU DÖVLƏTLƏRİ

Səlcuq bəylə birlikdə Cənddə məskunlaşan oğuzlar 989/90-cı ildə Oğuz Yabqu dövlətinin hökmdarı Əli xana qarşı döyüşdə qalib gəldilər. Bu zəfər, Səlcuqlu tarixində həlledici rol oynadı. İki fərqli inanclı oğuz dövləti arasında baş verən qarşıdurmada Oğuz Yabqu dövlətinə düşmən olan Qaraxanlı, Samani və Xarəzm hakimləri Səlcuq bəyi dəstəklədilər. Bu qələbə, Cənddə Səlcuqlu dövlətinin yarandığı mənasına gəlirdi. Qələbədən sonra Cənddə keçirilən *kəngəşdə* oğuzlar Səlcuq bəyi "hökmdar" seçdilər. Səlcuqun "*bayqu*" titulu aldığı ehtimal olunur. "Səlcuqlu" adı (*Dövləti Ali-Səlcuq*) həmin tarixlərdə ortaya çıxdı. Yəni Səlcuqlu dövləti *990-cı il*də yarandı. Ancaq müasir tarixşünaslıqda Səlcuqlu dövlətinin yaranması *1038* və ya *1040-cı il* hesab edilir. Əvvəlki dövr *Səlcuqlu bəyliyi dövrü* adlandırılır.

1003-cü ildə Arslan İslamı qəbul etdi və 100 yaşına çatmış Səlcuq bəyin taxtdan çəkilməsi ilə səlcuqluların başına keçdi. Gərdiziyə görə, o, "bayqu" titulunu aldı. 1040-cı ilə

qədər Səlcuqlu bəyliyinə Səlcuq *(990-1003)*, Arslan *(1003-1025)* və Musa Bayqu *(1025-1040)* rəhbərlik etdilər. Səlcuqlu dövlətinin banisi Səlcuq bəy 1007-ci, bəzi mənbələrə görə, 1009-cu ildə vəfat etdi.

Arslan Bayqu dövründə müsəlman oğuzlar çox gücləndilər. İbn əl-Əsir və Mirxonda görə, səlcuqlular Cənd üzərindən Buxaraya qədər gəldilər. Zahirəddin Nişapuriyə görə isə, səlcuqlular Buxaranın Nur və Səmərqəndin Soğdiana ərazilərini tutdular, Samanilərin tarixə qovuşması ilə Mavəraünnəhr və Xorasandakı siyasi boşluğu doldurmağa başladılar. Səlcuqlu oğuzların varlığı iki düşmən dövlətin, yəni Qaraxanlı və Qəznəvi dövlətlərinin dost olmasına səbəb oldu.

Səlcuq bəyin dörd oğlu vardı: Mikayıl, İsrail, Yusif və Musa. Toğrul və Çağrının atası olan Mikayıl, Səlcuq bəyin sağlığında bir döyüşdə şəhid olmuşdu. Toğrul və Çağrını babaları böyütmüşdü. Səlcuq bəy öldükdə Toğrul 17, Çağrı 20 yaşlarında idilər. Müsəlman olduqdan sonra Toğrul bəy Məhəmməd, Çağrı bəy isə Davud adını almışdı. Arslan bəyin vaxtında Toğrul ilə Çağrı, əsasən Nur oğuzlarına başçılıq edirdilər. 1025-ci ildə Arslan Bayqunun hiylə ilə ələ keçirilib Qəznəvi zindanına atılmasıyla Səlcuqlu oğuzları üç qola ayrıldılar:

- **Yabqulu oğuzları.** Arslan Bayquya bağlı olanlar və hakimiyyətin onun soyuna aid olduğunu iddia edənlər. Yabqulu oğuzları əvvəlcə Xorasanda məskunlaşdılar. Qəznəvilərin təzyiqi ilə Xorasanı tərk edib Azərbaycana getdilər.
- **İnallı oğuzları.** Səlcuq bəyin oğlu Yusifin ətrafında toplaşan oğuzlar. Yusif Qaraxanlılarla apardığı döyüşdə öldürüldükdən sonra həmin oğuzlara onun oğlu İnal bəy başçılıq etməyə başladı.
- **Nur oğuzları.** Buxara ətrafındakı Nur bölgəsində məskunlaşdıqları üçün onları belə adlandırıblar. Nur oğuzlarının başında Musa Bayqu, Toğrul və Çağrı bəylər



dayanırdı. Toğrul və Çağrı, əmiləri Musanı bayqu elan edib, oğuzların hərbi dəstələrinə özləri başçılıq edirdilər.

1030-cu ildə Qəznəvi hökmdarı Sultan Mahmudun, ondan bir neçə il sonra da Qaraxanlıların böyük hökmdarı Yusif Qadir xanın vəfatı ilə oğuzlar kütləvi surətdə Mavəraünnəhri tərk edib, Xorasanda məskunlaşmağa başladılar. Onlar Amudəryanı keçib, Səraxs, Əbivərd və Fəravaya yerləşdilər. Həmin oğuz köçlərinə Yağmur, Boğa, Qızıl və Gök Daş adlı yabqulu oğuz bəyləri rəhbərlik edirdi. Təqribən 1032-ci ildə də Arslan Bayqu Hindistanda həbs edildiyi zindanda öldü.

Yusif Qadir xanın ölümündən sonra Qaraxanlı taxtı uğrunda Yusif xanın oğulları, Mavəraünnəhrdə Nəsr İlig xanın oğulları, Buxarada da Əli Təkin xanın oğulları arasında şiddətli mübarizə başladı. Nəticədə Qaraxanlı Nəsr İlig xanın oğulları Mavəraünnəhr, Yusif Qadir xanın oğlanları da Türküstanı ələ keçirib, Qaraxanlı dövlətinin qərb və şərq olaraq parçalanmasına səbəb oldular. Mavəraünnəhrdə Qaraxanlı təzyiqinin artması ilə Səlcuqlu oğuzları Xarəzm, Dehistan və Xorasana sığındılar.

1034-cü ilin noyabrında Oğuz Yabqu dövlətinin hökmdarı Şah Məlik Cəndə hücum edib, səlcuqluları böyük bir məğlubiyyətə uğratdı. Bu döyüşdə 7-8 min Səlcuqlu əsgəri öldürüldü, çox sayda insan əsir alındı və səlcuqluların böyük heyvan sürüləri ələ keçirildi. Canını xilas edib Xorasana qaçan oğuzlar o qədər ağır vəziyyətdə idilər ki, Qəznəvi tarixçiləri onların "cırıq və köhnə libasda gəzdiklərini" yazırlar. Lakin Qəznəvilər oğuzları Xorasana buraxmaq niyyətində deyildilər. 1034-cü ilin dekabrında Səraxs yaxınlığında Qəznəvi orduları başçısı Nuş Təkin ilə Səlcuqlular arasında şiddətli vuruşma meydana gəldi. Səhərdən gecəyə qədər davam edən vuruşma, gecə vaxtı səlcuqluların çölə qaçmasıyla nəticələndi. Qəznə sultanı Məsud əsir alınan oğuzların fillərin ayaqları altında parçalanmasını əmr etdi. Lakin səlcuqluların Xorasandan başqa

gedəcək yerləri yoxdu. Qışı Qaraqum səhrası ilə Dehistan ətəklərində keçirən oğuzlar 1035-ci ilin yaz aylarında yenidən Xorasana daxil oldular. Beyhakiyə *(Əbu Bəkr Əhməd ibn əl-Hüseyn ibn Əli əl-Beyhaki; 994-1066)* görə, onların arasında qıpçaqlar da vardı. May ayında Musa Bayqu, Toğrul və Çağrı, Yınal bəylərin başçılıq etdikləri səlcuqlu tayfaları da Ceyhunu aşıb Xorasana gəldilər. Səlcuqlular Nisaya qədər hərəkət etdilər. Orada Qəznə valisinə bir məktub yazıb, sultanın onlara uyğun bir yer verməsini xahiş etdilər. Ancaq Sultan Məsud, onlardan əvvəl Səraxs, Fəravə ətrafına yerləşmiş 4 minlik oğuzlarla böyük problemlər yaşadığından səlcuqlulara Xorasanda yer verməyin təhlükəli olduğunu bildirdi. Həmin vaxt Xorasana gələn səlcuqluların sayı 10 min çadıra çatırdı. Qəznəvilərdən uyğun cavab ala bilməyən Toğrul, Çağrı və Musa Bayqu başçılığındakı səlcuqlular 29 iyun 1035-ci ildə Nisa şəhəri ərtafında düşərgə salan Qəznə ordusunu pusquya salıb darmadağın etdilər. Qələbədən sonra Musa, Toğrul və Davud ayrı-ayrılıqda Sultan Məsuda elçilər göndərib, Nisa, Fəravə və Dehistanın onlara verilməsini tələb etdilər. Bunun müqabilində səlcuqlular vergi verməyi və Qəznəvi ordusunda xidmət etməyi öhdələrinə götürürdülər.

Səlcuqluların davranışı Sultan Məsudu əsəbiləşdirdi. Bu dəfə səlcuqlular Talxan (Mərvərrud şərqində), Fəryab və Bəlx ətrafını talan edib, Reyi mühasirəyə aldılar. Səlcuqluların bu hərəkəti Qəznə sultanını hərəkətə keçirdi. 1038-ci ilin iyununda Səraxs qapıları ağzında baş verən müharibədə Qəznə ordusu ağır məğlubiyyətə uğradı. Səlcuqlular düşmənlərini Herata qədər qovdular. Hətta İbrahim İnalın əmrindəki Səlcuqlu əsgərləri Nişapuru mühasirəyə alıb, şəhəri təslim aldılar. Üç gün sonra Toğrul bəy özü 3000 atlı ilə Nişapura gəldi və özünü sultan elan etdi. Mənbələr bu tarixi Böyük Səlcuqlu dövlətinin yaranması hesab edir.

Sultan Məsud Xorasana göndərdiyi sübaşı komandanlığındakı ordunun məğlub olduğunu eşidincə 50.000 piyada, 300 fil və atlı dəstələri ilə özü hərəkətə keçib, Səraxsa gəldi. Qəznə ordusu 1040-cı ilin 17 mayında Mərvə doğru yola çıxdı. Həmin vaxt Səlcuqlu ordusunun sayı 16 min süvaridən ibarət idi. 23 mayda sabah namazından sonra Qəznə ordusu Mərvin 2 fərsəx uzaqlığında dayandı. Səlcuqlular qəznəviləri tələyə salıb, onları su mənbələrinin olmadığı Dəndənəkan səhrasına çəkdilər. Səlcuqlular səhradakı kiçik quyular xaricində bütün quyuları heyvan leşləri və daşlarla doldurmuşdular. Məsudun ordusu susuzluqdan halsız düşdü. Kiçik quyulardan su əldə etmək üçün əsgərlər arasında çıxan çaxnaşmadan istifadə edən qulamlar, Qəznəvi ordusunun atlarını ələ keçirib, səlcuqluların tərəfinə keçdilər. Gözlənən məqamın çatdığını görən Toğrul və Çağrı əmrindəki səlcuqlular hücuma keçib, qəznəviləri ağır bir məğlubiyyətə düçar etdilər. Döyüş dövrün ən böyük dövləti hesab edilən Qəznəvi imperiyasının taleyini həll etdi. Sultan Məsud onu qoruyan kiçik hərbi qüvvə ilə çətinliklə əvvəlcə Mərvərruda, oradan da Qarcistana qaça bildi. Daha sonra öz adamları tərəfindən öldürüldü. Səlcuqlular isə qısa vaxtda bütün Xorasana sahib oldular.

Yenidən Nişapura daxil olan Toğrul bəy burada "böyük sultan" (*sultanü'l-əzəm*), qardaşı Çağrı bəy isə "şahənşah" (*məlikü'l-məlik*) elan edildi.

### 7.2.1. Böyük Səlcuqlu dövləti

Dəndənəkan qalibiyyətindən sonra oğuzlar Qəznə əyalətlərini bir-bir ələ keçirməyə başladılar. Zəfərin üç böyük memarı yeni fəthlər üçün üç yerə ayrıldılar. Toğrul bəy 1040-cı ildə 1000 nəfərlik süvari ilə Nişapura hərəkət etdi; Çağrı bəy Bəlx və Toxaristan üzərinə yeridi. Əmiləri Musa Bayqu isə Mərvdə qaldı. Qəznə taxtında hakimiyyət uğrunda mübarizənin qızışmasından istifadə edən Çağrı bəy Qəznə dövlətinin torpaqlarını ələ keçirməyə başladı.

O, uzun sürən mühasirədən sonra Bəlxə sahib oldu. Musa isə Herata hücum etdi. Çağrı bəy oğlu Alparslanı Bəlxin hakimi təyin etdi. 1049-cu ildə Qəznəvilər Səlcuqlu vassallığını qəbul etdilər. 1060-cı ildə Qəznəvi dövlətinə aid Toxaristan, Tirmiz, Qubadiyan, Vəhş, Herat və Vəlvəlic əyalətləri Böyük Səlcuqlu dövlətinə daxil edildi.

Musa Bayqu Herata, İbrahim İnal qardaşı Ərtaş ilə Sistana sahib oldular, Toğrul bəy isə Təbəristan ilə Cürcan əyalətlərini ələ keçirib, burada hökm sürən Ziyarilər və Bavəndilər dövlətlərini özünə tabe etdi. Belə məlum olur ki, səlcuqlular ilk dövrlərdə mərkəzləşmiş bir güc olaraq deyil, qədim türk hakimiyyət ənənəsi ilə bir neçə hərbi qola ayrılaraq hərəkət edirdilər. Toğrul bəy apardığı ağıllı siyasət nəticəsində mərhələli olaraq, Səlcuqlu dövlətini mərkəzləşdirdi. 1040-cı ildə aparılan hakimiyyət bölgüsündə Çağrı bəy Ceyhun çayından Nişapura qədər ərazilərə, İbrahim İnal Kuhistan və Cürcana, Musanın oğlu Əbu Əli əl-Həsən Herat, Beşənc, Sicistan və Qur əyalətlərinə yiyələndi. Payına geniş torpaqlar düşən Səlcuq ailəsinin hər bir fərdi "böyük sultan" kimi Toğrulu hökmdar olaraq qəbul etdilər. Bütün Səlcuqlu torpaqlarında onun adına xütbə oxudulur, pullar zərb edilir və sultan xəzinəsinə vergi ödənilirdi.



*Toğrul bəy adına kəsilmiş pul*



Toğrul bəy ələ keçirdiyi ölkələrin insan resurslarından istifadə etməyə qərar verdi. Toğrul bu yolla türk olmayan əhalini Səlcuqlu dövlətinin təbəəsi halına gətirdi, Qəznəvi dövlətinin Xorasanda tətbiq etdikləri dehqan (irsi torpaq idarəçiliyi) modelini davam etdirdi. Dağılan Qəznəvi bürokratiyasını öz ətrafında topladı, başda Künduri və Nizamülmük olmaqla çox sayda köhnə divan katiblərini Səlcuqlu sarayına cəlb etdi. Toğrul bəy ələ keçirdikləri torpaqların tamamına nəzarət etmək üçün Reyi paytaxt olaraq seçdi. Toğrul bəy qısa vaxtda divan işlərinə köhnə Samani və Qəznəvi dövrünün farsdilli məmurlarını və vəzirlərini alaraq iqtisadi, sosial və idari işləri onların nəzarətinə verdi. Şərqi müsəlman bölgəsini öz nəzarətində saxlamaq üçün Toğrul bəy Sasani-Abbasi-Qəznəvi dövrünün müsəlmanlaşmış idarəçilik modelini mənimsədi. Ancaq ərəbdilli bürokratiyanın gücünü zəiflətmək üçün Samani sarayı ətrafında təşkilatlanmış dəricə (farsca) danışan bürokratları divan aparatına cəlb etdi. Lakin Toğrul bəy islahatçı bir hökmdar idi. Ələ keçirdiyi ölkələrin əhalisini və məmurlarını öz tərəfinə keçirmə siyasəti ilə paralel türk bəylərinin də mənfəətini qorumaq üçün bəzi tədbirlər gördü. Bu məqsədlə köhnə dehqan sistemini yavaş-yavaş ortadan qaldırıb, onun yerinə *iqta* sistemini inkişaf etdirdi. Onun bu addımı hərbi-idari yeni torpaq aristokratiyasının ortaya çıxmasına şərait yaratdı.

İqta, hərbi-mülki idarə şəklidir. Torpağa əsaslanan bu idarə şəkli daha əvvəl İslam dövlətlərində mövcud olmuş, ancaq geniş şəkildə Səlcuqlular tərəfindən istifadə edilmişdir. Mənbələr iqta sisteminin vəzir Nizamülmülkün icadı adlandırsalar da, bu doğru fikir deyildir. Toğrul bəy iqta sistemi ilə oğuz bəyləri ilə türk olmayan ərazi və mülk sahibləri arasında bir idari harmoniya yaratmaq istədi. Toğrul bəyin başlatdığı bu siyasəti Nizamülmülk mərkəziyyətçi hakimiyyəti gücləndirmək məqsədilə geniş tətbiq etdi.

Toğrul bəyin müsəlman xalqlarının tarixindəki ən böyük nəaliyyəti "dövlət-din münasibətlərini" tənzimləməsi oldu. Xəlifə Qaim Biəmrillahın *(1031-1075)* dəvəti ilə 18 dekabr 1055-ci ildə Bağdada gələn Toğrul İraqdakı şiə Büveyhilərin hakimiyyətinə son verib, Xilafəti öz nəzarəti altına aldı. 1058-ci ildə xəlifə Toğrulu "*məlikü'l-Məşriq və'l-Məğrib*", yəni "Şərqin və Qərbin hökmdarı" elan etməklə rəsmi olaraq siyasi idarəçilikdən əlini çəkmiş oldu. İslam tarixində bu hadisə ilə ilk dəfə "dövlət"ə dini status verildi, din-dünya işləri iki şəxsin nəzarətində cəmləşdirildi. Dini işlər xəlifəyə, dövlət işləri isə sultana aid oldu. Səlcuqluların tətbiq etdiyi bu model Əbu Həmid Qəzzali *(Əbu Həmid Məhəmməd ibn Məhəmməd ibn Məhəmməd ibn Əhməd əl-Qəzzali ət-Tusi; 1058-1111)* tərəfindən hüquqi formaya salındı.

Səlcuqlu dövlətinin əraziləri sürətlə böyüdü. Dəndənəkan döyüşündən 10 il sonra dövlətin sərhədləri Bəlxdən Mərkəzi Anadoluya qədər uzanırdı. Səlcuqlular Xulvan və Kirmanşahdakı yarıərəb və yarıirani qəbilələri; Diyarbəkir, Əhlət və Malazgirddəki ərəb Mərvani dövlətini, İraq, əl-Cəzirə və Şimali Suriyadakı Həmdaniləri, Məzidilər, Ukaylilər və Mirdasiləri, Təbəristanda Ziyariləri, Deyləmanda Kakuyiləri/Kakaveyhiləri, Azərbaycanda Rəvvadiləri, Şirvan və Aranda Şirvanşahları, Dərbənddə Haşimiləri, Dvin və Aranın bir hissəsində Şəddadiləri, Farsda Büveyhiləri, Sistan tərəfdə Səffariləri özlərinə tabe edib, böyük bir imperiyaya çevrildilər. Beləliklə, 861-ci ildən sonra İslam dünyası Səlcuqlu hakimiyyətində yenidən birləşmiş oldu.

Toğrul bəyin apardığı mərkəzləşdirmə siyasətindən narazı qalan qüvvələr də vardı. Xüsusilə də dövrün mənbələrində *türkmən* adlandırılan İbrahim İnal və Qutalmışın ətrafında toplanan oğuz bəyləri dəfələrlə üsyan edərək, tayfa modelinin davam etdirilməsinə cəhd etdilər.

Oğuzlarla birlikdə Azərbaycan və Şərqi Anadoluda Xəzər xaqanlığından sonra ikinci böyük türk siyasi gücünün ortaya çıxması türklərlə Roma (Bizans) dünyasını



yenidən üz-üzə gətirdi. Sultan Toğrul bəyin əmri ilə oğuzlar Mərkəzi Anadoluya qədər ərazilərdə fəthlərini genişləndirdilər. Buna səbəb Bizansın həyata keçirdiyi "tək dövlət, tək din" siyasətindən narazı olan Anadoludakı fərqli inanc və məzhəblərə bağlı xalqların Səlcuqluları xilaskar kimi qarşılaması idi.

Toğrul bəy 1054-cü ildə Təbrizə gəldi. Sultan ordusu Bargiri və Ərcişi ələ keçirib, Malazgird qalası qapısında qərargah qurdu. Burada ordusunu üç hissəyə ayıran Sultan Toğrul bir hissəsini şimala Qara dəniz və Qafqaz istiqamətində; ikincini qərbə Canik üzərinə, üçüncü ordunu isə Oltu və Tərcana göndərdi. Səlcuqlu dövrü müəlliflərindən əl-İsfahaninin dediyi kimi, cəmi 15 il ərzində "türklər hər yerə və hər tərəfə girdilər; ələ keçirmədikləri torpaq və içilməmiş su buraxmadılar". Əbül-Fərəcə görə isə, "böyük sultan" Toğrul bəyin elə böyük ordusu var idi ki, bir şəhərin bu ordunu bir həftədən artıq ehtiyacını qarşılamaq imkanı yox idi.

1062-ci ilin avqustunda Təbriz şəhərində Toğrul ilə xəlifənin qızı Seyyidə arasında kəbin kəsildi. Kəbində gəlinin mehri olaraq, Sultan Toğrul vəfat edən arvadı Altuncan Xatunun Bağdaddakı torpaqlarını Seyyidə Xatuna bağışladı. 1063-cü ilin əvvəllərində gəlini almaq üçün Bağdada gələn Toğrul bəy bir müddət də İraqda qaldıqdan sonra Reyə hərəkət etdi. Lakin Reyə çatdıqdan sonra xəstələnən Toğrul bəy 6 ay boyunca xəstə yatdı və 4 sentyabr 1063-cü ildə cümə günü vəfat etdi. Onun nəşi Reydə torpağa tapşırıldı. Dövrün bütün mənbələri Sultan Toğrul bəyi "ağıllı, yumşaq xasiyyətli, səbirli və dindar bir hökmdar" kimi xarakterizə edirlər. Sultan Toğrul bəy öldükdə 70 yaşında idi. Özündən bir qədər əvvəl qardaşı Çağrı bəy vəfat etmişdi. Toğrul ölmədən əvvəl taxta Çağrı bəyin gənc yaşdakı oğlu Süleymanın keçməsini vəsiyyət etdi.

Toğrulun vəfatından sonra vəzir Künduri, Süleymanı taxta çıxardı. Ancaq taxtın başqa iddiaçıları da vardı. Onlar

Qutalmış ibn Arslan Bayqu, Çağrının oğlu Alparslan və Musa Bayqu idi. Toğrulun ölüm xəbərini alan Qutalmış ətrafına yığdığı çox sayda türk əsgəri ilə Girdkuh qalasından Rey istiqamətində hərəkət etdi. 15 oktyabr 1063-cü ildə Reyi ələ keçirib, özünü sultan elan etdi. Qutalmışın hakimiyyəti ələ keçirdiyi xəbərini alan Alparslan əvvəlcə Musa Bayqunun üzərinə hərəkət etdi. Əmisini məğlub edib əsir aldı və sürətlə Reyə hərəkət etdi. Süleymanın Şiraza qaçmasına görə vəzir Künduri şəhərdəki xütbəni Alparslan adına oxutdurdu. Alparslanla Qutalmış Damqan ətrafındakı əl-Milx (Dihi-Nəmək) vadisində qarşılaşdılar və döyüş Qutalmışın məğlub olub öldürülməsi ilə nəticələndi.

Alparslan Reyə gəlib, əmisi Toğrul bəyin taxtında oturdu və özünü "*sultan əl-əzəm*" elan etdi. 1064-cü ildə Abbasi Xilafəti onu rəsmi olaraq tanıdı. Alparslanın ilk işi isə vəzir Amid əl-Mülk Kündurini vəzifəsində uzaqlaşdırıb, Mərvərruda sürgün etdirdi, sonra da iki qulamını göndərib onu öldürtdü.

1064-cü ilin baharında Azərbaycana gələn Alparslan Loridəki xristian xalqları öz təsiri altına alıb, Kartli istiqamətində hərəkətini davam etdirdi. Bu vaxt oğlu Məlikşah, vəzir Nizamülmülklə birlikdə Araz çayının yuxarı



*Sultan Alparslanın adına kəsilmiş pul*





*Sultan Alparslanın əks olunduğu miniatür*
*(Hafiz Əbru - "Məcmə ət-təvarix")*

istiqamətində hərəkət edib, Sürməli-Çuxur ilə Məryəmnişin qalalarını ələ keçirdilər. Sultan Alparslan isə Səpid-şəhəri ələ keçirib, Ani qalasını mühasirəyə aldı. 16 avqust 1064-cü ildə Ani səlcuqluların əlinə keçdi. Bunun üzərinə Kartli-Kaxetiya hakimi IV Baqrat *(1028-1072)* sultana sülh təklif edib, sultan xəzinəsinə hər il xərac verməyi qəbul etdi.

Sultan Alparslan imperiyanın qərbini nəzarət altına aldıqdan sonra üzünü şərqə çevirdi. O, böyük bir ordu ilə 1065-ci ildə Ceyhun çayını keçərək, Türküstan torpaqlarına girdi. Səlcuqlu orduları Manqışlaq və Dəşti-Qıpçağın bir sıra bölgələrini ələ keçirdi. Mərvdə Sultan Alparslan hakimiyyətdəki Səlcuqlu sülaləsinin nümayəndələri ilə bir qurultay keçirdi. Burada imperiya ərazisi yenidən hakim sülalənin bəyləri arasında bölüşdürüldü. Alparslan "böyük sultan" olaraq tanındı, sülalənin ən yaşlı nümayəndəsi və Səlcuqlu ali hakimiyyət ünvanı olan "bayqu" adının daşıyıcısı Musa Bayquya Mazandaran verildi. Bəlxi Toğrul bəy tərəfindən vəliəhd elan edilən, ancaq Qutalmış tərəfindən hakimiyyətdən uzaqlaşdırılan Alparslanın qardaşı Süleyman ibn Çağrı bəy aldı. Xarəzm isə Alparslanın oğlu



*Sultan Alparslanın əks olunduğu miniatür (Topqapı saray-muzeyi)*

Arslan Arquna verilmişdi. Sultan, kiçik oğlu Arslanşaha Mərvi verdi, qardaşı İlyasa isə Toxaristanla Saqaniyan (Çaqaniyan) düşdü. Baqşur əyaləti (Murqab yaxınlığındakı torpaqlar) Məsud ibn Ərtaşa, İsfizar (Təbəristanda bir əyalət) isə Mövdud ibn Ərtaşa verildi. Vassal hakimlərin də hüquqları bərpa edildi. Ümumilikdə Sultan Alparslan "1200-dən çox hakimi" özünün vassalı elan etmişdir.

Yeni hakimiyyət bölgüsü Səlcuqluların bütün oğuz boylarının və digər türk əmirlərinin mənfəətini güdən siyasətdən əl çəkib, ancaq öz hakim ailənin iqtidar haqlarını qoruduqlarını və dövlət idarəsini də "*xorasanlı*" əsilzadələrin idarəsinə verdiklərini ortaya qoyurdu. Bu bölgü, Böyük Səlcuqlu dövlətinin gələcəyini də təyin etdi. Alparslan, əmisi Toğrul bəyin "*imperiya*" siyasətinə sadiq qalıb, mərkəzi hakimiyyəti gücləndirdi. Bu məqsədlə Alparslan güclü əmirləri təsirsiz hala gətirdi. Təsirsiz hala gətirilən əmirlərdən biri də Kirman Səlcuqlu dövlətinin banisi, qardaşı Qavurd idi.

Mərkəziyyətçilikdən narazı oğuz-türkmən boyları Azərbaycan və əl-Cəzirədə toplanmağa, oradan da Anadolu ilə



Suriya istiqamətində qəzalar aparmağa başladılar. Sultan Alparslan dövründə bu geniş vüsət aldı. Bu hadisə Səlcuqlu ilə Bizansı üz-üzə gətirdi. 1069-cu ildə oğuzlar Əskişəhər ilə Ağşəhər arasındakı yol üstündə yerləşən Amuriyyə şəhərini ələ keçirib, çoxlu əsir və qənimət ələ keçirdilər. Türkmənlərin hücumlarının qarşısını almaq üçün Bizans dövləti Anadoluya ordu göndərdi. Bu ordu Silifkə yaxınlığında türkmən dəstələrini məğlub edib, onların Hələbə çəkilməsinə səbəb oldu. Bizans ordusunun geri çəkilməsindən sonra 1069-cu ildə oğuzlar Konyanı ələ keçirdilər.

Urfalı Mateosun verdiyi məlumata görə, Sultan Alparslan qış mövsümündə *(oktyabr 1070)* Diyarbəkirdən Urfaya gəldi və şəhəri mühasirəyə aldı. Şəhərin idarəsi Bizans ordusunda xidmət edən türk-bulqar əsilli Basil adlı bir komandanın əlində idi. Şəhərin mühasirəsi iki aydan çox davam etdi. Sonunda sultan Urfa hakimi Basilin təklif etdiyi 50 min dinarı qəbul edib mühasirəni qaldıraraq, Hələb istiqamətində yoluna davam etdi. Səlcuqlu ordularının Hələb mühasirəsi uzun sürdü. Sonunda Hələb hakimi Mahmud anasını da yanına alaraq sultanın hüzuruna çıxıb yeri öpdü və bağışlanmasını xahiş etdi. Sultan Alparslan, Mahmudun anasının yalvarmaları qarşısında rəhmə gəlib, Mahmudu bağışladı və hətta Hələbin idarəsini də ona verdi. Alparslanın niyyəti buradan Misir üzərinə hərəkət etməkdi. Ancaq bu vaxt Bizans elçisi sultanın yanına gəlib, Səlcuqluların Əhlət, Malazgird və Ərciş qalalarını geri qaytarması tələbini çatdırınca, sultan Misirin fəthini Hələb hakimlərinə tapşırıb geri döndü.

Bu vaxt Bizans imperiyasının gücü xeyli zəifləmişdi. Bizans şimaldan və cənub-şərqdən türklərin davamlı hücumları qarşısında həm Balkanlarda, həm də Anadoluda xeyli torpaqlarını itirmiş, dövlət xəzinəsi azalmışdı. Bunun nəticəsində paytaxt İstanbulda (*Konstantinopolis*) taxt müharibələri güclənmiş, türklər qarşısında müvəffəq olmayan imperiyadakı hakim sülalələr arasında gizli və açıq

müharibələr, ixtilaflar və intriqalar baş alıb getməkdəydi. 1059-cu ildə Dukas sülaləsi *(1059-1081)* Bizans taxtını ələ keçirdi. Dukas sülaləsindən imperator Roman Diogen (*Romanos Diogenos; 1068-1071*) böyük bir ordu ilə Anadoluya səfərə çıxdı. İmperatorun topladığı ordunun böyük hissəsi muzdlu bulqar, xəzər, peçeneq, uz, tork, qıpçaq, alman, slavyan, firənglərdən ibarətdi. İslam mənbələrinə görə, imperatorun ordusu 100 mindən çox idi.

Sultan Alparslanın əmrindəki xas birliklərdən toplanan 4000 qulam və Azərbaycandan ona qoşulan 10 minlik süvari Xoydan Əhlət istiqamətində yola çıxdı. Yolda Aran və Anadoludakı türklərdən 30 min nəfərlik bir qüvvə də onlara qoşuldu və beləliklə, Səlcuqlu sultanının ordusu 40000-i keçdi. Hər iki ordunun kəşfiyyat qolları 24 avqust 1071-ci ildə Əhlət ətrafında qarşılaşdılar. Baş verən döyüşdə Bizans kəşfiyyat qüvvələri məğlub oldu, hətta başçıları məşhur Bizans komandanı Basilakes əsir alındı.

Əsas ordular Malazgirdin 10-12 km yaxınlığındakı Zaxva səhrasında üz-üzə gəldilər. İki tərəf arasında Zaxva səhrasında təpələri ələ keçirmək üstündə bütün gün döyüşlər oldu. Malazgird meydan müharibəsi 26 avqust 1071-ci ilin cümə günü baş verdi. Sultan cümə namazına qədər gözlədi və türk əsgərləri cümə namazını toplu halda qıldılar. Sonra sultan ordusunu döyüş nizamına soxub, onların qarşısında bir nitq söylədi: *"Biz nə qədər az, onlar nə qədər çox olsa da, bütün müsəlmanlar minbərlərində bizim üçün dua etdikləri bu vaxtda özümü düşmənin üstünə atmaq istəyirəm. Ya qalib gəlib məqsədimə çataram, ya da şəhid olub cənnətə gedərəm. Sizlərdən məni izləmək istəyənlər təqib etsinlər. Getmək istəyənlər isə getsinlər. Burada əmr edən sultan və əmrlərə tabe olan əsgər yoxdur. Zira, bu gün mən də sizdən biri kimiyəm və sizinlə birlikdə cəng edən bir qaziyəm. Məni təqib edənlər və nəfslərini Böyük Allaha təslim edənlər şəhid olsalar cənnətlə, qalib gəlib yaşasalar qənimətlə tanış olacaqlar. Getmək istəyənləri isə o biri dünyada ataş və dünyada alçaqlıq gözləməkdədir"*.



Bizans ordusu üç hissəyə ayrılmışdı. Anadolu gücləri sol qanadında Kappadokiyalı Aleates, mərkəzdə imperator Roman Diogen, sağ qanadda isə Rumeli qüvvələri Nikefor Breyyanos komandanlığında yerləşmişdilər. İmperator ordunun arxasında Andronik başçılığında köməkçi qüvvələri də yerləşdirərək, hər hansı bir çətinlik anında müdaxilə etməyi əmr etmişdi. Səlcuqlu ordusu isə dörd hissəyə ayrılmışdı. Çok güclü olan iki hissə təpələrin ətrafında pusquda gözləyirdi. Digər iki hissə isə Bizans ordusunun qarşısına düzülmüşdü. Səlcuqlu ordusunda Sanduq, Əhmədşah, Sav Təgin, Gövhəreyn, Əmir Porsuq, Əmir Artuq, Bar Təgin, Yaruq Təgin, Xumar Daş, Gümüş Təgin, Ərdəm, Altun Daş, Əmir Çavlı, Bəy Təginin başçılıq etdiyi oğuzların Azərbaycan, İraqi-Əcəm və İraqi-Ərəbdəki əsas qüvvələri təşkil edirdi.

Gün boyu davam edən döyüşdə axşama doğru Bizans ordusu böyük məğlubiyyətə uğradı. İmperator Roman Diogen yaralı halda əsir düşdü. Bizans ordusu on minlərlə əsgər itirdi, bir o qədəri də yaralandı. Bir hissəsi də əsir düşən imperator ordusundakı türklər səlcuqluların tərəfinə keçdi. Ancaq Sultan Alparslan başda imperator olmaqla əsirlərin çoxunu bağışladı və fidyə qarşılığında sərbəst buraxdı. Buna görə Səlcuqlu sultanı ilə Bizans imperatoru arasında bağlanan müqaviləyə görə, *"imperator özünün sərbəst buraxılması üçün sultana 1500000 dinar; Bizans dövləti isə hər il Səlcuqlu dövlətinə 300000 dinar xarac ödəyəcəkdi"*.

Malazgird müharibəsinin Türk, Bizans tarixində olduğu qədər İslam və Avropa tarixində də xüsusi yeri vardır. Bu qalibiyyət Bizansın tənəzzülü, Anadolunun türklərin əlinə keçməsinin təsdiqi, "Böyük Roma imperiyası"nın türklərin vassallığını qəbul edib, ona xərac ödəyərək bölgədə yeni bir dövrün başlamasına yol açdı. Zəfərdən sonra Həmədana, oradan da İsfahana gələn Sultan Alparslan burada təbrik üçün gələn elçiləri qəbul etdi. Sərbəst buraxdığı Diogenin kor edildiyini və monastırda öldüyünü eşidən

Sultan Alparslan çox mütəəssir oldu və hətta Bizans üzərinə hərəkət etmək istədi. Lakin buna fürsət tapmayınca, Anadoludakı türkmən bəylərinə Bizans torpaqlarına hücum etmələrini əmr etdi.

Sultan Alparslan Bizans imperiyasına qarşı əldə etdiyi şanlı zəfərdən sonra şərqdə meydana gələn hadisəyə müdaxilə etmək məcburiyyətində qaldı. Zira, uzun müddətdən bəri Qərbi Qaraxanlı hökmdarı Şəmsülmülk Nəsr xan *(1068-1080)* ilə Alparslanın oğlu Toxaristan hakimi Ayaz arasında ixtilaf vardı. İxtilafa Şəmsülmülkün səfərdə olduğu vaxt Ayazın Səmərqənd və Buxaraya girərək, buraları yağmalaması səbəb oldu. Buna görə Ayazın üzərinə hücum edən Qaraxanlı xanı onu məğlub edərək, çox sayda adamını öldürdü, qalanlarını da əsir aldı. Şəmsülmülkün arvadı Sultan Alparslanın qızı idi. Xan, arvadını qardaşı Ayaza casusluq etdiyi üçün döymüş və xanımın ölməsinə səbəb olmuşdu. Qızının öldürüldüyü xəbərini alan Sultan Alparslan həm Şəmsülmülkü cəzalandırmaq, həm də bölgədəki nizamı yenidən bərpa etmək üçün 1072-ci ilin sentyabrında Türküstan səfərinə başladı.

Ceyhun çayını keçən Sultan Alparslan Barzam qalasını mühasirəyə aldı. Lakin təslim olan qala hakimi Yusif Xarəzmi sultanın hüzuruna çıxdıqda ayaqqabısında gizlətdiyi xəncərlə sultanı ağır yaraladı. Onu tutmaq istəyən sultanın əmiri Gövhəreyni də yaralayan Yusif Xarəzmi sultanın mühafizəçiləri tərəfindən öldürüldü.

Aldığı yaradan sağalmayan Alparslan 23 noyabr 1072-ci ildə öldü. Həmin vaxt sultan 43 yaşında idi və Böyük Səlcuqlu tarixinin ən böyük hökmdarı hesab olunurdu. Mənbələr Sultan Alparslanı belə təsvir edirlər: Alparslan hündür boylu, sağlam cüssəli, uzun, ancaq seyrək bığları və saqqalı olan, "ox atarkən saqqalını və bığlarını düyünləyən" biri idi. Özü çox kəskin nişançı olub, hər zaman hədəfi vurardı. Döyüşlərdə və səfərlərdə uzunsov başlıq geyən sultan bu halıyla çox əzəmətli görünürdü. Rəşidəddin onu "1200-dən çox padşahın padşahı" adlandırır. Alparslan dövründə Böyük Səlcuqlu dövlətinin paytaxtı Reydən İsfahana köçürüldü.



Sultan Alparslan özündən sonra taxta keçəcək varisini çoxdan müəyyənləşdirmişdi. O şəxs 6 avqust 1055-ci ilin bazar günündə anadan olan oğlu Məlikşah idi. Atası onun tərbiyəsini vəziri Nizamülmülkə tapşırmış və 1066-cı ildə Radqanda onu özünün vəliəhdi elan etmişdi. Sultanlıq taxtına keçənə qədər Məlikşah bir müddət Xuzistan hakimi Məlik Xəzərəsb ilə bərabər Xarəzmdə, daha sonra isə Şirazda qalmışdır. Ancaq vaxtının çoxunu İsfahanda keçirmişdir. Çox kiçik yaşda evləndirilən Məlikşaha atası Qərbi Qaraxanlı xaqanı Şəmsülmülkün əmisi İsa xanın qızı Tərkən Xatunu almışdı. Bu evlilik 1064-cü ildə baş tutdu. Məlikşahın Tərkəndən başqa oğlu Bərkyaruqun anası olan Zübeydə Xatun adında bir arvadı da vardı. Beləliklə, Məlikşah taxta çıxdıqda hələ 17 yaşında idi. Bu yaşına rəğmən, çoxlu səfərlərdə iştirak edib və igidliyi ilə ordu tərəfindən sevilən biriydi. Məlikşah "*Sürməli fatehi*" adlandırılırdı.



*Sultan Məlikşahın əks olunduğu miniatür*
*(Fəzlullah Rəşidəddin – "Came ət-təvarix")*

25 noyabr 1072-ci ildə vəfat edən Sultan Alparslanın yerinə oğlu Məlikşah *(1072-1092)* sultan elan edildi. Məlikşah atasının dəfnindən əvvəl sultan elan edilmişdi. Buna görə də cənazə mərasimində sultan sifətiylə iştirak etmiş və orduya *cülus* (taxta çıxarkən verilən bəxşiş) olaraq tam 700 min dinar paylamışdı. 1073-cü ilin yanvarında Mərvdən Nişapura gəldi. Burada da üç qalada saxlanılan xəzinənin ikisini yenidən ordusuna payladı. Daha sonra bütün əyalətlərə, qonşu dövlət və ölkələrə xəbərlər göndərərək rəsmən sultanlığını elan etdi.

Məlikşah hakimiyyətinin başlarında bir sıra çətinliklərlə qarşılaşdı. Fürsətdən istifadə edən Qərbi Qaraxanlı hökmdarı Şəmsülmülk dekabr 1072-ci ildə Bəlxə hücum etdi, ancaq 1073-cü ilin yanvarında Ayaz şəhəri yenidən ələ keçirdi. Ayaz, Şəmsülmülkü cəzalandırmaq üçün 10 min atlı ilə Tirmizə girsə də, baş verən döyüşdə məğlub olub qaçmaq məcburiyyətində qalmışdı. Qəznə hakimləri də Alparslanın ölümündən istifadə edib, ölən sultanın qardaşı Əmirülüməra Osmanın hakimiyyəti altındakı Çigilkəndə hücum edib ələ keçirmiş, Osmanı da əsir almışdılar. Ancaq Məlikşahın qarşılaşdığı ən böyük təhlükə hakimiyyətin öz haqqı olduğunu iddia edən Kirman Səlcuqlu dövlətinin banisi



*Sultan Məlikşahın adına kəsilmiş pul*



Qara Arslan Qavurdun *(1048-1073)* böyük bir orduyla sultanlıq taxtını ələ keçirmək üçün hərəkətə keçməsi idi. Qavurd, mərkəziyyətçi sistemdən narazı oğuz-türkmən boylarını öz ətrafında toplamağa çalışdı. O, bu məqsədlə Rey və Həmədan arasına yayılmış türkmənlərə dəvətlər göndərdi. Ancaq vəzir Nizamülmülk daha cəld tərpənib, türkmənlərə 500 min dinar pul göndərib, onların Məlikşahı dəstəkləməsini istədi. Məlikşah ilə Qavurd arasında ilk vuruşma sultanın kəşfiyyat güclərinin başında duran Sav Təgin ilə Qavurdun kəşfiyyat ordusu arasında baş verdi. 16 may 1073-cü ildə isə Həmədan yaxınlığında əmi ilə qardaşı oğlunun orduları üz-üzə gəldilər. Döyüş üç gün davam etdi. Həmədanın Kərəc deyilən yerində qarşılaşan güclər arasındakı tarazlıq Məlikşahın xeyrinə idi. Buna rəğmən, Qavurd sultanın Sav Təgin başçılığındakı sağ qanadını əzib sıradan çıxara bildi. Lakin sultan ordusunun Temirəl (Dəmirəl) başçılığındakı sol qanadı Kirman dəstələrini sıxışdıraraq məğlubiyyətə düçar etdi. Ordusunun məğlub olduğunu görən Qavurd qaçaraq Həmədan dağlarında gizlənmək istəsə də, bir nəfərin onun yerini nişan verməsi ilə Temirəl onu sağ ələ keçirdi. Əsir olaraq gətirilən Qavurdu Sultan Məlikşah özü qarşılamağa çıxdı. Bir neçə gün sonra isə Qavurd öz oxunun kəməndiylə boğularaq öldürüldü. Məlikşah dərvişlərə, yoxsullara sədəqə verərək və əsir götürülənləri sərbəst buraxaraq zəfərini elan etdi.

Qavurdun bərtərəf edilməsindən sonra Sultan Məlikşah dövlətin digər bölgələrində baş verən iğtişaşları yoluna qoymaq üçün hərəkətə keçərək ilk səfərini Mavəraünnəhrə etdi. Tirmizin ələ keçirilməsindən sonra Səmərqənd üzərinə hərəkət etdi. Səlcuqlu güclərinə qarşı müqavimət göstərə bilməyəcəyini başa düşən Şəmsülmülk, sultanın vəziri Nizamülmülkə sülh təklif etdi. Beləliklə, Qərbi Qaraxanlı dövləti Böyük Səlcuqlu dövlətinin vassalı oldu.

Bu dövrdə Səlcuqlu imperiyasının qərbində şiddətli mübarizə gedirdi. Bu mübarizə Anadolu, Suriya və Fələstin

torpaqlarının ələ keçirilməsi uğrunda Fatımilər, Səlcuqlu və Bizans arasında cərəyan edirdi. Xüsusilə də Suriya bölgəsində Fatımilərlə Səlcuqlular arasındakı mübarizə bütün şiddətiylə cərəyan edirdi. Suriyadakı türkmənləri öz əmri altında birləşdirən Atsız bəy Fatımilərin əlindəki Qüds və Rəmləni ələ keçirib, Şamı mühasirəyə aldı. 1076-cı ilin martında Şam Atsıza təslim olunca, Suriya ərazisində bir Səlcuqlu məlikliyi təsis edildi. Suriyanı ələ keçirən Atsız burada Sultan Məlikşah adına xütbə oxutmağa başladı. Ancaq Atsız Misir səfərindən yaxşı nəticə ala bilmədikdə, sultan Suriyanı qardaşı Tutuşa iqta olaraq verdi. Tutuş, Suriyanı ələ keçirib, burada Suriya Səlcuqlu dövlətinin təməllərini atdı.

Sultan Məlikşah dövrü eyni zamanda Böyük Səlcuqlu imperiyasının tənəzzül səbəblərini də öz daxilində bəsləməkdə idi. 30 il Səlcuqlu vəziri olan Nizamülmülk ağıllı, tədbirli, təşkilatçı bir vəzirdi. Nizamülmülk Səlcuqlu dövlətinin idarəçiliyinin qurulmasında və hökumət təşkilatının formalaşmasında böyük işlər görmüş, Səlcuqlu dövlət ideologiyasının şəkillənməsinə çalışmışdır. Digər tərəfdən, Nizamülmülk Səlcuqlu bürokratiyasının zəifləməsinin də səbəbkarlarından idi. Onun dövründə Səlcuqlu idarəçiliyində idari, xüsusilə də maliyyə boşluqları yaranmış, özündən razı qalan vəzir dövlət gəlirlərini istədiyi kimi xərcləmişdi. Tarixçilər İbn əl-Cövzi (Əbdürrəhman ibn Əli ibn Məhəmməd Əbül-Fərəc ibn əl-Cövzi; 1116-1201) və Sibt ibn əl-Cövzi *(Şəmsəddin Əbül-Müzəffər Yusif ibn Qızoğlu; 1185/1186-1256)*, Nizamülmülkün dövlət gəlirlərinin %10-ni xəzinəyə girmədən qəsb etdiyini bəyan edirlər. Nizamülmülkün 12.000 adama dövlət xəzinəsindən maaş verdiyi, onların çoxunun alimlər və ədiblər olduğu da qeyd edilir. Lakin tarixçi əl-Bundari *(Qivaməddin Əbu İbrahim əl-Fəth ibn Əli ibn Məhəmməd əl-Bundari əl-İsfahani; 1190-1245)*, həmin şəxslərə verilən maaşın atadan oğula vərasət şəklində davam etdiyini yazır. Bütün bunlar sultanla vəzir arasında narazılıqlara səbəb oldu. Sultan Məlikşah vəziri Nizamülmülkə yazdığı məktubunda deyirdi: "Sən mənim dövlətimi və məmləkətimi istila etdin; övladlarına və kürəkənlərinə verdin. Onlar mənim adamlarıma hörmət etmir, xalqa zülm edir, sən də bunlara səsini çıxarmırsan".

Qısacası, Sultan Məlikşahın vəfatından sonra Böyük Səlcuqlu dövlətində təzahür edən tənəzzül hər şeydən əvvəl mərkəzi dövlət aparatındakı narazılıqlardan qaynaqlanırdı. İkisi arasındakı ixtilafa baxmayaraq, Məlikşah vəziri vəzifəsindən uzaqlaşdırmadı. Bir müddətdən sonra Nizamülmülk Nihavənd yaxınlarında Səhnə kəndində Ramazan iftarını açdıqdan sonra ona yaxınlaşan dərviş qiyafəli Əbu Tahir Arrani adlı birinin şikayət məktubunu oxuyarkən onun tərəfindən ürəyinə vurulan xəncər yarası ilə 1092-ci ilin 14 oktyabrında öldü. Bu hadisədən bir ay sonra Sultan Məlikşah Bağdadda olarkən zəhərlənərək



*Nizamülmülkün öldürülməsi*
*(Fəzlullah Rəşidəddin - "Came ət-təvarix")*

vəfat etdi. Mənbələr sultanın ov məclisində zəhərləndiyini və 19 noyabr 1092-ci ildə öldüyünü xəbər verir. Sultan Məlikşah öldükdə 38 yaşında idi. Tarixşünaslıqda Sultan Məlikşah ilə vəzir Nizamülmülkün ölümlərinin təşkilatçıları hələ də sirr olaraq qalır. Sultan Məlikşahın vəfatı Böyük Səlcuqlu dövlətinin ehtişam, səadət, rifah və inkişaf dövrünün sonu mənasına gəlirdi. Səxavətli, ədalətli, mərhəmətli hökmdar olması ilə ad çıxaran Məlikşahın vəfatı sadəcə türk-müsəlman müəlliflərini deyil, xristian müəlliflərini də böyük kədərə qərq etmiş və onu "bütün insanların mənəvi atası" adlandırmışdılar.



*Sultan Bərkyaruq (Fəzlullah Rəşidəddin – "Came ət-təvarix")*

Məlikşahın vəfatından sonra taxta oğlu Bərkyaruq keçdi. Lakin Bərkyaruqun *1092-1104-ci illər* arasında davam edən hakimiyyəti ögey anası Tərkən Xatun, Suriya hakimi olan əmisi Tutuş, Azərbaycan hakimi olan İsmayıl ibn Yaquti və qardaşları Məhəmməd Tapar ilə Səncər arasında müharibələrdə keçdi. Bu dövrün ən mühüm hadisəsi 1096-cı ildə müsəlman torpaqlarına səlib hücumlarının başlaması idi. 1105-ci ildə taxta çıxan Məhəmməd Tapar Böyük Səlcuqlu dövlətini dirçəltmək istiqamətində bir sıra addımlar atsa





*Məhəmməd Tapar (Fəzlullah Rəşidəddin – "Came ət-təvarix")*

da, 1118-ci ildə bir sui-qəsd nəticəsində ölməsi dövlətin iki yerə bölünməsinə səbəb oldu. Sultan Səncər hakimiyyəti ələ keçirib, özünü böyük sultan elan etsə də, faktiki olaraq ölkənin qərb hissəsi Taparın oğlanlarına verildi. Bu hadisə Böyük Səlcuqlu dövləti tərkibində İraq Səlcuqlu dövlətinin ortaya çıxmasına yol açdı.

Səncərin sultan olmasıyla imperiyanın mərkəzi Azərbaycan və İraqi-Əcəmdən Xorasana nəql edildi, paytaxt da Mərv elan olundu. Sultan Səncərin 40 ilə yaxın davam edən hakimiyyəti (*1118-1153/57*) Böyük Səlcuqlu dövləti tarixində "ikinci imperiya dövrü" hesab olunur. Lakin Sultan Səncər hakimiyyətinin sonlarında əmirlər üzərində nəzarəti itirmişdi. Bu da dövlətin idarəsində bir sıra boşluqlar meydana gətirdi. 1141-ci ildə Katvanda Qaraxanlı torpaqlarını ələ keçirən Qarakitaylarla döyüşdə alınan böyük məğlubiyyət Səlcuqlu dövlətinin tənəzzülünü sürətləndirdi. Xüsusilə də böyük əmirlərdən Əmir Qumacın oğuzlara qarşı siyasəti onların sultana qarşı üsyanına yol açdı. 1153-cü ildə meydana gələn bu üsyanda Sultan Səncər Bəlx oğuzlarına məğlub olub əsir alındı. Səncər əsirlikdən xilas olub Mərvə qayıtsa da, qısa müddətdən sonra vəfat etdi. Bu hadisə Böyük Səlcuqlu dövlətinin də sonu oldu.



*Sultan Sәncәr (Fәzlullah Rәşidәddin – "Came әt-tәvarix")*

Hәlә Toğrul bәy dövründә Sәlcuqlu әrazilәrindә xanәdan üzvlәrinin irsi hakimiyyәti meydana çıxmağa başladı. Әlә keçirilәn әyalәtlәrin idarәsi Sәlcuqlu bәylәrindәn birinә verildikdә, hәmin bәylәr öz hәrbi birliklәri ilә o әyalәtlәrin tamhüquqlu hakimi halına gәldilәr. Toğrul bәy dövründә Azәrbaycanın idarәsi qardaşı oğlu Yaqutiyә, Kirman isә Qavurda tapşırılmışdı. Mәlikşahın dövründә isә Suriyanın idarәsi Tutuşa verildi. Әvvәl Azәrbaycanda, daha sonra Anadoluda cәmlәşәn Arslan Bayqunun tәrәfdarları olan yabqulu oğuzları isә Qutalmışın oğlanları әtrafında cәmlәşdilәr. Qeyd edilәn әrazilәr Mәlikşahın vәfatından sonra müstәqil idarә olunmağa başladı. 1118-ci ildә meydana gәlәn Savә döyüşündәn sonra isә Böyük Sәlcuqlu әrazisindә İraq Sәlcuqlu dövlәti ortaya çıxdı. Belәliklә, Böyük Sәlcuqlu dövlәti әrazisindә beş böyük sәlcuqlu dövlәti tәşәkkül etdi.



## 7.2.2. Azәrbaycan Sәlcuqlu dövlәti

*Yaqutilәr xanәdanı* 60 il *(1043-1103)* Azәrbaycan, Aran vә Şәrqi Anadolunun mütlәq hakimlәri olub vә üç nәsil bölgәni idarә ediblәr. Biz onu *Azәrbaycan Sәlcuqlu dövlәti* adlandırırıq. Bu, bizә Böyük Sәlcuqlu imperiyasının dörd deyil, beş sәlcuqlu dövlәtinә parçalandığını demәyә әsas verir. Bu sәbәbdәn tarixçilikdә Kirman Sәlcuqlu dövlәti *(1045-1187)*, Suriya Sәlcuqlu dövlәti *(1074-1118)*, Türkiyә Sәlcuqlu dövlәti *(1075-1318)* vә İraq Sәlcuqlu dövlәti *(1119-1194)* ilә yanaşı, Azәrbaycan Sәlcuqlu dövlәtinin mövcudluğu da diqqәtә alınmalıdır.

Sәlcuqlu oğuzları hәlә Toğrul bәy dövründә Azәrbaycanı әlә keçirib, Sәlcuqlu imperiyasının tәrkibinә daxil etsәlәr dә, Sultan Alparslan dövrünә qәdәr bölgә tam nәzarәt altında deyildi. Aran vә Azәrbaycan mәrkәzi hakimiyyәtә tabe olmayan oğuz tayfalarının әlindә idi. *Yabqulu oğuzları* adlanan hәmin tayfalar Alparslanın tәzyiqlәri qarşısında Azәrbaycan vә Aranı tәdricәn tәrk edib, Anadoluya vә Suriyaya köç etmәyә başladılar. Belәcә, Azәrbaycan vә Aran üsyankar oğuz tayfalarının nәzarәtindәn çıxıb, Böyük Sәlcuqlu imperiyasının mәrkәzi vilayәtlәrindәn birinә çevrildi. Üsyankar oğuz tayfaları isә Anadoluda, xüsusәn dә Bizansla sәrhәd bölgәlәrdә yurdlar salmağa başladılar.

Sultan Toğrul bәy hәm yabqulu oğuzlarını, hәm Azәrbaycan vә Aranın fәthinin tamamlanmasını, hәm dә Şәrqi Anadoludakı oğuz axınlarını bir mәrkәzdәn tәşkilatlandırmaq üçün qardaşı oğlu Yaqutini 1043-cü ildә Azәrbaycan hakimi tәyin etdi. Yaquti ailәsi üç nәsil Azәrbaycan, Aran vә Şәrqi Anadolunun idarәsini әlindә tutdu.

Mәnbәlәrdә Azәrbaycan Sәlcuqlu dövlәtinin üç hakimi *(Davudoğlu Yaquti, İsmayıl El-Arslan vә Qütbәddin Mәvdud)* ilә Sәlcuqlu siyasi tarixindә böyük rol oynamış iki xanım nümayәndәsi *(Yaqutinin qızı vә Mәlikşahın arvadı Zübeydә*

*Xatun ilə İsmayılın qızı və Məhəmməd Taparın arvadı Gövhər Xatun)* haqqında məlumatlar mövcuddur.

Azərbaycan Səlcuqlu dövlətinin banisi Yaquti Sultan Toğrul bəyin böyük qardaşı Çağrı bəyin altı və ya yeddi oğlundan biri idi. Böyük ehtimalla Yaquti Çağrı bəyin ikinci oğludur. Dəndənəkan səfərindən sonrakı hadisələrdə Yaqutinin adı Sultan Toğrul bəyin əmrində ordu başçısı kimi qeyd edilir. Bu, Yaqutinin həmin tarixdə sərkərdə olacaq yaşa və təcrübəyə sahib olduğunu göstərir.

Böyük ehtimalla, Dəndənəkan döyüşündə iştirakı və buradakı qəhrəmanlığı səbəbindən Yaqutiyə "Xorasan saları" (*Salari-Xorasan*) adı verilmişdir. Mənbələrdə onun adı 1040-cı ilin 23 mayında meydana gələn, üç gün davam edən və Səlcuqlu oğuzlarının qələbəsi ilə nəticələnən Dəndənəkan döyüşündən sonra Mərvdə keçirilən qurultayda hallanır. Həmin qurultayda "böyük sultan" titulu təsdiqlənən Toğrul bəy Nişapurdan qərbə doğru ələ keçirilən və gələcəkdə fəth ediləcək olan torpaqların mülkiyyət haqqına sahib olarkən, Yaquti ibn Çağrı, İbrahim İnal ibn Yusif İnanc və Qutalmış ibn Arslan Yabqu da onun yanında yer aldılar. Yaquti sultanın əmrilə Rey, Azərbaycan və İraqi-Əcəm istiqamətində aparılan hərbi səfərlərə başçılıq etdi. Toğrul bəy Azərbaycanın vergi işlərini idarə etməsi və bölgədə hökm sürən Şəddadi, Rəvvadi, Şirvanşahlar, Süləmilər, Cəfərilər, Sərirşahlar kimi Səlcuqlu vassallığını qəbul etmiş kiçik sülalə dövlətlərini nəzarət altına alması üçün qardaşı oğlu Yaqutini 1043-ci ildə Azərbaycan hakimi təyin etdi. Sultan ona Azərbaycanın idarəsi ilə yanaşı Anadoludakı Səlcuqlu hücumlarına rəhbərlik etməsini də əmr etmişdir. Bu tarixdən vəfatına qədər Yaquti Anadolu istiqamətində aparılan bütün səfərlərin tərtibatçısı və təşkilatçısı olmuşdur. Səlcuqlu dövrü müəllifi Sibt İbn əl-Cövzi Bizans elçilərinin gətirdiyi məktubda Yaqutidən şikayət edildiyini qeyd edir: *"Davudoğlu Yaquti Rum məmləkətini tamamilə yağma və talan edən hücumlara məruz qoyub.*



*Əgər mənim əziz hökmdarım – sultan həzrətləri ilə bağladığı müqaviləyə uyğun davranaraq, əsgərləri (onu dinləməyib) ətrafı yağmalayıb talasaydı, onlara dərhal hücumlarına son qoyub, geri çəkilmələrini əmr edərdi".*

1059-cu ildə Yaqutinin başçılığındakı oğuzlar Cənub-Şərqi Anadoluya qədər geniş ərazini boydan-boya keçmiş, Səbükün başçılığındakı ikinci oğuz birliyi isə Mərkəzi Anadoluya hərəkət etmişdi. Salari-Xorasan ləqəbi ilə də tanınan Yaquti Urfa ətrafını, Səbük isə Sivas ətrafındakı əraziləri ələ keçirdi.

1060-cı ildə Yaqutinin əmrilə Xorasan əmiri Altun Daş, Səbük, Kapar və Küçücüyün başçılıq etdiyi Səlcuqlu ordusu Azərbaycan üzərindən Bizans torpaqlarına soxuldu. Onların qarşısını kəsmək istəyən Bizans imperatoru Konstantin Dukasın *(1059-1067)* cəhdləri heç bir nəticə vermədi. Qış fəslinin yaxınlaşdığını görən oğuz bəyləri əldə etdikləri qənimətlə Arandakı qışlaqlarına qayıtdılar. Bizans orduları komandanı Pankaras geri qayıdan oğuzların yolunu kəsmək istədi. Baş verən döyüşdə Pankaras məğlub olub qaçmaq məcburiyyətində qaldı.

Yaqutinin adı sonuncu dəfə 1067-ci il hadisələri zamanı zikr edilir. Onun həmin tarixdə Meyyəfariqin əmiri tərəfindən təşkil olunan bir sui-qəsd nəticəsində öldürüldüyü qeyd olunur. Beləliklə, Azərbaycan Səlcuqlu dövlətinin və Yaqutilər xanədanın banisi olan Yaquti ibn Çağrı və ya Davudoğlu Yaquti 1043-1067-ci illər arasında bölgənin hakimi oldu. Təqribən 25 il Aran və Azərbaycanı idarə edən Yaquti dövründə Səlcuqlu oğuzları bütün Cənubi Qafqazı, Şərqi və Mərkəzi Anadolunu ələ keçirdilər. Anadolunun oğuz yurduna çevrilməsində Yaqutinin təşkilatçılığı və idarəçilik bacarığı böyük rol oynadı.

Oğlu İsmayıl Yaqutidən sonra Azərbaycan Səlcuqlu dövlətinin başına keçdi. İsmayıl dövründə Yaqutilərin hakimiyyət sahəsi daha da genişləndi və siyasi mövqeləri daha da artdı. Sultan Məlikşahın ölümündən sonra

İsmayıl Böyük Səlcuqlu taxtı uğrunda gedən mübarizəyə qoşuldu. Məlikşahın xanımı Tərkən Xatun oğlu Mahmudu taxta çıxarmaq niyyətində idi. Bu məqsədlə o, Azərbaycan hakimi İsmayıldan kömək istədi. Təcili Azərbaycandan İsfahana hərəkət edən Qütbəddin İsmayıl bu fürsətdən istifadə edib, Böyük Səlcuqlu taxtını ələ keçirmək fikrinə düşdü. Qütbəddinin gəldiyini eşidən Tərkən Xatun Əmir Kür Boğa adlı sərkərdəsini onu qarşılamağa göndərdi. Digər tərəfdən, sultan olan Bərkyaruq İsmayılın hərəkətini yaxından izləyirdi. Bərkyaruğun anası Zübeydə Xatun Qütbəddin İsmayılın bacısı sayılırdı.

Qütbəddin İsmayıl İsfahana doğru hərəkət edərkən Kərəc yaxınlığında Bərkyaruğun hücumuna məruz qaldı. Baş verən döyüşdə məğlub olan İsmayıl İsfahana qaçdı *(486/1093)*. İsfahanda Tərkən Xatun tərəfindən hörmətlə qarşılanan Qütbəddin İsmayıl Böyük Səlcuqlu dövlətinin faktiki sultanına çevrildi. Belə ki, Tərkən Xatun İsfahanda oğlu Mahmud adına həkk etdirdiyi sikkələrdə onun adını ikinci sırada yazdırmış və məscidlərdə adına xütbə oxutdurmuşdu.

Bir müddətdən sonra da Qütbəddin İsmayıl ilə Tərkən Xatun arasında evlilik hazırlıqları başlandı. Amma Tərkən



*Tərkən xatunun oğlu I Mahmud adına zərb etdirdiyi pul*



Xatunun ətrafındakı əmirlər, xüsusən də Əmir Ünər bu evliliyə mane olmaq üçün hərəkətə keçdilər. Əmirlər İsmayılın nüfuzundan qorxub, öz mövqelərini itirməkdən ehtiyat edirdilər. Evlilik hazırlıqları başladığı sırada Əmir Ünər başçılığındakı komandanlar Qütbəddin İsmayılın qərargahına bir hücum təşkil etdilər. Vuruşmada məğlub olan Qütbəddin İsmayıl İsfahanı tərk edib, qaçmağa məcbur oldu.

Qütbəddin İsmayıl İsfahandan qaçdıqdan sonra bacısı və eyni zamanda Sultan Bərkyaruğun anası Zübeydə Xatuna xəbər göndərib, ondan yardım istədi. Anasının xahişilə Bərkyaruq dayısını bağışladı və öz yanına dəvət etdi. Beləcə, İsmayıl Bərkyaruğa sığındı.

Qütbəddin İsmayılın məqsədi Bərkyaruğu öldürüb tacı ələ keçirməkdi. O, bu niyyətlə Bərkyaruğun yanında xidmət edən Səlcuqlu əmirləri Gümüştəkin Candar, Bozan və Ağsunquru öz tərəfinə çəkməyə cəhd etdi. Amma məqsədini onlara açması ölümünə səbəb oldu. Əmirlər Qütbəddin İsmayıldan ehtiyat etdikləri üçün məsələni Sultan Bərkyaruğa çatdırdılar. Şaban 486-cı ildə (sentyabr 1093-cü il) Bərkyaruğun əmrilə Gümüştəkin Candar, Bozan və Ağsunqur qəflətən Qütbəddin İsmayılın çadırına hücum edib, onu öldürdülər.

Qütbəddin İsmayıl El-Arslanın Azərbaycan hakimiyyəti 12 il sürdü. Onun "El-Arslan" ləqəbini alması güclü əmir olduğuna işarədir. O, Məlikşahın vəfatından sonra başlayan hakimiyyət mübarizəsində ən güclü namizədlərdən idi. Niyyəti sultanlıq taxtını ələ keçirmək olan Qütbəddin, bu məqsədlə gizli planlar qurmuşdu. Amma bu istəyi onun ölümü ilə nəticələndi. Əbül-Fida yerli bir mənbəyə istinadən Azərbaycan Səlcuqlu dövlətinin hakimiyyət sahəsinin Əhlətə qədər uzandığını yazır. Anadoluda ortaya çıxan Əhlətşahlar və ya Ərmənşahlar bəyliyinin (*1100/1102-1208*) banisi Sökmən əl-Qütbi Azərbaycan Səlcuqlu dövlətinin hökmdarı Qütbəddin İsmayıl El-Arslanın

qulamlarından idi. Sökmənin "əl-Qütbi" adını daşıması da bunu təsdiq edir. İsmayılın vəfatından sonra Sökmən, onun oğlu Qütbəddin Məvduda xidmət edirdi. Buna görə də Əhlət xalqının Sökmənə deyil, Məvduda müraciət etdiyi və Məvdudun da öz əmiri Sökməni bölgəyə göndərdiyi aydın olur. Sökmən əl-Qütbi Əhləti ələ keçirdiyi zaman bölgəni Azərbaycan Səlcuqlu dövlətinin hökmdarı Məvdud adından idarə etməyə başladı. Amma Məvdudun vəfatından sonra Sökmən bölgənin tam hakiminə çevrilib, Əhlətşahlar və ya Ərmənşahlar bəyliyinin əsasını qoydu.

İsmayıl El-Arslanın öldürülməsindən sonra Azərbaycanda hakimiyyət oğlu Qütbəddin Məvdudun əlinə keçdi. Mənbələrdə haqqında çox az məlumat olan bu şəxs Yaqutilər xanədanının son nümayəndəsi idi.

Məvdud atasının intiqamını almaq üçün Bərkyaruğa qarşı üsyan edən Məhəmməd Tapara dəstək olmuş və bacısı Gövhər xanımı onunla evləndirmişdi. Lakin Məvdudun hakimiyyəti cəmi on il davam etdi. Onun 1103-ci ildə qəflətən öldüyü qeyd edilir. Onun ölümü Azərbaycan Səlcuqlu dövlətinin sonu oldu. Qütbəddin Məvdud öldükdə 22 yaşında idi. Bu da onun 1081-ci ildə anadan olduğunu və atasının vəfatından sonra 12 yaşında Azərbaycan Səlcuqlu dövlətinin başına keçdiyini deməyə əsas verir. Atasına nisbətən Məvdudun böyük etibara sahib olduğu, Əmir Sökmən kimi güclü bir sərkərdənin ona itaət etməsindən aydın olur. Vəfatı Əhlətdə yarımüstəqil bir Səlcuqlu bəyliyinin yaranmasına şərait yaratmış, Azərbaycan Səlcuqlu dövlətinin ortadan qalxmasına və Yaqutilərə aid torpaqların Məhəmməd Taparın başçılıq etdiyi Aran məlikliyinin nəzarəti altına keçməsinə səbəb olmuşdu. Beləcə, Yaqutilərin Azərbaycan və Arandakı yarım əsrlik fəaliyyət dövrü nöqtələndi. Yaqutilərin tarixi əhəmiyyəti onların Azərbaycan və Anadoluda oğuz hakimiyyətinin memarları olmalarıdır.



### 7.2.3. Kirman Səlcuqlu dövləti

Kirman Səlcuqlu dövləti, Böyük Səlcuqlu dövlətinin tərkibində qurulan bir dövlətdir. Bu dövlət, indiki İranda Kirman deyilən geniş ərazini və ətrafını əhatə edirdi. Kirman, İranın cənubunda böyük bir əyalət və bu əyalətin mərkəzi şəhərinin adıdır. Mənbələrdə Kermen və Kirman şəklində keçən bu ərazi Dəşdi-Lutun cənub-qərbindədir. Ərazinin şərqində bozqır (*step*) və Məkran dağları yerləşir. Kirman, şərqində Bəlucistan və Sistan, şimalında Xorasan, şimal-qərbində İsfahan və qərbində Fars əyalətlərinin yer aldığı bir bölgədir. Əyalətin cənubunda isə İran və Oman körfəzləri yer alır. Müsəlman coğrafiyaçıları Kirmanı Şərq əyalətləri arasında Xorasandan ayrı Şiraz-Kirman və Sicistan arasında göstərirlər. Qədimdən Kirman əyaləti beş böyük əraziyə ayrılırdı: şimalda Kirman, qərbdə Sircan, ortada Ciruft, şərqdə Bəm və Nərməşir əyalətləri. Əyalətin mərkəzi hesab edilən Kirman şəhəri əvvəllər Şəhri-Guvaşir və ya Bərdsir adını daşıyırdı. Bu gün Sircan, Ciruft və Nərməşir xaraba şəhərlərdir.

Kirman Səlcuqlu dövlətinin qurucusu Toğrul bəyin qardaşı Çağrı bəyin oğlu Qavurddur. Onun adı qaynaqlarda Qavurd və Kavurd şəklində keçir. Bu adın mənası "qurd"dur. Bundan başqa, o, türkcə *Qara Arslan*, İslami ünvan olaraq da *Məlik əl-Amid İmadəddövlə* adlarını işlətmişdir.

1047/48-ci ildə Qavurd əmrindəki 6 minlik oğuz atlısıyla Kirmana gəldi. Bu sırada Kirman Büveyhi əmiri İmadəddövlə Əbu Qalicarın naibi Deyləm komandanı Bəhram ibn Ləşkəristanın idarəsi altındaydı. Bu naib, Qavurda qarşı çıxmağa cəsarət edə bilməyib, Bərdsir şəhərində müdafiəyə çəkildi. Ancaq oğuz oxçularının şiddətli hücumu qarşısında Bəhramın qala bürclərində yer alan və özlərini *zubuni* dedikləri silahlarla müdafiə edən əsgərlər böyük

tələfat verdilər. Əbu Qalicarın da kömək ordusu gec gəlincə, Bəhram məcbur qalıb Qavurdla sözləşdi və təslim olaraq qızını onunla evləndirdi. Beləcə, Qavurd 1048-ci ildə Kirmana girərək paytaxt Bərdsirə sahib oldu. Bu, eyni zamanda Kirman Səlcuqlu dövlətinin qurulduğu mənasına gəlirdi. Ancaq mənbələr dövlətin yaranma tarixini 1051-ci il göstərirlər.

Qavurdun bütün Kirmanı ələ keçirməsindən sonra hakimiyyət rəmzi olan *xütbə* və sikkələrdə öz adını çəkdirməsi tamamilə müstəqil siyasət apardığını göstərir. Olduqca ağıllı və siyasətçi biri olan Qavurd, Kirmana sadəcə 6 minlik oğuz əsgəri ilə gəldiyindən buradakı yerli imkanları da özü üçün səfərbər etmişdi. Əyalətin əvvəlki idarəsinə toxunmadı. Əvvəlki hakimlərdən ancaq bir neçəsinin yerini dəyişdirmək xaricində Kirman hakimlərinin çoxu öz mövqeyini qorudular. Kirmanın məşhur qazısı Əbu Məhəmməd Fəzarini özünə vəzir təyin etdi. Ondan boşalan yerə də Kirman qazıları soyundan Dəbir Əbul-Həsəni keçirdi. Bundan başqa, əyalətin qazı və şəhnələrinin yerini də müəyyənləşdirdi. Qavurd, Kirmanın Gərmsir bölgəsindən savayı Bəm, Ciruft, Minab, Habis və Bəlucistan üzərində də söz sahibi oldu. Daha sonra o, Omanı ələ keçirmək



*Qavurd adına kəsilmiş pul*



üçün hazırlıqlara başladı. Bu məqsədlə Hörmüz əmiri Bədr İsa Caşunu hüzuruna çağıraraq Omana getməsi üçün gəmilər hazırlamasını istədi. Bu sırada Omanın hakimi Büveyhi əmiri Şəhriyar ibn Tafil idi. Qavurd anidən Oman sahillərinə çıxmış, buradakı əmirin təəccübünə və ordusunu buraxaraq, qaçıb gizlənməsinə səbəb olmuşdu. Qavurd isə heç bir müqavimət görmədən Omana sahib olmuş və xalqla yaxşı rəftar etmişdi. Daha sonra gizlənən Şəhriyarı taparaq, ona – "ey tacik (türk olmayan), qonaqdan niyə qaçırsan?" – deyərək bağışlamış və beləcə, bu bölgəyə sahib olmuşdur. Omanda Səlcuqlu hakimiyyəti aprel-may 1053-cü il – iyul-avqust 1063-cü illər arasında qurulmuşdur. Qavurd dəniz səfərinə çıxan ilk səlcuqlu olaraq tarixə keçdi.

Hakimiyyət sahəsini genişləndirmə siyasətinə davam edən Qavurd, Şiraza hərəkət etdi. Ancaq Şiraz xalqı təslim olmayınca, şəhəri üç gün mühasirədə tutdu və aldı. Ancaq xalqı cəzalandırmadı. Bu da Şiraz xalqının Qavurdu sevməsinə səbəb oldu. Qavurdun Sultan Toğrul bəyə göndərdiyi fəthnamədə Şiraz və Fars əyalətinin iyul-avqust 1062-ci ildə ələ keçirildiyi məlumatı yer alır. Daha sonra Qavurd, Şiraza hakim olmak istəyən Deyləmi əmirlərindən Şəbankarə soyundan Fəzluyənin 20 minlik ordusunu 4 min əsgəri ilə məğlub edərək, gücünü isbat etdi. Qavurd, Şirazda oxutdurduğu xütbələrdə Abbasi xəlifəsi Qaim Biəmrillah ilə Sultan Toğruldan sonra öz adını çəkdirdi.

Bu tarixlərdə Böyük Səlcuqlu dövlətinin sultanı Toğrul bəy vəfat etdi *(4 sentyabr 1063-cü il)*. Əmisinin vəfat xəbərini alan Qavurd İsfahana hərəkət etdi. Ancaq burada qardaşı Alparslanın taxta çıxdığı xəbərini alınca, Kirmana döndü. Qavurd hakimiyyəti ərzində Sultan Alparslana qarşı bir neçə dəfə üsyan etsə də, mütləq hökmdar kimi onun hakimiyyətini tanımışdır.

1072-ci ildə Sultan Alparslanın vəfat etməsi ilə Qavurd hakimiyyət uğrunda mübarizəyə girişdi. Sultan Məlikşah ilə Qavurd arasında müharibə Həmədan yaxınlığında

Kərəcdə 4 Şaban 465-ci ildə (15 aprel 1073-cü il) baş verdi. Üç gün davam edən müharibədə Qavurd məğlub oldu və qaçdı. Qavurd müharibə meydanında hər şeyini itirmiş vəziyyətdə Həmədan dağlarında gizləndi. Hadisədən bir neçə gün sonra bir kəndli Sultan Məlikşaha Qavurdun gizləndiyi yeri xəbər verincə, Qavurd əsir olaraq ələ keçirildi. Vəzir Nizamülmülkün təzyiqi ilə aprel-may 1073-cü ildə Qavurd öz oxunun yayı ilə boğularaq öldürüldü.

Qavurd, Məlikşahın üzərinə hərəkət etdikdə Kirmanda oğlu Kirmanşahı öz yerinə oturtmuşdu. Atasının ölümündən sonra Kirman Səlcuqlu dövlətinin başına o keçdi. Ancaq Kirmanşahın hakimiyyəti bir il davam etdi və bilinməyən bir səbəbdən öldü. Onun ölümündən sonra taxta Qavurdun başqa oğlu Ömər Hüseyn oturdu. Ancaq Hüseyn taxta çıxdıqda çox kiçik idi. Bu vaxt, Məlikşahın əlində əsir olan Qavurdun böyük oğlu Sultanşah Həmədandan qaçdı. Sultan Məlikşah, onun gözlərinə mil çəkilməsini əmr etmişdi, ancaq cəllad bu vəzifəni icra etmədi. Kirmana gələn Sultanşah burada taxta çıxdı (*sentyabr-oktyabr 1074-cü il*).

Bu zaman Sultan Məlikşah qardaşı Ayazın cənazə törəni ilə maraqlanırdı. O, Sultanşahın qaçdığı xəbərini eşidəndə bu xəbərə əsəbiləşmədi; hətta Kirman və Omanın idarəsini onlara verdi, bunu təsdiq edən xələtlər və mənşur göndərdi. Sultanşah keyf həyatına düşkün bir hökmdar idi. Yanvar 1085-ci ildə Kirmanda öldü.

Sultanşahın vəfatı ilə Kirman Səlcuqlu taxtına Qavurdun başqa bir oğlu Turanşah çıxdı. Böyük qardaşı Sultanşahın övladı olmadığı üçün onun taxta çıxması rahat oldu. Zəif xarakterli biri olan Turanşah, Bəmdə yerləşən hərəmxanada qadınlar arasında böyümüşdü. Davranışı, danışığı və rəftarı da qadın kimi idi. Daha çox anasının sözü ilə hərəkət edirdi. Sultanşah öləndən sonra saray adamları onu Bəmdən paytaxt Bərdsirə gətirib taxta oturtdular. Dövləti onun adından anası idarə etməyə başladı.



Bu qadın, oğlunun sultanlığını təsdiq etmək üçün özü Məlikşahın hüzuruna çıxıb və sultandan mənşur almışdı. Ancaq Turanşah qardaşı Sultanşahdan daha dirayətli bir idarə sərgilədi. Zamanla anasının təsirini sındırıb, özü idarəni ələ aldı və Kirman Səlcuqlu dövlətinin hüdudlarını yenidən genişləndirdi. Onun dövründə Oman xalqı üsyan edib buradakı Səlcuqlu şəhnəsini qovsa da, Turanşah bu üsyanı da yatırtdı.

Adil bir hökmdar olan Turanşah otuz il hakimiyyət sürdü və oktyabr-noyabr 1097-ci ildə vəfat etdi. Onun İranşah adında cəmi bir övladı vardı və taxta o keçdi. İranşah taxtı əldən çıxarmamaq üçün Qavurd soyundan gələnləri öldürtdü. Ancaq bir nəfər Kirmanşahın oğlu Arslanşah qaçaraq, canını qurtarmış və rəvayətə görə, ayaqqabıçılıq edərək, həyatını keçindirməkdəydi. İranşah öldürüldükdən sonra əmirlər və qazılar Arslanşahın Kuyi-Gəbran məhəlləsində yaşadığı xəbərini aldılar. Dərhal yanına gedib, 16 noyabr 1101-ci ildə onu Kirman Səlcuqlu hökmdarı elan etdilər. Kirman Səlcuqlu tarixinin ən uzun ömürlü hökmdarı olan Arslanşah *(1101-1143)* sülhsevən və adil bir hökmdar oldu. Arslanşah, əvvəlcə Böyük Səlcuqlu hökmdarı Məhəmməd Tapara, daha sonra da Sultan Səncərə tabe olaraq ölkəsini idarə etdi. Arslanşah özündən sonra hakimiyyətə oğlu Kirmanşahın keçməsini istəyirdi. Ancaq Kirmanşah bir az ağıldan kəm və zəif xarakterli idi. Atasının və onun vəliəhd təyin etdiyi qardaşının vəziyyətini görən Məhəmməd adlı digər bir övladı gizlicə hakimiyyəti ələ keçirmək planları tərtib etdi. Bu vaxt Arslanşahın xəstələnməsi və ölüm döşəyinə düşməsi onun planının həyata keçməsinə səbəb oldu. Hakimiyyəti əlinə keçirən Məhəmməd, xəstə atasını da Kuh qalasında zindana atdırdı. Arslanşah burada üç il sonra, 1145-ci ildə vəfat etdi.

Məhəmmədin bütün hakimiyyəti qardaşı ilə mübarizədə keçmişdir. Məhəmmədin hakimiyyətinin axırlarına yaxın Sultan Səncərin 1153-cü ildə Bəlx oğuzları tərəfindən

əsir edilməsinə görə İraq Səlcuqlu dövlətinin vassalı olduğu bilinməkdədir. Qardaşlarına qarşı pis rəftarına rəğmən, Məhəmməd xalqına qarşı adil davrandı, elm adamlarına böyük hörmət göstərdi. On dörd illik hakimiyyətdən sonra, 1156-cı ildə vəfat etdi. Öldüyü gün Kirman Səlcuqlu taxtına oğlu Toğrulşah oturdu. Lakin bundan sonra Kirman Səlcuqlu xanədanı idari və hərbi baxımdan zəif və gücsüz bir iqtidar olaraq varlıqlarını davam etdirdilər. Xüsusilə, Toğrulşahın ölümü, Kirman Səlcuqlu dövlətində daxili intizamın pozulması və taxt uğrunda mübarizələrin başlaması dövrüdür.

Beləcə, nizam və intizamı pozulan Kirman Səlcuqlu dövləti 1187-ci ilə qədər varlığını davam etdirdi. Həmin vaxt Dinar bəyin başçılığında Xorasandan gələn oğuzlar Kirman əyalətlərini bir-bir ələ keçirib, Bərdsirə gəldilər. 10 sentyabr 1187-ci ildə şəhər əhalisi paytaxtı Dinara təslim etdi. Bu hadisə Kirman Səlcuqlu dövlətinin süqutu deməkdi. Son şah Məhəmmədşah ibn Bəhramşah isə İraqdan Farsa, oradan Kirmana, daha sonra da Xarəzmşahların yanına getdi. Ancaq orada da çox qalmayıb, Gur ölkəsinə qaçdı və Qəznədə vəfat etdi. Beləcə, Kirman Səlcuqlu xanədanının kökü kəsildi.

Kirman Səlcuqlu dövləti *1051-1187*-ci illər arasında mövcud olan, Türkiyə Səlcuqlu dövlətindən sonra ən uzunömürlü Səlcuqlu dövləti idi. Kirman Səlcuqlu dövründə tarixinin ən inkişaf etmiş və ən gözəl dövrünü yaşadı. Səlcuqlu dövründə Kirman şəhərləri və əyalətləri bölgənin ən gözəl diyarı hesab edilirdi. Səlcuqlu hökmdarları sənət, elm, ədəbiyyata hamilik etmiş, çox sayda əsərlər ərsəyə gətirmişdilər. Səlcuqlular sayəsində bölgənin inkişaf baxımından ən zəif əyaləti hesab olunan Kirman, mədəni-maddi baxımdan çiçəklənmə dövrü keçirmişdir. Əfzələddin Kirmani, Əbu Bəkr Hərəvi, Əmir Əbu Abdullah Muizzi, Kəlbi, Hicazi, Muciri, Qivami, Abbasi, Şihabi, Mübarəkşah kimi ədib və alimlər bu dövrün nümayəndələridir.



## 7.2.4. Suriya Səlcuqlu dövləti

Suriya və Fələstin torpaqlarına ilk oğuz axınlarına Xanoğlu Harun, Afşin, Sunduq adlı əmirlər başçılıq ediblər. Suriyada qələbəlik şəkildə görülən ilk oğuzlar, yabqulu oğuzlarıdır. Həmin oğuzlar Azərbaycanı tərk edəndən sonra Anadoluya, oradan da Suriyaya hərəkət edib, Qurlu ət-Türki, Uvakoğlu Atsız, Şöklü kimi əmirlərin başçılığında Suriya və Fələstin torpaqlarını nəzarətə aldılar. Beləliklə, 1070-ci ildə Suriya və Fələstin ərazisində Səlcuqlu hakimiyyəti quruldu. Oğuz bəyləri bu bölgədə, əsasən Misirdə hökm sürən Fatımilərlə sərt və uzun mübarizə apardılar.

Suriyanın mərkəzi hesab edilən Dəməşq, yəni Şam Fatımilərin əlində idi. Şamın ələ keçirilməsi Suriyadakı Fatımilərin siyasi hakimiyyətinin sonu mənasına gəlirdi. Oğuz bəyi Atsız Rəmlə ilə Qüdsün fəthindən sonra Dəməşqi mühasirəyə aldı. O, Dəməşqin mühasirəsi ilə məşğul olduğu vaxt əmirlərdən Şöklü Akkanı ələ keçirdi. Atsızın ən böyük arzusu Dəməşqi ələ keçirmək idi. Bu məqsədlə şəhəri nəzarətdə saxlayırdı. Dəməşqin rəisi Fatımi əmiri Mualla idi. Onun zalım davranışları dəməşqlilərin üsyanına səbəb oldu. Mualla gizlicə Dəməşqdən Misirə qaçdı. Üsyançılar isə şəhərin rəisliyi vəzifəsinə bərbəri əsilli Rəzinüddövlə İntisar ibn Yəhya əl-Məsmudini gətirdilər. Məsmudi, Dəməşq xalqının artıq Atsızın mühasirəsinə qarşı çıxacaq gücünün qalmadığını görüb, onunla razılaşmağa çalışdı. Beləcə, iyun-iyul 1076-cı ildə Dəməşq şəhərinin və qalasının açarını Atsıza təslim etdilər. Atsız bu şəkildə 1071-1076-cı illər arasında Aşkelon və Yaffa istisna olmaqla, Fələstin ilə Suriyanın tamamını ələ keçirdi. Hətta Atsız Qahirəyə hücum etdi, lakin burada baş verən döyüşdə məğlub oldu.

Bölgədəki hadisələri tənzim etməyə çalışan Məlikşah qardaşı Tutuşun Suriya və Fələstinə getməsini və vəziyyətə əl qoymasını istədi. Bundan sonra Tutuş böyük bir

orduyla Gəncədən Diyarbəkirə doğru yola çıxdı. Ancaq Diyarbəkirə çatdıqda Atsızın Qahirə döyüşündə ölüm xəbərinin yalan olduğunu eşitdi və xəbəri sultana bildirdi. Bunun üzərinə Sultan Məlikşah, Atsızın əmrindəki Yuxarı Suriyanı deyil, Hələb ilə Mərkəzi Suriyanın idarəsini Təkişə verdi.

Bu vaxt Qahirədə Atsızı məğlub edən Fatımilər tez hərəkətə geçib, Suriya və Fələstini də səlcuqlulardan geri almaq istəyirdilər. Bu məqsədlə vəzir Bədrül-Camal 1077/78-ci ildə Nəsrüddövlə əl-Cüyuşi əmrində bir ordunu Dəməşqə göndərdi. Dəməşqdə Atsızı mühasirəyə alan Fatımilər şəhər qapılarına dayandılar. Vəziyyəti ağırlaşan Atsız, Tutuşa bir məktub göndərib tez gəlməsini və Suriya hakimiyyətinin ona aid olduğunu bildirdi. Tutuş təcili hərəkətə keçib Dəməşqə gəldi. Tutuşun gəldiyini eşidən Fatımi ordusu isə tələsik Suriyanı tərk etdi. Atsız Suriya və Fələstinin idarəsini Tutuşa təslim edib, ona boyun əydi. 1071-1079-cu illər arasında Suriya və Fələstinin tək hakimi olan Atsız, bölgədə Səlcuqlu hakimiyyətinin qurulmasının memarı oldu.

*Tac əd-Dövlə* ləqəbini alan Tutuş Suriya və Fələstinə böyük bir orduyla gəlmişdi. Onun əmrində Bəkçioğlu Afşin, Sunduk ət-Türki, Dəmləçioğlu Məhəmməd, Tutuoğlu, Birikoğlu, Türkmən ət-Türki, Aytəkin əs-Süleymani kimi böyük Səlcuqlu əmirləri yer alırdı. Tutuş, Dəməşqə gəlməmişdən əvvəl bir neçə dəfə Hələbi mühasirəyə almış, ancaq ələ keçirə bilməmişdi. Bundan bsaşqa, burada türkmənləri qətl edən ərəb qəbilələrini cəzalandıraraq, Şimali Suriyada öz idarəsini qurmuşdur.

Dəməşqə gələn Tutuş Diyarbəkirdən Misirə qədər bütün cənub-şərqi Anadolu, Suriya və Fələstinin idarəsini də ələ keçirdi. Daha sonra Qüdsü aldı. Tutuş 1085-ci ildə artıq özünü "*sultanü'l-əzəm*" (böyük sultan) elan etdi. Bu, Tutuşun başçılığında Böyük Səlcuqlu ərazisində Suriya Səlcuqlu dövlətinin ortaya çıxdığı mənasına gəlirdi. Tutuş öz hakimiyyətini legitimləşdirmək üçün Bağdaddakı sünni Abbasi xəlifələri adına deyil, Qahirədəki şiə Fatımi xəlifələri adına xütbə oxutdurdu.

Bu dövrün digər bir əlamətdar hadisəsi də Suriya Səlcuqlu dövləti ilə Anadolunu ələ keçirib, öz dövlətini yaradan Qutalmış oğlu Süleyman arasında baş verən döyüşdür. İki oğuz ordusu Hələbin 3 mil uzaqlığındakı Ayn Saylamda üz-üzə gəldilər. Ordusundan bəzi əmirlərin dəstələri ilə birlikdə Tutuşun tərəfinə keçməsi ilə məğlub olan Süleyman şah 5 iyun 1086-cı ildə döyüşdə öldürüldü.

Bu hadisədən bir müddət sonra Tutuş 11 iyun 1086-cı ildə də Hələbə sahib oldu. Beləliklə, bölgənin tamamı səlcuqluların əlinə keçdi. Bu hadisələr, xüsusilə də Qüdsün oğuzların əlinə keçməsi Avropada böyük səs-küyə səbəb olmuşdu.

Qardaşı Məlikşahın 1092-ci ildə ölməsindən sonra Tutuş böyük sultanlıq taxtını ələ keçirmək fikrinə qapıldı. Buna görə Azərbaycan istiqamətində hərəkətə keçən Tutuş fevral 1093-cü ildə Ukaylilərin paytaxtı Rahbə şəhərini təslim aldı. Nusaybini də ələ keçirən Tutuş, buradan Mosul üzərinə hərəkət etdi. Mosul hakimi İbrahim ibn Qüreyşin şəhəri Tutuşa təslim etməməsinə görə şəhərə şiddətli hücuma başlayan Tutuş, şəhəri ələ keçirdikdən sonra 20 ərəb əmiri ilə birlikdə 2 min insanı da qılıncdan keçirmiş, hətta məscidlərə girib gizlənənlərə də divan tutmuşdur. Mosulu tamamilə yağma etdirən Tutuş aprel 1093-cü ildə şəhərə sahib oldu və bölgənin idarəsini Məhəmməd ibn Şərəf əd-Dövləyə tapşırdı.

Mosula sahib olduqdan sonra Tutuş, xəlifə Müqtədi Biəmrillaha bir elçi göndərib, sultan olaraq adına xütbə oxunmasını istədi. Bundan sonra Tutuş Azərbaycana daxil olub, Təbrizə yerləşdi. Məlikşahın yerinə sultanlıq taxtına keçən Bərkyaruq bu vaxt Reydə idi. Bərkyaruğun taxta keçməsi Tutuş tərəfdarları arasında bölünməyə səbəb

oldu. Əmir Ağsunqur Əmir Bozana *"biz, Tutuşa vəfat edən Sultan Məlikşahın taxta keçəcək bir uşağının ortaya çıxmadığını görərək tabe olmuşduq. İndi isə Bərkyaruq taxta iddia etməkdədir. Biz onunla birlik olub, xidmətinə girməliyik"* – demişdir. Əmir Ağsunqur ilə Əmir Bozan Tutuşdan ayrılıb, Bərkyaruğun tərəfinə keçdilər. İki böyük əmirinin ayrılmasına görə Bərkyaruq ilə döyüşə girməyə cəsarət etməyən Tutuş, Təbrizdən Diyarbəkirə döndü. Noyabr-dekabr 1093-cü ildə də Şama qayıtdı.

Burada çox qalmayan Tutuş, qardaşı oğlu Bərkyaruq ilə girdiyi sultanlıq mübarizəsinə son nöqtəni qoymaq üçün Harran, Suruc, Urfa və Diyarbəkiri bir-birinin ardınca ələ keçirib, İsfahana yol aldı. Burada Sultan Məlikşahın arvadı Tərkən Xatun öz oğlu Mahmudu taxta çıxarmaq üçün Bərkyaruğa qarşı üsyan edib, Tutuşa ərə gedərək bu niyyətinə çatmaq məqsədilə onun yolunu gözləyirdi. Tutuş İsfahana getmək üçün Diyarbəkirdən Əhlətə, buradan da Azərbaycana gəldi və Həmədanda ordugah qurdu. Həmədanda Tutuşla görüşmək üçün İsfahandan yola çıxan Tərkən Xatun yolda xəstələnib geri qayıtdı və sentyabr-oktyabr 1094-cü ildə vəfat etdi. Sultan Bərkyaruq Tərkən Xatunun ölüm xəbərini aldıqdan sonra Nusaybindən sürətlə Ərbilə gəlib, buradan İsfahan istiqamətində hərəkət etdi.

Əmi ilə qardaşı oğlu arasında döyüş 17 səfər 488-ci ildə (26 fevral 1095-ci il) meydana gəldi. Tutuşun əmri altında vəzir Fəxrüddövlə və oğlu Duqaq, Əmir Tuğtəkin, Yağısıyan, Əbdülrəzzaq oğlu Adbüddövlə Abak, Abakoğlu Yusif, Aytəkin əl-Hələbi, Cənaxüddövlə Hüseyn kimi komandanlar yer alırdı. Bərkyaruğun ordusunun başında isə Əmir Ünər, Bilgə, Yaruq, Bərçik və Əmir Axur kimi əmirlər dururdular. Döyüş başlayarkən Bərkyaruğun ordusunda Sultan Məlikşahın sancağının qaldırılması Tutuşun əmrindəki bəzi əmirlərin ondan ayrılıb, Bərkyaruğun tərəfinə keçməsinə səbəb oldu. Bu, döyüşün



də taleyini həll etdi. Lakin Tutuş axıra qədər döyüşdü və nəticədə Bərkyaruq ordusunun ortasında tək tənha qaldı. Ancaq heç kəs ona yaxınlaşıb, öldürməyə cəsarət edə bilmədi. Bu vaxt Sunqurca adlı bir əmir Tutuşdan intiqam almaq məqsədilə ona yaxınlaşıb, başını bədənindən ayırdı. Beləcə, Tutuşun böyük sultanlıq taxtı uğrunda səltənət mübarizəsi nəticəsiz qaldı. Rey döyüşündə öldürülən Tutuşun kəsilən başı Bağdada göndərilmiş və burada *Xazainü'r-Rüusa*, yəni Başlar Xəzinəsinə qoyulmuşdur. Bədəni isə atası Sultan Alparslanın Mərvdəki məqbərəsində dəfn edilmişdir.

Suriya Səlcuqlu dövlətinin banisi olan Tacüddövlə Tutuş "böyük sultanlıq" taxtı uğrunda mübarizəni uduzaraq öldürüldükdə, yerində varis olaraq Rıdvan və Duqaq adlı iki oğlunu buraxmışdır. Ancaq Tutuşun ölümündən sonra Suriya Səlcuqlu dövləti parçalandı. Tutuşun oğlanlarından biri Dəməşqi, digəri isə Hələbi ələ keçirərək, öz məlikliklərini qurdular. Buna görə də Tutuşdan sonra Suriya Səlcuqlu dövləti Hələb və Dəməşq məlikliklərinə ayrıldı.

Mənbələr Tutuşun ən güclü Səlcuqlu hökmdarlarından biri olduğunu qeyd edirlər. Əgər Rey döyüşündə xəyanətə qurban getməsəydi, Böyük Səlcuqlu dövlətini idarə etmək üçün Bərkyaruqdan daha ciddi və qətiyyətli namizəd idi. Onun çox sərt xasiyyətli olması əmrindəkiləri də qorxudurdu. Ancaq Tutuş özünə sadiq adamları hər zaman qorumuş və mükafatlandırmışdır. Tutuşun türk tarixindəki ən böyük xidməti Suriya, Fələstin və bir çox ərəb torpaqları üzərində Səlcuqlu-türk hakimiyyətini qurması və bu bölgələrin min ildən çox türk idarəçiliyində qalmasının banisi olması idi. Onun dövründə Suriya və Fələstin ərazilərinə çoxlu türk-oğuz boyu gəlib yerləşmiş və bu torpaqlar türk yurdları hesab edilmişdir.

## 7.2.5. Anadolu Səlcuqlu dövləti

Bugünkü Türkiyə ərazisinin əsasını təşkil edən Anadolunun böyük bir hissəsində bir türk dövləti meydana gətirən Səlcuqun nəvəsi Qutalmışın oğullarının, öz dövlətlərinə nə ad verdikləri tam olaraq bilinmir. Mənbələrdə bu dövlət Rum Səlcuqluları (*Səlcuqiyan-i Rum*) adıyla keçir. Müasir araşdırmalarda Anadolu və Türkiyə Səlcuqluları adı işlədilir. *Rum* adı Roma adının İslam mənbələrindəki tələffüzüdür. Bizans dövlətinin sahib olduğu torpaqlara müsəlman müəllifləri *Rum* (*Memalik-i Rum, Bilad-ı Rum*) deyirlər. Avropa mənbələrində isə bu dövrlərdə *Turkomanie* adını işlədirlər. Moğollara göndərilən Papa elçisi G.Rubrok *(Gilyom de Rubrok; 1210/1220-1293)* türklərin yaşadığı bütün bölgəyə "*Turkia*" adını verir.

Türkiyə Səlcuqlu dövlətinin quruluş tarixi mübahisəlidir. Əsasən 1075-ci ildə İznik şəhərinin oğuzlar tərəfindən fəth edilməsi bu dövlətin yaranış tarixi olaraq qəbul edilir. Səlcuq bəydən sonra Səlcuqlu dövlətinin başına keçən Arslan Bayqunun oğlu Qutalmış atası ilə bir müddət Qəznəvilərin əlində əsir qalmış, daha sonra zindandan qaçaraq Torğul və Çağrı bəyə qoşulmuşdur. Anadolunun fəthində mühüm rol oynayan Qutalmış Toğrul bəyin 1063-cü ildə ölməsi ilə hakimiyyət uğrunda mübarizəyə başlamış, ancaq döyüşdə məğlub olub, öldürülmüşdür. Alparslan Qutalmışın əsir aldığı oğlanlarını uzun müddət nəzarətdə tutmuşdur. Qutalmışın neçə oğlunun olduğu dəqiq bilinmir. Mənbələrdə, əsasən beş oğlundan bəhs edilir ki, onlardan dördünün adları məlumdur: Süleyman, Mənsur, Alp-İlig və Dolat (Dövlət). Adını bilmədiyimiz bir oğlunun da Suriyada Səlcuqlu bəyliyinin qurucusu Atsızla müharibədə əsir düşdüyü və Sultan Məlikşaha təslim edildiyi bilinir. Qutalmışın oğullarından Alp-İlig Urfada zəhərlənərək ölmüş, digər bir oğlu Dolat isə Artuqlu əmiri İlqazi ilə birlikdə xaçlılara qarşı müharibələrdə yer almışdır.



1072-ci ildə Sultan Alparslanın vəfatından sonra Anadoluda ortaya çıxan Qutalmışın oğulları burada mərkəzi hakimiyyətdən narazı türkmən-oğuz qruplarını öz ətraflarına yığdılar. Bu narazı türkmən-oğuz qrupları Qutalmışın atası Arslan Yabquya tabe olan, Azərbaycandan Anadoluya köç etmiş yabqulu oğuzları idi. Həmin oğuzlara başçılıq edən Süleyman əvvəlcə Suriya tərəfə hərəkət etdi, ancaq daha sonra Bizansla sərhəd ərazilərin fəthinə başladı. 1075-ci ildə Bizansa aid olan İznik şəhərini və ətrafını ələ keçirib, özünü sultan elan etdi. Bu tarix Türkiyə Səlcuqlu dövlətinin quruluş ili qəbul edilir. Süleyman şahın özünü sultan elan etməsini üsyan hərəkəti olaraq qəbul edən Böyük Səlcuqlu sultanı Məlikşah, Anadoluya Əmir Porsuğun başçılığında böyük bir ordu göndərdi. Buna görə Bizansla bir müqavilə imzalayan Süleyman şah, Əmir Porsuğa qarşı özünü müdafiə etmiş və qardaşı Mənsuru ona qarşı göndərmişdir. Baş tutan döyüşdə Mənsur məğlub olub öldürülsə də, Türkiyə Səlcuqlu dövləti Məlikşaha tabe olmayıb, öz müstəqilliyini qorudu.

Süleyman şah Ayn Saylam deyilən yerdə 18 səfər 479-cu ildə (5 iyun 1086-cı il) Məlikşahın qardaşı və Suriya Səlcuqlu dövlətinin başçısı Tutuşla döyüşdə öldü. Türkiyə Səlcuqlu dövlətinin banisi Süleyman şahın hakimiyyəti 11 il davam etdi. Onun ölümündən sonra dövləti qısamüddətli siyasi çaxnaşmalar yaşadı. Öldürülən Süleymanşahı, Tutuş hörmət və izzətlə Hələb qapısı yanında dəfn etdirmiş və bura uzun müddət "*türk məzarı*" olaraq müqəddəs hesab edilmişdir.

Süleyman şah öldüyü zaman iki oğlu, Qılınc Arslan ilə Kulan Arslan da yanında olub, Tutuşa əsir düşdülər. Süleyman şah Suriya səfərinə çıxarkən paytaxtı İznikin idarəsini əmirlərindən Əbül-Qasim (Bizans qaynaqlarında *Apelkasem*) adlı birinə vermişdir. Süleyman şahın öldürülməsindən sonra Əbül-Qasim şəhərin idarəsini ələ alıb, Türkiyə səlcuqlularının mirasını qorumağa çalışır. Çox

ağıllı birisi olan Əbül-Qasim, Bizansla mübarizə aparmaq üçün donanmaya ehiyac olduğunu başa düşüb, Mərmərə sahillərində ələ keçirdikləri Kios adasında gəmi inşaatına başlamışdır. Bunu eşidən Bizans imperatoru təcili hərəkətə keçərək, limandakı Səlcuqlu gəmilərini atəşə verdi. Eyni tarixdə Sultan Məlikşahın əmriylə Əmir Porsuq 50 min orduyla Anadoluya gəldi. Məqsədi Anadoluda başda Türkiyə Səlcuqlu dövləti olmaqla, mərkəzi hakimiyyəti tanımayan bəyləri öz idarəsinə tabe etdirmək idi.

Əmir Porsuğun böyük bir orduyla Anadoluya hərəkət etdiyi xəbərini alan Əbül-Qasim tez Bizans imperatoru ilə barışıb, Böyük Səlcuqlu dövlətinə qarşı ittifaq yaratdılar. Əmir Porsuq istənilən nəticəni almadan geri qayıtdı. Lakin Əbül-Qasimin işini bitirmək vəzifəsi Urfa hakimi Əmir Bozana verildi. Əmir Bozan da Əbül-Qasimi tutaraq oxunun yayı ilə boğaraq öldürdü. Əbül-Qasimin öldürülməsi və İzmitin Səlcuqlu ordusu tərəfindən mühasirəyə alınması 1092-ci ilə təsadüf edir.

Süleymanşahın ölümündən sonra İsfahanda həbsdə tutulan oğulları Qılınc Arslan və Kulan Arslan, Məlikşahın ölümündən sonra baş verən taxt müharibələrindən bezərək Bərkyaruğun göz yumması nəticəsində İsfahandan qaçaraq, Anadoluya gəldilər. Onlarla birlikdə bir qrup yabqulu türkməni də Anadoluya qaçdı. Qılınc və Kulanın orduyla Anadoluya gəlməsi Sultan Bərkyaruğun izni daxilində olduğunu da ortaya çıxarır. Qardaşlar İzmitə gəldikdə şəhər Bizansın mühasirəsində idi. Şəhərin hakimi Əbül-Qazi hakimiyyəti Qılınc Arslana təslim etdi. Şəhər xalqı tərəfindən sevinclə qarşılanan Qılınc Arslan Bizansa qarşı bəzi tədbirlər gördü və altı il *(1086-1092)* fasilədən sonra Türkiyə Səlcuqlu hakimiyyəti yenidən Qutalmışlar nəslinin əlinə keçdi.

Türkiyə Səlcuqlu sultanı Qılınc Arslan Çaka bəylə qurduğu müttəfiqliyi, onun qızı ilə evlənərək daha da sağlamlaşdırdı. Birlikdə Bizansa qarşı hərəkətə keçərkən



peçeneqlər də İstanbulu mühasirəyə aldılar. Bu vaxt imperator I Aleksios *(1081-1118)* Qılınc Arslana bir məktub yazaraq, Çakanın niyyətinin əslində onun əlindəki torpaqları almaq olduğunu qeyd edib, iki türk müttəfiqin arasını pozdu. Bundan sonra Qılınc Arslan Çakanın güclənməsindən qorxub, ona qarşı hərəkətə keçdi, Bizans ilə Səlcuqlu arasında mühasirədə qalan Çaka, çarəni Qılınc Arslana təslim olmaqda gördü.

Axın-axın türk hücumları qarşısında Bizans imperator I Aleksios Roma papası Urbana bir məktub yazaraq kömək istədi. Onun bu dəvəti səlib müharibələri üçün bəhanə oldu. Keşiş Pierre başçılığındakı "tamamı quldurlardan, yol kəsənlərdən, dəlilərdən, ağıl və insanlıqdan məhrum məxluqlardan ibarət" birinci səlib ordusu 1096-cı ilin sentyabrında İznik qapılarına qədər gəldi, lakin burada onların hamısı türklər tərəfindən qılıncdan keçirildi. Mənbələrdə "kasıbların səlib yürüşü" adlanan bu ordunun 60 min olduğu qeyd edilir.

Bir il sonra gələn ikinci səlib ordusu həm sayı (bəzi mənbələrə görə, ailələriylə birlikdə 600 min nəfər), həm də hərbi gücünə görə daha qüvvətli idi. Qılınc Arslan onların qarşısında tab gətirə bilməyib, paytaxt İzmiti tərk etmək məcburiyyətində qaldı. İzmit bir müddət müqavimət göstərdi, ancaq sonda Bizans imperatoru ilə danışıqlara başlayaraq, 26 iyun 1097-ci ildə təslim oldu. Bizans imperatorunun əmriylə İzmit xalqına yaxşı rəftar edildi və şəhəri Bizans adından 40 minlik peçeneqlərdən ibarət olan və başlarında türk əsilli komandan Tadıkın olduğu ordu təslim aldı. Əsir düşənlər arasında Qılınc Arslanın Çaka bəyin qızı olan arvadı ilə uşaqları da var idi. Ancaq əsirlərin çoxu fidyə alınaraq sərbəst buraxıldılar.

Qılınc Arslan ilə səlibçilər arasında İzmitdən sonra ikinci qarşılaşma Əskişəhər meydanında cərəyan etdi. Hər iki tərəf böyük itkilər verdi. Türklər "*Turan taktikası*" ilə səlibçiləri məğlub etmək istəsələr də, onların say etibarilə çox

olması və dəmir zirehlər geyməsi Qılınc Arslanı müharibə meydanından çəkilmək məcburiyyətində qoydu. Ancaq türklərin döyüş gücü və qabiliyyəti səlibçiləri çox qorxutdu. Nəticədə səlibçilər bir neçə il ərzində Anadolunun bütün sahil hissəsini ələ keçirdilər.

22 il Türkiyə Səlcuqlu dövlətinin paytaxtı olan İzmitlə birlikdə bütün torpaqlar əldən çıxmış, Sultan Qılınc Arslan rəsmən torpağı olmayan bir dövlətin hökmdarı vəziyyətinə düşmüşdü. İkinci səlib yürüşünün arxasından Qılınc Arslan Konyaya çəkildi. Konyanı Türkiyə Səlcuqlu dövlətinin yeni paytaxtı elan edən Qılınc Arslan səlibçilərə qarşı yeni qüvvələr toplayarkən, bir tərəfdən də öz hakimiyyət sahəsini genişləndirməyə başladı.

1098-ci ildə başlayan ikinci səlib səfərinin nəticəsində 1098-ci ildə Urfada, Antakyada və 1099-cu ildə Qüdsdə səlib krallıqları təsis edildi. 1100-cü ilin əvvəllərindən türklər xaçlılar qarşısında üstünlüyü yavaş-yavaş öz əllərinə almağa başladılar. Bu tarixdə Danişmənd Qazi ilə Qılınc Arslanın orduları Malatya yaxınlığında səlib ordusunu ağır bir məğlubiyyətə uğratdı. Buna görə xaçlılar bölgəyə təcili şəkildə yeni qüvvələr gətirməyə başladılar. 1101-ci ildə səlibçilər türklərdən daha bir zərbə aldılar. Üst-üstə zərbələr nəticəsində 600 minlik səlib gücünün geridə kiçik bir hissəsi qaldı.

1104-cü ildə Gümüştəkin Qazinin ölümündən sonra Qılınc Arslan Malatyanı mühasirəyə aldı. Şəhəri müdafiə edən Danişməndlilər 1106-cı ildə Malatyanı Qılınc Arslana təslim etdilər. Qılınc Arslan sürətlə Anadolunun cənub və şərq hissələrini öz nəzarəti altına alıb, ərazilərini genişləndirməyə başladı. 1107-ci ildə Mosulu da ələ keçirdi. Ancaq onun genişlənmə planı Hələb hakimi Əmir Çavlı tərəfindən durduruldu. 1107-ci ildə baş verən döyüşdə Qılınc Arslan özü Əmir Çavlının üstünə yeriyərək bir qılınc zərbəsi ilə onun zirehini deşdi. Ancaq döyüşəcək əsgəri qalmayan Qılınc Arslan, Əmir Çavlının əsgərləri tərəfindən



ox yağışına tutulunca özünü Habur çayına atdı, aldığı yaralardan çayda boğuldu. Qılınc Arslan Türkiyə Səlcuqlu dövlətinin yenidən təməllərini atan şəxs oldu. Urfalı Mateos "Qılınc Arslanın ölümü xristianlar üçün də matəm oldu" deyərək, onun Anadoludakı xalqlar tərəfindən çox sevildiyini qeyd edir.

Qılınc Arslanın ölümündən sonra Türkiyə Səlcuqlu dövlətinin başına onun böyük oğlu Toğrul Arslan keçdi. Sultan Məhəmməd Tapar tərəfindən Konyaya göndərildiyi və ya Sultan Məhəmməd Taparın əlindən qaçdığı dəqiq məlum olmayan Qılınc Arslanın başqa bir oğlu Şahənşah 1109-cu ildə Anadoluya gələrək əvvəlcə Toğrulu taxtdan saldı, sonra da qardaşı Məsudu həbs etdirdi. Bu şəkildə Türkiyə Səlcuqlu dövlətinin başına keçən Şahənşah atasının ölümündən sonra meydana gələn hakimiyyət boşluğundan istifadə edərək Anadoluda türklərin əlindəki torpaqları zəbt etmək istəyən Bizansa qarşı mübarizəyə başladı. Ancaq Alaşəhər müharibəsində Bizans ordularının başçısı Konstantinə məğlub olub, Bizansla sülh müqaviləsi imzalamaq məcburiyyətində qaldı. 1116-cı ildə isə Türkiyə Səlcuqlu taxtına Sultan Məsud oturdu. Lakin Sultan Məsud ilə qardaşı Məlik Ərəb hakimiyyət uğrunda mübarizəyə girişdilər. Sultan Məsud Türkiyə Səlcuqlu taxtına oturduqdan sonra qardaşı Məlik Ərəb Ankara ilə Kastamonunu ələ keçirib, burada öz hökmdarlığını qurmuşdu. İki qardaş arasında 1126-cı ildə meydana gələn müharibədə Sultan Məsud məğlub olub İstanbula qaçdı və Bizans imperatorundan kömək istədi. İmperator Yoannes *(1118-1143)* hərəkətə keçib Kastamonunu mühasirəyə aldı, çoxlu əsir götürərək geri qayıtdı. İstanbuldan qayıdan Məsud da Əmir Qazi ilə birləşib, Ərəbə hücum etdilər. Çətin vəziyyətə düşən Ərəb Kilikiyaya qaçıb, burada türklərdən və ermənilərdən ibarət bir ordu yığıb 1127-ci ildə baş verən müharibədə Əmir Qazinin oğlu Məhəmməd Qazi ilə Masara hakimi Əmir Məhəmmədin oğlu Yusifi əsir aldı. Daha

sonra Məsud ilə Əmir Qazi üzərinə hərəkətə keçən Ərəb, Danişməndli dövlətini məğlub etdi. Ancaq qalibiyyətdən sonra əsgərlərinin ətrafa dağılışmasından istifadə edən Əmir Qazi hücuma keçib Ankara və Kastamonuya qədər gəldi və oğlu Məhəmmədi həbsdən azad etdi. Yenidən hərəkətə keçən Məlik Ərəb, Əmir Qazinin oğlu Yığanın əlindəki qalanı aldı. Ancaq Ərəbin hakimiyyətinə son qoymaq istəyən Əmir Qazi onu ağır bir məğlubiyyətə uğratdı. Məlik Ərəb Bizansa qaçmağa məcbur oldu və bundan sonra adı tarix səhifələrində bir daha görünmədi. Beləliklə, Sultan Məsud qayınatası Əmir Qazi sayəsində taxtın iddiaçıları olan qardaşları Ərəb, Şahənşah və Toğrul Arslanı ortadan qaldırdı, Əmir Qazi də Danişməndli dövlətinin torpaqlarını Sakaryaya qədər genişləndirdi.

1142-ci ildə Məlik Məhəmmədin vəfatından sonra Anadoludakı Danişməndli dövlət üç yerə parçalandı. Malatya onun qardaşı Aynüddövlənin, Sivas Yağıbasanın, Kayseri də Məlik Məhəmmədin oğlu Zünnunun hakimiyyəti altına girdi. Danişməndli taxt-tacı uğrunda müharibələrdən istifadə edən Sultan Məsud Zünnuna kömək edincə, Yağıbasan ilə Aynüddövlə ona qarşı birləşib, Türkiyə Səlcuqlu dövlətinə aid Əlbistan və Yuxarı Ceyhanı işğal etdilər. Sultan Məsud əvvəlcə Yağıbasana hücum edib Sivası ələ keçirdi, ardından 1143-cü ildə Aynüddövləyə qarşı hərəkətə keçərək Malatyanı mühasirəyə aldı. 1144-cü ildə Məsud Əlbistan və Ceyhanı da işğal edib, oğlu Qılınc Arslanı buraya hakim təyin etdi. Bu vaxt Bizans imperatoru Manuelin *(1143-1180)* böyük bir ordu ilə Anadoluya hərəkət etdiyini öyrənərək, 1144-cü ilin avqust ayında Malatyanın mühasirəsinə son verdi. Sultan Məsudun Fərata qədər Danişməndli torpaqlarını ələ keçirməsinə görə Aynüddövlə ilə Yağıbasan ona qarşı Bizansla ittifaq qurdular. Ancaq qısa müddət içində Sultan Məsud Danişmədli dövlətini öz təsiri altına aldı. Belə ki, 1152-ci ildə Aynüddövlə vəfat edincə yerinə oğlu Zülqərneyn keçdi. Ancaq Yağıbasan ilə



Zülqərneyn birləşib, Məsuda qarşı hərəkətə keçincə Türkiyə Səlcuqlu sultanı əvvəlcə Zülqərneyni məğlub edib özünə tabe etdi, daha sonra Yağıbasanı öz hakimiyyəti altına alıb onunla qohumluq əlaqələri təsis etdi. 1153-cü ildə Sultan Məsud Yağıbasan ilə Kilikya üzərinə bir səfər təşkil etdi. Buradakı ermənilərə bir elçi göndərib, Türkiyə Səlcuqlu dövlətinə itaət etmələrini əmr etdi. Məsuda müsbət cavab verən ermənilər ona hədiyyələr və qiymətli əşyalar göndərdilər.

Sultan Məsud 1155-ci ildə vəfat etdi. O, "İzzəddin" ləqəbini daşıyırdı. Sultan Məsud hakimiyyətə gəldiyi zaman zəifləmiş və kiçik bir dövlət halına gəlmiş Türkiyə Səlcuqlu dövləti, onun vəfatı sırasında Anadolunun ən güclü dövlətinə çevrildi. Mənbələr Sultan Məsuddan ədalətli hökmdar kimi bəhs edirlər. Yerinə oğlu II Qılınc Arslan keçdi. Danişməndli hakimiyyətilə uzun mübahisələr yaşayan II Qılınc Arslan 1165-ci ildə Əlbistan, Darəndə, Dəlük ərazilərini və Toxma çayı ətrafını öz torpaqlarına qatdı. Türklərin Anadoluda yenidən güclədiyini görən Bizans imperatoru Manuel özü 1176-cı ilin yaz aylarında böyük bir ordu ilə İstanbuldan Anadoluya hərəkət etdi. Bizans ordusunun çoxu serb, macar, frank və peçeneq muzdlu əsgərlərindən ibarət idi. II Qılınc Arslan 1176-cı ilin sentyabr ayında Bizans ordusunu dar bir keçiddə mühasirəyə aldı. Miryakefalon adlanan bu döyüşdə imperator böyük bir məğlubiyyətə uğradı. Əsir düşəcəyindən qorxan Manuel, II Qılınc Arslana elçi göndərib sülh istədi. Qəbul edilən imperatorun bu təklifi müqabilində Bizans Əskişəhər və Sublaion qalalarını yıxdıracaq, İstanbula qayıdandan sonra da Türkiyə sultanına qızıl, gümüş əşyalar, at və 100 min dinar göndərəcəkdi. Miryakefalon qalibiyyəti Malazgird zəfərindən sonra türklərin Bizans qarşısında qazandıqları ən böyük qələbə idi. Mənbələr bu qələbə ilə türklərin Anadoludakı hakimiyyətinin qalıcı hala gəldiyini yazırlar.

Sultan II Qılınc Arslan dövrünün ən maraqlı hadisəsi Sultan Səncərin vəfatı ilə çox sayda oğuz tayfasının Xorasandan Azərbaycan və Anadoluya köçü oldu. Köç edən türklər II Qılınc Arslanın vəziyyətini daha da gücləndirdi. Sultan onları Bizans ilə sərhəd zolaqlarında məskunlaşdırdı. Qısa vaxtda bu türkmənlər Bizansın Qırxağac, Berqama, Ədrəmid kimi ərazilərini fəth edərək Səlcuqlu hakimiyyətini buralara yaydılar.

Sultan II Qılınc Arslanın hakimiyyətinin sonlarında, 1190-cı ildə dördüncü səlib istilası başladı. Səlib ordusunun başında Alman imperatoru Fridrix dayanırdı. Səlibçilər Ədirnəyə girərkən Sultan II Qılınc Arslan oğlu Məlikşah vasitəsilə onlara sülh təklif etdi. Buna səbəb II Qılınc Arslanın artıq çox yaşlı olması və oğlanları arasındakı ziddiyətlər idi. Səlibçilərin məqsədi Səlahəddin Əyyubi tərəfindən ələ keçirilən Qüdsü yenidən almaqdı. Fridrix elçilərə rədd cavabı verib, Alaşəhər və Dənizlini keçərək Uluborlu istiqamətindən türk torpaqlarına girdi. Səlibçilərin güclü ordusu qarşısında müntəzəm şəkildə geri keçilən türkmənlər yol boyu kiçik hücumlarla onlara zərbə vurmağa çalışdılar. Səlibçilərin keçdiyi güzərgah üzərindəki yaşayış yerlərinin boşaldılması və dağıdılması onları böyük çətinliklərə saldı. Buna baxmayaraq, səlibçilər Konyaya qədər gəldilər. Səlcuqlu paytaxtının mühasirəsi sırasında, 1190-cı ilin may ayında səlibçilər şəhərin bazarlarına girməyə müvəffəq olsalar da, şəhəri öz ixtiyarlarına keçirə bilmədilər. Meydana gələn çətin şəraitdə Fridrix məcbur qalıb sultanın təklifini qəbul etdi. Bundan sonra Anadoludan Suriya istiqamətində hərəkətə keçdilər. Lakin səlibçilər Anadoludan çıxana qədər türk hərbi dəstələrinin hücumlarına məruz qaldılar. Türk hücumlarının qorxusuyla Tarsus çayından keçən səlib orduları burada xeyli itki verdilər. Hətta imperator Fridrix çaydan keçərkən suya düşərək boğuldu. Beləliklə, səlibçilər dördüncü səfərlərində də istədikləri nəticəni ala bilmədilər.



Türkiyə Səlcuqlu dövlətinin ən böyük və ən qüdrətli sultanı olan II Qılınc Arslanın hakimiyyətinin sonları və eyni zamanda həyatının son günləri çox ağır keçdi. Sultan oğlu Məlikşahın əlində əsir halında ömrünü başa vurdu. II Qılınc Arslanın ən böyük oğlu Məlikşah atasının hakimiyyətinin son beş ilində taxtı ələ keçirmək üçün mübarizəyə başlamış, hətta bu məqsədlə atasının üzərinə ordu da yeritmişdi. Vəzir İxtiyarəddin Həsənin təkidi ilə oğluna qarşı hərəkətə keçən Sultan II Qılınc Arslan ilə Məlikşah arasında qarşılaşmada türklər ixtiyar hökmdara silah çəkmədilər. Ancaq sultanın əmrindəki 4 min türk əsgərinin Məlikşahın tərəfinə keçməsi ilə sultan öz oğluna əsir düşdü. Paytaxt Konyanı ələ keçirən Məlikşah, Məngücüklü Bəhramşahın təsirilə vəzir İxtiyarəddini vəzifəsindən uzaqlaşdırdı. Bundan sonra atasını da yanına alan Məlikşah qardaşları üzərinə hərəkətə keçdi. Bu vaxt fürsətdən istifadə edən II Qılınc Arslan başqa bir oğlu Sultan şahın yanına qaçdı. Ancaq Sultan şah atasına onu vəliəhd elan etməsi üçün təsir göstərincə, bu dəfə II Qılınc Arslan yeddinci oğlu Qiyasəddin Keyxosrovun yanına qaçdı. Oğlu Qiyasəddindən böyük hörmət görən II Qılınc Arslan onunla birlikdə Konyaya hücum etdilər. Konyadan qaçan Məlikşahın yoxluğundan istifadə edən II Qiyasəddin paytaxı yenidən ələ keçirdi. Daha sonra ata-oğul birlikdə Məlikşahı ortadan qaldırmaq üçün Ağsaraya hücum etdilər. Ağsarayı mühasirəyə aldıqları vaxt Sultan II Qılınc Arslan 1192-ci ildə vəfat etdi.

Sultan II Qılınc Arslan Türkiyə Səlcuqlu dövlətinin ən böyük hökmdarı olmuşdur. Onun dövründə Türkiyə Səlcuqlu dövləti inkişafının ən yüksək səviyyəsinə çatdı. Ancaq hakimiyyətinin axırlarına yaxın sultan dövləti öz oğulları arasında bölüşdürməklə dövlətin zəifləməsinin də səbəbkarı oldu.

Sultan II Qılınc Arslanın oğulları arasında hərbi cəhətdən ən güclüsü olan ikinci oğlu Rüknəddin Süleyman şah

Konyaya hücum edib, taxtı ələ keçirdi və 1196-cı ildə Səlcuqlu dövlətinin başına keçdi. 7 oktyabr 1196-cı ildə hakimiyyəti öz əli ilə qardaşına təslim edən Qiyasəddin isə aralarındakı razılaşmaya uyğun olaraq paytaxtı tərk etdi.

Beləcə, Süleyman şah "II Süleyman şah" adıyla Türkiyə Səlcuqlu dövlətinin başına keçdi. Süleyman şah, Əyyubilər dövlətinin köməyinə arxalanıb, üsyan edən Malatya hakimi olan qardaşı Qeysərşahın üzərinə getdi. 1201-ci ildə Malatyanı mühasirəyə alan II Süleyman şah buranı ələ keçirdi.

Türkiyə Səlcuqlu dövlətinin axırıncı güclü hökmdarı Əlaəddin oldu. İzzəddin Keykavusun vəfatından sonra Türkiyə Səlcuqlu taxtına keçən qardaşı I Əlaəddin Keyqubadın hakimiyyəti *(1220-1237)* "*iqbal dövrü*" olaraq qiymətləndirilir. I Əlaəddin sultanlıq taxtına oturduğu tarixdə moğollar Xarəzmşahlar dövlətinə son qoyaraq, İraqi-Ərəbə qədər bütün Səlcuqlu torpaqlarını işğal edib Azərbaycana gələrək, burada bəzi dağıntılara səbəb olduqdan sonra Dərbənd üzərindən şimala hərəkət etdilər. Bunu görən Sultan I Əlaəddin ilk iş olaraq meydana gələcək moğol hücumu qarşısında başda Konya, Kayseri və Sivas olmaqla böyük şəhərlərin ətrafında müdafiə tədbirlərinin gücləndirilməsini əmr etmişdi. Ancaq moğollar ilk hücumlarında Anadoluya zərər vermədilər.

Ancaq moğol hücumları türklərin kütləvi şəkildə Orta Asiya, Xorasan və Azəbaycandan Anadolu və Suriyaya köçünə səbəb oldu. Cebe noyon və Sabutay bahadur başçılığında Orta Şərqdə meydana gələn moğol fırtınasından sonra Orta Asiyada Xarəzmşahlar, Xorasanda, İraqi-Əcəmdə, Azərbaycanda isə Səlcuqlu hakimiyyəti sona çatdı, böyük bir siyasi xaos başladı. İlk moğol səfərinin sona çatmasından sonra həmin əraziləri ələ keçirən Xarəzmşahların axırıncı nümayəndəsi Cəlaləddin Mənguberdi moğollara qarşı ittifaq məqsədilə Türkiyə Səlcuqlu sultanı I Əlaəddinə elçilər göndərərək dostluq münasibətləri qurmaq istədiyini bildirdi. Ancaq Xarəzmşah Cəlaləddinin Əhlətə hücum



etməsi I Əlaəddin ilə birlikdə Hələb Əyyubi hakimi Məlik Əşrəfi də narahat etdi. Hər iki hakim moğollarla mübarizəni dayandırıb, onlara aid mülkləri yağmaladığına görə Cəlaləddinə qarşı ittifaq qurdular. Cəlaləddin isə 1230-cu ildə *qübbətü'l-İslam* kimi məşhur olan Əhləti talan etdi. Özü də Ərzurum hakimi Cahanşahla birlikdə 40 minlik qüvvə ilə Sivas istiqamətində hərəkətə keçdi. Sultan I Əlaəddin ilə Məlik Əşrəfin ordularının ümumi sayı isə 30-40 min nəfər idi. İki ordu bir-birindən xəbərsiz Ərzincan ovasında Yassı Çəməndə üz-üzə gəldilər. Xarəzm gücləri ilk öncə Səlcuqlu-Əyyubi birliklərini məğlub etsə də, döyüşün gedişatı daha sonra dəyişdi. Şiddətli küləklə birlikdə hücuma keçən Səlcuqlu-Əyyubi ordusu Cəlaləddinin güclərini ağır məğlubiyyətə düçar etdi. Ərzincan hakimi Cahanşah da daxil olmaqla, çoxlu sayda xarəzmli öldürüldü, o qədəri də əsir düşdü. Xarəzmşah Cəlaləddin qalan xarəzmlilərlə birlikdə qaçdı. Cəlaləddin 1230-cu ilin avqust ayında Məlik Əşrəfin yanına gedərkən yolda öldürüldü.

Ancaq bu hadisədən qısa müddət sonra bu dəfə qalıcı olmaq məqsədi ilə moğollar ikinci dəfə Xorasan, İraqi-Əcəm və Azərbaycana gəldilər. Çormoğon noyonun başçılıq etdiyi bu moğol və türklərdən ibarət ordu heç bir maneə ilə üzləşmədən Anadolu sərhədlərinə dayandı. 1232-ci ildə bir moğol atlı dəstəsinin Sivas yaxınlığında peyda olması xəbəri Sultan I Əlaəddini çox narahat etdi. Sultan bunun səbəblərini öyrənməyi Kəmaləddin Kamyara tapşırsa da, o, ordusuyla birlikdə Ərzincana qədər irəliləməsinə rəğmən, moğolların izinə rast gələ bilmədi. Ancaq əmirlərindən Mübarizəddin Çavlının moğol hücumunun Kartli kraliçası Rusudanın *(1223-1245)* təhrikləriylə baş verdiyini xəbər verməsindən sonra sultan bu ölkəyə bir səfər düzənləməyi əmr etdi. Qıpçaq-Kartli ölkəsinə hücuma keçən Əmir Kamyara kraliça sülh təklif etdi. Zira, Cəlaləddin tərəfindən ard-arda məğlub edilən və moğollar qarşısında məğlubiyyətdən sonra Qaradəniz ətrafı qıpçaqlarından

kömək ala bilməyən Kartlinin bu dövrdə vəziyyəti çox ağır idi. Kamyar onların sülh təklifini qəbul edib, qiymətli hədiyyələrlə geri qayıtdı.

Digər tərəfdən, Sultan I Əlaəddin moğol təhlükəsinin qarşısını almaq üçün onlarla danışıqlar aparmağa və sülh bağlamağa çalışırdı. Bu məqsədlə 1232-ci ildə moğollara bir elçi göndərdi. Moğollar sultanın təklifinə 1237-ci ildə Əmir Şəmsəddin Ömər adlı bir taciri elçi göndərərək cavab verdilər. 1237-ci ilin Ramazan ayında Sultan I Əlaəddin Kayseridə bir sui-qəsd nəticəsində öldürüldü. Bəzi məlumatlara görə, sui-qəsd böyük oğlu Qiyasəddin tərəfindən planlanmışdı. Hər halda Qiyasəddin kiçik qardaşının vəliəhd elan edilməsini qəbul edə bilməmişdi. Sultanın çaşnigiri (yeməklərə nəzarət edən) Nəsrəddin Əlinin verdiyi bişmiş quş ətini yedikdən sonra zəhərlənən I Əlaəddin Qubadiyyə sarayına aparılmış, orada 1 iyun 1237-ci ildə vəfat etmişdi. Onun nəşi Konyaya aparılıb, Künbədi-Sarayda torpağa tapşırıldı.

Sultan I Əlaəddin Türkiyə Səlcuqlu dövlətinin sonuncu böyük hökmdarı oldu. Ondan sonra Türkiyə Səlcuqlu dövləti moğol təhlükəsi ilə üzləşərək zəifləməyə başladı və 1243-cü ildə moğollar qarşısında ağır Kösədağ məğlubiyyətindən sonra vassal vəziyyətə düşdü. Moğollar Anadolunun tamamını nəzarət altına alıb, təqribən yüz il bölgəni idarə etdilər. Türkiyə Səlcuqlu dövləti isə 1308-ci ildə süqut etdi.

Türkiyə Səlcuqlu dövləti mədəni cəhətdən ən inkişaf etmiş səlcuqlu dövlətlərindən biri idi. Səlcuqlu dövründə Anadolunun tamamı müsəlman-türk ölkəsinə çevrildi və ölkənin hər yerində mədrəsələr, karvansaraylar, türbələr, məscidlər, camelər, hamamlar, xangahlar, dərgahlar, zaviyələr, təkkələr inşa edildi. Anadoludakı şəhərlər yeni görkəmlərinə qovuşdular. Konyada, Ərzurumda, Ərzincanda, Tokatda, Sivasda, Amasyada, Antalyada, İznikdə çox sayda məscidlər, karvansaraylar inşa olundu.





*Kösədağ müharibəsini əks etdirən miniatür.*
*Korikoslu Hayton – "Şərq torpaqlarının tarixlərinin gülüstanı"*

Türk dili və ədəbiyyatının inkişafında Türkiyə Səlcuqlu dövlətinin böyük xidmətləri oldu. XIII əsrdən etibarən türk, xüsusilə də oğuz ləhcəsi içində yeni bir dialekt olaraq inkişaf etməyə başlayan Anadolu türkcəsi ilə bu dövrdə xeyli əsər yazıldı. Anadolu türkcəsi ilə eyni tarixdə çiçəklənmə dövrünə girən Azərbaycan türkcəsi arasında çox az ləhcə fərqi vardı. Anadolu ləhcəsi, əsasən Azərbaycan türkcəsinin təsiri altında formalaşmışdı.

Bu dövrün ən qiymətli türkdilli ədəbiyyat nümunələri Mövlana Cəlaləddin Ruminin bəzi türkcə şeirləri, oğlu Sultan Vələdin *(1226-1312)* fars dilində qələmə aldığı *"İbtidanamə"* və *"Rəbabnamə"*də yer alan türkcə şeirləri və türk dilində yazılmış divanı; məşhur aşıq-sufi Yunus Əmrənin *(1240-1320)* sadə xalq dilində yazılmış şeirləri; Xoca Dəhhaninin *(XIII əsr)* şeirləri, Əhməd Fəqihin *"Çarxnamə"*si *(XIV əsr)*, Şəyyad Həmzənin *"Dastani-Yusifi"* adlı məsnəvisi *(XIV əsr)*, Əlinin *"Qıssai-Yusif"*i (Azərbaycan ədəbiyyatında Qul Əli olaraq bilinir, *XIII əsr*), Aşıq Paşanın *(1272-1333)* *"Qəribnamə"*si *(1330-cu ildə yazılmış)*, Aydınoğlu Mehmed bəyin *(1339-1349)* əmrilə yazılmış *"Qıssas əl-Ənbiya"* tərcüməsi,

Yusif Məddahın *Vərqa və Gülşa* məsnəvisi *(1368/1369)* hesab edilir.

Səlcuqlu dövründə sufi təşkilatlar (*vəfailik*, *babailik*, *bektaşilik*, *mövləvilik* və s.), ticari təşkilatlar (əxilik), qəza təşkilatları (*fütuvvət*) geniş fəaliyyətlər göstərmiş və Anadoludakı müsəlman-türk cəmiyyətinin təşkilatlanmasına rəhbərlik etmişdilər. Bu müəssisələr daha sonra Osmanlı cəmiyyətindəki təsəvvüf və sufi anlayışının əsas qaynaqları olmuşdur. Səlcuqlular siyasi, fikri və elmi düşüncədən saç və geyim tərzinə qədər Anadoluda türk ünsürünün memarı oldular.

Anadoludakı türk mühitinə həm dini, həm inanc, həm dil, dastan, şeir, həm də digər mədəniyyət sahələrində Azərbaycandakı türk mühitinin böyük təsiri vardı. Qeyd edək ki, moğol işğalı nəticəsində Azərbaycan və Arandan xeyli türk Anadoluya köç edib, orada yerləşdilər. Onlar arasında böyük sufilər, dərvişlər, şairlər, alimlər, din və fiqh adamları da var idi. Məsələn, Mövlana Cəlaləddin Rumiyə böyük təsir göstərən Şəms Təbrizi Azərbaycan sufiliyinin ən böyük nümayəndəsi hesab edilməkdədir. Əslində o dövrdə Anadolu ilə Azərbaycan iç-içə girmiş, güclü siyasi, elmi, dini əlaqələrlə bir-birinə bağlanmışdılar.

### 7.2.6. İraq Səlcuqlu dövləti

11 avqust 1119-cu ildə baş verən Savə döyüşündən sonra Böyük Səlcuqlu dövləti, Xorasan və İraq Səlcuqlu dövləti olaraq iki yerə ayrıldı. Böyük sultanlıq haqqı Səncərin əlində olsa da, Azərbaycan, Rum, İraqi-Ərəb və İraqi-Əcəm torpaqlarının idarəsini qardaşı oğlanlarına buraxdı. Sultan Səncər İraq Səlcuqlu dövlətinin sultanı olan Mahmudu özündən sonra "böyük sultan" taxtının varisi elan etdi. Sultan Mahmudun hakimiyyəti çox zəif idi. Hakimiyyəti, əsasən, əmirlər və atabəylər öz nəzarətləri altında



saxlayırdılar. Sultan Mahmud on ildən çox davam edən hakimiyyəti illərində qardaşları Məsud, Davud və Toğrulun üsyanları ilə mübarizə apardı.

Digər səlcuqlu dövlətlərindən fərqli olaraq, İraq Səlcuqlu dövlətinin ərazisi güclü şahzadələrin, əmirlərin və atabəylərin nəzarətində idi. Bölgəsinin ikinci xüsusiyyəti isə oğuzların əsas hərbi gücünün bu torpaqlarda yerləşməsi və hakimiyyət üzərində söz sahibi olmaqları idi. Hər biri böyük bir əyalətə sahib olan Səlcuqlu şahzadələrinin ətrafında toplaşan əmirlər və atabəylər mərkəzi hakimiyyəti ələ keçirməkdə maraqlı idilər. Bu məqsədlə əmirlər atabəyi olduqları şahzadələri öz məqsədləri üçün istifadə edirdilər. İlk ciddi üsyan Məsudun atabəyi Ay-Aba Cüyuş bəydən gəldi. Atabəy Cüyuş Məsudun çadırının qabağında gündə beş vaxt növbət çaldıraraq, Mahmuda üsyan etdiklərini göstərdi. İki qardaş 14 iyun 1120-ci ildə Həmədanın Əsədabad ərazisində üz-üzə gəldilər. Səhərdən axşamadək sürən ağır döyüşün sonunda Sultan Mahmud qələbə çaldı. Məsud dağlara qaçarkən aralarında vəziri Əbu İsmayılın da olduğu çoxlu əsgəri əsir düşdü.

Üsyanı yatırdıqdan sonra Sultan Mahmud Avə, Savə və Zəncanı qardaşlarından Toğrulun iqtası elan edib, Gündoğdunu onun atabəyi elan etdi. Bu vaxtlar 8-9 yaşında olan Toğrulu sultana qarşı üsyana təhrik edən atabəy Gündoğdu, Sultan Mahmudun Şərafəddin Ənuşirvan ibn Xalid başçılığında qiymətli hədiyyələrlə birlikdə göndərdiyi elçilərə də rədd cavabı verdi. Bundan sonra Toğrul və atabəyi Gündoğduya qarşı hərəkətə keçən Sultan Mahmud 1119-cu ilin payızında onlara hücum etdi. Ancaq davamlı yer dəyişdirən Toğrul ilə Gündoğdu Sərcan qalasında gizləndilər. Qardaşına aid Şəmiran qalasını ələ keçirib, buradakı xəzinəyə əl qoyan Mahmud, Toğrulun Gəncəyə qaçmasından sonra onları təqib etməkdən əl çəkdi. Toğrul Gəncədə ikən şimaldan qıpçaq və gürcülər Səlcuqlu torpaqlarına hücum etdilər.

Toğrul Aran və Naxçıvan hakimlərinin ordusundan ibarət 30 minlik orduyla onların qarşısına çıxdı. Tiflis ətrafında döyüşdə Toğrul məğlub olub qaçaraq Gəncədə gizləndi, qıpçaq-gürcü orduları Tiflisi ələ keçirib, 4 min insanı əsir aldılar. Tiflisdən qaçan müsəlmanlar Həmədana gəlib, vəziyyəti Sultan Mahmuda xəbər verdilər. Bu vaxt Toğrulun atabəyi Gündoğdu öldü. Toğrulun atabəyi olacağına ümid edən Marağa hakimi Ağsunqur 1122-ci ildə onun yanına gəlib, şahzadəni sultana qarşı üsyana təhrik etdi, "Marağaya getsən, səni orada 10 min süvari və piyada gözləyir" – dedi. Toğrul Ərdəbilə gəldi. Ancaq ərdəbillilər şəhər qapılarını bağlayıb, müqavimət göstərdilər. Toğrul Xunəcə gəldi və Əmir Şirgirə xəbər göndərib, kömək istədi. Əmir Şirgir onu atabəylikdən uzaqlaşdıran Sultan Mahmuda öfkəli olduğu üçün Toğrulun təklifini qəbul etdi, birlikdə Əbhərə gəldilər, ancaq lazım olan orduya sahib olmayınca, Toğrul qardaşı Sultan Mahmuda elçi göndərib, bağışlanmasını istədi. Qardaşlar arasında 1123-cü ilin yanvarında razılıq əldə edildi.

Təbrizə gələn Sultan Mahmud 1123-cü ilin noyabrında qıpçaq-gürcülərə qarşı hərəkətə keçdi. Bu vaxt qıpçaq-gürcü ordusu Şamaxıya qədər gəlmişdi. Onları qarşılarında görən sultan ordusunun əsgərləri qorxuya düşdü. Bunu eşidən Şirvan ağsaqqalları sultanın hüzuruna gəlib, – *"Sən bizim yanımızda olduqca biz özümüz onlarla müharibə edə bilərik. Ancaq siz bizdən aralansanız, müsəlmanlar ruhdan düşər və hamısı həlak olar"* – dedilər və sultanı səfərini başa vurmağa razı saldılar. Ancaq bu dəfə qıpçaqlarla gürcülər arasında ixtilaf çıxdı və onlar Şirvandan çəkildilər. Sultan Mahmud bir müddət Şirvanda qaldı. Bu müddət ərzində Sultan Mahmud Şirvanşah III Mənuçöhrü *(1120-1160)* illik 40 min dinar xəracla cəzalandırdı. Sultan, bu pulun bir hissəsini mənimsəyən vəziri Şəmsülmülkü də Beyləqanda edam etdirdi. Səncər tərəfindən təyin edilmiş vəzirin öldürülməsi böyük sultanı çox narahat etdi. Mahmud 1124-cü ilin iyulunda Həmədana qayıtdı.



1126-cı ildə Sultan Mahmud ordusuyla Bağdadda üsyana qalxan xəlifəyə qarşı hərəkət etdi. Xəlifə ordu komandanlarından Əfifi İraqın cənubuna göndərdi. Ancaq Əfifin xəlifə gücləri Bəsrədən Fərat çayı boyunca Vasitə gələn İmadəddin Zəngi tərəfindən məhv edildilər. Sultan Mahmud gəlib, şəhər yaxınlığındakı Babüş-Şəmmasiyyədə qərargah qurdu. Buradan xəlifəyə razılıq təklifi göndərən Mahmudun təklifi geri çevrilincə, Səlcuqlu ordusu qılınc gücünə Bağdada girdi. Səlcuqlu əsgərlərinin xəlifə sarayını yağma etməsi və Bağdad küçələrində cərəyan edən döyüşlər xalqın Müstərşid *(1118-1135)* lehində hadisələrə qarışması ilə nəticələndi və bu, Sultan Mahmudu çətin vəziyyətə saldı. Ancaq Vasit, Bəsrə və Barixadan aldığı qayıqçı gəmiləri ilə Dəclə çayı vasitəsilə Bağdada girən İmadəddin Zənginin gəlməsi Sultan Mahmudu məğlubiyyətdən xilas etdi. Mahmud əmir və komandanlarının etirazına baxmayaraq, xəlifəylə yaxşı rəftar edib, ona pul və mal verərək, razılığa gəldi. Bir müddət Bağdadda qalan Sultan Mahmud əmirlərindən İmadəddin Zəngini Bağdada şəhnə təyin etdi. 26 noyabr 1126-cı ildə Mosulda Ağsunqur Porsuqi ismaili fədailəri tərəfindən öldürüldü. Onun yerinə keçən oğlu Məsud da 1127-ci ilin iyulunda vəfat edincə, Sultan Mahmud İmadəddin Zəngini oğlu Alparslanın atabəyi elan edib,



*Sultan Mahmud adına kəsilmiş pul.*

Mosul hakimi təyin etdi. Bu, Mosul atabəyləri Zəngilərin ortaya çıxış tarixi idi.

Sultan Mahmudun əmisi Səncərlə də əlaqələri yaxşı deyildi. Mahmudun qardaşları da Sultan Səncəri Mahmuda qarşı qıcıqlandırırdılar. Sultan Səncər 1127-ci ildə Reyə hərəkət etdi. Mahmud vaxt itirməyib böyük sultanın yanına gələrək, haqqında çıxan xəbərlərin yalan olduğunu bildirdi. Onun bu hərəkəti Səncərin çox xoşuna gəldi və Mahmudu təntənəli şəkildə qarşıladı.

Sultan Mahmud Səncərin qızı Mahmələk Xatun ilə evli idi. Mahmələk İraq sarayında atası Səncərə xidmət edirdi. 1128-ci ildə Mahmələk Xatun vəfat etdi. Bu, Mahmudun daha sərbəst hərəkət etməsinə şərait yaratdı. Ancaq onun sərbəst hakimiyyəti uzun sürmədi. Sultan Mahmud Bağdada səfərə hazırlaşdığı vaxt xəstələndi və 6 sentyabr 1131-ci ildə 27 yaşında vəfat etdi.

Sultan Mahmudun vəfatından sonra Marağa atabəyi Ağsunqur əl-Əhmədili sultanın oğlu azyaşlı Davudu taxta çıxartdı. Lakin onunla yanaşı taxtın üç iddiaçısı daha ortaya çıxdı. Onlar Davudun əmiləri Məsud, Toğrul və Səlcuq şah idi. Davudun hakimiyyəti cəmi bir il davam etdi. Onu hakimiyyətdən uzaqlaşdıran əmisi Toğrul taxta yiyələndi, lakin 1134-cü ildə vəfat etdi. Uzun müddətdir Azərbaycan hakimi olan və Həmədan taxtına çıxmaq üçün mübarizə aparan Məsud, nəhayət, İraq Səlcuqlu sultanı oldu. Təqribən iyirmi ilə yaxın hakimiyyəti dövründə Məsud Abbasi xəlifələri ilə sərt mübarizə apardı. Onun vaxtında bir neçə xəlifə hakimiyyətdən uzaqlaşdırıldı, biri də *(ər-Rəşid)* ələ keçirilib öldürüldü. Məsudun Xilafətə qarşı sərt siyasətinin arxasında xəlifənin Səlcuqlu ərazisində ortaya çıxan ixtilaflara dəstək olması, şahzadə və əmirləri sultana qarşı mübarizəyə təşviq etməsiydi.

Xəlifələri zərəsizləşdirməsinə baxmayaraq, Sultan Məsud güclü əmirlərin təsirindən çıxa bilmədi. Onun vaxtında Səlcuqlu bölgəsində Qara Sunqur, Məngübars,



Baranquş Bazdar, Nurəddövlə Sunqur, Əmir Qızıl, Əmir Porsuq, Əmir Çavlı, Porsuq Şarabsalar, Ağıl Bəy, Bəy-Apa Mahmud kimi güclü əmirlər və atabəylər mövcuddu. Sultan onları birini digərinə qarşı müdafiə edərək öz nəzarəti altında saxlamağa çalışırdı. Əmirlərin təzyiqini zəiflətmək məqsədilə Sultan Məsud saray əmirlərindən olan Şəmsəddin Eldənizi vəfat edən Sultan Toğrulun dul aradı Mömünə ilə evləndirib, onu Arslanşahın atabəyi elan etdi və Azərbaycanı onun ixtiyarına verdi. Məsudun atdığı bu addım Şəmsəddin Eldənizin tarix səhnəsinə çıxmasına şərait yaratdı. 1152-ci ildə Sultan Məsud vəfat etdikdə Şəmsəddin Eldəniz İraq Səlcuqlu dövlətinin ən güclü atabəyi idi.

Məsud vəfat etdikdə taxta keçəcək oğlu olmadığından, İraq Səlcuqlu taxtına əvvəlcə Məlikşah *(1152-1153)*, Məhəmməd *(1153-1159)* və Süleyman şah *(1159-1161)* çıxdı. Məhəmməd əmirlərlə mübarizə aparsa da, uğur qazana bilmədi. Süleyman şahın sərxoş həyat keçirməsi əmirlərin Şəmsəddin Eldəniz ətrafında toplanmasına səbəb oldu. 1161-ci ildə taxt çevrilişi ilə İraq Səlcuqlu dövləti Azərbaycan atabəylərinin təsiri altına keçdi. Bu vəziyyət İraq Səlcuqlu dövlətinin 1194-cü ildə ortadan qalxmasına qədər davam etdi. 1191-ci ildə Azərbaycan atabəyi Qızıl Arslanın vəfatından sonra zindanda olan sonuncu İraq Səlcuqlu sultanı III Toğrul bəy özünü müstəqil aparmağa başladı.

Qızıl Arslanın vəfatından sonra İraq Səlcuqlu dövləti atabəy Əbu Bəkrin idarə etdiyi Azərbaycan və Qutluq İnancın başında durduğu İraqi-Əcəm olaraq iki yerə ayrıldı. Bu vaxt əmirlərdən sipəhsalar Hüsaməddin Dizmari ilə əmir-bar Anasıoğlu Qəhrəmə gəlib, Sultan III Toğrulu zindandan azad edib *(aprel-may 1192)* İraqi-Əcəm üzərinə hərəkət etdilər. Əvvəlcə Əbu Bəkri məğlub edən Sultan III Toğrul, türkmən bəyi Həsən ibn Qıpçağın 8 minlik ordusunun ona qoşulması ilə vəziyyətini gücləndirdi və 28 iyun 1192-ci ildə Qəzvin ətrafından Qutluq İnancın iki qat çox ordusunu *(15 min)* darmadağın etdi. Qutluq Reyə, anası



*III Toğrul. Hafiz Əbru – "Məcmə ət-təvarix"*
*Yel Universitetinin Rəsm Qalereyası.*

İnanc Xatunun yanına qaçdı. III Toğrul Həmədana gəlib yenidən taxta oturdu. Bu, sultan III Toğrulun 6-cı dəfə İraq Səcluqlu taxtına oturması idi. Sultanın ilk işi onu məğlub edib əsir alan əmir Fəxrəddin Qutluq Qaraqızı tutub, 12 parçaya ayırmaq şərtilə edam etdirmək oldu. Daha sonra sultanlığın işlərini nizama qoyaraq vəzirlik məqamına Xacə Muinnəddin Qaşı təyin etdi.

Reyə qaçan Qutluq İnanc Xarəzmşah Təkişə müraciət edib, ondan hərbi kömək istədi. İraqdakı vəziyyətdən istifadə etmək istəyən Xarəzmşah Təkiş 1193-cü ilin yanvar ayında ordu göndərdi. Xarəzmşahın ordusu Reyə gəlib Təbərək qalasını tutdu. Xarəzmşah ordusundan qorxan Qutluq və anası İnanc Xatun qaçıb, Sərcahan qalasında gizləndilər. Bundan istifadə edən III Toğrul Xarəzmşaha qiymətli hədiyyələrlə öz bağlılığını bildirən məktub göndərdi. Hətta Sultan III Toğrul qızı Məlikə Xatunu Xarəzmşahın oğlu və İraqa göndərilən orduların başçısı Yunislə evləndirib, münasibətləri yaxşılaşdırdı. Eyni tarixdə Təkiş üsyan edən qardaşı Sultan şahla müharibə halında olduğu üçün Sultan III Toğrulla barışmağı daha məqsədəuyğun gördü.



III Toğrulla Yunis arasındakı razılaşmaya görə, sultan xütbələrdə Təkişin adını çəkəcək, sikkələrin üzərinə həkk etdirəcək və Reyin Xarəzmşah hakimiyyətinə keçdiyini qəbul edəcəkdi. Toğrul bu şərtləri qəbul etsə də, Xarəzmşah ordularının çəkilməsi ilə Reyə hücum etdi və Təbərək qalasını zəbt etdi. Buradakı Əmir Tamqaç başçılığındakı xarəzmli əsgərləri də Xarəzmə qaçdılar. Ələ keçirilən Əmir Tamqaçın başının kəsilməsi əmrini verən Sultan III Toğrul əmirin başını elçi ilə Xarəzmşaha göndərdi. Sultanın bu cürətkar hərəkəti Xarəzmşah Təkişi çox əsəbiləşdirdi. Bu vaxt Zəncanda gizlənən Qutluq ilə xəlifə ən-Nasirin *(1180-1225)* Təkişi İraqa dəvət edən elçiləri də Xarəzmə gəldilər. Təkiş İraq istiqamətində səfərə başladı. O, Simnana gəldikdə Qutluq və Toğruldan narazı əmirlər onu qarşıladılar. Sədrəddin əl-Hüseyniyə görə, *"Qutluq İnanc Xarəzmşah taxtı qarşısında diz çökdü və taxtın önündə torpağı öpdü. Öz vəziyyətini və indiyə qədər yaşadığı dərdləri danışdı. Xarəzmşah Əlaəddin Təkiş ona hörmət etdi və kömək edəcəyinə söz verdi".*

III Toğrul 4 mart 1194-cü ildə əsas ordularını gözləmədən Reyə hərəkət etdi. Rey ətrafından Qutluq İnancın ordusuna hücum edən III Toğrul döyüşdə böyük bir qəhrəmanlıq göstərdi. O, 60 atlısı ilə Xarəzmşah ordularının mərkəzinə hücum etdi. Ancaq gözünə dəyən ox atından yıxılmasına və yaralanmasına səbəb oldu. Bu vaxt sultana yaxınlaşan Qutluq İnanc Toğrulun yalvarmasına bağmayaraq, onun başını kəsdi və Xarəzmşah Təkişə apardı. Təkiş, III Toğrulun öldürülməsinə sevinmədi və ətrafındakılara "təəssüflər olsun ki, onun taleyi belə imiş" dedi. Beləcə, Toğrul bəy tərəfindən Böyük Səlcuqlu dövlətinin paytaxtı elan edilən Reydə Səlcuqlu hakimiyyəti sona çatdı.

III Toğrulun ölümü İraq Səlcuqlu dövlətinin sona çatdığı mənasına gəlirdi. Böyük Səlcuqlu dövlətinin qurucusu ilə son hökmdarının eyni adı daşıması, eyni şəhərdə ölməsi və eyni türbədə dəfn edilməsi *(III Toğrul Reydəki Toğrul bəy məqbərəsində dəfn edildi)* tarixin qəribəliyi olmalıdır.



III Toğrul. Metropolitan İncəsənət Muzeyi.



Toğrul bəy məqbərəsi. Rey, İran.

Toğruldan sonra hakimiyyətə namizəd olacaq iki oğlu var idi. Böyük oğlu Bərkyaruğun adını mənbələr Marağa atabəyi Körpə Arslanın tərbiyəsi altında çəkmiş, ikinci oğlu Məlikşahın adını atası ilə birlikdə Qızıl Arslanın həbs etdirdiyini, Qəhrəm qalasına salındığını qeyd etmişlər. Ancaq onlar İraq Səlcuqlu mirasına sahib çıxacaq hörmətə və cəsarətə sahib deyildilər. III Toğrul əslində "cəsur və qorxmaz" davranışlara sahibdi. Lakin siyasi bacarıqdan məhrum idi. O, bilə-bilə özünü və dövlətini intihara apardı.

Əslində, İraq Səcluqlu dövləti çoxdan süqut etmək üzrə ikən Şəmsəddin Eldəniz və oğlu Cahan Pəhləvanın ağıllı siyasəti və tədbirləri sayəsində bir az da yaşamaq haqqı əldə etmişdi. Sultan III Toğrulun öldürülməsindən sonra Xarəzmşah Təkiş 1194-cü ilin iyul ayında İraqi-Əcəmin böyük bir hissəsini ələ keçirdi. İsfahanı Qutluq İnanca, Həmədanı Qaragöz əl-Atabəyə, Reyi isə oğlu Yunisə verib, Əmir Mayaçuqu da onun atabəyi elan etdi.





# 7.3. SƏLCUQLU ATABƏYLİK SİSTEMİ

Türkcə idari termin olan "*atabəy*" (*atabəg*) *ata* və *bəy* sözlərindən törəyib. Səlcuqlu dövründə idari bir müəssisə olaraq qarşımıza çıxan atabəylik institutunun banisi vəzir Nizamülmülk hesab edilir. Belə ki, Sultan Alparslan onu oğlu Məlikşahın atabəyi təyin etmişdir. Ancaq bəzi tədqiqatçılar bu müəssisənin Oğuz Yabqu dövlətində mövcud olduğunu qeyd edirlər. Bu barədə ilk dəqiq məlumatımız Oğuz Yabqu dövləti başçısı Əli xanın öz oğlu və vəliəhdi Şah Məlikə (türkcə adı: Qılınc Arslan) Ulduz Kuzıçi adlı birini atabəy təyin etməsidir. Bu, atabəy təşkilatının oğuzlarda mövcud olduğunu təsdiq edir. Səlcuqlularda isə ilk dəfə Nizamülmülk "atabəy" (*ata-xacə*) titulunu daşımışdır.

Səlcuqlu dövlətinin sonrakı dövrlərində atabəyliklə vəzirlik bir-birindən ayrılmış, vəzir daha dar mənada idari bir məfhum ikən, atabəylik geniş bir təşkilat şəklini almışdır. Səlcuqlu atabəyləri "qılınc ərbabı" idilər. Onların çoxunun saray tərbiyəsi aldığı, mahir döyüşçülər olduqları və Səlcuqlu dövlətinin məşhur əmirləri olduqları məlumdur.

Atabəylər arasında Zəngi, Şəmsəddin Eldəniz, Tuğtəkin, Ağsunqur və digərləri belə əmirlərdən olmuşdur.

Səlcuqlu atabəyləri, əsasən şahzadələrin "tərbiyəçisi" olsalar da, onların adından bütün əyaləti və dövləti idarə edirdilər. Eldənizlər dövründə atabəylik müəssisəsi Səlcuqlu tarixinin ən güclü təşkilatı halına gəldi. İlk dəfə Aran atabəyi Qara Sunqur "*atabək əl-əzəm*" (böyük atabəy) adını alaraq, İraq Səlcuqlu dövlətinin faktiki hakimi oldu. Onu Şəmsəddin Eldəniz və oğlanları izlədilər.

Səlcuqlu dövlətinin zəifləməyə başladığı ərəfələrdə çox sayda atabəyliklər ortaya çıxdı:

- Aran atabəyləri *(1119-1154)*
- Azərbaycan atabəyləri – Eldənizlər *(1141-1256)*
- Marağa atabəyləri – Ağsunqurlular *(1132-1227)*
- Əhər atabəyləri – Piştəginlər *(1155-1231)*
- Mosul atabəyləri – Zəngilər *(1127-1250)*
- Fars atabəyləri – Salqurlular *(1148-1286)*
- Şam atabəyləri – Toqtəginlər *(1104-1154)*
- Ərbil atabəyləri – Bəytəginlər *(1144-1232)*
- Luristan atabəyləri – Xəzərəsblər *(1155-1434)*
- Yəzd atabəyləri – Kəngərlər *(1141-1318)*
- Xuzistan atabəyləri – Əfşarlar *(1136-1195)*

Bu atabəyliklərin hər biri geniş ərazilərə və torpaqlara sahib olub, faktiki olaraq müstəqil dövlətlər hesab olunurdu.





## 7.4. ÜLÜŞ SİSTEMİ

Qədim türkcədə "hissə, pay, parça, bölüm" mənasında olan ülüş sözü "bölmək, paylaşmaq, ayırmaq" mənasında ülmək/ülümək feilindən düzəldilib. Ülüş, qədim türk hakimiyyət sistemində ölkənin hakim xanədan üzvləri arasında paylaşılmasını ifadə edən siyasi-idari və hüquqi bir termindir. Ancaq qədim türk ənənəsində ülüş haqqı toplanan qurultayla təyin edilirdi. Etimoloji olaraq, ülüş kəsilən qurbandan oğuz bəylərinin hər birinin müəyyən bir parçanı almasını ifadə edirdi. Bu səbəbdən "Oğuznamə"lərdə 24 oğuz boyu adına onların bəylərinin aldığı qurban payları da göstərilmişdir. Buna görə, qurbanlıq heyvanın əti 6 hissəyə ayrılırdı. Ülüş ediləcək ət əvvəlcə iki yerə (sağ və sol hissələrə) ayrılır, hər iki hissə də "sağ-sol karı yağrın", "sağ-sol aşağu" və "sağ umaca ilə ucayla/ucuyla" olaraq bölünürdü. Ülüş ətinin sağ tərəfi *boz-ox* bəylərinə, sol tərəfi isə üç-ox bəylərinə verilirdi. Ülüş türk süfrə ənənəsinin bünövrəsini təşkil edirdi.

Qədim türk dövlətlərində ölkə idarəsinin xanədan üzvlərinin ortaq məsuliyyətində olduğunu diqqətə aldıqda ülüş sisteminin həm İslamdan əvvəl, həm də İslam dinini qəbul etdikdən sonra türk dövlətləri tərəfindən qorunub davam etdirildiyi ortaya çıxır. Nəzərə almaq lazımdır ki, Çingiz xan da ölkəsini məhz ülüş sistemi əsasında oğlanları arasında paylaşdırmışdı. Moğollar buna *ulus* deyirdilər.

"Oğuznamə"lərdə ülüş anlayışının Oğuz xaqanla başladığı haqqında məlumatlar mövcuddur. Bu məlumatlara görə, Oğuz xaqan bir qurultayda oğlanlarını toplayıb, ölkəsini onlar arasında "üləş"dirdi. Tədqiqatçılara görə, ülüş sistemi *"dövlətdə köçəri qəbilə ənənəsinin yaratdığı bir paylaşma hüququ olmayıb, bozqır dövlətlərində geniş ərazi və qələbəlik kütlələrin idarəsində istifadə edilən praktik və praqmatik bir uyğulama"* idi. Lakin qədim türkcədə *el/il* adlanan dövləti hökmdarın və onun ailəsinin ortaq mülkiyyəti hesab edən tarixçilərin iddiası səhvdir. Türk kitabələrində Tanrı tərəfindən xaqana və xanədana verilən haqqın dövlət olmayıb, ilahi mahiyyət kəsb edən dövləti idarə etmək haqqıdır. Həmin ilahi haqq da *qut* (ilahi səadət) vasitəsilə təzahür edirdi. Tarix boyunca bu anlayışda bəzi dəyişikliklər özünü büruzə versə də, iqtidarın ilahi forması eyni olaraq hökmdarlar arasında təvəssül etmişdir. Buna görə də, hakim ailə, ancaq hakimiyyət haqqını özünün təbii hüququ olaraq görür, iddia edildiyi kimi, dövlətin hakim xanədanın mülkiyyəti olduğu mənasına gəlmirdi.

Ülüş sistemini təyin edən digər bir amil *fəth haqqı* anlayışıdır. Fəth haqqı bəsit mənada ələ keçirilən torpaqların idarəsinin bölgəni fəth edənlərə buraxılması deməkdir. Lakin fəth siyasəti hakim xanədan fərdlərinin rəhbərliyində aparıldığı zaman dövlət onun məsuliyyətini daşıyırdı. Bu mənada, Səlcuqlu ailəsi yabqulu oğuz bəylərinin Azərbaycan və Anadoluda apardıqları fəthləri özlərinin fəth siyasətinin bir parçası olaraq görmədikləri üçün, həmin bəyləri "üsyankar" hesab etmişdilər. Belə ki, ölkənin idarəsində



aktiv rol oynayan xanədan üzvlərinin bəzi əraziləri fəth etməsi, dövlət üçün yeni hakimiyyət sahələri yaradarkən, ondan daha əhəmiyyətlisi də fəth aparan xanədan üzvləri üçün mərkəzə daha az tabe olacaqları yeni bölgələrin ortaya çıxmasına imkan yaradırdı. Dövlətin *satvət* prosesində xanədan üzvlərinə sərhəd bölgələrində inzibati-idarələrin təsis edilməsi bir tərəfdən dövlətin genişləməsinə imkan tanıyarkən, digər tərəfdən də adəmi-mərkəziyyətçi sistemə keçişi sürətləndirmişdi.

Belə olan halda, iki təməl terminin ülüş sistemi ilə *fəth haqqının* bir-biriylə yaxından bağlı olduqları ortaya çıxır. Bozqır dövlətlərində təbii şərtlərdən qaynaqlanan xanədan üzvlərinin idarədə yer almaq məcburiyyəti, bir tərəfdən onların müəyyən bölgələrin idarəsinə təyin edilməsini gərəkli qılarkən, digər tərəfdən də bu yolla yaranan idari sistemlərin, həm idarə haqqının bütün xanədan üzvlərinə tövcih edilməsi ənənəsini (*qut*), həm də fəth haqqı prinsipini dövlətin yeni siyasi-idari təşkilatlanması istiqamətində təmayülləri gərəkli qılırdı. Beləcə, dövlət sürətlə vassal bölgələrə parçalanır və bu bölgələrdən hər biri səltənətlə bağlı məsələlərdə haqq iddiası ilə ortaya çıxmasına şərait yaratdığı kimi, mərkəzi hakimiyyətin süqutu halında isə varlıqlarını davam etdirəcək gücü əldə edirdilər.

1038-ci ildə Qəznəvi ordularının məğlubiyyətindən sonra Səlcuqlu ailəsinin üç fərdi Musa Bayqu, Toğrul və Çağrı bəylər ələ keçirdikləri əraziləri öz aralarında bölüşdürdülər. Bu bölgüyə görə, Mərv Çağrının, ana şəhəri Nişapur olan Mərkəzi Xorasan Toğrulun, Səraxs əyaləti isə Musa Bayqunun nəzarəti altına keçdi. Ancaq bu bölüşdürmə sırasında Toğrul bəy "sultan"lıq titulunu ələ alıb, Səlcuqlu ailəsində "birinci şəxs" olduğu fikrini qabarıq şəkildə önə çıxartdı. Bu eyni zamanda Səlcuqlu dövlətinin *yabquluq* sistemindən sultanlıq modelinə keçdiyi mənasına gəlirdi. Bu vaxt qurultay ənənəsi, ox-yay kimi siyasi-hüquqi və idari simvollar, xanədan üzvləri tərəfindən istifadə olunan

türkcə adlar və titullar Səlcuqlu dövlətinin təşəkkül prosesində qədim türk ənənələri əsasında yarandığını göstərir.

1038-ci ildə aparılan bölgü nisbi xarakter daşıyırdı. Səlcuqlu ülüş sistemində son qərar 1040-cı ildə Dəndənəkan zəfərindən sonra Mərvdə keçirilən qurultayda verildi. Burada Toğrul bəy "sultan" seçildi. Ağıllı, tədbirli, soyuqqanlı olmasının xaricində övladının olmaması da bu qərarın verilməsində təsirli oldu.

Qurultay həm də ələ keçirilən və keçiriləcək ərazilərin bölüşdürülməsi (üleştirmek) baxımından olduqca mühümdü. Torpaqların paylaşılması və tənziminə görə, qaliblərin mülkiyyət payları aşağıdakı kimi təyin olundu:

Ələ keçirilmiş ərazilər:

- Çağrı bəy mərkəzi Mərv olmaqla Xorasanın böyük bir hissəsinə sahib oldu;
- Musa Bayqu Bust, Herat, İsfizar, Buşənc və Sistan ilə onların ətrafındakı fəth olunacaq əraziləri pay olaraq aldı;
- Mərkəzi Nişapur olmaqla Qərbi Xorasan əraziləri Toğrul bəyin şəxsi mülkiyyətinə keçdi.

Ələ keçiriləcək ərazilər:

- Çağrı bəyin oğlu Qavurd Tabes və Kirman əyalətlərinin fəthinə göndərildi;
- Yusifin oğlu İbrahim İnal Həmədan və Dinavərin fəthi üçün məmur edildi;
- Çağrı bəyin digər oğlu Yaquti Əbhər, Zəncan və Azərbaycanın fəthinin başına gətirildi;
- Arslan Bayqunun oğlu Qutalmış isə Qorqan və Damqan bölgələrinin ələ keçirilməsi vəzifəsini aldı.

1040-cı il Mərv qurultayında Əbhər, Zəncan və Azərbaycanın fəthinin Toğrul bəyin payına düşdüyü, onun da bu vəzifəni qardaşı oğlu Yaqutiyə tapşırdığı aydın olur. Beləliklə, Əbhər, Zəncan və Azərbaycanın Səlcuqlu ülüş sistemində fəth haqqı elan edilən torpaqlar olduğu ortaya çıxır. Bu, Reydən Bizansa sərhədlərinə qədər ərazilərin fəth haqqının Yaqutiyə aid olduğunu göstərir.





## 7.5. SƏLCUQLU DÖVLƏT SİSTEMİ

Səlcuqlu dövlət təşkilatının başında *sultan* titullu hökmdar dayanırdı. Dövləti idarə edən hökmdarların *Səlcuq sülaləsi* mənsubu olması şərtdir. Səlcuq sülaləsi nümayəndələrinin dövlət işlərində iştirak haqları olduğu üçün ölkənin müxtəlif yerlərində geniş ərazilərə və malikanələrə sahib idilər. Səlcuq bəydən Məlikşaha qədər Səlcuqlu hökmdarları oğuz ənənələrinə, qurultay (*kəngəş*), toy və ağsaqqallar məclisinə bağlı qaldılar. Məlikşah dövründə bu ənənəyə bağlılıq zəiflədi. Ancaq Səncər dövründə köhnə ənənələr yenidən əvvəlki qüvvəsinə qaytarıldı.

Səlcuqlu dövlətçiliyi *ulus riyasəti* (*millət rəyasəti*) sisteminə dayanırdı. Səlcuqlu sultanları da, türk hökmdarları kimi hökmdarlıq haqqını Tanrıdan alır və Tanrı adına hökm sürürdülər. Bütün ölkə (*mülk*) və *rəiyyət* sultanındır. Səlcuqlu mənbələrində deyildiyinə görə, "Tanrı, sultanı bütün insanların üstündə (*mafevk'i*) və insanları da onun altında (*madun'u*) olaraq" yaratmış, "insanlar ruzini (*nan parə*) və böyüklüyü sultandan" almışdı. Səlcuqlu sultanı

"dünya ailəsinin rəisi (*kətxüda*), insanlar da onun ailəsinin xalqı (*'ıyal*) və *bəndə*"sidir. Hökmdar iki ərdəmə sahib olmalıdır: ədalət və *bilik*. Dövlətin taleyi (*bəka*) də iki ünsürə dayanır: *ehsan* və ədalət. Səlcuqlu sultanının səlahiyyətlərini və hüququnu məhdudlaşdıracaq heç bir müəssisə yoxdur. Ancaq sultan aldığı qərar və verdiyi əmrləri ətrafındakılara bildirməli, onların görüşünü (*istişarə*) almalıdır.

Səlcuqlu sultanlarının verdikləri əmrlərə *fərman* deyilir. Sultan ilə başqaları arasındakı fərq onun fərmanına əməl edilməsidir. Ancaq Səlcuqlu sultanlarının fərmanlarına hər zaman məhəl qoyulmurdu. Ən böyük Səlcuqlu sultanı Alparslan Həmədanın vergi məmuru Əbu Məhəmməd Dehistaniyə göndərdiyi bir əmrlə xalqdan alınan *daraib* və *mukas* kimi vergilərin qaldırılmasını əmr etmiş, ancaq məmur bu vergilərin qaldırılması halında dövlətə və xəzinəyə verəcək heç nəyin qalmadığını görüb fərmanı icra etməmişdi.

Sultanın vəzirlərlə və dövlət məmurları ilə məsləhətləşib qərar verdiyi məsələlər aşağıdakılar idi:

- səltənət (*mülk*) işləri;
- imar işləri (*imarət*);
- savaş (*müharibə*, *hərb*), axın (*fəth*), idarə (*siyasət*, *riyasət*);
- iaşə (*zahirə*);
- ehsan (*sılat*);
- *xazər* və *səfər*, *ordu* (*ləşkər*);
- *rəiyyət*.

Səlcuqlu sultanı, xüsusilə aşağıdakı məsələlərin həlli üçün vəzir və ərkanın fikirlərini almalı idi: əyalət (*vilayət*), ordu (*ləşkər*), pul (*cüvuh-i mal*), emar (*'imarət*).

Səlcuqlu sultanları Toğrul bəydən Mahmud və Səncərə qədər "əs-sultan əl-əzəm", "*sultanü'l-əzəm*" və ya "*sultan əl-əzəm*" titulları daşımışdılar. Səlcuqlu sultanları türkcə Toğrul, Alparslan, Səncər, Tapar, Çağrı kimi adlarıyla birlikdə İslami adlara da sahib idilər: Məhəmməd Toğrul, Davud Çağrı, Əhməd Səncər, Məhəmməd Tapar kimi.



Bir sultanın mütləq hökmdar olması üçün adına xütbə oxudulması, sikkə zərb edilməsi, təvki və tuğra sahibi, arma, çətir, növbət (*nöübət*) və sancağının olması lazımdı. Xütbə cümə namazı qılınan məscid və camelərdə xətib tərəfindən oxunurdu. Xütbədə xəlifədən sonra hökmdarın adı və ləqəbləri çəkilirdi.

Xütbədən sonra hökmdarlığın ikinci əlaməti adına *sikkə* həkk edilməsi və ya adına pul basılması idi. Səlcuqlu hökmdarlarının adına Toğrul bəydən etibarən pullar basılmışdır. Sultan Toğrul bəyin adına basılan pula *rükni* deyilirdi. Rükni qızıl və qümüşün qarışığı idi. Səlcuqlu dövlətinin rəsmi pulu hesab edilən *rükni* sikkələr üzərində xəlifənin və Toğrulun adları, Toğrul bəyin ləqəbi və ünvanı yazılırdı. Pulun digər üzündə isə Qur'andan bir ayə həkk edilirdi. Səlcuqlu pulları üzərində yazı xaricində ikinci bir əlamətə rast gəlinməyib. İnsan surətinin həkki İslam hüququna görə caiz olmadığından sikkələr üzərinə Səlcuqlu sultanlarının baş rəsmləri zərb edilməyib. Ancaq sikkələr üzərində oğuz boylarının damğalarına yer verilmişdir. Toğrul bəyin sikkələrində Qınıq boyunun damğası olan "ox-yay" işarəti vardır.

Türklərdə pulun bir neçə adı vardı: "*yarmaq*" və "*akçə*" ən çox işlədilən adlardı. "*Aqrı*" və "*pul*" adlarına da rast gəlirik. XI-XIII əsrlərdə türkmən-oğuzlar dirhəmə *aqrı* deyirdilər. Akçə gümüş pullara verilən addır. Qiymətli metallardan kəsilən pullara "*yarmaq*" deyilir, xırda pullara da "*pul*" deyilirdi.

Rükni 23-25 mm böyüklüyündə və 4-5 qram ağırlığında idi. Sadəcə Toğrul bəyin adına kəsilmiş 50-dən çox fərqli sikkə tapılmışdır. Bu sikkələr Nişapur, Rey, Bağdad (*Mədinətü's-Səlam*), İsfahan, Bərdsir, Əhvaz, Bəsrə, Kərmsirdə zərb edilmişdir. Səlcuqlu dövrünün ən qiymətli pulları Sultan Məlikşah dövründə kəsilmişdir.

Sultan *tevki* və *tuğra* daşıyırdı. Ərəbcə "*tevki*" – "bir şeyi vaqi etdirmək, təsir, icra etmək" mənasına gəlir. *Tevki*

hökmdarın möhürü idi. *Tuğra* isə türkcə kəlmə olub, Səlcuqlu hökmdarlarının xüsusi yazı əlaməti idi. Belə məlum olur ki, tuğra *tevkinin* türkcəsidir. Tuğra, hökmdar adına sənədin üst tərəfinə "bismillah" ifadəsi üzərində yazılan isim, ləqəb və duanı ifadə edirdi.

Sultanlıq əlamətlərinin bəlkə də birincisi *taxt* (*kürsü*) idi. Zira, hökmdar olmaq taxta oturmaqla başlayırdı. Toğrul bəy 1038-ci ildə Nişapurda Qəznə sultanı Məsudun taxtına oturaraq sultanlığını elan etmişdi. Səlcuqlu taxtı Qəznə sultanlarının taxtına bənzəyirdi. Lakin Səlcuqlu taxt adətləri Qaraxanlı adətlərinin təsirində formalaşmışdı. Qaraxanlı xaqanları gümüş taxta otururdular. Xaqanın sağ əlində *bıçaq*, sol əlində isə *piyalə* olardı. Qaraxanlılarda taxtın ayağı altına *qaşıq* qoyardılar ki, bu Səlcuqlu taxt adətlərində də mövcud idi. Səlcuqlu sultanları Qaraxanlı sultanlarından fərqli olaraq, gümüş deyil, *qızıl taxta* otururdular.

Taxtla birlikdə *tac* da hökmdarlığın mühüm əlamətidir. Hətta hakimiyyət çox vaxt bu iki sözün birləşməsi ilə "*taxt-tacın sahibi*" kimi ifadə edilirdi. Tac qiymətli daş-qaşla bəzədilirdi. Səlcuqlu sultanlarının taclarının böyük və ehtişamlı olduğu bilinir.

Hökmdarlığın digər əlamətləri çətir, *növbət* və *sancaq* idi. Səlcuqlu sultanlarının gerbi "*ox-yay*" idi. Bu işarə çətir və pulların üzərində də yer alırdı. Çətir, bir nizə üzərində havada kiçik qübbə şəklində açılan səltənət çətiri (şəmsiyyə) idi. Çətir hökmdarın başının üstündə tutulurdu. Hökmdarın bir neçə addım arxasında duran çətir saxlayan vəzifəli, onu hökmdarın başının üzərinə doğru tutardı. Qaraxanlı hökmdarlarının çətirləri göy rəngdə idi. Sultan Toğrul bəyin Nişapura gəldiyi zaman başının üzərindəki çətirin qırmızı rəngdə olduğu qeyd edilir. Səlcuqlu hökmdarları *tiraz* geyərdilər. Bu, hökmdarlıq xələtidir. Səlcuqlu tirazlarının üzərində hökmdarın adı və ləqəbləri yazılırdı.

Hökmdarlığın maddi əsaslarından biri də növbətdir. *Növbət* və ya *nöübət* hökmdarın çadırının və ya sarayının



qapısında günün müəyyən vaxtlarında, çox vaxt namaz saatlarında bir növ "dövlət orkestrinin marşları" icra etməsinə deyilirdi. Səlcuqlu sultanları gündə beş dəfə, digər hakimlər və valilər isə 3 dəfə növbət çaldırırdı. Növbət sayını beşə çıxaran məlik və şahzadələr üsyan etmiş qəbul edilirdi. Növbət dəstələri hökmdarlarla birlikdə səfərlərə gedirdilər.

Hökmdarlığın digər əlaməti isə *sancaq* (bayrak) idi. Səlcuqlu sultanları fərqli rənglərdə sancaqlar daşımış və onların üzərinə "*rayat-ı saltanat*", "*sancaq-ı saltanat*" yazılmışdır. Böyük Səlcuqlu dövlətinin *bayrağının* qırmızı, bəzən də mavi olduğu məlumdur. Bayrağa *alem* və *liva* deyilirdi. Sultan Toğrul bəy qırmızı rəngdə bayrağa sahib idi. Şari Ənvəri *(ö.1191)*, Sultan Səncərin bayrağı (*rayatha*) üzərində "aslan" (*arslan*) şəklinin olduğunu yazır. İraq Səlcuqlu dövlətinin bayrağı da qırmızı rəngli idi. İraq Səlcuqlu bayraqlarında da aslan şəkli olduğunu şair İmadi Şəhriyarinin (ö.1186/87) sultan III Toğrulu tərif edən bir qəsidəsində "*bayrağın arslanı*" (şiri-alem) ifadəsindən başa düşmək olur. İraq Səlcuqlu dövlətinin böyük atabəyi Eldəniz qıpçaq-gürcülərə qarşı müharibəsində "qırmızı ipək bayraqlar"ı (*hariri-sorxi bayrakxa güşadə*) qaldırmışdı. Dövrün Şirvanşahlar sarayının şairlərindən Mücirəddin Beyləqani *(1130-1194)* bir qəsidəsində İraq sultanı Arslanşah və atabəy Eldənizin ordusunun qırmızı bayraqları (*rayeti-sorx*) olduğunu xəbər verir.



## 7.6. SƏLCUQLU İDARƏÇİLİYİ

Səlcuqlu hökumət təşkilatı iki əsas hissədən ibarət idi: mərkəzi təşkilat və əyalət təşkilatı. Mərkəzi təşkilat divanlardan ibarət idi. Səlcuqlu mərkəzi təşkilatı *divani-sultani* (*böyük divan*), *divani-istifa* (*müstəvfi divanı*), *tuğra* və ya *inşa divanı*, *müşrif divanı* (*divanü'l-işraf* və ya *divani-işrafi-məmalik*), *divani-arz* və *divani-məzalim* divanlarından ibarət idi.

Mənbələrdə ilk Səlcuqlu divan təşkilatının 1036-cı ildə Toğrul bəy başçılığında Nişapurda toplaşdığı xəbər verilir. Bu məlumata görə, Toğrul bəy Xorasan əyalət rəislərinin yığıncaqlarını əsas götürərək həftədə iki dəfə böyük divanın toplanmasını əmr etmişdir.

Sultanın da bəzən iştirak etdiyi ən böyük divanı *divani-sultani* adlanırdı. Bu divanın başında duran vəzirə *sahibi-divani-dövlət* deyilirdi. Məhəmməd ər-Ravəndiyə görə, bu divanın üzvləri arasında baş vəzirdən başqa *tuğrai*, *müşrif*, *müstəvfi* və *arızü'l-ceyş* divan vəzirləri də yer alırdılar. Böyük divanda poçt və istihbarat (*bərid*) divan rəislərinin də iştirak etdiyi məlumdur.



Tuğra və ya inşa divanının başında duran vəzirə *sahibi-divani-tuğra və inşa* deyilirdi. Bundan başqa, o, "*tuğrai*", "*tuğra-keş*" və "*münşi*" adları ilə də çağrılırdı. Bu divan əsas iki dairəyə ayrılırdı: tuğra və inşa dairələri. Birinci dairənin vəzifəsi sultanın mənşur, tevki, fərman, *misal* və əmrnamələrinə tuğra qoymaq idi. İnşa dairəsində isə dövlət vəsiqələri hazırlanırdı. Tuğra və inşa divanı vəziri eyni zamanda baş vəzirin vəkili hesab edilirdi. İraq Səlcuqlu sultanı Sultan Məsud dövründə tuğra və inşa ayrılmış, iki fərqli divan halına gəlmişdi.

*Divani-istifayi-məmalik* və ya *divani-ziməm istifa* adıyla da bilinən istifa divanı rəisinə *sahibi-divani-istifa* və ya *müstəvfi* deyilirdi. Dövlətin maliyyə işlərini idarə edən bu divan Səlcuqlu dövlətinin ən böyük divan təşkilatı hesab edilirdi. Çünki divanın hər əyalətdə öz nümayəndələri və vəzifəliləri var idi. Bunlara amid, amil və s. deyilirdi. Dövlət gəlirlərinin hesabları, xəzinə qaynaqları, maaşlar, qısacası, bütün maliyyə sistemi bu divanın nəzarəti altında idi.

İşraf və ya *müşrif divanı*nın vəzifəsi maliyyə və idarə işləri yoxlamaq idi. *Divani-arz* və ya *divani-arz əl-cuyuş* adını daşıyan Səlcuqlu mərkəzi təşkilatının bu ən əsaslı divanının vəzifəsi dövlət təhlükəsizlik sisteminin idarəsi idi. Başındakı vəzirə *arzi* və ya *arız əl-ceyş* deyilən divanın vəzifələri arasında ordunun maaş və digər ehtiyaclarıyla da məşğul olmaq vardı. Divani-arz orduda yoxlamalarla birlikdə dövlətin rəsmi mərasimlərində də ordunun hazırlıq işləriylə maraqlanırdı.

Böyük Səlcuqlu dövründə mövcud olan bu divanlardan başqa, dövlətin iki yerə bölündüyü dövrdə də yeni divanlar ortaya çıxdı. Məsələn, Sultan Səncər dövründə Xorasan Səlcuqlu dövlətində *müsadirə divanı*, *tərakət divanı* və *qazı divanı* mövcud idi.

Bunlardan başqa Səlcuqlu dövlətində üç əhəmiyyətli divan təşkilatı daha mövcud idi: şəri (İslam hüququ) işlərinə baxan *məzalim divanı*; poçt işlərinə baxan *bərid divanı* və bu

divana tabe olub, ölkənin hər yerindən hadisələri və xəbərləri mərkəzə çatdıran *xəbər divanı*. Onlardan divani-məzalimin başında əmiri-dad, bərid təşkilatının başında *sahibi-bərid*, xəbər divanın başında *sahibi-xəbər* dayanırdı.

Mərkəzi təşkilatlardan başqa, bir də əyalət təşkilatı mövcud idi. Əyalətlərin başında *vali* adlanan idarəçilər dayanırdı. Səlcuqlularda iqta sistemi xeyli inkişaf etdiyindən vali vəzifəsini *iqtadar* və ya *muqta* da icra edə bilirdi. İqta sahiblərinə *mukta'an* deyilirdi. Vali və ya iqta sahibinin əmrindəki məmurlar, yəni dövlət işçiləri isə *gumaştəgan* adlanırdılar. Bəzi hallarda əyalət valilərindən "hakim" olaraq da söz edilir.

Əyalət təşkilatı daxilində vəzifələr sırasıyla belə idi: *vali*, *amid*, şəhnə, *amil*, *nazir*, *mühtəsab*, *rəis*, *qazı*, *xətib* və *müftü*. Əyalət təşkilatında mülki işləri *amidlər* icra edirdi. Hər əyalətdə bir amid vardı. Amidlər nizam və asayişi qorumaqla mükəlləf idilər. Səlcuqlu dövründə qarşımıza çıxan ən mühüm idari mexanizm şəhnəlik idi. Şəhnələr əyalətlərin hərbi valiləri və komandanları qəbul edilirdilər. Xorasan Səlcuqlu dövlətində şəhnələrin öz divanı və öz xeyirlərinə vergi toplayacaq (*hüquq va rusumi-şahnəgi*) idari işçiləri (*navvab*) var idi.

Əyalətlərdəki *amil* vəzifəsində olan vəzifəlilər "qələm ərbabından" seçilib, qeyri-rəsmi valilik, məmurluq və vergi təhsili işləri ilə məşğul olurdular. Toğrul bəydən etibarən qarşımıza çıxan başqa bir idari termin də "*nazir*" idi. Nazirlər tədqiq, təftiş və nəzarət işlərinə baxırdılar. *Nisbə* və *mühtəsib*lərin vəzifəsi "tərəzilərə və qiymətlərə nəzarət etmək, alqı-satqının düzgün aparıldığına baxmaq"dı. Nizamülmülk əyalətlərdəki idarəçilərdən bəhs edərkən, "*qazı*"lardan da bəhs edir. Onlardan başqa, əyalətlərdə *xətib* (cümə namazlarında hökmdarın adına xütbə oxuyanlar) və *rəislər* (şəhər idarəçiliyi) də mövcud idi.





## 7.7. SƏLCUQLU İQTİSADİ HƏYATI VƏ ŞƏHƏRLƏRİ

Böyük Səlcuqlu dövləti Ceyhundan Qüdsə qədər uzanırdı. Hindistan, Çin, Mərkəzi Asiya, Aralıq dənizi, Avropa və Şimali Afrika ilə ticarət əlaqələri Səlcuqlu ərazisi üzərindən qurulurdu. Səlcuqlu dünyası orta əsr dünya ticarətinin mərkəzi idi.

Səlcuqlu ticarəti həm ölkədaxili, həm də ölkəxarici olmaqla iki xəttə ayrılırdı. Şərqlə qərbi birləşdirən köhnə ticarət yolları hesab edilən Suriya, Fələstin, Misir, Anadolu limanları xarici ticarətin dünyaya açılış qapıları idi. Venesiya, İtaliya, Siciliya ticarət gəmiləri ilə birlikdə müsəlman ticarət gəmiləri də Aralıq dənizində geniş ticari münasibətlər qurmuşdular. Ticarət sahəsində yəhudilər və parsilər (*gəbri* – Sasani dövründə *perslər*) də geniş imtiyaz sahibi idilər. Xarici ticarətin əsas mərkəzlərindən biri də Mərkəzi Asiya bozqır xətti ilə Cənubi Qafqaz idi. Xüsusən də səlib səfərləri ilə Aralıq dənizi ticarət xəttinin zəifləməsindən sonra Qara dəniz və Azov dənizinin ticari imkanları artmış və Qafqaz ərazisi böyük ticari imkanlar əldə etmişdi.

Daxili ticarətdə Xorasan, Azərbaycan, Şərqi Anadolu, Suriya və s. kimi ölkələrin Səlcuqlu dövlətinin təşkil etdiyi mərkəzi sistem sayəsində bir-biriləri ilə ticari əlaqələri güclənmişdi. Təbriz tüccarların Orta Asiya bazarlarında, əhvazlı və tustarlı tacirlərin isə Xorasan, hətta Misir bazarlarında dükanları mövcud idi.

Rəqabət nəticəsində ticarətdə qiymət balansı qorunub saxlanılırdı. Xorasan və Azərbaycan bazarlarına Misirdən gələn kətan və qumaş böyük rəğbət görürdü.

Səlcuqlularla birlikdə böyük karvan ticarəti yenidən bərpa edilmiş, Məkkədən yola çıxan dəvələr Kimak türk ölkəsinin dərinliklərinə qədər hərəkət edirdilər. Xüsusən də Fars və Kirman üzərindən Bəsrə körfəzinə və Hind okeanına gedən ticarət yolları böyük əhəmiyyət daşıyırdı. Bağdad tacirləri bu ticarət xətti vasitəsilə Çin ipəyi, Hind ədviyyatı, ətirləri və başqa maddələr gətirirdilər. Xorasandan Mavəraünnəhrə və Xarəzmə gedən karvanlar Amudərya çayını keçib, Amul, Fərab və Darqana xəttini də bir-birinə birləşdirirdi. Çayın Aral dənizinə tökülən hissəsi Səlcuqlu ərazisini Türk dünyası ilə birləşdirirdi. Məşhur Qaraxanlı şəhərləri olan Şaş, İlak, Buxara, Səmərqənd, İsficab, Xocənd, Qaşqar və Balasaqun Xorasanla yaxın ticari əlaqələrə sahib idilər. Xüsusən də Səncər dövründə mərkəzi bir şəhər halına gələn Mərv Səlcuqlu ticarətinin şərq-qərb xəttini bir-birinə birləşdirirdi.

Mavəraünnəhr şəhərləri Xorasanla şimaldakı Qıpçaq ölkəsi arasında dəri ticarətinin əl dəyişdirdiyi yerlər idi. Buraya gətirilən qiymətli sincab, qaqum, tülkü dərisi kimi xəz dərilər Xorasan bazarlarına göndərilirdi. Balasaqun və Tarazdan silah, qumaş; Talas, Xotən və Yarkənddən kürklər, qullar, qiymətli daşlar, keçə və ov şahinləri gəlirdi. Buxara qumaşları Xorasandan Hələbə qədər Səlcuqlu şəhər bazarlarının ən məşhur parçası hesab edilirdi. Orta Asiya şəhərlərinin kilimləri, xalçaları, palazları, qumaşları, at əyərləri, samur dərisi, içinə pambıq doldurulan paltar



(*taq*), səccadə, duzlu balıq kimi ticarət həcmi böyük olan məhsul və malları Səlcuqlu tacirlərinə böyük pullar qazandırırdı.

Səlcuqluların qurduğu siyasi və idari sistem sayəsində sakitliyin və rahatlığın təmin edildiyi bölgədə hər əyalət öz malları və məhsulu ilə ümumi daxili bazarda söz sahibi olmaq istəyirdi. Cürcan meyvəsi, Təbriz xalçası, Muqabın məşhur türkmən yemişləri ilə məşhur olduğu bu bazarlar hər növdən nemətləri, məhsulu və malları ilə diqqət çəkirdi. Hər şəhər özündə istehsal olunan məhsulla məşhurlaşmışdı. Məsələn, "əl-gənci" deyildiyi zaman hər kəs bu paltarların Gəncədə istehsal edildiyini bilirdi.

Səlcuqlu dövründə üç cür tacir var idi: səyahət edənlər, topdançılar və ixracatçılar. Xüsusən də tranzit ticarət çox karlı hesab edilirdi. Böyük və orta dərəcəli tacirlərə "*bəzirgan*" və "*tüccar*" deyilirdi. Bazarda yer alan, kiçik dükan işlədən tacirlərə isə "*bazari*" və "*əhli-bazar*" deyilirdi. Ümumilikdə hamısına "bazar xalqı" adı verilirdi. Onlar arasında çoxlu pərakəndə satıcılar, *baqqallar* (*zərzəvatçılar*), *attarlar* (şəkər və baharat satıcıları), *xərislər* (ət və düyüdən hazırlanan yemək satıcıları) və d. yer alırdı. Kiçik ticarət sahibi hesab edilən bu insanlar daha çox öz ailələrininin gündəlik tələbatlarını ödəmək üçün ticarətlə məşğul idilər.

Səlcuqlu dövründə ticari müqavilələr, razılaşmalar, sənədlər hazırlanmaqda və aparılmaqdaydı. Onlara *muamala* adı verilirdi. Səlcuqlu dövründə ticarətdə kredit sistemi mövcuddu. Ticarətdə şərii qanunlar çox vaxt pozulurdu. Məsələn, qiyməti yüksəlir ümüdü ilə satın alınmayan mallara rəğbət dinin uyğun görmədiyi bir ticarət qaydası hesab edilirdi. Yenə bunun kimi *sarf* sistemi, yəni faizlə ödəmə şərii hüquqa tərs idi. Buna görə, Səlcuqlu dövrü ilahiyyatçılığında ticari məsələlər və münasibətlər geniş təhlillərə və şərhlərə səbəb olmuşdu.

İlahiyyatçılar İslamda ticarətin, ümumilikdə malın üç növündən bəhs edirdilər: əl-həlal, əl-haram və əl-məkruh

(mümkün, amma uyğun görülməyən). Bunun xaricində bəzi şeylərin satışı və ticarəti də İslam hüquqçularına görə, qadağan idi. Onlar arasında *id* (heyvan fiqurlu uşaq oyuncaqları), *növruz* deyilən Novruz bayramında satılan taxta qılınc və qalxanlar, *sada* deyilən Sada bayramında müqəddəs palçıqdan hazırlanmış buynuzlar birinci sırada yer alırdı.

*Suftaca* deyilən kredit müqabilində mal verilməsi geniş yayılmışdır. *Nəqdi* (nağd ödəmə) sistemlə birlikdə *sənəd* sisteminə də müraciət edilirdi. Bunun xaricində borclu ilə alıcı arasında ödəməyə dair *havalat* deyilən müqavilələr də bağlanılırdı. Müqavilələrdə və sənədlərdə *makbuz* sistemindən də istifadə edilirdi.

Səlcuqlu dövrü ticarətinin bir növü də pul dəyişdirmə idi. 1050-ci ildə sadəcə İsfahan şəhərində bu işlə məşğul olan 200-ə qədər sərraf vardı. Onlar arasında *yəhudi* əsilli sərrafların çoxluğu diqqət çəkir.

Səlcuqlu ticarətində özəl şəriklik deyilən şirkati-inan sistemi fəaliyyət göstərirdi. Bir növ şirkət ortaqlığı olan bu sistem xüsusi sənədləşmə ilə hüquqi şəklini aldı. Sənədlərdə qoyulan sərmayənin miqdarı, əldə edilən kar hesabları və qazanclar qeyd edilirdi.

İdxal edilən malların alqı-satqısı ilə *kiçik əsnaf* deyilən tacirlər məşğul olurdular. Böyük tüccarların bazarı əlində tutduqları hadisəsinə də rast gəlmək mümkün idi. Onlara *məlik ət-tüccar* adı verilirdi. Onlar varlı tüccarların qurduqları ortaqlıqlar ilə daha da güclü olurdular.

Səlcuqlu dövründə böyük mövsümlük bazarlar və sərgilər təşkil edilirdi. Buraya çoxlu mal və məhsul gətirilirdi. Bəzən bu bazarlar sərhəd bölgələrində təşkil edilirdi. Türk bozqırı ilə Səlcuqlu sərhədlərində bu şəkildə xeyli bazar var idi.

Bazarlar xalqla dövlətin görüşdüyü yerlər, xəbərləşmə mərkəzləri, siyasətin xalqa açılan qapısı idi. Dövlət fərmanları burada xalqa oxunurdu. Taxtda meydana gələn



bir dəyişiklik məscidlərdə xalqa xütbələrlə çatdırılmamışdan əvvəl, xalq bazarda gəzən söz-söhbətdən xəbər tuturdu. Hər cür və hər təbəqədən insanların yer aldığı bazarlar orta əsrlərdə sosial həyatın mərkəzində yer alırdı. Bazarlar eyni zamanda əyləncə mərkəzi, söhbət və təbliğatların aparıldığı yerlər, dostluqların qurulduğu, günahkarların cəzalandırıldığı məkanlar idi.

Səlcuqlu bazarları satılan malların müxtəlifliyinə görə fərqlənirdi. Bir şəhərdə birdən çox bazar vardı. Bir bazarda geyim və paltar, ipək və qumaşlar satılır, digərində ancaq baharatlar, bir başqasında isə ev heyvanları və başqa mallar satılırdı. Bazarlar adlarına görə də məşhur idilər. Qul bazarları adından da məlum olduğu kimi qulların və cariyələrin alınıb-satıldığı yerlər idi. Heyvan bazarlarında quşlar və heyvanlar, heyvanla əlaqəli əşyalar satılırdı. Buna görə şəhərlərin yer adları da müəyyənləşirdi. Bəlx şəhərində ip və kölə tacirlərinin küçəsi yer alırdı. Nişapurda *saraçlar çarşısı* məşhur idi. Heratın məşhur bazarı ətriyyatçılar bazarı hesab edilirdi. Təbrizin *Dabbaqlar* və *Dəriçilər* küçəsi, Mərvin meyvəçilər, tərəvəzçilər və çörəkçilər bazarları məşhur idi.

Hər bazarın öz idarəçiləri var idi. Bazar idarəsinin başında *bazarbaşı* adı verilən "*zuamayi-asvak*"lar dururdu. Onlar eyni zamanda dövlət məmuru və nəzarətçisi hesab edilirdilər. Onlar həftənin müəyyən günlərində bazar içində təftişlər aparır, qiymətlərə, tərəzilərə, mallara nəzarət edirdilər. Bazar içində alıcı ilə satıcı arasında meydana gələn mübahisələrə də müdaxilə edirdilər. Bazarbaşılar "*qara bazar*" deyilən pulların məzənnəsini də nəzarət altında saxlayırdılar.

Səlcuqlu şəhər bazarları böyüklüyünə, ehtişamına, göz oxşayıcılığına görə diqqət çəkirdi. Bazarların karvansarayları, axurları, məscid və cameləri, imamları, *abdestxanə* deyilən tualetləri, hamamları, bərbərxanaları, müayinəxanaları vardı. Təmizliyə və bazarın ab-havasına xüsusilə

diqqət edilirdi. Dükana təşrif edən müştəri mehriban şəkildə qarşılanır, ona içki (fəslə görə isti və soyuq) şeylər təklif edilirdi. Müştəri mal alsın və ya almasın, yenə eyni nəzakətlə yola salınırdı. Qəznəvilər dövründə orta hesabla bir bazar tüccarının illik gəliri 16.000 dinar olurdu. Şübhəsiz, bazarlar və tüccarlar da vergiyə tabe idilər. Şəhərə girən ticarət karvanlarından *təyyarat* deyilən gömrük vergisi alınırdı. İraqi-Əcəmdə və Azərbaycanda 1100-cü illərdə ət ticarəti ilə məşğul olan ildə 50, *sukna,* yəni qumaş ticarəti ilə məşğul olan tacir isə ildə 500 dinar vergi ödəyirdi.

Bu məlumatlardan çıxan nəticəyə görə, Səlcuqlu ticari həyatı çoxşaxəli və müxtəlifdi. Səlcuqlu dövrünün bazarlarından günümüzə qədər gələnlər (Hələb, İsfahan, Yəzd, Konya, Şam və d.) memarlıq nümunəsi hesab edilir. Genişlikləri və imkanları hesaba alındıqda bu bazarlar böyük bir imperiyanın ticarət imkanlarının və gücünün təmsili idi.

Səlcuqlu dövründə şəhərçilik də inkişaf etmişdir. Qədim türklər şəhərə "*balıq*" (*balık*) deyirdilər. Səlcuqlular sahib olduqları geniş bölgədə həm əvvəlki şəhərləri bərpa edir, həm mövcud şəhərləri genişləndirib inkişafına kömək edir, həm də yeni şəhərlər salırdılar. Səlcuqlu dövlətinin bir neçə paytaxtı olub. Dövlətin ilk mərkəzi Cənd, daha sonra qısa müddət Nişapur olub, Toğrul bəy zamanında isə Rey mərkəzi şəhər ünvanını ələ keçirmişdir. Sultan Alparslanın hakimiyyəti dövründə paytaxt-şəhərin İsfahan olduğu məlumdur. Ancaq daha sonra Səlcuqlu dövlətinin paytaxtı İraq Səlcuqlu dövlətinin süqutuna qədər Həmədan oldu. Sultan Səncər dövründə Mərv də eyni missiyanı həyata keçirirdi. Həmədanın paytaxt olduğu dövrdə Səlcuqlu dövlətinin mərkəzi əyaləti Azərbaycan hesab edilirdi.

Oğuzların ilk şəhərləri Cənd, Yengikənd, Ribat, Aşnas, Barçınlığkənd, Özkənd, Sabran, Qaraçuq, Sığnaq, Qarnaq, Yesi, Süntkənddə idi. Onlardan Qaraçuq və Sığnaq Səlcuqlu ailəsinin vətəni hesab edilirdi. Cənd Aşağı Sırdərya istiqamətində Yengikənddən sonra ən böyük türk şəhəri idi.



Cənddən sonra Səlcuqlu dövlətinin ikinci mərkəzi Nişapur idi. Toğrul bəy sultanlıq taxtına burada oturmuşdu. Ancaq Böyük Səlcuqlu dövlətinin əsas paytaxtı Rey idi. Səlcuqlu dövlətinin ilk və axırıncı hökmdarlarının qəbirləri də buradadır. Reyin əhəmiyyəti dövlətin mərkəzində yer alması, dövlətin şərq və qərbini bir-birinə birləşdirən strateji əhəmiyyətə sahib nöqtədə olması idi. Rey bu gün Tehranın şərqində kiçik bir şəhərdir. Ancaq şəhər Səlcuqlu dövründə oğuz-türkmən hərəkatının mərkəzi idi. Toğrul bəy burada geniş abadlıq işləri aparmış, Reyi paytaxt-şəhərə çevirmək üçün bəzi tədbirlər almışdı. Səlcuqlu dövründə Rey came və məscidlərə, bazara, karvansaraya, xanəgahlara, saraylara sahib bir şəhər olub, burada sikkə zərb edilir, ticarət karvanlarının əsas dincəlmə yeri hesab edilirdi. Toğrul və Alparslandan sonra Rey şəhəri Məlikşah dövründə də paytaxt funksiyasına sahib olsa da, bu vəzifəsini İsfahan və Həmədana vermiş, Məlikşah daha çox bu iki şəhərdə sarayını qurmuşdur. Yenə də 1095-ci ildə Tutuş və Bərkyaruğun gözündə Rey bir mərkəz hesab edilirdi.

Böyük Səlcuqlu dövlətinin üç ən böyük şəhəri heç şübhəsiz, Mərv, Nişapur və İsfahan idi. Bundan başqa, Bağdad, Mosul, Herat, Şam, Təbriz, Gəncə, Amid, Kirman, Şiraz, Bəlx, Herat da böyük şəhərlər arasında sayılırdı. Orta Asiyada Xarəzm, Buxara, Cürcan da əhəmiyyətli şəhər idi.

İsfahan havasının gözəlliyi ilə seçilən və Səlcuqlu dövründə mərkəzi bir şəhər halına gəlib inkişaf edən və bu tarixdən günümüzə qədər bir türk şəhəridir. Səlcuqlu dövründə Zəncan, Qəzvin, Ərdəbil, Ərzurum, Ərzincan, Mardin, Antakya, Urfa ən böyük şəhərlər hesab edilirdilər. Bu dövrdə Konya, İznik, Sivas, Diyarbəkir kimi şəhərlər mərhələli olaraq böyük şəhərlərə çevrildilər. Onlardan Konya Anadolu Səlcuqlu dövlətinin mərkəzi və mədəniyyət paytaxtı idi.



## 7.8. SƏLCUQLU MƏDƏNİYYƏTİ

Səlcuqlu dövründə yazılmış və günümüzə qədər gələn türkdilli əsərlərin sayı məhduddur. Həmin əsərlər Qaraxanlı və Xarəzm ləhcələrində mövcuddur. Ancaq Səlcuqlu dövrü oğuz ləhcəsinin ədəbi dil halını almasında əsas mərhələ hesab olunur. Anadoludan Orta Asiyaya qədər türklər arasında yayılan Dədə Qorqud dastanı bu dilin nümunəsidir.

Səlcuqlu dövrü türklərin mədəni səviyyəsini aydınlatmaq baxımından ilki Bağdadda qələmə alınan Kaşğarlı Mahmudun "*Divani lüğət-it-türk*" (*1080*), digəri Qaraxanlı sarayında qələmə alınan Yusif Xas-Hacibin "*Qutadqu-bilik*"in (*1069/70*) verdiyi məlumatlar çox mühümdür.

Türkiyəli türkoloq F.Köprülü Səlcuqlu dövrünün ədəbi səviyyəsini belə izah edir: "Səlcuqlu dövründə o zamanın şərtlərinə uyğun olaraq, bir yandan qəsidə ədəbiyyatı və məsnəvi tərzində eşq hekayələri, digər tərəfdən də fəlsəfi-sufi mahiyyətdə şeirin inkişafına şahid oluruq. Samani və Qəznəli dövründəki məşhur qəsidə şairlərini təqib edən





*"Divani lüğət-it-türk" əsərinin ilk səhifəsi*



*"Qutadqu Bilig" əsərinin Fərqanə nüsxəsinin ilk səhifəsi*

Səlcuqlu dövrü qəsidə şairlərindən Ənvərin xəyal dünyasının böyüklüyü və sözlərinin ehtişamı, əslən türk olan Əmir Muizzinin ifadəsindəki qüdrət və zəriflikle, həyatını həbsxanada keçirən Məsud Səid Salmanın mərsiyə tərzində təsirli "*Həbsiyyə*"siylə, Xaqani ədasındakı səmimiliyi və şəhamətiylə, Qətran təbiət təsvirlərindəki məharətiylə öz sahələrində həqiqi bir ustad hesab edilirdilər. "*Xosrov və Şirin*", "*Leyla və Məcnun*" kimi zərif eşq hekayələri yazan Nizami bu sahədə özündən əvvəl və sonra gələnlərin hamısına təsir edəcək bir sənət dahisi idi. Böyük sufi və şair Əbu Səid Əbülxeyr ilə başlayan sufi şeirləri, Həkim Sənai və Fəxrəddin Attar ilə az-çox bir təlim halına gəlmiş, bu iki böyük şair təsəvvüf ədəbiyyatının banisi hesab edilmişdir. Əsasən Fatımi dailərindən olan o dövr üçün çox əhəmiyyətli "*Səfərnamə*" adlı əsər yazan Həkim Nasir Xosrov Ələvi şeirlərində qatı şiə fikirləri ilə sufi düşüncəni və fəlsəfi görüşləri birləşdirmiş çox diqqətəlayiq bir simadır ki, divanından başqa "*Röşənainamə*" və "*Səadətnamə*" kimi

məsnəvilər də yazmışdır. Maddi həyata yaxınlıq ifadə edən qaramsar və zövqpərəst görüşləri rübai tərzində və çox gözəl bir dillə yazan Ömər Xəyyam da bu dövrün ən diqqətçəkən simalarından hesab edilir".

Səlcuqlu dövrünün zəngin ədəbi irsinin başında türk dastanları yer alır. Türklərdə dastan ədəbiyyatı çox şaxəli, ən qədim mifik ünsürləri belə özündə əxz etdirən obraz, qəhrəman, təsvir və ifadə gücünə sahib qiymətli xəzinədir. Bu dövrdə türk aşıqları, ozanları, baxşıları arasında "*Alp Ər Tonqa*", "*Oğuz xan*", "*Dədə Qorqud*", "*Altın xan*" dastanlarının dillərdə əzbər olduğu məlumdur.

Səlcuqlu dövründə *Dədə Qorqud* dastanı ən geniş areala yayıldığına görə ilk sırada yer alır. *Dədə Qorqud* dastanı sadəcə Azərbaycan və Anadoluda deyil, Sibirdə, Türküstanda (Orta Asiyada), Qazaxıstanda, Tyanşanda (Tanrı Dağları) və Ural türkləri arasında da bilinən, qısacası, türklərin yaşadıqları geniş ərazidə yayılmış dastandır. Sovet dövrü ədəbiyyatşünaslığında dastanın XI əsrdə, müstəqillik sonrası ədəbiyyatşünaslıqda isə V-VI əsrlərdə ərsəyə gəldiyi fikri hakimdir.

Yazıya keçirilməsi baxımından dastanın əlyazmaları XIV-XVI əsrlərə aid edilir. *Dədə Qorqud* dastanının hazırda üç yazılı nüsxəsi mövcuddur. "*Kitabi-Dədə Qorqud ala lisani taifei-Oğuz xan*" adını daşıyan nüsxələrdən ilki Almaniyanın Drezden Krallıq Kitabxanasından tapılmış və ondan ilk dəfə alman alimi Fridrix fon Dits bəhs etmişdir. Əlyazmanı ilk dəfə elm dünyasına tanıdan V.V.Bartold olub. Dastanın ikinci nüsxəsi Vatikan Kitabxanasında aşkarlanıb. İlk əlyazmasında 12, ikincisində isə 6 hekayənin (boyun) olduğu *Dədə Qorqud* nüsxələrində tarix qeyd edilməyib. Dastanın üçüncü nüsxəsi yaxın tarixdə ortaya çıxarılan Türküstan nüsxəsi adlandırılır.

Dədə Qorqud türklər arasında sevilən bir tarixi şəxsiyyət olduğundan onun üçün bir çox yerdə məzar qoyulmuşdur. Dərbənddə Dədə Qorqud məzarının olduğu Övliya



Çələbi tərəfindən qeyd edilir. Türkiyənin Əhlət şəhərində də Dədə Qorqud məzarı deyilən bir qəbirdən bəhs edilir.

Dədə Qorqud sonrakı türk dastanlarının da ortaya çıxmasına səbəb olmuşdur. *Manas*, *Alpamış* kimi dastanların əsas qəhrəmanı "Dədə Qorduq"dakı *Bamsı Beyrək* hekayəsi əsasında formalaşmışdır.

Səlcuqlu dövründə *Alp Ər Tonqa* dastanı türklər arasında çox bilinirdi. Bu dastana aid bəzi parçalar Kaşğarlı Mahmudun əsərində yer alıb. "Oğuz xaqan" dastanının əlyazmaları isə moğollar dövrünə aiddir. Həmin əlyazmalardan biri Rəşidəddinin *"Came ət-təvarix"* əsərində "*Oğuznamə*" adıyla zikr edilir, digəri isə uyğurca yazılmışdır.

Səlcuqlu dövrü türkdilli ədəbiyyatı və şeir nümunələri haqqında yeganə mənbə Kaşğarlı Mahmudun divanında yer alan 289 atalar sözü, 765 "mərsiyə, cəng, ov, eşq və şərab, təbiət təsvirlərindən" ibarət şeir parçalarıdır. Həmin 765 şeir parçasından 53-ü cəng, 36-sı sosial həyat, 22-si məhəbbət, 14-ü iqtisadi həyat, 13-ü nəsihət mövzusundadır.

Səlcuqlu dövründə türk dili inkişafının zirvəsinə çatmışdır. Bu dövrdə türk dili keçirdiyi yüksək inkişaf mərhələsindən sonra öz içində yeni ləhcələrə və şivələrə ayrılmağa başlamış, oğuz ləhcəsi ədəbi dil səviyyəsinə çıxmışdır. Türk dilinin keçirdiyi yüksək inkişaf mərhələli şəkildə ərəb və farscanın yerini almasından da aydın olur. Səlcuqlu dövründə *Quran*ın türkcə tərcümələri və təfsirləri mövcud idi. Quranda yer alan əsas məfhumlar və ifadələr farscaya olduğu kimi keçmişdir. Bu ifadələrin türk dilində qarşılığının tapılması türkcənin söz və ifadə zənginliyindən xəbər verir. Məsələn, Allah – *Tenqri* (Tanrı), rəbb – *izi*, ibadət etmək – *yükünmək*, səcdə – *yüküngü*, ibadət – *tapmak/tapıngu*, hesab günü (*yevmü'l-hesab*) – *köni kün*, şeytan – *yek*, sehr – *yelvi*, günah – *yazuk*, həmd-səna – ögmək/öğdi, tövbə – ökünç, səadət – *kut*, nəfs – *tın*, əməl – *kılınç* (əməli-saleh – *ezgü kılıç*), fikir/təfəkkür – *sakınç*, cənnət – *uçmak*, cəhənnəm – *tamuq* və b.

Səlcuqlu dövründə türkcənin əsas yazı və ədəbi dili *xaqanlı* və ya Qaraxanlı türkcəsi adı verilən türk ləhcəsi idi. XI-XIII əsrlərdə ortaya çıxan Quran tərcümələri, təfsirləri, ədəbi əsərləri və lüğətləri, əsasən, bu dialektdə yazılıb. Səlcuqlu türkdilli ədəbi mühitinin də Qaraxanlı dialektinin təsiri altında olduğuna şübhə yoxdur. Türkcənin oğuz ləhcəsi oğuzlar Azərbaycan, İran və Anadolu ərazilərində məskunlaşdıqdan sonra Qaraxanlı dialektinin təsir dairəsindən çıxaraq, ədəbi dil səviyyəsinə yüksəlmişdir.

Səlcuqlu dövrü müsəlman elminin inkişafının zirvəsidir. Bu dövrün elm mərkəzləri mədrəsələr hesab olunurdu. *Mədrəsə* ərəbcə *dərs*, *tədris* sözündən olub, elm ocağı deməkdir. İlk mədrəsələrin Abbasilər zamanında ortaya çıxdığı məlumdur. Samanilər dövründə Beyhaq şəhərində bir mədrəsə açılmışdır. Mədrəsələr əsl əhəmiyyətini Qəznəvilər dövlətinin böyük sultanı Mahmud ibn Səbüktəkinin *(999-1030)* dövründə qazandı. Sultan Mahmud elm və mədəniyyətə böyük xidmət göstərən hökmdar kimi elm adamlarının da qayğısına qalmışdır. Sultan Mahmudun Beyhaqda açdığı dörd məzhəbi əhatə edən dörd ayrı mədrəsə tikdirmişdir.

Ancaq mədrəsələr Səlcuqlu dövründə İslam aləminin hər yerində yayıldı. Səlcuqlu dövləti hər şəhərdə bir mədrəsə inşa edərək elm və təhsilə verdikləri xidmətləri ilə dünyanın ilk təhsil siyasətinə sahib dövləti hesab edilir. Səlcuqlu mədrəsələrinin iki məqsədi vardı:

1. Elm və təhsilin inkişafı;
2. Oxumaq imkanı olmayan yoxsul uşaqlara təhsil vermək. Təhsil haqqının pulsuz olması bunu təsdiq edir.

Sultan Toğrul bəy Nişapuru ələ keçirdikdən sonra şəhərin Sərraclar bazarı yaxınlığında bir mədrəsə inşa edilməsini əmr etdi. Onun zamanında Səlcuqlu vəziri Amidülmülk Künduri Mərvdə bir mədrəsə tikdirmişdi.

Səlcuqlu şəhərlərində mədrəsələrin inşasına və fəaliyyətinə Sultan Alparslan zamanında başlanmış, Məlikşah zamanında bütün müsəlman dünyasını əhatə etmişdir. Adına "Nizamiyyə" deyilən belə məktəblər Bağdad, Bəlx, Nişapur, Herat, İsfahan, Bəsrə, Mərv, Amul, Mosul şəhərlərində açıldı. Mədrəsələrin sürətlə yayılmasına səbəb Səlcuqlu dövründə sürətlə yayılan *batınilik* (ismaililik) deyilən dini ideologiyanın qarşısını almaq idi.

Nizamiyyə mədrəsələri adını vəzir Nizamülmülkdən alır. Bu mədrəsələrin ilki Bağdadda 1067-ci ildə açılmışdır. Mədrəsənin müdərrisi (baş müəllim) vəzir Nizamümülkün əmri ilə böyük fiqh alimi Əbu İshaq Şirazi təyin edilmişdir. Mədrəsənin açılışından bir il sonra məktəbin tədris qaydaları və proqramı hazırlanıb tamamlanmışdır. Nizamiyyə bir vəqf mülkiyyəti idi. Vəqfin idarəsi şafi məzhəbli din adamlarına aid hesab edilirdi. Vəqf mülkü mədrəsədən, yerləşdiyi ərazidən, mədrəsənin qapısının açıldığı yerin qarşısında tikilən bazardan ibarətdi. Mədrəsədə eyni məzhəbdən (şafii) bir müdərris, bir vaiz, bir kitabxanaçı, bir hafiz, bir ərəb dili müəllimi olmaqla beş əsas müəllim heyətindən ibarətdi. Mədrəsə müəllimlərinin maaşları vəqf gəlirləri ilə qarşılanırdı.

İraq Səlcuqlu sultanı Mahmud dövrünə aid vəsiqəyə görə, 1129-cu ildə Nizamiyyə vəqfinin gəliri illik 80.000 dinar idi. Onun 8-15 min dinarı (%10) mədrəsəyə xərclənirdi. Vəqf gəlirləri, əsasən bazardan, xanəgahlardan, karvansaray və əkin sahələrindən təmin edilirdi. Təhsil haqqı olaraq tələbədən pul alınmadığı kimi, tədris müddətində tələbənin xərclərini də vəqf özü qarşılayırdı.

Səlcuqlu dövrü mədrəsə müdərrislərinin bəzilərinin adları mənbələrdə qeyd edilib. Bəlx mədrəsəsinin ilk müdərrisi Abdullah Təmimi *(ö.1095)*, Nişapur mədrəsəsinin müdərrisi İmam əl-Harameyn Cüveyni *(1028-1085)*, onun köməkçisi Əbdürrəhman Afif *(ö.1124)*, Herat mədrəsəsi müdərrisi Əbu Bəkr Şaşi *(ö.1092)*, İsfahan mədrəsəsinin ilk müdərrisi Sədrəddin Xocəndi *(ö.1090)*, Mərv mədrəsəsi müdərrisi Məhəmməd Tamimi Mərvəzi *(ö.1075/76)*, Amul

mədrəsəsi ilk müdərrisi Əbdülkərim Şalusi *(ö.1072)*, Rey mədrəsəsi müdərrisi vəzir Nizamülmülkün dostu Mənsur Mərvabadi; Fusənç mədrəsəsi müdərrisi isə Əbu Səid ibn Əbu Yusif olmuşdur.

Müdərrislər mədrəsənin baş müəllimləri hesab edilirdi. Onlar vəzirlər və sultanlar tərəfindən təyin olunurdu. Nizamülmülk vəzirliyi dövründə müdərrisləri özü təyin etmişdi. Sultan Səncərin də mədrəsələrə müdərris təyin etdiyi qeyd edilir. Bağdad mədrəsəsinin müdərrisliyinə 1119-cu ildə Səncərin əmri ilə İbn ət-Təbəri gətirilmişdi. Müdərrislərin alim olmasına və elmin ən azı bir sahəsində mükəmməl biliyə sahib olmasına diqqət edilirdi. Bağdad mədrəsəsinə müdərris təyin edilən İbn ət-Tirmizi Bağdadi *(ö.1215)* ərəbcə, farsca, türkcə, həbəşcə, rumca (yunanca), süryanicə və zəncicə (qibticə) bilirdi. Hibətullah Bağdadi isə ərəb, fars, yunan və süryani dillərinə vaqif idi. Əbdülkərim Quşeyri (ö.1073) təfsir, nəhv, dil, ədəbiyyat, şeir, xətt, atçılıq və silah işlətməkdə mahir idi. Müdərrislər arasında 20 gün müdərrislik edənlər (Nizamiyyə mədrəsəsinin ilk müdərrisi İbn Sabbaq) olduğu kimi, 30 il müdərrislik edənlər (İmam əl-Harəmeyn Cüveyni) də olmuşdur.

Mədrəsə müəllimlərinin sadə həyat sürdükləri, vaxtlarını elm öyrətməklə keçirdikləri haqqında xeyli məlumat vardır. Əbdülməlik Xarquşi adlı bir elm adamı Nişapurda şəxsi mədrəsə və xəstəxana (*bimaristan*) inşa etdirən və onların gəlirlərini qarşılamaq üçün geniş əraziləri satın alıb mədrəsəyə bağışlayan, ancaq kasıb həyat sürüb, öz ruzisini papaqçılıqla qazanan bir insandı.

Sultan və vəzirlər tərəfindən təyin edilsələr də, müdərrislər sərbəst fikirli alimlərdi. Bəzən hökmdarları belə ən sərt şəkildə tənqid edirdilər. Sultan Toğrul bəy zamanında *cəmal əl-islam* və *şeyx əl-əcəl* ləqəbləri ilə məşhur olan Nişapur mədrəsəsinin müdərrisi Şeyx Hibətullah Sülukinin bütün tələbləri sultan tərəfindən həyat keçirilmişdir. Sultan Alparslan zamanının böyük elm adamları Zeynülislam



Əbül-Qasim Quşeyri və İmamül-Harəmeyn Cüveyni qarşısında vəzir Nizamülmülk özü ayağa qalxırdı. Sultan və vəzirlərin davranışlarını, qərarlarını sərt şəkildə tənqid edən Əbu Əli Farmidi adlı alimin sözləri Nizamülmülkə çatdırıldıqda o belə cavab vermişdir: *"Farmidi hüzurumda mənə nəsihət edir, məni tənqid edir, işlədiyim səhvləri və etdiyim zülmləri üzümə söyləyir. Mən onun sözlərindən istifadə edirəm, etdiklərim səhvləri bir daha etməməyə çalışıram"*. Bağdadın baş qazısı İbni Bəkran Həməvi Şami ipək paltar geydikləri üçün Sultan Məlikşah və vəzir Nizamülmülkün bir dəstə səbzə üçün belə şahidliyinin İslam hüququna görə, qəbul edilmədiyinə hökm etmişdir.

Mədrəsə müəllimlərinin yaxşı yaşadıqları və yüksək məvacib aldıqları məlumdur. Sultan Toğrul bəy zamanında Əli Tənuhi *(ö.1055)* ayda 60 dinar alırdı. Əyyubilər dövründə mədrəsənin baş müəllimlərinin aylığı 30 dinar, digər müəllimlərinki 10 dinar idi.

Mədrəsələrin bəzəyi tələbələr və ya şagirdlər hesab edilirdi. Səlcuqlu mədrəsələrinin, ümumiyyətlə Səlcuqlu təhsil sisteminin diqqətçəkən və yenilikçi tərəfi tələbənin təqaüd və evlə (yataqxana) təmin edilməsidir. Səlcuqlu təhsil sisteminin dünya təhsil sisteminə gətirdiyi yenilik müəllim-tələbə münasibətləridir. Müəllim tələbənin problemi ilə maraqlanır, onun dərs xaricində üzləşdiyi çətinlikləri həll edirdi. Dərslər isə diskussiyalar şəklində keçilirdi. Bir tələbə müəlliminin savadından və elmindən əmin olmadıqda onun dərsini tərk edib, başqa müəllimin yanında dərs alırdı.

Səlcuqlu dövründə mədrəsə təhsili alan tələbələrin sayı haqqında dəqiq məlumatımız yoxdur. Ancaq Bağdad Nizamiyyə mədrəsəsinin məzunlarının sayı 6000-ə çatırdı. Alim Cüveyninin gündəlik dərslərində 300 tələbə iştirak edirdi. Ancaq onların hamısı mədrəsə tələbəsi sayılmırdı. Böyük alim və elm adamlarının dərslərinə kənardan da gənclər qoşulurdu.

Tələbələr yaxşı təhsil üçün Səlcuqlu ölkəsinin bir ucundan başqa ucuna səyahət edirdilər. Məsələn, Cürcandan Herata, Azərbaycandan Nişapura, hətta Əndəlüsdən (İspaniya) İsfahana təhsil üçün gedən tələbələr vardı. Dövrün məşhur alim və ədiblərinin yaşadıqları yer ilə təhsil aldıqları yerlərə baxsaq, Səlcuqlu dövründə ən yaxşı təhsil almaq üçün tələbələrin şəhər-şəhər gəzdikləri aydın olur. Buna səbəb hər mədrəsənin bir sahədə ad çıxarmasıdır. Qəzzali sırayla Tus, Cürcan, Nişapur və Bağdadda təhsil almışdır. Əbül-Qasim Quşeyri Nişapur, Rey, Bağdad və Həmədanda, İbni Əsakir *(ö.1176)* Şam, Bağdad, Məkkə, Mədinə, Kufə, İsfahan, Mərvüş-Şəhcan, Nişapur, Herat, Səraxs, Əbivərd, Tus, Bistam, Rey və Zəncanda, İmamül-Harəmeyn Cüveyni Xorasan, İraq və Hicaz mədrəsələrində, məşhur şair Ənvəri Nişapurda, Salqurlu atabəylərinin şairi Sədi Şirazi Bağdaddakı Nizamiyyədə, Xarəzmşahların şairi və münşisi Rəşidəddin Vatvat Bəlx mədrəsəsində təhsil almışdır.

Təhsilini tamamlayan tələbələrə dövlət sahib çıxıb, işlə təmin edirdi. Məzunların əksəriyyəti dövlət dairələrində çalışırdı. Nizamiyyə mədrəsəsinin müdərrisi Əbu İshaq Şirazi xəlifənin elçisi sifətilə Nişapura Sultan Məlikşahın xidmətinə gedərkən yol üstü dayandığı şəhərdə Səlcuqlu dövlət idarəsində çalışan tələbələrinə rast gəlmişdi.

Mədərəsələrdə təhsil müddəti 5 il idi. Ancaq təhsil həyatı uşaqlıq dövründən başlayırdı. Uşaqlar ilk təhsilini məktəblərdə alırdı. Hər məscidin öz məktəbi vardı. Uşaqlar məktəblərdə oxuyub-yazmağı, hafizliyi, təfsir, hədis, fiqh, dil və ədəbiyyatı öyrənirdilər. Məktəblərdəki təhsil klassik təhsil hesab olunurdu. Ali təhsil ocaqları mədrəsələr idi. Səlcuqlu mədrəsələrində isə fiqh, təfsir, hədis, nəhv, sərf, dil və ədəbiyyat dərsləri xaricində texniki elmlər də oxudulurdu. Nizamiyyə mədrəsələrinin dərs proqramında aşağıdakı dərslər oxutdurulurdu: Quran, hədis, fiqh (şafi hüququ), kəlam (Əşari kəlamı), ərəbiyyə (ərəb dili və



ədəbiyyatı), ədəb (əxlaq), riyaziyyə (riyaziyyat, astronomiya və təbiət), fəraiz (vərasət hüququ).

Bunlar oxudulması vacib təməl dərslərdi. Nişapur mədrəsəsində Əbu Nəsr Əbdülqadir Bağdadi Suli tələbələrinə 17 fərqli elmdən dərslər keçirdi. Mədrəsələrdə fəlsəfə dərslərinin verildiyi də mənbələrdə qeyd olunur. Heratda bir alim fəlsəfi dərslər oxutduğu üçün bəzi şəxslərin təzyiqinə məruz qalmış, hadisəni öyrənən Səlcuqlu dövlət adamları filosofu narahat edən şəxsləri cəzalandırmışdır.

Səlcuqlu dövründə elmlərin sinifləndirilməsi aparılmışdır. İslam aləmində elmlərin ilk sinifləndirməsini Əbu Abdulla Məhəmməd əl-Xarəzmi adlı bir türk alimi hazırlamışdır. Xarəzmi, elmləri iki sinifə ayırmışdır:

- İslami və ərəbi elmlər (hüquq, kəlam, dil, katiblik, şeir-nəsr, tarix);
- Əcnəbi elmlər (fəlsəfə, məntiq, tibb, arfimetika, geometriya, astronomiya-astrologiya, musiqi, mexanika, kimya).

Fərabinin hazırladığı elmlər təsnifi daha təfərrüatlı və genişdir. Fərabi elmləri beş sinifə ayırıb:

- Dil elmləri (sintaksis-semantika, qrammatika, xitabət-tələffüz, şeir);
- Məntiq (bəsit mənalar, qiyas, isbat, doğru-səhv məntiqi, nitq, şeir);
- Alət elmləri (arifmetika (teoriya-pratika), geometriya (teoriya-pratika), optika-işıq, səma elmləri (astrologiya, astronomiya), musiqi, ağırlıq və ölçü elmləri, sadə mexanika elmləri);
- Fizika-metafizika elmləri (fizika (təbiət elmləri, cisimlərin və elementlərin elmi, cisimlərin yaranması və yox olması, mədənlər elmi, heyvanlar elmi), metafizika (varlıqların əsası, varlıqların prinsipləri, şəkilsiz, ruhi varlıqlar və Allahın isbatı);
- İctimayyət elmləri (hüquq, siyasət və iqtisadiyyat).

Nizamiyyə mədrəsəsində elmlərin sinifləndirilməsini Qəzzali hazırlamışdır. Qəzzali elmləri iki sinifə ayırıb: Əqli

elmlər və dini elmlər. Hər elmi də öz daxilində sahələrə görə sinifləndirib:

Əqli elmlər: 1. məcburi prinsiplər, 2. qazanılan elmlər (məntiq-matematika: astronomiya, musiqi, matematika; təbiət elmləri: varlıq, tibb, fizika, metal-mədən, kimya; fəlsəfə: metafizika, kəlam və siyasət);

Dini elmlər: 1. fiqh elmləri (üsul, füruq), 2. Quran elmləri (Quran-təcvid, təfsir), 3. hədis, 4. əxlaq və 5. təsəvvüf.

Sultan Məlikşah dövründə dövlət elm və təhsilə illik 300000 dinar ayırırdı. Nəzərə alsaq ki, müəllimlər maaşlarını vəqflərdən alırdı, o zaman dövlətin ayırdığı bu məbləğin elmə və elm adamlarına əlavə kömək olduğu ortaya çıxır. Bir elm mərkəzinin illik qazancı 80000 dinar olduğuna görə, Səlcuqlu dövründə elm və təhsilə dövlət səviyyəsində böyük pullar ayrıldığı aydın olur. Səlcuqlu dövrü elm və mədəniyyətinin müasir dövrə qədər Şərq dünyasında hakim olmasının kökləri burada yatır.

Səlcuqlular səhiyyə sahəsində böyük uğurlara imza atıblar. Bu baxımdan açılan və pulsuz xidmət göstərən şəfaxanalar diqqət mərkəzindədir. Səlcuqlular belə yerlərə şəfa evləri (darüş-şəfa) deyirdi. Həmin yerlərə farsca *bimaristan* və ya *bimarxana* deyilirdi. Ağıl xəstələrinin müalicə aldığı xəstəxanalar isə *tımarxana* adlanırdı. Onların ən qədim olanları Gövhər Nəcibə Xatun və Qiyasəddin Keyxosrov tərəfindən tikdirilən xəstəxanalardır. Keyxosrovun öz maddi vəsaiti hesabına tikdirdiyi darüş-şəfa külliyə xarakteri daşıyırdı. Təbiblər, cərrahlar, göz həkimləri və s. darüş-şəfa işçilərinin maaşları, xəstələrin bütün dərmanları, xərcləri vəqflər tərəfindən qarşılanırdı. Həmin şəfaxanalar memarlıq baxımından da türk mədəniyyətinin mühüm abidələri arasındadır. Harput darüş-şəfası, atabəy Fərrux tərəfindən 1235-ci ildə istifadəyə verilən Çankırı darüş-şəfası, Pərvanoğlu Əli bəy tərəfindən tikdirilən giriş qapısının üstünə ilan fiquru həkk edilmiş İlanlı Dərgah adlandırılan Kastamonu darüş-şəfası, Tokat darüş-şəfası vəqflər



vasitəsilə idarə olunurdu. Həmin darüş-şəfalar müasir xəstəxana modellərinin əsasını təşkil edirdi. Səlcuqlu darüş-şəfalarında çalışan həkimlər Biruni, İbn Sina, Əbubəkr ər-Razi tərəfindən hazırlanan müalicə metodları tətbiq edirdi.

Səlcuqlu tibbində istifadə olunan dərmanları *müfrəd* (bəsit) və *mürəkkəb* dərmanlar olaraq ikiyə ayırırlar. Bəsit dərmanların hazırlanmasında, məsələn, böyürtkən, gül, xaş-xaş otu, sarımsaq, çobanyastığı, bənövşə və s. kimi ot və müxtəlif bitkilərdən istifadə edilirdi. Darüş-şəfalarda göz əməliyyatlarından qanalmaya qədər müxtəlif cərrahi əməliyyatlar tətbiq edilirdi.

İbn Sina metoduyla idrarının rəngi və üzünün görüntüsü diqqətə alınaraq xəstələrə diaqnozlar qoyulurdu. Vəba və digər yoluxucu xəstəliklər kimi sarsıdıcı xəstəliklərin yaşandığı orta əsrlər dünyasında Səlcuqlu dövlətinin səhiyyə sahəsində aldığı tədbirlər olduqca mühümdür.

Nizami-Aruzi Səmərqəndi, Əkmələddin Təbib, Hubeyş Tiflisi bu dövrün məşhur həkimləri arasında adları qeyd edilir. Əkmələddinin hazırladığı *müshil* adlı dərman bir çox xəstəliyin müalicəsində təsirli olmuşdu.

Kütahyadakı II Yaqub bəyin daş üzərinə yazılan vəqfiyyəsində yazılan aşağıdakı türkcə sətirlər o dövrdə xeyriyyəçilik və yardımlaşma baxımından çox mühümdür: "*... gelen misafürlerün atına yine üç güne dek yem veriler, andan girü anda olan misafürlere ve mücavirlere adetinde aşı ve ekmeği ilkin anlara bol vireler, andan sonra girü kalanı vireler ve dahi anda kim ki hasta olası olursa ana hekim getüreler, ilaç itdüreler ve hekim hakkın vireler ve edviye parasın vireler*".

1247-ci ildə Cəlaləddin Karatay tərəfindən Kayseridə inşa etdirilən Karatay Hanı karvansaray vəqfiyyəsində maraqlı bir məlumat yer alır. Vəqfiyyəyə görə, dinindən, məzhəbindən, millətindən asılı olmadan hər kəsin karvansarayda üç gün qalma haqqının olduğu vurğulanır. Yenə dinindən və sosial vəziyyətindən asılı olmadan hər kəsə

karvansarayda yemək verilirdi. Qonaqların ayaqqabılarının təmiri və ya ayaqqabısı olmayanlara yeni ayaqqabı verilməsi də vəqfiyyənin vəzifələri arasında idi. Qonaqların təmizliyi üçün hamam, xəstələrin müalicəsi üçün dərman və müalicə xidmətləri də vəqfiyyəyə aiddi. Karvansaraya gələn heyvanların baxımı üçün də burada hər cür şərait yaradılmışdı. Karvansarayda xəstə heyvanların baxımını icra edən baytarlara ayda 100 dirhəm maaş verilirdi.

Anadolu Səlcuqlu dövründə tikilən xəstəxanalar haqqında mənbələrdə geniş məlumat verilib. Həmin darüş-şəfalar arasında Mardin *(1108-1122)*, Kayseri *(1206)*, Sivas *(1217)*, Konya *(1219-1236)*, Divriği *(1228)*, Harput *(1229)*, Çankırı *(1235)*, Kastamonu *(1272)*, Tokat *(1277)*, Konya Aksarayı *(XIII əsr)*, Ərzurum *(XIII əsr)*, Ərzincan *(XIII əsr)*, Ağşəhər *(XIII əsr)* və Amasiya *(1308)* xəstəxanaları xüsusilə qeyd edilməlidir. Bu əsərlərin bir çoxu günümüzə qədər gəlib.



# ƏLAVƏ OXU

## VII.I. Ədəbiyyat


- Ağacanov S.G., *Oğuzlar*, Türkçesi: Ekber N.Necef, Ahmet Annaberdiyev, İstanbul: Selenge Yayınları, 2002.
- Aqardjanov S.Q., *Seldjukidı i turmeniya v XI – XII vv.*, Aşxabad: İzdatelstvo "Ilım", 1973.
- Bünyadov Ziya, *Azərbaycan Atabəyləri dövləti (1136-1225)*, Bakı: Elm nəşriyyatı, 1985.
- Kafesoğlu İbrahim, *Selçuklu Tarihi*, İstanbul: Milli Eğitim Basımevi, 1972.
- Kafesoğlu İbrahim, *Selçuklular ve Selçuklu Tarihi Üzerine Araştırmalar*, İstanbul: Ötüken Yayınları, 2014.
- Nəcəf Əkbər N., *Aran Atabəyləri*, Bakı: Başla nəşriyyatı.
- Nəcəf Əkbər N., *Azərbaycan Səlcuqları – Yaqutilər (1043-1103)*, Bakı: Çapar nəşriyyatı.
- Nəcəf Əkbər N., *Səlcuqlu dövlətləri və atabəyləri tarixi (Oğuzların ortaya çıxmasından XIV əsrə qədər)*, Bakı: Qanun nəşriyyatı, 2010.
- Sümer Faruk, *Oğuzlar*, Azərbaycan dilinə tərcümə edən: Ramiz Əsgər, Bakı: Gənclik nəşriyatı 1993.
- Turan Osman, *Selçuklular ve İslamiyet*, İstanbul: Nakışlar Yayınevi, 1980.


## VII.II. Suallar

1. Səlcuqlu dövlətinin hakim ailəsi hansı oğuz tayfasına mənsubdur?
2. Səlcuqlu oğuzlarının köç səbəbləri nələrdir?
3. Böyük Səlcuqlu dövləti ərazisində meydana gələn neçə Səlcuqlu dövləti olub?
4. Atabəylik sistemi nədir?
5. Səlcuqlu atabəyləri hansılardır?
6. Sultan titulu alan atabəy kimdir?
7. Səlcuqlu dövlətinin elm sahəsindəki əsas yeniliyi hansılardır?

## VII.III. Tapşırıqlar

1. Dəndənəkan döyüşünün səbəb və nəticələrini açıqlayın.
2. Böyük Səlcuqlu dövlətinin xəritəsini hazırlayın.
3. Böyük Səlcuqlu dövlətinin paytaxt şəhərlərini sıralayın.

4. Azərbaycanda ortaya çıxan Səlcuqlu dövlətləri və atabəyləri haqqında araşdırma aparın.

5. Azərbaycan tarixşünaslığında Səlcuqlu dövlətləri haqqında fərqli baxışları və bunların səbəblərini təsbit edin.

6. Azərbaycanda Səlcuqlu və Atabəylər dövrünə aid maddi-mədəniyyət abidələri haqqında məlumat verin.

## VII.IV. Terminlər

*ağrı* – oğuzların pula verdikləri türkçə ad.

*atabəy* – türkcə "ata" və "bəy" sözlərinin birləşməsindən yaranan, şahzadələrin tərbiyəsinə və dövlət lideri olaraq yetişməsinə nəzarət edən əmirlərə verilən titul.

*attar* və ya əttar – əsasən şəkər və ədviyyat satıcılarına verilən ad.

*balık* və ya *balıq* – qədim türklərin şəhərə verdiyi ad. Oğuzlar balıq yerinə "kənd" adı işlətməyə başlayıblar.

*bimaristan* – xəstəxana.

*Bozqır* – türklərin, əsasən düz ərazilərə verdikləri ad.

*Bozox* – 24 oğuz tayfasının 12 tayfasının mənsub olduğu sol qanadına verilən ad.

*çaşnigir* – Səlcuqlu sultanlarının süfrəsinə nəzarət edən əmirlərin aldığı vəzifə.

*əsnaf* – ticarətlə məşğul olan şəxlərə verilən ümumi ad.

*fəraiz* – vərasət hüququ.

*fiqh* – hüquq.

*həbsiyyə* – zindanda yatan şairlərin öz vəziyyətləri haqqında yazdıqları şikayətnamə tərzində şeir növü.



*xazər* – ordu mənasında işlədilən farsca ad.

*xütbə* – cümə namazları sırasında məscid mollası tərəfindən oxunan mətn. Xütbələrdə hakimiyyətdə olan hökmdarların adı zikr edilirdi.

*iaşə* – ordunun, əsasən qida ehtiyacları mənasında istifadə edilən kəlmə.

*id* – türklərin uşaqlar üçün taxtadan hazırladıqları heyvan formasında oyuncaqlara verdikləri ad.

*iqta* – Səlcuqlu dövründə şahzadə, əmir və atabəylərə verilən torpaq parçası.

*kəlam* – teologiya.

*kəngəş* – oğuzların toplaşdığı xalq məclisi.

*kürsi* – hökmdarın oturduğu taxt.

*ləşkər* – ordu mənasına gələn farsca termin.

*məlikü`l-məlik* – məliklərin məliki mənasında ərəbcə bir termin. Farsca "şahənşah" titulunun tərcüməsidir.

*müdərris* – baş müəllim.

*mülk* – ölkə, ərazi, torpaq sahəsi mənasında işlədilən ərəbcə termin.

*münşi* – divanda çalışan katiblərə verilən ad.

*növbət* və ya *nöübət* – hökmdar sarayı və ya çadırı qarşısında günün beş vaxtında çalınan himn.

*nücum* – astronomiya.

*Rum* – müsəlmanların Anadolu bölgəsinə verdikləri ad. Roma adının ərəbcə tələffüzü.

*Rükni* – Sultan Toğrul bəyin İslami ləqəbi olan "Rüknəddin"in qısaldılmış şəkli olub, Səlcuqlu dövründə zərb edilən qızıl sikkələrə verilən ad.

*salar* – ordu başçılarına verilən ad.

*sancaq* – türkcə kəlmə olub, bayraq mənasına gəlirdi.

*sufraca* – kredit müqabilində verilən mal.

*sukna* – gümüş ticarətiylə məşğul olan tacirlərə verilən ad.

*sultanü`l-əzəm* – Səlcuqlu hökmdarlarının qəbul etdiyi "böyük sultan" mənasında titul.

*sübaşı* – oğuzların ordu başçılarına verdiyi ad.

*tevki* – türkcəsi “tuğra” olub, hökmdarlıq möhürü mənasına gələn ərəbcə kəlmə.

*tımarxana* – dəlilərin müalicə aldıqları xəstəxana.

*tiraz* – hökmdarların geydikləri hökmdarlıq əlaməti olan qiymətli paçalardan hazırlanmış geyim.

*türkmən* – müsəlmanlığı qəbul edən oğuzlara müsəlmanların verdiyi ümumi ad.

*Üçox* – 24 oğuz tayfasının 12 tayfasının yer aldığı sağ qanadın adı.

*ülüş* – ulus. Hökmdar ailəsinə aid ərazilərə verilən ad.





*Səkkizinci fəsil*

# SƏLCUQLU DÜNYASI



## 8.1. OĞUZ SİYASƏT ƏNƏNƏSİ

Sultan Səncərin ölümü və Böyük Səlcuqlu dövlətinin ortadan qalxması səlcuqluların hakim olduqları müsəlman aləmindəki siyasi sistemi dəyişdirmədi. Xorasanda oğuzların bir müddət davam edən özbaşınalıqları isə qısa müddətdən sonra Xarəzmşahlar tərəfindən ortadan qaldırıldı.

Səlcuqlular *oğuz siyasət ənənəsini* bölgədə hakim halına gətirdilər. Bu ənənəyə görə, ələ keçirilən ərazilər Səlcuqlu xanədan üzvləri, atabəyləri və oğuz komandanları tərəfindən bölüşdürülsə də, idarəetmədə heç bir dəyişiklik olmadı. Atabəylər və oğuz əmirləri hakim olduqları ərazilərin faktiki sultanlarına çevrildilər. Onlar da Səlcuqlu sultanları kimi *məmlük* ordu nizamına, iqta idarəçiliyinə və Səlcuqlu bürokratiyasına sadiq qaldılar. Türklərin insan resursları baxımından hakim olduqları ərazilərdə isə türk dili hakim hala gəldi. Siyasi və hərbi baxımdan ən ziddiyyətli ərazilər isə Anadolu və Azərbaycan idi. Anadoluda səlib müharibələrinin yol açdığı və bəzən kütləvi şəkildə insanların



qətl edilməsiylə nəticələnən hadisələrlə, Cənubi Qafqazda gürcü krallığının torpaqlarını, həmçinin buradakı siyasi və hərbi sistemi ələ keçirən qıpçaqların xristianlaşaraq müsəlman ölkələrinə, xüsusilə Azərbaycana səfərlər təşkil etməsi qanlı hadisələrlə yadda qaldı.

Artıq XIII əsrin əvvəllərində müsəlman-türk dünyası şərqdə Xarəzmşahlar, qərbdə Əyyubilər, cənubda isə Dehli türk sultanlığının yer aldığı üç böyük hissəyə ayrıldı. Bu dövlətlərin ətrafında yarımüstəqil və ya tabe şəkildə hakimiyyətlərini qoruyan atabəyliklər və türk dövlətləri mövcuddu. Bütün bu siyasi güclər oğuz siyasət anlayışının parçası idilər. Həmin dövlətlərin hökmdarlarının siyasi baxışı, dövlət mərasimləri, hətta cənazə mərasimləri belə ənənəvi türk inanclarına uyğun gerçəkləşirdi. Anadoluda ortaya çıxan Danişməndli, Saltuqlu, Artuqlu, Məngücük kimi xanədanların hakimlərinin çoxunun meyitləri mumyalanaraq dəfn edilmişdir. Digər tərəfdən, Anadolu, Xorasan və Azərbaycanda türk-islam təsəvvürləri hakimdi. Yəsəvilik, vəfailik, babailik, qələndərilik kimi təsəvvüfi cərəyanlar, əsasən türklər arasında kök salmışdı. Qeyd olunan bölgənin şimalında isə çox sayda qıpçaq tayfasının məskunlaşdığı Dəşti-Qıpçaq ərazisi uzanırdı.

Oğuz siyasət ənənəsinin davam etdirilməsində atabəylər və oğuz əmirləri çox istəkli idilər. Onlar bu nizam sayəsində özlərinin siyasi maraqlarını həyata keçirmək və əldə etdikləri imtiyazları qorumaq hüququna sahib olmuşdular.

Oğuzların formalaşdırdıqları siyasi-strategiya və mədəni münasibətlər sisteminin adına müasir tarixşünaslıq elmində *oğuzçuluq* deyilir. Siyasi müstəvidə mərkəzi iqtidar fərqli xanədanlar arasında əl dəyişdirsə də, hüquqi-siyasi və mədəni müstəvidə müsəlman-türk xarakterinin təməlini təşkil edən *oğuzçuluq* dəyişmədən qaldı.

Oğuzlar müsəlman inancı ilə özlərinin ənənəvi tarix anlayışlarını birləşdirib, yeni bir kimlik inşa etdilər. İslamın

qəza anlayışı ilə türklərin *alplıq* anlayışının bütünləşdiyi yeni kimlik sintezində oğuzlar *səlibçilərə* qarşı uzun əsrlər mübarizə apardılar. Misirin 1183-cü ildə Səlahəddin Əyyubinin başçılığı altında Mosul-Zəngi atabəylərinin ordusu tərəfindən ələ keçirilməsi ilə bu mübarizə cəbhəsi Aralıq dənizinin cənub-şərq sərhədlərinə qədər yayıldı. Azərbaycanda toplanan on minlərlə oğuz dəstələri kütlələr halında qərb istiqamətində hərəkət edərək Anadolu, Suriya, Fələstin, Misiri türk yurdu halına gətirdilər. XII əsrin avropalı səyyahları bu geniş ərazini "Turcia" adlandırdı. Dövrün mənbələri bu yeni kimliyə "*turkman*" (İslam mənbələri) və "*turkoman*" (Bizans mənbələri) adını verirdilər. Müsəlman Şərqinin şimal xətti boyunca, yəni Aralıq dənizindən başlayıb Şərqi Türküstana qədər, Rum (Anadolu), Diyari-Şam (Suriya), Mosul (Şimali İraq), Azərbaycan və bütün Cənubi Qafqaz (Qazlıq dağı), Rey, Xorasan, Dehistan, Mavəraünnəhr, Türküstan və Şimali Hindistan (İndius) kimi geniş əraziləri əhatə edən və əsasən oğuz türkləri tərəfindən idarə olunan bir Səlcuqlu dünyası formalaşdı. Bu geniş bölgənin siyasi, mədəni, hərbi və etnik mərkəzi Xorasan, Azərbaycan və Anadolu idi. Türküstandan kütlələr halında gələn türk köçləri bir müddət Muğan və Aran yaylaq-qışlaqlarında yerləşib, buradan Anadolu və Suriya istiqamətində hərəkət edirdilər.

Formalaşan yeni kimlik dövrün tarix kitablarında da öz əksini tapmağa başladı. İslami əsərlərdə və türk dastanlarında türk kimliyinin tarixi Məhəmməd peyğəmbərin dövrü ilə eyniləşdirildi və həmin türklər də inanc olaraq "müsəlman" elan edildilər. Qaraxanlıların "Satuk Buğra xan", oğuzların "Dədə Qorqud" dastanlarında peyğəmbər motivi əsərin girişində ön plana çıxarıldı. Bu əsərlərdə türklər İslamın müdafiəçiləri və "kafirlərin" qatı düşməni olaraq, müsəlman bir missiya ilə çıxış edirdilər. Hətta sonrakı dövrdə Əbubəkr Tehrani "Kitabi-Diyarbəkriyyə" adlı əsərində Ağqoyunlu Həsən padşahın şəcərəsini tərtib



edərkən onun 22-ci nəsildən ulu babası olan Sunqur bəyin Məhəmməd peyğəmbər zamanında Alagəz və Göyçə gölü ətrafında yaşadığını, peyğəmbəri tanımadan və "İslam dəvətindən" xəbərsiz olduğu halda "sərhəd boyunca kafirlərlə mübarizə" apardığı fikrini önə çıxarmışdır.

Bu tarix anlayışı "*oğuznamə*"lərdə də özünün sosial-dini əsaslarını tapdı. "Dədə Qorqud" oğuznaməsində Dədə Qorqud kimliyi Məhəmməd peyğəmbərlə eyni tarixdə göstərilərkən, onun peyğəmbərlər kimi "qeybdən xəbərlər" verdiyi zikr edilir və oğuz boylarının bütünlüyü bu ideya ətrafında və Dədə Qorqudun təbliğ etdiyi müsəlman-türk fikirləri üzərində formalaşdırılırdı.

Oğuz kimliyinin müsəlmanlar üzərindəki tarixi rolu isə "İslamın qorunması və yayılması" olaraq göstərilmişdir. Eyni tarixlərdə başlayan *səlib* (xaçlı) müharibələri və Yaxın Şərqdə səlib ordularının törətdikləri böyük qətliamlar bu missiyaya qalıcı məna yüklədi. Türklərin varlığı haqqında İslami əsaslara uyğun hədis ədəbiyyatının formalaşması tamamlandı. Beləliklə, IX-X əsrlərdə Cahizlə başayıb, XI əsrdə Səlcuqlu dövründə İbn Xassüllə pik nöqtəsinə çıxan "*fəzilətli türk*" obrazı (*fəzilətü`l-ətrak*) yetişmiş oldu.

Bu anlayış bölgədə o qədər təsirli idi ki, Hüləgülər dövləti bir müddət sonra özünü oğuz siyasi kimliyinin bir parçası elan etdi. Bu təsirin nəticəsində Fəzlullah Rəşidəddin "Oğuznamə"sində belə Azərbaycan adını Oğuz xaqanla əlaqəli açıqlamaq ehtiyacı hiss etmişdir. Əsərdə bu xüsusu belə şərh edir: "Orada (Azərbaycanda) olduqları vaxt o (Oğuz xaqan) əmr elədi ki, təpə yaratmaq üçün hərə ətəyində torpaq gətirsin və onu bir yerə töksün. Əvvəl o özü ətəyində torpaq gətirib tökdü. Bunu o özü etdiyi üçün bütün döyüşçülər də onun kimi bir ətək torpaq gətirib tökdülər. Böyük bir təpə düzəldi və adını Azərbayqan qoydular".



# 8.2. AZƏRBAYCAN ATABƏYLƏRİ ELDƏNİZLƏR

Xorasanda Səlcuqlu hakimiyyəti süqut etdiyi vaxtda İraq Səlcuqlu dövləti də dərin siyasi böhran yaşayırdı. Belə bir vaxtda Azərbaycan atabəyi Eldənizin İraq Səlcuqlu hakimiyyətini ələ keçirməsi bu dövləti siyasi tənəzzüldən xilas etməklə qalmayıb, bölgənin ən güclü dövlətinə çevirdi.

Mənbələr Eldənizin Qıpçaq ölkəsindən alınmış bir qul olduğunu yazır. Eldəniz İraq Səlcuqlu dövlətinin vəziri Kəmaləddin Əbu Talib əs-Sümeyrəminin əmrində sarayda xidmətə başlamış və sırayla iqtidar pillələrini bir-bir çıxaraq yüksəlmişdir. Eldənizin qıpçaqların hansı boyuna mənsub olduğu haqqında tarixçilikdə heç bir məlumat verilmir. Lakin Xarəzmşah Təkişin münşisi *(divan katibi)* Bağdadlı Bəhaəddin Məhəmməd ibn Müəyyəd Xarəzmşahların məktublarını qələmə aldığı əsərində atabəy Nüsrətəddin Cahan Pəhləvana aid bir məktubdan bəhs edərkən, atabəyin Xarəzm ordularının başında Taraza qədər gəlmiş qıpçaq Uran qəbiləsinin rəislərindən Qıranla





*Azərbaycan Atabəylərinin bayrağı*





*Azərbaycan Atabəyləri və onlara tabe olan ərazilər*

(Kıran) “qohum olduğunu” yazır. Atabəy Cahan Pəhləvanın Qıranı öz qohumlarından göstərməsi Eldənizlər sülaləsinin Uran tayfasından olduğunu təsdiq edir. Uran tayfası Cənd ətrafında yaşayırdı. Eldəniz Orta Asiya (Cənd və ətrafındakı) qıpçaqların bir qolu olan Uran tayfasından alınmış bir qul kimi əvvəlcə Xorasana, oradan da İraq və Azərbaycana gəlmişdir.

Sultan II Toğrul zamanında Eldəniz, sultanın şəxsi məmlükləri arasına daxil edildi. Sultan II Toğrulun ölümü və yerinə Sultan Məsudun *(1135-1152)* keçməsindən sonra Eldəniz ölən hökmdarın dul xanımı Mömünə Xatun ilə evləndirildi və 1141-ci ildə Arslan şahın atabəyi olaraq Azərbaycana göndərildi. Azərbaycan tarixçiliyində Azərbaycan atabəyliyinin yaranma tarixi 1136-cı il göstərilsə də, bu tarix səhvdir. Eldənizin Mömünə Xatundan Məhəmməd Cahan Pəhləvan və Müzəffərəddin Qızıl Arslan adlı iki oğlu və bir qızı oldu.

1141-1146-cı illər ərzində atabəy Eldəniz Aran və Azərbaycanın idarəsini ələ alıb, İraq Səlcuqlu dövlətinin ən böyük əmirlərindən birinə çevrildi. O, üsyankar əmirləri bərtərəf etdi və yerli idarəçilər arasında nizam-intizam yaratdı. Əhali arasında asayişi bərqərar edən Eldəniz haqqında dövrün Alban müvərrixi Mxitar Qoş yazır: *“O, gücləndi; bütün böyük hökmdarları əzdi və çoxlarını özünə tabe etdi; türkmənlərin qiyamçılarını tamamilə darmadağın etdi. O, Albaniya (Aran) ölkəsindəki çaxnaşmalara son qoydu”*.

1161-ci ildə Şəmsəddin Eldəniz 20 minlik orduyla Arslan şahla birlikdə Həmədana gəldi. Rey hakimi İnancdan başqa bütün əmirlər onu qarşıladılar. Eldəniz oğulluğu Arslan şahı taxta oturtdu. Özünü isə onun atabəyi elan etdi. Böyük oğlu Cahan Pəhləvanı sultanın əmiri-hacibi (baş hacib), ikinci oğlu Qızıl Arslanı isə əmir sipəhsalar əl-kəbir (sultan ordularının baş komandanı) təyin etdi.

Atabəy Eldənizin İraq Səlcuqlu taxtını ələ keçirməsi asan olmadı. O, əvvəlcə Marağa atabəyinin nəzarəti altında



olan Mahmud şah Məhəmməd və Fars hakiminin nəzarəti altındakı Mahmud şah Məlikşahı təsirsiz hala gətirdi. Eldəniz 2 avqust 1161-ci ildə Rey ətrafında Mahmud şah ibn Məhəmmədin ordusunu darmadağın etdi. Reyi ələ keçirib, Cahan Pəhləvanın iqtası elan elədi. Rey hakimi Əmir İnanc da Arslan şahın vassalına çevrildi.

Eldəniz Reydən Qəzvinə hərəkət etdi. Qəzvində üsyan etmiş Alp Arqun məğlub edildi və bura atabəy mülkləri arasına qatıldı. Eldəniz buradan Nüsrətəddinə məktub göndərib, tabe olmasını əmr etdi. Ancaq Marağa hakimi atabəyin bu təklifinə rədd cavabı verdi. Marağa hakimi Ərmənşahlardan Seyfəddin bəy Teymur ibn II Sökmənin yardımı sayəsində Qızılüzən çayı kənarında Cahan Pəhləvanı məğlub etdi. Ancaq Nüsrətəddin bu zəfərinin arxasından Marağanın idarəsi ilə kifayətləndi. Atabəy Eldəniz də onunla məsələni çox ciddi qəbul etməyib, Fars Atabəyləri Salqurlular üzərinə yeridi. Bu sırada Salqurlu atabəyi Sunqur vəfat etmiş, yerinə Zəngi keçmişdi. Zəngi Eldənizə qarşı çıxmamış və Arslan şahın hakimiyyətini qəbul etmək məcburiyyətində qalmışdı.

Bir müddət sonra Marağa atabəyi Nüsrətəddin də vəfat etdi. Eldəniz onun mülklərinin çoxuna əl qoydu və Ağsunqurluları təsiri altına saldı. 1167-ci ildə Mosul atabəyliyi də Arslan şahın hakimiyyətini qəbul etdi. Atabəy Eldəniz Kirman və Xuzistan hakimlərini də itaət altına aldı. Beləcə, atabəy Eldəniz dövründə Azərbaycan atabəyliyi İraq Səlcuqlu dövlətinin bütün torpaqlarını ələ keçirdi. Atabəyə itaət edən əyalətlər arasında Aran, Azərbaycan, Şirvan, Cibəl, Həmədan, Gilan, Mazandaran, İsfahan, Rey, Mosul, Kirman, Fars, Xuzistan, Əhlət, Ərzurum və Marağa yer alırdı. Səlcuqlu müvərrixi əl-Hüseyni belə deyir: “Əsl hökmdar, atabəy Eldənizin özü idi. Əmrləri o verirdi, iqta torpaqlarını o paylayırdı, dövlət xəzinəsinə nəzarəti də o edirdi. Sultan Arslan şah ibn Toğrulun ancaq adı var idi”.

Atabəy Eldəniz hakimiyyətinin son illərində Şirvan və Şərqi Anadolu üzərində artan gürcü-qıpçaq təsirlərini azaltmaq üçün Kartli və Kaxetiya üzərinə bir neçə hərbi səfər təşkil etdi. Bu səfərlərin birində vəba xəstəliyinə tutulan Eldəniz 1175-ci ildə vəfat etdi. Onunla eyni tarixlərdə Mömünə Xatun və Sultan Arslan şah da vəfat etdilər.

Şəmsəddin Eldəniz qısa vaxtda Türküstandan Suriyaya qədər geniş Səlcuqlu dünyasının ən etibarlı və güclü hökmdarına çevrildi. Bu, İraq Səlcuqlu dövlətinin ən qüdrətli dövrü idi. Eldənizin güclənməsi ətraf hökmdarları onun hakimiyyətilə razılaşmağa məcbur qoydu. Xarəzmşah İl-Arslan, Sultan Səncərin ölümündən sonra Xorasanda ortaya çıxan oğuz bəyliklərini öz təsiri altına almaq siyasəti də Eldənizin müdaxiləsilə qarşılaşdı. Eldəniz faktiki olaraq Səlcuqlu mirasının sahibi hesab edilirdi.

*Atabəy əl-əzəm* məqamını ələ keçirən böyük oğlu Cahan Pəhləvan qısa vaxtda narazı əmirləri ortadan qaldırıb, üsyan bayrağı qaldıran əmirlərə boyun əydirdi. İlk iş olaraq Xuzistan və Əhvaz hakimi əfşarlardan Aydoğdu Şumla ilə üz-üzə gəldi. Onun yerinə Xuzistan hakimiyyətinə oğlu Şərafəddin Əmiranı çıxartdı.



*Məhəmməd Cahan Pəhləvanın adına kəsilmiş pul*



*Məhəmməd Cahan Pəhləvanın adı yazılmış və antropomorf təsvirlərlə bəzədilmiş saxsı qab. Gəncə Tarix-Diyarşünaslıq Muzeyi*





*Göy Gümbəz Azərbaycan Atabəyləri Dövrü*



*Mömünə Xatun türbəsi. Naxçıvan, Azərbaycan.*

Marağa atabəyi Arslan-Aba ibn Ağsunqurun vəfatından isitfadə edib, onun torpaqlarını ələ keçirdi. Bu səbəblə Cahan Pəhləvan Marağanı mühasirəyə aldı. Eyni zamanda Aran və Azərbaycanın hakimi olan qardaşı Qızıl Arslan da Təbrizə hücum etdi. Atabəy bölgənin tamamını qardaşı Qızıl Arslana verdi. Qızıl Arslan öz iqamətgahını Naxçıvandan Təbrizə köçürdü.

Sibt ibn əl-Cövzi Cahan Pəhləvanın "*elşah*" ləqəbi daşıdığını xəbər verir. Cahan Pəhləvan Azərbaycan atabəyliyinin ən güclü hakimi olmaqla yanaşı, həm də dövlətin süqutunun səbəbkarı oldu. Eldəniz və oğlu Pəhləvan Səlcuqlu idarəçiliyində heç bir dəyişiklik aparmadılar. Sadəcə zəifləyən mərkəzi idarəni öz qabiliyyətləri, ciddiyətləri və şəxsi iradələri ilə gücləndirib, nizam və intizamı bərqərar etdilər. Şəxs mərkəzli bu idarə forması sultan və ya atabəy iradəsi güclü olarkən yaxşı işləyirdi, zəif olarkən isə əmirlər mərkəzi hakimiyyəti öz əllərinə keçirmək uğrunda

qanlı müharibələr aparırdılar. Pəhləvan öz məmlüklərinə geniş səlahiyyətlər və böyük iqtalar vermişdi. Bu məmlüklər *"əl-Pəhləvani"* adını daşıyırdılar. Ancaq onların sadəcə adı məmlük olub, həqiqi mənada isə yarımüstəqil hakimlərə çevrilmişdilər. İbn İsfəndiyar özünün *Təbəristan tarixinin* bir yerində Pəhləvanın məmlükləri haqqında maraqlı bir məlumat verməkdədir. Ona görə, atabəy ölümündən bir qədər əvvəl Reyə gəlir və sarayın baxçasında öz əyanları ilə söhbət edərkən birdən çavuşların böyük bir hay-küy qopardığını eşidir. Atabəy bu hay-küyün səbəbini soruşanda ona Rey əmiri Siracəddin Qaymaz əl-Pəhləvaninin gəldiyi xəbər verilir. Bu hadisə qarşısında təəccübünü gizlətməyən atabəy Pəhləvan vəzirlərindən birinə belə deyir: "Mənim qullarım və onlara verdiyim səlahiyyətlər haqqında fikrin nədir?" Vəzir belə cavab verir: "Qoy atabəy əl-əzəmin həyatı əbədi olsun. Sən öz qullarını elə yüksək mərtəbələrə qaldırmısan ki, səndən sonra onlar sənin övladlarının heç birinə itaət etməyəcək və heç biri o birisinə baş əyməyəcəkdir. Bu qullarının ömrünün davam etdiyi müddətdə İraq nə sülh, nə də asayiş görəcəkdir". Vəzirin sözləri üzərinə atabəyin gözləri yaşardı və belə dedi: "Sən çox haqlısan! Ancaq nə etmək olar?" Vəzir cavab verdi: "İndi artıq sadəcə və sadəcə Allahın iradəsinə ümid bağlamaqdan başqa çarə görünmür".

İbn İsfəndiyarın *(Bəhaəddin Məhəmməd ibn Həsən ibn İsfəndiyar; XIII əsr)* verdiyi bu məlumat, Eldənizlər dövründə Səlcuqlu "qulam təşkilatının" iflas etdiyini ortaya çıxarır. Hələ Eldənizlərdən çox-çox əvvəl ordu komandanlarına verilən iqtalar irsi hakimiyyətə çevrilmişdi. Buna görə də atabəylər və sultanlar öz mövqelərini qorumaq üçün əmirlərə, məmlüklərə böyük imtiyazlar vermişdilər. Onların ucbatından 80 illik İraq Səlcuqlu tarixində heç bir hakimiyyət dəyişikliyi davasız, savaşsız keçmədi. Digər tərəfdən, atabəy Pəhləvan da haqlı idi. Çünkü Eldənizlərin özü də bu sistem sayəsində dövlətin ən üst mərtəbəsinə



qədər ucala bilmişdi. Atabəylər öz məmlüklərini narazı salmamaq üçün onlara tanınan haqq və imtiyazları daha da genişlətdilər. Bu böyük səlahiyyətlər sayəsində hər bir məmlük idarə etdiyi torpaqların yarımüstəqil hakiminə çevrildi. Nəticədə gücünün və ehtişamının zirvəsində olduğu halda Sultan Səncər kimi bir hökmdar öz əmirlərinə söz keçirə bilməyəcək vəziyyətə gəlmişdi.

Atabəy Cahan Pəhləvan on illik hakimiyyətdən sonra 1186-cı ildə vəfat etdi. Cahan Pəhləvan taxtına oturacaq varis seçməmişdi. Ravəndiyə görə, öz uşaqlarına çox bağlı olan Pəhləvanın dörd oğlu və o qədər də qızı vardı. Rey hakimi və Eldəniz tərəfindən öldürülən İnanc bəyin qızı İnanc Xatundan Pəhləvanın Qutluq İnanc Mahmud və Əmir Əmiran Ömər adında iki oğlu olmuşdu. Qüteybə Xatundan Əbu Bəkr, Zahidə Xatundan isə Özbək adında iki oğlu və daha sonra Naxçıvan hakimi olacaq Cəlaliyyə adında bir qızı vardı. Əslində, Cahan Pəhləvan öz övladları arasında hakimiyyəti bölüşdürmüşdü. Azərbaycan və Aranın idarəsini oğlu Əbu Bəkrə tapşırmış, qardaşı Qızıl Arslanı da onun atabəyi təyin etmişdi. Rey, İsfahan və İraqın idarəsini Qutluq İnanc ilə Əmir Əmirana, Həmədanı isə Özbəyə vermişdi.

Atabəy Pəhləvanın vəfatından sonra İraq Səlcuqlu sultanı III Toğrul sərbəst hərəkət etməyə başladı. Cahan Pəhləvanın əmrindəki məmlüklər və əmirlər də taxt iddiaçıları arasında üçə bölünmüşdülər. Ordunun böyük bir hissəsi Qızıl Arslanın tərəfində idi. Əmirbar *(rəsmi mərasim əmiri)* Mahmud Anasıoğlu, Qəzvin əmiri Nurəddin Qara, Natanz hakimi Nurəddin Qıran Huvan, Rey əmiri Siracəddin Qaymaz, Qarac valisi Əbu Duləf, Fərrazin hakimi və atabəy Pəhləvanın məlikül-üməraası Cəmaləddin Uluq Barbəy Ay-Aba əl-Fərrazin Qızıl Arslanın atabəyliyini dəstəkləyirdilər. Cəmaləddin Ay-Aba, Seyfəddin Rus və Cəmaləddin Öz-Aba Qutluq İnanc ilə Əmir Əmiran Ömərin; İzzəddin Miyak əl-Atabəyi, Qaragöz əl-Atabəyi, Bəşir və Sevinc Aba Sultan III Toğrulun tərəfini tuturdular.

Əmirlərin özləri arasında da ixtilaflar var idi. Carbazağani – "bu məmlüklər ifrit və ifritə nəslindən idi" – deyərək, onlar arasında cərəyan edən ədavətin ölkənin iflasına yol açdığını qeyd edir.

Atabəy Cahan Pəhləvanın ölüm xəbərini bir müddət gizlədən arvadı İnanc Xatun əmirlərlə dəfələrlə görüşərək, hakimiyyətə oğlanlarının keçməsinə çalışsa da, onun bu cəhdləri səmərə vermədi. Əmirlər *atabəy əl-əzəm* məqamında Qızıl Arslanı görmək istədiklərini dilə gətirdilər. Əmirlərin bu görüşü qarşısında çarəsiz qalan Sultan III Toğrul Qızıl Arslana bir fərman göndərərək, atabəy elan etdi. Həmədana gələn Qızıl Arslan atabəylik taxtına oturdu. Ancaq bir müddət sonra Qızıl Arslan sultanın əmri ilə məmlüklərdən Qaragöz tərəfindən ona qarşı sui-qəsd hazırlandığını öyrəndi. Sui-qəsd atabəyin Həmədanda qarşılanma mərasimi zamanı həyata keçirilməli idi. Ancaq sultanın işarəsi ilə plan təxirə salındı. Bunu öyrənən Qızıl Arslan Qaragözü tutdurub, gözlərinə mil çəkdirdi. Bu hadisə atabəylə sultan arasında münasibətlərin korlanmasına yol açdı.

Qızıl Arslanın narazı əmirlərə divan tutması güc balansının sultan və İnanc Xatun lehinə dəyişməsinə səbəb oldu. Əmirlərdən Cəmaləddin Ay-Aba ilə Seyfəddin Rus III Toğrulun tərəfinə keçdilər. Əbhər hakimi Bəhaəddin əd-Dövlə, Zəncan hakimi İl-Kifşat və Marağa atabəyi Körpə Arslan da onların yolunu tutdu. Bu yeni ittifaqın məqsədi atabəylik taxtına Qutluq İnancın oturdulması idi. Sultan ilə atabəyin orduları 1187/88-ci ildə Həmədan yaxınlığında toqquşdular. Vuruşmalar iki gün davam etdi. İkinci günün sonunda Qızıl Arslan ordusunu meydandan çəkmək məcburiyyətində qaldı. Bu qalibiyyət sultan ordusunda rahatlığa yol açdı. Ay-Aba ilə Rus bir-birinə girdilər. Nəticədə Ay-Aba Rusu öldürdü, sultan da əmrini yerinə yetirmədiyi üçün Ay-Abanı edam etdirdi. Bu dəfə atabəy tərəfdarlarına divan tutmaq sırası sultanda idi. Bu qətliamda vəzir



İzzəddin, Həmədan rəisi Fəxrəddin, Rey valisi Siracəddin Qaymaz və Bədrəddin Qaragöz öldürüldülər.

Sultanın bu davranışları Qızıl Arslanın daha qəti tədbirlər görməsinə səbəb oldu. Eldənizli atabəyi əvvəlcə Bağdad xəlifəsi ən-Nasir Lidinillaha müraciət etdi. Abbasi xəlifəsi isə vəziyyətdən istifadə edərək, İraq Səlcuqlu dövlətini ortadan qaldırmaq niyyətinə düşdü. Buna görə də Qızıl Arslanın təklifi məmnuniyyətlə qəbul edildi. Xəlifə ən-Nasir bir ordu hazırlayaraq Həmədan istiqamətində yola çıxardı. Həmədan ətrafındakı Day-Mərgdə baş verən döyüşdə Qızıl Arslanın gəlməsini gözləməyib vuruşmaya girən Cəlaləddin ibn Yunis başçılığındakı Xilafət qüvvələri III Toğrul tərəfindən darmadağın edildi *(6 may 1188-ci il)*. Bu hadisədən sonra atabəy Qızıl Arslan Kirmanşah istiqamətinə çəkildi.

Məğlubiyyət xəbərini eşidən xəlifə təcili ikinci bir ordu təşkil etdi və başına da Mücahidəddin Xalis əl-Xassı gətirdi. Dekabr 1188-ci ildə xəlifə ilə sultan arasında ikinci vuruşma baş verdi. Bu dəfə III Toğrul Həmədanı tərk edib İsfahana qaçdı. Abbasi ordusu paytaxtı tutdu, Qızıl Arslan da buraya gəldi. Həmədanda xəlifənin əmrilə taxta Qızıl Arslan oturduldu və Bağdadda onun adına "hökmdar və möminlər əmirinin köməkçisi" adıyla xütbə oxuduldu. Bu, Səlcuqlu tarixində ilk hadisə idi ki, bir atabəy sultanlıq taxtına keçirdi.

Ancaq Qızıl Arslan kef məclislərinə aludə idi. O vaxtının çoxunu öz yaxın adamları ilə içki məclislərində və kənizləri ilə hərəmində keçirirdi. Yenə bu kef məclislərinin birindən sonra öz yatağında sui-qəsd nəticəsində öldürüldü. Mənbələr Qızıl Arslanın comərd və gözəl əxlaq sahibi olduğunu, xalqına ədalətlə davrandığını yazır.

Atabəy və Sultan Qızıl Arslanın ölümü İraq Səlcuqlu və Eldənizlər dövlətlərində iğtişaşların, taxt müharibələrinin başlanğıcı oldu. Bütün Səlcuqlu dünyasını saran hakimiyyət hərisliyi xəstəliyi otuz il içərisində bölgənin bütün




*Azərbaycan Atabəyləri və XII əsr türk dünyası*

maddi və insan qaynaqlarını tükətdi. Ravəndinin dediyi kimi, "İraqın bədbəxtliyinə səbəb olacaq satqınlıq" tüğyan etməyə başladı. Nəticədə Eldənizli atabəylərinin mülkləri Pəhləvanın övladları arasında bölüşdürüldü. Azərbaycan hakimiyyətinə isə sırayla Əbu Bəkr *(1191-1210)* və qardaşı Özbək *(1210-1225)* çıxdı. Hər iki hökmdar zəif xarakterli olduqlarından əmirlərinə təzyiq edə bilmirdilər.

Azərbaycan atabəyliyi İraq Səlcuqlu idarəsini ələ keçirməklə Böyük Səlcuqlu dövlətinin siyasi varisi oldu. Bu dövrdə Azərbaycan mədəni, iqtisadi və siyasi baxımdan xeyli inkişaf etdi, Gəncə, Naxçıvan, Beyləqan, Ərdəbil, Təbriz, Marağa yüz minlərlə əhalisi böyük şəhərlərə çevrildilər.

Elm, sənət, şeir və ədəbiyyatda Fələki, Əbü'l-Üla, Xaqani, Beyləqani, əl-Axsikəti *(ö.1184)*, əl-Fərabi *(1160-1202)*, Seyyid Zülfüqar Şirvani, Qivami Mütərəzzi, Fərrux Şirvani, Cövhəri, Yusif Füzuli, Kəmaləddin Naxçıvani, Seyyid İzzəddin əl-Ələvi kimi şəxsiyyətlər bu dövrdə yetişdilər.

Dövrün heç şübhəsiz ən məşhur şairi Nizami təxəllüsü ilə bilinən Gəncəli Əbu Məhəmməd İlyas ibn Yusif ibn Zəki Müəyyəd Nizami *(1140/1-1209/11)* idi. Şərq ədəbiyyatında "*xəmsə*" (beşlik) adıyla bilinən ədəbi ənənənin





*Nizami Gəncəvi Azərbaycan atabəyi Qızıl Arslanın hüzurunda*

əsasını qoyan Nizami, Şirvanşahlar və Atabəylər adına əsərlər yazmışdır. O, bu səpkidə ilk əsəri olan *Məxzənü'l-əsrarı (1178/79)* Ərzincan hakimi Fəxrəddin Bəhramşah ibn Davuda *(1162-1225)*, *Xosrov və Şirini (1180/81)* III Toğrul, Cahan Pəhləvan və Qızıl Arslana, *Leyli və Məcnunu (1188)* Şirvanşah I Axsitana, *Yeddi Gözəli (1197)* Marağa hakimi Körpə Arslana, İskəndərnaməni *(1196-1200)* isə Əhər hakimi Nüsrətəddin Piştəginə ithaf etmişdir.

Atabəylər dövrünün tarixçisi Fəxrəddin Əbülfəzl İsmail ibn əl-Müsənna ət-Təbrizi *(ö.1185)* hesab olunur. Nizamiyyə mədrəsəsində təhsil alan bu alim günümüzə qədər gəlib çatmayan "*Tarixi-Azərbaycan*" adlı bir əsər yazmışdır. Əbülfəzl Mahmud ibn Əhməd *ibn* Məhəmməd əl-Ərdəbili *(ö.1228)* adlı məşhur alim Nizamiyyə və Kəmaliyyə mədrəsələrində dərslər vermişdir. Əbdülxalıq ibn Əbülməali ibn Məhəmməd əl-Arrani (ö.1236) Aran əsilli bir alim olub, Mosul və Əhlətdə fiqh alimi kimi tanınırdı.

Əminəddin Müzəffər ibn Əbu Məhəmməd ibn İsmail ibn Əli ət-Təbrizi (1163-1225) adlı təbrizli alim dövrünün məşhur fiqh bilginlərindən olub, əvvəlcə Nizamiyyə mədrəsəsində, daha sonra isə Qahirənin ən-Nasiriyyə mədrəsəsində müəllimlik etmişdir. Fiqh sahəsində bəzi ictihadlar edən alimin üç cildlik *"Saktü'l-fəvaid"* və ər-Razinin *"əl-Vəciz"*inin xülasəsi olan *"əl-Müxtəsər"* əsərləri vardır.

Ömrünün axırlarını Şirazda keçirən alim dövrünün ən böyük alimlərindən hesab olunurdu.

Tacəddin Əbülfəzail Məhəmməd ibn əl-Hüseyn ibn Abdullah əl-Urməvi *(ö.1225)* adlı urmiyalı alim Fəxrəddin ər-Razinin tələbəsi olmuş və Nizamiyyə mədrəsəsində müəllimlik etmişdir. Onun əl-Hasil adlı əsərinin əlyazması bu gün Paris Millət Kitabxanasının Şərq Əlyazmaları fondunda saxlanılır.

Fiqh alimi Şeyx Əbu Hamid əl-Urməvi, məşhur qazi Şəmsəddin əl-Hüviyyi *(ö.1242)*, Nizamiyyə mədrəsəsi müəllimi Qivaməddin Əbu Nəsr Yunis ibn Mənsur ibn İbrahim əş-Şirvani *(ö.1258)*, əl-Atabəkiyyə mədrəsəsi müdərrisi Kəmaləddin Əbu Abdullah Əbu Məhəmməd ət-Təbrizi *(ö.1230/31)* Azərbaycan Atabəyləri dövründə yetişmiş elm adamlarına nümunədirlər.



*Azerbaycan Tarix Muzeyinde Atabeylere aid bir basliq*





## 8.3. MOSUL ATABƏYLƏRİ ZƏNGİLƏR

Mosul atabəyliyi Şimali İraq, Cənub-şərqi Anadolu və Suriyada hökm sürən, əvvəllər Böyük Səlcuqlu, daha sonra İraq Səlcuqlu dövlətinə tabe olan bir atabəylik idi. Atabəy İmadəddin Zənginin adıyla Zəngilər xanədanı adını alan bu atabəylik, Eldənizlərdən sonra Səlcuqlu dünyasında ikinci böyük və ən güclü atabəylik hesab edilir. Zəngilər bir müddət Misiri də öz sərhədləri daxilinə qataraq, xüsusilə səlibçilərə qarşı şiddətli müharibələr aparmışdılar.

Zəngilərin mənşəyi dəqiq bilinmir. Zənginin atası Qasimüddövlə Ağsunqur Sultan Alparslan dövründə *(1063-1072)* sarayda xidmət etmiş bir məmlük idi. O, türklərin Sabyu oymağından idi. Burada *Sabyu* adı "*yabqu*" adının səhv yazılışı ola bilər. Ağsunqur, Sultan Məlikşah dövründə *(1072-1092)* xassa ordularında komandan mərtəbəsinə qədər çıxmışdır. Ağsunqur Məlikşahın vəfatından sonra Bərkyaruqu dəstəkləmiş və 26 may 1094-cü ildə Təllüs-sultan müharibəsində Tutuş tərəfindən öldürülmüşdür.

Həmin vaxt Zəngi 7 yaşında idi. Onun tərbiyəsini və böyüdülməsini Mosulda hakimiyyətdə olmuş Kür-Boğa (Gür-Boğa), Musa ət-Türkməni, Çökürmüş, Çavlı, Məvdud və Ağsunqur Porsuqi öz üzərlərinə götürmüşdülər. Zəngi bir komandan kimi nə qədər bacarıqlı və ağıllı olduğunu Əmir Məvdudun səlibçilərə qarşı girişdiyi 1111-ci il və 1113-cü il səfərlərində isbat etdi. Sultan Mahmud Bağdad şəhnəliyi vəzifəsini Zəngiyə həvalə etmişdi. Bu sırada Mosul hakimi Ağsunqur Porsuqi 26 noyabr 1126-cı ildə cümə namazını qılmaq üçün getdiyi məscidin həyətində batınilər tərəfindən öldürüldü. Sultan Mahmud oğlu Alparslanın atabəyliyini Zəngiyə verib, onu Mosula hakim təyin etdi. Beləliklə, Mosul Atabəyləri 1127-ci ildə ortaya çıxdı.

İraq Səlcuqlu dövlətinin şahzadəsi Alparslanın atabəyi sifəti ilə Mosula ayaq basan Zəngi, şəhərin hakimi Əmir Çavlının itaətini qəbul edib, iç qalada yerləşərək şəhərin *dizdarlığı* vəzifəsinə Nəsirəddin Çakırı, hacibliyinə Səlahəddin Yağıbasanı, şəhər idarəsinin başına isə Bəhaəddin Şəhrizorini gətirdi.

Atabəy Zənginin ilk fəaliyyəti Hələbdə siyasi asayişi təmin etmək oldu. Artuqlu Timurtaşın əlindəki Nusaybini də alıb, Hələbin bütün nəzarətini ələ keçirdi. Hər iki şəhəri döyüşsüz alan Zəngi, Şam atabəyi Tuğtəkinin vəfatından sonra Suriyada yaranan hakimiyyət boşluğunu öz xeyrinə qiymətləndirib, bölgədə rahat hərəkət edən səlibçilərlə mübarizəyə başladı. Səlibçilərlə mübarizə məqsədilə Şam atabəyi Börüdən istədiyi köməyi almasına baxmayaraq, üç gün sonra Börünün oğlu Sevinci həbs edib, 24 sentyabr 1130-cu ildə Xama şəhərini ələ keçirdi. Bu hərəkət Zəngi ilə Şam atabəylərinin arasının dəyməsinə səbəb oldu. Ancaq bu vaxt gözlənilməyən bir hadisə baş verdi. Bağdad xəlifəsi ilə daimi mübarizə halında olan Xillə hakimi Dübeys, vəfat edən Sərhad hakimi Fəxrüddövlə Gümüştəkinin dul qalan arvadı ilə evlənmək üçün Sərhada gedərkən yolu itirmiş və təsadüfən Şam atabəyi Börünün əlinə keçmişdi. Börü, onu həbs edib, vəziyyəti xəlifəyə bildirdi. Zəngi Dübeysin əvəzində Börüyə oğlu Sevinc və iki komandanını, üstəlik 50 min dinar verməyi təklif edincə, Börü onunla razılaşdı və Dübeysi xəlifəyə göndərmədi. 2 oktyabr 1131-ci ildə atabəy Zəngi Dübeysi təslim alsa da, onu öldürmədi, əksinə, onu silahlandırıb, müəyyən miqdarda pul verərək sərbəst buraxdırdı. Daha əvvəl Sultan Səncərin əmri ilə öz yerinə keçmək istəyən Dübeysi öldürməməsinin səbəbi hər halda onu Bağdad xəlifəsinə qarşı istifadə etmək istəməsi idi.

Həmin vaxt İraq Səlcuqlu sultanı Mahmudun ölməsi ilə hakimiyyət uğrunda oğulları və qardaşları arasında şiddətli taxt mübarizəsi başladı. Bu mübarizədə Azərbaycan və Aran şahzadəsi Məsudun tərəfini tutan atabəy Zəngi ordusuyla birlikdə ona qoşulmaq üçün hərəkət edərkən hakimiyyətdə gözü olan şahzadə Səlcuqşahın atabəyi Qaraca əs-Saki tərəfindən Samirə yaxınlığında ani bir hücuma məruz qalıb, 1132-ci ildə məğlub oldu və Tikritə qaçdı.

İraq Səlcuqlu taxtını ələ keçirən Toğrulun hakimiyyəti uzun sürmədi və Məsudun Həmədanı ələ keçirməsi Zənginin vəziyyətini yaxşılaşdırdı. Ancaq xəlifə əl-Müstərşid atabəy Zəngiyə qarşı türkmən əmirlərinin iştirakıyla 30 minlik bir ordu hazırlayıb, Mosula hərəkət etdi və şəhəri mühasirəyə aldı. Lakin Mosulu müdafiə edən Zənginin əmiri Nəsirəddin Çakırın sərt müqavimətilə xəlifə geri çəkilməyə məcbur oldu. Bu hadisədən sonra xəlifə ilə Zəngi arasında razılıq əldə edildi. Həmin hadisələr sırasında Zəngi, xəlifə ilə birlikdə hərəkət edən Artuqlu hakimi Davudu bağışlamayıb, 1134-cu ilin baharında onun üzərinə yeridi. Amid ətrafında 26 aprel 1134-cü ildə baş verən döyüşdə Davud məğlub olub qaçdı, ancaq uşaqları və əmirləri Zəngiyə əsir düşdü.

1137-ci ildə İraq Səlcuqlu sultanı Məsud atabəy Zəngini bütün Suriya torpaqlarının hakimi olaraq tanıdı. Bunun müqabilində Zəngi Abbasi xəlifəsinə qarşı sultanla birlikdə hərəkət etməyə başladı. Bunun nəticəsində üsyankar

Abbasi xəlifəsi ər-Rəşid və ona qoşulan Məlik Davud, Fars hakimi Məngübars ilə Xuzistan hakimi Bozapan Həmədan yaxınlığında məğlub edildilər. Xəlifə İsfahana qaçdı, lakin orada *batınilər* tərəfindən 6 iyun 1138-ci ildə öldürüldü.

Bu hadisələrdən atabəy Zəngi karlı çıxdı. O, hakimiyyətini Sultan Məsuda təsdiq etdirdikdən sonra, 1137-ci ilin mayında Fərat çayını keçərək, Suriyaya girdi. Məqsədi Şamdakı atabəyliyə son verib, torpaqlarına sahib olmaqdı. Bu məqsədlə, əvvəlcə atabəy Şəhabəddin Mahmudun naibi Muinəddin Ünərin əmrindəki Xumsu mühasirəyə aldı. Lakin Şam hakimləri Qüdsdəki səlibçilərlə müqavilə bağlayıb, Zəngiyə qarşı mübarizəyə başladılar. Atabəy Zəngi səlibçiləri məğlub edib, çoxunu əsir aldı. Eyni tarixdə Bizans imperatoru II İohann Komnena *(1118-1143)* və digər səlib kralları Suriya və Antakyaya hücum etdilər. Bizans-səlib orduları Buzaanı ələ keçirib, əhalisinin çoxunu qılıncdan keçirdilər. Sağ buraxdıqları 400 müsəlmanı xristianlığı qəbul etməyə məcbur etdilər. Bizans-səlib qüvvələri Hələbi mühasirə etsələr də, ala bilməyib, Əsaribə hərəkət etdilər. Əsarib 21 apreldə onların əlinə keçdi. Buradan Munkızoğulları hakimiyyətindəki Şeyzər qalasına hücum etdilər. Qalanın bəzi hissələrini ələ keçirsələr də, iç qalanı ala bilməyib, şəhər hakimi Əbül-Asakirin təklif etdiyi pulu alıb, geri çəkildilər.

Bizans-səlib qüvvələrinin qarşısına çıxmaq üçün Zəngi Sultan Məsuddan kömək istədi. Ancaq bu kömək vaxtında gəlmədiyi üçün Zəngi düşmənə qarşı bir meydan müharibəsinə girməyib, uzaqdan təqib etməklə, xüsusən də, dağlıq ərazilərdə döyüşməyə məcbur etmək istəyirdi. Bizans imperatoru İohann Zənginin bu planını yaxşı bildiyindən ona hücum etməyib, Antakyaya, oradan da Çuxurovaya çəkildi. İmperatorun geri döndüyünü eşidən Sultan Məsudun göndərdiyi 10 min nəfərlik kömək ordusu da Fərat sahilindən geri döndü.

Bizans-səlib ordusunun geri çəkilməsindən istifadə edən atabəy Zəngi alınan torpaqları təkrar ələ keçirdi və



bölgədəki hakimiyyətini gücləndirməyə başladı. Beləcə, Suriyadakı mövqelərini möhkəmlədib, səlibçilərə qarşı hərəkətə keçdi. Atabəy Zəngi hədəf kimi Anadoludakı səlibçilərin mərkəzi olan Urfanı seçdi. Əvvəlcə şəhərin təslim edilməsini tələb etdi, aldığı rədd cavabından sonra Urfanı mühasirəyə aldı. Mancanaqlarla şəhər divarlarını deşməyə çalışarkən, bir tərəfdən də şəhərə girmək üçün lağım qazdırdı. Nəhayət, türklər şəhərə girdilər. Atabəy Zəngi əsgərlərinin şəhəri iki gün yağmalamasına icazə verdi. Daha sonra əmirlərindən Zeynəddin Əli Kiçiyi şəhər hakimi elan edib, müsəlman və xristian, bütün şəhər əhalisinə ədalətlə davranmağı əmr etdi.



*I İmadəddin Zənginin əksi olan miniatür (British Library Ms Yates Thompson)*

Atabəy Zənginin 1144-cü ildə Urfanı fəth etməsi Anadolu və Suriya ərazisində yaranmış üç səlib krallığından birinin ortadan qalxması mənasına gəlirdi. Urfanın fəthi səlib müharibələrinin başlanmasından bəri türklərin xaçlılara qarşı əldə etdiyi ən böyük müvəffəqiyyətdir. Urfanın türklərin əlinə keçməsi həm müsəlman ölkələrində, həm də Avropada böyük əks-səda yaratdı. Xəbəri eşidən müsəlmanlar hər yerdə şənliklər təşkil etdilər. Xəlifə əl-Müqtəfi *(1136-1160)* atabəy Zəngiyə "*Zeynül-İslam əl-məlikül-mənsur və nasırul-əmirülmömininin*" ləqəbi verdi, dövrün ən böyük şairləri hesab edilən İbn Kaysarani, İbn Münir, İbn Qasimü'l-Həməvi və Üsamə ibn Munkız şeirlər və mədhiyyələrlə atabəy haqqında dastanlar yazıb, onu "Türkün böyük xaqanı Alpər Tonqa"ya (Əfrasiyab) oxşatdılar.

Lakin bu hadisədən qısa müddət sonra atabəy Zəngi 14-15 sentyabr 1146-cı ildə gecə yatağında öz xidmətçisi tərəfindən öldürüldü. Sui-qəsdin başında *firəng* (xristian olub, müsəlmanlığı qəbul etmiş) Yaruquş adlı biri dayanırdı. O, Zənginin öldürülməsindən sonra Dəməşqə qaçmış, ancaq Şam atabəyi Abak tərəfindən həbs edilərək Zənginin oğlu Nurəddinə təslim edilmişdir. Nurəddin Mahmud da onu Mosulda edam etdirdi. Mosul atabəyliyinin əsasını qoyan atabəy Zəngi mənbələrdə adil, mərhəmətli və tədbirli hökmdar kimi təsvir edilir. Qəhrəmanlıqları səbəbindən türklər onu "Alp, Qazi, İnanc Qutluq, Toğrul Təkin və Ağ Arslan" adları ilə çağırırdılar. Atabəyin nəşi Rakkada, Siffin müharibəsi şəhidlərinin yatdığı qəbiristanlıqda dəfn edildi. Öldüyü vaxt atabəylik taxtına namizəd dörd oğlu vardı: Seyfəddin Qazi, Nurəddin Mahmud, Qütbəddin Məvdud və Nəsirəddin Əmir Əmirxan. Zənginin Cabər qalası yaxınlığında öldürüldüyü vaxt vəzir Cəmaləddin Məhəmməd atabəyin oğlu Nurəddin Mahmudun Hələbə gedib, oranın hakimi olmasını istəmişdi. Cabər mühasirəsində iştirak edən əmirlərdən Əmir Səlahəddin Yağıbasan və Əsədüddin Şirkuh da Nurəddinə qoşulub, Hələbə



getdilər. Vəzir daha sonra Zənginin böyük oğlu Seyfəddinə xəbər göndərib, Şəhrizordan təcili Mosula gəlməsini istədi. Bu Zəngilərin Hələb və Mosul olaraq iki qola ayrılmasına səbəb oldu. Mosulda atabəy Seyfəddin Qazi, Hələbdə isə qardaşı Nurəddin Mahmud hökm sürməyə başladılar.

Seyfəddin Qazinin hakimiyyəti qısa sürdü. 1149-cu ilin noyabr ayında 43 yaşında vəfat edən atabəyin yerinə qardaşı Qütbəddin Məvdud çıxdı. Onun dövrünün ən böyük hadisəsi Urfanın ələ keçirilməsindən sonra meydana gələn üçüncü səlib müharibəsi idi.

Urfanın atabəy Zəngi tərəfindən ələ keçirilməsi və buradaki səlib krallığının ortadan qaldırılması Avropada böyük səs-küyə səbəb olmuşdu. Roma papası III Eugen *(1145-1153)* yeni bir səlib ordusu hazırlanması üçün Frank kralı VII Lui və Avropa cəngavərlərinə məktublar göndərdi. Avstriya kralı III Konrad da papanın çağırışına qoşuldu. Frank və almanlardan mütəşəkkil yeni səlib ordusu Bizans torpaqlarına daxil oldular. Anadoluya ilk gələn alman orduları oldular. Onlar Türkiyə Səlcuqlu torpaqlarına daxil olan kimi türklərin zərbələri qarşısında aciz vəziyyətə düşdülər. Almanların başına gələn fəlakətləri görən franklar isə bir başa Antakyaya hərəkət etdilər. Ancaq Antakyaya gedən gəmilərin azlığı səbəbilə səlibçilərin bir hissəsi Anadoluda başıboş qaldılar. Uzun və məşəqqətli səyahətdən sonra səlibçilər Qüdsdə birləşib, Şam üzərinə hərəkətə keçdilər. Səlibçilərin Şama hərəkət etdiyini eşidən Zəngi hakimi Nurəddin Mahmud və qardaşı atabəy Seyfəddin Qazinin qoşunları şəhər qapısında toplaşdılar. Şam qapısında Tuğtəkin atabəyi Abak və vəziri Ünər, Zəngi atabəyi Seyfəddin Qazi və Hələb hakimi Nurəddin Mahmud səlibçilərlə üz-üzə gəldilər. Zəngilər Şam hakimlərindən məğlub olacaqları təqdirdə şəhərə rahat girmələri üçün Şamın idarəsinin onlara verilməsini istədilər. Tuğtəkinlər bu təklifə xeyr dedilərsə də, müsbət cavab da vermədilər. Buna görə də vəzir Ünər səlibçilərlə gizlicə razılaşdı. Ünər,

səlib orduları komandanlarına bol miqdarda rüşvət verdi. Belə olan təqdirdə səlibçilər ordugahlarını şəhərin elə yerində qurdular ki, oradan Şamı almaq qeyri-mümkündü. Bu vəziyyətdə imperator III Konrad Şamın mühasirəsinin mənasız olduğunu görüb, ordusunu geri çəkdi. Səlibçilərin geri çəkildiyini görən vəzir Ünər bu dəfə Nurəddin Mahmudla razılaşıb, səlibçilərə qarşı hərəkətə keçdi. Onlar səlibçilərin əlindəki Arima qalasını alıb, qalada olan hər şeyi yağmaladıqdan sonra qalanı dağıtdılar.

Mosul atabəyliyinin banisi İmadəddin Zənginin vəfatından sonra Suriya torpaqlarına digər oğlu Nurəddin Mahmud hakim oldu. Zəngilərin Fərat çayının şərqində qalan hissəsi Seyfəddin Qazinin, qərbindəki hissəsi isə Nurəddinin əlində idi.

Nurəddin atasının səlibçilərə qarşı apardığı mübarizəni davam etdirməyə başladı. 29 iyun 1149-cu ildə İnnib qalasının qapıları qarşısında səlib orduları komandanı və Antakya kralı Raimondu ağır bir məğlubiyyətə uğradan Nurəddin döyüşdə kralın ölümünə səbəb oldu. Bu qələbədən sonra səlibçilərə nəfəs aldırmayan Nurəddin təcili Antakya səlib krallığının mərkəzini mühasirəyə aldı. Mühasirənin uzun sürməsi səbəbindən Nurəddin səlibçilərin əlindəki Famiyə qalasına hücum etdi. Qala qapılarına yaxınlaşan Nurəddini görən mühafizəçilər canlarını bağışlaması şərti ilə qalanı ona təslim edəcəklərini xəbər verdilər. Onların bu şərtini qəbul edən Nurəddin 26 iyul 1149-cu ildə Famiyəni ələ keçirdi. Eyni tarixdə Nurəddinə bağlı bir türkmən dəstəsi Urfa krallığının keçmiş kralı II Yoselini məğlub edib əsir aldı. Nurəddin də II Yoselinin oğlunun nəzarətindəki əl-Azaz qalasını mühasirəyə aldı. Qala Zəngi qüvvələrinin hücumu qarşısında çox dayana bilməyib təslim oldu. Nurəddin bundan sonra təntənəli şəkildə Hələbə döndü.

Nurəddin Zəngi Suriyanın tamamını nəzarət altına alıb, burada səlibçilərə qarşı vahid bir cəbhə qurmaq istəyirdi.



Bu məqsədlə Şamı mühasirəyə alan Nurəddin 25 aprel 1154-cü ildə şəhər bürclərindən birinin uçması nəticəsində şəhərə daxil oldu. Lakin bütün cəhdlərə baxmayaraq, Nurəddinin ordusu iç qalanı ala bilmədi. Atabəy Abaka bir elçi göndərən Nurəddin həyatının və malının bağışlanması şərtilə təslim olmasını tələb etdi. Nurəddinin təklifini qəbul edən atabəy Abak buradan Bağdada getdi və 1169-cu ilə qədər də orada yaşadı. Şam Tuğtəkin atabəyliyindən Zəngi atabəyliyinin əlinə keçdi.

Dəməşqin Nurəddinin əlinə keçməsi səlibçiləri qorxutdu. Nurəddin Suriyanın tamamına sahib olmaqla səlibçilərə qarşı bütün gücləri öz ətrafında birləşdirmiş oldu. Qüds kralı III Baoudouin Nurəddinə elçi göndərib, sülh təklif etdi. Təklifi qəbul edən Nurəddin Harimin bir hissəsini də 1156-cı ildə səlibçilərdən xilas etdi. Lakin 1157-ci ilin fevral ayında kral Baoudouinə aid dəstələrin Banyas ətrafındakı türkmənlərə hücum edib, onların bir hissəsini öldürməsi, mal-qaralarına əl qoyub, qalanlarını da əsir alması sülhün pozulmasına səbəb oldu. Nurəddin Şam əmiri Əsədüddin Şirkuh və qardaşı Nəsirəddin birləşib, Şam yaxınlığında səlibçilərə hücum edərək onları ağır məğlubiyyətə uğratdı. Alınan əsirlər Hələbə gətirildi və Banyasda qətl edilən türkmənlərə qarşılıq qılıncdan keçirildilər.

Bundan sonra Nurəddin Mahmud Banyasa hücum etsə də, şəhərin iç qalasını ələ keçirə bilmədi. Geri çəkilən Nurəddin şəhərdən çıxarkən qalanı yıxdırdı. Nurəddindən sonra Banyasa gələn III Baoudouin qalanı bərpa etdirib, Təbəriyyəyə yola çıxdı. Bu vaxt Qüds səlib ordularına hücum edən Nurəddin 1157-ci ilin iyun ayında onları da darmadağın etdi. Ancaq qalibiyyətdən dərhal sonra Nurəddin xəstələndi. Ordusu arasında onun öldüyü haqqında şayiələr yayılmağa başladı. Bunu fürsət bilən səlibçilər Zəngilərin əlindəki torpaqlara hücum etməyə başladılar.

1164-cü ildə Nurəddin yenidən səlibçilər üzərinə hücuma keçdi. Harim yaxınlığındakı döyüşdə Antakya

prenkepsi Bohemund, Trablus (Tripoli) kontu Raymond və Hyuq de Lasiqnen rəhbərliyindəki səlibçilər bir daha məğlubiyyətə düçar oldular. Döyüşdə səlib ordu başçılarının hamısı əsir götürüldü. Qalibiyyət sonrası Harim qalası türklərin əlinə keçdi. Səlibçilərin toplanmasına fürsət vermək istəməyən Nurəddin arxa-arxaya Arka, Arima, Safisanı; oktyabr-noyabr aylarında isə Banyas və Xunini ələ keçirdi. Beləcə, səlib ordusunu Qüds-Fələstinə sıxışdırdı.

Nurəddin Mahmud bütün Suriyanı və Harranın bütün cənub hissəsini Zəngi torpaqlarına qatdı. Nurəddin Mahmud Mosuldakı Zəngi atabəyliyindən müstəqil hərəkət edirdi. Mosul Zəngi atabəyliyi taxtına 1149-cu ildə Seyfəddin Qazinin ölümündən sonra qardaşı Qütbəddin Məvdud oturmuşdu. Məvdud taxta çıxdığı dövrdə Nurəddinin Sincarı ələ keçirməsi Mosul ilə Hələb Zəngiləri arasında münasibətlərin pozulmasına səbəb oldu. Nurəddinin Sincar müqabilində Xums və Rahbəni Məvduda verməsi onların arasının düzəlməsinə şərait yaratdı. Qütbəddin Məvdud 6 sentyabr 1170-ci ildə vəfat etdi. Öldükdə o, 40 yaşında idi. Yerinə oğlu II Seyfəddin Qazi *(1170-1186)* keçdi. Ancaq Zəngilər atabəyliyinin həqiqi hakimi Nurəddin Mahmud idi. Çünki Mahmud atabəylik üzərindəki bütün idarəni öz nəzarəti altına almışdı. 26 fevral 1170-ci ildə Mosulu ələ keçirən Nurəddin Mahmud qardaşı oğlu Seyfəddinin atabəyliyinə dəymədi və onu öz əliylə Mosul atabəyliyi taxtına oturtdu. Sadəddin Gümüştigini Mosulun *dizdarı* təyin edən Nurəddin atabəylik ərazisində yığılan, başda *makus* olmaqla bir çox vergini ləğv etdi. Beləcə, Zəngilərin mütləq hakimi halına gələn Nurəddin Mosul atabəyliyini Sincar və Mosul olaraq iki qardaş arasında iki yerə ayırdı, Mosula aid Nusaybin, Habur və əl-Məcdəl ərazilərini də öz ərazisinə daxil etdi. Yenə Nurəddinin əmri ilə Mosulda bir məscidin inşasına başlanıldı.

Nurəddin Mahmud zamanında *(1146-1174)* Zəngilər atabəyliyi Azərbaycan atabəyliyindən sonra Səlcuqlu



dünyasının ən böyük və ən güclü atabəyliyinə çevrildi. Onun torpaqları qərbdə Azərbaycandan şərqdə Qüds və Antakya səlib krallıqlarının torpaqlarına qədər uzanır, bütün əl-Cəzirəni, Suriyanı, Fələstinin bir hissəsini və indiki Türkiyənin cənub-şərq hissəsini özündə birləşdirirdi.

Nurəddinin ən mühüm siyasəti Səlahəddin Əyyubi vasitəsilə Misiri ələ keçirmək planı idi. 1163-cü ildə Misir Fatımilər dövlətinin vəziri Şavər hakimiyyətdən uzaqlaşdırılınca, Şama gəlib Nurəddin Mahmuddan kömək istədi. Bu, Nurəddinə istədiyi fürsəti verdi. Nurəddin Mahmud 15 aprel 1164-cü ildə Şirkuh əmrində böyük bir ordunu Misirə göndərdi. Şirkuh vəzir Dırqam komandanlığındakı Fatımi ordularını məğlub edərək, Qahirəni aldı. Şavər vəzirliyi yenidən ələ keçirdi. Ancaq vəzir Şavər Nurəddinlə müqaviləyə əməl etməyib, Şirkuhun geri dönməsini istədi. Şirkuh onun bu istəyinə qarşı çıxınca, bu dəfə Şavər səlibçilərdən kömək istədi. Səlibçilərlə Şirkuh arasında müharibədən bir nəticə alınmadı. Bundan sonra Şirkuh Şama qayıtdı. Bu, Nurəddinin Misiri ələ keçirmək üçün ilk cəhdi idi. Şirkuhun geri qayıtmasından sonra vəzir Şavər ölkəni idarə edə bilmədi. 1166-cı ildə Misir əhalisi Şavərə üsyan edib, Nurəddindən kömək istədilər. Nurəddin 2000 nəfərlik bir ordu ilə 9 yanvar 1167-ci ildə Şirkuhu Misirə göndərdi. Şirkuhun əmrindəki orduların başında qardaşı oğlu Səlahəddin Əyyubi dayanırdı. Şirkuh ilə Səlahəddinin Misirə gəldiyini eşidən Fatımi vəziri Şavər Qüds səlib kralı Amoridən kömək istədi. 6 aprel 1168-ci ildə əl-Babeyn müharibəsində səlib ordusu darmadağın edildi. Qahirəyə qaçan vəzir Şavər və kral Amori topladıqları yeni dəstələrlə İskəndəriyyəni ələ keçirən Səlahəddin Əyyubini 3 ay mühasirədə saxladılar. Səlahəddin Əyyubinin əmisi Şirkuhdan kömək istəməsi ilə tərəflər arasında sülh bağlandı. Buna görə, Şirkuhla Amori öz ölkələrinə dönərkən, Şavər Misir hakimi oldu. Ancaq vəzir Şavər ölkəni idarə etməkdə böyük çətinliklərlə qarşılaşdı. Əmirlərin ona

qarşı sui-qəsd planı müvəffəqiyyətsiz olunca, sui-qəsdçilərin Qüds krallığından kömək istəməsinə görə bu dəfə vəzir Şavər Nurəddindən dəstək istədi. Amorinin Qahirəni mühasirəyə almasına görə Fatımi xəlifəsi əl-Adid Nurəddinə müraciət etdi. Nurəddin 17 dekabr 1168-ci ildə 7 min nəfərlik türk ordusunu Şirkuh liderliyində yenidən Misirə göndərdi. 8 yanvar 1169-cu ildə Şirkuh Qahirəyə girdi və ölkənin idarəsini ələ aldı. 18 yanvar tarixində vəzir Şavər edam edildi və Misirin vəzirliyi Şirkuha verildi. Ancaq Şirkuhun 23 mart 1169-cu ildə ölməsindən sonra onun səlahiyyətlərini Səlahəddin Əyyubi ələ keçirib, Misiri Nurəddinin adından idarə etməyə başladı. 26 mart 1169-cu ildə isə Fatımi xəlifə əl-Adid tərəfindən Səlahəddin Əyyubi vəzir təyin edildi. Beləcə, Misir Zəngilərin əlinə keçdi.

Misiri ələ keçirdikdən sonra Nurəddin Qüds xaçlı krallığına son vermək üçün hazırlıqlara başladı. Ancaq 10 may 1174-cü ildə boğaz iltihabından öldü. Onu Şamda özü tərəfindən tikdirilən mədrəsədə dəfn etdilər. Nurəddin Mahmud haqqında İbn əl-Əsir belə yazır: *"Mən daha əvvəlki hökmdarların da əxlaq və həyat tərzini araşdırıb öyrəndim. Dörd xəlifə və Ömər ibn Əbdüləzizdən başqa ondan (Nurəddin Mahmuddan) daha gözəl əxlaqlı, ədalət üçün ondan daha çox araşdırıb-öyrənən başqa birini görmədim"*.

Nurəddin Mahmudun ölməsindən sonra Azərbaycandan Sudana qədər uzanan geniş bölgəyə hakim olan Zəngi atabəyliyi torpaqlarında siyasi parçalanmalar başladı. Nurəddin özünün yerinə oğlu İsmayılın taxta keçməsini istəmişdi. Bu vaxt İsmayılın 11 yaşı vardı. Nurəddinin ölümündən sonra Mosuldan qaçıb Şama gələn Sadəddin Gümüştigin, Hələb valisi Şəmsəddin İbnüd-Dayənin xəstəliyindən istifadə edərək İsmayılı Hələb taxtına çıxarıb, dövlət idarəsini ələ keçirdi. Gümüştigindən narazı olan şamlılar Mosul atabəyi II Seyfəddin Qazini ölkəyə dəvət etdilər. Ancaq Seyfəddin Qazi bunun bir hiylə olduğunu düşünüb, dəvəti geri çevirdi. Şam əhalisi bu dəfə Misir



hakimi Səlahəddin Əyyubini dəvət etdi. Səlahəddin Əyyubi yanındakı az sayda əsgərlə Bəsrə qalasından Dəməşqə gəldi və şəhəri ələ keçirdi.

Səlahəddin Əyyubi Şama sahib olduqdan sonra Xums ilə Xamanın zəbtinə başladı. Beləcə, Səlahəddin qısa müddət ərzində Şam, Xums, Xama və Balbəki ələ keçirib, Misirdə yeni bir türk dövlətinin əsasını qoydu. Bundan sonra Zəngilər sürətlə zəifləməyə başladılar və Zəngi torpaqları Əyyubilərin nəzarəti altına keçdi.

Nəticədə 1233-cü ildə Mosulda Zəngilər atabəyliyinin varlığı sona çatdı. Mosulun idarəsini ələ keçirən Bədrəddin Lulu Əyyubilərin hakimiyyətini qəbul etdiyindən, 1233-cü il Zəngilərin süqut tarixi olaraq qəbul edilir. Beləcə, Zəngilər bir əsrdən artıq hökm sürmüş, Nurəddin Mahmud dövründə ərazisinin genişliyinə görə ən böyük atabəylik hesab edilsə də, siyasi cəhətdən Azərbaycan atabəyliyindən sonra da ikinci sırada yer almışdır.

Mosul atabəyliyinin dövlət təşkilatı Səlcuqlu dövlət təşkilatının bir surəti idi. Ölkəni yanında olan Səlcuqlu məliki adından idarə edən atabəy, həm Böyük Səlcuqlu, həm də İraq Səlcuqlu dövlətinə tabe hesab edilirdi. Mosul atabəyləri sultan və məliklərin adını qeyd etmək şərtilə öz adlarına da sikkə zərb etmək haqqına sahibdilər. Yəni Mosul atabəyləri təhsil və tərbiyəsi ilə məşğul olmaqla vəzifəli olduqları Səlcuqlu şəhzadə və məlikləri adına gündə üç vaxt növbət çaldıra bilirdilər.

Mosul atabəyliyində dövlət təşkilatının dörd növü vardı: saray, hökumət, ordu və istihbarat təşkilatları. Saray təşkilatının başında *naib* dururdu. Oğuzlar naiblərə türkcə "*inal*" adı verirdilər. Naibdən sonra sarayda ikinci ən böyük vəzifə *hacib* hesab edilirdi. Haciblərin sayı birdən çox olduqda onlardan biri *hacibü'l-hüccab* (baş hacib) seçilirdi. Hacibin vəzifəsi atabəylə vəzir arasındakı əlaqəni təmin etmək və ölkə haqqında atabəyə davamlı məlumat verməkdi. Hacibdən sonra *ustad-üd-dar* deyilən, saray

işlərinin idarəsindən məsul vəzifə gəlirdi. Bunun xaricində başqa atabəylərin saray təşkilatında yer alan *candar*, *silahdar*, ələmdar kimi vəzifələr də saraydakı xüsusi əsgəri birliyin işləri ilə əlaqədar olub, sarayın mühafizəsindən məsul idilər. Sarayın təmizlik işləri ilə *xadim*, *vuşak*, *fərraş* (süpürgəçi) adı verilən xidmətkarlar məşğul idilər.

Mosul atabəyliyinin hökumət təşkilatına *divan* adı verilirdi. Bu divan bir atabəylik divanı olduğundan *divani-atabəgi* adını almışdı. Divanın başında *sahibi-divan* hesab edilən baş vəzir dayanırdı. Mosul atabəyliyinin ən böyük vəziri Cəmaləddin Məhəmməd olmuşdur. Atabəyliyin katibliyi və xarici siyasətinə *divanü'r-rəsail*, maliyə işlərinə *divani-işraf*, ordu xərclərinə isə *divani-ceyş* baxırdı.

Mosul atabəyləri elm və irfana, mədəniyyətə, alimlərə böyük hörmət etmiş və bu sahədə çox işlər görmüşdülər. Zəngilərin Hələb hakimi Nurəddin Mahmudun tikdirdiyi mədrəsələr arasında ən-Nuriyətül-Kübra, Darül-Hədis ən-Nuriyə, əl-İmadiyyə, əl-Kilasə, ən-Nuriyətüs-Suqra, əl-Əsruniyyə çox məşhurdur. Atabəy Seyfəddin Qazi əl-Mədrəsətül-Atabəgiyyə əl-Ətikanı, atabəy İzzəddin Məsud əl-Mədrəsətül-İzziyyəni, I Arslanşah əl-Mədrəsətün-Nuriyyəni, II İzzəddin Məsud isə əl-Qahiriyyə mədrəsələrini inşa etdirmişdi. Mənbələr Mosul atabəyliyi ərazisində 28 mədrəsə, 180 darül-hədisin inşa edildiyini yazır.

Zəngi şəhərləri xeyli inkişaf etmiş və şəhərlərdə çoxlu emalatxanalar açılmışdı. Onlar arasında şüşə, dəmir və *madbaga* deyilən dəriçilik emalatxanaları bütün şərq və qərb bölgələrinə mal ixrac edirdi. Bütün bunlar Zəngilərin sahib olduqları ölkələrin həyatında mədəni, maddi, elmi, ticari və sosial baxımdan böyük rol oynadığını göstərir. Zəngilərin dünya tarixindəki başlıca rolu səlib müharibələrinin istiqamətini dəyişdirməsi, səlib ordularının zəiflədilməsi, Suriya və Anadoluda səlibçilərin hərəkətini məhdudlaşdırmaları oldu.





## 8.4. XARƏZMŞAHLAR

*Xarəzm* indiki Türkmənistanın Könə Ürgənç (Gürgənc) bölgəsində yerləşirdi. Aral gölünün cənubunda Amudərya çayının hər iki tərəfini əhatə edən ərazi miladdan əvvəlki illərdən bəri bu adı daşıyıb. VI əsrdə burada ilk *xarəzmşah titullu* xanədan ortaya çıxdı. Həmin xanədan 995-ci ilə qədər hökm sürən *Afriqilər* idi. Onları 995-1017-ci illər arasında Məmunilər, onların ardından da türk əsilli Altuntaş ilə başlayan Qəznəli valilər əvəz etdilər. 1092-1220/31-ci illər arasında isə Anuştiginlər xanədanı Xarəzmdə hökm sürməyə başladı. Xarəzm sadəcə türk siyasi kimliyinin bir parçası deyil, eyni zamanda türk mədəniyyətinin və ədəbiyyatının da mərkəzi olmuşdur. Xarəzmcə ümumi türk dili içində Qaraxanlıcanın davamı olan bir ləhcə olub, bu dildə qiymətli əsərlər yazılmışdır (*Mukaddimetü'l-ədəb*, *Tibyanü'l-lüğati't-Türki ala lisani'l-Qanqlı* kimi).

Müsəlman müəllifləri Anuştigin adlı şəxsin bir qul olduğunu yazırlar. Rəşidəddin, onun oğuzların *bəydilli* boyuna




*Xarəzmşahlar dövlətinin ərazisi*

mənsub olduğunu qeyd edir. Sülalənin banisi Anuş Tigin Səlcuqlu sarayında yaşamış, xidmətlərinə görə sarayda yüksək dərəcələr almışdır. Onun oğlu Qütbəddin Məhəmməd *1097-1128-ci illər* arasında Səlcuqlu dövlətinin əmiri sifətilə Xarəzmi idarə etmişdir. Qütbəddinin ölümündən sonra Sultan Səncər tərəfindən onun yerinə Atsız təyin edildi.

Atsız *(1128-1156)* hakimiyyətinin ilk dövrlərində atası kimi Sultan Səncərə sədaqətlə xidmət etdi. Ancaq 9 sentyabr 1141-ci ildə Sultan Səncərin Qatvan meydan müharibəsində *qarakitaylara* məğlub olub Tirmizə qaçması, Atsızın sərbəst siyasi fəaliyyətə başlamasına şərait yaratdı. Səncərin məğlubiyyət xəbərini eşidən Atsız Xorasanı ələ keçirməyə başladı. Böyük Səlcuqlu dövlətinin paytaxtı Mərvi mühasirəyə aldı və 5 oktyabr 1141-ci ildə şəhəri ələ keçirdi. Beləliklə, Atsız Orta Asiyada yeni bir türk dövlətinin təməllərini atdı. Mənbələr Xarəzmşahlar dövlətinin yaranmasını Atsızın və ondan sonra hakimiyyətə gələn oğlu İl-Arslanın adı ilə bağlayırlar.



1153-cü ildə Bəlxdə oğuz üsyanı, Səncərin əsir düşməsi və 1157-ci ildə vəfatından sonra yaranan siyasi vəziyyətdən istifadə edən Xarəzmşahlar sürətlə genişlənməyə başladılar. Bu vaxt Xorasandakı Böyük Səlcuqlu dövlətinin torpaqları uğrunda Azərbaycan atabəyliyi ilə Xarəzmşahlar arasında mübarizə başladı. Atabəy Eldəniz və İl-Arslan 1167-ci ildə Bistam yaxınlığında qarşı-qarşıya gəldilər, lakin tərəflər arasında vuruşmadan bir nəticə hasil olmadı.

Xarəzmşahların əsas siyasi rəqibi Qaraxanlı torpaqlarını ələ keçirən Qarakitay dövləti idi. İl-Arslan dövründə bu dövlətlər iki dəfə üz-üzə gəldilər. Birinci dəfə Soğd çayı kənarında 1158-ci ilin iyun ayında qarşılaşan qüvvələr döyüşsüz geri çəkildilər. Buna səbəb Qarakitay ordusunun İl-Arslanın birliklərindən qorxması və Səmərqənd din adamlarının vasitəsilə sülh təklifi idi. İkinci hadisə Qarakitay ordusunun Xarəzmə hücumu ilə əlaqədardır. Bu hücum ərəfəsində İl-Arslan Gürgəncdə xəstələnib, 19 mart 1172-ci ildə vəfat etdi. Bu səbəbdən Qarakitay hücumlarının qarşısını kəsmək mümkün olmadı.



*İl-Arslanın əksi olan miniatür.*
*Fəzlullah Rəşidəddin – "Came ət-təvarix"*

İl-Arlan öldükdə taxta oğlu Təkiş keçdi. O, taxt uğrunda mübarizədə qardaşı Sultanşahı zərərsizləşdirib, xarəzmşah oldu. 1187-ci ildə Xorasanın böyük bir hissəsini ələ keçirən Təkiş, Azərbaycan atabəyi Qızıl Arslanın 1191-ci ildə öldürülməsi ilə İraq Səlcuqlu taxtında meydana gələn hakimiyyət mübarizəsindən istifadə edərək, qərb istiqamətində səfər hazırlıqlarına başladı.

Rey yaxınlığında müharibədə Xarəzmşahlar ordusuna məğlub olan İraq Səlcuqlu dövlətinin sonuncu sultanı III Toğrul öldürüldü və İraq Səlcuqlu dövləti süqut etdi. Bu tarixdən sonra Təkiş sikkələrdə "sultan" titulu işlətməyə başladı. Təkiş 1196-cı ildə yenidən İraqi-Əcəmə hərbi səfərə çıxdı. Xəlifə güclərini məğlub edən Təkiş, İraqi-Əcəmin idarəsini Azərbaycan atabəyi Özbək və nəvəsi Ərbuza verdi. Bu sırada oğlu Məlikşah Nişapurda ölüncə burada çıxan iğtişaşlara görə Təkiş Xorasana dönmək məcburiyyətində qaldı. Xarəzmşaha qarşı üsyanın liderlərindən olan Mayacıq Xorasan xalqına çox zülm edirdi. Təkiş 1198-ci ildə Xorasanda iğtişaşları yatırdı və Mayacığı öldürdü.



*Əlaəddin Təkiş məqbərəsi. Türkmənistan.*



Xəlifə Nasirəddin Lillahın Təkişi bütün "İslam Şərqinin hökmdarı" olaraq tanımasıyla xarəzmşahlar İslam dünyasının rəqibsiz gücünə çevrildilər. Təkiş zamanında Xarəzmşahlar dövlətinin sərhədləri cənubda Xorasandan Kirmana, şimalda Manqışlağa, şərqdə Qarakitaylar ölkəsinə, qərbdə isə Bağdad xəlifəliyinə qədər uzanırdı. Xarəzmşahlar Böyük Səlcuqlu dövlətindən sonra ərazisinin böyüklüyünə görə müsəlman-türk dünyasında ortaya çıxmış ən böyük dövlətdir.

Sultan Əlaəddin Təkiş Xorasandakı üsyanları və iğtişaşları yatırdıqdan sonra Xarəzmə döndü və 1200-cü ildə burada öldü.

Turşiz qalasının mühasirəsi ilə məşğul olduğu sırada Qütbəddin Məhəmməd atasının ölüm ayağında olduğunu öyrənən kimi 100 min dinar müqabilində mühasirəyə son verib, yubanmadan Xarəzmə gəldi. O, Xarəzmə gələndən sonra atasından qalan taxtda oturdu. Qütbəddin Məhəmməd taxta keçdiyi gün "əlaəddin" ləqəbini aldı və Sultan Əlaəddin Məhəmməd Xarəzmşah olaraq tanınmağa başladı.

Böyük qardaşı Məlikşahın 1197-ci ildə ölməsiylə Əlaəddin Məhəmməd atası tərəfindən vəliəhd elan edilmişdi. Buna görə də hakimiyyətə gəldiyi vaxt heç bir taxt problemi ilə qarşılaşmadı. Əlaəddin Məhəmmədin hakimiyyəti *(1200-1220)* iki dövrə ayrılır: birinci dövr, Xarəzmşahlar dövlətinin qüdrətinin zirvəsinə çatdığı *1200-1214-cü illəri*; ikinci dövr, moğollar qarşısında məğlub olub, dövlətin yıxıldığı *1214-1220-ci illər*i əhatə edir.

Əlaəddin Məhəmməd hakimiyyətinin əvvəllərində Qurlu dövlətiylə mübarizə aparmaq məcburiyyətində qaldı. Qurlar Əfqanıstanın Qur ərazisində ortaya çıxan mələz bir kimlikdi (xələc-oğuz və irani xalqların qarışmasından əmələ gəliblər). 1187-ci ildə Qəznəvilər dövlətinə son verən qurlar Əfqanıstan və Şimalı Hindistan ərazisini ələ keçirib, güclü bir dövlət yaratdılar. Qiyasəddin Canahsuz

(Dünyanı yandıran) bu dövlətin ən güclü hökmdarı olub, Xarəzmşahlar dövlətinin ən böyük düşməninə çevrildi.

Qurlu dövləti ilə Xarəzmşahlar arasında əsas mübahisə məsələsi Xorasan idi. Qurlu dövləti Xorasanı Xarəzmşahların əlindən almaq istəyirdilər. Əlaəddin Məhəmmədin qardaşı oğlu Hindu Xan ibn Məlikşah atasının ölümündən sonra Mərv və Səraxsda özünü hökmdar elan edib, əmisinə qarşı qurlardan kömək istədi. Əlaəddin sürətlə Nişapura hərəkət etdi. Şəhərdəki Qurlu əsgərlərinə Nişapurdan geri çəkilmək imkanı tanıyan Əlaəddin bölgəyə sahib oldu. Qısa müddət sonra Mərv və Səraxsı zəbt etdi. Hindu Xan, Qurlu sultanı Qiyasəddinin yanına qaçdı. Xarəzmə geri qayıdan xarəzmşah Əlaəddin sonrakı il Herat üzərinə hərəkət etdi. Ancaq Qurlu əmiri Şihabəddinin hərəkətə keçdiyini xəbər alan kimi Mərv-Səraxs üzərindən Xarəzmə geri qayıtdı. Xorasanın bəzi vilayətlərini istəyən Qurlu elçilərinin rədd cavabı alması Şihabəddinin Tusa hücum etməsinə səbəb oldu. Qurlar Tusu ələ keçirib, xalqdan ağır vergilər tələb etdilər. Bu vaxt Qurlu hökmdarı Qiyasəddin vəfat etdi. Şihabəddin Qurlu hakimiyyətini ələ keçirmək məqsədilə geri qayıdan kimi xarəzmşah Əlaəddin Herata hücum edib, şəhəri zəbt etmək istədi, ancaq müvəffəq olmadıqda Badgisi qarət etdi. Mərvdəki Qurlu əsgərləri isə Xarəzmşahlar ordusu tərəfindən məğlub edildilər. 1204-cü ildə Əlaəddin Məhəmməd özü Mərvə gəldi. Çaparların Sultan Şihabəddinin böyük bir orduyla Xorasana girdiyini xəbər verməsi ilə təcili Xarəzmə çəkildi. Şihabəddinin ordusunun qarşısında tab gətirə bilməyəcəyini anlayan Əlaəddin Məhəmməd Qarakitay dövlətindən kömək istədi. Aldığı hərbi dəstəklə Ceyhun çayı sahilində Qurlu ordusunun qarşısında düşərgə saldı. Şihabəddinin ordusu çayı keçmək istəyəndə Qarakitay ordusu hücum xəbərini alıb, sürətlə geri çəkilmək istədi. Əlaəddin Məhəmməd onları təqib edərək qaçan qurların sağ qanadına çatıb, onları məğlubiyyətə uğratdı və külli miqdarda qənimət ələ



keçirdi. Xarəzmşah bu zəfərdən sonra Gürgəncə geri qayıtdı, ancaq qarakitaylar qurları təqib etməyə davam edib, Andxud yaxınlığında Şihabəddini mühasirəyə aldılar. Şiddətli mübarizə iki gün davam etdi. Böyük çətinliklərlə Andxud qalasına sığınan Şihabəddin Səmərqəndin Qaraxanlı hakimi Osmanın araya girməsi ilə təzminat verərək əsir düşməkdən xilas oldu və Qəznəyə salamat çatdı.

Xarəzmşah Əlaəddin Qurlu dövləti üzərindəki bu zəfəri Qarakitay və Qaraxanlı ordularının köməyi sayəsində əldə etmişdi. Buna görə Qarakitay dövləti bölgədə böyük bir nüfuz əldə etdi. Onların bu mövqeyi ilə razılaşmayan Əlaəddin, müharibədən sonra Qurlu dövlətinə elçilər göndərib, bu dəfə Qarakitay dövlətinə qarşı Şihabəddinə müttəfiqlik təklif etdi. Məğlubiyyətin əsas səbəbkarı olaraq Qarakitay dövlətini görən Şihabəddin xarəzmşahın bu təklifini qəbul etdi və hərbi əməliyyatlara hazırlaşmağa başladı. 1205-ci ildə Qurlu dövlətinə tabe olan Bəlx hakimi Tacəddin Zəngi Xarəzmşahlar torpağına hücum etsə də, bu hadisədə Qurlu hökmdarının heç bir təsiri yox idi. Buna görə də Şihabəddin Tacəddin Zəngini Bəlx valiliyi vəzifəsindən kənarlaşdırıb, yerinə İmadəddin Öməri təyin etdi. Eyni il Qurlu ordusu qarakitayların işğal etdiyi Qaraxanlı dövlətinə aid Tirmiz qalasını ələ keçirdilər. Bu hadisələr fonunda Sultan Şihabəddinin Hind səfəri yarımçıq qaldı. Şihabəddinin məqsədi Hind səfərindən əldə edəcəyi qənimətlərlə Qarakitay ordusu qarşısına tam təchiz olunmuş ordu ilə çıxmaq idi. Şihabəddin Hind səfərindən yarımçıq geri qayıdan kimi Qarakitay dövlətinə qarşı böyük bir hərbi yürüşə başladı. Lakin 1206-cı ildə hindli və ya *batıni* olduğu dəqiq bilinməyən bir nəfər tərəfindən öldürüldü. Şihabəddinin öldürülməsi Əfqanıstan və Şimali Hindistanda Qəznəvilər dövlətindən sonra yaranmış ən böyük müsəlman dövlətinin tənəzzülünə səbəb oldu. Qurlu hakimiyyəti uğrunda meydana gələn taxt davası onların siyasi səhnədən silinməsiylə yadda qaldı. Qurların başına keçən

Mahmud ibn Qiyasəddinin zəif iradəsi Herat hakimi Hüseyn Hərmilin xarəzmşaha qalanı təslim edəcəyi haqqında xəbər göndərməsinə səbəb oldu. Xorasana böyük bir ordu ilə hücum edən Əlaəddin Heratı ələ keçirdi. Daha sonra da Bəlxi ələ keçirən Əlaəddin Qaraxanlı dövlətinin Səmərqənd hakimi sayəsində Tirmizə də sahib oldu. Daha sonra özü Herata gələn Əlaəddin şəhəri Hüseyn Hərmilə verib, Firuzkuhda oturan Mahmud Qiyasəddinə elçi göndərərək, xütbə və sikkələr üzərində öz adının çəkilməsini istədi. 1207-ci ildə isə Xarəzmə qayıtdı.

Bundan sonra sürətlə qarakitayların üzərinə hərəkət edən Əlaəddin Məhəmməd 1211-ci ildə onları məğlub edib Buxaranı aldı. Xarəzmşah Əlaəddin Məhəmməd bu qələbələrdən sonra "İskəndər Sani" (II İskəndər) və *"Səncər"* ləqəbləri aldı. Böyük Səlcuqlu dövlətinin bütün şərq torpaqları xarəzmşahların əlinə keçdi. Qarakitay dövlətindəki vəziyyətdən istifadə edən xarəzmşah hücuma keçib, 1212-ci ildə Səmərqəndi də ələ keçirdi. 1215-ci ildə Sultan Əlaəddin Məhəmməd Qırğız çöllərində yaşayan qıpçaqlar üzərinə də bir səfər təşkil edib, Səlcuqların ata yurdu Sığnaqa sahib oldu. Daha sonra da İsficab, Şaş, Fərqanə və Kaşan uğrunda Qarakitay və qarluqlarla şiddətli müharibəyə başladı. Tam bu sırada Çingiz xan başçılığında moğollar ortaya çıxdılar.

Çingiz xanın zərbəsindən sonra Nayman qəbilələrinin rəisi Güclük Qarakitay xanının yanına qaçdı, orada Qarakitay xanı Gürxanın zəif iqtidarından istifadə edib, hakimiyyəti ələ keçirdi. Bu, Qarakitay ölkəsində Gürxan ilə Güclük arasında müharibələrə yol açdı. Tərəflərin Əlaəddin Məhəmməddən kömək istəməsi Xarəzm sultanının onları bir-birinə qırdırmaq siyasəti izləməsinə şərait yaratdı. 1211-ci ildə Gürxan ilə Güclük arasında müharibədə Gürxan əsir düşdü və Qarakitay ölkəsi naymanların əlinə keçdi. 1214-cü ildə Qarakitay dövləti tamamilə süqut etdi.



Beləliklə, Xarəzmşahlar bir-birinin arxasınca müsəlman Şərqin beş böyük dövlətinə son verdilər: 1194-cü ildə İraq Səlcuqlu dövləti, 1210-cu illərdə Mazandaran Bavəndilər dövləti, Əfqanıstan və Hindistanda Qurlu dövləti, 1212-ci ildə Məvaraünnəhrdə Qaraxanlı dövləti, 1214-cü ildə isə Qarakitay dövləti. Moğol istilası ərəfəsində Şərqin ən qüdrətli dövləti Xarəzmşahlar oldu. Onların torpaqları Şərqi Türküstandan Bağdada, Aral gölünün yuxarısında yerləşən Üst Yurddan Kirman və Oman dənizinə qədər uzanırdı. Səlcuqlu sultanı Səncərdən sonra bu qədər geniş ərazini idarə edən sultan olmaq haqqı Əlaəddin Məhəmmədə məxsusdu. Çingiz xan belə xarəzmşahları "Qərbin xanları" olaraq tanıyırdı. Ortaya çıxan görüntüyə baxmayaraq, Xarəzmşahlar dövlətinin daxili dayaqları sağlam deyildi. Xüsusilə də Əlaəddin Məhəmmədin qıpçaq əsilli anası Tərkən Xatunun dövlətdə böyük söz sahibi olması əmirlər arasında parçalanmalara səbəb olmuşdu.

Moğollarla Xarəzmşahlar arasında ilk böyük gərginlik Çini ələ keçirmək uğrunda başladı. Xarəzmşah Əlaəddin Məhəmməd Çini fəth etmək niyyətində idi. Ancaq 1218-ci ildə Çinin Çingiz xanın əlinə keçməsi xarəzmşahı həm narahat etdi, həm də qorxutdu. Xarəzmşah Moğol dövlətinə Seyyid Bəhaəddinin başçılığı ilə bir elçi heyəti göndərib, hadisənin doğruluğunu öyrənmək istədi. Elçilər Qaraqorumda (Ötükən) Çingiz xanı ziyarət edib, tərəflər arasında sərbəst ticarət və dostluq haqqında müqavilə bağlayaraq geri qayıtdılar.

Ancaq çoxu müsəlmanlardan ibarət olan 400 nəfərlik Moğol ticarət karvanının Otrarda qılıncdan keçirilməsi Çingizlə Əlaəddin arasındakı münasibətlərin qopmasına səbəb oldu. 1219-cu ilin yayını İrtış çayı sahillərində keçirən Çingiz xan bütün qüvvələrini buraya topladı. Mənbələr Çingiz xanın 150-200 minlik orduyla hərəkətə keçdiyini yazır. Onun iki qatı qədər orduya sahib xarəzmşah isə səhvə yol verib, ordusunu hissələrə bölərək şəhərlərə

yerləşdirdi. Sultanın özü Xorasana keçdi. 1220-ci ildə Çingiz xan Otrarı ələ keçirdi. Oradan oğlu Tuluy ilə birlikdə Buxaraya doğru irəlilədi.

Moğollar sırayla Sığnaq, Ur-kənd, Barçınlıq-kənd, Cənd, Bənakənd, Buxara, Səmərqənd, Mərv və Xarəzmşahlar dövlətinin paytaxtı Gürgənci ələ keçirdilər. Ələaddinin taktikası bütün ölkənin hissə-hissə moğolların əlinə keçməsinə yol açdı. Xarəzmşah Ələaddin Məhəmməd özü əvvəlcə Səmərqəndə, oradan Bəlxə, daha sonra da Nişapur, Təbəristan, Həmədan, Sərcahan, Gilan, Əspidar, Amul və Dabuyiyə qaçıb, moğollardan xilas olmağa çalışdı. Sonda Xəzər dənizində Abeskun adasına sığındı və oğlu Cəlaləddin Manqburnunu vəliəhd elan etdi. Xarəzmşah 1220-ci ilin dekabrında gizləndiyi adada cüzamdan öldü. Belə böyük bir hökmdarın Moğol hücumu qarşısında plansız-proqramsız hərəkət etməsi tarixçilikdə hələ də mübahisə mövzusudur. Onun ölümü Xarəzmşahlar dövlətinin qüdrətinin zirvəsində süqut etməsi mənasına gəlirdi.



*Ələaddin Məhəmməd Xarəzmşahın ölümü.*
*Fəzlullah Rəşidəddin – "Came ət-təvarix"*



Xarəzmşahlar türk tarixi və mədəniyyətində sənət, ədəbiyyat və incəsənətdə böyük rol oynayıblar. Onların dövründə türk musiqisi sistemləşdirildi. Bu sahədə Sultan Cəlaləddin Xarəzmşah zamanında Azərbaycanda yetişən Safiyyəddin Urməvinin *(ö.1293)* hazırladığı nəzəriyyə XX əsrə qədər təsirini qorudu. Onun Şərəfiyyə adlı kitabı 1247-ci ildə qələmə alınıb. Bu kitab türk musiqi tarixi baxımından olduqca qiymətli bir əsərdir. Safiyyəddin türk musiqisinin özünə məxsus üslub, metod və ahəng çalarlılığını müəyyən edib təsnif etmiş və muğamı sistemləşdirmişdi.

Xarəzmşahlar dövründə türk dili inkişafının zirvəsinə çatmışdı. İnkişaf səviyyəsinə, ədəbiyyat zənginliyinə görə Xarəzm türkcəsi Qaraxanlı türkcəsi ilə Cığatay türkcəsi arasında bir mərhələ təşkil edir. Bu ləhcədə yazılmış əsərlər arasında Rabquzinin *Qısasü'l-Ənbiya* (1310-cu ildə yazılıb), *Muinü'l-mürid* (1313-cü ildə yazılıb), Qütbün *Xosrov və* Şirin (1341/42), *Nəhcü'l-Fəradis* (1360) və Xarəzminin *Məhəbbətnamə* adlı 10 beytlik türkcə-farsca mənzuməsi günümüzə qədər gəlib. Bunlardan başqa, Azərbaycan ərazisində Cəlaləddinin istəyi ilə 1225-ci ildə yazılmış, ancaq hələ də tapılmamış *Lugati-Qanqlı* adlı bir əsərdən bəhs edilir.



# 8.5. ANADOLU TÜRK DÖVLƏTLƏRİ

Səlcuqlu mirasının davamçıları olaraq Anadoluda bir sıra türk dövlətləri ortaya çıxdı. Bu dövlətlərin qurucuları Səlcuqlu dövlətinin əmir və ordu komandanları olub, Bizansla apardıqları mübarizədə ələ keçirilən Anadolu ərazilərində məskunlaşaraq, çox sayda türk tayfasını bölgəyə cəlb edərək formalaşdılar. Bu dövlətlər müsəlman tarixçiliyində *qəza dövlətləri* adını alıblar.

Bu dövlətlər arasında əsasları Danişməndli, Məngücüklü, Saltuqlu, Artuqlu, Ərmənşahlar və ya Sökmənlilər, Dilmaçoğulları və İnaloğulları adını daşıyırdılar.

Anadolunun türkləşməsində və bir müsəlman-türk bölgəsi halına gəlməsində həmin dövlətlərin böyük rolu olmuşdur. Xorasan və Azərbaycan üzərindən hərəkət edən saysız türk-oğuz tayfaları bu əraziləri doldurub, Bizans istiqamətində axınlar aparmaqla, Səlcuqlu dünyasının da genişlənməsinə şərait yaratdılar.



## 8.5.1. Danişməndlilər

Danişməndli dövləti *1071-1178-ci illər* arasında indiki Türkiyənin Sivas, Malatya, Kayseri, Tokat və Amasya bölgələrində mövcud olmuşdur. "*Təvarixi-ali-Osman*" əsərinə görə, "*Mavəraünnəhrdən köç edən türkmənlər arasında danişməndi, ağqoyunlu, səlcuq gəlib Anadoluya yerləşdilər*". Danişməndlilərin oğuz, qaraxanlı və uyğur mənşəli olduğu haqda rəvayətlər mövcuddur. Dövlətin banisi *Danişmənd Qazi* idi. Mənbələrdə onun alim, bilikli bir ordu başçısı olduğu qeyd edilir.

Danişmənd Qazi Böyük Səlcuqlu sultanı Alparslanın Malazgird səfərində yer alıb. Malazgird meydan müharibəsində Bizans ordusu darmadağın olduqdan sonra türk əmirləri Anadolunu fəth etməyə başladılar. Onlardan Danişmənd Qazi Sivasa gəlib, bölgəni ələ keçirdi. Əmirlərindən Çavuldur, Tursun, Qara Doğan, Osmancıq, Eltəgin və Qara Təginin hücumlarıyla Amasya, Tokat, Niqsar, Kayseri, Zamantı, Dəvəli və Çorum Danişməndli dövlətinin nəzarəti altına keçdi.

Danişməndə "*qazi*" adını qazandıran səbəb onun səlibçilərlə apardığı müvəffəqiyyətli müharibələr idi. O, bu döyüşlərin birində Malatyanın Ağsu vadisində Antalya səlib krallığının hökmdarı Bohemundun ordusunu darmadağın edib, özünü əsir alaraq zəncirləyib Niqsar qalasına salmışdı *(1100)*. Onun qazandığı ad "Danişməndnamə" adlı dastanlara mövzu olmuşdur.

Danişmənd Qazi Sivasda *1104/5-ci il*də vəfat etdi. O, mənbələrdə ağıllı, müdrik və adil hökmdar kimi təqdim edilir. Ədalətli idarəsinə görə xristian əhali də onu sevir və hörmət edirdi. Öldükdə taxtına çıxacaq 12 övladı vardı. Yerinə böyük oğlu *Əmir Qazi* keçdi. Urfalı Mateos, Əmir Qazinin bütün qardaşlarını öldürərək taxtına oturduğunu yazır. Əmir Qazi öz qızını Türkiyə Səlcuqlu hökmdarı Qılınc Arslanın oğlu Məsuda ərə verərək, Konya taxtı

uğrunda gedən mübarizədə kürəkənini müdafiə etmiş və 1116-cı ildə Məsudun Türkiyə Səlcuqlu taxtına çıxmasına nail olmuşdur. Əmir Qazi atası kimi səlibçilərlə mübarizə aparmış və 1119-cu ildə Antakyaya səfər etmişdir. Həmin səfərdə Antakya kralı Rogeri ağır şəkildə məğlub edib, səlibçiləri qılıncdan keçirmişdir.

Əmir Qazi bir tərəfdən səlibçilərlə mübarizə aparmış, digər tərəfdən də Anadoludakı siyasi hadisələrə müdaxilə edərək, bölgənin ən nüfuzlu hökmdarı olduğunu isbat etmişdir. O, uzun mühasirədən sonra Malatyanı 1124-cü ildə yenidən Danişməndli ərazisinə daxil edib, Harput ətrafından *artuqluları* sıxışdırıb, Sakaryaya qədər Türkiyə Səlcuqlu ərazilərini öz nəzarəti altına keçirmişdi. 1129-cu ildə Ankara, Kastamonu, Çanqırı və Qara dəniz sahili xətti də onların əlinə keçdi. Atası Danişmənd Qazi Bohemundu əsir aldığı kimi, o da 21 avqust 1130-cu ildəki döyüşdə Bohemundun oğlu II Bohemundu məğlub edib əsir götürmüşdü.

Əmir Qazi *1133/34-cü il*də vəfat etdi. Taxta oğlu *Məhəmməd* oturdu. Məhəmməd hakimiyyətinin ilk illərində həm Bizans hücumlarının qarşısını almaq, həm də üsyan edən qardaşlarına öz hakimiyyətini qəbul etdirmək məcburiyyəti qarşısında qaldı. Babası və atası kimi səlibçilərlə müharibələr aparan Məhəmməd, Əlbistan üzərinə hücum edən səlib qoşunlarını darmadağın etmişdi. Bu qələbədən bir müddət sonra, 6 dekabr 1143-cü ildə Kayseridə vəfat etdi. Adil və xeyirxah bir hökmdar olan Məhəmməd dindarlığı ilə məşhurdu. Kayseridəki Ulu Cameni o tikdirmiş və camenin yanında Məlik Qazi mədrəsəsini inşa etdirmişdir. Məhəmməd, xəlifə və Sultan Səncər tərəfindən ona verilən "*məlik*" titulunu daşımışdır.

Məhəmmədin vəfatından sonra Danişmədli dövləti zəifləməyə başladı. Türkiyə Səlcuqlu sultanı Qılınc Arslanın 1178-ci ildə Malatyanı ələ keçirməsi ilə Danişməndli dövləti tarixə qarışdı. Danişməndlilərin son nümayəndələri Yağıbasanın üç oğlu Müzəffərəddin Mahmud, Zahirəddin



İli və Bədrəddin Yusif Türkiyə Səlcuqlu dövlətinin xidmətinə girdilər və I Qiyasəddin Keyxosrovun taxta çıxmasında mühüm rol oynadılar. Yüz ildən artıq hökm sürən Danişməndlilərin türk tarixindəki əhəmiyyəti Anadolunun türkləşməsində və İslamın bölgədə yayılmasında oynadığı müstəsna dərəcədəki rollarıdır.

## 8.5.2. Məngücüklülər

Anadoluda qurulan başqa bir türk dövləti Məngücüklü olub, əsasən Kəmax, Ərzincan, Divriği bölgəsində hökm sürmüşdür. Həmin bölgələrdə Məngücüklülərə aid çox sayda vəqfiyyə, külliyyə, kitabə mövcuddur. Günümüzdə də Kəmax bölgəsində xərabə şəklində bu xanədana aid çox sayda məqbərə var. Həmin məqbərələrdən biri Məngücüklü hökmdarı Məlik Qaziyə aiddir ki, Kəmaxın Qarasu çayı kənarındadır. Məqbərədə dörd tabut aşkarlanmışdır. Tabutlardakı meyitlərdən biri mumiyalanmışdır. Dövlətin adı *Məngücük Qazi*dən qaynaqlanır. Məngücük türkcə "*məngü – bəngü*" ilə "*cük/cek*" şəkilçisindən əmələ gəlib ki, mənası "əbədi, sonsuz" deməkdir.

Məngücüklülərin hansı oğuz boyuna mənsub olduqları dəqiq bilinmir. Bir fikrə görə, Məngücük Qazinin qayı, bayat, qaraevli və alkaevli boylarından birinə, ikinci iddiaya görə isə, salur və ya bayandur boyuna mənsubdur. Məngücüklülər Malazgird zəfərindən sonra Ərzincan, Kəmax, Divriği və Kögonyanı (Şəbin Qarahisar) fəth edərək, 1227-ci ilə qədər bölgədə hökm sürdülər.

Məngücük Qazi Malazgird səfərində yer alıb, Sultan Alparslanın əmri ilə Qarasu ilə Çaltı çayları arasındakı vadiləri ələ keçirmişdir. Eyni tarixlərdə Ərzincan, Kəmax, Divriği və Şəbin Qarahisarı fəth edən Məngücük Qazi burada öz dövlətini təsis etdi *(1071-ci il)*. Məngücük Qazi Kəmaxı özünə paytaxt seçmişdi. Məngücük Qazinin

Türkiyə Səlcuqlu sultanı Qılınc Arslan və Danişmənd Qazi ilə birlikdə gürcülərə, rumlara və abxazlara qarşı cihad etdiyi və "qazi" adını aldığı qeyd edilir.

Məngücük Qazi böyük ehtimalla 1118-ci ildən əvvəl ölüb. Çünkü 1118-ci ildə Məngücük Qazinin oğlu *İshaq* Ərzincan, Kəmax və Divriği hakimi idi. İshaq 25 il – 1143-cü ildə vəfat edənədək Məngücüklülərə başçılıq etdi. O öldükdə Danişməndli Məhəmməd Kəmaxı işğal etmiş, ancaq eyni ildə orada vəfat etmişdi. İshaqın iki oğlu vardı: Davud və Süleyman. Atalarının ölümündən sonra onlar dövləti öz aralarında iki yerə böldülər: Kəmax-Ərzincan Məngücüklülərinin başına *Davud ibn İshaq*, Divriği Məngücüklülərinin başına isə *Süleyman ibn İshaq* keçdi. Kəmax-Ərzincan qolunun ən güclü hökmdarı *Bəhramşah* hesab olunur. O, elmə və ədəbiyyata böyük qiymət verirdi. XII əsrin məşhur Səlcuqlu şairi Nizami Gəncəvi ilk əsəri *Məxzənü'l-əsrarı* (1178/79) ona ithaf etmişdir. Bu əsəri müqabilində Bəhramşah Nizamiyə 5000 dinar, beş at, beş qatır dolusu xələt göndərmişdir. O, 1225-ci ildə Ərzincanda vəfat etmişdir. İbn əl-Əsir, onun 60 il hökmdar olduğunu bildirir. Bəhramşaha aid ilk sikkənin tarixi 1167/68-ci ilə təsadüf edir. Onun vaxtında Məngücüklü dövlətinin paytaxtı Kəmaxdan Ərzincana köçürülüb. Bəhramşahın yerinə oğlu *Əlaəddin Davudşah* keçdi. O da atası kimi elm və irfan sahibi şəxslərə olduqca hörmətlə yanaşmış və onları qorumuşdur. Davudşahın hakimiyyətinin sonlarında Türkiyə Səlcuqlu hökmdarı Keyqubad Ərzincana hücum edərək Davudşahı əsir etmiş, daha sonra da Kəmaxa sahib olmuşdur. Bu hadisə 10 noyabr 1228-ci ildə Məngücüklülərin Ərzincan-Kəmaxdakı hakimiyyətinə son vermişdir.

Məngücüklülərin Divriği qolunun ilk hökmdarı İshaq ibn Məngücükün oğlu Süleyman idi. Onun 1142-ci ildə atasının ölümündən sonra Divriğini idarə etməyə başladığı qeyd edilir. Bu sülalənin son nümayəndələrindən olan *Əhmədşah* Divriğidəki Ulu Came məscidini tikdirmişdir.



Əhmədşah 1243-ci ildə Kösədağ meydan müharibəsində yer almış və təxminən eyni tarixlərdə vəfat etmişdir. Əhmədşahın vəfatından sonra yerinə *Məlik Saleh* keçdi. Məlik Saleh moğol istilası zamanı Divriğinin dağılan qala divarlarını bərpa etmişdir. Onun və ondan sonrakı Məngücüklülərin haqqında heç bir məlumat yoxdur. 1277-ci ildə Divriği şəhəri Elxanlı hökmdarı Abaqa xan tərəfindən dağıdılmışdır.

Məngücüklülər Ərzincan, Kəmax, Divriği və Şərqi Qarahisar ərazilərində hökm sürmüş, Anadoluda türk şəhər həyatının memarları olublar. Onlar tərəfindən tikilən qalaların, binaların, camelərin, hamamların, türbələrin izlərinə günümüzdə də rast gəlinir. Ərzincanın zəlzələ qurşağında olması həmin əsərlərin dağıntılara uğramasına səbəb olmuşdur. Baş vermiş ən böyük zəlzələ 1138-ci ilə aiddir. 1165-ci ildə Ərzincan bir daha zəlzələnin yaratdığı dəhşətlə sarsılmışdır. Bu zəlzələlərdə minlərcə adamın öldüyü qeyd edilir. Mənbələr zəlzələdən sonra şəhərin xarabaya çevrildiyini qeyd edirlər. Məngücüklülərin Divriğidəki ən məşhur əsərləri Qala məscidi, Divriy qalası, Ulu came, Darüşşəfa, Siddi Məlik, Kəmarəddin və Kəmankeş məqbərələri, mədrəsələr, xəstəxana və qalalarıdır.

Zəlzələlərə baxmayaraq, Məngücüklülər dövründə Ərzincan Şərqi Anadolunun ən böyük ticarət və mədəniyyət mərkəzi idi. Moğol istilası ucbatından Bəlxdən Anadoluya gələn sufi şairləri Mövlana Cəlaləddin Rumi və oğlu Bəhaəddin Vələd bir müddət Ərzincanda yaşamış və burada xalqın rəğbətini qazanmışdır. Yenə dövrün ən böyük təbiblərindən Müvaffəqəddin Əbdüllətif əl-Bağdadi 1228-ci ildə Hələbdən Ərzincana gəlib, bir müddət burada yaşamışdır. Davudşah xəzinədən həmin həkimə maaş vermiş və ona böyük ehtiram göstərmişdir. Dövrün ən böyük musiqişünası Siracəddin Əhməd də Məngücüklü sarayında yaşamış, daha sonra Əyyubilərdən Məlik Əşrəfin dəvəti ilə Şama getmişdir.

## 8.5.3. Saltuqlular

1071-1202-ci illər arasında Anadoluda mövcud olmuş başqa bir Səlcuqlu dövləti Saltuqlu adlanır. Saltuqlular Ərzurum, Pasinlər, Tərcan, İspir, Oltu, Tortum, Micingird, Bayburd və ətrafındakı ərazilərin hakimi olublar. Danişməndli və Məngücüklü kimi Saltuqlu dövləti də 1071-ci il Malazgird meydan müharibəsindən sonra ortaya çıxmış türk dövlətidir.

Saltuqlu dövlətinin paytaxt şəhəri Ərzurum olub. Ərzurum üzərinə Səlcuqlu hücumları 1044-cü ildən başlasa da, bu ərazilər ancaq 1071-ci ildə fəth edilmişdir. Səlcuqlu dövrünün müəlliflərindən Zahirəddin Nişapurinin "*Səlcuq-namə*" adlı əsərində, *Əbül-Qasim Saltuq*un Malazgird müharibəsində böyük igidlik sərgilədiyi və Sultan Alparslanın Qarsdan Bayburda qədər torpaqların ixtiyarını ona verdiyi qeyd edilir. Saltuq bəyə verilən ərazilər Qars, Pasinlər, Oltu, Ərzurum, Tortum, İspir, Bayburddan ibarət idi.

Saltuqlu dövlətinin banisi Əbül-Qasim Saltuq olub. Onun ölüm tarixi bilinmir. Ancaq 1102/03-cü ildə Saltuqlu dövlətinə *Əli ibn Əbül-Qasim* başçılıq edirdi. Əlinin hakimiyyətinin ilk dövrləri Böyük Səlcuqlu hakimiyyəti uğrunda Məhəmməd Tapar və qardaşı Bərkyaruq arasında müharibələrdə keçmişdir.

Saltuqlu hakimi Əli Artuqlu hakimi İlqazi ilə birlikdə gürcülərə qarşı cihad müharibələri aparmışdır. 1121-ci ildə baş verən bu səfərlərin birində Artuqlu, Saltuqlu və Ərzən (Toğrul Arslan bəy) gücləri məğlub oldular. Bu hadisədən bir müddət sonra Ani şəhəri gürcülər tərəfindən işğal edildi. Əlinin 1123-1124-cü illərdə vəfat etdiyi ehtimal olunur. Əlinin ölümündən sonra Saltuqlu taxtına qardaşı *Ziyaəddin Qazi* oturdu. Onun qısa sürən hakimiyyətindən yadigar Təpsi minarəsidir.



Ziyaəddin Qazi 1126-cı ildə gürcülərə qarşı səfərdə yer almış, 1131-ci ildə isə gürcü əmiri İvanini ağır məğlubiyyətə uğratmışdır. Ziyaəddin Qazi eyni tarixdə də vəfat etmişdir. Ziyaəddin Qazidən sonra Saltuqlu taxtına qardaşı oğlu *İzzəddin II Saltuq* keçdi və uzun müddət *(1131-1168)* dövləti idarə etdi.

Saltuqlu dövləti digər türk dövlətlərinə nəzərən siyasi baxımdan gücsüz olduqlarından,i hakimiyyətlərini daha çox qonşu hakimlərlə təsis etdikləri qohumluq əlaqələri sayəsində qoruyurdular. II Saltuq da hakimiyyətə gələn kimi qızı Şah Banunu Əhlət hakmi II Sökmən ilə, digər qızını isə Ərzən bəyi Toğrul Arslanın oğlu Kurtu (və ya Yaqub Arslan) ilə evləndirmişdi. Saltuqlular, əsasən İraq Səlcuqlu dövlətinin və Azərbaycan atabəyliyinin vassalı idilər. 1162-ci ildə gürcü-qıpçaqlara qarşı Azərbaycan atabəyi Eldənizin təşkil etdiyi hərbi səfərdə Əhlət şahı Sökmən, Marağa hakimi Ağsunqurun oğlu və Saltuqlu İzzəddin də yer almışdı.

İzzəddin Saltuq 1168-ci ildə vəfat etdi. Onun dövründə Saltuqlular Ərzurum xaricində öz hakimiyyətlərini Bayburd, Micingird, Avniq, İspir və Oltu ərazilərinə qədər yaydılar. II Saltuqun yerinə oğlu *Nəsrəddin Məhəmməd* keçdi. Ona aid 1189-cu il tarixli sikkənin üzərində Azərbaycan atabəyi Qızıl Arslan və Sultan III Toğrulun adlarının həkk olunması Saltuqluların Azərbaycan atabəyliyinə tabeliyinin davam etdiyi aydın olur. Ərzurumda Ulu cameni onun inşa etdirdiyi məlumdur. Məscidin kitabəsində yer alan hicri 587-ci il *(1191-ci il)* tarixi diqqətə alınarsa, Nəsrəddinin həmin tarixdə və ya bir qədər sonra vəfat etdiyi ehtimal olunur. Mənbələr 1191-ci ildə Ərzurumu *Mama Xatun*un idarə etdiyini qeyd edirlər. Mama Xatun Nəsrəddin Məhəmmədin bacısı idi. Mənbələr eyni tarixdə Əhlət hakimlərinə aid Malazgird qalasının Səlahəddin Əyyubinin əmisi oğlu Təkiyəddin tərəfindən mühasirə olunduğu vaxt Saltuqlu ordusunun köməyə getdiyini və 1191-ci ildə

Təkiyəddinin vəfat etməsindən sonra Əyyubi ordusunun geri çəkildiyini xəbər verir.

Mama Xatunun hakimiyyət hərisi bir qadın olduğu qeyd edilir. Qarşı çıxan əmirləri ortadan qaldırmaq üçün Əyyubi sultanı Məlik Adilə müraciət etmiş və ona açıqca "məşhur bir adama ərə getmək istədiyini" bildirmişdir. Məlik Adilin tövsiyəsi ilə Nablus hakimi Fərisəddin Meymən əl-Qəsri ona elçi göndərmiş, ancaq elçilər Ərzuruma çatanda Mama Xatun taxtdan salınıb, həbs edildiyindən bu evlilik baş tutmamışdır. Mama Xatunun 1200/01-ci ildə hakimiyyətdən uzaqlaşdırıldığı məlumdur. Əmirlərə qarşı sərt siyasət izləsə də, Mama Xatun xalqa qarşı ədalətli idi. Tərcandakı karvansaraylar və məqbərələr ona aiddi. Lakin Mama Xatunun hakimiyyət illəri Saltuqlu dövlətinin zəifləməsi ilə yadda qalmışdır. Bir il sonra isə dövlət ortadan qalxmışdır.

Saltuqlular paytaxtları Ərzurum olmaqla, sahib olduqları ərazilərin mədəni və maddi inkişafına böyük diqqət yetirmiş və günümüzə qədər qalan bir-birindən gözəl əsərlərə imza atmışdılar. Qala came, Təpsi minarə, Ulu came, Üç Gümbəzlər, Mama Xatun karvansarayı və Micingird qalası həmin əsərlərə nümunədir.

## 8.5.4. Artuqlular

Atruqlu dövləti indiki Türkiyənin cənub-şərqi Anadolu bölgəsində mövcud olmuşdur. Xanədanın əsasını Səlcuqlu sultanı Alparslanın komandanlarından *Əksükün oğlu Artuq bəy* qoymuşdur. Artuqluların iyirmi dörd oğuz boyundan *düyərlərə* (*dögər*) mənsub olduqlarını F.Sümər XIII-XIV əsr tarixçilərindən Şəmsəddin Məhəmməd ibn İbrahimin *(1260-1339)* "*Cəvahir əs-Süluk*" adlı əsərinə istinad edərək irəli sürüb. Ancaq Artuqlu pulları üzərində *qayı* damğasının yer alması bu iddianı təkzib edir. Artuq bəy, Səlcuqlu



sultanları adından Yaxın Şərqdə fəthlər aparmış və 1091-ci ildə Qüdsdə vəfat etmişdir.

Artuqun iki oğlu var idi: *Sökmən* və *İlqazi*. Atalarının ölümündən sonra Tutuş Qüdsün hakimiyyətini onun oğullarına verdi. Atalarının ölümü ilə Artuqlu dövlətinin quruluş tarixi olan 1102-ci ilə qədər Sökmən və İlqazi Suriya, Fələstin və Anadoluda fəaliyyət göstərdilər. 1102-ci ildə Həsənkeyfə gələn Sökmən burada Artuqlu dövlətini təsis etdi. Ancaq dövlətin banisi Sökmənin hakimiyyəti qısa sürdü. O, *difteriya* xəstəliyindən 1104-cü ilin oktyabr ayında vəfat etdi.

Sökməndən sonra Həsənkeyf Artuqlularının başına oğlu *İbrahim* keçdi. O, əmisi İlqaziyə tabe olmaq məcburiyyətində qaldı. İbrahimin 1108-ci ildə vəfat etdiyi məlumdur. Ondan boşalan taxta qardaşı *Rüknəddin Davud* oturdu. O da qardaşı kimi əmisi İlqaziyə tabe oldu. Davud 1127-ci ildə Mosula atabəy təyin edilən Zəngi ilə vuruşmaq məcburiyyətində qaldı. Çünki Zəngi Artuqlu dövlətinə məxsus torpaqlara göz dikmiş və ələ keçirməyə başlamışdı. 1129-cu ildə Dara qəsəbəsi yaxınlığında Zəngiylə üzləşən Davud, onun Mardindəki əmisi oğlu Teymurdaş və Amid hakimi İnaloğlu İlaldının orduları ağır bir məğlubiyyətə uğradılar. Ancaq Zənginin səlibçilərlə başının qarışması Artuqluların siyasi hakimiyyəti qorumalarına yaradı. Daha sonra tərəflər arasında razılıq əldə edildi. Belə ki, 1138-ci ildə Davud oğlu Qara Arslan başçılığında bir ordunu səlibçilərlə müharibə aparan Zənginin köməyinə göndərmişdi.

Davud 23 iyul 1144-cü ildə Xanidə vəfat etdi. Cənazəsi Həsənkeyfə gətirilib, *Came əl-Müxtəs* (*Camiu'l-muhdes)* adı verilən Təzə məsciddə dəfn edildi. Davudun yerinə oğlu *Fəxrəddin Qara Arslan* keçdi. Qara Arslan 23 il hakimiyyətdə qaldı və 1167-ci ilin iyul ayında vəfat etdi. Cənazəsi Həsənkeyfdə özü tərəfindən tikilən məqbərədə dəfn edildi.

Qara Arslan Artuqluların Həsənkeyfdəki ən güclü hökmdarı idi. Özündən sonra taxta oğlu *Nurəddin*

*Məhəmməd* oturdu. Nurəddin də atası kimi Hələb hakimi Nurəddin Mahmud ilə dostluq münasibətlərini qorudu. Hətta Türkiyə Səlcuqlu sultanı ilə də ünsiyyət qurub, onun kürəkəni oldu. 15 may 1174-cü ildə Nurəddin Mahmud ölüncə Suriyada Əyyubilərin nüfuzu artmağa başladı. Bu sırada Məhəmmədin arvadının ucbatından Türkiyə Səlcuqlu hökmdarı və qayınatası II Qılınc Arslanla da arası dəydi. Ortada qalan Məhəmməd Əyyubilərlə əlaqə yaratdı. Səlahəddin Əyyubinin himayəsi altına girən Məhəmməd onunla birlikdə Mosul və Amidin fəthində yer aldı və 19 may 1183-cü ildə Amidin hakimiyyətini ələ keçirdi. Məhəmməd 1185-ci ildə vəfat etmişdir. Onu oğlu *Qütbəddin II Sökmən* əvəz etmişdir.

Qütbəddin II Sökmən 1193-cü ildə vəfat edən Səlahəddin Əyyubidən sonra öz torpaqlarını genişləndirmək siyasəti güdmüş və bu siyasəti uğurlu olmuşdur. II Sökmənin 1200-cü ildə öldüyü bilinir. O, qardaşı Mahmud "dinsiz" olduğu üçün yerinə məmlüklərindən *Ayaz*ın keçməsini vəsiyyət etmişdir. Ancaq ölümündən sonra əmirləri Ayaza qarşı üsyan edib, onu taxtından endirmiş və yerinə *Mahmud*u əyləşdirmişdilər. Mahmud həm Əyyubilərə, həm də Türkiyə Səlcuqlu sultanı Keykavusa tabe olmuşdur. 1222-ci ildə vəfat edən Mahmudun yerinə oğlu *Məsud* taxta oturdu. Onun hakimiyyəti qısa sürdü. 1231-ci ildə Amidi işğal edən Əyyubi sultanı əl-Kamil, 1232-ci ildə Həsənkeyfə soxulub, Artuqlu hakimiyyətinə son qoydu.

Artuqluların Harputdakı qolu 1185-1233-cü illər arasında varlığını davam etdirmişdir. Artuqluların ən uzun ömürlüsü Mardin qolu hesab olunur. Mardindəki Artuqlu hakimiyyətinin banisi Əmir Artuqun ikinci oğlu İlqazi idi. Mardindəki Artuqlu hakimiyyəti 1409-cu ilə qədər davam etmiş və həmin tarixdə Qaraqoyunlu ordusu Mardini ələ keçirib, dövlətin varlığına son qoymuşdu. Anadoluda ən uzunömürlü Səlcuqlu dövləti olan Artuqlular *Əhməd*in vəfatı ilə süqut etmişdir.



## 8.5.5. Ərmənşahlar

Mənbələrdə Sökmənlilər və Əhlətşahlar kimi də qeyd edilən bu dövlətin hökmdarları, hökmdarlıq titulu olaraq "Ərmənşah" və ya "şahiərmən" adını da daşıyıblar. Xanədanın ilk nümayəndəsi *Sökmən əl-Qütbi* Azərbaycan Səlcuqlu sultanı Qütbəddin İsmayıl İl-Arslanın qulamı idi. Əbül-Fidanın əsərinə görə, Əhlət əhalisi ərəb əsilli Mərvanilərin hakimiyyətindən narazı idi. Bu məqsədlə Qütbəddin İsmayılın oğlu Məvduddan yardım istədilər. O da öz qulamı Sökməni ordu ilə Əhlətə göndərdi. Şəhəri ələ keçirən Sökmən burada 1110-cu ildə Ərmənşahlar və ya Əhlətşahlar dövlətinin təməlini atdı. Sökmən qısa vaxtda Əhlətlə yanaşı, Malazgird, Ərciş, Adilcəvaz, Ələşgird, Van, Tatvan, Silvan və Muş əyalətərinin də idarəsini ələ keçirdi. Sökmən uzunmüddətli müharibədən sonra Meyyəfariqini (Silvanı) fəth etdi. 1111-ci ildə Sökmən digər Səlcuqlu əmirləri ilə birlikdə uğursuzluqla nəticələnən səlib döyüşündə yer aldı və Hələbə gedərkən xəstələnərək öldü. Əsgərləri onun meyidini Əhlətə gətirib, dəfn etdilər.

Sökmənin yerinə oğlu *Zahirəddin İbrahim* keçdi və 1126/27-ci ilə qədər hökm sürdü. Zahirəddin İbrahim hakimiyyəti anası *İnanc Xatun*un təsiri altında idarə etdi. 1127-ci ildə vəfat etdikdə yerinə qardaşı, Həsənkeyf hakimi *Əhməd ibn Sökmən* keçdi. Lakin onun hakimiyyəti 10 ay davam etdi və Ərmənşahların taxtına Zahirəddin İbrahimin oğlu *II Sökmən* oturdu. Onun zamanında dövlət xeyli gücləndi. Ərmənşah titulunu ilk istifadə edən hökmdar da odur.

II Sökmən taxta çıxdıqda altı yaşındaydı. Nənəsi İnanc Xatun onu ortadan qaldırıb, hakimiyyəti öz əlinə keçirmək niyyətinə düşdü. Hazırladığı sui-qəsdin üstü açıldıqda həbs edilən İnanc Xatun qədim türk adətinə görə, oxunun kəməndi ilə boğularaq öldürüldü. 1133/34-cü ildə baş

verən bu hadisə zamanı II Sökmən 11 yaşındaydı. Zamanla hakimiyyətin cilovunu əlinə alan II Sökmən 1161-ci ildə gürcü-qıpçaqlara qarşı hərbi səfərlərdə Azərbaycan atabəyi Eldənizin əmrində yer aldı. Həmçinin, Şəmsəddin Eldənizin 1163-cü ildə Kartli krallığına qarşı təşkil etdiyi hərbi səfərdə də yer aldığı və böyük qənimətlərlə Əhlətə qayıtdığı qeyd edilir. Ərmənşahlar ilə gürcü-qıpçaq orduları arasında 1175-ci ildə baş verən döyüşdə II Sökmən yenə Azərbaycan atabəyi Eldənizin əmrində yer almışdı.

Atabəy Eldənizin ölümü və yerinə oğlu Cahan Pəhləvanın keçməsi ilə Sökmən Səlahəddin Əyyubinin təzyiqi ilə üzləşdi. Səlahəddin Əyyubinin təsiri qarşısında Cahan Pəhləvandan kömək istəyən Ərmənşah II Sökmən bölgədəki siyasi gərginliyin artmasına yol açdı. Mosulu mühasirə edən Səlahəddin Əyyubiyə elçi göndərən II Sökmən ondan mühasirəyə son verməsini tələb etdi. Ərmənşahın bu qədər cəsur davranmasının səbəbi Azərbaycan atabəyliyi idi. Sökmənin Səlahəddin Əyyubiyə göndərdiyi elçilik heyətinə Seyfəddin bəy Teymur başçılıq edirdi. Seyfəddin Səlahəddin Əyyubini sərt şəkildə təmbehlədi və geri çəkilməsini istədi. Bundan sonra başda Sökmən olmaqla Bitlis və Ərzən hakimi Fəxrəddin Dövlətşah, Mardin hakimi Qütbəddin İlqazi və Mosul hakimi İzzəddin Məsud birləşərək Səlahəddinin qarşısına çıxmaq istəsələr də, Əyyubilərin ordugahına yaxınlaşdıqda qorxub geri çəkildilər. Səlahəddin Əyyubi Mosulu yenidən mühasirəyə aldı. Bu sırada – 1185-ci ildə II Sökmən vəfat etdi.

Ərmənşah II Sökmənin varisi yoxdu. Xalqın arzusu ilə taxta *Seyfəddin bəy Teymur* çıxarıldı. Həmin vaxt Seyfəddin bəy Teymur Meyyəfariqinin hakimi idi. Sökmənin öldüyünü eşidən Səlahəddin Əyyubi Mosulun mühasirəsinə son verib, Əhlət üzərinə hərəkət etdi. Əyyubilərin hücumu qarşısında Azərbaycan atabəyi Cahan Pəhləvandan kömək istəyən Ərmənşahlar, Əhlətdə xütbəni Sultan III Toğrul adına oxutdurdular. Cahan Pəhləvanla döyüşə girməyə



cəsarət etməyən Səlahəddin bu vəziyyəti qəbul etmək məcburiyyətində qaldı.

Ancaq 1185-ci ildə Azərbaycan atabəyi Cahan Pəhləvanın ölümü Səlahəddinə Anadolu dövlətləri üzərində öz hakimiyyətini bərqərar etmək fürsəti verdi. 1186-cı ildə əmisi oğlu Təkiyəddin Ömərі Meyyəfariqin hakimi təyin edən Səlahəddin onu böyük bir orduyla Anadoluya göndərdi. Təkiyəddin 1191-ci ildə Amidin şimalında və Meyyəfariqinin şimal-qərbindəki əs-Suveyda ilə Xanini işğal etdi. Bu vəziyyətə laqeyd qalmaq istəməyən Seyfəddin bəy Teymur ordusunun çoxluğuna baxmayaraq, Təkiyəddinə məğlub oldu və Əhlətə qaçdı. Təkiyəddin şəhəri mühasirəyə aldı, ancaq bütün cəhdləri boşa çıxınca Malazgirdə qayıtdı. Malazgirdin mühasirəsi zamanı Təkiyəddin 10 oktyabr 1191-ci ildə vəfat etdi. Bu, Ərmənşahların rahat nəfəs almasına səbəb oldu. İki il sonra da Səlahəddin Əyyubi vəfat etdi. Bu münasibətlə Seyfəddin bəy Teymur bir taxt düzəltdirib, üzərinə oturaraq *sultanül-müəzzəm vəl əl-məlikun-Nasir Səlahəddin* ləqəbini almışdı.

Seyfəddin bəy Teymur Səlahəddin Əyyubinin ölümünə çox sevinə bilmədi. Zira, onun vəfatından sadəcə iki ay yarım sonra bilinməyən bir şəkildə öldü. Bir məlumata görə, sultan hamamdan çıxarkən *batınilər* tərəfindən öldürüldü. Yerinə, məmlüklərindən *Bədrəddin Ağsunqur Xəzar Dinari* keçdi. Ona "Xəzar Dinari" adının verilməsi Ərmənşah II Sökmənin onu Cürcanlı bir kölə tacirindən min dinara (*xəzar* farsca "min" deməkdir) satın alması idi. Sökmən dövründə sarayda "saqilik" edən (içki paylayan) Ağsunqurun mövqeyi Seyfəddin bəy Teymur dövründə artdı və onun qızı Ayna Xatun ilə evləndi. Ancaq Ağsunqur çox tamahkar idi. Bəzi mənbələr Seyfəddin bəy Teymuru onun öldürdüyünü yazır. Lakin tarixçi Sibt ibn əl-Cövziyə görə, özü də sui-qəsd nəticəsində öldü. Mənbələr onun Seyfəddin bəy Teymurun oğlanlarından biri tərəfindən öldürüldüyünü yazır.

Baş verən bu hadisələr Sökmənlilərin 1208-ci ildə tənəzzülü ilə nəticələndi. Ərmənşahlar dövlətinin son hökmdarı *Balban* oldu. Həmin tarixdə Əhlət şəhəri Əyyubilərin əlinə keçdi. Ərmənşahlar dövlətinin tarixi baxımdan ən böyük rolu Şimali Qafqaz üzərindən gələn qıpçaqların Kartli krallığı adı altında müsəlman ölkələrinə təşkil etdiyi hərbi səfərlərin qarşısını alması olmuşdur.



*1375-ci ildə Aydınoğulları dövlətinin sultanı İsa bəy tərəfindən tikdirilmiş İsa bəy camesi. Memarı Şamlı Əli olub.*



*Divriği Ulu Camesi və Darüşşəfası*





## 8.6. ƏYYUBİLƏR

Adını Səlahəddin Əyyubidən alan Əyyubilər dövlətinin mənbələrdəki adı *Dövləti-Türkiyyə* idi. Bu xanədanın mənşəyi hələ də mübahisə mövzusudur. Tədqiqatçılar Əyyubilərin türk, ərəb və kürd əsilli olduğu fikrində tərəddüd edirlər. Əyyubi dövrünün mənbələrində də bununla bağlı məlumat verilməmişdir. Tarixi mənbələr Əyyubi ailəsinin Azərbaycanın Dvin bölgəsində məskunlaşan Rəvvadilərdən olduğunu, Rəvvadi ailəsinin də ərəb olduğunu qeyd ediblər. Məlum olduğu kimi, Rəvvadilər Azərbaycanda bir müddət hökm sürüblər.

Əyyubilər Zəngi atabəyi Nurəddinin ordu komandanları olublar. Atabəy Nurəddin Şirkuh və qardaşı oğlu Səlahəddini Misirə hərbi səfərə göndərdiyi orduya başçı təyin etmişdi. Bu səfər zamanı Şirkuhun ölməsindən sonra (23 mart 1169-cu il) onun səlahiyyətlərini Səlahəddin Əyyubi ələ keçirib, Misiri Nurəddinin adından idarə etməyə başladı. 26 mart 1169-cu ildə isə Fatımi xəlifəsi əl-Adid tərəfindən Səlahəddin Əyyubi Misir vəziri təyin edildi.



*Əyyubilər dövlətinin ərazisi*

Nurəddinin naibi sifəti ilə Misirdə fəaliyyətə başlayan Səlahəddin Əyyubi 1170-ci ildə Misirdəki şiə qazıların hakimiyyətinə son verib, onların yerinə sünni qazılar təyin etdi. Daha sonra Abbasi xəlifəsi və Nurəddinin izni ilə Fatımiləri ortadan qaldırmağa başladı. 1171-ci ilin avqust ayında Fatımi xəlifəsi əl-Adid xəstələndi. 10 sentyabr 1171-ci ildə isə Abbasi xəlifəsi Misir Fatımi xəlifəliyinin ləğv edilməsi haqqında fətva verdi, Misir məscidlərində xütbələr Abbasi xəlifəsi ilə Zəngi atabəyi Nurəddinin adına oxunmağa başlandı. Bu hadisədən 3 gün sonra Fatımi xəlifəsi əl-Adid öldü. Onun vəfatı ilə Fatımilər Xilafəti süqut etdi. Səlahəddin Əyyubi Fatımi torpaqlarını Nurəddin Mahmud adından idarə etməyə başladı. Beləliklə, uzun mübarizədən sonra Misir Səlcuqlu dünyasının bir parçası halına gəldi.

1174-cü ildə Nurəddin Mahmudun ölümünü eşidən kimi Səlahəddin Əyyubi əvvəlcə Misirdəki xütbələri onun oğlu İsmayıl adına oxutdurdu. Lakin Şam əhalisinin üsyan edib Səlahəddinə müraciət etməsi ilə o, az sayda əsgərlə Bəsrə qalasından Şama gəldi və şəhəri ələ keçirdi.





*Əyyubilər dövrünə aid səlcuqlu geyimləri təsvir olunmuş illüstrasiyalar*

Səlahəddin burada *"mən əl-Məliküs-Salehin bir məmlüküyəm, ona yardıma və xidmətə gəldim, ondan alınan yerləri iadə edəcəm"* deyib, Zəngilərə boyun əydiyini ifadə etdi.

Səlahəddin Əyyubi Şamı ələ keçirdikdən sonra Seyfülislam Tuğtigin ibn Əyyubu şəhərin naibi elan edib, Xüms və Həmanın fəthinə girişdi. Səlahəddin Nurəddin Mahmudun səlibçilərə qarşı yarım qalan siyasətini öz üzərinə götürdü. Beləliklə, Səlahəddin qısa müddət ərzində Şam, Xüms, Həma və Balbəki ələ keçirib, Misirdə yeni bir türk dövlətinin təməllərini qoydu. Səlahəddin Əyyubinin bir neçə il ərzində Səlcuqlu dünyasının ən güclü hökmdarına çevrilməsi Şamdakı Zəngi hakimi İsmayılın əmisi II Seyfəddin Qazidən kömək istəməsinə səbəb oldu. II Seyfəddin qardaşı Məsudun başçılığı ilə Şama bir ordu göndərsə də, bu ordu Səlahəddin Əyyubiyə məğlub olub, geri qayıtdı. Bu məğlubiyyətdən sonra II Seyfəddin Qazi ikinci bir ordu təşkil edib, Hələbə göndərdi. Özü də Əyyubiyə bir məktub göndərib – *"Suriyada aldığın bütün əraziləri mənə təslim edib,*



*Səlahəddin Əyyubinin təsviri ilə kəsilmiş pul*

*Misirə dönməlisən"* – dedi. Bundan sonra, 13 aprel 1175-ci ildə Həma yaxınlığında Kurunu-Həma deyilən yerdə Zəngi ordusu ilə döyüşə girən Səlahəddin Əyyubi II Seyfəddinin dəstələrini bir daha məğlub etdi. Hələbə qaçan məğlubları təqib edən Səlahəddin Əyyubi şəhəri mühasirəyə aldı. Bu vaxta qədər özünü Zəngilərin məmlükü olaraq tanıdan Səlahəddin Əyyubi bundan sonra xütbə və sikkələrdə öz adını həkk etdirib, tam müstəqil olduğunu elan etdi. Buna görə də tarixçilər Əyyubilər dövlətinin yaranmasını 1175-ci il olaraq göstəriblər.

Səlahəddinin üst-üstə iki dəfə Zəngiləri məğlub etməsi İsmayılın ona sülh təklif etməsinə səbəb oldu. Sülh müqaviləsi nəticəsində Şam Əyyubilərin, Hələb Zəngilərin nəzarətində qaldı. Bu vaxt Səlahəddin Əyyubi Abbasi xəlifəsindən aldığı mənşur ilə Misir və Suriyanın müstəqil hökmdarı olduğunu təsdiq etdirdi. Lakin Mosul atabəyi II Seyfəddin Qazi bu müqaviləni tanımadığını bildirib, böyük bir orduyla Hələbə gəldi. Bundan sonra Zəngilərlə Əyyubilər 22 aprel 1176-cı ildə Hələbin cənubunda Cibab ət-Türkman adlanan yerdə üçüncü dəfə üz-üzə gəldilər. Bu dəfə də zəfər Səlahəddin Əyyubinin oldu. Səlahəddin Hələbi yenidən mühasirəyə aldı. Ancaq tərəflər əvvəlki sülh şərtlərini qəbul edərək, barışıq imzaladılar.



Mosul atabəyi II Seyfəddin Qazi vərəm xəstəliyinə tutulmuşdu. Bundan başqa, həm də meningit olunca, vəziyyəti daha da ağırlaşdı. Vəliəhd olaraq 12 yaşlı oğlu Muizzəddin Səncərşahı elan etmək istəsə də, qardaşı İzzəddin Məsud ona qarşı çıxdı. Ordu başçısı Mücahidəddin Qaymaz da Məsudun fikrini dəstəkləyincə, əmirlərinə qarşı gəlməyən II Seyfəddin Qazi qardaşını vəliəhd elan etdi. Buna rəğmən, oğlu Səncərşaha Cəzirətül-Öməri, kiçik oğlu Nəsirəddin Kərəkə Akrul-Humeydiyyə ərazilərini verən II Seyfəddin Qazi 29 iyun 1180-ci ildə vəfat etdi. Öldükdə onun cəmi 30 yaşı var idi.

Mosul atabəyliyi taxtına oturan İzzəddin Məsud *(1180-1193)* Səlahəddin Əyyubiyə bir elçi göndərərək, əl-Cəzirə üzərində Zəngilərin hakimiyyətini tanımasını istədi. Lakin Səlahəddin Əyyubi verdiyi cavabında II Seyfəddin Qazinin vəfatından sonra xəlifənin əl-Cəzirə, Harran, Urfa, Rakka, Habur və Nusaybinin idarəsini ona verdiyini bildirdi. 6 dekabr 1181-ci ildə Hələbdəki Zəngi hakimi İsmayıl vəfat etdi. O, ölməmişdən əvvəl Hələbin idarəsini İzzəddin Məsuda tapşırmışdı.

İsmayılın vəfatından sonra Hələbə gələn İzzəddin Məsud burada şəhər üləması və hakimləri tərəfindən yaxşı qəbul edildi. İzzəddin Məsud böyük qardaşı İmadəddin Zəngi ilə danışıqlara girərək Sincarın ona verilməsi müqabilində Hələbin idarəsini İmadəddinə verdi. İsmayıl vəfat etdikdə Səlahəddin Əyyubi Misirdə olduğu üçün hadisələrə müdaxilə edə bilmədi. Ancaq İsmayılın vəfatını eşidən kimi təcili Şama gəldi. Burada Harran hakimi Müzəffərəddin Göybörü, Birəcik hakimi Şihabəddin Mahmud, Həsənkeyf hakimi Nurəddin Məhəmməd Səlahəddin Əyyubiyə Mosula hərəkət etməyi təklif etilər. Səlahəddin Əyyubi, Hələbə toxunmadan əl-Cəzirəyə hərəkət etdi. 10 noyabr 1182-ci ildə isə Mosulu mühasirəyə aldı. Mosul hakimi İzzəddin Məsud Azərbaycan atabəyi Cahan Pəhləvandan kömək istədi. Mosul atabəyliyinin Azərbaycan

atabəyliyindən kömək aldığını eşidən və Mosulun yaxşı müdafiə edildiyini görən Səlahəddin Əyyubi mühasirəni qaldırıb Sincara hərəkət etdi və 30 dekabrda buranı ələ keçirdi. Oradan da Diyarbəkir istiqamətində yoluna davam edən Səlahəddin Əyyubi 29 aprel 1183-cü ildə Amidi işğal etdi. Bundan sonra Əyyubi orduları Hələbi mühasirəyə aldılar. 13 iyun 1183-cü ildə də Hələb Səlahəddin Əyyubinin əlinə keçdi.

Hələbi ələ keçirən Səlahəddin, Mosul atabəyliyinin paytaxtına ikinci bir səfər düzənlədi. 29 avqust 1185-ci ildə Meyyəfariqini ələ keçirən Səlahəddin Əyyubi Mosul qapılarına dayandı. Bu sırada Azərbaycan atabəyi Cahan Pəhləvan da Əhlətə qədər gəlmişdi. Ancaq son anda İzzəddin Məsud ilə Səlahəddin Əyyubi arasında sülh bağlandı. Müqaviləyə görə, Mosul atabəyliyi Əyyubilərin təsiri altına girdi. Eyni tarixdə Azərbaycan atabəyi Cahan Pəhləvanın vəfatı ilə İraq Səlcuqlu dövlətində meydana gələn ara müharibələri, Mosulun Azərbaycan atabəyliyinin vassalı olmasından boyun qaçırmasına səbəb oldu. Bu hadisədən sonra İzzəddin Məsud, Səlahəddin Əyyubinin 1187-ci ildə Təbəriyyə səfərində, məşhur Xittin müharibəsində və Qüdsün fəthində iştirak etdi.

Səlahəddin ən qanlı müharibələrini səlibçilərə qarşı aparmışdır. O, səlibçilərin əlindəki Qəzza-Aşkelon bölgələrinə hücumlar təşkil etməyə başladı. 9 iyun 1179-cu ildə Mərciuyun qələbəsi və ondan bir ay sonra da Beytülahzan qalasının süqut etməsi səlibçilər üçün ağır nəticələrə səbəb oldu. 1186-cı ildə səlib ordularına qarşı yenidən hərəkətə keçən Səlahəddin, səlib orduları komandanı Renaud de Şatillonun Misirdən Şama hərəkət edən karvanlarını talan etdirdi. Bundan sonra da Qüdsü ələ keçirmək üçün hazırlıqlara başladı. 3-4 iyul 1187-ci ildə səlibçilərlə Səlahəddin arasında baş verən Xittin döyüşü xristian krallıqları üçün böyük bir məğlubiyyətlə nəticələndi. Hücumlarını davam etdirən Səlahəddin bir il ərzində Sur xaricində Qüdsün



bütün bölgələrini ələ keçirdi. Səlib ordusu, ancaq Qüds qalasına sığınaraq özünü qoruyurdu. Buna görə Avropanın üç böyük hökmdarı, Almaniya imperatoru Fridrix Barbarossa, Fransa kralı Filipp və İngiltərə kralı Aslanürəkli Riçard böyük bir ordu toplayıb Səlahəddinə qarşı təzyiq göstərməyə başladılar. Lakin bütün bu təzyiqlərə qarşı mübarizə aparan Səlahəddin 1192-ci ildə Qüdsü tam ələ keçirdi. Bu hadisə Səlahəddinin İslam tarixində böyük hökmdar kimi tanınmasına səbəb oldu. Qüdsün fəthi bütün İslam dünyasında şənliklərlə qeyd edildi.

1193-cü ildə Əyyubilər dövlətinin banisi Səlahəddin Əyyubi Şamda vəfat etdi. Bunu fürsət bilən Mosul atabəyi İzzəddin Məsud Zəngilərin əvvəlki torpaqlarını ələ keçirmək istədi. Lakin Nusaybindən hərəkət edərkən Rəsuleyn ilə Səruc arasında Tell Mavzənə qəsəbəsinə çatdıqda xəstələndi və Mosula qayıtmaq məcburiyyətində qaldı.

Səlahəddin Əyyubi özündən sonra vəliəhd təyin etməmişdi. O, öz torpaqlarını çoxsaylı övladları arasında bölüşdürdü. Bunun nəticəsində Səlahəddinin vəfatından sonra Misir, Şam, Hələb, Diyarbəkir və Yəməndə Əyyubi əmirlikləri ortaya çıxdılar. Bu əmirliklər arasında şiddətli taxt mübarizəsi başladı. Səlahəddinin oğlu əl-Əziz öləndən sonra əl-Əfdal Misirə sahib olub, əmisi Məlik Adilin əlindəki torpaqlara hücum etməyə başladı. Məlik Adil bu vaxt oğlu Kamil ilə birlikdə Mardini mühasirə etmişdi. Məlik Adil əl-Əfdalın Şama hücum etdiyini eşidincə, Mardinin mühasirəsini oğluna tapşırıb paytaxta geri qayıtdı. Əl-Əfdal Mosul atabəyi Nurəddin Arslanşaha xəbər göndərərək özünə tabe olmasını istəmişdi. O da Məlik Adilin Mardin tərəfdən Zəngiləri təhdid etməsindən qorxaraq əl-Əfdalın istəyini qəbul etdi. Bununla Nurəddin Arslanşah əmisi oğlu, Sincar hakimi Qütbəddin Məhəmmədlə barışıb, Səncərşahla birlikdə 3 sentyabr 1198-ci ildə əl-Kamil ibn Adilin üzərinə hücum edərək onu məğlub etdilər və Mardini Artuqlulardan Yavlaq Arslana təslim etdilər.

Əyyubilərin Misirdəki hakimiyyəti 1260-cı ilə qədər davam etdi. Həmin tarixdə Misirdəki türk məmlükləri zəifləyən Əyyubi hakimiyyətinə son verib, Məmlük dövlətinin əsasını qoydular. Həqiqətdə isə Məmlüklər də *Dövləti-Türkiyyə* adı ilə hakimiyyətlərini davam etdirmişdilər.



*Əyyubi sultanı Əl-Adil katolik din xadimi Assizli Fransisklə (rəssam: Benozzo Gozzoli)*





## 8.7. HİNDİSTAN TÜRK DÖVLƏTLƏRİ

Türklər ata yurdları hesab olunan bölgələr istisna olmaqla, ələ keçirdikləri fərqli bölgələrdə də min illər boyunca hakim güc olaraq həmin bölgələrin tarixi kimliyinin və mədəniyyətinin formalaşmasında rol oynayıblar. Çin, Hindistan, Misir, Şərqi Avropa, ərəb ölkələri bu baxımdan dərin türk izləri daşıyırlar. Orta əsrlər Hindistan tarixi eyni zamanda türklərin tarixidir. Hindistanda min il hakimlik edən türklər bu bölgənin tarixində, mədəniyyətində və sosial həyatında dərin izlər buraxıblar. Bu gün Hindistanda qorunan minlərlə tarixi əsər, saraylar, məqbərələr, qalalar, şəhərlər, məscidlər türk mədəniyyətinin izlərini əks etdirir. Türklərin Hindistandakı fəaliyyətlərinin tarixi e.ə.I minilliyə qədər uzanır. Skiflərlə başlayan bu köç hərəkatı mərhələli olaraq Quşan, Eftalit, *Sara huna* (Ağ hunlar və ya Turuşka), *Hara huna* (Qara hunlar), İslami dövrlərdə Qəznəvi, Qurlu, Dehli türk sultanlığı, Baburlar olaraq XIX əsrə qədər uzanır.

Ağ hunlar Toramanın xələfi Mihaqula dövründə Qupta dövlətini yıxaraq, Şimali Hindistanı ələ keçirdilər. Hindlilərin Quşan dövründən tanış olduğu atlı-elat mədəniyyəti ağ hunlar dövründə daha da təsirli hala gəldi və bu mədəniyyət Hindistan mədəniyyətinə güclü şəkildə təsir göstərdi. Hindlilər müsəlman kimliyi ilə ərəb tacirlər vasitəsilə tanış olsalar da, İslam dini Aşağı Hindistan vadisinə Əməvi Xilafəti dövründə daxil oldu. Ancaq Hindistanda müsəlman kimliyini qalıcı hala gətirən Qəznəvi dövləti oldu, orada müsəlman türklərin min il davam edən hakimiyyətinin təməlləri onlarla atıldı. 1000-ci ilin əvvəllərindən başlayan Sultan Mahmudun Hindistan səfərləri nəticəsində bütün Şimali Hindistan bölgəsi bu dövlətin nəzarəti altına keçdi. Sultan Mahmud bölgəyə 17 hərbi səfər təşkil etmişdi. Mahmud 32 illik səltənətinin 26 ilini Hindistan səfərlərində keçirmişdir. Onun bu siyasətini oğlu Məsud davam etdirmiş, XIII əsrin əvvəllərindən Qurlu hökmdarı Məhəmmədlə bu səfərlər təkrar intensiv hala gəlmişdir.

Hindistanın türklərin əlinə keçməsi İslam dünyasına da dərindən təsir edəcək yeni sosial, dini, mədəni və ticari əlaqələrin yaranmasına şərait yaratdı. Hind buddistlərinin həyat tərzi müsəlman sufilərə dərindən təsir göstərdi. Hindistanın iqtisadi imkanları müsəlman tacirləri kütləvi şəkildə özünə cəlb etməyə başladı. Hindistanın ədviyyatı, parçaları, metalları gəmilər və karvanlarla İslam ölkələrinə ixrac edilərkən, hindlilər də müsəlman sənaye məhsulları, başda kağız olmaqla çox sayda yeni məhsullarla tanış oldular. Hindistanla müsəlman ölkələri arasında əsas əlaqə elmi səviyyədə gerçəkləşdi. Müsəlmanlar şeir vəznini (əruz), riyaziyyat, tibb, astronomiya sahəsində Hindistandakı elmi mirası böyük ölçüdə mənimsəyib inkişaf etdirdilər. Türklərin Hindistandakı hakimiyyəti Avropa güclərinin müstəmləkəçi fəaliyyəti ilə müqayisə olunmamalıdır. Çünki türklər Hindistanın bütün fəaliyyət sahələriylə qarşılıqlı əlaqələr təsis etmiş, ordudan bürokratiyaya



qədər hindlilərin yaratdıqları sistemə inteqrasiya etmişdilər. Türk ordularında hindlilər kütləvi şəkildə xidmət etmiş, türk saraylarında hind alimləri və məmurları geniş rəğbət görmüşlər. Hind mistisizmi türk inancları ilə dərin bütünlük içinə girmişdir. Türk sultan və şahzadələri hindli əmirlərlə qohumluq əlaqələri yaradaraq Hindistanın sosial nizamına müdaxilə etməmişdilər.

Skif, Quşan, Eftalitlər dövründə Hindistana çox sayda türk tayfası köç edərək məskunlaşmışdı. Hindistanda ilk müsəlmanlaşan kütlə də həmin türklər oldular. Qəznəvilər dövründə Hindistana yeni türk köçləri başladı. Çox sayda oğuz, xələc, qarluq tayfası boylar halında, xüsusilə də Şimali Hindistan ərazilərində məskunlaşdılar. Qəznəvi və Qurlu hakimiyyətindən sonra həmin türk tayfaları Hindistanda öz hakimiyyətlərini təsis etdilər.

Qurlu hökmdarı Muizzəddin Məhəmməd 1173-cü ildə Şimali Hindistanı ələ keçirdikdə bölgənin idarəsini türk komandanlarından *Qütbəddin Aybəkə* tapşırdı. Muizzəddinin Qura geri qayıtmasından sonra Qütbəddin Aybək bölgəni müstəqil idarə etməyə başladı. 1206-cı ildə Muizzəddinin vəfatından sonra Lahoru ələ keçirən Qütbəddin burada Dehli sultanlığını təsis etdi.

Tarixçilikdə ümumi mənada **Dehli sultanlığı** adlandırılan bu dövlət 1206-1526-cı illər arasında mövcud olsa da, əsasən bir-birini izləyən çoxsaylı sülalə dövlətlərindən ibarət olub. Həmin sülalələr Muizzilər *(1206-1229)*, Xələclər *(1290-1320)*, Tuğluqşahlar *(1321-1413)*, Adilşahlar *(1490-1686)*, Bəridşahlar *(1492-1619)*, Qütbşahlar *(1512-1687)*, Malva Xələc sultanlığından *(1392-1562)* ibarətdir.

Aybəkin müsəlman ləqəbi olan Muizzəddin səbəbindən Dehli sultanlığının ilk xanədanı **Muizzilər** (*muizziyyə*) adlanırdı. Aybək 1210-cu ildə çövkən oynayarkən keçirdiyi qəza nəticəsində vəfat etdi. Taxta oğlu Aramşah oturdu. Ancaq qabiliyyətsiz olan bu şahın hakimiyyəti cəmi bir il davam etdi. Dövlət idarəçiləri Aybəkin kürəkəni İltutmuşu

(Eltutmuş) taxta keçməyə təşviq etdilər. İltutmuş Aramşahı məğlub edib, 1211-ci ildə taxtın sahibi oldu.

İltutmuş taxta keçdikdə Hindistanda hakimiyyət parçalanmışdı. Moltanda Nəsrəddin Qabaca, Lahnavitdə Xələc əmirləri, Şimali Hindistanın bəzi bölgələrində Qurlu hökmdarı Tacəddin Ulduz hökm sürürdülər. İltutmuş bütün bu əmirləri təsirsiz hala gətirərək mərkəzi hakimiyyəti yenidən təsis etdi.

İltutmuş dövrü moğol istilasının başladığı dövr olduğundan Cəlaləddin Xarəzmşah həmin vaxt Hindistana sığınmaq istədi. Lakin onun istəyini rədd edən İltutmuş moğol təhlükəsini ölkəsindən uzaqlaşdırıb, Hind bölgələrindəki fəthlərini davam etdirdi. Onun apardığı fəthlər nəticəsində Gvalyor, Bhilsa kimi əyalətlər dövlətin ərazilərinə daxil edildi. İltutmuş eyni zamanda Abbasi xəlifəsi Müstənsir tərəfindən *"ən-Nasirül-əmirülmöminin"* ləqəbini alan ilk Dehli sultanı oldu.

Şəmsəddin İltutmuş 1236-cı ildə vəfat etdi. Oğlanlarının bacarıqsızlığını, əyləncəyə düşkünlüyünü anlayan İltutmuş, sağ ikən qızı Raziyəni özünə vəliəhd təyin etsə də, dövlətdəki nüfuz və mövqelərini qorumağa cəhd edən əmirlər onun vəsiyyətini dinləməyib, oğlu Ruknəddin Firuzu taxta çıxardılar. Yeni hökmdar vaxtını kef məclislərində keçirərkən dövlətin idarəsini əmirlər və şahın anası Şah Tərkən öz əllərində cəmləşdirdilər. Həmin vaxt Muizzilər xanədanlığının iğtişaşlar dövrü hesab olunur. Baş verən üsyan nəticəsində Firuz öldürüldü, xalq və ordunun bir hissəsi Raziyəni *(1236-1240)* yeni sultan elan etdilər. Raziyə taxta keçdikdə ölkənin vəziyyəti son dərəcə ağır idi. İltutmuşun əmirləri arasında ən nüfuzlusu olan Əmir Balaban dövlətin naibi elan olundu. Balaban sürətlə hərəkət edib, üsyan etmiş bölgələrdəki hind qəbilələrini, əmir və racalarını cəzalandırdı.

Saraydakı hind əsilli məmur İmadəddin Reyhan Balabanın güclənən nüfuzunu həzm edə bilməyərək sultanın



və "qırxlar" (çehilqan) adlandırılan dövlət içindəki məmlük əsilli türk qruplaşmasının dəstəyini alaraq Balabanı vəzifəsindən uzaqlaşdırdı. Lakin etdikləri səhvi anlayan qırxlar bu dəfə Balabanın tərəfinə keçdilər və onu 1255-ci ildə yenidən naiblik vəzifəsinə çıxardılar. Reyhanı zərərsizləşdirən Balaban bir tərəfdən ölkəsindəki üsyanlarla mübarizə apararkən, digər tərəfdən də moğollarla müharibəyə başladı. Balaban 1255-ci ildə Qutluq xanın üsyanını yatırdı. 1259-cu ildə Hindistana hücum edən moğolların hücumlarının qarşısını alan Balaban, 1266-cı ildə Muizzi hökmdarı Nəsrəddin Mahmudşahın ölümündən sonra iqtidarın tək hakimi oldu.

1266-1287-ci illər arasında Dehli sultanı olan Əmir Balaban ordu və əyalətdəki nizamı yenidən bərpa etdi. Bu məqsədlə ölkədəki "qırxlar məclisi"nin nüfuz və təsir dairəsini zəiflətdi. Sind və Qərbi Pəncab üzərinə səfərlər təşkil edib, ölkənin idarəsini özünə tabe etdirdi. 1287-ci ildə onun vəfatından sonra Dehli əmirləri vəsiyyətini yerinə yetirməyib, taxta Buğranın oğlu Muizzəddin Keyqubadı çıxardılar. Ancaq onun kef məclislərinə olan marağı dövlət idarəsinin yenidən tənəzzül keçirməsinə səbəb oldu. İçkiyə aludə olan şah bir müddətdən sonra xəstələndi və hakimiyyətdən uzaqlaşdırıldı. Yerinə qardaşı Kəyumərs taxta oturduldu. Ancaq Kəyumərs zəif və təsirsiz biri idi. Hakimiyyəti naib sifətiylə xələc boylarının başçısı Məlik Firuz idarə edirdi. 1290-cı ildə Məlik Firuz Muizzilər sülaləsinin hakimiyyətinə son qoyaraq hakimiyyəti tamamilə ələ keçirdi. Beləliklə, Dehli sultanlığında **Xələclər** sülaləsi dövrü başladı.

Xələclər oğuz boylarından biri olub, erkən vaxtlarda Oğuz ittifaqından ayrılaraq Əfqanıstan və Hindistanda geniş ərazilərdə məskunlaşmışdılar. Qurlu dövlətinin formalaşmasında böyük rol oynayan xələclər Hindistan səfərlərinin də əsas hərbi gücünü təşkil edirdilər. Xələclər Leknevti, Dehli və Malva bölgələrində məskunlaşaraq, burada

1202-1531-ci illər arasında davam edəcək sülalə hakimiyyətlərini yaratdılar. Xələclərin ən güclü hökmdarı özünü "İkinci İsgəndər" (İsgəndəri-sani) adlandıran Benqal və Şərqi Hindistanda İslam dinini ilk yayan və bütün hind racalarını öz ətrafında birləşdirən Məhəmməd Xalaci idi. 1290-1316-cı illərdə Dehli sultanı olan Məhəmməd Xalaci hələ Karrada əmirlik edərkən Bhilsaya hücum edib şəhəri ələ keçirmiş, Ucceynə gedən yolu hindlilərdən təmizləyib, ələ keçirdiyi qənimətləri Firuz şaha təqdim etmişdi. Onun Devaqiri və Hindistanın ən varlı racalığı olan Qucarat racalığına təşkil etdiyi hərbi səfər uğurla nəticələnmiş və beləcə, türklərin hakimiyyəti Cənubi Hindistan ərazilərini də əhatə etmişdir. Əmisi Firuzşah 1296-cı ildə öldürüldükdən sonra Məhəmməd Xalaci sultanlığı öz əlinə aldı və *"Əlaəddin Məhəmməd"* adıyla taxta oturdu.

Məhəmməd Xalaci hakimiyyətə gəldikdə Hindistan təkrar moğol istilası ilə üzləşmişdi. Xüsusilə də Elxanlı və Cığatay uluslarına bağlı moğol orduları Şimali Hindistanı ələ keçirmək üçün davamlı hücumlar həyata keçirməyə başlamışdılar. 1306-cı ildə meydana gələn moğol hücumlarının qarşısını alan Məhəmməd əsir aldığı və müsəlmanlığı qəbul edən moğolları Dehli ətrafında məskunlaşdırdı. Həm özü, həm də əmri altında olan Dipalpur əyaləti hakimi Məlik Qazi Tuğluğun arxa-arxaya moğollara etdikləri hücumlar nəticəsində moğol təhlükəsi tamamilə ortadan qaldırıldı. Bundan sonra Məhəmməd Hindistandakı fəth mübarizələrini davam etdirməyə başladı. 1301-ci ildə ələ keçirilən Qucaratdan sonra 1303-cü ildə Çitor, 1305-ci ildə Mandu, 1307-ci ildə Dəvagiri, 1310-cu ildə isə Madura və Dvarasanudra əyaləti sultanlığın nəzarəti altına keçdi. Beləliklə, Dehli türk sultanlığı Hindistanın böyük bir hissəsinə sahib oldu.

1316-cı ildə Məhəmməd Xalacinin vəfatından sonra *"Qütbəddin"* ləqəbilə Mübarəkşah taxta otursa da, 1320-ci ildə Xosrov adlı hindu bir qulam tərəfindən öldürüldü.



Hakimiyyəti ələ keçirən Xosrov sarayda hind dini mərasimləri təşkil edərək, *induizmi* diriltməyə çalışdı. Onun fəaliyyətləri Dipalpur hakimi Qazi Məlik Tuğluğun qəzəbinə səbəb oldu. Hindistanda İslam dininin üstünlüyünü yenidən təsis etmək məqsədilə ordusunu toplayıb, Dehliyə doğru səfərə çıxan Qazi Məlik Xosrov xanı ələ keçirib edam etdirdi və Xələclər sülaləsinin hakimiyyətinə son qoydu.

Qiyasəddin ləqəbiylə Dehli türk sultanlığının taxtına oturan Tuğluq ata tərəfdən türk, ana tərəfdən hindli idi. O, Hindistanda **Tuğluqşahlar** sülaləsinin hakimiyyətini təsis etdi. İçərisindən doqquz hökmdar çıxan bu xanədan 1320-1413-cü illər arasında Hindistanı idarə etdilər. Məzhəbi baxımdan hənəfi olan Tuğluqşahlar Hindistanda *Tuğluqabad* və ya *Dövlətabad* deyilən yeni bir paytaxt inşa etdilər. Ancaq xanədanın banisi Qiyasəddin Tuğluqşahın hakimiyyəti cəmi dörd il davam etdi. 1325-ci ildə hakimiyyətdə oğlu Məhəmməd onu əvəz etdi və 1351-ci ilə qədər dövləti idarə etdi. Bu xanədanın ən güclü hökmdarı Firuzşah Tuğluq oldu.

Firuzşah vaxtında *(1351-1388)* uğurlu səfərlər azaldı, ancaq dövlətin daxili fəaliyyətləri çoxaldı. Dinə və mədəni fəaliyyətlərə daha böyük maraq göstərən Firuzşah saysız ədib və şairləri himayə edib, böyük ədəbi məclislər təşkil etdi. Alimlərin parlaq və gözəl əsərlər ərsəyə gətirməsini istəyən Firuzşah, *divani-risalətə* müraciət edən bütün alimlərin maaşla təmin edilməsini əmr etmişdi. Vəqf və mədrəsələri maddi cəhətdən dəstəkləyən hökmdar bölgədə müsəlman dininin təsirinin artmasına şərait yaratdı. Xalqına qarşı da mərhəmətli olan Firuzşah, xüsusilə də Hindistan müsəlmanları tərəfindən çox sevilən bir hökmdar olmuşdur. Həyata keçirdiyi tədbirlərlə müsəlman və qeyri-müsəlmanlar arasında münasibətlərin inkişafına şərait yaratdı. Gördüyü tədbirlər nəticəsində Hindistanda iqtisadi imkanlar genişləndi və xalqının rifahı xeyli yaxşılaşdı.

Bütün bunlara baxmayaraq, Firuzşahın hakimiyyətinin son dövrü problemlərlə yadda qaldı. Hərbi iqta sistemi yenidən güclənərək dövlət daxilində təsirli olmağa başladı. Ölümündən sonra Tuğluqşahlar xanədanlığı bir neçə qola ayrıldılar. II Qiyasəddin, III Məhəmməd, I İsgəndər, Mahmud və Nüsrət şahlar arasında rəqabətlə keçən 25 illik dövrdə Tuğluqşahlar tamamilə tənəzzül etdilər.

Tuğluqşahlardan sonra da bir müddət Pəncab hakimi Xızırşahın başçılığında **Seyyidilər** *(1414-1451)* sülaləsi Hindistanı idarə etdi. Seyyidilər hind və məcusilərlə yaxşı münasibətlər təsis etdilər. Onları **Lodilər** sülaləsi *(1451-1526)* əvəzlədi. Onların zamanında Hindistanda əfqan təsiri başlamış və bu təsir Babur (Böyük Moğol) dövrünə qədər davam etmişdir.

Tarixçilər Lodiləri əfqanlaşmış bir türk ailəsi hesab edirlər. İsgəndər Lodi dövründə fəth siyasətini davam etdirən Lodilər, sultanlığın Hindistandakı təsirini qorumağa çalışdılar. Baburun İbrahim Lodini məğlub etməsindən sonra Dehli türk sultanlığı dövrü başa çatdı və Hindistanda bir digər türk hakimiyyəti olan və müasir tarixşünaslıqda "Böyük Moğol" adlandırılan Babur *(1526-1848)* dövrü başladı.

Dehli türk sultanlığının tənəzzülü və süqutuyla paralel olaraq Hindistan ərzisində bir sıra müstəqil türk dövlətləri ortaya çıxdı. Bu dövlətlərdən biri olan **Adilşahlar** *(1490-1686)* yarımadanın cənub-qərbindəki Biçaburda qurulmuşdur. Digər bir türk dövləti **Bəridşahlar** *(1492-1619)* Bahmani hökmdarı II Məhəmmədin sarayına türk qulam olaraq baş vəzirliyə qədər yüksəlmiş biri tərəfindən yaradıldı. **Qütbşahlar** (1512-1687) dövlət isə Şərqi Deqqan bölgəsində ortaya çıxan qaraqoyunlu əsilli başqa bir türk dövləti idi. Şiə məzhəbini qəbul edən Qütbşahlar Hindistanda Heydərabad şəhərini inşa edib, cameləri, baxçaları, sarayları, bazarları, xanəgahları və məqbərələri ilə göz qamaşdıran böyük bir şəhərin əsasını qoydular. Məşhur qələbə abidəsi olan Çar Minar, Çar Kaman çarşısı, yer altı su sərnici – Çar Su, darüşşəfa, aşurxana, ədalət sarayı olan Dad Mahal Qütbşahların hökmdarı Məhəmməd Qulu xan tərəfindən tikdirilmişdir. Dehli türk sultanlığında hakimiyyətlərinə son qoyulan xələclər isə, əsasən ata yurdları Malvada öz hakimiyyətlərini qurdular. **Malva Xələc sultanlığı** bu bölgədə yüz ildən çox *(1392-1562)* varlığını davam etdirdi.

Qurlulardan başlayaraq Dehli türk sultanlığının sonuna qədər Hindistan tarixində türk əsilli qulamlar əsas rol oynamışdılar. Onlar dövlətdə xüsusi bir güc sahibi idilər, əsasən də saray bürokratiyasını əldə tuturdular. Bunun qarşısını almaq üçün Firuz şah *həbəşilər* başda olmaqla, fərqli millətlərdən topladığı əsirləri qulam sisteminə daxil etməklə türklərin təsirini azaltmağa çalışmışdı.

Dehli türk sultanlığında idarəetmənin başında vəzir dayanırdı. Divani-vəzarət, divani-inşa, divani-istifayi məmalik, divani-işrafi məmalik və divani-ərz dövlətin ən mühüm hökumət qurumları hesab edilirdi. Balaban tərəfindən gücləndirilən *bərid* ölkədəki kəşfiyyat fəaliyyətlərini izləyirdi. Sultanlıq ordusunu, əsasən süvari dəstələrdən ibarət olan hərbi dəstələr təşkil edirdi. Bu dəstələrdə türklər atlı olaraq yer alır, hindli əsgərlər piyada və bəzən də fillərdən meydana gələn oxçular olaraq xidmət göstərirdilər. Türk ordularında xidmət göstərən fillər Benqaldan, atlar isə Türküstan və Xorasandan təmin olunurdu.

Dehli türk sultanlığının saraylarında çox sayda şair və elm adamı himayə olunurdu. Elmə və sənətə heyranlığı ilə bilinən Balaban Fəridsəddin Məsud, Sədrəddin ibn Bəhaəddin Zəkəriyyə, Bədrəddin Qəznəvi kimi dövrünün böyük sufi şeyxlərinə, Bədrəddin Dəməşqi, Hüsaməddin kimi tibb alimlərinə himayədarlıq edirdi. Türk olmasına baxmayaraq, əsərlərini farsca yazan Əmir Dəhləvi Nizaminin təsirində onu nümunə alaraq beş əsər (*xəmsə*) ərsəyə gətirmişdi. Delhi türk sultanlığı dövrünün bir başqa tanınmış şairi Həsən Səncəri idi.



*"Qütb Minar" minarəsi*



Bu dövrdə çox sayda tarix əsəri ərsəyə gətirilmişdir. Ziyaəddin Bərəni adlı müəllif 1357-ci ilə qədərki hadisələri əhatə edən Dehli türk sultanlığının başlıca tarix mənbəyi adlandırılan "*Tarixi-Firuz şah*"ı qələmə almışdır. 1334-1342-ci illər arasında Hindistanı ziyarət edən böyük müsəlman səyyahı İbn Battuta bir müddət Məhəmməd ibn Tuğluqun sarayında yaşamış və Hindistan haqqında olduqca qiymətli məlumatlar vermişdir.

Dehli sultanlığı günümüzə qədər gələn bir çox abidəvi əsərlər ortaya qoyub, yeni şəhərlər tikdirdilər. Qütbəddin Aybək "Qütb Minar" adlı 79 metrlik minarəni inşa etdirdi. Həmin minarə İltutmuş dövründə tamamlandı. Aybək eyni zamanda "Qutvətül-İslam" adlı bir məscid də tikdirmişdi. İltutmuş, Balaban və Firuzşahın məqbərələri türk-müsəlman memarlığının qiymətli inciləri arasında göstərilir. Hindistandakı memarlıq nümunələri Səlcuqlu inşaat üslubu və texnikası təsirindən formalaşmışdır. Elmə və dinə verdiyi əhəmiyyətlə tanınan Firuzşah Dehlidə hovuz kənarında Havzi-Xas adlı böyük bir mədrəsə tikdirdi. Eyni hökmdar məscid, imarət, xalqın istifadəsinə açıq çarhovuzlar, xəstəxana, hamamlar və körpülər tikdirərək ölkənin maddi-mədəni səviyyəsinə təkan vermişdir. Badaunda Havzi-Şəmsi adlı hovuz, Cameyi-Məscid adlı xalqa açıq ibadət və məkanlar inşa etdirən İltutmuş da sosial məsələlərə yaxından diqqət ayıran bir hökmdar olmuşdur.

Türk sülalələrinin hakimiyyəti dövründə Hindistan dil və ədəbiyyat sahəsində özünün ən parlaq dövrünü yaşamışdır. Türklər Hindistanda tarixin nadir hallarda şahid olduğu böyük bir xoşgörü sərgiləmişdilər. Onlar hindlilərin inanclarına, dillərinə və adətlərinə müdaxilə etmədikləri kimi, buna cəhd göstərənləri də ağır şəkildə cəzalandırırdılar. Bölgədə iddia edildiyinin əksinə, qədimdən etibarən homogen bir vəziyyət olmadığından, ümumi mənada *hindu* və ya *hindli* deyilən xalq da fərqli dildən və kimlikdən onlarla, hətta yüzlərlə kökdən gəlirdi. Buna



*"Dad Mahal" sarayının qalıqları*



*"Şəmsəddin İltutmuş" türbəsi*



görə də *benqali, kəşmiri, pəncabi* kimi fərqli dil və ləhcələr geniş kütlələr tərəfindən istifadə edilirdi.

Bu vəziyyət qarşısında türklər yerli əhaliylə ünsiyyət münasibətləri yaratmaq üçün ortaq bir dilin təsis edilməsinə cəhd etdilər. Müqəddəs mətnlərin dili olan sanskritcənin ancaq məhdud bir təbəqəyə xitab edə bildiyini görərək, ortaq dilin Dehli və ətrafında danışılan *khariboli* ləhcəsini mərkəzə yerləşdirməyə başladılar. Bu ləhcəni idarələri altındakı geniş Hindistan torpaqlarına yayaraq, oralarda da danışılmasına səbəb oldular. Tədqiqatçıların bir çoxu *hindcənin* günümüzdəki halında ortaq dil forması qazanmasında türklərin rolunun əvəzedilməz olduğunu qeyd edirlər. Dilçi alim Ramçandra Şukla *(1884-1941)* orta əsrlərdə yaşayan hindli şairlərin *khariboli* ləhcəsini müsəlmanlara xas bir dili kimi anladıqlarını iddia edir.

Türk hakimiyyətiylə paralel olaraq Hind yarımadasında, xüsusilə də yarımadanın cənubunda İslam dini yayılmağa başladı. Sosial olaraq qatı kast sisteminə mənsub hindlilərin bir hissəsi İslamın vəd etdiyi ümmət prinsiplərindən faydalanaraq, könüllü şəkildə müsəlmanlığı seçdilər. Çox sayda müsəlman alim və şeyxi də məscidlərdə, mədrəsələrdə açıq şəkildə dini təbliğ edərək, əhalinin müsəlmanlaşmasına şərait yaratdılar. Ancaq bu münasibətlər təktərəfli deyildi. Çox sayda müsəlman da hindlilərin çiləkeş inanc sistemindən təsirləndi və bu tərz həyat anlayışını sufilik vasitəsilə müsəlmanların təsəvvüf düşüncəsinə daşıdı. Nasir şah hindlilərin müqəddəs mətn saydıqları Mahabharata dastanının *benqal* dilinə tərcümə edilməsi üçün təlimat vermişdi.

Sanksrit dili sadəcə hindli rahiblərin və din adamlarının anladıqları bir dil idi. Kast sistemi gərəyincə belə dini mətnləri qavramaq sadəcə brahmanlara xasdı. Türk xanədanları bütün hindlilərin öz müqəddəs kitablarından istifadəsinə şərait yaratmaq məqsədilə onların ləhcələrə tərcüməsinə imkan yaratdılar. Hətta türk hakimləri ərəb və

fars dilləri xaricində hind dillərində də elmi və bədii əsərlərin ərsəyə gəlməsinə dəstək verdilər. Dəqiq elmlərdə əsərlər yazan Bhanukara, Bhatta, Pundarika Vithala kimi hind əsilli alimlər türk hökmdarları tərəfindən himayə edildilər. Məsud Sad Salman, Qütb Əli kimi müsəlman şairlər hind dillərində də şeirlər yazdılar. Hind dil və ədəbiyyatının inkişafına ən böyük töhfə verən şair Əmir Xosrov oldu.

Türk elm adamları, sufilər və ordu mənsubları yerli əhaliylə qurduqları ünsiyyət sayəsində çox sayda türkcə kəlmə və termin hind dilinə daxil oldu. Hind ədəbiyyatında Hind-sufi adlanan bir tərz formalaşdı. Bu tərzin günümüzə qədər gəlib çatan ən məşhur əsəri 1379-cu ildə Mövlana Davut tərəfindən yazılan *"Çandayan"* əsəridir. Müəllif Firuzşah Tuğluq dövründə yaşamış, onun katibləri cərgəsində yer almışdır. Əsərdə Lorik adında bir gənc ilə Govar bölgəsinin şahzadəsi Çanda arasında yaşanan məhəbbət mövzusu təməl alınmışdır. Bu tərzin digər bir nümunəsi Qutuban Sührəverdi tərəfindən 1503-cü ildə toplanaraq yazıya alınan *"Miriqavati"*dir. Bu əsərin də mövzusu məhəbbət olub, dərin simvolik üslubuyla insanın ilahi eşqə qovuşması teması işlənmişdir. *Padmavat*, *Madhumalati* kimi Hind-sufi ədəbiyyatına aid edilən başqa əsərlər də bu dövrün məhsuludur. Bütün bunlar hind dilləri, ədəbiyyatı qədər hind düşüncəsi üzərində türklərin köklü təsir buraxdıqlarını göstərir.



# ƏLAVƏ OXU

## VIII.I. Ədəbiyyat


- Bayur Yusif Hikmet, *Hindistan Tarihi (en eski çağlardan günümüze*) Ankara: TTK Yayınları, 1987, c I-III.
- Burn R, *The Cambridge History of İndia*, Cambridge 1937, vol. IV.
- Emektar Melek, *Hindistan Türk-İslam Devletlerinde Eğitim-Öğretim Teşkilatı*, Ankara Hacı Bayram Veli Üniversitesi Lisansüstü Eğitim Enstitüsü, Ankara: Ekim 2019.
- Kansoy Umut, *Delhi Türk Sultanlığı`nda Ordu (1206-1414)*, Marmara Üniversitesi Türkiyat Araştırmaları Enstitüsü Doktora Tezi, İstanbul 2018.
- Merçil Erdoğan, *Müslüman-Türk Devletleri Tarihi*, Ankara: TTK Yayınları, 2011.
- Şeşen Ramazan, *Eyyubiler (1169-1260)*, İstanbul: İSAM Yayınları, 2012.


## VIII.II. Suallar

1. Səlcuqlu dövrünün başlıca xüsusiyyətləri hansılardır?
2. Azərbaycan atabəyləri hansı türk boyuna mənsub idi?
3. Zəngi atabəyliyinin səlibçilərə qarşı əldə etdikləri əsas qələbələr hansılardır?
4. Hindistanda türk dövlətlərinin ortaya çıxmasının əsas səbəbləri nələrdir?

### VIII.III. Tapşırıqlar

1. Xarəzmşahlar dövlətinin süqutunun səbəblərini açıqlayın.
2. Hindistandakı türk dövlətlərinin tarixini və ərazilərini müəyyən edin.
3. İnternet qaynaqlarından istifadə edərək Hindistandakı türk memarlıq abidələri haqqında araşdırma aparın.
4. Səlahəddin Əyyubi ailəsinin ata yurdu Dvin haqqında araşdırma aparın.

## VIII.IV. Dehli türk sultanlığının hökmdar sülalələri siyahısı

### VIII.IV.1. Qütbilər (1206-1266)

| | |
|---|---|
| Qütbəddin Aybək | 1206-1210 |
| Şəmsəddin İltutmuş | 1210-1236 |
| Rüknəddin Firuzşah | 1236 |
| Sultan Raziyyə | 1236-1240 |
| Muizziddin Bəhramşah | 1240-1242 |
| Əlaəddin Məsudşah | 1242-1246 |
| Nəsrəddin Mahmudşah | 1246-1265 |

### VIII.IV.2. Balabanlar (1266-1290)

| | |
|---|---|
| Qiyasəddin Balaban | 1266-1286 |
| Keyqubad | 1286-1290 |

### VIII.IV.3. Xələclər (1290-1321)

| | |
|---|---|
| Cəlaləddin Firuzşah | 1290-1297 |
| Əlaəddin Məhəmmədşah | 1297-1316 |
| Mübarəkşah Qütbəddin | 1316-1320 |
| Xosrovşah | 1320-1321 |

### VIII.IV.4. Tuğluqşahlar (1321-1413)

| | |
|---|---|
| Qiyasəddin Tuğluq | 1321-1325 |
| Məhəmməd Tuğluq | 1325-1351 |
| Firuzşah | 1351-1388 |
| II Tuğluq | 1388-1389 |
| Əbubəkr | 1389-1390 |
| Nəsrəddin Mahmudşah | 1390-1413 |



### VIII.IV.5. Seyyidlər (1414-1451)

| | |
|---|---|
| Xızırşah | 1414-1421 |
| Mübarəkşah | 1421-1434 |
| Məhəmmədşah | 1434-1443 |
| Əlaəddin ibn Mahmudşah | 1443-1451 |

### VIII.IV.6. Lodilər (1451-1526)

| | |
|---|---|
| Bəhlul şah | 1451-1488 |
| İsgəndər | 1488-1517 |
| İbrahim Lodi | 1517-1526 |

*Doqquzuncu fəsil*

# MOĞOLLAR VƏ TÜRKLƏR



Çingiz xanın "moğol" adını verdiyi boylar ittifaqı siyasi, hərbi, sosial və mədəni cəhətdən *bozqır mədəniyyətinin* bir parçası idi. Kökləri skiflərə (*işquz*) qədər gedib çıxan bu mədəniyyətin tarix boyunca aparıcı ünsürü türklər olublar. Bozqır mədəniyyətinin iki böyük gücü olan hunlar və göytürklər dünyanın müxtəlif yerlərində ortaya çıxan mədəniyyətlər arasında birləşdirici rol oynadılar. Onlar sayəsində qədim mədəniyyətlər bir-birilərini yaxından tanıdılar və dünya xalqları arasında qarşılıqlı əlaqələr yarandı. Yüksək hərbi nizam və strategiya təməlində formalaşan bozqır mədəniyyəti dünyada yeni münasibətlər sisteminin yaranmasında həlledici rol oynadı. Sasani, Xilafət, Roma-Bizans və Çin öz hərbi-siyasi sistemlərini türk hərbi sisteminə uyğunlaşdırmaq məcburiyyətində qaldılar və bu məqsədlə öz ordularına türkləri cəlb etdilər. XIII əsrin əvvəllərində bu sistem moğollar tərəfindən yenidən təşkilatlandırıldı və nəticədə dünya tarixində moğollarla bağlı

olan bir dövr başladı. Ancaq "moğol" adı Çingiz xanın türklərdən və moğollardan meydana gətirdiyi ittifaqın adı idi.

Moğollar hərbi cəhətdən və siyasi baxımdan təsirli olsalar da, mədəni baxımdan zəif idilər. Bu səbəbdən Çingiz xan uyğurlar vasitəsilə qədim türk mədəni ünsürlərini sürətlə mənimsədi. Moğol orduları İslam dünyasını və Çini ələ keçirdikdə isə sürətlə həmin kimliklərin mədəni gücünün və münasibətlərinin təsirləri altında əriməyə başladılar. Cığataylarda Mübarək xan, Qızıl Ordada Özbək xan, Elxanlılarda isə Qazan xan dövründə müsəlmanlaşan moğol ulusları tamamilə müsəlman-türk kimliyinin bir parçası halına gəldi. Nəticədə moğolların hücumları müsəlman-türk dünyasında müsəlmanlaşma prosesinə xidmət etdi və həmin bölgənin daha da genişləməsinə yol açdı. Bu prosesin sonunda bir çoxu xrisitanlığı qəbul etmiş qıpçaqların tamamı müsəlman oldu. Müsəlmanlaşma qazax-qırğız xalqları arasında yayılmağa başladı. Moğolların Çindəki qolu isə çinliləşdi. Monqolustanda qalan az saylı tayfalar buddizmin təsiri altına girdilər.





## 9.1. MOĞOL KİMLİYİ VƏ İSTİLALARININ MAHİYYƏTİ

Çin mənbələrində moğollar haqqında ilk məlumatlar e.ə.II əsrə aiddir. Bu tarixdən əvvəlki dövlərdə türklər ilə moğol xalqlarını bir-birindən ayırmaq çox çətindir. E.ə.II əsrdə qədim moğol xalqları Kökə-nor, cənubi Sibir, şimal-qərbi Mancuriya və şərqi Monqolustanda məskunlaşmışdılar. Bəzi moğol tayfaları türklərin çoxluq təşkil etdiyi Orxon və Tula çayları, Kadırqan dağları, Şimali Mancuriya və Sibirə də yayılmışdı. Türk-moğol dünyasını Tula çayı ilə Kerulen çayının mənsəbi ayırırdı. Amma bu sərhəd tez-tez pozulurdu.

Qədim moğol xalqları daha çox Mancuriya və Amur bölgəsində məskunlaşmışdı. Mancuriyanın şimal xətti istiqamətində qədim tunquzlar və qədim moğollar yerləşmişdi. Şimali Mancuriyanın qərbində yer alan Nonni çayı ətrafında kidanlar, onların da şimalında şi-veilər (şih-vei) yurd salmışdı. Kidan və şi-veilərin qərbində indiki şərqi Monqolustanda, Onon və Kerulen çayları sahili boyunca



*Böyük Moğol imperiyası*



çoxsaylı tatar boyları yaşayırdı. 1020-ci ildə kidanlarla koreyalılar arasında bağlanan sülhə görə, Yalu çayı iki xalq arasında sərhəd qəbul edilirdi. Türk və moğol tayfaları Göytürklər dövründə *(552-742)* Kinqan dağları ilə Yuxarı Kerulen çayı ətrafında qarşılıqlı əlaqədə idilər. Çingiz xan dövründə əsas hadisələrin cərəyan etdiyi və türk-moğol ittifaqının yarandığı əsas ərazilər də Onon, Kerulen çayları ilə Kinqan dağları ətrafı hesab edilirdi.

Çingiz xan bu ərazilərdə yaşayan və müxtəlif qollara, tayfalara və qəbilələrə ayrılan türk və moğol tayfalarını vahid bir siyasi hakimiyyət altında birləşdirib, onlara ümumi "*moğol*" adını verənə qədər tarixdə moğollar haqqında dəqiq məlumat olmayıb. O vaxta qədər mənşəyi bilinməyən "moğol tayfası" şi-vei tayfaları arasında kiçik bir qəbilə təşkil edirdi.

Şi-vei adı çincədir. Bu adın moğolcasının şibek olduğu ehtimal edilir. Çincə "şi" və "vei" sözlərinin birləşməsindən yaranan bu ad "yol, itirilmiş yol, ev, şərait" kimi müxtəlif mənalar daşıyır. Dillərinin isə *ku-mo-hi*, *kıtan* (*kitay*), *mo-ho* və *tou-mo-lou* xalqlarının dili ilə eyni olduğu qeyd edilir. Kidanlar şimalda yerləşən əraziyə bu səbəbdən Şi-vei deyirdi. Bir çox mənbədə onlar kidanların bir qolu hesab edilir. Kidan və şi-vei tayfasının tunq-hulardan (*tunquz*) törədiyi, bəzən də *tinq-linglərin* (qədim oğuzlar) törəmələri olduğu bildirilir.

Şi-veilər, əslində bir çox tayfanın qarışmasından meydana gəlmiş xalq idi. Aralarında kidan/kitay, tunq-hu (tunquz), tinq-ling (tölis-oğuz), siyenbi (kay/kayı) və hun tayfaları yaşayırdı. Şi-veilərin mənşəyinin qarışıq olduğunu müasir monqol tarixçiləri də qəbul edirlər. Onlara görə, *munq-qu* (menq-vu/monqol) və *vu-van* tayfaları xaricində digər tayfaları tunq-hu (tunquz) qəbul etmək mümkündür.

Başqa bir fikrə görə, *monqol* adı XII əsrdə Çingiz xanın meydana gətirdiyi siyasi ittifaqın adı idi. XII əsrdə bu adı mənimsəyən türk-tatar mənşəli tayfalar Onon, Yuxarı Tula

və Kerulen çayı ətrafında və Baykal gölünün cənubunda yaşayırdılar.

Orta əsr mənbələrində moğol adı türklərlə əlaqədar çəkilir. Elxanlı dövlətinin vəziri F.Rəşidəddin – "Moğollar türklərin bir boyudur" – deyə qeyd edir. Mirzə Məhəmməd Heydər *(Mirzə Heydər ibn Məhəmməd Hüseyn Duqlat; 1499-1551)* də – "Türklər və moğollar eyni ulusdur" – deyə yazır. Fəzlullah Rəşidəddinə görə, "türk və moğol xalqları bir-birinə oxşasa və mənşə olaraq eyni kökə bağlansalar da, moğollar türklərin bir sinfidir və aralarında bəzi fərqlər vardır. Bu gün moğol olaraq adlandırdığımız uluslar, qədim dövrlərdə bu adla adlandırılmayıb. Moğol adı daha sonra ortaya çıxıb. Bizim dövrümüzdə moğol xalqı türk uluslarından ancaq birini təşkil edir. Digər türk tayfalarının moğol adını alması onların qazandıqları şan və şöhrətdən irəli gəlir. Bu, eyni xalqların daha əvvəl *tatar* adını almasına oxşayır. Tatarların özləri də türk tayfasıdır".

Ancaq hazırda moğol adlanan xalq ilə türklər arasında antropoloji fərqlər var. Hər nə qədər moğol və türk xalqları eyni dil ailəsinə mənsub olsalar da, arxeoloji materiallar türklərin avropoid (*brakisefal*), moğolların isə *monqoloid* irqə mənsub olduqlarını iddia edir. Amma bu fərq onların tarix boyu eyni siyasi kimlik və ittifaqlar içərisində yer almasına, dil və mədəni baxımdan bir-birinə təsir etməsinə maneə təşkil etməyib. Bu gün Monqolustanda yaşayan moğollar, əsasən *xalxa* kimliyinə bağlıdırlar və tarixi moğol kimliyi ilə aralarında müəyyən fərqliliklər mövcuddur. Tarix boyu moğollar arasında türkləşmiş tayfalar olduğu kimi, türklər arasında da moğollaşmış tayfalar çox olub. Fransız şərqşünas Klaud Kahenə *(Claude Cahen; 1909-1991)* görə, "moğol boyları əvvəlcə cənubi hunların, sonra şimali hunların, sonra türklərin (Göytürklərin), daha sonra da qərbi uyğurların, yəni təxminən 1000 il türk imperiyalarının bir parçası olub. XI əsrdə qərb uyğurlarının əsas kütləsi, *qanqlı* və *xələclər* üzlərini qərbə çevirib şərqdə meydanı



*qarakitaylara* buraxdıqda, moğol tayfaları yarımüstəqil həyat sürməyə başlayıb Nirun olaraq adlandırılan bir ailə ətrafında birləşərək türklərlə federasiya halında yaşayıblar... XII əsrdə moğollar arasında *kerait*, *nayman* və *qarluq* kimi türklər yaşayırdı".

Moğol tayfaları "monqol/moğol" adını almamışdan əvvəl türklər tərəfindən "tatar" adlandırılıblar. Tatar adı müxtəlif mənalar kəsb edir. Türklər özlərindən olmayanlara və şəhərləşən xalqlara "*tat*" və "*tatcık*" deyirdilər. Çin mənbələri VIII-XII əsrlər arasında moğolca danışan bütün tayfalara *ta-ta* (*tatar*) adını veriblər. Ancaq Çingiz xan dövründə moğollar onlara "tatar" deyilməsindən narazı idilər.

Çin salnamələrində ju-juanların ortaya çıxmasından bəhs edilərkən bu dövlətin banisi Mu-ku-lu adlandırılır. Mu-ku-lu sözünü çinlilər öz dillərinə "keçəl", yəni başı daz olan mənasında tərcümə ediblər. Həmin mənbələrə görə, onun nəsli daha sonra *mukulu* (*moğol*) boyu adlandı. Bu məlumat moğol adının şəxs adı kimi ortaya çıxdığını göstərir.





*Moğol döyüşçüləri əks olunmuş miniatürlər.*
*Fəzlullah Rəşidəddin – "Came ət-təvarix"*



*Moğol döyüşçüsü əks olunmuş miniatür.*
*"Viktoriya və Albert" muzeyi. London.*

Göytürk dövrü moğolların tarixində yeni bir mərhələ oldu. Həmin dövrdə moğol və moğollaşmış türklər beş böyük qola ayrılırdı. Onlar kidanlar, tatabilər, şi-veilər, tatarlar və tu-yu-hunlar adlanırdılar.

XII əsrdə Monqolustanın ən güclü tayfaları *tatarlar* və *merkitlər* hesab edilirdi. Baykal gölünün cənub-şərqindən aşağıda Selenge ətrafına qədər olan ərazilərdə məskunlaşan merkitlər ovçuluqla məşğul olan türk boyu idi. Tatarlar isə merkitlərin şərqində və Buyr Nuurun *(moğolca: Буйр нуур – Buyr gölü)* cənubunda yaşayırdılar. Tatarlar Çingiz xana qədər moğolların hərbi cəhətdən ən güclü boyu idi və türkcə danışırdılar. Moğollara *tatar* deyilməsinin bir səbəbi də onların siyasi və əhali baxımından bölgənin ən böyük topluluğu olması idi.





*Çingiz xanın portreti.*
*İmperator Saray muzeyi. Tayvan.*

Moğol ittifaqında türklərin qırğız və uyrat boyları da yer alırdı. Onlardan uyratlar uyğurlardan ayrılmış bir boy olub, Baykal gölünün qərbindəki meşəlik ərazilərdə məskunlaşmışdılar. Uyrat (*uryat/oryat*) adının "uyğur-at" adının qısaltması olduğu fikri irəli sürülüb.

Çingiz xanın hakimiyyəti altında olan əhalinin əsas boyunu *borçiginlər* və *tayciutlar* təşkil edirdi. Borçigin adı "boz qurd" mənasındadır və Çingiz xanın sülaləsinin adıdır. Onon və Kerulen çayları arasındakı ərazidə məskunlaşmışdılar. Onon və İnqoda çaylarının birləşdiyi ərazidə isə tayciutlar yurd salmışdı.

Çingiz xanın qurduğu dövlətin yaranmasında mühüm rol oynamış *ongirat* və *cəlairli* boyları da türk əsillidir. Onlardan ongiratlar Buyr Nuurun cənub-şərqində, cəlairlilər isə Selenge və Onon çayları arasında yerləşmişdilər. Qobi gölünün cənubu və Çinin şimalında yerləşən, çinlilərin "*ağ tatarlar*" adını verdikləri öngütlər də türk kökənli bir tayfa idi. Öngütlər xristianlığın nəsturi inancını qəbul etmişdilər.

Moğol ittifaqına sonradan daxil olmasına rəğmən, Çingiz xan dövlətinin bel sütununu təşkil edən başqa bir türk tayfası uyğurlar olub. Moğollar yazını, dövlət idarəsini, ticarəti uyğurlardan öyrənmiş və uyğurlar Çingiz xan imperiyasının mədəni simasını təşkil etmişdir. *763-cü il*də manixeizmi dövlət dini olaraq qəbul edən uyğurlar, X əsrdən etibarən buddizm və nəsturi inanclarına meyil etdilər və XI əsrdə uyğurlar arasında manixeizmə inanan qalmadı.

Verilən məlumatlardan belə aydın olur ki, Çingiz xanın yaratdığı Moğol ittifaqında yer alan 11 tayfadan 9-u türk və monqollaşmış türk tayfası idi. Bu halda belə Böyük Moğol dövlətini türk dövləti adlandırmaq çətindir. Ancaq quruluş, idarə və hərbi struktur baxımından Moğol dövlətinin Göytürk dövlətindən heç bir fərqi yoxdur. Hətta Çingiz xanla bağlı əfsanə və rəvayətlərdə də Göytürk izləri bariz şəkildə görünür.

Belə ki, Çingiz xanın formalaşdırdığı moğol kimliyinin əsasında iki ünsür yer alır: Nirunlar və Dürliginlər. Rəşidəddin "Cami ət-Təvarix" əsərinin dördüncü hissəsinin "Qədim dövrlərdə moğol olan türk tayfaları" fəslində, moğol tayfalarının *nirun* və *dürligin* olaraq iki yerə ayrıldığını qeyd edir. Ona görə, "nirunlar Alan-qoa nəslindən gələnlər"ə verilən addır. Digər moğollar isə dürligin adını alır". Burada nirunların ilk nümayəndəsi olaraq adı çəkilən Alan-qoanın "Çingiz xanın ulu nənəsi, Bayan xanın qızı" olduğu məlumdur.

Nirunlar, börü (bozqurd) moğollarının, dürliginlər isə arslan (aslan) moğollarının adıdır. Monqollar özlərinin



bu iki ailədən törədiklərini iddia ediblər. Bu mənşə inancı göytürklərdəki *aşina-aşite*, yəni qurd-aslan şəklində yaranış dastanı ilə eynidir.

Çingiz soyunun ilk nümayəndəsi Bataçi xandır. Onunla Çingiz arasında 20 nəsil mövcud olub. Çingizin ulu babası Kabul xaqan moğol-tatarlar arasında hökmdar hesab olunurdu. Ondan sonra Bartan və Yesugey onun mirasını davam etdirdilər. Ancaq Çingiz hələ uşaq olarkən atası Yesugey öldürüldü və bu, moğol-tatarlar arasında uzunmüddətli tayfalararası ixtilaflara səbəb oldu. Nəticədə Çingiz 1206-cı ildə bütün moğol və tatar tayfalarını öz hakimiyyəti altında birləşdirib, Moğol dövlətinin əsasını qoydu.

Çingiz xanın yaratdığı dövlət sürətlə genişləndi. Bunun əsas səbəbi Çingiz xanın qəbilələrarası mübarizəni kənar güclərə qarşı çevirməsi və türk-moğol tayfalarını ortaq hədəf istiqamətində birləşdirməsi idi. Çingiz xanın birləşdirdiyi tayfalar böyük nisbətdə şaman-xristian inanclı boylardan meydana gəlirdi. Çingiz xan Mete kimi hərbi intizam altında bütün bu boyları, adına *yasa* deyilən törə nizamı ətrafında birləşdirmişdi. Moğol cəmiyyəti hərbi-aristokratik bir cəmiyyət idi və moğol döyüşçüləri böyük imtiyazlara sahib idilər. Çingiz xan öz xalqından vergi toplamamış, dövləti fəthlərlə əldə edilən sərvətlə inşa etmişdi. Bu baxımdan dövlətin davamlı fəthlər aparması vacib idi. Ordu sistemini onluq, yüzlük, minlik, on minlik dəstələrə görə inşa edən Çingiz xanın ordusunda ən böyük hərbi dəstə *tümən* (on min) sayılırdı. Tümənlərin başında əsasən *noyon* adı verilən böyük komandanlar dayanırdı. Səfər halında hər moğolun orduya qoşulması vacib idi. Sərt nizam-intizam əsasında işləyən Moğol hərbi sistemi kənara qarşı nə qədər vəhşi olsa da, daxildə sakit idi. Belə ki, Çingiz xan yasalarına görə, bir moğolun hər hansı bir səbəbdən başqa moğolu öldürməsi ağır şəkildə cəzalandırılırdı. Hətta həddən artıq içki içib başqalarını narahat etməyin də cəzası vardı.

Moğollar şaman inanclarına bağlı olsalar da, başqa xalqların inanclarına və dinlərinə qarşı loyal münasibət bəsləmiş və dinlərinə görə ayrı-seçkilik etməmişdilər. Bu səbəbdən Çingiz xanın öz ailəsində belə çox sayda xristian, buddist inanclı insanlar vardı.

Çingiz xanın böyük hərbi səfərləri 1211-ci ildə başladı. İlk növbədə Çini, ardından Orta Asiyanı hədəf seçən moğollar Çingiz xanın hakimiyyəti dövründə *(1206-1227)* demək olar ki, Mərkəzi Avrasiyanın tamamını ələ keçirdilər. Öldüyü zaman qurduğu dövlətin əraziləri 24 milyon $km^2$ torpaq sahəsini əhatə edirdi. Lakin moğol istilası nəticəsində bu qədər geniş ərazidə sadəcə 100 milyon əhali yaşayırdı. Həqiqətən də moğol istilası insan fəlakəti baxımından çox ağır və mərhəmətsiz olmuşdur.

Özünü *"Tanrının cəzası"* hesab edən Çingiz, özünün Göy Tanrı tərəfindən dünyaya nizam vermək üçün göndərildiyinə inanırdı. Bu anlayış belə Çingizin Hun, Göytürk hakimiyyət anlayışlarına nə qədər bağlı olduğunu göstərir.

Moğol zərbəsinin effektli və dağıdıcı olmasının əsas səbəbi Moğol hərbi sisteminin xarakterindən qaynaqlanır. Belə ki, bozqır hərbi nizamına görə basqı, qorxu, panika yaratmaq strateji üstünlük hesab edilirdi. Moğollar məqsədli şəkildə böyük qətliamlar törətməklə qarşılarına çıxan güclərdə vahimə yaratmağa çalışaraq psixoloji təzyiqdən güclü şəkildə istifadə ediblər. Digər bir amil moğolların bütün elmi-texnoloji yenilikləri orduda istifadə etmələridir. Çindən öyrəndikləri barıt və top sistemləri qədər, yanıcı maddələrdən istifadə edilməsini, məqsədli şəkildə taun və vəba kimi xəstəlikləri çoxaldaraq, bunu bakterioloji silaha çevirmələri, ən mühümü isə ələ keçirdikləri ölkələrdə birmənalı olaraq sənətkarlara və elm adamlarına toxunmayıb, onları öz dövlətlərində yüksək mövqelərdə yerləşdirmələridir. Bunun nəticəsində keçilməsi çətin yerlərdə körpülər tikib, qayalıqları yararaq, yüksək divarları dağıtmaq üçün mancanaqlar quraraq ordunun hücumlarının təsirini və



sürətini artırmışdılar. Moğollar bütün hiylələrdən hərbi məqsədlər üçün istifadə edirdilər. Gərəkdikdə quşlardan, heyvanlardan, arabalardan öz hərbi məqsədləri üçün yararlanırdılar. Moğollar Çində bir şəhəri ələ keçirmək məqsədilə on minlərlə quşun ayağına ip bağlayıb, bu ipləri yandıraraq quşların şəhərə uçmasına və böyük bir yanğın çıxarmasına səbəb olmuşdular. Bəzən də hərbi məqsədlə bütün əhalinin əlindəki heyvanları toplayıb səfərbərliyə cəlb edərkən, on minlərlə əkinçinin çarəsiz qalmasına, torpaqların əkilməməsinə və böyük qıtlıqların yaranmasına yol açırdılar. Məhz bu səbəbdən moğol hücumlarından daha çox, moğolların səbəb olduqları qıtlıqlar və xəstəliklər böyük insan tələfatına yol açmışdır. Bunun nəticəsində moğol istilası öncəsi əhalisi 300 milyona çatan Çinin moğol istilasından sonra əhalisi 80 milyona qədər azalmışdı.

Moğol istilasından ən çox zərər görən ölkələr arasında Orta Asiya, Çin, Şərqi Avropa, Orta və Yaxın Şərq olmuşdur. Ancaq moğol istilasından yararlanan bölgələr də az deyildi. Xüsusilə də qarakitay və naymanların əlində olan Şərqi Türküstan bölgəsi moğolları xilaskar kimi qarşılamış və asanlıqla Moğol sisteminin bir parçası olmuşdular. Bu səbəbdən uyğur, qarluq kimi türk tayfaları Moğol dövlətində aparıcı rol oynayıblar.

Çingiz xanın bir başqa uğuru istedadlı insanlara hörmət edib, onlara şərait yaratması idi. Bu səbəbdən Moğol dövrü qəribə şəkildə elmi inkişafın yüksəlməsində təsirli olmuşdur. Ölkənin demək olar ki, hər yerində rəsədxanalar və elmi mərkəzlər açılmışdır.

Çingiz xan ölməmişdən əvvəl öz ölkəsini dörd oğlu arasında bölüşdürmüşdü. İmperiyanın Avropaya qədər uzanan bütün şimal hissəsi böyük oğlu Cuçiyə, Orta Asiya Cığataya, Monqolustan isə kiçik oğlu Toluya düşmüşdü. Ögedey vəliəhd olmaqla yanaşı, eyni zamanda Altay və İli çayı ətrafındakı torpaqları da mülk olaraq almışdı. Çingizin vəfatından sonra həmin ərazilərdə Cuçi, Cığatay,

Ögedey ulusları ortaya çıxmış, daha sonra Çində Yuan və Orta Şərqdə Elxanlı ulusları da bu bölgüyə daxil edilmişdir.

Ögedey xanın zamanında *(1227-1241)* Moğol dövlətinin sərhədləri maksimum həddə çatdı, Şərqi Avropanın tamamı moğolların nəzarəti altına keçdi. Lakin onun vəfatından sonra Çingiz xanın oğlanlarının ailələri arasında hakimiyyət uğrunda mübarizə başladı. Bu mübarizədə soylu türk-moğol tayfalarının və dövlətlilərinin qızları olan Çingiz xanın gəlinləri təsirli oldular. Ögedeyin xanımı Törəgənə, Toluyun arvadı Sorkuktani, Cuçinin arvadı Xan Sultanın təsiri altında tərbiyə alan Çingiz nəvələri, artıq babalarının düşüncə və inancında deyildilər. Qısamüddətli Göyük xan səltənətindən *(1241-1246)* sonra Böyük Moğol dünyasında hakim ünsür Cuçi və Toluy xanın ailəsi oldu. Ögedey və Cığatay ailələri isə ikinci plana keçdilər. Hakimiyyəti Toluyun oğlu Məngü xanın *(1251-1259)* ələ



*Ögedey xanın portreti.*
*İmperator Saray muzeyi. Tayvan.*



keçirməsilə Moğol dövlətinin siyasi kimliyi bir daha şəkilləndi. Toluyun oğlanları, xüsusilə də Kubilay və Hüləgü xan bu dəfə Cuçilər ailəsini sıxışdırıb Qızıl Orda sərhədləri içərisində tutaraq, mərkəzi hakimiyyət üzərindəki təsirlərini yox etdilər. Bu proses moğol ulusları arasında qanlı toqquşmalarla yadda qaldı. Xüsusilə də Elxanlı-Qızıl Orda müharibələri moğollar arasındakı birliyə son qoydu. Şərqdə isə Kubilay ilə Ögedey ulusu arasında gedən mübarizələrdə, eyni zamanda moğol ənənələrini qorumaq istəyən qardaşı Arıq Boğa ilə döyüşlərdə Çingiz xanın təsis etdiyi *yasa* anlayışı tamamilə əhəmiyyətini itirdi. Həm Kubilay, həm Hüləgü, həm də Özbək köhnə moğol adətləriylə deyil, ələ keçirdikləri bölgənin yüksək mədəni potensialları ilə öz ölkələrini şəkilləndirməyə çalışdılar.

Lakin moğollar hərbi güc olaraq ələ keçirdikləri bölgələrdə azlıq təşkil edirdilər. Buna görə də özlərinə yaxın hesab etdikləri yerli ünsürlərlə ittifaqlar qurmaq məcburiyyətində qaldılar. Xüsusilə də müsəlman türkləri öz dövlətlərinə cəlb etdilər. Nəticədə moğol dövlətləri sürətlə müsəlman-türk kimliyinin bir parçası halına gəldilər. Bir neçə nəsil sonra Anadoludan Monqolustana qədər moğol saraylarında artıq moğolca deyil, türk dilində münasibət qurulurdu. Bu, türk dilinin, xüsusilə də ərəb və fars dillərinin hakim olduğu ərazilərdə mədəniyyət dili halına gəlməsinə şərait yaratdı. Hər nə qədər Səlcuqlu dövründə Orta Şərqdə türk dili hərbi-siyasi dil olaraq istifadə edilsə də, Elxanlı dövründə türk dili həyatın başqa sahələrini (sosial, hüquqi, ədəbi) də ələ keçirdi, xüsusilə də Azərbaycan və Anadoluda türk dilində ədəbi əsərlər yazılmağa başlandı.

Müsəlmanlaşan moğollar IX-X əsrlərdə İslamı qəbul edən türklər kimi şəriət İslamı deyil, təsəvvüfi İslam anlayışını əsas götürdülər. Çünki İslamın təsəvvüfi təsviri həm türklərin, həm də moğolların ruhuna daha yaxın idi. Bunun əsas səbəblərindən biri də türk və moğolların ərəb dilini bilməməsidir. Nəticədə sufi təriqətlər və anlayışlar

Səlcuqlu dövründə olduğu kimi Moğol dövründə də sürətlə inkişaf etməyə və yayılmağa başladılar. Moğollar sufi dərvişlərə və şeyxlərə böyük hörmət bəsləyib, onlarla yaxın əlaqələr yaratdılar. Hətta çox sayda Moğol hökmdarı bu sufi şeyxlərin müridlərinə çevrildilər. Qısaca, moğol kimliyini müsəlman-türk mədəni ünsürləri qısa zamanda özününküləşdirdi və türk kimliyinin bir parçası halına gətirdi.

Moğolların fərqli təsirləri də oldu. Başlıca təsirləri slavyan və Çin ərazilərində özünü göstərdi. Çox sayda knyazlıqlara bölünən şərqi slavyan xalqları moğolların təsiri ilə Moskva ətrafında birləşməyə başladılar. Moskva knyazlığı İslamı qəbul etməyən türk-moğol boylarına geniş mülklər payladı və Moskva knyazının ordusunda xidmət etmək müqabilində onlara geniş səlahiyyətlər verdi. Bunun nəticəsində Rusiyada *boyar* adlanan yeni bir sinif formalaşdı. Çində isə Kubilayın apardığı mərkəziyyətçi siyasət nəticəsində müxtəlif dillərə, kimliklərə, inanclara parçalanmış Çin dil, kimlik və mədəniyyət baxımından vahidləşməyə – çinliləşməyə başladı. Kubilayın işlətdiyi vahid təsərrüfat, iqtisadiyyat, hətta vahid pul sistemi bir növ müasir Çin anlayışının yaranmasında nüvə rolunu oynadı.

Ən mühüm təsir isə Anadoluda yaşandı. Moğollara boyun əyməyən çox sayda türk tayfası Türküstan, Xorasan və Azərbaycandakı yurdlarını tərk edərək Anadoluda məskunlaşdılar. Anadoluya köç edən tayfaları bölgədəki Səlcuqlu hökmdarları Bizans ilə sərhəd zolaqlarında yerləşdirdi. Onların Bizansa qarşı apardıqları qəza müharibələri Anadoludakı türk torpaqlarının genişlənməsinə və Balkanlara doğru yayılmasına yol açdı. Bunun nəticəsində Anadoluda çox sayda bəyliklər yarandı. Bu bəyliklər arasında Osmanlı bəyliyi köç edən tayfaları və qəbilələri öz ərazisində yerləşdirib, onlara geniş imkanlar verməklə sürətlə güclənməyə və hərbi-siyasi baxımdan inkişaf etməyə başladı.



Bütün bunları diqqətə aldıqda Moğol dövrü türklər üçün fəlakətlərlə başlasa da, nəticələri baxımından türk kimliyi və mədəniyyəti üçün yeni bir dövrün və inkişaf prizmasının açılmasına xidmət etdi. Səlcuqlu dövründə sosial, mədəni və inanc baxımından parçalanmış ictimaiyyət bir-birinə yaxınlaşdı və onlar arasındakı qarşılıqlı münasibətlər artdı. İkincisi, müsəlmanlaşma prosesi gücləndi və Moğol dövründə İdil-Ural və Mərkəzi Qazaxıstan belə İslam dünyasının bir parçasına çevrildilər. Üçüncüsü, türk dili, türk ədəbiyyatı elə sürətlə inkişaf etdi ki, ərəb və farsdilli əsərlərlə yarışacaq şəkildə, adına "Türk divan ədəbiyyatı" deyilən xüsusi bir ədəbiyyat sahəsi ərsəyə gəldi. Ən güclü təsir isə iqtisadi sahədə oldu. Moğollar ələ keçirdikləri ərazilərdə mərkəzi vergi sistemi yaratdılar. Bu, əyalət və ölkələr arasındakı gömrük vergilərinin ortadan qalxmasına, böyük bir sərbəst iqtisadi bölgənin yaranmasına yol açdı. Hətta Moğol hökmdarları əhalini ticarətə təşviq etdilər. Ticarətlə məşğul olmaq istəyənlərə dövlət öz xəzinəsindən maliyyə dəstəyi ayırdı. Şamdan Qaraqoruma qədər ticarət karvanları sərbəst işləməyə başladılar. Moğolların yaratdığı *yam* (xəbər alma) təşkilatına xidmət edən məntəqələr və yerlər bir müddətdən sonra tacirlərə də xidmət göstərməyə başladı. Moğol dünyasının ticarət imkanları o qədər böyük idi ki, Avropa tacirləri axın-axın bu ölkələrə səyahətlər edirdilər. Vahid tamğa sistemi Moğol sərhədindən ölkəyə daxil olan hər kəsin eyni hüquqlarla ticari, dini, mədəni fəaliyyət göstərməsinə şərait yaradırdı. Hətta moğollar müxtəlif dinlərin liderləri arasında dini qurultaylar təşkil edib, fərqli dinlər arasında dialoqların yaranmasına təkan verdilər. Moğolların mərkəzi olan Qaraqorumda sadəcə xristian və müsəlmanlar üçün deyil, eyni zamanda müxtəlif xristian məzhəbləri, buddistlər və manixeistlər üçün də ibadətxanalar inşa edilmişdi.



## 9.2. CUÇİ ULUSU

Çingiz xanın böyük oğlu Cuçinin nəslindən gələn, xanlar tərəfindən idarə edilən Qızıl Orda dövləti Batı xan tərəfindən formalaşdırıldı. Mənbələrdə *Cuçi ulusu* üçün Qızıl Orda adı ilk dəfə 1564-cü ildə Qazan xanlığının bir fərmanında keçir. Azərbaycan tarixçiliyində "Qızıl Orda" adlanan dövlət əslində *Altın Orda* adlanırdı. Türk dilində *altın*, moğolca isə *altun* sözü "qızıl" deməkdir. Qızılı rəng türk hakimiyyət anlayışında Günəşi təmsil edirdi. *Orda* sözü türkcə *ordu* sözünün moğolca tələffüzündən ibarətdir. Ordu/orda sözü "yurd", "xaqanın iqamətgahı", "saray", "hökmdar çadırı", "ordugah" mənasına gəlir. Şeybani dövlətinin rəsmi tarixçisi Ötəmiş Hacı *(Ötəmiş Hacı ibn Mövlanə Məhəmməd Dosti; XVI əsr)* məşhur "Çingiznamə" əsərində Çingiz xanın Cuçidən dünyaya gələn nəvəsi Batı üçün "*altun busaqalu ak orda*", Orda üçün isə "*gömüş busaqalu gök orda*" qurduğunu xəbər verir. İslam mənbələrində bu dövlət "Cuçi ulusu" adlandırılır. Bir sıra müsəlman müəllifləri bu dövlətə bəzi hallarda "Dəşti-Qıpçaq" (*Qıpçaq çölü* və ya *Qıpçaq bozqırı*) deyir.



Tatarıstanlı tarixçilərdən A.Q.Muhamadiyevə *(Азгар Гатауллович Мухамадиев; 1933-2018)* görə, rus salnamələri "Qızıl Orda" ifadəsini dövlət üçün yox, *yarlıq* almaq üçün hüzuruna çıxdıqları Moğol hökmdarının qaldığı çadır üçün işlədiblər. Rus tarixçiliyində bu dövlət üçün "Zolotaya orda" adı işlədildiyindən bizim dilimizə də "Qızıl Orda" şəklində tərcümə edilmiş və tarixçiliyimizdə "Qızıl Orda" adı ön plana çıxmışdır.

Çingiz xan İrtış çayından qərbə tərəf uzanan torpaqların idarəsini böyük oğlu Cuçiyə vermişdi. Cuçinin bir ov sırasında keçirdiyi qəza nəticəsində onurğa sütunu sınmış və bunun nəticəsində atasından altı ay əvvəl vəfat etmişdi *(1227-ci il)*. Çingiz xan bu kədərli hadisədən sonra Cuçinin torpaqlarını onun oğulları arasında bölüşdürdü. Bunun nəticəsində Cuçiyə aid torpaqlarda üç orda yarandı: Qızıl, Ağ və Göy ordalar. Bunlar arasında ən güclüsü və böyüyü Qızıl Orda hesab olunurdu. 1240-cı ildə moğolların Avropa istiqamətində səfərləri pik həddə çatmış və Moğol kəşfiyyat dəstələri Macarıstan və Polşaya qədər soxulmuşdular. Bütün slavyan knyazlıqlarını, qıpçaq yurdlarını ələ keçirən moğollar bölgədə hərbi cəhətdən üstün olsalar da, əhali baxımından azlıq təşkil edirdilər. Buna görə moğollar bölgəni tərk etməyib, onların hakimiyyətini qəbul edən türk xalqları ilə güclü əlaqələr yaradıb, arxalarını bu ittifaqa söykədilər. Belə olan halda bölgədəki saysız qıpçaq, tork, uz, bərəndey, bulqar kimi türk xalqları Qızıl Ordanın bir parçası halına gəldilər. Onlarla moğollar arasında əsas bağlayıcı güc Cuçi ilə bölgəyə gələn tatarlar oldu. Tatarların türk olması və bu dildə danışması sonrakı mərhələdə bölgənin tatarlaşmasına şərait yaratdı. Digər türklər də onlarla birlikdə ümumi mənada *tatar* adlanmağa başladılar. Qızıl Ordanın zəifləməsilə ortaya çıxan Qazan, Astarxan, Krım, Qasım və Sibir xanlıqları ümumi olaraq *tatar xanlıqları* kimliyi ilə tanınırdılar.



*Cuçiyə aid olduğu iddia edilən məqbərə. Qazaxıstan*

Batının Dəşti-Qıpçağı ələ keçirməsindən bir müddət sonra Böyük Moğol taxtına oturan Məngü Orta Şərq torpaqlarını qardaşı Hüləgüyə verdi. Hüləgünün Azərbaycanı mərkəz seçərək formalaşdırdığı ulusu Qızıl Orda ilə münasibətlərə təsir göstərdi. Orta əsr müsəlman müəllifi Əbu Ömər Minhacəddin Osman ibn Siracəddin əl-Cüzcaniyə *(1193-1262)* görə, o vaxta qədər Azərbaycanın vergisini Batı xanın vergi məmurları toplayırdılar. Eyni dövrün başqa bir müəllifi Şibahəddin əl-Ömari *(Şihabəddin Əhməd ibn Yəhya ibn Fədlallah əl-Ömari əd-Dəməşqi; 1301-1349)* də bu məlumatı təsdiq edir. Ona görə, Qızıl Orda xanları Təbriz, Marağa, Aran və Həmədanın vergilərini toplayıb aparırdılar. Hüləgü xanın 1258-ci ildə Azərbaycanın hakimi olması ilə Qızıl Orda xanlarının bölgədəki imtiyazları azalmağa başladı. Hüləgü xan ilk dövrlərdə Qızıl Ordanın bu siyasətinə etiraz etmirdi. Zira, Qızıl Orda xanları Aran, Təbriz, Həmədan və Marağanın vergilərinin Çingiz xan tərəfindən onlara aid olduğunu iddia edirdilər.

İki moğol ulusu arasındakı ixtilaf *böyük xaqanlıq* taxtı uğrunda mübarizədən yarandı. 1259-cu ildə Böyük Moğol xaqanı Məngü vəfat etdikdə taxt uğrunda Arıq Boğa ilə





*Qızıl Orda dövlətinin bayrağı (1375-ci ilə aid Kataloniya atlasından)*



*Batı xanın təsviri olan miniatür. (Fəzlullah Rəşidəddin – "Came ət-təvarix". Fransa Milli Kitabxanasından)*



*Bərkə xan adına kəsilmiş pul*

Kubilay arasında mübarizə başladı. Bu mübarizədə Qızıl Orda xanı Bərkə *(1256-1266)* Arıq Boğanı, Hüləgü isə Kubilayı dəstəklədi. Nəticədə Kubilay Böyük Moğol dövlətinin xanı seçilincə Qızıl Orda xanları xaqanın gözündən düşdülər. Daha sonra Kubilay Hüləgüyə Orta Şərq və Qafqazda böyük səlahiyyətlər verdi. Üstünlük dərəcəsində Elxanlı xanlarının Qızıl Orda xanlarından önə keçməsi iki ulus arasında münaqişələri şiddətləndirdi. Qızıl Orda xanları Çingiz xanın böyük oğlunun soyundan gəldikləri üçün özlərini üstün hesab edirdilər. Hüləgü isə Çingiz xanın nəvəsi hesab edilirdi və Moğol iyerarxiyasında bir pillə aşağıda yer alırdı. Bunun nəticəsi olaraq da Azərbaycan iki dövlət arasında yüz illik müharibənin sınaq meydanına çevrildi. 1260-cı ildə Bərkə xanın məmurlarının Hüləgü xan tərəfindən Azərbaycandan qovulması ilə iki ulus arasında iplər tamamilə qopdu.

Diqqət çəkən başqa bir məqam Qızıl Orda xanı Bərkənin İslamı qəbul edib, müsəlman olması və Hüləgünün düşməni sayılan müsəlman dövlətlərlə əlaqələr yaratmasıdır. Beləliklə, Bərkə Hüləgüyə qarşı apardığı müharibələrə dini-hüquqi çərçivə verdi. Hətta Elxanlı-Misir Məmlük dövlətləri arasında meydana gələn və Hüləgünün məğlubiyyəti ilə nəticələnən Eyn Calut döyüşündə Bərkə məmlükləri dəstəklədi. Bərkənin apardığı İslam siyasətinə qarşı Hüləgü xan xristian siyasəti apararaq, özünü "xristianların xilaskarı" elan etdi və Avropa ölkələri ilə diplomatik əlaqələrini artırdı.

Hüləgü xan Təbrizdə Qızıl Orda tacirlərini edam etdirib, karvanlarını ələ keçirdi. Bunu eşidən Bərkə xan Dəşti-Qıpçaq şəhərlərində ticarətlə məşğul olan Azərbaycan tacirlərini qətl etdi. Daha sonra Noqay komandanlığında 30 minlik ordunu Azərbaycana göndərdi. Arxasınca da özü böyük bir ordu ilə Azərbaycana hərəkətə keçdi. Hüləgü ilə Qızıl Orda qoşunları arasında Kür çayı ətrafında baş verən döyüşdə Bərkə, Dərbənd ətrafındakı döyüşdə isə Noqay məğlub olub qaçdılar. Amma Elxanlı ordusu Qızıl Orda ordusunu Terek çayı boyunca təqib etmək istədikdə, anidən geri dönən Bərkə xan 1263-cü ilin 13 yanvarında Dərbənd yaxınlığında elxanlılara ağır zərbə vurdu. Yaqut əl-Həməviyə görə, Bərkə qələbədən sonra moğol əsgərlərinin meyitlərinin olduğu döyüş meydanını gəzərək ağladı və belə dedi: *"Allah Hüləgünün bəlasını versin! O moğolu moğola qırdırdı. Əgər aramızda düşmənçilik olmasaydı, indi moğollar dünyanı fəth edərdi"*.

Hüləgünün vəfatından sonra Abaqa xan dövründə Qızıl Orda ilə münasibətlər nisbətən sakit keçdi. Hətta Bərkə xan Azərbaycanda aparılan bərpa işlərinə qoşuldu. Xüsusilə Təbrizin bərpası üçün Qızıl Orda xanı böyük məbləğdə pul xərclədi. Ömərinin dediyinə görə, Abaqa ilə dostluq münasibətləri yaradan Bərkə Təbrizdə bir məscid və ipək parça emal edən bir emalatxana tikdirdi. Amma bu münasibətlər Noqay komandanlığındakı ordunun Dərbənddən Şirvana soxulub, Aran və Muğanı talan etməsi ilə təkrar pozuldu. Təcili hərəkətə keçən Elxanlı hökmdarı Abaqa xan Ağsu yaxınlığında Noqayla üz-üzə gəldi. 1265-ci ilin avqust ayında baş verən döyüşdə heç bir tərəf üstünlük əldə edə bilmədi. Bundan sonra hər iki ordu Kür çayının sağ və sol sahili boyunca 14 gün müddətində bir-birinin

hücum etməsini gözlədi. Döyüş baş verməyincə Noqay geri qayıtmaq məcburiyyətində qaldı. Belə məlum olur ki, Noqay Bərkənin əmri ilə Azərbaycana hücum etmişdi. Bərkə özü də bu səfərdə yer almaq üçün yola çıxmış, amma yolda vəfat etmişdi. Cənazəsi paytaxt Saraya gətirilərək burada təntənəli şəkildə dəfn edildi. Taxta isə Batının nəvəsi Məngü Timur *(1266-1280)* çıxdı. Noqayın qayıtmasından sonra Abaqa Azərbaycanın şimalında bir müdafiə istehkamının yaradılmasını əmr etdi. Xanın əmri ilə Dalan-Nourdan *(indiki Bakının şimalında Noxurlu)* Dəşti-Girdimana qədər ərazidə geniş bir xəndək qazıldı. Bu böyük xəndək Azərbaycanın şərqindən qərbinə uzanan su kanalı hesab edilirdi.

Elxanlı-Qızıl Orda müharibələri Böyük Moğol dövləti xanlarının narazılığına rəğmən, davam edirdi. 1270-ci ildə böyük xaqan Kubilayın əmri ilə tərəflər sülh bağlamaq məcburiyyətində qaldılar. Sülh müqaviləsi Abaqa ilə Məngü Temür orduları arasında Kür çayı ətrafında meydana gələn və Qızıl Orda qoşunlarının darmadağın edilməsi ilə nəticələnən müharibədən sonra imzalandı.

Elxanlı-Qızıl Orda arasındakı müharibələr Dərbənd, Bakı, Şirvan, Salyan və Muğan ərazisində cərəyan edirdi. Yüz ilə qədər davam edən hərbi münaqişələr ucbatından iki dövlət arasındakı sərhədlər tez-tez dəyişirdi. Bu münasibətlər iki bölgənin iqtisadi imkanlarının azalmasına da dərindən təsir göstərirdi. 1288-ci ildə Qızıl Orda xanı Teleboğa, Azərbaycanı ələ keçirmək üçün Toxta və Noqay başçılığında yeni bir ordu göndərdi. Amma qızıl ordalılar Arqunun sürətlə onlara qarşı hücuma keçdiyini eşidincə, Kür ətrafındakı ticarət karvanlarını talan edib şimala qaçdılar. Qızıl Orda ordusu 1290-cı ildə təkrar Azərbaycana hücum etdi. Bu dəfə Qarasu çayı ətrafında Elxanlı ordusu ilə döyüşə girən Qızıl Orda ordusu ağır məğlubiyyətə düçar oldu. Döyüşdə 10 min Qızıl Orda əsgəri öldürüldü.



Keyxatu xan dövründə Elxanlı-Qızıl Orda münasibətləri dostluq şəraitində keçdi. Toxta xanın elçiləri Qalıntay və Polad Aranda Keyxatunun hüzuruna çıxdılar və xan tərəfindən Dalan-Nourda qəbul edildilər. Həmin vaxt Qızıl Ordada daxili ziddiyyətlərin başlaması iki dövlət arasındakı münasibətlərə müsbət təsir etmişdi. Toxta hakimiyyətini sağlamlaşdıran kimi 1303-cü ildə 323 nəfərlik bir elçi heyətini Qazan xana göndərib, Azərbaycan və Aranın Qızıl Ordaya aid olduğunu yenidən iddia etdi. 1308-ci ildə Qızıl Orda ordusu yenidən Azərbaycana hücum etdi. Baş verən döyüşdə qızıl ordalılar elxanlıları məğlubiyyətə uğratdılar. Amma Qızıl Orda qələbəyə rəğmən, Azərbaycana sahib ola bilmədi. Elxanlı əmiri Çobanın diplomatik bacarığı buna fürsət vermədi. 1310-cu ilin 30 mayında Sultaniyyəyə gələn Qızıl Orda elçiləri növbəti dəfə əliboş qayıtdılar.

1316-cı ildə Olcaytunun vəfatından sonra yerinə 12 yaşlı Əbu Səidin çıxması ilə qızıl ordalılar fürsətdən istifadə edib, Azərbaycana hücum etdilər. Amma Əmir Çobanın başçılığı ilə Elxanlı ordusu qarşısında davam gətirə bilmədilər. 1323-cü ildə, bu dəfə Əbu Səid Qızıl Orda xanına sülh təklif etdi. Digər tərəfdən, 1324-1325-ci illərdə Əmir Çobanın başçılığında böyük bir ordunu Dərbəndə göndərib, Qızıl Orda torpaqlarını yağmalamasını əmr etdi. Əmir Çoban Terek çayını keçib, Qızıl Orda torpaqlarını yağmalayıb geri qayıtdı.

Əbu Səidin vəfatından sonra Elxanlı taxtı uğrunda xan ailəsindən olan namizədlər arasında ara müharibələri şiddətləndi. Xüsusilə də cəlairli və çobanlı bəyləri arasında gedən müharibələr Qızıl Orda xanlarının yenidən Azərbaycana hücum etməsinə şərait yaratdı. Belə bir fürsətdən istifadə edən Canıbəy xan, mənbələrin verdiyi məlumata görə, 100 minlə 300 min arasında bir qüvvə ilə Azərbaycana daxil oldu. Əslində, onu Azərbaycana Çobanlı əmiri Məlik Əşrəfin zülmündən təngə gəlmiş bölgə hakimləri və alimlər dəvət etmişdi. Canıbəy xan Təbrizə girib, Məlik



*Canıbəy xanın rəsmi (1375-ci ilə aid Kataloniya atlasından)*

Əşrəfin xəzinəsini ələ keçirdi. Canıbəy xan heç bir müqavimətlə qarşılaşmadan Azərbaycanın tamamını ələ keçirdi. Onun əmri ilə Məlik Əşrəf həbs edilib edam olundu. Bir müddət Azərbaycanda qalan Canıbəy xanın adına 1356-cı ildə Təbrizdə sikkələr həkk edilmişdir. Lakin xəstələnən Canıbəy oğlu Bərdibəyi 50 min əsgərlə Azərbaycan hakimi təyin edib geri qayıdarkən yolda vəfat etdi. Atasının öldüyünü xəbər alan Bərdibəy də taxtı ələ keçirmək üçün təcili Azərbaycanı tərk etdi.

Canıbəy Azərbaycanı ələ keçirməyə nail olmuş yeganə Qızıl Orda xanı olmuşdu. Üstəlik, bunu heç bir müqavimət görmədən gerçəkləşdirmişdi. Amma Canıbəy xanın vəfatı Qızıl Orda dövləti daxilində hakimiyyət uğrunda ara müharibələrini kəskinləşdirdi. Toxtamışın başa keçməsinə



qədər qızıl ordalılar Azərbaycana hər hansı bir hücum təşkil etmədilər. Toxtamış dövründə isə Azərbaycan Teymuri-Qızıl Orda dövlətləri arasında müharibə meydanına çevrildi. Bu müharibələrin sonunda Toxtamış Əmir Teymura məğlub olub hakimiyyətini itirdi. Toxtamış Yedigey (Edigey) tərəfindən həbs edilib öldürüldü.

Qızıl Orda dövləti müsəlmanlaşan ilk Moğol dövləti idi. Bərkə *(1257-1266)* İslamı qəbul etməklə qalmayıb, sahib olduğu ərazilərdə müsəlman alim və şeyxləri himayə etdi, xüsusilə də Azərbaycan və Xorasandan qaçıb gələn minlərlə müsəlman alim, sufi, tacir və məmuru öz torpaqlarında məskunlaşdırdı. Sonrakı mərhələdə həmin dərvişlər, şeyxlər və müsəlman alimlər Qızıl Ordada müsəlmanlaşma prosesini sürətləndirdilər. Özbək xan zamanında *(1313- 1341)* İslam dövlət dini halına gətirildi. Özbək xanın apardığı müsəlmanlaşdırma siyasəti Dəşti-Qıpçaq bölgəsindəki türk-tatar xalqlarının İslamı qəbul etməsinə şərait yaradarkən, digər tərəfdən də İslamı qəbul etməyən türk-moğol aristokratlarının yurdlarını tərk edərək slavyan knyazlıqlarının torpaqlarına sığınmalarına yol açdı. Bundan istifadə edən Moskva knyazlığı həmin bəylərin imkanlarından və hərbi gücündən istifadə etmək məqsədilə onlara geniş mülklər bağışladı. Aldıqları torpaqlar müqabilində türk-moğol bəylərinin tək vəzifəsi Moskva knyazlığının ordusunda könüllü xidmət etmək idi. Bu, Moskva knyazlığının inkişafında əsas amil oldu. Moskva knyazlığı digər knyazlıqları öz təsiri altına alarkən, özünün idarə sistemində *boyarlar* adlanan idarəedici bir sinfin ortaya çıxmasına şərait yaratdı. Rus türkoloqları N.Baskakov və N.Xanikov *(Николай Владимирович Ханыков; 1822-1878)* həmin dövrlərdə Rus knyazlıqları ərazilərində yerləşən və sonrakı mərhələdə xristianlaşan və aristokratik rus ailələri halına gələn türk-moğol ailələrinin siyahısını hazırlamışdır. Həmin siyahıya görə, Rusiya tarixində böyük rol oynamış Aksakovlar, Alyabyevlər, Apraksinlər,



*Qızıl Orda dövlətinin ərazisi*

Aralçiyevlər, Axmedovlar, Babiçyevlər, Bolaşovlar, Baranovlar, Basmalovlar, Baturinlər, Beketovlar, Berdiyevlər, Bibikovlar, Bilbaskovlar, Biçurinlər, Boborıkinlər, Qoqollar, Qodunovlar, Qorçakovlar, Qorşkovlar, Derjavinlər, Yepançinlər, İsmailovlar, Qantəmirovlar, Karamazovlar, Karamzinlər, Kireyevkiylər, Korsakovlar, Koçubəyovlar, Kropatkinlər, Kurakinlər, Kurbatovlar, Milukovlar, Miçurinlər, Rahmaninovlar, Saltokovlar, Stroqanovlar, Tagansevlər, Talızinlər, Taneyevlər, Tatişevlər, Timaşyevlər, Timirazevlər, Tretyakovlar, Turgenevlər, Turçaninovlar, Tütçevlər, Uvarovlar, Urusovlar, Uşakovlar, Xanıkovlar, Çaadayevlər, Şahovskoylar, Şeremetyevlər, Şişkovlar, Yusupovlar türk-moğol əsilzadələri idilər.

Qızıl Orda Dəşti-Qıpçaq bölgəsində güclü və təsirli bir mədəni inkişafın təməllərini atdı. Çingizin digər övladlarından fərqli olaraq, Cuçi ələ keçirilən ərazilərin moğollar tərəfindən dağıdılıb talan edilməsinə çox imkan vermədi. Volqaboyu ərazilərdə təsərrüfatın inkişafına şərait yaratdı və onun oğlanları bu bölgədəki şəhərləri bərpa edib, yeni şəhərlər saldılar. Qızıl Orda paytaxtı Saray Bərkə də bu



şəhərlərdən biri idi. Qızıl Orda ərazisində təsəvvüfi İslam sürətlə yayıldı. Çoxlu məscidlər, imarətlər tikildi. Azərbaycan və Xorasan başda olmaqla, çox sayda müsəlman-türk gəlib Qızıl Orda şəhərlərində məskunlaşdılar. Saray Bərkə əhalisi sürətlə artaraq 100 min nəfərə çatdı. Qızıl Orda dövründə sadəcə Volqa çayının aşağı axını üzərində 20-dən çox şəhər salınmışdı. Bu şəhərlər dövlət tərəfindən tənzimlənən və qorunan ticarət yolları vasitəsilə Türküstan, Azərbaycan və Anadolunun ticarət mərkəzlərinə bağlanırdı. Azak, Batçin, Bülər, Bulqar, Gülüstan, Krım, Krım-Cədid, Macar, Macar-Cədid, Saraycıq, Suğnaq, Suğnaq-Cədid, Ükək, Hacıtərxan (Həştərxan) kimi onlarla Qızıl Orda şəhəri ya başdan inşa edildi, ya da tamamilə təmir olunub müsəlman şəhərləri halına gətirildi.

Qızıl Ordanın yaratdığı mədəni təsir dairəsi o qədər güclü idi ki, rus, polyak, macar, ukrayn dillərində günümüzdə də işlədilən çox sayda ticari, hərbi, mədəni, sosial terminlər türk-moğol dillərinə məxsusdur. Bundan başqa, başda Moskva knayzlığı olmaqla slavyan ölkələri Qızıl Orda həyat tərzini, idarəçiliyini, xüsusilə də hərbi sistemini mənimsədilər və özününküləşdirdilər. Qızıl Ordanın tənəzzülü və Rusiyanın sürətli inkişafında bütün bu amillər çox təsirli idi.



## 9.3. CIĞATAY ULUSU

Cığatay (monqolca Ça'adai) Çingiz xanın ikinci oğlunun adı olub, gənc yaşlarından etibarən böyük qardaşı Cuçi ilə birlikdə atasının hərbi səfərlərində yer almışdı. Cəsur, igid və mahir bir komandan olan Cığatay atasının qoyduğu qanunlara və nizam-intizama həddindən artıq sadiq olduğundan "yasa qoruyucu" sifəti ilə tanınırdı.

Çingiz xan öz sağlığında köhnə Qarakitay yurdunu Cığataya verərkən bu ərazidə yer alan şəhərlərin idarəsinə qarışmamasını əmr etdi. Atası Çingiz xanın vəfatından sonra qardaşı Ögedeyi əlindən tutub Böyük Moğol dövlətinin taxtına oturdan Cığatay həyatının sonuna qədər heç bir hərbi səfərdə yer almadı. Vaxtının çoxunu paytaxt Qaraqorumda və öz yurdu Almalıq şəhərinə yaxın Kuyaşdakı ordasında keçirirdi. Daha çox bahar və yay aylarında Kuyaşda, payız və qış aylarında isə Jetisu ətrafındakı qarluqların vətəni Qayalığın bir məhəlləsi hesab edilən Qışlaqda qalırdı.



Yaylaq-qışlaq həyatı keçirən Cığatay ölənə qədər köçəri həyat tərzi yaşadı. Onun üçün Kuyaş və Qayalıqda *uluğ-ev* adlanan böyük çadır qurulmuşdu. Onun hakimiyyətinin əsas torpaqlarını İli bölgəsi təşkil edirdi.

Torpaqların paylaşımı aparılarkən Cığatay xanın əmrinə dörd minbaşı verilmişdi. *Gizli tarixin* verdiyi məlumata görə, bu dörd minbaşı Qaraçar, Münggə, İdohuday və Kokocoş idi. Hər birinin əmrində min nəfərlik ordu olduğundan Cığatayın əmrindəki hərbi dəstələrin sayının 4-5 min olduğu ehtimal edilir. Çingiz xanın yasasına görə, səfərdə əsgərlərin ailələri də iştirak etdiyindən Cığatay ulusunun nüvəsi 20 min nəfərdən ibarət idi. Bunlardan Qaraçar *barlas* tayfasının, Münggə *cəlairlərin*, Kokocoş (Hoşuk Noyon) isə *barin* tayfasının rəisi idi. İdohudayın hansı tayfaya mənsub olduğu bilinmir. Adı qeyd edilən hər üç tayfa Cığatay siyasi tarixində böyük rol oynadı.

Cığatay ulusunun insan gücü bununla məhdudlaşmırdı. Belə ki, məğlub olmuş naymanlar da Cığatayın əmrinə verilmişdi. Onun əmrində 8 minlik naymanın yer aldığı bildirilir. Cığatayın ən böyük iki komandanı *barulas* tayfasının rəisi Qaraçar Noyon ilə *cəlairlilər* tayfasının rəisi Münggə (və ya Mügə) Noyon idi. Onlardan Qaraçar Noyon Əmir Teymurun ulu babası, barlaslar isə Teymur nəslinin çıxdığı boydur. Kokocoş və ya Koşun Noyon isə Cığatayın baş məsləhətçisi, eyni zamanda şəxsi mühafizəçilərinin komandanı idi. Əmir Teymurun əsas hərbi gücünü təşkil edəcək *barlas*, *cəlairli*, *suldus* və *arlat* tayfaları Cığatay dövründə Orta Asiyada məskunlaşmışdı.

Cığatay xanın maliyyə işlərini isə müsəlman inanclı vəziri Qütbəddin Həbəş Amid aparırdı. Cığatay xan ona həddindən artıq hörmət bəslədiyindən hər oğlunun Amidin bir oğlu ilə dost olmasını əmr etmişdi. Həbəş Amid Cığatay ulusunun ilk vəziri hesab edilir.

Cığataya verilən torpaqlar iki hissəyə ayrılırdı. Şəhərlər, onlara bağlı qəsəbə və kəndlərin idarəsi uyğur



*Cığatayın vaftiz olunması.*
*Səyyah Marko Polonun səyahətnaməsindən*

türklərindən Mahmud Yalvaçın əlində idi. Yalvaç birbaşa böyük xaqan adından Orta Asiya şəhərlərini idarə edirdi. Moğol hökmdarları ticarətin və şəhərlərin əhəmiyyətini yaxşı başa düşdüklərindən Cığatayın bu şəhərləri idarə etmə qabiliyyətinin olmadığını nəzərə alıb, onların idarəsini Yalvaça vermişdilər. Belə məlum olur ki, ancaq köçəri həyata uyğun ərazilər Cığatayın idarəçiliyi altında idi.

Cığatay xan Türküstan xalqının yaddaşında zalım və zülmkar hökmdar kimi qaldı. Buna səbəb onun müsəlman xalqa qarşı kobud və sərt rəftarı idi. Belə ki, atasının qoyduğu yasaya çox sadiq olan Cığatay yasaqları pozanları ağır şəkildə cəzalandırırdı.

Cığatay xanın çoxlu arvadı və cariyəsi vardı. Arvadları arasında Yisülün Xatun əsil qandan olan qadını hesab edilirdi. Bu qadın, Cığatayın anası Börtənin qohumu idi. Yəni Cığatay atası Çingiz xan kimi türk boyundan bir qızla evlənmişdi. Cığatay xanın ikinci arvadı da türk olub, Yisülün Xatunun bacısı Türkan Xatun idi. Hər iki qadından Cığatayın özündən sonra taxtının varisi olmaq hüququna



malik səkkiz oğlu olmuşdu. Onlar Müçi-Yebə, Mu-Təgin, Bilkişi, Sarban, Yisun-Münggə, Baydar, Qabakı və Bayçu idi. Cığatay övladları arasında ən çox ikinci oğlu Mu-Təgini sevirdi. Çingiz xan da nəvələri arasında ən çox onu sevmiş və hər zaman yanında olmasını əmr etmişdi. Amma 1222-ci ildə Bamiyanın mühasirəsi zamanı Mu-Təgin öldürüldü. Bu hadisə həm Cığatayı, həm də Çingizi dərindən kədərləndirmişdi. Cığatay oğluna olan sevgisindən onun nəslinin Cığatay taxtının varisi olmasını istəmişdi. Cığatay ulusu bir neçə istisna xaricində Mu-Təgin soyundan gələnlərin əlində olmuşdu.

Cığatay 1242-ci ilin yanvar ayında vəfat etdi. Ancaq Cığatay ulusunun müstəqil bir dövlətə çevrilməsi Cığatayın vəfatından 20-30 il sonra gerçəkləşdi. Vəfatından sonra Yisülün Xatun, vəzir Həbəş Amidi və sərkərdələr birləşərək Qara Hüləgünü Cığatay ulusunun xanı seçdilər. Amma Qara Hüləgünün hakimiyyəti böyük xaqan tərəfindən təsdiq olunmadığı üçün hüquqi əhəmiyyət daşımırdı. Belə ki, Cığataydan bir neçə ay əvvəl vəfat edən böyük xaqan Ögedeyin yerinə yeni xaqan seçilmədiyindən, dövləti naibə sifətiylə idarə edən Ögedeyin arvadı Törəgənə (Turakina) Xatun Qara Hüləgünün hakimiyyətə gəlməsinə səssiz qalmışdı. 1246-cı ildə keçirilən böyük qurultayda Moğol xaqanı seçilən Göyük Qara Hüləgünü hakimiyyətdən uzaqlaşdırıb, yerinə Cığatayın beşinci oğlu Yisun-Münggəni təyin etdi. Göyük xaqanın bu qərarına səbəb – "Oğul qalarkən, nəvənin taxta çıxması doğru deyil" – türk-moğol adəti göstərilir.

Yisun-Münggənin hakimiyyəti uzun sürmədi. Əxlaqi cəhətdən aşağı səviyyəli biri olan yeni xan vaxtının çoxunu əyləncə və içki məclislərində keçirirdi. Dövlətin idarəsini arvadı Tayşi Xatun ilə vəziri Bəhaəddin Mərginaniyə həvalə etmişdi. Əsas məşğuliyyəti ova çıxmaq olan Yisun-Münggənin ov işlərini belə arvadı Tayşi Xatunun tərtib etdiyi qeyd edilir.

1246-cı ildə böyük xaqan seçilən Göyük iki il sonra öldü. Göyükün ölməsi Cığatay ulusundakı siyasi vəziyyətə də öz təsirini göstərdi. Münggə xan seçildikdən sonra Yisun-Münggəni taxtdan uzaqlaşdırıb, Qara Hüləgünü yenidən Cığatay ulusunun xanı təyin etdi. Taxta keçmək üçün ordusu ilə Qaraqorumdan yola çıxan Qara Hüləgü yolda öldü. Qara Hüləgünün ordusu onun arvadı Orqana Xatunu xan elan edib yollarına davam etdilər. Orqana Xatun Cığatayın bacısı Çiçakin Xatunun qızı idi. O, Çiçakin ilə türk uyrat boyunun rəisi Turaçi Kürəkənin izdivacından doğulmuş və Cığatayın əmri ilə Qara Hüləgü ilə evlənmişdi.

Orqana Xatunun əmri ilə həbs edilən Yisun-Münggə Batı xana təslim edildi. Batı xan da onun edam edilməsini əmr etdi. Orqana Xatun daha sonra Yisun-Münggənin arvadı Tayşi Xatunu öldürtdü. Vəzir Bəhaəddin Mərginani həbs edilib öz müəllimi Həbəş Amidiyə verildi. Amidi Yisun-Münggənin zülmündən onu dəfələrlə xilas edən Bəhaəddinə rəhm etmədi və sümüklərini sındıraraq edam etdiridi. Beləcə, Cığatay ulusunun başına Orqana Xatun *(1251-1261)* keçdi.

Orqana Xatunun bacısı El-Çıxmış Xatun Arıq-Boğa ilə evli idi. Buna görə, Orqana Moğol aristokratiyasının nümayəndəsi hesab edilirdi. Zira, mənbələr də bu qadını yüksək keyfiyyətləri ilə mədh edirlər. Qara-Hüləgü öldükdə oğlu Mübarək kiçik idi. Hakimiyyətə talib olacaq başqa namizə olmadığından Orqana onun adından dövlətin idarəsini ələ aldı. Ağıllı və tədbirli bir qadın olduğu üçün Cığatay ulusunu 1259-cu ilə qədər uğurlu şəkildə idarə edən Orqana 1258-ci ildə Orta Şərqi almaq üçün Azərbaycana göndərilən Hüləgü xanı yüksək səviyyədə qarşılamış və onu bir müddət Almalıq yaxınlığındakı Kuyasda qonaq etmişdi.

1259-cu ildə Münggə xaqanın ölməsi ilə Böyük Moğol taxtı uğrunda Arıq-Boğa ilə Kubilay arasında müharibə başladı. Münggə xaqanın oğlanları olan bu iki qardaşdan Arıq-Boğa ata yurdunun (Monqolustanın), Kubilay isə Çi-





*Arıq Boğanın Alquya hücumu*
*(Fəzlullah Rəşidəddin – "Came ət-təvarix")*

nin hakimi idi. Hər ikisi də Cığatay ulusunu ələ keçirmək niyyətində olduqlarından, öz namizədlərini Orta Asiyaya göndərdilər. Bunlardan Kubilayın tərəfdarı Börünün oğlu Abuşka yolda Arıq-Boğa tərəfindən aradan qaldırıldı. Arıq-Boğa öz nümayəndəsi Baydarın oğlu Alqunu Cığatay ölkəsinə göndərdi. Beləcə, Orqana Xatun oğlu Mübarək adından hakimiyyəti 1261-ci ilə qədər davam etdirdi.

Babasına məxsus torpaqları müstəqil idarə etmək niyyətində olan Alqu Cığatay taxtına oturan kimi Arıq-Boğaya üsyan etdi. Bunu fürsət bilən Orqana Xatun, Məsud Yalvaç və Mübarək Arıq-Boğanın yanına gedərək onu Alquya qarşı hərəkətə keçirdilər. Bundan sonra Arıq-Boğa Cığatay torpaqlarına hücum edib, Alqunu cəzalandırmağa qərar verdi. 1262-ci ildə Sayram gölü ilə Ebi Nuur arasında yerləşən Polat yaxınlığındakı döyüşdə Alqu Arıq-Boğanı məğlub etdi.

Alqu ilə Arıq-Boğa ikinci dəfə də üz-üzə gəldilər. Döyüşü yenə Alqu qazandı, lakin bu dəfə də Arıq-Boğanı tam məğlub edə bilmədi. Üçüncü döyüşdə Alqu gözlənilməz




*Cığatay xanlığının ərazisi*

şəkildə məğlub oldu. Arıq-Boğa ələ keçirdiyi İli bölgəsini elə talan etdi ki, növbəti il burada böyük qıtlıq yaşandı. Arıq-Boğa Cığatay yurdunda çox qala bilmədi. 1263-cü ildə Kubilayın ölkəsinə hücum xəbərini alıb, İlini tərk etdi.

Cığatay ərazisindən çəkilməmişdən əvvəl Arıq-Boğa Orqana Xatunla Məsud Yalvaçı göndərib Alquya dostluq təklif etdi. Bu vaxt Səmərqənddə olan Alqu Orqana Xatunla evlənib, Məsud Yalvaçı da yenidən Mavəraünnəhr şəhərlərinin idarəçiliyinə təyin etdi. Beləcə, Mavəraünnəhr şəhərləri ilk dəfə Cığatay ulusunun tərkibinə daxil oldu.

Məsud Yalvaç artıq topladığı vergini böyük xaqana deyil, Cığatay hökmdarına verəcək və bölgəni onların adından idarə edəcəkdi. Bundan başqa, Alqu 1251-ci ildə Qızıl Orda hökmdarı Batu tərəfindən işğal edilən Otrarı və Xarəzmşahların bəzi əyalətlərini də ələ keçirdi. Bu münasibətlə bölgəyə göndərdiyi əmisi Sarbanın oğlu Nikbay





*Cığatay xanlığının bayrağı (1375-ci ilə aid Kataloniya atlasından)*

komandanlığındakı Cığatay ordusu Qızıl Orda xanı Bərkənin qüvvələrini bölgədən qovdular. Alqu Əfqanıstan üzərinə də səfər təşkil edərək bu ərazini Hüləgülərdən aldı. Beləcə, Alqu Cığatay dövlətinin əsl banisi və ilk müstəqil hökmdarı hesab edilir.

Alqu 1266-cı ildə öldü. Özündən sonra taxta varis olacaq üç oğlu vardı. Lakin Orqana Xatun onların taxta çıxmasına imkan verməyib, Qara Hüləgüdən olan oğlu Mübarəki xan elan etdi. Ögey atasının taxtına oturan Mübarək, İslam dinini qəbul etmiş ilk Cığatay xanı hesab edilir. Onun daşıdığı Mübarək adı hər halda onun İslami adı olmalıdır. Hətta o, "*xan*" titulunu tərk edib, "şah" titulunu aldı. Xanlığın başına müsəlman bir hökmdarın keçməsi Cığatay ulusunun müsəlmanlaşma prosesini sürətləndirdi. Beləcə, İslam dininin ən qatı düşmənlərindən olan Cığatayın vəfatından 24 il sonra onun taxtına müsəlman olan nəvəsi oturdu. Onun İslamı qəbul etməsində anası Orqananın əmrində xidmət göstərən müsəlman vəzirlərin böyük təsiri vardı.

Şübhə yoxdur ki, Mübarəkşahın müsəlmanlığı ənənəvi türk xalq İslam inanclarından bəslənirdi.

Həlim və mehriban xasiyyətli bir hökmdar olan Mübarəkşahın hakimiyyəti ancaq 6 ay davam etdi. Belə ki, eyni tarixlərdə Arıq Boğanı aradan götürüb Böyük Moğol taxtını ələ keçirən Kubilay, Cığatay ölkəsinə müdaxilə edərək Mu-Təginin nəvəsi Barakı bölgəyə göndərdi, o da Bitikçi Əmiri başda olmaqla, bir sıra Cığatay hakiminin tərəfinə keçməsi nəticəsində Mübarəkşahı 1266-cı ildə hakimiyyətdən uzaqlaşdırdı.

Barak Kubilay tərəfindən hakimiyyətə çıxarılsa da, Alqunun siyasətini davam etdirib Cığatay dövlətinin müstəqilliyini qorumağa çalışdı. Bunun üçün o, ətrafındakı digər moğol uluslarının hamısı ilə müharibə aparmaq məcburiyyətində qaldı. Bu vaxt şərqdə vəziyyət xeyli dəyişmişdi. Belə ki, Kubilay Arıq Boğanı aradan qaldırıb, özünü böyük xaqan elan etsə də, ənənəni pozaraq Qaraqorumda qalmadı. O, dövlətin paytaxtını Pekinə köçürdü və özü də Çində qaldı. Otuz illik hakimiyyəti *(1264-1294)* boyunca Çini tərk etməyən Kubilay, Çin moğolları – Yuan ulusunun yaranmasına səbəb oldu və moğolların çinliləşmə prosesini başlatdı. Digər tərəfdən, Kubilayın böyük xan olaraq digər moğol ulusları arasında nüfuzu əvvəlki xanlar qədər güclü deyildi. Arıq Boğanın vəfatından sonra Ögedeyin nəvəsi Kaydu babasının mirasını tələb edərək Monqolustanı ələ keçirdi və burada Ögedey ulusu (1260-1301) yaratdı. Beləcə, Kubilaya qarşı Ögedey ulusu ilə Cuçi ulusu arasında bir ittifaq təsis edilərkən, Kubilay ilə Hüləgü ulusu da öz aralarında bir ittifaq yaratdılar. İki ittifaq arasında ortada qalan Cığatay ulusunun vəziyyəti heç də yaxşı deyildi. Barak xan əvvəlcə Moqultay əmrində Kubilay xanın göndərdiyi 6 min nəfərlik ordunu məğlub etdi. Ardından da Cığatay ulusu öz təsiri altına almaq istədiyi Kayduya qarşı müharibəyə başladı. Amma bu müharibədə Qızıl Ordanın dəstəyini alan Kaydu Barakı məğlub



edərək ona öz hakimiyyətini qəbul etdirdi. 1269-cu ildə keçirilən Talas qurultayında Ögedey ilə Cığatay ulusu arasında dostluq və qardaşlıq təsis edildi. Lakin yaradılan bu dostluq Cığatay ulusuna baha başa gəldi. Belə ki, Talas və İli ətrafı ilə birlikdə Şərqi Türküstan Kaydunun əlinə keçdi, Məsud Yalvaç əvvəlki kimi Mavəraünnəhr torpaqlarını Ögedey ulusunun adından idarə etməyə başladı. Barakın əlində kiçik bir torpaq sahəsi qaldı.

Cığatay ulusunu öz təsiri altına alan Ögedey-Cuçi ulusu Hüləgü ulusunu ortadan qaldırmaq üçün hərəkətə keçdilər. Kaydu Hüləgü ulusunun vəziyyətini öyrənmək məqsədilə əvvəlcə Məsud Yalvaçı Abaqa xana elçi göndərdi. Bir il sonra 1270-ci ildə Barak Qıpçaq-oğul, Çapat (Kaydunun ordu komandanları), Əhməd Börü, Nikbay-oğul, Taliqu, Mübarəkşah (Cığatay komandanları), Mümin və Yasar-Baylı ilə birlikdə Ceyhun çayını keçib Hüləgü ölkəsinə soxuldu. Digər tərəfdən, Abaqa xanın xidmətində olan Barakın əmisi oğlu Muçi-Yebenin oğlu Nikudara xəbər göndərərək, onun Hüləgü hökmdarına qarşı üsyan etməsi əmr edildi. Azərbaycan hakimi olan Nikudar istəmədiyi halda üsyan etdi, amma Abaqa tərəfindən məğlub edilib qaçdığı Gürcüstanda həbs olundu. Eyni tarixdə Barak Nişapur yaxınlığında hüləgüləri məğlub edib Nişapuru zəbt etdi. Nikudarı məğlub edən Abaqa sürətlə Xorasana hərəkət edib Barakın qarşısına çıxdı. 1270-ci ilin yayında baş verən qarşılaşmada Barak ağır məğlubiyyətə uğradı. Ceyhunu keçən məğlub dəstələrin başında Barak Buxaraya qədər qaçdı və qardaşı Yasarı kömək üçün Kaydunun üzərinə göndərdi.

Bu, Kaydunun istədiyi xəbər idi. Hiyləgər siyasətçi olan Kaydu bununla həm cığatayları, həm də hüləgüləri hərbi cəhətdən zəiflədib özünə tabe etmək istəyirdi. Abaqa intiqam məqsədilə 1271-ci ildə Mavəraünnəhrə hücum etdi. Barakın öz ətrafına qarşı sərt davranması, bu səbəbdən Əhməd Börü ilə Mübarəkşahın ondan ayrılması cığatayların

vəziyyətini daha da ağırlaşdırdı. Ancaq bundan sonra Kaydu cığataylara kömək etməyə qərar verdi, amma həmin tarixdə Barak ölmüşdü.

1271-ci ilin axırlarında vəfat edən Barak xanın müsəlman olduğu və *"Sultan Qiyasəddin"* adını daşıdığı qeyd edilir. Kaydu, onu moğol adətinə uyğun olaraq dəfn etdirdi. Yerinə Cığatayın dördüncü oğlu Sarbanın oğlu Nikbay keçdi. Nikbayın taxta keçməsi, Barakın vəfatı və hüləgülərin Mavəraünnəhrdəki dəhşətli talanları zamanında Cığatay sülaləsi arasında qabağa çıxan ən qabiliyyətli şəxs olmasından irəli gəlir. Belə ki, hüləgülər 1272-ci ilin dekabr ayında Buxaranı ələ keçirərək şəhəri yerlə-yeksan etdilər. Şərəfəddin Abdullah ibn İzziddin Fəzlillah ibn Əbi Naim Yəzdiyə *(Vəssaf; 1257-1329)* görə, hüləgülər 50 min şəhər əhalisini qılıncdan keçirdilər. Buxara talan olundu və şəhərdəki tarixi əsərlərin çoxu dağıldı. Məsud Yalvaç tərəfindən tikdirilən Məsudiyyə mədrəsəsi də dağıdılan binalar arasında yer alırdı. Bina 1000 tələbənin dərs aldığı Orta Asiyanın ən böyük elm ocağı hesab edilirdi. Nikbay, ancaq 1273-cü ilin əvvəllərində Hüləgülər qarşısında dönüş yarada bildi. 29 yanvar 1273-cü ildə Buxara ətrafında hüləgüləri məğlub edən Nikbay şəhərə daxil olaraq talana son qoydu. Cığatay ordusu Ceyhun çayına qədər Hüləgü ordusunu təqib etdi.

Nikbayın hakimiyyəti 1274-cü ilin əvvəllərində ölümü ilə tamamlandı. Nikbaydan boşalan səltənət taxtına Cığatayın yeddinci oğlu Kadakının oğlu Buğa Timur çıxdı. Mənbələr onun Kaydunun təsiri ilə taxta keçdiyini yazır. Hakimiyyət müddəti az olan Buğa Timur qotur xəstəliyindən öldü.

Buğa Timurun vəfatından sonra Kaydunun yarlığı ilə Cığatay ulusunun başına Barak xanın ikinci oğlu Duva xan keçdi. Cığatay dövlətinin ən uzunmüddətli hökmdarı olan Duva xan dövrü mənəvi tənəzzülün qarşısının alındığı, xalqın yaşadığı çətinliklərin aradan qaldırıldığı,



Hüləgü işğalı nəticəsində dəyən maddi-mənəvi ziyanların aradan qaldırıldığı dövr hesab edilir. Cəsur və siyasi cəhətdən püxtələşmiş xan olan Duva, xarabaya çevrilmiş bir çox şəhəri təmir etdirdi və Əndican adlı yeni bir şəhər saldırdı. Buxaradakı mədəni həyatı yenidən canlandırıb, Məsudiyyə mədrəsəsini bərpa etdirdi.

1289-cu ildə Cığatay tarixinin ən böyük dövlət adamı hesab edilən Məsud Yalvaç vəfat etdi. Onu mədrəsəsinin yanında, özü üçün tikdirdiyi türbədə dəfn etdilər. Onun yerinə isə böyük oğlu Əbubəkr Yalvaç Mavəraünnəhr şəhərlərinin hakimi təyin edilmişdi. Bu zaman həm Duva, həm də Yalvaç hələ də Kaydunun nəzarəti altında idilər.

Kaydu-Duva ittifaqı bu dönəmdə gücünün zirvəsində idi. Belə ki, Moğol dövlətinin sonuncu böyük xanı hesab edilən Kubilayın hakimiyyəti Xotəndən qərbə keçmirdi. Şərqi Türküstan, Qaşqar, Yarkənd, Ağsu, Qara-Hoça kimi əsas şəhərlər Kaydu adına Cığatay ulusunun torpaqlarına daxil edilmişdi. Duva xan Kaydunun dəstəyini alaraq, hüləgülərə qarşı bir neçə hərbi səfər təşkil etdi.

1294-cü ildə böyük xan Kubilay öldü. Onun vəfatı Böyük Moğol imperiyasının süqutu mənasına gəlirdi. Artıq 1260-cı ildə parçalanmış Moğol birliyi onun vəfatıyla rəsmiləşdi. Kubilay hakimiyyəti boyunca Kayduya qarşı heç bir hərbi əməliyyat təşkil etmədi. Ölümündən sonra Yuan ulusunun (Kubilay ulusu) başına keçən nəvəsi Olcaytu Teymur (1294-1307) bütün diqqətini Kayduya çevirdi. 1299-1301-ci illər arasında davam edən üç illik müharibə nəticəsində Kaydu öldürüldü.

Olcaytu Teymur ilə Kaydu arasındakı müharibədən Duva xan yaxşı istifadə etdi. 1296-1301-ci illər arasında təşkil etdiyi Hindistan səfərləri nəticəsində Pəncab, Sind, Multan, Lahor və Dehlini yağmaladı. Kaydu öldükdə Duva bölgənin ən güclü hökmdarı hesab edilirdi. Məhz Kaydunun oğlu Çapar Duvanın köməyi ilə Ögedey ulusunun başına keçdi. Duva, Şərqi Türküstanın tamamını ələ keçirdi.

Çapar atası kimi güclü və ağıllı biri deyildi. Duva bundan yaxşı istifadə edərək, sərbəst siyasət aparmağa başladı. Amma bu, ikisi arasında dostluğun pozulmasına səbəb oldu. 1303-cü ildə Cığatay şəhərlərinin idarəsinin başına keçən Yalvaçlar ailəsindən Sevinc bəy Mavəraünnəhr şəhərlərinin idarə mərkəzi olaraq Xocənd yerinə Qaşqarı seçdi. Duva xan Çapar xanın hakimiyyətini tanımayan siyasət aparınca, Ögedey ulusunun hakimi onu cəzalandırmaq istədi. Bu məqsədlə Çapar xan Cığatay torpaqlarına soxuldu və xanlığın torpaqlarını yağmaladı. Çapar ilə Duva arasında 1304-cü ildə ilki Səmərqənd, ikincisi Xocənd yaxınlığında iki döyüş oldu. Çapar xanın məğlubiyyəti ilə nəticələnən ikinci döyüşdə Duva həm qələbə çaldı, həm də ölkəsinin müstəqilliyini əldə etdi. Bunu eşidən Yuan ulusunun hakimi Olcaytu Teymur vaxt itirmədən Monqolustana hərəkət edib Çapar xanın torpaqlarını istila etdi. Beləliklə, Ögedey ulusu aradan qaldırıldı. Çapar xan əmrindəki qəbilələrlə qaçıb Duva xana sığındı. Duva onu və ona tabe qəbilələri öz ölkəsində saxlamayıb, Ceyhundan keçirib Əfqanıstana göndərdi və orada məskunlaşdırdı. Onların bir hissəsi hüləgülərin yanına gəlib, Hüləgü ulusuna tabe oldular *(1305/6)*. Ceyhun ətrafı ilə Əfqanıstan ərazisində məskunlaşdırılan Ögedey ulusunun qəbilələri daha sonra Əmir Teymurla birlikdə yenidən tarix səhnəsinə çıxıb *qaraunas* və *yasavur* tayfalarının tərkibində yer aldılar.

Yuan ulusunun xaqanı Olcaytu Teymur Ögedey ulusunun torpaqlarını ələ keçirdikdən sonra Cığatay ərazilərinə soxuldu. O, Duva xana aid İli çayı ətrafını, Yeddisu (Semireçiya) və Talasın bir hissəsini ələ keçirdi. Olcaytu Teymurun hücumlarının qarşısını almaq üçün Duva ona güclü müqavimət göstərdi və Yuan ordularını Talas yaxınlığında dayandıra bildi. Amma döyüşlərin birində yaralanan Duva 2 iyul 1307-ci ildə aldığı yaradan öldü.

Duva xan Cığatay dövlətinin ən güclü və uzunömürlü hökmdarı idi. 30 illik hakimiyyəti dövründə çox sayda



qadınla evlənən və onlardan çoxlu övladları olan Duvanın yerinə taxta çıxacaq xeyli varisləri vardı.

Atasının vəfatından sonra yerinə oğlu Küncük xan (1307-1308) keçdi. Onu hakimiyyətini qəbul etməyən Cığatayın oğlu Mu-Təginin ikinci oğlu Börünün nəvəsi Qabaqçının oğlu Taliqu taxt iddiası ilə ortaya çıxdı. Tam bu sırada Çapar xan və qardaşı Buralkay gizli bir plan hazırlayıb Küncük xanın sarayına hücum edərək onu qətl etdilər. Börübaşı deyilən yerdə çadırında oturan Küncük ilə birlikdə Sorqu-oğul və Əbuqan adlı qardaşları da öldürüldü.

Cığatay taxtına Taliqu xan *(1308-1309)* çıxdı. Qısa müddətdən sonra onun Küncükün öldürülməsində Çapar ilə əlbir olduğu ortaya çıxınca, Duva xanın övladları atalarının intiqamını almağa qərar verdilər. Belə ki, Duvanın ən cəsur və ağıllı oğlu Kəbək 600 atlıyla Taliquya hücum edib, onun bütün tərəfdarlarını öldürdü. Çapar qaçmağa nail olsa da, həbs edilib edam edildi.

Kəbək taxt çevrilişi zamanı əvvəlcə qardaşı Əsən Buğanı *(1309-1319)* Cığatay taxtına oturtdu. Əsən Buğa 1319-cu ilin yanvar ayında vəfat etdi. Əsən Buğanın vəfatı münasibəti ilə keçirilən qurultayda Kəbək, Cığatay ulusunun xanı elan edildi.

Cığatay ulusu tarixinin ən diqqət çəkən hökmdarı olan Kəbək (1319-1326) qısamüddətli hakimiyyətində bir çox əlamətdar hadisəyə imza atmışdır. Kəbək xan, Cığatay tarixində qurultayla seçilmiş ilk xandır. İlk dəfə Kəbək öz adına pul zərb etdirdi. Zərb edilən bu pullar Kəbək xanın adı ilə "*kəbəki*" adlanırdı. Dilimizdəki "*qəpik*", rus dilindəki "*kopek*" mənasında "xırda pulu" ifadə edən kəlmə buradan gəlib. Gümüş və mis sikkələr olan *kəbəki* adı Kəbək xandan sonra kəsilən sikkələr üçün də işlədilmiş, Əmir Teymurun fəthləri ilə birlikdə bu ad geniş əraziyə yayılmışdır.

Kəbək xanın Cığatay tarixində iz buraxan ikinci fəaliyyəti Qaşqa çayı ətrafında yerləşən Nəsəf (Nəhşəb) şəhərinin 2,5 fərsəx uzaqlığında Qarşı adlı xan sarayı inşa etdirməsi



*Kəbək xan. (1375-ci ilə aid Kataloniya atlasından)*

və buranı xanlığın mərkəzi, xüsusilə də qış sarayı etməsi olmuşdur. Türk dilində "*Qarşi*" (*karşı*) farscadan dilimizə keçmiş "*saray*" mənasındadır. Kəbəkə qədər Cığatay xanları "*uluğ ev*" adı verdikləri öküzlər tərəfindən çəkilən çadırlarda yaşayır, yaylaq ilə qışlaqlar arasında köç edirdilər. Xanın çadırının qurulduğu yer dövlətin idarə mərkəzi olub – "*xan orda*" adlanırdı. Kəbək xan isə dövlətin mərkəzini şəhərə gətirməklə saray müəssisəsini yaratmışdır.

Kəbək xan dövrünün üçüncü mühüm hadisəsi Cığatay ulusunda yaşayan moğol tayfalarının türkləşməsini sürətləndirməsi, saray dili olaraq türkcəni hakim dil qəbul etməsidir. Bir başqa mühüm hadisə isə İslamı qəbul etməməsinə rəğmən, Kəbək xanın müsəlmanlara qarşı yaxşı rəftar etməsi və onların inanclarını sərbəst icra etməsinə imkanlar yaratmasıdır. Bütün bunlar Kəbək xanı Cığatay tarixinin müstəsna dərəcəli hökmdarı etmişdir.

Kəbəkdən sonra Cığatay taxtına keçən qardaşı və Duva xanın dördüncü oğlu İlçigiday (*Elçi giday*), xan seçilməsi üçün təşkil edilən qurultaya qədər 4 ay hakimiyyət sür-





*Kəbək adına kəsilmiş pul*

müş və öz adına sikkələr kəsdirmişdir. 1326-cı ilin yayında çağırılan qurultayda isə qardaşı Əlaəddin Tarmaşirin *(1326-1334)* Cığatay ulusunun xanı olmuşdur. Tarmaşirin məsciddə camaatla namaz qılan, türk dilində danışan bir hökmdar olub, moğol yasalarını çeynəyərək qışları sarayda keçirməklə tamamilə türk-müsəlman həyat tərzini mənimsədi. Tarmaşirinin yasaya əməl etmədiyini bəhanə edən əmirlər 1335-ci ildə təşkil edilən qurultayda onu xanlıqdan uzaqlaşdırıb öldürdülər.

Tarmaşirinin öldürülməsi Cığatay xanlığının süqutunu sürətləndirdi. Cığatay ulusunun torpaqları bir əmirin əlinə keçdi və tayfalararası müharibələr başladı. Belə bir ziddiyyətli şəraitdə ortaya çıxan Əmir Teymur apardığı uzun mübarizədən sonra, 1370-ci ildə bütün Cığatay torpaqlarını ələ keçirdi.



## 9.4. HÜLƏGÜ ULUSU

Böyük Moğol xaqanı Məngü ismaililəri ortadan qaldırmaq və Orta Şərqdə moğol fəthlərini tamamlamaq üçün qardaşı Hüləgünü bölgənin hakimi təyin etdi. Hüləgü böyük bir ordu ilə 1254-cü ildə Moğolustandan ayrıldı. Onun əmrində 150-170 min nəfərlik ordusu vardı.

Hüləgü xan əvvəlcə ismaililəri ortadan qaldırıb, başda Ələmut və Meymundiz qalaları olmaqla, onlara aid 300 qalanı ələ keçirdi, sonra da 1258-ci ildə Bağdada hücum edib Abbasi Xilafətinə son qoydu. Bu səfər zamanı Bağdad böyük talana məruz qaldı və xarabaya çevrildi. Orta əsrlərin ən böyük mədəniyyət, elm və sənət mərkəzi moğolların ilk zərbəsində süqut etdi. Axırıncı xəlifə Mötəsim-Billah döyülərək öldürüldü. İşğal zamanı Bağdadda 80 min insan öldürüldü.

Bağdadın işğalından sonra Təbrizə gələn Hüləgü burada *il-xan* (*elxan*) titulunu qəbul edib, Elxanlı və ya Hüləgü *ulusunun* əsasını qoydu. Lakin Hüləgünün Suriya





*Elxanlılar dövlətinin bayrağı (1375-ci ilə aid Kataloniya atlasından)*




*Elxanlılar dövlətinin ərazisi*

istiqamətində hərəkəti moğollar üçün fəlakətlə nəticələndi. 1260-cı ildə Eyn Calut adlanan yerdə Məmlük türk ordusu tərəfindən moğollar darmadağın edildi. Bu döyüş moğolların Orta Şərqdəki fəthlərini dayandırdı və moğollar məmlüklərin yaratdığı səddi keçə bilmədilər. Bu döyüşdə İslamı qəbul edən və Hüləgü xanla arası yaxşı olmayan Qızıl Orda hökmdarı Bərkənin məmlüklərə köməyinin də təsiri var idi. Bu müharibə dünyada moğolların "məğlubedilməz" olduqları haqqında yaranmış mifi sındırdı.

Hüləgü dövründə *(1258-1265)* Elxanlı dövləti Aran, Azərbaycan, Anadolu, İraqi-Əcəm, İraqi-Ərəb, Kirman, Xorasan, Herat, Fars, Xuzistan, Abxaz-Kartli və Suriyanın şərq hissəsindən ibarət olub, Orta və Yaxın Şərqin ən böyük siyasi gücü hesab edilirdi. Beləliklə, Hüləgünün ələ keçirdiyi torpaqlar *Elxanlı (Hüləgü) ulusu* elan edildi. Bu, Orta Şərqin Qızıl Orda hökmdarlarının hakimiyyətindən çıxdığı və Hüləgünün öz mülklərinin müstəqil hökmdarına çevrildiyi demək idi. Bu səbəbdən, 1260-cı il Elxanlı dövlətinin yarandığı rəsmi tarix qəbul edilir. Amma bu hadisə Elxanlı ilə Qızıl Orda arasında uzun illər davam edəcək müharibənin əsasını qoydu. 1260-cı ildə Hüləgü ordusunun Məmlük ordusuna məğlub olmasında Bərkənin moğolları deyil, Misir qıpçaqlarını dəstəkləməsi də səbəblərdən idi. 1262-ci ildə Bərkənin elçiləri Misirdə türk sultanını ziyarət etmişdi.

Hüləgü xan Təbrizi özünün əsas iqamətgahı elan etdi. Dövlətin idari işlərini Nəsrəddin Tusi və Cüveyniyə tapşırdı. Tusi Hüləgülər dövlətinin yeni dini-elmi siyasətini, Şəmsəddin Cüveyni isə maliyyə sistemini təsis etdilər.

Hüləgü vəfat etdiyi zaman Elxanlı hakimiyyətinə oğlu *Abaqa (1265-1282)* keçdi. Abaqanın taxta çıxmasından qısa bir müddət sonra Bizansla bir müqavilə imzalandı və imperator VIII Mixailin qızı Maria Təbriz sarayına gəlin olaraq göndərildi. 1267/68-ci illərdə Abaqanın elçiləri Bizans imperatorunu ziyarət etdilər. Bizansla ittifaq Qızıl Orda





*Hüləgü xan (Fəzlullah Rəşidəddin – "Came ət-təvarix")*



*Bağdadın mühasirəsi*
*(Fəzlullah Rəşidəddin – "Came ət-təvarix")*

ilə Məmlük arasında yaranmış ittifaqa qarşı aparılan balanslaşdırma siyasəti idi. Zira, eyni tarixdə Bizansla Qızıl Orda arasında münasibətlər kəskin xarakter almışdı. Digər tərəfdən, Abaqa taxta cülusunun sonrakı ilində Bərkə xanın hücumuna məruz qalmış, hüləgülər ilə qızıl ordalılar arasında meydana gələn döyüşdə Bərkə məğlub olmuşdu.

Elxanlı dövləti mövcud olduğu illər ərzində Qızıl Orda, Məmlük və Cığatay dövlətləri ilə mübarizə aparmaq məcburiyyətində qaldılar. Abaqa dövrü türk-moğol tayfa başçılarının ələ keçirdikləri mülklərdə və dövlət dairələrində öz mövqelərini möhkəmləndirməsi ilə səciyyəvidir. Abaqanın vəfatı ilə onlar Elxanlı dövləti taxtı uğrunda gedən müharibələrdə aktiv gücə çevrildilər. Əhməd xan Təkudar qardaşı Məngü Temür və qardaşı oğlu Arqunu təsirsiz hala gətirdikdən sonra, iyun-iyul 1282-ci ildə Aladağda taxta çıxdı. Onun iki illik hakimiyyəti daxili müharibələrlə keçdi. Bu müharibələr zamanı Əhmədin əsas dayağı olan Əli Nağının öldürülməsi hakimiyyətin Arqunun əlinə keçməsinə səbəb oldu. 1284-cü ildə Əhməd Arqun tərəfindən həbs edilib edam edildi. Elxanlı taxtını ələ keçirən Abaqanın oğlu Arqun xan hakimiyyətə keçən kimi Qızıl Ordanın hücumuna məruz qaldı. 1290-cı ildə baş verən döyüşdə Özbək xanın ordusu Elxanlı qüvvələri tərəfindən məğlub edildi.

Arqun 1291-ci ildə gənc yaşında Qarabağda öldü və Sərac yaxınlığında yerləşən Təbriz dağında bir peyğəmbərin məzarı olduğu iddia edilən yerdə dəfn edildi. Daha sonra buraya ağaclar əkilərək *Arqun yiş* (Arqun meşəsi) adlandırıldı.

Arqun xan öldükdən sonra qardaşı Keyxatu Aladağda keçirilən qurultayda il-xan seçildi. Lakin vaxtının çoxunu eyş-işrətlə keçirən elxan qısa vaxtda əmirlərin qınaq obyektinə çevrildi. Keyxatuya qarşı üsyan edən Hüləgünün nəvəsi Baydu, Bağdad hakimi Məhəmməd Şəkərçini öldürüb İraqı ələ keçirdi. Bu hadisələr sırasında Keyxatu





*Abaqa xan (Fəzlullah Rəşidəddin – "Came ət-təvarix")*





*İsfahanda və Tiflisdə Abaqa xan adına kəsilmiş qızıl və gümüş pullar*

1295-ci ildə Aranda öz əmirləri tərəfindən qətl edildi. Beləcə, Baydu xan *ali-Hüləgü* taxtına oturdu. Lakin cəmi bir il hakimiyyətdə qala bildi. Zira, Qazan xan onun hakimiyyətinə son qoyub, Elxanlı dövlətinin başına keçdi. Qazan xan Arqunun oğlu idi. O, əmisi Əhməddən sonra İslamı qəbul etmiş ikinci Elxanlı hökmdarı hesab edilir. Müsəlman olduqdan sonra o, "Mahmud" adını qəbul etdi.

Qazan xan dövrü *(1295-1304)* Elxanlı tarixi üçün böyük əhəmiyyət kəsb edir. Qazan xan İslamı rəsmi din elan etdi. Dövlət dili olaraq türkcə mənimsəndi. Elxanlı hökmdarları, əsasən türk dilində danışırdı. Qazan xan köklü reformlara imza atdı. İslamın dövlət dini halına gəlməsinin bəzi səbəbləri var idi. Məlum olduğu kimi, Elxanlı dövlətinin tərkibində yaşayan xalqların böyük hissəsi müsəlman idi. Bəzi moğol idarəçiləri və elxanları dövründə xristianlar və şamanlar dövlətdən xüsusi dəstək və kömək görsələr də, onlar kiçik azlıq hesab edilirdi. Elxanlılarla birlikdə moğolların Orta Şərqdə fəth dövrü başa çatmış və dövlət yerli təməllər üstündə oturmağa məcbur olmuşdu. Buna görə Elxanlı idarəçiləri idarə etdikləri bölgənin dini, sosial və hüquqi əsaslarını diqqətə almağa məcbur idi. Elxanlılar böyük ölçüdə Səlcuqlu dövrü idarə mexanizmini təqlid etməyə başladılar. Özləri müsəlman olmasalar da, müsəlmanların dini inanclarına çox müdaxilə etmədilər.

Ancaq Elxanlı dövləti hüquqi məsələlərdə ciddi problemlər yaşayırdılar. Dövlətin idari, məhkəmə və torpaq mülkiyyəti ilə əlaqədar məsələlərdə hansı hüquqa görə qərar veriləcəyi mübahisəli idi. İşğalçılar bir neçə nəsil sonra ələ keçirdikləri torpağın mülkiyyətçisinə çevrildikdə onlar da sabit hüquq sisteminə tərəfdar idilər. Xüsusilə mərkəziyyətçi gücə çevrilmək istəyən Elxanlı dövləti üçün daimi hüquq anlayışının olması vacib idi. Çingiz xanın *yasa* adı verilən qanunları isə İslam





*Qazan xan (Fəzlullah Rəşidəddin – "Came ət-təvarix")*



*Qazan xan adına kəsilmiş gümüş pul*



*Qazan xan adına kəsilmiş qızıl pul*

ölkəsinin problemlərini həll etmirdi. Yasa daha çox ümumi xarakter daşıdığından Orta Şərqdəki şəri və örfi məsələlərin həllində yararsız qalırdı. Qazan xanın apardığı islahatlar bu cəhətdən böyük əhəmiyyət daşıyırdı. Bu məqsədlə Qazan xanın reformlarında birinci sırada *"İslam dininin qəbulu və yayılması"* maddəsi yer alırdı. 1295-ci ilin avqustunda Qazan xan bütün əmirləri ilə birlikdə müsəlman olduğunu açıqladı və İslamı dövlət dini elan etdi.

Qazan xanın islahatları, əsasən səkkiz sahəni əhatə edirdi:

1. İslamın qəbulu və yayılması;
2. Hərbi idarənin və ordunun təşkili;
3. Kənd təsərrüfatı və idarəsi;
4. Torpaq mülkiyyəti və kəndlilər;
5. Ticarət və maliyyə;
6. Dövlət idarəsi və divanlar;
7. Daxili nizamın saxlanmasında hüququn üstünlüyü və qanuni idarəçilik;
8. Məhkəmələr və mülkiyyət.

Qazan xan İslamı qəbul etsə də, məzhəbi bir kimliyi ön plana çıxarmadı. Amma yuxusunda peyğəmbəri görməsi səbəbi ilə Əhli-Beytə böyük hörməti olduğunu açıqladı. Buna görə də, İmam Hüseynin qəbri ətrafının yaşıllaşdırılmasını əmr etmiş və oraya bir su kanalı çəkdirmişdi. Amma onun şafi və hənəvi mədrəsələrinin problemləri ilə də maraqlandığı bildirilir.

Qazan xanın vəfatından sonra yerinə Məhəmməd Xudabəndə keçdi. Onu da Əbu Səid təqib etdi. Amma hər iki hökmdarın hakimiyyəti Hüləgü (Elxanlı) dövlətinin sürətlə tənəzzülü ilə xarakterikdir. Xüsusilə Əbu Səid dövründə ölkənin daxili hərbi və siyasi nizamı tamamilə pozuldu və Hüləgü dövləti bir-biriylə kəskin mübarizələr aparan iki tayfanın – Sulduz ilə Cəlairlərin təsiri altına düşdü.





## 9.5. TEYMURLULAR

Monqolca *ulus* sözü türkcə "ülüş"dən yaranıb, ələ keçirilən torpaqların hakimiyyət mənsubları arasında paylaşdırılması mənasına gəlirdi. Bu sistem Səlcuqlu dövründə formalaşdırılmışdı. Çingiz xanın oğulları və nəvələri arasında bölüşdürülən böyük ərazilərin parçaları *ulus* adlanırdı.

Əmir Teymur Cığatay ulusunun sahib olduğu torpaqları vahid bir idarədə birləşdimək məqsədi ilə ortaya çıxmışdı. Türkcə *temür* (*dəmir*), ərəb və farsca *Timur*, *Teymur* və ya *Teymurləng* 1336-cı ilin 8/9 aprel tarixində çərşəmbə axşamı, qədim türk təqviminə görə, *siçan* ilində Şəhrisəbz ətrafında barlas tayfasının başçısı Turaqay ilə Təkinə Xatunun ailəsində dünyaya gəldi. Onun Çingiz xanın nəslindən gəldiyi haqqında özünün hazırlatdığı şəcərənin doğruluğu mübahisəlidir. Anadan olduğu tarixdən 1360-cı ilə qədər olan həyatı haqqında mənbələrdə heç bir məlumat yoxdur. Mirzə Şahrux dövründə yazılan *Muizzül-ənsab* və Elxanlı



*Teymurluların bayrağı. (1375-ci ilə aid Kataloniya atlasından)*



*Əmir Teymur. Arxeoloq-antropoloq M.M.Gerasimov tərəfindən hazırlanmış freska. 1941-ci il*



*Əmir Teymur Bəlx sarayında (Abdullah Hatifi – "Teymurnamə")*



hökmdarı Olcaytu zamanında Rəşidəddin tərəfindən yazılan Şubi-pəncganə adlı əsərlərə istinadən Teymurun əsilzadə bir ailədən gəldiyi və ulu babası Tumanayın beşinci nəsildən Çingizin də atası olduğu qeyd edilir.

Teymur siyasi səhnəyə Toğluq Temurun oğlu İlyas Xoca Oğlanı Mavəraünnəhr hakimi təyin edib, Teymuru da onun köməkçisi elan etməsi ilə çıxdı. Bu tarixdən etibarən 10 il ərzində Teymur bölgənin əsas hakimi halına gəldi və Əmir Hüseynin ortadan qaldırılması ilə Qazan Sultanın qızı Saraymülk Xatunla evlənib *gürgən* (*kürəkən*) ləqəbini aldı. 1370-ci ildə Səmərqəndə gəlib taxta oturdu və Çingiz xanın – *"Hər kim ki elmə, qanuna, siyasətə, səadətə, adət və ənənəyə hörmət edirsə, Cığataya tabe olsun"* – şəklindəki qanununa uyaraq, əmirliyə başladı. Beləcə, heç vaxt hökmdarlıq iddiasında olmayan Əmir Teymurun əsas məqsədi Çingiz xan dövlətini bərpa etmək idi. Buna görə də özünü Cığatay hökmdarı Suyurqatmışın baş əmiri hesab edirdi.

Əmir Teymur 1370-ci ildə Cığatay hakimiyyəti ələ keçirdiyi zaman Elxanlı dövləti ortadan qalxmış, bölgənin siyasi istiqrarı pozulmuşdu. Mərkəzi Herat olan Xorasanda *kərtlər* (1245-1383), paytaxtı Səbzvar olan Qərbi Xorasanda *sərbədarilər*, mərkəzi şəhəri Cürcan olan Astarabad, Bistam, Damqan və Semnanda *toqa-teymurlular*, hökmdarları Şirazda əyləşən Fars və Kirmanda *müzəffərilər* (1294-1393), paytaxtı Təbriz olan Azərbaycan, Aran, İraqi-Əcəm və İraqi-Ərəbdə isə *cəlairlilər* ilə Anadoluda çox sayda türkmən bəyliyi Elxanlı dövlətinin torpaqlarını paylaşmışdı.

Əmir Teymur 1386-cı ildə Azərbaycan, İraqi-Ərəb və İraqi-Əcəm istiqamətində hərəkətə keçdi. Mazandaran və Luristanı aldıqdan sonra Azərbaycana daxil oldu. Cəlairli Əhmədin qaçması ilə Təbrizi asanlıqla ələ keçirdi. Teymur Təbrizin təmir edilməsini əmr etdi. Yay aylarını Təbrizdə keçirən Teymur buradan Kartli və Kaxetiya üzərinə hərəkət etdi. Tiflisi aldı və Şirvanşah I İbrahimi özünə tabe edib, Qarabağda qışladı. Teymurun Azərbaycana hücumu

Qızıl Orda hökmdarı Toxtamışla arasının pozulmasına səbəb oldu.

Toxtamışın Qızıl Orda xanı olması üçün Teymur ona hərbi cəhətdən köməklik göstərmişdi. Amma daha sonra iki hökmdar Azərbaycan hakimiyyətini ələ keçirmək üçün bir-birilərinə düşmən oldular. Teymura qarşı Toxtamış Misir Məmlük dövləti ilə ittifaq yaratdı. Teymur Qarabağda olduğu sırada Toxtamış Dərbənd keçidini keçib Azərbaycana soxuldu. Teymur oğlu Miranşah komandanlığındakı ordunu Şirvana göndərib, Qızıl Orda ordusunun qarşısını kəsməsini əmr etdi. Baş verən döyüşdə Miranşah Toxtamış xanın ordusunu məğlubiyyətə uğratdı.

Qarabağdan ayrılan Teymur buradan Şərqi Anadoluya hərəkət etdi. Məqsədi Qaraqoyunlu türklərini cəzalandırmaq idi. Amma Teymurun gəldiyini eşidən Qara Məhəmməd *(1357-1420)* Çapaqcura çəkildi və üstünə göndərilən Teymur ordusunu darmadağın etdi. Amma qaraqoyunluları təqib etməyən Teymur təkrar Azərbaycana qayıdaraq Marağaya hərəkət etdi. Fars əyalətinin hakimi Müzəffərilərin tabe olmasını əmr edən Teymur istəyinin qəbul edilməməsi ilə Müzəffəri hökmdarı Zeynəlabidinin üstünə hücum çəkdi. Əvvəlcə Həmədanı, 1387-ci ildə isə İsfahanı ələ keçirdi. Zeynəlabidinin qaçması ilə asanlıqla Şiraza sahib oldu. Beləcə, Teymurun Azərbaycana ilk səfəri üç il *(1386-1389)* davam etdi.

Əmir Teymur Mavəraünnəhrə qayıtdıqdan sonra Aral gölü istiqamətində hərəkət edib, burada Toxtamış xanı yenidən məğlubiyyətə uğratdı. 1391-ci ildə Qundurca adlanan yerdə meydana gələn döyüşdə Qızıl Orda hərbi dəstələri darmadağın edildilər. Elə bu vaxt Cığatay hökmdarı Suyurqatmış xəstələnərək Buxarada vəfat etdi. Teymur onun yerinə Cığatay taxtına oğlu Mahmudu çıxarıb, özünü də onun əmiri elan etdi.

Teymur Azərbaycanın idarəsini oğlu Miranşaha tapşırmışdı. Amma atasının Səmərqəndə qayıtmasından istifadə





*Əmir Teymur Bəlx döyüşündə (Mirxvond – "Ravzət əs-səfa. Britaniya kitabxanasından)*



*Əmir Teymurun Sultan Fərəclə döyüşü (Kəmaləddin Behzad)*



*Əmir Teymurun Dehli sultanı Tuğluqla döyüşü (Şərafəddin Əl-Yəzdi)*



*Əmir Teymurun ordusu (Kəmaləddin Behzad)*

edən Miranşah vaxtının çoxunu kef məclislərində keçirirdi. Bundan istifadə edən cəlairli Əhməd Azərbaycanı ələ keçirmiş, qaraqoyunlular da Şərqi Anadoluya hakim olmuşdu. Bu vəziyyətə müdaxilə etmək məcburiyyətində qalan Əmir Teymur ikinci dəfə Azərbaycana səfər təşkil etdi. Teymurun ikinci səfəri beş il *(1392-1397)* davam etdi.

Əmir Teymur Farsı zəbt etdikdən sonra, 1393-cü ilin avqust ayında Bağdada hücum etdi. Bağdad hakimi cəlairli Sultan Əhməd Suriyaya qaçdı. Teymurun Bağdada hakim olması bölgədə ona qarşı yeni bir ittifaqın yaranmasına səbəb oldu. Sivas hakimi Qazi Bürhanəddin ilə Misir sultanı Teymurun Bağdadı ələ keçirməsinə sərt reaksiya göstərdilər. Misir Məmlük sultanı Teymurun elçilərini edam etdirdi. Qazi Bürhanəddin isə Anadolu bəylərini Teymura qarşı birləşdirməyə çalışdı. Amma bölgə hakimləri arasında birlik yox idi, xüsusilə də Qaraman, Zülqədər və Şirvanşahlar Teymurun tərəfində yer alırdı. Bunun müqabilində Əmir Teymura qarşı Misir, Qızıl Orda və Sivas bəyliyi hərbi ittifaq yaratdılar. Bu ittifaqı yerində boğmaq istəyən Əmir Teymur vaxt itirmədən Sivasa hərəkət etdi. Bu məqsədlə Ərzuruma gələn Teymur anidən buradan geri qayıtdı. Buna səbəb eyni tarixdə Toxtamış ordusunun Azərbaycana hücumu oldu. Qarabağa, buradan da Dərbəndə gələn Teymur Terek çayı sahilində ordugah yaratdı. 1395-ci ildə Terek çayı ətrafında baş verən vuruşmada Toxtamış bir kərə daha məğlub olub, Dəşti-Qıpçaq çöllərinə qaçdı. Teymur isə İdil (Volqa) çayı sahilində yer alan Ükək şəhərinə qədər hərəkət etdi. Bir məlumata görə, Əmir Teymur buradan Moskva istiqamətində hərəkət etmiş və Dəşti-Qıpçaq əyalətlərini talan etmişdi. Teymurun bu səfəri nəticəsində Toxtamış xan hakimiyyətini itirmiş və Qızıl Orda dövlətinin süqutu başlamışdı.

Əmir Teymurun Dəşti-Qıpçaq səfərinin nəticələri Qızıl Orda dövləti qədər bütün bölgə üçün də ağır oldu. Qızıl Orda Şərqi Avropa və Rusiyada hakim güc hesab edilirdi.



Qərbi Hun dövlətindən etibarən bu bölgədə hakim olan türk siyasi gücünün son həlqəsini Qızıl Orda dövləti təşkil edirdi. Qızıl Ordanın bir başqa xüsusiyyəti də bu dövlətin müsəlman dövləti olması idi. Moğollara qədər bu bölgəyə hakim olan türk dövlətlərinin hamısı *(Volqa Bulqar dövləti xaric)* öz ənənəvi dini inanclarını qoruyub saxlamışdı. Qızıl Orda da ilk dövrlərində şaman inanclarına sadiq qalmış və şamanizm bölgədəki qıpçaq, uz və tork tayfalarını birləşdirən əsas amil olmuşdu. Amma Qızıl Orda hökmdarlarının din dəyişdirmələri bölgədəki siyasi-etnik mənzərənin də dəyişməsinə yol açdı. Sartakın xristian, əmisi Bərkə xanın müsəlman olması Qızıl Orda daxilində və geniş Dəşti-Qıpçaq bölgəsində etno-siyasi proseslərə dərindən təsir göstərdi. Bərkə taxta çıxandan sonra İslamı dövlətin rəsmi dini elan etdi. Bu müsəlmanlığı qəbul etməyən çoxsaylı türk və moğol əhalinin xristian və bütpərəst inanclı xalqlarla yaxınlaşmasına şərait yaratdı. Qızıl Orda Şərqi Avropaya hakim olan ilk müsəlman dövlətinə çevrildi. Əmir Teymurun Qızıl Orda səfəri bu gücün süqutu ilə nəticələndi. Teymurun hərbi yürüşü Dəşti-Qıpçağın bütün iqtisadi mənbələrini və sosial qaynaqlarını yox etdi. Bunun nəticəsində Qızıl Orda dövləti sürətlə süqut etməyə başladı, yaranan siyasi boşluq Moskva knyazlığının inkişafına təkan verdi. Qısaca, Teymurun Dəşti-Qıpçaq səfərinin əhəmiyyəti Rusiyanın siyasi bir güc kimi formalaşması ilə səciyyəvidir.

Teymur Dəşti-Qıpçaq səfərini tamamlayıb, yenidən Dərbəndi keçərək Azərbaycana qayıtmış, Sultaniyyə və Həmədan yolu ilə 1396-cı ilin payızında Səmərqəndə getmişdi. Teymur şeyxlərə, təriqət başçılarına, alimlərə, memarlara, şairlərə böyük hörmət bəsləyirdi. Əmir Teymur əslində klassik təsəvvüfi İslam inancına sahib olub, dinin şəriət əsaslarından daha çox örfi (ənənəvi) tərəfini qəbul edirdi. Bu cəhətdən Teymur təriqətlərə böyük hörmət edirdi. Ərdəbildə Səfəvi təriqəti şeyxlərinə hörmət göstərən

Teymur bu təriqətin nüfuzunun artmasında müsbət rol oynadı. Digər tərəfdən, Əmir Teymur çox sayda alim, memar, şair və fəqihi özü ilə Səmərqənd və Buxaraya aparmışdı.

Əmir Teymur hələ 1395/96-cı ildə Şirvanda Samur çayı ətrafında qışı keçirərkən Osmanlı sultanı İldırım Bəyazidə *(1354-1403)* bir məktub göndərib, sonrakı səfərini ona qarşı təşkil edəcəyini bildirmişdi. Buna görə də Teymur Səmərqənddə çox qalmadı və 1398/1399-cu ildə Hindistan səfərini tamamlayıb, üçüncü dəfə Azərbaycana hərəkət etdi. Nəticələrinə görə bu səfər həm uzun *(1399-1404)*, həm də ağır oldu. Teymuru üçüncü dəfə Azərbaycana səfər etməyə vadar edən qaraqoyunlu Qara Yusif, cəlairli Sultan Əhməd *(ö.1410)* və Sivas hakimi Qazi Bürhanəddinin *(1345-1398)* fəaliyyətləri idi. Onlardan Qara Yusif ən qatı Teymur düşməni idi. Osmanlı-Teymur arasındakı düşmənçilikdə Qara Yusifin rolu böyük olmuş və qaraqoyunlular osmanlıların tərəfində yer almışdılar. Amma Teymurun əsl düşməni Qazi Bürhanəddin hesab edilirdi. Qazi Bürhanəddin oğuzların salur tayfasına mənsub olub, ulu babası Məhəmməd ibn Rəsul ibn Sevünç (Sovunç və ya Sevinc) moğol istilası zamanı Xarəzmi tərk edib Anadoluya gəlmişdi. Qazi Bürhanəddin mədrəsə təhsili almışdı, türkcə şeirlər yazırdı. O dövrün İmadəddin Nəsimi ilə birlikdə ən böyük türk şairi hesab edilir. Teymur qarşısında ən böyük hərbi güc Qazi Bürhanəddin hesab edilirdi. Amma Qazi Bürhanəddin Teymura qarşı yeni bir hərbi ittifaq planları yaratdığı vaxtda Ağqoyunlu hakimi Qara Yuluq Osmanla girişdiyi döyüşdə öldürüldü. Bu hadisə ən çox Əmir Teymurun sevinməsinə səbəb oldu. Beləcə, Teymurun qarşısına çıxacaq yeganə hərbi güc osmanlılar hesab edilirdi. Osmanlı hökmdarı İldırım Bəyazid Əmir Teymurun hərbi gücünə və istedadına çox əhəmiyyət vermirdi. Üstəlik, apardığı siyasətlə ətrafındakı bəylikləri və dövlətləri də özündən küsdürmüşdü. Teymura qarşı hərəkət etmək əvəzinə Məmlüklərin torpaqlarına hücum etməsi bölgə hakimlərinin böyük narazılıqlarına səbəb olmuşdu.



Əmir Teymur 1399-1400-cü ilin qışını Qarabağda keçirib Azərbaycan, Gürcüstan, İraqi-Əcəm və İraqi-Ərəbdəki siyasi vəziyyəti səhmana saldıqdan sonra, xüsusilə hürufi hərəkatına qarşı sərt tədbirlər gördü. Hürufiliyin banisi Fəzlullah Nəimi Şamaxıda həbs edilib Naxçıvana gətirilərək burada edam edildi. Əmir Teymur daha sonra Bingölə hərəkət etdi. Sultan Bəyazid Teymurun müttəfiqi Ərzincan bəyliyinə hücum etməsini osmanlılara qarşı müharibə səbəbi saydı. 1402-ci ildə Ankara yaxınlığında Çubuq ovalığında meydana gələn döyüşdə isə osmanlıları məğlub edib, İldırım Bəyazidi əsir aldı.



*Ankara döyüşü.*
*Naməlum müəllifə aid illüstrasiya*

İldırım Bəyazidi hörmətlə qarşılayan Teymur onu öz yanında saxladı. Amma məğlub olması və əsir düşməsi İldırım Bəyazidi qüssəyə qərq etmiş və bunun nəticəsində 1403-cü ilin mart ayında vəfat etmişdi. Teymur Ağşəhərə çatdıqda Bəyazidin oğlu Musa Çələbiyə hakimiyyət rəmzi olan "al damğalı nişan" verib Bursaya göndərdi. Musa Çələbi Bursaya gəldikdə atasının da cəsədini özü ilə gətirib burada dəfn etdi. Bu hadisə osmanlıların Avropada irəliləməsini 50 il gecikdirdi. Amma Ankara müharibəsinin osmanlılar üzərində psixoloji təsirləri daha böyük oldu. Bu, osmanlıların Türk dünyasından uzaqlaşmasına və şərqdə yaranan türk dövlətlərinə (Ağqoyunlu, Səfəvilər və s.) düşmən münasibət bəsləməsinə yol açdı.

Teymur səfərinin bir başqa tarixi əhəmiyyəti də Səfəvi təriqətinin inkişaf yolunu açmasıdır. Məlum olduğu kimi, Ankara müharibəsindən sonra Əmir Teymur Gürcüstana hücum etmiş, qışı keçirmək üçün Qarabağa gəlmişdi. Beyləqanı ziyarət edən Teymur uzun müddətdən bəri xaraba halda olan Beyləqanın bərpa edilməsini və şəhərə Araz çayından su kanalı çəkilməsini əmr etmişdi. Qarabağda ordugah quran Teymur 1404-cü ilin mart ayına qədər burada qaldı. Səmərqəndə getmək məqsədi ilə yola çıxan Teymur Nehri-Barlas adlanan yerdən keçib Nemətabada çatmış və bu vaxt Gilanda olan oğlu Şahrux ona qoşulmuşdu. Əmir Teymur Ərdəbilə çatanda orada böyük məclislər təşkil edildi. Ərdəbildə olarkən Teymur Azərbyacanı, İstanbula qədər Diyari-Rumu, İraqi-Əcəm və İraqi-Ərəbi, Aranı, Muğanı, Gürcüstanı, Diyarbəkiri və İskəndəriyyəyə qədər Diyari-Şamı Miranşahın oğlu Mirzə Ömərə verdi. Ərdəbildə Səfəvi təriqətinin şeyxini ziyarət edən Teymur şeyxin xahişi ilə Anadoluda götürdüyü əsirləri sərbəst buraxdı. Bu vaxt Səfəvi təriqətinin başında Xacə Əli (1391-1427/29) dayanırdı. Şeyx Əmir Teymuru təsirləndirmişdi. Hətta Teymur bir fərman verib Anadoludan şeyxi görməyə gələn insanların Anadolu bəyləri tərəfindən əngəllənməməsini



əmr etdi. Bu, Səfəvi təriqətinin nüfuzunun Anadoluda günü-gündən artmasına səbəb oldu. Xüsusilə yarımköçəri türkmənlər dəstələr halında Ərdəbilə gəlib Səfəvi dərgahının xidmətinə girdilər.

Əmir Teymur Azərbaycan və Anadolu səfərindən qayıtdıqdan bir il sonra, 18 fevral 1405-ci il çərşənbə günü 69 yaşında Çin səfərinə çıxdığı ərəfədə öldü. Özündən sonrakı xələflərinə böyük bir siyasi miras qoyub getdi. Amma övladları onun siyasətini davam etdirə bilmədilər. Ölüm döşəyində yerinə nəvəsi Pir Məhəmmədin keçməsini vəsiyyət etmişdi. Amma Pir Məhəmməd zəif hökmdar idi və Əmir Teymurun vəfatından sonra onun imperiyası parçalandı. Azərbaycan və Şərqi Anadolu Teymurla uzun illər düşmənçilik edən qaraqoyunlu, cəlairli və osmanlıların əlinə keçdi. Teymurluların əlində Orta Asiya, Əfqanıstan və Xorasanın bir hissəsi qaldı. Amma 1408-ci ildə hakimiyyəti ələ keçirən Teymurun oğlu Şahrux atasının dövlətini bərpa edərək yenidən hakimiyyətini Azərbaycana qədər yaymağa nail olmuşdu.

Əmir Teymur böyük bir dövlət və hərbi-strategiya adamı olmaqla yanaşı, mədəniyyət memarıdır. Onun dövründə Səmərqənd dünya incisi olaraq tarix səhnəsinə çıxdı. Şəhərdə tikdirdiyi məscid, mədrəsə, hamam, saray, karvansaray, imarətlər, külliyyələr, hətta gecələri şəhər küçələrini işıqlandıran çıraqbanlar Səmərqəndə xüsusi bir gözəllik verirdi. Bunun xaricində Teymur ələ keçirdiyi ölkələrdə bir sıra mədəni quruculuq fəaliyyətləri sərgilədi. Əmir Teymurun başlıca siyasəti ələ keçirdiyi ölkələrdə yeni bir mədəni münasibətlər sistemi formalaşdırmaq idi. Lakin apardığı uzun və yorucu hərbi səfərlər ona bu imkanı vermədi. Onun bu siyasətini oğlu *Mirzə Şahrux* həyata keçirdi.

Mirzə Şahruxun təxminən qırx illik hakimiyyəti dövründə *(1405/09-1447)* Teymurlu dövlətinin mərkəzi Herat oldu. Herat və ətraf bölgələrdə böyük quruculuq və



*Əmir Teymurun tikdirdiyi Əhməd Yəsəvi türbəsi*



*Əmir Teymur mavzoleyi. Səmərqənd*



yaradıcılıq işləri aparan Mirzə Şahrux dünyanın hər yerindən ölkəsinə gələn alimləri, fəqihləri, şairləri, dərvişləri və şeyxləri himayə etdi. Anadolu, Misir və dünyanın başqa yerlərindən şair və ədiblər yazdıqları əsərlərinin əlyazmalarını Şahruxa göndərmiş və bu əsərlər Teymurlu hökmdarının əmri ilə Herat kitabxanasında qoruma altına alınmışdır.

Mirzə Şahrux dövründə türk dili və ədəbiyyatı sürətlə inkişaf etdi. Lütfi, Səkkaki, Seydi, Əhməd Mirzə kimi türk dilində yazan şairlər türk ədəbiyyatının ən gözəl əsərləri olan *Bəxtiyarnamə*, *Meracnamə* və s. ərsəyə gətirdilər. Şahruxun qoyduğu bu mədəni siyasəti davam etdirən Teymurlu hökmdarları miniatür, xətt, təhzib sənətinin ən orijinal əsərlərini hazırladılar. Hüseyn Baykara dövründə Əlişir Nəvai o qədər təsirli oldu ki, özündən sonra yetişən Osmanlı və Səfəvi dövrünün bütün şair və ədiblərinə təsir etdi. Herat miniatür məktəbi xüsusi bir məktəb olaraq formalaşdı.

Sadəcə Teymurlu hökmdarları deyil, bu xanədana mənsub qadınlar da bir-birindən gözəl əsərlərin ortaya çıxmasına yol açdılar. Teymurlu hökmdarları və xanımları heç bir məzhəb fərqi qoymadan müsəlmanların bağlı olduğu inanc və ibadətgahları təmir etdilər. Şahruxun xanımı Gövhərşad xanım Məşhəddə məscid inşa etdirdi. Şahrux özü həm Xoca Abdullah Ənsari türbəsini inşa etdirdi, həm də İmam Rza türbəsinin çıraqlandırılmasını əmr etdi.

Əmir Teymurun ilk səfərləri dağıdıcı və sarsıdıcı olmuşdu. Lakin Teymur və onun davamçısı olan sultanlar Moğol hökmdarlarından fərqli olaraq, ələ keçirdikləri bölgələrdə sosial-iqtisadi infrastrukturların qurulmasına çalışdılar. Bu mənada Teymurlu dövrü moğol hakimiyyət anlayışından təkrar müsəlman-türk hakimiyyət anlayışına keçid dövrünü təmin etdi. Əmir Teymurun siyasəti hakimiyyətin Çingiz nəslindən gələnlərdən çıxıb yenidən türk-oğuz kökənli əmir və bəylərin əlinə keçməsinə şərait yaratdı.



## 9.6. CƏLAİRLƏR

Elxanlı dövlətinin son böyük hökmdarı Əbu Səidin 1335-ci ildə ölümündən sonra bu dövlətin əraziləri böyük türk-moğol tayfa əmirlərinin nəzarəti altına keçdi. Mərkəzi gücün zəifləməsindən istifadə edən sulduz, cəlairli, eretnalı kimi tayfalar Azərbaycan, İraqi-Ərəb, İraqi-Əcəm və Anadoluda təşkilatlanaraq siyasi hakimiyyəti ələ keçirmək uğrunda mübarizəyə başladılar. Bunun nəticəsində Elxanlı dövlətinin ərazisi olan Azərbaycanda Çobanlı əmirliyi, Anadoluda Eretna dövləti və İraq bölgəsində isə Cəlairli dövləti kimi siyasi təşkilatlanmalar formalaşdı. Cəlairli ordusu 1335-ci ildə Bağdadı ələ keçirib, 1359-cu ildə Çobanlı dövlətinin hakimiyyətinə son qoyaraq özlərinin 1410-cu ilə qədər davam edən, Aran, Azərbaycan, İraqi-Ərəb və İraqi-Əcəmi əhatə edən dövlətlərini təsis etdilər. Bu dövlətə *Cəlairli* və ya İlkayi ulusu adı verilir.

Sulduslar kimi hüləgülərin bel sütununu təşkil edən türk-moğol qarışığı bir tayfa olan cəlairlər Çingiz xandan əvvəl bir neçə obaya parçalanmışdı. Çingiz xan dövründə bu obalar birləşdilər və Moğol ordusunun sol qanadında yer alan 26 min nəfərlik böyük hərbi gücə çevrildilər. Onların başında Mukalı və ya Mukulu adlı bəy dayanırdı. Cəlairlər Əbu Səid dövründə güclənərək ordu əmirləri halına gəldilər. Həmin əmirlərdən biri olan Böyük Şeyx Həsən bu dövrdə Anadoluda Hüləgü valisi idi.

Sülaləyə adını verən İlkay Noyon Hüləgü xanın böyük sərkərdələrindən olmuşdu. O, Bağdad və Suriya səfərlərində iştirak etmiş, Hüləgünün vəfatından sonra keçirilən qurultayda yer alan böyük komandanlardan hesab edilirdi. Cəlairli bəyləri onun nəslindən törədikləri üçün İlkayi və ya İlkaylar adlanırdı. İlkayın oğlu Tuqhu (Toku) Bitikçi 1277-ci ildə Misir Məmlük dövlətinə qarşı aparılan Əlbistan döyüşündə öldürülmüşdü. Cəlairlər İlkayın oğlu Ağbuğa dövründən etibarən müsəlmanlığı qəbul etdilər. Onun oğlanları Hüseyn və Musail kimi İslami adlar aldılar. Onlardan Hüseyn Əbu Səidin ən çox etibar etdiyi komandanlardan olub, elxan ailəsi ilə qohum idi. Dövlətin banisi isə Şeyx Həsən və ya Böyük Şeyx Həsən oldu.

Ağbuğa dövründən etibarən cəlairlər Azərbaycanda böyük mülklərə sahib idi. 1290-cı ildən Aran və Qarabağ Cəlairli Ağbuğanın, oğlu Hüseyn və onun oğlu Həsənin mülkü hesab edilirdi. 1327-ci ildə Əmir Çobanın edamından sonra Şeyx Həsən Cəlairli Qarabağ, Muğan, Şirvan, Aran və Azərbaycanın idarəsini ələ keçirdi.

1335-ci ildə Əbu Səid öldürülüb yerinə Arpa xan keçəndə Hüləgü (Elxanlı) ulus əmirləri arasında Şeyx Həsən birinci sırada yer alırdı. Bu vaxt Bağdadın idarəsini əlində tutan uryatların başçısı Əli Şah üsyan edərək Arpa xanın hakimiyyətinə son qoyub, Baydunun oğlu Musanı xan elan edib Hüləgü dövlətini ələ keçirdi. Bu hadisə cəlairlərin siyasi vəziyyətinə təsir etdi. Şeyx Həsən Azərbaycanı tərk edib Anadolunun Kəmax bölgəsinə çəkildi. Orada Əlişah ilə Musaya qarşı yeni ittifaq yaradıb, 1336-cı ildə

Aladağın Qaradərə bölgəsində Musa xanı məğlub edib Əlişahı öldürdü və Məhəmməd adlı birini yeni elxan elan etdi. Bundan sonra iki il boyunca Hüləgü dövlətini idarə etdi. Əmir Çobanın dul qalmış qızlarından Dilşad Xatunla evlənən Şeyx Həsən qısa müddətdə Diyarbəkir, Anadolu, Naxçıvan, Muğan, Aran, Xorasan, Fars, Şiraz, Bağdad və Azərbaycanın hakimi oldu. O, Anadolunun idarəsini Eretnaya verib, burada Eretna dövlətinin yaranmasına şərait yaratmışdı.

1338-ci ildə çobanlılardan Teymurdaşın oğlu Kiçik Həsən ortaya çıxdıqda cəlairlər uzun illər onlarla mübarizə aparmaq məcburiyyətində qaldı. Bu dövrdə Azərbaycan cəlairlərin əlindən çıxdı, çobanlılar hətta İraqi-Ərəb və İraqi-Əcəmin idarəsini də ələ keçirdi. Kəmaxa qaçan Cəlairli hökmdarı Şeyx Həsən 1356-cı ildə burada vəfat etdi. Vəsiyyətinə görə, onu Nəcəfdə dəfn etdilər. Zira, cəlairlər İslamın şiə məzhəbinə mənsub idi. Onun yerinə oğlu Şeyx Üveys keçdi.

Şeyx Üveys *(1356-1374)* Çobanlı əmiri Məlik Əşrəfin ortadan qaldırılması ilə Azərbaycanın tamamına sahib oldu və Cəlairli dövlətini rəsmiləşdirdi. O, 1359-cu ildə Hüləgü dövlətinə rəsmən son qoymaqla bölgədə yeni siyasi iqtidar anlayışının formalaşmasına təsir göstərdi. Şeyx Üveys



*Şeyx Üveys adına kəsilmiş pul*



çox adil hökmdar idi. Türk, ərəb və fars dillərində şeirlər yazan Şeyx Üveys hərbi və siyasi nailiyyətlərindən daha çox ədəbi və quruculuq fəaliyyətləri ilə tarixdə qaldı. Hakimiyyəti dövründə daha çox Anadoludakı türkmən tayfalarının çıxardığı iğtişaşlarla məşğul olan Şeyx Üveys vaxtının çoxunu Təbriz və Bağdadda keçirdi. 1374-cü ildə vəfat edən Şeyx Üveysin hakimiyyətə namizəd üç oğlu var idi: Şeyx Əli, Şeyx Həsən və Şeyx Hüseyn.

Hakimiyyəti ələ keçirən Şeyx Hüseyn dövrü daxili ixtilaflarla keçdi və o, Bağdadda özünü sultan elan edən qardaşı Əli ilə mübarizə aparmaq məcburiyyətində qaldı. 1382-ci ildə vəfat edən Şeyx Hüseynin yerinə Sultan Əhməd taxta oturdu. Sultan Əhmədin hakimiyyəti Əmir Teymur və onun oğlanları ilə müharibələrdə keçdi və bu müddət ərazində qaraqoyunlu tayfaları ilə ittifaq yaratdı. Sultan Əhməd 1410-cu ildə qaraqoyunlu tayfalarının başçısı Qara Yusif tərəfindən aradan qaldırıldı. Bu tarix Cəlairli dövlətinin süqutu hesab edilir. Sultan Əhməd böyük bir alim olub, üç dildə şeirlər yazırdı. Onun türk dilində şeirlər yazdığı günümüzə qədər gəlib çatan şeir nümunələrindən aydın olur.

Türk tarixi baxımından Cəlairli dövlətinin ən böyük rolu ondan ibarətdir ki, Cəlairli əmir və sultanlar Yaxın və Orta Şərqdə çingizli xanədanının hakimiyyətinə son qoymaqla, oğuz-türkmən ünsürlərinin yenidən siyasi-hərbi güc halına gəlməsinə şərait yaratdılar. Bunun nəticəsində Anadolu, Azərbaycan, İraq və Xorasanda türklər yenidən təşkilatlanmağa başladılar və Anadoluda çox sayda bəylik formalaşdı. Şərqi Anadolu və Azərbaycanda isə Qaraqoyunlu və Ağqoyunlu kimi yeni türk-oğuz ittifaqları yarandı.



## 9.7. QARAQOYUNLULAR

Qaraqoyunluların oğuzlardan törədiyi mübahisə mövzusu olmasa da, onların oğuzların hansı tayfasına mənsub olduğu dəqiqləşməyib. Qaraqoyunlu dövləti *baranlı, sadlı, baharlı, duxarlı, qaramanlı, alpavut*, çəkirli, *ayınlı, hacılı, bayramlı, dögər* tayfalarının ittifaqından meydana gəlirdi. Qazan xan dövründə qaraqoyunlu tayfaları Mosul ətrafında uyrat (oyrat) tayfaları ilə mübarizə halında olub, daha sonra hüləgülərin siyasi dəstəyi ilə uyratları məğlub edib onların Suriyaya köç etməsinə səbəb oldular.

Qaraqoyunlu tayfaları moğol istilasının başlaması ilə Türə bəy başçılığında Türküstandan Azərbaycan və Şərqi Anadoluya köç etmişdi. Qaraqoyunluların Türküstanın Qazqurt dağı ətəklərində yaşadıqları qeyd edilir. *"Tarixi-türkməniyyə"* adlı əsərdə qaraqoyunluların "Qara Yusifin yeddinci nəsildən babası Oğuz xanın nəvəsi Türə bəy başçılığında Ərzurum və Diyarbəkir bölgəsinə gəldikləri" qeyd edilir.





*Qaraqoyunlu dövlətinin bayrağı*

Hüləgü hökmdarı Əbu Səid 1335-ci ildə öldürüldükdə qaraqoyunlular moğol sutayların hakimiyyəti altında idi. 1350-ci ildə sutayların zəifləməsindən istifadə edən qaraqoyunlu tayfaları güclənməyə başladılar. Əbu Səid dövründə qaraqoyunluların başında *Bayram Xoca* dayanırdı. Bayram Xoca Qaraqoyunlu ittifaqının əsasını qoydu. Onun 1380-ci ildə vəfat etdiyi qeyd edilir. Bayram Xocanın vəfatından sonra Qaraqoyunlu ittifaqının başına qardaşı oğlu *Qara Məhəmməd* keçdi.

Qara Məhəmməd Qaraqoyunlu ittifaqının siyasi və hərbi cəhətdən formalaşmasında böyük rol oynadı. 1389-cu ildə Pir Həsən adlı qardaşı oğlu tərəfindən öldürülən Qara Məhəmmədin yerinə oğlu *Qara Yusif* keçdi. Qara Yusifin *1389-1405-ci il*lər arasındakı fəaliyyəti Teymurla mübarizədən ibarətdir. 1405-ci ildə Əmir Teymurun vəfatından sonra Qara Yusif bölgədə ən böyük siyasi güc olaraq ortaya çıxdı. 1406-cı il oktyabrın 14-15-də Naxçıvanda baş verən döyüşdə Teymurlu ordusunu məğlub edən Qara Yusif Təbrizi ələ keçirdi. *1410-cu il*də Cəlairli hökmdarı Sultan Əhmədi öldürüb *Qaraqoyunlu dövləti*nin əsasını qoydu. Qara Yusif Teymurun nəvəsi Əbu Bəkri və Ağqoyunlu hakimi



*Tenqə*

Qara Yuluq Osmanı məğlub edib İraqi-Əcəm, Azərbaycan və Şərqi Anadolunu ələ keçirdi. 1411-ci ildə Təbrizdə qurultay keçirən Qara Yusif oğlu *Pirbudaq*ı sultan elan etdi. O, Pirbudaqı qızıl taxta oturtmuş, başına tac qoymuş və özünü onun əmiri elan etmişdi. Qara Yusifin oğlunu taxta çıxarmasına səbəb Pirbudaqın Sultan Əhmədin övladlığı, dolayısıyla Çingiz nəslindən hesab edilməsi idi. Beləcə, o, öz hakimiyyətini qanuni əsaslara dayamaq istəmişdi. *Tenqə* adı verilən sikkə kəsdirən Qara Yusif bu pulların üstündə oğlu Pirbudaqın adını "əs-sultan əl-əzəm" olaraq həkk etdirdi. Əslində isə hakimiyyət Qara Yusifin əlində cəmləşmişdi. Qara Yusif 1418-ci ildə oğlu Pirbudaqın ölməsindən sonra özü taxta çıxdı.

Qara Yusif Teymurun vəfatından sonra Şirvanda müstəqil siyasət aparan və Təbrizi ələ keçirmək istəyən Şeyx I İbrahimi 1412-ci ilin dekabr ayında Kür çayı sahilində baş verən döyüşdə məğlub edib, şirvanşahı əsir götürdü. Bu müharibədə gürcü orduları II Konstantinin başçılığında Şirvanşahlar tərəfdə yer alırdı.

Qara Yusif Azərbaycanda oğuz ənənələri əsasında yeni bir türk dövlətinin əsasını qoydu. O, Elxanlı dövlətindən sonra parçalanmış bölgəni yenidən vahid bir mərkəzdə birləşdirdi və Hülegü dövlətinin böyük bir hissəsini



hakimiyyəti altına aldı. Bütün dövlətlər kimi Qaraqoyunlu dövlətinin də mərkəzi bir güc halına gəlməsi düşmənlərinin diqqətini özünə cəlb etdi. Qara Yusif Teymurlu dövləti və Ağqoyunlu bəyliyi ilə mübarizə aparmaq məcburiyyətində qaldı. Ağqoyunlu bəyliyinin mərkəzi Diyarbəkir olmaqla Anadoluda Qaraqoyunlu hakimiyyəti üçün təhlükə ərz edirdi. 1413-cü ildə Qara Yusif Fars əyalətini əl keçirdi. Buradan da İsfahana hərəkət edib Ömər Şeyxin oğlu Mirzə İskəndərin əmrindəki Teymurlu ordusunu tamamilə zərərsizləşdirmək istədi. Amma istədiyi nəticəni ala bilmədi. Bu dövrdə Azərbaycanda böyük bir qıtlıq yaşandı. Buğdanın qiymətinin xeyli artması ölkədə aclığa səbəb oldu. Qıtlıq təbii fəlakətlərlə birlikdə uzunmüddətli ara müharibələri ilə daha da şiddətləndi. Bu vaxt şərqdə Teymurlu hökmdarı Şahrux Qara Yusifi öldürmək üçün yeni planlar hazırlayırdı. Bu məqsədlə 100 minlik ordu ilə Səmərqənddən ayrılıb Xorasan istiqamətində səfərə çıxdı.

Şahruxun səfəri Qara Yusifi çox qorxutdu. Teymurlu hökmdarı ilə sülh danışıqlarına başladı. Bu məqsədlə güclü natiq olan nədimlərindən Mərdanşahı elçi olaraq Herata göndərdi. Mərdanşah Şahruxun səfərini bir müddət təxirə salmasına nail oldu. Qara Yusif Şahruxa məktubunda Sultaniyyənin ona verilməsini, bunun müqabilində Teymurilərlə dostluq yaradacağını bildirmişdi. Şahrux Qara Yusifə oğlunu girov olaraq göndərməsi müqabilində Sultaniyyəni ona verəcəyi cavabını verdi. Dövlətşah ibn Əlaəddövlə Bəxtişah Səmərqəndiyə *(1438-1491)* görə, Qara Yusif Şahruxun tələbini qəbul etdi. Bu, Yusifin Sultaniyyəni ələ keçirdiyi mənasına gəlir. Lakin hadisələr Yusifin Şahruxa tabe olmaq niyyətində olmadığını, məqsədinin böyük ticarət yolu üstündə yerləşən Sultaniyyəni ələ keçirmək olduğunu göstərir. Yusifin Sultaniyyəni ələ keçirməsi Şahruxu çox narahat etmişdi.

Bu vaxt Qara Yusif qərbdə ağqoyunlularla müharibə aparırdı. 1417-ci ildə Yusif Ağqoyunlu hakimi Qara Yuluqa

hücum etdi və Mardin bölgəsini ələ keçirdi. Bu səfər sırasında ağqoyunlular Mardinin Savur qalasını 1 milyon dirhəm pul, 100 at və 100 dəvə müqabilində Qara Yusifə təslim etdilər. Amma sonrakı il ağqoyunlular danışıqları pozub Mardini talan etdilər. Bu dövr Qaraqoyunlu tarixi üçün siyasi cəhətdən ağır dövr hesab edilir. Zira Şirvanşahlarda taxt dəyişikliyi olmuş, Şeyx I İbrahimin vəfatından sonra taxta oğlu keçmişdi. Yusif oğlu Pirbudaq komandanlığında 6 minlik ordunu Şirvana göndərdi. Elə bu vaxt Şahruxun Azərbaycana hərəkət etdiyini eşidən Yusif Teymurlu hökmdarını ləngitmək üçün elçisini təcili Herata göndərmişdi. Cənub-şərqi Anadoluda hakimiyyət iddiasında olan başqa bir güc – Misirdəki türk məmlükləri də ağqoyunluları dəstəkləyərək Qara Yusifin güclənməsini istəmirdilər. Ağqoyunlular Şahruxla gizlicə əlaqə saxlayırdılar. Bunu Qara Yuluq Osmanın Şahrux Mirzəyə göndərdiyi elçinin Qara Yusif tərəfindən həbs edilməsi zamanı tapılan məktub da sübut edirdi. Məktubda Bizans, Trabzon, Gürcü, Şirvan, Gilan və Luristan hakimlərinin Şahruxun səfərini gözlədikləri qeyd edilirdi. Qaraqoyunluların bölgədəki yeganə müttəfiqləri Osmanlı dövləti idi. Çünki osmanlılar Şahruxun səfərindən çox narahat idilər. Qabaqlayıcı tədbirlər almaq məqsədi ilə Yusif teymurlulara qarşı hərəkətə keçib Sultaniyyə, Qəzvin və İraqi-Əcəmdə nəzarəti ələ keçirdi. Qaraqoyunlu hökmdarının qarşısına çıxmaq üçün Şahrux ölkənin hər tərəfinə çaparlar göndərib böyük bir ordu topladı. 1420-ci il avqustun 25-də Heratdan Azərbaycan istiqamətində hərəkət edən Şahrux Nişapur, Damqan, Semnan və Rey yolu ilə Azərbaycana gəldi. Şahrux Qara Yusifdən çox qorxurdu. Çünki Yusif Şahrux üçün atasının ən böyük düşməni və qardaşlarının qatili idi. Şahrux həddindən artıq ləng hərəkət edirdi. Buna səbəb keçdiyi bütün şəhər və qəsəbələrdə pirləri və şeyxləri ziyarət edib qələbə qazanması üçün onların dua etməsini xahiş edir və böyük miqdarda nəzirlər paylayırdı. Hafiz



Əbruya *(Şihabəddin Abdullah ibn Lütfullah əl-Xəvəfi; 1361-1430)* görə, Reyə çatdıqda Şahruxun əmrində 200 minlik ordu vardı. Ordusunda çox sayda "Quran" hafizi yer alırdı ki, onlar yol boyu "Quran" oxuyaraq Şahruxun qələbə çalması üçün dua edirdilər. Şahrux onlardan 12 min dəfə Fəth surəsini oxumalarını xahiş etmişdi.

Qaraqoyunlularla osmanlılar arasında güclü dostluq münasibətləri vardı. Bu dostluğun təməlində ortaq düşmənləri teymurlular dayanırdı. Qaraqoyunlu-Osmanlı dostluğu 1402-ci il Ankara müharibəsindən sonra da davam etdi. Qara Yusifdən sonra onun oğlanları da osmanlılarla dostluq siyasətinə sadiq qaldılar. İskəndər və *Cahanşah*ın osmanlılara hörmət etdikləri, osmanlıların Təbrizə tez-tez elçi göndərdikləri qeyd edilir. XV əsrin Osmanlı müəllifi *Mövlana Şükrullah* Qaraqoyunlu-Osmanlı dostluğunun tarixi və milli təməllərə dayandığını yazır. Şükrullah Osmanlı sultanı II Murad adından elçi olaraq Təbrizə gəlib Cahanşahın hüzuruna çıxmışdı. Cahanşah ona "qaraqoyunlularla osmanlıların qardaş olduğunu" bildirmiş və fikrini isbatlamaq üçün saray tarixçisi (*tarixxan*) *Mövlana İsmaili* çağırıb Oğuz soyuna aid uyğurca qələmə alınmış *"Oğuz tarixini"* oxutdurmuşdu. Kitabda osmanlılarla qaraqoyunluların Oğuz xanın oğlanlarının nəslindən gəldiyi yazılmışdı.

Şahrux Mirzə Qəzvinə qədər gəldi. Bu vaxt Yusifin oğlu Cahanşah Sultaniyyədə müdafiə tədbirləri görürdü. Qara Yusif də teymurlulara qarşı yeni hərbi hazırlıqlara və strateji tərbirlərə başladı. Hafiz Əbru Yusifin ordusunun əsas hissəsini Təbrizdə saxladığını qeyd edir. Yusif Təbrizdən ayrılmamışdan əvvəl burada ordusu üçün hərbi parad təşkil etdi. Səmərqəndi Yusifin ordularının "günəşin şüaları kimi çox, yağışın damcıları qədər saysız olduğunu" yazır. Mənbələr isə Yusifin əmrində cəmi 50 minlik əsgər olduğunu qeyd edirlər.

Yusif Təbrizdən ayrıldıqdan bir müddət sonra yolda xəstələndi. Amma qərarından dönməyən hökmdar

kəcavəyə minərək yola davam etdi. Yanında çox sevdiyi həyat yoldaşı Qədəmpaşa Xatun da vardı. Təbrizdən üç qonaq məsafədə yerləşən Sadabad kəndinə çatdıqda vəziyyəti lap ağırlaşdı. Qara Yusif Ucanın şimal-qərbində yerləşən, şəhərə iki fərsəx uzaqlıqda yerləşən Sistan adlı bir yerdə 1420-ci il noyabrın 13-də vəfat etdi. Öldüyü vaxt Şahrux ordusu Reydə qərargah qurmuşdu.

Yusifin ölməsi ordusunun dağılmasına və parçalanmasına səbəb oldu. Türkmən əsilli *Seyid Məhəmməd Keçəçi* Qara Yusifin cəsədini Təbrizə gətirib kəfənlədərək Ərcişə (Anadoluda) göndərdi. Çünki qaraqoyunluların ata qəbiristanlığı orada idi. Atasının cənazəsini Ərcişə oğlu Cahanşah aparmışdı.

Qara Yusif türk tarixinin ən böyük hökmdarlarından biri hesab edilir. Mənbələr onun "əzmkar, qorxmaz, igid, ağıllı bir idarəçi və öz xalqına qarşı mərhəmətli" olduğunu qeyd edir. Qara Yusif, Əbu Səidin vəfatından sonra parçalanmış Orta Şərq İslam dünyasını yenidən birləşdirdi. O, türk dilini rəsmi dil elan etdi, "Quran"ı türk dilinə tərcümə etdirdi. Özü də "Quran"ı türk dilində oxuyurdu. Qara Yusifin türk tarixi baxımından başqa bir xüsusiyyəti də onun "türk" olmaqla fəxr etdiyi və öz soyuna çox bağlı olmasıdır. Bu baxımdan Qara Yusif hökmdarlıq titulu olaraq *"bahadır"* adını daşımışdır.

Qara Yusifin altı oğlu vardı: *Pirbudaq*, *Şahməhəmməd*, *İskəndər*, *İsfənd Mirzə*, *Cahanşah* və *Əbu Səid*. Qara Yusifin vəfatını xəbər alan Şahrux heç bir maneə ilə üzləşmədən Azərbaycana daxil olub Miyanə, Ərdəbil və Muğan yolu ilə 1420-ci il dekabrın 15-də Qarabağa gəldi. Qaraqoyunlu taxtının hüquqi varisi İskəndər isə Çapaqçura, buradan da Kərkükə qaçıb osmanlılardan dəstək istədi. İsfənd Mirzə ilə Şah Məhəmməd birlikdə hərəkət edərək Naxçıvana qaçdılar. Oradan Şah Məhəmməd Bağdada getsə də, İsfənd qaraqoyunluların ən böyük tayfası sadluların yanına qaçdı. O, burada Bəyazid qalasındakı xəzinəni ələ keçirib



Çuxursəddə yerləşdi. Cahanşah Sultaniyyədən Təbrizə, buradan da Ərcişə getmişdi. Atasını Ərcişdə dəfn etdikdən sonra Bağdada gəlib burada siyasi vəziyyətin normallaşmasını gözlədi. Yusifin kiçik oğlu Əbu Səid isə Ərzincan xalqı tərəfindən şəhərdən qovulunca, qardaşı İsfəndin yanına qaçdı.

Yusifdən sonra Qaraqoyunlu hərbi dəstələri İskəndərin ətrafında toplandılar. İskəndər Şahruxa bir neçə dəfə sülh təklif etdi. Amma təklifi qəbul olmayınca, az sayda ordu ilə Qoruq Kurqan adlanan yerdə 1421-ci ilin 28 iyulunda Şahrux ordusu ilə döyüşə girdi. Böyük igidlik göstərməsinə rəğmən, əsgərlərinin və silahlarının azlığı ucbatından qaraqoyunlular məğlub oldular. Bu müharibədən sonra Şahrux Xorasana qayıtdı. Şahruxun qayıtmasından sonra əvvəlcə İsfənd Təbrizə gəlib taxtı ələ keçirdi, amma İskəndər qarşısında məğlub oldu. Beləcə, İskəndər Qara Yusifdən sonra Qaraqoyunlu dövlətinin vahid hökmdarına çevrildi və qısa müddətdə itirilmiş torpaqların hamısını geri qaytardı.

İskəndər Qəzvin və Sultaniyyəyə hücum edərək Şahruxun yenidən Azərbaycana səfər etməsinə səbəb oldu. 1429-cu ilin 10 aprelində Heratdan hərəkət edən Şahrux Azərbaycana gəldi. Salmasa çatdıqda İskəndər, Cahanşah və Əbu Səidin komandanlığı altındakı Qaraqoyunlu ordusu ilə üç gün davam edən *(17-19 sentyabr)* döyüş baş verdi. Qaraqoyunluların igidliklərinə rəğmən, tərəflər arasındakı qeyri-bərabərlik Şahruxun qələbə çalması ilə nəticələndi. İskəndər, Cahanşah və Əbu Səid Şərqi Anadoluya qaçdılar. Amma məğlubiyyətdən sonra Əbu Səid Şahruxa təslim oldu. Şahrux onu Azərbaycan hakimi təyin edib Azərbaycanı tərk etdi. Şahruxun geri qayıtmasından sonra İskəndər qardaşı Əbu Səidi öldürüb Azərbaycanı yenidən ələ keçirdi. Bunu eşidən Şahrux növbəti dəfə Azərbaycana hücum etdi *(1431-1432)*. Bu dəfə Cahanşah Şahruxun hüzuruna gələrək ona tabe olduğunu bildirdi *(iyul 1435)*. Şahrux

onu yüksək səviyyədə qarşıladı və hakimiyyət rəmzi olan kəmər, dəbilqə və qılınc verib onu Qaraqoyunlu hökmdarı olaraq tanıdı. Bu vaxt İskəndər Anadoluda ağqoyunlularla ağır müharibələr aparırdı. Ərzurum yaxınlığında baş verən belə döyüşlərin birində İskəndər Ağqoyunlu hakimi Qara Yuluq Osmanı ağır yaraladı. Aldığı yaradan Qara Yuluq Osman vəfat etdi. Eyni tarixdə Şahrux da Qarabağda ordugah qurmuşdu *(noyabr 1435)*. Qışı Qarabağda keçirən Teymurlu hökmdarı 1436-cı ilin may ayında Xudafərin körpüsünü keçərək Uçana gəldi. Uçanda Azərbaycanın hakimiyyətini "qızıl damğalı nişan"la Cahanşaha verib Herata qayıtdı.

Şahruxun Azərbaycanda olduğu müddətdə osmanlıların yanında qalan İskəndər, 1436-cı ildə onun geri qayıtmasını xəbər alan kimi Azərbaycana gəldi. Amma Sufiyan yaxınlığında Cahanşahla apardığı müharibədə məğlub olaraq Əlincə qalasında gizləndi. Qalada öz oğlu Şah Budaq tərəfindən öldürülən İskəndər mənbələr tərəfindən "cəsur, igid, mübariz bir hökmdar" kimi qələmə verilir. Məmlük və Teymurlu mənbələri isə İskəndərin "çox zülmkar" olduğunu da yazırlar.

Şahrux Mirzə ilə ittifaq münasibətlərini qoruyan Cahanşah qısa müddətdə Azərbaycan, Şirvan, Şərqi Anadolu və İraqi-Əcəmdə öz hakimiyyətini bərpa etdi. 1446-cı ildə isə Bağdadı alan Cahanşah İraqi-Ərəbi də öz hakimiyyəti altına daxil etdi. Beləcə, Qaraqoyunlu dövləti vahid bir idarə altında birləşdirildi. Cahanşah bütün inanclara hörmətlə yanaşan bir hökmdardı. Özü Səfəvi şeyxlərinə böyük hörmət bəsləmiş və onların söhbətlərində iştirak etmişdi. Hətta 1440-cı ildə Səfəvi təriqətinə mənsub müridlərin iştirakı ilə Cahanşah gürcülərə qarşı cihad aparmışdı. Bunun nəticəsində Tiflis ələ keçirilmiş, Kartli və Kaxetiya Qaraqoyunlu dövlətinə tabe olmuşdu. Cahanşah hürufilərə də sərbəst fəaliyyət imkanı tanımış, amma 1444-cü ildə hürufilərin Təbrizdə üsyan edib hakimiyyəti ələ keçirmək cəhdi





*Cahanşahın portreti.*
*Rəssam: Əbül Həsən Müstəvfi Qafari*

qarşısında onları qətl etmək məcburiyyətində qalmışdı. Bu hadisələr zamanı Təbrizdə yaşayan Nəiminin qızı Fatimə də öldürülmüşdü. 1448-ci ildə Şahruxun vəfatından sonra Cahanşah bölgənin müstəqil və ən güclü hökmdarına çevrildi. Bundan istifadə edən Cahanşah oğlu Pirbudaqı Bəyazi-Bistam, Şahsuvar, Şah Əli Bayramlı, Əli Şəkər kimi əmirlərlə birlikdə Fars əyalətinə göndərdi. Pirbudaq Savə, İsfahan və d. şəhərləri ələ keçirdi. Beləcə, Qaraqoyunlu dövlətinin şərq sərhədini Xorasana qədər uzadan Cahanşah bu bölgəni ələ keçirmək üçün özü Quma gəldi. 1456-cı ildə Xorasanın fəthinə başlayan Cahanşah Teymurlu dövlətinin başında təcrübəsiz Babur Mirzənin olmasından istifadə edərək torpaqlarını daha da genişləndirmək niyyətində idi. Babur Mirzənin vaxtının çoxunu ov, kef məclislərində və şeyxlərin söhbətində keçirməsi Teymurlu dövlətinin zəifləməsi ilə nəticələndi. Gənc yaşda vəfat edən Babur Mirzənin yerinə Teymurlu taxtına 11 yaşlı oğlu Mahmud keçdi. Amma Mahmud dövlətin parçalanmasının qarşısını ala bilmədi və Teymurlu dövləti bir neçə yerə parçalandı. Əbu Səid Mavəraünnəhrdə, Mirzə Əlaüddövlə Əbivərddə, onun oğlu Mirzə Sultan İbrahim Heratda, Mirzə Səncər Mərvdə, Mirzə Şah Mahmud Tusda hakimiyyət uğrunda mübarizə apararkən, Qaraqoyunlu İskəndərin oğlu Mirzə Qasım və Əmir Xəlil Sistanı ələ keçirdilər. Teymurluların bu vəziyyətindən istifadə edən Cahanşah 1457-ci ildə heç

bir müqavimətlə üzləşmədən Astarabadı alıb Səbzvara qədər hərəkət etdi.

Hücumlarını davam etdirən Cahanşah Şimal Otağı istiqamətində hərəkət edərək Badgis əyalətinə daxil olub, Təxti-Məlik yolu ilə Məşhədə gəldi. Oradan da şərq istiqamətində hərəkət edən Cahanşah Teymurlu dövlətinin paytaxtı Heratı ələ keçirdi. Heç bir müqavimət görmədən hərəkət edən Cahanşahı Heratın alimləri və sənətkarları qarşıladılar. Herata daxil olan Cahanşah Gövhərşad Ağa mədrəsəsinə gedib dua etdi. Daha sonra Teymurlu dövlətinin taxtının yerləşdiyi, Şahrux Mirzənin sarayı Doğan Bağında taxta oturdu. Bir müddət əvvəl Şahruxun vassalı olan Cahanşah ağıllı siyasəti nəticəsində Əmir Teymurun taxtına oturmuşdu. Beləcə, Cahanşah özünü Şərqin ən böyük hökmdarı olaraq qəbul etdirməklə Qaraqoyunlu dövlətini inkişafının zirvəsinə yüksəltmişdi.

Cahanşah Heratda çox qalmadı. Məqsədi Teymurlu dövlətinin tamamını ələ keçirmək idi. Bu məqsədlə özü Heratrud istiqamətində hərəkət edərkən, oğlu Mirzə Məhəmməd də Çagçarəni aldı.

Cahanşah Kahdestan ovasına çatıb burada ordugah qurdu. Elə bu vaxt teymurlulardan Əbu Səidin elçiləri onun hüzuruna gəlib sülh təklif etdilər. Amma Əbu Səidin Cahanşahı aldatmaq istədiyi ortaya çıxınca, danışıqlar yarıda qaldı. Cahanşah şərqə doğru hücumlarını davam etdirməyi fikirləşdiyi bir vaxtda, oğlu Həsənəlinin həbsdən qaçıb xəzinəni əlinə keçirərək Təbrizdə üsyan etdiyi xəbərini aldı. Bu onun geri qayıtmasına səbəb oldu. Geri qayıtdığı sırada Cahanşahın hücumuna məruz qalacağından qorxan Əbu Səid Qaraqoyunlu hökmdarının şərtlərini qəbul etmək məcburiyyətində qaldı. Razılaşmaya görə, Əbi-Rövşən sərhəd hesab edilərək Simnana qədər Şərqi Xorasan və Kuhistan Əbu Səidin mülkü elan edildi. Astarabad Əlaüddövləyə verildi. İraqi-Əcəmin tamamı isə qaraqoyunluların mülkü oldu. Kirman və Fars əyalətləri də



Cahanşahın hakimiyyəti altına keçdi. Teymurlu Əbu Səid və Əlaüddövlə Qaraqoyunlu dövlətinin vassalı oldular.

Heratdan ayrılan Cahanşah hər gün 15-20 fərsəx yol gedərək Nişapura çatdı. Burada oğlanlarından Pirbudaqı Farsı idarə etmək üçün Şiraza, Əbu Yusif Mirzəni Kirmana yolladı. Özü isə üsyankar oğlu Həsənəlini cəzalandırmaq üçün Təbrizə hərəkət etdi. Oğlu Həsənəlini əsir alan Cahanşah onun edam edilməsini əmr etmiş, amma ögey anası Can Bəyimin xahişi ilə bu əmri icra etdirməmişdi.

Cahanşahın bundan sonrakı fəaliyyətləri üsyan edən oğlanları və ağqoyunlulara qarşı müharibələrdə keçdi. Cahanşahın vəliəhdi hesab edilən Pirbudaq Bağdadda üsyan edincə, hökmdar İraqa hücum etmiş, döyüşlər zamanı Pirbudaq öldürülmüşdü. Bundan sonra Şərqi Anadoluya hərəkət edən Cahanşah *Uzun Həsəni* (Dövrün mənbələrində bu hökmdarın adı Həsən padşah kimi qeyd edildiyindən, sonrakı hissələrdə bu addan istifadə ediləcək) aradan qaldırmaq məqsədi ilə Diyarbəkirə gəldi. Amma burada qəflətən ağqoyunluların hücumuna məruz qalan Cahanşah döyüşdə öldürüldü.

"Kitabi-Diyarbəkriyyə"nin müəllifi Əbubəkr Tehraniyə görə, Cahanşah o gecə çox içmiş və gündüz oyana bilməmişdi. Hücum zamanı oğlu Mirzə Məhəmməd atasını çətinliklə oyadıb qaçmasına çalışdı. Bu məqsədlə özü ordugahda qalıb ağqoyunlularla mübarizəyə başladı. Amma Mirzə Məhəmməd əsir düşdü, Cahanşah isə sərxoş halda atını sağa-sola çaparkən öldürüldü. Həsən padşah Cahanşahın öldürüldüyünü xəbər alanda çox narahat oldu və onun ölməsini arzu etmədiyini bildirdi.

Cahanşahın öldürülməsi Qaraqoyunlu dövlətinin süqutu ilə nəticələndi. Maraqlı cəhətdir ki, Qaraqoyunlu dövləti hərbi, siyasi və mədəni cəhətdən inkişafının ən yüksək səviyyəsində süqut etdi. Cahanşahın oğlanlarının bir illik hakimiyyətindən sonra, 1468-ci ildə hakimiyyət başqa bir türk ittifaqının əlinə keçdi və Təbriz taxtında Qaraqoyun-

lu dövləti Ağqoyunlu dövləti ilə əvəz olundu. Cahanşah Qaraqoyunlu dövlətinin ən böyük hökmdarı hesab edilir. O, Qara Yusif dövründə ələ keçirilmiş torpaqları iki qatına çıxarmış, öz hakimiyyətini Teymurlu hökmdarlarına qəbul etdirmişdi. Gözəl şair olan Cahanşah türkcə qəzəllər yazırdı. Onun *"Türk divanı"* Azərbaycan ədəbiyyatının incisi hesab edilir. Onun dövründə Qaraqoyunlu dövlətinin sərhədləri Mardindən Herata, Dərbənd və Tiflisdən Kirmana qədər uzanırdı.




*Qaraqoyunlu dövlətinin ərazisi*





## 9.8. AĞQOYUNLULAR

Şərqi Anadoluda qurulmuş Ağqoyunlu bəyliyi Qaraqoyunlu dövlətinə son qoyaraq böyük bir dövlətə çevrildi. Təqribən yarım əsr Azərbaycan və bölgə siyasətinə istiqamət verən ağqoyunlular da qaraqoyunlular kimi türk tayfası idi. "Oğuznamə"lərdə ağqoyunluların türklərin bayandur (bayındır) tayfasından törədiyi qeyd edilir. Bayandurlar Azərbaycan və Anadoluya səlcuqlu oğuzlarının köçləri ilə birlikdə təqribən 1109-cu ildə yerləşiblər.

Ağqoyunlu ittifaqı *pürnək*, *mosullu*, *qocahəsənli*, *həmzəhacılı*, *tabanlı*, əhmədli, *izzəddinhacılı*, *heydərli*, əmirli, *yurdçu*, şeyxli, *süleymanhacılı*, çavuldur, *dodurqa*, *döyər*, *qarkın*, əfşar və *bəydili* tayfalarından ibarət idi. Onlar arasında hakim tayfalar pürnək və mosullu idi. Ağqoyunluların ilk yurdu Naxçıvan idi. Amma Turəli bəy zamanında ağqoyunlular Naxçıvandan və Əlincə (İlincək) qalasından Moğol komandanı Çormoqun tərəfindən çıxarıldılar. Onlar da Anadolunun müxtəlif yerlərinə köç etdilər.

Ağqoyunlu tayfaları Anadolunun müxtəlif bölgələrinə yayılsalar da, əsasən Diyarbəkir (Amid), Urfa-Mardin və Ərzincan-Ərzurum əyalətlərində məskunlaşdılar. XIII əsrin son rübündə ağqoyunlu tayfalarının başında *Pəhləvan bəy Bayandur (ö.1340)* dayanırdı. 1300-cü ildə isə ağqoyunluların başına onun oğlu Əlaəddin Tur*əli bəy* (ö.1362) keçdi. Turəli bəyin hakimiyyəti dövründə ağqoyunlu tayfaları 30 min ailədən ibarət olub, Elxanlı hakimiyyəti altındakı Diyarbəkirdə yaşayırdılar. Onun dövründə ağqoyunlular davamlı olaraq Trabzon Rum imperiyasına qarşı hücumlar təşkil edirdilər. Turəli bəyin vəfatından sonra yerinə oğlu *Fəxrəddin Qutlu bəy (ö.1389)* keçdi. Onun dövründə Ağqoyunlu bəyliyi ilə Trabzon arasında dostluq münasibətləri yaradıldı. Ağqoyunlular qonşu Ərzincan bəyliyi və Qazi Bürhanəddinlə (Eretna bəyliyi) ittifaq təsis etdilər. Fəxrəddin Qutlu dindar bir hökmdar idi. Qutlu bəyin vəfatından sonra oğlanları Əhməd, Hüseyn, Qara Yuluq Osman və *Pir* Əli arasında hakimiyyət uğrunda mübarizə başladı. Bu mübarizədən Əhməd bəy Bayandur (ö.1403) qalib çıxmış və ağqoyunlu tayfalarının idarəsini ələ keçirmişdi. Onun hakimiyyət dövrü ağqoyunlular üçün sönük keçdi. Bütün bölgəni təsiri altına alan Teymur təhlükəsi ağqoyunlular üzərində də öz gücünü hiss etdirdi. Əhməd bəyin hakimiyyətinin son ilində qardaşı *Bəhaəddin Qara Yuluq Osman bəy (1403-1435)* bəyliyin idarəsini ələ keçirdi. Onun dövrü ağqoyunluların siyasi bir güc kimi tarix səhnəsinə çıxdığı dövr hesab edilir. Qara Yuluq Osman Teymurlu dövləti ilə yaxşı münasibətlər yaratdı və qaraqoyunlularla mübarizəyə başladı. Qara Yuluq Osman Qaraqoyunlu hökmdarı İskəndərlə döyüşlərin birində aldığı yaradan vəfat etdi. 1435-ci ildə Ərzurum yaxınlığında baş verən döyüşdə Qara Yuluq Osmanla birlikdə iki oğlu və bir neçə nəvəsi də qaraqoyunlular tərəfindən öldürüldü. Ondan sonra Ağqoyunlu bəyliyinin başına qısa müddətlərlə *Cəlaləddin* Əli bəy (ö.1444), *Həmzə bəy Bayandur (ö.1444)* və *Cahangir Mirzə (ö.1457)* keçmişdi.





*Ağqoyunlu dövlətinin bayrağı*

Müizəddin Cahangir bəy Bayandurun doqquz illik hakimiyyəti ağqoyunlular üçün daxili müharibələrlə yadda qaldı. Qardaşı *Həsən bəy (1453-1478)* onun apardığı siyasətdən narazı idi. Cahangir öz hakimiyyətini qorumaq üçün qaraqoyunlularla razılığa gəlib Amidi onlara güzəştə getmək istədi. Buna etiraz edən Həsən bəy 1452-ci ildə Amidi ələ keçirib qardaşına üsyan etdi. 1453-cü ildə ağqoyunluların başında faktiki olaraq iki hökmdar dayanırdı. Bu vəziyyət 1457-ci ilə qədər davam etdi. Bu tarixdə Həsən padşah hakimiyyəti öz əlinə aldı. Həsən padşahın 1457-1469-cu illər arasındakı fəaliyyətləri Ağqoyunlu ittifaqını yenidən bərpa etməyə yönəlmişdi. Bu illər ərzində o, Şərqi Anadolunun böyük hissəsini hakimiyyəti altına aldı. Diyari-Murad və Fərat ətrafında məskunlaşan ərəblərin tay qəbiləsindən Bəni-Rəbiə qoluna mənsub Ali-Fadıl, Ali-Murra, Ali-Əli və Ali-Uneyn kimi tayfaları, Əyil bölgəsində buldukaniləri, Tərcil bölgəsində zarakiləri, Çəmşikəzək bölgəsində *malqışiləri* və Həsənkeyf bölgəsində əyyubiləri də özünə tabe etdi.



*Həsən padşahın portreti*
*Rəssam: Elçin Cabbarov*



*Ağqoyunlu döyüşçüsünə aid dəbilqə*

Ancaq bundan sonra Həsən padşah qaraqoyunlularla mübarizəyə başladı. 1468-ci ildə baş verən döyüşdə Cahanşahı məğlub edən Həsən padşah bölgənin mütləq gücünə çevrildi. Həsən padşah əvvəlcə Bağdadı, daha sonra Azərbaycanı ələ keçirdi. Xoy ətrafında Qaraqoyunlu hökmdarı Həsənəlini məğlub etdi. Cahanşahın ölümünü eşidən Teymurlu hökmdarı Əbu Səid bölgənin ona aid olduğunu iddia edərək, ordusu ilə gəlib Qarabağda qışladı. Teymurlulara qarşı hərəkətə keçən Həsən padşah 1469-cu ilin yanvar ayında Əbu Səidi məğlub edib əsir aldı və fevralın 5-də edam etdirdi. Beləcə, Azərbaycan, Aran, İraqi-Əcəm, Amid və Şərqi Anadolunun böyük bir hissəsini ələ keçirən Həsən padşah Təbrizdə yeni türk dövlətinin əsasını qoydu. Qrabarca bir kitabda Həsən padşah üçün belə deyilir: *"...Həsən bir il ərzində üç böyük hökmdarı məğlub etdi: Cahanşah, Həsən Əli və* Əbu Səid. Şamdan Xorasana qədər torpaqlara sahib oldu". Xondəmir Qiyasəddin ibn Hüməməddin əl-Hüseyniyə *(1475-1535/36/37)* görə, Ağqoyunlu dövlətinin tərkibində Aran, Azərbaycan, Luristan, Fars, Kirman, İraqi-Ərəb və İraqi-Əcəm bölgələri yer alırdı.






*Ağqoyunlu dövlətinin ərazisi*

Həsən padşah öz hakimiyyətini Misir Məmlük dövlətinə və Qahirədəki Abbasi xəlifəliyinə də qəbul etdirdi. Həsən padşah sünniliyi hakim məzhəb elan etsə də, digər inanclara da sərbəst fəaliyyət imkanı tanıdı. Səfəvi təriqətindən Şeyx Cüneydlə yaratdığı qohumluq və ittifaq səfəviliyin sürətlə yayılmasına şərait yaratdı. Qələndəri dərvişi Baba Əbdürrəhmanı özünün şeyxi hesab edən Həsən padşah Kübrəvi təriqətinin Azərbaycandakı qolu sayılan Əhməd Laləinin Təbrizdəki fəaliyyətlərinə də şərait yaratdı. Əbdül-Qaffar Tabatabai adlı bir alimin 1467-ci ildə Həsən padşahın Azərbaycanı fəth edəcəyini qabaqcadan xəbər verməsi səbəbindən onu Azərbaycanın şeyxülislamı elan etdi.

Ölkədə ədalətin və qanunların icrasına böyük əhəmiyyət verən Həsən padşah həftənin bəzi günlərində xalqın şikayətlərinə qulaq asır və ona uyğun qərarlar verirdi. Həsən padşah torpaq və torpaq məhsulları, böyük və kiçik buynuzlu heyvanlar, dəyirmanlar və suvarma kanalları üçün vergi sistemi, kəndlilər, köçərilər və şəhərlilər üçün adil idarəçilik modelləri yaratmış və bunlar osmanlılar tərəfindən də istifadə edilmişdi. Həsən padşahın "Qanunnamə"si sonrakı dövrlərdə Osmanlı sultanları üçün model olmuşdur.

Həsən padşah həqiqətən də öz dövrünün ən adil və qabiliyyətli hökmdarı hesab edilir. Onun dövründə Azərbaycan şəhərləri və əyalətləri inkişafı dövrünə qədəm qoymuş, xüsusilə də paytaxt Təbriz Şərqin ən böyük şəhərinə çevrilmişdi. Ölkədə nizam-intizam qaydaları təsis etmiş, ticarətin inkişafına çalışmışdı. Onun dövründə Təbriz şəhərinin illik gəliri 87.500 tümən, Şamaxının isə 11.300 tümən təşkil edirdi. Həsən padşahdan əvvəl 1430-cu ildə Təbrizdə vəba xəstəliyi yayılmış və ölənlərin sayı 100 minə çatmışdı. Amma Həsən padşah şəhərin səhiyyə sistemini və vəziyyətini yaxşılaşdırdı. Ondan sonra 1487-1490-cı illər arasında Təbrizdə yenə üç böyük yoluxucu xəstəlik yayıldı. 1410-1430-cu illər arasında Təbrizin əhalisi 550-600 min nəfər idi. 1501-ci ildə isə şəhərin əhalisi 200-300 minə düşmüşdü. Bəzi mənbələrə görə, Həsən padşah dövründə Təbrizdə 1 milyon insanın yaşadığı iddia edilir. 1474-cü ilə Təbrizi görən avropalı səyyah Kontarini *(Ambrogio Contarini; 1429-1499)* "şəhərin böyük, əhalisinin az olduğunu və əsas xalqın türklərdən ibarət olduğunu" qeyd edir.

Həsən padşahın ağıllı siyasəti nəticəsində Ağqoyunlu dövləti Orta Şərqin ən böyük dövlətinə çevrildi. O, özünü "İkinci Teymur" adlandırırdı. Bu ləqəb onun "özünü osmanlılardan üstün hesab etdiyini" göstərir. Həsən padşah ilə Osmanlı hökmdarı Fateh Sultan Mehmed *(1451-1481)* arasında 1473-cü ildə baş verən Otluqbeli müharibəsinin arxasındakı səbəblərdən biri də ağqoyunluların özlərini



Teymurun mirasçıları olaraq görməsi olmuşdur. İki dövlət arasında münasibətlərin pozulmasında Qaramanlı, Trabzon və Venesiya dövlətləri də təsirli idi. Venesiya dövləti Ağqoyunlu dövlətinin ən böyük avropalı müttəfiqi hesab edilirdi. Fateh Sultan Mehmedin Osmanlı dövlətini imperiyaya çevirmə yolunda Trabzon, Məmlük və Qaramanlı dövlətlərini ortadan qaldırmaq təşəbbüsü Ağqoyunlu dövlətinin mənfi reaksiyasına səbəb oldu. Bunun nəticəsi kimi, iki tərəf Otluqbelidə üz-üzə gəldi və döyüş ağqoyunluların məğlubiyyəti ilə sona çatdı.

Döyüşdən sonra Həsən padşah Fateh Sultan Mehmedlə sülh bağladı və Ağqoyunlu-Osmanlı münasibətlərinin yeni istiqamətini müəyyənləşdirdi. Bundan sonra Həsən padşah üzünü Kartli-Kaxetiya bölgəsinə çevirdi və 1477-ci ildə Qara dənizin sahil bölgələrinə qədər yerləri hakimiyyəti altına saldı.

Bu səfərdən sonra xəstələnən Həsən padşah 1478-ci ilin yanvar ayının son günlərində Təbrizdə vəfat etdi. Öldüyü vaxt sultan 55 yaşında idi. Nəşi Təbrizdəki Nasiriyyə külliyyəsində torpağa tapşırıldı. 10 il Diyarbəkir və 15 il Təbriz taxtında olmaqla, 25 il hökmdarlıq edən Həsən padşahın dörd arvadından (Səlcuqşah Bəyim, Can Bəyim, Tərcil Bəyim və Dəspinə Xatun) yeddi oğlu, dörd qızı vardı. Həsən padşah özündən sonra varis təyin etməmişdi. O, vəfat etdikdə Əhmədin 19, Rüstəmin 14, Yaqubun 14, Mahmud, Əlvənd, Məhəmməd, Baysunqurun 10 və Muradın 7 yaşı vardı. Qardaşı Cahangirin övladları Xəlil, Qasim və Məsih də varis olacaq yaşda idilər. Onların hamısı özünü taxtın varisi hesab edirdi. Həsən padşahın böyük bir hökmdar kimi ən zəif cəhəti öz varisləri arasında güclü bir namizədi taxt üçün seçə bilməməsi oldu. Bu, onun gözlənilməyən vəfatı ilə əlaqədar olmalıdır.

Hakimiyyətə ilk olaraq Əbülfəth Sultan Xəlil Bahadır xan (yanvar-iyul 1478) çıxdı, amma 1478-ci ilin iyul ayında Xoy ətrafında qardaşı Yaqubun tərəfdarları ilə döyüşdə

məğlub olub öldürülüncə, taxta Əbül Müzəffər Sultan Yaqub bəy keçdi. Yaqubun 1478-1490-cı illəri əhatə edən hakimiyyət dövrü Ağqoyunlu dövləti üçün xarici siyasətdə sakit və rahat keçdi. Amma daxildə bəzi üsyanlar baş verdi. Sultan Yaqubun bütün fəaliyyəti daxili üsyanları yatırmaqla keçdi. *Nurəddin Əbdürrəhman Cami (1414-1492)* məşhur *"Silsilətül-Zəhəb"* adlı əsərində Sultan Yaqubu "gözəl siyasətçi, kasıbların dostu, zülmün düşməni" kimi tanıdır. *Fəzlullah ibn Ruzbehan Xunci (1457-1521)* də onu "fəzilət sahibi hökmdar" hesab edir. Bu təriflərə rəğmən, onun atası qədər güclü bir hökmdar olmadığı aydın olur. Sultan Yaqub olduqca gənc yaşda, yəni 26 yaşında Azərbaycanda çıxan vəba xəstəliyinə yoluxaraq öldü.



*Sultan Yaqubun dəbilqəsi. Metropolitan muzeyi*

Onun vəfatından sonra Ağqoyunlu dövləti sürətlə tənəzzül etməyə başladı. Taxt uğrunda kəskin mübarizə və ara müharibələri başladı. Belə bir siyasi xaos şəraitində qızılbaşlar hərəkatı da gücləndi. *Sultan Baysunqur*un (ö.1492), *Sultan Rüstəm bəy*in (ö.1497) və *Gödək Əhməd*in *(ö.1497)* qısamüddətli hakimiyyətindən sonra Ağqoyunlu dövləti Yaqub və Cahangirin oğlanları arasında beş hissəyə parçalandı. Onlardan *Əlvənd Mirzə* (ö.1504) və *Murad Mirzə (ö.1518)* Aran, Azərbaycan, İraqi-Əcəm və Diyarbəkiri öz aralarında bölüşdürdülər. Təbrizdəki hakimiyyət Əlvəndin əlinə keçdi.





## 9.9. VOLQABOYU XANLIQLARI

Əmir Teymurun zərbələri ilə tənəzzül edən Qızıl Orda dövlətində daxili ixtilaflar nəticəsində hakimiyyət uğrunda mirzələr və xanlar arasında mübarizə qızışdı. Edigə Mirzə, Uluğ Məhəmməd və Baraq xan arasında 1396-cı ildə Toxtamış xanın ölümündən sonra başlayan taxt müharibələri otuz ildən artıq davam etdi. 1427-ci ildə Qızıl Orda dövlətindən ilk ayrılma gerçəkləşdi. Çingiz xan soyundan gəldiklərini iddia edən *Gəraylılar* sülaləsindən olan *Hacı Gəray (1441-1466)* Krımda xanlığını elan etdi. Belə çətin vaxtda Qızıl Orda dövlətinə qarşı mübarizəyə başlayan *Uluq Məhəmməd xan (1438-1445)* dövlətin şimalındakı torpaqları ələ keçirib Qazan xanlığının təməllərini atdı.

Yaranan siyasi şərait ən çox Moskva knyazlığının işinə yaradı. Qızıl Ordanın vassalları olan Moskva knyazları müstəqil oldular. Hər nə qədər Qızıl Orda xanı Seyyid Əhməd xan *(1445-1455)* Moskvaya qarşı amasız mübarizə aparsa da, Krım xanı Hacı Gəray ilə Moskva knyazı III İvan

arasında qurulan ittifaq bu mübarizənin nəticəsiz qalmasına səbəb oldu. Seyyid Əhmədin varisi Əhməd xan *(1465-1481)* da Moskvaya qarşı mübarizəni davam etdirdi. Lakin Qızıl Ordanın aradan qalxmasının əsl səbəbkarı Osmanlı dövləti oldu. 1475-ci ildə Krım xanlarını öz təsirləri altına alan osmanlılar həmin tarixdə Şimali Qaradəniz bölgəsində hakim gücə çevrildilər. Nəticədə Osmanlı dəstəyini alan Krım xanlığı 1512-ci ildə Saray şəhərini ələ keçirib bu dövlətin varlığına birdəfəlik son qoydu.

**Krım xanlığı**. 1475-ci ildə osmanlıların Kəfəni ələ keçirib Krım xanlarını himayələri altına almaları ilə Krım Qızıl Orda dövlətindən müstəqil bir güc olaraq ayrıldı. Krım və Osmanlı razılaşmasına görə, Osmanlı taxtına çıxacaq varis olmadıqda, Krım xanları İstanbul səltənət taxtında oturmaq haqqı əldə etdilər. Lakin belə bir hadisə heç bir zaman gerçəkləşmədi. Krım xanlığının əsas mərkəzi Krım yarımadası sayılırdı. Krım xanları apardıqları fəth siyasəti ilə bölgənin mədəni inkişafına böyük xidmət göstərdilər. Burada Sultan Baybars məscidi, Özbək xan məscidi, Hacı Məhəmməd məscidi, Hacı Ömər məscidi kimi memarlıq baxımından Osmanlı tərzində ibadətxanalar inşa etdilər. Bölgənin mərkəz şəhərləri olan Baxçasaray və Salacıq bağları, bağçaları, sarayları, karvansarayları və qonaqlama yerləri ilə gözəl şəhərlərə çevrildilər.

Krım xanları *xan*, onların vəliəhdləri isə *kalqay* titulu daşıyırdı. Xanlar Ağməscid deyilən yerdə iqamətgah salmışdı. Xanlığın qərbində isə Gözləvə adlı liman yer alırdı. Burada Memar Sinan tərəfindən Tatar xan məscidi, Cümə məscidi, Nurəddin Sultan məscidi tikilmişdi. Qarasubazar şəhəri isə xanlığın mərkəz hissəsində yerləşirdi. Xanlığın dənizlə olan sərhədi boyunca Manqub, İnkerman, Balıqlava, Yalta, Aluşta, Soğdaq, Kəfə, Kerç yer alırdı ki, bu yerlərdə Osmanlı təsiri güclü idi. Lakin bu liman şəhərlərinin əhalisi az idi. XVI əsrin ortalarında Kerçin əhalisi 16 min,





*Krım xan sarayı*

Soğdaqın 1600, İnkermanın 1100, Yaltanın 1000, Balıqlavanın 950, Manqubun 900 sakini var idi.

Krım xanlığında kənd təsərrüfatı getdikcə inkişaf etməyə başladı. Lakin bölgə əhalisinin əsas məşğuliyyətini heyvandarlıq təşkil edirdi. Krım tarixən çox əhəmiyyətli bir coğrafi mövqeyə sahib olmuşdu. Bölgə şərqlə-qərb, cənubla-şimal arasında ticarət münasibətlərinin birləşdiyi nöqtədə yerləşirdi. Bütün şimal bölgələrindən gələn qul, bal, xəz dəri ticarət karvanları Krıma gəlirdi. Cənubdan isə Misirdən bölgəyə gələn gəmilər yanaşırdı. Krım xanlığı vaxtaşırı olaraq Moskva knyazlığına qarşı da hərbi səfərlər təşkil edir və aldıqları slavyan əsirləri Osmanlı bazarlarında satırdılar. Krım xanlığı varlığını 1783-cü ilə qədər davam etdirdi. Bu tarixdə Krıma nəzarət rusların əlinə keçdi. Bu, Krımın Rusiyanın bir parçası halına gəlməsinə səbəb oldu.

**Qazan xanlığı**. *1437-1556-cı illər* arasında mövcud olan Qazan xanlığı qədim Volqa Bulqar dövləti torpaqlarında,

indiki Tatarıstan ərazisində yaranmışdır. Lakin Qazan xanlığının ərazisi çox böyük idi. İndiki Tatarıstan, Çuvaşıstan, Udmurt, Mari, Başqırdıstan respublikalarından başqa Ulyanovsk, Penza, Saratov, Kuybışev, Perm, Tambov və Ryazan vilayətləri də bu xanlığın ərazisinə daxil idi.

Qazan xanlığını apardığı hakimiyyət uğrunda mübarizədə məğlub olan Qızıl Orda xanı *Uluq Məhəmməd* təsis etdi. 3 minlik ailəsi və qohumları ilə Saraydan ayrılan Uluğ Məhəmməd uzun mübarizələrdən sonra Qazanı özünə yurd seçdi və 1437-ci ildə xanlığını elan etdi. Qazan xanlığının siyasi tarixi Moskva ilə hərbi səfərlər şəraitində keçmişdi. İlk dövrlərdə bu müharibələrdə Qazan hakim güc olarkən, sonrakı dövrlərdə Moskva güclü tərəfə çevrildi. Mahmud *(1445-1462)* və Xəlil *(1462-1467)* xanlar dövründə özünün güclü dövrünü yaşayan Qazan İbrahim xan dövründən *(1467-1478)* etibarən daxili ixtilaflarla sarsılmağa başladı. Meydana gələn bu ziddiyyətlər Moskva knyazlığının işinə yaradı və nəticədə 1552-ci ildə Qazan xanlığı ruslar tərəfindən işğal olundu.

**Qasım xanlığı**. Oka çayı ətrafında ortaya çıxan Qasım xanlığı *1452-1681-ci illər* arasında mövcud olmuşdur. Xanlıq onun banisi *Qasım xan*ın adıyla adlanmışdır. Qızıl Orda xanları soyundan gələn Qasım xanları Qazan xanlığı ilə daimi mübarizə içində oldular. Bu müharibələrdə bəzən Qasım xanlığı Moskva knyazlığı ilə ittifaq içində hərəkət etmişdir. Qasım xanın oğlu Danyal xanın ölümündən sonra xanlıq üzərində nəzarəti Krım və Astarxan xanları ələ keçirdilər. 1681-ci ildə rusların nəzarətinə keçən xanlığın müsəlman əhalisinin böyük hissəsi yurdlarını tərk edib Orta Asiyaya köç etmişdir.

**Astarxan xanlığı**. İndiki Həştərxan, qədim adıyla Hacı Tərxan bölgəsində təsis edilən bu xanlıq *1466-1554-cü illər* arasında mövcud olmuş və Cuçi sülaləsindən Toqa



Teymurun nəslindən *Qasım xan* tərəfindən yaradılmışdır. Xanlığın ərazisi qərbdə Kuban və Don çayına, şərqdə Noqay Ordasına, cənubda Terek çayına, şimalda isə Volqa və Don çayının ortalarına qədər uzanırdı. Bu xanlıq bəzi rus mənbələrində "Əjdər xanlığı" olaraq da adlandırılır.

Xəzərin şimal hissəsində yerləşən Astarxan ticari münasibətlər baxımından çox əlverişli bölgədə idi. Astarxandan qalxan gəmilər cənubda müsəlman ölkələri ilə davamlı ticari-mədəni əlaqələrə malik idi. Lakin digər xanlıqlar kimi, Astarxanda da hakimiyyət uğrunda mübarizələr səngimirdi. Bu mübarizələrin sonunda xeyli zəifləyən xanlıq 1554-cü ildə ruslar tərəfindən işğal edilmişdir.

**Sibir xanlığı**. *1464-1598-ci illər* arasında mövcud olan Sibir xanlığının banisi İbak xan *(1465-1495)* olub. Bu xanlığın hakim sülaləsi Cuçinin Şibək adlı oğlunun nəslindən gəlirdi. Ərazi baxımından geniş sahəyə malik olan Sibir xanlığının torpaqları bəzən Moğolustana qədər uzanırdı. 1582-ci ildə rus komandanı Yermak əmrindəki qozaklarla birlikdə xanlığın ərazisinə hərbi səfərlər təşkil etməyə başladı. Həmin vaxt xanlığı idarə edən Kuçum xan *(1563-1598)* şiddətli şəkildə ruslara qarşı çıxdı. 1584-cü ildə meydana gələn döyüşlərin birində Yermak öldürüldü. Lakin 1598-ci ildə Ob çayı ətrafındakı döyüşdə Kuçum məğlub olub Noqay Ordasına qaçdı. Beləcə, geniş Sibir torpaqları rusların əlinə keçdi.

**Noqay Orda**. *1398-1642-ci illər* arasında Xəzər dənizinin şimal-şərq hissəsində mövcud olan Noqay Ordanın banisi Çingiz xan nəslindən manqıt boyuna mənsub Edigə xan (ö.1406) olmuşdur. Noqay Ordası tayfalar ittifaqından meydana gəlirdi. Lakin özü Çingiz ailəsindən olmadığı üçün Edigə xanlığın başına Toqa Teymur nəslindən *Teymur Qutluq xan*ı çıxarmışdır. Ancaq bu ordaya Noqay deyilməsinə səbəb bu ərazilərin Noqayın mülkü olmasıdır. Noqay

Çingiz xan soyundan olub ilk müsəlman olan moğollardan biridir. Qızıl Orda xanlığı uğrunda gedən mübarizədə məğlub olan Noqay öldürüldü. Onun ətrafındakılar daha sonra *noqaylar* adlanmağa başladılar. Manqıtlar noqayların ərazisini ələ keçirdikdə onlar da eyni adı aldılar. 1642-ci ildə Noqay Ordası şərqdən gələn kalmıkların hücumuna uğradılar. Bundan sonra yurdlarını tərk edən noqaylar Rusiyaya sığındılar və Şimali Qafqazda məskunlaşdılar.

Qızıl Ordanın varisləri olaraq ortaya çıxan bu xanlıqlar mədəni baxımdan türk-moğol kimliyinin bir parçası idilər. Lakin bu xanlıqlar heç bir zaman siyasi baxımdan sabit bir dövr keçirmədilər. Həm xanlıq daxilində, həm də qonşu xanlıqlarla davamlı müharibələr içində oldular. Bunda xanlığı təşkil edən əsilzadələr arasında mənfəətlərin toqquşması başlıca amil idi. Belə ki, Qızıl Orda digər xalqlar üzərindəki üstünlüyünü itirdiyi zaman həmin əsilzadələrin gəlirləri də azalmış və onlar bir-birlərinə qarşı üstünlük yarışına girmişdilər.





## 9.10. ANADOLU BƏYLİKLƏRİ

Moğol hücumları ilə Anadoludakı hakim mövqeyini itirən Anadolu Səlcuqlu ölkəsi əvvəl Moğol əmirlərinin, daha sonra da Elxanlı hökmdarlarının təsiri altına girdilər. Orta Asiya, Xorasan və Azərbaycandan moğolların qarşısından qaçan çox sayda türk tayfası da ailələr halında gəlib Anadolu torpaqlarında yerləşdilər. Dövrün mənbələri Anadoludakı bu vəziyyəti "Türk dənizi"nə oxşadır. Belə ki, böyük köçlər sayəsində türklər Anadolunu tamamilə ələ keçirərək Bizansı Konstantinopoldan ibarət bir dövlət halına gətirdilər.

Digər tərəfdən, baş verən hadisələr Anadoludakı hakim mərkəzi gücün parçalanmasına və çox sayda bəyliyin yaranmasına yol açdı. Hər biri bir əyalətdə məskunlaşan türk tayfaları məskunlaşdıqları yerlərdə öz bəyliklərini təsis etdilər. Bunun nəticəsində XIV əsrin əvvəllərində Anadoluda 20-dən çox bəylik mövcud idi:

| Bəyliyin adı: | Mövcud olduğu illər: | Ərazisi: |
|---|---|---|
| Alaiyyə | 1293-1421 | Alaniya |
| Aydınoğulları | 1308-1426 | Birgi, Aysuluq |
| Candaroğulları | 1292-1461 | Eflani, Kastamonu, Sinop |
| Canik | XIII-XV əsr | Samsun |
| Çobanoğulları | 1211-1309 | Kastamonu |
| Eretna | 1328-1381 | Sivas və Kayseri |
| Ərzincan | 1379-1410 | Ərzincan |
| Əşrəfoğulları | XIII əsr-1326 | Bəyşəhər |
| Germiyanlı | 1300-1428 | Kütahya |
| Həmidoğulları | 1301-1423 | Eğirdir |
| İnancoğulları | 1261-1368 | Dənizli |
| Məntəşə | 1280-1424 | Milas |
| Osmanlı | 1299-1922 | Söyüd, Bursa |
| Pərvanəoğulları | 1277-1322 | Sinop |
| Qaramanlı | 1256-1483 | Konya |
| Qarasıoğlu | 1297-1360 | Balıkəsir |
| Qazi Bürhanəddin | 1381-1398 | Kayseri |
| Ramazanoğulları | 1325-1608 | Adana |
| Sahib Ataoğulları | 1275-1342 | Afyon |
| Saruxanlı | 1302-1410 | Manisa |
| Tacəddinoğulları | 1303-1415 | Niksar |
| Təkəli | 1321-1423 | Antalya |
| Zülqədərli | 1339-1521 | Əlbistan və Maraş |

Bu bəyliklərin böyük əksəriyyəti *iqta* olaraq ələ keçirdikləri torpaqlarda ortaya çıxdılar. Hər bəyliyin başında bəyliyi təşkil edən hakim tayfanın boy bəyi dayanırdı və çox nadir hallarda onlar *sultan* kimi titullar daşıyırdılar. Hər tayfanın *ulu bəyi* özünü bəyliyin mütləq hakimi hesab



etsə də, bəylik ərazisində siyasi-hərbi məsələlər tayfanı təşkil edən digər bəylərin razılığı və qərarları ilə həll edilirdi.

Hər bəyliyin özünün maliyə və idarə işlərinə nəzarət edən *vəzarət* və ya divan təşkilatı mövcud idi. Böyük əksəriyyəti heyvandarlıqla məşğul olan bəyliklərin əhalisi ərazi məsələləri ucbatından tez-tez qonşu bəyliklərlə mübahisələr yaşayırdılar. Bəyliyin orduları da, əsasən tayfaların atlı dəstələrindən təşkil olunurdu. Hər ailənin kişisi əsgər sayılırdı. Bəylik orduları ənənəvi türk ordu sisteminə görə mərkəz, sağ-sol cinahlarından ibarət olur, ox-yay, qılıncla silahlanırdılar. Bu dəstələr kiçik olduğundan bəyliklər bəzi hallarda güclü düşmənlərə qarşı ittifaq halında hərəkət edirdilər.

Bəylik torpaqları *iqta* – yəni bəyin şəxsi ərazisi, *vəqf* və *mülk* olaraq üç təsərrüfat sahəsinə ayrılırdı. Bəyliklərin ərazisində kənd təsərrüfatı məhdud olsa da, davam etdirilən təməl məşğuliyyətlərdən biri idi. Zəngin və bərəkətli torpaqlar olan Anadoluda əhali, əsasən buğda, meyvə və pambıq məhsulları əldə edirdi.

Bəyliyin qadınlarının əsas məşğuliyyəti isə xalçaçılıq idi. Böyük heyvan sürülərinə sahib tayfanın xanımlarının əldə edilən yundan hazırladıqları xalçalar dünyaca məşhur idi. Həmin xalçaların Avropadan xüsusi müştəriləri və tacirləri vardı. Yerli tacirlər hər il topladıqları bu xalçaları əcnəbi tacirlərə satır, həmin tacirlər də onları, əsasən dəniz yolu ilə Venesiya bazarlarına çıxarırdılar. Xalça ilə yanaşı, palaz, kilim, çadır, yolluq, yun geyimlərin də ticarəti aparılırdı.

Anadolu şəhərlərinin bəyliklərin nəzarəti altında bölünməsi hər şəhərə öz mədəni formasını qazandırdı. Anadolunun əsas böyük şəhərləri olan Konya, Sivas, Kayseri, Alanya, Sinop, Amasya Səlcuqlu mədəni mirasının izlərini daşıyırdılar. Burada Səlcuqlu memarlıq nümunəsində tikilmiş hamamlar, karvansaraylar, məscidlər və mədrəsələr yer alırdı. Böyük şəhərlər arasında gəliş-gedişlər

müntəzəm davam edirdi. Tələbələr ən yaxşı şəhərlərin mədrəsələrini tərcih etdiklərindən rahatlıqla bir şəhərdən digərinə gedirdilər. Anadoluda şeyxlər, dərvişlər, alimlər öz tərcihlərinə görə bəyliklərin ərazilərində yer dəyişdirirdilər. Anadolu dövrünün böyük şair, ədib, alimləri arasında yer alan Yunus Əmrə, Əmrə Tapdıq, Şeyx Əhməd Gülşəhri, Aşıq Paşa, Ulu Arif Çələbi, Bəhaəddin Sultan Vələd, Qazi Bürhanəddin, Əhməd Əflaki, Xoyi, Hubeyş Tiflisi və çox sayda insan birdən çox yerdə yaşamışdılar.

Bəyliklər dövründə Anadoluda sufi təriqətlər və dərgahlar da çoxalmışdı. Qələndərilik, qarkınilik, heydərilik, babailik, bektaşilik kimi təriqətlər Anadoludakı əhalinin müsəlman anlayışını formalaşdırmağa çalışırdılar.

Anadolu bəylikləri XV-XVI əsrlərdə bölgənin tək hakimi osmanlıların ortaya çıxmasına qədər bölgənin maddi-mədəni türk kimliyinin yaranmasına və təşkilatlanmasına xidmət etdilər. Bu gün Anadoluda həmin bəyliklərə məxsus maddi-mədəniyyət abidələrinin sayı Osmanlı dövründəki əsərlərdən daha çoxdur.





## 9.11. TÜRK-MOĞOL SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ MÜNASİBƏTLƏRİ

Moğollar tarix səhnəsinə çıxdıqda dünyadakı iqlim şərtləri dəyişməyə başlamışdı. IX əsrdən başlayan dünyadakı isti iqlim XIII əsrdə yerini soyuq iqlimə tərk etməyə başladı. Hər min ildən bir gerçəkləşən qlobal iqlim şərtləri dünyanın tarixi gedişatına da güclü təsir göstərmişdir. XIII əsrdən başlayaraq 1800-cü ilə qədər davam edən bu proses dünya tarixçiliyində "Kiçik buz dövrü" adlanır.

Eko-sistemdə meydana gələn dəyişikliklər günümüzdəki kimi insandan qaynaqlanmırdı. Əsas səbəb Günəşdə partlayışların azalması, hətta heç olmaması göstərilir. Məlum olduğu kimi, Günəşin fəaliyyətinə dair əsas məlumat mənbəyimiz Günəş ləkələrinin izlənməsidir. Günəş ləkələri haqqında 1607-ci ildən etibarən sistemli məlumat toplamaq mümkündür. Günəş ləkələrini ilk dəfə *İohann Kepler (1571-1630)* araşdırıb. Keplerin qeydlərində əvvəlki dövrlər haqqında məlumat olmadığından, alimlər "Kiçik Buz dövrü"nün başlanğıcında Günəşin fəaliyyətləri haqqında

dəqiq fikir sahibi deyillər. Ancaq yenə də tədqiqatçılar 1400-cü ildən etibarən Günəşdəki ləkələrin kəskin azaldığını, hətta heç olmadığını bildirirlər.

Eko-sistemi dəyişdirən ikinci böyük amil vulkanik partlayışlar idi. Həmin vaxtlarda eko-sistemi sarsıdan ilk böyük vulkan partlayışı 1258-ci ildə qeydə alındı. 1300-cü ildən sonra vulkanik partlayışlar dünya üçün dəhşətli bir hal aldı. Belə ki, Uzaq Asiya və Latın Amerikasında beş yanardağın eyni anda hərəkətə keçməsi atmosferdəki karbondioksid miqdarının kəskin şəkildə artmasına yol açdı.

XV əsrin başlaması ilə birlikdə şiddətli fırtınalar və ani hava dəyişiklikləri dünyada iqlimin əsas xüsusiyyəti halına gəldi. Dünyadakı istilik miqdarı əvvəlcə 0,8 dərəcə, daha sonra 1 dərəcə düşdü. Sonrakı dövrlərdə bu nisbət 2-3 dərəcə daha aşağıya düşdü. *Ronald D.Gerst*in *(d.: 1957)* araşdırmasına görə, soyuqlaşma hadisəsi bütün dünya üçün əlamətdar olsa da, ani iqlim fəlakətləri hər bir qitədə fərqli səviyyələrdə özünü göstərmişdir.

İqlim dəyişiklikləri və kəskin soyuqlar dünyadakı insani məskunlaşmaların sahəsinin daralmasına yol açdı. İnsanlar Qrenlandiya yarımadasını tamamilə tərk etdilər. İslandiya adasında əhali minimal həddə çatdı. İngiltərə və Skandinaviyada əhali azalmağa başladı, xüsusilə də Skandinaviya ölkələrində yaşayan dənizçilərin cənuba axın etməsi səbəbindən Aralıq dənizindəki gəmiçilik fəaliyyəti hündürboylu, sarışın, uzun saçlı dənizçilərin nəzarəti altına keçdi. Alp dağlarının bütün vadiləri buzlarla örtüldü. Buzlaşma periodik olaraq, XV əsrdən başlayıb XIX əsrə qədər sular və vadilər arasında genişlənərək davam etdi. Hətta şimal buz sahəsi İslandiyanın cənubuna qədər endi, bütün Şimali Sibir ağ örtük altında qaldı. İqlim dəyişiklikləri Balkanlarda, Anadoluda, Qafqazda və Mesopotamiyada ciddi dəyişikliklər yaratdı. Beləliklə, 850-1200-cü illər arasında dünyada yaşanan isti dövr tamamlanıb, soyuq dövr başladı.



Moğol hücumları dünyanın sosial-etnik mənzərəsini dəyişdirdi. Hər şeydən əvvəl dünya əhalisi xeyli azaldı. Çingiz xanın ortaya çıxdığı ərəfədə Moğol dövlətinin ümumi əhalisi 700 minlə 1 milyon arasında dəyişirdi. Çində 300 milyon olan əhali, Moğol dövründə 80 milyona qədər endi. Xarəzmşah ölkəsinin 20 milyon, Orta və Yaxın Şərqin isə 28-30 milyon əhalisi vardı. Şərqi Avropada isə ümumilikdə 28 milyon insan cəmləşmişdi. Avropanın ümumi əhalisi 50 milyondan çox idi.

Əhalinin azalmasına səbəb moğol hücumları deyildi. Ən böyük zərbə dağıntıların və dəyişən iqlim şərtlərinin yol açdığı quraqlıqlar, yoluxucu xəstəliklər və qıtlıqlar idi. 1340-cı ildə Çində başlayan qara ölüm (*vəba*) İspaniyaya qədər bütün Asiya, Avropa və Afrika qitəsini təsiri altına aldı. Moğollar xəstəliyi özləri ilə Çindən Qızıl Ordaya, oradan da Krıma daşıdılar. Krıma səyahət edən ticarət gəmiləri isə xəstəliyin bütün Aralıq dənizi limanlarına yayılmasına səbəb oldular. 1380-ci ildə vəba nəticəsində dünya əhalisi yarıya qədər azaldı. Əhali azalması Avropada iki dəfədən çox oldu. Xəstəliyi iqlimin soyuqlaşması və buzlaşma dayandırdı.

Müsəlman şəhərlərində və Çinin milyonluq əhaliyə malik şəhərlərində əhali nisbəti on dəfədən də az qaldı. Mərv, Xarəzm, Buxara, Nişapur, Ərdəbil, Beyləqan, Marağa, Bağdad kimi şəhərlərin əhalisi bəzi hallarda on minə qədər düşmüşdü. Moğollara təslim olmayan və müqavimət göstərən şəhərlər ən çox zərər çəkən yerlər oldular. Meydana gələn köçlər də azalmaya təsir göstərdi. Orta Asiya, Xorasan və Azərbaycanın müsəlman-türk əhalisinin böyük əksəriyyəti yurdlarını tərk edib Anadolu, Suriya və Misirə köç etdilər. Dəşti-Qıpçaq bölgəsinin türkləri (qıpçaq, peşeneq, uz, tork, bərəndey) kütlələr halında yurdlarını tərk edib Suriya, Misir, Macarıstan, Rumıniya, Bolqarıstan, Polşa və slavyan knyazlıqlarının torpaqlarına çəkildilər.

Yerdəyişmələrdən və insanların qarışmasından yeni kimliklər yarandı. Anadolunun kəndləri demək olar ki, tamamilə türkləşdi. Balkanlarda türk və yerli xalqların qarışmasından *valanlar* adlanan bir kimlik törədi ki, Don çayından Azov dənizinə, oradan da Dunaya qədər geniş sahəni əhatə edirdi. Slavyan knyazlıqlarının əhalisi etnik baxımdan güclü dəyişikliyə məruz qaldı. Moğol hakimiyyətini qəbul etməyən kuman, qıpçaq, tork, uz, bərəndeylər kimi türk tayfaları slavyanlarla qarışdılar. Qafqaz üzərindən Suriya və Misirə köç edən türk və çərkəz əhalisi kütləvi şəkildə Misirdə yerləşdilər. Döyüşçü türklər isə Bizans ordu sıralarına daxil oldular.

Bu prosesdə yeni etno-kimliklər formalaşdı. Dəşti-Qıpçaq bölgəsində qalan əhali *tatar* adını aldı və bu gün Volqaboyu ərazilərdə məskunlaşan türklərin milli formalaşmasında rol oynadılar. Çox sayda insan ünsürünün gəlib yerləşdiyi bölgələrdən biri də Azərbaycan oldu. Burada sulduz, cəlairli, uyraq, uyğur, qarluq kimi tayfalar məskunlaşdılar. Ümumilikdə moğol istilaları nəticəsində Azərbaycan, Anadolu, İraq bölgəsinə 2 milyondan çox insanın gəldiyi qeyd edilir.

Moğol istilaları bölgənin funksiyasının da dəyişməsinə səbəb oldu. Şəhər və kənd həyatı ikinci plana keçdi. Qışlaq və yaylaqlar insanların əsas məskənləri halına gəldilər. Qarabağ, Aladağ, Qızıl Özən, Uçan, Muğan kimi Azərbaycan ərazilərindəki yaylaq və qışlaqlar uğrunda tayfalar arasında ciddi toqquşmalar baş verdi. Səyyar çadır şəhərlər ortaya çıxdı. Elxanlı ərazisində Qazan xan adına salınmış çox sayda Mahmudabad şəhərindən bəhs edilir ki, bu şəhərlərin əksəriyyəti çadır şəhərlər idi.

Ancaq moğol istilalarının müsbət cəhətləri də oldu. Xüsusilə ticarət və iqtisadi imkanlar genişləndi. Moğol ərazilərində ticarət karvanlarının və tacirlərin sərbəst hərəkətinə imkan tanındı. Beləliklə, qlobal ticarət anlayışı ortaya çıxdı. Şərq ilə Qərb arasında ticarət əlaqələri sürətləndi. İpək yolu canlandı və vahid gömrük sistemi tətbiq edildi. Bu münasibətlərlə yanaşı, xalqların tibb və astronomiya sahəsində bilik alış-verişi sürətləndi. Xüsusilə də Çin-İslam elmləri arasında əlaqələr o dərəcə yaxınlaşdı ki, Təbriz və Marağada çincə əsərləri ərəb-fars və türk dillərinə tərcümə edən elmi heyətlər ortaya çıxdılar. Bunun nəticəsində XIV əsrin müəlliflərindən olan *Hinduşah Naxçıvani (1245-1328)* əsərlərində iqtisadi məlumatlara daha geniş yer vermişdir.

Moğollar yolların təhlükəsizliyinə xüsusi əhəmiyyət verirdilər. Bu məqsədlə *tutqaul* adı verilən xüsusi yol təhlükəsizlik dəstələri yaradıldı. Yollardakı qaraqol, karvansaray və yam (poçt) stansiyalarının iş sistemi tənzimləndi.

Moğollar vergiləri xeyli azaltdılar. Torpaqdan əldə edilən məhsulun 3-5 faizi vergi olaraq alınırdı. Vergi miqdarı ancaq XIV əsrin ortalarında 5 faizdən yuxarı qaldırılmışdı. Çingiz xan dövründə vergi verməyən moğollardan Ögedey dövründə 1 faizlik vergi alınmağa başlandı.

Moğollar, ümumiyyətlə türklər ənənəvi inancları gərəyincə, astrologiyaya həddən artıq maraqlı olduqlarından bütün Moğol uluslarının ərazisində rəsədxanalar qurulmuşdu. Belə rəsədxanaların ən böyükləri Pekin və Marağada yerləşirdi. Hər iki rəsədxananın alimləri arasında bilgi alış-verişi müntəzəm davam edirdi.

Hər Moğol xanının və əmirinin yanında mütləq şəkildə bir münəccim, hər Moğol şəhərində bir rəsədxana yer alırdı. Tenqriçi və şaman türk-moğol xalqları bütün işlərini şaman və münəccimlər sayəsində icra edirdilər. Səfərlərə çıxma tarixinin müəyyən edilməsi, qurultay zamanları, evliliklər, doğan uşağa ad verilməsi, toy üçün uğurlu günün seçilməsi kimi hadisələr mütləq şəkildə münəccimlərlə məsləhətləşərək qərarlaşdırılırdı. Bu məqsədlə Moğol hökmdarları ələ keçirdikləri ölkələrin böyük alimlərini, xüsusilə astronomiya və nücum elmində ad çıxarmış alimləri qoruma altına alır, onların



*Marağa rəsədxanası*



*Nəsirəddin Tusi. Rəssam: Nəcəfqulu İsmayılov*



elmi fəaliyyəti üçün geniş imkanlar yaradırdılar. Məngü xaqan böyük bir rəsədxana tikdirmək həvəsində idi. Bu məqsədlə buxaralı alim Cəmaləddin Mahmud ibn Tahir ibn əz-Ziyadini vəzifələndirdi. Lakin əz-Ziyadinin çalışmaları uğurlu olmadı. Buna görə Məngü xan qardaşı Hüləgünü Şərqə göndərdikdə, ondan *Nəsirəddin Tusi*ni *(1201-1274)* tapıb ona göndərməsini əmr etdi. Bu Moğol hökmdarlarının İslam dünyasındakı alimlər haqqında kifayət qədər məlumat sahibi olduqlarını təsdiq edir. Hüləgü xan Nəsirəddin Tusini öz nəzarəti altına aldığını bir məktubla qardaşına xəbər verdikdə, Məngü xan Cənubi Çində Sonq dövlətinə qarşı hərbi səfərdə olduğunu bildirib Tusini öz yanında saxlamasını buyurdu. Hüləgü xan da elə həmin vaxt Müəyyidəddin əl-Utri, Fəxrəddin Marağayi, Fəxrəddin Əxlati və Nəcməddin Qəzvinini Tusinin rəhbərliyi ilə rəsədxana çalışmalarına başlamalarını buyurdu. Bağdad səfəri ərəfəsində Hüləgünün ağlında Nəsirəddin Tusiyə böyük bir rəsədxana tikdirmək fikri vardı. Bu məqsədlə Hüləgü Bağdadı ələ keçirdiyi vaxt şəhərdəki elmi mərkəzlərin materiallarını topladıb Marağaya göndərmiş, bu iş üçün gərəkli alimlərə toxunulmamasını əmr etmişdi.

Hətta Hüləgü ələ keçirdiyi yerlərin əmirlərinə fərmanlar göndərib rəsədxana üçün gərəkli elm adamları və ləvazimatların toplanmasını buyurdu. Hüləgünün tapşırığı əsasında Rey hakimi Məlik Nəsirəddin Əlaəddin Bağdad şəhərini gəzib, burada Marağa rəsədxanası üçün yararlı vəsaitləri, əşya və xəzinəni götürüb Azərbaycana apardı. Ələ keçirilən ismaili qalalarındakı astronomiyaya dair əşyalar və nücum elminə aid əsərlər Hüləgünün əmri ilə Marağaya gətirildi. Bundan başqa, Hüləgünün əmri ilə rum, gürcü, erməni, lor və kürdlərin nəzarətində olan yerlərdə və kilsələrdəki materiallar da Marağaya göndərildi. Bəzi qiymətli əşyalar isə Məlik Məcdəddin Təbrizi tərəfindən Salmas (Urmiya)

gölün ətrafında yerləşən Tələ adlı dağda tikilən qalada saxlanılmağa başlandı. Tarixçilər Hüləgü xanın Bağdad kitabxanalarını yandırdığını qeyd edirlər. Lakin bu məlumat mübahisəlidir. Marağa rəsədxanasında çalışmış elm adamlarından əl-Urdi risaləsində Marağa kitabxanasında olan 400 min kitabın Bağdad, Şam və Cəzirədən (Şimali İraq) gətirildiyini xəbər verir ki, bu da Bağdad kitabxanasında olan 700 min kitabın yarıdan çoxunun Marağaya aparıldığını deməyə imkan verir. Hətta Nəsirəddin Tusi kitab toplamaq məqsədilə özü iki dəfə Bağdada getmişdir.

Bundan başqa, Hüləgü xanın əmri ilə müsəlman ölkələrinin müxtəlif bölgələrində yaşayan alimlər Marağaya dəvət edildilər. Çindən İspaniyaya qədər alimlərə dəvətnamələr göndərildi. Müəyyəddin ibn Bərmək ibn Mübarək əl-Urdu əl-Dəməşqi rəsədxana alətlərinin düzəldilməsində böyük usta olduğundan Şamdan Marağaya çağırıldı. Mosuldan Fəxrəddin Marağayi, Tiflisdən isə Fəxrəddin Əxlati gətirildilər. Qəzvindən Əbul-Həsən Əli ibn Ömər əl-Qəzvini ilə Əllamə Qütbəddin Şirazi Marağada toplaşdılar.

Rəsədxana Marağada yaradılan darül-ilm (elmlər akademiyası) mərkəzinin sadəcə bir parçası idi. Burada *elmi-hey*, *tibb*, *kimya*, *farmakologiya*, xüsusilə də zəhər və panzəhər dərman çalışmaları, *astronomiya*, *riyaziyyat*, *həndəsə* və digər sahələri əhatə edən elm mərkəzi qurulmuşdur.

Marağa elm mərkəzinin idarəçiliyi haqqında çox az məlumat vardır. Elxanlı hökmdarı Hüləgü xan tərəfindən imzalanmış fərmana əsasən, Marağa elm mərkəzinin rəhbərinin Nəsirəddin Tusi olduğu aydın olur. Ona bu işlərdə kömək edən dörd katibi vardı. Həmin katiblərin adları belədir: Əbül-leys Məhəmməd ibn Fəxrəddin Marağayi, Fəxrəddin Əxlati, Muhyiddin əl-Urdi və Nəcməddin Qəzvini. Mənbələrdə Marağadakı araşdırmaları aparan elmi heyət arasında 23-ünün adını xüsusilə qeyd ediblər:



| | |
|---|---|
| 1 | *Nəcməddin Əbül-Həsən Əli ibn Məhəmməd Dəbran əl-Katibi Qəzvini* – ismaililərin xidmətində olmuşdur |
| 2 | *Fəxrəddin Əxlati* – Tiflisdən gəlib |
| 3 | *Müəyyəd əd-din Dəməşqi əl-Urdi* – Şamdan gəlib |
| 4 | *Fəxrəddin Marağayi* – Mosuldan gəlib |
| 5 | *Rüknədəddin əl-Əstərəbadi* – Mosuldan gəlib |
| 6 | *Muhiddin ibn Əbi əş-Şükr əl-Məğribi* – Əndəlüsdən gəlib |
| 7 | *Qütbəddin Şiraz Mahmud ibn Məsud ibn Muslih* |
| 8 | *Sədrəddin Əli ibn Nəsirəddin Tusi* – Nəsirəddin Tusinin oğlu |
| 9 | *Nəcməddin Əli ibn Mahmud əl-Bağdadi* |
| 10 | *İbn əl-Fuvati Kəmaləddin Şeybani* |
| 11 | *Xacə Şəmsəddin ibn Muhyiddin əl-Ərəbi* – İbn Ərəbinin oğlu |
| 12 | *Əsiləddin Həsən ibn Nəsirəddin Tusi* – Nəsirəddin Tusinin oğlu |
| 13 | *Şəmsəddin əş-Şirvani* – Şamaxıdan gəlib |
| 14 | *Kəmaləddin İci* |
| 15 | *Hüsaməddin Şami* |
| 16 | *Əşirəddin əl-Əbhəri* |
| 17 | *İbn Sartak* |
| 18 | *Rüknəddin ibn Şərafəddin əl-Amuli* |
| 19 | *Nəcməddin Dəbran* |
| 20 | *Nəcməddin Üsturlabi* |
| 21 | *Kumənci* – Hüləgü xanın istəyi ilə Çindən gəlib |
| 22 | *Sinq Sinq (Arif)* adıyla tanınan çinli *Fao-Mun-çi* |
| 23 | *Əbül-Fərəc* adıyla bilinən tanınmış süryani alim *Bar Habrekus* |

Belə fəaliyyətlər demək olar ki, bütün Moğol mərkəzlərinə xas idi. Qızıl Orda mərkəzi Sarayda da bir rəsədxana qurulmuş, buraya Trabzon və Bizansdan alimlər cəlb edilmişdi. Çindəki Sonq imperiyası ərazisində yaşayan din və elm adamları Kubilayın əmri ilə Pekinə toplanmışdı. Kubilay özü hər həftə onlarla dialoq içində olub elm adamlarının mülahizələrinə qulaq asırdı.

Moğollar, ümumilikdə türklər insanların dini inancları və ibadətləri məsələsində çox tolerant idilər. Ögedey tərəfindən tikilən yeni paytaxt Qaraqorumda bütün dini mərkəzlər inşa olunmuşdu.

*1235-ci il*də moğollar arasında keçirilən qurultayın ən böyük əhəmiyyəti ondan ibarət idi ki, bu qurultayda Böyük Moğol dövlətinin öz paytaxtının tikilməsinə qərar verildi. Ögedeyin əmri ilə inşa edilən *Qaraqorum*un (*Kara Kurum-böyük mərkəz*) yaradılmasına qədər Böyük Moğol dövlətinin paytaxtı uyğurlara məxsus Ordu Balıq (Saray şəhəri) olmuşdu. Yəni ki, Çingiz xan öz imperiyasını bir türk şəhərindən idarə etmişdi. Yeni paytaxtın adının türkcə olması da maraqlıdır. Mənbələrdə yeni şəhərin adı "*kara kurum*", "*qara daş*", "*kara balık*" olaraq qeyd edilir. Çin mənbələrində isə bu şəhərin adı "*Holin*" olaraq keçir.

Qaraqorum Qara Balasaqundan 25 km cənubunda, Bilgə xaqan və Kültigin abidələrinin ucaldığı yerin 45 km uzaqlığındadır. Çingiz xan ortaya çıxdıqda bu bölgə naymanların və keraitlərin əlində idi. Şəhəri çinli və müsəlman sənətkarlar tikdilər. Tikinti işlərində Ögedeyin yaxından iştirak etdiyi məlum olur. Xaqan vaxtının çoxunu da bu sənətkarlarla keçirirdi. Yaradılan yam (poçt) təşkilatı ilə Qaraqorum bütün imperiyanın beyni olacaqdı. Buna rəğmən, şəhər imperiyanın əlində olan Çin və İslam ölkələrinin gözəlliyi və incəliyi ilə yarışacaq səviyyəyə gələ bilmədi. Belə ki, 1254-cü ildə Qaraqorumu ziyarət edən avropalı səyyah Rubrok şəhəri belə təsvir edirdi:



*"Qaraqorum şəhəri ilə əlaqədar bilməmiz gərəkən şey, xanın sarayından baxdıqda Müqəddəs Denisin bazarları kimi təmtaraqlı olmadığıdır. Müqəddəs Denisin məbədi belə buradakı saraydan 10 dəfə böyükdür".*

Avropalı fransisken təriqətinin rahibi Rubrok şəhərin dörd hissədən ibarət olduğunu yazır. Onun qeydlərinə görə, şəhərin bir hissəsi müsəlman, bir hissəsi də xristian məhəlləsi idi. Üçüncü hissəsində dövlət məmurlarının evləri yerləşirdi. Şəhərin bazarı müsəlmanların yaşadığı hissədə idi və burada bir çox tacirin sarayı yer alırdı. Xristian məhəlləsində isə daha çox sənətkarlar yaşayırdı. Şəhərdə iki məscid, 12 bütü olan məbəd yer alırdı. Xristianlara məxsus kilsə isə şəhərin kənarında yerləşirdi. Şəhərin ətrafı palçıq kərpicdən divarla hörülmüşdü. Dörd darvazası olan şəhərin hər bir qapısının ətrafında bazar yeri var idi. Məsələn, qərb darvazasının girişində qoyun və keçilər, cənub darvazasının ağzında öküz və arabalar, şimal darvazasının girişində isə at gətirilib satılırdı.

Qaraqorumda Moğol xaqanı üçün bir saray da salınmışdı. Moğolların *karçi* (*Qarşı*), türklərin *ordu*, çinlilərin isə *van-an kunq* (min hüzur) dediyi saray çox da ehtişamlı deyildi. Ümumilikdə şəhərin divarlarının uzunluğu 200 m, eni isə 225 m idi. Şəhərin ən böyük qapısı türk-moğol inancına görə şərqə açılırdı. Bu qapı 30 m yüksəkliyində olub, sarı, ağ və qırmızı kərpiclərlə tikilmişdi. Qapının üzərinə sarı və yaşıl əjdaha fiquru nəqş olunmuşdu.

1260-cı ildə Kubilay xan paytaxtı Xan Balıqa (Pekin) köçürdükdən sonra Qaraqorum sürətlə tənəzzül etməyə başladı. XVI əsrdə isə şəhərdən əsər-əlamət qalmamışdı. Elə görünür ki, Qaraqorum ancaq qışda hökmdarın qaldığı yer idi. Belə ki, Ögedey 21 apreldə şəhəri tərk edib Orxon çayı ətrafında çadır qurur, mayın sonu ilə iyunun əvvəlləri arasında qısa müddət şəhərdə qalıb, daha sonra dağlara çıxır, avqustun sonunda Ongin çayı ətrafında yerləşib, fevral ayında yenidən şəhərə gəlirdi.

Qaraqorumda bütün inanclardan, dinlərdən, məzhəblərdən və millətlərdən insanların yaşaması buranın doğrudan da bir imperiya mərkəzi və eyni zamanda Moğol hökmdarlarının başqa dinlərin düşməni olduğu şəklindəki fikirlərin səhv olduğunu ortaya qoyur. Qaraqorumun bir şəhər kimi bütün ehtiyacları Çin tərəfindən qarşılanırdı. Hər gün Qaraqoruma 500 at arabası mal gəlirdi. Qaraqorumun iflasına səbəb də bu olmalıdır. Belə ki, paytaxt Çinə köçürüldükdən sonra Qaraqorum böyük qida problemi yaşamışdır.

Moğol xanları şəhərçiliyə çox maraqlı idilər. Qızıl Orda xanları Volqa boyunda onlarla şəhər saldırmışdı. Hüləgü xan özü Marağanın bərpası üçün xəzinədən külli miqdarda pul ayırmışdı. Qazan xanın Təbrizdə Şənbi-Qazan və Rəbbi-Rəşidi adlı tikdirdiyi elm mərkəzləri, oğlu Olcaytunun Sultaniyyədə yeni bir şəhər saldırması buna nümunədir.

Türk-moğol sisteminin təşkilati baxımdan ən mükəmməl və işləyiş baxımdan ən nizamlı dörd əsas sahəsi vardı:

- xəbərləşmə;
- idarəetmə;
- maliyyə;
- pul münasibətləri.

Moğolların hərbi və siyasi uğurlarının səbəblərinin başında mükəmməl xəbər alma təşkilatına sahib olmaları gəlirdi. Onlar tarixin ən böyük *informasiya* şəbəkəsini yaratdılar. Məlumat almaq, toplamaq, çatdırmaq və analiz etmək türk-moğol dövlətçiliyinin ən təsirli təşkilat sistemi idi. Mənbələrdə adına *yam* deyilən bu sistem o qədər mükəmməl təsis edilmişdi ki, Kubilayın hakimiyyətinin sonuna qədər, təqribən 100 il heç axsamadan nizami fəaliyyətini davam etdirdi.

Yam təşkilatını sadəcə poçt sistemi olaraq düşünmək doğru deyildir. Bu sistemin funksiyası eyni zamanda kəşfiyyat, nəzarət və məlumatın idarə edilməsindən ibarət idi. Bu təşkilatın yaradılmasına aparılan işğallar səbəb oldu.



Çingiz xan Xarəzmşahlar dövlətinə qarşı çıxdığı səfərdə bu reallığı dərk etdi. Çingiz xan uzaqda baş verən hadisələrdən xəbərdar olmaq üçün *yam* təşkilatını yaratdı. Əslində, bu təşkilat Çin və türk dövlətlərində mövcud idi. İ-chan olaraq adlandırılan xəbəralma və toplama anlayışı Şanq xanədanı zamanında *(e.ə.1600-e.ə.1027)* Şimali Çində mövcud idi. Çular *(e.ə.1027-e.ə.256)* bu təşkilata nizam və davamlılıq qazandırdılar. Xan və Tanq xanədanları zamanında da yam sistemi davam etdirildi. Bunun kimi Hun, Göytürk və Uyğur dövlətlərində də yam sistemi fəaliyyətdə idi. Hətta "Oğuznamə"lərdə bu təşkilatın varlığı haqqında ifadələrə yer verilib. Müsəlman dövlətlərində isə *bərid* adlandırılan poçt sistemi müstəqil bir divan hesab olunurdu.

*Yam* kəlməsinin türkcə-çincə qarışıq bir söz (türkçə *yam*, çincə *yen*) olduğu iddia edilir. Yam təşkilatı aşağıdakı formada qurulmuşdur:

| | |
|---|---|
| Ulaq | poçt xidmətində istifadə edilən atlar |
| Ulaqçı | poçt məmuru |
| Daruqaçı | xana bağlı olan poçt rəhbəri (*yekə daruqaçı*) və əyalətlərdəki poçt təşkilatının rəhbərləri |
| Kopçur | poçt üçün vergi toplayan məmurlar |
| Karavul | kəşfiyyatçı |
| Payza | xan tərəfindən verilən etibarnamə |
| Süsün | ərzaq |
| Ulufə | atlar üçün yem tədarükü |
| Tarkan | komandan |
| Yarlıq | əmr, buyruq, fərman |
| Ortaq | şərik |
| Yasaq | qadağa, qanun, nizam |
| Bayat | gündəlik poçt |
| Narit | paytaxt şəhərlərin ehtiyacını qarşılayan |

Çingiz xan poçt təşkilatını yaratsa da, bu təşkilatı formalaşdıran Ögedey oldu. 1235-ci il qurultayında Ögedey xan yam sisteminin əhəmiyyətini vurğulamış və bu istiqamətdə bəzi islahatlar aparmışdır. Bu islahatlar nəticəsində:

a) Yam təşkilatının hakim təbəqənin üstündəki yükü azaldıldı;

b) Ulaqların xidməti sistemləşdirildi.

Bu istiqamətdə ilk iş olaraq poçt təşkilatlarının yol xəritəsi yaradıldı və mühüm yollardakı poçt stansiyalarının sayı artırıldı. Ayrıca, ulaqçıların əhalinin məskunlaşdığı yerlərdən keçməsi məhdudlaşdırıldı. 1235-ci ilə qədər yamçılar əhalinin yaşadığı yerlərdən keçir, onların atına və ərzağına əl qoyurdular. Bu kimi hallar əhalinin narazılığına səbəb olduğu üçün xoşagəlməz hadisələr yaradır, bəzən ulaqçıların öldürülməsinə və əhalinin kütləvi cəzalandırılmasına yol açırdı. Sonrakı mərhələdə bu mexanizm dəyişdirildi, yamçıların öz yolu və xidmət müəssisələri tərtib olundu.

Hər 1000 nəfərdən biri ulaqçı olaraq yam təşkilatına alınır, hər 100 qoyundan biri vergi olaraq poçt təşkilatına verilirdi. Hər stansiyada 20 məmur fəaliyyət göstərirdi. Poçt sisteminə nəzarət çinli vəzir Yehlü Çu-tsaiyə tapşırılmış, poçt sisteminin tənzimlənməsi işlərinə nəzarət əmirlərdən Aratsen və Tolucara həvalə olunmuşdu.

Yam islahatının bir başqa xüsusiyyəti də ondan ibarətdir ki, Çingiz xanın oğlanlarına məxsus ulusların başında yer alan xanların hər birinin poçt rəhbərliyi yaradıldı. Buna görə Ögedey xan adına poçt rəhbəri Bitikçi Koridai, Cığatay xan adına Emelegçin Tayiçutay, Batı xan adına Suku Mulçatay, Tuluy xan adına Alçika həmin vəzifələrə gətirildilər. Bu yolla birbaşa böyük xan ilə digər xanlar arasında münasibət və əlaqə tənzim edilmiş oldu.

İşğal edilən ölkələri bir-birinə bağlayan köhnə ticarət xətti ilə yanaşı, Ögedey dövründə salınan kəşfiyyat yolları da ortaya çıxdı. Bu mənada Cuçi və Cığatay ulusları ilə



böyük xaqan sarayı arasında davamlı fəaliyyət göstərən yam yolları salındı. İstifadə edilən baxımsız yollar isə bərpa edilməyə başlandı. Təmir edilən yollar ticarət və səyahətlərdə də faydalı idi. Monqollar yam sistemindən nəzarət məqsədilə də istifadə edirdilər. Bu yollardan istifadə edənlər haqqında "pasport" məlumatları da toplanılırdı.

Poçt stansiyalarının yaxınlığında ərzaq anbarları tikilməyə başlandı. Hər il müntəzəm olaraq yam stansiyaları yoxlanılırdı. Yoxlama sırasında çatışmazlıq ortaya çıxarsa, stansiyaya rəhbərlik edən darğaların dodaqları və burnu kəsilirdi.

Poçt stansiyaları arasındakı məsafələr dəyişirdi. Qaraqorumdan Çinə uzanan yol üstündə 5 fərsəxdən (28,4 km) bir olmaqla, ümumilikdə 37 yam mövcud idi. Bir ulaqçı gündə 300-500 km məsafəni qət edirdi. Yam stansiyalarının yeri bir atın gündəlik gedəcəyi məsafəyə uyğun olaraq müəyyən edilirdi.

Avropalı səyyahlardan Marko Polo *(Marco Polo; 1254-1324)* və Plano Karpini *(Giovanni da Pian del Carpine; 1185-1252)* yam sistemindən bəhs edərkən, bu sistemin dünya üçün heyranverici olduğunu ifadə edirlər. Elxanlı dövrü tarixçisi Cüveyniyə *(Əbülmüzəffər Əlaəddin Atamlik bin Bahaiddin Məhəmməd əl-Cüveyni; 1226-1283)* görə, hər iki tümənin (on minlik ordunun) bir yam (poçt məntəqəsi) yaratması əmr edildi. Moğollar da poçt sistemini türklər kimi *ulaq* adlandırırdı. Ulaqlar biri gündəlik (*bayat* və ya *tiyan-bayat*), digəri isə paytaxtın ehtiyacını qarşılayan (*narit* və ya *barin-narit*) olmaqla iki hissəyə ayrılmışdı. Belə aydın olur ki, yam yollarında hərəkət edən ulaqlar biri gizli, digəri isə sıradan xəbərlər daşıyırdılar. Yam yollarından hər gün 500 araba ərzaq daşınırdı.

Yamın xidmətlərindən digər məqsədlər üçün (ticarət məqsədi ilə) istifadə etmək qadağan idi. Lakin XIV əsrin əvvəllərində bu qadağaya artıq əməl olunmurdu. Hətta yamçıların heyvanları tacirlərdən kirayələdikləri belə

olurdu. Yam sistemindəki problemlər Məngü xan zamanında yenidən gündəmə gəlmiş, alınan yeni qərara görə, bir elçinin 14 atla hərəkəti qərarlaşdırılaraq, yam yollarını tərk etməməsi əmr edilmişdi. Məngü xan tacirlərin yam xidmətindən pulsuz istifadəsini qadağan etdi. Yamlar hər il xüsusi dövlət komissiyası tərəfindən yoxlanılır, əskikliklər həll edilməyə çalışılırdı.

Moğol xanları ənənəvi türk idarə mexanizmlərini olduğu kimi mənimsədilər. Xanları *qurultay* deyilən tayfa başçıları və ağsaqqalların toplandığı *ali məclis* seçirdi. Seçki bir məhdudiyyət kimi görünsə də, xan olan şəxs mütləq hakim hesab olunurdu. Seçilmək və mütləq idarəçiliyin təməlində qədim türk iqtidar sistemindən qaynaqlanan *gücün səmavi mənşəyi* anlayışı yer alırdı. Çünki hökmdar yer üzündə ilahi nizamın mütləq müdafiəçisi hesab olunurdu.

Dövlət xan sülaləsinin mülkiyyəti idi. Mülkiyyət isə xan tərəfindən sülalənin kişilərinə (*köbəgün*) miras olaraq keçirdi. Torpaqlar xanədanın kişi üzvlərinə aid idi. Belə yurdlara *incu* deyilirdi. Çingiz xan hələ sağlığında ələ keçirdiyi torpaqları övladları və qardaşları arasında paylaşdırmışdı. Dövlət ərazilərini iki dəfə böyüdən Ögedey də eyni qaydada torpaqları qədim türklər kimi ülüş etdirdi. Xanədan fərdləri arasında torpaqların ülüş edilməsi moğol dilində *ulus* adlanırdı. Ögedey zamanında Moğol dövləti qardaşlar arasında belə bölünmüşdü:

- Cuçi yurdu: Moğol imperiyasının təqribən 2/3-si Çingizin böyük oğlunun payına düşürdü. Bu ərazilər Dəşti-Qıpçaq, Manqışlaq, Kimək torpaqları ilə Orta Şərqdə Azərbaycanı da əhatə edirdi;
- Cığatay yurdu: Orta Asiyanın otlaq və yaylaq əraziləri Cığatayın yurdu olub, ancaq bu ərazidəki şəhərlər böyük xaqana tabe olan xüsusi dövlət məmuru tərəfindən idarə edilirdi. Həmin məmurlar uyğur əsilli müsəlman ailə olan Yalvaçlardan seçilirdi;



- Ögedey yurdu: Altay və İmil kimi ərazilər Ögedeyin şəxsi mülkü olub, özündən sonra oğlanlarına məxsus idi;
- Ata yurdu: Türk-moğol ənənəsinə görə, Çingizin ata torpağı kiçik oğlu Toluya məxsus idi;
- Məngü xan zamanında buraya iki ulus da əlavə edildi. Xan Çini qardaşı Kubilaya, Orta Şərqi isə Hüləgüyə verdi. Beləliklə, Yuan və Hüləgü yurdları ortaya çıxdı.

Xanlar Çingiz xan tərəfindən paylaşılan ərazilərə mərkəzi bir idarə forması qazandırmağa cəhd etdilər. Bu məqsədlə Moğol ulusları vahid xana tabe idilər və *böyük xan* qurultayla seçilirdi. Təşkil olunan qurultaylar çox demokratik şəkildə keçirilir və bəzən həftələrlə davam edirdi. Qurultayda hər əmir və noyona söz haqqı verilirdi.

Xanlar ələ keçirilən əraziləri şahzadələrə buraxsalar da, onların yanına *daruqaçı*, *tanqmaçı*, *baskak* və *noyon* adlanan hərbi, idari və maliyyə müşavirləri təyin edilirdi. Həmin məmurlar birbaşa böyük xanın özünə tabe olub, hər il onun qarşısında hesabat verməliydilər. Səlcuqlu dövlət sistemindən götürülən *darğalar* Moğol dövründə *daruqaçılar* adlanıb. Onlar ərazilərin iqtisadi məsələlərinə baxır, əsasən vergiyə nəzarət edirdilər. Onların köməkçilərinə *baskaklar* deyilirdi. Noyonlar isə on minlik ordunun rəhbəri idilər. On minlik orduya *tümən* adı verilirdi. Bu məmurları təyin etmək xana məxsus olub, yurd sahibi qardaşlar bu işə müdaxilə edə bilməzdilər. Məsələn, Cığataya məxsus olan Orta Asiyanın bütün şəhərləri uyğur əsilli Yalvaç ailəsinin nəzarətinə verilmişdi ki, həmin ailə böyük xana bağlı olaraq yüz ilə yaxın bu bölgənin inzibati-maliyyə işlərinə nəzarət etdilər. *Tanqmaçı*lar da daruqaçıların köməkçiləri olub, bir növ əyalətlərin valiləri hesab edilirdilər.

Moğol dövləti Çingiz xan yasası deyilən qanunnamə ilə idarə olunurdu. Lakin Çingiz xan yasası ələ keçirilən ölkələrin qanunları ilə müqayisə edildikdə həddən artıq ibtidaidir. Şəriət qanunlarının yer aldığı müsəlman ölkələrində moğol törə hüququnun davamlılıq gətirməsi

düşünülə bilməzdi. Moğol uluslarının müsəlmanlaşmasına bu kimi hüquqi təsirlər səbəb olmuşdu.

Çingiz xan dövründə Moğol dövləti dağınıq və pərakəndə bir sistemə malikdi. Ögedey dövləti mərkəzləşdirmək üçün böyük cəhd göstərdi. Ögedey Moğol dövlətinin bürokratikləşmə və mərkəzləşməsini tamamladı. Onun qurduğu bu sistem 1294-cü ildə Kubilayın ölümünə qədər davam etdi.

Moğol dövləti uzun müddət hərbi qaydalarla idarə olundu. Bu da dövlətin inkişafına böyük zərər vururdu. Hərbçilər üçün əsas məsələ savaş olduğundan onlar ələ keçirdikləri ərazilərin iqtisadi rifahını təmin etmək qayğısı daşımırdılar. Bu məqsədlə Moğol xanları türk, xüsusilə də uyğur və çinli olan çox sayda bürokratı dövlət sisteminə cəlb etdilər. Ögedey dövrünün moğol olmayan iki böyük bürokratı – çinli Yeh-lu Çu-tsai və uyğur Mahmud Yalvaç idi. Bu iki məmur öz kimliyindən olanları dövlət aparatına doldurmaq üçün çalışdıqlarından həm bir-biriləri, həm də moğol əmirləri arasında ciddi çəkişmələrə səbəb oldular. Çinin inzibati və maliyyə idarəçiliyində söz sahibi olan türk-müsəlman məmurlar çinli bürokratlarla davamlı mübarizə aparırdılar. Ögedey xan üzərində güclü təsirə malik olan Yeh-lu Çu-tsai nüfuzundan istifadə edib dövlət dilini belə çincələşdirməyə cəhd etmiş, lakin bu cəhdi baş tutmamışdı.

Moğollar hüquqi sistemi və idari mexanizmləri yaxşı bilmədikləri üçün ticari nəzarət sistemi, vergi hesablamaları, hərbi qeydlər, divan dəftərləri, gəlirlərlə xərclər arasındakı balans kimi bütün işləri müsəlman uyğurlar və buddist-taoist çinlilər aparırdılar. Məmurlar xana “əgər varlı və rifah içində həyat sürmək istəyirsə” bürokratik aparatın təsirini artırması istiqamətində təsir edirdilər. Xanlar da həmin məmurların sözlərinə əməl edirdilər. Bu məqsədlə böyük xanlar Xorasan, Azərbaycan və digər müsəlman ölkələrinə iqtisadi nəzarəti uyğur məmur Əmir Arqun ağaya



tapşırmışdı. Həm Çingiz, həm də Ögedey, daha sonra da Məngü xan bu bölgələrin hakimlərinə Arqun ağaya tabe olmasını əmr etmişdi. Arqun ağanın sözündən çıxan əmir Göyük xanın əmri ilə edam olunmuşdu.

Moğol dövrünün ən böyük problemi ələ keçirilən ölkələrdə əhalinin sosial-iqtisadi və siyasi təminatlarının qarşılanmaması idi. Moğollar özlərindən olmayanlarla münasibət qurmaqda çox qabiliyyətsiz idilər. Ancaq dövlətin boş şəhərlərin dolmasına, ticarətin inkişafına və torpaqların əkilməsinə ehtiyacı var idi. Buna görə də Çingiz xandan sonra Böyük Moğol xanları maliyyə məsələləri ilə ciddi şəkildə maraqlanmaq məcburiyyətində qaldılar.

1235-ci il qurultayında Ögedey dövlətin vahid büdcə sistemini yaratmağa cəhd göstərdi. Bu məqsədlə çinli vəzir Yeh-luya bir sıra tapşırıqlar verdi.

Sabit büdcə dövlət gəlirlərinin və vergilərin sistemli hesabatının aparılmasına bağlı idi. Halbuki, moğollar ələ keçirdikləri ərazilərdə nə qədər insanın yaşadığını bilmirdilər. Buna görə də kütləvi əhalinin siyahıyaalınması aparılmalı idi. Ögedeyin biri müsəlman uyğur, digəri çinli olan vəzirləri siyahıyaalma işini tərtib etsələr də, vergitoplama qaydasında aralarında ciddi ixtilaf çıxdı. Mahmud Yalvaç İslam vergi sistemini, Yeh-lu isə Çin vergi sistemini tətbiq etməyə çalışdılar. Mahmuda görə, kəllə hesabı (kişibaşına), Yeh-luya görə, xanə (ailəbaşına) hesabı vergi alınmalı idi. Bu ixtilaf nəticə vermədikdə, hər iki sistem tətbiq edilməyə başlandı.

Vergiləndirmədə diqqəti çəkən bir məqam da Çingiz xan dövründə vergi ödəməyən moğollardan Ögedey dövründə 1% vergi alınmağa başlanmasıdır. Həmin vergiyə *kopçur* adı verilirdi. Yəni hər 100 heyvandan biri üçün dövlətə vergi verilirdi. Lakin bu iş heç də moğolların ürəyincə deyildi. Çünki moğollar özlərini “ali sinif” hesab edir və başqa xalqlar qarşısında özlərini üstün hesab edirdilər. Vergiləndirilmək onların bu ali şərəfini ləkələyirdi.

Böyük Moğol xanları zamanında verginin üç növ idi:
- mülkiyyət (torpaq və ya ərazi) vergisi;
- əkinçidən alınan taxıl vergisi;
- ipək vergisi.

Lakin bu vergiləndirmə yerinə görə dəyişirdi. Məsələn, bəzi bölgələrdə bu sistem belə idi:
- tamqa vergisi: şəhərlilərdən və tacirlərdən toplanırdı;
- kopçur vergisi: heyvandarlıqla məşğul olanlardan alınırdı;
- kalan vergisi: əkinçilərdən alınan torpaq və ya taxıl vergisi. Bu vergidə torpağın məhsuldarlığına görə nisbət dəyişirdi.

Aparılan maliyyə islahatlarından biri də ticarətin tək vergiyə bağlanması idi. Bu sistem ticari münasibətlərin inkişafına təkan verdi. Belə ki, əvvələr hər dövlət öz gömrük vergisini tətbiq etdiyi halda, indi Moğol dövləti ilə bütünləşən ərazilərdə tək gömrük vergisi tətbiq edilməyə başlandı.

Moğol dövründə ticarətdə *ortaqlıq* münasibətləri sürətlə artmağa başladı. Sərmayələrini bir yerə toplayıb mənfəəti paylaşan bu ticari münasibət tərzi Ögedey zamanından etibarən sürətlə yayıldı. Bu ticari münasibətin ən problemli tərəfi iflas və ya böhran anında sərmayədarı qoruyan hüquqi qaydaların olmaması idi. Bu da ortaqlar arasında saxtakarlıqlara səbəb olurdu.

Cüveyninin əsərində yer alan bir maraqlı məqam böyük xanların əmri ilə dövlətin istehlakçılara, sərmayədarlara və tacirlərə dəstək olmasıdır. Məsələn, bir tacir 500 baliş pul alıb ticarətə başlamış, ancaq 1 il sonra sərmayəni batırmışdı. Həmin tacir tam 4 dəfə xandan eyni pulu alıb hər dəfə də iflas etdiyini iddia etmiş, buna baxmayaraq, xan ona istədiyi pulun verilməsini əmr etmişdir.

Çingiz xandan əvvəl moğollar pul sistemindən xəbərdar deyildilər. Sikkə, pul zərbi, pulun çəkisi və ağırlığı, qiyməti, dövriyyəsi və pul vahidinin qorunması kimi maliyyə



məsələləri ciddi işlər olduğundan moğollar uzun müddət bu sistemi anlamadılar. Bu işlərə nəzarəti həmişə müsəlmanlar və çinlilər edirdilər. Hökmdarın dəstəyini aldıqda da pul islahatları çox uğurlu nəticələr verdi. Məsələn, Çində kağız puldan istifadə bu cəhətdən çox uğurlu oldu. Ancaq eyni cəhd Elxanlı dövründə iqtisadi böhranla nəticələndi.

Moğol hökmdarlarının ilk sikkələri çox sadə idi. Çox vaxt pulların üstündə hökmdarın adı olmurdu. Bəzən sikkənin üstünə *xaan əl-əzəm* və *xaan əl-adil* sözləri həkk olunurdu. Ögedeyin arvadı Törəgənə Xatunun hakimiyyəti dövründə basılan sikkənin üstünə ox atan süvari şəkli həkk edilmişdi.



*Törəgənə xatun dövründə kəsilmiş pul*

Moğollar Səlcuqlu və Xarəzmşahlar dövründə fəaliyyət göstərən zərbxanaların fəaliyyətinə son qoymadılar. Türküstan və Mavəraünnəhr bölgəsində hələ də 15 zərbxana fəaliyyət göstərirdi. Üstəlik, pul sistemi vahidləşməmişdi. Bəzi əmirlər və hakimlər öz adlarına sikkə zərb edirdilər. Mahmud Yalvaç və oğlu Məsud Yalvaç belə öz adlarına sikkə zərb etdiriblər.

Moğolların başlıca pul vahidləri tümən və dinar idi. 1 tümən 10 min baliş idi. 1 baliş isə 6 dinara bərabərdi. Yəni

1 tümən 60 min dinar pul deməkdi. Moğollar tüməni dirhəmlə deyil, dinarla bərabər qəbul ediblər. Lakin qəbul edilən dinarlar qızıl deyil, gümüş dinar idi. Bundan başqa, dirhəm, misqal, təngə kimi pul vahidləri də istifadə edilirdi. Buna görə 1 misqal qızıl 4 gümüş dinara, 1 gümüş dinar isə 6 Səlcuqlu dirhəminə bərabərdi. Baliş adlanan pullar həm qızıl, həm də gümüş olaraq kəsilirdi. Gümüş baliş qızıl balişin onda biri qədərdi. 1 altın baliş 2 min gümüş dinar edirdi.

Ögedey zamanından etibarən Moğol ölkəsinin hər yerində tədavüldəki əsas pul vahidi gümüş sikkələr oldu. Ögedey dövrünün ən əlamətdar cəhəti ilk dəfə *kağız pulun* (*cav*) dövriyyəyə buraxılmasıdır. 1236-cı ilə çap edilən kağız pullar əsasən tacirlər arasında sənəd olaraq istifadə edilməyə başlandı. Həmin pul vahidi əsasən Çində yayıldı. Kubilay bütün Çin ərazisində kağız pulu vahid pula çevirdi. Müsəlman ölkələrində kağızın dinar və dirhəm qarşısında qarşılığı olmadığı üçün belə pullara maraq göstərilmədi. Elxanlı hökmdarı Keyxatu dövründə tətbiq edilmək istənilən kağız pul qısa müddətdə iqtisadi iflasa səbəb oldu. Çünki İslam iqtisadi sistemində kağız pulun dəyəri müəyyən edilməmişdi.

Kağız pula bəzən baliş də deyirdilər. 1 cavın (kağız pulun) qiyməti 10 dinar idi. Böyük Moğol dövlətində ən köklü pul islahatı Kubilay xan tərəfindən həyata keçirildi. Kubilay xan sadəcə pul vahidini deyil, iqtisadi fəaliyyətləri də mərkəzləşdirdi. Hətta müasir dövrdə *kolxoz* sisteminə oxşayan kollektiv təsərrüfat sistemi yaratdı.

Türk-moğol dövrü elmi və mədəni fəaliyyətlər baxımından da zəngin bir dövrdür. Xüsusilə də Elxanlı ərazisində ədəbiyyat, sənət, memarlıq sahəsində yeni üslublar, dəsti-xətlər və janrlar formalaşmışdır. Dövrün əsas alim və ədibləri arasında Məcdəddin Hamqar, Fəxrəddin İraqi, Əhvədəddin Kirmani, Mahmud Xoyi, Cəlaləddin Rumi, Sədi Şirazi, Seydi Fərqani, Humam Təbrizi, Nizari





*Sədinin "Büstan" əsərinin ilk iki səhifəsi*

Kuhistani, Əlaəddövlə Simnani, Xacə Kirmani, İbn Yəmin, Nəsirəddin Tusi, Sədrəddin Konəvi, Gülşəhri məsnəvi, tarix, divan sahəsində qələmə aldıqları əsərləri və müraciət etdikləri yeni və fərqli mövzularla yadda qalmışdılar. Onlar arasında Nəsirəddin Tusi tibb, astronomiya, fəlsəfə, məntiq, həndəsə və əxlaq sahəsində 150-ə yaxın əsər ərsəyə gətirmişdir.

Moğol dövrünün başlıca elm sahələri əsasən üç yerə ayrılır:

- Müsbət elmlər: tibb, coğrafiya, astronomiya, həndəsə, riyaziyyat;
- Dini elmlər: hədis, fiqh, kəlam;
- Məntiqi elmlər: fəlsəfə və məntiq.

Elxanlı dövründə tarix elmi də xeyli inkişaf etmişdir. Fəzlullah Rəşidəddinin rəhbərliyində ümumdünya tarixi olaraq "Came ət-təvarix" adlı əsər qələmə alınmış və bu



*Fəzlullah Rəşidəddin – "Came ət-təvarix". Ağa xan muzeyi, Toronto*

əsərdə türk və moğolların tarixi geniş əks olunmuşdur. Cüveyninin qələmə aldığı "Tarixi-cahangüşa" adlı əsərdə isə moğolların tarixi ilə birlikdə müsəlman-türk dövlətlərinin də tarixi aydınladılmışdır. Həmdullah Qəzvini, Zeynəlabidin Həmdullah Qəzvini, Abdullah ibn Fəzlullah əl-Şirazi Vassaf, Fəxrəddin Davud, Məhəmməd ibn Kaşani və Hinduşah Naxçıvani kimi bu dövrün böyük tarixçilərinin əsərləri sadəcə tarix elmi baxımından deyil, eyni zamanda dil, üslub və ədəbiyyat baxımından da son dərəcə qiymətlidir.

Elxanlı hökmdarı Qazan xan Təbrizdə tikdirdiyi və adına Şənbi-Qazan deyilən böyük elmi mərkəzin içində məscid, karvansaray, qonaqlama, rəsədxana, xəstəxana, yetimxana, kitabxana, ədalət evi yerləşirdi. Qızıl Orda hökmdarı Özbək xan da başda Saray olmaqla, Qızıl Orda şəhərlərində məscidlər, mədrəsələr və körpülər saldırmış, bəndlər çəkdirmişdir. Eyni şəkildə Kubilay xan Çində Ordubalıq adlanan indiki Pekin şəhərinin əsasını qoymuş, hətta bu şəhəri xüsusi kanallarla çaylara və oradan da dənizə birləşdirməklə paytaxtın dənizlə əlaqəsi yaradılmışdı.



Moğol dövründə İslam mədəniyyəti təsviri incəsənət baxımından yeni dövrə qədəm qoydu. Moğollar zəngin uyğur rəsm sənətinin müsəlman ölkələrinə gəlməsinə yol açdılar. Təhzib sənətində hazırlanan böyük əsərlərdə çox sayda miniatürlar həkk edildi. Elxanlı dövrü memarlığı Anadoluya qədər geniş bir ərazini əhatə edirdi. Elxanlı dövrü memarlıq nümunəsi olaraq günümüzə qədər çox sayda əsər gəlmişdir. Tehran, İsfahan, Azərbaycan, Şiraz, Zəncan, Xorasan, Şərqi Anadoluda bu dövrə aid çox sayda məscid, minarə, qübbə, məqbərə, mədrəsə mövcuddur. Təbrizdəki Əli şah məscidi, Mərənd məscidi, Marağa gümbəzi, Xorasanda Radkan gümbəzi, Məşhəd ziyarətgahı, İsfahanda Zəvvarə Paminar məscidi, Qar məscidi, Nayin Baba məscidi, Əştərcan məscidi, Aziran məscidi, Dəşti məscidi Elxanlı dövrü memarlığının şah əsərləri olaraq günümüzə qədər gəlib.

Moğollardan sonra ortaya çıxan Qaraqoyunlu və Ağqoyunlu, xüsusilə də Anadolu bəylikləri dövründə türk dili və ədəbiyyatına dair saysız əsərlər qələmə alınmışdır. Bu əsərlər arasında Qazi Bürhanəddinin divanı, İmadəddin Nəsiminin divanı, Əhmədinin "Cəmşidi-Xurşid"i, Xoca Dəhhaninin qəzəlləri, Aşıq Paşanın "Qəribnamə"si, Gülşəhrinin "Məntiqül-tayr" məsnəvisi, Yunus Əmrənin "Risalət ən-nüshiyyə", Xoca Məsudun "Süheyli-Növbahar", Süleyman Çələbinin "Vəsilət ən-nəcat"ı dilimizin şah əsərləri hesab olunurlar.

Bu dövrdə çox sayda "Quran" və təfsir türk dilinə tərcümə olunmuş, bununla yanaşı, "Bəhcərül-həqayiq", "Qissəyi-Yusif", "Müztəsərül-Kuduri", "Kitab əl-fəraiz" kimi dini-əxlaqi əsərlər də türk dilinə ya tərcümə edilmiş, ya da bu dildə yazıya alınmışdır. Bunun kimi "Salsalnamə", "Danişməndnamə" dastanları da geniş yayılmışdır.

# ƏLAVƏ OXU

## IX.I. Ədəbiyyat


- *Doğu Avrupa Türk Tarihi*, Editörler Osman Karatay, Serkan Acar, İstanbul: Kitabevi Yay, 2013.
- Kalmıkov X.R., *Noqaytsı: istoriko-etnoqrafiçeskiy oçerk*, Çerkazsk 1988.
- Kurat Akdes Nimet, *IV-XVIII. Yüzyıllarda Karadeniz Kuzeyindeki Türk Kavimleri ve Devletleri*, Ankara: TTK Yayınları, 1992.
- Kurat Akdes Nimet, *Rusiya Tarihi (Başlanğıçtan 1917`ye kadar*, Ankara: TTK Yayınları, 1999.
- Lemb Harold, *Əmir Teymur*, Tərcümə edən Əhməd Oğuz, Bakı: Altun kitab, 2020.
- Nəcəf Əkbər N., *Moğol şahmatı: Hüləgü xan*, Bakı: Çapar, 2022.
- Nəcəf Əkbər N., *Qara Yusif*, Bakı: Altun kitab, 2022.
- Nəcəfli Tofiq, *Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri*, Bakı: Çaşıoğlu, 2012.
- Yıldırım Kürşat, *Türk Moğol Tarihi*, İstanbul: Yeditepe Yay., 2018.
- Yoanq Mişel, *Çingiz xan*, Tərcümə edən Əhməd Oğuz, Bakı: Altun kitab, 2020.


## IX.II. Suallar

1. Moğol ittifaqı hansı tayfalardan meydana gəlirdi?

2. Moğolların yayılmasının səbəbləri nələrdir?

3. Moğol dövləti neçə ulusa ayrılırdı?

4. Moğol uluslarının türkləşməsi və müsəlmanlaşmasının səbəbləri nə idi?

5. Azərbaycan tarixşünaslığında moğollar haqqında hansı baxışlar mövcuddur?

5. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin oxşar xüsusiyyətləri nələrdir?

6. Türk-Moğol dövrünün coğrafi və sosial xüsusiyyətləri hansılardır?



## IX.III. Tapşırıqlar

1. Moğol adının mənasını açıqlayın.

2. Moğolların Azərbaycan tarixindəki rolunu günümüzün xüsusiyyətlərini də diqqətə alaraq müəyyən edin.

3. Moğol dövləti ərazisində hakimiyyətin Çingiz xan sülaləsindən türk xanədanlara keçməsindəki başlıca səbəbləri göstərin.

4. Rusiya tarixinin formalaşmasında moğolların rolunu müəyyən edin.

5. Xəritə üzərində moğol uluslarının sərhədlərini dəqiqləşdirin.

6. Əmir Teymurun tarixi rolunu müəyyənləşdirin.

## IX.IV. Terminlər

*basqak* – vergi məmurları olan daruqaçıların köməkçiləri.

*bayat* – gündəlik poçt.

*cav* – moğolların istifadə etdiyi kağız pula verilən türkcə ad.

*daruqaçı* – birbaşa xana bağlı olan poçt rəhbəri (*yekə daruqaçı*) və əyalətlərdəki poçt təşkilatının rəhbərləri.

*gürəgən* – kürəkən. Çingiz xan ailəsi ilə qohum olanlara verilən titul.

*Xan Orda* – hökmdarın iqamətgahının yer aldığı şəhər.

*il xan* – elxan, dövlətin hökmdarı.

*kalqay* – Krım xanlığında vəliəhdlərə verilən titul. Moğolca "böyük qapı" mənasında "haqalha" sözündən törədiyi qeyd edilir.

*qaravul* – kəşfiyyatçı.

*kopçur* – poçt xidmətləri üçün vergi toplayan məmurlar.

*qarşı* – farsca "saray" mənasına gələn türkcə söz, eyni zamanda şəhər.

*qəpik* – Cığatay xanı Kəbək adına zərb edilən sikkələrə verilən ad. Rus dilinə *kopek* olaraq keçmişdir.

*narit* – paytaxt şəhərlərin ehtiyacını qarşılayan məmura verilən ad.

*ortaq* – şərik.
*payza* – xan tərəfindən verilən etibarnamə.
*süsün* - ərzaq.
*tarkan* – komandan.
*tümən* – on minlik hərbi dəstəyə verilən ad.
*ulaq* – poçt xidmətində istifadə edilən atlar.
*ulaqçı* – poçt məmuru.
*ulufə* – atlar üçün yem tədarükü.
*yam* – türkcə-çincə qarışıq bir söz olub, xəbəralma təşkilatına verilən ad.
*yarlıq* – əmr, buyruq, fərman.
*yasaq* – qadağa, qanun, nizam.

## IX.V. Tayfa ittifaqları

### IX.V.1. Moğol ittifaqında yer alan türk-moğol tayfaları

| | |
|---|---|
| Barlas | Nayman |
| Cəlair | Ongirat |
| Dorben | Öngüt |
| Kerait | Sulduz |
| Konqurat | Tatar |
| Qanqlı | Tayciut |
| Qarluq | Uyğur |
| Merkit | Uyrat |

### IX.V.2. Qaraqoyunlu tayfaları

| | |
|---|---|
| Alpavut | Dögər |
| Ayınlı | Duxarlı |
| Baharlı | Hacılı |
| Baranlı | Qaramanlı |
| Bayramlı | Sadlı |
| Çəkirli | |



### IX.V.3. Ağqoyunlu tayfaları

| | |
|---|---|
| Bəydili | İzzəddinhacılı |
| Çavuldur | Qarkın |
| Dodurqa | Qocahəsənli |
| Döyər | Mosullu |
| Əfşar | Pürnək |
| Əhmədli | Süleymanhacılı |
| Əmirli | Şeyxli |
| Heydərli | Tabanlı |
| Həmzəhacılı | Yurdçu |



*Onuncu fəsil*

# TÜRKLƏRİN DÜNYA HAKİMİYYƏTİ



## 10.1. XVI ƏSR TÜRK DÜNYASINDA İCTİMAİ-MƏDƏNİ MÜNASİBƏTLƏR

XVI əsrdə ümumi coğrafi mənzərəni diqqətə aldıqda, dünya türk siyasi kimliyinin hakimiyyəti altında idi. Monqolustandan Adriatik sahillərinə qədər geniş ərazi türk dövlətləri tərəfindən bölüşdürülmüşdü. Avropa, Asiya və Afrikada hakim siyasi-hərbi güc olan türklər Çindəki Minq imperiyası (1368-1644) və Şimal-Qərbi Avropadakı krallıqlar istisna olmaqla, demək olar ki, üç qitənin tamamına hökm edirdilər. Bu geniş bölgə ərazi baxımından imperiya böyüklüyündə olan torpaqlara sahib türk dövlətlərinin nəzarəti altında idi:

Osmanlı (1299-1922) – Ön Asiya, Balkanlar, Şimali Afrika;

Məmlük (1250-1517) – Misir, Suriya və Şimali Afrikanın bir hissəsi;

Səfəvi (1501-1736) – Qafqaz və Orta Şərq;

Şeybani (1500-1599) – Orta Asiya və Şərqi Ural bölgəsi;

Babur (1526-1858) – Sind və Hind bölgələri;

Qızıl Orda (1227-1513) və varisləri (Krım, Qasım, Qazan, Həştərxan, Sibir) – Dəşti-Qıpçaq ərazisi;

Noqay Orda (1398-1642) – Manqışlaq, İdil-Ural bölgəsi, Şimali Qafqaz;

Qazax Orda (1465-1847) – Mərkəzi Qazaxıstan və Cənubi Sibir bölgəsi;

Oyrat xanlığı (XV-XVIII əsrlər) – Qərbi Monqolustan və İli hövzəsi;

Bucaq Orda (XVI-XVII əsrlər) – Şimali Qaradəniz, Belqorod bölgəsi;

Qolkonda sultanlığı (1512-1687) – Cənubi Hindistan;

Yarkənd xanlığı (1514-1680) – Şərqi Türküstan;

Benqal sultanlığı (1352-1576) – Banqladeş ərazisi.

Bu dövlətlərin tamamı "quru dövlətləri" adlanırdı. Torpaq mülkiyyəti əsasında təşkilatlanan bu dövlətlərin demək olar ki, hamısı hərbi-siyasi təşkilati təməllərə sahibdilər. Onların bir sıra ortaq və fərqli cəhətləri olsa da, eyni dövlət modelinə malikdilər.

Ortaq xüsusiyyətləri:

- *Siyasi kimlik baxımından tamamı türk dövlətləri olub, idari, hərbi və siyasi güc türklərdən mütəşəkkildi;*

- *Türk dili başlıca ünsiyyət vasitəsiydi;*

- *Bu dövlətlərin əksəriyyəti müsəlman olub, geri qalan bir neçəsi də (Qazax-Qırğızlar) müsəlmanlaşma prosesi keçirirdi;*

- *Adı qeyd edilən dövlətlərin hamısında xan-sultan idarəetmə modeli hakim olub, adəmi-mərkəziyyətçi hakimiyyət strukturları mövcuddu;*

- *Hər dövlətin hakimiyyət rəmzləri, taxt mərasimləri, pul vahidləri vardı;*

- *Ordu sistemi tamamilə türklərdən ibarətdi və türklər qılınc əhli hesab edilərək hakim idarəçi sinfi təşkil edirdilər;*

- *Bu dövlətlərin əhalisi heyvandarlıq, əkinçilik və ticarətlə məşğul olurdular.*



Fərqli xüsusiyyətləri:

- *Coğrafi və iqlim fərqlilikləri həmin dövlətlərin sahib olduqları ərazinin şərtlərinə uyğun idarə edilməsində təyinedici idi;*

- *Bu dövlətlərdən Osmanlı və Səfəvilərdə* ***istimalət*** *(rəiyyət) siyasəti aparılırdı;*

- *Orduda süvari hərbi sistemdən piyada və odlu silahlardan istifadə edən hərbi sistemə keçid edilirdi;*

- *Xüsusilə Orta və Yaxın Şərqdə çoxkimlikli dini və inanc anlayışından mərkəzləşdirilmiş tək məzhəbli bir ümmətə keçid siyasəti aparılırdı;*

- *Bu dövlətlərdən sadəcə Osmanlı hərbi-dəniz gücünə sahib idilər;*

- *Bu dövlətlərdən Osmanlı xilafət, Səfəvilər imamət mərkəzli iqtidar anlayışına sahibdi.*

Hər biri geniş ərazilərə sahib olan bu dövlətlər arasında yaxın ticari, mədəni və sosial əlaqələr mövcud idi. Bu əlaqələr ortaq din, dil və mədəni kimliklər səbəbindən uyumlu idi. Din cəhətdən bu ölkələri bir araya gətirən əhalinin böyük əksəriyyətinin müsəlman olması idi. Müsəlmanlıq orta əsrlərdə xalqların sosial münasibətlərində tənzimləyici rol icra edirdi. Müsəlmanların başlıca toplaşma yeri olan məscidlər gecə-gündüz açıq idi. Bura dini ibadətlərin xaricində, həm də müsəlmanlar üçün hər cür məsələlərin həllində toplanma yerləri hesab olunurdu. Türk dövlətlərinin təsiri ilə məscidlər sosial həyatdan çıxarılıb, əsasən ibadət xidməti verən yerlər halına gətirilsə də, hər bölgənin məscidi ictimaiyyətə açıq idi. İbadətlərin xaricində, məscidlərdə evsizlər, yetimlər, gedəcək yeri olmayanlar, başqa yerlərdən gələnlər qalırdılar. Hətta məscidlərdə şahmat oynayanlar, oturub söhbət edənlər, hekayə danışanlar (*qissəxanlar*) toplaşırdılar, şairlərin iştirakı ilə gecələr söhbət məclisləri olurdu. Bəzi böyük şəhər məscidlərində toplaşanların sayı daha çox olurdu. Xüsusilə də ərəb ölkələrində (Suriya, Misir və Ərəbistanda) məscid həyətində kiçik ticarətlə məşğul olan satıcıların

dolaşdıqları qeyd edilir. Qahirə məscidlərində bir gecədə 100 fərqli məclisin təşkil edildiyini orta əsr müsəlman səyyahları qeyd edirlər.

Məscidlər kənd, şəhər və qəsəbə camaatlarının toplaşdığı əsas mərkəz idi. Kənd məscidlərinin döşəməsi sadə torpaq olduğu halda, şəhər məscidlərinin döşəməsi xalçalarla döşənirdi. Temperaturun -40°S – +45°S arasında dəyişdiyi bütün ərazidə məscidlərin içi iqlim şərtlərinə görə uyğunlaşdırılırdı. Qışda məscidlərdə böyük manqallar, yayda isə içində buz dolu böyük ləyənlər quraşdırılırdı. Məscidin içi sadəcə namaz qılmaq üçün deyildi. Namaz otaqları ilə söhbət və toplaşma otaqları da ayrılırdı.

Dünya müsəlmanlarını hər il bir yerə toplayan əsas dini ayin həcc ziyarətləri idi. Sadəcə kişilər deyil, çox sayda qadın da həcc karvanları ilə Məkkəyə doğru bəzən 2-3 ay davam edən səyahətlərə çıxırdılar. Əgər həccə gedən qadın bir hökmdarın qızı və ya anası isə, o zaman həcc karvanlarına on minlik hərbi dəstələr nəzarət edirdilər. Həccə gedən imkanlı şəxslər bəzən bütün karvanın ehtiyacını qarşılayırdılar. Belə ki, həm yol sırasında, həm də Məkkədə zəvvarların toplandığı yerlərdə hər gün *"al-mali səbil"* deyə qışqıran carçılar olurdu. Onlar insanlara ehtiyac hiss etdikləri malları paylayırdılar.

Uzaq məsafələrdən gələn həcc karvanları gecələr də hərəkət edirdi. Dövrün səyyahlarından İbn Cübeyr *(Əbül Hüseyn Məhəmməd ibn Əhməd ibn Cübeyr əl-Kinani; 1145-1217)* şahid olduğu belə bir mənzərəni "yelkənləri çətirlər və taxtrəvanların pərdələri olan qayıqlarla dolu bir dəniz"ə oxşatmışdır. Karvanlar hər zaman su qaynaqlarının bol olduğu yolları tərcih edirdilər. Ancaq isti ərazilərdə su böyük problem idi. Mənbələr ərəb ölkələrinə daxil olan zəvvarların quraqlıq illərində susuzluqdan öldüklərini də yazırlar.

Bütün hallarda Məkkə hər yerdən və hər kimlikdən müsəlmanların toplaşdığı bir məkan idi və qurulan bu ünsiyyət müsəlmanlar arasında ictimai canlılığı və dialoqu



təmin edirdi. Hər həcc qafiləsinin başında bir din xadimi, alim və vaiz olurdu. Onlar müxtəlif dilli zəvvarlar arasında dialoqu və ünsiyyəti təmin edirdilər.

Sosial münasibəti təmin edən ikinci ünsür bazarlar idi. Memarlıq quruluşu baxımından bazarlar məscidlərin yaxınlığında yerləşirdi. Bunun bir səbəbi də məscidlərdə oturan din xadimlərinin və ya hər namaz vaxtında məscidə gələn qazıların bazardakı qiymətləri və malın keyfiyyətini nəzarət altında saxlamaları idi. Bəzən bir şəhərdə onlarla bazar olurdu. Orta əsrlərin Təbriz, Qəzvin, İsfahan, Sivas, Konya, Bursa, İstanbul, Qahirə, Şam, Herat kimi şəhərlərində məsləklərə və malların növlərinə görə bazarlar ayrılırdı. Məsələn, eyni şəhərdə ətirlər bazarı (*itriyyat, əttar*), yorğançılar bazarı, dəmirçilər bazarı, heyvan bazarı, ipək bazarı və s. adlar daşıyan çox sayda bazar fəaliyyət göstərirdi. Daxili bazarlar qədər sərhəd bazarları da aktiv idi. Sərhəd bazarları bəzən iki ölkənin sərhədində, bəzən də köçəri ərazilərlə oturaq məkanların sərhədində yerləşirdi. Belə bazarlar mövsümlük olduğu kimi, daimi də xidmət göstərə bilirdi.

Bazar əhalinin məlumatlandığı, hər cür ictimai-siyasi xəbərləri aldığı, fərmanların oxunduğu, hərbi çağırışların edildiyi, bazarlıqların aparıldığı çox çeşidli funksiyalara sahibdi. Bazar içində dülgərlər, bərbərlər, qəhvəxanlar da fəaliyyət göstərirdi.

XVI əsrin ortaları türk dövlətləri arasında böyük müharibələrin tamamlandığı, daxili sakitliyin hökm sürdüyü dövrlər hesab olunurdu. Məsələn, Səfəvi-Osmanlı, Səfəvi-Şeybani, Şeybani-Babur dövlətləri arasında böyük hərbi əməliyyatlar başa çatdığından, ölkələr arasında yaranan sülh şəraiti ictimai canlanmanı da artırmışdı. Yaranan bolluq və rifah, xüsusilə də gənc və orta nəsil arasında asudə vaxtının yaranmasına yol açmışdı. Belə şəraitdə gənclər vaxtının çoxunu əyləncələrdə (güləş, at, quş, ox yarışları), oyunlarda (dəvə oyunları, çövkən) keçirir, xüsusilə də

meydan tamaşalarına maraq göstərirdilər. XVI əsrdə türk ölkələrində tütün və qəhvə böyük rəğbət görməyə başladı. XVII əsrdə demək olar ki, böyük şəhərlərin hamısında qəhvəxanalar fəaliyyət göstərirdi. Maraqlıdır ki, ilk qəhvəxana 1511-ci ildə Məkkədə bir məscidin yanında açılmışdır. Bu, məscidə toplaşanların potensial qəhvə alıcıları olacağını düşünən tacir zehniyyətindən qaynaqlanırdı.

XVI əsrin ortalarında qəhvəxanalar o qədər sürətlə çoxaldı ki, hətta bəzi padşahlar da *təbdili-qiyafət* (libas dəyişərək) edərək belə məkanlara gəlirdilər. Qəhvəxanalar sadəcə qəhvə içilən və tütün çəkilən yerlər deyildi. Burada şairlər şeirlərini oxuyur, hətta bəzi şairlər siyasi hakimiyyəti həcv edən şeirlərini səsləndirirdilər. Xanəndə və sazəndələr də belə yerlərdə öz hünərlərini sərgiləyirdilər.

Qəhvəxanalara marağın qarşısını almaq üçün Səfəvi və Osmanlı kimi ölkələrdə dövlət alternativ tədbirlər görməyə başladı. Bəzi hallarda hökmdarlar qəhvəxana və şərabxanaları qadağan etsə də, belə yerlərə əsasən dövlət məmurlarının övladları getdiyindən bu qadağalar təsirli olmurdu. Bu səbəbdən dövlət dini mərasim və tədbirləri ictimailəşdirməyə qərar verdi. XVI əsrin ortalarından etibarən Səfəvi dövlətində kütləvi "Məhərrəmlik" mərasimləri keçirilməyə başlandı. Dövrün üləmasının etirazına baxmayaraq, bu mərasimlər şəbehlər, tamaşalarla yaddaqalan idi. Osmanlıda isə Ramazan və Qurban bayramı şənlikləri kütləvi şəkildə icra olunmağa başlandı.

Başqa bir ictimai münasibət tərzi isə dərvişlikdi. XVI əsrdə, xüsusilə də gənclər arasında dərviş həyatına maraq o qədər çox artmışdı ki, qələndəri dərvişləri bəzən 400-500 nəfərlik qruplar halında diyar-diyar gəzirdilər. Dərvişanə həyat fərqli və müxtəlif idi. Əxi dərvişləri məslək sahibi insanlardan təşkil olunur, nəqşi dərvişlər zikrçi olurdular. Qələndəri dərvişlər isə səyahət həyatı keçirirdilər. Onlar üçün dövlətlər arasında sərhədlərin yer alması mühüm deyildi və istədikləri ölkəyə qruplar halında hərəkət edirdilər.



Əsasən zaviyə, təkkə və karvansaraylarda toplaşır, böyük pirlərin olduğuna inandıqları qəbir və məkanları dolaşırdılar. Orta əsrlər müsəlman-türk dünyasında sərhəd anlayışı yox idi. Sadəcə bəzi sərhəd şəhərlərində dövlətlərin hərbi qarnizonu və ticarət məntəqələrində gömrük məmurları olurdu.

Təsəvvüfi cərəyanlar insanların marağını daha çox özünə cəlb edirdi. Bəzən güclü vəz verən şeyxlərin ətrafında minlərlə mürid toplaşırdı. Belə şeyxlər bir müddətdən sonra dövlət üçün də təhlükə ərz edirdi. XVI-XVII əsrlərdə Osmanlı, Babur, Səfəvi dövlətlərində çox sayda bu səpkili üsyanlar baş vermişdi. Nurbəxşiyyə, nöqtəvi, nemətullahi dərvişlərinin Səfəvi ərazisində təşkil etdikləri üsyanlarda minlərlə insan ölmüşdü. Sultan Süleyman Qanuni dövründə Osmanlı ərazisində təbliğat aparan Molla Qabız *(1527-ci ildə edam edilib)* adlı bir heterodoks fikirli din adamı o qədər güclü fikirlərə sahib idi ki, hətta Osmanlı üləması ilə apardığı mübahisələrdə fikirləri ilə onları məğlub edərək insanların diqqətini çəkmişdi. Dövlətlərin və rəsmi din adamlarının nəzərində belə şəxslər "zındıq, mülhid" elan olunaraq təsirsiz hala gətirilsələr də, onların fikirləri ölmür və camaata dərindən təsir göstərirdi.

Belə şeyxlər sıradan sufi və mollalar kimi hərəkət etmir, öz təbliğatlarını meyxana və qəhvəxanalarda belə aparırdılar. Həmin yerlərdə toplaşan gənclər tezliklə onların fikrinə bağlanır və qatı tərəfdarlarına çevrilirdilər.

Orta əsrlərin ictimai həyatında ən böyük təhlükə müharibələrdən çox təbii fəlakətlər idi. Xüsusilə də yoluxucu xəstəliklər kütləvi insan itkisinə yol açırdı. Dövrün ən böyük bəlası vəba, çiçək, sırtma (qızdırma), cüzam ölümcül xəstəlik hesab olunurdu. Şəhərlər və ölkələr arasında münasibətlər güclü olduğundan belə xəstəliklər sürətlə yayılır, bəzən bütün bir dünyanı öz təsiri altına alırdı. Övliya Çələbi *(Çələbi ibn Dərviş Muhəmməd Zillin; 1611-1682)* özünün səyahətnaməsində XVI-XVII əsrlər üçün xalq sağlığını



*Övliya Çələbi – "Səyahətnamə" əsərinin 1895-ci il nəşrinin birinci və ikinci hissələrinin qapaqları*

təhdid edən xəstəliklərdən bəhs edir. Onun səyahətnaməsində adı zikr edilən dövrün başlıca xəsətəlikləri belədir: əxlati-fasidə mərəzi, əqilə, bəhək, bel ağrısı, cərəb (qaşıntı, alergiya), cüzam, çiban, bel soyuqluğu, diş ağrısı, hərarət mərəzi (qızdırma), nasır, nikzir, raşəi-vücud, qızıl uyuz (bədənin qızarması və qaşınması), təmrəgə, silli, suda, sarılıq, sələsül-bəvl, xumma, ishal (qarınağırsı), istiska, saç tökülməsi, külünçül, kuba və s.

Şübhəsiz, bu xəstəliklərlə mübarizə aparan tibbi xidmətlər və xəstəxanalar (*bimaristan*, şəfaxana) mövcud idi. Yoluxucu xəstəliklərin qarşısını almaq üçün dövlət bəzən sərt tədbirlər də alırdı. Karantin altına almaq, xəstəlik bölgələrinə giriş-çıxışları qadağan etmək belə tədbirlərdən bəziləri idi. Ancaq taun və vəba kimi ölümcül xəstəliklər periodik olaraq bölgədə özünü təkrar göstərirdi. Həm dövlət,



həm də vəqflər tibbin inkişafına və xəstəxana fəaliyyətlərinə böyük maliyyə ayırırdılar. Bu məqsədlə hər yerdə müayinəxanalar, aktar (əttar) dükanları, bimaristanlar, şəfaxanalar, dərgah və karvansarayların içərisində həkim otaqları fəaliyyət göstərirdi. Orta əsr mənbələrində xəstəliklərə qarşı apardıqları mübarizədə ad çıxarmış yüzlərlə həkimdən bəhs edilir. Sadəcə Məmlük dövrü mənbələrində Misir və Suriyada xidmət edən 200-ə yaxın belə həkimin adı təsbit edilmişdir.

Sadəcə xəstəliklər zamanı deyil, normal zamanlarda da insanların sağlam yaşaması üçün dövrün həkimləri müsəlmanlar arasında təbliğat və təşviqat aparırdılar. XVI əsrin əvvəllərində yaşamış məşhur təbib Şəmsəddin Məhəmməd əl-Qusuni *(1511-ci ildə vəfat edib)* əsərlərində insanların qidalanma tərzi, pəhrizlər, cinsi münasibətlərdən yaranan xəstəliklərdən qorunması haqqında mühüm bir risalə qələmə almışdır. İbnül-Vəzir adı ilə tanınan Zeynəddin Əbdülbasit əl-Qarasi *(vəfatı 1514-cü il)* adlı başqa bir təbib isə "Risalə ət-taun" adlı əsərində taun xəstəliyi ilə mübarizənin yollarından bəhs edib. Məhəmməd ibn Bədrəddin *(1525-ci ildə vəfat edib)* adlı başqa bir həkim "xəstəxanaların sistemi" haqqında çalışmasında xəstə həyatı, sağlıq ocağının xidmət və iş qaydalarından danışır.

Müsəlman-türk dünyasında insanlararası münasibətlərdə şübhəsiz ticarət münasibətləri əsas rol oynayırdı. XVI əsr ticari münasibətlərin yeni forma və şəkil qazandığı bir dövrdür. Ənənəvi İpək yolu bütün ölkələri iqtisadi olaraq bir-birinə bağlayan ana ticarət yolu olaraq aktivliyini davam etdirirdi. Bu dövrdə ticarətin başlıca üç şəkli hakimdi: *hazzan*, *rakkaz* və *mücəhhiz*. Birincilər, əsasən malı anbarlara toplayıb oturaq ticarətlə məşğul olan tacirləri ifadə edirdi. Rakkazlar isə səfərə çıxaraq mal alıb gətirən tacirlər idilər. Mücəhhiz adlanan tacirlər sinfi ortaqları vasitəsilə ticarət aparanları ifadə edirdi. Onlarla birlikdə *simsar* adlanan vasitəçilər də vardı.

Hər bölgə özünün mal artığını İpək yolu ticarətinə çıxararaq böyük ixracat-idxalat şəbəkəsinin bir parçası halına gəlirdi. Buna “istehsal artığı” adı verilirdi. XVI əsrdə hər cür mal ticarət dövriyyəsində yer alırdı. Çindən başlayıb Avropaya qədər uzanan ticarət yolları, əsasən aşağıdakı bölgələri əhatə edirdi:

- Asiyat`l-Kəbir (Böyük Asiya) – Avrasiya materiki, yəni Asiya və Avropa qitələri;
- Liviya (Afrika) – Misirdən Əndəlüsə qədər, əsasən Şimali və Mərkəzi Afrika.

XVI əsrdə məhsuldarlığı ilə, əsasən 8 bölgə ön plana çıxırdı: Azərbaycan, Şərqi Anadolu, Mahn Dinur, Mah Nihavənd, Kirman, İsfahan, Xums, Təbəristan. Bu mərkəzlər bölgənin əsas taxıl anbarları hesab olunurdu. Buğda əsas ticarət məhsulu olaraq, həmişə idxalat-ixracatda ilk sırada gəlirdi. Geniş Nil, Dəclə-Fəratın şimal hissələri, Amudərya-Sırdərya sahil zolaqları, Kür ətrafı, Murqab və çevrəsi buğda sahələri idi. Gilan və Çinin Yantzı-Xuanxe bölgələrində düyü əkilirdi. XIV əsrdən etibarən Reç-Pospolita (Polşa, Litva, Ukrayna) buğdası Afrika və Asiya bazarlarına daxil olmağa başladı. Xüsusilə də Afrikalı müsəlman tacirlər Sudandan əldə etdikləri toz qızıl müqabilində Polşa taxılını İslam ölkələrinə idxal edirdilər. Bundan başqa, Livanın Bəka vadisi, Hələb və Suriyanın Havran bölgələri də taxıl məhsulları ilə zəngin idi. Anadolunun geniş Harran bölgəsində taxıl məhsulları, Diyarbəkirdə meyvələri, Azərbaycan və Orta Asiyada quru meyvə və tərəvəzləri ixrac edirdilər.

Ticarət çətin və riskli məslək olsa da, varlanmağın da mənbəyi hesab olunurdu. Çox sayda insan ticarət fəaliyyətlərinin bir parçası idilər. Bu dövrdə böyük ticarət ortaqlıqları mövcud idi. Bəzi sərmayədarlar sərmayə, bəziləri nəqliyyat, bəziləri də malın alınıb-satılması üzərində belə ortaqlıqlar təsis etmişdilər. Çin və Hindistan hər zaman olduğu kimi, İpək yolu ticarətinin iki böyük anbarı



hesab olunurdu. Çin *ma* (kənəvir), *mai* (buğda), *shi* (darı), *tou* (paxla bitkiləri) və *tao* (düyü) məhsullarını ixrac edirdi. Hindistan isə hər cür ədviyyat məhsullarının vətəni idi. Sind ölkəsi dərmanlar, qızıl, şəkər, düyü və banan məhsullarını kənara göndərirdi. Hindistan qara bibər tozundan külçə şəklində dəmir lövhələrə qədər istehsal etdiyi məhsulları Orta Şərqə göndərirdi.

XIV əsrin ortalarında Avropada yayılan böyük vəba xəstəliyi qitədə 50 milyondan çox insanın ölümünə yol açdı. Həmin vaxtlarda Avropada “ədviyyat məhsullarının xəstəliklərdən qoruduğuna dair” yayılan bir inanca görə, bu məhsulların kütləvi idxalına başlandı. Venesiya və Genuya tacirləri müsəlman ölkələri vasitəsilə ədviyyat ehtiyacını qarşılayarkən, aldıqları məhsulu olduqca baha qiymətə Avropa krallıqlarına satırdılar.

İstehsalçı kütlə əsasən iki sinifdən ibarət idi: kəndlilər və köçərilər. Kəndlilər, əsasən kənd təsərrüfatı məhsullarını, köçərilər isə heyvan məhsullarını istehsal edirdilər. Müsəlman-türk ölkələrinin əsas kütləsini də bu iki sinif təşkil edirdi. XVI əsrdə dövlətin istehsal olunan mallardan vergi olaraq əldə etdiyi qazanc 20 faizdən aşağı idi. Yəni məhsulun 80-85 faizi məhsulu istehsal edənə məxsus idi. Mənbələr orta əsr müsəlman kəndlilərinin sosialist tarixçilərin iddia etdiyi kimi pərişan olmadıqlarını, əksinə, rifah səviyyələrinin də yüksək olduğunu təsdiq edir.

Orta əsrlərin İslam dünyasında kənd həyatı zəngin idi. Kənd evləri bağça sahələri ilə birlikdə bir-birinə yaxın salınırdı. Bir kəndin ortaq məkanları kənd meydanı, ortaq ibadətxana, ümumi olaraq kirli paltarların yuyulduğu yerlər, məhsulların toplandığı və təmizləndiyi yerlər idi. Kənd evlərinin quruluşu iqlim şərtlərinə görə dəyişirdi. Daha isti iqlim qurşağında olan kəndlərin evləri qamışdan idi. İranda evlər daş və kərpicdən, Mavəraünnəhrdə isə taxtadan tikilirdi. Türk ölkələrinin kəndləri inanclarına görə də dəyişirdi. İslam dünyasında yaşamaqlarına baxmayaraq,

xristian, yəhudi, süryani, nəsturi, zərdüşti inanclarını qoruyan çox sayda kənd və kəndlilər də var idi. Kəndlərdəki iş bölgüsü də fərqli idi. Xəzər dənizinin cənub bölgəsində kişilərin vəzifəsi tarla sahələrini qonşu qəbilələrdən qorumaq, qadınların vəzifəsi isə əkin-biçin işlərini icra etmək idi. Bəzi yerlərdə ipəkçiliyi qadınlar, əkin-biçini kişilər aparırdı. Bəzi bölgələrdə bazara toyuq, yumurta və müxtəlif tərəvəz məhsullarını kənd qadınları aparırdılar. Anadoluda türk və rum kəndliləri arasında ticari münasibətlər o qədər yaxın idi ki, bu iki fərqli inanc və millətdən olan kəndlər arasında sülhsevər bir münasibət yaranmışdı.

Ümumiyyətlə, müsəlman-türk ölkələrində siniflər arasında kasta sistemi yoxdu. İnsanlar seçdikləri məsləyə görə, bir ictimai statusdan başqa bir ictimai statusa keçməkdə azad idilər. Kənd və qəsəbələr ictimai, sosial, mədəni, hətta siyasi fəaliyyətlərində demək olar ki, sərbəst idilər. Onların dövlətlə üz-üzə gəldikləri tək münasibət sahəsi 11 iyuldan sonra vergi məmurlarının gəlib vergiləri toplaması idi. Ümumiyyətlə, türk dövlətlərində oturaq xalqdan əsgər toplanmadığı üçün kəndlilər aktiv şəkildə müharibənin bir parçası və tərəfi deyildilər.

Dövlət əsas hərbi gücünü köçərilərdən təmin edirdi. Böyük heyvan sürülərinə sahib köçərilər əsasən at, qoyun, inək, keçi, dəvə olmaqla, ətindən, südündən və yunundan istifadə edəcəkləri heyvanları saxlayırdılar. Köçəri həyat ilin iki dövrə bölünərək periodik şəkildə hər altı aydan bir təkrar tənzim edilirdi. Köçərilər üçün isti aylar yaylaqlarda, soyuq aylar isə qışlaqlarda keçirdi. 20 martdan 20 sentyabra qədərki müddəti yaylaqda keçirən köçərilər isti aylarda otlaqlardan istədikləri kimi və tam sərbəst istifadə edirdilər. 20 sentyabr və 20 mart aralığında keçirdikləri qışlaq həyatında köçəri tayfalar bir yerdə cəmləşir və bu qışlaq fəaliyyətləri məhdud idi. Seçilən qışlaq sahələri az və dar olduğundan, qışlaq ərazisinin mərkəzinə əhalisi və sürüsü az olan tayfalar, sərhəd zolaqlarına isə əhalisi və



sürüləri çox olan tayfalar yerləşdirilirdi. Köçərilər arasında nişanlanma və sözləşmələr yazın əvvəllərində gerçəkləşir, evliliklər və toylar isə payızın əvvəllərində icra olunurdu.

Köçərilər oturaq əhali və şəhərlərlə balanslaşdırılmış bir həyat tərzinə sahib idilər. Çünki köçərilər öz məhsullarını kəndlilərə və şəhərlilərə satır, kənd təsərrüfatı və ticari məhsulları da onlardan təmin edirdilər. Bu məqsədlə köçəri və oturaq ərazilərin sərhədlərində mövsümlük bazarlar qurulurdu. Bəzi şəhərlərin giriş qapılarında köçərilər üçün bazar məkanları təşkil edilir və şəhərin bu qapısına *kürd qapısı* deyilirdi. Kürd orta əsrlərdə bir millətə deyil, maldarlıqla məşğul olan insanlara deyilirdi. Bu səbədən bir çox şəhərin qapıları *bab əl-kürd* adlanırdı.

Yəni türk köçəriləri kənd və şəhər həyatını qorumaqda maraqlı olmuşdular. Hətta bəzi hallarda köçərilər özləri oturaq əhaliyə sahib dövlətləri ticari münasibətlərin yaradılmasına təşviq edirdilər. Bunun kimi əhalisinin əksəriyyətini oturaq əhalinin təşkil etdiyi ölkələr və əyalətlər öz torpaq sahələrini könüllü olaraq köçərilərə açmaq tərəfdarı idilər. Çünki əkin-biçinin tamamlandığı aylarda həmin ərazilərə köçəri sürülərinin buraxılması əkilən ərazilərin təbii şəkildə gübrələnməsinə şərait yaradırdı. Digər tərəfdən, şəhər və kənd əhalisi yun məhsullarını köçərilərdən əldə edirdilər. Geyimdən evlərin xalçayla döşənməsinə qədər yun həyati dərəcədə əhəmiyyətli bir məhsuldu. Köçəri qadınların toxuduqları kilimlər, xalçalar, palazlar çox keyfiyyətli və gözoxşayan olduğundan, başda saray olmaqla, hamının əldə etmək istədiyi məhsullar idi. Bəzi kənd və qəsəbələr də ət, dəri, süd, pendir məhsullarını köçərilərdən təmin edirdi. Yəni XVI əsr türk dövlətlərində hər üç sinif (kəndli, köçəri və şəhərli) bir-birinə bağlı həyat tərzi keçirirdi.

Qıtlıq, quraqlıq və xəstəliklər dövrü istisna olmaqla, müsəlman-türk ölkələrində malların qiymətləri sabit idi. Qiymətlərdə meydana gələn enişlər və çıxışlarda, yəni

yüksəlməsi və azalmasında dövlət bazara müdaxilə edirdi. Qiymət artımı zamanı dövlətin bazara etdiyi müdaxilə xalqın mənfəətlərini, qiymətlərin aşağı düşməsi halında edilən müdaxilə isə tacirlərin mənfəətlərini qorumaq məqsədi daşıyırdı. Dövlət ərz-tələb və keçimin tənzimlənməsində maraqlı idi. Çünki iqdisadi böhranlar dövlətin daxili nizamını təhdid edə bilərdi.

Qeyd edilən dövrlərdə orta hesabla bir insanın özünün bir aylıq ehtiyaclarını qarşılaması 150 dirhəmə (gümüş pula) bərabərdi. Buna uyğun olaraq, bir çörək və bəhməzdən ibarət yeməyin qiyməti 1\2 dirhəmə bərabərdi. Dövlətlərin "ümumi milli məhsul" anlayışı Abbasilər Xilafəti dövründə formalaşdı. Adam başına əldə edilən məhsulun hesablanmasına dair, ancaq kapitalist Avropasında ortaya çıxan təsəvvürlər orta əsrlər müsəlman iqtisadçılarının diqqət mərkəzində idi. İbn Xəldun *(Əbu Zeyd Əbdürrəhman ibn Məhəmməd ibn əl Hədrami; 1332-1406)* "Müqəddimə"-sində "dəyər"dən bəhs edərkən, məhsul-dəyər, *dəxl-xərc* əlaqələrindən söz açır.

Orta əsrlər İslam iqdisadi siyasəti üçtərəfli pul sisteminə söykənirdi. Tədavüldə olan pullar əsasən qızıl, gümüş və quruş (qəpik) pullardan ibarət idi. Dinar və dirhəm beynəlxalq tədavüldə olan pul hesab edilsə də, digər metallardan kəsilən pullar ölkə və əyalətlərə görə dəyişirdi. Dövlət öz pulunun dəyərini qorumaq üçün qızıl və gümüşün çəkisini davamlı nəzarətdə saxlayırdı.

Ancaq XVI əsrdə dünya miqyasında *qiymət inqilabı* baş verdi. Buna səbəb Avropa tərəfindən əldə edilən Amerika qızılının tədavülə daxil edilməsi idi. Amerikanın kəşfi ilə birlikdə dünyadakı mövcud ticarət həcmi kəskin sürətdə böyüməyə başladı. Amerikadan gələn qızıl, gümüş və digər qiymətli metalların Avropa üzərindən dünya bazarlarına daxil olması balansın pozulmasına səbəb oldu. 1500-1520-ci illər ərzində İspaniya Amerikadan gətirdiyi qiymətli metallardan 45 min kq gümüş sikkə



kəsdiyi halda, 1545-1560-cı illər arasında İspaniya zərbxanalarının kəsdiyi gümüş pul 270 min kq-a, 1580-1600-cü illər ərzində isə 340 min kq-a yüksəldi. İspaniya bu mədənləri qəsb yolu ilə ələ keçirsə də, Şərq ölkələri ilə apardığı ticari münasibətlərdə həmin pullardan istifadə edirdi. Tədavüldə istifadə olunan pul artığının yaranması orta əsrlərin dünya iqtisadi münasibətlər sistemini alt-üst etdi. 1493-1800-cü illər arasında Avropa üzərindən dünya bazarına ümumilikdə 2,6 milyon kq qızıl, 100 milyon kq gümüş pul daxil edilmişdir.

Qərbi Avropa krallıqlarının əli ilə dünya bazarına qarşılıqsız şəkildə daxil edilən qızıl və gümüş əlavəsi sabit qiymət sistemini alt-üst etdi. Amerika qızıl-gümüşü hesabına Avropa krallıqlarının ticari alım gücünün artması müsəlman-türk dünyasındakı ticari münasibətləri dərindən sarsıtdı. Şərqli tacirlər nəğd qızıl-gümüş hesabına avropalılarla ticari əlaqələrin qurulmasına üstünlük verməyə başladılar. Asiya daxilindəki bütün malların ixracata yönəlməsi daxili bazarın kasadlaşmasına səbəb oldu. Avropa ilə ticari münasibətləri əsasən qeyri-müsəlmanlar (yəhudilər, ermənilər, süryanilər və b.) apardığından, həmin tacirlərin əlində qısa zamanda böyük miqdarda pullar toplanmağa başladı. Bu tacirlər dövlətə və dövlət məmurlarına verdikləri borc və rüşvət müqabilində öz ticari maraqları üçün istədikləri əmr və fərmanları çıxartdırmaq gücünə sahib idilər.

XVI əsrdə baş verən qiymət inqilabı hər cür malın, xüsusilə də lüks əşyaların Avropaya nəql olunmasına yol açdı. Artıq Avropa dövlətləri Asiyada ticarətxanalar, ticarət şəbəkələri və ticarət koloniyaları açmağa başladılar. Bu, Asiya xalqlarının və dövlətlərinin sürətlə kasıblaşmasına yol açdı. XVIII əsrdən etibarən Avropa dövlətləri istehsalat texnologiyalarını və vasitələrini ələ keçirməklə ənənəvi Şərq ticarətinin baltalanmasına səbəb oldu. Asiya dövlətlərinin beynəlxalq bazarda başlayan güc itkisi Asiyadakı

ənənəvi *quru ticarətinin* süqutuna yol açarkən, Avropanın əlində olan dəniz ticarətinin yüksəlişinə səbəb oldu. Qısaca, XVI əsrdə baş verən qiymət inqilabı *kapitalizmin* yaranmasında ilk mərhələ oldu.

XVIII əsrin əvvəllərində türk dövlətləri dərin iqtisadi böhran içində idilər. Türk dövlətlərinin zəifləməsinin əsas səbəbi Asiya və Afrikada genişlənməyə başlayan Böyük Britaniya, Rusiya, Fransa, Portuqaliya, Belçika, Hollandiya istilaları idi.





## 10.2. MƏMLÜKLƏR

Misir və Suriya ərazilərində yüz illik hakimiyyətə sahib Əyyubilər 1193-cü ildə böyük sultan Səlahəddin Əyyubinin vəfatından sonra taxt mübarizələri ilə sarsıldı. Xanədanın varisləri dövləti öz aralarında bölüşdürüb, bir neçə Əyyubi məlikliyi qurdular. Bu vəziyyət Əyyubilərin siyasi-hərbi güc itirməsinə yol açdığından, başda səlibçilər olmaqla, ölkənin ciddi təhlükələrlə üzləşməsinə səbəb oldu. Əyyubi məlikləri arasında davam edən mübarizələr, birincilik uğrunda apardıqları döyüşlər onların türk məmlüklərdən ibarət hərbi birləşmələr yaratmaları prosesini sürətləndirdi və bu, Məmlük komandanların iqtidarı ələ keçirmək yolunu açdı. Sultan Saleh həmin Məmlük komandanların həlledici dəstəyi ilə Əyyubi taxtının sahibi oldu. Saleh öldükdən sonra taxta çıxan oğlu Turanşahın ögey anası Şəcərəddürr (ö.1257) onun naibi oldu. O, öz taxtını qorumaq üçün Məmlük komandanların dəstəyini əldə etmişdi. Lakin Turanşah Qahirədə Əyyubi taxtına otursa

da, əsas dayağı olan Məmlük əsgərlərinə və ögey anasına qarşı yanlış siyasət izlədiyi üçün sui-qəsdə məruz qaldı. Bu hadisə 1250-ci ildə Əyyubilərin sonu oldu.

Məmlük sözü ərəbcə "mə-lə-kə" kökündən yaranıb, mənası "sahibinin əmri altında olan qul" deməkdir. Ancaq qul və məmlük terminləri arasında məna fərqi var. Ərəbcə "abd", "məmlük", "qulam" dilimizdə ümumi olaraq qul mənasına gəlsə də, Abbasilərdən etibarən məmlük kəlməsi daha çox qul kimi alınıb hərbi sistemə daxil edilən əsgərləri ifadə etməyə başladı. Afrikadan gətirilən qullar ev və təsərrüfat işlərində çalışdırılsa da, türk məmlüklər xəlifə, hökmdar və əmirlərin hərbi birləşmələrini təşkil edirdilər. Bəzən qul bazarlarından, bəzən də əsir və könüllü olaraq dövlət tərəfindən alınıb xüsusi olaraq *qulam* məktəblərində yetişdirilərək hərb və din ağırlıqlı təhsildən keçirilən, müsəlman olduqdan sonra azad elan edilib ordu sıralarına cəlb edilən bu insanlara ümumi mənada məmlük adı verilirdi.

İslam dünyası daxilində siyasi hakimiyyət əldə edən müsəlman-türk dövlətləri öz hərbi güclərini bu yolla gücləndirərək uzun əsrlər boyunca Misir, Suriya, ərəb ölkələri və Hindistanda hökm sürdülər. Məlum olduğu kimi, türklər döyüş qabiliyyətləri, hərbçi xarakterləri, cəsarətləri səbəbilə əvvəllər Çində qurulan dövlətlərin, daha sonra Sasanilər, Bizans, Əməvi və Abbasilərin ordusunda xidmət ediblər. *1250-1382-ci illər* arasında Misirdə hakimiyyəti ələ keçirən siyasi qüvvələr məhz həmin türk məmlüklərdən ibarət idi. Nil çayının kənarındakı Ravza adasında yaşadıqları üçün onlara *Bahri məmlükləri* adı verilmişdir. *1382-1517-ci illər* arasında hakimiyyəti əllərində tutan hökmdarların əksəriyyəti isə Qafqazdan gətirilən çərkəzlərdən ibarət olduqlarına görə, Misirdə hakimiyyətə gələn növbəti məmlük xanədanı Çərkəzlər adlanırdı. Qalatül-Cəbəl bürclərində yerləşdirildikləri səbəbindən onlara *Bürciyə məmlükləri* də deyilirdi. Əhəmiyyətli bir hissəsi Qafqazdan



gətirilən qıpçaq türklərindən olan qulam döyüşçüləri qısa bir müddət ərzində Əyyubi ordusunun əsas qüvvəsi halına gəlib, 1250-ci ildə baş verən Faraskur müharibəsində Firəng (səlib) ordusunu darmadağın edərək, Fransa kralı başda olmaqla, düşmənin çox sayıda komandanını əsir aldıqdan sonra həmin qıpçaq məmlüklərin şöhrəti daha da artdı. Məmlüklərin İslam dünyasının iki əsas düşməni olan Moğol və səlib ordularını ardıcıl məğlub etməsi onların müsəlmanların nəzərində etibarını daha da artırdı. 1258-ci ildə Bağdaddan qovulan Abbasi xəlifələrinə sahib çıxaraq özlərini İslam dünyasının müdafiəçiləri halına gətirən məmlüklər bütün Misir, Suriya, ərəb ərazilərini ələ keçirib *Türkiyyə* adlandırdıqları bir siyasi hakimiyyət təsis etdilər.

Məmlük dövlətinin ilk sultanı İzzəddin Aybək (ö.1257) idi. Xüsusilə dövlətin təşəkkül etdiyi ilk dövrlərdə komandanlar, mühüm dövlət adamları arasında ciddi bir hakimiyyət mübarizəsi, taxt davası cərəyan edirdi. Bunun da başlıca səbəbi məmlüklərdə hakimiyyətin ötürülməsinin müəyyən qaydalarının olmaması, hakimiyyətin hər hansı xanədan və ya ailənin əlində cəmləşməmiş olmasıdır. Hərbi cəhətdən özünü kifayət qədər güclü hesab edən hər türk əmir və ya komandan hakimiyyəti ələ keçirib Məmlük dövlətinin sultanı ola bilərdi. Məhz bu səbəbdən Aybəkdən sonra taxta sahib olan oğlu *Nurəddin Əli*nin *(1257-1259)* hakimiyyət illəri uzun sürməmiş, naibi olan Məmlük dövlətinin komandanı *Seyfəddin Qotaz* moğol təhlükəsi qarşısında dövlətin başında daha dirayətli, təcrübəli bir hökmdarın olmasının vacib olduğunu əsas gətirərək, dövlət adamlarının da razılığını alıb 1259-cu ildə sultanlıq taxtına oturdu. Seyfəddin Qotazın hakimiyyəti dövründə *(1259-1260)* 3 sentyabr 1260-cı ildə baş verən Eyn Calut müharibəsi ilə Məmlük ordusu moğolları məğlub etdilər və beləliklə, yarım əsrdir dünyanı qasıb-qovuran moğol istilasının qarşısını kəsdilər.



*Seyfəddin Qotazın büstü. Misir Milli Hərb muzeyi*

Eyn Calut hazırda Fələstinin sərhədləri daxilindəki Nablus və İsrail sərhədləri daxilindəki Beysan şəhərləri arasında yerləşən bir ərazidir. Seyfəddin Qotaz ordusunun əsas döyüşçü birliklərinin komandanlarını toplayaraq, onlara moğolların İslam dünyasına, müsəlmanlara qarşı həyata keçirdiyi böyük zülmü, onların ayaq basdığı yerlərdəki tarixi İslam şəhərlərinin necə yerlə-yeksan edildiyini, bu müharibənin haqla batil arasında cərəyan edən həlledici bir müharibə olduğunu ifadə edərək onların döyüş ruhunu yüksəltdi və özü də ordusunun başında Moğol ordusunun qarşısına çıxdı. Qotaz ordusunu iki qanada ayırdı. Baybarsın komandanlığı altındakı əsas qüvvələr düşmən səflərinə doğru hərəkət edərkən, ordusunun digər qanadı da meşənin içində mövqe tutaraq moğollara tələ qurdu. Bu müharibədə moğolların səfində gürcü və ermənilərdən ibarət hərbi dəstələr də döyüşürdü. Məmlük ordusunun əsas hərbi strategiyası düşmənə qüvvələrini az göstərərək onların arxayınlaşmasına səbəb olmaq idi. Düşmənə hücum edən Baybarsın komandanlığındakı sayca moğollardan çox az olan birliklərin əsas məqsədi onları məşğul edərək vaxt udmaq, Qotazın komandanlığındakı əsas ordunun döyüş meydanına yetişməsini təmin etmək idi. Baybarsın əsgərlərini görən Moğol ordusunun komandanı Ketboğa Məmlük ordusunun bu qədər olduğunu zənn edərək ordusuna hücum əmri vermiş, Baybars da qədim hərb taktikası olan saxta qaçış taktikasına baş vuraraq geriyə çəkilincə, onları təqib edən



moğollar Məmlük ordusu tərəfindən mühasirəyə alınmışdı. Qotaz ordusunun başında moğollara qarşı şücaətlə döyüşdü. Bütün hərbi yürüşlərinin ən ağır məğlubiyyətinə düçar olan moğolların komandanı Ketboğa oğlu ilə birlikdə əsir götürüldü və sultanın əmri ilə öldürüldü. Bu zəfər bütün İslam dünyasında çox böyük əks-səda yaratdı. Şam qısa müddət içində moğollar tərəfindən boşaldıldı. Qotaz ordusu ilə birlikdə şəhərə girərkən böyük bir coşğu ilə qarşılandı. Bu ağır məğlubiyyətin xəbərini alan Hüləgü xan paytaxt Qaraqoruma dönərkən yanında götürdüyü Suriya Əyyubi dövlətinin hökmdarı Nasir Yusifi ona Məmlük dövlətinin gücü ilə bağlı yanlış məlumat verdiyi üçün öldürtmüşdü. Bu zəfər nəticəsində Misir və Suriya başda olmaqla, Yaxın Şərqdə Məmlük dövlətinin hakimiyyəti daha da möhkəmlənmiş, əyyubilər onların güc və nüfuzunu qəbul etmək məcburiyyətində qalaraq tarix səhnəsindən çəkilmişdir. Məmlük sultanı Qotaz Əyyubi əmirlərini öz idarəsi altında birləşdirmişdir. Eyn Calut müharibəsində Əyyubi əmirlərindən ancaq Məlik Səid moğolların səfində yer alaraq Məmlük ordusuna qarşı savaşmış, nəticədə həyatını itirmişdir.

Eyn Calut müharibəsinin ən böyük nəticələrindən biri də mütəmadi olaraq Moğol ordusu qarşısında geri çəkilən, işğala məruz qalan İslam dünyasının bu savaşla əks-hücuma keçə bilməsi, ruhi-psixoloji olaraq ciddi şəkildə toparlanmasıdır. Moğol-xaçlı əməkdaşlığına da bu zəfərlə birlikdə böyük zərbə vurulmuşdur. Eyn Calut müharibəsinin insanlıq tarixi baxımından da ciddi nəticələri olmuşdur. Təxminən yarım əsr boyunca yer üzünü titrədən moğollar ilk dəfə ciddi bir məğlubiyyətlə üz-üzə qalmış, bu vəziyyət şübhəsiz ki, tarixin axışına da təsir etmişdir. Məmlük dövləti haqqında ilk qaynaqların istifadə etdiyi *devlet-ül-Etrak* (türklərin dövləti) deyimi bu zəfərlə birlikdə fərqli bir anlam qazanmış oldu. Şamlı bir tarixçi Eyn Calut zəfəri ilə bağlı belə yazmışdı: *"Tatarların öz irqlərindən olan*

*türklər tərəfindən yox edilməsi mühüm bir hadisədir"*. Bu, türk tarixinə xas olan bir hadisədir ki, Eyn Calut müharibəsinin digər qəhrəman komandanı Baybars əvvəlcə bu zəfər səbəbi ilə sultan Qotazın əlini öpmüş, lakin çox keçmədən onu taxtdan endirmişdir. Hüləgüdən sonra xələfi Abaqa da təkrar məmlüklər üzərinə yürüş edərək Suriyanı hakimiyyəti altına almağa çalışsa da, məğlub olaraq geri çəkilmək məcburiyyətində qaldı.

Bu qələbədən sonra Suriya üzərində hakimiyyət quran məmlüklər Şərqi İslam dünyası ilə ticari-siyasi və dini-mədəni münasibətlərini inkişaf etdirmək məqsədilə, xüsusilə də Anadoludakı türk bəylikləri Dülqədirli, Ramazanoğulları, Qaramanoğulları, Eretna, hətta Ağqoyunlu, Qaraqoyunlu dövlətləri və bəylikləri ilə münasibətlər təsis etdilər. Abbasi xəlifələrinin Qahirədə oturması, Məkkə və Mədinə kimi müqəddəs şəhərlərin məmlüklərin əlində olması onlara müsəlmanların nəzərində böyük hörmət qazandırdı. Moğol istilası altına girməyən Dəşti-Qıpçaq, Türküstan, Xorasan, Azərbaycan və Anadoludan on minlərlə türk yurdlarını tərk edib Suriya və Misirə yerləşərək məmlüklərin əsas hərbi gücünü təşkil etdi, yenə sayları onlardan az olmayan minlərlə alim, fəqih, sufi, ədib və şair Şam, Hələb, Qahirə, Fustat kimi şəhərlərə köç etdilər. Məmlüklər moğolların ələ keçirdikləri ölkələrin müsəlman camaatına xitab etmək məqsədilə sünni İslamın müdafiəsinə başladılar. Bu məqsədlə moğollara qarşı sərt münasibət sərgiləyən, əsasən hənbəli məzhəbli alim və fəqihləri siyasətə cəlb edib, onlardan aldıqları fətvalarla apardıqları mübarizə üçün dini çərçivə müəyyən etdilər. Digər tərəfdən, məmlüklər Anadolu bəylikləri və Elxanlı dövlətinin düşməni olan Qızıl Orda ilə siyasi-diplomatik əlaqələr təsis edib, özlərinin İslam dünyasındakı mövqelərini gücləndirdilər. Bu, Elxanlı dövlətinin şiə məzhəbli alimləri özlərinə cəlb etməsi ilə İslam dünyasında şiə-sünni məzhəbi üzərindən fərqli bir bölünmənin yaranmasına yol açdı. Məmlük



dövlətinin siyasətini dəstəkləyən İbn Teymiyyənin Elxanlı dövlətinin tərəfdarı olan Hilli kimi şiə alimlərini hədəf götürməsi həmin məzhəbi ixtilafın siyasi müstəviyə çıxmasına şərait yaratdı.

Məmlüklər Elxanlı dövlətinin süqutu ilə Anadolu, İraq və Azərbaycandakı siyasi mövqelərini daha da artırdılar. Qaraqoyunlu və Ağqoyunlu dövlətləri ilə Məmlük dövləti arasında bölgə hakimiyyəti uğrunda mübarizəyə, XIV əsrin ortalarında Osmanlı dövləti də daxil oldu. Məmlüklərin təsir dairəsi genişlədikcə, Şam və Qahirə özünə qarşı yeni düşmənlər də qazandı. Anadoluda Məmlük dövlətinə qarşı Dülqədirli-Ramazanoğlu ittifaqının yaranmasında bu amil mühüm rol oynayırdı. Digər tərəfdən, Qaramanlı bəyliyi Məmlük dövləti ilə dostluq münasibətləri yaradaraq Anadoludakı Səlcuqlu mirasını ələ keçirməyə çalışırdı.

Eyn Calut müharibəsində moğollarla döyüşdə böyük qəhrəmanlıqlar sərgiləyən Məmlük əmirlərindən Baybars Qotazdan istədiyi vəzifəni ala bilmədiyi üçün sui-qəsdlə onu öldürtdü və taxtı ələ keçirdi. Baybars Məmlük dövləti tarixində xüsusi yerə sahib idi. O, dövlət və ordusunu gücləndirərək İslam dünyasının əsas təhlükə qaynaqları olan səlibçilərə qarşı fərqli məzhəbi kimliyə sahib Bizansla, Elxanlı dövlətinə qarşı isə Qızıl Ordayla müttəfiqlik münasibəti qurdu. Abbasi Xilafətinin məmlüklərin nəzarətində yenidən İslam dünyasında güc və təsir qazanmağa başlaması da, onun siyasətinin nəticəsi idi. Baybarsın hakimiyyəti illərində *(1260-1277) ismaililər* və *bərbəri üsyankarlar* da aradan qaldırıldılar. Baybars səlibçilərlə apardığı müharibələrdə Antakyanı azad etdi, sonra səlibçilərin Şərqi Suriyadakı varlığına son qoydu. Baybars Məmlük dövləti ərazilərində ticarəti canlandıran, iqtisadi artıma səbəb olan limanların açılması, su kanalların çəkilməsi kimi mühüm icraatlara imza atmaqla qalmayıb, xeyriyyə vəqfləri açdırmaqla əhalisinin qayğısına qaldı. Baybarsdan sonra azyaşlı oğulları Bərkə və Süləmiş güclü əmir və naiblər tərəfindən



*Baybarsın büstü.*
*Misir Milli Hərb muzeyi*

taxta çıxarılsalar da, onların hakimiyyəti illərində zəifləyən Məmlük idarəçiliyi dərin böhranlar keçirdi. Əmirlər və dövlət məmurlarının razılığı ilə *Məlik Seyfəddin Kalavun (1279-1290)* hakimiyyətə gətirildi. O, dövlətin daxili nizamını yenidən təmin etməyə başladı. Kalavun dövründə məmlüklər qarşısında bir neçə məğlubiyyət yaşayan moğollar, xüsusilə Elxanlı hökmdarı Qazan xanla birlikdə müsəlmanlaşaraq müqavimət potensiallarını itirdilər. Moğollarla mübarizə aparan Kalavun səlibçilərlə 10 illik sülh müqaviləsi bağlamaq məcburiyyətində qaldı. Onun oğulları və nəslindən olanlar 1382-ci ilə qədər Məmlük taxtının sahibi oldular. Ancaq bu tarixdən sonra Məmlük tarixində yenidən bir hakimiyyət çevrilişi oldu və taxtı Bürci məmlükləri ələ keçirdilər.

Sultan Kalavun Qara dəniz limanlarındakı qul bazarlarından daha ucuz qiymətə satın aldığı Qafqaz əsilli gəncləri (çərkəz, qıpçaq, bulqar, qabardin, uz) yetişdirərək, Qahirənin Qalatul-Cəbəlin bürclərinə (qarnizonuna) yerləşdirdiyi üçün həmin məmlüklər Bürci adlanırdılar. Daha itaətkar olmaları və Məmlük əmirlərə qarşı balans yaradacaqları səbəbilə Kalavun və oğulları Bürci məmlüklərinə daha geniş səlahiyyətlər verdilər. Bir müddətdən sonra Bürci məmlüklərinin sayı artaraq sarayda və idarəetmədə təsirlərini artırıb, *Nəsrəddin Məhəmməd ən-Nasir*in hakimiyyətindən *(1310-1341)* sonra dövlət nəzarətini ələ keçirdilər.

Belə bir şəraitdə dövlət daxilində *Tatar*, *Bahri* və *Bürci* məmlükləri arasında şiddətli mübarizə başladı. 1341-1382-ci illər arasında Məmlük taxtına 10 sultan çıxdı. 1382-ci





*Sultan Kalavundan sonra Məmlük dövlətinin ərazisi*

ildə Bürci məmlüklərinin əmiri Bərkukun sultan olması ilə Məmlük dövləti tarixində Bürcilər dövrü başlamış oldu.

Çərkəzlərin Kəsaya qəbiləsinə mənsub olan *Seyfəddin Bərkuk (1382-1399)* gənc yaşda əsir alınıb Misirə gətirilmişdir. Əmir Yelboğa onu satın alıb Bərkuk adını verdi. Bərkuk Atabəy ət-Tazi başda olmaqla, bir çox Məmlük dövlət adamının yanında xidmət etmiş, daha sonra çərkəzlərin dövlət içində güclənməsini qəbul etməyərək türk əsilli məmlüklərdən güclü bir ordu formalaşdırmağa çalışan *Zeynəddin Bərkəni* zərərsizləşdirib Misirdə hakimiyyəti ələ keçirdi. Bərkuk taxta çıxan kimi dövlətin mühüm vəzifələrinə Bürciləri yerləşdirməsi Misir və Suriyada bəzi üsyanlara səbəb oldu. Hətta Anadoludakı

Dülqədirli, Ramazanoğulları kimi bəyliklər Bərkuka qarşı ittifaq yaratdılar.

Lakin Bərkukun hakimiyyətə gəlməsi bölgədəki siyasi-hərbi vəziyyəti dəyişmədi. O da xələfləri kimi özünü *Türkiyyə* dövlətinin sultanı olaraq gördü, türk dilində danışdı və bölgənin idarəetməsinə qarışmadı. Sadəcə mərkəzi hakimiyyəti gücləndirərək Məmlük dövlətinin yenidən çiçəklənməsinə çalışdı. Bərkukla başlayan Bürci məmlükləri xanədanı 1517-ci ilə qədər hakimiyyətlərini davam etdirdilər.

Məmlük dövləti Misir, Liviya, Suriya, Hicaz, Yəmən və Çuxurova bölgələrinə nəzarət edirdi. Əhali baxımından müxtəlif kimlikli və dinli camaat və xalqların məskunlaşdıqları bu ərazilər coğrafi baxımdan şərq-qərb ticarətində körpü rolunu oynayırdı. Məmlük cəmiyyətini əsasən yeddi sinif təmsil edirdi. İlk sırada dövləti idarə edən əmirlər, yüksək hərbi qulluqçular və məmurların içində yer aldığı əsilzadələr *(qılınc əhli-seyfiyyə)* təşkil edirdi. İkinci sırada elm adamları (*elmiyyə*), böyük sərmayə sahibi tacirlər, üçüncü sırada qazılar, orta dərəcəli məmurlar, xırda tacir və bazar əsnafı, dördüncü sırada sənətkarlar, beşinci sırada kəndlilər, altıncı sırada bədəvilər, yeddinci sırada isə fəqirlər yer alırdı. Bu sinifləri sosial olaraq şəhərdə, kəndlərdə yaşayanlar və köçərilər (bədəvi) olaraq da təsnif edirlər. Bundan başqa, Məmlük dövlətinin torpaqlarında əhli-i zimmə adlandırılan dini azlıqlar, mötədil İslam məzhəblərinin xaricində yer alan *dürzilər* və *nüsayrilər* də yaşayırdılar.

Məmlük dövləti istehsal gücü və həcmi böyük olan bir dövlət idi. Misir və Suriya torpaqlarında böyük toxuculuq emalatxanaları, boyaqxanalar, dəri, səmər, kağız sənaye mərkəzləri və oyma, xarrat, mis əşyaların düzəldildiyi emalatxanalar fəaliyyət göstərirdi. Məmlük şəhərləri Yaxın Şərq və Aralıq dənizi bölgəsindəki ticarətin can damarı idi. İmzalanan müqavilələr, iqtisadi fəaliyyətlər üçün yaradılan münbit şərait sayəsində dünyanın müxtəlif





*Məmlük dövlətinin bayrağı (1375-ci ilə aid Kataloniya atlasından)*

ölkələrindən tacirlər gələrək Məmlük emalatxanalarında istehsal olunan malları alıb öz ölkələrinə aparırdılar. Qırmızı dəniz sahilində Ayzab limanı, Aralıq dənizində İsgəndəriyyə və Dimyat limanları, cənubda Ədən limanı Çin, Hindistan, Genuya və Venesiya tacirlərinin ən çox istifadə etdiyi limanlar arasında idi. Ticarətdən Məmlük sultanları da pay sahibi idilər. Hakimiyyətə və iqta torpaqlarına sahib olan sultan və əmirlər birbaşa ticarətlə məşğul olmasa da, iqtisadi imkanları etibarilə müəyyən şəkillərlə onlar da ticarətin içində yer alır, böyük sərvətlər qazanırdılar. XIV əsrdə Məmlük ölkəsinin əhalisi üç milyon idi. Paytaxt Qahirə 600 minlik əhalisi ilə dövrünün meqapolisi hesab olunurdu. XV əsrin sonunda Ümid burnunun kəşf edilməsi ilə birlikdə Misirin dünya ticarətində və beynəlxalq mal nəqliyyatındakı əhəmiyyəti azalmağa başlasa da, tranzit keçiddəki rolu heç bir zaman aşağı düşmədi.

Türk dövlətlərində olduğu kimi, Məmlük dövləti idarəçiliyində də *"ərbabi-seyf"* adlanan hərbçilər hakim idi. Ancaq sirr katibliyi, maliyyə işləri kimi mühüm vəzifələrə elmiyyə sinfindən mülki şəxslər təyin edilirdi.

Dövlətin başçısı sayılan hökmdar *"Sultanül-İslam vəl-müslimin", "əş-Şərif", "əz-Zahir", "ən-Nasir", "əl-Muiz", "əs-Səid", "əl-Adil"* kimi ləqəblər daşıyırdılar. 250 illik dövrdə Məmlük taxtında 49 sultan olmuşdur. Hakimiyyət müddəti ən uzun olan sultan Kalavun idi.

Məmlük dövlətində iqtidarda vərasət sistemi mövcud olmamış, hökmdarlar hər zaman ordu başçıları arasından çıxmışdır. Taxtdan salınan uşaq yaşdakı hökmdarlar, əsasən Kərək və İsgəndəriyyəyə məhbəsə göndərilmişlər. Uşaq yaşda iqtidar sahibi olan sultanların *"naibüs-səltənə"* adlandırılan vəkilləri ölkəni onların adından idarə etmiş, şahzadələrə lələlik və ya atəbəylik edən əmirlər *"nizamül-mülk"* titulunu daşımışlar.

Xilafətin Məmlük sultanlarının himayəsinə keçdiyi dövrdən sonra *darül-adl* adlanan məkanda xəlifə müsəlmanlar adına bütün siyasi idarəetməni sultana dövr etdiyini elan etmişdir. Məmlük sultanları müharibələrdə orduya özləri rəhbərlik etdikləri üçün ölkənin idarəçiliyində naib çox mühüm yerə sahib idi. Dövlət iyerarxiyasında naibdən sonrakı vəzifə *atabəgül-cüyuş, əmiri-kəbir* və ya bəylərbəyi olaraq da adlandırılan *atabəgül-əsakir* yer alırdı.

Digər müsəlman-türk dövlətlərindən fərqli olaraq, vəzirlik vəzifəsi Məmlük dövlətində daha az əhəmiyyətli idi. Məmlük dövlətində əmiri-silah, əmiri-axır, əmiri-məclis, əmiri-candar, hacibül-hüccab, xəzinədar, üstadüddar kimi yüksək vəzifəli məmurlar siyasi-hərbi bürokratiyanı şəkilləndirmişdir. Əsasən elmiyə sinfinə mənsub olan şəxslər *divanül-inşa, divanül-ceyş, divanül-xas, divanül-bimaristan* kimi divanlara rəhbərlik edirdilər. Əsasən şafi məzhəbindən olan dövlətin ədliyyə təşkilatının başındakı şəxs *qaziül-quzat* adlanırdı. Hərbi prokurorluq və ya məhkəmənin səlahiyyətlərini icra edən şəxs *qazı-əskər*lər idi. Səlcuqlu dövlətində olduğu kimi, Məmlük dövlətində də ali məhkəmə *divani-məzalim* adlanırdı. Ordu məmlük



adlandırılan, əsasən türk və çərkəz kökənli əsgərlərdən formalaşdırılmış və əsas üç qrupa bölünmüşdü:

- əl-məmalik əs-sultaniyyə adlandırılan qapıqulu dəstələri və ya mühafizə alayı adlandırılan hərbi hissələr;
- əcnadül-xalka adlandırılan torpaq payına sahib əsgərlər;
- *məmalikül-üməra* adı verilən əmirlərə bağlı əsgərlər.

Onlardan başqa, Məmlük dövlətinin Qırmızı dəniz və Aralıq dənizi sahillərində donanması mövcud idi.

Əyalətlər sultana tabe olan naiblər tərəfindən idarə olunurdu. Dövlətin ən böyük ərazisi olan Suriyada Dəməşq, Dəməşq Qalası, Hələb və İsgəndəriyyə olmaqla, dörd naiblik mövcud idi. Məmlüklərdə vəqf və mülk əraziləri xaricindəki torpaqlar komandan və əmirlərə iqta torpaqları olaraq paylanılırdı. Misirdə Nil çayı sahilindəki əkinçilik bütün dövrlərdə əhəmiyyətli olduğu kimi, Məmlük dövləti zamanında da inkişaf etmişdi. Dövlət tərəfindən su kanalları çəkilmiş, körpülər inşa edilmişdi. Məmlük sultanları əhalini əkinçiliyə təşviq etmək məqsədilə sulaq ərazilərdə yeni kəndlər saldırdılar. Məmlük toxuculuğunda kətan və pambığın xüsusi yeri vardı. Moğollar vasitəsilə Çin ipəyinin Misir bazarlarına daxil olması Qahirədə qiymətli ipək qumaşlar, libaslar, ipək səccadələr hazırlayan emalatxanaların yaranmasına səbəb oldu.

Qahirə və Dəməşq (Şam) Məmlük dövründə İslam dünyasının əsas mədəniyyət mərkəzləri halına gəldilər. Moğol hücumlarının qarşısına sədd çəkərək Xilafəti Bağdaddan Qahirəyə köçürən məmlüklər çox sayda müsəlman alim, fəqih və ədibə də sahib çıxdılar. Mədrəsə, zaviyə, xangah, xəstəxana, məscidlər Məmlük dövlətində həm elm mərkəzləri, həm təhsil ocaqları, həm də xidmət məkanları olaraq geniş fəaliyyət göstərirdilər. Müsəlman-türk dövlətlərinin başlıca xüsusiyyəti olan vəqf sistemi Məmlük mədrəsə və xəstəxanalarının xərclərini qarşılayan başlıca qurumlar idi. XIV əsr tarixçisi Makrizi

*(Əhməd ibn Əli əl-Makrizi; 1364-1442)* Qahirədə 70-ə yaxın mədrəsə olduğunu yazır. Bu mədrəsələrin zəngin kitabxanaları vardı. İbn Mansur, Nüveyri, Əbu Həyyan, Öməri, İbn Kayyim əl-Cövziyyə, Safədi, Kütubi, Süyuti, Sahəvi, Qəlqəşəndi, Makrizi, İbn Hacər, İbn Tağriberdi İslam tarixinin böyük alimləri Məmlük mədrəsələrinin yetirmələri olublar.

Məmlük dövləti zamanında başda tarix olmaqla, fərqli elm sahələrində çox sayda türk dilində əsərlər qələmə alınmışdır. Bu əsərlərin əksəriyyəti dil, lüğət və ədəbiyyat sahəsində ortaya çıxıb. Firdovsinin "Şahnamə"si kimi bəzi məşhur əsərlər də bu dövrdə türk dilinə tərcümə edilmişdir. Osmanlı dövlətinin banisi Osman bəyin vaxtında İznikdə açılan ilk Osmanlı mədrəsəsinin baş müəllimi Davud ibn Mahmud ər-Rumi əl-Qeysəri də Misir mədrəsələrində təhsil almışdı. Bu mənada Məmlük dövlətindəki elmi mühit Osmanlıya dərindən təsir göstərmişdir.

Makriziyə görə, Qahirədə 22 xangah, 11 rıbat (karvansaray), 25 zaviyə mövcud olub, onlar İslam memarlığı üslubunu əks etdirirdilər. Məmlük dövləti zamanında hədis elmi özünün qızıl dövrünü yaşadı. "Səhih Buxari", "Səhih Müslim" kimi hədis külliyyatları bu dövrdə toplanıb kitablaşdırıldı. İbn Teymiyyə, İbn Qəyyum əl-Cövzi, İbn Kutluboğa, İbn Hümam kimi öz dövrünün məşhur kəlam alimləri, *bədəviyyə* təriqətinin banisi Seyid Əhməd Bədəvi, *desukiyyə* təriqətinin banisi İbrahim Desuki, şazəliyyə sufi cərəyanının şeyxləri İbn Ataullah, Məhəmməd Vəfa Şazeli kimi böyük sufilər Məmlük torpaqlarında yetişiblər.

Məmlük dövləti zamanında yetişən alimlər arasında çox sayda riyaziyyat, astronomiya, tibb alimi olmuşdur. Məmlük dövlətinin tibbi öz dövründə dünyada ilk sıralarda yer tuturdu. Onlardan Əbül-Məhasin ilk dəfə katarakt əməliyyatını həyata keçirmiş, İbn ən-Nəfis qan dövranı prosesini, onun insan orqanizmi üzərindəki



təsirlərini öyrəndi. Cəmaləddin əl-Vatvat adlı alim nəbatat və astronomiyaya dair əsərlər qələmə aldı. Əbül Abbas Şihabəddin Əhməd göy qurşağı ilə bağlı məşhur əsərini bu dövrdə yazdı. Məmlük hakimiyyəti altında yer alan ərazilərdə məşhur tarix, coğrafiya, kimya alimləri yetişdi. Nüveyri, Qəlqəşəndi, Eyni, Zəhəvi, İbn Tağriberdi və Səhavi kimi tarixçilər çoxcildlik əsərlər qələmə aldılar. Onlardan İbn Şəddad Suriya və Cəzirənin topoqrafiyası və tarixi-coğrafiyası, Əbül-Fida "Təqvimül-buldan" adlı coğrafiya əsərlərini ərsəyə gətirdilər. Məmlük dövründə şeir və ədəbiyyatda ərəbcə parlaq əsərlər ortaya çıxdı. Mənbələrdə Sultan Rüknəddin Baybars əl-Bunduqdarinin elm adamları və təsəvvüf şeyxlərinə xüsusi hörmət bəslədiyi, bağlı olduğu şeyxi Xızır ibn Əbu Bəkri zaviyəsini həftədə iki dəfə ziyarət etdiyi nəql edilir. Qahirədəki Zahiriyyə mədrəsəsini də Sultan Baybars tikdirmişdir.



## 10.3. QIZILBAŞLAR

Türklərin İslam anlayışı *dövlət İslamı* (*rəsmi İslam*), *xalq İslamı*, mədrəsə İslamı (*kitabi İslam*), *təkkə İslamı* (*mistik İslam*) şəklində kateqoriyalaşdırılır:

1. Dövlət İslamı və ya rəsmi İslam – İslamın siyasi formasına aid idi.

2. Xalq İslamı – "siyasi mahiyyət kəsb etməyən, sadəcə ictimai həyat tərzi hesab edilən və xalq arasında yaşanan, şəriətdən *çox cəmiyyət*in ənənəvi inanc və həyat tərzi ilə eyniləşmiş, şaman ünsürlərlə birləşmiş ənənəvi türk müsəlmanlıq anlayışı idi. Bu inanc forması qərb tarixçiliyində "*heterodoks* İslam" adlandırılır. *Qələndərilik*, yəsəvilik, bektaşilik, qızılbaşlıq kimi təriqətlər bu anlayışdan törəmişdir.

3. Mədrəsə İslamı – Səlcuqlulardan etibarən təsirini hiss etdirməyə başlamış, Məmlük və Osmanlı dövlətləri zamanında, əsasən kəlam üzərinə formalaşmışdır. Məmlük və Osmanlı mərkəzi hakimiyyətləri öz siyasi və hərbi məqsədlərini reallaşdırmaq üçün bu anlayışdan faydalanmışdır.



4. Təkkə İslamı – mistik fikirlər üzərində bina edilmiş İslam anlayışıdır.

Qızılbaşlıq bu anlayışlardan, əsasən xalq İslamı təməlində formalaşmışdır. Ələvi-bektaşi tədqiqatçısı İren Məlikova *(1917-2009)* görə, "oturaq həyat tərzi, dərvişlərin şəhər və qəsəbələrə yaxın yerlərdəki təkkələrə yerləşməsinə səbəb oldu. Bu dərvişlər Osmanlı hakimiyyətinin ilk üç əsri boyunca özlərinə lütfkarlıqla yanaşan padşahlar tərəfindən qorundular. Osmanlılar yeni fəth etdikləri torpaqların koloniyalaşmasında da təriqətlərdən istifadə etdilər. Osmanlılar təkkələri Anadolunun müqəddəs yerlərindəki *heterodoks* və üsyan çıxaran ünsürləri nəzarət altına almaq məqsədilə də istifadə etdilər. Bu bölgələrdə bəzi anarxist dərviş qrupları ortaya çıxmışdı. Bunlar *abdallar, torlaklar, işıqlar* və *qələndər* adı ilə bilinən qruplar idi. Bu qrupların öz dini liderləri, övliyaları vardı. Lakin qısa müddət sonra Osmanlı hökmdarlarının səyləri nəticəsində bu qrupların hamısı bir şəxsiyyət ətrafında toplaşdılar. Bu şəxs *Hacı Bektaş Vəli* idi. Bununla birlikdə, iki fərqli qrup ortaya çıxdı: Təkkələrdə məskunlaşan *bektaşilər* və köçəri, ya da yarımköçəri həyat sürən *qızılbaşlar*. Qızılbaşlara uzun müddət müəyyən bir ad verilməmişdir. Osmanlı bəlgələrində qızılbaşlardan *zındıq, rafizi, şiə* və *mülhid* olaraq söhbət açılır. Qızılbaşlar sonralar şiə adı ilə xatırlanmışdır. Qızılbaş adı bu birliyin tarixi adıdır. Bu ad ilk səfəvilərdən sonra gələn yerli tayfaları ifadə edir. Qızılbaş adı Şah İsmayılın atası Şeyx Heydər (1459/60-1488) zamanında siyasiləşdi. Qızılbaş "qırmızı başlıqlı" deməkdir. Qızılbaşlara bu ad geydikləri başlıq səbəbilə verilmişdir. Qızılbaşlar on iki çalmalı qırmızı bir sərpuş geyərdilər. Bu başlıq *tacı-heydəri*, yəni "Heydərın tacı" adlanırdı. Osmanlı sənədlərində qızılbaş adı "zındıq" və "üsyankar" mənasında verilir. Bu alçaldıcı məna üzündən "ələvi" adı qızılbaş adının yerini almış və Türkiyədəki heterodoks qrupların ümumi adına çevrilmişdir. Ələvi kəlməsi müqəddəs şəxsiyyət hesab olunan İmam





*Hacı Bektaş Vəlinin miniatürü. XV əsr. Hacı Bektaş muzeyindən.*

*İsfahanda Şah Məscidində Səfəviyyə ulduzu*

Əliyə bağlılıqlarının işarəsidir. Ancaq İranda Əliyə ibadət edənlərə "əliyullah" (əliallahilər) deyilir. İranda Əlinin soyundan gələn adama, yəni seyidlərə ələvi deyilirdi".

A.Y.Ocaq *(Ahmet Yaşar Ocak; d.1945)* qızılbaşlığın təməlini təşkil edən heterodoks İslam haqqında belə yazır: "Heterodoks İslam anlayışı köçəri türklər arasında İslam dünyasında mövcud olan bəzi heterodoks məzhəblər kimi, illər uzunu davam edən teoloji müzakirələr nəticəsində meydana gəlməyib. Bu heterodoks İslam anlayışı onsuz da əvvəlki dinlər vasitəsilə vərdiş etdikləri mistik həyat tərzi yolu ilə, İslamın geniş miqyasda köhnə dinlərin qalıqları ilə birləşərək dəyişikliyə uğramasından formalaşdı".

Qızılbaşlıq XV-XVI əsrlərdə Azərbaycan və Anadoluda bəzi köçəri türk zümrələrinə təsir edən 12 İmam (imamiyyə) şiəliyinin İmam Əli kultu 12 imam kultu və Kərbəla kultu kimi şiə motivlərinin də təsirində qalmışdır.

*Xalq İslamı* anlayışının siyasiləşməsində mehdilik ideologiyasının böyük təsiri var. Mütləq ədalət prinsiplərinə



əsaslanan mehdilik tarix boyunca bir çox xalq hərəkatlarının əsasını təşkil etmişdi. Qədim Mesopotamiya mənşəli mesiyanik (məsihçilik) inancının təzahürü olan bu mistik anlayış IX və X əsrlərdə Orta Asiyadakı, XIII əsrdən etibarən də Anadolu və Balkanlardakı mərkəzi hakimiyyətə qarşı formalaşan dini-ictimai xalq hərəkatlarının əsas xəttini təşkil etmişdir. XIII əsrdə Səlcuqlu hakimiyyəti altındakı Anadoluda *babailər* üsyanı, XV əsrdə Balkanlarda Şeyx Bədrəddin üsyanı və nəhayət, XVI əsrdə Anadoluda qızılbaş üsyanları mehdilik ideologiyasından bəhrələnən *mesiyanik* üsyanlardır. XIII əsrdən etibarən xalq İslamı anlayışı qələndərilik, yəsəvilik, heydərilik və vəfailik kimi təriqətlər tərəfindən mənimsənilərək Azərbaycan və Anadoluda yayılmış, Şeyx Cüneyd tərəfindən siyasiləşən, Şah İsmayıl *(1501-1524)* tərəfindən dövlətləşən qızılbaşlığın əsasını təşkil etmişdi. XV əsrin sonlarında güclənən qızılbaş təbliğatının təsiri ilə Şah İsmayılın başçılığı ilə 12 İmam şiəliyinin yeni bir sintezi meydana gəldi. İmam Əli kultu, 12 İmam kultu və Kərbəla kultu bu heterodoks İslam anlayışının təməl elementlərinə çevrildilər. Beləcə, xalq İslamı siyasiləşdirildi. Amma bu sintez sünnilik və şiəlik kimi mütləq şəriət xarakteri kəsb etmədiyi üçün Səfəvilər dövlət məzhəbi olaraq şiəliyi qəbul etdilər. Əslində isə səfəvi-qızılbaş təlimi kimi formalaşan bu anlayış sünni və 12 İmam şiəliyindən xeyli fərqlənirdi.

Səfəvilərin bilinən ilk nümayəndəsi *Firuzşah (XIII əsr)* "zərrinkülah", yəni "qızılbörk" və ya "qızıl papaq" ləqəbi ilə tanınırdı. Belə bir baş geyimi sadəcə Səfəvi ailəsinə məxsus olmayıb, bir çox türk tayfalarında olmuşdur. Nihat Çetinkaya *(1946-2019)* Osmanlı yeniçərilərinin də əvvəllər *qızıl başlıq* geydiklərini yazır. Qızıl başlıq, başqırd türklərinin də ənənəvi geyimi idi. Bütün bunlar qızıl başlıq məfhumunun geniş məzmuna sahib olduğunu və Şeyx Heydərin on iki çalmalı sarığından (*taci heydəri*) əvvəl mövcud olduğunu deməyə əsas verir.

Firuzşahdan sonra Səfəvi ailəsinin başında Əvəz, Məhəmməd, Səlahəddin, Qütbəddin, Əminəddin və Səfiəddin dayanıblar. Səfəvi xanədanının və təriqətinin banisi isə Şeyx Səfiəddin İshaq (1300-1334) olmuşdur.

**Şeyx Zahidin müridi olan Səfiəddin** Moğol dövründə bölgədə yaşanan dini boşluqdan istifadə edərək təriqətinin təbliğatına başlamış və ətrafında geniş mürid kütləsi toplamışdır. Elxanlı dövrü tarixçisi Həmdullah Qəzviniyə görə, *"Şeyx Səfiəddin Ərdəbili həyatdadır. Zaman sahibidir. Çox böyük hörmət görür. Moğolların ona böyük rəğbəti var. Bu səbəblə də o, onların xalqa zərər verməsinə mane olur"*. Səfəvi təriqətinin həm müridi, həm də mənkıbə müəllifi İbn Bəzzaza görə, *"Türk piri olan Səfiəddin"* 1301-ci ildə Şeyx Zahid Gilaninin vəfatından sonra şeyxlik məqamına oturdu. O, 1334-cü ildən ölənə qədər bu mövqeyini qorudu. Səfiəddinin öz şeyxi Zahid Gilaninin qızını aldığı dəqiqdir. Mənbələrdəki məlumatlardan Şeyx Səfiəddinin sünni və ya şiə olduğu tam anlaşılmır. Tədqiqatçılara görə, şafi məzhəbinə bağlı görünən Şeyx Səfi əslində ənənəvi türk sufi həyat tərzinə sahib idi.

Şeyx Səfiəddin Səfəvi təriqətinin banisi idi. Mənbələrdə onunla bağlı az sayda məlumatdan aydın olur ki, Səfəvi təriqəti kimi ortaya çıxdıqları ilk zamanlardan etibarən siyasi nüfuza malik idilər. Şeyx Səfiəddin 1334-cü ildə 80 yaşında öldü. Təriqətin başına oğlu Şeyx Sədrəddin *(1334-1391)* keçdi. Onun dövrü Səfəvi təriqətinin siyasi səhnəyə çıxdığı dövrdür.

Elxanlı dövlətinin yaşadığı siyasi böhran regional qarşıdurmalarla bərabər boylar arasındakı çəkişmələri də şiddətləndirmişdi. Elxanlı hökmdarı Arpa dövründə *(1335-1336)* Diyarbəkirdə məskunlaşmış uyratların başçısı Əli padşah 1336-cı ildə Təbrizə girərək Arpanı məğlub etmiş və Elxanlı taxtını ələ keçirmişdi. Eyni vaxtda çobanlı və cəlairi əmirləri arasında hakimiyyət uğrunda müharibələr başlamışdı. Ara müharibələri bölgədəki siyasi sabitliyi alt-üst





*Şeyx Səfiəddin. "Səfvət əs-səfa" kitabından miniatür*



*Şeyx Səfi türbəsi. Ərdəbil*



Əmir Teymurun Ərdəbildə Xacə Əlini ziyarət etməsi. ("Aləmara" kitabından. Rza Abbasi muzeyi)

etdiyindən Şeyx Sədrəddin nüfuzu və təsiri ilə bölgədə baş verən hadisələrə yaxından nüfuz etməyə başlamışdı. Ehtimal ki, şeyxin özü də bu hadisələrdən öz lehində faydalanmaq istəmişdir. Bu məqsədlə Şeyx Sədrəddin müridlərini silahlandıraraq hərbi birliklər yaratmışdı. Buna rəğmən, şeyxin müridlərini silahlandırması təriqətin siyasi fəaliyyətə keçməsi şəklində dəyərləndirilməməlidir. Hələ Şeyx Səfi dövründə təriqət müridləri silah daşıyır və cihad hərəkatında iştirak edirdilər. Ə.Z.V.Toqan – *"Azərbaycanda Ərdəbil şeyxi Səfiəddin Ərdəbili öz müridləri ilə birlikdə Dəşti-Qıpçaq və Krıma gedib, xalqı irşad edirdi"* – deyə yazır.

Sədrəddindən sonra təriqətin başına Xacə Əli *(1391-1424)*, ondan sonra isə Şeyx İbrahim *(1424-1447)* keçmişdir. Onların dövründə Səfəvi təriqətinin müridləri Türküstandan Anadoluya qədər geniş ərazidə irşad fəaliyyətləri aparırdılar. Xüsusilə Xacə Əlinin Əmir Teymur üzərində böyük təsiri vardı. Teymur 1402-ci ildə Anadolu səfərindən qayıdanda Şeyx Xacə Əlini Ərdəbildə ziyarət etmiş və şeyxin xahişi ilə Anadoluda əsir aldığı 3000 türkməni sərbəst buraxmışdı. Teymurun əmri ilə Ərdəbil və ətrafının bütün gəlirləri Səfəvi təriqətinə vəqf edilmişdir.

Səfəvi təriqətinin başına Şeyx Cüneydin *(1447-1460)* keçməsi ilə təriqətin mahiyyəti də dəyişdi. Cüneydə qədər Səfəvi təriqəti formalaşmasını tamamlamış, siyasi hadisələrə yaxından müdaxilələr edərək nüfuzunu xeyli artırmış, xüsusilə də xalq İslamı inancına bağlı yarıoturaq





Şeyx Cüneyd türbəsi. Qusar

türklər arasından böyük etibar qazanmışdı. Hətta osmanlılar Ərdəbil dərvişlərinə hörmət edirdilər.

1460-cı ildə Cüneydin ordusu Samur çayının Qıpçaq kəndi ətrafında Şirvanşahlar ordusunun hücumuna uğradı. Çıxan qarşıdurmada Cüneyd öldürüldü, müridləri qətl olundu. Bu hadisə Səfəvi təriqəti üçün qırılma nöqtəsi oldu. Onun ölümü yandaşlarında təriqətə olan inancı nəinki sarsıtdı, əksinə daha da alovlandırdı. Atasının ölümündən sonra oğlu Şeyx Heydər *(1460-1488)* Səfəvi təriqətinin başına keçdi. Heydər dövründə Səfəvi təriqəti artıq regional siyasi gücə çevrildi. Buna Qaraqoyunlu-Ağqoyunlu münaqişəsinin də təsiri böyükdür. Qaraqoyunlulara qarşı Heydər Ağqoyunlu Həsənin padşahın yanında yer alırdı. Həsən padşah balaca Heydəri öz qızı ilə evləndirdi. *Aləmşah Bəyim* və ya *Baqi Ağa (1460-1522)* adı ilə bilinən bu qadın İsmayılın anası idi.

1478-ci ildə Həsən padşahın ölümü ilə Səfəvi təriqəti yavaş-yavaş Ağqoyunlu dəstəyini itirməyə başladı. Sultan Yaqub Səfəvi təriqətini özü üçün təhlükəli hesab edirdi. Yaqub Şirvanşah *Fərrux Yasar*la *(1465-1500)* qurduğu



*Şah İsmayıl Xətainin portreti. Rəssam: Kristofano Dell'Altissimo. Uffitsi muzeyi. Florensiya*



*Şah İsmayıl və Fərrux Yasarın qoşunları arasında döyüş. ("Şahnameyi İsmayıl" əsərindən. Britaniya Milli Kitabxanası)*

qohumluq əlaqəsinin təsiri ilə *(o, şirvanşahın qızı ilə evlənmişdi)* Heydərin fəaliyyətlərini nəzarət altında saxlamağa başladı. 1488-ci ildə Ağqoyunlu Yaqubun dəstəyi ilə Şirvanşah Fərrux Yasar Şeyx Heydərə hücum edib, onu məğlub etdi və ölümünə səbəb oldu.

Heydərin öldürülməsindən sonra Ərdəbil sufiləri onun böyük övladı *Sultan Əli*ni *(1488-1494)* dərgahın başına keçirdilər. Yaşanan faciəvi məğlubiyyətə rəğmən, qızılbaşlar arasında dərgaha olan bağlılıq azalmadı, əksinə daha da gücləndi. Bu təhlükənin qarşısını almaq üçün Sultan Yaqub Heydərın oğulları – Sultan Əli, İsmayıl və İbrahimi anaları Aləmşah Bəyimlə birlikdə həbs edərək İstəxr qalasına saldırdı.

Ancaq bütün bunlar Səfəvi təriqətinin yüksəlişinin qarşısını ala bilmədi. Ağqoyunlu daxilində taxt mübarizələri, bölgənin sosial-mədəni baxımdan yaşadığı dərin böhran qızılbaş tərəfdarlarının artması ilə nəticələndi. 1498-ci





*Şah İsmayıl Xətai dövründə Qızılbaşlar dövlətinin bayrağı*




*Qızılbaşlar dövlətinin ərazisi I Şah Abbas dövründə*



*Çaldıran döyüşü. Mozayka. Çəhəl Sütun sarayı. İran*

ildə təriqətin başına İsmayılın keçməsi ilə qızılbaş hərəkatı dövlətləşdi. İsmayıl ard-arda Şirvanşah, Ağqoyunlu, İraqi-Ərəb və İraqi-Əcəm hakimlərini və 1510-cu ildə isə Şeybani dövlətini məğlub edib, Orta Şərqi ələ keçirdi.

Beləliklə, türk tarixində ilk dəfə təriqət mənşəli bir güc dövlət statusu əldə etdi. İsmayıl öz dövlətini "imamət modeli" üzərində inşa etsə də, türk dövlətlərinə məxsus ənənəvi siyasi-idari-hərbi mexanizmi dəyişdirmədi. Qızılbaş dövləti də tayfaların ittifaqı təməlində yaranmışdı.





*I Şah Təhmasibin portreti. Rəssam Kristofano Dell'Altissimo. Uffitsi muzeyi.*



*I Şah Təhmasib dövründə Qızılbaşlar dövlətinin bayrağı*

Hakim siyasi-idari güc hərbi aristokratiya idi. Dövlətin atributları da ənənəvi formasını qoruyurdu. Ancaq İsmayılın apardığı siyasət bütün müsəlman Şərqindəki balansları dəyişdirdi. Dövlətlər arasındakı siyasi ixtilaflar dini-məzhəbi çərçivəyə keçdi. Xüsusilə də İsmayılın Anadoludakı böyük nüfuzu Osmanlı-Qızılbaş dövlətləri arasında yüz illik müharibələri bərabərində gətirdi. 1514-cü ildə Çaldıran döyüşü ilə başlayan bu müharibələr hər iki dövlətin böyük insan və güc itkisi ilə nəticələndi. Bu müharibələr 1639-cu ildə əldə edilən Qəsri-Şirin razılaşmasına qədər ancaq kiçik fasilələrlə səngimişdir. Digər tərəfdən, Qızılbaş dövləti dini-məzhəbi səbəb və bahanələr gətirərək Orta Asiyanı ələ keçirən Şeybani dövləti ilə də uzunmüddətli müharibələr aparmaq məcburiyyətində qaldılar.

İsmayıl Qızılbaş dövlətinin qurucu lideri kimi xarizmatik kimliyi və nüfuzu ilə çoxsaylı türk tayfalarını bir araya topladı. Ancaq 1524-cü ildə vəfatı və yerinə 10 yaşlı oğlu *Təhmasib*in *(1524-1576)* keçməsi ilə ölkə daxilindəki güclər arasındakı müvazinətlər sarsıldı. Təhmasib bu gücləri öz nəzarətində saxlamaq üçün şiəliyi siyasi vasitəyə çevirmək və öz iqtidarına dini-mistik mənalar qazandırmaq məcburiyyətində qaldı. Təhmasib *"sehrli güclərə sahib hökmdar"* kimi öz varlığını qızılbaş tayfalarına təsdiq etdirmək üçün



I Şah Abbasın naməlum rəssam tərəfindən çəkilmiş portreti



I Şah Abbas dövründə Qızılbaşlar dövlətinin bayrağı

on ildən çox mübarizə apardı. Ancaq Şah Abbasa qədər *(1587-1629)* Qızılbaş hakimiyyəti uğrunda daxili mübarizələr səngimədi. Bu səbəbdən geniş islahatlar həyata keçirən Şah Abbas idari və hərbi strukturdakı qızılbaşların təsirini azaltdı. Özünün odlu silahlara sahib devşirmələrdən ibarət hərbi dəstələrini yaratdı. Paytaxtı İsfahana nəql edərək mərkəzi hakimiyyəti qızılbaşların daha böyük nüfuza malik olduqları bölgənin kənarına çıxardı.

Şah Abbas Qızılbaş ordusunun ən zəif tərəfini odlu silahlara sahib olmamasında görürdü. Bu məqsədlə ordu daxilində tüfəngçilər dəstəsi yaratdı. Həmin dəstə türklərdən təşkil olunmuşdu. Sayı 12 min olan bu dəstənin başçısı *tüfəngçibaşı* adlanırdı. Ordunu müasir silahlarla təchiz etmək üçün həm də topçular dəstəsi yaratdı. Osmanlılara qədər türk dövlətlərində odlu silahlardan istifadə etməyi "kafirlik" əlaməti hesab edirdilər. Məsələn, Misirin Məmlük hökmdarları osmanlıları *"firənglər kimi deşikli dəmirdən (odlu silah) istifadə etmək"*lə ittiham etmişdilər. Şah Abbas ordu tərkibində nizami topçu dəstəsi təşkil etdi. Onun dövründə həmin dəstənin əmrində 500 səhra topu vardı.

Şah Abbas paytaxtı dəyişdirməklə qalmadı, paytaxt elan etdiyi İsfahanı da tamamilə dəyişdirdi. İsfahana kosmopolit şəhər statusu qazandırdı. Qəzvin və Təbrizdən



çox sayda türk ailəsini buraya köçürdü. Köçürülən ailələrin çoxu alim, sənətkar və tacir ailələri idi. Hətta Şah Abbas bu ailələr üçün İsfahanda Abbasabad adı ilə yeni məhəllə saldırdı. Abbasın köç siyasəti də müasir tarixçilikdə tənqid mövzusudur. Xüsusilə onun erməni və yəhudiləri İsfahan ətrafına köçməyə məcbur etməsi sərt tənqidlərə səbəb olmuşdur. Amma Abbas bununla əhəmiyyətli bir məsələni diqqətdə saxlamışdır. O dövrdə, xüsusilə Asiya və Avropa arasındakı ticari əlaqələr yəhudi və erməni tacirlərinin nəzarətində olduğundan, dövlət üçün gəlir mənbəyi hesab olunurdular. Osmanlı-Səfəvi müharibələrinin getdiyi bir vaxtda iki ölkə arasında ticari münasibətləri yəhudi və erməni tacirlər aparırdılar ki, bu, hər iki dövlətin maraqlarına uyğun idi. *Yavuz Sultan Səlim (1512-1520)* qızılbaşlara qarşı apardığı siyasət zamanı qıpçaq türkcəsində danışan 20 min ermənini Krım və İrandan Anadoluya köçürərkən dövlətin bu ticarət mənbəyindən istifadə etməsinə çalışmışdı. Dövlət gəlirlərinin azaldığı bir dövrdə I Şah Abbasın belə siyasət aparması labüd idi. Bu məqsədlə Abbas İsfahan ətrafında Yeni Culfa adlı bir məhəllə saldıraraq buraya xristian tacir ailələrini yerləşdirmiş, onlara öz inanclarını sərbəst yaşamaq imkanı tanımış, hətta bir neçə il vergidən azad etmişdi. Bu yolla dövlətin ticarət gəlirlərini artırmağa nail olmuşdu. Abbas ölkədəki ümumi rifahın artması üçün tacirlərə geniş imtiyazlar vermişdi. Abbasın bu ağıllı siyasəti Hindistan və Hind dənizində, hətta İran körfəzində ticarəti nəzarət altına alan avropalı dənizçilərin müstəmləkə siyasətinin gecikməsinə səbəb olmuşdur.

Bütün bunlarla yanaşı, I Şah Abbas dövlət dilinə və məzhəbi kimliyə toxunmadı. Türk dili əvvəllər olduğu kimi Səfəvi sarayının hakim dili olaraq qalırdı və üstəlik, Şah Abbas özü xarici səfirlərlə belə türk dilində danışırdı. Şah Abbasın apardığı islahatlar Qızılbaş dövlətinin ömrünü uzatdı. Qızılbaş dövlətinin yaranmasında Şah İsmayılın oynadığı rolu Qızılbaş mərkəzi dövlət sisteminin

yaradılmasında Şah Abbas icra etmişdi. Şübhəsiz, Şah Abbasın islahatları arasında mənfi nəticələr yaradan qərarlar da olmuşdu. Məsələn, tayfa başçılarının nüfuzunu azaldarkən, şiə üləmasının fəaliyyət sahəsini genişləndirdi. İkinci mənfi amil qeyri-müsəlmanlara geniş ticari imtiyazlar verməklə onların Avropa ilə ticari ortaqlıqlar yaratmasına imkan tanıdı. Mərkəzi hakimiyyətin zəifləməyə başladığı dövrdə həmin qeyri-müsəlmanlar avropalı güclərlə ittifaqlar yaradaraq, türklərə qarşı fəaliyyətlərə başladılar. Şah Abbas islahatlarında Osmanlı dövlət sistemindən yararlanmışdı. Yeniçəri sistemi, şahzadələrin qəfəsdə (hərəmdə) saxlanılması, yeni hərbi dəstələrin yaradılması, alimlərin təsir dairəsinin genişləndirilməsi və dini ideologiyanın gücləndirilməsi Osmanlı dövlətinin başlıca xüsusiyyəti idi. Şah Abbas Səfəvi dövlətini qızılbaşlıq ideologiyasına bağlı tayfalar ittifaqından imperiya mərhələsinə keçirdi. Şah Abbas İngiltərə, Fransa, İspaniya, Vatikan, Moskva knyazlığı kimi beynəlxalq güclərlə əlaqələr yaradaraq dövlətin diplomatik təsir gücünü və imkanlarını artırdı.

Şah Abbasın davamçıları onun siyasətini olduğu kimi davam etdirdilər. Ancaq zəif xarakterli bu şahlar Qızılbaş dövlətini beynəlxalq dünyada yaşanan yeni şərtlərə uyğunlaşdıra bilmədilər. Nəticədə Qızılbaş dövləti dərin böhranlar və daxili sarsıntılar ucbatından tənəzzül etməyə başladı və 1722-27-ci illərdə yaşanan əfqan istilası nəticəsində süqut etdi. Qızılbaş dövlətinə son qoyan fəlakətlər zəncirinin ilk halqasını tarixçi Şeyx Əli Həzin *(Cəmaləddin Məhəmməd Əli ibn Əbu-Talib əl-Geylani əz-Zahidi; 1692-1766)* belə təsvir edir: *"Səriştəsiz şah (Hüseyn) və şahzadələr, eyni zamanda ordu əyləncədən başqa heç nə ilə maraqlanmırdı. Təxminən yüz il ərzində (əsgər) öz qılıncını qınından belə çıxarmamışdılar"*. Bu sətirlərdən də aydın olur ki, dövlətin süqutunda birinci səbəb idarəçilik sisteminin pozulması, mərkəzi hakimiyyətin nüfuzunun zəifləməsi, hakimiyyətin ağıllı, bacarıqlı və təcrübəli dövlət adamlarının nəzarətindən çıxıb hərəmxana



ağalarının, rüşvətxor məmurların əlinə keçməsi idi. Bu dövrün hadisələrinin şahidi Həzinin sözlərini təsdiq edən Conas Hanvey *(Jonas Hanwey; 1712-1786)* belə yazırdı: *"Səfəvilər bu əsrin (XVIII əsrin) əvvəllərinə qədər heç bir zaman belə rifah görməmişdir. Qonşuları ilə əldə etdikləri razılaşmalar onları düşmən hücumlarından sığortalamışdı. Buna görə də xalq uzun sülh şəraitinin gözlənilən nəticəsi olaraq mənəviyyatını itirmiş və lüksə tamah salmışdı. (Qızılbaşlar) öz təbəələri tərəfindən hər hansı bir təhdid gözləmirdilər. Əvvəlki dövrlərində çox sayda üsyanlarla üzləşən dövlət möhkəm təməl üzərinə oturdulmuşdu. Amma bu həyat tərzinə qarşı çıxan fikirlərin formalaşması dünyanı heyrətə saldı. Bu fəlakətlərin qəhrəmanları (səfəvilərin) hakimiyyətləri altına aldıqları bir xalq – əfqanlar idi"*. Eyni illərdə Qızılbaş ölkəsinə kəşfiyyat xaraketli səyahət edən rus elçisi Artemi Volınskiyə (1689-1740) görə, şah o qədər bacarıqsız idi ki, dönə-dönə xahiş etdiyi halda əyalət hakimlərindən hərbi dəstək ala bilmirdi. 300 minlik Qızılbaş ordusunun Qəzvində aparılan siyahıyaalınmasında sadəcə 1100-ü hazır vəziyyətdə idi. Bu acınacaqlı mənzərə fəlakətin xəbərçisi idi.

1736-cı ildə Nadir şah Səfəvi xanədanının hakimiyyətinə birdəfəlik son verdi. Sonuncu azyaşlı Səfəvi şahı hakimiyyətdən uzaqlaşdırıldı və Nadir özünü şah elan etdi. Aparılan *dini-məzhəbi* siyasətə baxmayaraq, Qızılbaş cəmiyyəti radikal deyildi. Qızılbaş dövlətinin ən maraqlı tərəfi türk dilinin inkişafı oldu. Başda Şah İsmayıl olmaqla, Səfəvi şahlarının çoxu şair və sənətkar ruhlu idi. Bir çox Səfəvi şahının şeirləri və ədəbi əsərləri vardı. Hər nə qədər şeir Qızılbaş siyasi dairələrində ciddi maraq oyandırmasa da, miniatür sənəti Qızılbaş dövləti dövründə özünün qızıl çağını yaşadı. Herat miniatür məktəbini miras olaraq alan Qızılbaş dövləti Heratdakı sənətkarlara da sahib çıxdılar. Bu məktəbin davamı olaraq Təbriz, Qəzvin və İsfahan miniatür məktəbləri ortaya çıxdı və bir-birindən gözəl əsərlər yarandı. Hətta Osmanlı miniatür məktəbi belə Səfəvi rəssamlarının təsiri altında qaldılar.

Hələ Şah İsmayıldan etibarən Qızılbaş rəssamları böyük rəsm kolleksiyaları yaratmağa başlamışdılar. Təbrizdə "Şahnamə" və "Xəmsə"nin miniatürlərlə bəzənmiş külliyyatları hazırlandı. Hətta Şah İsmayıl öz oğlu Təhmasibin rəsm təhsili almasını istəmiş və bunun üçün onu *Nəqqaş Behzat*ın himayəsinə vermişdir.

1501-ci ildə İsmayıl Təbrizi ələ keçirdikdən sonra Ağqoyunlu dövlətinə aid saray kitabxanasını qorudu. Çox sayda xəttat və nəqqaşı himayəsi altına alaraq, onlara Nizami Gəncəvinin "Xəmsə"sinin illüstrasiyalarını hazırlamağı tapşırdı. Onun zamanında yaranan bir ənənəyə uyğun olaraq, Səfəvi kitabxanlarının rəhbərliyinə daim nəqqaşlar gətirilmişdir. Oğlu I Təhmasib dövründə 1533, 1535-1537, 1543-cü illərdə üç dəfə Nizami "Xəmsə"sinin rəsmli külliyyatı hazırlandı. *Nəqqaş Xətifi*nin rəhbərliyində hazırlanan bu külliyyata əlavə olaraq, onun tələbəsi *Qasımi Günabadi* 1574-cü ildə "Şahnamə"nin miniatürlərini hazırladı. Təhmasib 1567-ci ildə xüsusi olaraq hazırlatdığı rəsmli "Şahnamə"ni Osmanlı sultanı II Səlimə hədiyyə etmişdir. Onun dövründə yetişən Sadiq bəy Əfşar, Nəqqaş Zeynalabdin, Nəqqaş Siyavuş, Əli Əsgəri rəssamlıqda yeni texnikalar və üslublar formalaşdırdılar. Əli Əsgərinin oğlu Əli Rza və Şeyx Məhəmməd Şah Abbas dövründə olduqca maraqlı rəsm əsərləri ərsəyə gətirdilər.

Səfəvilər iddia edildiyi kimi şiə üləmasına siyasi mənada heç bir imtiyaz tanımadılar. Əksinə, şiə mollalarının təsirini azaltmaq məqsədilə fəlsəfəni inkişaf etdirdilər. Şərq fəlsəfəsi özünün sonuncu inkişaf dövrünü Qızılbaş dövründə yaşadı. Xüsusilə də Şah Abbas dövründə yetişən Mir Daməd, Mir Findiriski, Qütbəddin əl-Əşquri, Feyzi Kaşani, Sədrəddin Şirazi (yəni Molla Sədra) kimi filosoflar saray tərəfindən himayə olunurdular. Bu dövrün əsas fəlsəfi mövzusu *irfan*, yəni metafizika idi. Molla Sədranın İbn Sina metafizikası, İbn Ərəbi mistisizmi və Sührəverdi işrakiliyini birləşdirərək formalaşdırdığı fəlsəfi



baxış bu gün də təsirlərini İndoneziya, İran və Türkiyədə davam etdirir.

Qızılbaş şahları, xüsusilə də xanımları vəqf və xeyriyyə işlərinə həm özləri dəstək olublar, həm də imkanlı əmir və tacirləri təşviq ediblər. Təbrizdə, Qəzvində, İsfahanda, Şirazda, Qumda çox sayda məscid, məqbərə, saray, imarət inşa olunub. İsfahan şəhəri Şah Abbas dövründə memarlığı və şəhər planı ilə diqqəti cəlb edirdi.

Avropa ilə Asiya sənətkarlığı arasında ilk mədəni əlaqələrin memarları Qızılbaş sənətkarları oldular. 1632-1636-ci illərdə saray nəqqaşı *Muini Müsəvvir* tərəfindən hazırlanan Nizaminin "Xosrov və Şirin" miniatürlü əlyazmasında Avropa, Babur və Səfəvi rəssamlığının sintezi aydın hiss olunmaqdadır. Türk, Avropa və Hind sənət üslublarının ən güclü ustası *Safiyi Abbasi* və *Bəhram Sofrakeş* idilər. Bu üslub miniatürdə o qədər təsirli oldu ki, qısa vaxtda Qızılbaş sənətkarlarının və toxucularının istehsal etdikləri diba, atlas, ipək və qumaşlara həkk edilən miniatürlər Hələb, Bursa, Qahirə, İstanbul, Venesiya saraylarında böyük rəğbət gördü. Portuqaliyalı tacirlər üstü çiçəkli, kəklikli, çəmbər və dördbucaq formalı naxışlarla bəzənmiş bu qumaşları İspaniya sarayına satırdılar.

Səfəvi ustaları ənənəvi xalça üslublarını da dəyişdirdilər. Adına "Qızılbaş medalı" deyilən xalça üzərində qurulan təsvirlər *cənnəti* simvolizə edirdi. Həmin xalça üslubunun ən parlaq nümunəsi olan *"Şeyx Səfi xalçası"* gümüzdə Londonda "Viktoriya və Albert" muzeyində sərgilənir. Ən böyük təsirlənmələr isə cəvahirat və bəzək əşyalarında oldu. Xüsusilə də Qızılbaş ölkəsinə gəlib yerləşən zərgərlər və missioner ustaların yaratdıqları bəzək və aksesuarlar avropalılar tərəfindən rəğbət görüb satın alınırdı.

Səfəvi sənətkarlığında *sufi-təsəvvüfi* forma, obraz, üslub və baxış hakim idi. Bunu təsvir edilən insan obrazlarından, nəbati və həndəsi fiqurların əks olunmasından, təsvirlərin rəng quruluşu, strukturu və mövzularından anlamaq

mümkündür. Bütün bu təsviri sənət nümunələrində diqqəti cəlb edən təməl element isə "qızılbaş tacı" motivi idi. Bu motiv hətta Nuh tufanı hekayəsinin təsvirində Nuhun övladlarının başında belə əks olunmuşdur.

Qızılbaş mədəniyyətində diqqəti cəlb edən əsas yenilik təsviri incəsənətdən ədəbiyyata və memarlığa qədər özünü əks etdirən *məkan* məfhumu idi. Qızılbaş ədəbiyyatında, memarlığında, rəssamlığında dolğun, canlı, təsirli və ən incə detallarına qədər işlənən məkan anlayışı bütün Şərq sənətkarlığında yenilik idi. Məhz bunun təsiri ilə Şərq ədəbiyyatında bu dövrdə yeni bir ədəbi cərəyan yarandı. Adına *səbki-türki* deyilən bu cərəyan Babur və Osmanlıda *səbki-hindi* olaraq təqdim olunsa da, yaranma yeri İsfahan idi. Səbki-türki və ya səbki-hindi ədəbiyyatının ən böyük şairi isə *Saib Təbrizi* hesab olunurdu. O, şeirə daha rasional bir məna verərək, xüsusilə də qəzəl janrını Hafiz Şirazi, Əlişir Nəvai və Füzuli ilə zirvəyə çıxan dərin mistik motivlərdən çıxarıb dünyəvi məkan anlayışına yerləşdirdi. Saibin şeirlərində təbiət, insan, aşiq təsvirləri daha bəşəri inceliklərə bürünmüşdülər.





## 10.4. OSMANLILAR

XVI əsrdə müsəlman Şərqinin böyük siyasi-mədəni güclərini Qızılbaş, Şeybani və Babur dövlətləri, Şimali Afrika və Avropada isə ən böyük türk gücü Osmanlı dövləti idi. Rəsmi mənbələrdə "Ali-Osman" olaraq qeyd edilən Osmanlı dövlətinin qurucuları *oğuzların qayı boyu*na mənsub idilər. Osmanlı ailəsinin də aid olduğu qayıların moğol istilası ərəfəsində Orta Asiyadan Xorasana, oradan Azərbaycan və Şərqi Anadoluya köç etdikləri, sonra da Mərkəzi Anadoluya yerləşdikləri məlumdur.

Osmanlı bəyliyinin banisi Ərtoğrul bəy (1232-1281) olsa da, bəyliyin qurucusu *Osman bəy (1281-1324)* hesab edilir. Xüsusilə də 1302-ci ildə Bizans ordusunun məğlub edilməsindən sonra bəylik Bizansla Anadolu Səlcuqlu torpaqlarının sərhəd bölgələrində bir *uc* dövlətinə çevrildi. *Orxan bəy*in *(1324-1362)* dövründə ərazilərini genişləndirən osmanlılar eyni dövrdə Anadolu Səlcuqlu dövlətinin süqutu ilə Elxanlı dövlətinin təsiri altına girsələr də, bölgədə



*Osman bəyin rəsmi olan miniatür. Topqapı Sarayı muzeyi*

yaranan siyasi boşluqdan istifadə edərək 1326-cı ildə Bursanı, 1331-ci ildə İzniki, 1337-ci ildə İzmiti və Kocaelini ələ keçirdilər. 1334-1345-ci illərdə osmanlılar Qarasıoğlu bəyliyini ələ keçirib, Qərbi Anadolu bölgəsinin ən böyük gücünə çevrildilər.

Osmanlılar Mərmərə dənizinə çıxmaqla və Gelibolunu keçib Balkan ərazilərinə daxil olmaqla, Bizansın ən böyük rəqibi halına gəldilər. 1371-ci ildə Çirmən qələbəsi ilə Makedoniyadakı serb krallıqları və bolqarlar osmanlıların təsiri altına düşdülər. 1389-cu ildə Kosova döyüşü ilə Osmanlı dövləti Balkanlarda qalıcı bir gücə çevrildilər. Bu qələbədən sonra Şimali Serbiya yolunun açılması ilə osmanlıların Trakiya, Makedoniya, Albaniya və Şimali Bolqarıstanı ələ keçirmək üçün geniş imkanları yarandı. Osmanlılar adına *istimalət* deyilən məskunlaşdırma siyasəti ilə moğollardan qaçıb Anadoluya gələn saysız türk boylarını Balkanlara köçürüb, Avropadakı türk nüfuzunu artırmağa başladı.

Osmanlılar inkişaflarının zirvəsində olduqları vaxtda, 1402-ci ildə meydana gələn Ankara döyüşü ilə Əmir Teymurdan ağır bir zərbə aldılar. Bu döyüşdə Osmanlı hökmdarı İldırım Bəyazid *(1389-1402)* əsir düşdü və Osmanlı dövlətinin əraziləri onun varisləri arasında bölüşdürüldü. Adına *fətrət* deyilən bu bölünmədən sonra *II Murad*ın hakimiyyəti illərində *(1421-1444, 1445-1451)* birliyini təmin edən Osmanlılar arxa-arxaya Bizansla apardıqları mübarizələrdə bölgədəki üstünlüyü təkrar ələ keçirdilər. *1453-cü ildə Fateh Sultan Mehmed (1451-1481)* tərəfindən



Konstantinopolun ələ keçirilməsi ilə Osmanlı bir imperiya dövlətinə çevrildi. Fateh Sultan Mehmedin Trabzondakı Rum imperatorluğuna 1461-ci ildə son verməsi ilə Osmanlı Balkanların və Anadolunun ən böyük siyasi-hərbi gücünə çevrildi.



*Sultan II Mehmedin Konstantinopola girişi. Rəssam: Fausto Zonaro*

Konstantinopolun fəthi ilə paytaxt Ədirnədən buraya nəql edildi və İstanbul bir müsəlman-türk şəhəri halına gəldi. Fateh, xüsusilə Konya bölgəsindən İstanbula çox sayda türk ailəsi köçürərək şəhərdəki türk əhalisinin sayını artırdı. İstanbulun fəthi münasibətilə Fateh müsəlman mənbələrində *"sultanül Əbül-fəth"* adı ilə xatırlanır. İstanbulun fəthi Şərqi Roma imperiyasının süqutu və Avropadakı siyasi-mədəni situasiyanın tamamilə dəyişməsi mənasına gəlirdi.

Fateh Anadoludakı hakimiyyət mübarizəsi üçün Ağqoyunlu dövləti ilə 1473-cü ildə Otluqbeli döyüşündə qalib gəlməklə İslam dünyasının da ən böyük gücünə çevrildi. Trabzonun alınması Osmanlının Krımla əlaqələrini artırdı. Osmanlı Otluqbeli döyüşü ilə Anadoludakı kiçik türk bəyliklərini bir-bir öz hakimiyyəti altına almağa başladı. Fateh Sultan Mehmed Osmanlı tarixinin ən böyük sultanı idi. O, Osmanlı idarəçiliyində bir sıra islahatlar apardı. Qanunnamələr hazırladıb, dövlətin hərbi, sosial, siyasi nizamını müəyyənləşdirdi. Fatehin verdiyi qərarlardan biri də hakimiyyətin davamlılığı üçün "qardaş qətli"ni uyğun görməsidir. Bu qərara görə, taxta oturan övladlardan biri öz qardaşlarını öldürmək haqqına sahib idi.



*Otluqbeli döyüşünün təsviri olan miniatür.*
*"Tac əl-təvarix" kitabından. Jakmar-Andre muzeyi*

Fatehin 1481-ci ildə vəfatından sonra oğlanları arasında hakimiyyət uğrunda taxt mübarizələri gerçəkləşdi. Taxtı ələ keçirən *II Bəyazid* dövründə *(1481-1512)* Osmanlı dövləti Anadoluda Səfəvi dövləti ilə üz-üzə gəldilər. Anadoluda Osmanlının oturaqlaşdırma siyasətindən narazı qalan çox sayda türk tayfası qızılbaş ideologiyasının təsiri ilə Səfəviləri dəstəkləyirdi. Səfəvilərlə osmanlılar arasında başlayan bu ixtilaflar 1514-cü ildə *Sultan Səlim*lə *(1512-1520)* Şah İsmayılın Çaldıran döyüşündə üzləşməsilə nəticələndi. Bu döyüş Osmanlı dövlətinin qələbəsi və Diyarbəkir daxil olmaqla, Anadolunun ələ keçməsinə səbəb olsa da, iki türk



dövləti arasındakı mübarizə yüz il davam etdi. Bu mübarizə Osmanlı dövlətinin Avropadakı fəthlərinin də yavaşlamasına səbəb oldu. Sultan Səlim 1517-ci ildə Məmlük dövlətinə də son qoyaraq Misir və Ərəbistan ərazilərini ələ keçirdi.

Sultan Səlimin 1520-ci ildə ölümündən sonra hakimiyyətə *Sultan Süleyman Qanuni (1520-1566)* çıxdı. Sultan Süleymanın uzun sürən hakimiyyəti dövründə Osmanlı dünyanın super gücünə çevrildi. Qanuni hakimiyətinin ilk dövrlərində Avropadakı gücləri nəzarət altına almağa çalışdı. Bu məqsədlə 1521-ci ildə Belqradı, 1522-ci ildə Rodosu ələ keçirdi. 1526-cı ildə Moxaç meydan müharibəsində Macar krallığına ağır zərbə vuraraq, Mərkəzi Avropada hakim gücə çevrildi. 1529-cu ildə Vyananı mühasirəyə alan Osmanlı ordusu 1532-ci ildə Almaniya üzərinə hərbi səfər təşkil etdilər. 1538-ci ildə Boğdan (indiki Moldova və Rumıniyanın bir hissəsi) səfəri ilə Qara dənizin şimalındakı Bəndər və Özü şəhərlərini tərkibinə qatacaq qədər genişləndirən Sultan Süleyman, bunun ardınca Aralıq dənizindəki Avropa dövlətlərini təsirsiz hala gətirmək üçün hərəkətə keçdi. Bu məqsədlə Osmanlı donanması Barbaros Xeyrəddin Paşanın rəhbərliyi ilə 1538-ci ildə Preveze dəniz müharibəsində Qərbi Aralıq dənizinə nəzarəti ələ keçirib Şimali Afrikada bəylərbəylik təsis etdilər. 1541-ci ildə isə Cəzairə sahib oldular. Aralıq dənizində İspaniya krallığı ilə üstünlük mübarizəsi aparan osmanlılar 1543, 1552 və 1553-cü ildə Fransa ilə birlikdə hərəkət edərək Şimali Afrikadakı ispan dayaqlarını yox etdi.

Qanuni Sultan Süleyman Avropadakı fəaliyyətlərini tamamladıqdan sonra üzünü şərqə çevirmiş və Qızılbaş ərazilərinə bir neçə böyük hərbi səfər təşkil etmişdir. Bu səfərlərin birində Osmanlı ordusu İraqı da ələ keçirib, 1555-ci ilin 29 may tarixində Səfəvi hökmdarı I Təhmasiblə sülh müqaviləsi bağladı. Bu müqavilə 1578-ci ilə qədər qüvvədə qalsa da, Səfəvi-Osmanlı arasında sərhədyanı



*Qanuni Süleymanın rəsmi. Rəssam Tisian Veçellio. Vyana*

toqquşmalar heç bir zaman səngimədi.

Qanuni Sultan Süleyman dövrü Osmanlı tarixinin ən ehtişamlı dövrüdür. Özündən sonra varisləri bu ehtişamı davam etdirsələr də, inkişaf etdirə bilmədilər. *II Səlim (1566-1574)*, *III Murad (1574-1595)* və *III Mehmed (1595-1603)* dövrlərində Osmanlı ciddi böhranlarla sarsılmağa başladı. Xüsusilə də Osmanlının Anadoluda apardığı siyasət böyük narazılıqlara səbəb olduğundan adına *cəlalilər* deyilən xalq üsyanları ortaya çıxdı. Bu üsyanlar Sultan *I Əhməd* dövründə *(1603-1617)* pik nöqtəsinə yüksəldi. Xüsusilə də Tavlı Əhməd, Canpoladoğlu, Qələndəroğlu və Həsən başçılığında təşkilatlanan cəlali dəstələri Anadoluda böyük iğtişaşlara səbəb oldular. Cəlali üsyanlarının qarşısını almaq məqsədilə sədrəzəm *Quyucu Murad Paşa (1522-1611)* Anadoluya genişmiqyaslı hərbi səfər təşkil edərək çox sayda üsyançını qətl etmiş, hətta quyulara doldurmuşdu.

Sultan I Əhmədin vaxtında osmanlılar Avropada da düşmənlərinə qarşı güzəştlərə getmək məcburiyyətində qaldılar. Xüsusilə də 1606-cı ildə imzalanan Zitvatorok müqaviləsi ilə Avstriya krallığı hər il Osmanlıya ödədiyi 30 min qızıl məbləğində xəracdan azad oldu. Burada Anadoludakı üsyanların və Osmanlının hərbi gücünün zəifləməsinin də təsiri böyükdür. I Əhmədin ölümü Osmanlıda dərin böhranlara səbəb oldu. Ölkədə baş verən çevrilişlər, yeniçəri hərbi birliklərinin azğınlaşması, xüsusilə də Osmanlı siyasi idarəsində I Əhmədin arvadı *Kösəm Sultanın (1590-1651)* söz sahibi olması intriqaları, iğtişaşları və



hakimiyyət uğrunda mübarizəni daha da qızışdırdı. Bu prosesdə *II Osman (1618-1622)* edam edildi və Osmanlı taxtına *Dəli Mustafa* adlı biri çıxarıldı. 1623-cü ildə hakimiyyətə gələn *IV Murad (1623-1640)* dövründə Osmanlı öz gücünü nisbətən toplasa da, bu tarixdən sonra artıq Osmanlı sultanları hərbi səfərlərə çıxmamağa başladılar. Muradın gördüyü tədbirlər və təşkil etdiyi səfərlər qalıcı təsir bağışlamadı. Xüsusilə də Osmanlı maliyyəsi ildən-ilə zəifləməyə, dövlət gəlirləri azalmağa, dövlətin ehtiyacları isə, əksinə, artmağa başladı. *IV Mehmed*in *(1648-1687)* qırx ilə yaxın hakimiyyəti dövründə Osmanlı bürokratiyasındakı çürümə, rüşvətxorluq və əyalət idarəçiliyindəki özbaşınalıqlar artmağa başladı. 1699-cu ildə Müqəddəs Roma-Alman imperiyası və Müqəddəs İttifaqı təşkil edən Avstriya, Venesiya, Reç Pospolita ilə imzalanan Karlovitsa müqaviləsi Avropanın nəzərində Osmanlının da tənəzzül etdiyinə işarə idi. Karlovitsa Rusiyanın da siyasi səhnəyə çıxması üçün vasitə oldu.

XVIII əsrin əvvəllərində Osmanlı daxilində vəziyyətdən çıxış üçün çarələr axtarılmağa başlandı. *III Əhməd*in hakimiyyəti dövründə (1703-1730) aparılan müharibələrin xalq üzərindəki ağırlığını və yaratdığı fəlakətləri qavrayan Bab-ı Ali hökuməti sükunəti təmin edib, xalqın əhval ruhiyyəsini yüksəltmək üçün adına *Lalə dövrü* deyilən yüngül və meşşan həyatını təbliğ etməyə başladı. Bu məqsədlə paytaxt İstanbul küçələri lalələrlə bəzədildi və lalə bağçaları salındı. Bu dövr Osmanlı tarixində "zövq və səfa" dövrü hesab edilir. Xüsusilə də sədrəzəm *Nevşəhərli Damad İbrahim Paşa (1666-1730)* dövründə dövlət siyasəti halına gətirilən *lalə* bir fəlakətlə nəticələndi. 1730-cu ildə *Patrona Xəlil (1690-1730)* tərəfindən başladılan üsyan sədrəzəm Nevşəhərli Damad İbrahimin edam edilməsi və sultan III Əhmədin taxtdan salınıb, yerinə *I Mahmud*un *(1730-1754)* çıxarılması ilə nəticələndi. Hakimiyyəti şeyxülislam *Feyzullah Əfəndi*nin *(1639-1703)* təsiri altında keçən I Mahmud

heç bir hərbi səfərdə yer almadığı halda "Qazi" ləqəbi alan sultan olmuşdur. Onun zamanında osmanlılarla səfəvilər təkrar savaşlara başlamış (1730-1732, 1735-1736), ancaq bu müharibələrdə *Nadir şah Əfşar (1736-1747)* Osmanlı ordusunu ağır məğlubiyyətə uğratmışdır. Bütövlükdə, bu dövr ərzində Osmanlı dövlətinin əldə etdiyi ən mühüm hərbi uğur 1711-ci ildə Prut səfəri ilə Rusiya çarı *I Pyotr*un *(1682-1725)* mühasirəyə alınıb, rusların Qaradəniz və Azovdan çıxarılması ilə nəticələn sülh müqaviləsi idi. Lakin bu sülh osmanlıları razı salmamış və sədrəzəm *Baltaçı Mehmed Paşa*nın *(1662-1712)* 1712-ci ildə edam olunmasına yol açmışdır.

Osmanlı dövləti türk tarixinin ən uzunömürlü dövləti olmaqla yanaşı, mövcud olduğu *1299-1923-cü illər* ərzində tək tip siyasi mexanizm və hərbi-sosial formaya sahib olmamışdır. Bu mənada, tarixçilər Osmanlı dövlətini quruluş, inkişaf, tənəzzül və müasirləşmə dövrləri olaraq dörd dövrə ayırırlar. Ancaq bütün bu dövrlərdə dəyişməyən hakim anlayış Osmanlı xanədanının dövlət üzərindəki yeri və Osmanlı padşahlarının müqəddəsliyidir. 1876-cı ildə qəbul edilən ilk Osmanlı konstitusiyasında belə Osmanlı padşahları üçün "zati-həzrəti-şahanə müqəddəs və qeyri-məsuldur" ifadəsi işlədilmişdir. Padşahlıq idarə sistemində başında sədrəzəmlərin dayandığı *divani-humayun* mühüm rol oynayırdı. Padşah mütləq səlahiyyət sahibi olmadığı üçün dövlət idarəçiliyində hökumət prinsipləri (*bab-i ali*) hökm sürürdü. Sədrəzəm və vəzirlərə idari, hərbi və maliyyədə tanınan yüksək səlahiyyətlər səbəbindən Osmanlı dövləti bir az Abbasi Xilafətini xatırladırdı.

Osmanlı dövləti bir xilafət dövləti idi. Xilafət hüququnu osmanlılar 1517-ci ildə Mərcidabık döyüşündən sonra Məmlük ərazisinin tamamını ələ keçirmələri və xəlifəliyi İstanbula nəql etmələrindən sonra əldə etmişdilər. Ancaq Osmanlı sultanlarının xəlifəlik statusunu hər hansı bir rəsmi mərasimlə əldə etdiklərinə dair indiyə qədər heç bir





*Topqapı sarayının günümüzdə görüntüsü*

sənəd və məlumata rast gəlinməmişdir. Buna baxmayaraq, Osmanlının son yüzilliyində İstanbul xilafət mərkəzi hesab edilmiş və son dövr Osmanlı padşahları da xəlifə sayılmışdılar.

Osmanlı hakimiyyət anlayışı şəriət adı verilən İslam hüququna və örf deyilən türk törə nizamına söykənirdi. Osmanlı sultanları 4 əsr Topqapı sarayında oturmuşdular. Topqapı sarayı Birun, Əndərun və Hərəm olmaqla üç hissədən ibarət idi. Xristian ailələrindən alınıb adına *devşirmə* deyilən uşaqlara türk-müsəlman həyat tərzi öyrədildikdən sonra Qalata sarayı, İbrahim Paşa sarayı, Ədirnə sarayı və İsgəndər Çələbi sarayı kimi əcəm ocaqları, saray və qışlalarında yüksək səviyyədə təhsil verilərək, orduya və bürokratik sistemə cəlb edilirdilər. Əndərundakı təhsil həyatı kiçik və böyük odalar (otaqlar), Doğancı koğuşu, Səfərli koğuşu, Kilər odası, Xəzinə odası və Xas oda olmaqla yeddi mərhələli idi. Burada təhsillərini başa vura bilməyənlər, seçilib orduya cəlb edilirdilər. Köklü bir çalışma sistemi, təhsil disiplininə görə qurulmuş bu nizam Osmanlı dövlətinin bel sütununu təşkil edirdi.

Osmanlı mərkəzi təşkilatı hökumət sistemi hesab olunurdu. Mərkəzi təşkilatın başında *divani-humayun* dayanırdı. Divani-humayunun başında baş vəzir hesab olunan *sədrəzəm* dayanır, tərkibini vəzirlər, qazı-əsgərlər,

dəftərdarlar və nişançılar təşkil edirdi. Osmanlı dövləti bir məmuriyyət dövləti idi. Dövlət özünün ehtiyac hiss etdiyi mütəxəssisləri təhsil yolu ilə yetişdirir və ehtiyac hiss etdiyi dövlət dairələrinə yerləşdirirdi. Bu baxımdan Osmanlı dövləti köklü bir arxiv sisteminə sahib olmuşdur. Dövlətin hər sahəsində baş verənlər sistemli olaraq yazıya alınıb, müntəzəm olaraq mərkəzi hökumətə təqdim olunmuşdur. XVI əsrdə Osmanlıda ixtisaslı insan bolluğu yaşandığından, yüksək təhsilli insanlar işsizlik problemi yaşayırdılar.

Osmanlı dövləti özünün güclü qaydaları, dövlət ərkanı, üsulları (protokol qaydaları), davranış və ədəb tərzi olan bir nizam-intizama sahibdi. Qanunnamələrdə divan üzvlərinin oturma tərzinə, məhkəmələrdə hakim və şikayətçilərin duruşuna qədər hər cür davranış qaydası müəyyənləşdirilmişdi. Mərkəzi təşkilatda sədrəzəm, əsasən ölkənin idarəsi və timar məsələləri ilə məşğul olur, qazı-əsgər adlanan idarəçilər dini-şəri məsələlərə, dəftərdarlar isə maliyyə məsələlərinə baxırdılar. Bundan başqa, Osmanlıda bəylərbəylik sistemi yerli idari mexanizmə nəzarət edirdi. Osmanlı vəzirləri, əsasən elm adamlarından seçilirdi. XVII əsrin ikinci yarısına aid Osmanlı Təvkii qanunnaməsində baş vəzirin dövlət işləri qədər dini işlərə də nəzarət etdiyi qeyd edilir. Ancaq Osmanlı dövlətində təməl dini məsələlər şeyxülislamların nəzarətində idi. Osmanlıda zəif xarakterli şeyxülislamlar olduğu kimi, Feyzullah Əfəndi kimi dövlətdə mütləq söz sahibi olacaq gücə və qüdrətə sahib şeyxülislamlar da olmuşdur. Əslən Qarabağdan olan Şeyxülislam Feyzullah əfəndi güclü bəlağəti və təsiri ilə şahzadə Mustafanın xocası olmuş və onun sultan olması ilə bütün idarəni öz nəzarətinə keçirmişdir. Bu, Osmanlı dövlətində bəzi narazılıqlara səbəb olmuş və nəticədə 1703-cü ildə Şeyxülislam Feyzullah Əfəndinin öldürülməsinə səbəb olmuşdur.

Osmanlı yerli idarəçiliyi *taşra* adlanırdı. Osmanlı taşrası, əsasən Anadolu, Rumeli, Ərəbistan və Şimali Afrikadakı



ərazilərdən ibarət idi. Taşra nəzarət sistemində ən böyük ərazi əyalət, ondan sonra inzibati idarəçilikdə *sancaqlar*, *qəzalar*, *nahiyələr* yer alırdı. 1393-cü ildən etibarən Anadoluda, əsasən mərkəzi şəhərlərdə olmaqla qurulan əyalət sistemi Fateh Sultan Mehmeddən etibarən sürətlənmiş, Qanuni Sultan Süleymanın hakimiyyətinin əvvəllərində 5 olan əyalət sayı, onun vəfatı zamanı 16-ya çatmışdı. XVI əsrin axırlarında isə 32 əyalət mövcud idi. Hər əyalət sancaqlardan ibarət idi. Bəylərbəyilərin oturduqları sancaqlar *paşa sancağı*, şahzadələrin oturduğu sancaqlar isə şahzadə sancağı alanırdı.

Osmanlı Rumeli və Anadolunu timarlı əyalətlər olaraq təşkilatlandırmışdı. Ərəbistan və Şimali Afrika torpaqları isə *salyanəli* olaraq təşkilatlanmış, Krım xanlıq, müqəddəs şəhərlər Məkkə və Mədinənin olduğu yerlər Hərəmeyn şərifliyi, Əflak və Boğdan voyvodalıq, bəzi kürd əşirətləri isə hakimlik nizamına görə əyalət idarə haqqına sahib idilər.

XVI əsrdə Osmanlı əhalisi, xüsusilə də Anadoluda yaşayanların sayı sürətlə artmışdır. Əhalinin çoxluğu iş və güzəran təminatını çətinləşdirdiyindən, Anadoluda bir çox sosial problemlərin yaranmasına yol açmışdı. Bu dövrdə çox sayda gənc təhsil almağa çalışmış və bu dəfə də təhsilli işsizlər ortaya çıxmışdır. Bu, bəzi təhsilli gənclərin təşkilatlanmasına, hətta *softa* adı ilə quldur dəstələri yaratmasına səbəb olmuşdur.

Osmanlı öz dövrünün ən güclü hərbi təşkilat sisteminə malik dövlət idi. Osmanlılarda ilk nizami hərbi dəstələr hələ Orxan dövründən etibarən yaradılmağa başlanıldı. Piyada və müsəlləm (atlı) olaraq iki qrupda toplanan ordu min nəfərlik dəstələrə ayrılırdı. Sonrakı dövrdə Osmanlı müharibələrdə əsir düşənləri hərbi məqsədlərlə istifadə etməyə başladı. I Murad dövründə adına *pəncik qanunu* deyilən bir fərman çıxarıldı. Bu qanuna görə, müharibə əsirləri beşdə bir vergi müqabilində yeniçəri olmaq haqqı əldə etdilər. Bunun üçün əsirlər əvvəlcə Anadolu ailələrinin



*Yeniçərilər. Yağlı boya ilə çəkil-miş rəsm. Rəssam: Lambert Vits. Avstriya Milli Kitabxanası*



*Yeniçəri ağası. Rəssam Jan Baptist Vanmour. Reyksmuzeum sənət muzeyi. Amsterdam*

xidmətinə verilir, burada türk dili və İslam əxlaqı örədilir, daha sonra orduya cəlb edilirdilər. Ancaq Osmanlı fəthlərinin genişləməsi və idarə edilən xristian ərazilərinin çoxluğu səbəbindən bu dəfə dövlət az yaşlı xristian uşaqları öz nəzarətinə götürüb, onlara təhsil verərək yeniçəri etməyə başladı.

Onlar adına əcəm ocağı deyilən yerlərdə yetişdirilirdir. Daha sonra *qapıqulu, qul qardaşı, ağa çırağı* adı ilə fərqli kimliklərdən insanların da ocağa cəlb edilməsi səbəbindən ocaq nizamı pozulmağa başladı. Qapıqulu ocağının ən böyüyü və etibarlısı yeniçəri ocağı idi. Yeniçərilər türk ruhunda yetişdirilirdilər və onlar Bektaşi təriqətinə bağlı idilər. Yeniçərilər piyada, sekban və ağa bölüyü olaraq ayrılırdı. II Bəyazid dövründə yeniçəri ocağı artıq 196 bölüyə ayrılırdı. Ocağın başında yeniçəri ağası dayanırdı. Ondan aşağıda sekbanbaşı (mühafizəçibaşı), qul kəndxudası (kahyalar), zağarcıbaşı (ov mərasimlərini təşkil edənlər),





*Şahi. İstanbulun fəthində istifadə olunmuş top. Fort Nelson, Hempşir*



*Osmanlı tüfəngləri. Topqapı sarayı*

saksonçubaşı (ov üçün it yetişdirənlər), durnaçıbaşı (ovçu quşları yetişdirənlər), hasəki ağalar (padşahın dəniz səfərini təşkil edənlər) və baş çavuşlar yer alırdı.

Osmanlı hərbi gücünü odlu silahlar təşkil edirdi. Fateh Sultan Mehmed dövründə Topçu ocağı təşkil edilmişdi. Osmanlı topları öz dövrünün ən məşhur topları idi. İstanbulun alınmasında tökülən Şahi topu gurultusu ilə bütün şəhəri lərzəyə gətirmişdi. Toplar İstanbulun Topxana bölgəsində yerləşən emalatxanalarda tökülürdü.

Ancaq əsgər sayı baxımından Osmanlının ən böyük gücünü *timarlı sipahilər* təşkil edirdilər. Onlar əyalət əsgərləri idi. *Torpaqlı süvarilər* də adlanan bu əsgərlərin əsas



*Osmanlı donanması İnebahtı döyüşündə. Yağlı boya rəsmi. Milli Dəniz Muzeyi. Qrinviç, London.*

xüsusiyyəti müharibə olmadığı zamanlarda əkinçiliklə məşğul olmalarıdır. XVIII əsrdə alınan hərbi məğlubiyyətlərlə Osmanlı ordusunda modernizm fikirləri ortaya atılmış, ancaq bu proses 1828-ci ildə Yeniçəri ocağının ləğvinə qədər tam gerçəkləşməmişdir.

Osmanlı hərbi gücündə donanma xüsusi rol oynayırdı. Osmanlı ən böyük hərbi dəniz gücünə sahib türk dövləti olmuşdur. Osmanlıda hərbi dəniz qüvvələri XIV əsrin əvvəllərində təşkilatlanmağa başlamış, XVI əsrdə inkişafının zirvəsinə çıxmışdır. Bu məqsədlə osmanlılar Ədincik, Gəmilik, Qaramürsəl və İzmitdə gəmiqayırma emalatxanaları təsis etdirmiş və Osmanlı donanmasını hazırlamağa başlamışdır. Osmanlı *bəriyyə*si (dənizçiləri) Aralıq dənizi, Qırmızı dəniz və Hind okeanında hərəkət edirdilər. Aralıq dənizindəki piratların cəlb edilməsi ilə Osmanlı Aralıq dənizində bir müddət hakim güc olmuşdur.

Osmanlı dövləti türk dövlətləri içində ən güclü ədalət və hüquq sisteminə sahib dövlətlərdən hesab olunur. Şübhəsiz, bütün dövrlərdə olduğu kimi Osmanlı hüquq nizamında da problemlər və ədalətsizliklər olsa da, sistem olaraq Osmanlı hüquqi təməllər üzərində qurulmuşdur.



Osmanlı Xilafət dövründə təkmilləşmiş islami fiqh anlayışı ilə türk dövlətlərinin törə hüququnu sintez edərək dövlətçi bir hüquqi nizam yaratmışdı. İslam hüququna şəriət hüququ deyilmiş, Osmanlı fiqhçiləri, əsasən şərhçi (təfsirçi) səviyyəsindən irəli getməmişdilər. İslam hüququnda osmanlılar, əsasən dörd sünni məzhəbin (hənəfi, şafi, hənbəli və maliki) fiqhi əsaslarına bağlı idilər. Padşah qanunları ilə formalaşan hüquq isə örf adlanırdı. Zamanla örfi hüquq ilə şəri hüquq o qədər içi-içə keçdi ki, Osmanlı hüquq sistemi zənginləşdi. Padşah qanunları siyasi deyil, ailə daxil, bütün sosial-iqtisadi həyatla da yaxından əlaqədar idi. Bu baxımdan Osmanlıda örfi cəzalar, *miri ərazilər* (ərazi hüququ), *təkalifi-örfiyyə* (maliyyə hüququ) örfi təməllər üzərində formalaşmışdır.

Osmanlı dövləti hüquqi sistemdə əvvəllər daha yumşaq ikən, Səfəvi dövlətinin ortaya çıxmasından sonra qatılaşan sünni hüquq nizamını mənimsədilər. Osmanlı sözlü və yazılı olaraq məhkəmə işlərinin qeydə alındığı bir ədliyyə nizamına sahibdi. Məhkəmədə qərarları qazılar verirdilər. Ancaq Osmanlıda məhkəmə işləri o qədər asan deyildi. 15 ilədək uzanan məhkəmə prosesləri də mövcud idi. Belə məhkəmə işləri, əsasən, ailə, ərazi, mülkiyyət məsələləri idi.

Osmanlı dövlətinin əsas maliyyə gəlirləri mərkəz maliyyəsi, dirliklər, vəqflər tərəfindən tənzimlənirdi. Mərkəz maliyyəsinə xəzinə və ya *xəzineyi-amirə* nəzarət edirdi. Dövlət əldə edilən gəlirlərin 51 faizini mərkəzi xəzinəyə, 37 faizini dirliklərə və 12 faizini isə vəqf və əmlaka görə bölüşdürürdü. Osmanlı xəzinəsinin XVII əsrdən etibarən maliyyə gəlirləri azalmağa başlamışdır. XVI əsrdə dövlət gəlirləri 72% təmin edildiyi halda, XVII əsrdə bu nisbət 33%-ə qədər düşmüşdü.

Osmanlı vergiləri müsəlman və qeyri-müsəlmanlara görə fərqlənirdi. Sayı müəyyən olunan vergilər kateqoriyasına zəkat, zəkati-səvaim (heyvanlardan alınan zəkat),





*Orxan Qazi dönəmində kəsilmiş pul və Osmanlı dövlətinə aid banknot (1852)*

özür (məhsuldan), rikaz (qiymətli metal və dəfinədən), zəkati-aşir (gömrük vergisi), cizyə və xərac (müsəlman olmayanlardan) daxil idi. Bundan başqa, Osmanlı əhalisindən fərqli xidmətlər və məsləklərə görə *ağnam* (kiçik başlı heyvanlara görə alınan vergi), avariz (bədən vergisi, fövqəladə vəziyyətlərdə toplanırdı), ayni (pul şəklində toplanmayan vergi), bac (mal vergisi), bennak (torpaq sahibi kişilərin övladlarını evləndirdikləri zaman verdikləri vergi), ənzali (hərbi səfərlərdə əsgərin qalacaq yerini təmin etmək üçün alınan vergi), ispənç (əkinçi xristianlardan), peşkəş (hədiyyə), salyanə (Osmanlının Ərəbistan və Şimali Afrikadan topladığı illik vergi), təhrir (qeydə alma) vergiləri də toplanırdı.

Osmanlı iqtisadiyyatı əsasən üç prinsip əsasında təşkilatlandırılmışdı:

- *provizyonizm*: ehtiyaca görə qurulmuş iqtisadi fəaliyyət olub, məqsədi ölkə daxilində mal və xidmətin bol, keyfiyyətli və ucuz olmasına çalışılırdı;
- *fiskalizm*: xəzinəyə aid qazancları mümkün qədər yüksək səviyyəyə çıxarmaq;
- *ənənəvi*: iqtisadiyyatda sabitliyin təmin edilməsi üçün dəyişməyə qarşı olan baxış.



Dövlətin istehsalat faktorları olaraq torpaq, əmək, sərmayə üzərində tam nəzarətinin olduğu Osmanlıda qiymətlər, icarə, faiz, pul və mənfəət birbaşa hökumət tərəfindən tənzimlənirdi. Osmanlı dövləti formalaşdırdığı iqtisadi sistemə əsasən, daxili bazarda malın bol olmasını təmin etmək üçün xarici ölkələrin tacirlərinə imtiyazlar verirdi. Kapitulyasiya adlanan bu sistem Osmanlı iqtisadi nəzarət sisteminin zəiflədiyi dövrlərdə dövlət üçün problemə çevrilmişdi.

Osmanlı cəmiyyəti ərkani-ərbaa deyilən sinif mənsubiyyətinə görə şəkillənmişdir. Əsgər, üləma, əsnaf (tacir) və rəiyyət üzərində qurulan bu sinfi cəmiyyət, əsasən dörd təbiət ünsürü (od, su, hava, torpaq) təməlində formalaşdırılmışdır. Buna baxmayaraq, Osmanlı cəmiyyəti fikri, milli, dini, məzhəbi, əxlaqi baxımdan son dərəcə rəngarəng və fərqli idi. Məzhəb, təriqət mənsublarının öz həyat anlayışları olduğu kimi, qeyri-müsəlmanların da özlərinə məxsus sosial-ictimai münasibətlər sistemi mövcud idi.

Osmanlı əhalisinin böyük hissəsi müsəlman idi. Ancaq quruluş dövründə Osmanlı dini həyatında sufi İslam düşüncəsi daha güclü ikən, XVI əsrdən etibarən mərkəzi hakimiyyətin də təsiri ilə məzhəbi islami anlayışlar daha təsirli olmağa başladılar. Osmanlının zəngin tarixi təsəvvüf kimliyi vardır. Quruluş dövrlərində İbni-Ərəbi, Sədrəddin Konevi, Fəxrəddin İraqi, Müəyyədiddin Cəndi, Cəlaləddin Rumi, Əvhədəddin Kirmani, Nəcməddin Dayə, Hacı Bektaş Vəli, Yunus Əmrə kimi sufilərin təsirli olduğu Anadoluda bektaşilik, mövləvilik, bayramilik, rifailik, zeynilik, xəlvətilik, nəqşibəndilik, kadirilik, sadiyyə, bədəviyyə, qarkınilik, heydərilik, qızılbaşlıq (ələvilik) kimi güclü təriqətlər mövcud idi.

Təsəvvüfi mənada olduğu qədər elmi və mədəni baxımdan da Osmanlıda zəngin bir kulturoloji fəaliyyət vardı. Osmanlılar zəngin Anadolu Səlcuqlu mirası üzərində ortaya çıxdığından, moğol istilası ilə bu mədəni münasibətlər

tərzi daha da dərinləşdi. Belə ki, moğol istilasından qaçan minlərlə din, elm, fikir adamı da osmanlıların yaşadıqları torpaqlara gəlib yerləşdilər. Bu mənada Osmanlı özündən əvvəlki Səlcuqlu-Atabəylər dövrünün bütün qaymağını toplamış oldu. Buraya Elxanlı və Ağqoyunlu dövrünün elm və sənət adamlarının köçü də əlavə olununca, Osmanlı mədəni münasibətlər baxımından dolu və keşməkeşli bir tarix yaşamışdır.

Osmanlı dövründə astronomik fəaliyyətlər Marağa, Təbriz və Sultaniyyə rəsədxanalarının kölgəsində və davamında inkişaf etməyə başladı. Molla Fənarinin tələbələrindən olan Qadızadə Rumi Səmərqənddə riyaziyyat-astronomiya sahəsində yetişmiş böyük alimlərdən olduğu halda, Osmanlıya gələrək fəaliyyətini burada davam etdirməyə başladı. Onun ətrafında qısa vaxtda Fətullah Şirvani, Əli Quşçu və Bircerdi kimi alimlər və tələbələr toplandılar. Onlara daha sonra Səfəvi dövlətindən qaçan Müslihəddin Lari də qoşuldu. Buraya Osmanlının Misiri ələ keçirdikdən sonra Məmlük ölkəsi alimlərinin də köçü əlavə olununca, Ədirnə, Bursa, İstanbulda böyük bir alimlər heyəti formalaşmağa başladı.

Tədqiqatçılar Osmanlıda elmi fəaliyyətləri üç dövrə ayırırlar:

1. Münəccimbaşı Dədə Əfəndinin 1702-ci ildə vəfatına qədər olan dövr;
2. 1702-ci ildən təhsil qurumlarının qurulduğu 1773-cü ilə qədər olan böhran illəri;
3. 1773-cü ildən 1923-cü ilə qədər klassik elmi əsasların tərk edilməyə başlandığı müasirləşmə dövrü.

İlk dövrlərdə Osmanlıdakı elmi araşdırmalar, əsasən klassik islami araşdırmaların nəzəri baxışına uyğun aparılmışdır. Bu dövrdə metafizika, fəlsəfə və məntiq sahəsində ərsəyə gətirilən əsərlər böyük nisbətdə əvvəlki dövrlərin alimlərinin əsərlərinə yazılan şərhlərdən ibarət olmuşdur. Burada *meşşailik* fikri ilə *işraki* baxış və təsəvvüf anlayışları daha çox təsirli olmuşdur. Bu baxış, əsasən Allah-aləm-insan prizmasında varlıq və həqiqət məsələlərini təhlil edərkən, XVI əsrdən etibarən hakim dini-siyasi mövqeyə bağlı olaraq Osmanlı fəlsəfi düşüncəsində sərbəstlik azalmışdır. Bunu Səlcuqlu dövrünün fəlsəfi mübahisələrinin davamı olaraq Seyid Şərif əl-Cürcaninin qələmə aldığı "Şərhil-məvakif fil elm əl-kəlam" əsərinin məzmunundan da anlamaq mümkündür.

Riyaziyyat sahəsində Davudi Kayserinin "İthaf üs-Süleymani fi əhdil-Orxani" əsəri, Aydınlı Hacı Paşanın çalışmaları, Əli ibn Hibətullahın "Xülasətül-minhac fi ilmil-hisab" əlyazması bu dövrün mühüm əsərləri idi. 1480-1600-cü illər arasında Matrakçı Nasuh, Əli ibn Vəli ibn Həmzə əl-Cəzairi əl-Məğribi, Əğinli Numan Əfəndi, Hüseyn Rıfkı Tamani, Quyucaqlızadə Mehmed Atıf Əfəndi və Əhməd Tövhid Əfəndi yetişmiş mühüm riyaziyyat alimləri idilər. Astronomiya sahəsində Əhməd Dai *(1421-ci ildə vəfat edib)*, Əbdülvacid ibn Məhəmməd *(1435-ci ildə vəfat edib)*, Əli Quşçu, Fəxrizadə əl-Mevsilinin adlarını qeyd etmək lazımdır. Əxlaqi elmlərdə Osmanlı alimləri, əsasən, Nəsrəddin Tusi ilə Fəxrəddin ər-Razinin izindən hərəkət etmişdilər.

Osmanlı ədəbiyyatı klassik üslubunu qorumuş, ancaq bu dövrün şair və ədibləri, əsasən türk dilində əsərlər qələmə alıblar. Osmanlı dövründə yetişən şair və ədiblərin sayı-hesabı yoxdur. Ən mühümləri Bakı *(1526-1600)*, Xəyali *(1500-1557)*, Nədim *(1680-1730)*, Nəfi *(1572-1635)*, Nərgizi *(1592-1635)*, Nəşati *(1623-1674)*, Seyyid Vəhbi *(1674-1736)*, Sünbülzadə Vəhbi *(1718-1809)*, Şeyx Qalib *(1757-1799)*, Zəkəriyazadə Yəhya *(1553-1644)* türkcə ərsəyə gətirdikləri divanları ilə məşhurdurlar. Bundan başqa, Osmanlı dövründə Ani Xatun *(1710-cü ildə vəfat edib)*, Hubbi (1590-cı ildə vəfat edib), Məkbulə (1850-1898), Umixanə (1794-1870), Zübeydə Qıtnat (1725-1780) kimi qadın şairlər də yetişmişdir.

Osmanlı dövrünün şah əsərləri memarlıq abidələridir. Osmanlı memarlığı, əsasən altı dövrə bölünür:



*Memar Sinan.*
*Rəssam Hazan Rza*



*Səlimiyyə məscidi.*
*Ədirnə*

- İlk dövr memarlıq əsərləri də adlandırılan Bursa memarlıq mərkəbi (1299-1501);
- Klassik dövr memarlığı (1501-1703);
- Lalə dövrü memarlığı (1703-1757);
- Barokko memarlığı (1757-1808);
- Ampir üslubu memarlığı (1808-1876);
- Tənzimat dövrü memarlığı (1876-1922).

İlk dövr memarlıq abidələri arasında İznik, Bursa, Ədirnə şəhərlərində yerləşən Osmanlı dini və saray əsərləri yer alır. Bursa memarlıq məktəbi də adlandırılan bu dövrün Osmanlı memarlığı, əsasən, Səlcuqlu və Bizans memarlığının təsirində formalaşmışdır. Hacı Özbək məscidi, Çinili köşk və Topqapı sarayı dövrün ən mühüm memarlıq nümunələridir.

İkinci dövr memarlıq əsərləri arasında Sultan Əhməd came, Bəyazid came, Üç ərəfəli came, Səlimiyyə came, Yeni came, Şahzadə came və Banyabaşı came üslubu, incəlikləri və görkəmi ilə xüsusilə seçilirlər.





*Süleymaniyyə məscidi. İstanbul*

Osmanlı memarlığından bəhs edərkən Memar Sinanı xüsusilə vurğulamaq lazımdır. 1488-1588-ci illər arasında yaşadığı qeyd edilən bu memarlıq dühasının yüzlərlə əsərə imza atdığı bildirilir. Onun əsas əsərləri arasında Səlimiyyə, Süleymaniyyə, Mihriman sultan, Şahzadə, Haseki Xürrəm cameləri, Mağlova kəməri, Sokullu Mehmed Paşa körpüsü memarlıq inciləridir. Mənbələr içində kitabxana, imarət, məscid, şəfaxana, hamam, karvansarayların yer aldığı 31 külliyyənin onun rəhbərliyində ərsəyə gəldiyini xəbər verirlər. Bu külliyyələr arasında Çoban Mustafa Paşa *(1523-cü il)*, Haseki Xürrəm Sultan *(1538-ci il)*, dörd ədəd Sokullu Mehmed Paşa *(1568, 1570, 1571, 1577-ci illərdə)*, Atık Validə Nurbanu Sultan *(1579)* külliyələri xüsusi əhəmiyyətə sahibdir.

Osmanlı memarlığı, əsasən, böyük, xarici görünüşü cəlbedici, daxili görünüşü isə sadə olması baxımından yaddaqalandır.



# 10.5. BABURLAR

Babur dövləti sahib olduğu torpaqların genişliyi və idarəçiliyi altında yer alan əhalinin sayı etibarilə, ancaq Çindəki Minq imperiyası ilə müqayisə oluna biləcək bir dövlətdir. Babur dövləti Osmanlı və Qızılbaş dövlətlərini həm mədəni münasibətlərin zənginliyi, həm insan kimliklərinin müxtəlifliyi, həm də tolerantlığına görə geridə buraxırdı. Hindistanda əsrlər boyu hakimiyyətlərini davam etdirərək bölgənin siyasi-hərbi və mədəni tarixində, ictimai-dini həyatında dərin izlər buraxan Babur xanədanının banisi *Məhəmməd Babur* Cığatay türkü idi. Bəzi Qərb müəllifləri baburları "moğol" adlandırsalar da, Babur şah türkcə yazdığı öz tərcümeyi-halı olan *"Baburnamə"*də özünü moğol deyil türk adlandırır.

Türklərdə dövlətə qurucu xanədanın adını vermək bir ənənə olduğu üçün bu dövlət də Babur şahın adı ilə Babur adlandırılmışdır. Soyu ata tərəfdən beş nəsil geridə Teymura, ana tərəfdən Çingiz xana uzanan Babur şah Fərqanə bölgəsini idarə edən Ömər Şeyx Mirzənin oğlu idi. Anası





*Babur şahın təsviri olan miniatürlər. "Baburnamə"dən*

isə türk əmir və şahzadələrindən olan Yunus Xanın qızı Tuğluq Nigar xanımdır. Atası 1494-cü ildə vəfat etdikdə Babur on bir yaşında taxta oturdu. Babur əsərlərilə Hindistanda türk dil və ədəbiyyatının inkişafına böyük töhfələr vermiş hökmdardır. Tanınmış elm və sənət adamlarını, alim və ədibləri sarayına toplayan Babur yaradıcı bir ruh və xarakterə sahib hökmdardır. Onun uyğur və ərəb hərflərini birləşdirərək hazırladığı *"xətti-Baburi"* adlanan xüsusi yazı tərzi ərsəyə gətirmişdir.

Babur şah bir müddət Teymurlu hakimiyyətini Özbək xanlarından qorumaq üçün Səmərqənd, Bədəxşan, Əndican uğrunda mübarizə aparmış, lakin bu müharibələrdən məğlub ayrılmışdır. Sonrakı mərhələdə mübarizə səhnəsini Kabil və Qəndahara çevirən Babur bu mübarizədə Səfəvi dövlətinin hərbi dəstəyini görmüşdür. Babur dövlətinin yaranma tarixi olan 1526-cı ildə Babur şah Panipat meydan müharibəsində Ludi ordusunu məğlub edərək həmin sultanlığın ərazisində öz hakimiyətini təsis etmişdir. Mənbələrin verdiyi məlumata görə, Babur bu müharibədə 12



*Babur dövlətinin bayrağı.*
*"Viktoriya və Albert" muzeyindəki bir miniatürə əsasən*

minlik ordusu ilə qarşı tərəfin 100 minlik ordusunu məğlubiyyətə uğratmışdır. Döyüşdə ölənlər arasında Dehli sultanı İbrahim Ludi də var idi. Babur bu qələbədən sonra Dehliyə girərək hakimiyyətini elan etdi və oğlu Hümayunu da Aqraya göndərdi.

Teymurlu hökmdarları daha çox *mirzə* titulunu işlətsələr də, Babur şah adını tərcih etdi. Bunda Səfəvilərin də təsiri vardı. Belə ki, Baburun Şah İsmayıldan təsirləndiyi məlumdur. Baburun Hindistanı tamamilə hakimiyyəti altına ala bilməsi üçün Əfqan əmirlərini və Çitor racası Rana Saqanın başçılıq etdiyi Racputları zərərsizləşdirməsi lazım idi. Oğlu Hümayunun *(1508-1556)* başçılıq etdiyi qüvvələr əfqanları məğlub edərək təsirsiz hala gətirdi, özü də 1527-ci ildə Kanya döyüşündə Racputları məhv etdi. Setqa, Ahcir, Racput, Güvalya racaları Baburun hərbi gücündən qorxub könüllü təslim oldular. 1530-cu ildə səhhətində problemlər yaranan Babur şah dövlət adamlarını saraya toplayaraq oğlu Hümayunun hökmdarlığını onlara qəbul etdirdi, özü də bir müddət sonra Aqrada vəfat etdi.






*Babur şah və Sultan Hümayunun türbələri*

Vəsiyyətinə görə, cənazəsi Kabilə aparılaraq orada torpağa verildi. O, Dehlini ələ keçirdikdən sonra şəhərin ən uca yerində ehtişamlı bir qəsr inşa etdirib Teymurun xatirəsinə adını Qəsri-Teymur qoydu. Babur şah Hindistanda siyasi birliyi təmin etməklə yanaşı, limanlar quraraq, ticarət yollarının təhlükəsizliyini təmin edərək, müəyyən islahatlar apararaq bölgənin iqtisadi və mədəni inkişafına nail oldu. Onun dövründə Osmanlı torpaqlarından bəzi hərbçi və sənətkarların Hindistana gətirilərək müəyyən vəzifələrə təyin edildiyi də məlumdur. Sadəcə Anadoludan deyil, Türküstandan da mühəndis və memarlar gətirərək Hindistanda məscid, saray, mədrəsələr inşa etdirib.

Hümayunun hakimiyyəti dövründə Babur dövləti bəzi sarsıntılar keçirdi. Baburun vəfatını fürsət bilən Mahmud Ludi qaçdığı Benqaldan təkrar hərəkətə keçib Cavnpuru zəbt etdi. Həmin vaxt Hümayun qardaşları ilə taxt uğrunda mübarizə aparırdı. Hümayun Cavnpuru ludilərdən geri almağa nail olsa da, Şir Xanla Çunar qalası uğrunda ağır bir döyüşə girməli oldu. Arxasından Bahadur şah təhlükəsi ortaya çıxdı. Baş verən mübarizələr və döyüşlərdə uğur əldə edə bilmədiyi üçün Hümayun Hindistanı tərk edib Səfəvi dövlətindən kömək istədi. Şah Təhmasib onu Qəzvində səmimiyyətlə qarşılayıb hərbi köməklə təmin etdi. Aldığı dəstəklə iki il içində Qəndəhar, Kabil və Bədəxşanı geri aldı. Bu dövrdə qardaşı Kamranla da mübarizə aparmaq məcburiyyətində qaldı. Pəncabı ələ keçirən

Kamran 1553-cü ildə zərərsizləşdirildi və gözləri kor edilərək Məkkəyə göndərildi. Nəhayət, İskəndər Surun ordusunu məğlub edərək Dehliyə daxil olan Hümayun 1555-ci ildə yenidən Babur taxtına oturdu. Sonra kitabxanasının pilləkənindən yıxılaraq öldü. Hümayun comərd və zövqlü bir hökmdar idi. Hikmət, riyaziyyat və astronomiya elminə maraq göstərir, sarayında alim və şairləri qonaq etməkdən zövq alırdı. Türk və fars dillərində şeirlər yazdığı da məlumdur. Bəzən kitabxanasının damına çıxar, səhərə qədər ulduzları izləyərdi. Məhz belə gecələrin birində kitabxanasının pilləkənlərindən yıxılaraq vəfat etdi. Ondan sonra Babur taxtının sahibi Əkbər şah *(1556-1605)* oldu. Hakimiyyətə gələndə *Cəlaləddin Əkbər şah* on dörd yaşında idi. O, həmin ildə əfqan problemini həll etdi. Daha sonra Benqal və Qucaratda Babur hakimiyyətini bərqarar etdi.

Əkbər şah hakimiyyətə gəldiyi ilk illərdən etibarən Hindistanın tamamını nəzarət altına almaq siyasəti izlədi. Malva, Qondvanada Qarxa-Ktanqa Qond Racalığı, Çitor, Kalincar, Qucarat, Bihar, Benqal, Kəşmir, Sind, Bəlucistan, Məkran və Qəndəharı idarəsi altına keçirdi. Səfəvi, Osmanlı və özbəklərlə yaxşı münasibətlər təsis etdi. 1595-1601-ci illər arasında qonşu dövlətlərə də gücünü qəbul etdirən Əkbər şah Hindistanın idarəçiliyini bir mərkəz ətrafında toplaya bilən ilk müsəlman hökmdar oldu.

Əkbar şahı məşhurlaşdıran Hindistanda həyata keçirdiyi torpaq islahatları idi. Bütün dinlərə tolerant yanaşan Əkbər şah hindli-müsəlman dini ixtilaflarına son vermək məqsədilə İslam, xristian, zərdüştilik, induizm və buddizmin bəşəri prinsiplər və əxlaq kodekslərini əsas götürərək ortaq bir din – "dini-İlahi" təsis etməyə cəhd göstərdi. Onu buna vadar edən ələ keçirdiyi Hindistanın dini və milli baxımdan müxtəlifliyi və ölkə daxilində yaşanan dərin inanc ixtilafları idi.

Əkbər şah torpaq və din sahəsindəki islahatları ilə kifayətlənməyərək, ordu sahəsində də islahatlara başladı.





*Əkbər şahın təsviri.*
*Metropolitan muzeyi*



*Cahangir şahın təsviri.*
*Rəssam: Əbül Həsən. London*

Ordusunun hər zaman döyüşə hazır olması üçün büdcədən maaş alan daimi bir ordu qurdu. O, dövlət məmuriyyəti və ordu rütbələrinə *mənsəbdarlıq* adlanan yeni bir sistem tətbiq etməyə başladı. Bu sistemə görə, Babur ölkəsində səlahiyyət sahibləri 33 rütbəyə bölündü, hər birinə ayrı miqdarlarda maaş təyin edildi. Hindu və ya müsəlman, hər kəs ləyaqət və hazırlıq səviyyəsinə görə, bu rütbə pilləsi ilə dövlət məmuriyyətində və orduda vəzifə almağa başladılar.

Əkbər şah hakimiyyətinin ilk illərində Osmanlı sultanı Qanuni Süleymana ünvanladığı məktubunda onu müsəlmanların xəlifəsi olaraq tanıdığını qeyd edir. Ancaq sonrakı illərdə Osmanlı dövlətinə qarşı münasibətini dəyişən Əkbər şah özünü "xəlifə" olaraq təqdim etmiş, Səfəvi dövləti və özbəklərlə anlaşaraq Osmanlı dövlətinə qarşı bir ittifaq formalaşdırmağa çalışmış, hətta portuqaliyalı dəniz quldurları ilə birlikdə Yəmənə hücum etməyi planlaşdırmışdı.

Cəlaləddin Əkbərin 1605-ci ildə vəfatından sonra Babur dövlətinin ən güclü hökmdarlarından biri olan oğlu Səlim *"Əbül-Müzəffər Nurəddin Məhəmməd Cahangir Qazi"* adı ilə taxta çıxdı. Oğlu Xosrov taxt uğrunda onunla mübarizə aparmaq niyyətinə düşsə də, həbs edilərək gözlərinə mil çəkdirildi. O, Səfəvi ölkəsindən Hindistana köç edən Ustaclı tayfasından Mirzə Qiyas bəyin qızı *Nur Cahan*la evləndi. Nur Cahan gözəlliyi qədər zəkası ilə də seçilən bir xanım olaraq Cahangiri öz təsiri altına aldı. Qardaşının qızı da daxil olmaqla, yaxınlığında yer alan xanımları Cahangirin oğlanları ilə evləndirərək dövlət idarəçiliyində kilid rol oynamağa başladı.

Cahangir şah 1612-ci ildə Benqaldakı əfqan üsyanını yatırdı. Dövlətə meydan oxuyan Məvar racasını da təsirsiz hala gətirib oğlu Hürrəmi bölgə valisi təyin etdi. Cahangir şahın səltənəti dövründə *(1605-1627)* Hindistan ticarətində portuqaliyalılar ön plana çıxmağa başladılar. İngiltərə və Hollandiya Hindistanla ticari münasibətlər təsis edib bölgədəki fəaliyyətlərini artırdılar. 1609-cu ildə türkcə bilən ingilis əsilli tacir Vilyam Houkins *(Sir William Hawkins; 1560-1613)* Qucarat limanında özü və ingilis tacirlər üçün yer almaq niyyəti ilə Cahangirlə görüşdü. Onunla çox səmimi münasibətlər quraraq bu imtiyazı əldə etdi. Lakin portuqaliyalıların təsiri ilə şah bir müddətdən sonra bu imtiyazı ləğv etdi. Ancaq ingilislər Hindistan ticarətindən istifadə etmək məqsədilə bölgəyə yeni elçilik heyətləri göndərməyə başladılar və Hindistan ticarətində pay sahibi oldular.

Cahangir şahın dövründə Əhmədnaqarı ələ keçirən Məlik Əmbərə qarşı hərbi əməliyyatlar apardı. Şahzadə Hürrəm şəhərini Məlik Əmbərin əsgərlərindən təmizlədi. Bu uğurlarına görə ona *"Şah Cahan"* adı verildi. 1622-ci ildə Osmanlı dövləti ilə sülh müqaviləsi imzalayan Səfəvi hökmdarı I Şah Abbas baburlara qarşı hərbi səfərə çıxaraq, Qəndəhara sahib oldu. Səfəvilərlə müharibəyə hazırlıq



məsələsinə görə Cahangirlə Şah Cahanın arası pozuldu. Şahzadə Məlik Əmbərlə birləşərək atasına qarşı üsyan etsə də, uğursuzluğa düçar oldu. Bir müddət Məhəbbət xanın əlində əsir olan Cahangir şah Kəşmirdən Lahora gedərkən 1627-ci ildə yolda öldü və Lahorda dəfn edildi. Cahangir şahın oğlu Şah Cahan (1628-1658) taxta çıxdı. Onun dövründə Babur dövləti hərbi və iqtisadi qüdrətini daha da artırdı. O, sufi təriqət və camaatlarına çox meyilli və şəriət huququna dərindən bağlı idi. Buna görə də əvvəllər görünməmiş şəkildə dini bayramları böyük mərasimlərlə qeyd etməyə başladı. Müsəlmanların Həcc ibadətlərini rahat həyata keçirə bilmələri üçün Həcc əmirliyini aktiv hala gətirdi. Hər il xərcləri dövlət tərəfindən qarşılanan gəmilər hazırlayaraq Qucaratdan Hicaza zəvvar aparılmasını təşkil etdi. Onun hakimiyyət illəri Babur memarlığı, sənət və ədəbiyyatı inkişafının zirvəsinə çatdı. Onun ən möhtəşəm əsərlərindən biri də bəşəriyyətin qorunmaqda olan mədəniyyət mirası siyahısında yer alan *Tac Mahal* türbəsidir. Bu əsəri həyat yoldaşı Ərcümənt Banu Bəyimin xatirəsinə onun ölümündən sonra, 1630-cü ildə Aqra şəhərində tikdirmişdir. Osmanlı memarlarından Mehmed İsa Əfəndinin planı ilə inşa edilən Tac Mahal 22 ildə tamamlanmışdır. Şah Cahanın əsl adının Səlim olmasına baxmayaraq, Yavuz Sultan Səlim ucbatından öz adından istifadə etməmişdir. Belə ki, "Tüzüki-Cihangiri" adlı



*Cahan şahın təsviri.*
*Rəssam: Biçitr.*
*Çester Bitti Kitabxanası, Dublin*



*Tac Mahal*

əsərində ulu babası Əmir Teymurun Osmanlı üzərindəki qələbəsini öyünərək anlatmış, Babur dövlətini osmanlılardan üstün hesab etmişdir. Dövrün türk hökmdarları arasında bu şəkildə bir-biriləri ilə rəqabət və üstünlük anlayışı mövcud idi. Şah Cahanın Osmanlıya qarşı mənfi baxışının arxasında Səfəvi dövləti ilə yaxşı münasibətlərinin də təsiri var idi. Ancaq bu münasibət Şah I Abbasın Babur dövlətinə qarşı hərbi səfərə çıxması ucbatından pozulunca, baburlar bu dəfə Səfəvi dövlətinə qarşı Osmanlı və özbəklərlə yaxşı münasibət qurmağa çalışdılar. Hətta bu məqsədlə Sultan IV Murada məktub göndərildi. Osmanlılarla münasibətlərin düzəlməsinin tək səbəbi Səfəvi deyildi. Belə ki, Şah Cahan üsyankar əmirlərindən Danyal oğlu Baysunqurun Osmanlı dövlətindən hərbi yardım istəməsinə qarşı öz mövqeyini qorumağa da çalışırdı. Ancaq Baysunqurun Osmanlı hökmdarı IV Muradın hüzuruna çıxarkən diplomatik nəzakət qaydalarına əməl etməyib, öz atalarını, soyunu mədh etməyə başlaması sultanı narahat etmişdi. Bu səbəbdən arzuladığı dəstəyi əldə edə bilməyən Baysunqur Hindistana qayıtmış və Şah Cahan tərəfindən öldürülmüşdür.

Tarixi mənbələrin verdiyi məlumatlara görə, Osmanlı ilə nizamlı diplomatik münasibətlər Şah Cahanın dövründə təsis edilmişdir. O, Qəndəharı Səfəvi dövlətindən geri



almaq məqsədilə bir növ "sünni ittifaqı" yaratmağa cəhd etmişdir. Osmanlı tarixçisi Mustafa Naima *(1655-1716)* bu məqsədlə elçi olaraq göndərilən Mir Zərif İsfahaninin Bağdad səfəri zamanı Sultan IV Murad tərəfindən Mosulda qarşılandığını, Şah Cahan tərəfindən göndərilən dəyərli hədiyyələrin sultana təqdim edildiyini qeyd edir. Sultana təqdim edilən məkubda baburların da Qəndəharı geri almağa hazırlaşdığı Osmanlı sultanına xatırladılmışdır. Babur hökmdarı öz məktubunda Dehqan bölgəsində qazandığı qələbələr haqqında məlumat vermiş, "sapqın inanclı" hesab etdiyi səfəviləri geri oturtmağın bütün müsəlman hökmdarların vəzifəsi olduğunu iddia etmişdir. Şah Cahan məktubunda Buxara əmirinin də səfəvilərlə savaşa hazır olduğunu qeyd edir. Məktubun sonunda Osmanlı sultanına sürətlə Səfəvi üzərinə hərəkətə keçmək təklif edilirdi.

Şah Cahandan sonra taxta Övrəngzib *(I Aləmgir; 1658-1707)* oturdu. O, yarım əsrlik səltənətinin ilk otuz ilində güclü bir ordu və məmur sinfi yetişdirmək üçün çalışdı. Dindar xarakterli biri olan Övrəngzib Əkbər şahın həyata keçirdiyi dinlərin sintezi siyasətinə son verdi. O, Babur dövlətini İslam dövləti və şəriət qaydalarının müdafiəçisinə çevirməyə çalışdı. 1669-cu ildə verdiyi bir fərmanla şəriətə zidd olduğu üçün Hind məbədlərinin sökülməsini əmr etdi. Onun hakimiyyəti dövründə məbədlərin əksəriyyəti dağıdıldı. İlk müsəlman xəlifələrini örnək alaraq, o, şəxsi məqsədlər üçün dövlət xəzinəsindən pul xərcləmədi. İnşaatı iki il davam edən Badşayi məscidini tikdirdi. Bu məscid dünyanın ən böyük məscidlərindən biri idi. Onun vəfatından sonra Babur dövləti də zəifləməyə başladı və tənəzzülün qarşısını almaq olmadı.

Nadir şah Əfşar Qəndəhar tələbi və Qılzayilərin itaət altına alınması məsələsində baburlarla yaşadığı gərginliyə son vermək məqsədilə 1738-ci ildə Hindistan səfərinə çıxdı. Bu səfərdə Kabil, Pəncab, Dehli bölgələri və Babur xəzinələri əfşarların əlinə keçdi. Ələ keçirilən əşyalar arasın-

da daha sonra Qacar hökmdarlarının oturduqları məşhur Təxti-Tovuz da yer alırdı. Nadir şahın zərbəsindən sonra baburlar bir daha ayağa qalxa bilmədilər və Hindistanı ələ keçirməyə çalışan avropalı müstəmləkəçilər üçün asan hədəf oldular. *1760-cı il*də taxta oturan Şah Aləm *(1760-1806)* ingilis himayəsini qəbul edən ilk Babur hökmdarı oldu. Babur dövlətinin son hökmdarı II Bahadur şah *(1837-1857)* isə 1857-ci ildə ingilislərə qarşı üsyan qaldırıb baburların yenidən Hindistandakı səlahiyyətlərini təmin etmək istəsə də, bu üsyan uğursuzluqla nəticələndi və minlərlə insan ingilislər tərəfindən qətl olundular.

Baburlarda hökmdardan sonra dövlət işlərində söz sahibi olan ikinci şəxs *vəkil əl-səltənə* və ya *vəkili-mütləq* adlanırdı. Sıralamada üçüncü yeri vəzir tuturdu. Səltənət vəkilinin olmadığı hallarda hökumət səlahiyyətləri vəzirdə toplanırdı. Türklərdəki *bəy* statusu baburlarda *mənsəbdar* tərəfindən icra olunurdu. Bütün məmurlar və saray adamları mənsəbdar statusunda sayılırdı. Onların da öz rütbələri vardı. Ən alt məqamdakı *dehbaş* (onbaşı), ən üst məqamdakı isə *pənci-həzari* (beş minlik ordunun komandanı) hesab olunurdu. Sonralar bu rütbəyə yeddi minlik ordu komandanı mənasında *həft-həzari* əlavə olundu. Daha yüksək rütbələr də var idi. Xanədan mənsubu olmayan kimsələr də pənci-həzari ola bilərdi.

Mülki və hərbi vəzifələr, rütbələr arasında fərq yox idi. Komandanların rütbə və sinfini göstərən kəlmələrdən sonra sahib olduqları atların sayı da qeyd edilirdi. Onlar müharibələr zamanı öz atlarını, silahlarını özləri təmin edir, ona görə maaş alırdılar. Atı olmayan süvarilərə *barqır* adı verilirdi. Əmirlər bəzən əsgər və at sayı məsələsində hiylə işlədirdilər. Əkbər şah bu hiylələrə yol verməmək üçün yoxlama dəftərləri və atların damğalanması üsulunu gətirdi. Baburlarda *valaşafi* və ya *ahadi* adlanan yüksək hərbi peşəkarlığa sahib xüsusi təyinatlı ordu dəstələri mövcuddu. Orduda ən alt kateqoriyada yer alan dəstələr piyada





*Babur ordusunda dəvə*



*Babur savaş fili zirehi*



*Babur piyada döyüşçüsü*



*Babur topçuları*

sayılırdı. Topçular, ağır və yüngül silahlı dəstələr də Babur ordusunun tərkibinə daxil idi. İlk dövrlərdə fillərdən döyüşlərdə istifadə edilsə də, sonralar yaratdıqları təhlükələr səbəbindən fillərdən istifadə edilmədi. Fillərdən sadəcə nəqliyyat vasitəsi kimi istifadə edilirdi. Babur ordusunun maaşları Osmanlı dövlətində də mövcud olan *tımar* sisteminə görə ödənilirdi. Bu üsula çagir deyilirdi. Çagirdarlıq irsi sayılmırdı. Lakin Əkbər şahın fərmanı ilə bütün tımarlar geri alındı və maaşlar pulla ödənməyə başlandı.

Baburlarda vilayətlər şöbə adlandırılırdı. Valilər isə şöbədar sayılırdı. Şöbələr *sərkar* adlanan qəzalara, qəzalar isə *pərgənə* və ya mahallara bölünürdü.

Türklərin Hindistana gətirdiyi sənət və ədəbiyyat daha çox islami xüsusiyyətlər daşıyırdı. Babur memarlığı, əsasən Səlcuqlu və Teymurlu memarlıq üslubunun davamı idi. Qübbəli türbələr, kəmərli tikililər, saray memarlığı türklər vasitəsilə Orta Asiyadan Hindistana gətirilmiş memarlıq nümunələridir. Uyğur sənətində buddizmin də təsiri ilə *nilufər* çiçəyi şəklində görünən bəzəklər baburlarla birlikdə Hindistanda yayıldı. Böyük memarlıq əsərlərinin inşasında təbii daş karxanalarından istifadə olunurdu. Müxtəlif rəng və daş çalarları ilə tikilən abidələrdə fiqurlar, işləmələr Şah Cahan zamanında ən parlaq dövrünü yaşamışdır. Bu gün Pakistan torpaqlarında yerləşən Cahangirin məzarı, Vəzir Xan camesi, Məhəbbət xan camesi, Cameyi-Məscid (Multan), Lahor qala külliyəsi, Balahisar qalası (Peşavər), Şalamar baxçaları, Dilguşə və Badamlı baxça Babur memarlığının inciləri sayılırlar.

Babur dövründə Cığatay türkcəsi xeyli inkişaf etdi. Bu sahədə yazılan ən mühüm əsər *"Vəkainamə"* də adlandırılan *"Baburnamə"* idi. Babur öz həyatını, fikirlərini, yaşadıqlarını bu kitabda nəql etmişdir. Baburun başqa bir əsəri türkoloq Fuad Köprülü tərəfindən Paris kitabxanalarında tapılıb elm aləminə tanıdılan "Əruz Risaləsi"dir. Əsərdə əruz vəzni ilə bağlı məlumatlar və təsbitlərlə yanaşı, Babur



şahın özü tərəfindən müəyyənləşdirilən əruz qəlibləri arasına daxil edilən vəznlər də yer alır. Baburun bir əsəri də "Mübəyyən" olub, hənəfi fiqhi ilə bağlıdır. Baburun şeirlərinin toplandığı divanının isə bir neçə nüsxəsi mövcuddur. Hindistanın Rampur şəhərindəki Raza kitabxanasında tapılan Babur divanı "Risaleyi-Türki" adı ilə qeyd edilmişdir. Baburun tərcümə etdiyi "Risaleyi-Validiyyə" adlı əsəri isə türküstanlı alim Ubeydullah Ahrariyə aiddir. Təsəvvüf əxlaqlı Babur şahın bu əsəri xəstəliyi sırasında şəfa tapmaq ümidi ilə tərcümə etdiyi rəvayət olunur.

Babur *xətti-Babur* adı ilə yeni bir yazı icad etmişdir. Baburun yaratdığı bu yazı üslubunu xanədanın bir çox nümayəndəsi də istifadə etmişdir. Hümayunun bacısı Gülbədən Bəyim "Hümayunnamə" adlı farsca bir tarix əsəri qələmə alıb. Cahangir şah tərəfindən də "Tüzüki-Cahangiri" adlı bir əsərin yazıldığı məlumdur. Bir çox tarixçi, şair və elm adamı da Babur sarayı tərəfindən dəstəklənmiş, himayə olunmuşdur. "Həbib üs-Siyər"in müəllifi, məşhur tarixçi Xondəmir Dehliyə gəlmiş, Babur və Hümayunun səfərlərində iştirak etmişdir. Onun "Qanuni-Hümayun" adlı bir əsər də yazdığı məlumdur. Əkbər şah dövründə Fevzi, Örfi, Naziri, Zuhuri kimi şairlər, Əbülfəzl Allami, Xoca Nizaməddin Əhməd və Əbdülqadir Badayuni kimi tarixçilər hökmdar tərəfindən himayə edilmişdir. "Əkbərnamə", "Ayini-Əkbəri" kimi günümüzə qədər gəlib çatan iki böyük tarix əsəri Əkbər dövründə qələmə alınmışdır. Şah Cahan dövrünün məşhur şairi Saib, tarixçisi isə "Padişahnamə"nin müəllifi Əbdülhəmid Lahvəri idi. Babur hökmdar və şahzadələrin Hind ədəbiyyatının və dilinin inkişafında müstəsna xidmətləri oldu. Əkbər və Cahangir şahların Hind inanc və həyatına qarşı sərgilədikləri mülayim münasibətin bunda təsiri böyükdür.



## 10.6. ŞEYBANİLƏR VƏ ÖZBƏKLƏR

Şeybanilər "özbək" kimliyinin memarlarıdır. Bu xanədanın soyu Çingiz xanın böyük oğlu Cuçinin övladı Şibək xandan gəlir. Müsəlman mənbələrində onun adı Şeybani olaraq qeyd edilir. Məhəmməd Şeybani *(1451-1510)* 1240-cı ildə slavyan knyazlıqları və Macarıstana qarşı təşkil edilən moğol səfərlərində yer almışdır. Qardaşı Batı xan tərəfindən Qızıl Orda dövləti qurulduqda İrqız, Savuq və İlək adlanan Ural dağları ətəklərindəki geniş yaylaq ərazilərlə, Arakum, Qaraqum, Sırdərya, Çu və Sarısu ətrafındakı qışlaq torpaqların idarəsi ona tapşırıldı. Şibək həmin ərazilərdə məskunlaşan türk-moğol boylarını təşkilatlandıraraq burada özünün xanədanlığını təsis etdi. Şibək soyundan olan *Əbülxeyr xan* 1428-ci ildə özünü xan elan edərək Qərbi Sibir torpaqlarını tamamilə ələ keçirib, özbək kimliyinin təməllərini atdı. Onun yaratdığı dövlətə şibək ulusu, şeybani ulusu və ya özbək ulusu adı verilirdi.

Əmir Teymurun vəfatından sonra Türküstanda onun soyundan olan əmirlər arasında gedən hakimiyyət mübarizəsindən istifadə edən Əbülxeyr xan Orta Asiyadakı proseslərə müdaxilə etməyə başladı. Onun dəstəyi ilə Əbu Səid Teymurlu taxtına oturdu. Əbülxeyr xan Şərqi Dəşti-Qıpçaq bölgəsində yaşayan türk-moğol xalqlarının müsəlmanlaşdırılmasında mühüm rol oynadı. O, nəqşibəndi şeyxi Übeydullah Əhrar vastəsilə Teymurlu Uluğ bəyin qızı Rabiə Sultan Bəyimlə evlənərək həm sufi dərgahları, həm də Orta Asiyanın müsəlman əsilzadələri ilə yaxşı münasibətlər qurdu və mövqeyini daha da yaxşılaşdırdı. 1468-ci ildə Əbülxeyrin vəfatı və oğlu Şah Budağın öldürülməsindən sonra xanlığın varisi nəvəsi Şeybani Məhəmməd oldu. 17 yaşında hakimiyyət uğrunda mübarizəyə başlayan Şeybani qaçıb Daşkəndə yerləşmiş və Cığatay xanı Mahmud xanın xidmətinə girmişdir. Burada yaxşı mədrəsə təhsil alan Şeybani 1488-ci ildə Türküstan (Yesi) bölgəsinin əmiri təyin olundu.



*Şeybani xanın portreti.*
*Rəssam: Kəmaləddin Behzad*

Qısa vaxtda bölgədə güclənən *Şeybani Məhəmməd xan* 1500-1517-ci ilərdə apardığı hərbi əməliyyatlar nəticəsində bütün Teymurlu torpaqlarını ələ keçirib, böyük bir dövlət qurdu. Şeybani xan özbək kimliyinin də təməllərini atdı. Teymurlu-Cığatay mirasına sahib çıxan Şeybani xan 1510-cu ildə Qızılbaş hökmdarı Şah İsmayıla qarşı girdiyi Mərv müharibəsində məğlub olaraq öldürüldü. Yerinə əvvəlcə *Kölkünçi xan (1510-1530)*, daha sonra sırayla Əbu Səid (1530-1533), Übeydullah (1533-1539) və I Abdullah *(1539-1540)* keçdilər. Abdullahdan sonra zəifləməyə başlayan Şeybanilər dövləti 1599-cu ildə çoxlu xanlıqlara parçalandı.

Bu xanlıqlar arasında əsas üçü – Buxara, Xivə və Kokand xanları Şeybani torpaqlarını öz aralarında bölüşdürdülər.

Şeybani dövlətinin tənəzzülünün başlıca səbəbi on illiklər boyunca Xorasanı ələ keçirmək üçün Səfəvilərlə apardıqları müharibələr oldu.

Şeybanilərin türk tarixindəki ən böyük rolu özbək kimliyinin siyasi olaraq formalaşdırılması oldu. Özbək kimliyinin ortaya çıxması mübahisəlidir. Tarixi mənbələr və əsas tədqiqatlar bu kimliyin banisinin Qızıl Orda xanı *Özbək xan (1313-1340)* olduğunu qeyd edirlər. Qızıl Ordanın müsəlmanlaşması və türkləşməsində mühüm rol oynayan Özbək xanın tərəfdarları özbək ulusu adlanırdılar. Belə ki, onun dövründə mənbələr Qızıl Orda dövlətindən *məmləkəti-özbək* və *ulusi-özbək* kimi bəhs edirlər. Özbək ulusu anlayışı qazax-özbək tayfalarının da daxil olduğu ümumi adlandırma idi. Bu kimliyin içərisində 90-dan çox türk tayfası yer alırdı. Bəzi mənbələr XVI əsrdə özbək adının qazax, tatar və qıpçaq tayfalarının birliyini əks etdirdiyini qeyd edirlər. Bu ittifaqda 24-ü böyük olmaqla, ümumilikdə 92 tayfanın yer aldığı qeyd edilir. Adı çəkilən tayfalar arasında alçın, arlat, bəhrin, barak, barlas, bəyli, cəlair, dormən, xitay, qalmuq, qanqlı, karluq, qıpçaq, qırğız, kərait, manqıt, minq, nayman, oryat, uyğur, tanqut, alban və yüz (jüz) ən böyükləri hesab olunurdular.

Şeybanilər Teymurlu-Cığatay mədəni mirasına sahib çıxdılar. Orta Asiyanın zəngin mədrəsə mədəniyyətini himayə edib, sufiləri və alimləri öz ətraflarında topladılar. Hətta Səfəvilərin hakimiyyətə gəlməsindən sonra Azərbaycan, İraqi-Əcəm, Xorasandan qaçıb Səmərqənd və Buxaraya gələn alim və ədiblərə sahib çıxdılar. Şeybanilər cığatay-uyğur ləhcəsini əsas qəbul edib, bu dildə çoxlu əsərlərin ərsəyə gəlməsinə səbəb oldular. Qıpçaq, uyğur, qazax və cığatay ləhcələrinin birliyindən özbəkcə ərsəyə gəldi. XVI əsrdən etibarən Şeybanilər dövründə Dost Məhəmməd Hacı Nayman, Nadir bəy Konrat, Hafiz





*Mir Ərəb mədrəsəsi*

Konrat, Dost Məhəmməd Mirzə Konrat, Mir Əli Tahiroğlu kimi türkcə yazan çoxlu şair yetişdi. Dövlətin banisi Məhəmməd Şeybani özü türk dilində şeirlər yazırdı. Onun türkcə divanı günümüzə qədər gəlib. Çoxlu fars və ərəbcə yazılmış dini, ədəbi və elmi əsərlər bu dövrdə türk dilinə tərcümə olundu. Bu əsərlər arasında Rəşidəddin Fəzlullahın "Came ət-təvarix" əsəri də yer alırdı. Bu əsər uyğur və ərəb əlifbası ilə türk dilinə tərcümə edilmişdir. Şeybani Übeydullah xanla oğlu Əbdüləziz xanın dövründə Mollazadə Molla Osman, Mövlana Məhəmməd Dayə, Mir Qəzənfər kimi alimlər yetişdilər. "Mir Ərəb" adı ilə tanınan Şeybani hökmdarı Əbdüləziz xanın açdırdığı Mir Ərəb mədrəsəsi günümüzə qədər dini-tədris fəaliyyətini davam etdirir. Bu mədrəsə Sovet dövründə belə SSRİ ərazisində fəaliyyət göstərən tək müsəlman mədrəsəsi olmuşdur. Qafqaz şeyxülislamı Hacı Allahşükür Paşazadə də həmin mədrəsədə dini təhsil almışdır.

Şeybani xanları türk adət və ənənələrinə çox bağlı idilər. Xüsusilə Əbdüllətif xanla Novruz xan üləmanın dövlət işinə qarşımasına qarşı idilər. Şeybanilər, əsasən təsəvvüfi İslamın inkişafına böyük imkanlar yaratmış, xüsusilə də nəqşibəndi şeyxlərini himayə etmişdilər. Nəqşi şeyxlərinin Daşkənd, Fərqanə və Qaşqarda olduqca təsirli idilər.

Şeybani dövründə xətt sənəti, miniatür çox inkişaf etmişdir. Adına *siyahı-qələm* deyilən uyğurlar vasitəsilə Çində püxtələşən yeni rəsm sənəti də Orta Asiya üzərindən Osmanlı ölkəsinə qədər yayılmışdı. Hökmdar Əbdüləziz özü çox yaxşı xəttat olub, incə bir yazı üslubuna sahib idi. O, öz ətrafına Mir Əli Hərəvi, Mahmud Müzəhhib, Mirək Münşi kimi öz dövrünün böyük xəttat və nəqqaşlarını toplamışdı. Əbdüləziz xan 1544-cü ildə Buxara şəhərinin ətrafına divar çəkdirdi. Onun dövründə Orta Asiya şəhərləri xeyli inkişaf etdilər. Xüsusilə Bəlx şəhəri əhalisinin çoxluğuna görə bölgənin ən böyük şəhəri halına gəldi.





*Buxara divarları*



Əbdüləziz xanın başqa bir maraqlı siyasəti türk, moğol və digər kimliklərdən olan xalqları qaynaşdırma siyasəti idi. O, bu məqsədlə Zərəfşan ilə Xarəzm arasındakı geniş ərazilərə əhaliləri qarışıq yerləşdirmiş, ələlxüsus türk tayfalarının bir-biriləri ilə yaxın ünsiyyət qurub radikal tayfa mənsubiyyətlərinin ortadan qalxmasına şərait yaratmışdır.

Şeybani hökmdarları mədrəsə, şəfaxana, məscid və vəqf əsərlərinin qorunmasına və himayəsinə geniş maddi yardımlar ayırdılar. Şeybani hökmdarı Əbdülmömün xan Bəlxdə Xacə Əbu Nəsr Parsa və Xacə Akaşənin məqbərələrini inşa etdirdi. Ayrıca, bir neçə mədrəsə və darüşşəfa da açdırdı. Şeybani dövləti Uluğ bəy dövründə Orta Asiyada fəaliyyətə başlayan rəsədxana fəaliyyətlərini də canlandırdılar. Əsasən riyaziyyat və astronomiya alimlərini təkrar bir yerə toplayan Əbdüllətif xan ətrafında riyaziyyatçılardan ibarət bir elmi heyət yaratmışdı. Bu dövrdə hüquq sahəsində də maraqlı əsərlər yazılmışdır. Kuhistaninin "Cami ər-Rumuz" əsərinə yazdığı şərh, Sədrüş-şəria əs-Saninin "Müxtəsər əl-Vikayə" adlı əsəri fiqh sahəsində yazılmış əsərlərə nümunədir.

Cığatay və Temurlu dövründə moğol dili öz təsirini qoruyurdusa da, Şeybani dövründə bürokratik sahədə bütün yazışmalar türkcə aparılmağa başlandı. Şeybani xan qəliz Cığatay ədəbiyyatının sadələşdirilməsinə çalışdı. Dini üləmanın türk dilində əsərlər qələmə almasına çalışdı. Qısaca, Şeybanilər özbək milli, ədəbi və mədəni kimliyinin gerçək mənada qurucuları oldular.



# 10.7. JUZLAR: QAZAXLAR VƏ QIRĞIZLAR

Şeybani hakimiyyətini qəbul etməyən Çu və Talas çayları arasındakı ərazilərdə yaşayan türk tayfaları qazax kimliyinin başlanğıcı oldular. "Qazax" adı "sərbəst hərəkət edən boylara" verilən sosial tərkibli bir ad idi. Bu tayfalar qazax-qırğız, XIX əsr rus mənbələrində isə ümumi olaraq qırğız adlanırdı. Zamanla Şeybani ittifaqından ayrılan türk tayfaları da qazax-qırğız ittifaqına qoşuldular. XVI əsrdə Altay dağlarından Xəzər dənizinə qədər Mərkəzi Asiya bölgəsi həmin tayfaların nəzarətində idi.

Qazax-qırğızlar XVI əsrdə *juz* (yüz və ya üz) adı altında eyni ittifaqda birləşməyə başladılar. Bu ittifaq nəticəsində ortaya çıxan dövlətə də *Juz* adı verilmişdir. Juz dövlətinin qurucusu Qasım xan oldu. Qazax-qırğızların bir ittifaq altında birləşməsinin başlıca səbəbi Monqolustan və Şərqi Çin üzərindən artan gürgan, kalmık hücumları və köçləri idi. Qasım xan dövründə qazax əhalisi arasında yüksək artım diqqəti cəlb edirdi. Əsasən yarımköçəri halda yaşayan



qazax-qırğız tayfaları geniş at sürülərinə sahib olub, ətraf xalqlara da at ixrac edirdilər. Qazax atları Babur, Səfəvi, Şeybani, hətta rus bazarlarında böyük tələb görürdü. İndiki Qazaxıstan ərazisinin böyük otlaq əraziləri heyvandarlıq üçün tarixən çox əlverişli ərazilər idi. Artıq XVII əsrdə indiki Qazaxıstanın bütün ərazisi həmin maldar tayfalar tərəfindən əhatə olunmuşdu.

Qazax juzu əsasən üç hissəyə ayırlırdı: böyük, orta və kiçik juzlar. "Juz" qədim türk-moğol dillərində işlədilən "orda" sözünün qazax-qırğız ləhcəsində ifadəsi idi. Ancaq Juz dövləti tam mərkəzləşmiş bir dövlət təşkilatı deyildi. Tayfalar öz daxilində tam müstəqil olub, sadəcə xarici düşmənlərin təhdidi zamanı hərbi cəhətdən birlikdə hərəkət edirdilər. Hər tayfanın başında öz xanı olsa da, bütün xanların başında məhdud səlahiyyətlərə sahib vahid bir xan vardı. Həmin xan tayfalar arasındakı narazılıqları həll edir, orduya rəhbərlik edirdi.

Bu dövrdə qazax-qırğızlar arasında İslam dini yeni-yeni yayılırdı. Mərkəziyyətçi bir sistemin formalaşmasında xanlar üləmanın təsirlərindən istifadə edirdilər. Əsasən, sufi şeyxlərin yaydıqları islami fikirlərə bağlı olan bu tayfaların dini bir həyat tərzi yoxdu. Qazaxlar arasında dini-elmi təhsil fəaliyyətləri çox sonralar, əsasən də rus istilasının bölgədə yayılmağa başladığı dövrlərdə artmağa başladı.

XVII əsrin sonlarında qazax-qırğız juzları artıq üç yerə parçalanmışdı. Qazaxıstanın qərbindəki geniş ərazilər Böyük Juzun, mərkəzi Orta Juzun, şərqi isə Kiçik Juzun nəzarətində idi. Onlar əhatə etdikləri tayfaların çoxluğuna görə belə bölünmüşdülər. Qazaxlar öz xanlarına da *ulu xan*, *kiçik xan* deyirdilər.

Juzlar qazax kimliyinin formalaşmasında mühüm rol oynadılar. Juz kimliyi getdikcə tayfa adlarının zəifləməsinə və ümumi qazax adının mərkəzləşməsinə şərait yaratdı. XIX əsrdə *qazax* və *qırğız* adları artıq milli mənsubiyyəti ifadə edirdi.

Heyvandarlıqla məşğul olan bu tayfalar qışlaq-yaylaq arasında köç təməlli bir həyat sürürdülər. Bu tayfaların özlərinin zəngin toxuculuq sənətləri vardı. Qazaxlar qiymətli palazlar, kilimlər, keçələr toxuyur, əsasən at əti və qımız içirdilər. Çox dayanıqlı bir içəcək olan qımız at südündən hazırlanırdı. Qımızın mayalandırılmış şəkli isə alkoqollu içkiyə çevrilirdi ki, bu da qazax şənliklərində içilirdi. XVI-XVII əsrlərin qazax-qırğız həyat tərzi qədim türk qam-şaman və sufi-islami inancların qarışmasından ibarətdir. Dəfn mərasimlərindəki adətlər köhnə üsullarla icra olunur, qəbir üzərində din adamları Quran oxuyurdular. Köçəri həyata rəğmən, qazax-qırğızların zəngin bir folklor mədəniyyəti var idi. O tarixlərdə qazax və qırğız ləhcələri arasında ayrılmalar olmadığından, oxunan dastanlar geniş rəğbət görürdü.

Qazax-qırğızların zəngin bir dastan ədəbiyyatı mövcud idi. Bu dastanlar üç qrupda təsnif olunurlar:

- qədim dastanlar;
- qəhrəmanlıq dastanları;
- tarixi hekayələrdən ibarət dastanlar.



*tambura (dombra)*



Dastanlar at qılından hazırlanmış qopuz (tambura) şəklində kiçik sazların müşayiəti ilə *jır* (yır-türkü) şəklində ozanlar tərəfindən icra edilirdi. Qazax baxşıları (ozanları) bəzən xüsusi günlərdə günlər və həftələrlə dastanlar oxuyub-söyləyirdilər.

Qazax-qırğız dastanları tarixi oğuz-qıpçaq dastanlarının bir qolu, onların davamı və ya həmin dastanlar içindən müstəqil dastan şəklinə ayrılmış mövzulardan ibarətdir. *"Ər Töstik", "Ak Köbək", "Ayman-Şolpan"* dastanları həm qədimliyi, həm də mövzu baxımından *mənqıbəvi* dastanlar hesab olunurdu.

Qazax-qırğızların ilk dövr mənbələri tarixi hadisələri əks etdirən dastanlardı. Belə dastanlar arasında *"Kobland Batır", "Ər Tarğın", "Qəmbər"* dastanları ilk sırada gəlirlər. Qazax-qırğızların fəaliyyətinin böyük bir hissəsi istilaçılarla mübarizələrdə keçdiyindən, həmin hadisələr *"Kabanbay", "Boranbay", "Olcabay"* dastanlarında geniş şərh edilib. Qırğızlar arasında isə *"Manas"* dastanı məşhur idi. Rus türkoloq V.Radlov tərəfindən yazıya köçürülən bu dastan folklorun ən böyük və ən uzun dastanı hesab olunur. "Dədə Qorqud" dastanlarının təsirindən yaranan "Manas" sonralar müstəqil dastana çevrilmiş, qırğızlar arasında bu dastan parçalarını oxuyan aşıqlara ırçı və çomakçı deyilmişdir.

"Manas" dastanında əsas qəhrəman olan Manas Noqay tayfasına mənsub olub, kalmıkların hücumları qarşısında qırğızların birliyini nümyiş etdirən əfsanəvi güclərə sahib bir qəhrəman, lider, dövlət adamı olaraq təsvir edilir. Ancaq bu dastanda yer alan ünsürlər "Manas"ın min ildən çox dövrdə formalaşdığını deməyə əsas verir. "Manas" üç böyük qoldan ibarətdir. İlk qol Manasın anadan olması, gənclik illəri, qırğızlar arasında şöhrət qazanması və kalmıklara qarşı əldə etdiyi uğurlardan bəhs edir. Burada Manasın siyasi bir lider kimi formalaşması və qırğızları bir bayraq ətrafında birləşdirməsindən bəhs edilərək, siyasi-tarixi və sosial məsələlər təhlil edilir.

Dastanın bu bölümündə mistik-dini təsvirlər və hekayələr də yer alır. Burada Manasın bir neçə dəfə öldürülməsi, dirilməsi və köçəri türk ənənəsinin ən mühüm faciə mənzərəsi olan *yuğ mərasimləri* geniş təsvir edilir. Dastanın Semetey və Seytek adlanan qollarında isə daxili mübarizələr, qardaşlar arasında ixtilaflar şərh olunur. Semetey və Seytek də Manas kimi qırğız qəhrəmanlarıdırlar. Onların həyat mübarizəsi də qırğızların tarixi-milli həyat tərzinin əsas parçasını təşkil edirdi.

"Manas" dastanında tarixi-sosial kimlikləri şərh edilən qırğızlar, əsasən *qara qırğızlar* adlanırdı. Dastanda qırğızların Çin, moğol, kalmıklarla apardıqları mübarizə ilə yanaşı, düşmən haqqında da aydın şəkildə dini-sosial təsvirlərə yer verilmişdir. Qırğızlar üçün əsas düşmən obrazı buddist inanclı moğol və kalmıklar idi. Mənbələrdə bu dastandan bəhs edən ilk müəllif XVI əsrdə yaşamış Seyfəddin Mollanın qələmə aldığı "Məcmu ət-təvarix" əsəridir. Həmin mənbədə Manasdan tarixi bir şəxsiyyət kimi bəhs edilir. "Manas" dastanını elm dünyasına qazaxların ilk maarifçisi hesab olunan Çokan Vəlixanov *(1835-1865)* tanıtmışdır.

Dastançılıq qazax-qırğızlar arasında ozan-aşıq sənətinin canlı qalmasına da səbəb olmuşdur. Dastan oxuyan aşıqlarla "Manas" oxuyan aşıqlar arasında fərqlər vardı. "Manas" oxuyan aşıqlara *manasçı*, *nagız manasçı* və şala manasçı deyilirdi. Adı bilinən ilk manasçı XVIII əsrdə yaşadığı qeyd edilən Keldibəydir. Qırğız ədəbiyyatında isə bütün "Manas" dastanını əzbər bilən Bekmurat, Naymanbay, Al Çonbaş, Tınıbek, Çüyük, Sağımbay Orakbayoğlu kimi manasçı aşıqlardan bəhs edilir.





## 10.8. ƏFŞARLAR VƏ QACARLAR

Səfəvilərin XVIII əsrin 20-ci illərində yaşadıqları daxili böhran bütün Orta Şərq, Xorasan, Qafqaz və Orta Asiyada böyük siyasi təlatümlərə yol açdı. Belə bir şəraitdə səhnəyə çıxan Nadir şah qısa vaxtda güclü zəfərlər əldə etsə də, öz hakimiyyətini tənzimləyə bilmədiyi kimi, qalıcı bir iqtidar sistemi də yarada bilmədi. Nadir şah 1689-cu ilin noyabrında Xorasan vilayətinin Dərgəz mahalının Dəstgird kəndində Əfşar tayfasına mənsub bir ailədə dünyaya gəlib. Onun əfşarların qırxlı qolundan olduğu qeyd edilir. Ailəsi I Şah Abbas dövründə Azərbaycandan Xorasana köçürülmüşdür. Əfşarların köçürüldükləri bu bölgə türkmənlərlə həmsərhəd olduğundan, onlar arasında vaxtaşırı münaqişələr olurdu. Həmin münaqişələrin birində də Nadir əsir alınmış və bir müddət əsirlikdə yaşamışdır.

Nadir ağıllı, bacarıqlı, diribaş, hazırcavab, fərasətli biri idi. Onun tarix səhnəsinə çıxdığı dövrdə Səfəvi dövləti faktiki olaraq tənəzzül etmişdi. Ölkənin mərkəzi və şərq hissəsi əfqanlar tərəfindən işğal edilmiş, Azərbaycanın



*Nadir şahın təsviri.*
*Rəssam: Məhəmməd Rza Hendi.*
*"Viktoriya və Albert" muzeyi*



*Nadir və II Təhmasib.*
*"Tarixi Cahan-guşeyi Nadiri"*
*əsərindən*

bütün mərkəzi və qərb hissələri Osmanlıların, Xəzərsahili bölgələr isə rusların əlinə keçmişdi. Belə bir vəziyyətdə İsfahandan qaçıb Təbrizə gələn II Təhmasib özünü Qızılbaş şahı elan edərək türk tayfalarından hərbi kömək axtarışında idi. Bu dövrdə Qızılbaş ölkəsində real hərbi potensiala sahib iki böyük türk tayfası vardı: qacarlar və əfşarlar.

II Təhmasib əvvəlcə qacarlardan aldığı dəstəklə əfqan işğalçılarına qarşı mübarizəyə başlasa da, istədiyi nəticəni ala bilmədi. Daha sonra əfşarlara müraciət edən II Təhmasib Nadirlə görüşdü və bu görüş zamanı Nadir xandan çox təsirləndi. 1726-cı ildə iki tərəf arasında qurulan ittifaqla Nadir xan Səfəvi ölkəsinin xilaskarına çevrildi. II Təhmasib Nadiri əvvəlcə Xorasan hakimi təyin etdi və bu münasibətlə Nadir özünə "Təhmasibqulu xan" adını verdi. Ancaq Nadir həm II Təhmasibin, həm də ətrafındakıların



intriqaçı xarakterlərini bildiyi üçün əvvəlcə qacarların əmiri Fətəli xanı zərərsizləşdirdi, daha sonra da şahı öz təsiri altına saldı.

Bundan sonra Səfəvi ölkəsinin yenidən mərkəzləşdirilməsi uğrunda mübarizəyə başlayan Nadir arxa-arxaya əfqanlara vurduğu zərbələrlə onları İsfahan və Xorasandan qovdu. 1729-cu ilin 13 noyabrında İsfahan yaxınlığında əfqanlarla döyüşdə parlaq bir qələbə əldə etdi. Bu qələbədən sonra İsfahana daxil olan Nadir öz əlləri ilə Qızılbaş tacını şah II Təhmasibin başına qoydu. Bir müddətdən sonra əfqanları təqib etməkdən ötrü Fars vilayətinə hərəkət edən Nadir qaçhaqaçda Əfqan hökmdarı Əşrəfi öldürdü. Ölkəni əfqanlardan təmizləyən Nadir sürətlə Azərbaycana hərəkət edib Osmanlı ordularını bölgədən çıxardı. 1731-ci ildə Osmanlı ordularını məğlub edən Nadir Azərbaycanı, Həmədanı və Kirmanşahı yenidən Səfəvi torpaqlarına qatdı. Həmin vaxt II Təhmasibin zəifləmiş nüfuzunu bərpa etmək məqsədilə Osmanlı dövləti ilə Kirmanşah sülh müqaviləsi imzalaması Nadirlə Təhmasib arasındakı münasibətlərin qopmasına yol açdı. Bu müqaviləni tanımaqdan imtina edən Nadir Təhmasibi taxtdan salaraq, onun səkkiz aylıq oğlunu şah elan etdi. Bununla Nadir faktiki olaraq Qızılbaş ölkəsinin tək hakimi halına gəldi. Özünə *III Şah Abbas*ın hakimiyyətində *naib-üs-səltənə* vəzifəsini götürən Nadir qısa vaxtda Səfəvi bölgəsinin hər yerində öz hakimiyyətini bərqərar etdi.

Nadir xan əvvəlcə osmanlıları, sonra da rusları Qızılbaş torpaqlarından çıxararaq *1736-cı il*də təşkil etdiyi *Muğan qurultayı* ilə rəsmi olaraq şah seçildi. Beləliklə, Səfəvi xanədanının hakimiyyətinə son qoyan Nadir şah Əfşar dövlətinin əsasını qoydu. Nadir bununla da qalmayıb, bölgədə kök salan iki əsrlik Səfəvi iqtidarının bütün strukturlarını dəyişməyə başladı. Bu məqsədlə bir sıra islahatlar həyata keçirdi. Özünü Teymura oxşadan Nadir böyük fəthlər həyata keçirdi. Bu məqsədlə o, Türküstanı və Hindistanı ələ



*Nadir şah dönəmində Əfşar imperiyası*

keçirərək böyük bir ərazini nəzarəti altına aldı. Səfəvi dövründə hakim olan şiə məzhəbi yönlü siyasətdən əl çəkib, müsəlman məzhəbləri arasında bir dialoqun qurulmasına çalışdı. Bu məqsədlə Osmanlılarla əlaqələr yaradıb Şah İsmayılın apardığı siyasəti tənqid edərək müsəlmanlar arasında inanc birliyi qurmağa çalışdı. Lakin osmanlılar Nadirin apardığı siyasətə şübhə ilə yanaşdıqları üçün onun bu təşəbbüsünə dəstək vermədilər.

Nadirin şahlıq dövrü cəmi 11 il davam etdi. 1747-ci ildə sui-qəsd nəticəsində öldürüldü. Buna baxmayaraq, Nadir şah qısa hakimiyyəti illərində ölkədəki ümumi asayişi bərpa etməyə nail oldu. Lakin həm ətrafındakı məmurların, həm də əyalət başçılarının gizli fəaliyyətləri Nadir şahı qəddar siyasət aparmağa məcbur etmişdi. Buna görə də onun ölümü ilə yaratdığı böyük dövlət parçalandı. Əfşarların hakimiyyəti Xorasanla məhdudlaşdı.

Qızılbaş taxtı uğrunda gedən mübarizədə əvvəlcə Kərim xan Zənd öz hakimiyyətini qurmağa təşəbbüs etsə də,



1780-ci ildə ortaya çıxan Ağa Məhəmməd qacarları ətrafında toplayıb, bölgəni qısa vaxt ərzində öz hakimiyyəti altına aldı və 1795-ci ildə özünü şah elan etdi. Qacarlar Orta Şərqə hökm edən son türk dövləti oldu.

Qacarlar XVIII əsrdə Qızılbaş ərazilərindəki ən böyük tayfa ittifaqı olub, Anadoludan Xorasana qədər geniş əraziyə yayılsalar da, əsas kütləsi Gəncə-Qarabağ və Mazandaran-Astarabadda məskunlaşmışdı. Ağa Məhəmməd Astarabad qacarlarından idi. Nadir şah Əfşarın öldürüldüyü 1747-ci ildə qacarlar iki böyük qola – **Yuxarıbaş** və **Aşağıbaş** qollarına ayrılırdı. Ağa Məhəmməd ana tərəfdən yuxarıbaş, ata tərəfdən isə aşağıbaş qacarlarından olub, hər iki qacar qolunu təmsil edirdi.

Qacarların belə ayrılmasına səbəb Astarabaddakı Mübarəkabad qalasından irəli gəlirdi. Belə ki, qalanın şimalında məskun olanlara *yuxarıbaş*, aşağısında yerləşənlərə isə *aşağıbaş* deyilmişdir. Həmin vaxt Astarabad qacarları 12 tayfa olub, altısı Mübarəkabadın yuxarısında, altısı da aşağısında yaşayırdı. Yuxarıbaş qacarlarına *dəvəli*, *sapanlı*, *köhnəli*, *xəzinədarlı*, *qayıqlı* və *kərli*; aşağıbaş qacarlarına *qoyunlu*, *izzəddinli*, şambayatı, *qaramusanlı*, əşli (dəşli) və *ziyadlı* tayfaları daxildi. Yuxarıbaş qacarlarının hakim tayfası dəvəlilər, aşağıbaş qacarlarının hakim tayfası isə qoyunlular idi.

Ağa Məhəmmədin anası Heyran xanım dəvəli, atası Ağa Məhəmmədhəsən xan isə qoyunlu tayfasından gəlirdi. Ümumilikdə qacar tayfalarına 1600-cü ildən etibarən qoyunlu xanları rəhbərlik edirdi. 1795-ci ildə Qızılbaş ölkəsinin ərazi bütövlüyünü yenidən təsis edən Ağa Məhəmməd şah Qacarın qısa müddətli hakimiyyətindən sonra dövlətin başına onun qardaşı oğlu Fətəli şah *(1797-1834)* keçdi. Onun hakimiyyət illəri şimalda ruslarla, şərqdə isə ingilislərlə aparılan ağır müharibələrdə keçdi. Bunun nəticəsində ruslar Araz çayına qədər Qafqazı işğal edərək 1813-cü ildə Gülüstan və 1828-ci ildə Türkmənçay müqavilələri ilə



*Ağa Məhəmməd xan Qacarın yağlı boya ilə çəkilmiş portreti*

bölgədəki hakimiyyətlərini təsis etdilər. Bu tarixdən sonra Fətəli şahın oğlu, eyni zamanda vəliəhdi olan Abbas Mirzə *(1789-1833)* tərəfindən Qacar ölkəsində bir sıra islahatlar aparılmağa başlandı. Bu islahatlar Fətəli şahdan sonra hakimiyyətə gələn Məhəmməd *(1834-1848)* və Nəsrəddin *(1848-1896)* şahların dövründə də davam etdirilmişdir. Nəsrəddin şah bir neçə dəfə Avropa ölkələrinə səyahət etmiş və ölkədə ilk müasir təhsil sisteminin təməllərini atmışdır.

XX əsrin əvvəllərində Qacar ölkəsində meydana gələn *məşrutiyyət inqilabı* (1905-1911) Orta Şərqdə ilk dəfə konstitusiyalı rejim yaradılsa da , bunun ömrü az olmuşdur. Birinci Dünya müharibəsi illərində Qacar ölkəsi böyük güclərin təsiri altına girərək parçalanmış və bu böhran 1925-ci ilə qədər davam etmişdir. 1925-ci ildə taxt çevrilişi ilə Orta Şərqdə türk dövlətlərinə son qoyulmuşdur.



# ƏLAVƏ OXU

## X.I. Ədəbiyyat


- Afyonçu Erhan, *Herkes İçin Kısa Osmanlı Tarihi*, İstanbul: Yeditepe Yayınevi, 2022.
- Bayramlı Zabil, *Azərbaycan Səfəvi İmperatorluğu: Dövlət quruluşu*, Bakı: Füyuzat nəşriyyatı, 2020.
- Əfəndiyev Oqtay, *Azərbaycan Səfəvilər dövləti*, Bakı: Şərq-Qərb nəşriyyatı, 2007.
- Əhməd Əsgər, *Səfəvilər Dövründə Din və Dini Münasibətlər*, Bakı: Mütercim, 2019.
- Həsənəliyev Z, *XVII əsrdə Səfəvi dövlətinin beynəlxalq əlaəqələri*, Bakı: Nurlar, 2007.
- İnanlcık Halil, *Osmanlı İmparatorluğu*, İstanbul: Kronik Kitap, 2021, c. I-II.
- Macit Abdülkadir, Şeybani Özbek Hanlığı: Siyasi, idari, askeri ve iktisadi yapı, Ankara: İLEN kitaplığı, 2016.
- Mustafazadə Tofiq, *Azərbaycan-Rusiya münasibətləri*, Bakı: Şərq-Qərb, 2013.
- Nəcəfli Tofiq, *Azərbaycan Səfəvi Dövlətinin Hindistan Türk-Müsəlman Sultanlıqları ilə əlaqələri*, Bakı: Turxan, 2020.
- Nəcəfli Tofiq, *Səfəvi-Osmanlı münasibətləri*, Turxan, 2014.


## X.II. Suallar

1. XVI əsrin türk dövlətləri dövrü olmasının başlıca cəhətləri nədir?
2. Osmanlı və Səfəvi dövlətlərinin ortaq xüsusiyyətləri nə idi?
3. Hindistanda yaranmış digər türk dövlətlərindən Babur dövlətini fərqləndirən əsas özəllik nədir?
4. Özbək kimliyinin yaranmasında Şeybanilərin rolu nədən ibarətdir?
5. Osmanlı tarixi hansı tarixi dövrlərə bölünür?

## X.III. Tapşırıqlar

1. Məmlük dövlətinin Xilafət mirasına sahib çıxmasının başlıca səbəblərini açıqlayın.

2. Osmanlı-Səfəvi münasibətləri çərçivəsində Azərbaycanın coğrafi-mədəni rolunu müəyyənləşdirən məqalə hazırlayın.

3. Baburların Hindistan dövləti və mədəniyyəti üzərindəki təsirləri ilə bağlı kurs işi hazırlayın.

## X.IV.Terminlər

*Bədəviyyə* – Əhməd əl-Bədəvi (vəfatı 1267) tərəfindən qurulan sufi təriqəti. Misirdə faəliyyət göstərmiş və Rufaiyyə təriqətinin davamı oalraq ortaya çıxmışdır. Bu təriqətin ən mühüm xüsusiyyəti davamlı qərb zikri etmələridir.

*Bəhri* – Misirdə Məmlüklü dövlətini idarə edən sülalə. Bu sülalə atadan oğula görə deyil, hərbi əsalətə görə davam edirid. 1250-1382-cı illər arasında fəaliyyət göstəriblər, ümumilikdə 25 hökmdardan ibarətdir.

*Bürci* – 1382-ci ildə Misirdə Məmlüklü dövlətini ələ keçirib idarə edən hərbi aristokratiya xanədanına adı. Türkləşmiş çərkəzlərdən ibarət idilər.

*Desukiyyə* – Bürhanəddin İbrahim bin Əbülməcd (vəfatı 1277) tərəfindən təsis olunan bir təriqət. Əsasən Misir və Suriyada fəaliyyət göstərib və mənbələrdə bərahimə və ya bərahimiyyə (İbrahimilər) də deyilirdi. Rufaiyyə təriqətinin təsiriylə formalaşıb.

*Devşirmə* – Osmanlı və Səfəvilərdə əsasən xristian ailələrdən alınıb müsəlman əhval ruhiyyəsində təlib-tərbiyə görən hərbi və müxtəlif sahələrdə istifadə edilən kadrlara verilən ümumi ad.

*Dəxl-xərc* – orta əsrlər müsəlman iqtisadiyat sistemində məhsul ilə qiyməti arasındakı münasibətə verilən ərəbcə iqtisadi bir termin. Maya dəyəri mənasında istifadə olunurdu.



*Elmiyyə* – elm adamları (üləma) xüsusi bir təbəqə hesab olunduğundna onlara elmiyyə sinifi deyilirdi. Orta əsrlərdə müsəlman dünyasaında elmlə məşğul olan hamı bu təbəqəyə mənsub hesab olunurdu. Buraya bürokratlar və hüquqçular da daxil idi.

*ənənəvi iqtisadiyyat* – Osmanlı iqtisat sistemində sabitliyin təmini üçün dəyişməyə qarşı dövlətin aldığı tədbirlərə verilən ad.

*əttar* – ət və baharat satan. Xalq ağzında "axtar" deyilirdi.

*Fetrət* – 1402-ci ildə meydana gələn Ankara məğlubiyyətindən sonra İldırım Bəyazidin oğlanları arasında 1402-1413-cü illər arası cərəyan edən hakimiyyət mübarizəsi verilən ad.

*Fiskalizm* – Osmanlı iqtisadiyyat sistemində xəzinəyə aid qazancları mümkün olduğu qədər yüksək səviyyəyə çıxartmağa çalışan anlayış

*Heterodoks* – "ortodaks"luq əleydarı mənasında fransızca bir termin olub, əsas dini anlayışın xaricində fikirlərə və düşüncələrə sahib qrupları ifadə edən bir termindir. Zamanla bu termin şərqşünaslar tərəfindən sünni olmayan inanclara mənsub türklər üçün istifadə olunmağa başlandı.

*İrfan* – Allahın və onun sifətləri, feilləri, adları və təcəllisi haqqında mənəvi təcrübə ilə əldə edilən elmə verilən ad. Bu elm "mərifət" adlanırdı.

*İsnə-əşariyyə* – on iki imamçılar. Üç qola ayrılır: şeyxilər, əkbərilər və üsulilər. Hazırda İranda rəsmi dövlət məzhəbi icnə-əçəriyyənin üsuli qoludur.

*İstimalət* – Osmanlı dövlətinin tətbiq etdiyi "müsəlman olmayan əhalini qoruma altına alan", türklər ilə başqa xalqları inteqrasiya etməyə çalışan bir məskunlaşdırma siyasəti.

*İtriyyat* - ətrlər. Ərəbcə "itr" kökündən yaranıb, mənası "gözəl və xoş iy" deməkdir

*Kürd* – ərəb dilində köçəri həyat tərzi keçirənlərə verilən ümumi addır. Cəmi əkrad olub "köçərilər" deməkdir.

Şəhərlərin heyvan bazarları olan qapısına "bab əl-kürd" adı verilirdi. XIX əsrdən etibarən Rus şəqşünaslar Anadolu da yaşayan qırmançi, sorani, süleymani və zazza camaatlarına ümumi mənada kürd adı verərək bu adı millət adına çevirdilər.

*Qiymət inqilabı* – XVI əsrdə Avropa müstəmləkə dövlətləri tərəfindən Amerikadan gətirilən qızılın dünya ticarətinə daxil edilməsiylə meydana gələn iqtisadi böhrana verilən ad. Amerikanın kəşfi ilə birlikdə dünyadakı mövcud ticarət həcmi kəskin surətdə böyüməsi nəticəsində dünyadakı qiymətlər dəyişməyə başladı. Amerikadan gələn qızıl, gümüş və digər qiymətli metalların Avropa üzərindən dünya bazarlarına daxil edilməsi ilə ənənəvi bazar münasibətlərinin pozulmasına verilən ad.

*Qızılbaşlıq* – Səfəvi təriqəti ətrafında toplaşan kütlələr başlarına geyidikləri qırmızı başlıq səbəbilə bu adı alıblar. Dini mənada ənənəvi türk tenqriçi inancları ilə islami inancları birləşdirən və buna uyğun hərəkət edənləri ifadə edirdi. Bektaşi, ələvi, heydəri, qələndəri kimi təriqətlərə ümumilikdə qızılbaş deyilirdi.

*Məmlük* – ərəbcə "mə-lə-kə" kökündən yaranıb,lüğəti mənası "sahibinin əmri altında olan qul" deməkdir.Ancaq qul ilə məmlük terminləri arasında məna fərqi mövcutdur. Ərəbcə "abd", "məmlük", "qulam" dilimizdə ümumi olaraq qul mənasına gəlsə də, Abbasilərdən etibarən məmlük kəlməsi daha çox qul kimi alınıb hərbi sistemə daxil edilən əsgərləri ifadə etməyə başladı.

*Mülhid* – dindən çıxanlara verilən ad.

*Nemətullahi* – XV əsrin ortalarında ortaya çıxan bir təriqət. Təriqətin banisi Şah Nemətullah Vəli (1330-1431) olub. İbni-Ərəbi və Fəxrəddin İraqinin təsəvvüfi fikirlərinin təsiriylə yetişən Şah Nemətullah soyu İmam Cəfər əs-Sadiqə uzandığından bu təriqət şiə inanclılar arasında sürətlə yayılmışdır. Hərflərin sehirli olduğuna inanır, başqalarının nə dediklərinə əhmiyət vermir, vəhdədi-vücud anlayışına bağlı idilər.



*Nöqtəvi* – hürufilik fikirləri əsasında formalaşan bir təriqət. Təriqətin banisi Mahmud Pesixani (vəfatı 1428) olub və 1397-ci ildə özünü Mehdi elan etmişdir. Ruh köçünün olduğuna inan nöqtəvilik Səfəvilər ölkəsində geniş yayılmışdır. Mirzə Fətəli Axundovun "Aldanmış kəvakib" əsərində təsvir etdiyi Yusif Sərrac nöqtəvi dərvişlərindən idi.

*Nurbəxşiyyə* – kübrəvilikdən ayrılmış təsəvvüfi bir təriqətdir. Banisi Seyyid Məhəmməd Nurbəxş (vəfatı 1464) olub. Kübrəvilər kimi sufi həyatları olan nurbəxşiyyə tərəfdarları zikrlərində Seyyid Əli Həmədaninin "Əvrad əl-fəthiyyə"sini oxuyurdular. Toplu halda yemək yeyir və dua edirdilər.

Provizyonizm – Osmanlı iqtisadiyyat sistemində ehtiyac üzərinə qurulmuş iqtisadi fəaliyyət anlayış. Buna görə iqdisadi fəaliyyətin məqsədi ölkə daxilində mal və xidmətin bol, keyfiyyətli və ucuz olmasına çalışılırdı.

*Seyfiyyə* – hərbçilərə verilən ümumi ad. Seyf - ərəbcə "qılınc" mənasına gəlirdi. Seyfiyyə "qılınc istifadə edənlər" deməkdir.

*Simsar* – "qoruyan, nəzarət edən, alıcı ilə satıcı arasında vasitə" mənasın olan simsar aramey dilində "bazarlıq edən" deməkdir. Öz mənfəətinə uyğun iki tərəf arasında alver münasibtlərinə istifadə edənlərə verilən ad.

*Şazəliyyə* – Şimali Afrikada ortaya çıxan sufi təriqəti. Bani Əbül-həsən əş-Şazəli (vəfatı 1258) idi. Bu təriqətin başlıca xüsusiyyəti əhl-dünya olmaları və dünyəvi zövqləri qəbul etmələridir. Təriqət günümüzdə də varlığını davam etdirir.

*Tacı-heydəri* – Səfəvi şeyxi Heydər tərəfindən tərəfdarlarına geyindirilən on iki dilimlik sarığa verilən ad.

*Uc* – Anadoluda Bizans ilə sərhəd bölgələrdə yer alan ərazilərə verilən ad.

*Zəndıq* – zındıq. Zənd-Avesta adının "zənd" sözündən törəyib, məcusilərə (atəşpərəstlərə) verilən ad. Zamanla dinsizlər və ya dindən çıxanlar üçün istifadə edilməyə başlandı.



*On birinci fəsil*

# TÜRKLƏRİN ŞƏHƏR MƏDƏNİYYƏTİ



## 11.1. TÜRKLƏRİN ŞƏHƏR ANLAYIŞI

Qədim türklər şəhərə *balıq* deyirdilər. Xanbalıq, Ordubalıq kimi şəhər adları Xan şəhəri, Ordu şəhəri mənasına gəlirdi. XI əsrdə Oğuz türkləri və Qaraxanlılar balıq yerinə *kənd* adını istifadə etməyə başladılar. Səmərqənd (Səmər kənd), Yengikənd (Yeni şəhər) adları bu dövrdən etibarən türkdilli əsərlər arasında zikr edilməyə başlanmışdır. *Kənd* sözü türk dilinə soğd dilindən daxil olmuşdur. Kəlmə Xoten sakalarına aid mətnlərdə *kanth* şəklində keçir. Kəlimə Azərbaycan dilində kiçik yerləşim mərkəzi, Anadoluda isə *köy* mənasında istifadə olunur. Şəhər sözü pəhləvicə olub, ortasında bir qalanın olduğu əyaləti ifadə edirdi. Bu mənada Sasanilər öz dövlətlərinə *Eranşahr*, yəni "İran şəhəri" adını veriblər ki, günümüzdə bu "İran əyalətləri" mənasına gəlir. Şəhər sözü türk dillərində XI əsrdən sonra işlədilib. Türklər paytaxt şəhərləri digər şəhərlərdən ayırmaq üçün hökmdar sarayının olduğu şəhərlərə *ortuğ*, yəni ordugah şəhəri deyiblər.

*Elat* deyilən yarımköçəri həyat tərzinə baxmayaraq, qədim dövrlərdən etibarən türklərin şəhərçilik anlayışına sahib olduğu məlumdur. Çin mənbələrində Hun şəhərlərindən, İslam mənbələrində Göytürk şəhərlərindən bəhs edilir. Ancaq günümüz mənasında şəhər anlayışı ilə qədim və orta əsrlərin şəhər anlayışları eyni deyildir. Müasir şəhərçilik sənaye inqilabı ilə birlikdə ortaya çıxıb. XIX əsrdən etibarən şəhərlərin sənaye mərkəzləri halına gəlməsi ilə şəhər insanların daimi yaşadıqları yerlərə çevrilmişdir.

Qədim və orta əsrlərdə şəhərlər müvəqqəti yaşayış yerləri hesab olunurdu. İnsanlar əsasən soyuq aylarda (payız və qış fəsillərində) şəhərlərdə məskən salır, isti aylarda ətraf ərazilərə köç edirdilər. Buna səbəb şəhər əhalisinin yarısının kənd təsərrüfatı ilə məşğul olması idi. E.ə.III minillikdən etibarən məbəd və kral saraylarının ortaya çıxması ilə insanlar şəhər tipli yerlərdə məskunlaşmağa başladılar. Zamanla həmin yerlərin ətrafı divarlarla əhatə olundu və şəhərin mühafizəsi ordular tərəfindən gerçəkləşdirildi. Şəhərdəki əhalinin əksəriyyəti şəhər ətrafında yerləşən geniş torpaq sahələrində əkinçiliklə məşğul olurdular. Onlar hərbi təhülkə anında şəhərlərə sığınır və şəhər qapıları bağlanaraq insanların təhlükəsizliyi təmin edilirdi. Şəhərlər məhsul anbarları və dövlət xəzinəsinin qorunduğu yerlər olduğundan başqa hərbi güclərin diqqət mərkəzində idi. Digər tərəfdən, qədim şəhərlərin özlərinin mistik güclərinin olduğuna inanılırdı. Həmin şəhərə sahib olmaq ilahi imtiyazlar əldə etmək mənasına gəlirdi. Məsələn, Bakı şəhəri bu baxımdan uzun əsrlər Şirvanşahlar xəzinəsinin qorunduğu mərkəz hesab edilirdi. IX-XIII əsrlərdə Bakı şəhəri ilə birlikdə şəhər ətrafında qalalar da inşa olunmuşdur. Kənd təsərrüfatı və ya heyvandarlıqla məşğul olan insanlar hərbi basqına məruz qaldıqlarında Bakıya gəlmələri çətin olduğundan həmin qalalara sığınırdılar. Mərdəkan, Şağan, Ramana kimi qalalar həmin funksiyanı icra edirdi. Bu, sadəcə türklərə deyil, bütün xalqlara məxsus bir şəhərçilik anlayışı idi. *Burq* adlanan



Avropa şəhərlərinin çoxu müvəqqəti sığınacaq yerləri olan qalaların müasir dövrdən etibarən sənayə mərkəzlərinə çevrilməsi ilə daimi yaşayış yerləri halına gəlmişdi.

Qədim türklər yay aylarında zəruri olan yaylaq həyatı xaricində, qışda barınmaq üçün evlər inşa etmişdir. Həmin yerlər şəhər funksiyası icra edirdi. Hunlar üçün belə bir yer müqəddəs yurd hesab olunan Ötükən idi. Türklərin Ötükəndə bağlar, bağçalar, əkin sahələri qurduqları, suvarma kanalları çəkdikləri arxeoloji araşdırmalar nəticəsində aydınlaşıb. Çin mənbələrinə görə, Türk xaqanlığının sağlam məskənləri, qurulu mərkəzləri mövcud idi. Hun hökmdarı Motunun Ongin çayı ətrafında Lonqda, Türk xaqanı İltəriş Çoğayda, Qaraqumda, İstəmi Yabqu Ek-dağda, İssıq göldə, Qərbi Türk xaqanlığının hökmdarı Tonq yabqu Toxmaqda qışlaq və yaylaq iqamətgahlar saldırmışdılar. Uyğurlar tərəfindən salınan Ordubalıq şəhərinin qalıntıları hələ də qorunur. Xəzər şəhərləri Bələncər, Səməndər, İdil, Varaçan, Sarığşın, Hamlıq, Sarkel haqqında məlumat verən müsəlman coğrafiyaçıları və səyyahları, xüsusilə də İstəxri, Müqəddəsi, İbn Hövqəl, İbn Fadlan və Məsudi bu şəhərlərin funksiyalarını da izah ediblər. Sinoloq Volfram Eberhard e.ə.1050-ci ildə Çində qurulan Cou (Çu) xanədanın türk mənşəli olduğuna diqqət çəkərək, onların süvari həyat tərzini, atlı arabanı, heyvan təqvimini və Göy Tanrı inancını Çində yerləşdirdiklərini qeyd edir. Qeyd edilən bu ünsürlər Çində ortaya çıxan şəhər həyatının başlıca atributları halına gəldi. Belə ki, Çin mərkəzində oturan Cou hökmdarı özünü "Göyün oğlu", ölkəsini isə dünyanın mərkəzi sayır, toxunulmaz hesab edilən hökmdar at arabalarında hərəkət edirdi. Türklərin əsas yurdlarından olan İdil və Ural ətrafındakı geniş ərazilər ilə VII-IX əsrlərdə oğuzların məskunlaşdıqları Sırdərya çayının şimal sahilləri böyük-kiçik çox sayda şəhərlərlə bəzənmişdi. Volqa ətrafında ən böyük şəhəri bolqalar salmışdı. Bulqar adlanan bu şəhər XIII əsrə qədər bölgənin ən böyük şəhəri idi.

Altay dağları ətrafında məskunlaşan qədim göytürklərin əcdadlarının əsas məşğuliyyəti və başlıca keçim qaynağı dəmirçilik idi. Onlar bu metaldan müxtəlif silah və döyüş texnikaları emal edir, məişət və bəzək əşyaları düzəldirdilər. Qədim türklərin dəmir ustalığında mahir olduqları mənbələrdə qeyd edilir. Çin xroniklərində yer alan məlumatlar, Bizans müəlliflərinin əsərlərindəki qeydlər və İslam coğrafiyaçılarının səyahətnamələrindəki təsvirlər bunu təsdiq edir. Türklərin bu xüsusiyyəti Altay ətrafında ibtidai bir sənayeləşmənin olduğunu deməyə əsas verir.

Rus arxeoloqlarının Selengənin Baykal gölü yaxınlığında ətrafı 4 xəndək ilə əhatələnən 75 hektarlıq ərazidə aşkar etdikləri Hun qəsəbəsində 80 evlə birlikdə dəmir və tunc emalatxanaları, dəyirman daşları aşkarladılar. *“American Journal of Physical Anthropology”* jurnalında koreyalı və monqol arxeoloqlarının çap etdikləri məqalədə tapılan Hun qəbirində qızıl boyunbağı, gümüş qaşıq, qızıl və tunc əşyalar haqqında verilən məlumatlardan hunların özünəməxsus sənəti anlayışları olduğu və mədənçiliyin inkişaf etdiyi vurğulanır. Talasda aşkar edilən hunlara aid qəbir əşyaları, Almatıya bağlı Karaqalinkədəki şaman qəbri müxtəlif bəzək əşyaları ilə bəzədilmişdir. E.ə.VI-V əsrlərə aid hunlara məxsus İssıq kurqanında tapılan əşyalar, gümüş çini üzərinə yazılan 26 hərflik yazı, qızıl paltarlı adam və s. kimi sənət əşyaları qədim türk tarixi və mədəniyyəti haqqındakı anlayışları dəyişdirdi. Belə sənətkarlıq nümunələri şəhər tipli yaşayış məskənlərinin varlığından xəbər verir. Çin mənbələrində qədim türklərin evlərini döyülmüş torpaq və ya taxtadan tikdiyi bildirilir. Bulqar şəhərinin ətrafı palıd şalbanlarla çevrilmişdi. V əsrdə yaşamış Bizans müəllifi Prisk sabarlar (sabirlər) haqqındakı məlumat verərkən yazır: “Sabarlar insan hafizəsinin xatırlaya biləcəyi zamanlardan bəri nə Pers, nə də romalılardan heç bir kimsənin düşünə bilmədiyi makinalara sahibdirlər. Belə ki, hər iki imperiyada mexanik icadlar əskik olmamış,





*İssıq kurqanlarından tapılan "Qızıl adam" hissələri*

hər dövrdə mühasirə mexanizmləri düzəldilmişdir. Ancaq indiyə qədər bu barbarlarınkına oxşayan bir ixtira nə kəşf edilmiş, nə də onlar kimi istifadə olunmuşdur. Bu, şübhəsiz insan ağlının əsəridir”.

Priskin qeydlərindən Attilanın indiki Macarıstanda yerləşən paytaxtının balaca və böyük saraylara, hərbi qarnizonlara, silah və ərzaq anbarlarına, insanların yaşadığı evlərə malik olduğu aydın olur. O, eyni zamanda Attila və xanımının gümüş və qızıl lövhələrlə işlənən, sütunlarla salonlara bölünən, taxta oymalarla nəqş edilən masalar, oturacaqlar, dolablarla bəzənmiş sarayından, romalı ustalar tərəfindən tikilən hamamdan da bəhs edir.

Digər tərəfdən, qədim türklərin divarlar, istehkamlarla çevrələnən şəhərlərdə yaşamaqdan çox xoşlanmadıqları da dövrün mənbələrində qeyd olunur. Böyük türk şəhərlərinin ətrafı, əsasən meşə, çay və dağ olurdu. Ətrafı qalalarla əhatə olunan şəhərlər, əsasən türklərin müsəlman dünyasında yaratdıqları şəhərlədə müşahidə olunurdu. Türklər yayıldıqları geniş ərazilərin şərtlərinə uyğun olaraq, öz şəhərçilik anlayışlarını formalaşdırıblar. Digər tərəfdən, türk şəhərləri, sadəcə türklərə məxsus deyildir. Bu şəhərlərdə türklərdən savayı müxtəlif xalqlardan insanlar da yaşayırdı. Bu qəbildən Türk dünyasında ticarətlə məşğul olan soğdlara aid şəhərlər və qəsəbələr vardı.



## 11.2. İŞQUZ (SKİF) SƏNƏTKARLIĞI VƏ TÜRK ŞƏHƏRSALMA TARİXİNİN KÖKLƏRİ

İndiki Monqolustanın şərqindən, Balxaş ətrafı, Orta Asiya, Vistula çayına qədər Şərqi Avropanı əhatə edən ərazidə saysız işquz kurqanları, sənətkarlıq nümunələri aşkarlanmışdır. Elmi əbəbiyyatda bu sənətkarlıq nümunələri ümumi mənada "Skif sənəti" adı ilə təhlil edilir. İşquz sənət əsərləri ustalığına, zənginliyinə, üslubuna, xüsusilə də qızıl məmulatından çox istifadəsinə görə seçilir. Tapılan əşyalar e.ə.VII-III əsrlər arasında tarixləndirilir və digər mədəniyyətlərin sənət nümunələrindən kəskin şəkildə seçilir. Bu əsərləri tədqiqatçılar "heyvan üslublu" sənət nümunələri adlandırırlar. Həmin əsərlərdə yunan və perslərlə qonşu ərazilərdə üslub yaxınlıqları diqqəti cəlb etsə də, ümumilikdə işquz sənətkarlığı özünəməxsusdur. Bu əsərlərdə qədim türk inanclarının, həyat tərzinin, xüsusilə də müharibə anlayışının izləri açıq və aydın şəkildə öz əksini tapmışdır.

Qrifonlar, vəhşi heyvanlar, ov səhnələri, işquz sənətində yüksək peşəkarlıqla və ustalıqla təsvir edilib, obrazlaşdırılıb. Arxeoloji araşdırmalar nəticəsində əldə olunan işquz sənət nümunələri, əsasən qızıl, taxta, dəri, sümük, tunc, dəmir, gümüş və elektrum kimi müxtəlif materiallardan hazırlanmışdır. İndiyə qədər işquz kurqanlarından parçalar halında çox sayda xalça, geyim, yəhər, ox ucları əldə edilmişdir. İqşuz metal işçiliyi o qədər peşəkarlıqla və ustalıqla icra olunmuşdur ki, dünya muzeylərində sərgilənən bu əsərlər günümüzdə də heyranlıq oyandırır. Bu da bizə, sonrakı dövrdə Göytürk metallurgiyasının köklərinin haradan qaynaqlandığını deməyə əsas verir.

İşquz sənətinin başlıca xüsusiyyəti qızıl məmulatlar və əsərlərdir. Əfqanıstanın Tillya təpəsi adlanan arxeoloji bölgəsində tapılan işquz sənət nümunələri arasında qızıldan düzəldilən əsərlərin sayı 20 min ədədi keçir. Birinci Dünya müharibəsindən əvvəl, çar Rusiyası ərazilərində aşkarlanan işquz kurqanlarından çıxarılan qızıl məmulatların həcmi tonlarla ifadə edilir ki, onların çoxu ya əridilmiş, ya da satılmışdır. Altayda Pazırıq kurqanında tapılan çox sayda qiymətli əsərlər arasında donvurma nəticəsində çürüməyib günmüzə qədər gələn xalça parçası türk xalçaçılığının şah əsəri hesab olunur. Pazırıq xalısı adlanan əsər e.ə.V-IV əsrlərə aid olub, 4,5x6,5 m ölçülərində rəngli keçədən aplikə üsulla toxunmuşdur. Xalça sovet arxeoloqu Sergey Rudenkonun *(Сергі́й Іва́нович Руде́нко; 1885-1969)* Altaylarda apardığı araşdırmalar nəticəsində tapılmışdır. Hazırda Sankt-Peterburqun Ermitaj muzeyində saxlanan Pazırıq xalısı işquz sənətkarlığının zirvəsidir. Pazırıq xalısı iç-içə bir neçə çərçivəyə bölünmüş, ilkində qrifonlar, ikinci sırada atlılar, üçüncü sırada sığırlar (maral), dördüncüdə hun çiçəyi şəklində simvollarla bəzənmişdir. Beşinci çərçivə isə çiçəkli 24 xanaya ayrılmışdır. Buradakı sığırların və orta xana sayının 24 olması rəmzi olaraq 24 tayfa ittifaqını ifadə etdiyi iddia edilmişdir. Xalıdakı atların quyruğu əski hun şəkillərindəki kimi düyünlənmişdir. Xalçanın harada və nə məqsədlə toxunduğu mübahisəlidir.

İşquz sənətinin başlıca xüsusiyyəti ikonoqrafik zənginliyi, əsasən də antromorfik heyvan obrazlarıdır. Qızıl plaklar və ya lövhələr üstündə canlandırılan ov səhnələri qədim türk inancının xüsusiyyətlərini əks etdirir. İşquz mücəvhərləri maral, pişik, quş, at, ayı, qurd və qrifonlar kimi müxtəlif heyvanları ifadə edir. Sənətkarlıq baxımından canlandırılan obrazın öz həllini tapması üçün işquz sənətkarları heyvanların ayaqlarını vücudun altına yerləşdirərkən, heyvanların hərəkətli olduğunu əks etdirmək məqsədilə onların əzələlərini qabarıq göstəriblər. Bir çox fiqurun *ilməkli* buynuzları, maralların isə Çin, Pers və Yunan təsvirlərində yer almayan fərqli xüsusiyyətləri ön plana çıxarılıb. E.ə.VI əsrə aid Kubanda *(Kostromskya)*, e.ə.V əsrə aid Macarıstanda *(Tapioszentmarton)* və e.ə.IV əsrə aid Krımda *(Qul oba)* tapılan işquz kurqanlarından əldə edilən sənətkarlıq nümunələrində yer alan kişi və ya atlı təsvirlərində şəxsin mənsub olduğu boyun və ya tayfanın da xarakterik dəyərləri verilmişdir.



*Arxeoloji qazıntılar zamanı tapılan İşquz sənətkarlıq nümunələri*



İşquz sənətində süvari kimliyi başlıca xarakter kimi ön plana çıxardılır. Xüsusilə də atla eyniləşdirilən süvari obrazı orta əsrlər türk atlıları ilə eynidir. İşquz sənətində yunan elementlər e.ə.IV əsr nümunələrində ortaya çıxrır. 1990-2000-ci illərdə Ukrayna və Rusiya muzeylərinin dünyada açdıqları sərgilərdə kataloqlaşdırılan işquz əsələrinin sayı on minləri keçir.

XIX əsrdən sonra yağmalanan və talan edilən işquz kurqanları ancaq XX əsrin ortalarından etibarən qorunmağa başlanmışdır. Tamamı Rusiya ərazisində yerləşən bu əşyalar XVIII əsrdən etibarən Peterburqdakı Ermitaj muzeyində toplanmaqdadır. Rus çariçası Yekaterina *(1762-1796)* işquz sənət əsərlərindən o qədər təsirləndi ki, həmin əsərlər üstündə sistemli çalışmaların aparılmasını əmr etdi. Ancaq çar dövrünün sənətkarları işquz sənətkarlarının ustalığını təqlid edə bilmədiklərini etiraf etdilər.

İşquz arxeologiyasının banisi Nikolay Veselovskiy *(Никола́й Ива́нович Весело́вский; 1848-1918)* qəbul edilir. İlk dəfə o, xüsusilə də Orta Asiyada işquz kurqanlarının planlı arxeoloji qazıntılarını aparmışdır. Sovet dövründə işquz arxeologiyasının başlıca mərkəzi Altay oldu. Burada 1925-ci ildən etibarən başladılan araşdırmalar 1949-cu ilə qədər davam etdi və Pazırıq daxil olmaqla, 5 böyük məzarlıq ərazi araşdırıldı. Sovet arxeoloqlar 1978-ci ildə Şimali Əfqanıstanda bir sıra işquz kurqanları aşkarladılar. Tillya təpəsi adlanan ərazidə 6 qəbir kəşf edildi və həmin qəbirlərdə işquz-hind əlaqələri ortaya çıxarıldı. Ukraynanın Belsk şəhərində aparılan qazıntılarda isə Herodotun təsvir etdiyi işquz həyat tərzinin maddi incəlikləri ortaya çıxarıldı. Bəzi kurqanlarda aşkarlanan saç, sümük, xüsusilə də peruqlar məzar anlayışının sonrakı dövr türklərlə eyni olduğunu ortaya çıxartdı.

2001-ci ildə rus-alman arxeoloqlar Tuva Respublikasının paytaxtı Kızıl yaxınlığında yeni arxeoloji araşdırmalara

başladılar. Həmin araşdırmalarda arxeoloqlar o qədər zəngin materiallar əldə etdilər ki, tapılan əşyaların sadəcə 5 mini qızıl dekorativlərdən ibarət idi. Həmin parçalar içində çox sayda üzük, sırğa, muncuq, qolbağ kimi bəzək əşyalarının olması qədim türk yurdu Altayda inkişaf etmiş bir mədənçiliyin olduğunu deməyə əsas verir. Üstəlik, bu əşyalar yunan, hind, Çin və Pers təsirlərindən uzaq sənətkarlıq anlayışına görə hazırlanmışdır.

Günümüzdə işquz sənətkarlıq əşyaları dünyanın müxtəlif ölkəsinin muzeylərində sərgilənir. İşquz əsərlərinin zənginliyi baxımından Ukrayna və Rusiya muzeyləri ilk sırada gəlir. Kiyev Dövlət Muzeyi, Rusiya Ermitaj muzeyi, Budapeşt Muzeyi, Macarıstanın Miskolc Muzeyi, hətta Əfqanıstanın Milli Muzeyində sayı on minləri olan işquz sənət əsərləri yer alır. İşquz qızıl əsərləri Ukraynanın Tarix Xəzinələri Muzeyi, Kiyev Arxeologiya İnstitutu, Pereyaslav Əyalət Tarix Arxeologiya qoruğunda muhafizə edilir. Azərbaycan və Anadoluda aparılan arxeoloji araşdırmalarda çox sayda işquz əsərləri tapılmışdır. Tapılan əsələrin əksəriyyətini işquz ox ucları təşkil edir.

İşquz sənətkarlığı türklərdə şəhər həyatının köklərini müəyyən etmək baxımından mühümdir. Bir sonrakı dövrlərdə hunlar ilə işquzların sosial həyatında bariz paralelliklərin olduğu, işquz dövründə böyük çadır şəhərciklərin mərhələli olaraq sabit məskunlara çevrildiyi aydın olur. Yarımköçər həyat tərzi işquz və türklərdə yaylaq-qışlaq şəhərçiliyin ortaya çıxmasına, ölkə paytaxtının iki mərkəzli olmasına səbəb olmuşdur. Bu anlayış sadəcə iqşuzlarda deyil, müasir dövrlərə qədər bir çox xalqların şəhər anlayışına uyğun bir həyat tərzi idi.

İşquz dövründə salınan böyük süvari qərargahları Hun dövründə *ordu şəhərlərinə* çevrilmişdir. Qədim türklər belə məkanlara *ortuğ* adı verirdi. Bir sonrakı mərhələdə sabit həyat tərzinin və sənaye mərkəzlərinin ortaya çıxması ilə bu şəhərlər *balık* adı verilən şəhərlərə çevrildilər. Buna





*İşquzlara aid Skifopolis şəhər qalıqları*

baxmayaraq, hunlar və göytürklər işquz həyat tərzini uzun müddət davam etdirdilər və bu proses Moğol dövrünə qədər davam etdi. Moğol dövründə artıq türk sosial həyatında şəhərli və köçəri aristokratiya arasında kəskin ziddiyyətlər, hətta açıq mübarizə gedirdi. Bu səbəbdən Çingiz xandan sonra Moğol dövlətinin taxtına oturan hökmdarlar artıq köçəri dünyanın deyil, böyük şəhərlərdə oturan imperatorlar kimi hərəkət etməyə başladılar.



## 11.3. QƏDİM TÜRK PAYTAXTI ÖTÜKƏN

Qədim türklər paytaxtı, yəni dövlətin mərkəzi şəhərini *ordu* adlandırırdı. Uyğurlar paytaxta *ortuğ* deyirdi. Bu mənada paytaxt seçilən şəhər üçün "*ordulanmaq*" (paytaxt elan etmək, yurd salmaq) sözü işlədilirdi. "Paytaxt" sözü "*bay-taxt*" mənasında türkcə "bay", farsca "taxt" ("*taxt*"a qədim türklər örgün deyirdi) sözlərindən yaranıb.

Türk mərkəzləri xüsusiyyətlərinə görə seçilirdilər. "Göy orda" hökmdarın mavi çadırının yer aldığı şəhər, "ağ orda" ağ rəngli hökmdar çadırının yerləşdiyi şəhər, "altın orda" hökmdarın qızıl çadırının yer aldığı şəhər adlanarkən, bütün bu şəhərlərin hamısına "*il örgünü*", yəni dövlət taxtı və "el ebi" (evi) deyilirdi.

Qədim türk şəhərlərinin məkan və memarlıq baxımından öz xüsusiyyətləri vardı. Orda adlandırılan şəhərlər dörd bucaqlı olub, hər bucağı dünyanın dörd cəhətini əks etdirirdi. Şəhər günəşin çıxdığı şərqə doğru açılırdı. Belə şəhər tipləri haqqında ilk dəfə Çu dövrü *(e.ə.1050-e.ə.249)* mənbələrində məlumat verilir. Belə şəhərlər *ordugah* hesab olunur və əsasən çadırlardan ibarətdi. Hökmdarın göy, qızılı və ya ağ rəngli böyük çadırı yer alan bu şəhərlər asanlıqla bir yerdən başqa yerə nəql oluna bilirdi. Hökmdarın çadırına *xaqan otağı* adı verilirdi.

Hun və Göytürk dövründə türklərin hökmdarlıq mərkəzi Ötükən adlanırdı. Türklər bu şəhəri *iduk* (müqəddəs) hesab edirdilər. Türk kitabələrində dövləti idarə etmək üçün Ötükənin mərkəz olaraq seçildiyi qeyd edilir. Burası Ötükən *yiş* (meşə) deyilən yaşıllıq bir yerdə yerləşirdi. Şəhərin *arkış*, yəni karvan yolu üstündə olduğu bildirilir. Türklər Ötükəni *el evi* adlndırırdılar. Kitabələrə görə, türk həyat tərzinə uyğun olduğu üçün Ötükən paytaxt seçilmişdir.

Bu şəhəri türklər "*altun yiş*" (qızıl meşə, yəni Günəşin doğulduğu meşələr) adlandırırdı. Ötükənin yeri qeyri-müəyyəndir. Kaşğarlı Mahmud əsərində şəhərin XI əsrdə "Tatar çöllərində, Uyğur ölkəsinə yaxın bir yerdə" olduğu xəbər verir. Çin mənbələrində həmin yer "Holin-şan" adını daşıyırdı. Tanq dövrü kitabələri Ötükənin Çanq-andan (Çinin paytaxtı) şimalda yerləşdiyini göstərir. Tədqiqatçılar şəhərin indiki Monqolustanın Xanqay sıra dağlarının şərqindən axan Orkun (Orxun) və Temür (Dəmir) çaylarının mənbələrini aldığı yerdə, uyğurların Ordu-balık, moğolların Qara Balasaqun dedikləri şəhərin bir qədər cənubunda yerləşdiyini iddia edirlər. Arxeoloji araşdırmalar nəticəsində tədqiqatçılar şəhərin Monqolustanın Zavxan-Aymak adlanan əyalətindəki 4021 m yüksəklikdə yerləşən Otqon Tenqrə dağı ətəklərində olduğu qənaətinə gəliblər. Hətta Otqon adının Ötükənlə əlaqəli olduğunu iddia edirlər. Hunların buraya "Əjdaha şəhəri" dediklərini çinli müəlliflər yazır. Bu, hökmdar bayrağının üstündə əjdaha təsvirinin yer alması ilə bağlı olmalıdır.

Yazılanlardan belə məlum olur ki, Ötükən bir tərəfində meşəlik, bir tərəfində dağlıq, bir tərəfində də çay axan ərazidə yerləşirdi. Şəhər XI əsrə qədər varlığını qorumuş, hunlardan sonra siyenbilərin, göytürklərin, basmıl və uyğurların mərkəzi olmuşdur.

Ötükən adının mənası da mübahisəlidir. V.V.Radlov şəhərin uyğurca "ütükən" şəklində yazıldığını qeyd edir. Çin mənbələrində şəhər "Ho-lin-çan" adlanır. Türkoloq V. Banqa *(Willy Bang Kaup; 1869-1934)* görə, Ötükən adı "ötükan" olub, "ötü – aradan keçmək" mənasındadır. Onun fikrincə, "Ötükən – keçid sahəsi" deməkdir. Çin mənbələrinin məşhur tədqiqatçısı P.Pelliota görə, çinlilərin "Tou-kien-çan, Tou-kan, Tou-kin, Tu-tou-kin" adını verdikləri şəhər Ötükən idi. Türk tarixçi H.N.Orkun isə Ötükən adını moğolca "atügən/itügən" sözü ilə açıqlayır. Qabainə görə, Ötükən geniş bir ərazinin adı idi. Həmin yer Xanqay dağ silsiləsinin cənub-qərb və cənub-şərq istiqaməti ilə Tannu-ola ətrafını əhatə edirdi. Müəllif Ötükən adını moğolca *etügen* və xalxaca *ötögön* sözləri ilə izah edib. Rasanen *(Räsänen Arvo Martti Octavianus; 1893—1976)* "Ötükən" adının etimolojik olaraq "ötü-kən"dən törədiyini bildirsə də, izahını vermir. Hamilton bu adın "ötüg – dua, yalvarmaq" və "kan" felindən törədiyini yazır.

Türkoloqlara görə, Ötükən adının sonundakı *-kan, -gen* şəkilçidir. Ötü isə qədim türk dilində *oci/öçi* – "söyləmək, cavab vermək, ifadə etmək, ibadət etmək, dua etmək, qurban kəsmək" kimi mənalara gəlir. Türk dilində "şahid, and içərək şahidlik etmək" mənasında öçiq sözü mövcuddur. Türk dilindəki "ötü/öti" sözünün qədim formasını "öçi" hesab edən Blesinq *(Uwe Bläsing; d.1955)* bu adı "yer üzünün şaman tanrıçası" mənasında izah edib. Yəni Ötükən "ibadət edilən yer", "dua edilən yer" deməkdir.

Ötükən böyük bir çadır şəhəri idi. Şəhərin ən yüksək hissəsində hökmdarın qübbəli böyük çadırı yer alırdı.



Şəhərdə daş və ağac binaların olub-olmadığı haqqında məlumat yoxdur. Şəhər əhalisinə "müqəddəs Ötükən dağı xalqı" deyilirdi. Şəhər geniş Ötükən ərazisinin şimalına düşürdü. Həmin yerin ortasında yerləşən təpəlik sahədə hökmdar çadırı qurulmuşdur. Tərhin kitabəsində – "Xaqan olan kimi Ötükənin ortasında As-Önqüz zirvəsində, Kan-İduk təpəsinin başında hökmdarlıq sarayını qurdurdum" – şəklində bir ifadə yer alır. Buradan As-Önqüz və Kan-İduk deyilən yerin hökmdarlara məxsus olduğu və xaqanların saray qədər böyük olan çadırlarının burada qurulduğu ortaya çıxır.

Burada As-Öngüz adı "ağ rəngli" mənasında işlədilib. Tərhin kitabəsində hər iki yer *As-Önqüz baş* və *Kan-İduk baş* şəklində verilib ki, burada baş "təpə, yüksək yer, dağın başı" mənasına gəlirdi. Həmin kitabənin başqa yerində Ötükəndəki hökmdar otağının tam yeri təsvir olunur: "Yaylağım Ötükənin şimal-qərb ucu, Tez çayının başı, şərqində Kanyuy və Künüy çayları" idi. Bu açıqlamadan məlum olur ki, indiki Monqolustanda Tesin gölünün (Tez çayı) başlanğıcından şərqdə Hanuy gölü və Huni (Huniyn) çayına qədər olan yerlər ifadə edilir. Kitabəyə görə, Ötükən isti aylarda hökmdar mərkəzi olaraq istifadə olunurdu.

Hökmdar sarayının olduğu Kan-İduk isə "müqəddəs xaqan"lıq təpəsi şəklində izah olunur. Hazırda Monqolustanın Otgon Tenqrə dağının olduğu yerdə başı qarla örtülü dağ zirvəsinin yaxınlığında ordugah salmaq üçün geniş yüksək düzənlik ərazi yerləşir ki, yay aylarında çox əlverişli idi. Ötükənin min ildən çox türklərin paytaxtı olduğu inancı var. Ötükənin ilk dəfə hunlar tərəfindən paytaxt seçildiyi məlumdur. Bozqır tayfalarının inancına görə, Ötükənə hakim olan boy türklərin hökmdar boyu hesab edilirdi. Tərhin kitabəsində bu anlayış belə ifadə olunur: "Ötüken eli sizd*e ebir ti(di)*", yəni "Ötükən yurdu sizindir, idarə edin, dedilər". Ayrıca, Göytürk



*Otqon Tenqrə dağı. Monqolustan*

kitabələrində “Tanrıdan səadət almış Ötükən eli” ifadələri keçir ki, bu da həmin yerin türklər üçün müqəddəsliyinə işarədir. Moğol yurdlarının şərqdə olmasına baxmayaraq, Çingiz xan qədim türk hakimiyyət anlayışına sadiq qalaraq xaqanlıq mərkəzini Ötükənin yerləşdiyi Orxonda qurmuşdur.





## 11.4. GÖYTÜRK XAQANLIQ MƏRKƏZİ MİNBULAQ

Əsasən Qərbi Türk xaqanlığının mərkəzi olan Minbulağın yeri mübahisə mövzusudur. Son illərdə Qazaxıstanda Çimkənd və Canbul bölgələrində aparılan tədqiqatlar Minbulaq adlı dörd yerləşim mərkəzin olduğunu ortaya çıxartdı. XX əsrin əvvəllərində fransız türkoloq Çavannes müsəlman coğrafiyaçılarından İbn Xordadbehə istinadən Minbulağın İsficab ilə Taraz arasında yerləşdiyini iddia etmişdi.

Həmin yer hazırda Juvalı Avdanı adlanır. Yerli camaat isə buraya Minbulaq deyir. Günümüzdə burası təpəlik bir ərazidir. Bölgə zəngin su qaynaqları ilə diqqəti çəkir. Böyük otlaq ərazilərinin olması qədim dövrlərdə həmin ərazinin türk tayfaları üçün çox əlverişli olduğunu deməyə əsas verir. Ancaq tədqiqatçılar arxeoloji araşdırmalar nəticəsində Minbulağı Talas ilə Toxmaq arasında müəyyənləşdiriblər. Burası hazırda Merkinin 60 km uzaqlığındadır.

Böyük bir vadi üzərində təməlləri atılan Minbulaq şəhəri çox sayda təpələrdən meydana gəlir. Bu təpələrin qədim

dövrdə yaşayış yerləri olduğu məlumdur. 1960-cı ildə qazax arxeoloqlar burada Yeki Aşa (İki Aşa) və Ak-saray adı verilən sahələrdə arxeoloji araşdırmalar aparmış və qiymətli materiallar əldə etmişdir. Tapılan materialların Qaraxanlılardan əvvəlki dövrə aid olduğu karvansarayların quruluşundan dəqiqləşdirilmişdir. Qoç şəklində daşın yer aldığı bu ərazidə qazaxlar hər il Novruz şənlikləri təşkil edirlər.

Minbulaq adlanan ərazidə çox sayda kurqan aşkarlanmışdır. Kurqanlardan tapılan əşyalar Göytürk dövrünə aiddir.

Minbulağın adı çinli rahib və səyyah Hsüan-tsanqın səyahətnaməsində Pinq-yü şəklində çəkilib. Səyyaha görə, burada minlərlə bulaq və gölməçə yerləşirdi. Xaqanlar yayı burada keçirirdilər.

Pinq-yü türk dilində "Bin yul" (Çien-çüen) mənasına gəlirdi. Minbulaq adlanan bu yerin öz adını ərazinin təbii şəraitindən aldığı aydındır. Türk dilində "yul" – çay və dərə mənasına gəlirdi. Turfan kitabələrində "yil, yuul" və "yulaq" sözü bulaq, Kaşğarlı Mahmudun əsərində isə su qaynağı mənasında işlədilib.

Çinli rahib Hsüan-tsanq şəhərin Toxmaq ilə Talas arasında yerləşdiyini yazır. Bəzi tədqiqatçılar Minbulağın Çu çayının Qaraqati qolu ilə Talas çayının qolu Yarsu arasındakı ərazini əhatə etdiyi fikrindədir. Minbulaq üçün ən uyğun ərazinin Alaarşa dağının şimalındakı bol sulu və yaşıllıq ərazinin olması ehtimalı yüksəkdir. Müsəlman coğrafiyaçılarının əsərlərində "Min göz" şəklində qeyd olunan bu şəhər Taraz ilə İsficab arasında idi. Şəhər xaqanların yaylağı adlanırdı. Xüsusilə Qərbi Türk xaqanları yay aylarını burada keçirirdilər. Geniş ərazini əhatə edən Minbulaq otlaqları və suyu ilə böyük bir ordugahın qalacağı məkan idi.





## 11.5. QARAXANLI PAYTAXTI BALASAQUN

Tarixdə ilk müsəlman-türk dövləti qəbul edilən Qaraxanlının *(766-1212)* paytaxtı Balasaqun adlanırdı. Şəhərin xarabalıqları hazırda Qırğızıstanın Çu çayı hövzəsində yer alır. Qaraxanlı dövründə ətrafında çox sayda kənd, qəsəbə və şəhərin yer aldığı Çu çayı qaynağını Tanrı dağlarından alır. Arxeoloqlar Balasaqunun indiki Ağ-Peşin deyilən xarabalıq ərazilərdə yerləşdiyini iddia edirlər.

Mənbələrdə adı Balasaqun, Balasakun və Valasağun şəklində keçən şəhər türklər tərəfindən Quz-balıq, Quz-ulaş və Quz-ordu adlanırdı. Çin mənbələri şəhəri Hu-sze-volu-do şəklində zikr edirlər.

Müsəlman səyyahlar, xüsusilə də İbn Xordadbeh, Müqəddəsi, Gərdizi və Yaqut əl-Həməvi Balasaqunu türklərin böyük şəhəri və mərkəzi adlandırıblar. Kaşğarlı Mahmud şəhərin türklərin əfsanəvi hökmdarı Çu tərəfindən salındığını bildirsə də, şəhərin quruluş tarixi qeyri-müəyyəndir. Adı qeyd edilən Çu xaqanın Böyük İsgəndər

dövründə yaşadığı bildirilir. Elxanlı tarixçisi Ata-Məlik Cüveyni XIII əsrdə bölgəni ziyarət edərkən şəhərin Uyğur xaqanı Bögü xaqan zamanında əsasının qoyulduğunu bildirir. Çin mənbələrində Şu və Sui-ye (Çu qalası) deyilən yerin Balasaqun olduğu ehtimal olunur. Bölgə VII əsrdə Qərbi Göytürk xaqanı Tonq yabqunun nəzarəti altında idi.

Balasaqunun inkişafı Qaraxanlı dövrünə təsadüf edir. Özünü xaqan elan edən ilk Qaraxanlı hökmdarı *Kül Bilgə Anucur xaqan (840-860?)* Balasaqunu paytaxt elan etmiş və bu şəhəri dünyanın ortası adlandırmışdı. Balasaqun hələ 766-cı ildən Qaraxanlı dövlətini yaradan qarluqların əlinə idi. Qəznəvi dövrü müəllifi Əbu Bəkr Əhməd ibn Hüseyn ibn Əli əl-Beyhaki *(995-1077)* Balasaqunun İliq Buğranın oğlu Harun Buğra xan və Toqan xan dövründə yüksək inkişaf etdiyini qeyd edir. Qaraxanlı dövründə buradan təxəllüsü əl-Balasaquni olan çox sayda alim çıxmışdır. Qaraxanlı dövrünün böyük ədib və şairi, eyni zamanda "Qutadqu-bilik" əsərinin müəllifi Yusif Xas-Hacibin balasaqunlu olduğu məlumdur. Onun kimi böyük fəqih (hüquqçu) Məhəmməd əl-Balasaquni ət-Türki və salnaməçi Camal əl-Qarşi də bu şəhərdə yetişmişdir.

Qaraxanlı dövründə Balasaqunun ətrafının divarlarla çevrildiyi, şəhərin çox sayda qapısının olduğu, şəhərdə məscidlərin, hamamların, bazarların yer aldığı qeyd edilir. 1210-cu ildə Qarakitay hökmdarı Gürqan Balasaqunu mühasirəyə aldığında şəhərin ətrafı divarlarla müdafiə olunurdu. Ancaq Qarakitay ordusu həmin müdafiəni dağıtmış və Balasaqunu ələ keçirmişdi. Bunun nəticəsində şəhərdə 47 min insanın qətl olunduğu, əhalinin bir hissəsinin də qaçdığı qeyd edilir.

Moğol dövründə Balasaqun digər türk şəhərləri ilə müqayisədə olduqca sakit və rahat həyat keçirmişdi. Hətta moğollar Qaraxanlı ailəsindən olan Məlik Buzar xanı Balasaquna hakim təyin etmişdilər və o da 1218-ci ildə buradakı Qaraxanlı hakimiyyətini yenidən bərpa etmişdir.





*Burana qülləsi*



*Balasaquna aid balbal*

1259-cu ildə Buzar xanın nəvəsi Danişmənd Tiginin Balasaqunda hökm sürdüyünü Moğol dövrü mənbələri zikr edirlər. Lakin bu tarixdən sonra Moğol əmirləri arasında meydana gələn taxt mübarizəsində Balasaqun bir neçə dəfə əl dəyişdirmiş və şəhərə böyük ziyan vurulmuşdur. XIV əsrdə əvvəlki əhəmiyyətini itirən şəhər zamanla xarabaya çevrilmişdir.

Çar Rusiyası dövründə və Sovet hakimiyyətinin ilk illərində tarixçi V.Bartold bir neçə dəfə şəhərin yerinin müəyyən edilməsi üçün təşkil edilən ekspedisiyalarda iştirak etmişdir. 1950-cildə arxeoloqlardan L.O.Kızlasov, P.N.Kojemyako, A.M.Şerbak və L.P.Zeyablin Ağ-Peşində apardıqları qazıntılarda ortaya çıxartdıqları şəhər qalıntılarının Balasaquna aid olduğunu iddia etdilər.



# 11.6. MÜSƏLMAN ŞƏRQİN MƏRKƏZİ BUXARA

Tarix boyu bir çox mədəniyyətin kəsişmə nöqtəsi olan Ceyhun və Seyhun (Amudərya və Sırdərya) çayları arasındakı geniş əraziləri müsəlman coğrafiyaçılar *Mavəraünnəhr* (iki çay arası) adlandırıblar. Hazırda Özbəkistan Respublikasının ərazisini təşkil edən Mavəraünnəhr şəhərçilik tarixi baxımından çox zəngindir. Tarix boyu Buxara Mavəraünnəhr bölgəsi üçün əsas siyasi-mədəni mərkəzlərdən biri olmuşdur. Özü də bir buxaralı olan *Əbu Bəkr Məhəmməd ibn Cəfər ən-Narşahi (899-969)* Samani hökmdarı *Nuh ibn Nəsrə (954-961)* təqdim etdiyi *"Tarixi-Buxara"* əsərində şəhərin tarixi haqqında geniş və ətraflı məlumat vermişdir.

Buxarada aparılan arxeoloji araşdırmalar şəhərdə yaşayışın 2500 il bundan əvvəl başladığını iddia etsə də, yazılı materiallar burada şəhər tipli məskunlaşmanın I əsrdə formalaşdığını təsdiq edir. Bölgənin iqtisadi, mədəni və kənd təsərrüfatı baxımından bir mərkəz halına gəlməsi isə V əsrə təsadüf edir. Çin mənbələrində Buxara ilə bağlı



məlumatlar V əsrdən etibarən başlayır. Çinlilərin "Numu" adı verdikləri bölgəni müsəlman coğrafiyaçılar "Numic-kənd" kimi qeydə alıblar. VII əsrdə Buxaranı ziyarət edən çinli buddist rahib Huanq-Tsanq şəhəri çincə "Puho" (Bu-ha-ra) kimi tələffüz etmişdir. Çinli rahib bölgənin monastırları haqqında məlumat verərkən Buxara adının "monastır" mənasına gəldiyini, sanskrit dilində "Vihara" olduğunu yazır.

Soğd əsilli xanədan olan Xudatların adı ilə şəhərin "Buxar-xudat" adlandırıldığı haqqında mənbələrdə məlumatlar da mövcuddur. Buxaranın soğdca "xoşbəxtlik verən yer" mənasında "buksarak" sözündən yarandığını qəbul edən tədqiqatçılar da vardır. Başqa bir mülahizəyə görə, şəhərin adı Uyğur türkçəsindəki "Bukar" və ya "Buxar"-dan əmələ gəlib. Kaşğarlı Mahmud bu yeri əsərində Soğdak və Buxara adı ilə qeyd edib. Belə məlum olur ki, tarix boyu Buxara fərqli adlarla mənbələrdə yer almışdır.

İpək yolu üstündə önəmli güzərgah şəhəri olması və ticarətin canlılığı səbəbi ilə Buxara bir zamanlar ticarət şəhəri anlamında "şəhri-bazarqanan" adlanmışdır. Göytürk dövlətinin tənəzzülündən sonra burada türk xanədan ailəsinə mənsub bir şəhər dövləti yaranmışdır. İslamın yayılmasından sonrakı dövrdə isə elm adamlarının, alimlərinin, ədiblərinin, həmçinin mədrəsələrinin və kitabxanalarının zənginliyi səbəbindən şəhər "Buxarayi-şərif", "İslamın məşəli", "Qübbətül-İslam" kimi adlar almışdır. İslam dünyasında Buxara Mədinə və Bağdadla müqayisə olunur və İslam Şərqinin mərkəzi adlandırılırdı. XIX əsrdə bölgəni ziyarət edən macar alim Armen Vamberi "Bir saxta dərvişin Orta Asiya səyahəti" adlı əsərində Buxaranı "İslamın Roması" olaraq təsvir edib.

Şəhər Zərəfşan çayının suladığı məhsuldar vadidə, hazırda Özbəkistanın qərbində yerləşir. Buxara qərbdə Türkmənistana, şimal-şərqdə Nəvai bölgəsinə, cənubda Qaşqa-dərya, şimal-qərbdə isə Xarəzm və Qaraqalpaq

yurduna açılır. Bir vilayət hesab olunan Buxaranın idarə mərkəzi də buradadır. Bu bölgədə 3 şəhər, 13 qəsəbə və 105 kənd yerləşir. Buxara ilə Nəvai arasındakı ərazilər isə ucsuz-bucaqsız çöllükdür.

Buxaranın ilkin orta əsrlərdə əsas əhalisini soğdlar təşkil edirdi. II əsrdə Hun təzyiqi ilə yurdlarını tərk edən yüeçilər Buxaranı ələ keçirdilər və beş yabquluqdan meydana gələn Quşan dövlətini qurdular. Quşanlar daha sonra buddizmi qəbul edincə, bu mədəniyyət Buxarada yayıldı. V əsrdən etibarən ağ hunlar Mavəraünnəhri ələ keçirib Buxara uğrunda Sasanilərlə mübarizə apardılar. Ağ Hun və Eftalit dövründə Mavəraünnəhr bölgəsi daha da inkişaf etdi və bu dövlətlər bir müddət Sasani dövlətini öz təsirləri altına saldılar. VI əsrin ortalarında göytürklərin sasanilərlə yaratdığı ittifaq nəticəsində Eftalit dövləti süqut etdi və Buxara Göytürk ilə Sasani dövlətləri arasında mübahisəyə çevrildi. Buna baxmayaraq, şəhərin yerli əmirlər tərəfindən idarə olunmasına qarışılmadı. Əslində, Buxara strateji mövqeyi ilə Çindən Romaya qədər uzanan İpək yolu üstündə ən mühüm mərkəz hesab olunurdu.

Buxara tarix boyu demək olar ki, bütün dinlərə qucaq açmış, müxtəlif inancdan insanlara qarşı sərgilənən xoşgörü səbəbindən buddist mənbələrinə "xoşbəxtlik yurdu" adı ilə daxil olmuşdur. Buxaranı ziyarət edən səyyahlar, rahiblər, elçilər şəhərdə çox sayda rahib gördüklərini və saysız məbədə rastladıqlarını qeyd ediblər. Hindistanda buddist inanclı Maurya dövlətinin *(e.ə.322-e.ə.185)* dağılmasından sonra öz ölkələrində müxtəlif çətinlik və təzyiqlərə məruz qalan buddist rahiblər Hindistan və Çin güzərgahında ticarət xətti boyunca şəhərlərə yayılarkən, mühüm bir hissəsi də gəlib Buxarada məskunlaşdılar. Ancaq Sasanilərin Mavəraünnəhri ələ keçirməsi bölgədə atəşpərəstliyin yayılmasına yol açdı və şəhərdə Məcusi məbədləri ortaya çıxdı. Nəsturi və yəhudi tacir və toplulluqları isə hələ IV əsrin əvvəllərindən bölgəyə gəlib yerləşmiş və burada öz



inanclarını sərbəst şəkildə yaşamaq imkanı əldə etmişdilər. Bölgənin Göytürk dövlətinin nəzarət altına keçdiyi dövrlərdə Buxarada yaşayan müxtəlif din mənsubları rahatlıqla öz dinlərini İpək yolu boyunca yaymağa başladılar. VIII əsrdən etibarən Buxarada İslam dini yayılmağa başladı.

Müsəlman fəthlərindən əvvəl Buxara əhalisi ilə müsəlmanlar arasında müəyyən ticari münasibətlər qurulmuş, şəhərə gələn müsəlman din adamları vasitəsi ilə İslam dini bölgəyə nüfuz etməyə başlamışdır. Əməvi Xilafəti dövründə *(661-755)* Xorasan valisi olan Ubeydullah ibn Ziyad 673-cü ildə Ceyhunu keçərək ordusu ilə birlikdə Buxaraya gəldi. Həmin vaxt Buxaranı türk soylu xanədana mənsub olan Kabaç Xatun adlı bir hökmdar idarə edirdi. Bu xanım hökmdar ərəblərin təzyiqini azaldaraq Buxaranın öz dini-mədəni kimliyini qorumasına nail olmuş və bölgə xalqı tərəfindən çox sevilmişdir. 709-cu ildə Orta Asiyada bir sıra dağıntılara səbəb olan Xilafətin Xorasan əmiri Quteybə ibn Müslüm şəhərin idarəsini Kabaç Xatunun oğlu Tuğşada tapşırmışdır. Əməvilərdən sonra Abbasi Xilafətinin idarəsi altına keçən Buxara 874-999-cu illər aralığında Samani dövlətinin paytaxtı oldu. Samani dövründə İslam dini Buxarada hakim dinə çevrildi və şəhərdə çox sayda məscidlər tikildi. 992 və 999-cu illərdə Buxara ilk müsəlman-türk dövləti olan Qaraxanlı dövlətinin əlinə keçdi və bu tarixdən etibarən türklərin ən böyük mədəni mərkəzi halına gəldi. Qaraxanlı dövründə çox sayda türk gəlib şəhərdə yerləşdi və burada yeni sosial-mədəni münasibətlər yarandı.

1141-ci ildə Katvan meydan döyüşündə səlcuqluların qarakitaylara məğlub olduğu tarixdən sonra bölgədəki üstünlük xarəzmşahların əlinə keçsə də, Buxara daha bir müddət Qarakitay hakimiyyəti altında qaldı. Xarəzmşah Qütbəddin dövründə Buxarada nəzarəti ələ keçirən Xarəzmşahlar şəhərin inkişafında böyük rol oynadılar. Bu dövrdə Buxara *sədr* adlanan şəhər hakimləri tərəfindən idarə

olunurdu və şəhər elmi-mədəni baxımından inkişafının zirvəsini yaşayırdı. Daha sonra Buxarada moğollar, teymurlular, şeybanilər və Buxara xanlığı hökm sürdü. 1740-cı ildə Əfşar hökmdarı Nadir şah Buxarada öz hakimiyyətini təsis etdi və Məhəmməd Rəhim xanı bölgənin hakimi təyin etdi.

IX əsrdə bir müsəlman şəhəri halına gələn Buxara uzunluğu 1600 m olan qala ilə əhatələnmişdi. Şəhərin biri şərqə, digəri qərbə açılan iki darvazası vardı. Şərq qapısı Guriyan, qərb qapısı isə Registan adlanırdı. Şəhərin ümumi sahəsi isə 9 ha idi. Şəhərdə hakim ailə Buxar-xudatlara məxsus Böyükayı ulduzunu əks etdirən yeddi daş sütunlu saray yerləşirdi. Samanilərin ilk hökmdarları da həmin sarayda iqamət etdilər. Müqəddəsi X əsrdə Buxaranı ziyarət etdiyində həmin saray xəzinə, anbar və həbsxana olaraq istifadə olunurdu. Buxarada ilk məscid Quteybə ibn Müslüm tərəfindən inşa olunan Cümə məscidi idi ki, şəhərin Guriyan qapısı tərəfində yerləşirdi.

Qaraxanlı, Səlcuqlu və Xarəzmşahlar dövründə şəhər müsəlman-türk memarlığının ən gözəl nümunələrinin yer aldığı ehtişamlı məscidlər, minarələr, fərqli rəng tonlarının istifadə edildiyi karvansaraylar, imarətlər və mədrəsələrlə bəzənmişdi. Böyük elm və din xadimləri yetişdirən orta əsr Buxara mədrəsələrinin bəziləri günümüzdə də bu missiyanı icra edirlər. Abbasi Xilafəti dövründə bölgənin dini-idari və mədəni mərkəzi kimi önə çıxan Bəlx, Mərv, Nişapurdan sonra Buxara "Mavəraünnəhrin mirvarisi" adlanmağa başlandı. Samanilər türbəsi həmin əsərlər arasında günümüzə gələn ən gözəl memarlıq abidəsidir. X əsrdə tikilən türbə Buxaranın şimal-şərqində yerləşirdi. Türbə erkən müsəlman memarlığının lakonik xüsusiyyətlərini özündə əks etdirir. Bu əsər moğol dağıntılarından xilas olub günümüzə gələn Türküstan bölgəsinin ən qədim islami məzar kompleksidir. Türbə Abbasilərdən sonra bir neçə əsr Mavəraünnəhr və Xorasanı idarə edən sasani-türk





*Buxara qalası*

mənşəli Samani ailəsinin son istinadgahı olaraq inşa edilmişdir. Sistematik ölçüsü, çadır tərzi gümbəzi, düz sutunları, naxışlanmış qapıları və üzərində yer alan həndəsi quruluşu ilə türbə mükəmməl bir memarlığa sahibdir. 11 əsrlik tarixi boyunca türbə bir dəfə də olsun təmir olunmamışdır. Günümüzdə hər il minlərlə tacik Özbəkistana bu türbəni ziyarət üçün gəlirlər ki, buna səbəb sovet dövrü tarix və mədəniyyət ideologiyasında Samanilərin tacik dövləti olaraq təbliğ edilməsidir. Elə bu amil, türbənin sovet dövründə zərər görmədən qalmasına səbəb olmuşdur.

Buxaranın memarlıq baxımından ən parlaq abidəsi günümüzdə özbəklərin "Buxaro ərki" dedikləri Ərk qalasıdır. Təməllərinin V əsrdə atıldığı qala əsrlər ərzində dəfələrlə yıxılıb və yenidən inşa olunub. Qala hazırda Buxaranın şimal-qərbində tarixi bir qəsəbə formasındadır. 1920-ci ildə bolşeviklər bölgəni ələ keçirənə qədər qala Buxara xanları tərəfindən istifadə olunmuşdur. Ətrafındakı divarların çevrəsi 789,6 metr, qapalı ərazisi 3,96 ha, divarın hündürlüyü 10-16 m olan Ərkin giriş qapısı XVIII əsrdə seramonik olaraq iki qülləli tikilərək qalaya əlavə edilmişdir. Ərkin



*Kolon məscidi*

mərkəzində böyük bir bina kompleksi ucalır. Xalq arasında Uldukhraton məscidi deyilən yerdə qırx qızla bağlı əfsanə hələ də danışılmaqdadır. Əfsanəyə görə, Buxara qalasını Siyavuş tikdirmişdir.

Buxara Registan meydanının sağ tərəfində Kolon məscidi, solunda Mir Ərəb mədrəsəsi, ikisinin arasında yuxarı tərəfdə isə çox hündür olan Kolon minarəsi yerləşir. Meydanda ən qədim abidə məhz Kolon minarəsidir. Minarə 1127-ci ildə Qaraxanlı dövründə tikilmişdir. Hündürlüyü 46 metr olan minarə İpək yolu üstündə bir növ mayak rolunu oynamış, dəvə karvanlarının uzaqdan şəhəri görməsinə xidmət etdiyi iddia edilmişdir. Bu minarə haqqında maraqlı bir rəvayət da mövcuddur. Rəvayətə görə, Çingiz xan öz ordusu ilə Buxaranı işğal edən zaman Registan meydanına gəlir. Minarənin təpəsinə baxmaq üçün başını qaldıranda dəbilqəsi yerə düşür. O, dəbilqəni götürmək üçün əyilir və bu zaman – “Mən heç vaxt kiminsə və ya nəyinsə qarşısında təzim eləmədim, yalnız bu minarənin önündə əyildim” – deyir.



Kolon məscidinin sağ və sol yanlarında qarşısı sütunlu artırmadan ibarət çox sayda hücrələr yerləşir. Həyətin ortasında böyük bir ağac, ağacla məscidin arasında isə hündür məqbərə ucalır. İslamiyyətdən qabaq zərdüştlərin bu yerdə məbədlərinin olduğu qeyd edilir. Ancaq Qüteybə ibn Müslüm məbədi sökdürüb yerində həmin məscidi tikdirmişdir. XVI əsrdə isə Abdulla xan həmin məscidi yenidən bərpa və inşa etdirmişdir. Məscid eyni anda 12 min müsəlmanın namaz qıla biləcəyi genişliyə sahibdir.

Məscidin qarşısında məqbərə yerləşir. Bu məqbərənin çox dramatik keçmişi var. Rəvayətə görə, Çingiz xan Buxaranı işğal edərkən məscidə atı ilə girmişdir. Çingiz xan məsciddə bir neçə dəfə pişnamaza səslənmiş, ancaq o, namazını pozub ona cavab verməmişdir. Buna qəzəblənən Çingiz xan pişnamazın başını namaz qılarkən vurdurmuşdur. Ürəyi yenə soyumayan Moğol xanı 3 min müsəlman uşağı məscidin həyətinə toplayıb qılıncdan keçirilməsini əmr etmişdir. Qətl olunan həmin uşaqların xatirəsinə bu məqbərə ucaldılmışdır.

Buxarada XV-XVI əsrlərə aid çox sayda mədrəsə, bazar mövcuddur. Onlardan ən məşhurları Mirzə Uluqbəy mədrəsəsi 1417-ci ildə, Əbdüləli xan mədrəsəsi 1652-ci ildə tikilmişdir. XVI əsrə aid üstüörtülü bazar Buxaraya ayrı bir gözəllik qatır. Buxara hakimi İmamqulu xanın *(1611-1641)* vəziri Nadir Divan bəyin adına mədrəsə əslində 1622-1623-cü illərdə karvansaray olaraq inşa edilmiş, daha sonra İmamqulu xan tərəfindən mədrəsəyə çevrilmişdir. Nadir Divan bəy karvansarayın önünə əsas qapılar və bucaqlı qüllələr tikdirmişdir. Hazırda mədrəsə Buxaranın seçilən memarlıq abidələrindən sayılır. Şeybani hökmdarı II Abdullah xan *(1583-1598)* da şəhərin mədəni görkəminin formalaşmasında böyük rol oynamışdır. Onun əmri ilə Buxarada məscid, mədrəsə, karvansaray, su anbarı və körpü tikilmişdir. Buxarada tikilən iki böyük mədrəsə onun dövrünə aiddir.



*Nadir Divan bəy mədrəsəsi*

XIX əsrdə İslam dünyasının ən böyük şəhərlərindən hesab olunan Buxarada 360 küçə, 103 mədrəsə, 24-ü şəhər daxilində, 22-si isə şəhər xaricində olmaqla, 46 bazar, 24 daş, digərləri ağacdan inşa olunmuş 38 karvansaray, 16 hamam yer alırdı. Orta Asiya və Volqa boyu müsəlmanları üçün ən yüksək dini təhsilin verildiyi Mir Ərəb mədrəsəsi, Kükəltaş mədrəsəsi, Abdulla xan mədrəsəsi burada yerləşirdi. Nəqşibəndiliyin vətəni olan Buxarada Nəşibəndiyyə külliyəsi də yer alır. Buxaradakı hamamların ətrafı isə gül baxçaları ilə örtülmüşdür.

Buxara orta əsrlərin ən böyük elm mərkəzi idi. IX-X əsrlərdə yaşamış böyük hənəfi alimi Əbu Nəfs əl-Kəbir, böyük hədis alimi Müsnədi, Bilkəndi, İmam Buxari kimi tanınan İslam aləminin ən böyük alimlərindən olub, *"əl-Cami əs-səhih"*, *"ət-Tarix əl-kəbir"* və *"Xəlqu əfalil-ibad"* əsərlərinin müəllifi Məhəmməd ibn İsmayıl əl-Buxari *(810-870)*, Samani sarayının böyük şairi Rudəki *(860-941)* bu şəhərdə yetişmişdir. Buxara elminin zirvəsi heç şübhəsiz Məhəmməd ibn Musa əl-Xarəzmi *(780-850)* sayılır.





*İmam Buxari xatirə muzeyi*

İslam aləmində "əş-şeyx ər-rəis, höccət əl-həqq" adları ilə tanınan böyük tibb və fəlsəfə alimi İbn Sina da Buxarada təhsil alıb yetişmiş və fəaliyyət göstərmişdir. O, Buxaranın Əfşənə kəndində dünyaya göz açmışdır. İbn Sina riyaziyyat, fəlsəfə, tibb, təbiət, astronomiya haqqında əsərlər yazmışdır. Teymurlu dövrünün təzkirə müəllifi Dövlətşah "Təzkirət-üş-şüəra" əsərində İbn Sinanın Buxarada doğulduğunu yazır. Atası Samani hökmdarı Nuh ibn Mənsur zamanında *(976-997)* Harmasysen adlı bir kənddə dövlət məmuru çalışmış, daha sonra Buxaraya gəlib yerləşmişdir. Sina adının orta əsrlərdə Azərbaycanda bir yerləşim mərkəzi olduğu diqqətə alınaraq, İbn Sina ailəsinin Azərbaycandan Bəlxə, oradan da Buxaraya gəldikləri ehtimal edilmişdir. Onun haqqında ətraflı məlumat tələbəsi Əbu Ubeyd əl-Cûzcani tərəfindən qələmə alınmışdır. İbn Sina hələ 18 yaşında olarkən Samani hökmdarını müalicə etmək üçün saray həkimliyinə gətirilmişdir. Ancaq Buxara 1016/7-ci ildə Qəznəvi hökmdarı Sultan Mahmudun *(999-1030)* hakimiyyəti altına keçdikdən sonra İbn Sina şəhəri tərk edərək Həmədana gəlmiş və həyatını orada tamamlamışdır. İbn Sina öldüyündə özündən sonra 200 elmi əsərini buraxmışdır ki, onların ancaq bir hissəsi günümüzə gəlib çatmışdır. Həmin əsərlər arasında *"əş-Şəfa"*, *"ən-Nəcat"*, *"əl-İşarət vət-tənbihat"*, *"Danişnaməi-əlayi"*, *"əl-Hidayə"*, *"əl-Hikmət əl-aruziyyə"*, *"əl-Qanun fit-tibb"*, *"əl-Hüdud"* kimi risalələri, sadəcə Şərqdə deyil, orta əsrlər Avropasında da məşhur idi.

Buxarada bütün orta əsrlər boyu böyük elm adamları, ədiblər, sufilər, dərvişlər, şairlər fəaliyyət göstərmişdir. Onlardan X əsr Saleh Cəzəri, Fərəbri, Rudəki, Məhəmməd ibn İbrahim Kələbazi, Əmiri, XI əsrdə Əbu Abdulla əl-Həlimi, Nəsihi, Halvani, Soğdi, Əbül-fəzl əl-Pəzdəvi, Xahərzadə, Sərəxsi, Əbül-Yüsr Pezdəvi, XI əsrdə Əbül-Moin Nəsəvi, Əbu İshaq əs-Səffar, Yusif əl-Həmədani, Sədr əş-Şəhid, Ədib Sabiri-Tirmizi, Amaki-Buxari, Əhməd Yəsəvi, Suzəni, Məhəmməd ibn Əbu Bəkr İmamzadə, Sabuni, Əttabi, XIII əsrdə Bürhanəddin əl-Buxari, Əbdülhaluq Gicduvani, Sədidüddin Məhəmməd əl-Əvfi, Mahmud ibn Əhməd əl-Həsiri, Kərdəri, Baharzi, XIV əsrdə Əbu Bəkr Kalabazi, Tacüşşəria, Nəsəvi, Fağnəvi, Səmmasi, Sədrüşşəria əs-Sani, Əmir Kulal, Bəhaəddin Nəqşibəndi, Əlaəddin Əttar, XV əsrdə Arifi Dikgərani, Məhəmməd Parsa, Əmir Sultan, İsməti Buxari, Yaqubi Çələbi, XV əsrdə isə Əmir Buxari Seyyid Əhməd, Əmir Padişah, Burunduki Buxari kimi ədiblər, alimlər, təsəvvüf alimləri, mühəddis və fəqihlər ilə yanaşı, çox sayda şair yetişmişdir.





## 11.7. MÜSƏLMAN-TÜRK MƏDƏNİYYƏTİNİN BEŞİYİ – KAŞĞAR

Kaşğarlı Mahmudun əsərində adı "Ordukənd" olaraq keçən Kaşğar Şərqi Türküstanda və İpək yolu üstündə yerləşən tarixi bir şəhər və mədəniyyət mərkəzi idi. Türk dili və ədəbiyyatı, fikri, mədəniyyəti baxımından əvəz edilməz mənbəsi sayılan Yusif Xas Hacibin "Qutadqu-bilik" (Xoşbəxtlik kitabı) əsəri bu şəhərdə qələmə alınıb. Türkologiya elminin ana qaynağı sayılan "Divani lüğət-it-türk" əsərinin müəllifi Mahmud bu şəhərdəndir. Böyük həndəsə alimi Cəmaləddin Səid ibn Məhəmməd ibn Müsəddiq Kaşğari, tibb alimi İmaməddin Kaşğari, XI əsrdə yaşamış böyük alim və təbib Məhəmməd ibn Rəşid ibn Əli əl-Kaşğari, tarixçi Əbdülqəffar ibn Hüseyn əl-Kaşğari kimi ədiblər və alimlərin ata yurdu Kaşğar olmuşdur.

İpək yolunun qovşaq nöqtəsində yerləşməsi səbəbi ilə Kaşğar mədəni, elmi, fikri baxımından Şərqlə Qərb arasında qarşlıqlı təsirlənmə məkanlarından biri idi. Kaşğar İslamiyyətdən əvvəl manixeizm, buddizm, nəsturilik kimi bir



*Qaşqarda ən qədim ev*

çox dinə qucaq açmış, inanc baxımından bir xoşgörü diyarı olmuşdur. Kaşğar Hun, Göytürk, Uyğur xaqanlıqları, Turfan uyğurları dövründə isə türklərin başlıca iqtisadi-ticari mərkəzi olaraq, Hind-Çin arasındakı mədəni-ticari təsirlənmələrinin də mərkəzi sayılırdı. Qaraxanlılar miras olaraq aldıqları Kaşğarın inkişafında böyük rol oynamışdılar. Şəhər xüsusilə də Yusif Qadir xan zamanında *(1020-1032)* Türküstanın ən böyük şəhəri sayılırdı.

Qaraxanlı dövründə Kaşğar şəhərinin əsas əhalisini türklər təşkil edirdi. Şəhərdə qarluq, çigil, yağma, uyğur, tuhsi kimi müxtəlif türk boylarının mənsubları məskunlaşmışdı. Bu baxımdan Kaşğar orta əsrlərin türk xüsusiyyətləri daşıyan başlıca şəhəri adlanırdı. Tarixçi-alim Z.V.Toqan Biruni və Firdovsinin verdiyi məlumatlara əsasən, Kaşğarın türklər tərəfindən təməli atılan bir şəhər olduğunu dilə gətirmişdir.

Şəhərin adı müxtəlif dövrlərdə və müxtəlif dilli mənbələrdə fərqli şəkillərdə zikr edilmişdir. Sanskrit mətnlərində *Srikritati* adlan şəhər, qədim çincə mətnlərdə



*Su-lək* (Sulə) şəklində zikr edilir. Çinli buddist rahib Hsüan-Tsanq səyahatnaməsində şəhəri *Chia-sha* adı ilə qeyd edir. Kaşğar adına yaxın bir termin "Tang-şu" adlı çincə salnamədə *Khü-şa* işlədilir ki, bu ad daha çox uyğurların Kuça şəhərini əks etdirir. Kaşğar adının farsdilli mənbələrdə "çini" mənasında "kaşı" və "gər" birləşməsindən yarandığı iddia edilir. Kaşıgər çinili, naxışlı şəhər deməkdir. Şəhərin adı müsəlman coğrafiyaçılarının əsərlərində *Kaçkar, Kaşhar* şəklində keçsə də, Elxanlı tarixçisi Cüveyninin "Tarixi-cahangüşa"sında *Qaşğar* formasında zikr edilib. Marko Polonun verdiyi məlumatlara görə, Kubilay xanın dövrünə qədər Kaşğar şəhəri müstəqil bir xanlıq olaraq fəaliyyət göstərirdi.

XVI əsrdən sonra şəhərin başlıca əhalisi uyğur, qarluq, özbək və qırğızlardan ibarət idi. Bu tarixdə Kaşğar Şərqi Türküstanın ana şəhəri sayılırdı. Tarixdə bir müddət Qaraxanlı dövlətinin mərkəzi olan Kaşğar, dövlətin şərq və qərb olaraq ikiyə ayrılmasından sonra Şərqi Qaraxanlı dövlətinin paytaxtı olmuşdur. Şəhər bir müddət Qarakitay dövlətinin nəzarətində qalmış, daha sonra moğolların nəzarətinə keçmişdir. Cığatay xanlığı, Teymurlu və Şeybani dövründə Kaşğarın əhəmiyyəti nisbətən azalmış, 1514-cü ildə şəhər Babur şahın dayısı oğlu Seyid xan tərəfindən idarə olunurdu. Həmin xan Kaşğar, Xotən və Yarkəndi ələ keçirərək Yarkənd xanlığını təsis etmişdir. Ancaq 1759-cu ildə Kaşğar və ətrafını işğal edən Çindəki Mançu hökmdarları burada bir hərbi qarnizon yerləşdirdilər.

Şəhərinin ortasından keçən Qızılsu çayı Kaşğarı Yenişəhər və Köhnəşəhər olaraq iki yerə bölür. Meydana gələn zəlzələlərdən ciddi ziyan görən Köhnəşəhər 1514-cü ildə Sultan Səid xan və Mirzə Əbubəkr arasında cərəyan edən hakimiyyət mübarizəsində böyük dağıntıya məruz qalmışdır. İçərişəhər adlanan hissə Kaşğarın ən qədim məhəlləsidir. Şəhərin mərkəzində Eydgah meydanı və eyni adlı məscid yerləşir.



*Kaşğarlı Mahmudun dünya xəritəsi*

Hazırda Pakistan, Qırğızıstan və Əfqanıstanla sərhədi olan Kaşğar Asiya və Avropa arasında önəmli keçid məntəqəsi sayılır və Çinin Orta, Cənub və Qərbi Asiya, Avropa ilə ticari əlaqələrinin ön xəttində yer alır. Kaşğarın Türk dünyası üçün tarixi və strateji əhəmiyyəti Kaşğarlı Mahmudun XI əsrdə hazırladığı dünya xəritəsinə baxıldıqda daha yaxşı anlaşılır. Müəllifin xüsusi qırmızı dördbucaqlar içinə aldığı dünyanın tam mərkəzində Kaşğar, Yarkənd, Xotən başda olmaqla, Şərqi Türküstan yerləşir. Mançu imperiyasının generalı Tso Tsunq-tanq bölgəni işğal edərkən dediyi ifadələrlə Kaşğarın da tarixi və strateji əhəmiyyətini vurğulamışdır. Ona görə, Sincana hakim olmaq Monqolustanın qorunması deməkdir. Monqolustana hakim olmaq Çin paytaxtının qorunması üçün vacibdir. Çinin maraqları, təhlükəsizlik və müdafiəsi baxımından Şərqi Türküstan bilək ilə əl kimi birləşməyi tələb edir. Əgər Sincan əldən çıxarsa, Monqolustanın təhlükəsizliyi sual altındadır. Bu vəziyyətdə isə Çinin rahat yata biləcəyi bir gün belə olmayacaqdır.





## 11.8. SULTAN ŞƏHƏRLƏR: QƏZNƏ, MƏRV, XARƏZM VƏ HƏMƏDAN

*Sultan* titulu alan ilk türk hökmdarı Qəznəvi Mahmud idi. Mahmud siyasi hakimiyyətin dini-örfi əsaslarını formalaşdıraraq sultanların "*zillullah fi`l and*" (Allahın yerdəki kölgəsi) olduğu anlayışını müsəlman dövlətçiliyinə yerləşdirdi. Bu, "Tanrının və ya Göyün yerdəki kölgəsi" sayılan ənənəvi türk hakimiyyət anlayışının müsəlman siyasət teologiyasına ötürülməsi idi. Qəznəvilərdən sonra Səlcuqlu və Xarəzmşah hökmdarları özlərini sultan elan etdilər. Hökmdarların böyük və ehtişamlı saraylarda oturması ənənəsinin memarı da Mahmud Qəznəvi oldu. "Allahın yerdəki kölgəsinin" ehtişamlı imarətlərdə və saraylarda oturması əzəmət nişanəsi hesab olunurdu. Bu anlayış öz növbəsində sultan şəhərlər fikrini də ortaya çıxardı. Bu məqsədlə Sultan Mahmud kiçik bir qala şəhəri olan Qəznəni dövrün ən əzəmətli şəhəri halına gətirdi. Xüsusilə də qəznəvilərin Hind səfərlərindən əldə etdikləri böyük sərvətin çoxu şəhərin salınmasına, abadlaşdırılmasına və inkişafına xərcləndi.

Hazırda Qəznə şəhəri Əfqanıstanın paytaxtı Kabilin 145 km cənub-qərbində yerləşən eyni adlı əyalətin mərkəzidir. Dənizdən 2225 m hündürlükdə böyük bir ova üstündə yer alır. Burada şəhərin təməlləri hələ miladdan əvvəlki illərdə atılmışdır. Burada sakaların bir qolu olan *zabul* tayfaları məskunlaşdığına görə, bölgə Zabulistan adlanırdı. Qəznənin əsl adı Qanzak olub, Azərbaycanın qədim mərkəzi Qanzaka, Aranın mərkəzi Qanza (Gəncə) adı ilə eyni kökdən gəlir. Müsəlman coğrafiyaçılarının əsərlərində Qəznə və Qəznin olaraq qeyd edilir. XII-XIII əsrlərin müəllifi Yaqut əl-Həməvi *(1178-1229)* çoxcildlik coğrafiya əsəri olan "Mücəm əl-buldan" əsərində yerli xalqın şəhəri Qəznə adlandırdığını yazır.

Sakalardan sonra Qəznə yüe-çilərin, quşanların, ağhunları və eftalitlərin əlinə keçdi. Bütün bunlar Qəznənin ortaya çıxmasında qədim türk izlərinin təyinedici olduğunu göstərir. Sasani-Göytürk ixtilaflarında Qəznə tez-tez əl dəyişdirsə də, şəhər özünün ab-havasını qorumuşdur. VIII əsrin çinli səyyahı Xuei-çao Qəznədə çox sayda məbədin olduğunu və şəhərin Sha-Tarkan (Şah Tərxan) adlı bir türk əmir tərəfindən idarə edildiyini xəbər verir. Müsəlmanların Xorasanda hakim gücə çevrildiyi dövrdə Qəznədə yenə hakim güc türklər idilər. Həmin illərdə Qur bölgəsinə çox sayda oğuz, Qəznə ərazilərinə isə xalac və qarluq boyları gəlib məskunlaşdılar. Onların bölgəyə köçünün Sasani dövrünə qədər uzandığı qeyd edilir.

Qəznənin ehtişamlı dövrləri Samani dövründə başladı. Samanilərin türk əsilli komandanlarından olan Alp Təgin 963-cü ildə Qəznəni ələ keçirib, oranı özünə iqamətgah seçdi. Samani qulamlarından olan qarluq türklərindən Səbük Təgin zamanında *(977-997)* Qəznə artıq yeni yaranan bir dövlətin paytaxtı idi. Səbük Təginin oğlu Mahmudun 30 ildən çox davam edən hakimiyyəti illərində isə Qəznə imperiya mərkəzi halına gəldi. Onun dövründə Qəznədə saraylar, dərgahlar, hisarlar, imarətlər, hamamlar, məscidlər,



mədrəsələr, karvansaraylar ucaldılmağa başlandı. Şəhərdəki Sarayi-Adnani və Sarayi-Məhəmmədi adı ilə bilinən binalar həmin binaların ən ehtişamlısı idilər. Mahmud dövründə bu saraylara Dərgahi-ali və Dərgahi-həzrət adları verildi. Özünü *sultan əl-müəzzəm* (əzəmətli hökmdar), *sultani-bozorq* (böyük sultan) və *qaim biəmrillah* adlandıran Sultan Mahmud "məşriqin hökmdarı" (Şərqin hakimi) hesab olunurdu.

Qəznə soyuq və çöl iqlim şərtlərinə sahib coğrafi xüsusiyyətlərə sahibdir. Bölgə davamlı olaraq Aralıq dənizi, Sibir və Hind üzərindən gələn hava cərəyanlarının təsiri altındadır. Bölgənin Navər və Sərab adlanan hissəsində isə tundra iqlim əlamətləri müşahidə olunur ki, burası heyvandarlıq üçün son dərəcə əlverişlidir. Ancaq şəhər ağac və bağça baxımından çox əlverişsiz bir yerdə yerləşir. Buna səbəb şəhərin yaxınlığında yerləşən Dəşti-Navər çölüdür. Ancaq ən isti aylarda belə bu çöldəki istilik 15 dərəcəni keçmir. Qış aylarında Qəznə çox soyuq olduğundan həmin aylara *zəmhəri* adı verilirdi. Mənbələr şəhərdə 1031-ci ildə böyük bir sel fəlakəti yaşandığını da qeyd edirlər ki, belə hallar Qəznə üçün nadir hallarda baş verirdi.

Qəznəvi dövründə şəhərin dörd böyük qapısı vardı. Bu qapılar Səmanan, Kərdən, Sir və Bamiyan qapıları adlanırdı. Qəznəvi dövründə yüksək inkişafına görə İpək yolu istiqamətini dəyişərək Qəznədən keçməyə başlayınca, şəhər daha da inkişaf etməyə başladı. Qəznəni Xorasana bağlayan əsas yol Bust yolu idi. Hindistana doğru uzanan yola isə Gərdiz adı verilirdi. Bundan başqa, Yaqut əl-Həməvi Qəznədən Bamiyan və Xuttəlan istiqamətində də yolların mövcud olduğunu bildirir.

Səbük Təgin dövründə Qəznə əyalət olaraq Gərdiz, Seqavənd, Nuxan, Bundan, Dümrxahi, Xaşşu, Bari, Fermul, Sərxun Lacra, Huvast, Qurab, Zavəh, Kavil, Lamqan, Budən və Ləhuvgər adlı hissələrdən meydana gəlirdi. Onların hər biri Qəznə əyaləti daxilində bir şəhər idi. Qəznənin

özü isə Valistan, Abşin, İsbidcə, Məstənək, Sal, Səkirə, Sivəh-Siva, Kasir, Kusdar, Balak kimi nahiyələrə və Tasen, Kirman, Xalqani, Tahirabad, Xuzvir, Cüllab, Sərasiyab, Dixi-Ahəngəran, Çərx, Habsar adlı kəndlərə bölünürdü.

Qəznəvi dövründə Qəznədə çox sayda məscid inşa olunaraq bölgənin müsəlmanlaşması təmin edilmişdir. Mənbələrdə adları qeyd edilən məscidlər arasında Məscidi-Cami məhəlləyi-Rəis, Məscidi-Müfti, Məscidi-Baba Əli, Məscidi-Babaci, Məscidi-Qardgəri, Küncək və Əhmədi başlıca olanlarıdır. Qəznə özü Molla Məhəmməd, Məscidi-Otakşah, Müqabili Məscidi-Külalay, Səmt Qərbi Məhəlli-Rəisi kimi böyük və uzun yollara sahibdi. Şəhərin hər küçəsində bir türbə yer alırdı ki, bəzi müəlliflərə görə, haradasa bir evə bir türbə düşürdü. Bu da şəhərdə çox sayda ziyarətgahın olduğunu deməyə əsas verir. Şəhərin kənarında Rabaz adlanan yerdə bazar və binalar inşa olunmuşdu. Sultanlar hərbi səfərlər sırasında şəhər xalqı Rabaza toplaşaraq onları yol salır və qarşılayırdılar. Bunu Qəznəvi dövrünün şairi Fərruxi Sistani öz mərsiyyəsində təsvir edir.

Quşan dövründə Qəznədə çox sayda buddist məbədlər salınmışdır. Müsəlmanların bölgədə hakim güc olmasından sonra burada islami dini mərkəzlərin sayı artmağa başladı. Qəznədə Səbük Təgin, Sultan Mahmud, Sultan İbrahim kimi sultanların və şair Sənayi Qəznəvinin məqbərələri, Bəhramşah və III Məsud dövründən qalma minarələr aparılan arxeoloji araşdırmalar nəticəsində təsbit edilmişdir. Tapıntılar arasında Sultan Mahmudun türbəsindəki kufi yazılı kitabələr də yer alır.

Qəznə əhalisinin su ehtiyacını Qəznə çayı qarşılayırdı. Sultan Mahmud bu suyun üstündə 35 m hündürlüyündə bənd tikdirmiş və çayın suyunu şəhərə istiqamətləndirmişdir.

Qəznədə hənəfi və şafei məzhəbinə bağlı müsəlmanlar çoxluq təşkil etsə də, ilk dövrlərdə şəhərdə kərrami və mürciyyə məzhəblərinə bağlı insanlar da yaşayırdılar. Hər





*Bəhram şahın tikdirdiyi Qəznə minarəsi*

məzhəbin şəhərdə öz mədrəsəsi vardı. Şair Fərruxi Sistani mərsiyyələrinin birində Əli ibn Həsən Arizi-Ləşkər adlı birinin Qəznədə çox sayda mədrəsə tikdirdiyini yazır.

Qəznənin özünəməxsus memarlıq xüsusiyyəti vardı. Sultan Mahmud böyük və ehtişamlı binalar tikilməsini sevirdi, çünki bu eyni zamanda onun əzəmətini əks etdirirdi. Bu məqsədlə öz casuslarını Konstantinopola qədər göndərərək oradakı memarlıq abidələri haqqında məlumat toplamışdır. Topladığı bu məlumatlar nəticəsində İstanbuldakı "Dikili daş" formasında hündür qüllələr tikdirmiş və bu ənənəni demək olar ki, bütün bölgəyə yaymışdır. Tədqiqatçılar Orta Asiyada bu formada yüzdən çox qüllənin olduğunu təsbit ediblər. Mahmudun tikdirdiyi əsərlər arasında qəsrlər ilk sırada gəlirdi. Səhli-Abad, Mahmud köşkü, Köşkü-Səpid, Sultan Məsud dövründə *(1030-1041)* Köşkü-Məsud və Sultan Məhəmməd ilə Qaraxanlı hökmdarı Yusifin qızının evliliyinin gerçəkləşdiyi Əmir Məhəmməd sarayı həmin memarlıq əsərlərinə nümunədir. Qəznəvi dövründə şəhərdə çoxlu bağlar salınmışdır. Mənbələrdə Firuzi, Mahmudi, Sadhəzarə, Bu Nəsir adı ilə salınan bağların adları qeyd edilir. Şəhərdə kitabxanaların olduğu, mədrəsələrdə qiraət, təfsir, hədis, fiqh, təsəvvüf və kəlam elmlərinin öyrədildiyi bildirilir. Qəznəvi dövrü tarix elmi və ədəbiyyat sahəsində zirvə təşkil edir. Qəznə şairlərindən Unsuri, Ascadi, Fərruxi, Bəhrami, Zeynəbi, Buzr Cəmhər Kayini, Müzəfféri, Mənsuri,

Mənuçöhri, Məsudi, Qussari Ummi, Əbu Hənifə İskafi, Rəşidi, Əbül-Fərəc Runi, Məsud Sad Salman, Məhəmməd Nasir, Şah Burcan, Əhməd Xələf, Osman Mxtari, Sənayi Qəznəvi, sadəcə öz dövrlərinin deyil, sonrakı dövr ədəbiyyatına da güclü təsir etmiş şairlər olublar.

***

Qəznədən sonra ən böyük sultan şəhəri **Mərv** idi. Məhsuldar Murqab çayının deltasının aşağı hissəsində salınan şəhər orta əsr mənbələrində Mərvüşşahican olaraq qeyd edilir. Orta əsrlərin, xüsusilə də Səlcuqlu dövrünün ən böyük ticarət və mədəniyyət mərkəzi olan Mərv hələ Sasani dövründə mühüm bir istehkam şəhəri hesab olunurdu. Bu baxımdan Mərv Sasani dövlətinin son hökmdarı III Yezdəgerdin də sığınacağı olmuş və o, burada öldürülmüşdür. 665-ci ildən isə Mərv müsəlmanlar üçün Xorasanın mərkəzi şəhəri qəbul edilirdi. Hətta Abbasi xəlifəsi Məmun *(813-833)* bir müddət Mərvi Xilafət paytaxtı olaraq istifadə etmişdir. Abbasiləri hakimiyyətə gətirən Əbu Müslüm üsyanı da burada meydana gəlmişdir.

1040-cı ildə Qəznəvi-Səlcuqlu arasında meydana gələn və ikincilərin zəfəri ilə tamamlanan Dəndənəkan döyüşündən sonra Səlcuqlu bəyləri arasındakı qurultay Mərvdə keçirilmiş və şəhər o tarixdən etibarən Səlcuqlu dövlətinin şərq hissəsinin mərkəzi olmuşdur. Ancaq Mərvi dövrünün ən gözəl şəhəri və ən böyük mədəniyyət mərkəzi halına gətirən Səlcuqlu dövlətinin son hökmdarı Sultan Səncər *(1118-1157)* oldu. 20 illik əmirliyi və 40 illik sultanlığı dövründə Sultan Səncər imperiyanın bütün böyük alimlərini, sənətkarlarını, ədiblərini, memarlarını bu şəhərdə topladı. Onun zamanında Mərvdə kitabxanalar, mədrəsələr, karvansaraylar, imarətlər ucaldıldı. Şəhər o qədər genişləndi ki, hətta qalanın xaricində yeni bir şəhər ortaya çıxdı və buna Yeni Mərv (Sultan Kal`a) deyilməyə başlandı. Mərv tarix boyu, əsasən din adamları və şairləri ilə tanınmışdır.



Burada dini elmlər sahəsində ilk məktəb Mərv qazısı olaraq da fəaliyyət göstərən Yəhya ibn Yamər əl-Advani tərəfindən təsis olundu. Şəhərdə qiraət və təfsir məktəbinin qurucusu isə Dahhak ibn Müzahim hesab olunurdu. Onun tələbəsi olan Ubeyd ibn Süleyman əl-Mərvəzi və Həsən ibn Yəhya əl-Mərvəzi böyük hədis alimləri idilər. Ümumiyyətlə, tarixə "Mərvəzilər" adı ilə girmiş çox sayda alim buradan çıxmışdır. Onlar arasında Əhməd ibn Əli əl-Mərvəzi, Məhəmməd ibn Nəsr əl-Mərvəzi, Əbu İshaq əl-Mərvəzi, Əbu Həmid əl-Mərvəzi, Əhməd ibn Hammad əl-Mərvəzi, Şərəfəddin Məhəmməd ibn Məsud əl-Mərvəzi, Əbu Talib əl-Mərvəzi, Həbəş əl-Həsib əl-Mərvəzi, Əli bin Xucr əl-Mərvəzi xüsusilə seçilirlər. Hənbəli məzhəbinin qurucusu Əhməd ibn Hənbəl də əslən mərvli idi. Əhalinin əksəriyyətinin hənəfi olduğu Mərvdə təsəvvüf cərəyanları da ortaya çıxmışdır.

Mərv ərazi olaraq 60 km² geniş və düz bir ərazini əhatə edir. Bu gün üçün qədim Mərvin ancaq xarabalıqları mövcuddur. Onlar arasında da memarlıq baxımından sadəcə Ərkqalanın qalıntıları qorunmuşdur. Əfsanəyə görə, Mərvi türklərin əfsanəvi hökmdarı Alp Ər-Tonqa saldırmışdır. Bölgədə əsas arxeoloji araşdırmalar 1950-ci ildə sovet arxeoloqu Qalina Puqaçenkova *(Галина Анатольевна Пугаченкова; 1915-2007)* tərəfindən həyata keçirilmişdir. Günümüzdə köhnə Mərvdən qalan memarlıq abidələri böyük təsəvvüf alimi Tusif əl-Həmədani məqbərəsi və məscidi, şəhərin Şəhrəyarqala adlanın yerindəki Səlcuqlu sarayı qalıntıları, Böyük Qızqala köşkü, Sultan qala divarları, Abdullah Xanqala divarları və bir neçə səhabənin türbəsidir.

Mərvin məhv olmasının başlıca səbəbi moğol istilası olmuşdur. Moğollar Mərvi daş üstündə daş qalmayacaq şəkildə yağmalamışdılar. Ancaq mənbələrdə yer alan məlumatlar Mərvin nə qədər geniş, böyük, abad və mədəni bir şəhər olduğunu deməyə əsas verir. Burada Dəndənəkan məscidi, Xoca Yusif Həmədaninin türbəsi, Xudanəzər Övliya türbəsi, Qız Bibi türbəsi, Məhəmməd ibn Zeyd türbəsi,



*Ərkqalanın qalıntıları*

Talhatan Baba məscidi, Başanə, Cümə məscidləri və Sultan Səncər türbəsi yer alırdı. Səlcuqlu dövründə şəhərin ən böyük elm mərkəzi Nizamiyyə mədrəsəsi ilə Şərəfəlmülk mədrəsəsi olub, hər ikisinin də sayı yüz mini ötən kitabxanaları vardı. Səncər dövründə Mərvdə Əbu Hənifə İskafi, Nasiri-Xosrov, Fəxrəddin Mərvəzi, Rəfi Mərvəzi və Qəzzali Mərvəzi kimi böyük şairlər yetişmişdir.

Mərvin inkişafının başlıca səbəbi şəhərdə fəaliyyət göstərən toxuculuq, keramika, şüşə və metal sənayesinin varlığı idi. Kənd təsərrüfatı və heyvandarlıq sahəsində də Mərv yer aldığı bölgənin təbii şərtləri səbəbindən geniş imkanlara sahib idi. Burada sadəcə yemişin (qovun) 150 növü mövcuddur ki, onlar arasında Türkmən qovunu adı ilə bilinən yemiş günümüzdə də məşhurdur. Mərvdə astronomiya, riyaziyyat, tibb və təbiət elmlərinə də böyük maraq olmuş, mənbələrdə bu sahədə yetişən alimlərin adları və əsərlərinin siyahısı qeyd edilmişdir.

Səlcuqlu dövrü Mərvində müsəlmanlarla yanaşı, azsayda manixeistlər, xristianlar, yəhudilər, zərdüştilər, məzdəkilər yaşayırdılar. Şəhər əhalisinin əksəriyyətini türklər, ərəblər və taciklər təşkil edirdi.



Sultan Səncərin ölümündən sonra tənəzzül edən Mərvin yerini sultanlıq şəhəri olaraq **Xarəzm** aldı. Aralın cənubunda uzanan geniş ərazini əhatə edən Xarəzm qədim bir yaşayış yeri idi. Bölgənin adı bir ehtimala görə, pəhləvicə *xar* (xavar – ət) və *rəzm* (odun) sözlərindən, başqa bir ehtimala görə isə *xarizm/harizm* adlı tayfanın adından yaranmışdır. Əfsanəyə görə, bu xalq Türk hökmdarının (Alp Ər Tonqanın) xidmətində olarkən onun qəzəbinə uğradılar və 100 fərsəx uzaqlıqdakı Kasda yerləşdilər. İbn Fədlana (X əsr) görə, iqlimi soyuq olan bu bölgəyə Allah rəhm edib bol odun bəxş etmişdir. Bundan başqa, Xarəzmin adının *xurşid* (günəş) və *xurdən* (yemək) mənasına gəldiyi haqqında da rəvayətlər vardır. İngilisdilli tədqiqatlarda Xarəzmin "hurilər ölkəsi" olduğu haqqında bir fikir mövcuddur.

Xarəzm bölgəsi Kas, Gürgənc (Curcaniyyə), Xivə (Xivək), Xəzərəsb, Dərgan, Bərkan, Kərdər, Zəməhşər, Cigərbənd, Sədvər, Kərdəranxas, Zərdux, Ərtəxuşmisən, Dərxas, Bəratigin, Çağmin, Xamcərd, Qavxanə, Nəvkəfağ, Mədminiyyə və Gifti əhatə edən böyük bir ərazini



*Sultan Təkəş Mavzoleyi*



Turabek xanım mavzoleyi

əhatə edirdi. Bura Qırğız çölünə, Qızılqum səhrasına, yuxarıda Üstyurd və Manqışlağa, aşağıda isə Qaraquma açılırdı. Sovet arxeoloqları burada e.ə.I minilliyə qədər uzanan zəngin bir məskunlaşma sahəsinin olduğunu, hətta şəhər tipli yaşayışın başladığını müəyyən ediblər. Bölgə həm ticarət, həm sənaye, həm də heyvandarlıq baxımından çox məhsuldar bir yerdi. Bölgənin meyvəçilik baxımından zənginliyini dövrün mənbələri qeyd edirlər. Xarəzmin ticarətinin böyüklüyünü ifadə etmək üçün içində İbn Fədlanın da yer aldığı bir karvanda 3000 dəvə və 5000 insanın olduğunu qeyd etmək kifayətdir. Bu karvan km-lərlə uzunluqda zəncir təşkil edirdi. Xarəzmdə hökm sürən hökmdarlar ənənəvi olaraq *xarəzmşahlar* titulunu daşıyırdılar. Bölgədə ilk xanədanlıq Afriqilər *(305-995)*, onlardan sonra Məmunilər *(995-1017)*, daha sonra da Ənuştəginlər *(1097-1231)* həmin titulu qürurla daşıdılar.





Qutluq Timur minarəsi

Orta əsrlərdə Xarəzm deyildiyi zaman, əsasən Vahşab çayı üstündə inşa olunmuş çox sayda şəhərdən bəhs edilməlidir. Türklərin ölkəsindən qaynağını alan çay Vahş dağlarına qədər gəldikdən sonra burada Xuttəlan və Vəşcərd arasındakı böyük körpünün altında vadiyə yayılaraq Tirmiz, Bəlx, Keyfəl, Zum, Amul, Xarəzm və o dövrlər Xarəzm gölü adlanan Arala qədər uzanırdı. Xarəzmin mərkəzi şəhəri Kas idi.

Bölgənin özünün *xarəzmcə* adlanan dili vardı. Bu dilin ilkin forması irani dillərə yaxın olsa da, qədim dövrdən etibarən türk dilinin təsirində qalmışdır. Orta əsrlərdə, xüsusilə də Səlcuqlu dövründəki xarəzmcə türk dilinin bir ləhcəsi hesab olunurdu. Bu ləhcədə yazılmış çox sayda türkcə əsər günmüzə qədər gəlib.

**Kas** xarəzmlilərin dilində *divar* mənasına gəlir. Şəhər Ceyhunun (Amudərya) şərqində, tam olaraq Ceyhun ilə Gürgəncin ortasında yerləşirdi. Kas ərazisi düz və geniş bir sahə idi. Kasdakı tarixi binaların çoxu Pers memarlığı formasında inşa olunmuşdur. Evlərin sütunları daşdan, dam örtüyü isə taxtadan idi. Şəhərdə kuhəndiz (kərpic divar), məscid, zindan, uzunluğu bəzən 1 km-ə qədər olan küçələr, kuhəndizin üstündə isə xarəzmşahın sarayı yerləşirdi. X əsrin müsəlman coğrafiyaçısı Müqəddəsi Kası Ərdəbil ilə müqayisə etmiş və şəhərdə yaşanan sellər səbəbindən Ərdəbildən daha kirli olduğunu vurğulamışdır. Qədim Xarəzmin mərkəzi olan Kas, Xarəzmşahlar

dövründə yerini Gürgəncə (Ürgənc) buraxdı. Ərəbdilli mənbələrdə Curcaniyyə olaraq adı keçən şəhər Amudəryanın qərbində yer alır və e.ə.138-e.ə.126-cı illərə aid Çin mətnlərində adı zikr edilir. Çinli elçinin raportuna görə, buranın qədim adı Yeu-gien idi. Elxanlı tarixçisi Cüveyni şəhəri belə təsvir edirdi: "Xarəzm bir əyalətin adıdır. Əsl adı isə Curcaniyyə olub, xalqı oraya Ürgənc deyir. Moğol fəlakəti ilə üzləşmədən əvvəl çox gözəl bir yer idi və dünya padşahlarının paytaxtı hesab olunurdu".

**Gürgənc**in genişliyi 9 mil (14 km) olub, Xarəzmşah Ənuştiginlərin mərkəzi idi. Müsəlman fəthlərindən əvvəl bu ərazi Fil və Mənsurə adlanırdı. Kasda olduğu kimi, Gürgənc də tez-tez selə məruz qalan bir yerdi. Şəhərin 6 km uzaqlığından Vadak çayı keçirdi ki, mənbələrə görə, bu çayda gəmilər də hərəkət edirdi. Şəhər dörd qapılı idi. Ancaq qapılarından sadəcə Badül-Həccacın adı qeyd edilir. Məmunilər sülaləsindən olan Xarəzmşah Əbül-Abbasın əmri ilə tikilən saray da bu qapının yaxınlığında yerləşirdi. Səlcuqlu dövründə şəhər əhalisinin əsas məşğuliyyəti dəmirçilik və xarratlıq idi. Gürgənc ustaları fil dişindən bəzək əşyaları da hazırlayırdılar. Şəhərdə qəssab, baqqal, dərzi dükanlarının olduğu, ribatların (mehmanxana) yer aldığı və divarla əhatə olunduğu bildirilir. XIII əsrin əvvəllərində şəhər o qədər gözəl və əhali baxımından gur idi ki, Yaqut əl-Həməvi ondan daha gözəl şəhər görmədiyini qeyd edir. Bura Biruni, İbn İraq, İbn əl-Hammar, İbn Sina, Əbu Mənsur əs-Salibi və Əbu Səhl əl-Məsihi kimi böyük alimlərin yetişdiyi bir yer idi. Xarəzmşah Sultan Əlaəddin zamanında *(1200-1220)* Gürgənc ən parlaq dövrünü yaşadı. Xarəzmşahın anası Tərkən Xatunun əmri ilə şəhərdə böyük imarətlər, bağlar salınmışdır.

Gürgənc şəhəri dəfələrlə moğollar tərəfindən talan olundu. Əhalisinin əksəriyyəti qətl edildi, qalanları isə əsir alındı. Məscidləri dağıdıldı. Hazırda xaraba halında olan şəhər türkmənlər tərəfində Könə Ürgənc (Köhnə Gürgənc) olaraq adlanır.



Səlcuqlu dövrünün bir digər sultan şəhəri **Həmədan** idi. Qədim adı Ekbatan olan şəhər hələ Midiya (e.ə.743-e.ə.550) dövləti vaxtında paytaxt vəzifəsini icra etmişdir. Həmədan 642-ci ildə Sasanilər ilə müsəlmanlar arasında meydana gələn Nəhavənd döyüşündən sonra Xilafətin nəzarəti altına girmiş və o tarixdən etibarən İraqi-Əcəmin başlıca şəhəri halına gəlmişdir. Azərbaycanın ən cənubunda yer alan şəhər İraq Səlcuqlu dövlətinin *(1118-1194)* paytaxtı idi. Şəhər bir müddət Azərbaycan atabəyliyinin də mərkəzi olmuşdur.

Suyu bol, torpağı bərəkətli olan Həmədanın başlıca kənd təsərrüfatı meyvə-tərəvəzi idi. Ətrafında bol otlu yaylaqların olması Həmədanda atçılığın inkişafına şərait yaratmışdır. Şəhər yaxınlığındakı Qara Təgin yaylağı sultanların və atabəylərin yay aylarında dincəldiyi bir məkan idi. Şəhərdə məskunlaşan oğuzlar bu yerlərdə qoyunçuluqla məşğul olurdular. Həmədan tülküsündən çox qiymətli xəz əldə edilirdi. Müsəlman coğrafiyaçılar Həmədanın bol məhsuldarlığı səbəbindən dünyanın ən ucuz şəhərləri arasında yer aldığını qeyd edilər. Burada toxuculuq da geniş inkişaf etmişdir. Səlcuqlu zamanında şəhərdə silah sənayesi də mövcud idi. Əməvilər dövründə şəhərdə bir zərbxana qurulmuş və uzun əsrlər fəaliyyət göstərmişdir. Burada əsasən qızıl sikkələr zərb edilirdi. Şəhər əhalisinin əksəriyyəti müsəlmanlardan, azsayda isə yəhudilərdən ibarət idi. Şəhərin etnik mənsubiyyətini türklər, tatlar, ərəblər və yəhudilər təşkil edirdi.

İraq Səlcuqlu dövründə Həmədan dövrünün ən böyük şəhəri sayılırdı. Şəhərdə Köşkü-Bağ, Həmədan köşkü, Məsudi köşkü, Məmur köşkü, Qədim və Yeni köşk (Köşkü-Kuhən və Köşkü-Cədid), Köşkü-Bağdad kimi böyük saraylar və imarətlər inşa olunmuşdu. Onlardan Sultan Məsuda aid köşkdə dövlətin rəsmi və qarşılama mərasimləri keçirilirdi. Burası Həmədan Çayırı köşkü də adlanırdı.

Şəhərdə çox sayda mədrəsə mövcud idi. Belə mədrəsələrdən biri də Mömünə Xatun və həyat yoldaşı Atabəy Eldəniz tərəfindən inşa edilmişdir. Atabəy bu mədrəsəyə çox sayda mülk baxışlayaraq onun vəqfi elan etmişdir. Hazırda Mömünə Xatun ilə Eldənizin qəbirləri bu mədrəsənin həyətində yer alır. Yenə İraq Səlcuqlu əmirlərindən Şərafəddin Gürbazu da Həmədanda bir mədrəsə tikdirmişdir. Həmədanda Sultan II Toğrul *(1176-1194)* dövrünə aid başqa bir mədrəsədən də bəhs edilir. Həmədanın Sərbərzə məhəlləsində yerləşən, Cəmaləddin İqbal tərəfindən tikdirilən mədrəsənin həyətində isə Sultan Məsudun qəbri yer alır. Bunlardan başqa, İraq Səlcuqlu sultanlarından Məhəmməd şah və Arslanşahın qəbirləri də Sultan I Toğrul *(1131-1134)* tərəfindən tikilən mədrəsədə yerləşir. İraq Səlcuqlu əmirləri Cəmaləddin Ayaba Sabıkabad məhəlləsində, Sədr Tacəddin isə başqa bir məhəllədə mədrəsələr tikdirmişdilər.

Şəhərin başlıca məscidi Cümə məscidi idi. Məscid bazarın içində yerləşirdi və çox sağlam şəkildə inşa olunmuşdur. Mənbələrdə 1163-cü ildə Baqrat krallığına qarşı Atabəy Eldənizin əldə etdiyi Dvin zəfərində toplanan qənimətlə Həmədanda bir məscidin daha inşa olunduğu bildirilir. Böyük məscidlərdən savayı, şəhərin hər məhəlləsində kiçik məscidlər də fəaliyyət göstərirdi.

Şəhərdə dəriçilər, zərgərlər, dəmirçilər kimi müxtəlif adda onlarla bazar mövcud idi. Bundan başqa, Həmədanda çox sayda şeyxin məqbərəsi, pirlər, türbələr, kümbəzlər, xəstəxanalar da yerləşirdi. Həmədanda tibbin inkişaf etdiyini İbn Sinanın Xarəzmdən qaçaraq burada fəaliyyət göstərməsindən anlamaq mümkündür. Həmədanda tarix boyu çox sayda böyük elm, din adamları, ədiblər, şairlər, sufilər yetişmişdir. Onlar arasında Əbül-fəzl əl-Həmədani, böyük coğrafiyaşünas İbn əl-Fəqih, İbn Sina, Bədüzzaman əl-Həmədani, böyük sufi Baba Tahir Uryani, böyük filosof Eynəlqüzat Həmədani, Məhəmməd ibn Əbdülməlik



Həmədani, Şiruyyə ibn Şəhrədar Deyləmi, Şəhrədar ibn Şiruyyə Deyləmi, Xoca Əhməd Yəsəvinin müəllimi Yusif Həmədani xüsusilə qeyd edilməlidir. Həmədan şəhəri 1194-cü ilə qədər Səlcuqlu paytaxtı olmuşdur. Ancaq Səlcuqlu dövləti süqut etdikdən sonra Həmədan öz əhəmiyyətini itirdi. Xüsusilə də moğol dağıntıları şəhərə böyük zərbə vurdu.





*İbn Sina mavzoleyi və "Təbabət elminin qanunu" əsərinin mavzoleydə sərgilənən nüsxəsi.*



# 11.9. AZƏRBAYCAN ŞƏHƏRLƏRİ

Azərbaycan ərazisində qurulan Alban dövlətinin 30-a yaxın şəhəri olduğu qeyd edilir. Bu məlumat hələ qədim dövrlərdən Azərbaycanın zəngin şəhərçilik anlayışının olduğunu təsdiq edir.

İnzibati, hərbi-siyasi mərkəz olaraq o dövrdə Kabalaka adlandırılan **Qəbələ** şəhəri Albaniyanın ilkin dövrlərdə paytaxtı hesab olunurdu. Arxeoloji qazıntılar nəticəsində əldə edilən maddi sübutlar şəhərin dəmir dövrü yaşayış məskəninin əsasında formalaşdığı, 400 illik bir dövr ərzində şəhər həyatının davam etdiyini müəyyən etmişdir. II əsrdə Çaqqallı düzündə şəhər həyatı tənəzzül dövrünə girdiyi üçün şəhər sakinləri oranı tərk edərək Səlbir adlanan əraziyə yerləşmişdir. Qəbələ şəhər yerində aparılan arxeoloji tədqiqatlarda ictimai və dini tikililər, ərzaq anbarları aşkar edilmişdir. E.ə.IV-III əsrlərə aid anbarlardan birində içində şərab saxlanılan böyük həcmli 240 küp tapılmışdır. Antik müəlliflərdən Plini və Ptolomeyin qeydlərində,



Alban tarixçisi Movsey Kalankatuklunun əsərində Qəbələ şəhərinin coğrafi mövqeyi haqqında bəzi məlumatlara yer verilib. Qədim şəhər qalıqları üzərində iş aparan tədqiqatçıların gəldiyi qənaətə görə, şəhərin Səlbir hissəsində III-XII əsrləri əhatə edən üç fərqli mədəni mərhələ mövcud olmuşdur. Burada qeyd edilən dövrlərə aid xristian və müsəlman qəbiristanlığı tapılmışdır.



*Çuxur Qəbələ kəndində qədim tikili qalıqları*

Xristian amillərin Albaniyada güclənməsi nəticəsində V əsrdə dövlətin siyasi-dini mərkəzi Qəbələdən Bərdəyə nəql olunmuşdu. Buna baxmayaraq, Qəbələ yenə də uzun əsrlər mədəni və ticari əhəmiyyətini qorudu. Qədim Qəbələ ilə birlikdə Ağcabədi rayonundakı 26 hektarlıq ərazini əhatə edən Qalatəpədə aparılan qazıntılar zamanı ortaya çıxarılan şəhər qalıqları, Bərdə-Ərdəbil qədim karvan yolu üzərində yerləşən, mənbələrin *Berda, Bardos,* müsəlman mənbələrində *Bərza* adlandırılan **Bərdə** şəhərinin qədim qalıqları, Bayat şəhər-qala abidəsi aşkarlanmışdır.

Hazırda **Beyləqan** rayon mərkəzindən 17 km şimal-qərbdə yerləşən, xalq arasında **Örənqala** adı ilə bi-


*Bərdədə Tərtərçay üzərində VII-VIII əsrlərə aid daş körpü*

linən şəhər İpək yolu güzərgahının kilid nöqtəsi olan Azərbaycanda şəhərçilik mədəniyyətinin qədimliyini ortaya qoyur. Böyük və Kiçik şəhər olaraq iki hissəyə bölünən Örənqalada sənətkarlar məhəlləsi, Mil minarə adlandırılan abidə xarabalıqları, kərpiçdən hazırlanan memarlıq abidələrinin müxtəlif hissələri, mis pullar, saxsı və şüşə qabların qırıqları tapılmışdır. Ticarət karvanları üçün gecələmə və qonaqlama məkanları Azərbaycan şəhərçiliyinin ortaq xüsusiyyətidir. Örənqaladan Ərdəbilə gedən karvan ən qısa yol olan Beyləqandan keçib, Köndələnçayı keçdikdən sonra Horadizə, Şeyx Babı türbəsinin yerləşdiyi Babı kəndinə, oradan indiki Cəbrayıl rayonunun Mahmudlu kəndi ilə Soltanlı kəndi arasındakı Araz çayının üstündə tikilən Xudafərin yolunu izləyirdi.

Örənqala və Təzəkənddən sonra Ərdəbil yolu üstündə **Altanqala** adlı bir şəhər yeri aşkarlanmışdır. Ondan cənubda orta əsrlərin mühüm mərkəzi **Bərzənd**in xarabalıqları yer alır. IX-X əsr müsəlman coğrafiyaçıları İstəxri, İbn Hövqəl, Müqəddəsi Bərdə və Beyləqan şəhərləri, Bərdə-Ərdəbil karvan yolu haqqında məlumatlar veriblər. V-VII əsrlərə aid mənbələrdə Bərdə şəhəri ilə bağlı çox az məlumat




*Beyləqanın Kəbirli kəndi ərazisində Örənqalaya aid tikili qalıqları*

olsa da, şəhərin Xilafət dövründə çox inkişaf etdiyi və "ümmül-Aran" (Aranın anası) adını aldığı məlumdur. Alban katalikosu Abas tərəfindən 552-ci ildə Alban kilsə mərkəzi Bərdəyə köçürüldü. VII əsrin əvvəllərində şiddətlənən Sasani-Roma (Bizans) müharibələrində Bərdə bir neçə dəfə əl dəyişdirdi. Sasanilərin 637-ci ildə Kadisiyyə və 642-ci ildə Nəhavənd döyüşlərində müsəlman orduları tərəfindən darmadağın edilməsindən sonra Azərbaycanı ələ keçirən Salman ibn Rəbiənin qoşunları Naxçıvan-Gorus üzərindən Aranın içinə daxil olub, Bərdədə iqamətgah qurdular. O tarixdən sonra Xilafətin Xəzər adlanan əyalətində mərkəz rolunu oynamağa başlayan Bərdə, Xilafət dövründə strateji əhəmiyyətli məntəqələrdən biri halına gəldi. Şəhərdə məscid, hərbi düşərgə və böyük bazarlar salındı. Bərdədə ilk məscidi Xilafətin Azərbaycan valisi Əbdüləziz tikdirdir. Bu dövrdə dini-elmi baxımdan da sürətlə inkişaf edən Bərdədə Səid ibn Əmr Əbu Osman əl-Əzdi əl-Bərdəyi, Əhməd ibn Ömər Həsən əl-Bərdəyi, İbn Harun Bərdici əl-Bərdəyi, Əbu

Səid əl-Bərdəyi, Əbu Bəkr Məhəmməd ibn Yəhya Hilali əl-Bərdəyi kimi çox sayda alim və ədib yetişmişdir. XIV əsrdə moğol əsarətinə qarşı üsyan edən məşhur ictimai xadim Qazi Məhiyyədin Bərdə şəhərindən olub, daha sonra Qızıl Orda dövlətinin paytaxtı Saray şəhərinə yerləşərək fəaliyyətinə orda davam etmişdir. Bərdə 943/4-ci ildə Xəzər dənizindən gələn rus-varyaq basqını nəticəsində əvvəlki ehtişamını itirmiş, həmin tarixdən sonra Aranın mərkəzi Gəncə şəhəri olmuşdur.

Bölgənin ən qədim məskunlaşma köklərinə malik **Beyləqan** şəhəri Atropatena ilə Aranın tam ortasında yerləşirdi. Burası bir müddət, xüsusilə də Səlcuqlu dövlətinin ilk dövrlərində Aranın paytaxtı oldu. Bu səbəbdən orta əsr mənbələri onun üçün "Paytaxt-e Arran" adını işlədirlər. Antik əsərlərdə və Pəhləvi kitabələrində Paytakaran adının Balasaqan (Balsaqun) ilə eyniliyi diqqəti cəlb edir. Elxanlı tarixçisi Zəkəriyyə Qəzvini Beyləqanı Aranın ətrafı qalalarla çevrili böyük və məşhur şəhəri adlandırırdı. Ancaq bu məlumat moğolların şəhəri işğal etdiyi tarixdən əvvələ aiddir. Həmin təsvirlərdən Beyləqanın ətrafında böyük tut meşəliyinin olması şəhərdə ipəkçiliyin mövcudluğunu deməyə əsas verir. Şirvanşahlar dövründə şəhəri geniş təsvir edən XII əsr müəllifi Məsud ibn Namdar şəhərdə onlarla məsləyin adını çəkir. Xilafət dövründə Beyləqanda zərb olunan sikkələrin Rusiya və Baltik ərazilərində tapılması şəhərin bölgə üçün ticari əhəmiyyətini əks etdirir. Səlcuqlu mədəniyyətinin yüksəlişdə olduğu XI-XII əsrlərdə şəhərdə qalalar, saraylar inşa olunmuşdur. Araz çayından çəkilən su kanalı ilə şəhərin suya olan ehtiyacı qarşılanmış, şəhərətrafı əkinçilik sahələrində sulama fəaliyyətləri həyata keçirilmişdir. Movsey Kalankatukluya istinad edilən məlumatlarda Beyləqanda Sanatürk adlı bir türk hökmdarın başına tac qoyma mərasimi keçirildiyi qeyd olunur. Azərbaycanın digər şəhərləri ilə yanaşı, Beyləqan haqqında müsəlman müəlliflərindən İbn Xordadbeh



"Kitab əl-məsalik vəl-məmalik" (Yollar və ölkələr haqqında kitab), Bəlazuri "Kitab fütuh əl-Buldan" (Ölkələrin fəthi haqqında kitab), İbn Rüstə "Kitab əl-alaq ən-nəfisə" (Nəfis daşlar kitabı), İbn Hövqəl "Kitab əl-məsalik vəl-məmalik" (Yollar və ölkələr kitab) əsərlərində Beyləqanı Aranın ən mühüm mərkəzi və karvan yollarının keçdiyi şəhər olaraq təsvir ediblər.

Kür çayı boyunca uzanan ərazilərin arxeoloji tədqiqi, xüsusilə qədim Şəmkirin, Narınqalanın aşkar edilmiş qalıqları, Qazax rayonunun Sarıtəpə abidəsi, Qaracəmirli qazıntıları Araz-Kür hövzəsi şəhərçilik mədəniyyətinin genişlik və qədimliyini nümayiş etdirir. 752-ci ildəki üsyan nəticəsində Şəmkir şəhəri dağıdılsa da, Xilafət ordusunun türk komandanı Buğa əl-Kəbir şəhəri yenidən bərpa etmiş, xəlifənin adı ilə buraya **Mütəvəkkiliyyə** adını vermişdir. Ancaq yerli əhali şəhərə Şəmkir deməyə davam etmişdir. Şəmkir Aranın metalişləmə sənətinin də mərkəzi idi. Burada istehsal olunan bıçaqlar, başqa metal məmulatlar dünyanın fərqli ölkələrinə ixrac edilmişdir. Yuxarıda adları keçən, Böyük İpək yolu sayəsində təşəkkül edən bu şəhərlər gözəllikləri ilə səyyah və alimləri, tacirləri heyran edən mühüm hərbi-inzibati, sənətkarlıq və mədəniyyət mərkəzləri halına gəlmiş, Bərdə-Ərdəbil, Bərdə-Tiflis karvan yollarının intensiv fəaliyyətini də təmin etmişlər.




*Qədim Şəmkir şəhərinin qalıqları*

Böyük Qafqaz dağlarının cənub-şərq ətəklərində yerləşən, müxtəlif faydalı qazıntılarla, mineral bulaqlarla zəngin *Şamaxı* şəhəri Azərbaycanın ən mühüm mədəniyyət və ticarət mərkəzlərindən biri idi. Şamaxı şəhəri **Şirvan** əyalətinin mərkəzi idi. Şirvan sözünün etimologiyası ilə bağlı fərqli mülahizələr mövcuddur. Bu toponimə Orta Asiya, Xorasan, Türkmənistan və Anadoluda da rastlanılır. Şirvanın əvvəllər bir şəhər adı olduğu, sonradan vilayət adına çevrildiyi ehtimal olunur. Tarixi Şirvan şəhərinin ərazisi Şamaxı ilə Quba arasında yerləşirdi. Şamaxı şəhərinin inşa tarixini tam olaraq təsbit etmək mümkün olmasa da, arxeoloji qazıntılar tunc dövründən etibarən bu ərazidə yaşayış olduğunu təsdiq edir. Şəhər ticarət yolları üstündə salınmışdir. Burada aşkar edilən tikinti qalıqları, silah nümunələri, dulusçuluq məmulatları Şamaxıda memarlığın və sənətkarlığın hələ iki min əvvəl inkişaf etdiyini göstərir. Məlumatlara görə, IX-XII əsrlərdə Şamaxıda əlliyə yaxın dulusçuluq emalatxanası mövcud idi. Qədim dövr mənbələri Şirvan ərazisində məskunlaşan hun, xəzər, peçeneq, bakan, şarvan, sabar kimi oturaq və elat türklərdən bəhs edirlər. İslamın kütləvi şəkildə türklər tərəfindən qəbul edilməsi, xüsusilə də Səlcuqlu dövründə, yəni IX-XII əsrlərdə Azərbaycanda şəhər həyatı canlanmağa başlandı. İstehkam sahəsi 100 ha yaxın, əhalisi isə 100 minə yaxınlaşan Bərdə, Gəncə, Dəbil, Naxçıvan, Təbriz, Ərdəbil, Marağa, Şamaxı, Dərbənd kimi şəhərlər orta əsrlərin mədəni münasibətlərinin bir parçası idi. Əhər, Zəncan, Bakı, Qəbələ və Şabran isə orta böyüklükdə şəhərlər sırasında yer alırdılar.

XIII əsrdə moğolların Azərbaycan torpaqlarına hücumları şəhərlərdə ciddi dağıntılara səbəb oldu. Moğol hücumlarının səngiməsindən sonra Şamaxı Qızıl Ordanın davamı olan xanlıqlar və Moskva knyazlıqları ilə mədəni-iqtisadi əlaqələri təsis edərək təkrar inkişaf dövrünə qədəm qoydu. Hələ 1192-ci ildə Şirvanşahlar dövlətinin mərkəzinin









*Qədim Şamaxı tikililərinin qalıqları*

Şamaxıdan Bakıya nəqli gerçəkləşsə də, Şamaxı bölgənin başlıca şəhəri olaraq varlığını davam etdirmişdir. XVI-XVIII əsrlər Şirvan əyaləti və Şamaxı şəhəri baş verən şiddətli zəlzələlər və Səfəvi-Osmanlı arasındakı mübarizələr nəticəsində xeyli dağıntılara məruz qaldı. Nadir şahın Şirvan zonasındakı hərbi əməliyyatları zamanı şəhər əhalisi Ağsuya köçürüldüyündən Şamaxı şəhərində əhalinin sayı xeyli azaldı. XIX əsrin əvvəllərində rus işğalına məruz qalan Azərbaycan xanlıqlarından biri də Şamaxı idi. Şəhər çar hakimiyyəti dövründə Xəzər vilayətinin, Şamaxı qəzasının, sonra da Bakı quberniyasının tərkibində yer aldı. 1859 və 1902-ci illərdə baş verən zəlzələlərdə Şamaxı şəhəri demək olar ki, tamamilə dağıldı. 1918-ci ildə isə şiddətlənən erməni terroru nəticəsində bir çox tarixi abidə, məscid dağıdıldı. Sovet hakimiyyəti dövründə şəhərin yenidən dirçəldilməsi üçün fəaliyyətlərə başlanıldı.

XV əsr Qərb səyyahlarının verdiyi məlumatlara görə, ən mühüm ipəkçilik mərkəzlərindən biri olan Şamaxıda istehsal olunan məhsullar dünyanın müxtəlif ölkələrinə ixrac edilir, şəhərə mütəmadi olaraq Hindistan, İtaliya, Fransa, İngiltərə, Osmanlı ölkələrindən tacirlər axın edirdilər. Sərraclıq, toxuculuq, zərgərlik, taxta oymaçılığı və dülgərlik sənətləri ən qədim dövrlərdən etibarən Şamaxı əhalisinin başlıca məşğuliyyəti idi. **Binəşirvan** adlanan şəhərin qalıqları günümüzdə də bilinməkdədir. Şəhərdəki orta əsrlərə aid qalalar arasında Qız qalası və Gülüstan qalası ən əhəmiyyətliləridir. Xarici hücumlara qarşı möhkəm müdafiə istehkamları olmaqla birlikdə, bu qalalardan sonuncusu Şirvanşahların ikinci iqamətgahı kimi istifadə olunurdu. Qədim Şamaxı şəhəri Qaladibi, İçəriqala, Sarıtorpaq, Dərəməhəllə, Aşağı Qalabazar, Yuxarı Qalabazar adlı hissələrdən ibarət idi. Şəhər əhalinin kimliyi, gəldiyi bölgə və məşğuliyyətlərinə uyğun olaraq, Padarlar, Ərəblər, Ərdəbillilər, Quşçular, Qurdlar məhəllələrinə ayrılmışdı. Şamaxıda şeyxlərin və dərvişlərin adı ilə bağlı olaraq



Şeyxsəxirli, Şeyxminaz, Yuxarı İmamlı adlı məhəllələrə və kəndlərə də rast gəlinirdi. Evlərin inşasında daş, kərpic, gil, ağac materiallarından istifadə edilmişdir.

Türklərin məskunlaşdığı şəhərlərdən biri də **Dərbənd** idi. Müsəlman müəllifləri şəhəri "Babül-Əbvab", "əl-Bab", sasanilər "Dərbənd-i Xazeran", türklər isə "Dəmirqapı" adlandırırdı. Farsca keçid mənasına gələn *dər* və tutmaq mənasını verən *bənd* sözlərinin birləşməsindən yaranan Dərbənd adı keçid, sərhəd, səd deməkdir. Mənbələrdən Dərbəndə müxtəlif zamanlarda Xəzər qapısı, Alban qapısı, Çola qapısı kimi adların verildiyi məlumdur. Türk kitabələrindən Bilgə xaqan və Kültigində Dəmirqapı adı yer alır. Dərbənd türklərin yayıldıqları bölgələrin qərb sərhəddindəki yer olaraq zikr edilir. Hun, avar, sabar, xəzər türklərinin Dərbənd keçidindən istifadə edərək Qafqazın cənubuna gəlib yerləşdikləri antik mənbələrdən məlumdur. Dərbənd Xəzər-Sasani və Xəzər-Xilafət münasibətlərində də hər zaman mübahisə obyekti olmuşdur.

Qafqazın başlıca keçidi olan Dərbənd qədim dövrlərdən etibarən şimal ilə cənub arasındakı qarşılıqlı münasibətlərdə kəsişmə nöqtəsi idi. Hazırda Rusiya Federasiyasının Dağıstan Respublikasının sərhədləri daxilində olan şəhər Xəzər dənizinin şimal-qərb sahilində yerləşir. Dərbəndin Xəzər dənizi ilə Böyük Qafqaz dağlarının yamacları arasında bir qala kimi qurulduğu təxmin edilir. V-VI əsrlərdə Sasani hakimiyyəti dövründə qala hərbi qarnizonu olan bir şəhər halını aldı. Dərbənd Azərbaycanın sərhəd məntəqəsi idi. Şəhərdə həyata keçirilən arxeoloji qazıntılar zamanı Sasanilərə qədər olan dövrü əhatə edən maddi-mədəniyyət nümunələri, şəhər qalıqları aşkar edilmişdir. Erkən orta əsrlərdə qalalar şəhəri olaraq da tanınan Dərbəndin və onun ərazisindən keçən yolun həm hərbi, həm də ticari baxımdan olduqca böyük əhəmiyyəti vardı. Bizans-Sasani, Xəzər-Sasani, Xəzər-Xilafət müharibələrində Dərbəndə sahib olmaq uğrunda tərəflər arasında şiddətli döyüşlər baş



*Dərbənd qalasının Narınqala, Narınqala qapısı, Dağ qapısı, Carçı qapısı, Qala qapısı, Qırxlar qapısı, Bayat qapısı adlanan hissələri.*
*Qalanın müxtəlif hissələri müxtəlif vaxtlarda sökülüb.*



vermişdir. Məlikşahdan etibarən Dərbənd mədəni-siyasi baxımdan Səlcuqlu və atabəylərin təsiri altına düşdü.

851-ci ildə xəlifə Mütəvəkkil Dərbəndi iqta olaraq Məhəmməd ibn Xalidə vermişdir. 869-cu ildə isə dərbəndlilər Haşim ibn Suraka əs-Suləmini şəhərin əmiri seçdilər. Onun dövründə şəhər xanədan mərkəzi halına gəldi. Sovet dövründə aparılan arxeoloji qazıntılar Dərbəndin *narınqala* və şəhristan adlandırılan iki hissədən ibarət olduğunu göstərir. Hərbi qarnizonunun yerləşdiyi Narınqalada saray, inzibati binalar, su anbarı və s. kimi tikililər yer alırdı. Narınqalanın şərqində ucaldılan saray kompleksi 600 metrdən artıq sahəni əhatə edirdi.

Azərbaycanın ən qədim şəhərlərindən biri də **Naxçıvandır**. Aparılan arxeoloji tədqiqatlar nəticəsində əldə edilən, e.ə.II-I minilliklərə aid olan maddi-mədəniyyət nümunələri ərazidə erkən dövr şəhər mədəniyyətinin mövcud olduğunu deməyə əsas verir. Coğrafi mövqeyi bu şəhərin Yaxın Şərq və Anadolu bölgəsi ilə daha yaxın əlaqələr qurmasına şərait yaratmış, bu da qarşılıqlı mədəni təsirlərin artmasına, ticari və elmi həyatın canlanmasına səbəb olmuşdur. Ptolomey “Coğrafiya” əsərində Naxçıvandan Naksuana adı ilə bəhs edir. Orta əsrlərin müsəlman coğrafiyaçıları şəhəri Nəqçuvan, Nəşavə, Nuhçuvan kimi adlarla zikr ediblər. Naxçıvan adını Nuh peyğəmbərlə əlaqələndirənlər vardır. Azərbaycanın digər şəhərləri kimi Naxçıvan da Bizans-Sasani müharibələrindən əziyyət çəkmiş, dağıntıya məruz qalmışdır. Abbasilər Xilafətinin tənəzzülü ilə birlikdə Sacilər başda olmaqla, Azərbaycan ərazisində qurulan bir neçə xanədanlığın hakimiyyəti altında yer alan Naxçıvan, Səlcuqlu üçün strateji əhəmiyyətə sahib olmuşdur. Naxçıvan Azərbaycan atabəyliyinin mülki ərazisi olmuş və ilk paytaxtı missiyasını icra etmişdir.

Sovet dövründə şəhərdə aparılan arxeoloji qazıntılar nəticəsində IX–XV əsrlərdə Naxçıvanın mədəni baxımdan inkişafı müxtəlif maddi dəlillər vasitəsilə əldə edilmişdir.

1162- ci ildə Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən şəhərdə inşa olunan və xalq arasında Atababa kümbəzi kimi məşhur olan Yusif ibn Küseyir türbəsi və yenə eyni memar tərəfindən başa çatdırılan Atabəy Şəmsəddin Eldənizin xanımı Mömünə Xatunun şərəfinə tikilən türbə Səlcuqlu memarlığının ən parlaq abidələri arasındadır. Bişmiş kərpiclə inşa olunan Yusif ibn Küseyir türbəsinin daxili diametri 5,8 metr, hündürlüyü 14,6 metrdir. Türbə yeraltı sərdabədən, gövdə hissədən və piramidal şəkilli kümbəzdən ibarətdir. El arasında Atabəy kümbəzi adlandırılan Mömünə Xatun türbəsinin üzərində ibrətamiz bir beyt yazılmışdır:

*"Biz gedirik, ancaq qalır ruzigar.*
*Biz ölürük, əsər qalır yadigar".*

Moğol işğalı zamanı Naxçıvanda baş verən dağıntı və tənəzzül prosesi Qazan xanın islahatlarına qədər davam etmiş, onun vaxtında şəhər yenidən bərpa edilmişdir. Naxçıvan şəhəri Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin



*Mömünə Xatun türbəsi*



*Yusif ibn Küseyir türbəsi*





*Xanəgah Memarlıq kompleksi – Nəiminin türbəsi. Culfa rayonu, Xanəgah kəndi*

mərkəzi şəhərlərindən biri olub, ancaq Səfəvi-Osmanlı çəkişməsi sırasında hərb meydanına çevrilmişdir. Buna baxmayaraq, Naxçıvan bu dövrlərdə də özünün ticarət əhəmiyyətini qorumuş, şəhərdə sənətkarlıq inkişaf etmiş, açılan mədrəsələrdə tanınmış alimlər yetişmişdir. 1827-ci ildə Naxçıvanı çar Rusiyası tərəfindən işğal edildi və bölgənin xanlıq statusuna son qoyuldu. Naxçıvan 1918-ci ildə elan edilən Araz Türk Respublikasının da ən önəmli şəhəri idi. 1919-cu ilin əvvəli ingilislərin Naxçıvanı tutmasından sonra həmin respublika fəaliyyətini dayandırmışdır.

Qədim dövrün müxtəlif yazılı mənbələri və aparılan arxeoloji qazıntılar Azərbaycanın mühüm tarixi məkanı olan Şabranın eramızdan əvvəlki dövrdən etibarən yaşayış məskəni olduğunu ortaya qoymuşdur. Ptolomeyin əsərində **Şabran** şəhəri *Shoptran* olaraq keçir. Qazıntılar zamanı əldə edilən erkən orta əsrlər dövrünə aid keramika qablar, qala divarları və digər maddi sübutlar bir vaxtlar Şabranın Azərbaycanın inkişaf etmiş siyasi və mədəni mərkəzlərindən biri olduğunu göstərir. Şabran çayının hər iki sahilini əhatə edən 110 hektardan artıq bir ərazidə qədim Şabran



*Şabran qalasının qalıqları*

şəhərinin mövcud olduğu təxmin edilir. Şəhərdə tapılan kirkirə, oraq, dəhrə kimi təsərrüfat alətləri şəhər ətrafındakı ərazilərdə çəltik və taxıl əkinçiliyi ilə birlikdə müxtəlif sənətkarlıq sahələrinin də inkişaf etdiyinə dəlalət etməkdədir.

Türk tarix və mədəniyyətində mühüm yerə sahib olan Azərabaycanın başqa bir qədim şəhəri **Gəncə** idi. Qədim Gəncə şəhəri indiki Gəncədən təxminən 7-9 km şimal-şərqdə yerləşirdi. Gəncə şəhərində günümüzə qədər gəlib çıxan təxminən 500-ə qədər tarixi-memarlıq abidəsi mövcuddur. Gəncə adının mənası, kökəni, şəhərin hansı tarixlərdə və kimlər tərəfindən inşa olunması ilə bağlı müxtəlif mülahizələr mövcuddur. Dədə Qorqud dastanında oğuzların şimal sərhədlərindəki bir yurd yeri olaraq Gəncə adı qeyd edilir. Həmdullah Qəzvininin verdiyi məlumata görə, şəhər 659-660-cı illərdə salınmışdır. İstəxri isə müsəlman ordularının fəthləri sırasında Gəncənin Bərdə-Tiflis arasında karvanların uğradığı balaca bir şəhər olduğunu bildirir. Səlcuqlu hakimiyyətinin bölgədə möhkəmlənməsi ilə birlikdə Bərdə Aranın paytaxtı olma funksiyasını itirmiş, yerini Gəncə almış və sənətkarlıq, ticarət baxımından Səlcuqlu





*Gəncə qalasının xarici divarı (foto XIX əsrə aiddir)*

şahzadələrinin mərkəzi kimi ön plana çıxmışdır. Məlikşah oğlu Məhəmməd Taparı Gəncə hakimi təyin etmişdir. Şəddadilər dövründə Gəncə ilk dəfə payataxt şəhəri olmuşdur. Bu dövr şəhərdə saray, karvansaray, körpü inşa edilmiş, şəhər quruculuğu genişlənmişdir. 1063-cü ildə İbrahim ibn Osman tərəfindən Gəncənin qala qapıları hazırlanmışdır. Gəncə türk ədəbiyyatına Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Əbül-üla Gəncəvi, Qivami Mütərrizi kimi böyük şairlər qazandırmışdır. Səfəvi dövründə Gəncə-Qarabağ bəylərbəyliyinin mərkəzi idi. Gəncə XVI-XVII əsrlərdə Səfəvi-Osmanlı müharibələrində tərəflərin rəqabət sahəsinə çevrilmişdir. XVII əsrin başlarında I Şah Abbas Gəncədə müxtəlif binalar inşa etdi. Çar Rusiyası işğalına qarşı sonuna qədər dirənən Gəncə xanı Cavad xan qacarların Ziyadoğulları qoluna mənsub idi. İşğal sonrasında şəhər I Aleksandrın xanımının şərəfinə Yelizavetpol adlandırılsa da, Azərbaycan müstəqillik əldə etdikdən sonra şəhərin öz adı bərpa edilmişdir.

Türk tarix və mədəniyyətinin, Azərbaycanın dövlətçilik keçmişinin mühüm əhəmiyyətə malik başqa bir şəhəri də **Təbrizdir**. Hazırda İranın ən önəmli sənaye, ticarət və təhsil şəhəri olan bu qədim türk şəhəri şimalda Qaracadağ, cənubda Səhənd dağı ilə əhatə olunmuş, qərbdə isə Urmiyə gölünə doğru əyilən bir düzlükdə yerləşmişdir.



*Ərk qalası*

Şəhərin adı farsca hərarət, ataş anlamını verən *təb* və axıdan, tökən mənasındakı *riz* kəlimələrinin birləşməsindən əmələ gəlmişdir. Rəvayətə görə, 791-ci ildə Abbasi xəlifəsi Harun ər-Rəşidin yoldaşı Zübeydə Xatun istiliyi düşməyən bir xəstəliyə tutulmuş, ancaq Təbrizin şəfalı mədən sularından istifadə etdikdən sonra sağalmışdır. O tarixdən də şəhərin adı atəşi, istiliyi çıxaran mənasında Təbriz olaraq adlandırılmışdır. Eramızın ilk əsrlərindən etibarən müxtəlif mənbələr Təbriz haqqında məlumat verməyə başlamışdır. Şəhərdə aparılan arxeoloji araşdırmalar Təbrizin tarixini beş min əvvələ götürməkdədir. Şəhərin adı ərəb coğrafiyaçılarının əsərlərində *Tibriz*, Bizans mənbələrində *Tavrez* olaraq keçməkdədir. Xəlifə Ömərin dövründə şəhər Xilafət ordusu tərəfindən ələ keçirildiyi zaman bölgənin ən böyük şəhəri Təbriz deyil, Ərdəbil olmuşdur. Təbriz 858-ci ildə zəlzələ nəticəsində dağılmış, daha sonra Abbasi xəlifəsi Mütəvəkkil tərəfindən yenidən inşa edilmişdir. IX-X əsrlərdə Təbriz şəhəri əvvəlcə Sacilər dövlətinin, daha sonra isə Rəvvadilər dövlətinin hakimiyyəti altında olmuşdur. XI əsrin sonlarından etibarən Təbriz və Ərdəbil türk komandan Ağ Sunqur və ailəsi tərəfindən idarə edilməyə başlanmışdır. Səlcuqlu dövründən etibarən istər siyasi,





*Göy məscid*

istərsə də mədəni yöndən Təbrizin önəmi daha da artmağa başlamışdır.

Səlcuqlu dövründə Təbriz Azərbaycanın mərkəzi funksiyasını icra etmişdir. Toğrul bəy xəlifənin qızı ilə evlənmə təklifinə müsbət cavabı Təbrizdə ikən almış, orada böyük bir ziyafət tərtib edərək Təbriz xalqına dinar, dirhəm dağıtmışdır. Atabəylər və Qazan xanın səltənəti dövründə isə şəhər dövlətin hərbi-siyasi mərkəzi kimi inkişaf etdi. Atabəy Özbək şəhərdə gözəl bir köşk tikdirmişdi. Təbrizdə Qazan xanın türbəsinin qalıntıları hələ də mövcuddur. 1406-cı ildə Təbriz Qaraqoyunlu Qara Yusifin əlinə keçdi və paytaxt olaraq qalmağa davam etdi. Daha sonra Teymurun taxtına sahib olan Şahruh Təbrizi hakimiyyəti altına alaraq şəhərin idarəsini də oğlu Cahanşaha verdi. Məşhur Göyməscid, bir neçə came və xəstəxana onun dövründə tikildi. 1468-ci ildə Həsən padşah Təbrizə hakim olunca, o da tikdirdiyi binalarla şəhər memarlığının inkişafına önəmli töhfə verdi. Onun tikdirdiyi Həsən padşah məscidinin yazılarını dövrün məşhur xəttatı Yaquti Müstəsimi yazmışdı. Övliya Çələbi də səyahətnaməsində

Həsən padşahın Təbrizdə tikdirdiyi bu məscid haqqında məlumat vermişdir. Həsən padşahın oğlu Yaqub da 1477-ci ildə camenin yanında Nəsriyyə mədrəsəsi və Darüşşəfa inşa etdirmişdir. 1500-cü ildə Şah İsmayıl Təbrizdə hakimiyyətini elan etdikdən sonra həyata keçirilən məcburi şiələşdirmə siyasəti şəhərdə gərgin atmosferin yaranmasına, daxili sabitliyin pozulmasına səbəb oldu. Ancaq o, qısa zamanda mövqeyini möhkəmləndirdi. Təbrizin möhtəşəm memarlıq abidələrindən biri də Sultan Cəlayir tərəfindən tikdirilən saraydır. Çaldıran müharibəsindən sonrakı Səfəvi-Osmanlı mübarizəsi Təbriz üzərində də mənfi təsirini göstərdi. Şəhər tez-tez əl dəyişdirsə də, 1639-cu ildə imzalanan Qəsri-Şirin müqaviləsindən dövlətin çöküşünə qədər Səfəvi hakimiyyəti altında oldu. Əfşar və Qacar dövrü Təbriz ticari, mədəni baxımdan inkişaf etdi. Yeni memarlıq abidələri meydana çıxdı. Qacar dövründə İranın ilk mətbəəsi də Təbrizdə qurulmuş, hərbi məhsullar istehsal edən zavodlar açılaraq şəhərin iqtisadi inkişafına təkan verilmişdir. Birinci Dünya müharibəsinin başlanğıcında isə şəhər Rusiya və Osmanlı dövlətləri arasında əl dəyişdirdi. 1918-ci ildə Kazım Qarabəkirin rəhbərliyi altında Təbrizə girən Osmanlı ordusu Mudros sazişinin hökmlərinə uyğun olaraq, 1919-cu ilin ortalarında şəhəri tərk etmək məcburiyyətində qaldı. Əhalisinin demək olar ki hamısı türklərdən ibarət olan bu şəhər Azərbaycanın həqiqi mərkəzi hesab olunur. Hazırda İran İslam Respublikasının hakimiyyəti altında yer alan Təbriz Şərqi Azərbaycan ostanlığının mərkəzidir. Hazırda İranda yaşayan 30 milyonluq türk toplumu üçün Təbriz milli paytaxt hesab olunur.

İpək yolu güzərgahında yer alması orta əsrlərdə Təbrizin dünya ticarətində mühüm rol oynamasına səbəb olmuşdur. Təbriz şəhəri Kirman və Bağdaddan keçərək Hindistana uzanan, Nişapur və Ürgənç yolu ilə Çin və Orta Asiyadan gələn, şimal yolu ilə Dərbənddən keçən, Trabzon üzərindən də qərbə açılan bütün ticarət yollarının kəsişmə nöqtəsində yer almışdır. İranda böyüklüyü etibarı ilə Tehran, Məşhəd və İsfahandan sonra dördüncü böyük şəhərdir. Böyük Səlcuqlu, Atabəylər, Elxani, Qaraqayunlu, Ağqoyunlu, Səfəvi, Əfşar, Qacar və xanlıqların geniş bölgələrdə at oynatdığı əsrlər boyunca, Təbriz türk dövlətçiliyi və mədəniyyətinin də əsas dayaqlarından biri olmağa davam etmişdir. Təbrizin miniatür məktəbi, kilim və səccadələri, ayaqqabıçılığı bütün dövrlərdə cazibəsini qorumuşdur. Təbrizin tarixi qapalı çarşısı günümüzdə də İranın ən önəmli ticarət mərkəzlərindən biridir.

Savalan dağ silsiləsinin ətəklərində qurulan başqa bir tarixi Azərbaycan türk şəhəri də **Ərdəbil**dir. Orta əsr ərəb və fars müəllifləri şəhəri Ərdübil, *Ərdəvil* şəklində qeyd edərək şəhərin quruluşunu Sasani hökmdarı Firuzun dövrünə aid edirlər. Anadolu və Azərbaycan türkləri üzərində dərin təsir buraxan Səfəvi təriqəti mənəvi iqtidarlarının təməllərini bu şəhərdə atmış, sonra onu siyasi sahəyə daşımışdır. Səfəvi şeyxlərinin məzarlarının orada olması bir tərəfə, şəhərin İpək yolu güzərgahında yerləşməsi əvvəlki dövrlərdə də Ərdəbilin əhəmiyyətli bir mövqe qazanmasına səbəb olmuşdur. İslam tarixində Ərdəbili məşhurlaşdıran başqa bir hadisə də Babəkin rəhbərliyi ilə başlayan Xürrəmi üsyanları olmuşdur. Üsyanı yatıran türk əsilli məşhur Abbasi komandanı Afşin öz silahdaşlarından Məngü Çuru Ərdəbilə hakim təyin etmişdir. IX əsrdə Ərdəbil Sacilər dövlətinin mərkəzi olmuş, Böyük Səlcuqlu və Azərbaycan atabəyliyi dövründə bölgədə iqtisadi baxımdan inkişaf etmiş bir şəhər kimi tanınmışdır. Ərdəbil şəhəri gürcü və moğol hücumları ilə müəyyən dağıntı və tənəzzül yaşasa da, Elxanlı hökmdarı Qazan xanın dövründə Təbriz kimi Azərbaycanın ən inkişaf etmiş şəhərlərindən biri olmuşdur. Şəhərdəki Şeyx Səfi külliyəsi dini bir müəssisə olmaqla birlikdə sahib olduğu vəqflər vasitəsilə sosial-iqtisadi quruluş və irfan ocağı halına gəlmişdir. Ərdəbil orta əsrlərdə kitab cildçiliyi və xəttatlıq məktəbi, nəqqaşları ilə



*Şeyx Səfinin məzarı və türbəsi*

də məşhur olmuşdur. I Şah İsmayılın məzarının naxışlarla bəzədilən sənduqəsi nəqqaş Ustad Məxsud Əli tərəfindən hazırlanmışdır. Səfəvi dövrü Şeyx Səfi məqbərəsinin təmir və bəzədilməsi işinə başqa diyarlardan da nəqqaş və xəttatlar cəlb olunmuşdur. Ərdəbil şəhərində ərdəbilli katiblər tərəfindən köçürülən kitab nüsxələri bu gün dünyanın müxtəlif ölkələrinin kitabxanalarında mövcuddur. XVIII əsrdə Azərbaycanda xanlıqlar dövrü başlayarkən Ərdəbil də xanlıq mərkəzi olmuşdur. Çar Rusiyasının işğalı nəticəsind şəhərin zəngin mədəni mühitinə də böyük ziyan dəydi. Şeyx Səfi məqbərəsindəki bəzi əlyazma əsərlər və sənət nümunələri Paskeviçin əmri ilə Peterburqa aparıldı. Əhalisinin böyük əksəriyyəti Azərbaycan türklərindən ibarət olan qədim türk şəhəri Ərdəbil Pəhləvi dövründə əvvəlki cazibəsini itirmiş oldu.

Nefti və atəşgahları ilə məşhur olan, Xəzərin sahilindəki önəmli bir liman şəhəri olan paytaxt **Bakı** şəhərinin 60 km cənub-qərbində yerləşən Qobustan petroqlifləri, əksər türk diyarlarında rast gəlinən qaya rəsmləri və damğaları şəhərin qədim dövr tarixinin, mədəniyyətinin öyrənilməsinə marağı daha da artırmışdır. Qaya təsvirlərindəki gəmi rəsmləri, dəniz yolunun səmtini işarət edən qayıqların burnundakı günəşin şəkli tunc dövrü və ondan da





*Qobustan petroqlifləri*

əvvəl Xəzər sahillərində gəmiçiliyin mövcud olduğunu ortaya qoymaqdadır. Keşlə, Binəqədi, Xırdalan kimi Bakının mərkəz ətrafı hesab edilən yerlərində aparılan arxeoloji qazıntılar şəhərin eramızdan əvvəlki dövrlərdən etibarən məskunlaşma sahəsi olduğunu ortaya qoymuşdur. VII əsrdən də əvvəl yaranan Bakı buxtasının mövcudluğu, Bakı qalasının konfiqurasiyası Bakı şəhərinin hələ buxta mövcud ikən dəniz kənarında liman şəhəri olaraq salındığını göstərmişdir. Bəzi tədqiqatçılar Bakını qədim mənbələrdə keçən Qaytara, Albanapol, Baruka adlanan yaşayış məskənləri ilə eyniləşdirmişdir. Orta əsrlərdə Bakının iqtisadiyyatını neft və duz istehsalı, Abşeron bölgəsində yetişdirilən zəfəran bitkisi təşkil etmişdir. XIV əsrdə Şərqə səfər etmiş fransız rahib Jurden Katalani de Severak *(Jordanus Catalani de Severac; 1280-1330)* Bakı neftindən və onun müalicəvi əhəmiyyətindən bəhs etmişdir.

X əsrdən etibarən Bakı Şirvanşahlar dövlətinin əsas şəhərlərindən birinə çevrilmişdir. 1191-ci ildə Şamaxıda

baş verən güclü zəlzələdən sonra Bakı Şirvanşahlar dövlətinin paytaxtına çevrilmişdir. Şirvanşahlar dövründə dənizdən gələn təhlükənin qarşısını almaq üçün buxta ərazisində qala tikilmişdir. XIV-XV əsrlərdə Bakı başlıca liman şəhərinə çevrildi. Şirvanşahlar dövləti Səfəvi dövləti tərəfindən ələ keçirildikdən sonra bölgə uğrunda Səfəvi-Osmanlı mübarizəsi başlanmış, bundan başqa, Səfəvi dövlətindən ayrılmaq istəyən Şirvan feodal hakimləri də üsyan qaldırmışdılar. Bu mübarizələrə baxmayaraq, həmin dövrdə də Bakı iri ticarət mərkəzi və liman şəhəri kimi əhəmiyyətini itirməmişdir. Ayrıca, bu dövrdə Bakı əhalisinin əsas məşğuliyyəti xalçaçılıq idi. Xanlıqlar dövründə isə Bakı şəhəri Hindistan, İran, Rusiya və Avropa ölkələri ilə tranzit ticarətdə əsas rola malik idi. Bu dövrdə Bakıda toxuculuq, zərgərlik, boyaqçılıq və s. sənət sahələri də inkişaf etmişdir. Çar Rusiyası tərəfindən işğal olunduqdan sonra Bakı şəhərində kapitalist münasibətlər mövcud olmağa başlamış, neft sənayesi inkişaf etmiş və bu inkişaf nəticəsində şəhərdə nəqliyyat əlaqələri də formalaşmağa başlamışdır.

XX əsrin əvvəllərində Bakı şəhəri ermənilərin işğalı altında olsa da, şəhər 15 sentyabr 1918-ci ildə Qafqaz İslam Ordusu tərəfindən azad edilmiş və Azərbaycan Cümhuriyyətinin paytaxtı elan olunmuşdur.

Türk tarix və mədəniyyətindən qoparılmağa çalışılan başqa bir türk şəhəri də hazırda Ermənistan dövlətinin paytaxtı olan **İrəvan** şəhəridir. Rusiya işğalına qədər bu şəhərin, bütün İrəvan xanlığının əhalisinin mütləq əksəriyyəti Azərbaycan türklərindən ibarət idi. Bütün tarixi mənbələr sübut edir ki, 1441-ci ildə erməni katolikosluğunun mərkəzi o zaman həm də Çuxursəd adlanan İrəvana köçürülənə qədər, o bölgədə ermənilərə məxsus heç bir yaşayış məskəni olmamışdır. Katolikosluğun yerləşdiyi Üçkilsə (Valarşabad) torpaqları da o tarixlərdən etibarən hissə-hissə Azərbaycan türklərindən satın alınmışdır. İrəvan torpaqlarının erməniləşdirilməsi, Rusiyanın Qafqaz və





*İrəvanda Göy məscid*

Osmanlı siyasəti, ermənilərdən öz imperialist məqsədləri üçün istifadə etmələri ilə bağlı arxiv sənədləri əsasında onlarla fundamental elmi əsər yazıldığı, bizim kitabımızın çərçivələrini aşacağı üçün bu mövzunun təfərrüatı üzərində durmuruq. Ancaq İrəvan (Çuxursəd) bölgəsinin əsrlər boyu Qaraqoyunlu türk tayfa birliyinə daxil olan boylar tərəfindən idarə edildiyi, 1411-ci ildə dünyasını dəyişən İrəvanın hakimi Qaraqoyunlu Əmir Səədin İrəvan yaxınlığında dəfn olunması, özündən sonra oğlu Pirhüseynin İrəvan (Çuxursəd) hakimi olması, onun dövründə İrəvan qalasının əmirliyin paytaxtı olması danılmaz tarixi faktdır. Çuxursədin tarixi Azərbaycan torpağı olduğunu erməni mənbələri də təsdiq edir. Erməni mənbələri buranı *Sahatapos* – "Səhədin çuxuru", yaxud da *Yerkrin Sahal* – "Səhədin ölkəsi" adlandırırlar. 1554-cü ildə Qanuni Sultan Süleyman İrəvana yürüş başlatdığı zaman Çuxursəd bəylərbəyi Hüseyn xan Rumlu olmuşdur. Ondan sonra da o vəzifəyə

Şahqulu sultan Ustaclı təyin edilmişdi. 1590-cı il müqaviləsinə görə, Çuxursəd bəylərbəyliyi Osmanlı hakimiyyətinə keçmiş, Dövləti-Aliyə müfəssəl dəftərində İrəvan və Naxçıvanla bağlı hər şey qeyd edilmişdir. O dəftərlərdən də məlum olduğu kimi, İrəvanın əhalisinin mütləq əksəriyyəti müsəlman türklərdir. Nadir şahın ölümündən sonra Azərbaycan torpaqlarında qurulan xanlıqlardan biri də İrəvan xanlığıdır. Bu xanlığın çar Rusiyası tərəfindən işğal edilməsindən sonra Sovetlərin son dövrünə qədər İrəvandan Azərbaycan türkləri müxtəlif üsullarla köçə məcbur edilmiş, orada etnik təmzilələmə siyasəti aparılmışdır. Erməni hakimiyyətinin təsis edilməsi ilə birlikdə İrəvan şəhərində ən böyük mədəni soyqırım tarixi müsəlman türk abidələrinə qarşı həyata keçirilmişdir. Şəhərdəki Sərdar saray kompleksi, çoxsaylı karvansaraylar, türbə, məscid və hamamlar yox edilmişdir. Şah İsmayılın vəziri Rəvanqulu xana tikdirdiyi tarixi İrəvan qalası yerlə-yeksan edilmişdir.

Azərbaycan mədəniyyəti tarixində müstəsna bir yerə sahib olan **Şuşa** şəhəri orta əsr şəhərsalma sənəti və memarlığının ən gözəl nümunələrindən biridir. Qarabağ xanlığının mərkəzi olan bu şəhər Xurşidbanu Natəvan, Molla Pənah Vaqif, Mir Möhsün Nəvvab, Əhməd bəy Ağaoğlu, Firidun bəy Köçərli, Üzeyir Hacıbəyov, Nəcəf bəy Vəzirov, Yusif Vəzir Çəmənzəminli kimi nəinki Azərbaycanın, Türk dünyasının sənət və düşüncə həyatında xüsusi çəkisi olan şəxsiyyətlər yetişdirmişdir. Əvvəlcə qala olaraq təməlləri atılan Pənahabad qalası Pənah xan Cavanşirin göstərişi və şəxsi iştirakı ilə tikildiyi üçün Pənahabad və ya Şuşa adlandırılmışdır. Pənah xan və oğlu İbrahimxəlilin öncülüyündə Qarabağın varlı əyanları Şuşada qəsrlər, saraylar, məscidlər tikmişdir. Məlumdur ki, Nadir şahın öldürülməsindən sonra 1747-ci ildə Cavanşirlər tayfasının başçısı olan Pənahəli xan tərəfindən Qarabağ xanlığı yaradılmışdır. Gəncə, Bakı, Şamaxı kimi Azərbaycanın digər xanlıqlarının siyasi-iqtisadi olaraq şəhər mərkəzləri olduqları hal-





*Şahbulaq qalası işğaldan azad olunaraq restavrasiya olunmuş vəziyyətdə*

da Qarabağ xanlığının belə bir şəhəri yox idi. Pənahəli xan siyasi mərkəz yaratmaq məqsədi ilə Kəbirli mahalı içində Bayat qalasının təməlini qoydu. Xan daxili birlik və asayişi təmin etmək, dövlətinin gücünü ortaya qoymaq məqsədi ilə, əvvəlcə Qarabağdakı Alban xristian məliklərini özünə tabe etdirdi. Yeni bir qala olaraq Şahbulaq qalası tikildi. 1756-57-ci illərdə İran başda olmaqla, xaricdən gələn təhlükələri bərtəraf etmək və şəhərin müdafiəsini möhkəmlətmək niyəti ilə Pənahabad qalası tikilməyə başlandı. Sonrakı illərdə şəhərdə uzunluğu 2.5 km olan qala divarlarının tikintisinə başlayaraq üç il müddətinə başa çatdırılmışdır. 1795-ci ildə Ağa Məhəmməd şah Qacar Şuşaya ilk hücumunda Şuşa qalasını 33 gün mühasirədə saxladıqdan sonra şəhəri ələ keçirə bilməyərək geri çəkilmək məcburiyyətində qaldı. Rusiyanın Azərbaycan xanlıqlarını işğal etməyə başlamasından sonra Qarabağ xanlığı da çar rejiminin himayəsini qəbul etmək məcburiyyətində qalmış, 1805-ci ildə Qarabağ xanı İbrahimxəlil xanla Rusiya işğal ordusu komandanı Sisianov arasında Kürəkçay müqaviləsi bağlanmışdır. Rusiya-Qacar müharibələrinin ardından







*Şuşa qalası işğaldan azad olunaraq*
*əsasən restavrasiya olunmuş vəziyyətdə*

imzalanan Gülüstan və Türkmənçay müqavilələri ilə Azərbaycan iki yerə parçalanmış, Şuşa şəhərinin də siyasi-mədəni həyatında yeni bir dövr başlamışdır. Müstəmləkə dövrü Azərbaycanın dünyəvi təhsil verən ilk qəza məktəbi də 1830-cu ildə Şuşada açılmışdır. Şuşa əvvəlcə qəza olaraq Şamaxı quberniyasının tərkibində çar rejimi tərəfindən idarə olunmuşdur. 1848-ci ildə şəhərdə ilk teatr tamaşaları göstərilməyə başlanmışdır. 1864-cü ildə Mirzə Rəhim Fənanın rəhbərliyi ilə şəhərdə "Məclisi-üns" adlı ədəbi məclis təşkil edilmişdir. Gəncə quberniyası yaradıldıqdan sonra Şuşa qəzası da onun tərkibinə verilmiş, şəhərin mədəni-ədəbi mühiti zənginləşmişdir. Başqa bir ədəbi məclis "Məclisi-fəramuşan" Mir Möhsün Nəvvabın rəhbərliyi ilə yaradılmışdır. Habelə XIX əsrin ikinci yarısında Xurşidbanu Natəvan Şuşa əhalisinin su ehtiyacını həll etmək üçün Xan qızı bulağı adlanan, Sarıbaba dağının ətəyindən saxsı borularla şəhərə su çəkdirmiş, bulaqlar tikdirmişdir. Yenə Xan qızı tərəfindən şəhərdə bir gün xanımlara, bir gün də








*Şuşa da Xan qızı Natəvanın evi (2021), Şuşa real məktəbi (2023),*
*Şuşa Xan sarayı (2021) və Xan qızı bulağı.*

kişilərə xidmət edən hamam açılmışdır. XIX əsrin sonlarında qadın ibtidai məktəbi, Şuşa Xeyriyyə Cəmiyyəti tərəfindən qurulan kitabxana açılmışdır. Zaqafqaziyada ilk şəhər məktəbi də bu dövrdə Şuşada yaradılmışdır.

1905-1907-ci illər Şuşa şəhəri də artan erməni zülmündən nəsibini almış, bir neçə bina hücum nəticəsində yandırılmışdır. Bu dövr çar rejiminin bölgədəki hərbi və mülki məmurlarından himayə görən erməni quldurlarına qarşı yerli müsəlman əhalini qorumaq məqsədi ilə Şuşada Əhməd bəy Ağaoğlu tərəfindən "Difai" adlı təşkilat yaradıldı.

1913-1914-cü illərdə şəhərdə həftədə dörd dəfə çap olunan "Şuşinskaya jizn" adlı qəzet də çap olunurdu. 1918-20-ci illərdə şəhərin müsəlman əhalisi erməni silahlı dəstələri tərəfindən qətliama məruz qaldılar. Ancaq Qafqaz İslam Ordusu Şuşanı həmin dəstələrdən təmizləmişdir. Azərbaycan Cümhuriyəti müstəqilliyini elan etdikdən sonra Suşa da daxil olmaqla Qarabağ general-qubernatorluğu yaradılmışdır. Bir tərəfdən Qarabağ və Zəngəzurda erməni separatizmi ilə mübarizə aparan Azərbaycan Cümhuriyyəti, digər tərəfdən də Şuşada Mədəni-Maarif Texnikumu, İncəsənət məktəbi açaraq elm və mədəniyyət həmlələrinə də davam etmişdir. Sovet dövrü Üzeyir Hacıbəyov kimi şuşalı incəsənət və ədəbiyyat korifeylərinin şəhərdə ev-muzeyləri, teatr binaları açılmış, Gövhər Ağa məscidində Tarix Muzeyi fəaliyyət göstərmişdir. 1977-ci ildə H.Əliyevin göstərişi ilə Azərbaycan SSR Nazirlər Soveti Şuşa şəhərini tarix-memarlıq qoruğu elan etmişdir. Bir il sonra şəhərdə Bülbülün ev muzeyi açılmışdır. 1982-ci ildə yenə Azərbaycan SSR-in rəhbəri H.Əliyevin təşəbbüsü ilə Şuşada Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi tikilərək istifadəyə verilmiş, eyni il Xurşidbanu Natəvanın büstünün açılışı da olmuş, şəhərdə təntənəli açılışla Vaqif poeziya günləri başlamışdır.

Cıdır düzündə həyata keçirilən "Xarı Bülbül" musiqi festivalı kimi tədbirlər, şəhərin mədəni-elmi həyatına davam edən yatırımlar Şuşanın bütün Qafqazda şöhrətinin artmasına səbəb olmuşdur. 1992-ci il mayın 8-də hələ Azərbaycan Ordusunun və dövlətçiliyinin yeni-yeni formalaşmasından istifadə edən, yaranan siyasi-hərbi boşluğu fürsət olaraq görən ermənilər Şuşa şəhərini işğal edərək şəhərdə yerli əhalinin bütün milli-mənəvi irsini yox etdilər. Yuxarıda haqqında bəhs olunan tarixi binalar, muzeylər, məscidlər dağıdılaraq Şuşanın erməniləşdirilməsi siyasəti həyata keçirilməyə başlandı. Azərbaycan xalqı və dövlətinin qətiyyətli milli duruşu, ordunun şücaəti ilə 2020-ci il noyabrın 8-də Şuşa düşmən işğalından xilas edilərək öz tarixi sahibinə qaytarıldı. Ali Baş Komandan İ.Əliyev o tarixi xəbəri böyük bir həyəcan və coşqu ilə Şəhidlər Xiyabanından xalqa çatdırdı. O gün bütün Azərbaycanın tarixinə Zəfər Günü kimi daxil olmuşdur. Şuşanı işğaldan azad edən Azərbaycan Ordusu sıldırım qayaları dırmaşaraq, misilsiz şücaət nümunələri sərgiləyərək şəhərə girmişdir. Bu əməliyyat dünya hərb tarixinə yazılmış, hərbi akademiyaların dərindən araşdırmağa başladığı bir əməliyyat olmuşdur. 44 günlük Vətən müharibəsi eyni zamanda iki qardaş ölkə olan Türkiyə-Azərbaycan arasındakı ittifaqı, qardaşlığı yeni bir müstəviyə yüksəltdi. Şuşanın və digər işğal altındakı Azərbaycan torpaqlarının azad edilməsi zamanı Türkiyənin verdiyi müstəsna dəstəyi Azərbaycan xalqı böyük təqdirlə qarşıladı. Bu iki strateji müttəfiq arasındakı münasibətləri ən üst səviyyəyə çıxaran, iki prezidentin Şuşada imzaladığı Şuşa Bəyanaməsi də Türk dünyasının tarixində böyük rol oynadı. Şuşa Qazaxıstanın Türküstan şəhəri ilə qardaş şəhər elan edildi. Şuşa şəhəri 2023-cü ildə Türk dünyasının mədəniyyət paytaxtı seçilmişdir.



## 11.10. ŞƏHRƏNGİZLƏR ANADOLU ŞƏHƏR ƏDƏBİYYATI

Şəhrəngiz sözü Osmanlı ədəbiyyatında yer alan bir janrdır. Bu janr, əsasən şəhərin gözəlliyini, təbiiliyini və tarixini təsvir edir. Farsca şəhr və əngiz, yəni "hərəkətə gətirən" mənasına gələn bu janr bütöv bir şəhərin təsvirindən ibarətdir. Anadoluda, əsasən üç böyük şəhər İstanbul, Bursa və Ədirnə haqqında belə əsərlər çox yazılmışdır. Ancaq Osmanlı ədəbiyyatında Amid, Antakya, Belqrad, Gelibolu, Kəşan, Manisa, Mostar, Rizə, Sinop, Serəz, Daşköprü, Vizə, Yenicə, Üsküp haqqında da şəhrəngizlər qələmə alınıb.

Osmanlı ədəbiyyatında XVI əsrdə yaşamış Əli Mustafa Əfəndi, Camii, Çalıkzadə Mehmed Mani, Dərviş, Hadi, Heyrəti, İshaq Çələbi, Lamii Çələbi, Məsihi, Nüvisi, Ravzi, Sani, Daşlıcalı Yəhya, Ülvi Çələbi, Üsuli, XVII əsrdə Dürri, Nazik Abdulla, Nəşati, XVIII əsrdə Bəliğ, XIX əsrdə Əndərunlu Fazil başlıca şəhrəngiz müəllifləridir.

Səlcuqlu və Osmanlı dövründə Anadolu şəhərləri şəhrəngizlər hesab olunurdular. Anadolunun oğuzlar tərəfindən mərhələli olaraq fəth olunması ilə bölgənin şəhərləri də türklərin idarəsinə daxil olmuş, köhnələrin yanında yeni şəhərlər də ortaya çıxmışdır. Anadolu Səlcuqlu dövlətinin mərkəzi Alaiyyə belə şəhərlərə bir nümunədir.

Bu gün Anadolu termini Türkiyənin Asiyadakı ərazilərini əhatə etsə də, tarix ərzində bu terminin içinə aldığı coğrafi sahə müxtəliflik ərz etmişdir. Türklər mərhələli şəkildə Anadoluda yerləşməklə bölgənin mərkəzi də zaman ərzində dəyişmişdir. Səlcuqlu dövründə bölgənin ilk mərkəzləri İzmit, sonra Konya olarkən, Anadolu bəylikləri dövründə Sivas, Kayseri, Malatya, Ahlat, Ərzincan, Ərzurum, Qastamonu, Bursa türk şəhərlərinin görkəmini aldı. 1453-cü ildə isə İstanbul Osmanlı imperiyasının paytaxtı olmaqla türk memarlığı və sənətkarlığı ilə tanışdı.

Tarix boyunca Anadolunun başlıca üç böyük mərkəzi şübhəsiz, Konya, Bursa və İstanbul olmuşdur. Anadolu Səlcuqlu dövlətinin ilk mərkəzi olan İznik səlib müharibələri ilə türklərin əlindən çıxdıqdan sonra dövlətin paytaxtı 1105-ci ildə Malatyaya köçürüldü. Ancaq Sultan Məsud dövründə *(1116-1155)* Anadolu Səlcuqlu dövlətinin mərkəzi olaraq Konya ön plana çıxmağa başladı. Belə ki, dövrün məndələrində Sultan Məsud "Konya sultanı" adı ilə zikr edilirdi. Konyanın türklər tərəfindən paytaxt olaraq seçilməsinin bir sıra səsəbləri vardır. Şəhər ilk növbədə türklər üçün strateji xüsusiyyətə sahibdi və geniş bir ovalıq ərazidə yerləşirdi. Bu bölgənin iqlim və təbii şərtləri türklər üçün son dərəcə əhəmiyyətli idi. Lakin Konya müdafiə baxımından əlverişsiz idi. Bu baxımdan Səlcuqlu hökmdarları bu problemi ortadan qaldırmaq üçün çalışmalara başladılar. Konyanın qalın divarlarla əhatə olunması uzun zaman aldı. Sultan Məsuddan Sultan Əlaəddinə qədər, yəni yüz ilə yaxın dövrdə Konya şəhərinin istehkamları davamlı olaraq gücləndirilmişdir.

Səlcuqlu dövründə Konya sürətlə inkişaf etdi. Ünsinin "Şahnamə" adlı əsərində Səlcuqlu dövrü Konyasında 360

türbənin, 70 xanəgahın, 7 böyük məscidin, 300 kiçik məscidin olduğundan bəhs edilir. O dövrdən günmüzə qalan həmin 7 böyük məscidin üçü 2 mindən çox müsəlmanın eyni vaxtda namaz qılmasına uyğundur. Bunu diqqətə alan tədqiqatçılar məscidlərdə ibadət edən əhalinin say hesabı ilə Səlcuqlu Konyasında 45-50 min insanın yaşadığını ehtimal ediblər. Halbuki Səlcuqlu fəthindən əvvəl şəhər əhalisinin sayı cəmi 2-4 min arasında dəyişirdi. 1202-ci ilə aid Altun Aba vəqfiyyəsindən şəhərdə xristian və rum (yunan) olmadığı aydın olur. Səlcuqlularla birlikdə şəhərə yerləşən türk ailələri yaylaq-qışlaq həyatlarını da davam etdirdilər. Belə ki, şəhəri qərb və cənub-qərbdən əhatə edən dağlıq ərazilərdə böyük və geniş bağ evləri salınmışdır. Türklər Konyanı əsasən Səmərqənd və Buxara şəhərləri tərzində inşa etmişdilər. Türklərin gəlişi ilə Konya şəhər ərazisi də genişlənmiş və yeni məhəllələrin salınması ilə əlavə şəhər divarları tikilməyə başlanmışdır. Əvvəlki kiçik şəhər divarlarına isə əhmədək adı verilmişdir. Səlcuqludan əvvəlki Konyanın Ələddin təpəsi ilə Zindanqala deyilən yerdə olduğu ehtimal edilir. 1222-1223-cü illərdə Sultan Ələddin Keyqubad bütün şəhəri əhatə edən böyük bir divar çəkdirmişdir. Sultanın bu addımı atmasına səbəb yaxınlaşan moğol hücumları qarşısında tədbirlər almasına bağlanılır.

Konya şəhər divarının uzunluğu 4,5 min metr olub, ümumilikdə 12 qapısı vardı. Hər qalanın qapı hissəsində bazarlar qurulurdu. Konya divarları XIX əsrə qədər mövcud idi. Yıxılan divarlardan o tarixdə hökumət qonağı və yenidən təmir edilən İhyaiyyə məscidinin tikildiyi qeyd edilir. Ayrıca, qala divarlarının qarşısında xəndəklər də çəkilmişdir.

Konya İstanbulun paytaxt olmasına qədər Anadoluda rəqibsiz şəhər olmuşdur. Hətta moğol təzyiqləri ilə tənəzzül etməsinə və Osmanlıların inkişafı ilə birlikdə Ədirnə və Bursanın böyüməsinə baxmayaraq, Konya onları bir çox cəhətdən üstələyirdi.



Konyadan sonra Anadolunun şəhrəngizi Bursa idi. Şəhərin qədim adı Prusa olub, ehtimal ki, qədim Birhiniya kralı Prusiasın adından gəlirdi. Bursa Osmanlı dövləti tərəfindən fəth edilmiş və 1326-cı ildən etibarən Osmanlı dövlətinin paytaxtı olmuşdur. Osmanlı dövründə Bursa sürətlə inkişaf etmiş və bölgəyə çox sayda türk gəlib yerləşmişdir. Şəhərdə məscidlər, xangahlar, hamamlar, mədrəsələr, karvansaraylar salınmış, dövlət binaları və divanxanlar qurulmuşdur. Ayrıca, Xudəvəndigar, Yaşıl, II Murad, Əmir Sultan, Dəmirdaş Paşa və Əbu İshaq adına imarətləri ilə Bursa memarlıq baxımından da diqqəti cəlb edir. İldırım Bəyazid dövründə şəhərdə darüşşəfa (xəstəxana) da qurulmuşdur. Bursa körpüləri arasında Mehrablı körpü, 1674-cü il tarixli Abdal Çələbi körpüsü və Əcəmlər körpüsü memarlığı baxımından xarakteristikdir.

Bursa hamamları isə iki cür idi. Təbii olaraq yerdən çıxan isti sulardan istifadə edilmək məqsədilə tikilən hamamlar, digəri isə suları isindirilərək xidmət edən hamamlar. Qədim Kaplıca, Yeni Kaplıca və Böyük Kükürdlü hamamlar ilkinə, Bitbazar, İncirlicə, Pərşənbə, Qara Mustafa, Ulu came, Yaşıl və Atbazarı hamamları isə ikincisinə nümunə təşkil edir.

Bursada saysız xangah vardır. Onlar arasında ilk xan Orxan bəy tərəfindən tikdirilən Əmir xandır. Sultan I Murad isə Bursada Kapan xanı inşa etdirmişdir. Sultan I Mehmedin tikdirdiyi xangah İpək xanı adlanırdı. Bu xangahlar arasında incəliyi və sənətkarlığına görə, Koxa xanı ilk sırada gəlirdi. Xangah Sultan II Muradın hakimiyyətinin son illərində, yəni 1451-ci ildə tamamlanmışdır.

Osmanlı paytaxtının 1453-cü ildə İstanbul elan edilməsindən sonra Ədirnə, Bursa, Konya kimi şəhərlər əhəmiyyətini itirməmiş, bunlara Manisa, Trabzon kimi şahzadə şəhərləri də əlavə edilərək inkişaf etmişdir. Şəhrəngizlər bir şəhər ədəbiyyatı olaraq bu şəhərləri təsvir etmişdir. Qəsidə, qəzəl, qitə, rübai, tərkibənd kimi fərqli nəzm

ölçülərinin istifadə olunduğu şəhrəngizlər məsnəvi tərzində qələmə alınırdı. Klassik məsnəvi üslubundan başlayan şəhrəngizlər tohid, nat, meracdan sonra peyğəmbərin, Xülafəyi-Rəşidinin və dövrün padşahlarının, bəzən də sədrəzəmlərin tərifinə yer verirdi.

Şəhrəngizlərin yazılma səbəbi müxtəlif olurdu. Bəzən padşahın o şəhəri ziyarəti, bəzən bir yuxu üzərinə, bəzən də bir dostun xahişi ilə qələmə alınan şəhrəngizlərdə olduqca zəngin təbiət təsvirlərinə yer verilirdi. "Ağazi-dastan" deyilən hissədə şair əsərinin mövzusunu və mahiyyətini açıqlayırdı. Şəhrəngizlərin ən maraqlı cəhəti bu əsərlərdə bütün şəhərin təsvirinin yer almasıdır. Bəzən şair şəhəri küçə-küçə, məhəllə-məhəllə xüsusiyyətləri ilə birlikdə təsvir edirdi. Bəzən də şair o şəhərin gözəllərini, kişilərini, tanınmış insanlarını, sənət növlərini şeir dili ilə nəql edirdi. Lamii Çələbi ilə Nazikinin Bursaya dair yazdıqları şəhrəngizlər şəhərin tarixi məkanlarını, sosial xüsusiyyətlərini, təbii gözəlliklərini təsvir etməkdədir.

Şəhrəngizlərin bir başqa xüsusiyyəti digər əsərlərdə geniş yer almayan şəhər qadınlarının həyatının bu əsərlərdə yer almasıdır. Bir çox şəhrəngizlərdə qadınlarla bağlı olduqca açıq ifadələrə yer verilmiş, qadınların həyat tərzi, xüsusiyyətləri geniş təsvir olunmuşdur. Tacızadə Cəfər Çələbinin "Həvəsnamə" və Əndərunlu Fazil Əfəndinin "Xubannamə" ilə "Zənənnamə" əsərləri belə şəhrəngizlərə ən yaxşı nümunədir. Bəzi şəhrəngizlərin içində cinsi münasibətlərə də yer verilmişdir. Ancaq belə mövzuları işıqlandıran müəlliflər əsərlərinin girişində təsvirlərinin səhv başa düşülməməsi üçün oxucularını xəbərdar edirdilər. Ancaq bu təsvirlərdən Anadolu şəhərlərindəki qadınların həyatı haqqında son dərəcə mühüm məlumat əldə etmək mümkündür. Əzizi Mustafanın Divana Məryəm, Paşa Xatun, Kiçiç Qəmər, Sülün Əminə, Kiçiç Nisa, Ağ Göyərçin kimi İstanbulda məşhur olan gözəlləri təsvir edən "Nigarnamə-yi zövqamiz dər üslubi-şəhrəngiz" əsəri bu cəhətdən son dərəcə maraqlıdır.



Bu əsərlərdə bəzən şəhərlərin özləri də bir gözəl kimi təsvir olunurdu. Bu təsvirlər sırasında şəhərin maraqlı məkanları, çeşmələri, məhəllələri, ziyafət yerləri, təbiəti geniş yer alırdı. Şəhrəngizlər yazıldığı dövrün ictimai həyatının ən yaxşı ədəbi müşahidəçiləri hesab edilirdi. Osmanlı ərazisində ilk şəhrəngizlər XVI əsrdən etibarən qələmə alınmağa başlanmış və bu janrın ilk nümunəsi Məsihinin Ədirnə haqqında yazdığı şəhrəngizi olmuşdur.



## 11.11. SURİYADA TÜRK QALASI HƏLƏB

Yer üzündəki ilk yaşayış məskənlərindən biri olan Hələb və ətrafı əsrlər boyu siyasi-hərbi baxımdan müxtəlif güclərin hədəfi halına gəlməklə birlikdə Asiya, Anadolu, Qafqaz, İran, Mesopotamiya, Misir mərkəzli mədəniyyətlərin çulğalaşma nöqtələrindən biri idi. Hetlərdən Bizansa qədər fərqli dövlətlərin hakimiyyəti altında olan Hələb 636-cı ildə Xilafət tərəfindən fəth edilmiş, XI əsrdən etibarən Şərqi Aralıq dənizi hövzəsi və Anadoluda türk hakimiyyətini qurmaq üçün böyük bir mübarizə aparan türk bəylərinin diqqət mərkəzində olmuşdur. Hələb ticarət karvanlarının ziyarətgahı olmaqla birlikdə həcc yolu üstündə yerləşməsi səbəbi ilə üç dinin mənsublarının da maraq göstərdiyi bir mədəniyyət şəhəri idi. Şəhər və ətrafı əsrlər boyu Səlcuqlu, Atabəylər, Əyyubi, Məmlük və Osmanlı dövlətlərinin hakimiyyəti altında yer aldı. Mədəniyyətlərin tarix boyu ərazi, insan və din faktoruna söykənərək inkişaf etməsi amilini nəzərə alsaq, Hələbin hər üç amil



baxımından müsəlman-türk mədəniyyəti içində xüsusi yeri vardır.

Hələb şimal və cənub istiqamətində bir birinə paralel uzanan sıra dağların vadisindədir. Vadinin şimal hissəsi Asi çayının yatağını formalaşdırmaqdadır. Böyük bir hissəsi şimala doğru axan bu çay Antakyaya vardıqdan sonra qərbə doğru yön alaraq əs-Süveydiyə limanından Aralıq dənizinə tökülür. Orta əsrlərin bölgə ticarətində Bərəkətli Hilalın şərqində yerləşən Bağdaddan çıxan mallar Rakka şəhərinə, oradan da ən önəmli ticarət şəhərlərindən biri olan Hələbə daşındıqdan sonra buradan da Aralıq dənizi limanlaraına çatdırılırdı. Tarix boyu şəhər daha çox Misir və Suriyada hakimiyyət qurmuş dövlətlər və xanədanların hakimiyyət sahəsi içində yer almışdır. Ellinizm dövrü və Bizansın hökmranlıq illərində də demək olar ki, qədim şəhər yeri olduğu kimi saxlanılan Hələbin həyatında islami dövrlə birlikdə dini, idari və ticari baxımdan yeni bir cığır açılmış, daha sonra türk xanədanlarının hakimiyyəti ilə birlikdə şəhər türk-müsəlman mədəniyyətinin önəmli mərkəzlərindən bir olmuşdur. Karvansaraylar, hamamlar, mədrəsələr, şəfaxanələr, camilər, xanlar, saraylar, saat qüllələri, türbələr, bulaqlar şəhrdəki orta əsr türk memarlığının ən önəmli yadigarlarıdır. Övliya Çələbinin verdiyi məlumatlara görə, sadəcə XVII əsrdə Hələbdə aralarında məşhur Şeyx Bədri təkkəsi, İxlas Dədə zaviyəsi, Bektaşi Hacı Bayram zaviyəsi, Qırxlar, Nəsimi təkkəsinin də olduğu 176 təkkə mövcuddur.

Hələb ətrafına türk boylarının gəlib yerləşməyə başlaması Səlcuqlulardan əvvəlki dövrlərə gedib çıxır. Bu türklərin əksəriyyəti oğuzların Boz-ox qolundan olan, keçimini qoyun sürülərindən, heyvandarlıq və toxumaçılıqdan təmin edən türkmənləridi. Hələb türkmənləri adlandırdığımız bu türk qruplarının yaylaq yerləri Sivasın Gürün və Kanqal adlanan yerlərinə qədər uzanan sahələr, qışlaq yeri isə Hələb idi. Rəvayətə görə, şəhərin qurulduğu təpə

İbrahim peyğəmbərin qoyunları ilə yaşadığı, südünü sağaraq sədəqə kimi kasıb insanlara payladığı bir yer olması səbəbi ilə şəhərin adı ərəbcə süd sağdı mənasındakı *halebe* kəliməsindən alınmışdır. Evləri əsasən ağ daşdan tikildiyi üçün mənbələr ağ şəhər mənasında Hələb üş-Şəhba ifadəsindən də istifadə etmişdir. Şəhərin quruluş tarixi ilə bağlı dəqiq məlumatlar yoxdur. Tarixçi Əbul Fərəc Assur kralı Balkosun dövründə tikildiyini qeyd etsə də, assurlulardan əvvəlki Yamhad krallığının dövründə salındığına dair də mənbələrdə məlumatlar mövcuddur. E.ə.XVIII əsrdə Yamhad krallığının paytaxtı olan Hələb daha sonra Het dövləti tərəfindən ələ keçirilmişdir.

Hələbin türk hakimiyyətinə tabe olması Tolunoğulları dövrünə təsadüf etmişdir. Əhməd ibn Tolun 878-ci ildə Haləbi öz idarəsi altına almışdır. Onlardan sonra Misir ərazisində qurulan başqa bir türk dövləti olan İhşidilər X əsrin başlanğıcında Hələbi bayrağı altına alaraq ora Bəni Kılab qəbilə rəisini vali təyin etdi. Ancaq qısa bir zaman sonra, 944-cü ildə şəhər Həmdanilər tərəfindən ələ keçirilmiş və dövlətlərinin paytaxtı olmuşdur. Həmdani əmiri Seyfüddövlənin vaxtında Hələb Bizans tərəfindən işğal edilərək şəhərdə böyük bir qətliam həyata keçirilmiş, 1014-cü ildə də Fatimilər tərəfindən işğal edilmişdir. Tolunoğulları və İhşidilərdən sonra Hələb və ətrafında türk təsiri 1023-cü ildə Xanoğlu Əmir Harun ət-Türkmaninin bölgəyə gəlməsi ilə birlikdə yenidən artmağa başlamışdır. Onun ardınca da, Afşin bəy Bizans ərazilərinə yönələn axınlarında Hələbi hərbi baza olaraq istifadə etmişdir. Hələb şəhəri Şərəfüddövlə Müslüm ilə Səlcuqlu məliki Tutuş arasında mübarizə sahəsinə çevrilmiş, Müslüm Sultan Məlikşaha vergi ödəyərək oradakı hakimiyyətini davam etdirmək imkanı qazanmışdır. Anadolu Səlcuqlu dövlətinin qurucusu Süleyman ibn Qutalmışla Müslüm arasında birincinin ikinciyə Antakyaya görə vergi ödəməkdən imtina etməsi səbəbi ilə baş qaldıran problem döyüşlə nəticələnmiş, 1085-ci



ildə cərəyan edən bu döyüşdə Müslüm öldürüldükdən sonra Hələb və ətrafı qəti bir şəkildə türk bəylərinin hakimiyyət sahəsi olmuşdur. 1087-ci ildə Məlikşah Hələbin idarəsini Ağsunqurlara vermişdir. Onun da Suriya məliki Tutuşla 1094-cü ildə baş verən döyüşdə öldürülməsindən, Tutuşun isə Böyük Səlcuqlu sultanı Bərkyarukla Rey şəhəri yaxınlığında baş verən taxt savaşında məğlub olaraq öldürülməsindən sonra Suriya Səlcuqlu dövləti iki yerə bölündü. XI əsrin sonlarında səlib yürüşü başladığı zaman Hələb türkmənləri parçalanmış və gücsüz vəziyyətdə idi. Xaçlı ordularının işğal bölgəsini genişləndirərək Urfa, Antakya və Qüdsdə krallıqlar qurması Hələbi təhlükə altına salmış, Sultan Tutuşun oğlu Məlik Rizvan Tuğtəkin və Artuqlularla güclərini birləşdirərək şəhəri qorumağa çalışmışdır. Məlik Rizvanın vəfatından sonra oğlanlarının idarəçilikdəki səriştəsizliyi vəziyyəti daha da pisləşdirmiş, bölgədəki türkmən qrupları Mardinə hakim olan Artuqlu İlqazinin hüzuruna heyət göndərərək şəhərin müdafiəsinin təşkilini öz üzərinə götürməsini rica etmişdir. Artuqlularla Tuğtəkinlər Afrində xaçlılarla döyüşdə qələbə qazanmış, bu vəziyyət Hələb üzərindəki təhlükəni bir az da olsa azaltmışdır. İlqazinin vəfatından sonra oğlu Temurtaş Hələb qalasına bayrağını çəkərək xaçlı hücumlarına qarşı uğurlu hərbi əməliyyatlar həyata keçirmişdir. Xaçlı orduları şəhər üzərindəki təzyiqlərini artırınca, xalq xəlifəyə və Böyük Səlcuqlu sultanı Tapara kömək üçün müraciət etmiş, Mosul atabəyi Məvdudun komandanlığı altında Hələbi müdafiə etmək üçün böyük bir ordu hazırlanmışdı. 1128-ci ildə Mosul valisi İmadəddin Zəngi Hələbi aldı və beləliklə, şəhərin tarixində Zəngilər dövrü başladı. Zəngilər Urfanı da xaçlılardan azad edərək bölgədəki hakimiyyətlərini daha da möhkəmləndirdilər. 1148-ci ildə I Məsudun rəhbərliyi ilə xaçlılara qarşı müharibə elan edildi. Antakya frankları böyük bir məğlubiyyət yaşadılar və kral Raymond döyüş meydanında öldürüldü.

Nurəddin Zənginin 1146-cı ildə vəfat etməsindən sonra Hələb və ətrafı oğlanları arasında bölüşdürüldü. Bölgədə müstəqil bəyliklər quruldu. Nurəddin Zəngi Hələbdə hakimiyyətini möhkəmləndirdikdən sonra şəhərin tarixində yeni bir dövr başlamış oldu. O, Hələbdən sonra Şamı da hakimiyyəti altına aldı. Zəngidən sonra bölgənin və bütün İslam aləminin tarixində mühüm bir yerə sahib olan Səlahəddin Əyyubinin adı ön plana çıxmağa başladı. Bu dövrdə Türkiyə Səlcuqlu dövləti də Hələbi ələ keçirmək üçün müəyyən cəhdlər etmişdilər. Hələb əmiri əz-Zahirin ölümündən sonra yerinə təcrübəli bir idarəçinin keçə bilməməsi və Əyyubilərin səlibçilərlə apardıqları müharibələr bölgədə hərbi-siyasi boşluq meydana gətirdi. Bunu fürsətə çevirən Anadolu Səlcuqlu hökmdarı Keykavus hərəkətə keçdi. Hələb naibəsi Dayfa Xatun qardaşı əl-Əşrəf və atası əl-Adildən yardım istədi. Onların da yardımı ilə Anadolu Səlcuqluları məğlub edilərək şəhər hakimiyyətinin əl dəyişdirməsinə mane olundu. Əyyubi hökmdarı Nəcməddin Əyyubun dövründə Misirdə məmlük komandanların himayə və dəstək görməsi, onun vəfatından sonra iş başına gələn oğlu Turan Şahın məmlük komandanlara qarşı xoş olmayan münasibəti nəticəsində sui-qəsdlə öldürülməsindən sonra İzzəddin Aybəkin sultan elan edilməsi ilə birlikdə Misir başda olmaqla, Ərəbistan yarımadasının tarixində yeni bir dövr başladı. Hələbə hakim olan Əyyubi Nasir Yusif bir müddət Məmlüklü dövlətinin hakimiyyətini tanımamağa cəhd etsə də, Moğol təhlükəsinin qapıda olması onun sultan Qutuza elçi göndərərək yardım istəməsinə səbəb oldu. Hələb moğollar tərəfindən ələ keçirilərək yağmalandı. Ancaq 1260-cı ildə Eyn Calutda moğollar Məmlük ordusu qarşısında böyük bir məğlubiyyət aldılar. Moğol komandanı Ketboğa ələ keçirilərək sultan Qutuz tərəfindən boynu vuruldu. Bu proses və qələbə Məmlük idarəsinə bağlı Hələb naibliyi adlandırılan yeni bir idari-inzibati sistemin də qurulmasına səbəb oldu. Sultan Baybars



moğolları Hələbdən çıxarmaq üçün özü ordu hazırlayıb Şamdan yola çıxdı. Xaçlıların bu vəziyyəti moğollara xəbər verməsi nəticəsində onlar da Hələbi tərk etdilər və sultan Şəmsəddin Ağquşu Hələbə naib olaraq təyin etdilər.

Məmlüklər Elxanlı dövlətinə qarşı həyata keçirdikləri hərbi səfərlərdə Hələbdən hərbi baza kimi istifadə etməyə başladılar. Məmlük dövlətinin süqut etməsindən sonra 400 ildən artıq bir dövr ərzində Osmanlı hakimiyyəti altında olan Hələb idari, mədəni olaraq əhəmiyyət və cazibəsini qorumuşdur. Osmanlı dövründə şəhərdə həm türk-müsəlman memarlığını özündə əks etdirən yüzlərlə əsər meydana gətirilmiş, həm də özündən əvvəlki dövrdə inşa edilənlər restavrasiya edilərək yaşadılmışdır. Hələbin məhəllə və çarşı adları, orada yaşayan köklü ailələrin kimliyi şəhərin əsrlər boyu türk-müsəlman yurdu olduğunun bariz dəlilini təşkil etməkdədir. Hələbdə Ağyur məhəlləsi, Altınboğa məhəlləsi , Almacı məhəlləsi, Oğulbəyi məhəlləsi, Qatırcı ailəsi məhəlləsi, Badincik, Ballı Burğul, Tatarlar, Haratüt-Türkmən, Həmzə bəy, Çuxurcuq və s. kimi adlarla məşhur olan məhəllələr mövcud olmuşdur. Xanı-İstanbul, Bəngüşa çarşısı kimi binalar orta əsr türk memarlığının parlaq nümunələrindən sayılır. Suriyadaki son vətəndaş müharibəsi zamanı çoxu zərər görüb dağıntıya məruz qalsa da, şəhərdə bir-birindən fərqli İslam memarlıq tərzini görmək mümkündür. Bu vəziyyət Hələbin əsrlər boyu fərqli müsəlman xanədanların hakimiyyəti altında yaşaması səbəbi ilə əlaqədardır. Buradakı ən qədim came 709-cu ildə Əməvi xəlifəsi Vəlid ibn Əbdülməlik tərəfindən inşa etdirilən Cameyi-Kəbirdir. Üzərində kufi yazılar yer almışdır. Bir külliyə xarakterinə sahib olan camenin ətrafında tələbələr və kimsəsizlərin qalacağı otaqlar da vardı. Məlik Zahir camesi, Bəni Haşşap zaviyəsi, Zaviyətül-Hərbili, Zaviyətüs-Sayyadiyə kimi ibadət yerləri də Hələbin ən qədim tarixi məkanlarındandır. Ayrıca, şəhərdə yəhudilər, xristianlar, süryanilərin yaşadığı məhəllələr, onlara

məxsus ibadət məkanları mövcuddur. Kəldani və Marunilərin də özlərinə məxsus kilsələrinin olması şəhərin zəngin dini-mədəni münasibətlərini göstərmək baxımından olduqca mühümdür. Hələbdə hələ 1038-ci ilə aid olan zərbxana mövcud olmuşdur. İstanbul və Anadoludan həccə yollanan qafilələrin Hələbi dincəlmə məkanı olaraq seçməsi şəhərdəki ticari həyatın canlı olmasına səbəb olmuşdur. Qədim dövrlərdən etibarən türkmən həyatının vacib bir amili olan toxuculuq Hələbin ən önəmli gəlir mənbələrindən biri olmuşdur. Şəhərin ən geniş küçələrində yerləşən xanlar və çarşılar Hələbin gözəlliyini, cazibəsini daha da artırmışdır. XIX əsrin ortalarında şəhərdə 4500-ə qədər dəzgah mövcud olmuşdur. Birinci Dünya müharibəsinə qədər karvanlarla yük daşınması ənənəsi davam etmişdir. XIX əsrdən etibarən mədrəsələrlə birlikdə şəhərdə ibtidaiyyə, rüşdiyyə, İnas rüşdiyəsi, İdadiyə, sultani və s. kimi məktəblər də açılmışdır. Ayrıca, Hələbdə Əhmədiyyə mədrəsəsi kitabxanası, Osmaniyə came kitabxanası, Mövləvixanə kitabxanası, Bəhaiyyə mədrəsəsi kitabxanası, İsmailiyyə came kitabxanası, Kurnasiyyə mədrəsə kitabxanası kimi kitabxanalar da fəaliyyət göstərmişdir. XIX əsr rəqəmlərinə görə, Hələbdə Mədaris-i İlmiyyə-i İslamiyə adlandırılan, dini elmlərin tədrisi ilə məşğul olan 23 mədrəsə mövcud idi. Şəhərdə qeyri-müsəlmanlara aid fərqli camaatlara və ya kilsələrə bağlı məktəblər də təhsil fəaliyyətini davam etdirirdi. Şəhərdə Cizvit, Trasanta kimi Fransa dövlətinin açdığı bir çox missioner məktəbləri də var idi.

Mədrəsə və camelərin kitabxanaları ilə birlikdə Hələbdə ayrı-ayrı şəxs və vəqflərin də kitabxanaları mövcud idi. XIX əsr Osmanlı mənbələrinin verdiyi məlumatlara görə, şəhərdə Vilayət, Maruni və Davudiyyə adlı üç mətbəə fəaliyyət göstərmişdir.





## 11.12. İDİLİN İNCİSİ KAZAN

Orta İdil və Kama bölgəsində tarixi İdil Bulqar və Qızıl Orda dövlətinin mirası üzərində qurulan Kazan xanlığının paytaxtı olan Kazan ənənəvi müsəlman-türk şəhərlərindən biri idi. Kazanın cənubunda Astarxan (Həştərxan) xanlığı, qərbində Moskva knyazlığı, şərqində Noqay türkləri, cənub-qərbində Krım xanlığı, şimal-şərqində isə Sibir xanlığı yerləşirdi. Bu xanlıqlar iki əsrdən artıq bir dövrdə slavyan knyazlıqlarını da hakimiyyəti altında tutan Qızıl Orda dövlətinin Əmir Teymurun zərbələri ilə zəifləməsi və süqutu nəticəsində ortaya çıxdılar. Onların arasında ən qüdrətlisi Krım və Kazan xanlıqları hesab olunurdu. Uluğ Məhəmməd xanın vaxtında Kazan xanlığının hərbi dəstələri Moskvanı mühasirəyə almış, 1439-cu ildə Nijni Novqorodu ələ keçirmiş, 1445-ci ildə Suzdalda baş tutmuş döyüşdə rusları məğlub edərək knyaz Vasili ilə onun qardaşı Mixayılı əsir götürürlər. Ancaq 1552-ci ildə Kazanı ələ keçirən ruslar türk torpaqlarına yayılmağa başladılar.

Kazanın ardından digər türk xanlıqları Astarxan, Qasım, Noqay və Sibir xanlıqları işğal edildi və bu hadisədən əsrlər sonra çar Rusiyası Qafqaz və Türküstanı da işğal edərək geniş türk ərazilərini ələ keçirdi. Kazanın işğalı sırasında günlərlə davam edən talan, yağma və soyğunlar, arxasından gələn müstəmləkə rejimi xanlığın və şəhərin tarixi haqqında yazılı çox sayda əlyazmanın yox olmasına səbəb olmuşdur. Ancaq XVI əsrdə yazılmış, vaxtı ilə Kazan xanının sarayında yaşadığı ehtimal olunan, adı bilinməyən müəllifin qələmə aldığı "Kazanskaya istoriya" (Kazan tarixi) xanlığın tarixini araşdıran tədqiqatçılar üçün əhəmiyyətli mənbədir. Rus əsilli müəllif 1532-1551-ci illər aralığında əsir olaraq Kazan sarayında yaşamış, Kazan işğal edildikdən sonra çar IV İvanın xidmətinə girmişdir. Əsər Kazan şəhərinin salınmasından rus işğalına qədərki 300 illik tarixi əhatə edir. Bu əsərlə birlikdə arxeoloji tapıntılar, tatar folkloru, numizmatik və epiqrafik materiallar, qədim rus salnamələri, işğaldan sonrakı dövrlərə dair Rusiya arxiv sənədləri, şəhərlə bağlı qələmə alınan qeydlər Kazanın tarixini işıq tutan başlıca mənbələr hesab olunur. Buna baxmayaraq, şəhərin salınma tarixi və ilkin məkanı ilə bağlı mübahisələr davam etməkdədir. Xanlıq dövründən bir hissəsi günümzə gələn qala divarları qədim Kazanın inşa olunduğu əsas məkan hesab edilir. Əvvələr Kirman adlanan qalalardan ibarət olan şəhər XV əsrdən etibarən xanlığın paytaxtı oldu. Kazan arxeologiya məktəbinin banisi Nikolay Kalininin *(Николай* Филиппович Калинин; 1888-1959) rəhbərliyi ilə aparılan arxeoloji araşdırmalar qədim Kazan şəhərinin yerinin təsbitində mühüm rol oynamışdır. Daha sonra Alfred Xalikov *(Альфред Хасанович Халиков; 1929-1994)* rəhbərliyində davam etdirilən arxeoloji çalışmalar, əsasən Kazan Kremli deyilən ərazidə 5 təbəqənin varlığını ortaya çıxarmışdır. Bundan sonra şəhərin tarixi tədqiqatçılar tərəfindən iki mərhələyə bölünərək yazılmağa başlandı: ilkin mərhələ moğol istilası və Qızıl Orda dövlətinin yaranışına qədərki dövrü, ikincisi isə Kazan xanlığı dövrünü əhatə edir.



İdil Bulqar türklərinin qədim Kazan ərazilərində məskunlaşma tarixi XI əsr olaraq qəbul edildiyindən şəhərin də təməllərinin eyni tarixdə atıldığı qeyd edilir. İlk dövrlər şəhərdə az sayda bulqar yaşamışdır. XII əsrdən etibarən Kazanka çayı sahilləri boyunca intensiv məskunlaşma başlamışdır. İdil bulqarlarının slavyan knyazlıqları ilə ziddiyyətli münasibətləri Kazan şəhərində hərbi məqsədli qalaların inşasına təsir etmişdir. Moğollara qədər olan dövrdə şəhərdə sənətkarlıq və hərbi sənayenin inkişaf etdiyi aydın olur. Qızıl Orda dövründə slavyan knayzlıqları ilə birlikdə Kazanın da eyni dövlətin nəzarətində olması, şəhərin hüdud bölgəsi kimi əhəmiyyətinin azalmasına və qalaların önəmini itirməsinə səbəb olmuşdur. Qızıl Orda dövrünün sonlarında Kazan sərhəd bölgəsi olmaqdan çıxaraq İdil sahəsinin mərkəzi şəhərinə çevrildi. İdil bulqarlarının ticari-mədəni ənənələri ilə Qızıl Orda dövlətçilik idarəsini mənimsəyən Kazan xanlığı qısa vaxtda bölgənin cazibə mərkəzinə çevrildi. Aparılan tədqiqatlar Qızılı Ordanın dağılması, Kazan xanlığının qurulması dövründə şəhər əhalisinin sayında ciddi artım olduğunu, şəhərin sahəsinin genişləndiyini göstərir. Şəhərdə dəriçilik, nalbəndlik, dülgərlik, zərgərlik, mis emalı kimi sahələr inkişaf etmişdi.

Kremlin dağılan şimal-şərq qülləsinin yaxınlığında misəritmə emalatxanası mövcud idi. Boqoroditski monastırının yerləşdiyi ərazidə bir vaxtlar sənaye-istehsal müəssisələri yer alırdı. Gəmi inşaatı ilə məşğul olan müəssisələr isə Beşbaltada yerləşirdi. Kazanka çayının başlanğıcında Kazanın hərbi və ticari gəmiləri üçün liman salınmışdı. XIII əsrin ikinci yarısına aid dükan və evlər şəhərin mərkəzi qismini əhatə edirdi. Arxeoloji araşdırmalarda Qızıl Orda dövrünə aid mavi, firuzəyi və lacivərd rənglərdə çöl divarlara vurulan qaplama lövhələrindən parçalar əldə edilmişdir. Bu tip qaplamalı divarlar bütün Qızıl Orda

şəhərlərinə xasdı. Evlər, əsasən taxtadan tikilirdi ki, bu da şəhər kənarında uzanan meşəliklərdə meşə işçiliyinin inkişafına təkan verirdi. Kazanın Kreml adlanan bölgəsində mühüm tarixi-mədəni memarlıq nümunələri arasında Xan sarayı, Xan məscidi, Nur Əli məscidi, Qul Şərif məscidi, Xan məqbərəsi yer alır. Kazan Kremli Moskvadakı Kremlə də ilham mənbəyi olmuşdur. Sarayın bütün memarlıq planı kopyalanıb, sadəcə taxt yerinə kərpicdən istifadə olunmuş, qüllələr isə yenidə şəkilləndirilmişdir.

Xanlıq dövründə Kazan Kremlininin 10 qapısı vardı. Çar mənbələrində bu qapıların Arça, Atalıq, Yelabuqa, Zboylev, Nur Əli, Kabak, Krım, Noqay, Tümən və Xan adlandığı qeyd edilir. Yelabuqa qapısı ilə Nur Əli qapısı arasında Kazan çayına uzanan gizli yeraltı dəhliz vardı. Şəhər mərkəzindəki Xan sarayının ətrafı ağ daşdan divarlarla hörülmüş və dörd bölümdən ibarət idi:

1) Divan toplantılarının həyata keçirildiyi idari mərkəz binası;

2) Yaşayış bölümləri, qonaq evi və baxça;

3) Xidmət binaları adlandıra biləcəyimiz saray mətbəxi, hamam, axır;

4) İbadət bölümü. Came və dini müəssisələrin yerləşdiyi məkan.

Xan sarayı kompleksinin ana girişi qoşa qülləli darvaza formasında idi. İstifadə olunan bəzək nümunələri Krım və Kazan tatarlarının bəzək zövqünə uyğun olsa da, memarlıq üslubu, inşaat texnikası və mədəni quruluşu ilə Bakıdakı Şirvanşahlar sarayını xatırladır. Çar Rusiyası sarayı işğal etdikdən sonra talan etmiş, silah-sursat anbarı kimi istifadə etmiş, xanlığın işğal edilməsindən 14 il sonra həyətində bir kilsə tikdirmişdir. Xan sarayının son qalıqları XIX əsrin ilk yarısında dağıdılmışdır. Xan məscidi ilə birlikdə Kremlin meydanı içində yer alan başqa bir möhtəşəm abidə Qul Şərif məscididir. Səkkiz minarəli məscidin həyətində böyük bir mədrəsə yerləşirdi. Şəhər çar ordusu tərəfindən işğal



edilirkən, ən şiddətli döyüşlər həmin məscidin ətrafında gerçəkləşmişdir. Mədrəsə tələbələri, imamlar, müdərrislər silahlanaraq şəhəri rus ordusuna qarşı son nəfəslərinə qədər müdafiə etmiş, qanlı döyüşlərdə onların əksəriyyəti şəhid olmuşdur. Çar Rusiyasına qarşı Rusiya türklərinin maarifçilik və milli mübarizə hərəkatının liderləri olan Şihabəddin Mərcani, Musa Carullah Bigi, Yusuf Akçura kazanlı idilər.

# ƏLAVƏ OXU

## XI.I. Ədəbiyyat


- Akıncı Meltem, *İtil Bulgarlarda Kentleşme ve Kent Kültürü, Akdeniz Üniversitesi Sosyal Bilimler Enstitüsü Doktora Tezi*, Antalya 2022.
- Aşurbəyli Sara, *Bakı şəhərinin tarixi*, Bakı: Avrasiya press, 2006.
- Baykara Tuncer, *Türkler ve Şehirler-I*, İstanbul:Post Yay, 2023.
- Belenitskiy A.M, Bentoviç İ.B, Bolşakov O.Q, *Srednevekovıy qorod Sredney Azii*, Leninqrad: İzdatelstvo Nauka, 1973.
- Demir Mustafa, "*Türk-İslam Medeniyetinde Şehirleşme*", İslam Araştırmaları Dergisi, cilt 16, sayı 1, 2003, ss. 156-166.
- Qeydarov M.X, *Qoroda i qorodskoe remeslo Azerbaydjana XIII-XVII vekov*, Baku: Elm, 1982.
- Onullahi Seyyidağa, *XIII-XVII əsrlərdə Tebriz şəhərinin tarixi*, Bakı: Elm, 1982.
- Sümer Faruk, *Eski Türklerde Şehircilik*, Ankara: TTK Yayınları, 1994.
- Şen Seda, *İslamiyet Öncesi Türklerde Şehircilik ve Günümüze Ulaşan Şehir Kalıntıları,* Mimar Sinan Güzel Sanatlar Üniversitesi Sosyal Bilimler Enstitüsü Yüksek Lisans Tezi, İstanbul 2018.
- Tolstov S.P, *Qoroda Quzov*, Sovetskaya etnoqrafiya, Moskva 1947, No:3, ss.55-102.


## XI.II. Terminlər

*antromorfik* – insan və forma sözlərinin birləşməsindən yaranan kəlmə insana aid xüsusiyyətlərin təbiət qüvvələrinə şamil edilməsini ifadə edir.

*Babilik* – Qacar ölkəsində XIX əsrin ortalarında meydana gələn sosial-dini hərəkata verilən ad.

*Burjua* – mülk sahibi olduqları halda aristokratik kimliyə sahib olmayan sinifə Fransada verilən ad. Zamanla istehsal vasitələrini əlində tutan və onları öz mənfəətlərinə görə istifadə edərək ictimai-iqqtisadi münasibətləri idarə edən sinif mənası kəsb etdi.

*Cədidizm* – "yeni" (cədid) mənasında türklər arasında müasir elmlərin və biliklərin yayılması üçün aparılan maarifçilik fəaliyyətinə verilən ad.

*Fəramuşxana* – Qacarlar ölkəsində mason təşkilatlarına verilən ad.

*Fərdiyətçilik* – insanların fərdi azadlıqları və sərbəst fikirlərini müdafiə edən anlayışlara verilən ümumi ad.

*Ictimai-amiyyun* – Qacar ölkəsində və davamında İranda fəaliyyət göstərən sosial-demokrat hərəkətlərə verilən ad.

*ikonoqrafiya* – "təsvir çəkirəm" mənasında olan kəlmə təsviri incəsənətdə hər hansı bir personajın qəbul edilmiş nizamlı sisteminə deyilir. Dini sitayiş və mərasimlərin canlandırılması ilə yaranmış bir sənətdir. İkonoqrafiya sənəti dini kultla bağlıdır.

*İttihadi və Tərəqqi* – 1908-1918-ci illər arasında Osmanlı dövlətini idarə edən hakim partiya.

*İttihadi-müslimin* – XIX əsrin axırları və XX əsrin əvvəllərində Avropanın müstəmləkə siyasəti qarşısında bütün müsəlmanların birliyini müdafiə edən siyasi-ideoljik və dini bir anlayış.

*hənəfi* – İslamda sünniliyin dörd təməl məzhəbindən ən böyüyü qəbul edilir. İmam Əzəm Əbu Hənifəyə nisbətlə hənifəlik adlanmışdır.

*Kapitalist* – sərmayə və rəqabət təməlində qurulan münasibətlər sisteminə verilən ad.

*Kavaidi-türki* – Səfəvilər. Əfşarlar və Qacarlar dövründə türk olmayan məmurlara və xalqların nümayəndələrinə türk dilini öyrənmələri üçün yazılan kitablara verilən ümumi ad.

*Qanuni-əsasi* – konustitusiya.

*Qədimçilər* – Avropa mərkəzli inkişafa qarşı çıxan və ənənəvi dəyərləri müdafiə edənlərə "köhnə" mənasında verilən ad.

*Liberalizm* – sərbəst Pazar siyasətini və fərdi azadlıqları əsas alan düşüncəyə verilən ad.

*məcusi* – əsasən, ərəbcə mətnlərdə oda sitayiş edənlər, yəni atəşpərəstlər üçün istifadə olunan bir termindir.

*Məşrutiyyə* – konustitusiyalı idarə etmə tərzi.

*Milli dövlət* – mərkəzində bir milli kimliyin hakim olduğu dövlət anlayışı.

*Modern* – "müasir" mənasında elmi-texnoloji inkişafı əsas alan, ağıl mərkəzli fikirlər təməl qəbul edən və dünyəvi fikirlər üzərinə qurulan ictimai-siyasi həyat tərzi və dünya anlayışı.

*Musavat* – 1911-ci ildə Məmməd Əmin Rəsulzadə tərəfindən qurulan və 1918-1920-ci illər Azərbaycan Cumhuriyttənin yaranmasında böyük rol oynayan partiya.

*Müridizm* – Qafqazda Şeyx Şamil tərəfdarlarına verilən təsəvvüfi-siyasi cərəyan.

*nəsturi* – xristanlıqda dini bir cərəyan və məzhəb. Nestor tərəfindən təsis edildiyində nəsturi adını almışdır. Nəsturilər digər xristianlardan fərqli olaraq, İsanı insan qəbul edir və onun tanrılığını rədd edirlər.

*nəqşibəndilik* – təsəvvüfi mahiyyətli sünni meyilli bir təriqət. Bəhaəddin Nəqşibəndi Buxariyə görə bu adı alıb. Təriqət nişanı Cəfər Sadiqin sufi ordeni idi.

*Nizami-cədid* – Osmanlı dövlətində Avropa tərzində yaradılan müasir və daimi ordu sisteminə verilən ad.

*Osmanlıçılıq* – XIX əsrin axırları ilə XX əsrin əvvəllərində Osmanlı imperiyası tərkibində yaşayan bütün xalqları eyni kimlikli (osmanlı) hesab edən siyasi-ideoloji anlayış.

*Pansilamizm* – müsəlmanların birliyini və ittifaqını müdafiə edən və II Əbdülhəmid zamanında Osmanlı dövlətinin başlıca siyasəti halına gələn cərəyana verilən ad.

*Panslavizm* – bütün slavyan xalqları Rusiyanın rəbrəliyində birləşdirilməsini hədəfləyən və Çar II Nikolay zamanında çarlığın siyasi strategiyasına çevrilən milliyətçilik cərəyanı.



*Pantürizm* – türklərin və türk xalqlarının dil, kimlik, tarix və mədəni birliyini müdafiə edən fikirlərə verilən ümumi ad.

*Respublika* – hakimiyyət orqanlarının xalq tərəfindən seçildiyi idarəetmə formasına verilən latınca termin. Dilimizdə "cumhuriyyət" mənasında istifadə olunmuşdur. Cümhuriyyət "cumhur" (xalq) sözündən yaranmış ərəbcə və osmanlıca bir termindir.

*Təşkilati-məxsusə* – Osmanlıda İttihad və Tərəqqi hakimiyyəti dövründə (1908-1918) mövcud olan xüsusi kəşfiyyat təşkilatının adı.

*təzkirə* – orta əsrlərdə müəlliflərin, əsasən də ədib və şairlər haqqında yazılan bioqrafik əsərlərə verilən ad.

*Yeni dünya* – 1492-ci ildə "Amerika" qitəsinin kəşfi ilə ortaya çıxan xristianlıqda bir termin olub, zamanla müasir dünyanı və dünyanın elmi-texnolojik inkişafını ifadə edən termin kimi istifadə edildi. Günmüzdə "qlobal dünya" anlayışına verilən bir adlandırmadır.

*On ikinci fəsil*

# TÜRK DÜNYASINDA ZEHNİYYƏT DƏYİŞMƏSİ VƏ MÜASİRLƏŞMƏ



## 12.1. QƏRB ANLAYIŞI

*"Qərb"*, *"Qərb mədəniyyəti"* və ya *"Avropa"*, *"Avropa mədəniyyəti"* kimi terminlər XIX əsrdə formalaşıb. 1492-ci ildə İspaniyadakı müsəlman torpaqlarının istilası və Amerikanın kəşfi ilə Avropada başlayan proseslər ancaq XIX əsrdə vahid bir kimlik altında birləşməyə başladı. XIX əsrdə formalaşan Qərb və ya Avropa fikri iki əsas təməl üzərində inşa edildi:

- İnsanların hökmdarın mütləq təbəəsi deyil, azad insanlar olduqları fikri;
- Hamının bir hüquqi sistemə tabe olduğu anlayışı.

Qərb anlayışı iqtidar və hakimiyyətin yeni tətbiqi düşüncəsi üzərində formalaşdı. Bu anlayışa görə, hökmdar qarşısında mütləq təbəə olaraq qəbul edilən insanlar "vətəndaş" statusu qazandı, Avropa siyasətində *respublikaçı* idarə anlayışı mərkəzə çıxdı. Adına *modern* deyilən bu prosesdə hamı dövlətin həyatında iştirak edə biləcəkdi. Bu zaman insanların bir elita ilə təmsil olunduğu, hökumətin idarə haqqını əldə etdiyi və yurddaş camaatların mənfəətini qoruyan təbii hüquq anlayışı əsas götürülür. Bu prizmadan Avropa

özünün insanlıq tarixində fərqli bir mövqedə, *yeni dünya* anlayışının qurucusu olduğunu iddia etməyə başladı.

Avropadakı bu anlayışın təmələri 1648-ci ildə Vestfaliya sülhü ilə atıldı. Avropada *otuz illik* müharibəyə son qoyan bu sülhlə Avropa dövlətləri arasında münasibətlər iki təməl prinsipə görə müəyyən edilməyə başlandı:

1. Avropa krallıqları arasındakı münasibətlərin *rəqabət* anlayışına görə müəyyən edilməsi;

2. Dövlətlərarası rəqabət münasibətləri əsasında ortaq təhlükəsizlik anlayışının formalaşması.

Formalaşmağa başlayan *müasir mədəniyyət* fikri ideya olaraq üç təməl üzərində yerləşdirilməyə başlandı:

a) Siyasi demokratiya: *mutatis mutandis* (lazım gəldikdə dəyişiklik etməklə) ortaq siyasi uyğulama və dəyərlərin əsas götürülməsi;

b) Təmsili respublika: təbiət dəyərlərinin əsas götürüldüyü hüquqi idarəetmə tərzi;

c) Dünya sülhü: Qərb dəyərləri əsasında qurulacaq "dünya yurddaşlığı konstitusiyası" fikri.

Jan Jak Russo *(1712-1778)* və İmmanuel Kant *(1724-1804)* tərəfindən fəlsəfi mənada dilə gətirilən Qərb anlayışı, Corc Vilhelm Fridrix Hegel *(1770-1831)* tərəfindən tarix anlayışı üzərində *inkişaf* və *irəliləmə* düşüncəsinə söykəndiyi fikri əsas götürüldü. Bu anlayış Benjamin Konstant, Tokvill, Vilhelm von Humbolt, Con Stuart Mill və Cüzeppe Mazzini tərəfindən *liberal monarxizm* və ya *burjua liberal cəmiyyəti* olaraq ifadə edilirdi. Alman filosof İmmanuel Kanta görə, Avropanın başlıca hədəfi dünya *sülhünü* təmin etməkdir.

Avropada *dünya sülhü* anlayışının *paxromana* anlayışı əsasında, yoxsa *darül-İslam* anlayışına alternativ olaraq şəkilləndiyi mübahisəlidir. Sivil cəmiyyət və onun haqlarını müdafiə edən ideya – sivil konstitusiya düşüncəsi ilə dünyada yeni hakimiyyət düşüncəsi formalaşdırıldı. Yeni dünya hakimiyyəti anlayışı özündən əvvəlki hakimiyyət sistemlərindən fərqli olaraq, "ilahi" təməllərə deyil, təbiət anlayışına



əsaslanırdı. Buna görə *dövlət* (*state*) anlayışı Qədim Yunanıstanda *polis*, Roma dövründə *civitas* sözlərini özünün tarixi təməli qəbul edərək Avropada ərazinin bütün tarixi keçmişini əhatə edəcək şəkildə genişləndirdi. Avropa dövlətləri arasında münasibətlər ortaq təhlükəsizliyin təmin edilməsi əsasında *milli dövlət* prinsipləri üzərində inşa edilmişdir.

Odlu silahlarla silahlanmış yeni nizami ordu anlayışı, hamının oxuyub-yazmasını əsas götürən vahid təhsil sistemi və mərkəzləşmiş bir siyasi iqtidar anlayışı olaraq ortaya çıxan Avropa və ya Qərb fikrinin avropalı dövlətlərini avropalı olmayan dövlətlərdən ayıran başlıca xüsusiyyəti idi. Belə bir dövlət anlayışı Avropa dövlətlərini siyasi bir ideologiya ətrafında birləşdirirdi.

Beləliklə, 1800-1914-cü illər arasında formalaşan "avropalaşma" fikri Avropadakı inkişafını tamamlayaraq dünyada yayılmağa başladı. Avropalaşma dünyaya insani-əxlaqi mənada başlıca olaraq dörd dəyəri ixrac edirdi:

- İnsani münasibətlərdə şəxsin özünün fərdi düçüncəsini əsas götürən *fərdiyyətçilik;*
- Yeni sərmayə münasibətlərini və qazanc anlayışını əsas götürən *mülkiyyətçilik;*
- Təbiət dəyərlərinə söykənən *dünya fikri;*
- Texnoloji inkişafı əsas götürən müasir *elmi düşüncə.*

Adına *maarifçilik* deyilən intellektual hərəkatla dünyaya yayılan bu prinsiplər dünyada yeni insanlıq fikrini şəkilləndirir, avropalı olmayan ölkələr üçün "Avropa təcrübəsi"ni əsas götürməyi məcburi hala gətirirdi. Avropalılaşmaq Avropanın əldə etdiyi hərbi uğurlar diqqətə alındıqda əvvəlcə Osmanlıların, sonra Qacar türklərinin diqqətini çəkdi. Osmanlı və Qacarlar xaricində qalan və böyük nisbətdə Rusiya tərəfindən ələ keçirilən türk ölkələrində avropalılaşmaq Rusiyadakı münasibətlərə verilən bir reaksiya olaraq yayılmağa başladı. Qısaca, Qərb fikri XIX əsrdə, xüsusilə də XIX əsrin ikinci yarısından sonra türk ziyalıları tərəfindən dilə gətirilməyə başlandı.

### 12.1.1. Qərb təsəvvürünün qavranılması

Qərb təsəvvürü türklər arasında əsas iki təsir nəticəsində yayılmışdır:

- Birincisi, Avropa dövlətlərinin hərbi sahədə əldə etdikləri üstünlük;
- İkincisi, Avropa dövlətlərinin hərbi üstünlüyünü təşkil edən texnoloji inkişaf.

Müasirləşmə müsəlman ölkələrində əvvəlcə bölgələr səviyyəsində başladı. Bu istiqamətdə ilk təşəbbüslər Krım xanlığı və Misirdə gerçəkləşdi. Ancaq genişmiqyaslı müasirləşmə Osmanlıda başladı. Müasirləşmə anlayışı mövcud sistemin dəyişməsi mənasına gəlirdi. Bu anlayış da geniş miqyasda müsəlmanları narahat edirdi. Müsəlmanlar öz zehniyyətlərinin, həyat tərzlərinin, mədəni-sosial mühitlərinin "gavur" adlandırdıqları kimlikdən olan xalqların həyat tərzi ilə dəyişdirməyə qarşı idilər. Əslində eyni qorxu və narahatlıq Avropa xalqlarında da vardı. Çünki Avropada meydana gələn dəyişmələr xalqların ənənəvi həyat anlayışlarının parçalanmasına yol açır, xristianlıqla yoğrulmuş sosial-mənəvi həyat tərzlərini dəyişdirirdi. Fransa Akademiyasının akademiki Şarl Lui Monteskyö *(Charles-Louis de Secondat; 1689-1755)* 1745-ci ildə Avropadakı vəziyyəti belə təsvir edirdi: "Paris Akademiyası Avropanın davamlı dəyişmiş və hələ də dəyişməkdə olan bir qitə olduğunu qeyd edir. Bu dəyişmə bizim inkişaf edən bilik və zehnimizin əsəridir. Akademiyaya görə, dünyanın digər yerləri isə tənəzzül içindədir". Avropalılara görə, Asiya öz yüksəliş dövrünü tamamlamış və tənəzzül keçirirdi. XVII əsrdə Səfəvilərə qədər bir çox müsəlman ölkələrini gəzən Jan Şarden *(Jean Chardin; 1643-1713)* Asiya ilə Avropanı belə müqayisə edir: "Asiya ətalət deməkdir, Avropa isə daim dəyişən dünya deməkdir".

Avropa öz həyat tərzini dəyişməklə fəxr edir, dünyanın başqa xalqlarına geridəqalmış cəmiyyətlər nəzəri ilə



baxırdı. Bu zehniyyətlə artıq XVIII əsrdə avropalılar öz həyat tərzlərinin dünyanın başqa yerlərindəki xalqlardan daha üstün olduğu şəklində bir təsəvvür yaratmışdılar.

Ancaq həmin dövrdə Avropada baş verənləri müşahidə edən Osmanlı başda olmaqla, bir çox Şərq ölkələrinin dövlət adamları və mütəfəkkirləri də var idi. Onlardan Mehmed Ağa adlı bir Osmanlı elçisi I Pyotr dövründə Rusiyada baş verənləri yaxından müşahidə etmişdir. Yenə Mustafa Rəşid Paşa, Rasim Əfəndi və İyirmisəkkiz Çələbi Mehmed Əfəndi kimi bir çox Osmanlı bürokratı Avropa ölkələrinə təşkil etdikləri səfərlərdə gördüklərini ətraflı izah etmişdilər. XVIII əsrdə Osmanlıda bir ziyalı sinfi formalaşmağa başladı. Həmin ziyalılar Avropa dillərini öyrənməyə həvəs göstərərək, oradakı hadisələrlə maraqlanırdılar. Hezarfən Hüseyn Əfəndi, Mehmed Əsəd Əfəndi, Pirizadə Mehmed Sahib həmin ziyalılar sinfinin ilk nümayəndələri olub, yunan və latın dillərini dərindən bilirdilər.

Avropa anlayışı Şərq xalqlarına yad deyildi. Siyasi baxımdan müsəlmanlar qərbli gücləri tanıyırdılar. Xüsusilə də Hindistan və Hind okeanı sahillərində həm siyasi, həm mədəni, həm də ticari mənada hər iki kimlik arasında qarşılıqlı münasibətlər mövcud idi. Hətta XVII əsrin ikinci yarısında Səfəvi, Osmanlı, Babur ölkəsində kütləvi sayda avropalı missionerlər, tacirlər, hərbçilər, hətta sadə vətəndaşlar belə məskunlaşmışdı. Çox sayda avropalı yurdunu tərk edərək bu ölkələrdə yerləşmiş, hətta çoxu müsəlmanlığı qəbul edib, xüsusilə də Babur ordusunda xidmət edirdi. XVII əsrin ikinci yarısında Səfəvi miniatürlərində Avropa sənətinin təsirləri də özünü əks etdirirdi. 1730-cu ildə Baron de Tott *(1733-1793)* Krım xanının Molyerin tamaşaları haqqında məlumatlı olduğunu heyrətlə qeyd edib. Yəni Qərb müsəlmanlar üçün müəmma hesab olunmurdu.

## 12.1.2. İşğal və istismar

Avropa dövlətləri və rusların müsəlman bölgələrində fəaliyyəti bir anda başlamadı. Bu münasibətlərin uzun sürən tarixi vardır. Müsəlmanlar uzun müddət Avropa və slavyan knyazlıqlarını öz nəzarətləri altında tutublar. Əndəlüsdə və Balkanlarda müsəlman-türk hakimiyyəti uzun illər davam etdiyi kimi, slavyan knyazlıqları da əsrlər boyu Qızıl Orda dövlətinin nəzarəti altında yer almışdır.

Bu münasibətlərin Avropa lehinə dəyişməsindəki əsas səbəb hərbi sahədə baş verən yeniliklərdir. Xüsusilə odlu silahlara (toplara) uyğun formlaşdırılan intizamlı ordu ənənəvi türk hərbi döyüş taktikası üzərində üstünlük qurmağa başladı. Azsaylı hərbi qruplar və bir at vasitəsilə çəkilən təkərli toplarla hərəkət edən yeni ordu dəstələri əsas gücünü süvarilərin təşkil etdiyi türk ordularına rahatlıqla müqavimət göstərirdilər. Top və tüfəng Osmanlı və Səfəvi başda olmaqla, türk dövlətlərinin də ordusunda istifadə olunurdu. Lakin dəmir qıtlığı və tökülən topların keyfiyyətsizliyi, üstəlik, süvarilərin tüfəngdən istifadə etməkdə yaşadıqları çətinliklər top və tüfənglə silahlanmış piyada dəstələr qarşısındakı üstünlüyü azaldırdı.

Avropa, xüsusilə də Moskva knyazlığının yayılmasında qarnizon taktikası böyük rol oynayırdı. Xüsusilə də ruslar ələ keçirmək istədikləri ərazilərin yaxınlığında qalalar tikir və həmin yeri özlərinin müdafiə istehkamlarına çevirirdilər.

1550-ci ildə Moskva-Volqa-Xəzər üzərindən açılan Səfəvi-İngiltərə ticarət xətti rus tacirlərinin də marağını özünə cəlb etdi. Həmin illərdə türk dövlətləri ilə ruslar arasında böyük ticarət əlaqələri mövcud idi. Xüsusilə Azərbaycan və Orta Asiya özünün dəmir ehtiyacını Rusiyadan qarşılayırdı. Külçə halında satılan dəmirlər Səfəvi, Buxara, Qazan, Astarxan və Noqay xanlıqlarının dəmir tələbatını qarşılamaq üçün mühüm idi. Ruslar dəmir müqabilində at ehtiyaclarını türklərdən qarşılayırdılar. 1555-ci ildə sadəcə bir dəfəyə Noqay ölkəsindən Moskvaya 20 min at aparılmışdır. Moskva türklər üçün at bazarı hesab olunurdu. Kalmuklar, Krım və Noqaylar hər il on minlərlə atı Moskvaya göndərirdilər. Moskva həmin atları hərbi və kənd təsərrüfatı sahəsində qiymətləndirirdi. Bataqlıq və əkinə yararsız torpaqların istifadəyə yararlı hala gətirilməsi üçün slavyan kəndlilərin at gücünə ehtiyacı vardı. At müqabilində türklər ruslardan dəmir, mis, qalay, qurğuşun, selitra, kükürd, barıt, mərmi, odlu silah alırdılar. Moskva knyazları türklərin hərbi gücünə yarar sağlayan bu məhsulların ticarətinə çətinliklər törədir, bəzən də ticarətini qadağan edirdi. Ticarət münasibətləri kəsildiyi zaman türk süvariləri Moskva knyazlığına bağlı ərazilərə hücum edib çox sayda slavyanı əsir alaraq, onları ya fidyə müqabilində ruslara, ya da qul tacirlərinə satırdılar. Kəfə, Azaq (Azov), Buxara və Xivənin qul bazarlarında on minlərlə slavyan qul satılırdı. XVII əsrin mənbələrində həmin bazarlarda satılan qulların sayının 150-200 min olduğunu yazırlar. Həmin qullar arasında çox sayda imkanlı rus məmurları və dövlət adamları da vardı. Bir rus əsilzadəsinin fidyə qiyməti 60 min gümüş sikkəyə bərabər idi. Moskva hökuməti həmin adamların geri alınması üçün türk xanlarına böyük miqdarda fidyə verirdi. Bu məqsədlə 1551-1679-cu illər arasında Moskva knyazlığı öz əhalisindən *fidyə vergisi* (polonianniçniy sbor) toplamaq məcburiyyətində qalmışdı.

Ruslarla türklər arasında münasibətlər sərhəd bölgələrində meydana gələn toqquşmaların miqyasının dəyişməsi ilə başladı. Moskva knyazlığı özünün sərhəd bölgələrində və ticarət yolları yaxınlığında toplarla qorunan istehkam qalaları tikməyə başladı. XV əsrin axırlarında barıtın istifadəsi ilə birlikdə yeni tərzdə müdafiə istehkamları quruldu və toplarla müdafiə olunan qalalar sərhəd qəsəbələrin, hətta kəndlərin yaxınlığında yerləşdirildi. 1571-ci ildə Krım ordusunun Moskvaya qədər gerçəkləşən hücumunun

qarşısını məhz həmin toplarla qorunan qarnizonların müqaviməti dayandırdı. Xüsusilə də rus sərhəd qüvvələrinin əlində *arkebus* adlanan silahlar özünü müdafiədə böyük avantajlar təmin edirdi.

XV əsrin əvvəllərində ortaya çıxan bu silahların ağırlığı 2,5-3,5 kq arasında olub, əsas xüsusiyyəti praktik quyruq, uzun lülə, bir anbarı və tətikli fitil kilidinin olması idi. Bunlar atıcıya çox əhəmiyyətli məsafələrdən arkebusdan məqsədyönlü şəkildə atəş açmaq, hədəfini vurmaq və düşməni istehkam divarlarına yaxınlaşmadan məhv etmək imkanı tanıyırdı. Rus knyazları bu silahların ticarətini də aparırdı. Belə ki, 1530-cu illərdə Moskva knyazlığının Səfəvi dövlətinə belə silahlardan tam 30 min ədəd satdığı Krım xanlığına dair sənədlər arasında qeyd edilir.

Moskva knyazlığı tətbiq etdiyi bu strategiyanı mərhələli olaraq genişləndirdi. Artıq XVI əsrin ortalarında Moskva knyazlığının müdafiə istehkamları Qazan və Qasım xanlıqlarının sərhədinə qədər genişlənmişdi.

Rusların türk torpaqlarındakı istilasını asanlaşdıran başqa psixoloji və hüquqi səbəblər də vardı. Dövrün Qazan və Krım üləması və xalq kütlələri arasında bir kəhanət dolaşırdı. Xüsusilə də rusların İdil (Volqa), Yayık (Ural), Dərbənd və Şamaxı ətrafında böyük ticarət heyətləri ilə gəlib-getməsindən təsirlənənlər "kitablarımız bütün müsəlman əmirlərin rus çarı tərəfindən əsir alınacağını söyləyir" şəklində şayiələr səsləndirirdilər. Digər bir amil isə 1552-ci ildə Qazanın, 1556-cı ildə isə Həştərxanın ruslar tərəfindən ələ keçirilməsindən sonra Moskva knyazının özünü Qızıl Ordanın varisi elan etməsi, hətta bu məqsədlə müsəlman tacı geyindiyi qeyd edilməsidir. Günümüzə qədər qorunan həmin tac *"Şapka Qazanskaya"* adlanır ki, bunun bir papaq deyil, üzərində Qurandan ayələrindən ibarət türk xanlarına məxsus tac olduğu məlumdur. Bu, türk əmir və xanları üzərində psixoloji təsir yaradırdı. Hətta bəzi tatar və qazax əmirləri rus çarını Qızıl Ordanın varisi hesab edirdilər.



Rus istilasının digər səbəblərindən biri də ticarət və elçiliklər adı altında aparılan casusluq fəaliyyəti idi. Müsəlman ölkələrinə gələn və bəzən sayları 500-ə qədər çatan rus tacirləri arasında knyazın çoxlu casusları yer alırdı. Onlar getdikləri ölkələr haqqında məlumatlar toplayır və Moskva hakimlərinə raportlar təqdim edirdilər. Rusiya arxivlərində bu səpkidə çoxlu tacir və elçilərin raportları var. I Pyotrun Xəzər ətrafına hərbi səfərində Florio Beneveninin *(Флорио Беневени)* 1718-1725-ci illərdəki Səfəvi və Buxaradakı elçilik raportları ilə, Artem Volınskinin *(Арте́мий Петро́вич Волы́нский; 1689-1740)* 1715-1718-ci illərdə İsfahana qədər uzanan elçiliyinin nəticələri haqqında hazırladığı raportu təsirli olmuşdur.

1558-1582-ci illər arasında Sibir xanlığı ilə aparılan uzun mübarizədə türklər bir neçə dəfə rusları məğlub etsələr də, odlu silah çatışmazlığı səbəbindən məğlub oldular. Sibir xanı Kuçum xanın 1598-ci ildə məğlubiyyəti ilə Sibir xanlığının əraziləri tamamilə rusların əlinə keçdi. Rusların Sibiri istilası 1604-cü ilə qədər davam etdi. Eyni tarixdə Həştərxan ilə Krım arasında məskunlaşan Noqay uruqları rus hakimiyyəti altına alındılar. 1628-ci ildə Yuxarı Yenisey boyunda yaşayan qırğızlar da eyni aqibətə uğradılar. 1731-ci ildə qazaxların Kiçik Juz (Orda) qanadı rusların hakimiyyətinə boyun əydilər. 1783-cü ildə isə Moskvanın əzəli düşməni qəbul edilən Krım ruslar tərəfindən istila olundu.

Krımın istilası Rusiya tarixi baxımından son dərəcə mühüm idi. Belə ki, Krımın istilası 1768-1774-cü illər arasında davam edən Osmanlı-Rusiya müharibəsinin nəticəsində əldə edilən Kiçik Qaynarca razılaşması nəticəsində gerçəkləşmişdir. Həmin müqavilə Rusiya çarına ortodoks (provaslav) xristianların himayəçisi olmaq haqqı tanıyırdı. Rus çarları buna istinadən özlərini bütün pravoslav xristianların hüquqlarının qoruyucusu sayırdılar. Yəni Rusiyanın türk ölkələrini istilası eyni zamanda bir növ *ortodoks səlib istilası* hesab edilirdi. Bu səbəbdən Rusiya çarları özlərini

Qafqazda, Səfəvi ölkəsində, Osmanlı torpaqlarında məskunlaşan bütün pravoslav xristianların qoruyucusu və haqlarının müdafiəçisi olaraq görürdülər.

Krımdan sonra ruslar Qafqaz istiqamətində irəliləməyə başladılar. 1804-1813 və 1826-1828-ci illər arasında Qacar-Rusiya müharibələri ilə Araza qədər ərazi rusların nəzarəti altına keçdi. Lakin rusların Qafqazı tam ələ keçirməsi uzun onilliklər aldı. 1859-cu ilə qədər davam edən bu müqavimət rusların hərbi baxımdan böyük güc itirməsinə səbəb oldu, digər tərəfdən də Qafqazda çox sayda müsəlmanın qətliamı ilə yadda qaldı. Xüsusilə də ruslara müqavimət göstərən balkar, çərkəz, avar, qumuq, noqay, türkmən, qaraçay kimi müsəlmanlar yurdlarını tərk edərək Anadoluya köç etmək məcburiyyətində qaldı. İşğal edilən və boşaldılan yerlərə isə ruslar xristian slavyanları yerləşdirməyə başladılar. Köç etdirilən xristianların böyük əksəriyyəti *malakan, dxobor* kimi pravoslavlığın fərqli məzhəblərindən olan və çarlığın xristianlıq siyasətindən narazı olan slavyanlar idi. Adına *müridizm* deyilən, əsasən Azərbaycan və Şimali Qafqazda geniş yayılan *nəqşibənd-xalidi* təriqətinə mənsub şeyxlər tərəfindən təşkilatlandırılan qruplar sona qədər rus istilaçılarına qarşı mübarizə apardılar.

Qafqazda nəqşibəndi-xalidi təriqətinin bünövrəsini Azərbaycanın Şirvan bölgəsindən olan Şeyx İsmayıl Siracəddin Kürdəmiri *(1782-1848)* qoymuşdur. Kürdəmirin Bölükət kəndində 1782-ci ildə anadan olan İsmayıl sufi nəqşibəndi təriqətinin üzvü olub, təhsil üçün İraqa gedərək burada Şeyx Xalid Bağdadi *(1827-ci ildə vəfat edib)* adlı dövrünün çox tanınan təsəvvüf alimindən dərs almışdır. Şeyx Xaliddən şeyxlik dərəcəsi alan İsmayıl Azərbaycana qayıtdıqdan sonra burada irşad fəaliyyətlərinə başlamış, xüsusilə də Qarabağ, Dağıstan bölgəsində təsirli olmuşdur. Şeyx Şamil onun müridinin müridi idi. Qubada, Dağıstanda ruslara qarşı çıxan üsyanların təşkilatçıları Şeyx İsmayılın müridləri və davamçıları idilər.



Rus istilası Qafqazdan sonra Orta Asiya ilə genişlənməyə başladı. 1868-ci ildə Buxara, 1873-cü ildə Xivə, 1876-cı ildə isə Kokand xanlıqları rus hakimiyyətini qəbul etmək məcburiyyətində qaldılar. Orta Asiyada ruslara qarşı ən kəskin mübarizəni isə türkmənlər sərgilədilər. 1880-1884-cü illər arasında cərəyan edən bu mübarizə türkmənlərin silah və hərbi gücünün azlığı səbəbindən rusların lehində tamamlandı. Beləliklə, Qafqaz və Türküstandakı türk yurdlarının böyük hissəsi rusların nəzarəti altına keçdi.

Lakin rusların işğal etdikləri ərazilərdə öz hakimiyyətlərini bərqərar etməsi asan olmadı. 1572-ci ildən 1897-ci ilə qədər bu bölgədə onlarla üsyan baş verdi. Bu üsyan və istila sırasında yüz minlərlə müsəlman-türk öldürüldü. Sadəcə 1552-1557-ci illər ərzində Volqaboyunda öldürülən tatarların sayı 300-400 min insan olaraq hesablanır. 1552-1566-cı illər arasında Volqaboyunda 206 türk kəndi, 60 böyük təsərrüfat ruslar tərəfindən məhv edilmişdi. 1550-ci ildə əhalisi 40 min olan Qazan şəhərinin 1557-ci ildə əhalisi 6 min qalmışdı. Ruslar bəzi yerlərdə, xüsusilə də Şimali Qafqazda kütləvi qətliamlar törətdilər. Minlərlə yaşayış mərkəzi tərk edilib, xaraba qaldı. Aclıq, istila və qətliamla yanaşı, bölgədə yayılan yoluxucu xəstəliklər də on minlərlə insanın ölümünə yol açdı. 1654-1656-cı illərdə Qazan bölgəsində yayılan kolera xəstəliyi 50 minə yaxın insanın ölümünə səbəb oldu. Xəstəlik Azərbaycan və Şərqi Anadoluya qədər yayıldı.

Əgər 1665-1666-cı illərdə Rusiya hakimiyyəti altında yer alan müsəlman-türk əhalisinin sayı 1 200 000 idisə, bu say sürətlə azalmağa başladı. Ruslar sadəcə türkləri deyil, eyni zamanda onların buraxdığı mədəni mirası da qəsb etməyə başladılar. Övliya Çələbi sadəcə Volqaboylarında XVII əsrin ikinci yarısında 77 min məscidin olduğunu xəbər verirdi. Həmin məscidlərin bir hissəsi dağıdıldı, bir hissəsi kilsəyə çevrildi, bəziləri də yıxılaraq onun materiallarından rus məmurları üçün rəsmi binalar və yeni kilsələr tikildi.

Ruslar işğal etdikləri müsəlman-türk xalqlarına qarşı missionerlik fəaliyyətinə başladılar. Xristianlaşdırma bəzi yerlərdə zorakı siyasətə çevrildi. Bu prosesin nəticəsində çuvaşların əksəriyyəti xrisitanlığı qəbul etmək məcburiyyətində qaldılar. 1763-cü ildə 110 min nəfər olan Qazan şəhərinin əhalisi arasında 13, 615 nəfər xristianlığı seçmiş tatar yaşayırdı. Xristianlığın yayılmasını sürətləndirmək üçün türk ölkələrinə xiristianlar köçürülür, türklərin dini ibadətxanaları dağıdılır, türk bəylərinin övladları xristian məktəblərində təhsil almağa məcbur edilirdi. 1756-cı ildə Qazan əyalətində qalan 536 məscidin 418-i ruslar tərəfindən dağıdıldı. Qazan, Həştərxan, Azərbaycan, Krım kimi yerlərdə yeni məscidlərin tikilməsi qadağan edildi. Sibir xanlığına aid Tobolsk əyalətində 113 məsciddən 98-i qalmışdı. Həştərxanda 10 məsciddən sadəcə 1-i ibadətə açıq idi.

Siyasi, mənəvi, sosial, dini təzyiqlərin dözülməzliyi səbəbindən Volqa boylarında xristianlaşma daha təsirli oldu. 1763-cü ildə Qazan əyalətində 14 minə yaxın, 1796-cı ildə 28 minə yaxın müsəlman tatar xristianlığı qəbul etmişdir. Xristianlaşdırmanı sürətləndirmək üçün müsəlman türklərin öz məsləklərini icra etməsinə izin verilmirdi. 1762-ci ildə Qazan şəhərində 24 tatar tacirin ticarətlə məşğul olmasına qadağa qoyulmuşdur. Slavyan kəndlilərin köçü də sürətləndirildi. Belə köçlər hətta Azərbaycanın Muğan bölgəsinə qədər uzanırdı. Azərbaycanın məhsuldarlığın yaxşı olduğu torpaqlarında yaradılan kəndlərə malakan, duxobor təriqətindən olan slavyanlar sürgün olunurdular. Pravoslav ruslar onları “yalançı apostollara” ibadət edən sapıq inanclı xiristianlar adlandırırdılar. Çar onların Rusiyanın mərkəzi bölgələrində yaşamasını istəmədiyi üçün ucqarlara köçürülməsini əmr etmişdi.

Rus çariçası II Yekaterinanın apardığı islahatlara müsəlmanlara qarşı izlənilən dini-ictimai təqib və təzyiqlər davam etdirildi. II Yekaterinanın 1767-ci ildə imzaladığı



“Yeni Qanunlar layihəsi tərtib komissiyası”nın yaradılması haqqında qərarnaməsi ilə Qazan, Penza və Qərbi Sibir türklərindən olan 24 nümayəndə həmin komissiyaya daxil oldular. Onlardan Mirzə Yanikeyevin komissiyaya təqdim etdiyi “Qazan vilayəti müsəlmanlarının vəziyyəti” haqqındakı raportunda müsəlmanlara edilən haqsızlıqlar hökumətə çatdırılırdı. Bundan sonra müsəlmanlara bəzi dini imtiyazlar verildi.

Rus hökuməti özünün yerlərdəki vəziyyətini düzəltmək və işğal etdiyi bölgələri əlində tutmaq üçün özünü bölgənin yerli soylu və əsilzadələri ilə yaxşı münasibət qurmaq məcburiyyətində hiss edirdi. Bu məqsədlə yerli torpaq sahibləri olan bəylər, xanlar və tacirlərlə münasibətləri düzəltməsi lazım idi. Xüsusilə də 1773-1774-cü ildə meydana gələn Puqaçov üsyanına çox sayda tatar və başqırdın qoşulması çar hökumətini çox narahat etmişdi. Bu səbəbdən məcburi olaraq müsəlmanlara öz dini inanclarını yaşamaqda güzəştə getməyə başladı.

22 fevral 1784-cü ildə imzalanan bir fərmanla türk bəy və xanlarına rus əsilzadələrlə eyni haqlar verildi. 1789-cu ildə isə Ufa şəhərində Orenburq Ruhani Məclisi təsis olundu. Ancaq qeyd etmək yerində olardı ki, ruslar Volqa-Ural bölgəsindəki müsəlmanlara qarşı izlədikləri müstəmləkəçi siyasətin eynisini Cənubi Qafqaz və Orta Asiyada tətbiq etmədilər. Buna səbəb bölgənin Rusya mərkəzinə uzaqlığı, sərhəddə yerləşməsi, əhalisinin əksəriyyətinin müsəlman-türk olması və rus işğalı altına tatarlardan tam iki əsr sonra daxil olmaları idi.



## 12.2. MODERN KİMLİYİN FORMALAŞMASI

I Pyotr dövründə aparılan köklü islahatlarla Rusiya "Avropa modelli" bir dövlət halını aldı. I Pyotrun Anqlikan kilsə modelini əsas alaraq Rus Ortodoks kilsəsini "müqəddəs sinod" halına gətirməsi ilə çar iqtidarı dini təməllər (*tanrı kral*) üzərində inşa etdi. Rusiya dövlət olaraq apardığı işğal siyasətinə dini-siyasi format verərək özünü ortodoks xristianlarının hüquqlarının müdafiəçisi elan etdi. Gürcü, erməni, süryani, yunan, bolqar xristianlarının müdafiəçisi haqqını ələ keçirən Rusiya, xüsusilə də Qacar və Osmanlı ərazilərində yaşayan ortodoks xristianlarını öz məqsədləri istiqamətində təşkilatlandırmağa başladı. Eyni tarixlərdə Fransa və Avstriya katoliklərin, İngiltərə, Almaniya və daha sonra da Amerika (ABŞ) protestantların himayəçisi olaraq Orta Şərq siyasətinə müdaxilə etməyə başladılar. Yəni XIX əsrdə müasir Qərb dövlətləri müsəlman-türk ölkələrinə qarşı əsasən dini xarakterli siyasət aparırdı.



Rusiya ələ keçirdiyi türk ölkələrinin xalqlarını ümumi mənada "*tatar*" adlandırmaqla onları bir növ Qızıl Ordanın təbəəsi olaraq görmək istəyirdi. Anatoli Xazanovun *(d.1937)* da qeyd etdiyi kimi, Rusiya bu siyasətini XIX əsrin axırlarına qədər davam etdirdi. Ələ keçirdiyi türk ölkələrinin əksəriyyətinin ruslar tərəfindən *tatar* adlanmasının əsas səbəbi bu idi. Hətta Rusiya hakimiyyəti türk xanlarına 1867/8-ci ilə qədər onlara "Çingiz soyundan gəldikləri üçün imtiyazlar" tanımışdı.

Qacar dövləti ilə Rusiya arasında bağlanan 1813-cü ildə Gülüstan, 1828-ci ildə Türkmənçay müqavilələri ilə iki yerə ayrılan Azərbaycanın Araz çayından şimaldakı torpaqları çarlıq rejiminin nəzarəti altına keçdi. Lakin rus işğalına dövrün aristokratiyası passiv reaksiya göstərmədilər. Bu qüvvələr Qafqazda normal cəmiyyətin yaradılması üçün Rusiya daxilindəki qüvvələrlə ciddi əlaqələr təsis etdilər. Yerli ziyalı-aristokratiya Qafqazda hərbi idarə sisteminin ləğvini tələb edir, ittifaq halında olduqları *staroobryatslar* (monastr əxlaqına sahib olan, çar və kilsə idarəsinə qarşı olan xristianlar) isə Rusiyanın ordu dövləti deyil, "şərqli xüsusiyyətləri"ni qorumaq tərəfdarı idilər.

XIX əsrdə Rusiya daxilində meydana gələn siyasi-sosial və dini-milli dəyişikliklər yeni münasibətlər sisteminin yaranmasına şərait yaratdı. Yaranan yeni münasibətlərin özünəməxsus bəzi xüsusiyyətləri vardı:

- Rusiya coğrafi mövqeyi və düşüncə tərzi baxımından bir Şərq ölkəsi idi və uzun əsrlər boyu türklərin hakimiyyət dairəsində (Xəzər, Peçeneq, Qıpçaq, Qızıl Orda, Kazan və Krım xanlıqları) yer almışdı. Bu da rus-xristian kimliyinin parçası olduqları halda Rusiya daxilində türk kimlikli siyasi-hərbi aristokratiyanın (boyar, dvoryan) mövcudluğuna şərait yaratmışdı;
- Rusiyanın Avropanın texnoloji imkanlarından istifadə edərək hərbi cəhətdən inkişaf etməsi və bunun nəticəsində uzun əsrlər bir parçası olduğu türk dövlətlərini təsirsiz hala

gətirərək onların ərazilərinə sahiblənməsi müsəlman-türk xalqlarının ictimai-siyasi həyatına təsirsiz ötüşmədi. Bu proses başda Volqa-Ural türkləri olmaqla, türklərin Avropa təhsil sistemi ilə tanış olmasına və *cədidizm* adı verilən hərəkatın başlamasına səbəb oldu;

- I Pyotrun apardığı islahatlar nəticəsində Avropa inkişaf meyarlarını qəbul edən Rusiya daxilində formalaşmağa başlayan milli və müasir fikirlər dövrün türk ziyalılarının da diqqətini cəlb etməyə başladı;

- Müsəlman dövlətlərinin (Osmanlı və Qacar) Rusiya və Avropa qarşısında uğradıqları hərbi məğlubiyyətlər həmin dövlətlər arasında müasirləşmə meyillərinin artmasına yol açdı. Başda ordu sistemi olmaqla, Türk dünyasında *avropalılaşma təsirləri* özünü büruzə verməyə başladı. Osmanlıda sultan III Səlim və II Mahmud, Qacarda vəliəhd Abbas Mirzə və sədrəzəm Ağası xanla başlayan siyasi, hərbi və bürokratik sistemdə müasirləşmə, zamanla cəmiyyət strukturlarına da təsir göstərdi.

1721-ci ildə I Pyotrun özünü imperator elan etməsi (Romanın varisi) və davamında Rusiyanın bütün "Şərq xristianları"nın (ortodoks) sahibi rolunu icra etməyə başlaması Rusiya xristianları tərəfindən birmənalı qarşılanmadı. Slavyan xristianları öz ənənəvi inanclarını qorumağa meyilli ikən, çarlıq rejimi onları vahid dini kimlik altında təşkilatlanmağa məcbur edir, ənənəvi ortodoks xristianlarını iqtisadi-ictimai bir güc kimi sıxışdırırdı. Monastr əxlaqına sahib slavyanlar çarlıq rejiminin kilsə əli ilə apardığı islahatlara qarşı idi. Bu proses Rusiya içərisində həmin xrsitian qüvvələri (*staroobryatslar*) kilsədən və çardan üz döndərib, tatarlarla (türklərlə) geniş ticari-iqtisadi münasibətlər yaratmağa vadar etdi. Bu, kökləri Qızıl Orda dövründə atılmış köhnə münasibətlərin yenidən canlanmasına və şəkillənməsinə yol açdı.

Volqaboyu xalqlarla geniş ticari münasibətlərə və mədəni alış-verişə sahib Azərbaycan və Türküstandakı bəzi



siyasi, fikri və ticari qruplar qısa vaxtda həmin münasibətlər sisteminə daxil oldular. Bu, daha sonra XIX əsrdə "Ümummüsəlman-*tatar*" kimliyinin, XX əsrin əvvəllərində isə "*Müsəlman ittifaqı*"nın yaranmasına şərait yaradan başlıca tarixi təsir mexanizminə çevrildi. Beləliklə, XIX əsrdə müsəlman-türk dünyasında bir neçə xətt formalaşdı:

a) Azərbaycanın Şirvan və Salyan üləma və bəylərinin başında getdiyi "müasirləşmək" iddiasından çıxış edən müsəlman-tatar (*azərbaycanlı*) kimliyinin tərəfdarları olan birinci xətt, inanc olaraq Məkkə və Nəcəf təhsilli ziyalı-aristokratlar Volqaboyu müsəlmanları ilə "Rusiya müsəlmanlığı" adı altında birləşməyə cəhd göstərdilər. Onlar *müsəlmançılıq* ideyalarını müdafiə edirdilər. Bu ideyalara uyğun olaraq da Qafqaz Şeyxülislamlığı təsis edildi;

b) Nadir şahın vəfatından sonra və Hindistanda Babur imperiyasının tənəzzülü nəticəsində Qacar ölkəsinə köç edib yerləşən və əsasən Qumdakı üsuli-şiə üləması ətrafında təşkilatlanan dini bir cəmiyyət formalaşmağa başladı. Onlar texnoloji olaraq müasirləşmək, lakin dini-əxlaqi cəhətdən "şiə-İslam" kimliyinə bağlı qalmaq tərəfdarı idilər. Bu xətt daha sonra "şiə islamı" adını aldı;

c) Volqaboyu və Krımda iki əsrdir Rusiyanın təzyiqi altında yaşayan tatarlar arasında müasirləşmək tərəfdarı olan yeni bir sinif, *maarifçilər* ortaya çıxdılar;

d) Rusiyanın yerli məmurlar yetişdirmək məqsədilə müsəlman ölkələrində açdığı *rus-tatar* məktəblərində təhsil alan və bu yolla rusca öyrənib, *avropai* fikirlərlə tanış olan *mirzələr* adlanan ənənəvi fikirləri tənqid edən ziyalı qruplaşmaları ortaya çıxdı;

e) XIX əsrin axırlarında Osmanlıların başında getdiyi *islamçılıq* adlanan yeni bir cərəyan ortaya çıxdı. Sultan II Əbdülhəmid tərəfindən dəstəklənən bu xətt "texniki olaraq avropalaşmağı, əxlaqi olaraq islamlaşmağı" əsas götürüb, məqsədi yarıutopik tarixi bir ideya olan "əsri səadət"i qurmaqdı. II Əbdülhəmid bu layihənin osmanlıların əli ilə

həyata keçiriləcəyinə inanırdı. Buna görə də həmin layihəni ortaya atan Cəmaləddin Əfqani və digərlərini təsirsiz hala gətirərək islamçılığı Osmanlı siyasəti halına gətirdi. İslamçılar Qacar ölkəsindəki maarifçilərlə, Azərbaycan və Orta Asiya ziyalıları ilə əlaqələr təsis edib, XX əsrin əvvəllərində Anadoludan Əfqanıstana qədər uzanan geniş ərazidə "İttihadi-Müslimin" (Müsəlman ittifaqı) ideyaları yaymağa başladılar. Bu ideya daha sonra *ittihadçılıq* və *pantürkizm* fikirlərinin bünövrəsinə çevrildi.

Rusiyanın apardığı "ortodoks xristianların vahid siyasi ittifaqını" yaratmaq siyasəti İngiltərənin təsiri ilə 1830-cu ildə süqut etdi. Həmin tarixdə Yunanıstanın Osmanlıdan ayrılaraq müstəqil bir dövlətə çevrilməsi və ortodoksluq üzərində tarixi haqq iddia etməsi Rusiyanın xristianlıq üzərindən Balkanlarda apardığı siyasətin tənəzzül etməsinə yol açdı. Buna görə Rusiya "pravoslavlıq və panslavyanizm"ə meyil edərək, Şərqi Avropanın ticari mənbələrini əlinə keçirməyə, İngiltərə əleyhində Balkanlarda, Orta Asiya və Orta Şərqdə güclənməyə cəhd etdi. Bunun müqabilində İngiltərənin dəstəyi ilə Krım müharibəsində *(1853-1856)* osmanlılar rusları ağır məğlubiyyətə uğratdılar.

Krım müharibəsi yeni ittifaqların yaranmasına yol açdı. Avropa gücləri Rusiyanı Avropadan kənarlaşdırmaq üçün Osmanlının tərəfində müharibəyə qoşuldular. Rusiya bu müharibədə məğlub olmaqla yanaşı, I Pyotrdan etibarən davam edən hərbi-siyasi sistem də iflas etdi. Ayrıca, Rusiya Krım məğlubiyyəti ilə birlikdə Avropadakı bütün iqtisadi imkanlarını itirdi və təcili islahatlar aparmaq məcburiyyətində qaldı. Rusiyanın özünün imperiya maraqlarını qoruması üçün qarşısında bir neçə yol vardı:

a) Fransız maarifçilərinin hazırladığı islahatları öz ölkəsində tətbiq etmək. Bu ideyanın tərəfdarları arasında avropapərəst bürokratik rus burjuaziyası, Qafqaz və Şərqi Avropada kifayət qədər iqtisadi gücə sahib erməni kapitalistlər yer alırdı;



b) Prussiya və Danimarkanın keçdiyi yuxarıdan-aşağıya islahatlar yolunu izləmək. Çar II Aleksandr başda olmaqla, çoxlu rus əsilzadəsi bu yolu tərcih edirdilər. Onların alman ailələri ilə qohumluqları da vardı;

c) İngiltərənin apardığı iqtisadi-siyasi islahatlar. Baş nazirlik sistemi və monarxiyanın məhdudlaşdırılması;

d) Köhnələrlə *(stroobryadets və müsəlmanlarla)* ittifaqla "Türk Asiyası" yerinə "Rus Asiyası" anlayışını yaratmaq.

Rusiya bu modellərin hər birindən bir parça alaraq yoluna davam etmək istədi. 1861-ci il islahatlarının ən maraqlı tərəfi o oldu ki, Rusiya ordu üzərinə qurulan hərbi-siyasi rejimdən mülki-inzibati sistemə keçid etdi. Bu amil Rusiyada iqtisadi və fikri proseslərin canlanmasına şərait yaratdı.

Bu prosesin sonunda Qafqaz, Orta Asiya, Krım və Volqaboyunda hərbi çarlıq rejiminin yerini mülki idarəçiliklər aldı. İslahatlar müsəlman-türk ölkələrində iki fərqli kapitalist inkişaf istiqaməti yaratdı: Kazan mərkəzli torpaq kapitalizmi və Bakı mərkəzli sənaye kapitalizmi.

Bu vaxt Şərqdə və Qərbdə də bir sıra yeniliklər oldu. Fransada III Napoleon imperator oldu və katoliklərin hakim gücü kimi Şərq xristianlığı üzərində haqq iddia etməyə başladı. Fransanın təsiri ilə Anadoluda xristian missionerlərinin, Qafqazda isə ermənilərin fəallaşması Rusiyanı narahat etməyə başladı. İngiltərə İrandakı nüfuzunu artırıb, Hindistanı bütövlüklə öz nəzarəti altına *(1858-ci ildə Babur türk dövləti süqut etdi)* aldı. Osmanlıda "Yeni Osmanlıçılıq" hərəkatı başladı və 1876-cı ildə "parlament sistemi və konstitusiya" elan olundu. Almaniya Prussiyanın başçılığı ilə aparılan islahatlarla bir imperiya kimi ortaya çıxdı. Fransa Avstriya-Macarıstan üzərində nəzarəti ələ keçirmək üçün İtaliyanın vahid dövlətdə biləşməsinə şərait yaratdı. Bu hadisələrin kontekstində Rusiya müsəlmanları arasında yeniləşmə fəaliyyətləri sürətlənməyə başladı. Azərbaycan, Krım və Kazan ziyalılarının və burjuaziyasının başında getdiyi cədidçilik adı altında "yeni müsəlman kimliyi" formalaşdı.

## 12.2.1. Cədidçilər və qədimçilər

1860-1870-ci illlərin islahatlarının Rusiya müsəlmanları üzərində güclü təsiri oldu. Azərbaycanda da bir sıra islahatlar həyata keçirildi. 1830-cu illərdə Osmanlı və Qacar ölkələrində də bir sıra islahatlar gerçəkləşmişdi. Qacar şahzadəsi Abbas Mirzənin rəhbərliyi ilə ordu və təhsil sahəsində aparılan islahatlar, Osmanlıda isə *tənzimat* adı verilən ümumi islahat hərəkatları ictimai-mədəni münasibətlərin dəyişməsinə yol açdı. İslahatlar *qədimçilər* (köhnələr) və *cədidçilər* (yenilər) adı altında ictimai zehniyyətdə bölünməyə yol açdı. Cədidçilik əvvəlcə dini-mədəni sahədə özünü büruzə verməyə başladı. Cədidçiliyin ilk nümayəndələri Volqaboyu tatar din adamları arasında göründülər. Onlardan Əbdünnasir Kursəvi *(1771-1812)*, Şihabəddin Mərcani *(1818-1889)*, Şeyx Zeynullah Rəsuli *(1833-1917)*, Alimcan Barudi *(1857-1921)* dində reformun mümkünlüyünü dilə gətirdilər.

1770-ci ilə qədər Volqa türklərinə qarşı rus məmurlarının apardıqları dini təzyiqlər zamanı böyük əksəriyyətini tacir və torpaq sahibi müsəlmanların təşkil etdiyi ailələr öz övladlarını təhsil üçün Orta Asiya mədrəsələrinə göndərirdilər. Lakin Orta Asiyadakı Buxara və Xivə mədrəsələrinin elmi səviyyəsi heç də yüksək deyildi. 1770-ci illərdə dini təziqlərin götürülməsi ilə tatarlar öz mədrəsələrini açmağa başladılar. Qazanda 1771-ci ildə Axund və Apanay mədrəsələri, 1780-ci ildə Əmirxan mədrəsəsi açıldı. Eyni tarixlərdə Böyük Sabı, Kiçik Suni, Satış, Məngər, Qışqar, Asan, İli kimi tatar qəsəbələrində mədrəsələrin açılması tatar burjuaziyasının möhkəmlənməsinə yol açdı. Bundan başqa, tatar tələbələrin İstanbul, Qahirə və Mədinədə təhsil almasına və dini sahədə çoxlu alimin yetişməsinə yol açdı. Həmin tələbələr öz ölkələrinə gəldikdə buradakı dini-mədəni fəaliyyətlərini genişləndirdilər. XVIII əsrin axırlarında Qazan əyalətində hər 119 oğlan uşağına bir məktəb



düşürdü. Yetişməkdə olan yeni nəslin nümayəndələri içərisində yer aldıqları ictimai, siyasi, dini həyatı mühakimə etməyə başladılar. Həmin alimlərdən biri olan Kursəvi müsəlman ənənələrini tənqid edərək dində yeni fikirlərin dilə gətirilməsinin vacibliyini ifadə etdi. Bu sahədə qələmə aldığı "əl-İrşadu lil-ibad" adlı əsəri dövrün mollaları arasında sərt tənqidlərə səbəb olsa da, bir müddətdən sonra onun *kursəviçilər* adlanan fikir tərəfdarları ortaya çıxdılar.

Dini sahədə ilk köklü tənqid Şihabəddin Mərcani adlı tatar alimdən gəldi. 100-dən çox tələbə yetişdirən və 24 əsəri olan Mərcani tatar dini-milli kimliyinin ilk fikir adamı hesab olunur. Mərcani tatarların tarixi şüurunun formalaşmasında böyük rol oynamışdır. Onun yazdığı *"Müstəfadü`l-əxbar fi əhvali Qazan və Bolqar"* əsəri tatar milli tarixinin yazılması istiqamətində ilk elmi təşəbbüs hesab olunur. Kursəvi və Mərcaninin fəaliyyətlərini qiymətləndirən Əbdürrəhman Sadiyə görə, Qazanın ruslar tərəfindən işğalından XIX əsrin ikinci yarısına qədər "Tatar dünyasının zehni, ürəyi, ağlı hər cür qara fikirlərlə qaralmış, əli-ayağı bağlanmışdır. Buxara ilə münasibətlərin yaranması, tatar ruhanilərin orada təhsil alıb qayıtmasından sonra Tatar dünyasındakı qara fikirlər daha da gücləndi. Bu fikirlər tatarların yeniliyə, avropalılaşmağa keçməsinin qarşısında qara bir divar hörmüşdü. Bu qaranlığa və fikri donmuşluğa qarşı mübarizənin ilk qığılcımlarını atan şəxs Kursəvi oldu".

Kursəvinin fikirləri tatar ruhaniləri arasında mübarizəyə və düşüncə savaşına yol açdı. XIX əsrin ikinci yarısında Avropa elmi fikir və cərəyanlarının təsiri ilə Mərcani və davamçıları Kursəvinin fikirlərini daha da genişləndirib yaydılar. Rzaəddin ibn Fəxrəddin və Musa Cərullah kimi dini islahatçılar Avropa metodundan yararlanaraq islahat fikrini burjua ruhunda daha da genişləndirdilər. Oxşar fikirlər Azərbaycanda *Abbasqulu ağa Bakıxanov (1794-1847)* tərəfindən səsləndirilməyə başlandı. Şeirdən tarixə, astronomiyaya qədər bir çox sahədə əsərləri olan Abbasqulu

ağa avropalı elmi fikirlərin müsəlman zehniyyətində yeni fikri-ictimai və mədəni təsirlərə səbəb olacağına inanırdı.

Abbasqulu ağanın yolunu *Seyid Əzim Şirvani (1835-1888)* və *Mirzə Fətəli Axundzadə (1812-1878)* izlədilər. Axundzadə daha da irəliyə gedərək dinə qarşı çıxış edib, müasir həyatın müsəlmanlar üçün vacibliyinə diqqət çəkdi.

Cədidçi düşüncə Krımda *İsmayıl bəy Qaspıralı (1851-1914)*, Orta Asiyada *Çokan Vəlixanov (1835-1865)*, *İbrahim Altınsarı (1841-1889)*, *Abay Kunanbayev (1845-1904)* tərəfindən müsəlman-türklər arasında yayılmağa başlandı. XIX əsrin axırlarında türk maarifçilər öz fikirlərini çıxardıqları milli qəzetlər vasitəsilə yaymağa başladılar. Xüsusilə də Bakı və Qazanda toplaşan türk maarifçilər hər iki şəhərdə kapitalist münasibətlərin inkişafı ilə birlikdə güclü şəkildə mətbuat fəaliyyətinə keçdilər. 1875-1917-ci illər arasında Rusiya türkləri 172 müxtəlif adlarda qəzet və jurnal nəşr etdilər. Bu qəzet və jurnalların 60-ı Bakıda, 23-ü isə Qazanda çap edilmişdi. Türklərin ana dilində çap etdikləri ilk qəzet *"Əkinçi"*, ən uzunömürlüsü isə *"Tərcüman"* idi. "Əkinçi" qəzetinin qurucusu *Həsən bəy Zərdabi (1837-1907)*, "Tərcüman"ın sahibi isə İsmayıl bəy Qaspıralı idi.

Türklər arasında mətbuat yolu ilə artan və yayılan müasir fikirlər, xüsusilə gənc nəsil arasında böyük rəğbət görməyə başladı. XX əsrin əvvəllərində türk gənclər artıq təşkilatlanmağa və siyasi partiya fəaliyyətlərinə keçdilər, sosialist və ittihadçı fikirli cərəyanlar yarandı. İlk sosialist təşkilat Bakıda 1904-cü ildə *"Hümmət"* adı ilə ortaya çıxdı. Aralarında Məhəmmədəmin Rəsulzadənin də yer aldığı "Hümmət" təşkilatı milli-sosialist ideologiyaya sahib idi.

Ancaq Azərbaycan türkləri arasında əsas siyasi fəaliyyətlər 1905-1906-cı illərdə meydana gələn "erməni-müsəlman davası" ilə başladı. Belə ki, XIX əsrin axırlarında Tiflisdə təşkilatlanan erməni təşkilatlarının əsas istəyi Anadolu idi. Şərqi Anadolunu Osmanlıdan ayıraraq burada bir "erməni dövləti" yaratmaq xəyalına sahib Daşnaksütyun,





*Abbasqulu ağa Bakıxanov*



*Seyid Əzim Şirvani*



*Mirzə Fətəli Axundzadə*



*Həsən bəy Zərdabi*



*İsmayıl bəy Qaspıralı*



*İbrahim Altınsarı*



*Abay Kunanbayev*



*Çokan Vəlixanov*



Knçaq kimi erməni təşkilatları, 1903-cü ildə Rusiya çarının erməni kilsə torpaqlarını ələ keçirməsi ilə diqqətlərini Qafqaza çevirdilər. Qafqazda müsəlman kənd və qəsəbələrinə hücümlar edərək minnlərlə günhasız insanı qətl edən həmin təşkilatların silahlı quruplaşmalarının vəhşilikləri Azərbaycan türklərinin maarifçilərə və siyasi təşkilatlara rəğbət göstərməsinə yol açdı. Çünki həmin qruplar onların haqlarını müdafiə edirdilər. "*Difai*" təşkilatı ermənilərə qarşı türklərin müqavimətini təşkil etdi.

1905-1907-ci illərdə Rusiyanı cənginə alan inqilab atmosferində Bakı xüsusi rol oynadı. Lakin bu dövrdə Bakının sənaye mərkəzi olmasından qaynaqlanan çoxmillətli kimliyi və Azərbaycanın hər yerində yaşanan türk-erməni etnik ziddiyyətləri, xüsusilə də daşnak-knçaq erməni qruplaşmalarının əli ilə müsəlmanlara qarşı törədilən qətliamlar o vaxta qədər *müsəlmançılıq* ideyası ilə hərəkət edən yerli intellektual-aristokrat güclər arasında fərqli baxışların ortaya çıxmasına yol açdı. *Əli bəy Hüseynzadə*nin *(1864-1940)* başında dayandığı ilk qrup Osmanlı ittihadçıları ilə ittifaq içərisində yer alaraq "Turan" (*pantürkizm*) ideyalarını qabartmağa başladılar. Buraya *Əhməd bəy Ağaoğlu*nun *(1869-1939)*, qazanlı *Yusif Akçura*nın və digərlərinin cəlb edilməsi ilə İstanbulda "Türk ocaqları" ətrafında təşkilatlanma fəaliyyətləri başladı. İttihad və Tərəqqi partiyasının Osmanlıda hakimiyyətə gəlməsi ilə dövlət siyasəti halına gələn bu ideya *təşkilati-məxsusə* xətti ilə Şərqi Türküstana qədər uzanan geniş bir təbliğata çevrildi. Bunun nəticəsi olaraq da İttihad və Tərəqqinin siyasi düşüncələri əsasında Azərbaycanda Müsavat partiyası ortaya çıxdı.

*Müsavat 1911-ci il*də Azərbaycanda yarandı. Partiyanın banisi olan *Məhəmmədəmin Rəsulzadə (1884-1955)* 1908-ci ildə İranda, daha sonra Türkiyədəki fəaliyyətlərində sosialist fikirlər yerinə milli fikirləri ön plana çıxararaq Azərbaycan türklərinin milli kimlik haqlarının siyasi mənada müdafiəsini təşkil etməyə başladı. Müsavat öz ideologiyasını



*Əli bəy Hüseynzadə*



*Əhməd bəy Ağaoğlu*



*Yusif Akçura*



*Məhəmmədəmin Rəsulzadə*



Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağaoğlunun, Yusif Akçuranın milliyyətçi düşüncələri üzərində inşa etmişdi.

Cədidçi fikirlərin toxumları atıldıqca ənənəvi dini fikirlərin tərəfdarı olan ruhanilərin sərt tənqidinə səbəb oldu. Belə tənqidlər Qacar ölkəsində daha çox təsirli olmağa başladı. 1830-cu illərdə İranda şiə camaatlar iki qrupa ayrılırdı: *isnəəşəriyyə* və *sufi*. İsnəəşəriyyə də öz daxilində *əkbəri, şeyxi* və *üsuli* olaraq ayrılırdı. Hər təbəqə öz fikirlərini yaratdıqları mədrəsələr vasitəsilə müdafiə edib yayırdılar. Əkbəri məktəbi *Şeyx Məhəmməd Şərif Astarabadi* tərəfindən yaradılmışdı. Bu məktəb peyğəmbər və imamların sünnəsi xaricində din adamlarına dini və dünyəvi mətləblərə müdaxilə etmək haqqı vermirdi. Üsuli məktəb, şəriət və əqidənin şərh olunmasında müctəhidlərin müstəqil mühakimə aparmasını əsas qəbul edirdi. Bu təbəqələrdən ayrılan sufi məktəb isə sufilik və təsəvvüfə dair xüsusiyyətləri əsas götürərək qərbə məxsus tərz və metoda sahibdi. Qısaca, XIX əsrin əvvəllərində Qacar ölkəsində düşüncə və təhsil sistemi mədrəsələrin nəzarətində idi. Qacar ziyalılarının çoxu məhz mədrəsə təhsili almış insanlardı.

Qacarlara qarşı ilk ictimai və əsaslı dini reaksiya *babilərdən* gəldi. Bab təriqətinin banisi olan *Seyid Əli Məhəmməd (1820-ci ildə Şirazda anadan olmuşdu)* özü Şeyxi məktəbinə bağlı idi. Seyid Əlinin görüşlərinin əsasında ilahi ədalət dayanırdı. Bu nəzəriyyə əslində Mehdilik inancına əsaslanırdı. Şeyxi təriqətinin başçısı Seyid Kazım öldükdə təriqətin başına Seyid Əli keçmiş və özünü Mehdi ilə xalq arasında vasitəçi (bab-qapı) elan etmişdi.

Bab tərəfdarları 1847-1850-ci illər arasında Mazandaran və Azərbaycanda qiyam qaldırdılar, amma müvəffəqiyyət əldə edə bilmədilər. Baş verən bu qiyamlar Qacar hakimiyyətini üsuli mollalarına daha da yaxınlaşdırdı.

XIX əsrin əvvəllərində Qacar ölkəsində sosial-ictimai şərtlərin dəyişməyə başladığı müşahidə olunurdu. Bunda ölkənin sürətlə kapitalist münasibətlər sisteminə keçməsi

və Qacar dövlətinin müstəmləkə ölkəsinə çevrilməsinin böyük təsiri olmuşdu. Portuqaliyalıların Cənubi İranda yaratdıqları ticari koloniyaları vasitəsilə bölgəyə daxil olmağa başlayan Avropa sərmayəsi yavaş-yavaş yerini ingilis, fransız və ruslara verdi. Qızılbaş ölkəsinin zəngin yeraltı qaynaqlara sahib olması haqqında qərbli tacirlərin əldə etdiyi informasiyalar artıqca bölgəyə maraq da artmağa başladı. P.P.Buşev rus çarı I Pyotrun Xəzər səfərini şərh edərkən bunu birinci növbədə Xəzərətrafı ölkələrin zəngin təbii qaynaqlara sahib olması ilə izah edir. Eyni səbəblər Avropanın böyük dövlətləri hesab olunan İngiltərə və Fransanı da bölgəyə cəlb edirdi. Hər cür vasitəyə əl ataraq bölgədə var olmaq mübarizəsi verən bu dövlətlər mənfəətlərinə uyğun olaraq, bəzən birlikdə, bəzən də ayrı, bir-biriləri ilə rəqabət halında hərəkət edirdilər. Məsələn, qərb güclərinin tez-tez müraciət etdikləri vasitə rüşvət yolu ilə saray məmurlarını öz tərəflərinə çəkmək və onların əli ilə istədikləri imtiyaza sahib olmaq idi. Qacar dövlətinin dayandığı türk hərbi sisteminin yox olması, şiə din xadimlərinin nüfuzunun artması və Rusiyanın təzyiqləri qarşısında Qacar şahları çıxış yolu kimi Qərb dövlətləri ilə münasibətlər qurmağa başladılar. Amma Qərb dövlətləri bundan öz məqsədləri üçün istifadə edərək qacarların iflic hala gəlməsinə, qacarlarla birlikdə türklərin bölgədəki hakim güc olmaqdan çıxardılar. 1850-ci ildən sonra Qacar şahları çıxış yolu kimi ölkənin fəlakətinə səbəb olacaq külli miqdarda xarici borclar almağa başladılar. İdarə sisteminin çürüklüyü, alınan borcların məmur özbaşınalıqları nəticəsində əhəmiyyətsiz yerlərə xərclənməsi xalq ilə dövlət arasında böyük uçurum yaratdı. Yaranan bu uçurumu isə şiə din adamları doldurmağa başladılar. İranda şiəlik ilk dəfə bu dövrdə təşkilatlanmağa başladı.

Qacar dövlətini gözləyən böyük fəlakəti əvvəlcədən hiss edən Abbas Mirzə ölkədə reformların aparılmasının vacibliyini yaxşı bilirdi. Bu reformların aparılması üçün



ona yeni kadrlar lazım idi. Buna görə də 1830-cu illlərdə çoxlu gənci təhsil almaq üçün Avropaya göndərdi. Seçilən gənclərin böyük əksəriyyəti Avropaya getdi, az bir hissəsi də Rusiya və Osmanlıya üz tutdular. Amma Abbas Mirzənin bu hadisədən bir neçə il sonra vəfat etməsi planın yarıda qalmasına səbəb oldu. Yeni hökumətin göndərilən gənclərə sahib çıxmaması tələbələrin getdikləri ölkədə səfalət içində yaşamasına səbəb oldu. Bu səfalətdən çıxış yolu olaraq həmin tələbələrin əksəriyyəti Avropadakı müxtəlif təşkilatların təsiri altına düşdülər. Xüsusilə də masonların Böyük Şərq lojası həmin tələbələrə imkanlar yaradaraq öz təsiri altına saldı. Bu gənclər həmin ölkələrdə formalaşan fikir və düşüncələri öyrənərək onların dərin təsiri altına düşdülər və öz ölkələri üçün yeni dünyagörüşləri formalaşdırmağa başladılar. Çoxunun öz vətəninə bağlı olduqlarına və cəhalət içindəki ölkələrinə çarələr axtardıqlarına şübhə yox idi. Amma daşıdıqları və yaydıqları fikirlər onların arxasındakı güclərin bölgədəki mövqeyini möhkəmləndirir, yerli qüvvələrin propaqandası ilə xalq da onları qəbul etmirdi. Qacar ziyalıları üzərində Osmanlı maarifçilərinin təsiri güclü oldu. Xüsusilə Tənzimatla *(1839-cu il islahatları)* birlikdə formalaşan yeni maarifçi təbəqəsinin yaydığı fikirlər *(vətən, ümmət, islamçılıq və s.)* onlara yaxından təsir göstərdi. Artıq XIX əsrin sonlarında Təbriz, Tehran kimi böyük şəhərlərdə avropapərəst ziyalı təbəqə ortaya çıxdı.

XIX əsrin sonlarında Təbriz və Tehranda fəaliyyət göstərən ziyalılar arasında *Hüseyn Xan Ədalət, Seyid Həsən Tağızadə, Seyit Həsən Şərifzadə, Seyid Məhəmməd Əbülziya, Əliqulu Səfərov, Məhəmmədəli Tərbiyət, Əli Müsyö, Hacı Rəsul Sadaqiyani, Cəfər Ağa Gəncəyi, Mirzə Əli Əsgər Xoyi, Ağa Məhəmməd Səlmasi* kimi maarifçilər xalqa sosial və mədəni fikirlər təbliğ etməyə başladılar. Onlardan bəziləri 1897-ci ildə Təbrizdə Seyyid Hüseyn Xan Ədalətin başçılığı altında çıxan ilk qəzet *"əl-Hədid"* ətrafında toplanmışdı. S.H. Tağızadə, S.H.Şərifzadə, Əbülziya, Ə.Səfərov, M.Tərbiyət

qəzetin redaktoru S.H.Ədalətin evində gizlicə toplaşır və öz fikirlərini paylaşırdılar. Onlar əl-Hədidçilər adlanırdılar. Qəzetin yalnız üç sayı çıxdı. Təzyiqlər qəzetin fəaliyyətini dayandırmasına səbəb oldu. Əl-Hədidçilərdən Əliqulu Səfərov 6 iyun 1898-ci ildə *"Ehtiyac"* adlı yeni bir qəzetin nəşrinə icazə aldı. Amma bu qəzetin də sadəcə bir neçə sayı çap edildi. Bu qəzeti isə *"İqbal"* təqib etdi.

Təbrizdə təşkilatlanan ikinci bir ziyalı qrupunun başında *Əli Müsyö* dayanırdı. Onun ətrafında *Hacı Rəsul Sadagiyani, Cəfər Ağa Gəncəyi, Mirzə Əli Əsgər Xoyi və Ağa Məhəmməd Səlmasi* yer alırdı. Əli Müsyö mason təşkilatına daxil olub, sosialist fikirlər təbliğ edirdi. 1910-cu ildən ölümünə qədər bölgədə bütün inqilabi fikirlərin təşkilatçısı kimi sosialist çıxışlara tərəfdar olmuşdu. Avropada təhsil alan Əli Müsyö Rusiya və Türkiyədə çoxlu ziyalı ilə dostluq edirdi. O, İstanbuldakı fikir mühitinə də daxil olmuşdu. Əli Müsyö İranda sosialist və milliyyətçi fikirlərin atası hesab edilir. Fikirlərində Fransa burjua inqilabının təsirləri açıq hiss olunurdu. Qacar cəmiyyətini siniflərə görə təsnifləşdirən ilk ziyalı da odur. Qısa müddətdə onun ətrafında birləşənlər Əli Müsyöçülər olaraq qrup formalaşdırdılar. Bu qrup Qafqazdakı sosialist qruplarla yaxın əməkdaşlıq edirdilər. İdari anlamda İranda məşrutiyyət anlayışının formalaşmasına tərəfdar idilər. Onlar *ictimaiyyun-amiyyun (sosial-demokrat)* adlanan təşkilatların yaranmasının təşəbbüskarları oldular.

Təbrizdə fəaliyyət göstərən üçüncü ziyalı qrupu *İslamiyyət Əncüməni* adı ilə bilinən maarifçilərdən ibarət idi. Bunlar dini dəyərlərə sahib çıxmaqla bərabər Avropanın texniki və fənn elmlərindəki üstünlüyünü qəbul edir və bu elmlərin mənimsənməsinə tərəfdar idilər. Sosial anlamda isə ədalətsizliyə və sosial bərabərsizliyə qarşı çıxaraq imamlar üçün mərasimlər adı altında tez-tez yığıncaqlar keçirirdilər. İslamçıların ortaya atdığı idarəçilik anlayışı çox sadə idi: Vəliəhd Məhəmməd Əli Mirzəni istiqamətləndirərək dövlət çevrilişi ilə hakimiyyəti ələ keçirmək.



1898-ci ildə yaranan qrupun aktiv üzvləri arasında *Hacı Mirzə Əbülhəsən Çaykənari, Şeyx İsmayıl Həştrudi, Hacı Mirzə Ələkbər Mücahid, Şeyx Səlim, Mirzə Hüseyn Vaiz, Mirzə Cavad Nasehzadə* yer alırdı.

1900-cü ildə Təbrizli ziyalılar *Azərbaycan Maarif Əncüməni* adlı bir təşkilat yaratdılar. *Seyid Hüseyn Müşavir, Hacı Axund, İbrahim Şəmsavəri, Hacı Mirzə Əhməd Müdərris, Mirzə Əbdül-əli Zeyni, Mirzə Hüseyn Xan Kamal, Mirzə Əli Rüşdi, Mirzə Rza Tərbiyət, Mirzə Əli Xan Peşengi* kimi üsuli-cədidçi fikirlərə sahib maarifçilərin bir yerə toplaşdığı bu təşkilata qısa müddət sonra *Əli Müsyö, Seyid Hüseyn Xan Ədalət, S.H.Şərifzadə, S.H.Tağızadə, S.M.Əbülziya, M.Tərbiyət, Mirzə Hüseyn Vaiz, Mirzə Cavad Natiq, Həkkakbaşı Hacı Rəhim Badkubəçi, Hacı İsmayıl Həriri, Hacı Məhəmməd Həriri, Kazımzadə, Hacı Ələkbər Əhrabi və Hacı Əli Davafruş* qatıldılar.

Əncümən hökumətin nəzərində söz sahibi olan burjuaziyanın qabaqcıl nümayəndələrindən *Loğmanül-Məmalik* adlı şəxs tərəfindən himayə olunurdu. Loğmanül-Məmalik uzun illər Avropada tibb təhsili almış, şahın şəxsi həkimliyini icra edirdi. Bu yolla varlanan Loğmanül-Məmalik qazandığı böyük sərvəti təhsilə xərcləmək istəyirdi. Bu münasibətlə 1899-cu ildə Təbrizdə *Loğmaniyyə Tibb Məktəbi*ni açdı. Buradakı təhsil və təlim qaydaları Avropadan dəvət edilən müəllimlər tərəfindən həyata keçirilirdi. Dəvət olunan müəllimlər arasında fransız elm adamı *Hanry Ronard* da yer alırdı. Məktəbin rəhbərliyini *Ədib əl-Məmalik* icra edirdi. Bu vəzifəyə gətirilməsindən dərhal sonra Ədib əl-Məmalik 1900-cü ildə məktəbin tərkibində *Ədəbi-Əncümən* adlı bir təşkilat yaradaraq *"Ədəb"* qəzetinin nəşrinə başladı.

Türk ziyalıların ən mühüm fəaliyyətlərindən biri türk dilində kitab, dərslik və məqalələr dərc etməyə başlamaları idi. Rəsmi dili türkcə olan Qacar ölkəsində divan işləri xaricində, fars dili geniş yayılmamışdı. Qacar dövründə farsdilli olanların türk dilini öyrənmələri üçün dərsliklər yazılırdı. Belə əsərlər *Kavaidi-türki* adlanırdı. 1925-ci ildə

Pəhləvi rejiminin yaranmasına qədər türk dilində əsər yazmaq və nəşr etdirmək tamamilə sərbəst idi. Qacar ölkəsində türk dilində ilk mətbu əsər *1820-ci il*də Təbrizdə nəşr edilmişdi. XIX əsrin sonlarında Təbrizdə türklər üçün ana dilində yazılmış dərsliklər ortaya çıxmağa başladı. Bu dərsliklər açılan üsuli-cədid məktəblərində oxunurdu.

Yaranan maarifpərvər təbəqə qısa müddətdə Qacar ölkəsinin siyasətinə də nüfuz etməyə başladı. Ziyalılar ölkəyə qərb düşüncəsi ilə bərabər ictimai həyat, ədalət, bərabərlik, konstitusiya hüququ kimi siyasi fikirlər gətirərək ətrafındakıları, xüsusilə 1903-cü ildən sonra ölkədə ortaya çıxan ictimai-siyasi qüvvələri təşkilatlandırmağa başladılar.

1905-1911-ci illərdə Qacar ölkəsində meydana gələn *məşrutiyyə inqilabı* bölgədəki türk siyasi iqtidarın gücünün azalmasına səbəb oldu, bu prosesdən *panfarsist* düşüncələr və təşkilatlar qalib çıxdılar. Nəticədə həmin qüvvələrin nümayəndəsi olaraq *Rza şah Pəhləvi 1925-ci il*də Orta Şərqdə hakimiyyəti ələ keçirdi.

Müasirləşmə fikrinin kök saldığı ən mühüm türk ölkəsi Osmanlı idi. Çoxmillətli imperiya kimliyi ilə diqqəti çəkən Osmanlı ölkəsində Avropa mərkəzli təhsil və ordu anlayışlarının yaradılması fikri hələ XVIII əsrin axırlarında ortaya atılmışdı. Osmanlı hakimiyyəti müasirləşməyə tamamilə praqmatik mahiyyətdə baxırdı. Belə ki, Osmanlı hökmdarları Avropa dövlətləri qarşısında hərbi güc itkisi yaşadıqca, bunun səbəblərini araşdırmağa başladılar. Çıxış yolu olaraq Avropa tipində ordu yaradılmasına qərar verdilər. Adına *nizami-cədid* deyilən bu ordu III Səlim dövründə təşkilatlanmağa başladı. Lakin yeniçərilərin üsyanı və III Səlimin öldürülməsi ilə bu təşəbbüs yarıda qaldı. Lakin III Səlimin yerinə taxta oturan II Mahmud 1828-ci ildə verdiyi bir fərmanla yeniçəri ocağını ləğv edərək köhnə ordunu dağıtdı və sürətlə islahatlara başladı. Osmanlının qərbləşmə istiqamətində apardığı islahatlar o dərəcə əhatəli və çoxşaxəli idi ki, imperiya hətta bələdiyyəçiliyə qədər Avropanı təqlid etmişdir.



1808-1876-cı illəri əhatə edən, təqribən 70 il müddətində Osmanlı dövləti özünü idarəetmədən mədəni hüquqa qədər, demək olar ki, hər sahədə müasirləşdi. Bunun nəticəsində hökumət sistemi dəyişdirildi, nəzarət (nazirlik) idarəçiliyi yaradıldı. Hökumət forması belə dəyişdirilərək *məclisi-vükəla* yaradıldı. Ən köklü dəyişikliklər isə təhsil sahəsində gerçəkləşdi. Köhnə Osmanlı elmiyyə təşkilatlarının yerini qərb üsullu məktəblər almağa başladı. Açılan bu məktəblər arasında ilk sırada hərbi məktəblər gəlirdi. Çünki Osmanlı dövlətinin hər şeydən əvvəl hərbi mütəxəssislərə ehtiyacı vardı.

1839-cu ildə elan edilən Tənzimat fərmanı fərmanın elan edildiyi yerə uyğun olaraq, Gülxanə Xətti-Humayunu da adlanır. Fərmanın hazırlığına 1830-cu ildə başlanılmış və on ilə yaxın çalışmanın nəticəsi idi. Bu fərman Osmanlının uzun illərdir apardığı müasirləşmənin finalı və Osmanlıda Qərbmodelli dövlətçiliyin başlanğıcı idi. Fərman saray, üləma, hərbçilərin də yaxın iştirakı ilə Mustafa Rəşid paşa tərəfindən hazırlanmışdır. Ancaq fərman II Mahmudun vəfatından bir neçə ay sonra yeni sultan Əbdülməcid dövründə elan edildi. Fərman ənənəvi Osmanlı sistemini kökündən dəyişəcək mahiyyətə sahibdi. Hər şeydən əvvəl fərman padşah və iqtidarın səlahiyyətlərinə məhdudiyyətlər gətirməsi ilə diqqət çəkirdi. Tənzimat fərmanı sosial-iqtisadi həyatdan siyasətə qədər hər sahəni əhatə edirdi. Hər şeydən əvvəl bu fərman bütün Osmanlı təbəəsini eyni hüquqlu "vətəndaş" statusuna daxil etdi və insanlar arasında dini-hüquqi fərqləri ortadan qaldırdı. İkincisi Osmanlıda mərkəzi idarəçiliyi formatlayaraq yeni bir şəkil verdi. İltizam ortadan qaldırıldı və tək bir vergi nizamı gətirildi. Osmanlıda mərkəzi maliyyə nizamı təşkil olundu və vergidə ədalətli ölçü nizamı qoyuldu. Osmanlı təbəəsi olan bütün kişilərə 10 illik hərbi xidməti məcburi hala gətirən fərmanla məhkəmə və hüquq sahəsində də Avropa hüquq anlayışı tətbiq olunmağa başlandı. Bütün

vətəndaşlara can, mal və namus təhlükəsizliyi təminatı gətirən fərman məhkəmə olunmadan tətbiq edilən edamları qadağan etdi.

Tənzimat Osmanlı idarəçiliyində sədrəzəmlərin rolunu artırdı. Xüsusilə Əli və Fuad paşalar dövründə Osmanlı dövlətində sədrəzəmlər geniş idarəetmə səlahiyyətləri əldə etdilər. Ancaq tənzimat Osmanlı içərisində müxtəlif siyasi fikirlərin də doğulmasına şərait yaratdı. Adına *Gənc Osmanlılar* deyilən ilk siyasi təşkilat ortaya çıxdı. Aralarında Şinasi, Namiq Kamal, Əli Suavi, Ziya Paşa və Agah Əfəndinin olduğu ilk Osmanlı maarifçiləri Avropa fikir və düşüncəsinin Osmanlı siyasi və ictimai mühitində yerləşməsinə yol açdılar.

Tənzimatın ən qalıcı təsiri təhsil sahəsində oldu. Osmanlıda darülfünun, ilk və orta məktəblər yarandı. Açılan bu məktəblərdə Avropadakı kimi texniki elmlər də tədris olunmağa başlanıldı. Hətta ilk qız məktəbləri də bu dövrdə fəaliyyətə başladı. Həmin məktəblərdə yetişənlər müasirləşməni Osmanlı üçün bir zərurət hesab edirdilər. Bu məktəblərdən məzun olanlar daha radikal dəyişikliklər üçün dövlətə təsir etməyə başladılar.

Tənzimatın davamı olaraq 1856-cı ildə *İslahat Fərmanı* elan olundu. Bu fərman Osmanlı ölkəsində yaşayan qeyri-müsəlmanlara yeni haqlar tanıdı. Fərmanın məqsədi insan haqları, siyasi qurumların yenilənməsi və Osmanlıda olmayan bir sıra yeni qurumların yaradılması kimi siyasi-ictimai addımlar idi. Lakin fərman daha çox Osmanlıya təzyiq göstərən Avropa dövlətlərinin istəklərini qarşılamaq məqsədilə hazırlanmışdı. Fərmanın hazırlanmasında sədrəzəm *Mehmed Əli paşa*nın böyük rolu olmuşdu. İslahat fərmanının başqa bir məqsədi Rusiya ilə 1853-1856-cı illər arasında davam edən Krım müharibəsində Osmanlının öz lehinə sülh şərtlərinin əldə edilməsində avropalı müttəfiqlərinin dəstəyini almaq idi. Çünki Osmanlı həm siyasi, həm də iqtisadi mənada Avropa dövlətlərinin dəstəyinə



ehtiyac hiss edirdi. Xüsusilə də iqtisadi olaraq ağır vəziyyətdə olan dövlətin xarici borca ehtiyacı vardı.

Həm Tənzimat, həm də İslahat fərmanları Osmanlıdakı ab-havanı kəskin şəkildə dəyişdirdi. Ən mühüm dəyişiklik Avropa üsullu həyat tərzinin başda saray olmaqla, Osmanlı bürokrat ailələri arasına daxil olması idi. Avropa tərzli geyim, yemək mədəniyyəti, davranış qaydaları yerli xalqın narazılığına səbəb olsa da, Osmanlı aristokratiyası üçün cəlbedici hesab olunurdu. Bu dövrdə Osmanlıda Avropadakı hadisələri yaxından izləyən intellektual bir kütlə yaranmışdı. Bəzi imkanlı ailələrin övladları isə Fransada təhsil alaraq fransız dili vasitəsilə Avropadakı fikir və düşüncələrlə tanış olmaq imkanı əldə etmişdilər. Üstəlik, müsəlman olmayan, ancaq İstanbulda geniş imtiyazlara sahib erməni, yəhudi, yunan aristokratların Avropa, xüsusilə də fransız mədəniyyəti haqqında dərin məlumatı vardı.

Üsuli-cədid adlanan bu məktəblər sadəcə Osmanlıda deyil, bütün Rusiya imperiyası daxilində yaşayan müsəlmanlar arasında yayılmağa başladı. Bu məktəblərin məqsədi Avropa standartlarına uyğun təhsil və eyni zamanda uşaqların milli əhval-ruhiyyədə yetişdirilməsi idi. Burada Quran və dini dərslərlə yanaşı dil, tarix, coğrafiya, hesab, yazı, imla, inşa, rəsm, milli şeir kimi dərslər də keçilirdi.

Tənzimatla birlikdə əsas dəyişikliklər dil sahəsində özünü büruzə verməyə başladı. Avropa elm, fikir, düşüncə və mədəni həyatında ortaya çıxan yeni termin və ifadələrin osmanlıca qarşılığını tapmaq üçün adına *Tərcüman odası* deyilən xüsusi bir qurum yaradıldı. Həmin qurum çox sayda yeni terminin ortaya çıxmasına səbəb oldu. Həmin terminlər osmanlıca vasitəsilə digər türk dillərinə, hətta ərəb və fars dillərinə də daxil oldu. *Ədəbiyyat*, *iqtisadiyyat*, *ictimaiyyət*, *vətən*, *millət* kimi terminlər həmin dövrdə ərsəyə gəldi.

Tənzimatın mənfi təsirləri də oldu. Osmanlı içərisində yaşayan fərqli din və kimlikdən olan azlıqlar sürətlə siyasiləşməyə və təşkilatlanmağa başladılar. Yunan,

bolqar, serb, alban, erməni, süryani kimi xalqlar avopalı missionerlərin də təsiri ilə Osmanlı mərkəzi hakimiyyətinə qarşı üsyana təşəbbüs etdilər. Həmin xalqların yaşadıqları yerlərdə açılan missioner məktəbləri qısa vaxtda Osmanlı dövlətinə qarşı üsyan yuvalarına çevrildilər. 1875/76-cı ildə Bosniya-Herseqovina və Bolqarıstanda baş verən üsyanlar Osmanlı imperiyası daxilində böyük qarışıqlığa səbəb olmuş, nəticədə hakimiyyətdən uzaqlaşdırılan Sultan Əbdüləzizin yerinə 1876-cı ildə *V Murad* taxta keçmişdir. Sonra Serbiya və Qaradağda üsyanlar başlamış və Rusiya-Osmanlı müharibəsi başlamışdır. Müharibə Osmanlı dövlətinin məğlubiyyəti ilə nəticələnmiş və 1877-ci ildə Berlin razılaşması imzalanmışdır. Bu razılaşma Osmanlı üçün ağır bir müqavilə olmuş və bu razılaşma ilə ilk dəfə ermənilər "beynəlxalq məsələ" halına gətirilmişdir.

Bu hadisələrin fonunda ən mühüm hadisə 1876-cı ildə Osmanlıda konstitusiyanın (*qanuni-əsasi*) elan edilməsi oldu. İlk dəfə bir müsəlman-türk ölkəsi konstitusiya sistemini qəbul etdi. Sədrəzəm *Midhad paşa*nın təşəbbüsü ilə qəbul edilən konstitusiya sistemi V Muradın taxtdan salınıb, yerinə *II Əbdülhəmid*in oturması ilə təsirsiz qaldı. II Əbdülhəmid otuz iki illik hakimiyyəti dövründə *(1876-1908)* Osmanlı imperiyasının siyasi gücünün qorunması üçün çalışmış və genişmiqyaslı hərbi münaqişələrdən və müharibələrədən uzaq durmaq siyasəti izləmişdir.

### 12.2.2. Milli-dini birlik anlayışları

XX əsrin əvvəllərində türk xalqları üçün dil birləşdirici ünsür olsa da, dini kimlik daha təsirli və bağlayıcı hesab olunurdu. "Müsəlmanlıq" onlar üçün dini olduğu qədər milli bir kimliyin də ifadəsi idi. Bu səbəbdən ilk ideoloji fikirlər də məhz dini çərçivədə formalaşmağa başladı. Rusiya və Avropa ölkələrinin müsəlman ölkələrə təzyiqlərinin artığı



XIX əsrdə din əsas birlik və milli reaksiya vasitəsi oldu. Bu dövrdə bir sıra mütərəqqi fikirli ruhani və din alimi də fərqli məzhəbi fikirləri tənqid edərək müsəlmanların dünyanın yeni şərtlərinə uyğun hərəkət etməsinin zəruriliyini dilə gətirirdilər. Bunun təsirindən XIX əsrdə İslam elmi və fiqhi (hüquq) dili bir sıra dəyişikliklərə uğradı və dində müasir fikirlər çıxmağa başladı. Məhz belə bir dövrdə türklər arasında adına *ittihadi-islam* və ya *ittihadi-müslimin* deyilən ilk milli-dini ittifaq düşüncəsi ortaya çıxdı.

İslamçılıq düşüncəsi, əsasən, müsəlmanların özünü müdafiə ideologiyası idi. Bu ideologiya Avropanın elmi və texnoloji üstünlüyünü diqqətə alaraq müsəlmanların həmin elmlərə yiyələnməsinin vacibliyini müdafiə edir, ancaq dini-əxlaqi baxımdan İslam dəyərlərini üstün sayırdı. XIX əsrin ikinci yarısından etibarən müsəlman ziyalılar arasında "*ittihadi-din, uhuvvəti-din, ittihadi-islam*" kimi adlarla dilə gətirilən islamçılıq ideologiyası Osmanlıda II Əbdülhəmid dövründə dövlətin rəsmi ideologiyası səviyyəsinə qədər yüksəldi. Qərb ədəbiyyatında "*panislamizm*" olaraq qəbul edilən bu ideologiyanın son hədəfi "bütün müsəlmanların birliyi"ni təmin etmək idi.

İslamçılığın müsəlmanlar arasında yayılmasında başlıca amil müsəlmanlarla əcnəbilərin kütləvi şəkildə qarşılaşması idi. Bu qarşılaşma iki şəkildə baş verdi:

a) ruslar tərəfindən işğal edilən türk bölgələrində aparılan köçürmə siyasəti;

b) Rusiya və Avropa təsiri ilə *(xüsusilə də missionerlərin fəaliyyətləri)* müsəlman ölkələrində yaşayan xristian azlıqların aktivləşməsi.

Rusiya hələ XVI əsrin ortalarından etibarən Volqa boyunca türk torpaqlarının istilasına başlamış və başda Kazan, Astarxan, Qasım və Sibir xanlıqlarının əraziləri olmaqla, bu yerlərə kütləvi şəkildə xristianları köçürmüşdür. Köçürülən xristianlar ruslar tərəfindən himayə edilir, onlar üçün dini və dünyəvi məktəblər açılır, əkinəyararlı münbit

torpaqlar onlara verilirdi. Köçürülən xristianların böyük əksəriyyəti mərkəzi Rusiya ərazisində yaşayan, ancaq pravoslav etiqadlarından fərqli məzhəblərə mənsub olan slavyanlarla rus bürokrat və hərbçi ailələri idilər. Ruslar bu siyasətlərini bütün müsəlman ərazilərində genişləndirdilər. Bəzi yerlərdə bu qanlı toqquşmalara səbəb oldu. Bunun nəticəsi olaraq Qafqaz, Krım və Balkanlarda yaşayan müsəlmanlar kütləvi şəkildə öz yurdlarından qovulmağa başlandı. Çox sayda çərkəz, kabardin, abxaz, çeçen, inquş, balkar, avar, qaraqalpaq, qaqauz, bessarabiyalı yurdlarını tərk edərək Osmanlı ərazisinə köçdülər. Rusiya siyasətinə qarşı çıxanların bir hissəsi kütləvi qətliama məruz qaldı.

Digər tərəfdən, ruslar qədim türk torpaqlarında koloniyalar halında məskunlaşmış dini azlıqların ələ keçirdikləri torpaqlara köçünü təşkil etməyə başladılar. Bu məqsədlə Osmanlı və Qacar ölkəsindən erməni, gürcü, aysor, yunan Qafqaza gətirilərək türk torpaqlarında yerləşdirilməyə başlanıldı. Çoxlu ortodoks, protestant, katolik din adamı Osmanlı, İran və Qafqaz ərazilərində xristian məktəbləri, kilsə və xeyriyyə qurumları açaraq oradakı xristianlar arasında katolikləşdirmə, protestantlaşdırma və pravoslavlaşdırma siyasəti aparırdılar. Onlar öz fikirlərini əsasən təhsil vasitəsilə təbliğ edirdilər. Vatikan, ABŞ, İngiltərə, Almaniya, Fransa, Rusiya tərəfindən həm dövlət, həm də müxtəlif dini qurum və quruluşlar vasitəsilə maliyyələşdirilən bu fəaliyyətlərin hədəfində İslam dünyasını parçalamaq, dini-milli azlıqlara idarəetmə statusu vermək və onların əli ilə bölgəni nəzarət altında saxlamaq vardı. Bu xristianlarla müsəlmanların həyat standartları arasında böyük uçurum yaratdı. Bütün bu proseslər müsəlman din adamları və ziyalıları arasında müsəlman birliyi fikrinin formalaşmasına gətirdi.

İslamçılıq təşkilatlanmış bir ideoloji hərəkat deyildi. Hər nə qədər Sultan II Əbdülhəmid bunu siyasi səviyyədə icra etmək istəsə də, islamçılıq hər şeydən çox fikir və düşüncə hərəkatı idi. *Cəmaləddin Əfqani, Namiq Kamal, Ziya*



*Paşa, Əli Suavi* kimi türk ziyalılarının "ehyaçılıq, hürriyyət, vətən, hakimiyyət" kimi Fransız inqilabının təsiri ilə yeni məna qazanan fikirləri ətrafında formalaşan bu ideologiya müsəlmanlar arasında "peyğəmbər dövrünün İslam həyatının" yenidən canlandırılması xəyalını tərənnüm edirdi. Hətta bu ideologiyanı müdafiə edənlər arasında vahid bir fikir birliyi də yox idi. Məsələn, Əli Suavi "hakimiyyət Allahındır" tezisini müasirləşdirib müdafiə edir, Namiq Kamal Russonun təsiri ilə "xalq hakimiyyəti" fikrini səsləndirirdi. 1873-cü ildə Osmanlı Ticari-Bəhriyyə (Dəniz ticarəti) məhkəməsi katibi olan *Əcəd Əfəndi* tərəfindən çap olunan *"İttihadi-İslam"* adlı risalədə müsəlmanları "Qərb təhdidinə qarşı Osmanlı xəlifəsi ətrafında birləşməyə" çağırırdı. Növbəti il ərəb dilinə tərcümə edilən risalə Həcc ziyarətindəki bütün müsəlmanlara paylanıldı. Eyni tarixdə Osmanlı və Hindistanda çap olunan məqalələrdə ittihadi-islam anlayışı dilə gətirilir, müsəlmanlar arasında birliyin əhəmiyyətinə diqqət çəkilirdi. Belə məqalə və risalələr Avropa dövlətlərini çox narahat edir, onların müsəlman ziyalılarına qarşı təzyiqlərinin artırılmasına səbəb olurdu.

Avropa müstəmləkə siyasətinə qarşı müsəlmanlar arasında birliyin yaradılmasını təbliğ edən islamçılıq ideologiyası 1876-cı ildə Osmanlıda elan edilən konstitusiyaya da daxil edildi. Qanuni-əsasinin 3-cü maddəsi Osmanlı padşahına "bütün müsəlmanların hamisi" statusu verir və onların haqlarının qorunmasını dilə gətirirdi. İslamçılığın müsəlman türkləri arasında güclü təsiri oldu. Hər şeydən əvvəl islamçılıq ortaq müsəlmanlıq ideyasının ideoloji müstəviyə çevrilməsinin önünü açdı və ortaya çıxan sonrakı bütün islamçı və islami kökənli siyasi partiyalar məhz bu ideyadan qidalandılar. Digər tərəfdən, islamçılıq ideologiyası müsəlmanlar arasında siyasi və ideologiya dilinin və fikrinin yaranmasına səbəb oldu. Müsəlmanların leksikonunda işlədilməyə başlanılan şura, icma, inqilab, tənəzzül, sərmayə, xarici düşmən, daxili düşmən, böhran,

ittihad, hürriyyət, insani ittifaq kimi terminlər islamçılıq ideologiyasının gündəmə gətirdiyi fikirlərdən qaynaqlanırdı. Hətta sonrakı dövrlərdə ortaya çıxan sosialist hərəkatlar və partiyalar da həmin terminlərdən istifadə edirdilər.

İttihadi-müslimin ideyası Qacar ölkəsində daha geniş dəstək tapdı. XIX əsrin axırlarında başda Təbriz və Tehran olmaqla, bir çox şəhərlərdə ana dilində kitablar və təbliğat xarakterli qəzet və əsərlər dolaşmağa başladı. Bu qəzet və ədəbiyyatın böyük hissəsi Osmanlı və Hindistanda çap olunaraq gizli yollarla ölkəyə gətirilirdi. "Fəramuşxana" adı verilən belə gizli dərnək və təşkilatların ən güclüsü *Adəmiyyə cəmiyyəti* (*Cameyi-adəmiyyə*) idi. XIX əsrin axırlarında bu təşkilatın başında *Hacı Şeyx Hadi Nəcmabadi, Hacı Seyid Mehdi Dövlətabadi, Mirzə Seyid Vəli, Mirzə Seyid Zeynəlabidin İmamcümə, Müstəşarüddövlə, Əminəddövlə, Yəhya xan Müşirüddövlə, Sədüddövlə, Zəkaülmülk Füruği, Fəridülmülk, Hacı Səyyah* dayanırdı. Onların əksəriyyəti dövlət adamı, məmur və ruhanilər idi.

Adəmiyyə müsəlmanların vahid bir müdafiə təşkilatı yaratmasını arzulayırdı. Cəmiyyətin proqramında bununla bağlı belə bir ifadə yer alır: *"Ey ruhanilər, biz bu ölkənin adamları Allahın şəriətinə tabe olmaqla millətin hüququnu qorumaq üçün birləşmiş, bir ordu yaratmışıq, siz bu ordunun başçıları olmağa hər cəhətdən yararlı və layiqsiniz. Biz hamımız sizin öz içərinizdən seçib göstərəcəyiniz hər hansı bir müctəhidin ardınca getməyə, onun ətrafında fədakarlıq göstərməyə hazırıq"*.

Təşkilatın istifadə etdiyi dil və üslubun müasirləşmənin ifadəsi olduğu aydın görünür. Belə ki, Adəmiyyə cəmiyyəti bir tərəfdən "millət, hüquq" kimi Avropa terminlərini ön plana çıxararkən, digər tərəfdən də "müctəhid" (yüskək din alimi) kimliyini siyasi-idari işlərə nəzarət etməyə layiq bir obraz kimi qabardır. Elitar dini-ictimai insanlara xitab edən cəmiyyət bütün hallarda islami dəyərlər üzərində ideoloji baxış ortaya qoyurdu.



Adəmiyyə cəmiyyəti siyasi, ictimai və dini xadimlərin ideoloji fikir və düşüncənin parçası olmasının önünü açdı. XX əsrin əvvəllərində Qacar ölkəsində islamçılıq ideologiyası güclənməyə başladı. "İttihadi-İslam" adı altında təşkilatlanan bu qruplar başda Osmanlı olmaqla, bütün Şərq müsəlmanları arasında fəaliyyət göstərən islamçı təşkilatlarla eyni ideyaları paylaşır və bir-biriləri ilə əlaqədə idilər. Bu hərəkatın ideoloqu, şübhəsiz, *Cəmaləddin Əfqani* sayılırdı. Müasir tarixşünaslıqda *panislamizmin banisi* olaraq təqdim edilən Cəmaləddin Əfqani 1838-ci ildə Həmədan yaxınlığındakı Əsədabad qəsəbəsində anadan olmuş, sonralar "Əfqani" ləqəbini almışdır. Qəzvin, İsfahan, Buxara, Kabil, Hindistan, Misir, Osmanlı, hətta bir sıra Avropa ölkələrini gəzən Cəmaləddin mütərəqqi fikirlərin İslam düşüncəsində yer almasına tərəfdar olub, "məşrutiyyə" ideyalarını müdafiə edirdi. Dil, din, tarix, fəlsəfə, riyaziyyat, tibb və siyasət sahəsində geniş təhsil alan Əfqani həm sünni, həm də şiə alimlərindən dərslər almışdır. Çox sərt, təsirli üslubu və xətiblik qabiliyyəti ilə ətrafında güclü təsir yaradan Əfqani coğrafi, milli və dini məhdudiyyət qoymadan, bütün müsəlmanlara səslənirdi. Hindistanda çıxışlarının birində *"ey müsəlmanlar, siz insan deyil, milçək olsaydınız, vızıltınız ingilislərin qulağını kar edərdi. Ey hindlilər, sizlər tısbağa olsaydınız, İngilis adasını yerindən söküb, dənizdə batırardınız"*. Bu sözləri ilə bütün Şərq cəmiyyətinin reaksiyasız qalmasına üsyan edən Əfqani özü maarifçi idi. Dövrün müsəlman alim və din adamları tərəfindən tənqid olunub, hətta təkfir edilən Əfqani islamçılıq ideologiyasının məqsəd və məramlarını formalaşdırmışdı. 1886-1889-cu illər arasında Rusiyada yaşayan Əfqani buradakı müsəlmanların haqlarını müdafiə etmiş və Rusiyanı Avropa, xüsusilə də İngiltərəyə qarşı İslam dünyasına yaxınlaşmağa təşviq etmişdir. Hətta Qacar ölkəsində vəzirlik məqamına qədər gətirilən Əfqani üç tərəfdən təzyiqlərin hədəfində qalmışdı. Bir tərəfdən yerli rəsmi bürokratik gücün, ikinci tərəfdən din alimlərinin,

üçüncü olaraq da bölgədə fəaliyyət göstərən avropalıların tənqidinə hədəf olan Əfqani Osmanlıya getmiş və Sultan II Əbdülhəmidlə əlaqə saxlamışdır. Əbdülhəmidə tam 600 məktub yazan və bunların 200-nə cavab alan Cəmaləddin şiə-sünni münasibətlərindən, müsəlmanların aydınlanması və sosial vəziyyətinə qədər bütün mövzuları qabartmışdır. Cəmaləddinin fikirlərində müsəlmanların birliyi ideyası ilk sırada gəlirdi. Sultan II Əbdülhəmid tərəfindən *"ictihad sahibi böyük alim"* kimi qiymətləndirilən Cəmaləddin Əfqani 1897-ci ildə İstanbulda vəfat etmişdir. Əfqaninin görüşlərində 4 nəzəri və 4 elmi anlayış qabardılmışdır.

*Nəzəri anlayışlar:*

1. Hamının öz haqqını müdafiə hüququ;
2. Cəmiyyətin nizam və ədalət üzərində qurulmalı olduğu;
3. İdarə edən gücə nəzarət (mütləqiyyətçiliyə son verilməsi);
4. Allaha və axirətə inam.

*Elmi anlayışları:*

1. Ağılçılıq. Doğru düşüncədə və həqiqəti tapmaqda ağlın üstünlüyü;
2. Fərdi dəyərlərin və haqların ön plana çıxarılması;
3. Bilik və inancın sağlam təməllər üzərində qurulması;
4. Cəmiyyətin təhsil və tərbiyə ilə maarifləndirilməsi.

Türklər arasında ilk ideoloji, fikri, siyasi və elmi hərəkətlilik *islamçılıq* üzərindən başlamışdır. Türklər və ümumi mənada müsəlmanlar Avropa müstəmləkəçiliyi ilə üzləşdikdə özlərinin dini kimliyini təhlükədə hiss edərək müdafiə məqsədli fikirlər səsləndirdilər, içində yer aldıqları şəraitlə mübarizə aparmağa başladılar. Bu istiqamətdə müsəlmanların birliyi fikrini ön plana çıxararaq əsas dörd təməl üzərində yeni müsəlman kimliyinin inşasını dilə gətirdilər:

- müsəlmanların birliyi: hər cür məzhəbi və dini ixtilafın ortadan qaldırılması;



- müsəlmanların maarifləndirilməsi: təlim və təhsil yolu ilə aydınlanma;
- Avropanın texniki nailiyyətlərindən yararlanmaq: Qərbin texniki elmlərinin sirrinə yiyələnmək;
- İslam əxlaqi həyat tərzinin qorunması.

Osmanlı imperiyası daxilində xristian təbəənin üsyan edib ayrılması nəticəsində II Əbdülhəmid *müsəlman kimlikləri* vahid bir siyasi ideologiya ətrafında birləşdirməyə çalışaraq həm ölkənin bütövlüyünü qorumağa, həm də digər müsəlmanları birləşdirmə siyasətinə başladı. Bu məqsədlə Namiq Kamal və Cəmaləddin Əfqani tərəfindən ortaya atılan *ittihadi-müslimin* fikrini siyasi-ideoloji düstur olaraq mənimsədi. Sultan II Əbdülhəmidin bu siyasəti *müsəlman ittifaqı* istiqamətində müsəlman Şərqindəki fəaliyyətləri gücləndirdi. XX əsrin əvvəllərində Rusiya müsəlmanları da bu fəaliyyətə qoşuldular. 1904-1905-ci illərdə Rusiya-Yaponiya müharibəsi və bu müharibənin sonunda Rusiyanın ağır şəkildə məğlub olması, sonra ortaya çıxan 1905-1907-ci illər burjua inqilabı Rusiyadakı müsəlman-türk ziyalılarının təsirlərinin artmasına yol açdı. Bu istiqamətdə atılan ilk addım Rusiya Müsəlmanları İttifaqının yaradılması oldu. Peterburqda alınan bir gizli qərar ilə 8 aprel 1905-ci ildə Nijni-Novqorodda keçirilən qurultayda Azərbaycan, Krım, Kazan, Türküstan, Sibir bölgəsindən ziyalılar toplaşmağa başladılar. Aralarında *Əlimərdan bəy Topçubaşı, İsmayıl bəy Qaspıralı, Seyid Gəray Alkin, Yusuf Akçura, Fateh Kərimli, Qazı Rəşid İbrahim, Musa Cərullah Bigi, Abdullah Apanay, Vəli Yauşev, Zakir Ramiev, Əhməd və Qəni Hüseynov qardaşları, Qutlu Mirzə Tevkilev, Şah Heydər Sırtlanov, Səlim Gəray Cantürin* kimi maarifçi, burjua və din adamlarının da olduğu qrup ilk yığıncaqlarını keçirdilər. Onlar burada bir yığıncaq keçirmək üçün hökumət rəhbərliyinə müraciət etsələr də, müsbət cavab ala bilmədilər.

Rusiya müsəlmanları ziyalıları ilk yığıncaqlarını 15 avqustda Qustav Struve gəmisində təşkil etdilər. Burada

Rusiya müsəlmanlarının ittifaqı təsis edildi və bu ittifaqın rəhbərliyinə Əlimərdan bəy Topçubaşı seçildi və ittifaq iki il ərzində *(1905-1906)* üç qurultay keçirdi. İlk qurultayda təşkilat 5 maddəlik qərar qəbul etdi:

1. Günümüzün şərtləri Ümumrusiya müsəlmanlarının siyasi, ictimai və mədəni birləşməsini zərurət halına gətirmişdir;

2. Rusiya müsəlmanları öz məqsədlərinə çatmaq üçün rus tərəqqipərvərləri ilə eyni fikirdə olub, xalqın səsi ilə seçilən vəkillərin dövləti idarəetmə və qanunları hazırlama səlahiyyəti əsasına dayanan "hüquq nizamı"nı təsis etmək yolunda fəaliyyət göstərəcəklər;

3. Ruslara tanınan haqlar eyni şəkildə Rusiya müsəlmanlarına da verilməzsə, ikinci maddədə qeyd edilən məqsədlərə çatmaq əsla mümkün deyildir. Rusiya müsəlmanları bu qənaətdə olub, siyasi, ictimai və dini haqlarda ruslarla tam mənada bərabər hüquqlara sahib olmaq, icra olunan qanunları, hökumət qərarnamələrini, idarə sistemini Rusiya müsəlmanlarına qoyulan təhdidləri, istisnaları ortadan qaldırmaq yolunda hüquqi məqsədlərinə nə yolla olursa-olsun, çatmaq niyyətindədirlər;

4. Rusiya müsəlmanları fəaliyyətlərinə dövlətin indiki və gələcəkdəki ehtiyaclarına görə istiqamət verəcəklər. Müsəlmanlar özlərini dövlətdə olacaq dəyişikliklərə, yeni şərtlərə, həyat tərzinə uyğun şəkildə hazırlamaq üçün etina göstərəcəklər. Buna görə hər yerdə və öz ehtiyaclarına uyğun hər növ məktəb açmağa, kitab, qəzet, jurnal nəşr etməyə, kitabxana, qiraətxana təsis etməyə, xalqdan əldə edilən ianələrlə xalqı müasir şərtlərə görə yetişdirməyə çalışacaqlar;

5. Yuxarıdakı dörd maddədə qeyd edilən məqsədlərə çatmağı asanlaşdırmaq üçün müsəlmanların müəyyən zamanlarda toplanacaq konqresləri tərəfindən veriləcək təlimata uyğun hərəkət edəcək məhəllə məclisləri təşkil ediləcəkdir.





## 12.3. TÜRKÇÜLÜK VƏ MİLLİ DÖVLƏTLƏRİN QURULMASI

1905-1907-ci illərdə baş verən Rusiya burjua inqilabı, 1908-ci ildə Osmanlıda İkinci Qanuni-Əsasinin elanı və 1906-1911-ci illərdə İran məşrutiyyə hərəkatı türk xalqlarının siyasi-mədəni həyatında böyük dəyişikliklər yaratdı. Hər üç inqilab türklərin ictimai-siyasi oyanışında böyük rol oynadı. Baş verən siyasi-ictimai proseslərin təsirindən türklər arasında üç fikri cərəyan formalaşmağa başladı:

- İslamçılıq;
- Türklük;
- Müasirlik.

1904-cü ildə *Yusuf Akçura "Üç tərzi siyasət"* adlı əsərində Osmanlı imperiyasının qarşısında üç yol olduğunu dilə gətirdi. Ona görə, Osmanlı imperiyası həmin yollardan birini seçmək məcburiyyətindədir. Bu yollar:

1. Bir Osmanlı milləti meydana gətirmək (*osmanlıçılıq*);
2. İslamçılığa söykənən bir dövlət sistemi yaratmaq (*islamçılıq*);

3. İrqə söykənən bir siyasi türk millətçiliyi meydana gətirmək (*türkçülük*).

Y.Akçura bu üç ideologiya arasında çıxış yolunun *türkçülük* olduğunu bildirirdi.

Akçuradan bir müddət sonra, 1905-ci ildə bir məqalə yazan *Əli bəy Hüseynzadə* türk xalqlarının inkişafı üçün çıxış yolunun *"türkləşmək, islamlaşmaq və avropalaşmaq"* olduğunu vurğulayaraq milli, dini və elmi bir bütövlüyün yaradılmasının vacibliyini dilə gətirdi. Ə.Hüseynzadə türklər üçün ideal bir dövlət modelinin *"Turan"* olduğunu vurğulayaraq, türkçülüyün ideoloji inkişaf xətti seçilməsini uyğun görürdü. Hüseynzadənin bu modelini daha da təkmilləşdirən *Ziya Göyalp (1876-1924)* "türkləşmək, islamlaşmaq, müasirləşmək" modeli üzərindən türk milliyyətçilik ideologiyasını təsnifləşdirdi. Prinsipcə hər üç ziyalı türk xalqlarının maddi və mənəvi varlığının millət kimliyi üzərində inşa edilməsinin vacibliyini vurğulayırdılar.

Sultan II Əbdülhəmid siyasi model olaraq osmanlıçılıq ilə islamçılığı dövlət üçün çıxış yolu hesab edib, uzun hakimiyyəti boyunca bu siyasəti izlədi. II Əbdülhəmidin məqsədi daxildə *osmanlıçılıq* prinsiplərini qoruyaraq, çoxmillətli Osmanlı xalqlarını tək siyasi kimlik içərisində tutmaq idi. Sultan islamçılığı özünün xarici siyasəti halına gətirərək, geniş İslam dünyasında yaşayan müsəlmanlar arasında ideya birliyini təmin etmək istəyirdi. Osmanlı ərazisində baş verən üsyanlar və bu üsyanlar nəticəsində türk olmayan xalqların müstəqillik əldə edərək öz dövlətlərini yaratması siyasi mənada osmanlıçılığın iflas etdiyini göstərirdi. Digər tərəfdən, başda ərəb və irani kimlikli xalqlar arasında sürətlənən milliyyətçilik islamçılığın da siyasi bir model olaraq davam etdirilməsini çətinləşdirirdi. Belə olan halda geriyə türk xalqlarının birliyini ifadə edən türkçülük fikri qalırdı. *Gənc Türklər* inqilabı bu ideoloji təməli əsas götürərək 1908-ci ildə II Əbdülhəmidin hakimiyyətinə son qoydu. Ancaq 1911-ci ildə Albaniyanın da Osmanlıdan ayrılması ilə gənc türklər türkçülüyü rəsmi siyasi-ideoloji meyar hesab etdilər.



Bu istiqamətdə elmi-siyasi fəaliyyətə başlayan türk ziyalıları *Türk dərnəyi, Türk yurdu, Türk ocağı, Gənc qələmlər* kimi adlar altında təşkilatlanaraq türk tarxini, maddi-mədəni əsaslarını, sosioloji və kimlik dəyərlərini araşdırmağa və öyrənməyə başladılar. Bu təşkilatlar *Əli bəy Hüseynzadə, Şəmsəddin Sami, Nəcib Asim, Vələd Çələbi, Mehmed Əmin Yurdakul, Bursalı Tahir bəy, Rauf Paşazadə, Əhməd Hikmət, Tunalı Hilmi bəy, Əhməd Cavad, Əhməd bəy Ağaoğlu, Ziya Göyalp, Fuad Köprülüzadə, Əmrullah Əfəndi* kimi dövrünün türk fikir adamlarını özündə cəmləşdirərək qəzet, jurnal, kitab və məqalələr nəşr etməyə başladılar.

Turançılıq siyasi olmaqdan çox tarixi-mədəni bir ideya idi. Türkçülüyün hədəfi olaraq qəbul edilən Turan anlayışı XX əsrin əvvəllərində fəaliyyət göstərən türk ziyalıları üçün bütün türk xalqlarını birləşdirəcək mədəni platformanın tarixi müstəvidə ifadəsi olaraq qəbul edilirdi.

Türkçülük fikri qısa vaxtda Osmanlı, Azərbaycan, Krım və Kazan ziyalıları arasında siyasi təşkilatlanmalar üçün ideoloji açar rolunu oynamağa başladı. Bu istiqamətdə yaranan İttihad və Tərəqqi partiyası 1913-cü ildən etibarən Osmanlıda hakim siyasi gücə çevrildi. 1911-ci ildə isə eyni fikirlər əsasında Bakıda Müsavat partiyası yaradıldı.

Türkçülük ideologiyasını mənimsəyən ziyalıların üzərində dayandıqları təməl terminlər "millət, milliyyət, milliyyətçilik, xalq, xalqçılıq" anlayışları idi. Y.Akçuraya və Ə.Hüseynzadəyə görə, türkçülük "mərifəti-qövmiyyənin husulü", yəni türk kimlikli xalqların varlığının mənbəyi hesab olunurdu. Bu mənada milliyyətçilik geniş mənada bir zehniyyət mələsəsi olmaqdan çox millətin varlıq səbəbi olaraq qavranılırdı.

"Millət" İslam düşüncəsində dini bir termin (*xristian milləti, yəhudi milləti* kimi) hesab olunurdu. Milliyyətçilər bu terminə etnik bir məna yükləyib, "müsəlmanlığın" türklər

üçün birləşdirici bir ünsür olduğunu da vurğulamaqla Avropadakı kimi etnik-dini təməldə bir xalq kimliyini diqqətə almağa çalışıblar. 1910-cu ildə keçirilən konfransların birində Y.Akçura bu məsələni belə ifadə edirdi: *"Etnopolitik bir termin olaraq yaranan türklük - məzmun, perspektiv və istiqamət olaraq yeni bir tarixin başlanğıcıdır"*. Yəni türk xalqları üçün türklük ideoloji olaraq yeni bir tarixin yaranış səbəbi hesab olunurdu. Ancaq Y.Akçura, Ə.Hüseynzadə və Z.Göyalpa görə, türklük fikri türklər üçün tarixin hər dövründə mövcud olmuşdu. Türklərin hun köçləri ilə qərbə yayılması, Çingiz xanla dünyaya sahib olması, Əmir Teymurla yeni bir cahan hakimiyyətinin yaradılması və Osmanlı ilə Vyanaya qədər Avropaya hökm etməsi türklərin ruhundakı və qanındakı "türklük şüuru"ndan qaynaqlanırdı.

Bu ziyalılar türklüyü milli kimliyin tarixi zehniyyəti olaraq ifadə edirlər. *"Millət nədir?"* adlı məqaləsində Ziya Göyalp millətin nə olduğunu müəyyən etmək üçün onun irq, qövm, ümmət, xalq, dövlətlə münasibətini açıqlamaq lazım olduğunu yazır. Göyalp milli kimliyi millətin "şəxsiyyət ifadəsi" kimi ifadə edərək, bu şəxsiyyətin üç təmələ söykəndiyini, həmin təməllərin xüsusi – qövmi və lisani (dil) olub, bunları itirən millətlərin varlığını da itirdiklərini dilə gətirmişdir. Göyalpa görə, türklər etnik bir kimliyə sahib olduqları halda, milli bir siyasi kimliyə sahib deyillər. Göyalp "siyasi milliyyətçilik" fikrini ortaya ataraq, bu anlayışın milli-etnik kimlik və vətənpərvərlik üzərində yer alan bir milli dövlət haqqı olduğunu vurğulayırdı. Tarix boyu dövlət yaratmaq haqqına sahib türklərin XX əsrdəki ən böyük vəzifəsinin milli-dövlət yaratmaq olduğunu dilə gətirən Göyalpa qoşulan Əhməd bəy Ağaoğlu üçün də türklər "ictimai bir kimlikdən siyasi bir kimliyə" çevrilərək, öz tarixi güclərini bərpa etməlidirlər. Ə.Ağaoğluna görə, dövrün əsas anlayışı milliyyətçilik olub, bu anlayış müasir dövrün ruhunu ifadə edirdi. Milliyyətçilik XIX əsrdə Avropada yarandığı halda türklərin bu anlayışı mənimsəməsi dövrün ehtiyaclarının





*Ziya Göyalp*



*Mehmed Fuad Köprülüzadə*

gərəyidir. Məsələni daha geniş mənada qavrayan Mehmed Fuad Köprülüzadə isə həm tarixçi, həm də türkoloq olması səbəbindən bu qavramı daha geniş müstəvidə açıqlayır:

*"Xristian aləminin milli intibahından sonra İslam dünyasının milliyyət əsaslarına uzun müddət laqeyd qalması mümkün deyildir. Dövrümüzün beynəlxalq münasibətləri maddi və mənəvi olmaqla bir çox vasitələrlə bu iki aləmi bir-birinə bağlamışdır. Belə ki, daxildəki bir çox radikal qarşıçıxmalara baxmayaraq, xarici səbəblərin təzyiqi mütləq şəkildə tez zamanda özünü büruzə verəcəkdir. Beləliklə, tarixin bu bəsit zərurəti axırı ki, meydana çıxdı və İslam millətlərində yavaş-yavaş qövmiyyət üfüqü təşəkkül edib, şüurlu bir hal almağa başladı"*.

Belə məlum olur ki, Birinci Dünya müharibəsi ərəfəsində və müharibə zamanı türk xalqları arasında ən güclü fikri-siyasi və mədəni hərəkat türkçülük idi. Türkçülük qısa vaxtda türk ziyalıları arasında güclü təsir yaratdı və Osmanlıdan Türküstana qədər geniş sahədə təşkilatlanmalar başladı. Bu təşkilatlanmalarda İttihad və Tərəqqi



*Ənvər paşa Killigil*



*Təşkilati-Məxsusənin gerbi*

hökuməti tərəfindən formalaşdırılan xüsusi gizli kəşfiyyat orqanı *Təşkilati-Məxsusə*nin də böyük rolu oldu. İttihad və Tərəqqi hökumətinin qurucularından olan Ənvər paşaya bağlı qurulan gizli bir təşkilat olan Təşkilati-Məxsusə *(Xüsusi təşkilat)* 1913-1918-ci illər arasında türkçülüyü özünün təbliğat vasitəsinə çevirib, Çindən Şimali Afrikaya qədər əraziyə yayılaraq gizli fəaliyyət propaqandası aparmışdır. Miralay Rasim bəyin başçılığı ilə 1911-ci ildə yaradılan təşkilat Trablusqərbdə italyanlara, Qərbi Trakiyada bolqar və yunan ordularına, Misir və İraqda ingilislərə, Qafqaz və Orta Asiyada ruslara, Şərqi Türküstanda Çinə qarşı təbliğat, təşviqat, silahlı müqavimət sərgiləmişdir. Təşkilatın üzvlərindən olan Hüsaməddin Ərtürk öz xatirələrində Təşkilati-Məxsusənin məqsədini belə açıqlayır: *"Bu təşkilatın məqsədi bir tərəfdən müsəlmanları bir bayraq altında toplamaq və bununla panislamizmə vəsilə olmaqdır. Digər tərəfdən də türk irqini siyasi bir birlik içində formalaşdırmaq, bu baxımdan da pantürkizmi həqiqi mənada reallığa çevirməkdir"*.



Təşkilati-Məxsusə geniş ərazidə apardığı milli-mədəni fəaliyyətlər nəticəsində yerlərdən çox sayda türk ziyalı və təbliğatçını da öz cərgələrinə daxil etmişdir. Tapılan arxiv materialları arasında Təşkilati-Məxsusəyə göndərilmiş Qafqaz və İrandan çox sayda raportun olduğu ortaya çıxıb. Həmin raportlar arasında Məhəmmədəmin Rəsulzadə tərəfindən də yazılmış raportlar mövcuddur.

Bütün bu fəaliyyətlərin nəticəsində Birinci Dünya müharibəsinin başlaması ilə türklər arasında da milli-siyasi meyllər güclənməyə başladı. 1915-1916-cı illərdə Xivədə üsyan baş verdi. Başlarında Cüneyd xanın dayandığı türkmənlər ruslara qarşı üsyan bayrağı qaldıraraq, Xivədəki rus qarnizonlarını məhv etdilər. Lakin üsyançılar rus ordusu tərəfindən məğlub edildilər və Cüneyd xan Qacar ölkəsinə qaçmaq məcburiyyətində qaldı. Cüneyd xanın üsyanı yeni yatırılmışkən, 1916-cı ildə Türküstanda üsyanlar başladı. Üsyana səbəb çarın fərmanı ilə 1,5 milyon türküstanlının səfərbərlik altına alınıb, cəbhəyə göndərilmə təşəbbüsü oldu. Üsyan qısa vaxtda Türküstanın hər yerinə yayıldı. Lakin üsyançılar bölgələrə və şəhərlərə görə qruplaşdıqlarından mütəşəkkil hərəkət etmirdilər. Kənd-kənd, şəhər-şəhər və bölgə-bölgə baş verən döyüşlərdə üsyançılar kimi, çox sayda rus əsgəri də öldürüldü. Nəticədə rus hökuməti üsyanları çətinliklə yatırmağa nail olsa da, ancaq 123 min insanı səfərbərliyə alıb Avropaya göndərə bildi.

Türküstandakı üsyanları Semireçyedə (Yeddi su) qırğızların, Mərv, Tecen və Aşqabad bölgəsində isə türkmənlərin üsyanları izlədi. 1916-cı ildə qazaxlar da üsyanlara qoşuldular. Bu üsyanlarda türklər böyük itkilərə məruz qalsa da, Rusiyanın bölgədəki siyasi-hərbi hakimiyyətinə böyük zərbə vuruldu. Bu üsyanları yatırmaq üçün Rusiya hökuməti 14 tabor piyada, 33 tabor süvari, 42 top, 69 ağır makinalı tüfəngdən istifadə etməli oldu. Üsyanın yatırılmasından sonra bölgədə kütləvi qətliamlar nəticəsində minlərlə ailə, yüzlərlə kənd və qəsəbə yox edildi. Mənbələr

1914-1918-ci illərdə ümumilikdə Türküstan bölgəsində əhalinin 1 230 000 nəfər azaldığını qeyd edirlər. Onlardan 300 min qazax-qırğız yurdlarını tərk edərək Şərqi Türküstana qaçmışdı. Ölənlərin sayı 673 min nəfər təşkil edirdi.

1917-ci ilin fevralında Rusiyada baş verən İkinci burjua inqilabı çarlıq rejiminin dağılması ilə nəticələndi. İnqilab sonrası Rusiyada müvəqqəti hökumət yaradıldı və burjuaziya iqtidara gəldi. Bu hadisə Rusiya hakimiyyətində olan müsəlman-türkləri öz müqəddəratları haqqında illərdir hazırladıqları siyasi-milli layihələri həyata keçirməyə fürsət tanıdı. 1-11 may 1917-ci ildə Moskvada Ümumrusiya Müsəlmanları qurultayı təşkil olundu. Qurultay Azərbaycan milyonçusu *Şəmsi Əsədullayev*in müsəlmanlara hədiyyə etdiyi binada gerçəkləşdi. Qurultayda ümumilikdə 500-ü seçilmiş olmaqla, 900 nəfər iştirak etdi. Qurultay Quran oxunaraq açıldı və davamında qurultayın İdarə Heyəti seçildi. *İbrahim Əhmədov, Ayaz İshaki, Əhməd Salih, Xəlil Dostmuhammedov, Əlimərdan bəy Topçubaşı, Fateh Kərimi, Abdullah Hocayev, Səlimə Yaqubova, Həsən Ata Qabeşi, İlyas Alkin, Cəfər Seyidəhməd* və *Musa Cərullah Bigi*dən ibarət 12 nəfərlik İdarə Heyəti təşkil olundu. Qurultayda 1,5 milyon müsəlman əsgəri də təmsil edən Müsəlman Əsgəri şurası adına *Tukumbətov* da iştirak edərək çıxış etdi. İdarə Heyəti aşağıdakı proqram mətnini qəbul etdi:

- Rusiyanın gələcəkdəki idarə sistemi;
- Mədəni və məhəlli muxtariyyət;
- Dini və milli fəaliyyətlərin təşkili və daimi qurumun yaradılması;
- Mədəni və təhsil fəaliyyətləri və bunların bütün müsəlmanlar arasında yayılmasının yolları;
- Məhkəmə fəaliyyətləri;
- Məhəlli idarələr;
- Müharibəyə münasibət;
- Qurucu məclisin yaradılması;
- Qadınlar məsələsi;





*Şəmsi Əsədullayev*



*Ayaz İshaki*



*Mirzə Fətəli Axundzadə*



*Cəfər Seyidəhməd Krımər*

- Fəhlələr məsələsi;
- Torpaq məsələsi;
- Rusiyanın Qafqaz, Türküstan və Qazaxıstanda apardığı kolonizasiya siyasəti;
- Hərbi təşkilatlanma;
- Siyasi təşkilatlanma;
- Millət vəkillərinin seçilməsi;
- Müharibədən zərər görənlərə yardım;
- Bütün Rusiya müsəlmanlarının böyük milli şurasının seçilməsi.

Qurultayda Rusiya müsəlmanlarının dörd coğrafi bölgü üzrə idarə heyətinin yaradılması fikri səsləndirildi. Buna görə Rusiya müsəlmanlarının yaşadığı ərazilər aşağıdakı şəkildə təsnif edildi:

1. Qafqaz (Şimali və Cənubi Qafqaz);
2. Türküstan (Sırdərya, Fərqanə, Səmərqənd, Zakaspiya);
3. Bozqır (Qazax bölgəsi, Ural, Turqay, Semipalat, Akmola, Yeddisu);
4. Sibir.

Qurultayda əsas fikir Rusiyanın parlamentar bir xalq cümhuriyyəti olması və müsəlmanların milli-mədəni muxtariyyat elan etmələri idi. Qurultayda iştirak edən Məhəmmədəmin Rəsulzadə öz çıxışında belə dedi: *"Biz türk-tatar övladı və o millətin babalarıyıq. Biz türk oğlu türkük. Bununla da iftixar edirik. Rusiyada yaşayan 30 milyon müsəlmanın 29 milyonu türkdür. Biz məhəlli milli muxtariyyat əsasında Azərbaycan, Dağıstan, Türküstan və digərləri olaraq ayrı məhəlli xüsusiyyətlərə malik türk qövmləri üçün muxtariyyat istəyirik"*.

Rəsulzadənin federalist sistem təklifi qurultayda səsə qoyulmuş və nəticədə 446 lehinə, 271 əleyhinə olmaqla qəbul edilmişdir. Bu qurultay Rusiyadakı türklərin öz müqəddəratlarını təyin etmək istiqamətində ilk böyük toplantı olmuşdur. Qurultay sonunda 24 maddəlik əsasnamə qəbul olunmuş və həmin əsasnamədə türklərin milli, mədəni, siyasi və sosial haqları ifadə edilmişdir.



Ancaq Rusiyadakı müvəqqəti hökumət özünü doğrultmadı. Birinci Dünya müharibəsinin gedişatı, ölkədə baş verən aclıq və qıtlıq, əsasən müsəlman türklərin yaşadığı bölgələrdə etnik zəmində meydana gələn toqquşmalar, xüsusilə də Azərbaycan və Anadoluda erməni silahlı qüvvələrinin törətdikləri cinayətlər Rusiyanın bütün strukturlarını dağıtdı. 1917-ci ilin oktyabrında baş verən Bolşevik inqilabı ilə türklər üçün də vəziyyət tamamilə dəyişdi. O vaxta qədər milli-mədəni muxtariyyat iddiası ilə hərəkət edən türk siyasi partiya və ziyalıları Bolşevik inqilabı sonrasında milli respublika haqqı ilə öz müstəqilliklərini tələb etməyə başladılar.

Əslində müstəqillik istiqamətində hazırlıqlar 1917-ci il Fevral inqilabı ilə sürətlənmişdi. Bu məqsədlə ilk hərəkətlilik *Alaş Orda*da meydana gəldi. Alaş Orda hərəkatının nüvəsi Qazax qəzeti ətrafında toplanan zilalılar hərəkatı olaraq ortaya çıxdı. Başında *A.Bökeyxanov, A.Baytursunov, M.Dulatov, H.Dostmuhammedov, J.Dostmuhammedov, İ.Kaynakov, B.Alibekov, A.Turlubayev* kimi maarifçilərin dayandığı hərəkatçılar qazaxların yaşadığı yerlərdə təşkilatlanaraq I Ümumi Qazax qurultayını təşkil etdilər. Qurultayda *Alaş partiyası* təsis edildi. Qısa müddət sonra bu dəfə Alaş partiyasının təşkil etdiyi II Ümumi Qazax qurultayında *Alaş Orda Muxtar hökuməti*nin yaradıldığı elan olundu. *A.Sadıqov* rəhbərliyində Qırğızıstanda, mərkəzi Bişkekdə və Başqırdıstanda da təşkilatlanan bu hərəkat bolşeviklərin hakimiyyətə gəlməsinə qarşı ağqvardiyaçıların yanında yer aldılar. Alaş Orda hərəkatı 1920-ci ildə Qazaxıstan və Qırğızıstandan ayrılaraq öz müstəqilliyini elan etdi. Bu hərəkat 1928-ci ilə qədər davam etdi.

Rusiyada çarlıq rejiminin dağılmasından sonra Cənubi Qafqazda ortaya çıxan siyasi-hərbi boşluq və xaos durumunu, müstəmləkə şəraitində Azərbaycanın milli ordu və təhlükəsizlik qüvvələrinin hələ formalaşmadığını fürsətə çevirən milliyyətçi erməni qruplaşmaları təkrar hərəkətə

keçərək, Azərbaycanın müxtəlif bölgələrində müsəlman türklərə qarşı geniş qətliamlar, soyqırımı həyata keçirməyə başladı. Heç şübhəsiz ki, bütün bu faciəvi hadisələr "xalqların qardaşlığı" şüarı altında Cənubi Qafqazda çar rejimindən çox da fərqlənməyən müstəmləkə siyasəti izləməyə çalışan bolşeviklərin erməni-daşnak güclərinə verdiyi dəstəklə oldu.

Azərbaycan Cümhuriyyətinin müxtəlif millətlərin nümayəndələrindən olan hüquqşünasları cəlb edərək təşkil etdiyi Fövqəladə Təhqiqat Komissiyasının istintaq materiallarında da geniş şəkildə əks olunan bu terror hadisələrinin ən qanlısı 1918-ci ilin mart ayında Bakı şəhərində baş verdi. Şəhəri ələ keçirən düşmən qüvvələri başı bədəndən ayırmaq, Azərbaycanı Bakısız qoymaq niyyətində idi. Heç Şamaxı, Quba, Gəncə kimi böyük Azərbaycan şəhərlərində də vəziyyət fərqli deyildi. İşğal, müsəlman türk əhaliyə yönəlmiş diskriminasiya siyasəti davam edirdi. Birinci Dünya müharibəsindən sonra dünyada və Cənubi Qafqaz regionunda olduqca çətin geosiyasi vəziyyət yaranmışdı. Müharibədə Osmanlı dövlətinin müttəfiqi olan Almaniya belə İstanbuldan xəbərsiz bolşevik Rusiyası ilə gizli danışıqlara gedərək, Bakı neftindən pay almaq şərtilə Osmanlı və Azərbaycanın milli maraqlarına zidd bir Cənubi Qafqaz siyasəti izləməkdə idi. Belə bir mürəkkəb şəraitdə, çətin şərtlər altında Azərbaycan aydınları, milli komitə və cəmiyyətlərdə İstanbulla istişarələrə davam edərək, milli istiqlal mübarizəsini uğurla nəticələndirməyə çalışırdı. Gürcüstanın müstəqilliyini elan etməsi ilə Cənubi Qafqaz Demokratik Federativ Respublikası dağıldıqdan sonra, *28 May 1918-ci il* tarixində Tiflisdə toplanan *Azərbaycan Milli Şurası İstiqlal bəyannaməsi*ni qəbul etdi. 147 629 kv.km-lik ərazisi ilə Azərbaycan Türk dünyasında demokratik və dünyəvi rejimlə idarə olunan ilk respublika kimliyini qazandı. Ancaq müstəqillik Azərbaycana asan başa gəlmədi. Ölkədəki rus-erməni silahlı qruplaşmalarını təmizləmək



üçün Azərbaycan Cümhuriyyətinin rəhbərliyi Osmanlıdan hərbi yardım istədi. Osmanlı dövləti Azərbaycan, Dağıstan və eləcə də bütün Qafqaz müsəlmanlarını xilas etmək üçün hərəkətə keçdi. Ənvər paşanın qardaşı, 29 yaşı olmasına baxmayaraq, ciddi döyüş təcrübəsi, şücaət və mərdliyi ilə seçilən *Nuri paşa*nın rəhbərliyində təşkil olunan *Qafqaz İslam Ordusu*nun Gəncədən başlayaraq Dağıstana qədər davam edən çətin döyüşləri oldu. Azərbaycan və Türkiyə qardaşlığı cəbhələrdə daha da qüvvətləndi. *15 sentyabr*da Bakı və ətrafı işğalçı ünsürlərdən xilas edildi və Bakı milli cümhuriyyətin paytaxtı elan olundu. Ancaq Azərbaycan Cümhuriyyəti 2 il varlığını davam etdirə bildi. 28 aprel 1920-ci ildə Azərbaycan bolşeviklər tərəfindən işğal edildi.

Əsarət altında yaşayan türk xalqlarının milli mübarizəsi üçün də ana qərargah rolunu oynayan, bir neçə əsr boyunca üç qitədə hakimiyyət quran Osmanlı, Anadolu türklüyü isə bu dövrdə imperialist dövlətlərin əsas hədəfi halına gələrək ölüm-qalım savaşı aparmaq məcburiyyətində qalmışdı. İtaliyanın Berlin konfransında imperial arzularını təmin edə bilməməsi 1911-ci ildə bu dövlətin Osmanlıya müharibə elan etməsinə səbəb olmuş, Liviya torpaqları, Trablusqərb uğrunda gedən bu müharibə Liviya ilə Osmanlı dövləti arasındakı Misirə ingilislər hakim olduğu üçün Osmanlının əleyhinə nəticələnmiş, xalqın işğala qarşı müqavimətini təşkil etmək üçün mülki qiyafədə Liviyaya gedən Mustafa Kamal Atatürk, Ənvər paşa kimi zabitlərin də fədakarlıqları arzuedilən müsbət nəticəni gətirə bilməmişdi. Bu müharibədə Osmanlı donanmasından güclü olan İtaliya donanması Rodos adası da daxil olmaqla, Egey dənizindəki 12 adanı işğal etdi. Osmanlı torpaqlarını bir-bir ələ keçirməyi hədəfləyən İngiltərə, Rusiya və Fransa kimi ölkələr bütün istiqamətlərdə İstanbul üzərindəki təzyiqlərini artırmağa, dövlətin xristian təbəəsini üsyan və xəyanətə təşviq edərək, təşkilatlandırmağa davam



*Həsən bəy Ağayev*
*Azərbaycan Cümhuriyyətinin*
*Parlamentinin sədr müavini*



*Fətəli xan Xoyski*
*Azərbaycan Cümhuriyyətinin*
*ilk Baş naziri*



*Nəsib bəy Yusifbəyli*
*Azərbaycan Cümhuriyyətinin*
*ikinci Baş naziri*



*Səməd ağa Mehmandarov*
*Azərbaycan Cümhuriyyətinin*
*Hərbiyyə naziri*





*Nuri paşa*
*Killigil*



*Mustafa Kamal*
*Atatürk*

edirdi. Bu imperialist dövlətlərin aktiv dəstəyi ilə 1911-ci ilin sonu, 1912-ci ilin başlanğıcında başda Bolqarıstan, Serbiya, Yunanıstan və Qaradağ olmaqla, Balkan ölkələri Osmanlıya qarşı ittifaq formalaşdıraraq çox ağır tələblər irəli sürdülər. Tələb edilən ağır islahatlara nəzarət prosesinə böyük dövlətlərlə birlikdə Osmanlının vaxtı ilə vilayətləri olan bu Balkan ölkələrinin də qoşulması kimi təhqiredici maddələr ehtiva edən şərtləri əlbəttə İstanbulun qəbul etməsi mümkün deyildi. 1911-cil il 17 oktyabr tarixində əvvəlcə Serbiya və Bolqarıstan, sonra da digər Balkan ölkələri Osmanlıya müharibə elan etdi. Osmanlı İtaliya ilə təcili bir sülh sazişi imzalamaq məcburiyyətində qaldı. Silah və təchizat baxımından qarşı-qarşıya qalınan problemlər, məhdud imkanlarla cəbhələrdən-cəbhələrə atılmaq, müharibələrdən-müharibələrə girmək məcburiyyətində qalan Osmanlı dövlətinin yaşadığı iqtisadi çətinliklər, ordunun psixoloji çöküntüsü Birinci Balkan müharibəsində də ağır məğlubiyyətə, düşmən ordularının Ədirnəyə qədər gəlib

çıxmasına səbəb oldu. Xoşbəxtlikdən Balkan ölkələri işğal etdikləri Osmanlı torpaqlarını öz aralarında bölüşə bilmədikləri üçün Bolqarıstanla müttəfiqləri arasında müharibə başladı və Osmanlı dövləti də İkinci Balkan müharibəsini fürsətə çevirərək Midyə-Enez xəttinə doğru hərəkət etdi və Ədirnəni işğaldan azad etdi. Dünyadakı geosiyasi qütbləşmənin yaratdığı məcburiyyət, Balkan müharibəsinin itkilərini təkrar geri qazanmaq arzusu Osmanlı dövlətini qarşı duran ittifaqlardan birini seçmək, beləliklə, dağıdıcı Birinci Dünya müharibəsinə daxil olmağa yönəltdi. İngilislərin təqibi altında olan Almaniyanın Vilhelm Suşon *(Wilhelm Anton Souchon; 1864-1946)* komandanlığındakı Goeben və Breslau gəmilərinin Çanaqqala boğazından içəri alınması, ad dəyişikliyinə gedərək Yavuz və Midilli olan bu gəmilərin daha sonra Odessa və Sevastopolu bombalaması ilə Osmanlı müharibəyə daxil oldu. Bu müharibə eyni zamanda Osmanlının tam müstəqillik mübarizəsi, bütün imperialist məcburiyyətləri hərbi-siyasi cəbhələrdə bərtərəf etmə müharibəsiydi. Təsadüfi deyil ki, 1914-cü ilin sonlarında Osmanlı ilk olaraq istismarçı quruluşun, müstəmləkə siyasətinin simvolu halına gələn bütün kapitulyasiyaları ləğv etdiyini dünyaya elan etmişdi.

Müharibələr tarixinə yazılan, türk millətinin bütün varlığı boyunca qürur duyacağı Çanaqqala müharibəsi böyük dövlətlərə türklərin istiqlal və azadlıqlarına nə qədər düşkün olduqlarını, nə qədər güclü donanmaya sahib olurlarsa-olsunlar, Çanaqqala milli iradəsinin möhkəmliyini, keçilməzliyini ortaya qoydu. Çanaqqalada sərgilənən möhtəşəm direniş çarlıq Rusiyasının dağılma prosesini sürətləndirdi, Bolqarıstanın müttəfiq dövlətlərin səfində müharibəyə daxil olmasına səbəb oldu. Müstəmləkə şəraitində olmaları Balkan müharibələri və Çanaqqala müdafiəsi zamanı Azərbaycan və Türküstan müsəlmanlarının könüllülər qismində Osmanlı səfində döyüşmələrinə mane olmadı. Xüsusilə Azərbaycan aydınları və milli





*Çanaqqala Şəhidləri abidəsi*

burjuaziyanın təmsilçiləri, siyasi komitə və cəmiyyətlər Qafqaz cəbhəsində yaşanan Sarıqamış məğlubiyyəti sonrasında ruslar tərəfindən əsir götürülən Osmanlı əsgərlərinə yardım etmək, işğal edilən Şərqi Anadolu vilayətlərindən erməni dəstələrinin vəhşiliklərinə məruz qalaraq Azərbaycana qaçan insanları himayə etmək, döyüş bölgələrində qalan yetim uşaqları gətirərək Bakı, Gəncə kimi şəhərlərdə açdıqları yetimxanalara yerləşdirməklə böyük bir səfərbərlik həyata keçirdilər. Bu fəaliyyətlərinə görə H.Z.Tağıyev, M.Nağıyev kimi şəxsiyyətlər Osmanlı dövlətinin yüksək dövlət medalları ilə təltif edilmiş, Ə.Ağaoğlu kimi Azərbaycan və Anadolu arasında sarsılmaz körpü vəzifəsini icra edən aydınlara istisnai hal kimi, həm də Osmanlı vətəndaşlığı verilmişdir. Birinci Dünya müharibəsində Osmanlı ordusunun qazandığı parlaq zəfərlərdən biri də 1916-cı ilin aprel ayında Kutül-Amarədə əldə edilmişdi. Xəlil paşanın komandanlığı altındakı Osmanlı qoşunu general Taunşend *(C.Townshend)* başda olmaqla, 13 min 300 nəfərlik ingilis ordusunu tamamən əsir almışdır. Birinci Dünya müharibəsi zamanı baş verən ən önəmli hadisələrdən biri də cəbhə bölgələrində yaşayan, silahlı

üsyan qaldıraraq, düşmən dövlətlərlə əməkdaşlıq edərək, Osmanlı dövlətini kürəyindən xəncərləməyə çalışan ermənilərin 27 may 1915-ci il tarixində alınan bir qərarla başqa bir Osmanlı torpağı olan Suriya və İraq ərazilərinə köçürülmələri olmuşdur. Çanaqqala və İraq cəbhələrindəki uğurlara baxmayaraq, 1917-ci ildə Bolşevik inqilabının baş verməsi nəticəsində Rusiyanın müharibədən çıxması ilə meydana gələn boşluğu Amerikanın ixtilaf dövlətləri səfində müharibəyə girməsi ilə doldurması, Almaniyada genişlənən tətil və etiraz dalğalarının, Qərb cəbhəsindəki məğlubiyyətlərin gətirdiyi bezginlik müharibənin gedişatını müəyyənləşdirmiş, Osmanlı dövləti üçün də məğlubiyyət qaçınılmaz olmuşdur. 30 oktyabr 1918-ci il tarixində Limni adasının Mondros (Mudros) limanında İngiltərə ilə Osmanlı arasında çox ağır şərtlər ehtiva edən, Azərbaycandakı Qafqaz İslam Ordusu birliklərinin də geri çağrılmasına səbəb olan bir atəşkəs müqaviləsi imzalanmış, bu tarixdən etibarən Türkiyənin işğala qarşı dirəniş və tam müstəqillik mübarizəsi M.K.Atatürkün rəhbərliyi altında yeni bir mərhələyə daxil olmuşdur.

Mustafa Kamal Atatürk İstanbulda sultan Vəhdəddinlə görüşdükdən sonra, 19 may 1919-cu il tarixində 9-cu Ordu müfəttişi kimi Bandırma gəmisi ilə Samsuna yola çıxmış, bu gediş Türkiyə milli müqavimət hərəkatının təşkilatlı bir şəkildə genişlənməsinə səbəb olmuşdur. O, əvvəlcə Amasiyada ordu generalları ilə durum dəyərləndirməsi həyata keçirmiş, ölkəni işğaldan xilas edərək tam müstəqilliyə nail olmanın planlarını çizmişdir. Generalların formalaşdırdığı müştərək iradə bəyanına görə, hərbi birliklər heç bir halda ləğv edilməyəcək, silah-sursat təhvil verilməyəcək, milli cəmiyyətlər fəaliyyətlərinə davam edəcək və ordu-millət birliyi ilə ölkənin qurtuluşu təmin ediləcəkdi. Bu toplantıda milli iradənin bütün dünyaya sərgilənməsi üçün Sivasda ölkənin hər tərəfindən gələcək nümayəndələrin iştirakı ilə ümummilli qurultayın təşkil edilməsi qərarı alınmışdı.



Əvvəlcə Şərqi Anadoludakı milli müdafiə cəmiyyətlərindən geniş təmsilçilərin iştirakı ilə Ərzurumda konfrans keçirildi. Şərqi Anadolu Hüquq Müdafiə Cəmiyyətinin yaradıldığı, heç bir halda Şərqi Anadolunun Osmanlıdan qoparılmasına imkan verilməyəcəyi, xrsitian azlıqlara ictimai nizamı pozacaq yeni imtiyazlar tanınmasının qəbul edilməyəcəyi, təzyiq altında Osmanlı dövləti bölgəni tərk etmək məcburiyyətində qalarsa, bölgədə yeni milli hökumətin formalaşdırılacağı bəyan edildi. Ərzurum konfransında alınan qərarlardan biri də Məclisi-Məbusanın təcili toplanması yönündə edilən çağırışdı. Şərqi Anadolu Hüquq Müdafiə Cəmiyyətinin idarə heyəti də formalaşdırıldı və Mustafa Kamal paşa başqan seçildi. Ərzurum konfransı regional xarakter kəsb edən bir konfrans idi. 4 sentyabr 1919-cu il tarixində isə Sivasda növbəti və ölkənin müxtəlif bölgələrindən təmsilçilərin iştirak etdiyi başqa bir konfrans işinə başladı. Geosiyasi dəyişmələrlə bağlı müxtəlif mülahizələrə, ölkənin gələcəyi ilə bağlı fikir ayrılıqlarına baxmayaraq, Sivas konfransı Ərzurumda qəbul edilən qərarları mənimsəyərək, eyni milli xətt və iradəni ortaya qoydu. Bu dəfə bütün ölkə miqyasında fəaliyyət göstərəcək Anadolu və Rumeli Hüquq Müdafiə Cəmiyyətinin yaradılması qərara alındı. Mustafa Kamal Atatürk bu Cəmiyyətin təmsil heyətinin də başqanı seçildi. Artıq Atatürkün liderliyi ilə Anadoluda milli qurtuluş hərəkatı başlamışdı. Bu proseslə paralel olaraq Osmanlı dövlətinin ali qanunverici orqanı olan Məclisi-Məbusan da 28 yanvar 1920-ci il tarixində son dəfə toplanaraq, eyni milli iradəni ortaya qoydu. Toplantıda Misaki-Milli adlandırılan mühüm bir sənəd qəbul edildi. Bu sənəd demokratik-milli hərəkatın imperatorluq sonrası Türkiyənin milli-coğrafi sərhədlərinin necə formalaşması ilə bağlı baxışlarını da ortaya qoymuşdur. Məclisi-Məbusanın bu milli iradə bəyanı, ölkə sərhədləri ilə bağlı mövqeyi Atatürkün də istədiyi bir məsələ idi. Milli qüvvələr bu şəkildə ölkənin xilası ilə bağlı

çarə arayışı içərisində ikən 22-23 dekabr 1919-cu il tarixində ingilis və fransızlar da Londonda toplanaraq, Osmanlının gələcəyini, imzalanacaq sülh müqaviləsinin şərtlərini müzakirə etmiş və İstanbulun türklərdən alınmasına qərar vermişdilər. Bu müzakirələrdə Osmanlının yeni paytaxtı kimi fransızlar Konyanı, ingilislər Bursanı təklif etmişdilər. Toplantı ilə bağlı məlumatlar mətbuatda da əks olununca, bu vəziyyət başda sultan Vəhdəddin olmaqla, dövlətin və cəmiyyətin geniş təbəqələrinin etirazlarına səbəb olmuşdu.

İstanbulda gündən-günə nəzarəti gücləndirərək sultanı, hökuməti təsir dairələrində saxlamağa çalışan ittifaq dövlətləri Kuvayi-Milliyyəyə yardım etdikləri üçün Müdafiə naziri Camal paşa ilə Baş Qərargah rəisi Cavad paşanın istefasını istədilər. Mustafa Kamal paşanın mövqeyi paşaların istefa etməmələri, müqavimət göstərmə yönündə olsa da, Camal və Cavad paşalar vəzifələrini tərk etmək məcburiyyətində qaldılar. Şübhəsiz, ittifaq dövlətləri öz iradələrini qəbul etdirəcəkləri, təslimçi sülhə imza atacaq, Kuvayi-Milliyyəni, Atatürkün rəhbərliyi altında genişlənən qurtuluş hərəkatını xalqın gözündə etibardan sala biləcək bir hökumət arayışında idi. Hökumət başçısı olaraq bu kriteriyalara cavab verəcək ən uyğun namizəd isə Damad Fərid paşa görünürdü. Onsuz da işğal altında olan İstanbulda 16 mart 1920-ci il tarixində həyata keçirilən həbslər, şiddətlənən təzyiqlər, Məclisi-Məbusanın bağlanması və s. kimi dərinləşdirilən işğal rejimi tədbirləri ölkənin qurtuluşu ilə bağlı bütün ümidləri Ankaraya çevirdi. Atatürk Məclisin Ankarada toplanması üçün hərəkətə keçdi. 23 aprel 1920-ci il tarixində TBMM işinə başladı və Milli Qurtuluş Hərəkatına da rəhbərlik edəcək Qazi Məclisin ilk başqanı seçildi. İngilislərin yönləndirmə və təhrikləri ilə İstanbuldakı Damad Fərid hökuməti Ankara mərkəzli təşkilatlanan milli iradənin qarşısını almaq üçün hərəkətə keçdi. Şeyxülislam Dürrizadə bir fətva hazırlayaraq Kuvayi-Milliyyə hərəkatının xəlifəyə qarşı üsyan təşəbbüsü olduğunu, onlara qarşı mübarizə aparanların şəhid və ya qazi olacağını iddia etdi. Divani-Hərb məhkəməsi də Mustafa Kamal paşa və silahdaşlarını qiyabən mühakimə edərək, haqlarında edam hökmü çıxardı. May ayında isə Ankara müftisi Rıfat Börəkçi bir fətva yayınlayaraq qarşı tərəfi milli maraqlara xəyanət etməkdə ittiham etdi. İngilis-fransız ittifaqının arzuladığı daxili müharibə reallaşmaq üzrəydi. İstanbul hökuməti Kuvayi-Milliyyəyə qarşı Süleyman Şefik paşa komandanlığında Kuvayi-İnzibati və ya başqa adı ilə Xilafət Ordusunu formalaşdırmağa çalışdı. Əli Fuad paşanın komandanlığı altındakı Kuvayi-Milli birlikləri Geyvədə onları dayandıraraq məğlub etdi.

İtaliyanın San Remo şəhərində toplanan ittifaq dövlətləri Osmanlı dövlətinə təklif edəcəkləri biyabırçı sülh müqaviləsinin də müddəalarını hazırlayaraq Paris Sülh Konfransına gələn Tofiq paşaya təqdim etdilər. Tarixşünaslıqda Sevr müqaviləsi adlandırılan bu müqavilənin şərtləri aşağıdakı kimidir:

1. Şərqi Trakiya Yunanıstana verilir. İzmir-Manisa-Ayvalıq bölgəsi də hazırlıqlar tamamlanaraq, 5 il sonra Yunanıstanın tərkibinə daxil edilir;
2. Türkiyə ərazilərini də içərisinə alan Ermənistan dövlətinin sərhədləri çizilərək, tanınması təmin edildikdən sonra Şərqi və Cənub-şərqi Anadolunun qalan hissəsində də istədiyi vaxt müstəqilliyini elan edə biləcək bir Kürdüstan dövləti qurulacaq;
3. Boğazların idarəsi İstanbulda yerləşən, özünün polis qüvvəsi, bayrağı olan Beynəlxalq Boğazlar Komissiyasına veriləcək. Osmanlının İstanbulda, Çanaqqalada hərbi birliklər saxlamaq haqqı olmayacaq;
4. Antalya-Afyon-Balıkəsir-Aydın-Muğla zolağı İtaliyanın təsir dairəsinə veriləcək;
5. Mardin-Urfa-Antep-Ceyhan bölgəsi fransız kolonial idarəsi altındakı Suriyanın olacaq;

6. Saraydakı mühafizə birlikləri, daxili qoşun da daxil olmaqla, Osmanlı silahlı qüvvələrinin sayı 50700 nəfəri keçməyəcək;

7. Kapitulyasiyalar təkrar bərpa ediləcək;

8. Osmanlı maliyyə-pul siyasəti İngiltərə-Fransa-İtaliya koalisiyasının formalaşdıracağı maliyyə komissiyasının nəzarətində həyata keçiriləcək;

9. Mondros (Mudros) atəşkəsinin yeddinci maddəsi qüvvədə qalacaq və ixtilaf dövlətləri istədikləri bölgələri işğal etmək haqqına sahib olacaq.

Alçaldıcı Sevr müqaviləsini Osmanlı dövlətinə qəbul etdirə bilmək üçün Yunanıstandan təzyiq vasitəsi kimi istifadə edilməsinə qərar verildi. 22 iyun 1920-ci il tarixində yunan ordusu hücum edərək Qərbi Anadolunun böyük bir hissəsini işğal etdi. 10 avqustda Osmanlı təmsilçiləri Rza Tevfik, Rəşad Xalis və Hadi paşa Paris Sülh Konfransında bu təhqiredici müqaviləni imzaladılar. Tarixçilər o anı türk tarixinin ən qaranlıq anlarından biri olaraq qeyd edirlər. İmperialistlər türk millətini sadəcə Balkanlar, Yaxın Şərq bölgəsindən deyil, Anadoludan da çıxarmaq istədiklərini bu müqavilə şərtləri ilə ortaya qoydular.

Ancaq Atatürkün liderliyində Ankaraya cəmləşən milli istiqlalçı qüvvələr, türk millətinin heç bir zaman belə alçaldıcı şərtlər altında yaşamağa razı olmayacağına inanan paşalar sürətli bir şəkildə nizami ordu formalaşdıraraq, müqavimət cəbhəsini səfərbər edərək, istiqlal müharibəsinə başladılar. 1921-ci il 6-10 yanvar tarixlərində Əskişəhərdə baş verən türk-yunan döyüşlərində türk ordusu zəfər qazandı. Atatürk cəbhəsinin istiqlal və tam müstəqillik yolunda qəti iradəsinin getdikcə güc qazandığını görən ingilislər sülh müqaviləsilə bağlı şərtləri bir az yumuşaldaraq TBMM təmsilçilərinin də İstanbul hökuməti ilə birlikdə danışıqlarda iştirak etməsini istədilər. TBMM hökuməti yaranan yeni geosiyasi reallıqlar çərçivəsində Sovet Rusiyası ilə əməkdaşlığı inkişaf etdirərək hərbi-diplomatik müstəvidə mövqeyini bir az daha gücləndirmiş oldu. Sakarya Meydan müharibəsi və Böyük Hücum əməliyyatlarında türk ordusunun zəfər əldə edərək ölkə torpaqlarını işğalçılardan təmizləməsi, ittifaq dövlətlərinə sarsılmaz iradəsini göstərməsi Mudanya atəşkəs müqaviləsinin imzalanması ilə nəticələndi. 1 noyabr 1922-ci il tarixində TBMM-in qərarı ilə səltənət rejimi ləğv edildi. Osmanlı xanədanı xəlifəlik səlahiyyətlərinə davam edəcək, ancaq xəlifənin xanədandan kimin olacağına da TBMM qərar verəcəkdi. Sultan Vəhdəddin səltənət rejiminin ləğv edilməsindən 15 gün sonra ingilis generalı Harrinqtona məktub yazaraq, İngiltərənin himayəsini istədi. 17 noyabrda o, ailəsi ilə birlikdə ingilis gəmisində İstanbulu tərk etdi. TBMM toplanaraq Əbdülməcidi onun yerinə xəlifə seçdi. 20 noyabr 1922-ci il tarixində İsveçrənin Lozanna şəhərində İsmət İnönünün rəhbərlik etdiyi TBMM heyəti ilə ittifaq dövlətləri arasında yeni şərtlərlə sülh müqaviləsini müzakirə etmək üçün Lozanna konfransı işinə başladı. Uzun sürən danışıqlardan sonra Lozannada sülh müqaviləsi imzalandı. *29 oktyabr 1923-cü il* tarixində isə *TBMM tərəfindən* cümhuriyyət rejiminə keçildiyi, *Türkiyə Cümhuriyyəti*nin qurulduğu dünyaya elan edildi. Yeni rejimi istəməyən, Osmanlı səltənətinin ləğv edilməsini qəbul etməyən qüvvələr İstanbuldakı xəlifəyə ümid bağlayınca, 3 mart 1924-cü il tarixində xəlifəlik də TBMM tərəfindən ləğv edildi. Osmanlı xanədanının bütün mənsubları xaricə sürgün edildi.

# ƏLAVƏ OXU

## XII.I. Ədəbiyyat


• Akçura Yusuf, *Üç Terzi Siyaset*, Ankara: TTK Yayınları, 1976.

• *Alaş Orda (Sbornik dokumentov)*, sost. N.Martınenko, Alma-ata: Ilm, 1992.

• Balayev Aydın, *Azərbaycan Cümhuriyyətinin doğuşu, 1917-1918-ci illər milli mücadələri*, Bakı: Kitab klubu nşr, 2022.

• Buşev P.P., *Posolstvo Aremiya Volınskoqo v İran v 1715-1718 qq*, Moskva 1978.

• Devlet Nadir, *Rusiya Türklerinin Milli Mücadele Tarihi (1905-1917)*, Ankara: TTK Yayınları, 1999.

• Gökalp Ziya, *Türkçülüyün esasları*, İstanbul: Ötüken, 2014.

• Hayıt Baymirza, *Türkistan Devletlerinin Milli Mücadeleleri Tarihi*, Ankara: TTK Yayınları, 1995.

• Hüseynzadə Əli bəy, *Seçilmiş əsərləri*, Bakı: Çaşıoğlu, 2008, c. I.

• Khazanov Anatoly M., *Göçebe ve Dış Dünya: Geçmiş, Gelecek ve Şimdiki hali üzerine mukayise*, Çeviren: Ömer Suveren, Redaksiyon Osman Osmancıklı, İstanbul: Doğu Kütüphanesi, 2015.

• Qorelik M.V., "*Musulmanskiy papa na Moskovskom prestole (Şapka Kazanskaya İvana IV Qroznoqo iz orujeynoy palatı)*", Peterburqskie slvaynaskie i balkanskie issledovaniya, 2014, No: 2, İyul-Dekabr, s. 141-147.

• Ortaylı İlber, *İmparatorluğun en uzun yüzyılı*, İstanbul: Kronik Yay, 2018.

• Pagden Anthony, *Avropa fikri*, Çeviren Rahmi Öğdül, Mesut Varlık, İstanbul: Ayrıntı Yay, 2010.

• *Poslannik Petra I na Vostoke. Posolstvo Florio Beneveni v Persiyu i Buxaru v 1718-1725 qodax*, Moskva: Qlavnaya redaktsiya vostoçnoy literature izdatelstva Nauka, 1986.

• Dr.Telman Nusretoğlu, *Osmanlı Hariciyyesinin Güney Kafkasya Raporları (1852-1914)*, Berikan Yayınevi, Ankara, 2021.

• Dr.Telman Nusretoğlu, *Azerbaycanda Rus Kilisesi ve Rusculuk Faaliyyetleri (1828-1905)*, Ötüken Yayınevi, İstanbul, 2017.

• Sına Akşin, *Kısa Türkiye Tarihi*, Türkiye İş Bankası Kültür Yayınları, İstanbul, 2017.


## XII.II. Suallar

1. Türklər arasında yayılan müasir elmi-fikri cərəyan olan cədidçilik nədir?
2. Türkçülük və Turançılıq nədir?
3. Osmanlı və Qacar dövlətlərində başlayan müasirləşmənin başlıca səbəbləri nələr idi?
4. Misaki-Milli nədir?

## XII.III. Tapşırıqlar

1. İslamçılıq ideologiyasının yaranması və məqsədlərini açıqlayın
2. Rusiya Müsəlmanları ittifaqının yaranması və məramı haqqında fikirlərinizi açıqlayın
3. Müstəqillikdən sonra Azərbaycan Cümhuriyyəti haqqında yazılan əsərlər haqqında biblioqrafik çalışma hazırlayın.
4. Əli bəy Hüseynzadənin "Seçilmiş əsərləri"ndə yer alan türkçülük düşüncəsi haqqında başlıca əsərləri oxuyub təhlil edin.
5. Qafqaz İslam Ordusunun formalaşması və apardığı əsas döyüşlər haqqında təqdimat hazırlayın.
6. Ərzurum və Sivas konfransları haqqında məlumat verin.

# AÇIQLAMALI MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT SİYAHISI

## I. MIXI YAZILI KİTABƏLƏR

Şəkil yazısı e.ə.IV minilliyin sonlarından etibarən Şumer dövlətində mixi yazıya çevrilmiş və bir neçə min il boyunca yazı tərzi olaraq davam etmişdi. Hind-avropalı olmayan və türklərlə əlaqələri olduğu ehtimal edilən şumer, kuti, lullubi, subar və hurri xalqları haqqında ilk mixi yazılı kitabələr e.ə.XXIII əsrə aiddir. Bu məlumatlarda Anadolu, Azərbaycan əraziləri geniş təsvir olunmuşdur.

Mixi yazılı kitabələrin öyrənilməsinə və oxunmasına XIX əsrdən etibarən başlanılıb. Qafqaz və Anadolu haqqında mixi yazılı kitabələrin ilk tədqiqatçıları İ.M.Dyakonov, Q.A.Melikişvili hesab edilir.

1925-ci ilə qədər tapılan assur hökmdarlarının kitabələrini külliyyat halında nəşr edən D.D.Lukanbill *(Daniel David Luckenbill; 1881-1927)* əsərində ən qədim türklərlə (skif) bağlı məlumatlar vermişdir. Kimmerlər və skiflər haqqında materialları əsasən A.Heydel nəşr etmişdir.

- Dyakonov İ.M., “*Assiro-vavilonskie istoriçeski po istorii Urartu*”, Vestnik drevney istorii, M. 1953, N: 2-3.
- Melikişvili Q.A., *Urartskie Klinoobraznıe nadpisi*, M. 1960.
- Luckenbill D.D., *Ancient Records of Assyria and Babylonia*, Chicago 1926-1927, I-II.
- Heydel A., *A New Hexagonal Drism of Esarhaddon*, Sumer, XII, 1956.
- Kameron G.G., *The Annals of Salmaneser III, King of Assyria*, Sumer, VI, 1950.
- Sags N.F.V., *The Nimrud Letters*, Irag, XX, N: 2, 1958.
- Levine L.D., ‘*Two Neo-Assyrian Stelee from İran*’, Royal Ontario Museum, 23, 1972.
- König F.W., *Handbuch der chaldischen Inschriften*, Graz 1955-1957, I-II.
- Muscarella O.W., *Qalatgah: An Urartian Site in Northwestern Iran*, Expedition, 1971, Maveraünnehr 3-4.
- Warren B.S., ‘*Two Urartion Inscriptions from Azerbaijan*’, JCS, XIX, 2, 1965.
- Kaşkay S., *Manna Dövleti*, Bakı 1993.






## II. ANTİK DÖVR MƏNBƏLƏRİ

**Herodot**: Bu mənbələrin ilki Herodotun müəllifi olduğu “*Tarix*” əsəridir. E.ə.484-e.ə.425-ci illərdə yaşayan Herodot öz əsərində Qafqaz, Pers və İşquziya ərazisindəki xalqların və dövlətlərin tarixinə geniş yer verib. Onun əsəri Skiflər haqqında verdiyi geniş məlumatlar baxımdan çox qiymətlidir.


- Qerodot, *İstoriya*, L. 1972, M. 1985.
- Herodot, *Tarih*, çev.: M.Ökmen, İstanbul 2007.


**Strabon**: Böyük İskəndərin Şərqə səfərindən sonra yunan tarixçilərinin bölgəyə marağı daha da artmışdı. Bu məqsədlə Qədim Yunanıstanda coğrafiya əsərləri yazılmağa başlandı. Belə əsərlərdən biri də Stabonun “*Coğrafiya*” əsəridir. E.ə.64-e.24-cü illərdə yaşayan Strabonun əsərində Anadolu və Qafqazla yanaşı, ona qonşu ölkələrin də coğrafi təsvirləri yer alır.


- Strabon, *Qeografiya*, 17 knigax, perev.: Mişenko F.G., Moskva 1879; Stratonovskoqo Q.A. nşr., Moskva 1964.

• Strabon, *Geographika (Antik Anadolu Coğrafyası)*, Kitap XII-XIII-XIV, Çev.: Adnan Pekman, İstanbul: Arkeoloji ve Sanat Yay, 2000.

**Ptolomey**: 100-170-ci illərdə İskəndəriyyədə yaşamış coğrafiyaçı-astronom və filosof olub, müsəlman coğrafiyaçılara dərin təsir etmişdir. Əsəri coğrafiyaya aid olub, coğrafiyaya dair məlumatları Strabonun məlumatları ilə eynidir.

• Ptolemey K., *Qeoqrafiçeskoye rukovodstvo*, Per.: V.V.Latışeva, VDİ, 1948, t. I-II.

• Ptolemaei Claudü, *Geographiae*, ed.: J.F.Fischer, Leyden 1932, I-IV.

• Klaudios Ptolemaios, *Coğrafya el kitabı*, Kollektif, İstanbul: Boyut Yayınları, 2015, c. I-II.

**Plini**: 24-79-cu illər arasında yaşamış romalı alim və filosof. Əsəri *"Təbiət tarixi"* adlanır. 36 kitabdan ibarət bu əsərin ancaq 4 cildi coğrafiyaya dairdir.

• Pliniy Starşiy, *Yestestvennaya istoriya*, Per. s. latin.: V.V. Latişeva, VDİ, 1949, N: 2.

**Arrian**: 89-160-cı illər arasında yaşayan antik dövr tarixçisi Nikomedialı Arrian "Anabasis" əsərinin müəllifidir. İskəndərin yürüşlərindən bəhs olunan əsərində Orta Şərq tarixi haqqında da məlumatlar mövcuddur.

• Arrian, *Anabasis Aleksandra*, Taşkent 1912.

• Arrian, *Podod Aleksandra*, Moskva - Leninqrad 1962.

**Ammian Marselli**: 330-400-cü illər arasında yaşamış Roma müəllifi olub, "Tarix" adlı əsərində hunlar haqqında qiymətli məlumatlar vermişdir.

• Ammianus Marsellinus, *Works*, Ed. by J.C.Rolfe, vol. 1–3, London 1950–1952; rusca tərcümə Y.A.Kulakovskoqo, Kiev 1906–1908, vıp. 1–3.

**Takiti**: 56-120-ci illər arasında yaşamış romalı tarixçi. Roma tarixi ilə bərabər ətraf bölgənin də tarixini şərh etmişdir. Əsərində Parfiya haqqında da məlumatlar mövcuddur.

• Tacitus, *The Anals of Tacitus, Books 1*-6, F.R.D.Goodyear, Cambridge: Cambridge University Press, 1972-1981.





# III. QƏDİM TÜRKCƏ MƏNBƏLƏR

**III.I. Orxon-Yenisey kitabələri**: *Orxan-Yenisey abidələri* və ya *Türk kitabələri*. Bu kitabələr türk dilinin ilk yazılı mənbələridir. XIX əsrin sonuna qədər bu əsərləri oxumaq mümkün olmayıb. 1890-cı illərdə danimarkalı və rus əsilli iki alim bir-birindən xəbərsiz həmin kitabələri oxumağa cəhd etdilər. İki il ərzində danimarkalı alim V.Tomsen dörd kəlməni (*tenqri*, türk, kül və *tigin*); rus alim V.V.Radlov isə 20 kəlməni oxudu. 1894-cü ildə V.V.Radlov Kültigin kitabəsini oxuyaraq, elə həmin ildə 50 nüsxə tirajla çap etdirir. Bir il sonra isə Yenisey abidələrini oxuyub, Kültigin abidəsi ilə birlikdə nəşr etdirdi. 1896-cı ildə isə V.Tomsenin "Kültigin abidəsi" adlı əsəri işıq üzü gördü. Buraya Çoyrən (688-692), Ongin (720), Küli Çor və ya İhə-Xüşötü (720-725), İhə-Aşetə (724), Tonyukuk (720-725), Kültigin (732) və Bilgə Xaqan (735) kitabələri daxildir.

**III.II. Türkcə daş kitabələr**: Tapıldıqları bölgələrə görə belə təsnif edilir:

| | | |
|---|---|---|
| 1 | Lena-Baykal bölgəsi | 26 kitabə |
| 2 | Yenisey bölgəsi | 184 kitabə |
| 3 | Monqolustan bölgəsi | 88 kitabə |
| 4 | Altay bölgəsi | 90 kitabə |
| 5 | Qırğızıstan bölgəsi | 41 kitabə |
| 6 | Qazaxıstan bölgəsi | 29 kitabə |
| 7 | Özbəkistan bölgəsi | 13 kitabə |
| 8 | Don-Kuban bölgəsi | 36 kitabə *(Donda 21, Kubanda 12, Don-Kubanda 3)* |
| 9 | Kağız üzərində yazılmış qədim türkcə əsərlər | 51 mətn. |

Ümumilikdə türkcə kitabələrin sayı 568-dir. Bu kitabələrə hər il yeniləri əlavə olunur.

| ***Qazaxıstanda tapılanlar*** | |
|---|---|
| 1 | Maral təsvirli sümük lövhə |
| 2 | Kərpic yazı (Sırdərya) |
| 3 | Palçıq möhür |
| 4 | İli ayna epiqrafı |
| 5 | Çambul muzeyində heykəl üzərində yazı |
| 6 | Kegən yazısı |
| 7 | İli çayı hövzəsi qalay üzüklər üzərindəki işarələr |
| 8 | Tamquluk daş qaya yazısı |
| 9 | Gümüş qab üzərində yazı |
| 10 | İrtış aynası üzərindəki yazı |
| 11 | Talqar qəsəbəsi ağırşak (Almatı yaxınlığında) |
| 12 | Qızılqum kitabəsi |



| ***Özbəkistan və Tacikistanda tapılanlar*** | |
|---|---|
| 1 | Kalai-kafir (İsfara I) |
| 2 | Kalai-Bolo I (İsfara II) |
| 3 | Kalai-Bolo II (İsfara III) |
| 4 | Qızıl-Pilyau (İsfara IV) |
| 5 | Oş-Xonadan fraqment |
| 6 | Marqelan ətrafında düyün üzərində yazı |
| 7 | Fərqanə şəhəri yaxınlığında keramika üzərində fraqment |
| 8 | Üzgən şəhəri yaxınlığında keramika üzərində fraqment |
| 9 | Beqovat şəhəri yaxınlığında qab üzərində yazı |
| 10 | Muqxonda qalay üzük üzərində yazı |
| 11 | Kuva-say çayı ətrafında, kasa sınığı üzərində işarələr |
| 12 | Kuva fraqment |
| 13 | Əndicanda düyün üzərində runik yazı |
| 14 | Kalai-kafirniqan yazısı I |
| 15 | Kalai-Kafirniqan yazısı II |
| 16 | Muğ dağı soğd əlyazmalı sənəd |

| ***Qırğızıstanda tapılanlar***: | | | |
|---|---|---|---|
| *(Qırğızıstanın şimalında)* | | | |
| 1 | Talas I | 10 | Talas X |
| 2 | Talas II | 11 | Talas XI |
| 3 | Talas III | 12 | Talas XII |
| 4 | Talas IV | 13 | Talas XIII |
| 5 | Talas V | 14 | Talas Ala-Too qaya epiqrafikası |
| 6 | Tasal VI | | |
| 7 | Talas VII | 15 | Koy-sarı |
| 8 | Talas VIII | 16 | Qaratal |
| 9 | Talas IX | 17 | Urcara, ayna üzərində yazı |

| | |
|---|---|
| *(Qırğızıstanın cənubunda)* | |
| 18 | Batkən-Ağtəpə yazı parçası |
| 19 | Qara-Beyit kurqanında daş |

| | |
|---|---|
| ***Şərqi Türküstanda (Çin Uyğur Muxtar Vilayəti) tapılanlar*** | |
| *Mağara-məbəd divarlarına və başqa materiallar üzərində yazılı mətnlər* | |
| 1 | Dun-huanqda 8-ci mağara-məbəddəki qrafiklər |
| 2 | Yar-Xoto buddist məbədindəki qrafiklər |
| 3 | Şərqi Türküstanda ayna |
| 4 | Turfan yaxınlığında mağara-məbəddəki qrafiklər |
| *İngiltərə Sir Aurel Stein kolleksiyasında 12 parçalı mətn* | |
| 1-3 | 8212/76 – Mirandan dörd kiçik fraqment (DTSİ şifrə ThS I) |
| 4 | 8212/77 – Dun-huanqdan fraqment II (DTSİ şifrə ThS III) |
| 5-9 | 8212/78 – Qədim atalar sözləri yazılı bir-birindən ayrı beş parçadan ibarət türk runik hərfli mətnlər |
| 10 | 8212/79 – yuxarıdakı 8121/78 nömrəli mətnin son parçası A üzündə 1, B üzündə 2 sətirlik türk runik hərfli mətn |
| 11 | 8212/104 – Səkkiz Yükməkdəki türk runik hərfli tək sətirlik yazı |
| 12 | 8212/161 – İrq Bitiq (Fal kitabı) |
| *Yaponiya Kont Ozani Kozui kolleksiyası (Ryukoku Universiteti)* | |
| 13 | No: 8129; Rusiya Federasiyası |
| 14 | Toyukda tapılan 6 sətirlik türk runik hərfli mətn |
| *Fransa Millət Kitabxanasında P.Pelliot Tibetcə fondu* | |
| 15 | No: 2132 |



| | |
|---|---|
| *Almaniya Berlin kolleksiyasında 34 parça türkcə mətn:* | |
| *A. Staatsbibliotekdəki mətnlər* | |
| 1 | Mz. 167 (T.I.D 20) |
| 2 | Mz. 169 (T.Ix21) |
| 3 | Mz. 171 (T.M.340) |
| 4 | Mz. 172 (T.M.330) |
| 5 | Mz. 173 (T.II.D.19) |
| 6 | Mz. 174 (T.II.D. 52-K) |
| 7 | Mz. 175 (T.M.337x) |
| 8 | Mz. 377 (T.II.T.20) |
| 9 | Mz. 383 (T.II.K) |
| 10 | Mz. 385 (T.M.337) |
| 11 | Mz. 386 (T.M.533) |
| 12 | Mz.387 (T.II.D.B.227) |
| 13 | Mz. 388 (T.M.326) |
| 14 | Mz. 400 (T.I) |
| 15 | Mz. 402 (T.M.337-339) |
| 16 | Mz. 403 (T.M.335-337) |
| *B. Museum für İndische-Kunst (MİK)-da yer alan mətnlər* | |
| 1 | T.M.327-MİK III 34a/b |
| 2 | T.II.T.20-MİK III 34B |
| 3 | MİK III 200b |
| *C. Akademie der Wissenschaften der DDR-də yer alan mətnlər* | |
| 1 | U.5 (T.M.342) |
| 2 | U.171 (T.M.T.20) a/b |
| 3 | 172 (T.II.D.67) |
| 4 | U.173 (…) |
| 5 | U.174 (T.M.336) a/b |
| 6 | U.175 (T.M.57-T.M.339) |

| | |
|---|---|
| 7 | U.176 (T.M.326?) |
| 8 | U.177 (T.M.341) |
| 9 | U.178 (T.M.328) |
| 10 | U.179 (T.M.334) |
| 11 | U.180 (T.M.331) |
| 12 | U.181 (T.II.Tx6) |
| 13 | M. … (T.M.407) |
| *Ç. İtmiş parçalar* | |
| 1 | T.II.T.14 (Toyok II (DTSL-yə görə şifrəsi ThB)) |
| 2 | T.M.332 |

| ***Monqolustanda tapılanlar*** | |
|---|---|
| 1 | Çöyr yazısı |
| 2 | Xangiday-had yazısı |
| 3 | Ongin kitabəsi |
| 4 | Köl-İç-Çor (İhə-Xüşötü) kitabəsi |
| 5 | İhə-Aşetə (Höl-Asqar) kitabəsi |
| 6 | İh Hanuy Nuur kitabəsi |
| 7 | Kültigin kitabəsi |
| 8 | Kültigin kitabəsi tısbağa heykəli üzərindəki yazı |
| 9 | Kültigin kitabəsindən iki işarəli daş |
| 10 | Tonyukuk kitabəsi |
| 11 | Tonyukuk xərabələrindəki suvaq üzərindəki yazılar |
| 12 | Bilgə Xaqan kitabəsi |
| 13 | Hoyto-Təmir kitabəsi I-X |
| 14 | Şivət Ulan runik işarəli yazılar |
| 15 | Moyun-Çur (Şinə-Usu) kitabəsi |
| 16 | Tez kitabəsi |
| 17 | Terh (Taryat) kitabəsi |
| 18 | Sevrey kitabəsi |
| 19 | Suci kitabəsi |
| 20 | Qarabalasaqun kitabəsi |
| 21 | Qurvan Mandal kitabəsi I-II |
| 22 | Bayan Ulgey Açit Nur kitabəsi |
| 23 | Qurvalcin Uul kitabəsi |
| 24 | Ər Xananqiy kitabəsi |
| 25 | Bəgər yazıları I-IV |
| 26 | Qutluq yazılı damğa kitabəsi |
| 27 | Runik hərfli sikkə |
| 28 | Züriyn ovoo kitabəsi (Somon-tes) |
| 29 | Tevş kitabəsi I-III |
| 30 | Hutaq Ula kitabəsi |
| 31 | Doloodoy kitabəsi (Ulankom) |
| 32 | Tömör Tsorqo yazısı |
| 33 | Har Tsaqaan Us yazısı |
| 34 | Açit Nuur kitabəsi I-II (Ovs Aymağı) |
| 35 | Kitab üzərində türkcə yazı (saxta yazı) |
| 36 | Darvi kitabəsi I-II (Tsaqan Tolqoy I-II) |
| 37 | Övör Dörvölji kitabəsi |
| 38 | Hanan had kitabəsi (Yamanı-Us) |
| 39 | Tsahit kitabəsi |
| 40 | Örük had kitabəsi |
| 41 | Raşaan had kitabəsi I-II (Hentey II-III) |
| 42 | Tsenher Mandal kitabəsi (Hentey I) |

| ***Dağlıq Altayda tapılanlar*** | |
|---|---|
| 1 | Katanda |
| 2 | Tuyaxta |

| | |
|---|---|
| 3 | Kuray I-II |
| 4 | Çarış |
| 5 | Mendur-Sokor I-V |
| 6 | Biçiktu-Boom I-III |
| 7 | Koş-Aqaç |
| 8 | Taldu-Ayrı |
| 9 | İnən |
| 10 | Jalqız-Tübe I-II |
| 11 | Kalbak daş I-XII |

| *Yenisey çayı ətrafında tapılanlar* | | | |
|---|---|---|---|
| 1 | Uyuk-Tarlak kitabəsi | 18 | Çaa Höl VI |
| 2 | Uyuk-Arxan kitabəsi | 19 | Çaa Höl VII |
| 3 | Uyuk-Turan kitabəsi | 20 | Çaa Höl VIII |
| 4 | Ottuk-daş I (Tuva V stelası) | 21 | Çaa Höl IX |
| 5 | Barık I | 22 | Çaa Höl X |
| 6 | Barık II | 23 | Çaa Höl XI |
| 7 | Barık III | 24 | Xaya-Bacı I |
| 8 | Barık IV | 25 | Xaya-Bacı II |
| 9 | Qara-suq kitabəsi | 26 | Xaya-Bacı III |
| 10 | Elegest I | 27 | Xaya-Bacı IV |
| 11 | Bərgə | 28 | Xaya-Bacı V |
| 12 | Aldıı-Bel I | 29 | Xaya-Bacı VI |
| 13 | Çaa Höl I | 30 | Xaya-Bacı VII |
| 14 | Çaa Höl II | 31 | Xaya-Bacı VIII |
| 15 | Çaa Höl III | 32 | Xaya-Bacı IX |
| 16 | Çaa Höl IV | 33 | Xaya-Bacı X |
| 17 | Çaa Höl V | 34 | Xaya-Bacı XI |



| | | | |
|---|---|---|---|
| 35 | Xaya-Bacı XII | 64 | Sülek II |
| 36 | Xaya-Bacı XIII | 65 | Taşoba |
| 37 | Xaya-Bacı XIV | 66 | Xemçik-Çırqakı |
| 38 | Xaya-Bacı XV | 67 | Bay-Bulun I (Minusinsk muzey kitabəsi) |
| 39 | Xaya-Bacı XVI | | |
| 40 | Xaya-Bacı XVII | 68 | Qızıl Çıraa I |
| 41 | Xaya-Bacı XVIII | 69 | Qızıl Çıraa II |
| 42 | Xaya-Bacı XIX | 70 | Köjeeliq-xovu |
| 43 | Xaya-Bacı XX | 71 | Telee |
| 44 | Xaya-Bacı XXI | 72 | Süci |
| 45 | Oznaçennoe I | 73 | Abakan çayı kənarında kitabə |
| 46 | Oçurı (Açurı) | | |
| 47 | Oya | 74 | Bay-Bulan II (Tuvada ilk kitabə) |
| 48 | Altın-Köl I | | |
| 49 | Altın-Köl II | 75 | Tuva B steli (Tuvada ikinci kitabə) |
| 50 | Uybat I | | |
| 51 | Uybat II | 76 | Tuva D steli (Tuvada üçüncü kitabə) |
| 52 | Uybat III | | |
| 53 | Uybat IV | 77 | Elegest II |
| 54 | Uzun-Oba I | 78 | Elegest III |
| 55 | Uzun Oba II | 79 | Ottuk daç kitabəsi III |
| 56 | Uybat V (Qara kurqan) | 80 | Tuva G steli |
| 57 | Tuba I | 81 | Malinovka |
| 58 | Tuba II | 82 | Sayqın (Borbak-Arıq) |
| 59 | Tuba III "Boqatır" | 83 | Kezək-Xuree |
| 60 | Tuba IV "Boqatır" | 84 | Xerbis-Baarı |
| 61 | Ak-yüz I (Toqus As I) | 85 | Sarqal-Aksı |
| 62 | Ak-yüz II (Toqus As II) | 86 | Suqluq-Adır-Aksı |
| 63 | Qara-yüs I (Sülek I) | 87 | Kanmuldıq-xovu |

| | | | |
|---|---|---|---|
| 88 | Ortaa-Xem | 108 | Ayna parçası III |
| 89 | Ottuk daş kitabəsi II | 109 | Ayna parçası IV |
| 90 | Qara-bulun I | 110 | Taş-tılsım oçırıdan |
| 91 | Qara-Bulun II (Baqır kitabəsi) | 111 | Taş Ağırçak I |
| | | 112 | Ağırşak damğa |
| 92 | Qara-Bulun III | 113 | Ovyur I |
| 93 | El-bacı | 114 | Obyur II |
| 94 | Çər-çarıq | 115 | Bedeliq Valun |
| 95 | Elegest IV (İr-xol) | 116 | Dəmir-suq |
| 96 | Podkuninskoe | 117 | Yur-Sayır I |
| 97 | Aldıı-Bel II | 118 | Yur-Sayır II |
| 98 | İymə | 119 | Xemçik-bom I |
| 99 | Samaqaltay | 120 | Xemçik-bom II |
| 100 | Kuten-Buluk | 121 | Xemçik-bom III |
| 101 | Ayna parçası I | 122 | Uybat VI |
| 102 | Ayna parçası II | 123 | Ortaa-tey |
| 103 | Pul I-II | 124 | Bayan-kol |
| 104 | Kəmər qayışından toqqa (Bellık kəndi) | 125 | Baykolovo |
| 105 | Kopyon-altın qabı I (qızıl su qabı) | 126 | Arjan II kurqanından tapılan yazılı tunc lövhə |
| 106 | Kopyon-altın qabı II (qızıl küp) | 127 | Arjan II kurqanından tapılan yazılı tunc lövhə II |
| 107 | Uybat VII (Uybat gümüş qab) | 128 | Oznaçennoe II və s. |

| *Yuxarı Baykal və Lena çayı sahilində tapılanlar* | |
|---|---|
| 1 | Petrovsk yazısı |
| 2 | Davıdovsk yazısı |



| | |
|---|---|
| 3 | Pısanıy adasındakı kitabə |
| 4 | Kurtuhay yazısı |
| 5 | Kök qadın kam |
| 6 | Koçuq yazısı |
| 7 | Saqan-zaba kəndi yazısı |
| 8 | Kiçik daş (Popovoy kəndindən 1 km uzaqda, Olxon rayonu) |
| 9 | Manxay qayası |
| 10 | Xrest kitabəsi |
| 11 | Xaştay |
| 12 | Ağırşak I |
| 13 | Ağırşak II |
| 14 | Aşağı Ungin qəsəbəsində aşıq sümüyü üzərindəki yazı |
| 15-16 | Siinə çayı mənsəbinin aşağısında runik işarələr |
| 17 | Daş alət üzərində yazı |
| 18 | Ussuriyskadan daş parça üzərində runik yazı |

| *Qafqazda tapılanlar* | | | |
|---|---|---|---|
| 1 | Mayatskoe I | 10 | Mayatskoe X |
| 2 | Mayatskoe II | 11 | Mayatskoe XI |
| 3 | Mayatskoe III | 12 | Mayatskoe XII |
| 4 | Mayatskoe IV | 13 | Mayatskoe XIII |
| 5 | Mayatskoe V | 14 | Mayatskoe XIV |
| 6 | Mayatskoe VI | 15 | Salsk-Tsaritsin |
| 7 | Mayatskoe VII | 16 | Krivyanskoe |
| 8 | Mayatskoe VIII | 17 | Kermen-Tolqa |
| 9 | Mayatskoe IX | 18 | Mayatskoe XV |

| | | | |
|---|---|---|---|
| 19 | Mayatskoe XVI | 28 | Humarinskoe VIII |
| 20 | Mayatskoe XVII | 29 | Humarinskoe X |
| 21 | Mayatskoe XVIII | 30 | Mayaki |
| 22 | Sedyar | 31 | Humarinskoe IX |
| 23 | Onoşat | 32 | Bilyar |
| 24 | Humarinskoe I, IV, V | 33 | Jitkov |
| 25 | Humarinskoe II, III | 34 | Blyudo-Soltıkova |
| 26 | Humarınskoe VI | 35 | Afanasyevo |
| 27 | Humarinskoe VII | 36 | Kirovo |

• Rəcəbov Ə., Məmmədov Y., *Orxon-Yenisey abidələri*, Bakı: Yazıçı, 1993.
• Orkun Hüseyn Namık, *Eski Türk Yazıtları*, Ankara: TDK Yayınları, 1994.





## IV. QƏDİM ÇİNCƏ MƏNBƏLƏR

**Çia-ku-ven:** Çin yazısı formalaşmamışdan əvvəl insanlar tısbağa qınına (çincə adı çia-ku-ven) və heyvan sümüklərinə işarə qoyurdular. Bu işarəli yazıların 5 mini günümüzə qədər gəlib çatıb.

**Banbu**: Tuncdan hazırlanmış lövhələr və bambu üzərinə yazılan qədim çincə yazılara verilən ad. Yazı üçün istifadə olunan material Hind qamışı da adlandırılan bambu (*bambusoideae*) ağacının qabıqlarından hazırlanırdı. Qədim çincə fal, şeir, təbabətə dair yazıların yer aldığı həmin ağacdan hazırlanmış material səbəbindən onlara Bambu kitabələri deyilir.

**Şih-çi:** Sima Tan və oğlu Sima Qian tərəfindən qələmə alınan "Şi-ki" (Şih-çi – Tarixi xatirələr) 130 fəsildən (hər fəsil bir kitab hesab olunur) ibarətdir. Əsər e.ə.104-e.ə.91-ci illər arasında yazılıb. Tarix külliyyatı hesab olunan əsərin 110-cu fəsli (*Hunlar haqqında müəyyən olunmuş hesabatlar* və ya *Hun təzkirəsi*) hunlar haqqındadır. Kitab çinlilərin əfsanəvi

hökmdarı Çin Şih-huanqdan başlayaraq Xan hökmdarı Vu-ti dövrünə qədər olan təqribən 2000 ildən artıq dövrü əhatə edir. Əsərin 8, 88, 99, 109, 111 və 112-ci fəsilləri də hunlardan bəhs edir. Hunların mənşəyi, tayfaları, vətənləri, ortaya çıxdıqları dövr, ümumilikdə qədim hunlar haqqında bütün məlumatların mənbəyi bu kitab hesab olunur.

**Xan-şu**: Hunlar haqqında ikinci mənbə dilimizdə "xannamə" şəklində səslənən "*Xan-şu*" dur. Əsər Xan dövlətinin rəsmi tarixidir. Kitab Qərbi və ya Birinci Xan imperiyasının *(e.ə.206-e.25)* tarixini əhatə edir. Əsərin müəllifi *Pan-ku (32-92)* adlı bir tarixçinin oğludur. Ehtimal ki, ömrünün son 20 ilini bu kitabın yazılmasına ayırmışdır. Amma Pan-ku kitabı tamamlaya bilməyib. Buna görə də əsəri onun bacısı Pan-çao və imperatorun tapşırığı ilə dövlət tarixçisi Ma-hsü başa çatdırıblar. Onlar əsəri 10 ilə tamamlamışlar. Ümumilikdə 110 fəsil (kitab) olan əsər hunlar haqqında ən qiymətli mənbədir. Kitabın 94-cü fəsli tamamilə hunlardan bəhs edər. Bu fəsil "Hunlar" və "Cənubi Hunlar" adı altında iki yerə ayrılır. Əsərin 96-cı fəslində (*Qərb ölkələri fəsli*) Kao-ti, onun arvadı Lü-hou, Ven-ti, Vu-ti və Hsüen-ti kimi imperatorların, Li-kuanq, Vei-ç`inq, Ho Ç`ü-pinq, Li-Kuanq-li və Çanq-çi`en kimi sərkərdələrin bioqrafiyasında da hunlar haqqında məlumat verilib. Amma əsərin orijinal nüsxəsi əlimizə keçməyib. Sui sülaləsi *(581-617)* və Tanq imperiyasının ilk illərində saray tarixçisi *Yan Şih-ku (581-645)* əsərə son şəklini vermişdir. Ona qədər bu əsər 23 tarixçi tərəfindən dəfələrlə şərh edilmiş və adların yazılışında çoxlu dəyişikliklər edilmişdir. Bu əlavələrdən sonra əsər 120 fəsildən ibarət tarix külliyyatına çevirilib.

**Hou xan-şu**: Şərqi və ya İkinci Xan imperiyasının *(25-220)* rəsmi tarixi isə "Hou xan-şu" (*Sonrakı xannamə*) adlanır. Əsər Sunq sülaləsi dövründə *(420-479)* tarixçilər *Fan-ye (398-445)* və *Tsu Ma-piao* tərəfindən yazılıb. Əsərin 30 fəslini Tsu Ma-piao, 90 fəslini isə Fan-ye yazıb. Kitabın 89-cu fəsli



hunlar haqqındadır. Bundan başqa, 90-cı fəsildə də hunlar haqqında xeyli məlumat verilib. Ayrıca, 19, 23, 40 və 47-ci fəsillərdə də hunlardan bəhs edilir. Əsər dəfələrlə düzəldilmiş və yeni əlavələrlə zənginləşmişdir. Bu əsərdə Şimali və Cənubi Hun dövlətlərinin tarixi öz əksini tapıb.

**Sunq-şu**: Göytürklər haqqında ilk çincə mənbədir. Kitab Çindəki Sunq sülaləsinin *(420-479)* rəsmi tarixidir. Müəllifi *Şen-yüex*dir *(441-513)*. 100 fəsildən ibarətdir. Əsərin 94-95-ci fəsilləri tabqaçlar, siyenbilər, tu-yu-hunlar və hular (hunların sorakı nəsli) haqqındadır.

**Nan Ç`i-şu**: Əsər Çində hökm sürmüş Cənubi Çin sülaləsi tarixidir. 59 fəsildən ibarət kitabın 57-ci fəsili Tabqaç dövləti tarixinə həsr olunub.

**Lianq-şu**: Çindəki Lianq sülaləsinin tarixdir. *Yao Ssu-lian (557-637)* tərəfindən yazılıb. 36 fəsildən ibarətdir. Fəsillərindən biri "Yadellilər təzkirəsi" adlanır ki, burada türklər haqqında məlumatlar verilib.

**Vei-şu**: Çində yaranan və bu ölkəni uzun illər idarə edən türk əsilli Tabqaç dövlətinin rəsmi tarixi *Vei-şu* adlanır. Vei, çinlilərin Tabqaç dövlətinə verdikləri qədim addır. Əsər Şimali Çi sülaləsi dövründə *(550-577)* yaşamış tarixçi *Vei-şou (506-572)* tərəfindən qələmə alınıb. Mükəmməl bir tarix əsəridir. 130 fəsildən ibarət olub, 99-cu fəsil Şimali Çindəki türk tayfalarından, 101-ci fəsil Orta Asiya türklərindən, 103-cü fəsil isə Kao-çelərdən (töles/töliş tayfalarından) bəhs edir. Əsərin itən hissələri 960-1279-cu illər arasında *Liu-şu* və *Fan Tzu-yü* adlı iki tarixçi tərəfindən bərpa edilib. Həmin əlyazma 114 fəsildən ibarətdir.

**Cou-şu**: 629-cu ildə *Linq-hu Te-fenq* tərəfindən yazılan Çou-şu *557-580-ci illər* arasında Çində hökm sürən Çou sülaləsinin rəsmi tarixidir. 50 fəsildən ibarətdir. Göytürklərin yaranış əfsanəsi ilk dəfə bu əsərdə əks olunub.

**Pei Ç`i-şu**: Türk xaqanlığı yarandığı zaman Çində Şimali Çi sülaləsi *(550-577)* hökm sürürdü. Həmin sülalənin rəsmi tarixi *Pei Ç'i-şu* adlanırdı. *Li Te-li* tərəfindən qələmə

alınan əsər oğlu *Li po-yüe* tərəfindən tamamlanıb. 50 fəsildir. Əsərin bir fəsli Göytürklərin tarixinə həsr olunub.

**Sui-şu**: *Vei-çenq* tərəfindən qələmə alınan *Sui-şu* isə Sui sülaləsinin *(581-617)* rəsmi tarixi hesab olunur. 85 fəsildən ibarətdir. Əsərdə Göytürklərin siyasi tarixi, hökmdarları və bəyləri haqqında ayrı-ayrı hissələr mövcuddur. Türk tarixinin öyrənilməsində qiymətli mənbədir.

**Pei-şih**: Çinin şimalında yaranmış sülalələr tarixi olub, 659-cu ildə *Li Yen-şou* tərəfindən qələmə alınıb. 100 fəsildən ibarət əsər *386-534-cü illər* arasında Şimali Çindəki dövlətlərin tarixini əks etdirir. 93-cü fəsil tamamilə hunlar haqqındadır. Bundan başqa, 20, 22, 25 və 34-cü fəsillərdə türk hökmdarlarının həyatı təsvir edilib. Əsərin 99-cu fəsli isə göytürklər haqqındadır.

**T'unq-tian**: "Qanunlar toplusu" deməkdir. 801-ci ildə *Tu-yu* tərəfindən tərtib olunub. Böyük bir ensiklopediya hesab edilən əsərin 197, 198 və 199-cü fəsilləri tamamilə Göytürklərdən bəhs edir. Göytürk tarixi haqqındakı ən mühüm məlumatlar burada toplanıb.

**Tsu-çih T'unq-çien**: Mənası "xalqı idarə etmə sənəti" deməkdir. 1300 illik Çin tarixini əhatə edən əsər *Sse Ma-kuanq* tərəfindən 1066-1086-cı illər arasında yazılıb. Ümumilikdə 294 fəsildən ibarətdir. Külliyyat daha əvvəl yazılmış Çin sülalələr tarixinin "seçilmiş əsərləri"-dir. 188, 193, 197 və 199-cu fəsilləri türklərdən bəhs edir. Əsərdə Göytürk tarixi haqqında qiymətli məlumatlar əks olunub.

**Ts'e-fu Yüan-kuei**: "Kitabların incisi" olub, Çində tarixçilər heyəti tərəfindən tərtib edilib. 31-i əsas, 1102-si əlavə fəsillərdən ibarətdir. Yazıçılar heyətinə *Vanq Ç'in-jo* və *Yanq-yi* rəhbərlik edirdi. Göytürk tarixinin öyrənilməsində ən qiymətli mənbədir.

**Çiou T'anq-şu:** "Əvvəlki Tanq sülaləsi tarixi" adlanır. Çindəki Tanq sülaləsinin rəsmi tarixidir. Əsər 200 fəsil olub, 194, 195, 198 və 199-cu fəsilləri türklər haqqındadır.



**Hsin T'anq-şu**: "Yeni Tanq sülaləsi tarixi" adlanır. Çində hökm sürmüş İkinci Tanq sülaləsinin rəsmi tarixidir. 225 fəsil olub, 215, 217, 219 və 221-ci fəsilləri türk tarixini əks etdirir.

**Çincə mənbələrin nəşri:** Göytürklər haqqında yer alan məlumatlar *N.Ya.Biçurin, St.Julien, Ed.Chavannes* və *Liu Mau-tsai* tərəfindən toplanıb, nəşr edilib.

**Biçurin N.Ya.**, *Sobranie svedenie o narodax obvitavşix v Sredney Azii v drevneye vremena*, SPb. 1851, Moskva-Leninqrad 1950, I-III.

**Julien St.**, *Documents sur les Tou-kioue*, Paris 1877 (Bu əsər əvvəlcə Journal Asitiquenin 1874-cü il sayısında məqalə olaraq nəşr edilib).

**Chavannes Ed.**, *Documents sur les Tou-kiu Occidentaux*, SPb. 1903; Paris 1941.

**Chavannes Ed.**, *Notes Additional sur les Tou-kiu (turc) Occidentaux*, SPb. 1903; Paris 1941.

**Chavannes Ed.**, *Çin Kaynakalrına Göre Batı Türkleri*, çev. M.Koç, İstanbul 2007.

**Liu Mau-tsai**, *Die chinesischen Nachrichten zur Geschicte der Ost-Türken*, Wiesbaden 1969, I-II.

**Liu Mau-tsai**, *Çin Kaynakalrına Göre Doğu Türkleri,* çev. E.Kayaoğlu – D.Banoğlu, İstanbul 2006.



# V. İSLAM MƏNBƏLƏRİ

**Mücməl ət-təvarix**: Kitab *hicri 520 (1126)*-cı ildə Həmədanın Əsədabad şəhərində yaşamış adı məlum olmayan bir alim tərəfindən yazılaraq Səlcuqlu sultanı Səncərə təqdim edilmiş müxtəsər İslam tarixidir. Əsərdə türk tarixi və etnoqrafiyası haqqında mühüm məlumatlar və əfsanələr yer alır. Verilən məlumatlar ümumi xarakter kəsb edir.

**Kitab əl-məsalik və'l-məmalik**: İslam coğrafiya elminin banisi *Əbül Qasim Übeydullah ibn Xordadbeh* olub, əsəri *Kitab əl-məsalik və'l-məmalik* adını daşıyır. *IX əsr*də yaşayan müəllif, kitabında türklər haqqında qiymətli məlumatlar vermişdir. Əsərinin bir yerində *Səllam ət-Tərcüman*ın *"Yəcuc və Məcuc ölkəsinə səyahət"* adlı risaləsi də yer alır ki, bu məlumat çox əhəmiyyətlidir.

**Əl-A'lak əl-nəfisə:** Ərəbcə yazılı mənbələr arasında İbn Rustahın əl-A'lak əl-nəfisə adlı əsəri xüsusi qeyd edilməlidir. Təəssüflər olsun ki, onun əsərinin türklər haqqında olan fəslinin bir hissəsi itib. Buna baxmayaraq, İbn Rustah türklər haqqında təfsilatlı məlumatları ilə diqqəti cəlb edir.



**Müruc əz-Zəbəb**: Müsəlman coğrafiyaçı və tarixçi olub, *896-956*-cı illər arasında yaşamış *Məsudi*nin əsəridir. Müəllif əsərində türklər haqqında məlumatlarının çoxunu özü toplayıb. Müəllifin digər əsəri *əl-Tənbih vəl-işraf* isə əvvəlki əsərindəki məlumatların təkrarından ibarətdir.

**Surət əl-arz**: X əsr İslam dünyasının tam bir coğrafi təsviri olan "*Surət əl-arz*" (Yerin təsviri) etnoqrafiya, sosiologiya, iqtisadiyyat və kulturologiya elmləri cəhətindən də olduqca mühümdür. Müəllifi *İstəxri* olub, *X əsr*də yaşamış müsəlman coğrafiyaçısıdır. Bu əsəri dünyanın ilk iqtisadi coğrafiya əsəri hesab olunur. X əsr coğrafiyaçısı *İbn Hövqəl*in də eyni adlı bir əsəri mövcuddur.

**Mücəm əl-buldan və Mücəm əl-üdeba**: Müəllifi *Əbu Abdullah Şihabəddin Yaqut ibn Abdullah əl-Həməvi*dir. *1178-1220*-ci illər arasında yaşamışdır. Coğrafiyaçı, tarixçi, ədib və səyyah olan *əl-Həməvi*nin "Mücəm əl-buldan" əsəri ensiklopedik coğrafiya əsəridir.

**Səyahətnamələr**: səyahətnamə tərzində yazılmış ərəbdilli əsərlərdə türk ölkələri və türk xalqları haqqında yer alan məlumatlar dolğunluğuna və sosial-mədəni və dini münasibətlərin öyrənilməsi baxımından daha əhəmiyyətlidir. Belə əsərlərin başında *Təmim ibn Bəhr*in *"Səyahətnamə"*si gəlir. Təmim ibn Bəhr "Doqquz Oğuz" adlandırılan Uyğur ölkəsinə səyahət etmiş və əsərini *821*-ci ildə yazmışdır. Digər bir səyahətnamə *Şərəf əl-Zaman Tahir əl-Mərvəzi*yə aid olub, "*Tabai əl-hayavan*" adlanır. Bu əsərin 9-cu babı türklər və onların yaşadıqları ölkələr haqqındadır. Həmin fəsildə doqquz oğuzlar (uyqurlar), hunlar (kun/qunlar), kaylar, qırğızlar, qarluqlar, kiməklər, peçeneqlər, xəzərlər, macarlar, burdaslar, bolqarlar haqqında qiymətli məlumatlar öz əksini tapıb. *İbn Fəqih*in *"Kitab əl-Buldan"* əsəri içərisində yer alan *"Türklər haqqında risalələr"* də eyni dərəcədə əhəmiyyətlidir. Bu qiymətli əlyazma türk tarixinin böyük alimlərindən *Əhməd Zəki Vəlidi Toqan* tərəfindən 1923-cü ildə Məşhəd kitabxanasında aşkarlanaraq elm

aləminə tanıdılıb. Toqanın ortaya çıxardığı başqa bir qiymətli məxəz isə *İbn Fadlan*ın "*Səyahətnamə*"sidir. X əsr türk ölkələrinin və xalqlarının mükəmməl təsviri olan bu əsəri türklər haqqında yazılmış ilk etnoqrafiya kitabı adlandırmaq səhv olmaz.

**Fütuhul-buldan**: Müəllifi *Bəlazuri* olub, peyğəmbərin zamanından İslamın ilk üç əsrlik tarixini əhatə edir. İlk müsəlman tarixçilərindən olan Bəlazuri əsərində İslamın türk bölgələrinə yayılması və ərəb-türk müharibələri haqqında məlumatlar vermişdir.

**Tarix əl-üməm vəl-müluk**: IX-X əsrlərdə yaşamış *Məhəmməd ibn Cərir ət-Təbəri* tərəfindən yazılmış ilk İslam tarixi əsərlərindən biridir. Hədis, tarix və hüquq sahəsində böyük alim olan Təbərinin tarixində türklər haqqında geniş məlumat vardır.

**Əl-Kamil fit-tarix**: XII-XIII əsrlərdə yaşamış Səlcuqlu dövrünün böyük tarixçisi *İzzəddin Əli ibn Məhəmməd əl-Əsir (1160-1233)* tərəfindən yazılıb. Çoxcildlik bu əsər türk tarixinin öyrənilməsi üçün qiymətli mənbədir. Xüsusilə də müsəlman-türk dövlətlərinin tarixi moğollara qədər bu əsərdə öz əksini tapmışdır.

***İslam mənbələri haqqında nəşrlər:***


• İstəxri, *Mesalik el-memalik*, M.J.de Goeje nşr (Ebu Zeyd al-Belhi, *Kitab surat el-ekalim* əsərinin davamında), Leyden 1927.
• İbn Havkal, *10. Asırda İslam Coğrafyası*, Tercüme Ramazan Şeşen, İstanbul 2014.
• Yaqut əl-Həməvi, *Mucem el-Buldan*, Wustenfeld nşr., Leibzig 1866-1873, c. I-VI.
• *Hudud el-Alem*, V.Minorsky nşr., London 1937; *Hudud el-alem Mine'l-Meşrik İle'l-Magrib*, türkçe çev. A.Duman – M.Ağarı, İstanbul 2008.
• Təbəri, *Tarih el-rusul ve'l-müluk*, M.J.de Goeje, Leyden-Brill 1878-1898, c. I-VIII.





• Balazuri, *Futuh el-Buldan*, M.J.de Goeje, Leyden 1870; Belazuri, *Fütuh el-buldan*, türkçe çev. M.Fayda, Ankara 1987.
• Minorsky V., "*Tamim ibn Bahr`s Journey to the Uighurs*", BSOAS, 1948.
• Sağır C., *Temim ibn Bahr`ın Seyahatnamesi ile Mervezi`nin Taba-i Hauavan Eserinin Tercümesi ve Değerlendirilmesi*, Marmara Üniversitesi Türkiyat Araştırmaları Enstitüsü Yüksek Lisans Tezi, İstanbul 2006, s. 1-34.
• Minorsky V., *Sharaf al-zaman Tahir Marvazi On China, The Turks and İndia*, London 1942.
• Asadov F.M., *Arabskie istoçniki o tyurkax v rannee srednevekove*, Baku 1993.
• İbn Fadlan, *Seyahatname*, Tercüme Ramazan Şeşen, İstanbul 1995.
• İbn al-Asir, *al-Kamil fi-t-ta`rix (Polnıy svod istorii)*, İzbrannıe otrıvki, Perevod s arabskoqo yazıka P.Q.Bulqakova, Taşkent: Tsyurix, 2005.
• İbn el-Esir, *el-Kami fi`t-Tarih (İslam Tarihi)*, Çevirenler M. Beşir Eryarsoy, Ahmet Ağırakça, Abdullah Köse, Abdülkerim Özaydın, İstanbul: Ocak Yayıncılk, 2016, c. I-X.



# VI. SƏLCUQLU DÖVRÜ MƏNBƏLƏRİ

**Zeynül-əxbar**: Farsca qələmə alınan Qəznəvi dövrü tarixidir. Müəllifi *Əbu Səid Əbdülməlik ibn Dəhhaq Qərbizi* olub, *XI əsr* müəllifidir. Əsər peyğəmbərin dövründən 1032-ci ilə qədərki hadisələri əhatə edir. Əsərdə Qəznəvi-Səlcuqlu münasibətləri geniş əks olunub.

• Ebu Said Abdulhay Dahhak b. Mamud Gerdizi, *Zeynü`l-Ahbar*, Çeviren: Filiz Akçay, İstanbul: Ay ışığı yayınları, 2022.

**Beyhaki**: *Əbül-Fəzl Məhəmməd əl-Beyhaki (996-1077)* tərəfindən *"Tarixi-Beyhaki"* adı ilə farsca qələmə alınıb, ümumilikdə 30 cild idi. Əsərin sadəcə son cildləri günümüzə gəlmişdir, Qəznəvi, Samani, Qaraxanlılar haqqında ilk mənbə hesab olunur. Müəllif Qəznəvi dövrünün saray münşisi olduğundan, əsərində rəsmi sənədlərdən də istifadə etmişdir.

• Ebu`l-Fazl Muhammed b. Hüseyin-i Beyhaki, *Tarih-i Beyhaki*, Tərcümə Necati Lugal, Hicabi Kırlangıç, Ankara: TTK Yay, 2022.



**Kaşğarlı Mahmud**: *"Divani lüğət-it-türk"* əsəri türkcə-ərəbcə lüğətdir. Türk dili və tarixi haqqında ən qiymətli mənbədir. Bu əsərdə XI əsr türk dili və ləhcələri haqqında da məlumat verilmişdir. 1008-1102-ci illər arasında yaşadığı bilinən müəllifin özü də Qaraxanlı ailəsindən gəlir. 1072-1074-cü illər arasında Bağdadda yaşayan Kaşğarlının türk dillərinin qrammatik kitabı olan *"Kitabu cəvahir ən-nəhvi fi lüğət it-türk"* adlı başqa bir əsəri də olub. Ancaq bu əsər tapılmayıb.

• Mahmud Kaşğari, *Diani lüğət-it-türk*, Tərcümə edən Ramiz Əsgər, Bakı: Ozan nəşriyyatı, 2006, c. I-IV cildlər.

**Məliknamə**: Müəllifi məlum olmayan bu əsər Səlcuqlu soyu və kimliyi haqqında qiymətli mənbədir. Əsər farsca qələmə alınıb. Əsərdə yer alan məlumatların İnanc bəy adlı birindən əldə edildiyi qeyd edilir.

• Claud Cahen, *"Selçuklu Devri Tarih Yazıcılığı"*, çeviren Mehmet Dağ, İsmet Kayaoğlu, Ankara Üniversitesi İslam İlimleri Enstitüsü Dergisi, Sayı 2, Ankara 1975.

**Tarixi-Sistan**: 1053/4-cü ildə yazılan bir bölgə tarixidir. Əsər Qəznəvi və Səlcuqlu tarixi baxımından əhəmiyyətli məlumatları əhatə edir. Əsərin müəllifi bilinmir.

• *Tarih-i Sistan*, Tercüme Vural Öntürk, İstanbul:Ayışığı kitapları, 2018.

**Məsud ibn Namdar**: Səlcuqlu dövrünün müəllifi olub, XI-XII əsrlərdə yaşamışdır. Səlcuqlu dövründə Aran, Şirvan və Beyləqandakı sosial-mədəni həyatı təsvir edən divana sahibdir. Bu əsərin tək əlyazması Paris Millət Kitabxanasınında 4433-cü nömrədə saxlanılır.

• Minorsky V – Cahen Cl, "*Le Recuel Transcaucasien de Mas'ud b. Namdar (debut du XI-XII siecle)*", Journal Asiatique, 1949, t. 237, f. 1, s. 93-134.

• Bunyadov Z, "*Obzor istoçnikov po istorii Azerbaydjana*", Akademik Z.M.Bünyadov, *Soçineniya*, t. 1, Baku 1999, s. 420.

• İbn Xassül: Səlcuq türkləri geniş İslam dünyasını əllərinə keçirdikləri dövrdə yazılmış ilk əsər *Əbül-Əla ibn Xassül*ün

*(ö.1058)* "*Kitabül-təfdilil-ətrak*" adlı türklər haqqında risaləsi hesab edilir. Bu əsər, Cahizdən sonra türklər haqqında İslam tarixçiliyində yazılmış ilk tərəfsiz risalədir.

• Ebu Alaeddin İbn Xassul, *Kniqa o prevostodstve tyurkov nad druqimi voynami*, Ped. Asadova F.M., Baku 1993.

• Azzavî A, *"İbn Hassul'un Türkler Hakkındaki Bir Eseri"*, TTKB, c. IV, 1940.

**İbnül-Cövzi:** *"əl-Müntəzəm fi tariz əl-müluk vəl-üməm"* adlı əsərin müəllifi olan məşhur İslam alimi *Əbül-Fərəc Əbdürrəhman İbnül-Cövzi (1114-1200)* 1177-ci ilə qədər xronolojik olaraq Xilafət tarixini qələmə alıb. Əsərin əsas xüsusiyyəti onun məşhur şəxslərin həyatını işıqlandırmasıdır. Əsər Səlcuqlu tarixi baxımından çox qiymətlidir.

• İbnül-Cevzi, *əl-Muntazam fi tarix əl-üməm*, Bağdat 1355-1359, c. I-X; Beyrut nşr. 1985; Süheyl Zekkâr nşr. Beyrut 1995.

**Nizamülmülk**: Səlcuqlu dövlət təşkilatının və idarəçiliyinin öyrənilməsində məşhur vəzir Nizamülmülkün "*Siyasətnamə*"si son dərəcə əhəmiyyətlidir. Alparslan və Məlikşahın vəziri olan bu şəxsin əsəri eyni zamanda bir öyüd xarakteri daşıyır. Əsər 1091-ci ildə Sultan Məlikşahın əmri ilə qələmə alınmış, bir il sonra da vəzir ismaili fədailəri tərəfindən öldürülmüşdür. Bu əsər, Səlcuq dövlətinin rəsmi ideologiyasını da ortaya qoyur.

• *Siyasetname. Kniqa o pravlenii vazira XI stoletiya Nizam al-Mulka*, Per., vved., primeç. B.N.Zaxodera, Moskva-Leningrad 1949.

• Nizam al-Mulk, *Traite de gouvernemant. Siyaset-name*, Par Ch. Schefer et praface par J.J.Roux, Paris 1984.

• Nizamü'l-mülk, *Siyaset-name*, Haz: M.A.Köprülü, Ankara 1999.

• Nizamülmülk Əbu Əli Həsən ibn Əli Xacə, *Siyasətnamə*, Terəcümə edən R.Sultanov, Bakı: Çıraq, 2007.

**Müntəcibəddin Bədi**: Səlcuqlu dövrü rəsmi sənədləri Sultan Səncər dövründə (1118-1157) *Müntəcibəddin Bədi* tərəfindən "*Atabətül-kətəbə*" adlı əsərində bir yerə toplanmışdır. Divani-inşa rəisi olan bu şəxs yazdığı fərman və mənşurların bəzi nümunələrini öz əsərində işıqlandırmışdır. Bu sənədlər Səlcuqlu dövrü iradəçiliyinin öyrənilməsində çox əhəmiyyətlidir.

• *Sultan Sancar Dönemi Münşeat Mecmuası: Atabetül-Ketebe*, Hazırlayan Sonay Ünal, Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü Yüksek Lisans Tezi, Ankara 2014.

• Lambton K.S., *"The administration of Sanjar's Empire as illustrated in the Atabat al-Kataba"*, BSOAS, vol. XX, 1957, s. 367-88.

**Məhəmməd ibn Əbül-Xaliq**: Səlcuqlu dövrü müəlliflərindən olan Məhəmməd ibn Əbdül-Xaliq əl-Meyxani tərəfindən hazırlanan "*Dəsturi-dəbiri*" də rəsmi sənədlərdən ibarət münşəat məcmuəsidir. Bu əsər İslam dünyasında farsdilli sənədlərin ilk nümunəsini təşkil edir. Filoloji baxımdan da böyük əhəmiyyət ərz edən bu əsər Səlcuqlu mərkəz idarə ilə əyalətlər arasındakı münasibətlərin öyrənilməsi üçün mühümdür.

• Muhammed b. 'Abdi'l-Halik el-Meyhanî, *Destur-i Debirî*, Yay: Erzi A.S., Ankara 1962 (Farçsa).

**Rəşidəddin Vatvat**: Səlcuqlu və Xarəzmşahlar dövrü rəsmi tarixçiliyinə ən yaxşı nümunə *Rəşidəddin Vatvat*ın əsəridir. Bəlx əsilli saray tarixçisi olan Vatvat 1080-1178-ci illər arasında yaşamışdır. O, xarəzmşah Anuştəkinlər dövlətinin ən böyük hökmdarı Atsızın sarayında 30 ilə yaxın qulluq etmişdir. Ərəb, türk və fars dillərini mükəmməl bilən Vatvat 21 əsər yazmışdır. Onlar arasında ən mühümü 112 rəsmi sənəddən ibarət olan və 1156-1173-cü illəri əhatə edən sənədlər toplusudur. Xarəzmşah-Eldənizlər arasında diplomatik münasibətləri ortaya çıxaran sənədlər bu əsərdə yer alır.

• Reşideddin Watwat, *Resmi xatlar*, Türkməncə tərcümə Janbekow K, Aşqabat 2004. şərhlər üçün bax. s. 171-179).

**Məhəmməd ibn Məhəmməd İmzadəddin əl-Katib əl-İsfahani**: Səlcuqlu dövrünün ən mühüm tarixçilərindən hesab edilir. O, böyük alim, ədib və dövlət adamı olmuşdur. Onun ailəsi də bürokratik işlərdə uzun illər xidmət etmişdir. Ən məşhur əsəri "*Nusrət əl-fətrə va usrat əl-qətrə*" olub, tanınmış Səlcuqlu vəziri Ənuşirəvan ibn Xalidin "*Futurü-z-zaman əl-sudra*" kitabı əsasında qələmə alınıb. Bu əsərinin bir nüsxəsi günümüzə qədər gəlsə də, dilinin və üslubunun çətinliyindən nəşr edilməmişdir. Amma əsər *əl-Bundari* tərəfindən *(ö.1245)* "*Zübdət əl-nüsra*" adı ilə sadələşdirilmiş və bu əsər də şərqşünas *Houstma* tərəfindən nəşr edilmişdir. Eyni nəşr türk dilinə tərcümə edilib yayımlanmışdır. İsfahaninin əsərindəki hadisələr 1174-cü ilə qədər gəldiyi halda, Bundari ona öz dövrünə qədər hadisələri əlavə etmişdir. Dövrün ən mühüm mənbələri arasında göstərilən bu əsər türk tarixi, xüsusilə də İraq Səlcuqlu tarixinin öyrənilməsində qiymətli mənbədir.

- Bundari, *Irak ve Horasan Selçukluları Tarihi*, İmad ad-Din al-Katib al-İsfahanî'nin al-Bundarî tarafından ihtisar edilen *Zubdat al-Nusra va Nuhvat al-Usra* adlı kitabının tercümesi, M.Th.Houtsma tarafından 1889'da Leyden'de neşredilen metinden Türkçeye çevirme Kıvameddin Burslan, Ankara 1943 (1. bsk), 1999 (2. bsk).

**İbnül-Kalanisi:** Səlcuqlu dövlətinin ilk dövrünün tədqiqində müraciət ediləcək başqa bir mənbə isə İbnül-Kalanisi adı ilə məşhur olan Əbu Yalə Hazma ibn Əsadın *(1073-1160?)* "*Tarixi-Dəməşq*" əsəridir. Bu əsər Hilal ibn əl-Məxassin əl-Sabinin əsərinə yazılmış zeyldir. Zira müəllif Sabinin əsərini bitirdiyi il olan 970-ci ildən 1160-cı ilə qədər olan hadisələrin tarixini qələmə almışdır. Əsər şəhər tarixçiliyi üçün son dərəcə mühümdür. Burada Dəməşq tarixi ilə birlikdə səlcuqlular, börülər və səlibçilər haqqında da qiymətli məlumatlar vardır. Müəllif Azərbaycan tarixində rol oynamış məşhur hökmdar və şəxslərin də bioqrafiyasını öz kitabında əks etdirmişdir.



- İbnü'l-Kalanisî, *Tarih-i Dimaşk*, Amedroz nşr, Beyrut 1908, Süheyl Zekkar nşr, Beyrut 1983.
- İbnül-Kalanisi, *Şam Tarihine Zeyl, I. Ve II. Haçlı Seferleri dönemi*, Arapça aslından çeviren Onur Özatağ, İstanbul: Türkiye İş Bankası Yay, 2015.

**İbnül-Əzrak:** 1181-ci ildə vəfat edən müəllif Səlcuqlu dövrü tarixçisi olub, "*Tarixi-Meyyəfarikin*" əsərinin müəllifidir. Əsər Səlcuqlu dövrü Azərbaycan, İraq, Suriya və Anadolu hadisələri haqqında məlumatları əks etdirir.

- İbn el-Ezrak, *Tarih el-Fakirî*, Bedevî Abdüllatif Ivaz nşr, Beyrut 1974.

**Ravəndi**: Kaşanlı tarixçi *Məhəmməd ibn Əli ibn Süleyman ər-Ravəndi*nin *(1207-ci ildə vəfat edib)* "*Rahət əl-sudur və ayət əl-sürur*" əsəri İraq Səlcuqlu tarixi haqqında başlıca mənbələrdən biridir. Şeir və beytlərlə bəzədilmiş əsər Səlcuqlu və Atabəylər tarixinin öyrənilməsində əsas mənbə hesab edilir.

- Muhammed b. Ali b. Süleyman er-Ravendî, *Rahat-üs-Sudur ve Ayet-üs-Sürur (Gönüllerin Rahatı ve Sevinç Alameti)*, Türkçesi Ahmed Ateş, c. I-II, Ankara 1957-1960 (1. bsk), 1999 (2. bsk).

**İbnül-Adim:** Səlcuqlu dövrünün biblioqrafik mənbələri arasında İbnül-Adimin *(1262-ci ildə vəfat edib)* "*Buqyət-üt-tələb fi tarixi Hələb*" əsəri son dərəcə mühümdür. Əsərdə Səlcuqlu dövrünün məşhur dövlət, siyasət və ədəbiyyat adamlarının həyatı əks olunur.

- *Biyografilerle Selçuklular Tarihi, İbnü'l-Adîm, Bugyetü't-taleb fi Tarihi Haleb (Seçmeler)*, Haz: Ali Sevim, Ankara 1982 (1. bsk), 1989 (2. bsk).

**Əbu Bəkr ibn əl-Zaki:** Səlcuqlu dövrünün dövlət təşkilatı, divan idarəsi haqqında əsərlər arasında Əbu Bəkr ibn əl-Zakinin "*Rövzət əl-küttab və xadikat əl-əlbab*" ən mühümüdür. 58 məktubun yer aldığı əsər Türkiyə Səlcuqlu tarixinə işıq tutur.

- Abu Bakr İbn al-Zakî, *Ravzat al-Kuttâb va Hadikat al-Albab*, Yay: Ali Sevim, Ankara 1972.

**Kamaləddin Aksarayi**: Kəmaləddinin "*Takarir ul-mənasib*" adlı inşa, məktub, vəsiqə, əhdnamə və ticarət müqavilələrini əks etdirən kitabdır. Bu əsərdəki məlumatlar Anadolu Səlcuqlu dövrünün idari, ticari və dövlət təşkilatının öyrənilməsində son dərəcə əhəmiyyətli mənbələr hesab edilir.

• *Türkiye Selçukluları Hakkında Resmi Vesikalar: Metin, Tercüme ve Araştırmalar*, Haz: Osman Turan, Ankara 1958 (1. bsk), 1988 (2. bsk).

• Köprülü M.F., "*Anadolu Selçukluları Tarihinin Yerli Kaynakları*",, Belleten, c. VII, Sayı: 27, Ankara 1943.

**Nəsəvi**: Xarəzmşahların son dövrü, xüsusilə də Cəlaləddin Manqburnunun hakimiyyəti *(1220-1231)* illərinin hadisələrini ən gözəl şəkildə xarəzmşahın rəsmi tarixçisi *Məhəmməd ən-Nəsəvi*nin "*Surat əs-sultan Cəlaləddin Mənguberti*" kitabında təsvir edir. İndiki Türkmənistan sərhədi daxilində qalan Nisada XII əsrin ikinci yarısında dünyaya gələn Nəsəvi 1231-ci ildə Cəlaləddinin öldürülməsindən sonra ağır günlər yaşamış, 1249-cu ildə Əyyubilərin Hələb sarayında vəfat etmişdir. Onun əsəri tam bir bioqrafiya əsəridir. Buna görə də əsərinə "*Cəlaləddin Manqburnunun tərcüməyi halı*" adını vermişdir.

• Şihab ad-Din Muhammad an-Nasavi, *Jizneopisanie Sultana Djalal ad-Dina Mankburnı (Surat as-Sultan Djalal ad-Din Mangburnı)*, Z.M.Bunyadov, Moskva 1996.

• Muhammet Nesewi, *Sultan Jelaleddin Menburmum ömür beyanı*, Türkməncə Belliyew K, Aşgabat 2001.

• Şihab əd-Din Məhəmməd ən-Nəsəvi, *Sultan Cəlal əd-Din Mənkburnunun həyatının təsviri (Azərbaycanın XII-XIII əsrlər tarixinə aid çıxarışlar)*, ərəbcədən tərcümə edən: N.Bayramlı, Bakı 2007.





# VII. MOĞOL DÖVRÜ MƏNBƏLƏRİ

**Cüzcani**: Məşhur qurlu tarixçi *Minhacəddin Osman ibn Məhəmməd əl-Cüzcani*nin *(1261-ci ildə vəfat edib)* "*Tabakati-Nasiri*" əsəri moğolların ortaya çıxması haqqında ilk mənbələrdəndir. Əsər büveyhilər, tahirilər, səffarilər, samanilər, qəznəvilər, səlcuqlular, qurlular, xarəzmşahlar, əyyubilər və Dehli türk sultanlığı haqqında məlumatlar verən son dərəcə qiymətli mənbədir. Moğollar haqqında bu müəllifin ərəbcə yazdığı və 1258-ci ildə Bağdadın işğalına qədər olan dövrü əhatə edən "*Siyasət əl-əmşar fi təcribət əl-asar və tarixi ali-Cengiz*" əsəri əhəmiyyətlidir. Lakin hələlik bu əsər moğol tarixinin tədqiqatçıları tərəfindən lazımi qədər dəyərləndirilməyib.

• El-Cüzcanî, *Tabakat-i Nasirî*, by H.G.Raverty, Kalkutta 1873, 1881, c. I-II, Kalkutta 1897.

• Cüzcani Minhacəddin Osman, *Tabaqati-nasiri*, Abdülhay Habibî nşr, Tahran 1984.

**Cüveyni**: Moğol tarixinin ən mühüm mənbələrindən biri *Əlaəddin Ata Məlik Cüveyni*nin "*Tarixi-cihan guşa*" əsəri hesab edilir. 1226-cı ildə Bağdadda anadan olan müəllif Hüləgünün Bağdadı işğalına qədər moğolların xidmətində fəaliyyət göstərmişdir. O, Hüləgülərin vəziri olan qardaşının nəzarətində divanda çalışmış, bir müddət İraq və Yəzdin valisi olmuş, 1283-cü ildə 57 yaşında vəfat etmişdir. Onun əsəri xarəzmşahlar, ismaililər və moğollar haqqında qiymətli mənbə hesab edilir. Əsər üç kitab halında hazırlanmışdır. Burada moğol tarixi 1246-cı ildə Göyük xaqanın vəfatına qədər əks olunub. Əsər türk xalqlarının tarixinin öyrənilməsində olduqca mühümdür.

- Alaeddin Ata Melik b. Muhammed el-Cüveynî, *Tarih-i Cihangüşa*, Mirza M. Kazvinî – E.Browne nşr, London 1912-1937; Mirza M.Kazvinî nşr, Tahran 1937.
- Ata Melik Cüveyni, *Tarih-i cihan-guşa*, Türkçe çev. Mürsef Öztürk, Ankara 1988; I-III kitap.

**Fəzlullah Rəşidəddin**: Moğol dövrünün ən mühüm mənbəsi Rəşidəddinin "*Came at-təvarix*" əsəri hesab edilir. 1298-ci ildə vəzirlik məqamına qədər çıxan bu şəxs Qazan xanın əmri ilə ümumi bir moğol tarixi yazmaqla vəzifələndirilmişdir. Rəşidəddin bu əsərində moğolları türklərin bir tayfası olaraq tanıtmış və türk-moğol xalqlarını Oğuz xaqanın davamçıları adlandırmışdır. Olduqca qiymətli olan bu əsərdə Hüləgülər, Qızıl Orda, Cığatay uluslarının da tarixi əks olunmuşdur. Türk və moğol tayfalarının tarixi geniş əks olunmuşdur. Bu əsərin içərisində "Oğuz dastanı" da yer alır.

- Raşid ad-Din, *Sbprnik letopisey (Djami at-Tavrih)*, Moskova – Leningrad 1952-1960, tom I (per. O.İ.Smirnov), tom II (per. Verhovskoqo), tom III (Ali-zade – Arendes, Baku 1957).
- Raşid ed-Din, *Prepiska*, Moskova 1971; Raşideddin, *Camî et-Tevarih*, Gazneliler ve Selçuklular kısmı yay: Ahmet Ateş, Ankara 1957-1960; Barthold, *Türkistan*, s. 46-50.



- Raşideddin, *Oğuz Destanı*, A.Z.V.Togan, İstanbul 1972 (1. bsk.), 1982 (2. bsk.).
- Raşid ed-Din Fazlullah, *Oguz-name*, Tercüme R.Şükürova, Baku 1987.

**Vassaf**: Bir başqa moğol dövrü tarixçisi *Abdullah ibn Fəzlullah Vassaf* idi. Əsərinin adı "*Tarixi-Vassaf*"dır. Əslində, müəllif kitabına "*Kitab təcziyətül-əmsar və təcziyətül-asar*" adını vermişdir. Beş kitabdan ibarət əsərin ilk üç cildi 1300-cü ildə Qazan xana, dördüncü cildi 1312-ci ildə Olcaytu xana, beşinci cildi isə 1327-ci ildə Əbu Səid xana təqdim edilib. Əsər ümumilikdə 1257-1325-ci illər arası Hüləgülər tarixini əhatə edir. Məşhur fransız tarixçisi Baron D'ohsona görə, "Vassafın əsəri çox qiymətli bir əsərdir. Burada tarixi hadisələr ədəbi dillə əks olunur. Bu əsər İranda moğol tarixinin öyrənilməsində son dərəcə mühümdür".

- Vassaf Abdullah b. Fazlullah el-Şirazî, *Tarih-i Vassaf*, Tahran 1269, 1338.
- Vassaf, *Tahrir-i Tarih-i Vassaf*, Abdulmuhammed Ayetî nşr, Tahran 1346.
- Browne E., *A Literary History of Persia*, Cambridge 1902-1928, I-III.
- Spuler B, *İran Moğolları*, çvr. C.Köprülü, Ank. 1987 (2. bsk.).
- D'ohsson M. Baron C., *Moğol Tarihi*, Günümüz Türkçesine Aktaran ve Yayına Haz: Kalan E. – Şükürov Q., İstanbul 2006.

**Bənakərti:** Moğol dövrün bir başqa tarixçisi *Fəxrəddin Davud ibn Məhəmməd əl-Bənakərti* olmuşdur. Fars dilində gözəl şeirlər müəllifi olan türk əsilli bu tarixçi Qazan xan dövründə məşhur olub, ancaq Olcaytu dövründə gözdən düşmüşdür. 1330-cu ildə vəfat edən müəllifin ən məşhur əsəri "*Rövzətü ulul-əlbab fi təvarix əl-əkabiri vəl-ənsab*" hesab edilir. Rəşidəddinin əsəri ilə oxşar cəhətlərə sahib bu əsər doqquz hissəli ümumi tarixdir. Uzun illər Abdullah Beyzaviyə aid olduğu (hətta ingiliscə onun adı ilə nəşr edilib)

hesab edilən bu əsər Quatremere tərəfindən müəyyən edilmişdir.

• *A Chinesse Chronicle by Abdullah of Beyza*, by S.Westan, Londra 1820.

**Həmdullah Qəzvini**: Hüləgülər dövrünün mötəbər tarixçilərindən biri *Həmdullah Mustovfi Qəzvini* olub, məşhur əsəri "*Tarixi-qozidə*"dir. B.Spulerin də qeyd etdiyi kimi, "başqa heç bir əsərdə rastlaşmadığımız məqamlar və fikirlər onun gözəl və axıcı üslubu ilə yazılmış bu əsərdə yer tapır". Əslində, Qəzvini Hüləgülər haqqında üç əsər müəllifidir. Onlardan ilki "*Tarixi-qozidə*" olub, Rəşidəddin "tarixi"nin xülasəsi hesab edilir. İkinci əsəri 75 min beytlik "*Zəfərnamə*"dir. Bir növ "şahnamə" janrında qələmə alınıb. 1334-ci ildə tamamlanan bu əsər Firdovsinin əsəri kimi "mütəqarib vəznində" qələmə alınıb. Birinci hissəsi 25 min beytdən ibarət olub, peyğəmbərdən Bağdadın işğalına qədərki dövrü əhatə edir. İkinci hissəsi 20 min beytlikdir. Burada Səffari, Samani, Qəznəvi, Qurlu, Deyləmi, Səlcuqlu, Xarəzmşahlar, İsmaililər, Salqurlu və Qarakitay dövlətlərinin tarixi öz əksini tapır. Üçüncü hissəsi 30 min beytdir ki, kitabın əsas hissəsini də bu mətn təşkil edir. Burada türklərlə moğolların qohumluğundan, Oğuz xaqandan, Çingizdən, onun oğlanlarından, dörd moğol ulusundan və Hüləgülərdən bəhs edilir. Üçüncü əsəri "*Nüzxətül-qulub*" adlanır. Bu əsər kosmoqrafiyaya aid girişdən, təbiət tarixindən, antropologiya və coğrafiyadan ibarət üç məqalədir (*makalat*).

• Hamdullah Mustofi Kazvinî, *Tarih-i Guzide*, E.Browne nşr, Londra 1910.

• Hamdullah Mustofi Kazvinî, *Tarix-i qozide*, Hüseyin Nevâî nşr, Tahran 1944.

• Xamdullax Qazvini, *Uslada serdets (Nuzxat al-qulub): Materialı po Azerbaydjanu*, Per. Bunyatova Z.M. – Petruşevskoqo İ.L., Baku 1983.



**Zeynəddin Həmdullah Qəzvini**: *Həmdullah Qəzvininin oğlu Zeynəddin Qəzvi*ni atasının "*Tarixi-qozidə*"sinə bir zeyl yazmışdır. Bu zeyl Hüləgülər tarixinin 1335-1360-cı illərini əhatə edir.

• Zeyn ed-Din Qəzvinî, *Zeyd-e Tarixi qozide*, tərcümə V.Z. Piriyev, Bakı 1989.

**Əl-Qütbi əl-Əhəri:** Hüləgülər dövrünün sonu, Çobanlı və Cəlairli sülalələrinin ortaya çıxdığı dövrü işıqlandıran mühüm mənbə *Əbu Bəkr əl-Qütbi əl-Əhər*inin "*Tarixi-Şeyx Üveys*" əsəridir. Cəlairli hökmdarı Sultan Üveysə ithaf edilən əsər tam deyildir.

• Əbu Bəkr əl-Qutbi əl-Əhəri, *Tarihi Şeyh Uveys*, tərcümə V.Z.Piriyev, Bakı 1984.



# VIII. TEYMURLU, AĞQOYUNLU VƏ QARAQOYUNLU MƏNBƏLƏRİ

**Foma Metsopski**: Bu dövrdə qrabarca yazılmış mənbələrdən biri Foma Metsopskinin *(1374-1448)* "*Tarix*" əsəridir. Bu əsər Əmir Teymurun Azərbaycan, Anadolu və İran ərazilərinə səfərlərindən bəhs edir. Müəllif hadisələri qriqorian bir din adamı sifəti ilə şərh etdiyindən məsələyə öz dini görüşləri çərçivəsindən yanaşmışdır. Buna rəğmən, müəllif qaraqoyunlulara qarşı çox müsbət yanaşmışdır.

• Tovma Metsopetsi, *İstoriya Timur-Lanka i eqo premnikov*, (ermənicə), Paris 1860.

• Foma Metsopski, *Timur və onun xələflərinin tarixi*, Bakı 1957.

**Nizaməddin Şami**: Farsca yazılmış Teymurlu dövrü əsərlərin ilki Nizaməddin Şaminin "*Zəfərnamə*"sidir. Əsər Əmir Teymurun əmri ilə qələmə alınıb. Əsərdəki hadisələrin şərhi Teymurun vəfatından bir il əvvəl tamamlanır. Nizaməddin Şaminin bu əsəri mükəmməl bir Teymur tarixidir. Əmir Teymurun bütün səfərləri burada öz əksini



tapmışdır. Daha sonra Mirzə Şahruxun əmri ilə *Hafiz-i Əbru* bu əsərə bir zeyl qələmə almışdır. Bu zeyl (əlavə) Teymurun Anadoludan ayrılmasından onun ölümünə qədər olan dövrü əks etdirir.

• Nizameddin Şâmî, *Zafername*, Türkçe çvr. N.Lugal, Ank 1949.

• Hafız-i Ebru, *Zeyl-i Kitâb-i Zafername-i Şâmî*, Behram Kerimî nşr, Tahran 1328 hş.

**Şərafəddin Yəzdi:** Teymurlu dövrü mənbələri arasında başqa bir məşhur əsər Şərafəddin Yəzdinin "*Zəfərnamə*"-dir. Əsər Teymur dövrünü tam əhatə edib, ədəbi bir üslubda qələmə alınıb.

• Şerafeddin Yezdî, *Zafername*, Muhammed Abbas nşr, Tahran 1336 hş.

• Şerafeddin Yezdî, *Zafername*, Tam mətn və faksimilə nşr. A.Urumbayev, Taşkent 1972.

• Şərafəddin Əli Yəzdi, *Zəfərnamə (Azərbaycan tarixinə dair seçmələr)*, farscadan tərcümə V.Piriyev, Bakı 1996.

**Natanzi**: Teymurlu dövründə yazılmış ən yaxşı dünya tarixi *Müinəddin Natanzi*nin "*Müntəxəbat-tevarixi-Müini*" hesab edilir. Kitab Adəmdən 1413-cü ilə qədər olan hadisələri əhatə edir.

• *Muhtahab al-Tavarih-i muînî Mensub be Muînüddin Natanzî maruf be Anonim İskender*, haz. Jean Aubin, Tahran 1336 hş.

• John E.Woods, '*The Rise of Timurid Historiography*', JNES, 1987, N: 46.

**Fəzlullah əl-Musəvi**: "*Asahxut-tevarix*" adı ilə bilinən *Məhəmməd ibn Fəzlullah əl-Musəvi*nin "*Tarixi-Xayrat*" əsəri bir çox cəhətlərinə görə qiymətlidir. Əsərin əhəmiyyəti müəllifin Teymurlu dövründə maliyyəçi olmasından irəli gəlir.

• Muhammed b. Fazlullah el-Musevî, *Tarih-i Hayrât*, Mahmud Ferruh nşr, Meşhet 1339-1340 hş, c. I-III; İ. Aka, *Mirza Şahruh*, s. XIX-XX.

**Cəfər əl-Hüseyni**: Teymurlu dövrünün müəlliflərindən olan *Cəfər ibn Məhəmməd əl-Hüseyni* tərəfindən yazılan "*Tarixi-kəbir*" ilə "*Tarixi-Yəzd*" Orta Asiya, Azərbaycan, Anadolu tarixini əhatə edir.

• Əl-Hüseyni Cəfər ibn Məhəmməd, *Tarih-i Yezd*, İrecî Afşar nşr, Tahran 1338 hş.

**Tacəddin Yəzdi**: *Həsən ibn Şəhabəddin Hüseyn ibn Tacəddin Yəzdi*nin "*Cami ət-təvarixi Həsəni*" əsərləri Teymurlu dövrünün ən əhatəli mənbələrindən hesab olunur.

• Hasan b. Şihabüddin Hüseyin b. Tacüddin Yezdî, *Camiü't-Tevarih-i Hasanî*, Hüseyin Tabatabaî – İrecî Afşar nşr, Tahran 1337 hş.

• Bathold V.V., '*Timurlular tarihi hakkında menba tetkiki*', Almanca'dan çvr. Köymen M.A., Belleten, 1942, VI/21-22, s. 85-120.

**Hafiz-i Əbru**: Teymurlu dövrü mənbələrinin başında Şahruxun katibi (*bitikçi*) və Teymurlu dövrü müəlliflərindən Hafiz-i Əbrunun üç cildlik "*Mücməüt-təvarix*" əsəri yer alır. Əsər ümumi tarix olub, sonuncu cildi Elxanlı hökmdarı Olcaytu xandan Teymurun 1392-ci ildə gerçəkləşdirdiyi İran səfərinə qədər olan dövrü əhatə edir. Bu son cild "*Zeyli cami ət-təvarixi Raşidi*" adını daşıyır. Burada cəlairli və çobanlı əmirlərinin tarixi ilə yanaşı qaraqoyunlular haqqında da qiymətli məlumatlar verilmişdir. Müəllifin başqa bir əsəri "*Zübdət ət-təvarixi-Baysunqur*" hesab edilir. Burada Qara Yusifin fəaliyyətləri işıqlandırılıb. Bu əsərin bəzi hissələrinin itdiyi güman edildiyi vaxtlarda bu boşluğu *Əbdürrəzzaq Kəmaləddin ibn İshaq Səmərqəndi*nin "*Mətləüs-Sadeyn və məcmaül-Bəhreyn*" əsəri doldurmuşdu. Lakin Hafiz-i Əbrunun əsərinin tam nüsxəsinin tapılması, bu əsərin onun bir xülasəsi olduğunu ortaya çıxardı.

• Hafız-i Əbru, *Zübdət ət-təvarix*, Seyyid Kəmal Hac Seyyid Cəvadi nəşri, Tehran 1372 hş.



• Xafiz Abdu, *Zeyl-I Djami at-tavarix-I Raşidi*, Perevod s persdidskoqo, predislovanie, kommentariy, primeçaniya I ukazateli E.R.Talışxanov, Bakı 2007.

• Barthold V.V., *Hafız-i Ebrû* mad, İA.

**Mirxond və Xondəmir**: İslam tarixşünaslığında Mixond və onun nəvəsi Xondəmir (*Xandəmir*) böyük rol oynayırlar. *Məhəmməd ibn Xvandşah ibn Mahmud Mirxond (1498-ci ildə vəfat edib)* məşhur "*Rövzət əs-səfa fi sirətil-enbiya vəl-müluk vəl-xilafə*" əsərinin müəllifidir. Bu əsər yeddi cilddir. Müəllifin nəvəsi *Qiyasəddin ibn Hümaməddin Məhəmməd Xondəmirin (1535-ci ildə vəfat edib)* bizə qədər gəlib çatmış üç əsəri var. Bunlar arasında ən qiymətlisi "*Həbib əs-siyər fi əxbar əl-bəşər*" adlı 3 cildlik əsəridir.

• Mirhond, *Rövzetü's-Sefâ*, Rıza Kulu Han Hidayeti nşr, Tahran 1338-1330 hş.

• Khwandmir Giyas ad-Din Muhammad, *Habi us-Siyer*, Published by Muhammad Hussein Kashani, Aqa Mohammed Kazim, Bombay 1857, vol. I-III.

**Əbu Bəkr Tehrani:** Ağqoyunlu dövrünün ən məşhur əsəri *Əbu Bəkr Tehrani İsfahani*nin "*Kitabi-Diyarbəkriyyə*" əsəridir. Uzun Həsən və oğlu Sultan Xəlil adına yazılan bu əsər ağqoyunluların rəsmi tarixini təşkil edir. Bəzi tarixçilər bu əsəri Qaraqoyunlu, Ağqoyunlu və Cığatayların tarixi kimi qəbul edirlər. Kitab iki hissədən ibarətdir. Kitabda ağqoyunluların ilk hökmdarları haqqında çox az məlumat verilsə də, ağqoyunluların bütün dövrü əks olunmuşdur.

• Ebu Bekr-i Tehranî, *Kitab-ı Diyarbekiriya*, (Akkoyunlu, Karakoyunlu ve Çağatay Dönemleri Tarihi), çvr. M.Demirdağ, İstanbul 1999.

• Abu Bakr-i Tihrani, *Kitab-i Diyarbakıriyya, Ak-koyunlular Tarihi*, Yay. N.Lugal – F.Sumer, Ankara 1962-1964, I-II.

• Əbubəkr Tehrani, *Kitabi-Diyarbəkiriyyə*, tərcümə, qeydlər R.Şükürova, Bakı 1998.

• Ebu Bekr-i Tihranî, *Kitab-ı Diyarbekriyye*, çvr. M. Öztürk, Ank. 2001.

**Ruzbixan Xunci**: Ağqoyunlu dövrünün bir başqa əsəri *"Tarixi-aləmi-arayi Əmini"* olub, Sultan Yaqubun tarixçisi *Fəzlullah ibn Ruzbixan Xunci İsfahani* tərəfindən qələmə alınmışdır. Əsər, 1478-1496-cı illər arasındakı Ağqoyunlu tarixini əhatə edir. Xunci Səfəvilərin hakimiyyətə gəlməsi ilə Orta Asiyaya qaçmış və Şeybani xanlarının sarayında fəaliyyət göstərmişdir. Həmin illərdə Xunci Şeybani xanlarının tarixini şərh edən bir sıra əsərlər qələmə alıb.

- Fazlullah b. Ruzbihan Huncî İsfehanî, *Tarih-i Alem Arayi Eminî*, çvr. V.Minorskiy, *Persian in A.D. 1478-1496*, London 1957.

**Dəvvani**: Ağqoyunlu dövrünün başqa bir müəllifi *Cəlaləddin Dəvvani* olub. Onun farsca qələmə aldığı *"Ərznamə"* Ağqoyunlu dövlətinin hərbi, sosial həyatı və idarəçiliyi haqqında məlumat verən qiymətli bir əsərdir.

- Celaleddin Davvanî, *Arzname*, İ.Afşar, Tahran 1335 hş.
- Minorskiy V., '*A Civil and Military Review in Fars in 881/1476*', BSOAS, X/1, 1938, s. 141-178.

**Qanunnamə**: Bu dövrün rəsmi vəsiqələri arasında Uzun Həsən bəyə aid "*qanunnamə*"lər çox mühümdür. *Uzun Həsən bəy*in *"Qanunnamə"*si Osmanlı hüquq sisteminin formalaşmasında da mühüm təsirə malikdir.

- Barkan Ö.L., "*Osmanlı Devrinde Akkoyunlu Hükümdarı Uzun Hasan Beye Ait Kanunlar*", Tarih Vesikaları, c. I, Sayı: 2, 1941, s. 91-106, Sayı: 3, 1941, s. 184-197.





# IX. SƏFƏVİ DÖVRÜ MƏNBƏLƏRİ

**İbn Bəzzaz:** Səfəvi dövrünün ən mühüm əsəri *"Şeyx Səfi təzkirəsi"* adı ilə məşhur olan *"Səfvətüs-səfa"*dır. Bu əsər XIV əsr müəllifi *İbn Bəzzaz Təvəkkül* tərəfindən fars dilində yazılmış və Səfəvi təriqətinin yaranması haqqında qiymətli mənbədir. Əsər yeni əlavələrlə XVI əsrdə türk dilinə tərcümə edilmişdir.

*Şeyx Səfi təzkirəsi* ("Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi), Hazırlayan Mövsüm Nağısoy, Bakı 2006.

**Əmini:** Səfəvi dövründə yazılmış ilk tarix əsəri *Sədrəddin Sultan İbrahim əl-Əmini*nin hicri 918-ci ilə qədər olan hadisələri əhatə edən və I İsmayılın səfərlərindən bəhs edən *"Fütuhati-şahi"* kitabıdır. Uzun illər bu əsərin kimə aid olduğu mübahisə mövzusu olmuşdur. Alman şərqşünası B.A.Dorn bu əsərin heratlı müəllif Kəmaləddin Binai tərəfindən yazıldığını iddia etmişdir. Amma tacik əsilli tarixçi *A.M.Mirzoyev "Şahənşahnamə"* ilə *"Fütuhati-şahi"* əsərlərini müqayisə edərək hər iki əsərin eyni müəllifə aid olduğunu

təsdiq etdi. Onun araşdırmaları nəticəsində "Şahənşahnamə"nin "Fütuhati-şahi"nin davamı olduğu ortaya çıxdı. Dövrün müəlliflərinin bu əsərdən "*Fütuhati-Əmini*" şəklində bəhs etməsi kitabın Əmini tərəfindən yazıldığını isbat edir. Heratın məşhur alimlərindən olan Əmini şeybanilərin Xorasanı ələ keçirməsindən sonra təqiblərə məruz qalmış, I İsmayılın Xorasanı fəth etməsi ilə Səfəvi sarayının rəğbətini qazanaraq 1521-ci ildə Təbrizə gəlmiş və Səfəvi şahının "tarixçisi" elan edilmişdir. O, *"Şahın zəfərləri"* adlı kitabını da Təbrizdə qələmə almışdır. Əsər iki dəftərdən ibarətdir. Birinci dəftər beş bab, ikinci dəftər isə kiçik başlıqlara ayrılan bütöv fəsildən ibarətdir. Müəllif əsəri ədəbi üslubda qələmə almış, Qurandan ayələr, hədis və beytlərlə bəzəmişdir. Əsər, Şah İsmayılın 1514-cü ilə qədərki səfərlərini əhatə edir. Bu əsərin davamı kimi "Şahənşahnamə" əsərini yazmışdır.

- Mirzoev A.M., '*Eşe raz ob avtore 'Şaxanşax-name*" Problemı vostokovedeniya, 1960, N: 4, s. 112-121.
- Əfəndiyev O., *Azərbaycan Səfəvilər Dövləti*, Bakı 1993, s. 7.

**Tarixi-Şah İsmayıl**: Bu dövrün başqa bir əsəri müəllifi bilinməyən "*Tarixi-Şah İsmaili-Səfəvi*" olub, mövzuları yaxşı işıqlandırması ilə Əmininin kitabından daha zəngindir. Əsərin indiyə qədər iki nüsxəsi tapılıb. Birinci nüsxə Londonda, ikincisi isə Kembricdə saxlanılır. Əsər 1548-ci ildə tamamlanmışdır. Bəzi araşdırmaçılara görə, əsərin müəllifi *Bican* adlı türk alimi olmuşdur. Əsərin başqa bir cəhəti, müəllifin Şah İsmayılın soyunu yeddinci şiə imamı Musa Kazımdan başlamasıdır.

- Rieu Ch, *Supplement to the Catalogue of Persian Manuscripts in the British Museum*, London 1895, s. 34.
- *A discriptive Catalogue of the Oriental MSS belonging to the lete E.G.Brownw*, by E.G.Browne, Completed and edited... by R.A.Nikholson, Cambridge 1932, s. 147.

**Təzkireyi-Şah Təhmasib**: Müəllifi haqqında müxtəlif fikirlərin olduğu başqa bir əsər "*Təzkireyi-Şah Təhmasib*"dir.



Təzkirədə işıqlandırılan mövzular qeydlərdən, hekayələrdən və məmurların məlumatlarından ibarət olduğundan bəzi tarixçilər əsərin Şah Təhmasib tərəfindən yazıldığı fikrindədir. Bəziləri isə əsərin şahın Osmanlı elçisi ilə danışıqlarının protokolu olduğunu iddia edir. Əsərin iki əsas mövzusu var. Birincisi, "Şah Təhmasibin Rum elçisi ilə söhbəti", ikincisi isə beş fərqli şəxs haqqında (Üləmə Təkəli, Qazı Təkəli, İskəndər Paşa, Mirzə Əlqas və Sultan Bəyazid) hekayələri əhatə edir. Əsər sistemsiz qələmə alınıb. Tarixi hadisələr şahın yuxuları ilə birlikdə qeyd edilir. Birinci hissəsi 1524-1532-ci illəri əhatə edir. Əsərdə diqqəti çəkən əsas cəhət Şah İsmayılın vəfatından sonra yaşanan qızılbaş üsyanları, Səfəvi-Osmanlı münasibətləri və Şirvanşahlar haqqında fikirlərdir.

- *Şah Təhmasibin Təzkirəsi*, Fars dilindən tərcümə və müqəddimə Rəhimov Əbülfəz Haşim oğlunundur, Bakı: Azərnəşr, 1996.
- *Tezkire şaxa Tahmasiba I*, Rukopis Saltıkov-Şedrin B. Dorn Kataloğu N: 302.
- *Die Denkwurdigkeiten des Shah Tahmasp I von Persien*, Von P.Horn, ZDMG, Bd. 4, 1890.
- Tabatadze K.Q., "*Tiflisskaya rukopis 'Tezkire' şaxa Taxmasiba I'*, I Vost. Sb. I, Tbilisi 1960, s. 169-182.
- Petruşevskiy İ.P., *Oçerki po istorii feodalnıx otnoşeniy v Azerbaydjane i Armenii v XVI – naçale XIX vv*, L. 1949, s. 26-27.

**Əbdi bəy:** Ümumi tarix əsəri olan *Xacə Zeynalabidin Əli Əbdi bəy*in "*Təkmilat əl-əxbar*"ı dörd babdan ibarətdir. Əsərin dördüncü babı I İsmayıl ilə I Təhmasib dövrlərindən bəhs edir. Əsər 1570-ci ildə Ərdəbildə yazılmışdır. Əbdi bəy əsərini Şah Təhmasibin qızı Pərixan xanıma (1548-1578) ithaf etmişdir. Bu əsərin əlyazmasının bir nüsxəsi Azərbaycan Əlyazmalar İnstitutunda qorunur.

- Xacə Zeynalabidin Əli Əbdi bəy, *Təkmilətül-əxbar (Səfəvi dövrü – Şah İsmayıl və Şah Təhmasib dövrlərinin tarixi)*, Fars

dilindən tərcümə, müqəddimə və şərhlər Əbülfəz Haşim oğlu Rəhimlinindir, Bakı: Elm nəşriyyatı, 1996.

**Xurşah ibn Qubad**: Səfəvi dövrünün ümumi tarix əsəri hesab edilən *Xurşah ibn Qubad əl-Hüseyni*nin *"Tarixi-elçiyi-Nizamşah"* əsərinin ancaq bəzi hissələrində qızılbaşlar tarixi əks olunub. Qızılbaşlar hissəsinin yazılmasında I Təhmasibin da təsiri olduğu bildirilir. Əsərin altıncı babında Qaraqoyunlu, Qğqoyunlu və Qızılbaşların ilk iki hökmdarından bəhs edilir. Burada Osmanlı sultanları haqqında da maraqlı fikirlərə yer verilib. Əsərdə Qızılbaş dövlətinin tarixi 1562-ci ilə qədər şərh edilib.

- *Tarih-i Elçi-i Nizamşah*, Ali Emirî Kitablığı N. F – 756.
- Shchefer C., *Chrestomatie Persane*, Paris 1885, t. II.

**Budaq Qəzvini**: Mövzu etibarı ilə qızılbaşlardan bəhs edən əsərlərindən biri də Budaq Qəzvininin *"Cəvahir əl-əxbar"* kitabıdır. Əsər Şah II İsmayılın taxta çıxmasının üçüncü günü, yəni 1576-cı ilin avqustun 24-də tamamlanır. Əsər ümumi İslam tarixi olub, İslamdan əvvəlki dövrdən II İsmayıla qədər olan tarixi əks etdirir. Dörd babdan ibarət olan kitabın sonuncu babında Qaraqoyunlu, Ağqoyunlu və Qızılbaşlar haqqında məlumatlar verilmişdir.

- *Cevahir el-ahbar*, Saltıkov Şedrin Dorn Kataloğu, N: 288.
- Petruşevskiy İ.A., *İranskie istoçniki po istorii Azerbaydjana XVI-XVIII vv*, SSİA, vıp. I, Baku 1949, s. 303.
- Petrov P.İ., *"Ob odnom redkom istoçniki po istorii Safevidov"*, Sovetskaya Vostokovedeniya, 1956, N. 1, s. 111.

**Sadiq bəy Əfşar**: XVI-XVII əsrlərdə yaşamış nəqqaş və şair Sadiq bəy Əfşar Səfəvi dövrünün ən parlaq simalarındandır. Onun miniatür sənətinin incəliklərinə dair qələmə aldığı əsəri son dərəcə əhəmiyyətlidir. Bu əsər *"Qanun-üs-süvər"*, yəni "təsvirlərin qanunu" adlanır. Bu müəllifin digər bir əsəri isə *"Məcməül-xəvas"* adlı təzkirədir.

- Sadiq-bəy Əfşar, *Qanun üs-süvər*, Giriş, farscadan tərcümə, qeyd və şərhlər Adil Qazıyev, Bakı: Elm nəşriyyatı, 1971.
- Sadiq bəy Əfşar, *Məcməül-xəvas*, Müqayisəli mətnin tərtibi və tərcümə Əkrəm Bağırov, Bakı: Elm, 2008.

**Həsən bəy Rumlu**: Səfəvi dövrünün ən qiymətli səsəri Həsən Bəy Rumlunun qələmindən çıxan *"Əhsən ət-təvarix"* adlı çoxcildlik əsərdir. Kitabın sonuncu cildi 1494-1578-ci illər arasını əhatə edən mükəmməl bir Qızılbaş tarixi hesab olunur.

- Həsən bəy Rumlu, *Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı)*, Fars dilindən tərcümə və şərhlər Oqtay Əfəndiyev, Namiq Musalı, Kastamonu: Uzanlar, 2017.
- Hasan-i Rumlu, *Ahsenü't-Tevarih*, ed. G.N.Seddon, Baroda 1931.
- Farzaliev Ş.F., *"Otnositelno tomov 'Axsan at-tavarix' Xasan-beka Rumlu"*, Uç. Zap. AGU im. S.M.Kirova, seriya Vostokoved, 1972, N: 1.

**İskəndər bəy Münşi:** Səfəvi dövrünün ən böyük tarixçisi *İskəndər bəy Münşi Türkmən* olub. Onun yazdığı əsər *"Tarixi-aləm-arayi-Abbasi"* adlanır. Bu əsərdə Səfəvi sülaləsinin mənşəyi və ilk dörd hökmdarının fəaliyyətləri işıqlandırılıb. Müəllif özü Şah I Abbas dövründə yaşadığından, onun ölümünə qədər olan dövrü əsərində əks etdirmişdir. Bu əsərin ölkəmizdə iki fərqli tərcüməsi mövcuddur.

- İskəndər bəy Münşi, *Tarix-i aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi)*, Farscadan tərcümənin, ön sözün, şərhlərin müəllifləri Oqtay Əfəndiyev və Namiq Musalıdır, Bakı: Təhsil, 2009.
- İskəndər bəy Münşi, *Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi)*, Fars dilindən çevirən: Şahin Fərzəliyev, Bakı: Şərq-Qərb nəşriyyatı, 2010, c. I-II.
- Raxmani A.A., *'Rarix-i alayi-i Abbasi' kak istoçnik po istorii Azerbaydjana*, Baku 1960.
- *Tarih-i âlem ârâ-yi Abbâsî*, İrəc Əfşar nşr, Tahran 1334-1335, I-II.

**Əhməd bəy Qumi:** Səfəvi dövrü tarixçiləri arasında üslubunun gözəlliyi ilə seçilən müəlliflərdən biri də Əhməd

bəy Qumi olub, əsərinin adı *"Xülasət ət-təvarix"* dir. Müəllifin bu əsərdən başqa *"Gülistani-hünər"* adlı ədəbi bir əsəri də var. 1590-cı ilə qədər Qızılbaş tarixini əhatə edən *"Xülasət ət-təvarix"* in sadəcə son hissəsi, yəni beşinci kitabı bizə qədər gəlib çatıb. Müəllif bu əsəri yazarkən istifadə etdiyi mənbələri də açıqlamışdır.

- Qazi Axmed, *Traktat o kalliqrafax i xudojnikax*, Vved, perev i komment Prof. B.N.Zaxodera, Moskva-Leninqrad 1947.
- *Hülaser et-Tevarih*, Tahran Mehdi Beyanî Kitabxanası; Erika Glassen, *Die fruhen Saawiden nach Gazi Ahmad Qumi*, Freiburg im Breisgau 1970.
- *Die Chronik Hulasat at-tawarih des Qazi Ahmad Qumi (Der Abschnitt uber Shah Abbas I)*, Herausg. und ubers. von Hans Müller, Wiesbaden.
- Şükürova R., *Xülasət ət-təvarix: Azərbaycan tarixinin qaynağı kimi*, Bakı 1994.
- Hinz W., *Quelle zur Geschte Irans im 16 Jahr hundert ZDMC*, Neue Folge, Bd. IV (Bd. 89), Ht. ¾, Leipzig 1935, ss. 315-328.
- Əfəndiyev O. – Ş.K.Əsgərova, "*Qazi Əhməd Qumi və onun 'Xülasət ət-tevarix' əsəri haqqında*", Azərb. SSR EA Xəbərləri, Tarix – fəlsəfə – hüquq seriyası, 1976, N: 3.

**Natanzi**: *Mahmud ibn Hidayətullah Natanzi*nin "*Nakavat əl-asar fi zikr əl*-əxyar" əsəri iki cilddən ibarət olub, ilk kitab 1576-1587-ci illəri, ikinci kitab isə Şah Abbasın hakimiyyətinin ilk on illik dövrünü əhatə edir. Burada, II İsmayıldan sonrakı dövr haqqında, xüsusilə də Şah Abbasın pul islahatları haqqında verilən məlumatlar çox mühümdür.

- *Nakavat el-Asar fi-Zikt el-Ahyar*, A.Aşrakî nşr, Tahran 1350.

**Tarixi-qızılbaşan**: Səfəvi dövrü tarixinin öyrənilməsində 1982-ci ildə Tehran Millət Kitabxanasından tapılıb ortaya çıxarılan anonim "*Tarixi-qızılbaşan*" əsərini xüsusilə qeyd etmək lazımdır. Əsər hicri 1013-cü ildə (1604/5)



**Məhəmməd Rəşid** tərəfindən istinsah edilib. Bu əsər qızılbaşların etnik tarixinin öyrənilməsində son dərəcə mühümdür. Burada qızılbaş tayfaları sağ və sol qol olmaqla iki yerə ayrılır. Bu da qızılbaşların ənənəvi türk dövlət təşkilatına uyğun formalaşdığını göstərir.

- *Kızılbaşlar Tarixi (Tarih-i Kızılbaşan )*, ter., ve notlar T. Gündüz, İstanbul 2023.

**Fəzli İsfahani**: Fəzli İsfahaninin *"Əfzəl ət-təvarix"* əsəri də qiymətli bir Səfəvi tarixidir. Gəncə və Qarabağda yaşadığı məlum olan müəllif, 1587-ci ilə qədər olan hadisələrin tarixini yazıb. Bu əsərin başqa bir maraqlı xüsusiyyəti, ilk Səfəvi qanunnaməsinin I Təhmasib dövründə hazırlandığı haqqında verdiyi məlumatdır.

- Onullahi S.M., "*Efzəl-ət-təvarix əsəri Azərbaycan tarixinin mənbəyi kimi*", Azərb. SSR EA Xəbərləri, Tarix-fəlsəfə-hüquq seriyarı, 1978, No: 2, s. 39-45.

**Məcdi**: Səfəvi dövrünün ədəbi əsərləri arasında Məcdi təxəllüsü ilə tanınan *Məcdəddin Məhəmməd ibn Əbu Talib əl-Hüseyni*nin "*Zinət əl-məcalis*" əsəri ilk sırada yer alır. Əsərin osmanlıların Təbrizi ələ keçirdiyi tarixdə (1595) qələmə alındığı ortaya çıxır. Burada osmanlıların Təbriz və Azərbaycandakı fəaliyyətləri geniş işıqlandırılmışdır.

- Mecdeddin Muhammed b. Ebu Talib el-Hüseynî, *Zinetü'l-Mecalis*, Tahran 1309.

**Füməni**: *Əbdülfəttah Füməni*nin "*Tarixi-Gilan*" əsəri çox qiymətlidir. Gilan Səfəvi təriqətinin formalaşmasında böyük rol oynamışdır. Bu əsər 1517-1629-cu illər arası Gilan tarixini əhatə edir. Füməni bu əsəri 1629-cu ildə Gilan hakimi Adilşah adı ilə məşhur olan Qalincar Sultana ithaf etmişdir.

- Abd-al-Fattah Fumeni, *İstoriya Qilana (Tarix-i Qilan)*, Per. İ.P.Petruşevskoqo, Moskva 1951.

**Molla Kamal**: Səfəvi dövrü müəlliflərindən *Cəlaləddin Məhəmməd Münəccim Yəzdi ibn Kamal* olub, əsərinin adı *"Zübdət ət-təvarix"*dir. Əsərin 1649-1652-ci illər arasında yazıldığı məlumdur. Müəllifin Şah Səfi və II Abbas

dövrlərində Səfəvi sarayında fəaliyyət göstərməsi onun verdiyi məlumatların önəmli olduğuna işarədir.

• *Do ketab-e nefis ez medareke evveliye*, *Tarih-i Sefeviyan*, *Hülaset et-Tevarih*, *Tarih-i Molla Kemal*, Erak 1334.

**Məhəmməd Tahir Qəzvini**: I Abbas hakimiyyətindən sonra Səfəvi tarixinin öyrənilməsində Qəzvinli Məhəmməd Tahir Vahidin "*Tarixi Tahir Vahidi*" əsəri qiymətli mənbədir. Bu əsər "*Tarixi Şahi-Abbasi sani*" və ya "*Abbasnamə*"də adlandırılır. Müəllif, II Abbas (1642-1667) və Şah Süleyman (1667-1694) sarayında yaşamışdır. Onun *Məhəmməd Yusif* adında tarixçi bir qardaşının olduğu da qeyd edilir.

• Məhəmməd Tahir Vahid, *Tarix-i şah-i Abbas-i sani*, Sankt-Peterburq Şərqşünaslıq İnstitutunun əlyazmaları kitabxanası, Dorn Kataloqu, No: 303/2.

**Şeyx Hüseyn ibn Şeyx Abdal Zahidi:** Səfəvi dövrünün mənbələri arasında "*Silsilət-ün-nəsəbi Səfəviyyə*" adlı əsər çox qiymətlidir. Əsər Səfəvi təriqətinin banisi Şeyx Səfiəddin Ərdəbilidən (1254-1334) Şah Süleymana qədər Səfəvilər sülaləsi haqqında məlumatlar verir. Kitabın müəllifi Şeyx Hüseyn ibn Şeyx Abdal Zahidi, Şah Süleyman dövrünün tanınmış şeyxlərindən hesab edilir. Zahidinin, Səfəvi şeyxi Şeyx Səfiəddinin müəllimi Şeyx Zahid Gilaninin nəslindən olması Səfəvilərin Şeyx Zahidlə əlaqələrini işıqlandırmasına səbəb olmuşdur.

• Bayramlı Zabil, *Silsilətün-nəsəbi Səfəviyyə əsəri Azərbaycan tarixinin mənbəyi kimi*, Bakı: Avropa nəşriyyatı, 2019.

**Məhəmməd Yusif**: Vahidin qardaşı Məhəmməd Yusifin "*Holde berin*" adlı əsəri də bu dövrün mənbələri siyahısındadır. O, Məşhəd dəftərxanasının münşisi və Topxana kitabxanasının müdiri olmuşdur. Şair kimi də tanınan Yusif "Valeh" təxəllüsü ilə qəzəllər yazmışdır. Onun əsərinin ən mühüm xüsusiyyəti əyalətlərin idarəçiliyi haqqında verdiyi məlumatlardır.

• İskender bey Torkman ve Muhammed Yusuf Müverreh, *Zeyli tarih-i alem aray-i Abbasî*, Tahran 1317 hş, içinde.



• Petruşevskiy İ.P., İranskie istoçniki po istorii Azerbaydjana, SSİA, Vıp. 1, Baku 1949, s. 306.

**Xocəki İsfahani**: I Səfi dövrünün son on ilini əhatə edən Xocəki İsfahaninin "*Xülasət əs-siyər*" əsəri xüsusilə Səfəvi-Osmanlı münasibətlərinin öyrənilməsində mühüm mənbədir.

• Muxammad Me'sum b. Xocekî İsfahani, *Xülasetü's-Siyer*, Saltıkov-Şedrin Sankt-Peterburq dövlət əlyazmaları kitabxanası, Dorn kataloqu, No: 303.

• Xocəki İsfahani, *Xüləsətüs-siyər*, Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun əlyazmaları arxivi, İnv. No: 4876 (2).

**Bican**: Təbriz bəylərbəyi Rüstəm xana təqdim edilmiş "*Kitabi-cülusi Şah Səfi*" kiçik həcmli əsər, müəllifi Bicandır. Səfəvi dövlətinin iqtisadi və sosial tarixinin öyrənilməsi baxımından mühüm bir risalədir.

• *Tarih-i Bicen ya ketebe coluse şah Sefi*, British Museumda yer alır. Onullahi S.M., *XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi*, Bakı 1982, s. 18, 219, n. 79.

**Mirzə Rəfi**: Səfəvilərin son dövr mənbələri arasında Mirzə Rəfinin "*Dəstur əl-mülük*" əsəri yer alır. Dövlət təşkilatı haqqında yazılmış ən qiymətli mənbədir.

• Məhəmməd Rəfi Ənsari, *Dəsturül-müluk (Hökmdarlar üçün nizamnamə)*, Ruscadan çevirən Mahal Qacar, Bakı: Mütərcim, 2015.

**Mirzə Səmia**: Səfəvilər və Əfqan şahları dövrünün dövlət təşkilatını əhatə edən "*Təzkirətül-müluk*" adlı əsərin müəllifidir. Bu əsərin ilk tədqiqatçısı məşhur türkoloq *Minorski* olub. Azərbaycanlı tədqiqatçı *Zülfiyyə Vəliyeva* bu əsər əsasında Səfəvi dövlət təşkilat sistemini araşdırmışdır.

• *Tezkiret el-müluk*, be kuşeş-e Muhammed Debirseyaqi, Tahran 1332 hş.

• Veliyeva Zülfiye, *Safevi Devleti Teşkilatı (Tezkiretül-müluk`e Göre)*, Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü Doktora Tezi, Ankara 2007.



# X. ƏFŞAR-QACAR DÖVRÜ MƏNBƏLƏRİ

**Mirzə Məhəmməd Mehdi**: Əfşar dövrünün az sayda tarixçilərinin önündə *Mirzə Məhəmməd ibn Məhəmməd Mehdi xan Əsədabadi* gəlir. Mehdi xanın yazdığı "*Tarixi-cihan-guşayi-Nadir*" əsəri Nadir şah Əfşarın tarixi haqqındadır. Əsərdə səfəvilərin axırıncı hökmdarlarından Hüseyn şahdan, daha sonra Qızılbaş ölkəsində baş verən qanlı hadisələrdən, Nadir şahın fəaliyyətlərindən, Adil və İbrahim şahlardan bəhs edilir. Bu əsər 1752-ci ildə osmanlıcaya Mehmed Paşa ibn Yaqub Paşa tərəfindən tərcümə edilib. Mehdi xan bu əsərdən başqa *"İnşa"* və cığatayca-farsca lüğət olan "*Senqlax*"ı yazmışdır. Bu sonuncu əsər türk dilinin öyrənilməsi üçün çox qiymətlidir.

- Mirza Muhammed Mehdi-han Estarabadî, *Tarih-i Nadiri*, Tahran 1262/1846.
- Mirza Mehdi-han Astarabadskiy, *İstoriya Nadir-şaxa*, per. Romaskeviç A.L., *Materialı po istiorii turmen i Turmneii*, MİTT, Moskva 1938, t. II.



- Mirza Muhammed Mehdi-han Estarabadî, *İnşâ*, Tebriz 1294.
- *Senglax, A Persian Guide to the Turkish Language bu Muhammad Mehdi Xan*, Facsimile Text with an Interduction and Indices by Sır Gerard Clauson, London 1960.

**Məhəmməd Kazım**: Əfşar dövrünün başqa bir tarixçisi Məhəmməd Kazım hesab edilir. Onun "*Tarixi aləm-arayi-Nadiri*" (*Tarixi-Nadir*) əsərinin gözəl əlyazması Rusiya Elmlər Akademiyası əlyazmalar fondunda saxlanılır. Əsər Nadir şah dövrünün tarixinin, bütovlükdə isə XVIII əsr tarixinin öyrənilməsində çox mühümdür.

- Muxammad Kazım, *Tarix-i alem ara-yi Nadiri*, Rusya Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun əlyazmalar kitabxanası (ruk. İVAN), No: D-430, t. II-III.

**Məhəmməd Sadiq Musəvi**: Zəndi sülaləsinin müvərrixi olan Məhəməd Sadiq Musəvinin yazdığı "*Tarixi-giti-güşa*" və ya "*Tarixi zəndnamə*" də bəhs edilən dövrün hadisələrinin öyrənilməsində çox mühümdür. Məhəmməd Sadiq bu əsərini 1794-cü ildə yazıya alıb. Əsər əfşarlardan sonra bölgədə hakimiyyət mübarizəsi aparan zəndilərin və bu sülalənin banisi Kərim xan Zəndin fəaliyyətlərindən bəhs edir. Burada Zəndi-Osmanlı münasibətlərinə də yer verilib.

- Məhəmməd Sadiq Musəvi, *Tarih-i giti guşay*, Nefisî S nşr, Tahran 1317 hş.

**Abbasqulu Marağayi:** Qacar dövrünün ilk mənbələri arasında Abbasqulu Marağayinin "*Əmsali-türkanə*" (*Türk ata sözləri*) əsəri gəlir. Türk dilində qələmə alınan bu əsər qacar tayfasının başçılarından Hüseynqulu xanın (1770-1779) əmri ilə yazılıb. Bu əsər qacarların türk kimliyinin bir parçası olduğunu ortaya qoyması cəhətdən çox mühümdür. Əsərdə 1149 ata sözü yer alır.

- Abbasqulu Marağai, *Emsal-i Türkanə*, Azərbaycan əlyazmaları fondu, No:B-6425, 31 varak; Abbasqulu Marağai, *Emsali-Türkanə (Türk atalar sözləri)*, haz: Resul oğlu B., Bakı 1996 (1375).

**Əbdürrəzzaq Dünbuli:** Qacar dövrünün ən məşhur tarixçisi *Əbdürrəzzaq bəy Nəcəfqulu xan Dünbuli* olmuşdur. Onun 1825/26-cı ildə yazdığı "*Məasiri-sultaniyyə*" adlı əsəri Qacar dövlətinin ilk iki hökmdarı Ağa Məhəmməd şah ilə Fətəli şahın tarixini əhatə edir.

• Abdurrezzak Bey Necefkulu Han Dumbuli, *Maasir-i sultaniye*, Tebriz 1241.

**Rzaqulu xan**: Qacar dövrü tarixçisi olan Rzaqulu xan *(1800-1870)* ata tərəfdən Qacar sarayı ilə yaxın idi. Bu vasitə ilə Qacar sarayı ilə əlaqəsi olan müəllif "*Fihrist əl-təvarix" (1851)*, "*Əcməl əl-təvarix*" və Mirxondun "*Rövzət əs-səfa*" əsərinə zeyl olan "*Rövzət əl-səfai-nasiri" (1853)* əsərlərini yazmışdır. Bundan başqa, onun təsəvvüflə əlaqədar "*Riyazül-arifin*", "*Məcmua əl-füsəxa*" adlı divanı və "*Fərhəngi-əncümənarayi-nasiri*" adlı lüğəti mövcuddur.

• Rızakulu Han, *Fihrist el-Tevarih*, Tebriz 1851 (taşbaskı).
• Rızakulu Han, *Ecmel el-Tevarih*, Tebriz 1283.
• Rızakulu Han, *Ravzat el-safâ-i nasirî*, Tahran 1270, c. I-III.
• Rızakulu Han, *Riyaz el-arifin*, Tahran 1305.
• Rızakulu Han, *Ferheng-i encümenara-yi nasiri*, Tahran 1294.

**Sipəhri**: Bu dövrün başqa bir müəllifi *Mirzə Məhəmməd Tağı Kaşani Sipəhri*nin 14 cildlik "*Nəsih əl-təvarix*" əsəri çox qiymətlidir. Kitabın beşinci cildi Qacar dövrünü əhatə edir. Burada 1851-ci ilə qədər qacarların tarixi yer alır. Əsərin bir başqa maraqlı cəhəti babilik hərəkatı haqqında məlumatın da verilməsidir.





# XI. ORTA ASİYA MƏNBƏLƏRİ

**Vasifi**: Tam adı *Zeynəddin Mahmud bin Əbdülcəlil Vasifi* olub, qızılbaş hərəkatından sonra Mavəraünnəhrə qaçıb, Şeybanilərə sığınmış bir alimdir. *"Bədiyu`l-Vəkayi"* adlı əsərini *1517-1532*-ci illər arasında hazılamışdır. Bu əsər coğrafi olaraq Xorasan, Orta Asiya, Azərbaycan və Əfqanıstan ərazisini əhatə edir. Əsər ümumilikdə Teymurlu, Şeybani və Səfəvi dövlətlərinin tarixini əks etdirir.

• Zeynəddin Mahmud Vasifi, *Bədayiu`l-vəkayi*, Hazırlayan Aleksandır Bolderof, Tehran: İntişara-i Bünyad-i Fərhəndi-İran, 1349.

**Heydər Mirzə Duğlat**: Şeybanilərin başlanğıcından 1546-cı ilə qədər hadisələri əhatə edən mükəmməl bir tarixi mənbədir. İki hissədən ibarət olan bu əsərin birinci hissəsi 1347-1544-cü illər arasını, ikinci hissəsi isə 1544-1547-ci illər arasını əhatə edir. Əsər şərqdə, xüsusilə Şərqi Türküstan və Monqolustanda baş verən hadisələri də əks etdirir.

• Mirza Heydər Duğlat, *Tarihi-Reşidi*, Abbas kuli Ğaffar Ferd nşr, Tehran: İntişarat-ı Miras-ı Məktub, 1383.

• Mirza Haydar Duğlat, *Tarih-i Reşidi (Geride Bırakıklarımızın Hikayesi)*, Türkçe Çevirisi Osman Karatay, İstanbul: Selenge Yay, 2006.

**Xoca Bəhaəddin Buxari**: 1516-1597-ci illər arasında yaşamış Şeybani alimidir. Tam adı *Xoca Bahaəddin Həsən Nisari Buxari* olan bu müəllifin qələmə aldığı əsər *"Müzəkkiri-əxbar"* adlanır. Əsərdə XI əsrdə Mavəraünnəhr, Azərbaycan, Anadolu və Hindistanda yaşamış 275 şair və ədib haqqında məlumat verilir. Əsərdə bütün Şeybani xanlarının həyatı, elmi və siyasi fəaliyyətləri də öz əksini tapıb. Bundan başqa, əsərdə Babur hökmdarları haqqında da maraqlı məlumatlar əks olunub.

• Xoca Bahaəddin Həsən Nisari Buxari, *Müzəkkir-iəxbar*, təshih Seyyid Məhəmməd Fəzlullah, Heydərabad: Camiatü-Osmani, 1929.

**Hafiz Taniş**: Şeybani dövrünün səlnamə tərzində yazılmış əsəri *"Şərəfnamə-yi Şahi"* olub, müəllifi *Hafiz Taniş ibn Mir Məhəmməd əl-Buxari*dir. O, 1589-cu ilə qədər olan hadisələri şərh edir. Bu əsər sosial və mədəni hadisələri də əhatə edən məlumatlarla zəngindir.

• Xafiz-i Tanış Buxari, *Şaraf nama-yi Şaxi*, Faksimile rukopisi D 88, perevod s persidskoqo, vvedenie, primeçaniya i ukazateli M.A.Salaxedinovoy, Moskva: Nauk, 1983.

**Məhəmməd Yar b. Ərəb Kutqan**: Əbülxeyd xandan Əbdülmömin xana qədər olan Şeybani tarixini əhatə edən *"Musahhiru`l-bilad"* əsərinin müəllifidir. Bu əsər *"Tarixi-Şeybani"* adı ilə də bilinir. Əsər Həştərxan xanı Baki Məhəmməd xan dövründə *(1605-1610)* qələmə alınıb. Şeybanilər haqqında digər mənbələrdə yer almayan çox sayda məlumat bu əsərdə mövcuddur.

• Məhəmməd Yar ibn Ərəb Kutqan, *Musahharu`l-bilad (Tarix-i şeybaniyan)*, Nadir Vəlali nəşri, Tehran: İntişarati-mirasi-məktub, 1385 hş.



**Əbülqazı Bahadır xan:** Məşhur *"Türk şəcərəsi"*nin müəllifi olub, eyni zamanda Özbək xanı olmuşdur. *"Əvsal-i şəcərəyi-tərakimə"* adlanan əsərində Əmir Teymur, Çingiz xan, hətta türklərin Oğuz xana qədər uzanan soyağacı əks olunub.

• Əbu`l-Gazi Bahadır Han, *Türk Şeceresi (Şecere-i Türk)*, Hazırlayan Rıza Nur, İstanbul: Matbaa-i Amire, 1925.

• Ebulgazi Bahadır Han, *Şevere-i Terakime (Türkmenlerin Soykütüğü)*, Hazırlayan Zuhal Kargı Ölmez, Ankara 1996.

**Mahmud b. Əmir Vali**: *"Bahru`l-əsrar fi mənakıbu`l-əxbar"* adlı əsərin müəllifidir. XVII əsrdə yazılmış ən iri həcmli İslam və türk tarixi hesab olunur. Müəllif bu əsəri on ilə *(1634-1641)* yazmışdır. Şeybanilərin Həştərxandakı qolunun hökmdarı Nadir Məhəmməd xana ithaf olunan əsər 7 cilddən ibarətdir.

• Mahmud ibn Əmir Vali Bəlxi, *Bahru`l-əsrar fi mənakıbu`l-əxbar*, Hakim Məhəmməd Səid, Şeyyid Muinül-həqq, Ənsar Zahid xan nəşri, Qaraçı: Historical Sosiet yay, 1984.

**Məhəmməd Yusif Münşi**: 1702-1707-ci illər arasında Bəlx hakimi olan *Məhəmməd Mükim xan*ın istəyi ilə qələmə alınmış *"Təzkirə-i Mükim xani"* əsərinin müəllifidir. Bir giriş, 3 hissədən ibarət əsər türk-moğol xanlarından, Şeybanilərdən, Həştərxan hakimlərindən və Buxara xanlarından bəhs edir.

• Məhəmməd Yusif Münşi, *Təzkirə-i Mükim Xani siyer tarix-i fərhəngi və ictimai Mavərünnəhr dər əhdi Şeybaniyan və İştərxaniyan*, Fərəştə Sərrafan nərşi, Tehran: İntişarati-Mirasi-Məktub, 1961.



# XII. MƏMLÜKLÜ MƏNBƏLƏRİ

**Baybars əl-Mənsuri**: Həm əsgər, həm də sultan naibi olan *Rüknəddin Baybars əl-Mənsuri 1247-1325*-ci illər arasında yaşamış və *"Zübdət əl-fikrə fi tarix əl-hicrə"* ilə *"ət-Töhvətül əl-mülukiyyə fil-dövlət ət-Türkiyyə"* əsərlərinin müəllifidir. İlk əsər *"Baybars tarixi"* adı ilə bilinir. 25 cild olan bu əsərin İslam tarixi ilə bağlı hissələrinin çoxu İbn əl-Əsirin əsərindən alınıb. 1260-cı illərdən sonrakı hadisələri isə özünün şahidliyi əsasında yazıb. Bu kitab bizə tam şəkildə çatmayıb. İkinci əsər isə Misir Məmlük dövləti tarixini əhatə edir.

- Baybars əl-Mənsuri, *Zübdət əl-fikrə fi tarix əl-hicrə*, Qahirə 1993.

**Yunini**: *Qütbəddin Musa ibn Məhəmməd əl-Yunini 1242-1326*-cı illər arasında yaşamış Məmlük tarixçisidir. *Sibt ibn-Cövzi*nin əsərinə *"Zeylü Mirat üz-zaman"* adlı bir əlavə yazmışdır. Dörd cild olan bu zeyl 1256-1311-ci illər arasındakı tarixi əhatə edir.



- Yunini Qütbəddin Musa, *Zeylü Mirat-üz-zaman*, Haydarabad 1954-1955.

**Əbül-Fida:** Əyyubi ailəsindən olan müəllif çoxsaylı əsərlərin müəllifidir. 1273-1331-ci illər arasında yaşayan müəllifin ən mühüm əsəri *"Takvimul-buldan"* dünya coğrafiyasıdır. Əsər iqlimlərə görə bölünmüş və ümumilikdə 28 iqlimdən (fəsil) ibarətdir. Burada türk bölgələrinin də coğrafi xüsusiyyətləri əks olunub.

- *Ebü`l-Fida Coğrafiyası (Takvimü`l-Buldan)*, Tercüme ve Yayına Hazırlayan Ramazan Şeşen, İstanbul: Yeditepe Yay, 2017.

**Zəhəbi**: Tam adı *Məhəmməd ibn Əhməd ibn Osman ibn Qaymaz* olub, *1273-1347*-ci illər arasında yaşamışdır. Tarix və hədis sahəsində çoxlu kitab qələmə alıb. Əsərlərinin sayı 235 olub, onlar arasında 1 qiraət, 10 hədis, 13 etiqad, 2 hüquq əsasları, 11 hüquq, 5 vəəz, 90 din, 148 tarix əsəri yer alır. Ən mühümü *"Tarix əl-İslam"* əsəri olub, 1300-cü ilə qədərki İslam tarixini əhatə edir. Müəllif daha sonra bu əsərinə bir də zeyl (əlavə) yazıb. Çoxcildlik əsər olan bu kitab müxtəlif alimlər tərəfindən hazırlanaraq cild-cild çap olunmuşdur.

- Məhəmməd ibn Əhməd ibn Osman ibn Qaymaz əz-Zəhəbi, *Tarix əl-İslam*, Ömər Əbdüssəlam əl-Tədmuri nəşri, Beyrut 1987.
- Məhəmməd ibn Əhməd ibn Osman ibn Qaymaz əz-Zəhəbi, *Siyərü alam əl-nübəla*, Şuayb əl-Arnavud, Hüseyn əl-Əsəd nəşri, Beyrut: əl-Risalə, 1981-1983, cild I-XXIV.
- Məhəmməd ibn Əhməd ibn Osman ibn Qaymaz əz-Zəhəbi, *Düvəl əl-İslam*, Fəhmi Məhəmməd Şəltut nəşri, Qahirə 1972-1974.

**Moğoltay ibn Qılınc**: Anadolu türkmənlərindən olan bu tarixçi *1291-1361*-ci illər arasında yaşayıb. Çox sayda əsərə imza atan Moğoltayın ən mühüm tarix əsəri *"İkmalü təhzib əl-kəmal"* olub, hədis tarixçiliyi haqqındadır. Onun

peyğəmbərin həyatına dair əsəri İslam tarixi baxımından çox əhəmiyyətlidir.

- Moğoltay ibn Qılınc, *əl-İşarə ila sırətil-Mustafa*, M.Nizaməddin əl-Fütəyyih nəşri, Dəməşq-Beyrut, 1416 h.

**İbn Kəsir:** 1300-1373-cü illər arasında yaşayan müəllif Məmlük dövrünün ən böyük tarixçisidir. Onun İbn əl-Əsir kimi çoxcildli İslam tarixi ümumilikdə 14 kitabdan ibarətdir. Əsər xronoloji olaraq illərə görə tərtib edilmişdir.

- İbn Kesir, *el-Bidaye ven-nihaye (Böyük İslam Tarihi)*, Çeviren Mehmet Keskin, İstanbul: Çağrı yayınları, 1994-1995, cilt I-XV.





# XIII. OSMANLI MƏNBƏLƏRİ

**Kərimməddin Ağsarayi**: Osmanlı mənbələrinin başında yer tutan *Kərimməddin Mahmud ibn Məhəmməd Ağsarayi*nin "*Müsamərət əl-əxbar və müsayərət əl-əxyar*" adlı farsca əsəri Səlcuqlu dövrü tarixinin öyrənilməsində çox qiymətlidir. Anadoluda Hüləgülər idarəçiliyində iqta dairəsinin rəsmi sənədləri haqqında qiymətli məlumatlar verib.

- Kerimeddin Aksarayi, *Müsameretü'l-Ahbar ve Müsayeretü'l-Ayar*, Haz.: O.Turan, Ankara 1943.

**Əflaki:** XIV əsrdə yaşayan *Şəmsəddin Əhməd Əflaki* Azərbaycan və Anadolunu gəzmiş *"Mənakıb əl-arifin"* adlı əsəri təsəvvüfə dair ən mühüm əsərdir. Əsərin içərisində müəllifə dair 4 türkcə qəzəl də yer alır.

- Eflaki, *Menakıbül-arifin*, Hazırlayan Tahsin Yazıcı, Ankara: TDK Yay, 1976-1980.

**Şükrullah:** *Şükrullah ibn Şihabəddin Əhməd ibn İmam Zeynəddin Zəki əl-Amasi* Osmanlı sultanları II Murad və Fateh Sultan Mehmed dövründə Anadoluda yaşamışdır.

Şükrullah Qaraqoyunlu hökmdarı Cahanşahın yanına elçi olaraq göndərilmiş və Qaraqoyunlu hökmdarının xəzinəsində saxlanılan *"Oğuz tarixi"* əsərini görmüşdür. Onun bu mənbəyə istinadən Osmanlıların Qayı boyundan gəldiyi haqqında məlumatı çox mühümdür. *"Bəhcətül-təvarix"* əsərini farsca qələmə alınıb.

- Şükrullah b. Şihabeddin Ahmed b. Zeyneddin Zeki, *Behcetü`t-tevarih (inceleme, metin, tercüme)*, Hazırlayan Hasan Almaz, Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü Doktora Tezi, Ankara 2004.
- Özcan Abdülkadir, "*Fatih Devri Tarih Yazıcılığı ve Literatürü*", Erciyes Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, sayı 14, Ocak 2004, s. 55-62.

**Oruc ibn Adil**: XV əsrdə yaşamış Osmanlı tarixçisidir. Mənsur üslubda Osmanlı tarixi yazmışdır. Onun əsəri ilk dövr Osmanlı tarixinin öyrənilməsi baxımından çox mühümdür.

- Oruc ibn Adil, *Tevarih al-i Osman*, Hazırlayan Nihal Atsız, İstanbul 1973.

**Aşıkpaşa-zadə**: 1332-ci ildə vəfat edən *Aşıkpaşa-zadə Əhməd ibn Yəhya* Babai hərəkatının başçısı Baba İlyasın nəslindədir. Anadoludakı dini inanclar haqqında əsərində qiymətli məlumatlar mövcuddur. 86 yaşında Osmanlı tarixi yazmışdır. Əsəri *"Aşıkpaşa-zadə tarixi"* adlanır.

- Derviş Ahmed Aşıki, *Tevarihi al-i Osman. Açıkpaşazade Tarihi*, Hazırlayan Ayşenur Kala, İstanbul: Kamer Yayınları, 2013.

**Nəşri**: *Mehmed Nəşri* Osmanlı sultanı II Bəyazid dövrü tarixçisidir. 1520-ci ildə Bursada vəfat edib. Əsəri *"Cihannüma"* adlanır. Bu əsər Osmanlı tarixi qədər Səlcuqlu tarixi baxımından da çox qiymətlidir.

- Mehmed Neşri, *Kitab-ı Cuhan-nüma (Neşri Tarihi)*, Yayınlayanlar Faik Reşit Unat, Mehmed A.Köymen, Ankara: TTK Yayınları, 1995.



**İdris Bitlisi:** Şeyx Ömər Yesirin təriqətinə mənsub bitlisli Hüsaməddin Əlinin nəvəsidir. Bir müddət Ağqoyunlu hökmdarı Yaqubun sarayında katiblik etmişdir. Daha sonra II Bəyazidin xidmətinə girən İdris Çaldıran döyüşündə də iştirak etmişdir. Ən mühüm əsəri *"Həşt-behişt"* olub, Osmanlı tarixinə aiddir. Əsər bir müqəddimə, 29 dastandan ibarətdir. 1506-cı ilə qədərki hadisələri farsca qələmə alıb. Əsər, İbn Kamal və Abdülbaki Sadi tərəfindən Osmanlı dövründə iki dəfə türkcəyə tərcümə edilmişdir. Ancaq bu əsərin tam elmi nəşri gerçəkləşməyib. Əsərin Süleymaniyyə, Nuriosmaniyyə və İstanbul Üniversiteti Kitabxanasında əlyazmaları mövcuddur.

- İdris-i Bidlisi, *Heşt-Bihişt*, İstanbul Süleymaniyyə Kitabxanası, Əsad Əfəndi, No: 2197.

**Piri Rəis**: *Əhməd ibn Əli əl-Qaramani* adı ilə tanınan Osmanlı dövrünün böyük dənizçisi *"Kitabi-Bəhriyyə"* əsərinin müəllifidir. Piri Rəis 1554-cü ildə Misirdə edam olunmuşdur. Məşhur *"Piri rəis xəritəsi"*nin də müəllifi odur.

- Piri Rəis, *Kitab-ı Bahriyye*, Ankara: TTK Yayınları, 2002.

**Xoca Sadəddin**: İsfahanlı Hasan Canın oğlu olub, Səfəvilərin hakimiyyətə gəlməsindən sonra Osmanlıya qaçmışdır. Sultan Səlim və Qanuni Süleyman dövrünün tanınmış alimlərindən idi. Bir çox əsərləri olub. Onlardan ən çox bilinən əsəri mükəmməl bir Osmanlı mənbəsi olan *"Tacüt-təvarix"*dir. Əsərində Osmanlı-Səfəvi, Osmanlı-Məmlük münasibətləri də geniş şərh olunub.

- Hoca Sa`deddin Muhammed b. Hasan Can, *Tacü`t-tvarih*, Hazırlayan: İsmet Parmaksızoğlu, Ankara: MEB Yayınları, 1979.

**Səlaniki**: *Mustafa Əfəndi Səlaniki "Səlanik tarixi"* kimi bilinən 1563-1599-cu illəri əhatə edən Osmanlı tarixi əsərinin müəllifidir. Öz dövrünün tarixini əhatə etdiyindən verdiyi məlumatlar Osmanlı qədər bölgə ölkələrinin tarixinin öyrənilməsi baxımından da çox mühümdür. O, Osmanlı dövlətində baş verən hadisələri ən incə detallarına qədər əks

etdirmişdir. Xüsusilə də saraydakı, İstanbulda baş vermiş siyasi-ictimai hadisələri təfərrüatlı şəkildə şərh edib. Bu əsərin Azərbaycanla bağlı hissələrini *Ziya Bünyadov* Bakıda çap etdirmişdir.

- Selaniki Mustafa Əfəndi, *Tarix-i Selaniki 1563-1600 (Azərbaycan və qonşu ölkələrin tarixinə dair iqtibaslar)*, Osmanlı türk dilindən tərcümə edən: Ziya Bünyadov, Bakı: Elm, 1999.
- Selaniki Mustafa Efendi, *Tarih-i Selaniki*, Hazırlayan: Mehmet İpşirli, İstanbul 1989, c. I-II.

**Solakzadə**: *Solakzadə Mehmed Həmdəmi Çələbi 1658*-ci ildə vəfat edib. Şair və tarixçi kimi tanınan müəllifin ən mühüm əsəri *"Solakzadə tarixi"*dir. Əsər əhatəli bir Osmanlı tarixidir. Müəllif əsərində Osmanlı tarixini Osman Qazidən başlayıb, IV Mehmed daxil olmaqla, sultanlara görə xronoloji ardıcıllıqla yazıb. Əsərdə Osmanlıların qonşu dövlətlərlə, Ağqoyunlu, Səfəvi, Məmlük və Avropa krallıqları ilə münasibətləri də geniş əhatə olunub.

- *Solakzade Tarihi*, Sadeleştiren Vahid Çabuk, Yeniden Yayına Hazırlayan H.Halit Atlı, İstanbul: İstanbul Büyükşehir Belediyesi Kültür Yayınları, 2016.

**Peçəvi**: Tam adı *İbrahim Əfəndi Peçəvi* olub, *1574*-cü ildə Macarıstanın Peş şəhərində anadan olub, *1650*-ci ildə vəfat edən mühüm bir Osmanlı tarixçisidir. *"Tarixi Peşəvi"* əsəri 1520-1640-cı illər Osmanlı tarixini əhatə edir. Bu əsər Türkiyədə *Nurat Uraz və Bəkir Sıtkı Baykal* tərəfindən iki fərqli nəşri gerçəekləşib.

- İbrahim Peçevi, *Peçevi Tarihi*, Hazırlayan: Murat Uraz, İstanbul: Neşriyat Yurdu, 1969, c. I-II.
- İbrahim Efendi Peçevi, *Peçevi Tarihi*, Hazırlayan: Bekir Sıtkı Baykal, Ankara: Kültür ve Turizm Yayınları, 1999, c. I-II.

**Katib Çələbi**: *Hacı xəlifə* olaraq da tanınan ən böyük Osmanlı alimlərdən idi. *1609-1657*-ci illər arasında yaşayan Katib Çələbi demək olar ki, elmin hər sahəsinə dair əsər



qələmə alıb. Əsərlərinin sayı 25-dir. Tarix sahəsində yazdığı əsərlər arasında *"Fəzləkəi-tarix"* ən məşhuru olub, dünyanın yaranışından 1641-ci ilə qədərki hadisələr əhatə edir. Əsərin orjinalı tapılmasa da, osmanlıcaya tərcümə olunmuş bir nüsxəsi mövcddur. Əsər klassik İslam tarixidir. Onun *"Cihannüma"* adlı coğrafiya əsəri olduqca qiymətlidir. Müəllifin *"Mizanül-hakk fi ihtiyaril-əhakk"* adlı risaləsi isə bir çox fərqli məsələlərdən bəhs etməsi baxımından dövrün sosial, dini, zehniyyətlə bağlı məsələlərini öyrənmək cəhətdən çox qiymətlidir.

- Katib Çelebi, *Cihannaema*, (Tıpkıbasım), İstanbul: Boyut Yayıncılık, 2008.
- Katip Çelebi, *Mizanü`l-Hakk fi İhtiyari`l-Ehakk*, Türkçeleştirenler: Orhan Şaik Gökyay, Süleyman Uludağ, İstanbul: Kalabcı Yay, 2008.
- *Cihannüma Katip Çelebi*, Hazırlayanlar: H.Koyunoğlu, A.Z.İzgöer, H.Yorulmaz ve b., İstanbul: İstanbul Büyükşehir Belediyesi Yayınları, 2010.

**Övliya Çələbi:** Nəinki Osmanlı, dünya coğrafiya elminin ən böyük isimlərindən olan Övliya Çələbi *1611-1672*-ci illər arasıda yaşamış və üç qitəni (Asiya, Avropa, Afrika) dolaşaraq, insanlıq tarixinin ən böyük əsəri olan *"Səyahatnamə"*ni ərsəyə gətirmişdir. 10 cildlik bu əsər tarix, coğrafiya, mədəniyyət, folklor, sosial demək olar ki, müəllifin gəzdiyi ölkələrin hər cəhətdən geniş təsvirindən ibarətdir. Bu əsərin iki cildində Övliya Çələbi Azərbaycanı da geniş təsvir etmişdir.

- *Günümüz Türkçesiyle Evliya Çelebi Seyahatnamesi*, Hazırlayanlar: S.A.Kahraman, Y.Dağlı, 3 cild, 6 kitab, 12 hissə, İstanbul: YKY, 2006.
- Evliya Çelebi, *Kniga puteşestviya*, Moskva 1983, vıp. I-III.

**Münəccimbaşı**: Osmanlı dövrünün ən böyük tarixçilərindən olan *Dədə Əhməd Münəccimbaşı* (*1702*-ci ildə vəfat edib) ərəbcə qələmə aldığı əsəri *"Cami əd-düvəl"* və ya *"Səhayif əl-əxbar"* adlanır. Bu əsərin ən mühüm cəhəti odur

ki, müəllif əsərinə hazırda mövcud olmayan bəzi əsərləri də əlavə etmişdir. Məsələn, onun əsərində anonim "*Tarix əl-Bab vəl Şirvan*" əsərinin mətni də yer alır. Müsəlman xanədanları haqqında olduqca qiymətli məlumatların yer aldığı bu əsər *1720-1730*-cu illərdə osmanlıcaya tərcümə edilmişdir. Bu əsərin ayrı-ayrı hissələri müxtəlif şəkillərdə çap olunub.

- Müneccimbaşı Ahmed Dede, *Müneccimbaşı Tarihi (Sahaif-ül-ahbar fi vekayi-ül-a`sar)*, Arapça aslından Türçeleştiren İsmail Erünsal, Tercüman 1001 Temel Eser, c. I-II.
- *Müneccimbaşı Şeyh Ahmed Dede Efendi`nin Camiü`d-düvel adlı Eserinden Karahanlılar ve Anadolu Selçükleri*, Hazırlayan: Nihal Atsız, İstanbul 1940.
- Müneccimbaşı Dede Efendi, *Camiü`d-düvel (Osmanlı kısmı)*, Hazırlayan: İsmail E.Erünsal, İstanbul 1975.
- Müneccimbaşı, *Camiü`d-düvel (Şirvan ve Derbend hissəsi)*, V.Minorsky, *A History of Shirvan and Darband in the 10th-11th Centuries*, Cambridg 1958.
- Müneccimbaşı, *Camiü`d-düvel (Şeddadiler hissəsi)*, V.Minorsky, *Studies in Caucasian History*, London 1953.

**Şərəfxan Bitlisi:** *1543-1603*-cü illərdə yaşayan Osmanlı müəlliflərindən olan Şərəfxan Bitlisinin 1597-ci ildə qələmə aldığı *"Şərəfnamə"* əsəri Osmanlı-Səfəvi münasibətləri qədər, Şərqi Anadolu və Azərbaycanın etnik-mədəni tarixini öyrənmək baxımından da çox mühüm əsərdir. Bu əsər "kürd xalqlarının tarixi" kimi qələmə verilsə də, müəllif əsərində kürdlərin Oğuz xandan gəldiklərini iddia edib.

- Şeref-han Bitlisi, *Şerefname*, Moskva 1976, c. I-II; ayrıca bax. Şəmsi M.İ., Şərəf xan Bitlisinin "Şərəfnamə" əsəri kürd xalqının tarixi mənbəyi kimi, Bakı 1972.





# XIV. TÜRK TARİXİ HAQQINDA ÜMUMİ TƏDQİQAT ƏSƏRLƏRİ


- Ahmetbeyoğlu A., *Avrupa Hun İmparatolruğu*, Ankara 2001.
- Ahmetbeyoğlu A., *Grek Seyyahı Priskos'a Göre (V. asır) Hunlar*, İstanbul 1995.
- Ali-zade A.A., *Sotsialno-ekonomiçeskaya i politiçeskaya istoriya Azerbaydjana (XIII-XIV vv.)*, Baku 1956.
- Alptekin C., *Büyük Selçuklular*, Doğuştan Günümüze Büyük İslam Tarihi, c. 7, İstanbul 1992.
- Alptekin C., *Dımaşk Atabegliği (Tog-Teginler)*, İstanbul 1985.
- Aqadjanov S.Q., *Oçerki istorii oquzov i turkmen Sredney Azii IX-XIII vv*, Aşqabad 1969.
- Aqadjanov S.Q., *Seldjukidı i Turkmeniya v XI-XII vv.*, Aşxabad 1973.
- Barthold V.V., *Moğol İstilasına Kadar Türkistan*, Türkçe çev.: H.D.Yıldız, Ankara 1990.
- Barthold W., *Turkestan down to the Mongol Invansion*, London 1928.

• Bartold V.V., *İstoriya izuçeniya Vostoka v Yevrope i Rossii*, Soçineniya IX, Moskva 1977.
• Bartold V.V., *Turkestan v epoxu monqolskoqo naşestviya*, Soçineniya I, Moskva 1963.
• Bedevî A., *Batı Düşüncesinin Oluşumunda İslam'ın Rolü*, Türkçesi: Tan M., İstanbul 2002.
• Bosworth C.Ed., *Doğuştan Günümüze İslam Devletleri: Devletler, Prenslikler, Hanedanlıklar ve Kronolojik Soykütüğü*, Türkçe tercüme: H. Canlı, İstanbul 2005.
• Bunyatov Z.M., *Qosudarstvo xorezmşaxov-anuşteqinidov 1097-1231 qq.*, İzbrannıe soçineniya v trex tomax, t. 3, Baku 1999.
• Bünyadov Z.M., *Azərbaycan Atabəyləri dövləti (1136-1225)*, Bakı 1985.
• Bünyadov Z.M., *Azərbaycan VII-IX əsrlərdə*, Bakı 1989.
• Cahen Cl., *Osmanlılardan Önce Anadolu*, Türkçe çev.: E.Üyepazarcı, İstanbul 2000.
• Clauson S.G., *An Etymological Dicrionary of Pre-Thirteenth Century Turkish*, Oxford 1972.
• Czegledy K., *Turan Kavimlerinin Göçü*, Türkçe çev.: G. Karaağaç, İstanbul 1999.
• Djafarov Yu., *Qunnı i Azerbaydjan*, Baku 1993.
• Eberhard W., *Çin Tarihi*, Ankara 1947.
• Eberhard W., *Çin'in Şimal Komşuları*, çev. N.Uluğtuğ, Ankara 1942.
• Esin E., *İslamiyetten Önce Türk Kültür Tarihi ve İslama Giriş, Türk Dünyası El Kitabı* (TDEK) ayrı baskı, İstanbul 1978.
• Golden P.B., *Türk Halkları Tarihine Giriş*, çev.: Karatay O., Ankara 2002.
• Grousset R., *Bozkır İmparatorluğu*, çev.: H.Ülken, İstanbul 1989.
• Gumilev L.N., *Hazar Çevresinde Bin Yıl*, çev.: Batur A., İstanbul 2000.
• Gumilev L.N., *Hunlar*, Türkçə çev.: A.Batur, İstanbul 2002.



• Gül M., *Doğu ve Güneydoğu Anadolu'da Moğol Hakimiyeti*, İstanbul 2005.
• Hasan İbrahim Hasan, *İslam Tarihi*, Çev.: İ.Yiğit, İstanbul 1986, c. I-V.
• Həsənov Z., *Çar Skifləri*, Bakı 2005.
• İnan Abdulkadi, *Makaleler ve İncelemeler*, Ankara 1987 (2.Bsk.), c. I-II.
• Kafesoğlu İ., *Harezmşahlar Devleti Tarihi*, Ankara 1956.
• Kafesoğlu İ., *Selçuklular Tarihi*, İstanbul 1972.
• Kafesoğlu İ., *Türk Milli Kültürü*, İstanbul 1987, 1993 (10-nşr).
• Kalkan M., *Kırgızlar ve Kazaklar*, İstanbul 2006.
• *Kitabi-Dədə Qorqud izahlı lüğəti*, Bakı 1999.
• *Kniqa Axmada ibn Fadlana o eqo puteşestvii na Volqu v 921-922 qq.*, per.: A.P.Kovalevskiy, Xarkov 1956.
• Kokovsov P.K., *Evreysko-xazarskaya perepiska v X veke*, Leninqrad 1932.
• Kononov A.N., *Rodoslovanya turkmen, Soçineniye Abu-l-qazi xana Xivinskoqo*, Moskva- Leninqrad 1958.
• Köprülü F., *Edebiyat Araştırmaları*, Ankara 2004, c. II.
• Köprülü F., *Osmanlı Devleti'nin Kuruluşu*, Ankara 1994 (5. Bsk.).
• Köprülü F., *Osmanlıların Etnik Kökeni*, İstanbul 1999 (2-ci nşr).
• Köprülü F., *Türk Edebiyatı Tarihi*, Ankara 2003 (5. bsk).
• Köprülü F., *Türk Edebiyatında İlk Mutasavvıflar*, Ankara 1984.
• Köprülü M.F., *Tarih Araştırmaları I*, Ankara 2006.
• Köymen M.A., *Alp Arslan ve Zamanı*, İstanbul 1972.
• Köymen M.A., *Büyük Selçuklu İmparatorluğu II*, Ankara 1954.
• Köymen M.A., *Büyük Selçuklu İmparatorluğu Tarihi III: Alp Arslan ve Zamanı*, Ankara 1992.
• Köymen M.A., *Büyük Selçuklu İmparatorluğu Tarihi, cilt I: Kuruluş Devri*, Ankara 1989.

- Köymen M.A., *Selçuklu Devri Türk Tarihi*, Ankara 1963.
- Köymen M.A., *Tuğrul Bey ve Zamanı*, İstanbul 1976.
- Kumekov B.E., *Qosudarstvo kimekov v IX-XI vv. (po arabskim istoçnikam)*, Alma-Ata 1972.
- Kurat A.N., *IV-XVIII. Yüzyıllatda Karadeniz Kuzeyindeki Türk Kavimleri ve Devletleri*, Ankara 1972.
- Kurat A.N., *Peçenek Tarihi*, İstanbul 1937.
- Mehmetov İ., *Türk Kafkası'nda Siyasi ve Etnik Yapı: "Eski Çağlardan Günümüze Azerbaycan Tarihi"*, Eklemeler, Notlandırma ve Düzenlemelerle Türkçe Yayına Hazırlayanlar: Ekber N.Necef, Şamil Necefov, İstanbul 2009.
- Merçil E.-Sevim A., *Selçuklu Devletleri Tarihi: Siyaset, Teşkilat ve Kültür*, Ankara 1995.
- Merçil E., *Büyük Selçuklu Devleti-Siyasi Tarih*, Ankara 2005.
- Merçil E., *Fars Atabegleri Salgurlular*, Ankara 1975, 1989 (2.bsk).
- Merçil E., *Gazneliler Devleti Tarihi*, Ankara 1989.
- Merçil E., *Kirman Selçukluları*, Ankara 1989.
- Merçil E., *Selçuklular'da Hükümdarlık Alâmetleri*, Ankara 2007.
- Məmmədov A., *Kəngərlər*, Bakı 1996.
- Ocak A., *Selçukluların Dinî Siyaseti (1040-1092)*, İstanbul 2002.
- Ocak A.Y., *Osmanlı Toplumunda Zındıklar ve Mülhidler (15-17. Yüzyıllar)*, İstanbul 1999 (2. nşr).
- Ocak A.Y., *Türk Sufiliyine Bakışlar*, İstanbul 2000.
- Ögel B., *Büyük Hun İmparatorluğu Tarihi*, Ankara 1981, c. I-II.
- Ögel B., *İslamiyetten Önce Türk Kültür Tarihi (Orta Asya Kaynak ve Buluntularına Göre)*, Ankara 1984 (2. nşr).
- Ögel B., *Türk Kültür Tarihi*, Ankara 1987.
- Ögel B., *Türk Kültürünün Gelişme Çağları*, Ankara 1971, 1979.
- Ögel B., *Türk Mitolojisi I*, Ankara 1990.





- Ögel B., *Türklerde Devlet Anlayışı (13. Yüzyılın Sonlarına Kadar)*, Ankara 1982.
- Özaydın A., *Muhammed Tapar Dönemi Büyük Selçuklu Tarihi*, Ankara 1995.
- Özaydın A., *Sultan Berkyaruk Devri Selçuklu Tarihi (485-498/1092-1104)*, İstanbul 2001.
- Piriyev V.Z., *Azərbaycan Hülakular dövlətinin tənəzzülü dövründə (1316-1360-cı illər)*, Bakı 1978.
- Qafurov B.Q., *Tadjiki: Drevneyşaya, drenyaya i srednevekovaya istoriya*, Moskva 1972.
- Qrekov B.-Yakubovskiy A., *Zolotaya Orda i ee padenie*, Moskva-Leninqrad 1950.
- Qəmbərli M., *Ərəb ədəbi-bədii qanaqlarında türk*, Bakı 1998.
- Radlov V.V., *Opıt slovarya tyurkskix nareçiy*, I-IV, SPB 1898-1911.
- Rasonyi L., *Tarihte Türklük*, Ankara 1988 (2-nşr).
- Roux J-P., *Altay Türklerinde Ölüm*, Türkçe çev. A. Kazancıgil, İstanbul 1999.
- Roux J-P., *Türklerin ve Moğolların Eski Dini*, Türkçesi A. Kazancıgil, İstanbul 1998 (2-ci nşr).
- Runcıman S., *The Fırst Grusade*, Cambridge University Press1992.
- Runciman S., *Haçlı Seferleri Tarihi*, Türkçe çev: Işıltan F, Ankara 1989, c. I-III.
- Sevim A.-Yücel Y., *Türkiye Tarihi: Fetih, Selçuklu ve Beylikler Dönemi*, Ankara 1989.
- Sevim A., *Suriya ve Filistin Selçukluları Tarihi*, Ankara 1989.
- Sevortyan E.V., *Etimologiçeskiy slovar tyurkskix yazıkov*, Moskva 1974, I.
- Spuler W., *İran Moğolları (1258-1360)*, Türkçe çev.: C. Köprülü, Ankara 1957, 1990 (3. bsk).
- Stebleva İ.V., *Razvitie Tyurkskih poetiçeskix from v XI veka*, Moskova 1971.

- Sümer F., *Oğuzlar (Türkmenler): Tarihleri – Boy Teşkilatı – Destanları*, ankara 1972 (2. bsk).
- Sümer F., *Selçuklular Devrinde Doğu Anadolu'da Türk Beylikleri*, Ankara 1990.
- Sümər F, *Oğuzlar: Tarixləri, Boy təşkilatları, Dastanları*, Tərcümə: Əskər R, Bakı 1992.
- Şeşen R., *İslam Coğrafiyacılarına Göre Türkler ve Türk Ülkeleri*, Ankara 2001.
- Şeşen R., *Müslümanlarda Tarih-Coğrafya Yazıcılığı*, İstanbul 1998.
- Şeşen R., *Salahaddin Devrinde Eyyubiler Devleti*, İstanbul 1987.
- Şükürov A., *Mifologiya, 6-cı kitab: Qədim Türk mifologiyası*, Bakı 1997.
- Şərifli M., *IX əsrin ikinci yarıcı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri*, Bakı 1978.
- Taşağıl A., *Çin Kaynaklarına Göre Eski Türk Boyları*, Ankara 2004.
- Taşağıl A., *GöküTürkler*, c. I-III, Ankara 1995-2004.
- Tekin T.-Ölmez M., *Türk Dilleri Giriş*, İstanbul 2003.
- Tekin T., *Hunların Dili*, Ankara 1993.
- Tekin T., *Orhoın Yazıtları*, İstanbul 2003.
- Tekin T., *Orhon Türkçesi Grameri*, İstanbul 2003.
- Tekin T., *XI Yüyılda Türk Şiiri*, Ankara 1989.
- Timurtaş K.F., *Eski Trükiye Türkçesi (XV. Yüzyıl Gramer-Metin-Sözlük)*, Ankara 2005 (3-cü bsk).
- Togan A.Z.V., *Umumi Türk Tarihine Giriş*, İstanbul 1940, 1970, 1981 (3. bsk).
- Tolstov S.P., *Po sladam drevnexorezmiyskoy tsivilizatsii*, Moskva 1948.
- Toqan Ə.Z.V., *Azərbaycan*, Azərbaycan dilində çapa hazırlayanlar: M.Ənsərli-T.Nəcəfli, Bakı 2007.
- Turan O., *Selçuklular Zamanında Türkiye, Siyasi Tarih, Alp Arslan'dan Osman Gazi'ye (1071-1318)*, İstanbul 1971, 1993 (3-cü nşr).
- Turan O., *Türk Cihan Hakimiyeti Mefkuresi*, İstanbul 1994, 2005 (5-ci nşr), I-II.
- Uzunçarşılı İ.H., *Anadolu Beylikleri ve Akkoyunlu, Karakoyunlu Devletleri*, Ankara 1988 (4. bsk).
- Uzunçarşılı İ.H., *Osmanlı Devlet Teşkilatına Medhal*, Ankara 1970.
- Uzunçarşılı İsmail Hakkı, *Osmanlı Tarihi*, Ankara: TTK Yayınları, 2011, c. I-VI.
- Vəlixanlı N., *IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında*, Bakı 1974.
- Watt M., *İslam Medeniyetinin Avropa'ya Tesiri*, çev. H.Yavuz, BİT, c. III.
- Wittfogel L.-Feng Chia-Seng, *History of Chinese Society Liao*, Philadelphia 1949.
- Xodjaniyazov T., *Denejnoye obraşeniya v qosudarstve Velikix Seldjukoc (po dannım numizmatiki)*, Aşqabad 1977.
- Xodjaniyazov T., *Kataloq monet Velikix Seldjukidov*, Aşqabad 1979.
- Zaborova M.A., *Vvedenie v istoriografiyu krestovıh pohpdpv, Latinskaya istoriografaiya XI-XIII vekov*, Moskva 1980.

ÇAPAR

Çapa yığılmağa verilib: 01.01.2024

Çapa imzalanma tarixi: 15.04.2024

Formatı: 140x205 1/8. Ofset çapı

Həcmi: 141

Sifariş: № 55